# SEVGİLİ PEYĞƏMBƏRİM

**(Səllallahu əleyhi və səlləm)**



Prof. Dr. Ramazan AYVALLI
Mərmərə Universiteti, İlahiyyət Fakultəsi

**1-ci nəşr**
Çatalçeşmə Küçəsi. No: 17
Cağaloğlu-İstanbul / TÜRKİYƏ
**Tel:** (+90 212) 512 95 11
**Faks:** (+90 212) 513 68 57
**E-mail:** turkdunyasi@ihlas.net.tr
**Nəşr:** İhlas Gazetecilik A.S.
**Tel:** (+90 212) 454 35 06
**Cildləmə:** Sağlam Mücəllid
**Tel:** (+90 212) 693 19 33
**2010**

MÜNDƏRİCAT

PEYĞƏMBƏRİMİZİN MÜBARƏK NURU....7
Mübarək "Nur"unun yaradılması....8
Nurunun pak alınlardan keçməsi....9
Babası Həzrəti Əbdülmüttəlib....11
Abdullahın qurban edilmək istənilməsi....14
Atası Həzrəti Abdullah....16
Mübarək Nurunun anasına keçməsi....17
Fil hadisəsi....18
Müjdə xəbərləri....19
Cahiliyyə dövrü....20
DÜNYAYA TƏŞRİFİ (ANADAN OLMASI)....25
Doğulduğu gecə görülənlər....31
Mövlud gecəsi....33
Süd anaya verilməsi....33
Mübarək sinəsinin yarılması....37
Möhtərəm ananın vəfatı....38
Babasının yanında....39
Nəcranlı Rahib....41
Babasının vəfatı....41
Əbu Talıbın himayəsində…....42
Rahib Bəhira....43
GƏNCLİYİ və EVLƏNMƏSİ....46
Ticarətlə məşğul olması....47
Həzrəti Xədicə ilə evlənməsi....51
Zeyd İbn Harisə....53
Kə'bə hakimliyi....56
Bİ'SƏTİ (PEYĞƏMBƏRLİYİ) və DƏ'VƏTİ....58
İlk vəhy....59
Də'vət əmrinin gəlməsi....61
İlk müsəlmanlar....62
Yaxın qohumları də'vət....67
Günəşi sağ əlimə versələr!....70
Əziyyət, işgəncə və zülm....73
Əshabi Kirama edilən işgəncələr....80
Huşunu itirənə qədər işgəncə.......84
Darul-Ərqam....85
İlk şəhid....86
Əbu Zərr əl-Ğıfarinin müsəlman olması....87
Kə'bədə açıq-aşkar Qur'ani Kərim oxunması....90
Tufeyl ibn Əmrin müsəlman olması....91
Bazarlarda də'vət....93
Müşriklərin Qur'ani Kərimə qulaq asması....96
Xalid ibn Səidin imanı....100
Mus'ab ibn Umeyrin müsəlman olması....101
HƏBƏŞİSTANA HİCRƏT....103
Həzrəti Həmzənin müsəlman olması....104

Həzrəti Ömərin  müsəlman olması ........................................................................ 106
Həbəşistana ikinci hicrət ................................................................................ 112
Hüzün illəri... Mühasirə .................................................................................. 118
Ayın ikiyə bölünməsi ...................................................................................... 123
Rəbbim sizə də hidayət nəsib etsin! ............................................................... 125
Hüzün ili ......................................................................................................... 126
Həzrəti Xədicə anamızın vəfatı ...................................................................... 129
Əli boynuna yapışdı ........................................................................................ 130
Taifliləri imana də’vəti ................................................................................... 131
“La ilahə illallah” deyərək xilas olun...” ....................................................... 134
ME’RAC ......................................................................................................... 138
HİCRƏT ......................................................................................................... 155
Birinci Əqəbə bey’əti və Mədinədə parıldayan günəş .................................... 156
İkinci Əqəbə bey’əti ....................................................................................... 159
Hicrət .............................................................................................................. 162
Sürəqa ibn Malik ............................................................................................ 169
Müjdə! Müjdə! Kainatın hökmdarı gəlir! ....................................................... 172
MƏDİNƏYİ MÜNƏVVƏRƏ DÖVRÜ ........................................................... 176
Ənsar ilə Muhacirlərin qardaş olması ............................................................ 177
Məscidi Nəbəvi ............................................................................................... 180
Xurma kötüyünün inildəməsi ......................................................................... 181
Həzrəti Aişə ilə evlənməsi .............................................................................. 182
Əzani Məhəmmədi .......................................................................................... 183
Əshabi kiramın tə’lim görməsi ...................................................................... 184
Əshabi suffə .................................................................................................... 186
Cəbrayıl hədisi ................................................................................................ 188
Səlmani Farisinin müsəlman olması .............................................................. 191
Mələklər dinləmək üçün gəlirdi ..................................................................... 196
Hicrətin birinci ilində baş verən digər bəzi hadisələr ..................................... 199
İlk yazılı müqavilə .......................................................................................... 200
Ey Həbibim! Kədərlənmə! .............................................................................. 201
İlk səriyyələr ................................................................................................... 203
Məscidi Qibləteyn ........................................................................................... 205
BƏDR QƏZVƏSİ ........................................................................................... 208
Mələklərin yardıma gəlməsi ........................................................................... 214
Əbu Cəhilin öldürülməsi ................................................................................. 224
Qələbə inananlarındır... .................................................................................. 226
Həzrəti Əli ilə Həzrəti Fatimənın evlənməsi .................................................. 234
Kə’b ibn Əşrəfin öldürülməsi ......................................................................... 240
Bəni Qaynuqa yəhudiləri ................................................................................ 242
ÜHÜD QƏZVƏSİ ........................................................................................... 244
Həzrəti Əlinin qəhrəmanlığı ........................................................................... 257
Təlhə ibn Ubeydullahın qəhrəmanlığı ............................................................ 262
Həmraul-Əsəd səfəri ....................................................................................... 273
Rəci vaqiəsi .................................................................................................... 274
Bi’ri Məunə vaqiəsı ........................................................................................ 280
Bəni Nadir yəhudiləri ..................................................................................... 282

Fatimə Binti Əsədin vəfatı....................282
Bəni Müstəliq qəzvəsi....................284
XƏNDƏK QƏZVƏSİ....................287
Bəni Qureyza yəhudiləri....................306
Sə'd ibn Muazın şəhadəti....................310
HÜDEYBİYYƏ SÜLHNAMƏSİ....................314
Bey'əti Rizvan....................319
Qurtar məni ya Rəsulallah!....................323
DƏ'VƏT MƏKTUBLARI....................329
Hökmdarlara göndərilən məktublar....................329
XEYBƏRİN FƏTHİ....................345
Həzrəti Əlinin qəhrəmanlığı....................355
UMRƏTUL-QƏZA SƏFƏRİ....................361
MUTƏ QƏZVƏSİ....................367
MƏKKƏNİN FƏTHİ....................380
Kim Məscidi Harama sığınsa....................382
HUNEYN QƏZVƏSİ....................392
TAİF SƏFƏRİ....................396
TƏBUK SƏFƏRİ....................398
Pusqu....................402
Məscidi Dirar....................404
VƏDA HƏCCİ....................406
VƏDA XÜTBƏSİ....................409
VƏFATI....................413
Dindən çıxma təşəbbüsləri....................428
QƏBİR HƏYATI....................431
Qəbrində siri olması....................431
Rəsulullahi görmək....................434
Cənabi Peyğəmbərimizin qəbri çərifini ziyarət....................439
Təvəssül....................446
Salavati Şərifə Oxumağın Əhəmiyyəti və Fəziləti....................453
HİLYƏYİ SƏADƏT....................459
Mübarək adları və künyələri....................459
Hilyəyi səadət....................460
Cənabi Peyğəmbərimizin gözəlliyi....................465
FƏZİLƏTLƏRİ....................471
Yüksək əxlaqı....................471
Fəzlətləri....................481
İstiğfarı....................487
Şəfaəti....................489
MÖ'CÜZƏLƏRİ....................495
ƏHLİ BEYT....................501
Mübarək xanımları....................501
Digər xanımları....................503
Uşaqları....................506
Əhli Beyti....................508
Rəsulullahın əshabı....................511

CƏNABİ RƏSULULLAHIN BƏZİ ZƏVAİD SÜNNƏTLƏRİ* ............................. 516
Mübarək saqqal və saçı ............................. 516
Rəsulullahın yatması ............................. 518
Rəsulullahın oturuşu ............................. 520
Rəsulullahın yeməsi və içməsi ............................. 521
Rəsulullahın evdəki və çöldəki davranışları ............................. 533
Rəsulullahın geyindiyi paltarlar ............................. 539
Kə'b ibn Zuheyrə verdiyi yapıncı ............................. 544
Nəcaşinin göndərdiyi qızıl üzük ............................. 546
Peyğəmbərimizin döşəyi ............................. 548
Rəsulullahın əsası ............................. 549
Peyğəmbərimizin daşıdığı yeddi şey ............................. 550
Tərtib nizamına çox əhəmiyyət verərdi ............................. 551
Rəsulullahın qılıncları ............................. 552
Peyğəmbərimizin yayları və qalxanları ............................. 553
Rəsulullahın ələm və bayraqları ............................. 555
Cənabi Peyğəmbərimizin atları ............................. 556
Cənabi Peyğəmbərimizin dəvələri ............................. 557
Rəsulullahın Xanəyi səadətləri ............................. 558
Rəsulullahın vəqf etdiyi mülklər ............................. 559
İSLAM DİNİ ............................. 562
İman ............................. 562
İbadətlər ............................. 575
Əxlaq ............................. 576
Məhəmməd əleyhissalama tabe olmaq ............................. 577
HİLYƏYİ SƏADƏT ............................. 582
XRONOLOGİYA ............................. 586
BİBLİYOQRAFİYA ............................. 588

# *Təqdim*

*Allahu təalaya həmd və verdiyi ne'mətlərə, yaxşılıqlara, sonsuz şükrlər olsun... Onun sevgili Peyğəmbəri, insanların hər cəhətdən ən gözəli, en yaxşısı, en üstünü olan Məhəmməd əleyhissalama və onun gözəl üzünü görməklə, faydalı sözlərini eşitməklə şərəflənən, beləcə bütün insanların en qiymətliləri olan Əshabının hamısına və onların yolunu tutanlara da dua və salamlar olsun...*

*Tarixdə "Cahiliyyə Dövrü" deyilen bir zaman parçası vardır. Bu zaman parçasında, Ərəbistan Yarmadasında, insanlar bütlərə sitayiş edir, həmişə içgi içir, qumar oynayırdılar. Güclü olan haqlı sayılır, qadınlar bir ticari əşya kimi alınıb-satılır, qız uşaqları diri-diri torpağa basdırılırdı. Təkcə Ərəbistan Yarmadası deyil, bütün dünya qaranlığa qərq olmuşdu. Asiya, Afrika və Avropada da vəziyyət bundan fərqli deyildi. Əlbəttə bunlardan narahat olan, razı qalmayan az da olsa ağıl sahibi insanlar mövcud idi və bunlar Cənabi Haqqa dua edərək, bu qaranlıq zamanın bitməsi üçün yalvarırdılar.*

*İnsanlara rəhm edən Allahu Təala, müxtəlif əsrlərdə və müxtəlif coğrafi bölgələrdə yaşayan insanlara bir çox peyğəmbər göndərdiyi kimi, son nəbi və rəsul olan Həzrəti Məhəmmədi də bu qaranlığı aydınlatması üçün son peyğəmbər olaraq vəzifələndirdi.*

*Cənabi Haqq, mərhəmət göstərərək bizi, Ona ümmet etməklə, ne'mətlərinin ən böyüyünə qovuşdurdu. Ona tabe olmaq lazım gəldiyini açıq bir şəkildə bildirdi. Rəbbimizə bu gözəl ne'mətinə görə nə qədər həmd və şükr etsək azdır.*

*Əhli Sünnət alimləri buyurmuşlar ki: "Hər Peyğəmbər öz zamanında, öz məkanında, öz qövmünün hamısından hər cəhətdən üstündür.*

*Məhəmməd əleyhissalam isə, hər zamanda, hər ölkədə, yəni dünya yaradıldığı gündən, qiyamət qopuncaya qədər, gəlmiş və gələcək bütün məxluqatın hər cəhətdən ən üstünüdür. Heç kim, heç bir cəhətdən Ondan üstün deyildir...".*

*Allahu Təala, heç bir şey yaratmamışdan əvvəl, Məhəmməd əleyhissalamın mübarək nurunu yaratdı. Qur'ani Kərimdə Cənabi Peyğəmbərimizə xitabən: "Səni aləmlərə rəhmət olaraq göndərdik" buyuruldu. Qüdsi Hədisdə də: "Sən olmasaydın, sən olmasaydın məxluqatı yaratmazdım" buyurulmuşdur.*

*İmanın əsil şərti, "Hubbi fillah və buğzi fillah" yəni Allahu Təalanın dostlarını sevmək, düşmənlərini sevməməkdir. Bu olmadıqca heç bir ibadet qəbul olmamakda, sahibinin üzünə vurulmaqdadır. Bu səbəblə "Aləmlərin Hökmdarını sevməyimiz fərz olmuş, Onun mübarək məhəbbətini qəlbimizə yerləşdirməyimiz və gözəl əxlaqından nümunə götürməyəməz əmr edilmişdir.*

*Bu məhəbbətin dəvam etməsi üçün, əsrlərdən bəri Cənabi Peyğəmbərin mübarək həyatını nəql edən kitablar yazılmış, hal-hazırda da yazılmaqdadır. Onun sevgisinin qəlbimizdə dolub-daşması üçün, Əhli Sünnət alimlərinin kitablarını ətraflı şəkildə incələyərək Kainatın Soltanı, Cənabi Rəsulullahın mübarək həyatını yazmağa çalışdıq.*

*Cənabi Haqq, hər birimizin qəlbini Cənabi Peyğəmbərimzin məhəbbəti ilə doldurub, bizi Əhli Sünnət alimlərinin bildirdiyi doğru yolda tutsun! Amin.*

*Prof. Dr. Ramazan Ayvallı*

## PEYĞƏMBƏRİMİZİN MÜBARƏK NURU

Məhəmməd əleyhissalam Allah Təalanın həbibi, sevgilisi, yaradılmış bütün insanların və digər məxluqatın hər cəhətdən ən üstünü, ən gözəli və ən şərəflisidir. Allah Təalanın mədh etdiyi, bütün insanlara və cinlərə peyğəmbər olaraq seçib göndərdiyi, axırıncı və ən üstün Peyğəmərdir. Aləmlərə rəhmət olaraq göndərilmiş olub, hər şey onun hörmətinə yaradılmışdır. Mübarək adı, dəfələrlə mədh edilmiş, çox təriflənmiş mənasına gələn Məhəmməd əleyhissalamdır. Əhməd, Mahmud, Mustafa kimi başqa mübarək adları da vardır. Atasının adı Abdullah olub, hicrətdən 53 il qabaq Rəbiüləvvəl ayının on ikisində Bazar ertəsi gecəsi, səhərə yaxın Məkkəyi Mükərrəmdə doğulmuşdur. Tarixçilər, bu günün miladi illə 571-ci ilin Aprel ayının iyirmisinə uyğun gəldiyini deyirlər.

Doğulmadan bir neçə ay əvvəl atası Abdullah, altı yaşında ikən də anası Aminə vəfat etdi. Bu səbəblə də Həzrəti Peyğəmbərə "Dürri Yetim" (Kainat sədəfində olan yeganə, böyük və ən qiymətli inci) ləqəbi verilmişdir. Səkkiz yaşına qədər babası Əbdülmüttəlibin, onun ölümündən sonra isə əmisi Əbu Talıbin yanında qaldı. İyirmi beş yaşında Xədicətül-Kübra ilə evləndi. Bu xanımdan doğulan ilk oğlunun adı Qasım idi. Ərəblərdə ilk oğulun atası olaraq künyə ilə çağırılmaq adət idi. Buna görə də Peyğəmbərimizə "Əbul-Qasım", yəni Qasımın atası deyilirdi.

Qırx yaşında ikən bütün insanlara və cinlərə peyğəmbər olduğu Allah Təala tərəfindən bildirildi. Üç il sonra hamını imana çağırmağa başladı. Əlli iki yaşında ikən Me'rac hadisəsi baş verdi. Miladi 622-ci ildə 53 yaşında olarkən Məkkədən Mədinəyə hicrət etdi. İyirmi yeddi dəfə müharibədə iştirak etdi. 11-ci (Miladi 622-ci) ildə Rəbiüləvvəl ayının on ikisində Bazar ertəsi günü günortadan qabaq, 63 yaşında ikən Mədinəyi Münəvvərədə vəfat etdi.

Allah Təala bütün peyğəmbərlərinə adı ilə xitab etdiyi halda, Ona; "Həbibim"(Sevgilim) deyə iltifat etmişdir. Cənabi Haqq bir ayədə məalən; "Səni aləmlərə rəhmət olaraq göndərdik"[1] və bir qüdsi hədisdə də; "Sən olmasaydın, sən olmasaydın, məxluqatı yaratmazdım"[2] buyurdu.

---

[1] əl-Ənbiya, 107.
[2] Suyuti, *əl-Ləali'l-Məsnua*, I, 272; Əcluni, *Kəşfu'l-Xəfa*, II, 164; Əli əl-Qari, *Şərhu'ş-Şifa*, I, 6.

Hər Peyğəmbər öz zamanında, öz yerində, öz qövmünün hamısından hər cəhətdən üstündür. Peyğəmbərimiz Məhəmməd əleyhissalam isə, dünya yaradıldığı gündən qiyamət gəlincəyə qədər, hər zamanda, hər ölkədə, gəlmiş və gələcək olan bütün varlıqların hər cəhətdən ən fəzilətlisi, ən üstünüdür. Heç kim, hər hansı bir cəhətdən Ondan üstün deyildir. Cənabi Haqq Onu belə yaratmışdır.

## Mübarək "Nur"unun yaradılması

Allah Təala hər şeydən, yəni heç bir şeyi yaratmazdan əvvəl Sevgili Peyğəmbərimiz Məhəmməd əleyhissalamın mübarək nurunu yaratdı. Təfsir və hədis alimlərimizdən çoxu belə ifadə etmişlər ki; "Cənabi Haqq öz nurundan lətif, və böyük bir cövhər yaradıb, ondan bütün kainatı sırasıyla vücuda gətirdi. Bu cövhərə "Nuru Məhəmməd" deyilir. Bütün ruh və cisimlərin başlanğıcı və mənşəyi bu cövhərdir".

Əshabi kiramdan Cabir ibn Abdullah bir gün; "Ya Rəsulullah! Allah Təalanın hər şeydən əvvəl yaratdığı şey nədir? soruşanda; "Hər şeydən əvvəl sənin Peyğəmbərinin, yəni mənim nurumu öz nurundan yaratdı. O zaman; lövh, qələm, Cənnət, Cəhənnəm, mələk, səmavat (göylər), ərz (yer üzü), günəş, ay, insan, və cinlər yoxdu" buyurdular.

Nuru Məhəmmədi, Adəm əleyhissalamın qəlbi və cəsədi şərifi yaradılınca, onun qaşlarının arasına qoyuldu. Adəm əleyhissalam özünə ruh verilincə alnında Zöhrə ulduzu kimi parıldayan bir nurun olduğunu hiss etdi.

Adəm əleyhissalam yaradıldığında Cənabi Haqqın ona; Əbu Məhəmməd, yəni Məhəmmədin atası deyərək xitab etdiyini ilham ilə başa düşdü və; "Ey Rəbbim! Mənə nə üçün Əbu Məhəmməd künyəsini verdin?" deyə soruşunca, Allah Təala; "Ey Adəm! Başını qaldır!" dedi. Adəm əleyhissalam başını qaldırıb baxdığında Ərzi ə'lada sevgili Peyğəmbərimizin (səlləllahu əleyhi və səlləm) nurdan yazılmış Əhməd adını gördü. O zaman; "Ey Rəbbim! Bu kimdir?" deyə soruşdu. Allah Təala da; "Bu, sənin zürriyətindən bir peyğəmbərdir. Onun adı göylərdə Əhməd, yerdə isə Məhəmməddir. Əgər O olmasaydı səni yaratmazdım. Yerləri və göyləri xəlq etməzdim" buyurdu.[3]

---

[3] İbn Əsakir, *Tarixu Dəməşq*, VII, 437; Heysəmi, *Məcməuz-Zəvaid*, VIII, 198; Əhməd Şami, *Sübülül-Huda*, I, 85.

## Nurunun pak alınlardan keçməsi

Adəm əleyhissalam yaradılınca alnına sevgili Peyğəmbərimiz Məhəmməd əleyhissalamın nuru şərifi qoyuldu. O nur alnında parıldamağa başladı. Qur'ani Kərimdə ifadə edildiyi kimi; Adəm ələyhissalamdan etibarən pak atalardan və pak analardan keçərək, cənabi Peyğəmbərimizə qədər gəldi. Bunu Allah Təala ayədə belə bildirmişdir;

"Sən, yəni sənin nurun, ancaq səcdə edənlərdən dolaşdırılıb, sənə inqilab etmiş, çatmışdır"[4]

Hədisi şərifdə; "Allah Təala insanları yaratdı. Məni insanların ən yaxşı qismindən meydana gətirdi. Sonra, bu qisimlərdən ən yaxşısını (Ərəbistanda) seçdi. Məni bunlardan meydana gətirdi. Sonra evlərdən, ailələrdən ən yaxşısını seçib, məni bunlardan meydana gətirdi. O halda, mənim ruhum və cəsədim məxluqların ən yaxşısıdır. Mənim silsiləm, əcdadım ən yaxşı insanlardır" buyurulmuşdur.

Başqa bir hədisi şərifdə isə; "Allah Təala, hər şeyi yoxdan var etdi. Hər şey içindən insanları sevdi, qiymətləndirdi; insanlar içində də seçdiklərini Ərəbistanda yerləşdirdi. Ərəbistandakı seçilmişlər arasında da məni seçdi. Məni hər zaman insanların seçilmişləri, ən yaxşıları arasında yerləşdirdi. O halda, Ərəbistanda mənə bağlı olanları sevənlər, mənim üçün sevərlər. Onlara düşmənlik edənlər mənə düşmənlik etmiş olarlar" buyurulmuşdur.

Yaradılan ilk insan olan Adəm əleyhissalam, Məhəmməd əleyhissalamın zərrəsini daşıdığı üçün alnında Onun nuru parıldayırdı. Bu zərrə Həzrəti Həvvaya, ondan da Şit əleyhissalama və beləcə pak kişilərdən pak qadınlara və pak qadınlardan pak kişilərə keçdi. Məhəmməd əleyhissalamın nuru da zərrə ilə birlikdə alınlardan alınlara keçdi. Mələklər nə zaman Adəm əleyhissalamın üzünə baxsalar, alnında Məhəmməd əleyhissalamın nurunu görər və Ondan bağışlanmalarını istəyərdilər.

Adəm əleyhissalam vəfat edəcəyi zaman, oğlu Şit əleyhissalama dedi ki; "Oğlum! Bu alnında parıldayan nur son Peyğəmbər Məhəmməd əleyhissalamın nurudur. Bunu mö'min və əfif, pak xanımlara ver və oğluna da belə vəsiyyət et!" Məhəmməd əleyhissalama gəlincəyə qədər bütün atalar oğullarına belə vəsiyyət etdilər. Hamısı da bu vəsiyyəti yerinə yetirib, ən əsalətli və ən kibar qızlarla evləndilər. Nur,

[4] əş-Şüəra, 26/219.

qadın-kişi pak alınlardan keçərək əsil sahibinə çatdı. Cənabi rəsulullahın babalarından birinin iki oğlu olsa, yaxud bir qəbilə iki qola ayrılsa, Peyğəmbərimiz Məhəmməd əleyhissalamın nuru ən şərəfli və ən xeyirli olan tərəfdə olardı. Hər əsirdə Onun babası olan zat, üzündəki nurdan tanınardı. Onun nurunu daşıyan seçilmiş bir soy vardı ki, hər əsirdə bu soydan olan zatın üzü çox gözəl və çox nurlu olardı. Bu nur ilə qardaşları arasında seçilir, aid olduğu qəbilə başqa qəbilələrdən daha üstün, daha şərəfli olardı.[5]

Necə ki, Cənabi Peyğəmbərimiz hədisi şərifdə buyurdular ki; "Mənim babalarımın heç biri zina etmədi. Allah Təala məni ən yaxşı atalardan, pak analardan gətirdi. Babalarımdan birinin iki oğlu olsaydı, mən bunların ən xeyirlisində, ən yaxşısında olardım".

Adəm əleyhissalamdan bəri, övladdan övlada keçərək gələn bu nur Taruha, ondan oğlu İbrahim əleyhissalama, sonra oğlu İsmayıl əleyhissalama keçmişdir. Onun da alnında günəş kimi parıldayan nur övladından Adnana, ondan Mə'ada, ondan da Nizara keçmişdir. Nizar anadan olunca, atası Mə'ad oğlunun alnında nuru görüp sevinmiş, böyük bir ziyafət verərək; "Belə oğul üçün bu qədər ziyafət az şeydir" dediyi üçün oğlunun adı Nizar, yəni "az bir şey" mənasında qalmışdır. Bundan sonra da nur sıra ilə keçərək əsil sahibi olan sevgili Peyğəmbərimiz Məhəmməd əleyhissalama çatmışdır.

| |
|---|
| **Məhəmməd Əleyhissalam** |
| Abdullah |
| Əbdülmüttəlib (Şeybə) |
| Haşım (Əmr) |
| Əbdümənaf (Muğirə) |
| Qusayy (Zeyd) |
| Kilab |
| Mürrə |
| Kə'b |
| Lüveyy |
| Qalib |

[5] Qazı İyaz, *Şifayi Şərif*, s. 82.

| |
|---|
| Fihr |
| Malik |
| Nadr |
| Kinanə |
| Huzeymə |
| Müdrikə (Amir) |
| İlyas |
| Mudar |
| Nizar |
| Mə’ad |
| Adnan |

Cənabi Peyğəmbərimizin şərəfli nəsəbi Adnana qədər belədir; Cənabi Peyğəmbərimiz bir hədisi şərifdə belə buyurdu; Mən Abdullah, Əbdülmüttəlib, Haşım (Əmr), Əbdü Mənaf (Muğirə), Qusayy (Zeyd), Kilab, Mürrə, Kə’b, Lüveyy, Qalib, Fihr, Malik, Nadr, Kinanə, Huzeymə, Müdrikə (Amir) İlyas, Mudar, Nizar, Mə’ad, Adnan oğlu Məhəmmədəm. Mənsub olduğum cəmiyyət nə zaman ikiyə ayrılmış isə, Allah Təala məni şüphəsiz onların ən xeyirli olan tərəfində yerləşdirmişdir…”.[6]

Başqa bir hədisi şərifdə də; “Allah Təala, İbrahim oğullarından İsmayılı seçdi. İsmayıl oğullarından Kinanə oğullarını seçdi. Kinanə oğullarından Qureyşi seçdi. Qureyşdən Haşım oğullarını, Haşım oğullarından Əbdülmüttəlib oğullarını seçdi. Əbdülmüttəlib oğullarından da məni seçdi”[7] buyurmuşdur.

*Qıldı ol nur, anın alnında qərar,*
*Qaldı anın ilə, nicə ruzigar.*

*Sonra Həvva alnına, nəql etdi bil,*
*Durdu anda dahi nicə ay və il.*

*Şis doğuldu, ona nəql etdi bu nur,*
*Anın alnında təcəlli qıldı nur.*

*Erdi İbrahimə və İsmayıla həm,*
*Söz uzanır, gər qalanın der isəm.*

*İş bu rəsm ilə müsəlsəl, muttasıl,*
*Ta olunca Mustafaya müntəqil.*

*Gəldi çün ol rəhmətən lil aləmin,*
*Vardı nur, anda qərar qıldı həmin.*

## Babası Həzrəti Əbdülmüttəlib

Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) Qureyş qəbiləsinin Haşım oğulları qolundandır. Atası Abdullahdır. Onun da atası Şeybədir. Peyğəmbərimizin babası olan Şeybə, Mədinədə doğulmuşdu. Şeybə, atası Haşım vəfat etdiyində hələ

[6] İbn Sə’d, *ət-Təbəqat*, I, 55-56.
[7] İbn Sə’d, *ət-Təbəqat*, I, 20.

uşaqdı. Bir gün Mədinədə dayılarının evi qabağında dostları ilə ox təlimi keçirdilər. Onlara tamaşa edən yaşlılar, Şeybənin alnında parıldayan nurdan, onun şərəfli bir kimsənin oğlu olduğunu təxmin edərək heyran qaldılar. Ox atma növbəsi Şeybəyə çatdığında, yayını dartıb hədəfə oxunu atdı. Ox tam hədəfə deyincə, o həyəcanla; "Mən Haşımın oğluyam. Əlbəttə oxum hədəfinə dəyər" dedi. Onun bu sözlərindən Məkkəli Haşımın oğlu olduğunu başa düşdülər. O əsnada Haşım ölmüşdü. Əbdü Mənaf oğullarından biri Məkkəyə qayıtdığında Haşımın qardaşı Müttəlibə; "Mədinədə olan qardaşın oğlu Şeybə çox ağıllı bir uşaqdır. Alnında da hamını heyran edən bir nur parıldayır. Belə qiymətli bir uşağı yanınızdan ayırmanız doğrudur?" dedi. Bundan sonra Müttəlib dərhal Mədinəyə getdi və qardaşı oğlu Şeybəni götürərək Məkkəyə gətirdi. Məkkə küçələrində; "Bu uşaq kimdir?" deyə soruşanlara da; "qulumdur" deyərdi. Bundan sonra Şeybənin adı Müttəlibin qulu mənasına gələn Əbdülmüttəlib olaraq qaldı.[8]

Əbdülmüttəlib əmisi vəfat edənə qədər onun yanında qaldı. Əbdülmüttəlibin mübarək bədənindən müşk qoxusu gəlirdi. Alnında Allah Təalanın həbibi Məhəmməd əleyhissalamın nuru parıldayar, ətrafına xeyir və bərəkət saçardı. Hər nə vaxt Məkkə bölgəsinə yağış yağmayıb qıtlıq olsa, Məkkəlilər Əbdülmüttəlibin əlindən tutub onu Səbir dağına çıxardar, dua etməsi üçün ona yalvarardılar. O da heç kimin xətrinə dəyməz, Allah Təalaya yağış ehsan etməsi üçün dua edərdi. Cənabi Haqq də Əbdülmüttəlibin alnında parıldayan sevgili Peyğəmbərimizin nuru bərəkətinə duasını qəbul edər, bol bol yağış yağdırardı. Beləcə Əbdülmüttəlibin gündən günə qiymət və etibarı çoxaldı. Məkkəlilər onu başlarına rəis seçdilər. Ona e'tiraz edən olmaz, əmri altına girən də rahat və hüzur tapardı. O dövrün hökmüdarları da Əbdülmüttəlibin fəziləti və böyüklüyünü təsdiq edərdilər. Təkcə İran kisrasının gözü onu götürməz, açıq və gizli şəkildə ona düşmənlik edərdi.

Əbdülmüttəlib, Hənif dininə tabe idi, yəni müsəlman idi. Bu din babalarından İbrahim əleyhissalamın dini idi. Bu səbəblə, heç bir vaxt bütə ibadət etmədi və hətta yanlarına belə yaxınlaşmadı. Kə'bənin ətrafında Allah Təalaya dua və ibadətini edərdi.

Günlərin bir günü röyasında kim isə; "Ey Əbdülmüttəlib! Qalx Tayyibəni qaz!" deyərək qeyb oldu. Ertəsi gün "Qalx Bərrəni qaz!" dedi. Üçüncü gün də eyni

[8] İbn Sə'd, *ət-Təbəqat*, I, 82.

kimsə; “Qalx Mədnunəni qaz” əmrini verdi. Röyanın arxası kəsilmirdi. Dördüncü gün isə, yenə o kimsə; “Ey Əbdülmüttəlib! Qalx Zəmzəm quyusunu qaz!” deyincə Əbdülmüttəlib; “Zəmzəm nədir? Quyu haradadır?” deyə soruşdu. O zat da; “Zəmzəm bir sudur ki, heç azalmaz və dibinə çatmaq olmaz. Dünyanın dörd tərəfindən gələn hacılara bəs edər. Cəbrayıl əleyhissalamın qanadıyla vurduğu yerdən çıxmışdır. Allah Təalanın İsmayıl əleyhissalam üçün yaratdığı sudur. Susuzların susuzluğunu söndürür. Acları doydurur. Xəstələrə şəfa olur. Yerini deyim. Qurban kəsdikləri vaxt içalatını bir yerə tökərlər. Sən orda ikən qırmızı dimdikli bir qarğa gəlir. Dimdiyi ilə yeri eşələyər. Qarğanın eşələdiyi yerdə bir də qarışqa yuvası görərsən. Bax ora Zəmzəmin yeridir”[9] dedi.

Əbdülmüttəlib səhər vaxtı özü ilə oğlu Harisi götürərək Kə’bəyə getdi və həyəcanla gözləməyə başladı. Bu əsnada röyada deyildiyi kimi qırmızı dimdikli qarğa gəlib oradakı bir çuxura qondu və dimdiyi ilə yerə vurmağa başladı. Altından qarışqa yuvası çıxdı. Əbdülmüttəlib ilə oğlu Haris dərhal oranı qazmağa başladılar. Bir müddət qazmağa başladıqdan sonra quyunun ağzı göründü. Əbdülmüttəlib bunu görüncə; “Allahu əkbər, Allahu əkbər!” deyərək təkbir gətriməyə başladı.

Başdan sona qədər quyunun qazılmasını diqqətlə tə’qib edən Qureyşlilər ona; “Ey Əbdülmüttəlib! Bu, atamız İsmayılın quyusudur. Onda bizim də haqqımız vardır. Bizi bu işə şərik etməlisən!” dedilər. Əbdülmüttəlib isə dərhal buna e’tiraz etdi və; “Xeyr! Bu iş təkcə mənə ehsan edilmiş bir vəzifədir” deyə cavab verdi. Bunu görən Qureyşlilər; “Sən təksən. Tək oğlundan başqa kimsən də yoxdur. Bu şəkildə bizə qarşı e’tiraz etməyin mümkün deyildir!” dedilər. O zaman qanı qaraldı. Çünkü onu kimsəsizliklə lağa qoyurdular. Əllərini səmaya qaldıraraq; “Ya Rəbbi! Mənə on uşaq ehsan et. Əgər bu duamı qəbul etsən aralarından birisini Kə’bədə qurban edəcəyəm”[10] deyə yalvardı.

Əbdülmüttəlib qazı işinin təhlükəli bir hal aldığını, nəticədə şiddətli toqquşmaların ola bilşəcəyini düşündü. Axırda qazmanı dayandırıb razılaşma yolunu tutdu. İşin bir hakim tərəfindən həll edilməsini istədi. Axırda Şamda yaşayan bir kahinin buna bir çarə tapacağına qərar verdilər. Qureyşin başda gələnlərindən bir dəstə ilə yola çıxıldı. Yolda susuzluqdan və istidən kifayət qədər əziyyət çəkən karvan, tərpənə

---

[9] İbn İshaq, *əs-Sirə*, s, 2-5; İbn Hişam, *əs-Sirə*, I, 143; İbn Sə’d, *ət-Təbəqat*, I, 83-84.
[10] İbn Hişam, *əs-Sirə*, I, 144-145; İbn Sə’d, *ət-Təbəqat*, I, 88; Təbəri, *Tarix*, I, 128.

bilməmə dərəcəsinə çatdı. Artıq bir damcı suya can atacaq bir vəziyyətdə idilər. Tək arzularının bu olmasına baxmayaraq, qovurucu səhranın ortasında su tapmaq imkansız idi.

Hamının ümidini kəsdiyi anda Əbdülmüttəlib onlara; "Gəlin, gəlin toplanın! Həm sizə, həm də heyvanlarınıza bəs edəcək qədər su tapdım" deyə qışqırdı. Məhəmməd əleyhissalamın mübarək nurunu alnında daşıyan Əbdülmüttəlib, su axtararkən dəvəsinin ayağı böyük bir daşa ilişmiş və daş yerindən tərpənincə altından su çıxmışdı. Hamı qaçaraq gəldi, doya doya su içərək təzədən həyata qayıtdı.

Əbdülmüttəlibin bu böyüklüyü qarşısında utanan Qureyşlilər; "Ey Əbdülmüttəlib! Daha sənə deyəcək sözümüz qalmadı. Zəmzəm quyusunu qazmağa ən layiq olan sənsən. Bu mövzuda səninlə bir daha münaqişə etməyəcəyik. Daha hakimə getməyə də ehtiyac qalmadı, geri dönürük" dedilər və Məkkənin yolunu tutdular. Əbdülmüttəlib, alnında parıldayan nurun hörmətinə Zəmzəm quyusunu qazıb, suyu çıxartmaq şərəfinə qovuşdu.[11]

| |
|---|
| *Ya Həbibullah, ya Xeyrəl-bəşər müştəqinam.*<br>*Elə kim ləb təşnələr yanıb dilər həmvarə su.* |

### Abdullahın qurban edilmək istənilməsi

Əbdülmüttəlibin Zəmzəm quyusunu qazdıqdan sonra, şanı ve şöhrəti daha çox artdı. Aradan illər keçdi. Cənabi Haqq, könlünün dərinliklərindən qoparaq etdiyi duanı qəbul edib Əbdülmüttəlibə Harisdən başqa on oğul və altı qız uşağı ehsan etdi. Oğlanlarının adları; Kusəm, Əbu Ləhəb, Həcl, Müqəvvim, Dirar, Zübeyir, Əbu Talıb, Abdullah, Həmzə və Abbasdır. Qızları isə; Safiyyə, Ətiqə, Ümmü Hakim Beyda, Bərrə, Ümeymə ve Erva idi. Əbdülmüttəlib uşaqları arasında ən çox Abdullahı sevərdi. Çünkü alnındakı nur onda parıldamağa başlamışdı.

Əbdülmüttəlibə, günlərin birində röyasında; "Ey Əbdülmüttəlib! Nəzirini yerinə yetir!" deyildi. Səhər Əbdülmüttəlib bir qoç qurban etdi. Gecə röyasında; "Ondan daha böyüyünü qurban et!" əmri verildi. Səhər bir dana qurban etdiyi halda, təkrar

[11] İbn Hişam, *əs-Sirə*, I, 144-145; İbn Sə'd, *ət-Təbəqat*, I, 81-88.

röyasında; "Ondan daha böyüyünü qurban et!" əmri üstünə; "Ondan daha böyüyü nədir?" deyə soruşdu. O zaman; "Oğlanlarından birini qurban etməyi nəzir etmişdin. Nəzirini yerinə yetir!" deyildi.

Ertesi gün Əbdülmüttəlib uşaqlarını toplayaraq illər öncə etdiyi duanı dedi. Sonra oğlanlarına aralarından birini qurban etmesi lazım gəldiyini bildirdi. Övladından heç biri e'tiraz etmədi. Üstəlik onlar; "Ey atamız! Nəzirini yerinə yetir! İstədiyini etməkdə sərbəstsən" deyə razılıqlarını bildirdilər. Əbdülmüttəlib püşk ataraq qurban olacaq oğlunu dəqiqləşdirdi. Püşk ən çok sevdiyi oğlu, alnında Allah Təalanın həbibi Məhəmməd əleyhissalamın nurunu daşıyan Abdullaha düşmüşdü. Əbdülmüttəlib bir an səndələdi, gözleri yaşla doldu. Allah Təalaya verdiyi sözü yerinə yetirməli idi. Bir əlinə bıçağı, bir əlinə çox sevdiyi Abdullahı alaraq Rəbbinə verdiyi sözü yerinə yetirmək üçün Kə'bəyə gəldi. Gözü yaşlı ata Abdullahı qurban etmək üçün bütün hazırlıqlarını tamamladı.

O əsnada Qureyşin başda gələnləri heyrət dolu baxışları ilə hadisəni tə'qib edirdilər. Aralarından Abdullahın dayısı; "Ey Əbdülmüttəlib! Dayan! Biz senin oğlunu qurban etməyinə əsla razı deyilik. Əgər belə edərsən, bundan sonra Qureyş arasında adet olur. Hamı oğlunu qurban üçün nəzir edib kəsər. Belə şeyi adet qoyma! Sən Rəbbini başqa bir şəkildə razı et!" dedi. Sonra; "Bir kahinə soruş, sənə yol göstərsin" deyə təklif etdi.

Əbdülmüttəlib bu sözdən sonra, Xeybərdə olan Qütbə(vəya Sacaq) adındakı kahinin yanına getdi. Kahin; "Sizdə bir insanın diyəti nə qədərdir?" deyə soruşdu. "On dəvədir" deyə cavab alınca; "On dəvə ve oğlunuz arasında püşk atınız. Püşk oğlunuza düşərsə, on dəvə daha artıraraq təzədən püşk atınız. Püşk dəvələrə düşüncəyə qədər belə artıraraq davam ediniz" dedi.

Əbdülmüttəlib dərhal Məkkəyə qayıtdı ve kahinin dediyi kimi etdi. On dəvə artıraraq dəfələrlə püşk atdı. Hər dəfə Abdullaha düşdü. Ancaq dəvə sayısı yüze çıxınca, püşk dəvələrə düşdü. Ehtiyat olsun deyə iki dəfə də püşk atdı. Hər iki püşk də dəvələrə düşdü. Əbdülmüttəlib; Allahu əkbər! Allahu əkbər!" deyərək təkbirlərlə dəvələri qurban etdi. Ətlərini özü ve oğullarından heç biri götürmədi. Hamısını kasıblara payladı.[12]

[12] İbn İshaq, *əs-Sirə*, s, 10-17; İbn Hişam, *əs-Sirə*, I, 151-154; İbn Sə'd, *ət-Təbəqat*, I, 88-94.

Adəm əleyhissalamdan bəri, bir də İsmayıl əleyhissalamın qurban edilmə hadisəsi vardır. Cənabi Peyğəmbərimizin nəsəbi İsmayıl əleyhissalama gedib çıxdığı üçün; "Mən iki qurbanlığın oğluyam"[13] buyurmuşdular.

## Atası Həzrəti Abdullah

İki dünyanın sahibi olan Peyğəmbərimiz Məhəmməd əleyhissalamın nurunu alnında daşıyan Abdullah, doğulduğunda kitab əhli bir-birinə; "Axır zaman peyğəmbərinin atası Məkkədə dünyaya gəldi" deyə xəbər verdilər.

İsrail oğullarının yanlarında yundan toxunmuş bir cübbə var idi ki, bu cübbe Yəhya əleyhissalamın olub, şəhid olduğu zaman əynində idi və mübarək qanı bu cübbəyə bulaşmışdı. Kitablarında da; "Nə zaman bu qan təzələnir damcılamağa başlarsa, axır zaman peyğəmbərinin atası dünyaya gələr" yazılmışdı. Əhli kitab da bu əlaməti görərək, Abdullahın doğulduğunu başa düşdülər. Lakin, qısqanıb neçə dəfə öldürməyə qalxsalar da Allah Təala Abdullahı alnındakı nurun bərəkətiylə qorudu.

Abdullah həddi buluğ yaşına çatdığında, istər gözəl əxlaqı ilə, istər yaraşıqlılığı ilə insanlar arasında seçilən bir şəxs oldu. Uzaq-yaxın hamı ona qızlarını vermək üçün yarışa girdilər. Neçe hökmüdar da Əbdülmüttəlibin yanına gələrək qızlarını oğluna alması üçün teklif etdilər və bunun üçün hər fədakarlığa sinə gərəcəklərini bildirdilər. Ancaq Əbdülmüttəlib hər birini münasib bir dil ile geri qaytarırdı.

Abdullah on səkkiz yaşına çatdığında gözəlliyi dillərə dastan oldu. Alnındakı nur günəş kimi parıldayar, görən qızların istər istəməz könlünü cəlb edərdi. Gözəlliyi və şöhrəti Misirə qədər yayılmışdı. İki yüzə yaxın qız onunla evlənmək üçün Məkkəyə qədər gəlib evlilik təklif etmişdilər. Əbdülmüttəlib isə oğluna; Zamanın ən kibar, əsalətli, gözəl, İbrahim əleyhissalamdan bəri riayət etdikləri Hənif dininə bağlı mö'min bir qız axtarırdı.

Kitablarında bildirilən axır zaman Peyğəmbərinin öz qövmlərindən olmayacağını başa düşən İsrail oğulları, paxıllıq ucbatından Abdullahı öldürməyə and içdilər. Bu iş üçün silahlı yetmiş nəfəri Məkkəyə göndərdilər. Bir fürsət tapıb o məqamı gözləməyə başladılar. Nəhayət Abdullahın çöllüyə çıxdığı bir gün kimsənin

[13] İbn İshaq, *əs-Sirə*, s, 10-18; Hakim, *əl-Müstədrək*, II, 604, 609.

görmədiyini zənn etdikləri bir vaxtda qılınclarını sıyırıb, üzərinə hücum etdiler. O gün, ilahi hikmət gərəyi Abdullahın qohumlarından Vəhb ibn Əbdü Mənaf da bir neçə dostu ile ova çıxmışdı. Bunlar Abdullahın üzərinə hücum edən İsrail oğullarını gördülər. Qohumluq qeyrəti ilə Abdullahı qurtarmaq üçün kömək etməyə qərar verdilər. Ancaq qarşılarındakılar çox qələbəlikdi. Bu toqquşmada məğlub olacaqları məlum idi. Nəhayət nəsihət yolunu seçməyi münasib gördülər. Onlara tərəf yaxınlaşdıqları vaxt bu dünyada heç kimsəyə oxşamayan, kəhər atlara minmiş, əli qılınclı bir çox adamın qeybdən ildırım kimi imdada çatdıqlarını, təkbir səsləri ilə İsrail oğullarına hücum etdiklərini və hamısını qılıncdan keçirdərək yoxa çıxdıqlarını gördülər. Vəhb bu hal qarşısında duruxdu, Abdullahın necə qorunduğunu və Allah Təala nəzdindəki qiymətini anladı. Evə gəlincə vəziyyəti xanımına anlatdı. Hər ikisi də qızlarına tay olan igidin Abdullah olduğunu qəbul edib, Aminəni ona vermək qərarına gəldilər.

Əbdülmüttəlib də Bəni Zührə qəbiləsinin rəsi Vəhbin qızı Aminənin hüsnü cəmalını, iffət və həyasını, dininə bağlılığını eşitmişdi. Soy cəhətindən də əqrəba idilər və bir neçə nəsil yuxarıda birləşirdilər. Oğlu Abdullaha bu qızı almaq üçün Vəhbin evinə getdi. Əbdülmüttəlib Vəhbin qızını oğlu Abdullaha istə'yincə Vəhb; "Ey əmi oğlu! Biz bu təklifi sizdən öncə aldıq" dedi və daha əvvəl şahid olduğu hadisəni anlatdı. Sonra bunu da əlavə etdi; "Aminənin anası bir röya gördü. Anlatdığına görə, evimizə bir nur girmiş, aydınlığı yeri və göyü doldurmuş. Mən də bu gecə röyamda babamız İbrahim əleyhissalamı gördüm. Mənə; "Əbdülmüttəlibin oğlu Abdullahla, qızın Aminənin nikahlarını mən qıydım. Sən də onu qəbul et!" dedi. Bu gün səhərdən bəri bu röyanın tə'siri altındayam. Görəsən nə zaman gələcəklər, deyə çox düşünürdüm". Bu sözləri eşidən Əbdülmüttəlibin dilindən "Allahu əkbər! Allahu əkbər!" sədaları tökülmüşdü. Nəhayet oğlu Abdullahı Vəhbin qızı Aminə ilə evləndirdi. Aminə ilə Abdullahın evlənmələri mövzusunda başqa rəvayətlər də vardır.[14]

## Mübarək Nurunun anasına keçməsi

Sərvəri aləmin(səllallahu əleyhi və səlləm) mübarək nuru anasına keçdiyi zaman qurdlar, quşlar bir birinə, "Kainatın sahibinin dünyaya təşrif etməyi yaxınlaşdı. O, yer üzünün əmini, zamanın günəşidir" deyərək muştuluq verdilər. O gecə, Kə'bədəki

[14] İbn İshaq, *əs-Sirə*, s, 19-24; İbn Sə'd, *ət-Təbəqat*, I, 94-95.

bütün bütlər üzü üstə düşdü. O zamanlarda Məkkəyi Mükərrəmədə qıtlıq vardı. İllərdir yağış yağmamışdı. Ağaclarda yaşıl bir yarpaq yoxdu, məhsuldan əsər görünməz olmuşdu. İnsanlar çətinliyə düşmüş, nə edəcəklərini bilməz hala gəlmişdilər. Sevgili Peyğəmbərimizin mübarək nuru Həzrəti Abdullahdan Həzrəti Aminəyə keçdikdən sonra, o qədər yağış yağdı, o qədər məhsul oldu ki, o ilə bolluq ili deyə ad verdilər.

Aminə anamız hamilə ikən, həyat yoldaşı Abdullah ticarət üçün Şama getmişdi. Dönərken xəstələndi. Mədinəyə gəlincə dayıları Nəccar oğullarının yanında on səkkiz vəya iyirmi beş yaşında ikən vəfat etdi. Bu xəbər Məkkədə eşidilincə böyük şəhər üzüntüyə qərq oldu.[15] Əshabi kiramdan Abdullah ibn Abbas(Allah onlardan razi olsun anh) belə bildirmişdir; "Cənabi Peyğəmbərin atası Abdullah, hələ oğlu doğulmadan vəfat edincə mələklər; "Ey Rəbbimiz, Rəsulun yetim qaldı" dedilər. Allah Təala; "Onun qoruyucusu və yardımçısı mənəm" buyurdu".

## Fil hadisəsi

Rəsuli Əkrəmin (səllallahu əleyhi və səlləm) doğulmasına təxminən iki ay zaman qalmışdı. Bu əsnada Fil hadisəsi meydana gəldi. İnsanların hər tərəfdən dəstə dəstə gəlib Kə'bəni ziyarət etməyinə əngəl olmaq istəyən Yəmən valisi Əbrəhə, Bizans imperatorunun da köməyi ilə Sənada böyük bir kilsə tikdirdi. Adamların da bu kilsəni ziyarət etməsini istədi. Ərəblər isə qədimdən bəri Kə'bəni ziyarət etdiklərindən, Əbrəhənin tikdirdiyi kilsəyə heç maraq göstərmədilər. Təhqir gözüylə baxdılar. Hətta aralarından biri kilsəni kirlətdi.

Bu hadisədən əsəbləşən Əbrəhə, Kə'bəni yıxmağa qərar verdi və bu məqsədlə böyük bir ordu hazırlayıb Məkkə üzərinə hücuma keçdi. Əbrəhənin ordusu Məkkəyə yaxınlaşınca Qureyşin mallarını yağmalamağa başlamış, Əbdülmüttəlibin də iki yüz dəvəsini müsadirə etmişdilər. Əbdülmüttəlib Əbrəhənin yanına gedib dəvələrini istədi. Əbrəhə; "Mən sizin müqəddəs Kə'bənizi yıxmağa gəldim. Sən onu qorumaq yerinə dəvələrini istəyirsən?" dedi. Əbdülmüttəlibə; "Mən dəvələrin sahibiyəm. Kə'bənin əlbəttə ki sahibi vardır. Onu O qoruyar" dedi. Əbrəhə; "Mənə qarşı onu qoruyan heç kim yoxdur" dedi və Əbdülmüttəlibə dəvələrini verib göndərdi. Sonra ordusuna Kə'bəyə hücum əmri verdi. Əbrəhənin ordusunda öndə sürülən və beləcə qalibiyyət

[15] İbn Sə'd, *ət-Təbəqat*, I, 99-100.

qazanılacağına inanılan "Mahmud" adında bir fil vardı. Əbrəhə Kə'bəyə tərəf hərəkət edincə, bu fil yere yatdı və hərəkət edə bilmədi. Halbuki yönü Yəmənə çevrilincə qaçaraq gedirdi.

Beləcə Məkkəyə yaxınlaşıb hücum etməyə gücü çatmayan Əbrəhənin ordusu üzərinə Allah Təala Əbabil, yəni Dağ qaranquşu deyilən quşlardan bir dəstə göndərdi. Bu quşların hər biri noxud vəya mərcimək böyüklüyünde üç daş daşıyırdı ve bu daşların biri ağızlarında, ikisi də ayaqlarında idi. Bunları Əbrəhənin ordusu üstünə tökdülər. Daşlar əsgərləri başdan ayağa deşib keçirdi. Daşa hədəf olan hər əsgər dərhal ölürdü. Ayədə də ifadə edildiyi kimi ordu, yeyilmiş əkin yarpağı kimi oldu. Bu vəziyyəti görən Əbrəhə özünü itirərək qaçmaq istədi. Ancaq qaça bilmədi. Daşlara əsil hədəf o idi və ona da dəymişdi. Qaçdıqca əti hissə hissə tökülərək öldü. Bu hadisə Qur'ani kərimin Fil surəsində məalən belə ifadə edilmişdir;

"(Ey Rəsulum! Kə'bəni yıxmaq istəyən) fil sahiblərinə (fillərlə təchiz edilmiş Əbrəhə ordusuna), Rəbbinin necə davrandığını görmədin? Onların (Kə'bəyi müəzzəməni yıxmaq şəkilindəki) hiylələrini boşa çıxartmadı? Üstlərinə dəstələr halında quşlar göndərdi. O quşların hər biri onların üstünə palçıqdan düzəldilmiş və odda bişirilmiş daş atardi. Nəhayət Allah Təala onları qurd yemiş əkin yarpağı kimi yox etdi. (Qurdlar tərəfindən gəmirilib, doğranan yeyilmiş əkin yarrağı halına gətirdi)"[16].

## Müjdə xəbərləri

Sevgili Peyğəmbərimiz Məhəmməd əleyhissalamın gələcəyi Adəm əleyhissalamdan etibarən hər peyğəmbərə ve ümmətinə bildirilmiş, anadan olması yaxınlaşınca olacaq hadisələrdən bir çoxu müjdə verilmişdir.

Musa əleyhissalama gələn, sonradan təhrif edilən Tövratda belə yazılıdır; "O, elə mübarək bir zatdır ki, himməti uca, köməyi çoxdur. Kasıbların sevgilisi, varlıların təbibidir. O, gözəllərin gözəli, pakların pakıdır. Sohbət edərkən həlim, bölüşdürərkən adil, hər davranışda dürüstdür. Kafirlərə qarşı sərt və şiddətlidir. Yaşlılara hörmət, balacalara şəfqət və rəhmət edər. Az şeyə şükr edər. Əsirlərə yazığı gələr. Daim gülər üzlüdür. Gülüşü təbəssüm şəklindədir, qəhqəhə ilə gülməz. Savadsızdır; heç bir şey

[16] İbn İshaq, *əs-Sirə*, s, 38-44; İbn Hişam, *əs-Sirə*, I, 43-56; İbn Sə'd, *ət-Təbəqat*, I, 55-56, 92, 108; Təbəri, *Tarix*, I, 557; Süheyli, *ər-Rövzul-Unf*, s. I, 123; Əhməd Şami, *Sübülül-Huda*, I, 216.

oxumadan və yazmadan hər şey Ona bildirilmişdir. O, Allah Təalanın elçisidir. Pis xasiyyətli, sərt qəlbli deyildir. Bazarlarda yüksək səslə qışqırmaz. Onun ümməti gözəl əxlaq sahibidir. Yüksək yerlərdə Allahın adını xatırlayarlar. Müəzzinləri minarələrdə xalqı dəvət edərlər. Dəstəmaz alaraq namaz qılarlar. Namazda səfləri düzəldir, bir sırada durarlar. Gecələri onların təsbeh səsləri bal arısının vızıltısı kimi eşidilər. Məkkədə anadan olar. Mədinədən Şama qədər hər yer Onun idarəsində olur. Adı Məhəmməddir ki, Ona Mütəvəkkil deyə ad verdim. Batil dinləri silib, doğru olan haqq dini yayıb yerləşdirməyincə Onu dünyadan çıxartmaram. O, xalqı Haqqa çağırır, Onun bərəkətiylə görməyən gözlər açılır, görür, eşitməyən qulaqlar eşidər. Qəlblərdən qəflət gedər…".

Davud əleyhissalama gələn, sonradan təhrif edilən Zəburda;

"O, elə bir kimsədir ki, əliaçıqdır, yəni comərtdir. Əsla əsəbləşməz. Çox həlimdir. Gözəl üzlü, şirin sözlü, nurani üzlüdür. İnsanların təbibidir. Çox ağlar, az gülər. Az yatar, çox düşünər. Yaradılışı xoş və gözəldir. Sözləri könülləri ələ alır, ruhları cəzb edər…Ey Həbibim! Himmət qılıncını sıyırıb, bütün qüvvətinlə qəhrəmanlıq meydanında kafirlərdən intiqam al. Xoş bir dil ilə mənim həmd və sənamı hər yerə yay. Bütün kafirlərin başları sənin kəramətli əllərin qarşısında əyiləcəkdir…" deyə yazılıdır.

İsa əleyhissalama gələn, sonradan təhrif edilən İncil kitabında da;

"O, çox yeməz, paxıl deyildir. Hiylə etməz, kimisə pisləməz, heç vaxt tələsməz. Özü üçün intiqam almaz. Tənbəl deyildir. Heç kim haqqında qeybət etməz…" şəklində ifadə edilir.

Yenə İncildə belə yazılıdır;

"Rəbb tərəfindən çıxıb gələcək olan O Münhamenna, Rəbb tərəfindən çıxıb gələcək O Ruhul-Qüdüs gəlmiş olsaydı, O, mənə şəhadət edərdi. Siz də, şəhadət edərsiniz. Çünkü başdan bəri mənimlə birlikdəsiniz. Mən bunları sizə söylədim ki, şübhəyə düşməyəsiniz və yoldan çıxmayasınız". Burada keçən Münhamenna Süryani dilində Məhəmməd deməkdir.[17]

## Cahiliyyə dövrü

Kainatın fəxri Peyğəmbərimiz doğulmadan əvvəl, bütün aləm mənəvi cəhətdən dəhşətli bir zülmət, qaranlıq içində idi. İnsanlar hədsiz, hüdudsuz dərəcədə yoldan çıxmış, Allah Təalanın göndərdiyi dinlər unudulmuş; ilahi hökmlərin yerini

[17] İbn İshaq, *əs-Sirə*, s, 119-124; İbn Hişam, *əs-Sirə*, I, 232-233; İbn Sə'd, *ət-Təbəqat*, I, 360-363.

insanların başlarından çıxan fikir və düşüncələr almışdı. Bütün məxluqlar insanların vəhşəti və zülmlərindən çox bezmişdilər.

Yer üzündə olan bütün millətlərdə Allah yaddan çıxardılmış, hüzurun, səadət və sevincin qaynağı olan Tövhid inancı yox olmuşdu. Küfr fırtınası qəlblərdən imanı çıxardıb atmış, könüllərdə Allah Təalaya inam əvəzinə bütlərə ibadət fikri yerləşmişdi.

Musa əleyhissalamın gətirdiyi din unudulmuş, Tövrat dəyişdirilmişdi. İsrail oğullarının bir biri ilə araları dəymişdi. İsa əleyhissalamın gətirdiyi xristiyanlıq da tamamiylə dəyişmiş, din ilə heç bir əlaqəsi qalmamışdı. Təslis, yəni üçlü tanrı fikri qəbul edilmişdi. İncilin əsli yox olmuş, rahiblər onu istədikləri kimi dəyişdirmişdilər. Hər iki kitab da Allah kəlamı olmaqdan çıxmışdı.

Misirdə dəyişmiş Tövratın hökmü, Bizansda da dəyişdirilmiş xristiyanlıq vardı. İranda atəşə sitayiş edilir, atəşpərəstlərin atəşi tam min ildir söndürülmürdü. Çində Konfüçyüzm, Hindistanda Buddizm kimi qondarma dinlər hökm sürürdü.

Ərəbistanın əhalisi də azmış, yoldan çıxmışdılar. Bunlar, Allah Təalanın çox qiymət verdiyi Kə’bəyi Müəzzəməyə üç yüz altmış (360) ədəd büt yerləşdirmişdilər. Kə’bəyi Müəzzəmə isə, Ərşdə mələklərin ziyarət etdiyi “Beyti Ma’murun” eyni böyüklükdə bir nümunəsi idi. Kim Kə’bəyə hörmətsizlik etmişdisə, Cənabi Haqq onu ən qısa zamanda həlak etmişdi.

Cürhüm qəbiləsi də zina və tərbiyəsizlikdə öndəydi. Bu qəbilənin çox mədəniyyətsiz və çox alçaq davranışlarını görən hökmüdarları onlara; “Ey Cürhümlülər! Allah Təalanın Hərəmi Şərifini və Hərəmin təhlükəsizliyini tə’min edərək özünüzə gəlin. Sizdən əvvəl gələn Hud, Salih və Şüeybin(əleyhimussalam) ümmətlərindən hər birinin başlarına gələn halları və necə həlak olduqlarının bilirsiniz. Bir birinizə yaxşılığı əmr edin, pislikdən çəkindirin. Müvəqqəti gücünüzə güvənərək aldanmayın. Məkkədə Haqdan üz döndərməkdən və zülümdən çəkinin. Çünkü zülm insanların həlak olmasına səbəb olur. Allah Təalaya and içərək deyirəm ki, heç kimsə yoxdur ki, bu bölgədə yaşasın, zülm etsin, Haqdan üz döndərsin və Allah Təala da onların soylarını kəsməsin, köklərini qazımasın və yerlərinə başqa bir qövm gətirmiş olmasın. Qudurğanlığa davam edən və Haqdan üz döndərən Məkkə xalqı üçün, burada daimi qalmaq mümkün deyildir. Sizdən əvvəl bu bölgədə yaşayan, sizdən daha uzun ömürlü, sizdən daha qüvvətli, sizdən daha qələbəlik və varlı olan Tasm, Cədis və Əmalikalıların başlarına gələnləri bilirsiniz. Onların Hərəmi şərifi veclərinə

almamaqları, Haqdan üz döndərərək zülmə dalmaqları, bu mübarək yerdən çıxardılıb qovulmalarına səbəb olmuşdur. Allah Təalanın, bəzilərinə kiçik qarışqaları göndərərək, bəzilərini qıtlıqla, bəzilərini də qılıncla çıxartdığını görmüş və eşitmişsiniz!" deyərək onlara nəsihət etdi.

Ancaq onlar eşitmədilər. Nəticədə Allah Təala onları da, bu qudurğanlıqları səbəbiylə pərişan etdi...

Bax belə bir zamanda, yer üzünün mərkəzi olan mübarək Məkkədə, küfr sel kimi axır, Beytullahın içinə Lat, Uzza, Mənat kimi yüzlərlə büt doldurulurdu. Zülm son həddinə çatır, əxlaqsızlıq, iftixar vəsiləsi olaraq qəbul edilirdi. Ərəbistan, dini, ruhi, ictimai və siyasi cəhətlərdən yayğın bir qaranlıq, tam bir cahiliyyət, ifrat və yoldan çıxma içində idi. Cahiliyyə dövrü deyilən bu zamanda insanlar ümumiyyətlə köçəri həyat yaşayır və qəbilələrə bölünmüşdülər. Daimi toqquşma halında olan Ərəb qəbilələri, basqın və yağmaçılığı, özləri üçün bir dolanışıq vasitəsi sayardılar. Zülmün və yağmaçılığın yayıldığı qəbilələrdən meydana gələn Ərəbistanda siyasi bir quruluş, ictimai bir nizam da mövcud deyildi. Əlavə olaraq içgi, qumar, zina, oğurluq, zülm, yalan və əxlaqsızlıq adına nə varsa mümkün olduğu qədər yayılmışdı. Zülmə, güclünün gücsüzə qarşı istifadə etdiyi ən amansız və tük ürpətici bir vasitə olaraq baş vurulur; qadın, əldəki bəsit bir mal kimi alınıb satılırdı. Bir qismi də, qız uşaqlarının doğulmasını bir fəlakət və üz qarası sayardılar. Bu qorxunc anlayış o dərəcəyə çıxmışdı ki, kiçik qız uşaqlarını qumlar üstündə qazdıqları çuxurlara diri diri yatırdıb; "Ata can! Ata can!" deyərək boyunlarına sarılmalarına və acı acı fəryad etməklərinə əsla qulaq asmadan, üstlərini torpaqla örtərək ölümə tərk edirdilər. Bu davranışlarından ötrü vicdanları əsla sızıldamır, hətta bunu bir qəhrəmanlıq sayardılar. Nəticə etibarıyla o zamanın insanları arasında şəfqət, mərhəmət, yaxşılıq və ədalət kimi gözəl xislətlər yox olamaq üzərəydi.

Ancaq bu dövrdə Ərəblər arasında diqqətə dəyər bir xüsus vardı. O da ədəbiyyat, bəlağət və fəsahətin dəyər qazanıb zirvəyə çıxmasıydı. Şairə və şe'rə çox əhəmiyyət verir, bunu böyük bir iftixar vəsiləsi sayardılar. Güclü bir şair həm özü, həm də qəbiləsi üçün etibar qazanırdı. Müəyyən zamanlarda panayırlar qurulur. Şe'r və xitabət yarışları təşkil edilirdi. Birinci olanların şe'rləri vəya xitabətləri Kə'bə divarından asılardı. Cahiliyyə dövründəki Kə'bə divarından asılan ən məşhur yeddi şe'rə "əl-Müəlləqatus-Səb'a" yəni, "Yeddi Asqı" deyilirdi.

O zaman Ərəbistanda insanlar inanc cəhətindən də bölük bölük idi. Bir qismi tamamiylə inancsız və dünya həyatından başqa bir şey qəbul etmir, bir qismi isə Allah Təalaya və axirət gününə inanır, ancaq insanlardan bir Peyğəmbərin gələcəyini qəbul etmirdi. Digər bir qismi də, Allah Təalaya inanır, axirətə inanmırdı. Digər böyük bir qismi də, Allah Təalaya şərik qoşub, bütlərə sitayiş edirdilər. Müşriklərin hər birinin evində büt vardı.

Bütün bunlardan başqa, Həzrəti İbrahimin bildirdiyi dinə inanan və "Hənniflər" deyilən kəslər də vardı. Bunlar Allah Təalaya inanır və bütlərdən uzaq gəzərdilər. Cənabi Peyğəmbərimizin atası Abdullah, babası Əbdülmüttəlib, anası və bəziləri bu dinə inanırdılar.

Hənniflərdən başqa bütün qruplar batil yolda olub, böyük bir zülmət və qaranlıq içində idilər.

*Nuri aləmsən bu gün həm dəxi məhbubi Xuda,*
*Eyləmə aşiqlərin bir ləhzə qapından cüda*

*Getməsin nami şərifin bu dilimdən dəm bə dəm*
*Dərdli könlümə dəvadır can bulur ondan səfa*

*Umaram hər bir adın başqa şəfaət eyləyə*
*Əhmədi Mahmud, Əbül Qasım Məhəmməd Mustafa*

*Çünkü deyildi ona "Vəş-Şəms" dəxi "Vəd-Dua"*
*Ruyuna alnına möhrü mahı bənzətsəm nola*

*Bu libasi hay huyu təntənə nədir dila*
*Əyninə xələt yetərkən bir palaz bir əba*

*Cürmü üsyanım bir birundur gərçi həddən sərvəra*
*Sən şəfaət kanısan gəldim sənə şəfqət uma*

*Bu Muhibbi tövbə eylər, tövbəsin eylə qəbul*

*Fitnəyi şeytandan saxla onu ya Rəbbəna*

*Qanuni Sultan Süleyman(Muhibbi)*

## DÜNYAYA TƏŞRİFİ (ANADAN OLMASI)

Aləm elə qaralmış və ətrafı zülmət o şəkildə əhatə etmişdi ki, insanlar hər şeyin yaradıcısı olan Allah Təalaya iman və ibadət etməyi tərk etmişdilər. Azdıqlarından kainatda baş verən hadisələrə və Cənabi Haqqın yaratdığı əşyaya, xüsusiylə əlləriylə yonduqları daşdan və taxtadan bütlərə "ilah" deyə sitayiş edirdilər.

Aləm hüzünlü, məxluqlar hüzünlü, könüllər də hüzünlü idi və üzlər gülməyi unutmuşdu. Allah Təalanın digər məxluqlardan üstün olaraq yaratdığı insanların, Cəhənnəmdən xilas olmaqlarına səbəb olacaq bir qəhrəman lazım idi. Belə ki, onun doğulmasına da çox az zaman qalmışdı. Aləm, Adəm əleyhissalamdan bu günə qədər, pak alınlardan pak alınlara keçərək gələn nurun sahibini qarşılamaq üçün hazırlanırdı. İnsanlara və cinlərə əbədi səadəti göstərəcək tayı bərabəri olmayan İnsan gəlirdi! Şəfqət və mərhəmət mənbəyi, Rəbbinin əxlaqı ilə əxlaqlandırılmış yüksək insan gəlirdi!

Məqami mahmud sahibi, şəfaətçilərin baş tacı gəlirdi! Kainatın müəllimi, məxluqların özü, insanların ağası gəlirdi! Məhşər gününün imdada yetişəni, peyğəmbərlərin soltanı gəlirdi! Allah Təalanın Həbibi, sevgilisi, onun hörmətinə yaradıldığımız, aləmlərə rəhmət olan sevgili Peyğəmbərimiz gəlirdi! (Səllallahu əleyhi və səlləm).

*Bu gələn ilmi lədun soltanıdır,*
*Bu gələn tövhidi irfan kanıdır.*

*Bu gələn eşqinə dövr eylər fələk,*
*Üzünə müştaq durur insü mələk.*

Yeddi qat yer, yeddi qat göy, qısaca aləm böyük bir hörmət və sevinc içində Seyyidül-Mürsəlin, Xatəmül-Ənbiya, Həbibi Xuda olan sahibini gözləməkdə idi. Bütün məxluqat hal dili ilə; "Xoş gəldin ya Rəsulallah!" demək üçün hazırlanmışdı. Hicrətdən 53 il əvvəl Fil hadisəsindən təxminən iki ay sonra, Rəbiüləvvəl ayının on ikinci günü, Bazar ertəsi gecəsi səhərə yaxın Məkkənin Haşım oğulları məhəlləsində, Səfa təpəsi yaxınlığında bir evdə həsrətlə gözlənilən, Allah Təalanın nuru Məhəmməd Mustafa

(Səllallahu əleyhi və səlləm) doğuldu. Onun təşrifi ilə aləm təzədən həyata döndü. Qaranlıqlar birdən “Nur” ilə aydınlandı.[18]

*Bu gecə ol gecədir kim, ol şərif,*
*Rəhmətən lil aləmindir Mustafa,*

*Nur ilə aləmləri eylər lətif.*
*Həm şəfiül-müznibindir Mustafa.*

*Bu gecə dünyanı ol Cənnət qılar,*
*Doğuldu ol səadətdə ol Soltani Din*

*Bu gecə əşyaya Haqq rəhmət qılar.*
*Nura qərq oldu səmavati zəmin.*

*Bu gecə şadan olur ərbabi dil,*
*Yaradılmış cümlə oldu şamdan*

*Bu gecəyə can verir əshabi dil.*
*Qəm gedib aləm yenidən buldu can.*

“Mədaricün-Nübüvvə” kitabında buyuruldu ki;

“Şərəflərin ən ucasına layiq olan anaların ən bəxtiyarı Həzrəti Aminə, hamiləliyini belə nəql edir; “O sərvərə hamilə olduğum günlərdə, heç acı və əziyyət görmədim. Hamilə olduğumu hiss etməzdim. Ancaq altı aydan sonra bir gün yarı yuxulu ikən bir kimsə mənə; “Sənin hamilə qaldığın kimdir bilirsən?” dedi. “Bilmirəm” cavabını verincə; “Bilmiş ol ki, Peyğəmbərlərin sonuncusuna hamilə qalmısan!” xəbərini verdi. Doğum vaxtı yaxınlaşınca, o kimsə təkrar gəldi, dedi ki, “Ey Aminə! Uşaq doğulunca adını Məhəmməd qoy. “Başqa bir rəvayətdə də; “Ey Aminə! Uşaq doğulunca adını Əhməd qoy” şəklində bildirilmişdir”.

Həzrəti Aminə anamız doğum anını da belə nəql edir;

---

[18] İbn Sə’d, *ət-Təbəqat*, I, 100-103.

“Doğum anı gəldiyində heybətli bir səs eşitdim. Qorxmağa başladım. Sonra ağ bir quş gördüm, gəlib qanadı ilə məni tumarladı. Qorxu və hürküdən bir iz qalmadı. O anda susadım, sanki hərarətdən yanırdım. Yanımda süd kimi ağ bir kasa şərbət gördüm. O şərbəti içməyim üçün mənə verdilər. Şərbətdən içdim, şirin və sərin idi. Artıq susuzluğum qalmamışdı. Sonra böyük bir nur gördüm, evim o qədər nurlandı ki, O nurdan başqa bir şey görmürdüm.

O əsnada ətrafıma dolanıb, mənə qulluq edən bir çox xanım gördüm. Boyları uzun, üzləri günəş kimi parıldayırdı. Bunlar Əbdü Mənaf qəbiləsinin qızlarının oxşarları idilər. Bunların birdən birə ortaya çıxmalarından heyrətə düşdüm. Onlardan biri dedi ki; “Mən Fironun xanımı Asiyəyəm! Digəri də; “Mən də Məryəm binti İmranam. Bunlar da Cənnət huriləridir” dedi.

Yenə o əsnada ağ, uzun və göydən yerə qədər uzanmış ipək bir parça gördüm. “Onu insanların gözündən qoruyun” dedilər. O anda bir dəstə quş peyda oldu. Ağızları zümrüddən, qanadları yaqutdandır. Qorxudan tərləmişdim, düşən tər damcılarından müşk qoxusu yayılırdı. O halda ikən gözümdən pərdəni qaldırdılar. Bütün yer üzünü şərqdən qərbə qədər gördüm. Ətrafımı mələklər əhatə etmişdi.

Məhəmməd əleyhissalam doğulunca, mübarək başını səcdəyə qoydu, şəhadət barmağını qaldırdı. Sonra göydən, onu bürüyən ağ bir bulud parçası endi. Bir səs eşitdim; “Onu məğribdən məşriqə qədər hər yerdə gəzdirin. Gəzdirin ki, cümlə aləm Onu adıyla, cismiylə və sifəti ilə görsünlər. Onun adının Mahi olduğunu, yəni Allah Təala, Onunla şirkin izlərini yox etdiyini bilsinlər” deyirdi. O bulud da gözdən qeyb oldu və Məhəmmədi (səllallahu əleyhi və səlləm) bir ağ yun parça içində bükülü gördüm. Yenə o əsnada üzləri günəş kimi parıldayan üç nəfər gəldi. Birinin əlində gümüşdən bir kuzə, birinin əlində zümrüddən bir ləyən, birinin əlində də ipək vardı. Kuzədən sanki müşk damcılayırdı. Mübarək oğlumu ləyənin içinə qoydular. Mübarək başını və ayağını yuyub, ipəyə bükdülər. Sonra mübarək başına gözəl qoxular sürdülər, mübarək gözlərinə sürmə çəkdilər və gözdən itdilər”.

*Endilər göydən mələklər səf səf.*
*Biri Məryəm Xatun idi aşikar,*
*Kə'bə kimi qıldılar evimi tavaf.*

*Birisi həm hurilərdən bir nigar.*

*Gəldi hurilər bölük bölük bugur,*
*Gəldilər lütf ilə ol üç mahi cəbin,*
*Üzləri nurundan evim doldu nur.*
*Verdilər mənə salam ol dəm həmin.*

*Həm hava üzrə döşəndi bir döşək,*
*Çevrə yanıma gəlib oturdular,*
*Adı Sündüs döşəyən adı mələk.*
*Mustafayı birbirinə muştular.*

*Çün göründü mənə bu işlər ayan,*
*Dedilər oğlun kimi heç bir oğul,*
*Heyrət içrə qalmış idim mən həman.*
*Yaradılalı cahan gəlmiş deyil.*

*Yarılıb divar çıxdı nagahan,*
*Bu sənin oğlun kimi qədri kəmal,*
*Üç belə huri mənə oldu ayan.*
*Bir anaya verməmişdir ol Cəmil.*

*Bəziləri der ki, ol üç dilbərin,*
*Ulu dövlət buldun ey dildarə sən,*
*Asiyəydi biri ol mahi peykərin.*
*Doğacaqdır səndən ol xülqi həsən.*

*Cümlə zərratı cahan edib nida,*
*Mərhaba ey asi ümmət məlcəyi,*
*Çağrışaraq dedilər kim mərhaba.*
*Mərhaba ey çarəsizlər məlcəyi.*

*Mərhaba ey Ali Soltan mərhaba,*
*Mərhaba ey cani baqi mərhaba,*
*Mərhaba ey Kanı irfan mərhaba.*
*Mərhaba üşşaqi saqi mərhaba.*

*Mərhaba ey sirri Furqan mərhaba,*
*Mərhaba ey qürrətül-ayni Xəlil,*
*Mərhaba ey dərdə dərman mərhaba.*
*Mərhaba ey xasi məhbubi Cəlil.*

*Mərhaba ey Bülbüli baği cəmal,*
*Mərhaba ey rəhmətən lil-aləmin,*
*Mərhaba ey aşinayi Zül-Cəlal.*
*Mərhaba sənsən şəfiul-muznibin.*

*Mərhaba ey mahi xurşudi Xuda,*
*Mərhaba ey padişahi du cahan,*
*Mərhaba ey Haqdan olmayan cüda.*
*Sənin üçün oldu kövn ilə məkan*

Məhəmməd əleyhissalam doğulduğu əsnada, Həzrəti Aminə anamızın yanında Əbdürrəhman İbn Əvfin anası Şəfa xatun, Osman ibn Əbul-Asın anası Fatimə xatun və Peyğəmbərimizin xalası Safiyyə xatun vardı. Bunlar da gördükləri nuru və digər hadisələri xəbər verdilər.

Şəfa xatun belə nəql edir ki; "Mən o gecə Aminənin yanında köməkçi olaraq dayanmışdım. Məhəmməd əleyhissalamın doğular doğulmaz dua və niyaz etdiyini eşitdim. Qeybdən; "Yərhəmukə Rəbbukə" deyə səs gəldi. Sonra bir nur çıxıb o qədər işıq verdi ki, şərqdən qərbə qədər hər yer göründü…".

Bundan başqa bir çox hadisənin şahidi olan Şəfa xatun; "Nə vaxt ki, ona peyğəmbərliyi xəbər verildi, heç tərəddüd etmədən ilk iman edənlərdən biri də mən oldum" demişdi.

Safiyyə xatun da belə nəql etmişdir;

"Məhəmməd əleyhissalam doğulduğu əsnada hər tərəfi bir nur bürüdü. Doğular doğulmaz səcdə etdi, mübarək başını qaldırıb səlis bir dil ilə; "La ilahə illəllah, inni rəsulullah" dedi. Onu yuyundurmaq istədiyimdə, "biz onu yuyunmuş olaraq göndərdik" deyildi. Göbəyi kəsilmiş və sünnət edilmiş olaraq görüldü. Doğular doğulmaz səcdə etdi. O əsnada alçaq səslə bəzi şeylər deyirdi, qulağımı mübarək ağzına yaxınlaşdırdım "Ümməti, Ümməti!"(Ümmətim, ümmətim) deyirdi".

Sevgili Peyğəmbərimiz doğulduğu vaxt babası Əbdülmüttəlib, Kə'bəyi şərifənin yanında Allah Təalaya yalvarıb dua edirdi. Bu zaman müjdə verdilər. Məhəmməd əleyhissalamın doğulduğu gündə bir çox hadisələr görən Əbdülmüttəlib bu müjdəyə çox sevinib; "Bu oğlumun şanı, şərəfi çox uca olacaqdır" dedi.[19]

*Belə Beytullaha qarşı ol Rəsul,*
*Der ki, ey Mövla üzüm tutdum sənə,*
*Yüz yerə sürmüş və səcdə qılmış ol.*
*Ya ilahi ümmətim vergil mənə.*

*Səcdədə başı dili təhmid edər,*
*Haqqa bağlayıb könüldən himməti,*
*Həm gətirmiş barmağın tövhid edər.*
*Der idi kim Ümməti va Ümməti.*

Əbdülmüttəlib belə böyük bir sevinci qeyd etmək üçün, doğumun yeddinci günündə Məkkə xalqına üç gün ziyafət verdi. Ayrıca, şəhərin hər məhəlləsində dəvələr kəsərək, insan və heyvanların istifadəsinə verdi. Ziyafət vaxtı uşağa nə ad verdin deyənlərə; "MƏHƏMMƏD" (səllallahu əleyhi və səlləm) adını verdim" dedi. Nə üçün atalarından birinin adını vermədin deyənlərə isə; "Allah Təalanın və insanların Onu mədh etmələrini, təriflənmələrini istədiyim üçün" cavabını verdi. Başqa bir rəvayətdə də "Məhəmməd" adını qoyanın Aminə xatun olduğu ifadə edilmişdir.

---

[19] İbn Sə'd, *ət-Təbəqat*, I, 103.

| | |
|---|---|
| *Ey camalı gün üzü bədri munir,* | *Çünkü nurun rövşən etdi aləmi,* |
| *Ey qamu düşmüşlərə sən dəstəgir.* | *Gül camalın Gülşən etdi aləmi.* |
| | |
| *Ey könüllər dərdinin dərmanı sən,* | *Oldu zail zülməti cəhili dalal,* |
| *Ey yaradılmışların soltanı sən.* | *Buldu baği mərifət aynı kəmal.* |
| | |
| *Sənsən ol Soltanı cümlə ənbiya,* | *Ya Habiballah bizə imdad qıl,* |
| *Nuri çəşmi övliya vu asfiya.* | *Son nəfəs didarın ilə şad qıl.* |
| | |
| *Ey risalət taxtının sən xatəmi,* | *SÜLEYMAN ÇƏLƏBİ* |
| *Ey nübüvvət möhrünün sən xatəmi.* | |

**Doğulduğu gecə görülənlər**

Rəsuli Əkrəm (səllallahu əleyhi və səlləm), doğulmadan əvvəl və doğulduğu əsnada; Onun dünyaya təşrif etməsinə əlamət olaraq bir çox hadisə meydana gəlmişdi. O zamanın məşhur kimsələri, hələ Cənabi Peyğəmbərimiz doğulmadan əvvəl röyalar görmüşdülər. Röyalarını kahinlərə və dövrün məşhur alimlərinə təbir etdirdiklərində, bunların Məhəmməd əleyhissalamın gələcəyini söyləmişdilər. Sevgili Peyğəmbərimizin babası Əbdülmüttəlib belə nəql edir;

"Bir dəfə yuxuya getmişdim. Gördüyüm röyadan böyük bir qorxuyla ayıldım. Dərhal bir kahinin yanına gedib, deyib təbir etdirmək istədim. Yanına getdiyimdə üzümə baxıb; "Ey Qureyşin rəisi! Sənə nə oldu? Üzündə tamamiylə başqa bir hal görünür. Yoxsa səni bu hala gətirən əhəmiyyətli bir hadisə var?" dedi. "Belə, hələ heç kimsəyə deməDiyim dəhşətli bir röya gördüm" dedikdən sonra, yanında oturub söyləməyə başladım.

"Bu gecə röyamda çox böyük bir ağac vardı. Bir ucu səmaya yüksəldilmiş, budaqları şərqə və qərbə uzanmışdı. O ağacdan elə bir nur saçılırdı ki, günəş yanında çox zəif qalırdı. Bəzən görünür, bəzən də gözdən itirdi. İnsanlar ona tərəf dönmüşdü. Hər an nuru artırdı.

Qureyş qəbiləsindən bəziləri o ağacın budaqlarından yapışır, digər bir qismi də ağacı kəsməyə çalışırdı. Bir gənc də onu kəsmək istəyənlərə mane olurdu. Çox gözəl bir üzü vardı və mən indiyə qədər elə bir üz görmədim. Ayrıca, bədənindən ətrafa xoş qoxular yayılırdı. Ağacın bir budağını tutmaq üçün əlimi uzatdım, ancaq tuta bilmədim" dedim. Röyamı bitirincə, kahinin üzü dəyişdi. Bənizi saraldı. Sonra; "Ondan sənin nəsibin yoxdur!" deməyi üzərinə; "Kimin nəsibi var?" deyə sordum. "O ağacın budağından yapışanların" dedi və davam edərək; "Sənin sülbündən bir peyğəmbər gələcək, hər tərəfə sahib olacaq, insanlar Onun dininə girəcəklər" dedi. Sonra yanımda olan oğlum Əbu Talıbə üzünü tutaraq; "Bu, hər halda Onun əmisi olacaq" dedi. Əbu Talıb bu hadisəni Cənabi Peyğəmbərimizə peyğəmbərliyi xəbər verilincə, nəql etmiş və; "Bax o ağac Əbul-Qasım, əl-Əmin Məhəmməd əleyhissalamdır" demişdi.

Sevgili Peyğəmbərimiz Məhəmməd əleyhissalamın dünyaya gəldiyi gecə bir ulduz göründü. Bunu görən yəhudi alimləri, Məhəmməd əleyhissalamın doğulduğunu anlamışdılar. Əshabi kiramdan Hassan ibn Sabit nəql edir;

"Mən səkkiz yaşında idim. Səhər vaxtı bir yəhudi; Ey yəhudilər!" deyə qışqıraraq qaçırdı. Yəhudilər; "Nə var, bu qışqırıq nə üçündür?" deyərək yanına toplaşınca o; "Xəbərniz olsun, Əhmədin ulduzu bu gecə doğuldu! Əhməd bu gecə dünyaya gəldi…" deyə cavab verdi.

Rəsuli Əkrəmin doğulduğu gecə Kə'bədəki bütlərin hamısı üzü üstünə yerə yıxıldı. Ürvə ibn Zübeyir rəvayət edir; "Qureyşdən bir camaatın bir bütü vardı. İldə bir dəfə onu tavaf edər, dəvələr kəsib şərab içərdilər. Yenə elə bir gün, bütün yanına gəldiklərində, onu üzü üstə yerə yıxılmış gördülər. Qaldırdılar, yenə yıxıldı. Bu hal üç dəfə təkrar olundu. Bunun üzərinə ətrafına yaxşı dəstək verib tikəltdikləri əsnada, belə bir səs eşidildi; "Bir kimsə doğuldu, yer üzündə hər yer hərəkətə gəldi. Nə qədər büt varsa hamısı yıxıldı. Kralların qorxudan qəlbləri titrədi!" Bu hadisə tam Məhəmməd əleyhissalamın doğulduğu gecəyə rast gəlirdi.

Mədayin şəhərindəki İran Kisrasının sarayının on dörd qülləsi(bürcü) yıxıldı. O gecə gurultuyla və dəhşətlə oyanan Kisra və xalqı; yenə özlərindən bəzi öndə gələnlərin gördükləri qorxunc röyaları təbir etdirdiklərində, bunun böyük bir şeyə əlamət olduğunu anlamışdılar.

Yenə o gecə, Məcusi, yəni atəşə sitayiş edənlərin min ildən bəri yanmaqda olan nəhəng od yığınları anidən söndü. Atəşin söndüyü tarixi həsabladılar, Kisranın sarayında bürclərin yıxıldığı gecəyə rast gəlirdi.

O zaman müqəddəs sayılan Savə gölünün də o gecə bir anda suyu çəkilib qurumuşdu.

Şam tərəfində min ildən bəri suyu axmayan və qurumuş olan Səmavə çayı vadisi, o gecədə dolub daşaraq axmağa başladı.

Məhəmməd əleyhissalamın doğulduğu gecədən etibarən, şeytan və cinlər artıq Qureyş kahinlərinə hadisədən xəbər verə bilmədi. Kəhanət sona erdi…

Həbibi Əkrəm doğulduğu gecə və daha sonra, o zamana qədər görülməmiş bu hadisələrdən başqa, bir çox hadisələr məydana gəldi. Bütün bunlar son peyğəmbər Məhəmməd əleyhissalamın doğulduğuna işarətdi.[20]

## Mövlud gecəsi

Cənabi Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) doğulduğu gecəyə Mövlud Gecəsi deyilir. Mövlud, doğum vaxtı deməkdir. Qədir gecəsindən sonra ən qiymətli gecədir və bu gecədə sevgili Peyğəmbərimizin doğulduğu üçün sevinənlər əfv olunur. Bu gecə Cənabi Peyğəmbərimizin doğulduğu əsnada görülən halları, möcüzələri oxumaq, dinləmək, öyrənmək çox savabdır. Sevgili Peyğəmbərimiz özü də nəql edərdi.

Əshabi kiram da bu gecə bir yerə toplanar, o günü yad edər, oxuyar və nəql edərdilər. Dünyanın hər tərəfindəki müsəlmanlar hər il bu gecəni Mövlud Qəndili olaraq qeyd etməkdədirlər. Hər yerdə Mövlud qəsidələri oxunaraq Kainatın soltanı xatırlanmaqdadır.

Hər peyğəmbərin ümməti, öz peyğəmbərinin doğum gününü bayram etmişdir. Bu gün də, müsəlmanların bayramı olub, sevinc günüdür.

## Süd anaya verilməsi

Aminə anamız nurlu balasını qucağına aldığında, həyat yoldaşı Həzrəti Abdullahın vəfat acısını yaddan çıxarmış kimi oldu. Dokquz gün əmizdirdikdən sonra

[20] İbn Kəsir, *əl-Bidayə*, III, 211-212.

da, Əbu Ləhəbin cariyəsi olan Süveybə xatun bir neçə gün süd analığı xidmətini gördü. Süveybə xatun daha əvvəl də Həzrəti Həmzəni, sonra da Əbu Sələməni əmizdirmişdi. Hafiz ibn Cəzri deyir ki; "Əbu Ləhəb röyada görülüb, nə halda olduğu soruşulduqda, qəbir əzabı çəkirəm. Ancaq hər il Rəbiüləvvəl ayının on ikinci gecəsi əzabım səngiyir. İki barmağım arasından çıxan sərin suyu içərək sərinlənirəm. Bu gecə, Rəsulullah dünyaya gəlincə, Süveybə adındakı cariyəm bunu mənə müjdə vermişdi. Mən də sevincimdən bunu azad etmiş və Ona süd analığı etməsi üçün əmir vermişdim. Bunun üçün, bu gecədə əzabım səngiyir, dedi".

O zamanda Məkkə xalqı adət olaraq uşaqlarını bir süd anasına verərdilər. Havası yaxşı, suyu şirin olan ətraf yerlərdəki yaylalara göndərilən uşaqlar bir müddət verildikləri süd analarının yanında qalardılar. Buna Məkkənin isti havası səbəb olardı. Hər il bu məqsədlə Məkkəyə bir çox qadın gəlirdi. Bunlar əmizdirmək üçün hərəsi bir uşaq götürb gedəridlər. Uşaqları böyüdüb geri qaytarınca, çoxlu əmək haqqı və hədiyyə alırdılar.

Cənabi Peyğəmbərimizin anadan olduğu il də yaylalarda yaşayan Bəni Sə'd qəbiləsindən bir çox qadın süd analığı niyyəti ilə Məkkəyə gəldi. Hər birisi əmizdirmək üçün bir uşaq götürdü. Bəni Sə'd qəbiləsi Məkkə ətrafındakı qəbilələr arasında şərəfdə, əliaçıqlıqda, mərdlik, təvazökarlıq və Ərəb dilini səlis danışmada çox məşhur idi. Qureyş qəbiləsinin başda gələnləri uşaqlarının daha çox bu qəbiləyə verilməsini istəyərdilər. O il Bəni Sə'd qəbiləsinin yurdunda şiddətli bir quraqlıq və qıtlıq hökm sürürdü. Bu qəbilədən Həlimə xatun da bu vəziyyəti belə nəql edir;

"Mən o il çöllərdə dolaşıb ot toplayar, bunu tapdığım üçün Allah Təalaya şükür edərdim. Bəzən üç gün keçməsinə rəğmən ağzıma bir şey qoymazdım. Bu halda ikən bir uşağım oldu. Bir tərəfdən aclıq, digər tərəfdən də doğum çətinliyi vardı. Aclıqdan yerlə göyü, gecə ilə gündüzü hiss etmədiyim vaxtlar olardı. Bir gecə səhrada yuxuya getmişdim. Röyamda bir şəxs məni süddən ağ bir suyun içinə batırdı və; "Bu sudan iç" dedi. Doyuncaya qədər içdim. Sonra içməyim üçün məni yenə məcbur etdi. İçdikcə içdim, baldan şirin idi. "Südün çox olsun ey Həlimə! Məni tanıdın?" deyə soruşdu. Tanımadığımı deyincə; Mən sənin çətinlik halında etdiyin həmd və şükrünəm. Ey Həlimə! Məkkəyə get. Orda sənə bir "Nur" dost olar, bərəkətlərlə dolarsan. Bu röyanı da heç kimə demə!" dedi. Oyandığımda süd vəzilərimin südlə dolu olduğunu gördüyüm kimi, çətinlik və aclığın da məni tərk etdiyini gördüm".

Qıtlıq səbəbiylə muzdla uşaq əmizdirib çətinliklərini ortadan qaldırmaq üçün, o biri illərə nisbətən daha çox süd anası Məkkəyə gəlmişdi. Hamısı da varlı ailələrin uşaqlarını götürmək təlaşı içində idilər. Tələsik gələn qadınların hərəsi bir uşaq götürmüşdü. Ancaq Cənabi Peyğəmbərimiz yetim olduğu üçün, çox əmək haqqı ala bilməmək düşüncəsiylə Ona istəkli görünməmişdilər. Bu qadınlar içində iffəti, paklığı, helmi, yəni zərifliyi, həyası və gözəl əxlaqıyla tanınmış Həlimə xatun da vardı. Mindikləri heyvan arıq olduğu üçün Məkkəyə gəlməyə gecikmişdilər. Ancaq bu gecikmə onlara axtardıqlarından daha çoxuna qovuşmağa səbəb olmuşdu. Həyat yoldaşı ilə Məkkədə dolanaraq varlı ailələrin uşaqlarının götürüldüyünü gördülər. Ancaq əli boş da geri qayıtmaq istəmirdilər. Bir uşaqla qayıtmaq yeganə arzuları olmuşdu.

Nəhayət hörmət cəlb edən və üzü çox sevimli olan bir zatla qarşılaşdılar. Bu, Məkkənin rəisi Əbdülmüttəlib idi. İstəklərini öyrəndikdən sonra, nəvəsini götürmələrini, bu sayədə böyük dövlət və səadətə qovuşacaqlarını söylədi. Əbdülmüttəlibin söhbəti və yaxınlığı onları özünə çəkirdi. Təklifini dərhal qəbul etdilər. Sonra yaşlı baba, Həlimə xatunu Həzrəti Aminənin evinə apardı. Həlimə xatun belə nəql edir;

"Uşağın yanına gəldiyimdə, beşiyə sarılı yaşıl ipəkdən bir örtüyün üstündə mışıl mışıl yatır, ətrafa müşk qoxusu yayılırdı. Heyrət içində qalıb bir anda Ona elə isindim ki, ürəyim oyandırmağa razı olmadı. Əlimi sinəsinə qoyunca oyandı və mənə baxıb təbəssüm etdi. Mənimsə bu təbəssümdən ürəyim getdi. Sonra, anası belə gözəl və mübarək uşağı mənə verməz düşüncəsiylə üzünü örtüb dərhal qucağıma götürdüm. Sağ məməmi verdim, əmməyə başladı. Sol məməmi verdim, əmmədi. Əbdülmüttəlib mənə tərəf dönərək; "Sənə müjdələr olsun ki, xanımlar içində sənin kimi ne'mətə qovuşan olmadı" dedi.[21]

Aminə xatun da mənə sevimli balasını verdikdən sonra; "Ey Həlimə, üç gün əvvəl; "Sənin oğluna süd verəcək qadın, Bəni Sə'd qəbiləsinin Əbu Züeyb soyundandır" deyə bir səs eşitdim" dedi. Bunun üzərinə; "Mən Bəni Sə'd qəbiləsindənəm və atamın künyəsi Əbu Züeybdir" cavabını verdim". Həlimə xatun yenə belə nəql etmişdir;

"Aminə xatun mənə daha öncə neçə hadisədən xəbər verdi və vəsiyyət etdi. Mən də Məkkəyə gəlmədən əvvəl gördüyüm röyanı və gələrkən sağımdan, solumdan;

---

[21] Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 37.

sənə müjdələr olsun ey Həlimə! O gözlər qamaşdıran və aləmləri işıqlandıran nuru əmizdirmək sənə qismət olacaq” deyə səslər gəldiyini söylədim”.

Həlimə xatun demişdir ki;

“Məhəmməd əleyhissalamı götürüb Həzrəti Aminənin evindən ayrıldım. Həyat yoldaşımın yanına gəldim. O da, qucağımdakı uşağın üzünə baxıb özünü itirdi və; “Ey Həlimə! Bu günə qədər belə gözəl üz görmədim”, Onu yanımızda götürər götürməz qovuşduğumuz bərəkətləri görüncə də; “Ey Həlimə! Bilmiş ol ki, sən çox mübarək və qədri yüksək olan bir uşaq götürmüsən” dedi. Mən də; “Vallahi, onsuz da belə diləyərdim, istədiyim oldu” deyə cavab verdim.

Həlimə xatun həyat yoldaşı ilə birlikdə Məhəmməd əleyhissalamı götürüb, Məkkədən yola çıxdıqları andan etibarən Onun bərəkətinə qovuşmağa başladılar. Çəlimsiz və sürətlə gedə bilməyən minikləri artıq çox dözümlü ve sür’ətli idi. Birlikdə gəldikləri qafilə onlardan əvvəl yola çıxıb uzaqlaşmış olmasına baxmayaraq, qafiləyə çatıb onları geridə qoymuşdular. Bəni Sə’d yurduna gəldikdən sonra, görülməmiş bir bolluğa və bərəkətə qovuşdular. Südü az olan heyvanlarının məmələri dolub daşırdı. Bunu görən qonşuları heyrətə düşüb, bunun əmizdirmək üçün götrüdükləri uşaq səbəbiylə olduğunu açıq aşikar anlamışdılar.

Quraqlıq səbəbiylə çox çətinliyə düşdülər və bir ara yağmur duasına çıxdılar. Məhəmməd əleyhissalamı yanlarında götürüb dua edərək Onun hörmətinə bol yağmura və bərəkətə qovuşdular.

Cənabi Peyğəmbərimiz süd anası Həlimə xatunun sağ məməsini əmər, sol məməsini əmməzdi. Onu da süd qardaşına saxlayardı. İki aylıq ikən iməklədi. Üç aylıq olunca ayaqda durdu, dörd aylıq ikən divardan yapışaraq gəzdi. Beş aylıqkən yeriməyə başladı. Yeddi aylıq ikən hər tərəfə gedə bildi. Səkkiz aylıq ikən başa düşüləcək şəkildə, dokquz aylıq ikən olduqca səlis danışmağa başladı. On aylıq ikən ox atmağa başladı. Həlimə xatun belə nəql etmişdir; “İlk danışmağa başladığında “La ilahə illəllahu vallahu əkbər. Vəlhamdulillahi Rəbbil-aləmin” dedi. O gündən sonra, Allah Təalanın adını anmadan heç bir şeyə əlini uzatmadı. Sol əli ilə bir şey yeməzdi. Yeriməyə başladığında, uşaqların oynadığı yerdən uzaq gəzər və onlara; “biz, bunun üçün yaradılmadıq” deyərdi. Hər gün Onu günəş işığı kimi bir nur bürüyər və yenə açılardı. Ay ilə danışar, ona işarə etdikcə ay hərəkət edərdi.

Həlimə xatun belə nəql edir;

"Məhəmməd əleyhissalam iki yaşına qədəm basınca, Onu süddən kəsdim. Sonra anasına vermək üçün həyat yoldaşımla Məkkəyə getdik. Ancaq, Onun elə bərəkətlərinə qovuşmuşduq ki, Ondan ayrılmaq, mübarək üzünü görməmək bizə çox çətin gəlirdi. Onun hallarını anasına söylədim. Aminə xatun; "Mənim oğlumun böyük şanı vardır" dedi. Mən; "Vallahi, bundan daha mübarək kimsə görmədim" dedim. Sonra, Aminə xatuna bir çox bəhanələr taparaq bir az daha yanımızda qalmasını istədim. Bizim sözümüzü yerə salmadı və yanımızda qalması üçün icazə verdi. Onunla təkrar qəbiləmizə qayıtdıq. Bu sayədə evimiz bərəkətlə doldu, malımız, mülkümüz və şanımız artdı. Sayısız ne'mətlərə qovuşduq.[22]

## Mübarək sinəsinin yarılması

Həlimə xatun nəql etdi;

"Sərvəri aləm (səllallahu əleyhi və səlləm) bir gün; "Gündüzlər qardaşlarım görünməzlər. Səbəbi nədir?" deyə soruşunca; "Qoyun güdməyə gedirlər. Evə ancaq gecə gəlirlər" dedim. Bunu deyincə; Məni də onlarla birlikdə göndər. Mən də qoyun güddüm" dedi. Bəhanələr tapıb neçə səbəb uydurdum. Axırda könlünün razı olması üçün; "Yaxşı" dedim. Ertəsi gün mübarək saçlarını daradım. Paltarlarını geyindirib süd qardaşlarıyla birlikdə göndərdim. Bir neçə gün gedib gəldi. Bir gün süd qardaşı Şeyma çöldən gəldiyində; "Gözümün nuru oğlum Məhəmməd haradadır?" deyə soruşdum. "Səhradadır" dedi. "Ciyərimin parası bu istiyə necə dözür?" deyə soruşduğumda, Şeyma; "Ey anacığım! Ona əsla zərər gəlməz. Çünkü, mübarək başı üstündə bir bulud daima Onunla hərəkət etməkdə, beləcə günəşin itsisindən qorunmaqdadır" cavabını verdi. "Nə danışırsan? Bu dediklərin həqiqətən doğrudur?" dediyimdə and içdi. Ancaq o zaman sakitləşdim. Yenə bir günorta vaxtı süd qardaşı Abdullah mənim yanıma gəlib; "Anacığım! Tələsik gəlin! Qureyşli qardaşımla birlikdə qoyun güdürdük. Qəflətən yaşıla bürünmüş üç nəfər gəldi. Qardaşımı yanımızdan götürüb dağın başına apardılar. Arxası üstündə uzadıb bıçaq ilə qarnını yardılar. Xəbər vermək üçün gəldiyimdə oradaydılar. Qardaşımın sağ qalıb qalmadığını bilmirəm" dedi. O anda qan beynimə sıçradı. Sürətlə oraya getdik. Onu gördük. Dərhal Mübarək üzünü, başını öpüb; "Ey gözümün nuru! Ey aləmlərə rəhmət oğlum! Bə nə haldır, başına gələn nədir? Səni kim

---

[22] İbn İshaq, *əs-Sirə*, s, 25-28; İbn Hişam, *əs-Sirə*, I, 158-167; İbn Sə'd, *ət-Təbəqat*, I, 108-115.

incitdi?" deyə soruşdum. O da; "Evdən çıxdıqdan sonra yaşıl paltarlı iki nəfər gördüm. Birinin əlində gümüşdən bir kuzə, birinin əlində yaşıl zümrüddən bir ləyən vardı. Ləyən qardan ağ bir şey ilə doluydu. Məni dağın başına apardılar. Biri arxam üzərinə uzatdı. Mən baxarkən sinəmi göbəyimə qədər yardı. Heç acı və ağrı hiss etmədim. Əlini soxub, içində nə varsa çıxartdılar. O ağ şey ilə yuyub təzədən yerinə qoydular. Biri o birisinə; "Qalx, mən də oz xidmətimi yerinə yetirim" dedi və əlini soxub ürəyimi çıxartdı. İki hissəyə ayirdi və içindən qara bir şey çıxardıb atdı və; Sənin bədənində şeytanın nəsibi bu idi. Çıxardıb atdıq. Ey Allah Təalanın sevgilisi! Səni vəsvəsədən və şeytanın hiyləsindən əmin etdik. Sonra ürəyimi öz yanlarında olan lətif və yumuşaq bir şey ilə doldurdular. Nurdan bir möhürlə möhürlədilər. Hələ də o möhrün soyuqluğu bütün əzalarımda qalıbdır. Onlardan biri, əlini yarılan yerə qoyunca, yaram sağaldı. Sonra məni, ümmətimdən on nəfərlə çəkdilər, mən ağır gəldim. Min nəfərlə çəkdilər, yenə ağır gəldim. Bundan sonra onlardan biri digərinə; artıq onu çəkməkdən əlini üz. Vallahi, Onu bütün ümmətiylə belə çəksən, ağır gələr" dedi. O zaman hər biri əlimi və üzümü öpdülər, məni burada qoyub getdilər" dedi. Yarılan yer, mübarək sinəsində bilinirdi.[23]

Sevgili Peyğəmbərimizin başından keçən və Qur'ani Kərimin İnşirah surəsinin birinci ayəsində ifadə edilən bu hadisəyə "Şaqqi sadr" yəni sinəsinin yarılması deyilir.

Məhəmməd əleyhissalama peyğəmbərliyi verildikdən sonra, Əshabi kiramdan bəziləri; "Ya Rəsulullah! Bizə özünüzdən bəhs edərsiniz? deyincə; Mən cəddim İbrahimin dayısıyam. Qardaşım İsanın müjdəsiyəm! Anamın isə röyasıyam. O mənə hamilə ikən Şam saraylarını işıqlandıran bir nurun özündən çıxdığını görmüşdü… Mən Sə'd ibn Bəkir oğulları yanında əmizdirilib böyüdüldüm" buyurdu.

Həlimə xatun, dörd yaşından sonra, onu Məkkəyə aparıb anasına verdi. Babası Əbdülmüttəlib, Həlimə xatuna çox böyük hədiyyələr verib, ehsan etdi. Həlimə xatun Onu Məkkədə tərk edincə, ayrılığın acısını; "Sanki canım və könlüm də Onunla birlikdə qaldı" sözləri ilə dilə gətirmişdi.

## Möhtərəm ananın vəfatı

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) altı yaşına qədər də anasının yanında böyüdü. Altı yaşında ikən anası Ümmü Eymən adındakı cariyəsi ilə

[23] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 121; İbn Hişam, *əs-Sirə*, I, 164-165.

birlikdə əqrabalarını və atası Abdullahın qəbrini ziyarət etmək üçün Mədinəyə getdilər. Burada bir ay qaldılar. Cənabi Peyğəmbərimiz Mədinədə Nəccar oğullarına aid hovuzda üzməyi öyrəndi. Bu əsnada bir yəhudi bilicisi Ondakı nübüvvət əlamətlərini gördü. Yanına yaxınlaşıb adını soruşdu. "Əhməd" deyincə, o bilici; "Bu uşaq axır zaman peyğəmbəri olacaqdır!" deyə səsləndi. Ayrıca, ordakı yəhudi alimlərindən bəziləri də, Ondakı peyğəmbərlik əlamətlərini görmüş, peyğəmbər olacağını aralarında danışıb anlatmışdılar. Onların bu sözlərini eşidən Ümmü Eymən vəziyyəti Həzrəti Aminə anamıza xəbər verincə, mübarək anası bir zərər gəlməsindən çəkinərək Onu götürüb Məkkəyə dönmək üçün yola çıxdı. Əbva deyilən yerə gəldiklərində, Həzrəti Aminə anamız xəstələndi. Xəstəliyi şiddətlənib tez tez huşunu itirirdi. Başında dayanan sevgili oğlu Məhəmməd əleyhissalama baxaraq; "Ey dartılan dəhşətli ölüm oxundan Allah Təalanın lütfü və yardımı ilə yüz dəvə əvəzində xilas olan zatın oğlu! Allah Təala səni mübarək eləsin! Əgər röyada gördüklərim doğru çıxarsa, sən cəlal və bol ikram sahibi olan Allah Təala tərəfindən, Adəm oğullarına halal və haramı bildirmək üçün göndəriləcəksən. Cənabi Haqq səni, millətlərlə birlikdə davam edib gələn bütlərdən və bütpərəstlikdən mühafizə edib qoruyacaqdır" dedi və bu beytləri söylədi;

*Əskilər yeni olan, ölür yaşayan,*
*Tükənir çox olan, varmı gənc qalan?*

*Mən də öləcəyəm, tək fərqim budur;*
*Səni mən doğurdum, şərəfim budur.*

*Arxada mən qoydum xeyirli övlad,*
*Gözümü yumarkən, ürəyim rahat.*

*Mənim namım qalır daim dillərdə,*
*Sənin sevgin yaşar həp könüllərdə.*

Sonra vəfat etdi. Orda dəfn edildi. Aminə anamız vəfat etdiyində iyirmi yaşında idi.[24]

Ümmü Eymən Aləmlərin sahibini yanına alıb, bir neçə gün sürən səfərdən sonra Məkkəyə gətirib babası Əbdülmüttəlibin yanına qoydu.

### Babasının yanında

[24] İbn Hişam, *əs-Sirə*, I, 168; İbn Sə'd, *ət-Təbəqat*, I, 116; Süheyli, *ər-Rövzul-Unf*, I, 296; Əhməd Şami, *Sübülül-Huda*, I, 216.

Həbibi əkrəmin (səlləllahu əleyhi və səlləm) atası və anası İbrahim əleyhissalamın dinində idi. Yəni mö'min idilər. İslam alimləri onların İbrahim əleyhissalamın dinində olduqlarını və Məhəmməd əleyhissalama peyğəmbərliyi verildikdən sonra da onun ümmətindən olmaları üçün dirildilib, Kəliməyi şəhadəti eşitdiklərini, söylədiklərini və beləcə bu ümmətdən olduqlarını xəbər vermişlər.[25]

Məhəmməd əleyhissalam səkkiz yaşına qədər babasının yanında böyüdü. Babası Əbdülmüttəlib Məkkədə sevilən və cürbəcür işləri idarə edən bir zat olub, heybətli, səbirli, əxlaqlı, dürüst, mərd və əliaçıq idi. Kasıbları doydurur, hətta ac və susuz qalan heyvanlara belə yem verərdi. Allah Təalaya və axirətə inanırdı. Pisliklərdən çəkinir, cahiliyyə dövrünün hər cür çirkin adətlərindən uzaq dururdu. Məkkədə zülmə, haqsızlığa əngəl olur və gələn qonaqları qəbul edərdi. Ramazan ayında Hira dağında inzivaya çəkilməyi adət etmişdi. Uşaqları sevən və şəfqət sahibi olan Əbdülmüttəlib sevgili nəvəsini bağrına basıb gecə gündüz yanından ayrılmazdı. Ona böyük bir sevgi və şəfqət göstərirdi. Kə'bənin kölgəsində özünə məxsus nimdərdə onunla birlikdə oturar, əngəl olmaq istəyənlər; Əl çəkin oğlumdan, Onun şanı ucadır" deyərdi.[26] Cənabi Peyğəmbərimizin dayəsi Ümmü Eymənə, ona yaxşı qulluq etməsini dönə dönə tapşırar; "Oğluma yaxşı qulluq et. Kitab əhli mənim oğlum haqqında bu ümmətin peyğəmbəri olacaq deyirlər" deyərdi. Ümmü Eymən demişdir ki; "Onun uşaqlığında nə aclıqdan, nə də susuzluqdan şikayət etdiyini gördüm. Səhər vaxtı bir qurtum zəmzəm içərdi. Ona yemək yedirtmək istədiyimdə; "İstəmirəm, toxam" deyərdi".

Əbdülmüttəlib yatarkən və otağında tək olanda, Ondan başqasının yanına girməsinə icazə verməzdi. Onu şəfqətlə bağrına basar, sığallayar, sözlərindən və hərəkətlərindən çox xoşlanardı. Süfrədə Onu yanında tutar, dizində oturdar, yeməyin ən yaxşısını, ən ləzzətlisini Ona yedirdər və O gəlmədən süfrəyə oturmazdı. Onun haqqında neçə röya görüb, bir çox hadisələrə şahid oldu.

Bir dəfə Məkkədə quraqlıq və qıtlıq olmuşdu. Əbdülmüttəlib gördüyü bu röyadan sonra Məhəmməd əleyhissalamın əlindən tutaraq Əbu Qubeys dağına çıxıb; "Allahım, bu uşağın haqqı üçün bizi bərəktəli bir yağmur ilə sevindir" deyrək dua etdi.

---

[25] Kəstalani, *əl-Məvahibu'l-Ləduniyyə*, I, 652.
[26] İbn Sə'd, *ət-Təbəqat*, I, 70-74; Məs'udi, *Murucuz-Zeheb*, II, 275; Yaqubi, *Tarix*, II, 7-9.

Duası qəbul olundu və bol yağmur yağdı. O zamankı şairlər bu hadisəni şe’rlər yazaraq dilə gətirmişdilər.

## Nəcranlı Rahib

Əbdülmüttəlib günlərin birində Kə’bənin yanında oturarkən, Nəcranlı bir rahib yanına gələrək danışmağa başlamışdı. Bu arada; “Biz İsmayıl oğullarından ən son gələcək olan peyğəmbərin əlamətlərinin kitablarda yazılı olduğunu oxuduq. Bura, yəni Məkkə Onun doğum yeridir. Əlamətləri də belə belədir!” deyərək bir bir saymağa başladı. Bu əsnada sevgili Peyğəmbərimiz yanlarına gəlmişdi. Nəcranlı rahib Onu diqqətlə seyr etməyə başladı, sonra da yaxınlaşıb gözlərinə, kürəyinə və ayaqlarına baxdı və həyəcanla; Bax O budur. Bu uşaq sənin nəslindəndir? soruşdu. Əbdülmüttəlib; “Oğlumdur!” deyincə, Nəcranlı rahib; “Kitablarda oxuduğumuza görə, onun atasının sağ olmaması lazım!” dedi. Əbdülmüttəlib; “O, oğlumun oğludur. Atası O doğulmadan əvvəl, anası hamilə ikən ölmüşdü” deyincə, rahib; “İndi düz söylədin” dedi. Bundan sonra Əbdülmüttəlib oğullarına; “Qardaşınızın oğlu haqqında deyiləni eşidin və Ona nəzarət edib yaxşı qoruyun” dedi.

## Babasının vəfatı

Əbdülmüttəlib vəfat edəcəyinə az qala oğullarını toplayıb; “Artıq dünyadan axirətə köçmə vaxtım gəldi. Yeganə düşüncəm bu yetimdir. Kaş ki, ömrüm uzun olaydı və bu qulluğu sevərək davam etdirsəydim. Ancaq əldən nə gəlir? Ömür vəfa etməyəcək. İndi könlüm və dilim bu həsrət alovuyla yanır. Bu inci dənəsini aranızdan birinə əmanət etməyi istəyərdim. Görəsən hansınız layiqi ilə Onun haqlarını qoruyar və qulluğunda qüsur göstərməz” dedi. Əbu Ləhəb dizləri üstündə oturub; Ey Ərəbin ağası! Əgər bu əmanəti təslim etmək üçün fikrinizdə tutduğunuz biri varsa lap əla, yoxdursa bu qulluğu mən edərəm” dedi. Əbdülmüttəlib ona; Malın çoxdur. Ancaq sən kobud qəlblisən və mərhəmətin azdır. Yetim qəlbi isə yaralı və zərifdir. Dərhal qırılar” dedi. Digər uşaqlarından bəziləri də eyni istəyi təkrar etdilər. Növbə Əbu Talıba gəlincə; Mən hamısından çox bunu istəyirəm. Ancaq böyüklərim varkən qabağa düşmək münasib

olmazdı. Malım azdır, amma mənim sədaqətim qardaşlarımdan çoxdur" dedi. Əbdülmüttəlib də; "Düz dedin. Bu xidmətə layiq olan sənsən. Lakin, mən hər işdə Onunla məsləhətləşir və istə'yinə görə hərəkət edirəm. Hər dəfəsində də doğru nəticəyə nail oluram. Bu xüsusda özüylə məsləhətləşəcəyəm. Hansınızı seçərsə, o mənim də qəbulumdur" dedi.

Sonra, sevgili Peyğəmbərimizin yanına gələrək; "Ey gözlərimin nuru! Sənin həsrətinlə axirətə üz tutdum. Bu əmilərindən hansını seçirsən?" deyə soruşdu. Cənabi Peyğəmbərimiz o an qalxıb Əbu Talıbin boynuna sarıldı və dizində oturdu. Əbdülmüttəlib o zaman çox rahat oldu və; "Allah Təalaya həmd olsun. Mənim istədiyim də bu idi" dedi və Əbu Talıba üzünü tutaraq; "Ey Əbu Talıb! Bu inci dənəsi ana ata şəfqətini görməmişdir. Ona görə, nəzarət edib üstündə əsəsən. Səni digər uşaqlarımdan daha üstün görürəm. Bu böyük və çox qiymətli əmanəti sənə tapşırdım. Çünkü sən, Onun atasıyla eyni anadansınız. Onu öz canın kimi qoruyasan. Bu vəsiyyətimi qəbul etdin?" deyə soruşdu. O da; "Qəbul etdim" deyincə, Əbdülmüttəlib sevgili Peyğəmbərimizi qucaqladı, mübarək başını, üzünü öpdu və qoxladı. Sonra; Hamınız şahid olun ki, mən bundan daha gözəl bir qoxu qoxlamadım və bundan daha gözəl bir üz görmədim" dedi.[27]

## Əbu Talıbın himayəsində…

Babasının vəfatından sonra, Kainatın sahibi (səlləllahu əleyhi və səlləm) səkkiz yaşından etibarən əmisi Əbu Talıbın yanında qalmağa başladı və onun himayəsində böyüdü. O zaman Əbu Talıb də, atası Əbdülmüttəlib kimi Məkkədə Qureyşin başda gələnlərindən, sevilən, hörmət edilən və sözü eşidilən bir zat idi. O da Cənabi Peyğəmbərimizə böyük bir sevgi və şəfqət göstərdi. Onu öz uşaqlarından çox sevər, yanına götürmədən yatmaz, bir yerə getməz və; "Sən çox xeyirlisən, çox Mübarəksən!" deyərdi. O, əlini uzatmadan yeməyə başlamaz, öncə Onun başlamasını istəyərdi. Bəzən də Ona ayrı bir süfrə açdırırdı. Səhərləri oyandığında, üzünün ay kimi parıldadığını, saçlarının darndığını görərdilər. Əbu Talıbin çox malı yoxdu, ailəsi də qələbəlikdi. Rəsuli Əkrəmi (səlləllahu əleyhi və səlləm) himayəsinə aldıqdan sonra,

[27] İbn İshaq, *əs-Sirə*, s, 45-48; İbn Hişam, *əs-Sirə*, I, 169-178; İbn Sə'd, *ət-Təbəqat*, I, 117; Süheyli, *ər-Rövzul-Unf*, I, 299; Əhməd Şami, *Sübülül-Huda*, II, 135.

bolluğa və bərəkətə qovuşdu. Məkkədə meydana gələn quraqlıq səbəbiylə xalq çətinliyə düşdüklərində, Əbu Talıb Onu Kə'bənin yanına aparıb, dua etdi. Onun bərəkətiylə bol yağış yağdı. Quraqlıq və qıtlıqdan xilas oldular.[28]

## Rahib Bəhira

Sevgili Peyğəmbərimiz on iki yaşında ikən, bir gün Əbu Talıbın ticarət üçün səfərə hazırlaşdığını gördü. Onu aparmaq istəmədiyini anlayınca, Əbu Talıba; "Bu şəhərdə məni kimə tapşırıb gedirsən? Nə atam var, nə də bir ürəyi yananım!" buyurdu. Bu söz Əbu Talıba çox tə'sir etdi. Onu da özü ilə aparmaq qərarına gəldi. Ticarət karvanı uzun bir səfərdən sonra, Busrada xristiyanlara məxsus bir monastırın yaxınlığında düşərgə qurdu. Bu monastırda Bəhira adında bir rahib qalırdı, əvvəllər yəhudi alimi ikən, sonradan xristiyan olan bu bilici rahibin yanında, əldən ələ keçərək qorunan bir kitab vardı və soruşulanlara ondan cavab verərdi. Qureyşin karvanı bundan əvvəlki illərdə dəfələrlə gəlib keçməsinə baxmayaraq heç maraqlanmamışdı. Hər səhər monastırın damına çıxıb qafilələrin gəldiyi tərəfə baxar, arayış içində bir şeylərin yolunu gözləyərdi. Rahib Bəhiraya bu dəfə bir hal olmuş və həyəcanla diksinib yerindən qalxmışdı. Çünkü, Qureyş karvanı uzaqdan görününcə üstündə bir buludun da onlarla birlikdə süzülüb gəldiyini görmüşdü. Bu bulud, Cənabi Peyğəmbərimizə kölgə salmaqdaydı. Karvan düşərgə qurunca, Bəhira Həbibi əkrəmin altında oturduğu ağacın budaqlarının üzərinə tərəf əyildiyini də görərək əməlli başlı həyəcanlanmuşdı. Dərhal süfrələr açdırdı. Sonra, birini göndərərək Qureyş karvanında olanların hamısını yeməyə də'vət etdi. Karvandakılar, sevgili Peyğəmbərimizi mallarının yanında qoyub, rahibin yanına getdilər. Bəhira gələnlərə diqqətlə baxıb; "Ey Qureyş camaatı! Aranızda yeməyə gəlməyən qaldı?" soruşunca; "Bəli, bir nəfər qaldı" dedilər. Çünkü Qureyşlilər gəldiyi halda bulud hələ orda idi. Bunu görüncə, karvanda birinin qaldığını anlamışdı. Rahib Bəhira, israr edərək Onun da gəlməsini istədi. Gələr gəlməz Ona diqqətlə baxmağa və süzməyə başladı. Əbu Talıba; Bu uşaq sənin nəslindəndir?" soruşdu. Əbu Talıb; "Oğlum" deyincə, Bəhira; Kitablarda bu uşağın atasının sağ olmayacağı yazılıdır, O sənin oğlun deyildir" dedi. Bu dəfə Əbu Talıb; "O mənim qardaşımın oğludur" deyə cavab verdi. Bəhiranın; "Atasına nə oldu?" sualına da; "Atası, doğumuna yaxın vəfat

[28] İbn Hişam, *əs-Sirə*, I, 179-180; İbn Sə'd, *ət-Təbəqat*, I, 119.

etdi" dedi. Bəhira; Düz dedin, anasına nə oldu?" deyincə; "O da vəfat etdi" deyə cavab verdi. Bunlar qarşısında; "Düz dedin" deyən Bəhira, Cənabi Peyğəmbərimizə tərəf üzünü çevirib, bütlər adına and içdi. Sevgili Peyğəmbərimiz Bəhiraya; "Bütlərin adıyla and içmə. Dünyada mənə onlardan böyük düşmən yoxdur. Mən onlara nifrət edirəm" buyurdu.

Bəhira bu dəfə Allah Təala adına and içib; "Heç yatırsan?" dedi. "Gözlərim yatar, ancaq qəlbim yatmaz" buyurdu. Bəhira bir çox sual da soruşub, cavablarını aldı. Aldığı cavablar əvvəllər oxuduğu kitablarla eyniylə üst üstə düşürdü. Sonra, sevgili Peyğəmbərimizin mübarək gözlərinə baxıb Əbu Talıbə; "Bu qırmızılıq, mübarək gözlərində daim qalır?" deyə soruşdu. O da; "Bəli, yox olduğunu görmədik" dedi. Bəhira bu əlamətin də uyğunluğunu görüncə, qəlbinin yəqinlik hasil etməsi üçün nübüvvət möhürünü görmək istədi. Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), ədəblərindən mübarək kürəyini açmaq istəmədilər. Əbu Talıb; "Ey gözümün nuru! Bu arzusunu da yerinə yetir" deyincə, mübarək kürəyini açdı. Bəhira, "Nübüvvət möhürünə" bütün gözəlliyi ilə doya doya tamaşa etdi. Həyəcanla öpdü və gözlərindən sel kimi yaş axdı. Sonra da; "Mən şəhadət edirəm ki, sən Allah Təalanın rəsulusan" dedi. Səsini daha da yüksəldərək; "Budur Aləmlərin sahibi… Budur aləmlərin Rəbbinin rəsulu… Budur, Allah Təalanın aləmlərə rəhmət olaraq göndərdiyi böyük peyğəmbər…" dedi. Orada olan Qureyşlilər heyrət edərək; "Məhəmmədin, bu rahib nəzdindəki qiyməti nə qədər çox imiş" dedilər.

Bəhira, Əbu Talıba üzünü çevirərək; "Bu, peyğəmbərlərin axırıncısı və ən şərəflisidir. Bunun dini bütün yer üzünə yayılar və əski dinləri ortadan qaldırar. Bu uşağı Şama aparma. Çünkü, İsrail oğulları Ona düşməndir. Qorxuram ki, Mübarək bədəninə bir zərər verərlər. Bunun haqqında çox əhd və misaq olmuşdur" dedi. Əbu Talıb; "Bu əhd və misaq nədir?" deyə soruşunca; "Allah Təala bütün peyğəmbərlərdən və ən son da İsa əleyhissalamdan ümmətlərinə, axır zaman peyğəmbərinin gələcəyini xəbər vermələri üzərinə söz almışdır" dedi.

Əbu Talıb, Bəhiranın bu sözlərindən sonra, Şama getmək fikrindən döndü. Mallarını Busrada satıb Məkkəyə qayıtdı.[29] Bəhiradan eşitdikləri Əbu Talıbin ömür

[29] İbn İshaq, *əs-Sirə*, s, 53-58; İbn Hişam, *es-Sirə*, I, 180-182; İbn Sə'd, *ət-Təbəqat*, I, 76, 154-156; Təbəri, *Tarix*, II. 277-279; Süheyli, *ər-Rövzul-Unf*, II, 216-220; Məs'udi, *Murucuz-Zeheb*, II, 286; İbn Kəsir, *əl-Bidayə*, III, 283-286.

boyu qulaqlarından getmədi. Cənabi Peyğəmbərimizi daha da çox sevdi. Onu ölüncəyə qədər qorudu və hər işində köməkçi oldu.

Bu halıyla fəzilətlər və gözəlliklər sahibi və istisnai bir insan olan sevgili Peyğəmbərimiz böyümüş və on yeddi yaşına çatmışdı. Bu əsnada Yəmənə ticarət məqsədiylə gedən əmisi Zübeyir, ticarətin bərəkətli olması üçün Onu da özü ilə apardı. Bu səfərdə də neçə qeyri adi hallar gördü. Məkkəyə qayıtdıqlarında, Onun bu halları nəql edildi və Qureyş qəbiləsi arasında; "Bunun şanı çox uca olacaq" deyə söyləməyə başlandı…[30]

*Sənin eşqin qamu dərdə dəvadır ya Rəsulallah*
*Sənin qatında hacətlər rəvadır ya Rəsulallah.*

*Sənin nurun görən gözlər nə ay gözlər, nə ulduzlar*
*Nurundan gecə gündüzlər ziyadır ya Rəsulullah.*

*Tərindən açılır güllər, sözündən şəhdü şəkərlər*
*Səninlə xəstə könüllər şəfadır ya Rəsulallah.*

*Həbibsən padişahlara, təbibsən dərdü ahlara*
*Şəfaətin günahkara səfadır ya Rəsulallah.*
*ŞƏYYAD HƏMZƏ*

[30] İbn İshaq, *əs-Sirə*, s, 53-59; İbn Sə'd, *ət-Təbəqat*, I, 120-123.

## GƏNCLİYİ və EVLƏNMƏSİ

Hər cəhətdən insanların ən üstünü olan Məhəmməd əleyhissalam, hələ gənclik illərində Məkkə xalqı arasında yaşıdlarına görə çox bəyənilmişdir. Gözəl əxlaqı, insanlara görülməmiş bir şəkildə yaxşı davranması, sakitliyi, həlimliyi və digər üstün hallarıyla sevilmişdir. İnsanlar, bu xislətlərindən ötrü Ona heyran olmuşdur. Məkkə xalqı gördükləri heyrətamiz dərəcədə doğru sözlü və etibarlı olması səbəbiylə Ona "əl-Əmin", yəni hər zaman etibar edilən kimsə ləqəbini verdilər. Beləcə, gəncliyində bu adla məşhur oldu.

Peyğəmbərimizin gənclik illərində, Ərəblər qatı bir cahiliyyə dövrü yaşayırdılar. Bütə sitayiş etmək, içgi, qumar, zina, faiz və başqa bir çox çirkin işlər aralarında yayılmışdı. Məhəmməd əleyhissalam onların bu pozğun hallarına son dərəcə nifrət edər, hər pislikdən daim uzaq gəzərdi. Bütün Məkkə xalqı Onun bu halını bilir və heyrət edərdilər. Bütlərə çox nifrət etdiyi üçün əsla yanlarına yaxınlaşmazdı. Bütlər üçün kəsilən qurbanların ətlərindən heç yemədi. Uşaqlığında və gəncliyində özünə aid qoyunları, Ciyad dağı və ətrafında güdər, dolanışığını beləcə tə'min edərdi. Bu şəkildə, həddən artıq pozulmuş olan cəmiyyətdən uzaq gəzərdi. Bir dəfəsində Əshabi kirama; "Qoyun güdməyən heç bir peyğəmbər yoxdur" buyurmuşdu. "Ey Rəsulallah! Siz də güddünüz?" soruşduqlarında; "Bəli, mən də güddüm" buyurdu.

Sevgili Peyğəmbərimiz iyirmi yaşında olarkən, Məkkədə asayiş tamamiylə pozulmuşdu. Zülüm son dərəcə yayğınlaşıb, mal, can və namus əmniyyəti qalmamışdı. Məkkənin yerli xalqı, ticarət və Kə'bəni ziyarət üçün gələn yabançılara haqsızlıq və zülm edirdilər. Zülmə düçar olan kimsələr haqlarını əldə etmək üçün müraciət edəcək bir yer tapa bilmirdilər. Bu əsnada ticarət məqsədi ilə Məkkəyə gələn Yəmənli bir tacirin malları As ibn Vail adında bir Məkkəli tərəfindən, məcbur edilərək əlindən alınıb qəsb edilmişdi. Bu hadisədən sonra Yəmənli, Əbu Qubeys dağına çıxıb fəryad edərək haqqının alınması üçün qəbilələrdən kömək istədi. Artıq zülmün son həddə çatdığını dilə gətirən bu hadisələrdən sonra, Haşım və Zührə oğulları ilə digər qəbilələrin başda gələnləri Abdullah ibn Cüd'anın evində toplandılar. Nə yerli, nə də yad heç kimsəyə zülüm və haqsızlıq edilməməsinə, zülmə əngəl olmağa və haqsızlığa düçar olmuş olanların haqlarını tə'min etməyə qərar verdilər. Bu məqsədlə bir ədalət cəmiyyəti

qurdular.[31] Sevgili Peyğəmbərimizin gənc yaşda qatıldığı və təsisində də çox tə'sirli olduğu bu cəmiyyətə Hilful-Fudul deyildi. Daha əvvəl Fəzl adında iki nəfər və Fuzayl adında biri tərəfindən də belə bir cəmiyyət qurulmuşdu. Onların əvvəldən qurduğu cəmiyyətə izafətən bu ad verilmişdi. Bu cəmiyyət zülmə əngəl olub, Məkkədə pozulmuş olan asayişi yenidən tə'min etdi. Rəsulullah, özünə peyğəmbərlik xəbər verildikdən sonra Əshabi kirama nəql edib; "Abdullah ibn Cüd'anın evində edilən andiçmədə mən də iştirak etmişəm. Mənə o andiçmə, qırmızı yunlu dəvələrə(sərvətə) sahib olmaqdan daha sevimlidir. İndi də belə bir məclisə dəvət edilsəm gedərəm" buyurdu.[32]

## Ticarətlə məşğul olması

Məkkəlilər, əvvəldən etibarən ticarətlə məşğul olaraq dolanışıqlarını bu yoldan tə'min edərdilər. Cənabi Peyğəmbərin (səlləllahu əleyhi və səlləm) əmisi Əbu Talıb da ticarətlə məşğul olardı. Sevgili Peyğəmbərimiz iyirmi beş yaşında ikən Məkkədə dolanışıq çətinliyi əməlli başlı artmışdı. Bu səbəblə Məkkəlilər Şama getmək üçün böyük bir ticarət karvanı hazırladılar. Bu günlərdə, Əbu Talıb Cənabi Rəsulullahın yanına gəlib; "Ey möhtərəm qardaşımın oğlu! Kasıbçılıq son həddə çatdı. Qıtlıq və mücadilə ilə keçirtdiyimiz bu son illər əlimizdə, ovcumuzda bir şey qoymadı. Budur, Qureyş karvanı hazırlanmış, Şama yola çıxmaq üzərədir. Xədicə xatun da karvanla mal göndərəcək. Mütləq bu işi görəcək etibarlı adamlar axtarır. Heç şübhə yoxdur ki, sənin kimi etibarlı, pak və vəfalı bir kimsəyə ehtiyacı vardır. Gedib bir danışsaq və sənin vəkil olaraq getməyini təşkil etsək yaxşı olar. Çox güman ki, səni başqalarından üstün tutar. Əslində mən, sənin Şama getməyini istəmirəm. Çünkü, ordakı yəhudilərin sənə bir zərər verməsindən qorxuram. Ancaq başqa çarə də tapa bilmirəm" dedi. Cənabi Peyğəmbərimiz ona; "Sən necə istəyirsənsə elə də et" buyurdular.

Həzrəti Xədicə, gözəlliyi, malı, ağlı, iffəti, həyası və ədəbi ilə Ərəbistanda böyük şöhrəti olan bir xanım idi. Bu səbəblə hər tərəfdən ona elçi gələn və rəğbət göstərən çox adam vardı. Ancaq, gördüyü röya səbəbiylə o, heç bir kimsəyə könlünü verməmişdi. Röyasında, göydən ay enib qoynuna girmiş, ayın nuru qoltuğundan çıxıb

[31] Süheyli, *ər-Rövzul-Unf*, s. I, 91; İbn Həbib, *əl-Munammaq*, s. 219; 340-341.
[32] İbn Hişam, *əs-Sirə*, I, 133; İbn Sə'd, *ət-Təbəqat*, I, 82; Süheyli, *ər-Rövzul-Unf*, s. I, 91; İbn Həbib, *əl-Mühəbbər*, s. 167; İbn Kəsir, *əl-Bidayə*, III, 290-293; Məs'udi, *Murucuz-Zeheb*, II, 270-271; Yaqubi, *Tarix*, II, 13-14.

bütün aləmi işıqlandırmışdı. Səhər olunca bu röyanı əqrabası olan Kə'bə ibn Nofələ danışdı. Kə'bə; "Axır zaman Peyğəmbəri ortaya çıxmışdır. Səninlə evlənər və sənin zamanında Ona vəhiy nazil olar. Dininin nuru aləmi doldurar. Ən əvvəl iman edən sən olarsan. O Peyğəmbər, Qureyşdən və Bəni Haşımdan olar" dedi. Həzrəti Xədicə, bu cavaba çox sevindi və o Peyğəmbərin gəlməsini gözləməyə başladı.

Həzrəti Xədicə ticarətlə məşğul olar, müqavilə bağladığı şəxslərlə şərik olardı. Əbu Talıb, Həzrəti Xədicə anamıza vəziyyəti başa saldı. Bundan sonra, Həzrəti Xədicə Rəsulullahı görüb, danışmaq üçün evinə dəvət etdi. Peyğəmbərimiz təşrif edincə, çoxlu tə'zim və ehtiram göstərdi. Cənabi Peyğəmbərimizin nəzakəti, mə'sum və pak camalını görüb heyran qaldı. Cənabi Rəsulullaha dedi ki; "Doğru sözlü, etibarlı, əmniyyətli və gözəl xasiyyətli olduğunuzu bilirəm. Bu iş üçün heç kimə vermədiyim muzdun qat-qat çoxunu verəcəyəm…" Sonra bu xidmətdə lazım olacaq paltarlar verərək, qəlb hüzuru içində təşyi etdi.

Həzrəti Xədicə anamız, müdrik bir adam olan əmisi oğlu Vərəqə ibn Nofəldən peyğəmbərlik əlamətlərini öyrənmişdi. Cənabi Rəsulullahın bu gəlişində də peyğəmbərlik xüsusiyyətlərini anlamışdı. Bu səbəblə Meysərə adlı nökərinə; "Karvan Məkkədən ayrıldığı zaman, dəvənin yüyənini Məhəmməd əleyhissalamın əlinə ver ki, Məkkəlilər dedi-qodu etməsinlər. Şəhərdən ayrılıb gözdən itincə, bu qiymətli paltarları Ona geyindir" dedi. Sonra, dəvələrindən ən qəşəngini hökmdarlara layiq şəkildə hazırlatdı. Meysərəyə; "Onu bu dəvəyə böyük bir ehtiramla mindirib, yüyənini əlinə al və özünü də o Həzrətin xidmətçisi bil! Ondan icazəsiz bir iş görmə və Onu qorumaq və təhlükələri sovuşdurmaq üçün canını əsirgəmə! Getdiyiniz yerlərdə çox dayanmayı və tez gəlin. Beləcə Haşım oğullarının yanında xəcalət çəkməyək. Əgər bu dediklərimi olduğu kimi yerinə yetirsən, səni azad edər, istədiyin qədər də mal verərəm" dedi.

Karvan hazırlandı. Məkkəlilər də yaxınları ilə vəda etmək üçün toplandılar. Sevgili Peyğəmbərimizin əqrabası, əmiləri, Haşım oğullarının böyükləri də toplanmışdılar. Peyğəmbərimizin xalası, Allah Təalanın Rəsulunu (səlləllahu əleyhi və səlləm) xidmətçi paltarı ilə və dəvənin yüyənini əlinə almış görüncə, taqətdən düşdü, ağlayıb fəryad etdi. Ahu zar edib, gözlərindən yaş tökərək; "Ey Əbdülmüttəlib! Ey Zəmzəm quyusunu qazan böyük zat! Ey Abdullah! Qəbirlərinizdən qalxıb, üzünüzü bu tərəfə çevirib bu mübarək insanın halını görün! deyərək dərdini dilə gətirdi. Əbu Talıb də eyni hiss və duyğu içində idi. Cənabi Rəsulullahın, Haqqı görən gözlərindən inci

kimi göz yaşları töküldü və; "Məni əsla unutmayın. Qürbət eldə qəm və kədər çəkdiyimi xatırlayın" buyurdu. Bu sözləri eşidənlərin hamısı ağladı. Göydəki mələklər də bu hala şərik oldular və; Ey Rəbbimiz! Bu, özünə həbib edərək, ən böyük məqamı ehsan etdiyin Məhəmməd əleyhissəlamdır. Bu halın hikməti nədir? dedilər. Allah Təala onlara; "Doğrudur! O, Mənim həbibimdir. Ancaq siz məhəbbət sirrini bilməzsiniz. Sevilən və sevən arasındakı sirlərə vaqif ola bilməzsiniz. Bu məqamı heç kim bilməz. Bu gizli işdən heç kim bir şey başa düşməz" buyurdu.

Nəhayət karvan yola düşüb Məkkə gözdən itincə Meysərə, ona verilən əmrə görə, qiymətli paltarları sevgili Peyğəmbərimizə geyindirdi. Müxtəlif parçalarla örtülmüş və çox gözəl bəzədilmiş bir dəvəyə mindirdi. Yüyənini də öz əlinə aldı.

Bu səfərdə karvandakılar, aləmlərə rəhmət olaraq göndərilən sevgili Peyğəmbərimizin üzərində, Ona kölgə salan bir bulutun və quş cildinə girən iki mələyin, Onunla birlikdə səfər bitincəyə qədər hərəkət etdiyini gördülər.[33] Yolda yeriyə bəlməyəcək qədər yorulub karvandan dalda qalan iki dəvənin ayaqlarını əliylə sığallamasından sonra, dəvələrin birdən sür'ətlənməsi kimi müxtəlif hallarını görüncə, Onu çox sevib, şanının uca olduğunu anladılar. Busra deyilən yerə çatdıqlarında, yenə oradakı monastırın yanında düşərgə qurmuşdular. Gördüyü bir çox əlamətlərdən, Onun peyğəmbər olacağını hiss edib deyən rahib Bəhira ölmüş, yerinə Nəstura adında bir başqası keçmişdi. Monastrın yaxınlığında gəlib düşərgə quran Qureyş karvanını seyr edən rahib Nəstura, yanında olan quru ağacın altında birinin oturduğunu, ağacın da dərhal yaşıllaşdığını görüncə Meysərəyə; "Bu ağacın altındakı şəxs kimdir?" deyə soruşdu. Meysərə; "Bu Qureyş qəbiləsinin Hərəm xalqından biridir". Rahib; "İndiyədək bu ağacın altında peyğəmbərdən başqası oturmamışdır" dedi. Sonra da; Görəsən Onun gözlərində bir az qırmızılıq var?" deyə soruşdu. Meysərə; "Bəli, var. Bu qırmızılıq Onun gözlərindən əsla yox olmaz" dedi. Nəstura; "İsa ələyhissalama İncili endirən Allah Təala haqqı üçün bu şəxs son peyğəmbər olacaqdır. Nə olaydı da mən, Onun peyğəmbərliklə əmr olunduğu günə çatsaydım" dedi…

Məhəmməd ələyhissalam Busra bazarında Xədicə xatunun mallarını satarkən Onunla alış-veriş edən bir yəhudi inanmadığı üçün "Lat və Üzza adındakı bütlərə and iç inanım" deyincə, Məhəmməd ələyhissalam; "Mən o bütlərin adına əsla and içmərəm.

---

[33] Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 41.

Onların yanından keçərkən üzümü yan tərəfə çevirirəm" buyurdu. Ondakı digər əlamətləri də görən yəhudi; "Söz, sənin sözündür. Vallah bu şəxs peyğəmbər olacaq adamdır" dedi və; "Alimlərimiz kitablarda bunun xüsusiyyətlərini demişlər" deyərək heyranlığını dilə gətirdi.

Meysərə, Cənabi Rəsulullahda gördüyü və haqqında eşitdiyi hər şeyi zehnində həkk edir və Ona olan heyranlığı get-gedə artırdı. Meysərənin qəlbində, Aləmlərin sahibinə qarşı böyük bir məhəbbət baş qaldırmışdı. Artıq Ona zövqlə və hörmətlə qulluq edir, ən kiçik bir işarəsini böyük bir həvəslə yerinə yetirirdi.

Aparılan mallar satılmış, Cənabi peyğəmbərimizin bərəkətiylə hər zamankından qat-qat çox qazanc əldə edilmişdi. Karvan dönüşə üz tutdu. Mərruzzahran bölgəsinə gəldikləri zaman Meysərə, sevgili Peyğəmbərimizə Məkkəyə müjdə xəbərini çatdırmasını təklif etdi. Rəsulullah da qəbul edərək, karvandan ayrılıb Məkkə tərəfə dəvəsini sürdü.

Nəfisə binti Müniyyə xatun nəql etmişdir ki; "Karvanın gəlmə zamanı yaxınlaşmışdı. Xədicə xatun hər gün xidmətçiləriylə evinin üstünə çıxıb karvanın yolunu gözləyərdi. O gün mən Xədicənin yanındaydım. Birdən uzaqdan dəvəyə minmiş biri göründü. Üzərində bir bulut və quş cildinə girmiş iki mələk ona kölgə salır, Peyğəmbərimizin mübarək alnındakı nur, ay kimi parıldayırdı. Xədicə Xatun gələnin kim olduğunu anlayıb könlü fərəhləndi. Ancaq ozunu bilməməzliyə vurub; "Görəsən bu isti gündə gələn kim ola bilər?" deyə soruşdu. Xidmətçilər; "Bu gələn Məhəmmədə (əleyhissalam) bənzəyir" dedilər və gördükləri qarşısında heyrətə düşdülər. Bir az sonra Rəsuli Əkrəm səlləllahu əleyhi və səlləm Xədicə anamızın köşkünə gəldi və vəziyyəti anlatdı. Verdiyi müjdə ilə onu çox sevindirdi.

Bir müddət sonra karvan Məkkəyə girdi. Meysərə, Həzrəti Xədicə anamıza, səfər əsnasında Cənabi Peyğəmbərimizin kölgələndirildiyini, rahib Nəsturanın dediklərini, zəif dəvələrin nəcə sür'ətləndirildiyini və buna oxşar gördüyü neçə qeyri adi hadisələri bir-bir danışdı. Cənabi Peyğəmbərimizi bacardıqca mədh etdi. Həzrəti Xədicə bunları bilirdi, ancaq bu sözlər onun yəqinini artırdı. Meysərəyə; "Bu gördüklərini heç kimə danışma" deyərək tapşırdı.[34]

---

[34] İbn İshaq, *əs-Sirə*, s, 59; İbn Kəsîr, *əs-Sirə*, I, 262; İbnul-Cövzi, *əl-Vəfa bi-əhvalil-Mustafa*, I, 143.

Xədicə anamız, bu eşitdiklərini xəbər vermək üçün Vərəqə ibn Nofəlin yanına getdi. Olanlara böyük heyranlıqla qulaq asan Vərəqə; “Ey Xədicə! Bu dediklərin doğru isə, Məhəmməd ələyhissalam bu ümmətin peyğəmbəri olacaqdır” dedi.

Cənabi Peyğəmbərimiz 12 yaşında ikən əmisi Əbu Talıb ilə, ticarət üçün Busraya qədər, 17 yaşında ikən əmisi Zübeyrlə Yəmənə, 20 yaşında Şama və 25 yaşında da Həzrəti Xədicənin mallarını satmaq üçün yenə Şama olmaq şərtiylə tam dörd dəfə səyahətə çıxdı. Bu səyahətlərindən başqa heç bir yerə səyahət etmədi.

## Həzrəti Xədicə ilə evlənməsi

Həzrəti Xədicə anamız Vərəqə ibn Nofəlin verdiyi müjdə ilə və sevgili Peyğəmbərimizin gözəl xislətlərini görüncə, Onun xanımı olub, xidmətiylə şərəflənməyə meyl etdi. Nəfisə binti Müniyyə bu halı hiss edib araya girdi. Bu niyyətlə Rəsuli əkrəmin ali hüzuruna gəldi və; “Ya Məhəmməd! Sizin evlənməmənizə əngəl olan nədir?” deyə soruşdu. Peyğəmbərimiz; “Evlənmək üçün kifayət qədər əlimdə pul yoxdur” buyurdu. Nəfisə xatun; “Ya Məhəmməd! Əgər namuslu və şərəfli, mal və gözəlik sahibi bir xanımla evlənmək istəsən qulluğunda hazıram” dedi. Sevgili Peyğəmbərimiz; “O xanım kimdir?” buyurunca; “Xədicə binti Xüveyliddir” dedi. Cənabi Rəsulullah; “Bu işə kim vəsilə olar ki?” buyurunca da; “Bu işi mən düzəldərəm” deyib yanından ayrıldı. Həzrəti Xədicənin yanına gəlib müjdəni verdi. Həzrəti Xədicə, qohumu Əmr ibn Əsədlə Vərəqə ibn Nofəli çağırıb vəziyyəti başa saldı. Bununla birlikdə, Cənabi Rəsulullaha xəbər göndərib, müəyyən bir saatda təşrif etməsi üçün dəvət etdi. Əbu Talıb və qardaşları da hazırlıq gördülər Həzrəti Peyğəmbərlə birlikdə getdilər.

Həzrəti Xədicə anamız evini bəzəyib-düzədi. Bu günün şükür sədəqəsi olaraq bütün zinətlərini xidmətçilərinə hədiyyə etdi. Sonra da onları azad etdi. Cənabi Rəsulullah, Xədicə anamızın evinə əmiləri ilə birlikdə təşrif etdilər. Əbu Talıb; “Yaradana həmd olsun ki, bizi İbrahim əleyhissalamın övladından və İsmayıl əleyhissalamın nəslindən eylədi. Bizi Beytullahın mühafizi etdi. İnsanların qibləsi və aləmlərin tavaf etdiyi o Mübarək evi, hər pislikdən qoruduğu Hərəmi şərifi bizə müyəssər eylədi. Qardaşım Abdullahın oğlu Məhəmməd elə bir adamdır ki, Qureyşdən hər hansı birisiylə müqayisə edilsə, üstün gələr. Hərçənd ki, malı azdır, ancaq mala

e'tibar edilməz. Çünkü mal kölgə kimidir. Əldən ələ keçərək gedər. Qardaşım oğlunun şərəfi, üstünlüğü hamınıza məlumdur. İndi də Xədicə binti Xüveylidi halalığa istəyir. Malımdan nə qədər mehr verilməsini istəyirsiniz? And içirəm ki, Məhəmmədin mərtəbəsi çox yüksəkdir" dedi. Vərəqə ibn Nofəl bu deyilənləri təsdiq etdi. Xədicə anamızın əmisi Əmr ibn Əsəd; "Şahid olun ki, Xədicə binti Xüveylidi Məhəmməd ələyhissalama xatunluğa verdim" dedi. Beləcə nikah əqdi kəsildi. Bir rəvayətə görə mehr 400 misqal qızıl, bir rəvayətə görə də beş yüz dirhəm, başqa bir rəvayətə görə də 20 dəvə idi.[35]

Əbu Talıb, toy ziyafəti üçün bir dəvə kəsib, o günə qədər görülməyən bir yemək verdi. Evlilik baş tutdu. Həzrəti Xədicə anamız, bütün varlığını Cənabi Peyğəmbərimizə hədiyyə etdi və; "Bu malların hamısı ali şəxsinizə aiddir. Mən də sənə möhtacam və minnətin altındayam" dedi.

Həzrəti Xədicə anamız, evlilik həyatı boyunca peyğəmbərimiz Məhəmməd əleyhissalama daim qulluq edib, köməkçisi oldu. Cənabi Peyğəmbərimizin bu evliliği, Xədicə anamızın vəfatına qədər iyirmi beş il davam etdi. Bunun on beş ili bis'ətdən (Peyğəmbərliyin bildirilməsindən) əvvəl, on ili də bis'ətdən sonra idi. Peyğəmbərimiz Məhəmməd əleyhissalam, ilk zövcəsi Həzrəti Xədicə sağ ikən başqası ilə əsla evlənmədi. İkisi oğlan, dördü də qız olmaqla altı uşağı oldu. Bunlar; Qasım, Zeynəb, Ruqiyyə, Ümmü Gülsüm, Fatimə və Abdullah (Tayyib vəya Tahir) dir. Peyğəmbərliyi əsnasında evləndiyi Həzrəti Mariyədən də İbrahim adında bir oğlu olmuşdu. Digər zövcələrindən uşağı olmadı. Zeynəb, qızlarının ən böyüyü idi. Ən kiçik qızı Fatimə, atasının ən sevimlisiydi. Hicrətdən on üç il əvvəl doğuldu. Oğulları kiçik yaşlarda vəfat etmişdilər. Həzrəti Fatimədən başqa bütün qızları da Ondan əvvəl vəfat etdilər. Fatimə anamız da Cənabi Peyğəmbərdən altı ay sonra vəfat etdi. Həzrəti Əli ilə evlənmişdi. Sevgili peyğəmbərimiz Məhəmməd əleyhissalamın soyu, Həzrəti Fatimənin övladları ilə davam etdi.[36]

Rəsuli Əkrəm (səlləllahu əleyhi və səlləm), Xədicə anamızla evləndikdən sonra da ticarətlə məşğul oldu. Qazanclarıyla yolda qalanları qonaq edər, yetimlərə və kasıblara yardım edərdilər.

---

[35] İbn Hişam, *əs-Sirə*, I, 43; İbn Sə'd, *ət-Təbəqat*, VIII, 9; Süheyli, *ər-Rövzul-Unf*, I, 321; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 41.

[36] İbn İshaq, *əs-Sirə*, s, 59-61; İbn Sə'd, *ət-Təbəqat*, I, 82-85; 131-132; Təbəri, *Tarix*, II. 280-282; İbn Kəsir, *əl-Bidayə*, III, 293-295; Məs'udi, *Murucuz-Zeheb*, II, 275; Yaqubi, *Tarix*, II, 15-16.

## Zeyd İbn Harisə

Zeyd ibn Harisə, uşaq yaşlarında ikən anası Su'də ilə birlikdə qohumlarını ziyarətə getmişdi. Bu əsnada başqa bir qəbilənin basqinina rast gəldilər. Zeydi əsir götürdülər. Məkkəyə, Suqi Ukaz deyilən bazara gətirib satılığa qoydular. Həzrəti Xədicənin bacısının oğlu Hakim ibn Hizam, Zeydi 400 dirhəmə satın aldı. Hakim ibn Hizam da Zeydi, xalası Həzrəti Xədicəyə, o da Cənabi Peyğəmbərimizə hədiyyə etdi. Cənabi Peyğəmbərimiz, Həzrəti Xədicəylə evli idilər. Cənabi Peyğəmbərimiz onu dərhal azad edərək, yanında saxladı. Çünkü, azadlığa buraxılan Zeyd ibn Harisənin gedəcək bir yeri olmadığı kimi, Rəsulullahdan daha yaxşı onun qayğısına qalacaq bir kimsəsi də yox idi. O da, sevə-sevə Rəsulullahın yanında qaldı.

Zeyd ibn Harisə, peyğəmbərlik verilmədən əvvəl də, ədalət, insaf, mərhəmət, insan sevgisi, gülər üzlülük, kərəm, comərdlik, əhdə vəfa(sözünü tutma), əmanətə riayət, yardım sevərlik, fədakarlıq, güvənirlik, məzlumu, kasıbı qoruma, uşaqlara sevgi və məhəbbət göstərmə, dürüstlük, doğru sözlülük, nəzakət, təvazökarlıq, i'tidal, insanları yaxşı idarə etmə, cəsarət və şücaət kimi hər cür gözəl əxlaqı tamamlamaq üçün yaradılmış, hər cəhətdən, gəlmiş və gələcək olan bütün yaradılmışlardan üstün olan, hamının e'timadını qazanaraq "əl-Əmin" ləqəbini alan Cənabi Peyğəmbərimizdən gördüyü gözəl davranış səbəbi ilə, atasından və anasından daha çox sevir, yanından heç ayrılmaq istəmirdi.

Ana və atası, oğullarının haraya aparıldığını, ona nə edildiyini bilmirdilər. Atası Harisə, övlad dərdi ilə yanıb-alışır, diyar-diyar gəzərək oğlunu axtarırdı. Yəməndən müxtəlif ölkələrə gedən qohumlarına və tanıdıqlarına dəfələrlə tapşıraraq, oğlu Zeyddən bir xəbər gətirmələrini istəyir, şe'r oxuyaraq göz yaşı axıdırdı. Oğluna olan həsrətini dilə gətirən bir şe'ri belədir;

Ağladım Zeydimə bilməm nə etdi?
Sağmı, yoxsa ona əcəlmi gəldi?

Sorma ey könül bihudə onu,
Bilməzsən məzarı ova, ya da qayadır.

Zeydim, balam! Gedənin geri dönəcəyini bilsəm ah!
Səndən başqasının dönməsini istəməm vallahi.

Anaram, əsincə rüzgar, harda bir usaq görsəm onu,
Və doğarken günəş xatırladır səni hər sabah.

Fəryad, ciyər param üçün minlərcə fəryad,
Minərək heyvanıma araram halım olsa da bərbad.

Mən və miniyim bilmərik nə usanmaq nə də bezmək,
İhtimalkən oğlum tapılıb, qarşıma çıxmaq.

Nə qədər ümid insanı aldatsa da o, fanidir nəhayət,
Oğullarım; Qeys, Əmr, Yezid, Cəbəl, Zeydim sizə əmanət.

Nəticədə, İslamın gəlməsindən əvvəl, Bəni Kəlb qəbiləsindən Kə’bəni ziyarətə gələnlərdən bəziləri, Həzrəti Zeydi görərək tanımışlar. Həzrəti Zeyd onlara; “Ailəmin mənim üçün fəryadü fəğan edəcəyini bilirəm, bu beytləri onlara çatdırın” deyərək aşağıdakı şe’ri söyləmişdir;

Yanır ürəyim, uzağam mən yuvamdan,
Qonşuyam Kə'bəyə, uzaqsam da anam, atamdan.

Üzüntünüz əsla qəlbinizi yandırmasın,
Mənim üçün fəryadınız ərşə qədər çıxmasın.

Həmd olsun Mövlaya, elə bir yuvadayam,
Ki, gördüyüm şərəf və xeyirdən həp duadayam.

Harisə bu xəbəri alınca cox sevindi. Dərhal qardaşı Kə'b ilə birlikdə, özləriylə çox miqdarda pul da götürərək Məkkəyə gəldi. Məkkəyə çatınca, Peyğəmbərimizin evini soraqlaşıb hüzuruna çıxdı və belə dedi; "Ey Qureyş qövmünün sahibi, Ey Əbdülmüttəlibin nəvəsi, Ey Bəni Haşım soyunun oğlu. Siz Hərəmi Şərifin qonşususunuz. Müsafirlərə ikram, əsirlərə ehsan edər, onları əsarətdən qurtararsınız. Köləniz olan oğlumuzun azad edilməsi üçün nə qədər pul istəsən verərik, azad et, nə olar bu arzumuzu geri qaytarma!" dedi. Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm); "Zeydi çağırıb, özünə bunu deyək, onu azad edək. Əgər sizinlə getməyi seçərsə, siz pul vermədən onu apara bilərsiniz. Əgər məni seçər və yanımda qalmağı istəyərsə, Allaha and içirəm ki, məni seçən birini tərk etmərəm, yanımda qalar" buyurdu.

Harisə və qardaşı, Cənabi Peyğəmbərin bu cavabından çox razı qaldılar, "Sən bizə qarşı çox ədalətli və insaflı davrandın" dedilər.

Bundan sonra Cənabi Peyğəmbərimiz Zeydi yanına çağırıb ona; "Bunları tanıyırsan?" buyurunca; "Bəli, biri atam, digəri də əmimdir" dedi. Daha sonra; "Ey Zeyd sən mənim kim olduğumu öyrəndin, sənə olan şəfqət, mərhəmət və davranışımı gördün. Bunlar səni aparmağa gəlmişlər. Ya məni seç və yanımda qal, ya da onları seç və get" buyurdu.

Atası və əmisi, artıq bizi seçər, Zeydi özümüzlə apararıq deyə düşünürdülər. Zeyd; "Mən heç kimi seçmərəm. Siz mənim həm əmim, həm də atam yerindəsiniz. Sizin yanınızda qalmaq istəyirəm" dedi.

Atası və əmisi heyrət edərək çaşıb qaldılar. Atası əsəbiləşərək Zeydə; “Ar olsun sənə, demək köləliyi azadlıqdan, anandan, atandan və əmindən üstün tutursan?!” dedi. Zeyd də atasına; “Atacan, mən bu şəxsdən elə bir şəfqət və davranış gördüm ki, Ondan heç kimi üstün tuta bilmərəm” cavabını verdi.

Cənabi Peyğəmbərimiz Zeydi çox sevərdi. Özünə olan bu bağlılığını və sevgisini görüncə, onu Kə’bəyi Müəzzəmədə Hicrə aparıb, ordakılara xitab edərək; “Şahid olun ki, Zeyd mənim oğlumdur. O mənim varisim, mən də onun varisiyəm” buyurdu. Atası və əmisi bu vəziyyəti görüncə hirsləri soyudu. Sevinc içində məmləkətlərinə geri qayıtdılar. Əshabi kiram, bundan sonra Zeydə, Zeyd ibn Məhəmməd (Məhəmmədin oğlu Zeyd) deməyə başladılar. Daha sonra Allah Təalanın Əhzab surəsinin 5-ci və 40-cı ayələrindəki; “Övladlarınızı atalarınızın adıyla çağırın, beləsi Allah nəzdində daha doğrudur. Məhəmməd (əleyhissalam) sizdən heç bir kişinin (Zeyd kimi) atası deyildir” əmrləriylə övladlığa götürmək ortadan qaldırılınca, Həzrəti Zeyd atasının adıyla, yəni “Harisənin oğlu Zeyd” olaraq çağrılmağa başlandı.[37]

## Kə’bə hakimliyi

Rəsulullah otuz beş yaşına gəldiyində, Kə’bədə hakimlik etdi. O zaman, yağış və sellər Kə’bənin divarlarını əməlli başlı ovalamışdı. Ayrıca, çıxan bir yanğın, Kə’bəni xarabaya çevirmişdi.[38] Binanı təzədən tikmək lazım idi. Bunun üçün Qureyş qəbiləsi, Kə’bəni İbrahim əleyhissalamın tikdiyi bünövrəyə qədər yıxıb, təzədən tikməyə başladı. Hər qəbiləyə bir hissəsini verərək divarları ucaltdılar. Bu işin böyük bir şərəf olduğunu bilən qəbilələr, Həcərüləsvəd (Qara daş) daşını yerinə qoyma məsələsində razılığa gələ bilmədilər. Hər qəbilə, bu şərəfə nail olmaq istədiyindən, aralarında böyük bir narazlıq çıxdı. Əbdüddar oğulları; “Bu işi bizdən başqası görərsə qan axıdarıq” deyərək sözü bir yerə qoydular. Dörd-beş gün çəkən bu narazılıq səbəbiylə, az qala qan axıdılacaqdı.

Bu əsnada Əbdülmüttəlibin dayısı və yaşlı biri olan Hüzeyfə ibn Muğirə; “Ey Qureyş camaatı! Bir qərara gələ bilmədiyiniz iş haqqında hükm vermək üçün, bu qapıdan ilk girən adamı aranızda hakim edin” deyərək, Kə’bəyə açılan Bəni Şeybə qapısını göstərdi. Orada olanlar bu təklifi qəbul etdilər və Bəni Şeybə qapısına baxaraq,

---

[37] Buxari, “Təfsir”, 2; İbn Sə’d, *ət-Təbəqat*, I, 487; Safədi, *əl-Vafi*, VII, 2.
[38] İbn Kəsîr, *əs-Sirə*, I, 273.

ilk girəcək və işin ən həssas anında bu işi həll edəcək adamı gözləməyə başladılar. Nəhayət qapıdan; doğruluğunu, üstün əxlaqını son dərəcə təqdir etdikləri və "əl-Əmin" yəni daim güvənilən biri dedikləri Məhəmməd əleyhissalamın gəldiyini gördülər. "Budur əl-Əmin. Onun hökmünə razıyıq" dedilər.

Vəziyyəti, sevgili peyğəmbərimiz Məhəmməd əleyhissalama başa salınca, bir örtük istədi. Onu yerə sərərək Həcərüləsvədi örtüyün üzərinə qoyub; "Hər qəbilədən bir nəfər bir ucundan tutsun" buyurdu. Daşı, qoyulacağı yerə qədər qaldırtdı. Sonra özü daşı götürüb yerinə qoydu. Beləcə, tutaşmaq həddinə çatan narazıçılığın yatışdırıldığını görən qəbilələr, bu hərəkətdən razı qaldılar. Divarları, yarımçıq qoyduqları yerdən tikərək tamamladılar.[39]

*Hər işdə zikr edərdi nam-ı rəhman ol*
*kərəm kanı*
*Səna vü həmdə Peyğəmbər idi kan ol*
*kərəm-kanı*

*Ol idi məhzəri əltaf ü ilm ü hilmə həm mənbə*
*Ki hüsni xulq ilə dolmuşdu ol can ol kərəm-*
*kanı*

*Haqqın məxluquna rifqü təvaz eyləyib*
*lillah*
*Edərdi cümlə xalqa lütfi ihsan ol*
*kərəm-kanı*

[39] İbn İshaq, *əs-Sirə*, s, 83-105; İbn Hişam, *əs-Sirə*, I, 192-198; İbn Sə'd, *ət-Təbəqat*, I, 145-147; Təbəri, *Tarix*, II. 287-290; İbn Kəsir, *əl-Bidayə*, III, 298-305; Məs'udi, *Murucuz-Zeheb*, II, 271-275; Yaqubi, *Tarix*, II, 14-15.

# Bİ'SƏTİ (PEYĞƏMBƏRLİYİ) və DƏ'VƏTİ

Aləmlərin sahibi (səlləllahu əleyhi və səlləm), otuz yeddi yaşında ikən, qeybdən; "Ya Məhəmməd!" deyə Onu çağıran səslər eşidərdi. Otuz səkkiz yaşına çatınca, cürbəcür nurlar görməyə başladı. Halını, ancaq Həzrəti Xədicə anamıza deyərdi. Məhəmməd əleyhissalama peyğəmbərliyin verilməsi yaxınlaşdığı əsnada, zamanın məşhur ədiblərindən Qus ibn Səidə, Ukaz bazarında, dəvə üstündə qələbəlik bir camaatın qarşısında oxuduğu xütbədə, Onun gələcəyini müjdələmişdi. Sevgili Peyğəmbərimiz də bu xütbəyə qulaq asanlar arasında idi. Qus ibn Səidə, bu məşhur xütbəsinin bir bölümündə belə demişdi;

"Ey insanlar! Gəlin, qulaq asın, gözləyin, ibrət alın! Yaşayan ölər, ölən fəna olar, olacaqlar olar! Qulaq asıb yaxşı eşidin! Göydə xəbər var, yerdə ibrət olacaq şeylər var! Allahın nəzdində bir din! Və Allahın gələcək olan bir peyğəmbəri vardır. Gəlməsi çox yaxındır. Kölgəsi başınızın üstünə düşdü. Onu dinləyən və Ona iman edənlər, nə mübarəkdir. Vay Ona üsyan və müxalifət edən bədbaxta! Təəssüflər olsun, ömürləri qəflət ilə geçən ümmətlərə!"

Bu əsnada, Ərəbistanda, insanlar ilahi meyarlardan uzaqlaşmış, varlı-kasıb, qüvvətli-zəif, ağa-kölə kimi siniflərə ayrılmışdı. Əvvəlkilər sonrakıları, hökmü altında əzir, onları insan yerinə qoymurdu. Zəiflərin malları, qəsb edilərək əllərindən alınır, buna manə olacaq bir səlahiyyətli tapılmırdı. Allah Təalaya iman etməyin verdiyi həya və qorxudan məhrum, fəziləttən əməlli başlı uzaq qalmışdılar. Hər cür əxlaqsızlıq, heysiyyət və namusu ayaqlar altına atmaq kimi, adi harəkətlər sərbəst bir şəkildə edilir; qumar, içgi, zövq və səfa kimi şeylərə də əsla pis baxılmırdı. Ardı-arası kəsilməyən qətllər, zina və basqın hadisələri baş alıb gedirdi, mə'sum insanların iniltiləri və hirsli hayqırışları göyü titrədirdi. Əxlaqi cəhətdən tam bir mənəviyyatsızlıq hökm sürür, insanlar cəhalət dənizində boğulurdu. Qadın, bir mal kimi alınıb satılır; qız uşaqları, diri-diri insafsızca torpağa basdırılırdı. Hamısından pisi, qatı qəlbli, inadçı və mərhamətdən uzaq olan bu insanlar, öz əlləriylə düzəltdikləri fayda və zərəri toxunmayan bütlərə sitayiş etməyi, böyük bir şərəf qəbul edirdilər.

Adəm əleyhissalamdan bəri, dünyada belə bir vəhşət, azğınlıq, əxlaqsızlıq, inancsızlıq və səfahət görülməmişdi. İnsanlar sanki bir yırtıcı cildinə girmişdilər. Hamı

birbirinə düşmən, cəmiyyət hər an partlamağa hazır bir şəkildə idi. İnsanların hüzura qovuşmaları üçün, bu qaranlıqda bir səadət günəşinin doğması lazım idi. O doğunca; inancsızlığın yerini iman, zülmün yerini ədalət, cahilliyin yerini elm alacaq və insanlar əbədi səadətə qovuşacaqdılar.

Nəhayət sevgili Peyğəmbərimizə, əvvəlcə sadiq röyalar göstərilməyə başlandı. Hədisi şərifdə, vəhyin əvvəlcə sadiq röya ilə başladığı nəql edilmişdir. Röyasında gördükləri eyniylə baş verirdi. Bu vəziyyət, altı ay davam etdi. Vəhy gəlməsi yaxınlaşınca; “Ya Məhəmməd” deyən səslər çoxaldı. Bundan sonra yalnızlığı sevib, insanlardan uzaqlaşaraq, Hira dağındakı bir mağarada təfəkkürə dalmağa başladı. Bəzən Məkkəyə gələr, Kə’bəni tavaf edər və səadət xanələrinə gedərdi. Xanəyi səadətdə bir müddət qalıb, yanında bir az yeməklə yenə Hira dağındakı mağaraya dönər; təfəkkür və ibadətlə məşğul olardı. Bəzən günlərlə orda qalardı. O zaman da Həzrəti Xədicə yemək göndərir veya gətirirdi.[40]

## İlk vəhy

Cənabi Peyğəmbərimiz qırx yaşında ikən, bir Ramazan ayında, Hira dağındakı mağaraya çəkilmiş və təfəkkürə dalmışdı. Ramazanın 17-si Bazar ertəsi gecəsi, gecə yarısından sonra, adını çağıran bir səs eşitdi. Başını qaldırıb ətrafa boylanınca, ikinci dəfə eynı səsi eşitdi və hər tərəfi anidən bir nurun bürüdüyünü gördü. Arxasından Cəbrayıl əleyhissalam qarşısına gəldi və “Oxu!” dedi. Rəsulullah, ona; “Mən oxumaq bilmirəm” cavabını verdi. O zaman mələk, tutub taqəti kəsilincəyə qədər sıxdı və; “Oxu!” dedi. Yenə “ Mən oxumaq bilmirəm” cavabını verdi. Bir daha sıxdı və; “Oxu!” dedi. “ Mən oxumaq bilmirəm” buyurunca, üçüncü dəfə sıxdı. Sonra bıraxdı və “(Ey Məhəmməd!) Yaradan Allahın adı ilə oxu! O, insanı qatılaşmış qandan (ələqdən) yaratdı! Oxu, insana bilmədiklərini bildirən, qələmlə öyrədən Rəbbin böyük kərəm sahibidir”[41] məalındakı Ələq surəsinin ilk beş ayəsini gətirdi. Məhəmməd əleyhissalam da onunla birlikdə oxudu. İlk vəhy bu şəkildə gəldi və bütün cahanı aydınladan İslam günəşi belə doğdu.[42]

---

[40] İbn Hişam, *əs-Sirə*, I, 233-240.
[41] əl-Ələq 96/1-5.
[42] İbn Sə’d, *ət-Təbəqat*, I, 196.

Rəsulullah (səlləllahu əleyhi və səlləm), böyük bir qorxu və həyəcanla Hira dağındakı mağaradan çıxıb, aşağıya enməyə başladı. Dağın ortasına gəldiyi əsnada bir səs eşitdi. Cəbrayıl əleyhissalam; "Ya Məhəmməd! Sən, Allah Təalanın rəsulusan, mən də Cəbrayılam" dedi və topuğunu yerə vurdu. Vurduğu yerdən su çıxdı və dəstəmaz almağa başladı. Cənabi Peyğəmbərimiz diqqətlə onu süzürdü. Cəbrayıl əleyhissalam dəstəmazını qurtarınca, Cənabi Peyğəmbərimizə, gördüyü kimi dəstəmaz almasını söylədi. Sevgili Peyğəmbərimiz, dəstəmazını alşb qurtardıqdan sonra, Cəbrayıl əleyhissalam imam olub, iki rük'ət namaz qıldılar. Bundan sonra Cəbrayıl əleyhissalam; "Ya Məhəmməd! Rəbbinin sənə salamı var" deyib, ardından; "Sən mənim, cin və insanlara rəsulumsan. O halda onları tövhidə də'vət et" buyurduğunu söylədi və ayrılıb səmaya yüksəldi. Sevgili Peyğəmbərimiz; beləcə Cəbrayıl əleyhissalamı həm görmüş, həm də danışmuş oldu.

Cənabi Peyğəmbərimiz, xanəyi səadətlərinə gəlincəyə qədər, yanından keçdiyi hər daşın, hər ağacın; "Əssalamu əleykə ya Rəsulallah!" dediyini eşitdi. Evinə gəlib; "Məni örtün! Məni örtün!" buyurdu və qorxusu keçincəyə qədər, istirahət etdi. Sonra gördüklərini Həzrəti Xədicə anamıza danışdı və "Cəbrayıl (əleyhissalam) gözümdən qeyb oldu. Lakin onun heybət, şiddət və qorxusu üzərimdən getmədi. Mənə məcnun deyəcəklərindən və dil uzadıb pis sözlər deyəcəklərindən qorxdum" buyurdu. Bu halları və bu günləri gözləyən, buna hazır olan Həzrəti Xədicə; "Allah Təala qorusun. Haqq Təala sənə xeyir ehsan edər və xeyirdən başqa bir şey diləməz. Allah Təalanın haqqı üçün, bu ümmətin peyğəmbəri olacağına inanıram. Çünki sən, qonağı sevərsən. Doğru danışarsan və e'tibarlısan. Acizlərə yardım edər, yetimləri qoruyar, qəriblərəköməklik göstərərsən. Xoş xasiyyətin var, bu xislətlərin sahibində qorxu olmaz" dedi.[43]

Sonra, bu vəziyyəti soruşmaq üçün, Vərəqə ibn Nofəlin yanına getdilər. Vərəqə, Rəsulullahın söylədiklərini dinlədikdən sonra; "Müjdə ey Məhəmməd əleyhissalam! Allah Təalaya and içirəm ki, sən, Həzrəti İsanın xəbər verdiyi son peyğəmbərsən. Sənə görünən mələk, səndən əvvəl Musa əleyhissalama gələn Cəbrayıl əleyhissalamdır. Ax! Kaş ki, gənc olsaydım. Səni Məkkədən çıxartdıqları zamanı görə bilsəydim və köməyinə gəlsəydim. Çox yaxın bir zamanda də'vət və cihadla əmr

---

[43] Təbəri, *Tarix*, II. 298-302; Bəlazuri, *Ənsab*, I, 108-110.

olunarsan" dedi və Cənabi Peyğəmbərimizin Mübarək əlini öpdü. Çox keçmədən vəfat etdi.[44]

## Də'vət əmrinin gəlməsi

Sevgili Peyğəmbərimizə, peyğəmbərliyinin xəbər verildiyi ilk vəhy belə gəlmişdi. Sonra kəsildi və üç il gəlmədi. Bu arada İsrafil əleyhissalam adındakı mələk gəlib, bəzi şeylər öyrətdi. Bunlar vəhy deyildi. Bu zaman zərfində, ara bir Rəsulullahın cani çox sıxılırdı. Rəsulullah üzüldükcə, Cəbrayıl əleyhissalam görünərək; "Ey Həbibullah! Sən Allahu Təalanın peyğəmbərisən" deyər və üzüntüsünü yatışdırardı.

Cənabi Peyğəmbərimiz buyurdu ki; "Vəhyin kəsildiyi zamandaydı. Hira dağından aşağı enərkən, anidən göydən bir səs eşitdim. Yuxarı baxdım. Cəbrayılı (əleyhissalam) gördüm. Yer ilə göy arasında, bir kürsüdə oturmuşdu. Məni qorxu bürüdü. Evə çatdım. Məni bir şey ilə örtün, dedim. Haqq Təala vəhy göndərdi; "Ey örtüyə bürünən Peyğəmbər! Qalx da (qövmünü Allahın əzabı ilə) qorxut! (iman etməzlərsə, əzaba düçar olacaqlarını özlərinə xəbər ver). Rəbbini təkbir et. Paltarını da təmiz tut" (məalındakı) Müddəssir surəsinin ilk ayələrini gətirdi. Bundan sonra vəhyin arası kəsilmədi."

Fəxri kainat (əleyhi əfdalus-salavat) Rəsulullah, insanları İslama təbliğə, Allah Təalanın əmr və qadağalarını də'vət etməyə başladı. Cəbrayıl əleyhissalam, vəhy gətirərkən bəzən insan cildinə girər və Əshabi kiramdan Dihyə Kəlbinin surətində gələrdi. Bəzən Cənabi Peyğəmbərimizin qəlbinə ilqa, təlqin edərdi. Rəsulullah, onu görməzdi. Bəzən röya ilə, bəzən da dəhşət saçan bir uğultu ilə gələrdi. Vəhyin, Cənabi Peyğəmbərimizə ən ağır və çətin gələni bu idi. Belə vəziyyətdə ikən Rəsulullahın ən soyuq gündə belə Mübarək alnından tər tökülər, dəvə üzərində isə, vəhyin ağırlığından dəvə yerə çökərdi. Yanında olan əshab da, vəhyin ağırlığını hiss edərdilər. Cəbrayıl əleyhissalam, bir neçə dəfə öz cild və surətində gəldi.

Allah Təala, mələksiz və pərdəsiz, yəni heç bir vasitə olmadan da Cənabi Peyğəmbərimizə vəhy etmişdir. Bu hal Me'rac gecəsində vaqe olmuşdur.

---

[44] İbn İshaq, *əs-Sirə*, s, 140-142; İbn Hişam, *əs-Sirə*, I, 239-240; İbn Sə'd, *ət-Təbəqat*, I, 129, 194-195; Təbəri, *Tarix*, II. 299-302; Bəlazuri, *Ənsab*, I, 111; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 48.

İlk vəhyin gəlməsiylə peyğəmbərlik vəzifəsinə başlayan Məhəmməd Mustafanın (səlləllahu əleyhi və sələm), İslamı təbliği iyirmi üç il davam etdi. Bu zaman diliminin on üç ili Məkkədə, on ili də Mədinədə keçmişdir.

Qur'ani Kərim 22 il, 2 ay, 22 gün kimi bir zamanda vəhy edilib tamamlanmışdır. Məhəmməd əleyhissalam ümmi(savadsız) idi. Yəni kitab oxumamış, yazı yazmamış və heç kimdən dərs almamışdı. Məkkədə doğulub böyümüş, müəyyən şəxslər arasında boya-başa çatmişdi. Belə olduğu halda, Tövratda və İncildə, Yunan və Roma dövrlərində yazılmış kitablarda yer alan məlumatlardan, hadisələrdən xəbər verdi. İslamiyyəti bildirmək üçün, hicrətin altıncı ilində Rum, İran və Həbəş hökmdarlarına və digər Ərəb padışahlarına məktublar göndərdi. Hüzuruna altmışdan çox əcnəbi elçi gəlmişdir. Bu mövzu, Qur'ani Kərimdə məalən; "Sən, bu Qur'ani Kərim gəlmədən əvvəl, bir kitab oxumadın. Yazı yazmadın. Oxuyub-yazmağı bacarsaydın, başqalarından öyrəndin deyə bilərdilər"[45] şəklində yer almaqdadır.

Hədisi şərifdə də; "Mən ümmi peyğəmbər Məhəmmədəm... Məndən sonra peyğəmbər yoxdur"[46] buyruldu. Yenə Qur'ani Kərimdə belə buyrulmaqdadır; "O (Məhəmməd əleyhissalam) özündən danışmamaqdadır. Onun sözləri, Ona bir vəhy ilə bildirilməkdə, öyrədilməkdədir".[47]

## İlk müsəlmanlar

Cənabi Peyğəmbərimizə, ilk vəhyin gəlməsindən sonra, ilk iman edən Həzrəti Xədicə anamızdır. Heç tərəddüd etmədən İslamiyyəti dərhal qəbul edərək, ilk müsəlman olmaqla şərəfləndi. Cənabi Peyğəmbərimiz, Həzrəti Xədicə anamıza, Cəbrayıl əleyhissalamın öyrətdiyi kimi dəstəmaz almağı öyrətdi. Sonra, Cənabi Peyğəmbərimiz imam oldu, birlikdə iki rük'ət namaz qıldılar. Xədicə anamız, sevgili Peyğəmbərimizin hər sözünə, hər əmrinə, ən mükəmməl şəkildə, itaət etdi. Beləcə Allah Təalanın nəzdində çox yüksək dərəcələr əldə etdi. Rəsulullah üzülsə, inkar edənlərin istehza etməsiylə acı çəksə, Onu təsəlli edər, keyfini kökəldərdi. Deyərdi ki; "Ya Rəsulallah! Heç üzülmə, gəm yemə. Axırda dinimiz güclənib, müşriklər həlak olarlar. Qövmün sənə

[45] əl-Ənkəbut 29/48.
[46] Heysəmi, *Məcməuz-Zəvaid*, I, 205.
[47] ən-Nəcm 53/3-4.

itaət edər...” Xədicə anamızin bu yardımlarından ötrü bir gün, Cəbrayıl əleyhissalam gəlib; “Ya Rəsulallah! Xədicəyə, Allahu Təalanın salamını çatdır” dedi. Cənabi Peyğəmbərimiz; “Ey Xədicə! Budur Cəbrayıl (əleyhissalam), Allah Təalanın sənə salamını deyir” buyurdu.[48]

Cənabi Peyğəmbərimiz bir dəfəsində də; “Allah Təala mənə Cənnətdə incidən bir ev ilə Xədicəyə müjdə verməyimi əmr etdi. Orada xəstəlik, üzüntü və baş ağrısı yoxdur” buyurdu.

Həzrəti Xədicədən sonra böyüklərdən ilk müsəlman olan, Rəsulullahın yaxın dostlarından Həzrəti Əbu Bəkirdir. Həzrəti Əbu Bəkir, iyirmi il əvvəl bir yuxu görmüşdü; “Göydən bədirlənmiş ay enib, Kə’bəyi müəzzəməyə gəlmiş, hissə-hissə olmuş, hissələrdən hər biri, Məkkə evlərindən biri üstünə düşmüş, sonra bu hissələr bir yerə toplanaraq səmaya yüksəlmişdi. Əbu Bəkirin evinə düşən hissə isə, səmaya yüksəlməmişdi. Hadisəni görən Həzrəti Əbu Bəkir, dərhal evin qapısını örtmüş, sanki bu ay parçasının getməsinə mane olmuşdu.”

Əbu Bəkir heyəcanla yuxudan oyanmış, səhər olunca, dərhal, yəhudi alimlərindən birinin yanına gedib, yuxusunu danışmışdı. O alim cavabında; “Bu qarışıq yuxulardan biridir, onun üçün tə’bir edilə bilməz” demişdi. Ancaq bu röya, Əbu Bəkirin zehnini məşğul etmiş, yəhudinin cavabı da onu qane etməmişdi. Bir dəfə ticarət üçün getdiklərində, yolunu rahib Bəhiranın diyarına salmışdı. Gördüyü yuxunun tə’birini Bəhiradan istə’yincə, Bəhira; “Sən hardansan?” dedi. Həzrəti Əbu Bəkir; “Qureyşdənəm” deyə cavab verincə, Bəhira; “Orada bir peyğəmbər çıxacaq və hidayət nuru Məkkənin hər yerinə yayılacaq. Sən, həyatında Onun vəziri, vəfatından sonra da, xəlifəsi olacaqsan” dedi. Həzrəti Əbu Bəkir bu cavaba çok heyrət etmişdi. Bu yuxusunu və tə’birlərini, Cənabi Peyğəmbərimiz, peyğəmbərliyini açıqlayıncaya qədər kimsəyə deməmişdi.

Məhəmməd əleyhissalam peyğəmbərliyini açıqlayınca, Həzrəti Əbu Bəkir dərhal Cənabi Peyğəmbərimizin yanına qaçıb; “Peyğəmbərlərin, peyğəmbərliklərinə dəlilləri vardır, sənin dəlilin nədir?” deyə sual etdi. Cənabi Peyğəmbərimiz cavabında; “Bu nübüvvətimə dəlil, o röyadır ki, bir yəhudi alimdən tə’birini istədin. O alim; “Qarışıq röyadandır, tə’bir edilməz” dedi. Sonra rahib Bəhira, doğru tə’bir etdi”

---

[48] Hakim, *əl-Müstədrək*, III, 206; İbn Hişam, *əs-Sirə*, I, 241; Süheyli, *ər-Rövzul-Unf*, II, 416.

buyuraraq, Həzrəti Əbu Bəkirə; “Ey Əba Bəkir! Səni, Allaha və Rəsuluna də’vət edirəm” buyurdu.

Bunun eşidən Həzrəti Əbu Bəkir; “Şəhadət edirəm ki, sən, Allah Təalanın rəsulusan, sənin peyğəmbərliyin haqdır və cahanı işıqlandıran bir nurdur” deyərək müsəlman oldu.

Başqa bir rəvayətdə isə Həzrəti Əbu Bəkir, Cənabi Peyğəmbərimizə peyğəmbərlik gəlmədən əvvəl, ticarət məqsədiylə Yəmənə getmişdilər. Bu səfərlərində, Yəməndə olan, Əzd qəbiləsindən, çox kitab oxumuş yaşlı bir qocaya rast gəlmişdilər. Bu qoca, Həzrəti Əbu Bəkirə baxıb; “Zənn edirəm ki sən, Məkkə xalqındansan” deyincə, Həzrəti Əbu Bəkir; “Bəli, elədir” demiş və aralarında bu dialoq keçmişdi.

-Sən Qureyşdənsən?

-Bəli!

-Bəni Təmimdənsən?

-Bəli!,

-Bir əlamət daha qaldı.

-Nədir?

-Qarnını aç, görüm.

-Bundan məqsədin nədir, söylə?

-Kitablarda oxudum ki, Məkkədən bir peyğəmbər gələr. Ona, iki nəfər köməkçi olar. Biri gənc, digəri də yaşlıdır. Gənc olan, bir çox çətinlikləri asanlaşdırar. Çox bəlaları dəf edər. O yaşlı adam isə, ağ bənizli, incə belli olub, qarnının üstündə bir qara xal vardır. Zənn edirəm ki, o adam sənsən. Qarnını aç, görüm.

Bunu deyincə Həzrəti Əbu Bəkir mübarək qarnını açmış; göbəyi üstündəki qara xalı görüncə; “Vallah o adam sənsən” deyib, Əbu Bəkirə vəsiyyət etmişdi.

Həzrəti Əbu Bəkir, işini qurtarınca, vəda etmək üçün yaşlının yanına getmiş, Cənabi Peyğəmbərimiz haqqında bir neçə beyt deməsini ondan istəmiş, bunu deyincə yaşlı, on iki beyt oxumuş, Həzrəti Əbu Bəkir bunları əzbərləmişdi.

Həzrəti Əbu Bəkir səfərdən Məkkəyi mükərrəməyə qayıdınca, Ukbə ibn Əbi Muayt, Şeybə, Əbu Cəhil, Əbul-Buhtəri kimi, Qureyşin başda gələn adamları, onu ziyarət etmək üçün evinə gəlmişdilər. Əbu Bəkir onlara üz tutaraq; “Aranızda heç bir hadisə oldu mu?” buyurmuş. Cavablarında; “Bundan daha maraqlı hansı hadisə ola bilər

ki, Əbu Talıbın yetimi, peyğəmbərlik iddiası edir və sizlər, ata və babalarınız, batil dindənsiniz deyir. Əgər xətrin olmasaydı, Onu bu vaxta qədər sağ qoymazdıq. Sən Onun yaxın dostusan, bu işi sən həll et" demişdilər.

Həzrəti Əbu Bəkir onları yola verib, Cənabi Peyğəmbərimizin, Həzrəti Xədicənin evində olduğunu öyrəndi. Gedib qapını döydü. Cənabi Peyğəmbərimiz özü qapıya çıxınca; "Ya Məhəmməd! Sənin haqqında deyilənlər doğrudur?" dedi. Cənabi Peyğəmbərimiz; "Mən Haqq Təalanın peyğəmbəriyəm. Sənə və bütün Adəm oğullarına göndərildim, iman et ki, Haqq Təalanın xoşnudluğuna nail olasan və canını Cəhənnəmdən qoruyasan" buyurdu. Həzrəti Əbu Bəkir; "Buna dəlil nədir?" deyincə, Rəsuli əkrəm; "O, Yəməndə gördüyün yaşlının hekayəsi dəlildir" buyurdu.

Həzrəti Əbu Bəkir; "Mən, Yəməndə çox yaşlı və gənc adam gördüm" dedi. Cənabi Peyğəmbərimiz cavabında; "O yaşlı ki, sənə on iki beyt əmanət etdi və mənə göndərdi" deyərək, o beytlərin hamısını oxudu. Həzrəti Əbu Bəkir; "Bunu sənə kim xəbər verdi" deyincə, cavabında; "Məndən əvvəlki peyğəmbərlərə gələn mələk xəbər verdi" buyurdu. Bunu deyincə, əlini mənə ver deyib, mübarək əlini tutmuş; "Əşhədü ən la ilahə illallah və əşhədü ənnə Məhəmmədən əbduhu və rəsuluh" deyərək müsəlman olmuşdu.[49]

Hayatında ilk dəfə duyduğu böyük bir sevinclə, evinə müsəlman olaraq qayıtmışdı. Belə ki, bir hadisi şərifdə; "Hər kimə imanı ərz etdimsə, üzünü turşudur, tərəddüdlə baxardı. Ancaq Əbu Bəkir Siddiq imanı qəbul etməkdə heç tərəddüd və e'tiraz etmədi" buyrulmuşdur.

Cənabi Peyğəmbərimiz, bir gün Həzrəti Xədicə anamızla namaz qılarkən, Həzrəti Əli onları gördü. O zaman on vəya on iki yaşında idi. Namazdan sonra; "Bu etdiyiniz nədir?" deyə soruşdu. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm); "Bu, Allah Təalanın dinidir. Səni bu dinə də'vət edirəm. Allah Təala birdir, ortağı yoxdur. Səni bir olan, tayı, şəriki olmayan Allaha imana də'vət edirəm..." buyurdu. Həzrəti Əli; "Əvvəlcə atamla məsləhətləşim" dedi. Rəsulullah ona; "İslamı qəbul etməzsən, bu sirri heç kimə demə!" buyurdu. Həzrəti Əli sabah olunca Rəsulullahın yanına gələrək; "Ya Rəsulallah! Mənə İslamı öyrət" dedi və müsəlman oldu.[50] Həzrəti Əli, müsəlman

---

[49] İbn İshaq, *əs-Sirə*, s, 120-121; İbn Hişam, *əs-Sirə*, I, 249-250.
[50] İbn İshaq, *əs-Sirə*, s, 118; İbn Hişam, *əs-Sirə*, I, 245-247.

olanların üçüncüsüdür. Rəsuli əkrəm uğrunda göstərdiyi fədakarlıq və Onu özündən üstün tutması isə hər cür təqdirin layiqdir.

Zeyd ibn Harisə də ilk iman edənlərdəndir. Həzrəti Xədicə, Həzrəti Əbu Bəkir və Həzrəti Əlidən sonra dördüncü, azad olmuş kölələr içində isə ilk müsəlman olmaqla şərəfləndi. Özüylə birlikdə, xanımı Ümmü Eymən də müsəlman olmuşdu.[51]

Həzrəti Əbu Bəkir, müsəlman olunca, dərhal çox sevdiyi dostlarının yanına getdi. Onların da, müsəlman olmaları üçün cəhd göstərdi. Əshabi kiramın başda gələnlərindən; Osman ibn Əffan, Təlhə ibn Ubeydullah, Zübeyir ibn Əvvam, Əbdürrahman ibn Əvf, Sə'd ibn Əbi Vəqqas kimi qövmünün başda gələn mö'təbər şəxsiyyətləri bunlardan bəziləridir.[52] Həzrəti Xədicə anamızdan sonra müsəlman olan bu səkkiz nəfərə Səbiquni İslam, yəni ilk müsəlmanlar deyilir.

Həzrəti Osman, müsəlman olmasını belə nəql edir; "Mənim kahin bir xalam vardı. Bir gün onu ziyarətə getmişdim. Mənə; "Sənə bir xanım nəsib olar. Ancaq nə sən ondan əvvəl bir qadın görmüş olarsan, nə də o, səndən əvvəl bir kişi görmüş olar. O, gözəl üzlü, zahidə bir xanım və bir böyük peyğəmbər qızı olsa gərək" dedi. Mən, xalamın bu sözünə heyrət etdim. Yenə mənə dedi ki; "Bir peyğəmbər gəldi. Ona göydən vəhy nazil oldu." Mən dedim ki; "Ey xalam! Belə bir sir, şəhərdə heç eşidilmədi. O halda bu sözü açıq söylə". O zaman xalam; "Məhəmməd ibn Abdullaha peyğəmbərlik gəldi. Xalqı dinə də'vət edər. Qısa zamanda Onun dini ilə aləm nurlanar və qarşısında duranların başı kəsilər" dedi.

Xalamın bu sözləri, mənə çox tə'sir etdi. Təşvişə düşdüm. Həzrəti Əbu Bəkir ilə aramızda böyük bir dostluq vardı. Bir birimizdən heç ayrılmazdıq. Bu məsələni görüşmək üşün, iki gün sonra Həzrəti Əbu Bəkirin yanına getdim. Xalamın söylədiklərini deyincə, mənə dedi ki; "Ya Osman! Sən ağıllı bir adamsan. Heç görməyib, eşitməyən; bir şeyə fayda və zərər verməkdən uzaq olan bir neçə daş, tanrılığa necə layiq olar?" Mən; "Düz deyirsən, xalamın sözü həqiqətdir" dedim".

Həzrəti Əbu Bəkir, Həzrəti Osmana İslamiyyəti başa saldıqdan sonra, onu, Rəsulussəqaleyn, yəni insan və cinlərin peyğəmbəri olan Rəsulullahın hüzuruna apardı. Sevgili Peyğəmbərimiz, Həzrəti Osmana belə buyurdu; "Ya Osman! Haqq Təala, səni

---

[51] İbn Hişam, *əs-Sirə*, I, 247-248.
[52] İbn Hişam, *əs-Sirə*, I, 250-251; Təbəri, *Tarix*, II. 307-307; 309-318; İbn Kəsir, *əl-Bidayə*, III, 24-33; Məs'udi, *Murucuz-Zeheb*, II, 275; Yaqubi, *Tarix*, II, 18-19; Bəlazuri, *Ənsab*, I, 112-113.

Cənnətə müsafirliyə də'vət edir. Sən də icabət eylə (qəbul et) Mən, bütün insanlara hidayət rəhbəri olaraq göndərildim." Həzrəti Osman, Rəsulullahın mö'təbərliyi və gülər üzlə söylədiyi sözlər qarşısında özünü itirib, böyük bir şövq və təslimiyyətlə; "Əşhədu ən la ilahə illallah və əşhədü ənnə Məhəmmədən əbduhu və rəsuluh" deyib müsəlman oldu.

Rəsulullah, peyğəmbərliyinin ilk üç ilində, insanları gizlicə İslama də'vət etdi, insanlar, yavaş-yavaş, bir-bir, iki-iki müsəlman olardılar. Bu zaman içində müsəlmanların sayı ancaq otuza çata bildi. Onlar da, ibadətlərini evlərində edər və Qur'ani kərimin nazil olan ayələrini gizlicə oxuyub əzbərləyərdilər.

## Yaxın qohumları də'vət

Rəsulullah, Müddəssir surəsinin nazil olmasıyla, insanları İslam dininə də'vətə başlamışdı. Bu də'vəti gizli edirdi. Bir müddət sonra da; "Yaxın qohumlarını Allah Təalanın əzabı ilə qorxudaraq, onları haqq dinə çağır"[53] məalındakı ayəə nazil oldu. Bundan sonra Məhəmməd əleyhissalam, qohumlarını dinə də'vət etmək üçün Həzrəti Əlini göndərdi və hamısını Əbu Talıbın evinə çağırdı. Qabaqlarında bir nəfərə kifayət edəcək qədər, bir boşqab yemək və bir tas süd qoydu, əvvəlcə özü bismillah ilə başlayıb, gələn qohumlarına; "Buyurun" dedi. Gələnlərin sayısı qırx nəfər idi. Ancaq, qoyulan yemək hamısını doyuzdurdu və heç azalmadı. Gələnlər bu mö'cüzə qarşısında çaşıb qaldılar. Yeməkdən sonra Cənabi Peyğəmbərimiz, qohumlarını İslama də'vət etmək üçün sözə başlamaq niyyətində idi. Əmisi Əbu Ləhəb düşmənlik edərək; "Biz bu günkü kimi bir sehr görmədik. Qohumunuz sizi bir sehrlə tilsimlədi. Ey qardaşımın oğlu! Mən sənin gətirdiyin kimi şər və pislik gətirən başqa bir adam görmədim" deyərək, sözlərinə həqarətlə davam etdi.

Peyğəmbərimiz də, Əbu Ləhəbə; "Qureyş və bütün Ərəb qəbilələrinin edə bilməyəcəyi pisliyi mənə sən etdin" buyurdu. Heç biri müsəlman olmadan dağılışdılar. Bu hadisədən qısa bir müddət sonra, qohumlarını yenə də'vət etdi. Həzrəti Əli yenə hamısını çağırdı. Öncəki kimi qabaqlarına yemək qoyuldu. Cənabi Peyğəmbərimiz, yeməkdən sonra ayağa qalxıb; "Həmd, ancaq Allah Təalaya məxsusdur. Yardımı ancak

---

[53] əş-Şüəra 26/214.

Ondan istəyərəm. Ona inanar, Ona güvənərəm. Şüphəsiz bilir və bildirirəm ki, Allah Təaladan başqa ilah yoxdur, O birdir. Onun tayı və şəriki yoxdur" buyurduqdan sonra, sözlərinə belə davam etdi; "Sizə əsla yalan söyləmirəm və doğrunu çatdırıram... Sizi, bir olan və Ondan başqa ilah olmayan Allah Təalaya iman etməyə də'vət edirəm. Mən, Onun sizə və bütün insanlığa göndərdiyi peyğəmbəriyəm. Vallahi siz, yuxuya getdiyiniz kimi, öləcəksiniz, yuxudan oyandığınız kimi də dirildiləcəksiniz və bütün etdiklərinizdən hesaba tutulacaqsınız, yaxşılıqlarınızın əvəzində mükafat, pisliklərinizin əvəzində də cəza çəkəcəksiniz. Bunlar da, ya Cənnətdə əbədi qalmaq veya Cəhənnəmdə əbədi qalmaqdır. İnsanlardan, axirət əzabı ilə ilk qorxutduğum şəxslər sizlərsiniz."

Əbu Talıb, bu sözləri dinlədikdən sonra; "Ey möhtərəm qardaşımın oğlu! Sənə yardım etməkdən daha qiymətli bir şey ağlıma gəlmir. Nəsihətlərini mənimsəyib qəbul etdik, sözlərini də könüldən təsdiq etdik. İndi, burada toplaşanlar, atadan Əbdülmüttəlibin uşaqlarıdır. Heç bir şübhə yoxdur ki, mən də onlardan biriyəm. Sənin istədiyin şeyə, içimizdə ən əvvəl mən gələrəm. Ətrafını tutub, səni qorumaqdan bir an dala qalmayacağıma söz verirəm. Sən, əmr edildiyin şeyə davam et. Ancaq, əvvəlki dinimdən ayrılmaq barəsində, nəfsim mənim sözümü dinləmir" dedi.

Əbu Ləhəbdən başqa, oradaki qohumları və əmiləri sakit tərzdə çıxış etdilər. Ancaq Əbu Ləhəb; "Ey Əbdülmüttəlib oğulları! Başqaları Onun əlini tutub mane olmamışdan əvvəl, siz mane olun. Əgər bu gün Onun dediklərini qəbul etsəniz, zillətə, həqarətə uğrayarsınız. Onu qorumağa cəhd göstərsəniz hamınız öldürülərsiniz..." deyə təhdid etdi. Əbu Ləhəbin əvəzinə, Cənabi Peyğəmbərimizin xalası; "Ey qardaşım! Qardaşımın oğlunu və Onun dinini köməksiz qoymaq məgər sənə yaraşar? Vallahi bu gün yaşayan alimlər, Əbdülmüttəlibin soyundan bir peyğəmbərin gələcəgini xəbər verirlər. Baxın, o peyğəmbər budur" dedi.

Əbu Ləhəb, bu sözlər qarşısında çirkin çıxışına davam etdi. Əbu Talıb, Əbu Ləhəbə əsəbiləşərək; "Ey qorxaq! Vallahi biz sağ olduqca, Onun köməkçisi və qoruyucusuyuq" dedi. Məhəmməd əleyhissalama çevrilərək; "Ey qardaşımın oğlu! İnsanları Rəbbinə imana də'vət etmək istədiyin zamanı bilək, silahlanıb səninlə birlikdə ortaya çıxarıq" dedi. Sonra, Fəxri kainat Rəsulullah təkrar sözə başlayıb; "Ey Əbdülmüttəlib oğulları! Vallahi, Ərəblər içində mənim sizə gətirdiyim, dünya və axirətiniz üçün xeyirli olan şeydən (yani bu dindən) daha üstününü və daha xeyirlisini qövmünə gətirmiş bir adam yoxdur. Mən sizi, ağızda asan, mizanda ağır gələn iki

kəliməni söyləməyə də’vət edirəm. O da; Allahdan başqa ilah olmadığına və mənim Onun qulu və rəsulu olduğuma şəhadət etmənizdir. Allah Təala sizi buna də’vət etməyimi əmr etdi. O halda, hansınız mənim bu də’vətimi qəbul edər və bu yolda köməkçim olar?” buyurdu. Heç kimdən səs çıxmadı, başlarını aşağı saldılar, Cənabi Peyğəmbərimiz, bu sözlərini üç dəfə təkrar etdi. Hər dəfəsəndə Həzrəti Əli ayağa qalxırdı. Üçüncü dəfəsində; “Ya Rəsulallah! Hər nə qədər bunların yaşca ən balacası isəm də, sənə mən yardımçı olaram” dedi. Bunu eşidən Rəsulullah, Həzrəti Əlinin əlindən tutdu. Digərləri heyrət edərək dağılışdılar.

Allah Təalanın Həbibi (səlləllahu əleyhi və səlləm), qohumlarının bu hərəkəti qarşısında çok üzüldü. Ancaq ruhdan düşmədən, onların Cəhənnəmdən xilas olması, səadətə qovuşması üçün də’vətə davam etdi.

Bi’sətin dördüncü ilində Hicr surəsinin 94-cü ayəsi nazil oldu. Məalən; “(Ey Həbibim!) Sənə əmr edilən şeyi (əmr və qadağaları) açıqla, haqq ilə batilın arasını ayır. Müşriklərdən üz çevir! (Onların sözlərinə iltifat etmə)” ilahi əmir gəlincə, sevgili Peyğəmbərimiz, Məkkəliləri açıq-aşikar İslama də’vət etməyə başladı. Bir gün Səfa təpəsinə çıxıb; “Ey Qureyş xalqı! Buraya gəlib dediklərimi dinləyin!” buyurdu. Qəbilələr toplandıqdan sonra da; “Ey qövmüm! Heç məndən yalan söz eşitdiniz?” buyurunca, hamısı bir ağızdan; “Xeyr, eşitmədik” dedilər. Buyurdu ki; “Allah Təala mənə peyğəmbərlik ehsan etdi və məni sizə peyğəmbər olaraq göndərdi.” Sonra da; “(Ey Həbibim!) Onlara de ki; Ey insanlar! Mən sizin hamınıza göndərilmiş, Allahu Təalanın rəsuluyam. O Allah Təala ki, yerlərin və göylərin sahibi və idarəçisidir. Ondan başqa ibadətə layiq yoxdur. Hər canlını öldürən və dirildən Odur...” məalındakı Ə’raf surəsinin 158-ci ayəsini oxudu. Dinləyənlərdən, əmisi Əbu Ləhəb əsəbiləşərək; “Qardaşımın oğlu divanə olmuş! Bizim bütlərimizə sitayiş etməyinin, dinimizdən ayrılanın sözünə qulaq asmayın” deyə küfr etməyə israr edərək qışqırdı. Orada olanlar çıxıb getdi və heç kim iman etmədi. Cənabi Peyğəmbərimizin, doğru sözlü, uca əxlaqlı olduğunu bildikləri halda, üz çevirdilər və düşmən oldular.

Yenə bir gün Allah Təalanın; “Sənə əmr edilən şeyi (əmr və qadağaları) açıkla” əmrinə itaət edərək, təkrar Səfa təpəsinə çıxdı. Yüksək və gur bir səslə; “Ya sabahah! Buraya gəlin, toplanın, sizə əhəmiyyətli bir xəbərim var”[54] deyə səsləndi. Bu

---

[54] Buxari, “Təfsir”, 4; Tirmizi, “Təfsirul-Qur’an”, 91.

çağırışa, qəbilələr gəlib toplandılar. Heyrət və həyəcan içində gözləməyə başladılar. Gəlməyənlər adamlarını göndərərək, nə üçün yığılışdıqlarını bilmək istədilər. Gələnlərdən bir qrup; "Ey Məhəmmədüləmin! Bizi buraya nə üçün yığdın, nəyi xəbər verəcəksən?" deyə soruşmağa başladılar. O da, "Ey Qureyş qəbilələri!" deyərək danışmağa başladı. Hamı çox diqqətlə qulaq asırdı. "Mənimlə sizin halınız, düşməni görüncə, ailəsinə xəbər vermək üçün qaçan və düşmənin özündən əvvəl ailəsinə çatıb, zərər verməyindən qorxaraq; ya sabahah (düşmən tərəfindən mühasirə edildik, sarıldıq! Sabah vaxtı gəlib çatdı. Dərhal döyüşməyə hazırlanın) deyə hayqıran bir kimsənin halına bənzəyər. Ey Qureyş camaatı! Mən sizə, bu dağın arxasında bir düşmən ordusu var, üzərinizə hücum etmək üçün hazırlaşır desəm, mənə inanarsınız?" buyurdu. Onlar; "Bəli inanarıq. Çünki, səndə indiyə qədər doğruluqdan başqa bir şeyə şahid olmadıq. Sənin yalan danışdığını heç görmədik!" dedilər.

Bundan sonra Resulullah bütün Qureyş qəbilələrinin adlarını; "Ey Haşım oğulları! Ey Əbdü Mənaf oğulları, Ey Əbdülmüttəlib oğulları! (şəklində sadalayaraq) Mən sizə mütləq baş verəcək olan şiddətli bir əzabın xəbərçisiyəm. Allah Təala mənə, ən yaxın qohumlarımı axirət əzabı ilə qorxutmağımı əmr etdi. Sizi, La ilahə illallahu vəhdəhu la şərikə ləh (Allah birdir, Ondan başqa ilah yoxdur) deyərək iman etməyə də'vət edirəm. Mən də Onun qulu və rəsuluyam. Əgər buna iman etsəniz, Cənnətə girəcəksiniz. Siz, "La ilahə illəllah" demədikcə, mən sizə nə dünyada bir fayda, nə də axirətdə bir pay təmin edə bilərəm" buyurdu. Qulaq asan qəbilələr arasından, Əbu Ləhəb "Bizi bunun üçün topladın?" deyərək, yerdən aldığı daşı sevgili Peyğəmbərimizə atdı. Digərləri isə aralarinda danışaraq dağılışdılar.[55]

## Günəşi sağ əlimə versələr!

Sevgili Peyğəmbərimiz, bu də'vətlərdən sonra harda bir adam veya qrup görsə, onlara İslamı təbliğ etdi. Həqiqi qurtuluşun; nəfsə uymaqdan, zülmdən, haqsızlıqdan və hər cür pis işlərdən uzaqlaşmaqla və Allah Təalaya iman etməklə mümkün olacağını xəbər verdi. Nəfislərinin istəklərinə, şəhvətlərinə uyanlar, zəifləri əzənlər və qudurğanlıqda həddi aşanlar buna şiddətlə e'tiraz etdilər. Bütün bu pozğun işlərinin

[55] İbn İshaq, *əs-Sirə*, s, 188-191; İbn Sə'd, *ət-Təbəqat*, I, 133; Təbəri, *Tarix*, II. 319; İbn Kəsir, *əl-Bidayə*, III, 38-41.

artıq davam etməyəcəyini görərək, Məhəmməd əleyhissalamın xəbər verdiklərini inkar etdilər. Ona və inananlara düşmən oldular.

Müşriklər, əvvəlcə istehza edərdilər. Sonra təzyiq və işgəncələrini artırmağa qərar verdilər. Mö'minləri əzmək, İslamı söndürmək istəyirdilər. Bunların başlarında; Əbu Cəhil, Utbə, Şeybə, Əbu Ləhəb, Ukbə ibn Əbi Muayt, As ibn Vail, Əsvəd ibn Müttəlib, Əsvəd ibn Əbdi Yağvəs, Vəlid ibn Muğirə... vardı.

Bir gün Utbə, Şeybə və Əbu Cəhil, Əbu Talıba; "Sən bizim büyüyümüzsən. Biz, sənə daim hörmət edir, ehtiram göstəririk. İndi, qardaşin oğlu, yeni bir din qurdu. Bütlərimizə söyüb bizi kafirliklə taqsırlandırır. Ona nəsihət et. Bu işdən əlini çəksin. Şayət əlini çəkməzsə, Onun öhdəsindən necə gəlinəcəyini biz bilərik..." dedilər. Əbu Talıb, onları sakitləşdirərək qaytardı və Peyğəmbərimiz üzülməsin deyə vəziyyəti Ona demədi. Müşriklər, bir müddət sonra təkrar yığılıb, Əbu Talıbın yanına gəldilər; "Bundan əvvəl sənə vəziyyəti başa salmışdıq. Sözümüzə əhəmiyyət vermədin. O, hələ də bütlərimizi pisləməyə davam edir. Artıq, taqətimiz qalmadı. Hər ikinizlə də qanımızın son damcısına qədər vuruşacağıq. Məkkədə, ya O, ya da biz qalarıq" dedilər. Əbu Talıb, onları sakitləşdirməyə çalışdı ancaq inadlarında israr etdilər.[56]

Əbu Talıb, həm Rəsulullahın xətrinə dəymək istəmir, həm də qövmüylə onun arasında hər hansı bir düşmənliyin çıxmasını da arzu etmirdi. Peyğəmbərimizin yanına gəlib; "Ey Məhəmməd! Bütün qövm sənə düşmənlik etmək məqsədiylə birləşdilər və mənə şikayətə gəldilər. Qohumlar arasında düşmənlik, yaxşı deyildir. Onlar özlərinə kafir deməməyini və doğru yolda olmadıqlarını deməyib pisləməməyini istəyirlər" dedi. Bunu eşidən Həbibi əkrəm Rəsulullah; "Ey əmi! Bunu bil ki, günəşi sağ əlimə, ayı da sol əlimə versələr (hər nə v'əd edirlərsə etsinlər) mən əsla bu dindən və ona insanları də'vət etməkdən, çatdırmaqdan əlimi çəkmərəm. Ya, Allah Təala bu dini bütün cahana yayar, vəzifəm bitər; vəya bu yolda canımı fəda edərəm" buyurdu və ayağa qalxdı. Mübarək gözləri yaşla dolmuşdu.

Rəsulullahın üzüldüyünü görən Əbu Talıb, dediklərinə peşman oldu və Onun boynunu qucaqlayaraq; "Ey qardaşımın oğlu! Yoluna davam et, istədiyini edə bilərsən. Mən sağ olduqca səni himayə edib, qoruyacağam" dedi.[57]

---

[56] Təbəri, *Tarix*, II. 322; Yaqubi, *Tarix*, II, 19-20.
[57] İbn İshaq, *əs-Sirə*, s, 135; Təbəri, *Tarix*, II. 326-327.

Müşriklərin başda gələnlərindən on nəfər, Əbu Talıbın, Həzrəti Məhəmmədi himayə etdiyini başa düşüncə, Umarə ibn Vəlidi də özləriylə götürərək Əbu Talıbın yanına getdilər. Ona; "Ey Əbu Talıb! Bilirsən ki, bu Umarə, Məkkə gənclərinin ən yaraşıqlısı, ən güclüsü, ən əxlaqlısıdır. Ayrıca şairdir. Onu sənə verək, öz işlərini ona gördür. Umarənin əvəzində bizə Məhəmmədi ver, öldürək. Budur sənə adam əvəzində adam! Daha nə istəyirsən ki?!" deyərək, qəbulu mümkün olmayan bir təklif etdilər. Əbu Talıb, bu sözə həddən çox əsəbiləşdi və; "Siz, əvvəlcə mənə öz oğullarınızı verin. Onları mən öldürüm. Ondan sonra qardaşımın oğlunu verim" deyincə, müşriklər işin nə qədər qorxunc həddə çatdığını başa düşüb; "Bizim uşaqlarımız, Onun etdiyi kimi hərəkət etmirlər ki" dedilər. Əbu Talıb; "And içirəm ki, mənim qardaşımın oğlu sizin uşaqlarınızın hamısından daha xeyirlidır. Demək, siz oğlunuzu mənə verib böyüdəcək, mənim də əzizimi götürüb öldürəcəksiniz hə! Dişi dəvə belə balasından başqasını istəməz. Bu iş ağıl və məntiqdən çox uzaqdır. Artıq məsələ böyümüşdür. Kim əzizim Məhəmmədin (əleyhissalam) düşməni isə, mən də onun düşməniyəm. Bunu beləcə bilin və əlinizdən nə gəlirsə edin!" dedi.[58]

Müşriklər, mə'yus olub yerlərindən qalxıb gitdilər. Əbu Talıb, dərhal Haşım oğullarını və Əbdülmüttəlib oğullarını başına yığdı. Onlara vəziyyəti başa salıb, sevgili Peyğəmbərimizə (səlləllahu əleyhi və səlləm) yardım etməyə razı etdi. Rəsulullahı öldürməyə taəşəbbüs edən qollar qırılacaqdı. Bu cəhətdən müşriklərə qarşı birləşdilər. Təkcə Əbu Ləhəb qatılmadı. Əbu Talıb onlara; "Ey igidlər! Sabah hər biriniz qılınclarınızı belinizə taxın və mənim arxamca gəlin" dedi. Ertəsi günü Əbu Talıb, Cənabi Peyğəmbərimizin evinə getdi. Birlikdə Hərəmi şərifə tərəf yeridilər. Haşım oğullarının igidləri də onları tə'qib edirdilər. Kə'bəyə çatıb müşriklərin qarşısına keçdilər. Əbu Talıb, müşriklərə; "Ey Qureyş camaatı! Qardaşımın oğlunu öldürməyə qərar verdiyinizi eşitdim. Bu arxamdakı gənclərin, əlləri qılınclarında, səbirsizliklə bir işarəmi gözlədiklərini bilirsiniz? And içirəm ki, Məhəmmədi öldürsəniz, heç birinizi sağ qoymaram!" dedikdən sonra, sevgili Peyğəmbərimizi tərifləyən şe'rlər deməyə başladı. Başda Əbu Cəhil olmaqla, orda olan müşriklər dağılışdılar.

[58] İbn Sə'd, *ət-Təbəqat*, I, 134-135; Təbəri, *Tarix*, II. 326-377.

## Əziyyət, işgəncə və zülm

Qureyşin başda gələn müşrikləri, artıq, Cənabi Peyğəmbərimizi tənha gördükləri zaman, ona hücum edir, həqarət etməyə, hatta döyməyə cür't edirdilər. Əshabına da işgəncə etməkdən geri qalmazdılar. Bir gün Qureyşin başda gələn müşrikləri, Kə'bəyi şərifin yanında oturmuşdular. Cənabi Peyğəmbərimizdən bəhs etməyə başladılar və; "Onun hərəkətlərinə səbr etdiyimiz kimi heç bir şeyə səbr etmədik. Bizə səfehsiniz deyir, tanrılarımızı təhqir edib pisləyir, dinimizdə qüsur axtarır, camaatımızı bir birindən ayırır, yenə də səbr edib bir şey demirik" şəklində danışırdılar. O əsnada Həbibi əkrəm, Kə'bəyi ziyarət etmək üçün gəldi. Həcəri əsvədi öpüb təvafa başladı. Onların yanından keçərkən, müşriklər, Cənabi Peyğəmbərimizə həqarət dolu sözlər söyləməyə başladılar. Rəsulullah buna çox üzüldü, ancaq bir şey deməyib təvafa davam etdi. Üçüncü dəfə yanlarından keçərkən dayanıb; "Ey Qureyş! Məni dinləyin! Nəfsim yədi qüdrətində olan Allah Təalaya and içirəm ki, mənə, sizin yerlə-yeksan olacağınız xəbər verildi" buyurunca, oradaki müşriklər nə edəcəklərini bilməyərək donub qaldılar. Heç bir söz deyə bilmədilər. Təkcə Əbu Cəhil, Rəsulullahin yanına gəlib; "Ey Əbül-Qasım! Sən başqası deyilsən. Bizim kobud harəkətimizə fikir vermə, ibadətinə davam et. Bizə baş qoşacaq qədər cahil deyilsən" deyərək yalvarmağa başladı. Bundan sonra Məhəmməd əleyhissalam oradan uzaqlaşdı.

Ertəsi gün müşriklər, eyni yerdə toplanmışdılar. Cənabi Peyğəmbərimizin əleyhində söhbət etməyə başladılar. O əsnada Rəsulullah oraya təşrif etdi. Müşriklər, dərhal Allah Təalanın Həbibinin üstünə hücum etdilər. Aralarında ən bədbəxt olanlardan Ukbə ibn Əbi Muayt, sevgili Peyğəmbərimizin Mübarək yaxasından tutdu. Mübarək boynunu nəfəs ala bilməyəcək qədər sıxdı. O anda oraya gələn Həzrəti Əbu Bəkir; "Bəyəm Rəbbim Allahdır deyən bir adamı öldürəcəksiniz? Sizə Rəbbulaləmindən ayə gətirdi" deyə qışqıraraq, Rəsulullahı qorumaq üçün aralarına girdi. Müşriklər, Həbibullahdan əl çəkib, Əbu Bəkir Siddiqə girişdilər. Mübarək başına yumruq və təpiklə vururdular. Utbə ibn Rəbiə deyilən bədbəxt, Həzrəti Əbu Bəkirin mübarək üzünə ayaqqabılarıyla vurdu və onu qana boyadı. Tanınmayacaq hala qoydu. Teym oğulları çatıb araya girməsəydilər, öldürüncəyə qədər döyəcəkdilər. Qəbiləsindən olanlar, yorğun və darmadağın bir hala gələn Həzrəti Əbu Bəkiri, bir parçanın içinə uzadaraq evinə apardılar. Dərhal dala qayıdıb Kə'bəyə gəldilər; "Əgər Əbu Bəkir

ölərsə, and olsun ki, biz də Utbəni gəbərdəcəyik!" dedilər, sonra Həzrəti Əbu Bəkirin yanına getdilər.[59]

Həzrəti Əbu Bəkir, uzun müddət özünə gələ bilmədi. Atası və Bəni Teymlilər, özünə gəlməsi üçün çox əlləşdilər. Ancaq akşama yaxın öznə gələ bildi. Gözlərini açan kimi zəif bir səslə; "Rəsulullah nə edir? O, nə vəziyyətdədir? Onun da üstünə gəlmiş, həqarət etmişdilər" deyə bildi. Anası Ümmül Xeiyrə; "Soruş görək, bir şey yeyib içir?" dedi. Əbu Bəkiri Siddiqin heç taqəti qalmamışdı. Bir şey yemək və içmək də istəmirdi. Gələnlər gedib, ev səssizləşincə, anası; "Nə yemək və içmək istəyirsən?" deyə soruşunca, gözlərini açdı və; "Rəsulullah nə vəziyyətdədir, nə edir?" dedi. Anası; "Vallahi dostun haqqında heç bir xəbərim yoxdur!" deyə cavab verdi. Həzrəti Əbu Bəkir də; "Xəttabın qızı Ümmü Cəmilin yanına get, Rəsulullahı ondan soruş!" dedi.

Ümmü Cəmil Həzrəti Ömərin bacısı olub, müsəlman olmuşdu. Anası Ümmül-Xeyir, durub, Ümmü Cəmilin yanına getdi və; "Oğlum Əbu Bəkir səndən Məhəmməd əleyhissalamı xəbər alır. Görəsən nə haldadır?" dedi. Ümmü Cəmil də; "Mənim nə Məhəmməd əleyhissalam nə də Əbu Bəkir haqqında heç bir xəbərim yoxdur! İstəyirsən səninlə birlikdə gedək?" dedi. Ümmül-Xeyir; "Gedək" deyincə, durdular, Həzrəti Əbu Bəkirin yanına gəldilər. Ümmü Cəmil, Əbu Bəkiri Siddiqi belə pərişan bir vəziyyətdə, yara içində görüncə, özünü saxlaya bilməyib ahu fəğan etdi və; "Sənə bunu edən bir qövm, şübhəsiz ki, qudurğan və həddi aşandır. Allah Təaladan diləyim, onları cəzalandırmasıdır" dedi. Həzrəti Əbu Bəkir, Ümmü Cəmilə; "Rəsulullah nə vəziyyətdədir, nə edir?" deyə soruşdu. Ümmü Cəmil, ona; "Burada anan var, söylədiyimi eşidər" deyincə, Həzrəti Əbu Bəkir; "Ondan sənə bir zərər gəlməz, sirrini açmaz" buyurdu. Ümmü Cəmil; "Sağdır, vəziyyəti yaxşıdır" dedi. Təkrar; "İndi O hardadır?" deyə soruşdu. Ümmü Cəmil, "Ərqamın evindədir" deyə cavab verdi. Həzrəti Əbu Bəkir; "Vallahi, Rəsulullahı gedib görməsəm, nə yemək yeyər, nə də bir şey içərəm!" dedi. Anası; "Sən, indi bir az gözlə, hamı yatıb yuxuya getsin!" dedi. Hamı yatıb, ətraf səssizləşincə, Həzrəti Əbu Bəkir, anasının və Ümmü Cəmilın köməyi ilə, yavaş-yavaş Rəsulullahın yanına gəldi. Qucaqlayıb öpdü. Müsəlman qardaşlarıyla da qucaqlaşdı. Həzrəti Əbu Bəkirin bu halı, Cənabi Peyğəmbərimizi çox üzdü. Həzrəti Əbu Bəkir; "Ya Rəsulallah! Atam-anam sənə fəda olsun! O qudurmuş adamın, üzümü-

[59] Təbəri, *Tarix*, II. 332-333.

gözümü yerə sürtüb, məni tanınmaz hala qoymasından başqa bir üzüntüm yoxdur! Bu yanımdakı də, məni dünyaya gətirən anam Səlmadır. Ona dua etməyinizi xahiş edirəm. Bəlkə də, Allah Təala, sənin hörmətinə onu Cəhənnəm atəşindən qoruyar" dedi. Bundan sonra sevgili Peyğəmbərimiz, Səlmanın müsəlman olması üçün Allah Təalaya yalvardı. Rəsulullahin duası qəbul olmuşdu. Beləcə Ümmül-Xeyr də hidayət gəlib müsəlman oldu və ilk müsəlmanların arasında olmaq şərəfinə naıl oldu.

Cənabi Peyğəmbərimizin evi, Əbu Ləhəb ilə Ukbə ibn Əbi Muayt deyilən iki qəddar müşrikin evləri arasında idi. Bunlar hər fürsətdə sevgili Peyğəmbərimizə əziyyət verməyə çalışırdılar. Hətta, gecələri heyvan içalatlarını Rəsulullahın qapısının önünə atardılar. Əmisi Əbu Ləhəb, bununla kifayətlənməz, qonşusu Ədiyin evindən, Ona daş ataraq əziyyət verərdi. Yoldaşı Ümmü Cəmil ondan geri qalmaz, yığdığı tikanlı ağac budaqlarını Rəsulullahın Mübarək ayaqlarına batması üçün keçəcəyi yollara tökərdi. Əbu Ləhəb bir gün, gətirdiyi nəcisi, Cənabi Peyğəmbərimizin qapısının önünə tökərkən, Həzrəti Həmzə gördü. Dərhal qaçıb qardaşi Əbu Ləhəbi tutdu və gətirdiyi nəcisi başına tökdü.

Əbu Ləhəb və yoldaşının bu əziyyətlərindən sonra, onlar haqqında; "Əbu Ləhəbin əlləri qurusun, onsuz da qurudu... " deyə başlayan Təbbət surəsi nazil oldu. Əbu Ləhəbin yoldaşı Ümmü Cəmil, özləri haqqında surə endiyini eşidincə, Cənabi Peyğəmbərimizi axtarmağa başladı. Kə'bədə olduğunu xəbər alınca, əlinə yekə bir daş götürüb oraya getdi. Həzrəti Əbu Bəkir, o əsnada Peyğəmbərimizin söhbətiylə şərəflənirdi. Ümmü Cəmilin əlində daş tutduğunu görüncə; "Ya Rəsulallah! Ümmü Cəmil gəlir. Çox şərli bir qadındır, sizə zərər verməyindən qorxuram. Bir küncə tərəf durun ki, sızə bır əziyyət verməsin" dedi. Rəsulullah; "'O məni görə bilməz" buyurdu. Ümmü Cəmil, Həzrəti Əbu Bəkirin başının üstündi durub; "Ey Əbu Bəkir! Tez ol dostunun harada olduğunu de! Məni və ərimi həcv edib, pisləmişdir. O şairdirsə mən də, ərim də şairik. Budur mən də Onu həcv edirəm. Biz Ona üsyan edir, peyğəmbərliyini qəbul etmir və dinindən də xoşlanmırıq. And içirəm ki, əgər Onu görsəydim; bu daşı başına vuracaqdım" deyərək alçaqca sözlər söylədi. Həzrəti Əbu Bəkir; "Mənim sahibim şair deyildir və səni həcv etməmişdir" buyurunca, Ümmü Cəmil çıxıb getdi. Həzrəti Əbu Bəkir, Cənabi Peyğəmbərimizə üzünü tutaraq; "Ya Rəsulallah! O, sizi

görmədi?" deyə sual verincə; "Məni görmədi. Allah Təala, onun gözünü elə etdi ki, məni görə bilmədi" buyurdu.[60]

Cənabi Peyğəmbərimizin, mübarək qızlarından Həzrəti Ümmü Gülsüm, Əbu Ləhəbin oğlu Uteybə ilə; Həzrəti Ruqiyyə də o birisi oğlu Utbə ilə nişanlı idilər. Onlar hələ evlənməmişdilər. Təbbət surəsi nazil olunca, cəhənnəmlik Əbu Ləhəb, yoldaşı və Qureyşin başda gələnləri, Utbə və Uteybəyə; "Onun qızlarını alıb, yükünü azaltdınız. Qızlarını boşayın ki, çətinliyə düşsün. Sizə Qureyşdən istədiyiniz qızı alarıq" deyə təklif etdilər. Onlar da; "O halda boşadıq" dedilər. Uteybə deyilən alçaq, daha da həddini aşıb, Peyğəmbərimizin (səllallahu Təala əleyhi və səlləm) hüzuru şərifinə gəlib; "Ey Məhəmməd! Mən, səni və dinini tanımıram. Qızını da boşadım. Artıq nə sən məni sev, nə də mən səni! Nə sən mənim yanıma gəl, nə də mən sənin yanına gələrəm!" deyə həqarət etdi. Sonra, sevgili Peyğəmbərimizin üstünə cumub, mübarək yaxasından tutdu. Köynəyini yırtdı və təhqir etdi. Bundan sonra sevgili Peyğəmbərimiz; "Ya Rəbbi! Buna yırtıcılarından birini göndər" deyə bəddua etdi. Uteybə bədbəxt, atasının yanına gedib baş verənləri danışınca, Əbu Ləhəb; "Məhəmmədin, oğlum haqqındakı duasından qorxuram" dedi.

Bir neçə gün sonra Əbu Ləhəb, oğlu Uteybəni Şama ticarət üçün göndərdi. Karvan Zərqa deyilən yerdə düşərgə salmışdı. Bir aslan ətrafda dolaşmağa başladı. Uteybə bu halı görən kimi; "Heyhat! And içirəm ki, Məhəmmədin (əleyhissalam) bədduası qəbul oldu. Bu aslan məni yeyəcəkdir! Özü Məkkədə olsa da mənim qatilimdir" dedi. Aslan bir az sonra yoxa çıxdı. Uteybəni hündür bir yerdə yatırtdılar. Gecə, aslan yenə gəldi. Karvandakıları bir-bir iyləyərək Uteybənin yanına çatdı. Üstünə atılıb qarnını yşrtdı, başını tutdu və faciəvi bir şəkildə parçalayıb işini bitirdi. Uteybə can verərkən; "Mən sizə, Məhəmməd, insanların ən doğru sözlüsüdür, deməmişdim?" deyərək fəryad edə-edə can verdi. Bir aslan tərəfindən oğlunun parçalandığını eşidən Əbu Ləhəb; "Mən sizə, Məhəmmədin, oğlum haqqındakı duasından qorxuram deməmişdim?" deyə ağladı.[61]

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) insanları əbədi səadətə çağırır, Allah Təalanın varlığına, birliyinə də'vət edərək, Cəhənnəmdə yanmamaqları

---

[60] Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 71; Əbu Ya'la, *əl-Müsnəd*, I, 26, 50; V, 413; İbn Əsakir, *Tarixu Dəməşq*, LXVII, 173; Heysəmi, *Məcməuz-Zəvaid*, VII, 53.
[61] İbn Əsakir, *Tarixu Dəməşq*, XXXVIII, 301.

üçün cəhd edirdi. Müşriklər isə; “Atalarımızın dini budur” deyərək bütpərəstliyə davam edirdilər. Cənabi Peyğəmbərimiz, onları insanca yaşamağa, heysiyyətli və şərəfli olmağa, dəyərsiz olmaqdan xilas olub, yüksək ülvi məqamlara çıxartmağa də’vət edirdi. Onlar isə inadkarlıq edərək israr edirdilər. Əbu Ləhəb, həqarət və əziyyət edənlərin başında gəlirdi. Rəsulullahı dayanmadan tə’qib edir, insanları, Ona qulaq asmamağa və zehnlərində şübhə yaratmağa çalışırdı. Toplantı yerlərində, bazarlarda, Rəsulullah; “Ey insanlar! La ilahə illəllah, deyin ki xilas olasınız” buyurduqca, o dərhal özünü çatdırıb; “Ey insanlar! Bu danışan mənim qardaşımın oğludur. Nə badə Onun sözünə inanasınız. Ondan uzaq durun!” deyirdi.

Məhəmməd əleyhissalam bir gün Kə’bəyi şərifdə namaz qılırdı. Qureyşin başda gələnlərindən aralarında Əbu Cəhil, Şeybə ibn Rəbiə, Utbə ibn Rəbiə, Ukbə ibn Əbi Muaytın da olduğu yeddi nəfərlik bir müşrik qrupu, gəlib Rəsulullaha yaxın bir yerdə oturdular. Orada bir gün əvvəl kəsilmiş bir dəvənin içalatı vardı. Alçaq Əbu Cəhil, yanındakılara tərəf üzünü çevirərək; “Aranızdan kim, bu dəvə içalatını götürüb, Məhəmməd səcdə edərkən çiyninin ortasına qoyar” deyə, iyrənc bir təklif verdi. Ordakıların ən zalımı, ən qəddarı, ən mərhəmətsizi, ən bədbəxti olan Ukbə ibn Əbi Muayt; “Mən edərəm” deyərək dərhal yerindən qalxdı. İçalatı içindəkilərlə birlikdə, səcdədə ikən Peyğəmbərimizin mübarək çiyninə qoydu. Bunu seyr edən müşriklər, qəhqəhə ilə gülməyə başladılar. Cənabi Peyğəmbərimiz, səcdəsini uzadır, mübarək başını qaldırmırdı. O əsnada Əshabi kiramdan Abdullah ibn Məs’ud vəziyyəti gördü. O, bu hadisəni belə nəql etmişdir; “Rəsulullahı o halda görüncə qan beynimə vurdu. Ancaq, məni müşriklərin əlindən qoruyan bir qövmüm, qəbiləm yox idi. Kimsəsiz idim, zəifdim. O anda danışmağa belə gücüm çatmırdı. Ayaqda gözləyib, Rəsulullahı böyük bir üzüntü ilə seyr edirdim. Nə olaydı, o zaman özümü müşriklərdən qoruya biləcək bir gücüm veya qoruyucum olsaydı, Rəsulullah əleyhissalamın mübarək çiyninə qoyduqlarını götürüb atsaydım. Mən belə gözlərkən, Rəsulullahın qızı Həzrəti Fatiməyə xəbər verdilər. O zaman Fatimə balaca idi. Qoçaraq gəldi, atasının üstündəkiləri götürüb atdı. Bunu edənlərə bəddua etdi, ağır sözlər söylədi. Rəsulullah, heç bir şey olmamış kimi namazını qurtardıqdan sonra üç dəfə; “Allahım! Qureyşdən bu camaatı sənə tapşırıram! Allahım! Əbu Cəhil Əmr ibn Hişamı sənə tapşırıram! Allahım! Ukbə ibn Rəbiəni sənə tapşırıram! Allahım! Şeybə ibn Rəbiəni sənə tapşırıram! Allahım! Ukbə ibn Əbi Muaytı sənə tapşırıram! Allahım! Ümeyyə ibn Xələfi sənə tapşırıram! Allahım!

Vəlid ibn Utbəni sənə tapşırıram! Allahım! Umarə ibn Vəlidi sənə tapşırıram!" buyurdu. Bu bədduanı eşidən müşriklər, gülməyi kəsdilər. Qorxmağa başladılar. Çünkü Beytullahda edilən duanın qəbul olunacağına inanırdılar. Rəsulullah, Əbu Cəhilə; "Vallahi sən, ya bundan əl çəkərsən vəya Allah Təala başına bir fəlakət gətirəcəkdir" buyurdu. Allah Təalaya and içirəm ki, Rəsulullahın adlarını sadaladığı bu adamların hər birinin, Bədr müharəbəsində öldürülüb yerə sərildiklərini, istidən iylənmiş bir leş halında Bədr quyusuna doldurulduqlarını gördüm.

Bir dəfə Əbu Cəhil, Beytullahda, Qureyşli müşriklərə; "Ey Qureyş camaatı! Görürük ki, Məhəmməd, dinimizi pisləmək, bütlərimizə və ona sitayiş edən atalarımızın arxasınca danışaraq bizə ağılsız gözüylə baxmağa davam edir. Önünüzdə and içərək deyirəm ki, sabah çox ağır bir daşı, buraya gəlib namaz qılarkən səcdəyə getdiyində, başına vuracağam. O zaman siz məni, Əbdülmüttəlib oğullarına qarşı istər qoruyun, istər qorumayın. Mən Onu öldürdükdən sonra, qohumları mənə edirlərsə etsinlər..." dedi. Orada olan müşriklər; "And içirik ki, biz səni həm qoruyarıq, həm də heç kimə təslim etmərik. Təki, sən Onu öldür!" deyə təhrik etdilər.

Sabah tezdən Əbu Cəhil, əlində yekə bir daş olduğu halda Kə'bəyə gəldi. Müşriklərin yanında oturub gözləməyə başladı. Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) hər zamankı kimi Beytullaha gəlib namaz qılmağa başladı. Əbu Cəhil, yerindən durub əlindəki yekə daşı vurmaq üçün Rəsulullaha tərəf gəldi. Bütün müşriklər hadisəni həyəcanla seyr edirdilər. Əbu Cəhil, Rəsulullahın yanına yaxınlaşınca, birdən titrəməyə başladı. Yekə daş əlindən yerə düşdü, qorxaraq geri çəkildi. Müşriklər heyrətlə Əbu Cəhilin yanına gəlib; "Ey Əmr ibn Hişam! De görək, nə oldu?" deyə soruşdular. Əbu Cəhil də; "Tam Onu öldürmək üçün daşı qaldırdığımda, qabağıma qızmış bir dəvə çıxdı. And içirəm ki, ömrümdə; elə hündür ayaqlı, iti dişli, heybətli bir dəvə nə gördüm nə də eşitdim. Əgər bir az daha yaxınlaşsaydım, şübhəsiz məni öldürərdi" dedi.

Yenə bir dəfə Əbu Cəhil, müşrikləri başına yığıb; "Abdullahın yetimi, burada namaz qılır və üzünü torpağa sürtür?" deyə soruşdu. Onlar da; "Bəli" dedilər. Onsuz da bu cavabı gözləyən Əbu Cəhil; "Əgər Onu elə görərsəm, başını ayağımla əzəcəm" dedi. Bir gün peyğəmbərlərin Peyğəmbəri, Kə'bədə namaz üçün durmuşdu. Əbu Cəhil də dostları ilə oturmuşdu. Yerindən qalxaraq, Rəsulullaha (səlləllahu əleyhi və səlləm) tərəf cumdu. Əməlli başlı yaxınlaşdı. Ancaq birdən birə əliylə üzünü silərək qaçmağa

başladı. Müşriklər yanına gedib; “Nə oldu, nədir bu halın?” soruşdular. Əbu Cəhil; “Aramızda bir alov çuxuru meydana gəldi. Bəzi adamların üstümə hücum etdiyini görüncə, geri qayıtdım” deyə cavab verdi.

Vəlid ibn Muğirə, Əbu Cəhil (Əmr ibn Hişam), Əsvəd ibn Müttəlib, Ümeyyə ibn Xələf, Əsvəd ibn Əbdiyağvəs, As ibn Vail, Haris ibn Qeys kimi müşriklərin başda gələnləri, Rəsulullahı gördükcə; “Bu da peyğəmbər olduğunu və yanına Cəbrayılın gəldiyini zənn edir” deyərək istehza edərdilər. Bundan sonra Həbibi əkrəmin çox üzüldüyü bir gün, Cəbrayıl əleyhissalam gəldi və bəzi ayələr gətirdi. Məalən; “And olsun ki (ey Rəsulum) səndən əvvəl göndərilən peyğəmbərlərlə də istehza edildi. İstehzalarının əvəzində bəla və əzab onlarin başlarına çökdü”.[62]

“Şübhəsiz ki biz, səninlə istehza edənlərə qarşı yetərliyik. Onlar, o şəxslərdir ki, Allah Təala ilə birlikdə başqa bir ilah tanıyırlar. Onlar, yaxında (başlarına gələcək aqibəti) biləcəklər. Həqiqətən bilirik ki, onların sözlərinə, (şirk qoşmaqalarına, Qur’anı Kərimə böhtan atmaqlarına və sənə istehza edərək söz söyləmələrinə) qanın çox qaralır” buyruldu.[63]

Kainatın hökmdarı, bir dəfə Kə’bəyi müəzzəməni təvaf edərkən, Cəbrayıl əleyhissəlam gəldi və; “Mən onların (istehza edənlərin) öhdəsindən gəlmək üçün əmr aldım” dedi. Bir az sonra Vəlid ibn Muğirə qabaqlarından keçdi. Cəbrayıl əleyhissalam; “Bu keçən necə bir adamdır?” deyə soruşdu. Cənabi Peyğəmbərimiz də; “O, Allah Təalanın ən pis qullarından biridir” buyurdu, Cəbrayıl əleyhissalam, Vəlidin ayağını göstərdi və; “Öhdəsindən gəldim” dedi. Bir az sonra As ibn Vail keçirdi. Onu da soruşub eyni cavabı alınca, qarnına işarə etdi və; “Ona da həddini bildirdim” dedi. Əsvəd ibn Müttəlib keçincə, gözünə; Əbdiyağvəsi görüncə, başına işarə etdi. Haris ibn Qeys keçərkən də qarnını göstərdi və; “Ya Məhəmməd! Allah Təala bunların şərrindən səni qurtardı. Çox keçmədən bunların hər biri bir bəlaya düçar olar” dedi.

Bunlardan As ibn Vailin ayağına tikan batdı. Nə qədər müalicə etdilərsə də dərdinə çarə tapa bilmədilər. Axırda ayağı dəvə boynu kimi şişib; “Məhəmmədin Allahı məni öldürdü” deyə fəryad edərək can verdi. Əsvəd ibn Müttəlibin gözləri kor oldu. Cəbrayıl əleyhissalam, başını ağaca vuraraq həlak etdi. Əsvəd ibn Əbdiyağvəs, Badi səmum deyilən yerdə ikən, üzü və bədəni qapqara oldu. Evinə gəlincə tanımadılar və

[62] əl-Ən’am 6/10.
[63] əl-Hicr 15/95-97.

qapıdan qovdular. Qəhrindən başını evinin qapısına vura-vura öldü. Haris İbn Qeys də duzlu balıq yemişdi. Hərarəti o ki var qalxdı. Nə qədər su içdisə doymadı. Axırda çatladı. Vəlid ibn Muğirənin də baldırına dəmir parçası batdı. Yarası sağalmadı, çox qan itirdi və; "Məhəmmədin Allahı məni öldürdü" deyə fəryad edərək can verdi. Beləcə hər biri etdiklərinin cəzasını çəkmiş oldu. Ayrıca müşriklərin, əbədi olaraq Cəhənnəmdə qalacaqları, ayələrlə bildirildi.

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), bir gün Əbül-Asa rast gəldi. Ondan ayrıldıqdan sonra Hakim, Rəsulullahın dalınca istehza edərək; ağzını, üzünü və bədənəni oynatdı. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Hakimin etdiklərini nübüvvət nuru ilə gördü və elə qalması üçün dua buyurunca, bədənini əsmə tutdu, ömrünün sonuna qədər elə qaldı.

## Əshabi Kirama edilən işgəncələr

Müşriklər təkcə Cənabi Peyğəmbərimizə əziyyət etmirdu. Onun şanlı Əshabına da işgəncə edirdilər. Ələlxüsus kasıb, kimsəsiz olanları seçir, əllərindən gələn, ağla gəlməyən təzyiq və zülmü heç çəkinmədən edirdilər. Bunlardan biri də Bilali Həbəşi idi. Ümeyyə ibn Xələf adında bir müşrikin köləsi olan Həzrəti Bilal, Əbu Bəkri Siddiqin vasitəsi ilə müsəlman olmuşdu. Ümeyyə, on iki köləsindən ən çox Bilalı sevdiyi üçün, bütxanaya gözətçi qoymuşdu, Həzrəti Bilal, müsəlman olunca, bütxanadakı bütün bütləri səcdə vəziyyətinə saldı. Bu xəbər Ümeyyəyə çatınca, dəhşətə düşdü. Çağırdıb; "Sən müsəlman olmusanmış və Məhəmmədin Rəbbinə səcdə edirsənmiş, bu düzdür?" deyə soruşdu. Həzrəti Bilal da; "Bəli. Böyük və üca olan Allah Təalaya səcdə edirəm" dedi. Ümeyyə, xoşlanmadığı bu cavabı alınca, dərhal əziyyət və işgəncələrinə başladı. Günorta vaxtı günəş tam ortaya gəldiyində, onu soyundurar, istidən qızarmış daşları, çılpaq bədəninin üstünə qoyaraq dağlayardı. Od kimi yanan daşların bir hissəsini arxasına, bəzisini də qarnı üstünə yığdıqdan sonra; "İslam dinindən dön! Lat və Uzza bütlərinə iman et" deyər, Həzrəti Bilal isə; "Allah Təala birdir! Allah Təala birdir!" deyərək imanını təsdiq edərdi.

Ümeyyə ibn Xələf, onun bu səbrini gördükcə dəliyə dönər, tikanlar üstündə sürüyərək bədənini yaralayar və işgəncə edərdi. Həzrəti Bilal, bədənindən su kimi axan

qanı vecinə almadan; “Allahım! Səndən gələnə razıyam. Allahım! Səndən gələnə razıyam” deyər və imanındakı düzümlülüyünü göstərirdi.

Həzrəti Bilal, bu halını belə nəql etmişdir; “O xəbis Ümeyyə, məni, günün istisində bağlayıb, gecə də işgəncə edərdi. İsti bir gün idi. Hər zamankı kimi yenə işgəncəyə başladı. İslamdan döndərmək üçün; “Bütlərimizə stayiş et! Məhammədin Allahını inkar et!” dedikcə; “Allah birdir! Allah birdir!” deyərdim. Acığını çıxmaq üçün, o gün çok böyük bir qaya parçasını sinəmin üstünə qoydu. O anda huşumu itirmişəm. Özümə gəldiyimdə, üstümdəki qaya parçasının götürülmüş və günəşin qabağını bulutların tutduğunu gördüm. Allah Təalaya şükr etdim və öz özümə; “Ey Bilal! Cənabi Haqdan gələn hər şey gözəldir, xoşdur” dedim”.[64]

Ümeyyə ibn Xələf, yenə bir gün Bilali Həbəşiyə işgəncə etmək üçün onu çölə çıxartmışdı. Əynindəkiləri soyundurub təkcə alt paltarı ilə, yandırıcı istidə qızmar quma uzadıb, üstünə daşları yığmışdı. Müşriklər toplanıb ağır işgəncələr edir; “Dinindən dönməzsən səni öldürəcəyik” deyirdilər. Bilali Həbəşi, bu dözülməz işgəncələr altında; “Allah birdir! Allah birdir!” deyirdi. Bu əsnada sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) oradan keçirdi. Həzrəti Bilali Həbəşinin bu halını görüncə çox üzüldü; “Allah Təalanın adını söyləmək səni xilas edər” buyurdu.

Evinə çatdıqdan bir az sonra, yanına Həzrəti Əbu Bəkir gəldi. Bilali Həbəşinin çəkdiyi işgəncəni, Əbu Bəkiri Siddiqə deyib; “Çox üzüldüm” buyurdu, Həzrəti Əbu Bəkir, dərhal oraya getdi. Müşriklərə; “Bilala belə etməklə əlinizə nə gəlir? Bunu mənə satın” dedi. “Dünya dolusu qızıl versən satmarıq. Ancaq, sənin kölən Amir ilə dəyişərik” dedilər. Həzrəti Əbu Bəkrin köləsi Amir, onun ticarət işlərini görər və çox pul qazanardı. Yanında şəxsi malından başqa, on min qızılı vardı. Həzrəti Əbu Bəkrin yardımçısı olub, hər işini görərdü. Ancaq kafir idi və kafirliyində israr edərdi. Həzrəti Əbu Bəkir; “Amiri bütün malı-dövləti ilə, Bilalın əvəzinə sizə verdim” buyurdu. Ümeyyə ibn Xələf və digər müşriklər çox sevinib; “Əbu Bəkri aldatdıq” dedilər.

Həzrəti Əbu Bəkr, dərhal Bilali Həbəşinin üstündəki ağır daşları götürüb ayağa qaldırdı. Bilali Həbəşiyə, ağır işgəncələr verilməsi səbəbiylə çox taqətdən düşmüşdü. Əlindən tutub, birbaşa sevgili Peyğəmbərimizin hüzuruna gətirdi. “Ya Rəsulallah! Bilalı, bu gün Allah rızası üçün azad etdim” dedi. Rəsulullah, çox sevindi.

---

[64] Bəlazuri, *Ənsab*, I, 185.

Həzrəti Əbu Bəkirə çox dua etdi. O əsnada Cəbrayıl əleyhissalam; Əbu Bəkirin Cəhənnəmdən uzaq olduğunu müjdə verən, Leyl surəsinin 17 və 18-ci ayələrini gətirdi. Ayələrdə məalən; "(Həzrəti Əbu Bəkir kimi) çox təqva sahibi olub, (şirk və günahdan çəkinib) malını, Allah Təalanın nəzdində pak olmaq (və və'di ilahiyə qovuşmaq) üçün xeyir yolunda xərcləyən şəxs, ondan (Cəhənnəmdən) uzaqlaşdırlmışdır" buyuruldu.

Həbbab ibn Ərət Həzrətləri də dinindən döndərilmək üçün zülm edilənlər arasındaydı. Həzrəti Həbbabın da heç kimi yoxdu və Ümmü Ənmar adlı müşrik bir qadının köləsi idi. Onu qoruyacaq bir qohumu olmadığı üçün, müşriklər toplanır, Mübarək bədənini soyundurub, tikanla çırpardılar. Bəzən da çılpaq bədəninə dəmir paltar geyindirib, günəş altında saxlayardılar. Günəşdə veya odda isitdikləri daşları çılpaq bədəninə sıxardılar; "Dinindən dön! Lat və Uzzaya sitayiş et" deyərdilər. Həbbab da imanında israr edər; "La ilahə illallah, Məhəmmədən rəsulullah" deyərək onlara qarşı gələrdi.

Müşriklər, günlərin bir günü yığılıb bir meydanda od qaladılar. Həzrəti Həbbabı bağlayıb, gətirdilər. Soyunduraraq, odun üstünə uzandırdılar. Ya dinindən döndərəcəklər, vəya odda yandıracaqdılar. Ocağın ortasına beli üstünə uzadılan Həzrəti Həbbab; "Allahım! Halımı görürsən, vəziyyətimi bilirsən. Qəlbimdəki imanı möhkəmləndir, böyük bir səbr ehsan eylə" deyə dua edirdu. Müşriklərdən biri ayağıyla Həzrəti Həbbabın sinəsini tapdadı. Ancaq onlar, Allah Təalanın inananları qoruduğunu bilmirdilər.

Aradan illər keçdi. Bu hadisəni Həbbaba soruşduqlarında, belini açıb yanıq izlərini göstərərək; "Mənim üçün bir ocaq qaladılar, sonra sürüyərək üstünə atdılar. O ocağı təkcə mənim ətim söndürmüşdü" dedi.[65]

Həzrəti Həbbaba çöldə belə işgəncə edilərkən, ağası Ümmü Ənmar da, dinindən döndərmək üçün odda dəmiri isidərək və başına basaraq damğa vurardı. O, dini üçün bütün bu əziyyətlərə dözür, təklif etdiklərini yerinə yetirməz və imanından dönməzdi.

Bir dəfə Həzrəti Həbbab, sevgili Peyğəmbərimizin hüzuruna çıxdı və; "Ya Rəsulallah! Müşriklər çöldə məni gördükləri yerdə odda yandırırlar. Evdə, sahibim Ümmü Ənmar da qızdırılmış dəmirlə başıma dağ basır. Duanızı istirham edirəm!" dedi.

---

[65] Bəlazuri, *Ənsab*, I, 178.

Sonra belindəki və başındaki yanıqları göstərdi. Peyğəmbərimiz onun bu halına çox yandı, Dinindən dönməmək üçün çəkdiyi əziyyətə, edilən zülmə dözə bilmədi və; "Ya Rəbbi! Həbbaba yardım et" deyərək dua etdi. Cənabi Haqq, Rəsulunun duasını o anda qəbul etdi və Ümmü Ənmarın başında şiddətli bir ağrı üzə çıxdı. Ümmü Ənmar, başının ağrısından sabaha qədər inləyərdi. Çarə olarak odda qızdırılmış bir dəmirlə başına dağ basılmasını söylədilər. Axırda Həbbabı çağıraraq, dəmir çubuğu odda qızdırmasını və başına dağ basmasını əmr etdi... Həzrəti Həbbab da dəmirlə onun başına dağ basdı...

İslamın ilk günlərində, müşriklər, Həbbab ibn Ərətin vəziyyətinə o qədər də əhəmiyyət vermirdilər. Ancaq hər keçən gün iman edənlərin sayı artırdı. Axırda, istər istəməz bu işi ciddiyə almağa məcbur olmuşdular. Nəhayət Həzrəti Həbbaba etdikləri işgəncəlləri daha da artırdılar. Həddən çox vurdular, döydülər, yaraladılar, işgəncə üstünə işgəncə etdilər...

Bütün bunlara baxmayaraq, Həzrəti Həbbab imanından zərrə qədər də geri çəkilmədi. Ancaq əziyyət və işgəncələr də dözülməz hal almışdı. Baş verənləri Kainatın sahibinə çatdırıb; "Ya Rəsulallah! Bizə verilən işgəncələrdən xilas olmağımız üçün, dua edərsiniz?" dedi. Bundan sonra Rəsulullah; "Sizdən əvvəlki ümmətlərin arasında elə adamlar vardı ki, dəmir daraqla dəriləri, ətləri soyulub qazılırdı, bu işgəncə yenə onları dinindən döndərə bilməzdi. Balta ilə başından iki yerə bölünərdi, yenə bu işgəncələr onları dinlərindən qaytara bilməzdi. Allah Təala əlbəttə bu işi (İslamiyyəti) tamamlayacaqdır. Bütün dinlərdən üstün eləyəcəkdir. Elə ki, miniyinə minib, Sən'adan Hədramuta qədər tək tənha gedən bir nəfər, Allah Təaladan başqasından qorxmayacak, qoyunları haqqında da canavar parçalamasından başqa bir təşvişə düşməyəcəkdir. Ancaq, siz tələsirsiniz" buyurdu və kürəyini sığallayıb dua etdi. Rəsulullahın ruhlara gida və şəfa olan bu lətif sözləri, Həbbabın ağrılarını sakitləşdirmirmişdi.

Həzrəti Həbbabın ələlxüsus qudurğan bir müşrik olan As ibn Vaildən bir xeyli alacağı vardı. Onu istəmək üçün yanına getdi. As ibn Vail, Həbbaba; "Məhəmmədi inkar etmədikcə sənə alacağını verməräm" deyincə, Həzrəti Həbbab; "Vallahi mən həyatımda olduğu kimi öldükdən sonra qəbrimdən qalxınca da əsla peyğəmbərimi rədd və inkar edə bilmərəm. Hər şeydən imtina edərəm, ancaq inkar etmərəm" cavabını verdi. Bundan sonra As ibn Vail; "Öldükdən sonra diriləcəyik? elə bir şey varsa o zaman malım da, övladım da olacaq. Borcumu, sənə o gün ödəyərəm" dedi. As ibn Vailin bu sözlərindən sonra, Allah Təala Qur'ani Kərimdə Məryəm surəsinin 77-79-cu

ayələrində məalən belə buyurdu; "(Ey Həbibim!) İndi bu ayələrimizi inkar edən və; "Əlbəttə mənə (qiyamət günü) mal və övlad veriləcəkdir" deyən adamı (As ibn Vaili) gördün? O, geybdən bir xəbər alıb, yoxsa Rəhmanın hüzurunda bir və'd alıb? Xeyr, biz onun dediyini yazacağıq. (Qiyamət günü buna görə onu hesaba tutacağıq) və əzabını da o ki var çoxaldacağıq".

**Huşunu itirənə qədər işgəncə...**

Müşriklər qadın vəya kişi olduğuna məhəl qoymadan işgəncə edərdilər. İlk müsəlmanlardan olan və heç kimi olmayan Zinnirə Xatun da bir kölə idi. Müsəlman olduğunu öyrənən müşriklər, ona da işgəncə etməkdən heç çəkinmədilər. Zinnirə Xatun, Lat və Uzza bütlərinə sitayiş etməsi üçün məcbur edilir, boğazı sıxılır, nəfəs ala bilməyib huşunu itirənə qədər işgəncə edilirdi. Bununla belə dinindən əsla dönməz, onların dediklərinə əməl etməzdi. Ələlxüsus Əbu Cəhl həddən çox işgəncə edərdi. Bu səbəbdən də Zinnirənin gözləri kor olmuşdu. Bir dəfə Əbu Cəhil; "Gördün? Lat və Uzza sənin gözünü kor etdi!" deyincə, Zinnirə Xatun, imanının təzahürü olaraq; "Ey Əbu Cəhil! Vallahi o, sənin dediyin kimi deyildir. Lat və Uzza dediyin bütlər heç bir işə yaramaz, özlərinə sitayiş edənlərdən və etməyənlərdən xəbərləri yoxdur. Mənim Rəbbim, gözümün nurunu verməyə və məni əvvəlki halıma qaytarmağa əlbəttə qadirdir" dedi.

Əbu Cəhil, Həzrəti Zinnirənin sarsılmayan imanı qarşısında nə deyəcəyini bilmədi. Allah Təala, Zinnirənin duasını qəbul etmişdi və gözü əvvəlkindən daha yaxşı görürdü. Əbu Cəhil və Qureyş müşrikləri bu halı gördükləri halda inad edib, iman etmədilər. Üstəlik; "Bu da, peyğəmbərlərinin bir sehridir! Məgər Məhəmmədin yolunda gedən ağılsızlara heyrət etmirsiniz? Əgər onların getdiyi yol xeyirlı və həqiqət yolu olsaydı, əvvəlcə biz onun dalınca düşərdik. Demək, bizdən əvvəl bir kölə doğrunu tapdı?" dedilər.

Bundan sonra Allah Təala, Əhqaf surəsinin 11-ci ayəsini nazil etdi. Məalən; "O kafirlər, iman edənlər üçün; "Əgər onda (İslamiyyətdə) bir xeyir olsaydı, bu xüsusda onlar (kasıblar, biçarələr) bizdən qabağa keçə bilməzdilər, bizdən əvvəl, ondan yapışmazdılar" dedilər. Halbuki onlar, onunla (Qur'ani Kərimlə mö'minlər kimi)

hidayətə gəlmədikləri üçün (Qur'ani Kərimi inkar etmək üçün); "Bu Qur'ani Kərim (Məhəmmədin ortaya çıxartdığı) məlum bir yalandır" deyəcəkdilər" buyuruldu.

### Darul-Ərqam

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), müşriklərin, Əshabına etdikləri zülm və işgəncələrə çox üzülürdü. İslamiyyətin yayılması və öyrənilməsi üçün əmniyyətli bir yer lazım idi. Rəsulullah, bu müqəddəs vəzifə üçün Həzrəti Ərqamın evini seçdi. Bu ev, Səfa təpəsinin şərqində, dar bir küçədə və hündür bir yerdə idi. Buradan Kə'bəyi müəzzəmə rahatca görünürdü. Evin giriş və çıxışı, gəlib-kəçənlərə nəzarət etmək cəhətindən çox əlverişli idi. Ayrıca Həzrəti Ərqam, Məkkənin başda gələnlərindən, e'tibarılı bir zat idi. Həbibi əkrəm Rəsulullah, bu evdə Əshabına İslamiyyəti təbliğ edərdi. Yeni müsəlman olmaq istəyənlər buraya gəlib İslamiyyətlə şərəflənir, Rəsulullahin qəlblərə dəva olan Mübarək sözlərini dinləməklə bərəkətlənirdilər. Cənabi Peyğəmbərimizə, sanki başlarına quş qonmuş, danışan kimi uçub gedəcək kimi nəfəs almadan qulaq asardılar. Mübarək sözlərini, dərhal yadda saxlayıb, heç bir kəliməsini qaçırtmadan, əzbərləyərdilər. Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), gündüzlər Ərqamın evində qalır və sabahdan axşama qədər Əshabına öyrətməklə məşğul olardı. Bura müsəlmanların ilk qərargahı, "Darul-İslam" idi. İlk müsəlmanlar burada yığılar, beləcə müşriklərin hər cür pisliklərindən qorunmuş olardılar.

Əmmar ibn Yasir belə nəql edir; "Darul-Ərqama" gedib Rəsulullahı görərək müsəlman olmaq istəyirdim. Qapıda Həzrəti Süheybə rast gəldim. "Burada nə edirsən?!" deyə soruşduğumda, eyni sualı mənə soruşdu. Mən də; "Həzrəti Məhəmmədin hüzuruna gedib, sözlərini dinləyib müsəlman olmaq istəyirəm" dedim. O da; "Mən də bunun üçün gəlmişdim" dedi. Birlikdə uca və şərəfli hüzuruna daxil olduq. Bizə İslamı başa saldı. Sevərək müsəlman olduq".[66]

Əmmar müsəlmanlığını açıqlamaqdan çəkinməyən mücahidlərdən biri idi. Dinindən dönməmək üçün ən ağır işgəncələrə dözərdi. Müşriklər onu tənha gördükləri zaman, Ramda cəhətinə, Məkkə qayalıqlarına aparıb, paltarlarını soyundurub, dəmir paltar geyindirərdilər. Bu şəkildə yandırıcı günəşin altında saxladır və işgəncə edilirdi.

---

[66] İbn Sə'd, *ət-Təbəqat*, III, 227; Hakim, *əl-Müstədrək*, III, 449; İbn Əsakir, *Tarixu Dəməşq*, XXIV, 219.

Bəzən da kürəyinə odla dağ basılırdı. O, dayanmadan işgəncələrə məruz qalardı. Hər dəfəsində; “İnkar et! İnkar et! Lat və Uzzaya sitayiş et ki xilas ol!” deyərdilər. Həzrəti Əmmar, bu dözülməz işgəncələrə böyük bir səbrlə; “Rəbbim Allah, peyğəmbərim Məhəmməd əleyhissalamdır” deyərək cavab verərdi. Müşriklər buna daha çox əsəbiləşər, sinəsi üstünə, isinmiş qaya parçalarını qoyardılar, bəzən da quyu içinə ataraq suda boğmağa çalışırdılar. Əmmar ibn Yasir bir dəfə sevgili Peyğəmbərimizin hüzuruna gəldiyində; “Ya Rəsulallah! Müşriklərin bizə etdiyı işgəncələr son həddinə çatdı” deyincə, Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), Həzrəti Əmmarın halına üzüldü və; “Səbr edin ey Yəqzanın atası!” buyurduqdan sonra; “Ya Rəbbi! Əmmar ailəsindən heç kimə Cəhənnəm əzabını göstərmə” deyə dua etdi.

## İlk şəhid

Həzrəti Əmmarın atası Yasir, anası Sümeyyə, qardaşı Abdullah ailəvi şəkildə müsəlman olmuşdular. Müşriklər, Həzrəti Əmmara etdikləri işgəncələrdən daha çoxunu anasına, atasına və qardaşına edirdilər. İşgəncə əsnasında, küfr olan sözlərini bunlara söylətdirmək istəyər, onlar da; “Dərimizi soysanız, ətimizi parça-parça doğrasanız, sizə qulaq asmarıq” deyə cavab verərlər; “La ilahə illallah, Məhəmmədən Rəsulullah” deyərdilər. Yenə bir dəfə Bətha deyilən yerdə, Yasir ailəsinin hamısına bir yerdə işgəncə edilərkən, Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) ordan keçirdi. Əshabının bu dözülməz işgəncələrə mə’ruz qldığını görüncə çox üzüldü. Həzrəti Yasir; “Ya Rəsulallah! Ömrümüz daim belə işgəncə ilə keçəcək?” deyə sual verincə, Rəsulullah; “Səbr edin ey Yasir ailəsi! Sevinin ey Əmmar ailəsi! Heç şübhəsiz, sizin mükafat yeriniz Cənnətdir” buyurdu.

Yenə bir dəfə, Məkkə müşrikləri, Əmmarı yandırmaqla əziyyət və işgəncə edirdilər. Rəsulullah oraya təşrif etdi; “Ey alov! İbrahimə (əleyhissalam) olduğun kimi, Əmmara da sərin və sələmət ol!” buyurdu. Daha sonra da Əmmar kürəyini açtığında odun izi görünürdü. Bu iz, Rəsulullahın duasından əvvəl idi.

Yenə Yasir ailəsinə işgəncə verilən bir gündə, Həzrəti Yasiri və oğlu Həzrəti Abdullahı oxla şəhid etdilər. Əbu Cəhil, Həzrəti Sümeyyənin Mübarək ayaqlarını iplə bağlatdı. İplərin uclarına da iki dəvəni bağladıb, ayrı istiqamətlərdə sürdürərək Həzrəti Sümeyyəni ikiyə böldü və şəhid etdi. Mərhəmətsiz, gəddar, zalım Əbu Cəhil və digər

müşriklərin, işgəncələrlə Yasir ailəsini şəhid etdikləri xəbərini Cənabi Peyğəmbərimiz və Əshabi kiram (əleyhimürrizvan) eşitdiklərində həddən çox üzüldülər. Bu hadisə, Əshabın bir birlərinə daha çox bağlanmasına və bir olmasına səbəb oldu.[67]

Əshabi kiram, namaz qılacaqları zaman kimsənin olmadığı yerlərə gedər, orada ibadətlərini gizlicə edərdilər. Yenə belə bir gün; Sə'd ibn Əbi Vəqqas, Səid ibn Zeyd, Abdullah ibn Məs'ud, Əmmar ibn Yasir, Həbbab ibn Ərət, Məkkə vadilərindən Əbu Düb deyilən tərəfdə namaz qılırdılar. O əsnada, onları tə'qib edən Əhnəs ibn Şərik və bəzi müşriklər yanlarına gəlib ibadətləriylə istehza etməyə, pisləməyə başladılar. Buna dözə bilməyən Həzrəti Sə'd ibn Əbi Vəqqas və dostları, müşriklərə hücum etdilər. Həzrəti Sə'd, əlinə keçirtdiyi bir dəvə sümüyünü, kafirlərdən birinin başına vuraraq yardı. Müşriklər qorxaraq qaçdılar. Beləcə müsəlmanlar ilk dəfə, kafir qanı axıtmış oldular.

## Əbu Zərr əl-Ğıfarinin müsəlman olması

İnsanlar, bir-bir hidayətə gəlib və İslamın nuru Məkkə xaricində də yayılaraq aləmi aydınlatmağa başlayırdı.

İslamın zühuru xəbəri və yayılışı qarşısında, müşriklər əngəl olma yollarına baş vururdular. Axırda bu xəbər, Bəni Ğıfar qəbiləsinə də çatdı. Əbu Zərr əl-Ğıfari bu xəbəri eşidən kimi qardaşı Üneysi Məkkəyə göndərib, vəziyyətin nə yerdə olduğunu xəbər verməsini istədi. Üneys, Məkkəyə gedib, Cənabi Peyğəmbərimizin məclisinə qatıldı. Heyran qalaraq dala qayıtdı. Qardaşı Əbu Zərr Həzrətləri; "Nə xəbər gətirdin?" deyə soruşunca; "Rəsulullah! Vallahi daima xeyri, yaxşılığı əmr edən və pisliklərdən çəkindirən çox uca mərtəbəli bir zat gördüm" dedi. Əbu Zərr əl-Ğıfari; "Yaxşı, insanlar Onun haqqında nə deyirlər?" deyincə, zamanın məşhur şairlərindən olan qardaşı Üneys; "Şair, kahin, sehrbaz deyirlər. Ancaq Onun sözləri kahinlərin, sehrbazların sözlərinə oxşamır. Ayrıca söylədiklərini, şairlərin hər cür şe'rləriylə müqayisə etdim. Onlara da oxşmırdı. Oxşarı olmayan bu sözlər heç kimin sözüylə də müqayisə edilə bilməz. Vallahi, o zat haqdan xəbər verir, doğru danışır. Ona inanmayanlar yalançıdır və ziyan edənlərdir" deyə cavab verdi.

---

[67] İbn Əbi Şeybə, *əl-Musannəf*, VIII, 42; İbn Sə'd, *ət-Təbəqat*, VIII, 264; Süheyli, *ər-Rövzul-Unf*, II, 86.

Əbu Zərr əl-Ğıfari bu xəbəri eşidən kimi, Məkkəyə getməyə və Cənabi Peyğəmbərimizi görüb müsəlman olmağa qərar verdi. Əlinə bir dəyənək və bir az da azuqə alaraq, həvəslə Məkkənin yolunu tutdu. Məkkəyə çatınca, halını heç kimə demədi. Çünki müşriklər, Cənabi Peyğəmbərimizə və təzə müsəlman olanlara qəddarcasına düşmənlik edir, əziyyətlərini də get-gedə artırırdılar. Əlalxüsus müsəlman olan, kimsəsiz və gərib adamlara daha çox işgəncə edirdilər. Əbu Zərr, Məkkədə heç kimi tanımırdı. Qərib və yad idi. Bu cəhətdən heç kimə bir şey soruşmadı. Kə'bənin yanında Rəsulullahı görmək üçün fürsət gözləyir, harda olduğunu öyrənmək üçün əlləşirdi.

Axşam üstü bir küçənin tinində dayanmışdı. Həzrəti Əli, Əbu Zərri gördü. Qərib olduğunu başa düşərək evinə apardı. Halını soruşmayınca Əbu Zərr sirrini açmadı. Səhər olunca yenə Kə'bəyə getdi. Axşama qədər gəzdiyinə baxmayaraq istə'yinə nail ola bilmədi. Həmin yerə gedib oturdu. Həzrəti Əli, o gecə yenə oradan keçirdi. "Bu biçarə hələ də evinə gedə bilməyib" deyərək təkrar apardı. Səhər yenə Beytullaha getdi və bir tərəfdə oturdu. Həzrəti Əli yenə evinə də'vət etdi. Bu dəfə hardan və nə üçün gəldiyini soruşdu. Əbu Zərr Həzrətləri də; "Əgər mənə doğru xəbər verəcəyinə qət'i söz versən, deyərəm" dedi. Həzrəti Əli; "De, halını heç kimə demərəm" deyincə, Əbu Zərr əl-Ğıfari; "Burada bir peyğəmbərin zühur etdiyini eşitdim. Onunla görüşmək və Ona qatılmaq üçün gəldim" dedi. Həzrəti Əli; "Sən doğrunu dərk etdin, ağıllı hərəkət etdin. İndi mən o zatın yanına gedirəm. Mənim dalımca gəl, mənim girdiyim evə sən də gir. Əgər yolda sənə bir nəfərin zərər verəcəyini hiss etsəm, ayaqqabımı düzəldircəsinə hərəkət edərəm. O zaman dayanmadan məni keçib gedərsən" dedi.

Əbu Zərr əl-Ğıfari, Həzrəti Əlinin dalınca düşdü. Nəhayət Peyğəmbərimizin Mübarək üzünü görməklə şərəfləndi. Və; "Əssalamu əleykum" deyərək salam verdi. Bu salam İslamda verilən ilk salam və Əbu Zərr əl-Ğıfari də ilk salamlayan şəxs oldu. Cənabi Peyğəmbərimiz salamına cavab verib; "Allah Təalanın rəhməti üzərinə olsun" buyurdu. Cənabi Peyğəmbərimiz; "Sən kimsən?" deyə soruşunca; "Mən Ğıfar qəbiləsindənəm" dedi. "Nə zamandan bəri buradasan?" buyurdu. "Üç gün üç gecədən bəri buradayam." "Sənin kim qarnını doyuzdurdu?" buyurunca; "Zəmzəmdən başqa bir yemək, içgi tapa bilmədim. Zəmzəmi içdikcə heç bir aclıq və susuzluq hiss etmədim" dedi. Peyğəmbərimiz; "Zəmzəm mübarəkdir. Ac olanı doydurur" buyurdu. Bundan

sonra Əbu Zərr əl-Ğıfari, Cənabi Peyğəmbərimizə; "Mənə İslamı başa sal" dedi. Peyğəmbərimiz, ona Kəliməyi şəhadəti oxudu, o da deyərək, İslamiyyət ilə şərəflənib, ilk müsəlmanlar arasına qatıldı.[68]

Əbu Zərr əl-Ğıfari Həzrətləri, müsəlman olduqdan sonra Peyğəmbərimizə; "Ya Rəsulallah! Səni haqq peyğəmbər olaraq göndərən Cənabi Haqqa and içirəm ki, mən bunu müşriklərin arasında açıq-aşkar deyəcəyəm" dedi. Kə'bənin yanına gedib, yüksək səslə; "Ey Qureyş camaatı! "Əşhədü ənla ilahə illallah və əşhədü ənnə Məhəmmədən əbdühu və Rəsuluh - Mən şəhadət edirəm ki, Allahu Təaladan başqa ilah yoxdur. Məhəmməd əleyhissalam Onun qulu və rəsuludur" dedi. Bunu eşidən müşriklər, dərhal üstünə cumdular. Daş, dəyənək və sümük parçalarıyla vuraraq qana boyadılar. Bu vəziyyəti görən Həzrəti Abbas; "Əl çəkin! Yoxsa bu adamı öldürəcəksiniz! O, sizin ticarət karvanınızın keçdiyi yolun üstündə yerləşən bir qəbilədəndir. Bir daha oradan necə keçəcəksiniz?" dedi. Əbu Zərr Həzrətlərini müşriklərin əlindən aldı. Əbu Zərr, müsəlman olmaqla şərəflənmənin verdiyi sevinclə yerində dayana bilmirdi. Ertəsi gün yenə Kə'bənin yanında Kəliməyi şəhadəti yüksək səslə, qışqıra-qışqıra dedi. Müşriklər bu dəfə də döydülər. Yerə yıxıldı. Yenə Həzrəti Abbas özünü çatdırıb, əllərindən qurtardı.

Əbu Zərr əl-Ğıfari Həzrətlərinə, Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) öz yaşadığı yerə qayıtmasını və orada İslamiyyəti yaymasını əmr etdi. Bu əmrdən sonra o, öz qəbiləsi arasına qayıdıb, onlara Allah Təalanın birliyini, Məhəmməd əleyhissalamın Onun rəsulu olduğunu təbliğ etdi. Xəbər verdikləri şeylərin həqiqət və doğru olduğunu, sitayiş etdikləri bütlərin batil, boş və mənasızlığını söylədi. Ona qulaq asan camaatdan bir hissəsə e'tiraz etməyə başladı. Bu əsnada, qəbilənin rəisi Həffaf, qışqir-bağır salanları sakitləşdirdi və; "Dayanın, qulaq asaq görək nə deyəcək" dedi. Bundan sonra, Əbu Zərr Həzrətləri belə davam etdi;

"Mən müsəlman olmadan əvvəl, bir gün Nuhəm bütünün yanına gedib, qabağına süd qoymuşdum. Bir itin yaxınlaşıb südü içdiyini və bütün üstünü nəcislədiyini gördüm. Bütun buna mane olacaq gücə sahib olmadığını başa düşdüm. İtin belə həqarət etdiyi bütə sitayiş etmək necə xoşunuza gələ bilər? Məgər bu dəlilik deyil? Budur sizin sitayiş etdiyiniz." Hamı başını aşağı salıb susurdu. Aralarından biri; "Yaxşı,

[68] Buxari, "Mənaqib", 11; "Fəzailus-Səhabə", 62; Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 83.

sənin bəhs etdiyin Peyğəmbər nələrdən xəbər verir? Onun doğru dediyini necə başa düşdün?" deyincə, Əbu Zərr Həzrətləri yüksək səslə; "O, Allah Təalanın bir olduğunu, Ondan başqa ilah olmadığını. Onun hər şeyi yaradan və hər şeyin maliki, sahibi olduğunu xəbər verir... İnsanları Ona iman etməyə çağırır... yaxşılığa, gözəl əxlaqa və yardımlaşmağa də'vət edir. Qız uşaqlarını diri-diri basdırmağın və etdiyınız başqa hər cür pisliyin, haqsızlığın, zülmün çirkinliyini və bunlardan uzaq qaçmağı xəbər verir" dedi və İslamiyyəti uzun-uzadıya izah etdi. Qəbiləsinin içində var olan batil şeyləri bir-bir sadaladı. Sonra bunların zərərlərini və çirkinliyini anlatdı. Ona qulaq asanlar arasında başda qəbilə rəisi Xəffaf və doğma qardaşı Üneys olmaqla çoxları müsəlmanlığı qəbul etdi.[69]

### Kə'bədə açıq-aşkar Qur'ani Kərim oxunması

Əshabi kiram bir dəfə tənha bir yerdə toplanıb, danışırdılar ki; "Vallahi Rəsulullahdan başqa bu Qureyşli müşriklərə Qur'ani Kərimi açıqdan eşitdirə bilən bir adam çıxmadı. Görəsən onlara açıqdan Qur'ani Kərimi oxuyub eşitdirə biləcək bir nəfər var?" dedilər. Orada Abdullah ibn Məs'ud Həzrətləri də vardı. "Mən eşitdirərəm!" buyurdu. Əshabdan bəziləri; "Ey Abdullah! Müşriklərin sənə bir zərər verəcəyindən qorxuruq. Biz elə bir adam istəyirik ki, lazım olan vaxtda özünü müşriklərdən qoruyabiləcək bir qövmü və qəbiləsi olsun" deyincə, "Siz, mənə icazə verin, gedim. Cənabi Haqq məni qoruyar" deyə israr etdi.

Ertəsi gün səhər tezdən Məqami İbrahimə getdi. Müşriklər orda toplanmışdılar. İbn Məs'ud ayaqda Bəsmələyi şərifə dedi və Rəhman surəsini oxumaya başladı. Müşriklər bir birilərinə; "Ümmü Əbdin oğlu nə deyir? Hər halda Məhəmmədin gətirdiyi şeyləri oxuyur" deyərək üstünə cumdular. Yumruq, təpik və şillələrlə üzünü, gözünü qaraldaraq tanınmaz hala qoydular. Ancaq o, təpik və yumruqlar altında oxumağa davam edirdu. Üzü, gözü partlamış vəziyyətdə Əshabi kiramın yanına qayıtdı. Əshabi kiram buna çox üzüldülər; "Onsuz da biz sənin başına bunu gətirəcəklərindən qorxmuşduq. Nəhayət qorxduğumuz başına gəldi" dedilər.

---

[69] Buxari, ""Mənaqib", 10; "Fəzailus-Səhabə", 62; İbn İshaq, *əs-Sirə*, s, 122-123; Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 83.

Ancaq Abdullah ibn Məs'ud heç üzgün deyildi; "Allah Təalanın düşmənlərini mən bu günkü qədər zəif görmədim. İstəyirsiz sabah səhər, onlara bir o qədər daha eşitdirə bilərəm" buyurdu. Əshabi kiram; "Xeyr, sənə bu qədəri kifayət edər. O qudurğan kafirlərə xoşlanmadıqları şeyi eşitdirdin" dedilər.[70]

## Tufeyl ibn Əmrin müsəlman olması

Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) Məkkədə İslamiyyəti açıq şəkildə yaymağa başladığı illərdə, gecə-gündüz insanlara nəsihət edər, onları, İslam dininə də'vət edərdi. Məkkəli müşriklər, Rəsulullahın bu cəhdlərini boşa çıxartmaq üçün çalışırdılar. Onun dediklərini qəbul edib iman edənlərə, hər cür yalan, iftira və işgəncəni rəva görürdülər. Cənabi Peyğəmbərimizlə görüşən, danışan birini gördüklərində, dərhal yanına gedər, Ona qulaq asmamasını və dediklərinə də inanmaması üçün hər cür hiyləyə və yalana baş vururdular. Başqa yerlərdən Məkkəyə gələnləri Onunla görüşdürməmək üçün, əllərindən gələni etməkdən dala qalmırdılar.

Müsəlmanların, çətinlik içində olduqları və kafirlərdən əziyyət gördükləri bir zamanda, Tufeyl ibn Əmr əd-Devsi Məkkəyə gəlmişdi. Bunu görən müşriklərin başda gələnləri, yanına gedərək; "Ey Tufeyl! Sən, bizim ölkəmizə gəldin. Aramızda zühur edən Əbdülmüttəlibin yetiminin, heyrətamiz bəzi halları vardır. Söylədiyi sözlər sehr kimidir. Oğlunu atasından, qardaşı qardaşdan, əri arvadından ayırır! Ortaya atdığı fikirlərlə, ortalığı qarışdırır, Onun sözünü eşidən oğul, atasının sözünə baxmır. Ona tabe olur. Artıq heç kim bir birinə fikir verməyib, müsəlman olur. Qorxuruq ki, bizim başımıza gələn bu ayrılıq bəlası, səninlə qövmünün başına da gələr. Sənə nəsihətimiz olsun, Onunla nə badə danışasan. Nə Ona bir söz söylə, nə də Onun sözünə qulaq as. Dediklərinə də fikir vermə! Çox ehtiyatlı ol. Burda çox qalma. Dərhal çıxıb get!" dedilər. Bundan sonrasını Tufeyl ibn Əmr belə nəql edir;

"And işərək deyirəm ki, bu sözü o qədər çox dedilər ki, artıq Onunla danışmamağa və sözlərinə də əsla qulaq asmamağa qərar verdim. Hatta, Kə'bəyə girdiyim zaman, ehtiyatı əldən verməmək üçün qulaqlarıma pambıq belə tıxamışdım. Ertəsi gün, səhər tezdən Kə'bəyə getdim. Rəsul əleyhissalamın orda namaz qıldığını gördüm. Ona yaxın bir yerdə durdum. Cənabi Haqqın hikməti olaraq, oxuduqlarından

---

[70] İbn İshaq, *əs-Sirə*, s, 166; İbn Hişam, *əs-Sirə*, I, 314-315; Təbəri, *Tarix*, II. 234-235.

bəzisi qulağıma çatdı. Eşitdiyim sözlər nə qədər gözəldi. Öz özümə; “Mən, yaxşını pisdən ayırd edə bilməyəcək bir adam deyiləm. Həm də şairəm. Bunun söylədiklərinə niyə qulaq asmayım ki? Sözləri xoşuma gələrsə qəbul edərəm, xoşuma gəlməzsə tərk edərəm” dedim və bir tərəfdə gizlənib, Rəsulullah namazını qılıb evinə tərəf hərəkət edincəyə qədər orda gözlədim. Sonra onu tə’qib etdim. Evinə girincə, mən də girdim və; “Ya Məhəmməd əleyhissalam! Mən bu diyara gəldiyimdə, sənin qövmün mənə sənin haqqında danışıb, Səndən uzaq gəzməyimi istədilər. Qorxumdan sözünü eşitməmək üçün qulaqlarıma pambıq tıxadım. Amma Allah Təala sənin oxuduqlarından bir qismini eşitdirdi. Onlar çox xoşuma gəldi. İndi sən, mənə nə deyəcəksən de! Qəbul etməyə hazıram” dedim. Rəsulullah mənə İslamiyyəti izah etdi və Qur’ani Kərimdən bir miqdar oxudu. And içirəm ki, ömrümdə bundan daha gözəl söz eşitməmişdim. Dərhal kəlimeyi şəhadəti deyib müsəlman oldum.

O anda dedim ki; “Ya Rəsulallah! Mən, qövmümdə sözü eşidilən, e’tibarlı bir adamam. Heç biri sözümdən çıxmaz. Gedib, onları da İslam dininə də’vət edəcəm. Dua edin ki, Allah Təala mənim üçün bir əlamət, bir kəramət buyursun! Beləcə o əlamət, qövmümi İslamiyyətə də’vət edərkən mənə bir rahatlıq, bir köməklik olsun!” Bu ricamdan sonra Rəsulullah; “Ey Allahım! Onun üçün bir səbəb, əlamət yarat!” deyə dua buyurdu.

Bundan sonra öz ölkəmə qayıtdım. Qaranlıq bir gecədə, qövmümün yerləşdiyi su başına baxan təpəyə çatdığım zaman, alnımda bir nur peyda oldu və işıq saçmağa başladı. O zaman dua edib; “Ey Allahım! Bu nuru alnımdan başqa bir yerə qoy! Devs qəbiləsinin cahilləri görüb, dinindən döndüyü üçün, Allah, onun alnında ilahi bir cəza olaraq bunu qoydu zənn etməsinlər!” dedim. O nur, dərhal əlimdəki qamçının ucuna gəlip lampa kimi asıldı. Qəbiləmin yurduna yaxınlaşıb da, yoxuşdan aşağıya enməyə başladığım əsnada, orda olanlar, əlimdəki qamçının başında lampa kimi parıldayan nuru bir birilərinə göstərirdilər. Bu vəziyyətdə yoxuşdan aşağıya enib evimə gəldim. Yanıma ilk öncə, atam gəlib, məni bu halda gördü. Mənə olan sevgisindən boynumu qucaqladı. Atam çox yaşlanmışdı. Ona dedim ki; “Ata can! Əgər əvvəlki dinində qalsan, nə mən səndənəm, nə də sən məndənsən!” Bu sözümü eşidincə atam çaşıb qaldı və; “Səbəbi nədir ey oğlum!” deyə soruşdu. Ona cavab olaraq; “Mən artıq Məhəmməd əleyhissalamın dininə girib müsəlman oldum” dedim. Bundan sonra atam; “Oğlum, mən də sənin girdiyin dinə girdim. Sənin dinin mənim də dinim olsun!” deyib, dərhal

kəlimeyi şəhadət gətirərək müsəlman oldu. Bundan sonra İslam dinindən bildiyim şeyləri ona öyrətdim. Sonra, yuyunub təmiz paltarlar geyindi. Daha sonra yanıma xanımım gəldi. Ona da eyni şeyləri söylədim. O da qəbul edib müsəlman oldu.

Səhər olunca, Devs qəbiləsinin içinə girib, bütün Devslilərə İslamiyyəti izah etdim. Onları da də'vət etdim. Ancaq qəbul etməyə tələsmədilər. Hatta çox vaxt müxalifət etdilər. Günah və pislik olan işlərindən əl çəkmədilər. Daha da sərt davranıb, göz-qaş hərəkətləri edərək mənə istehza etdilər; faiz və qumara həvəsli olduqlarından sözlərimə qulaq asmadılar. İslamiyyətə boyun əymədilər. Allaha və Peyğəmbərinə asi oldular.

Bir müddət sonra Məkkəyə gəlib, qövmümü Rəsulullaha şikayət edərək; "Ya Rəsulallah! Devs qəbiləsi, Allah Təalaya asi oldu. İslama girmələri üçün etdiyım də'vəti qəbul etmədilər. Onlar üçün dua buyurun!" dedim. Hamıya şəfqət və mərhəməti çox olan sevgili Peyğəmbərimiz, əllərini açıb qibləyə tərəf çevrilərək; "Ya Rəbbi! Devs xalqına doğru yolu göstər və onları İslam dininə gətir!' deyə dua etdi. Mənə də; "Qövmünün yanına geri qayıt, "Onları gülər üzlə və şirin dillə İslamiyyətə də'vət etməyə davam et! Özlərinə də sərt davranma!" buyurdu. Dərhal ölkəmə geri qayıtdım, Devs xalqını İslama də'vət etməkdən heç yorulmadım".[71]

## Bazarlarda də'vət

Hər il müxtəlif şəhərlərdəki insanlar, müəyyən günlərdə Kə'bəyi müəzzəməni ziyarət etmək üçün Məkkəyə gəlirdilər. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) də gələnləri qarşılayıb, hər qrupa İslamiyyəti izah edir, Allah Təalanın bir, özünün də haqq peyğəmbər olduğunu və qurtuluşun bunda olduğunu deyərdi. Bir dəfə Vəlid ibn Muğirə, müşrikləri başına yığıb; "Ey Qureyş camaatı! Yenə Kə'bəni ziyarət etmə mövsümü gəldi. Məhəmmədin səsi, aləmə yayılmışdır. Ərəb qəbilələri yanına gəlib, şirin sözlərinə meyl edər və dininə girərlər. Buna bir tədbir tökmək lazımdır. Hamımız sözü bir yerə qoyaq, Onun haqqında hərəmiz bir şey söyləyərək bir birimizi yalançı çıxartmış olmayaq" dedi. Qureyşlilər; "Ey Əbdüşəmsin atası! Aramızda ən müdrik görüşlü olan sənsən. Sən, nə söyləyək desən, biz də onu söylərik" dedilər. Vəlid; "Xeyr, siz söyleyin mən eşidim" deyincə, onlar; "Kahin deyək" dedilər. Vəlid dərhal e'tiraz etdi və; "Xeyr!

[71] İbn Hişam, *əs-Sirə*, I, 382-385; Süheyli, *ər-Rövzul-Unf*, II, 168; Əhməd Şami, *Sübülül-Huda*, II, 417.

And içirəm ki, O kahin deyildir. Biz, çox kahin gördük. Doğrunu da yalanı da heç çəkinmədən deyərlər. Məhəmmədin oxuduğu şeylər, kahinlərin uydurduğu şeylərə heç oxşamır. Bir də ki biz, indiyə qədər Məhəmməddən bir yalan da eşitmədik. Əgər belə desək heç kim inanmaz” dedi. Bu dəfə; “Məcnundur, dəlidir deyək” dedilər. Vəlid yenə e’tiraz edərək; “Xeyr! And içirəm ki O, bir məcnun və dəli də deyildir. Biz dəli və məcnunları tanıyırıq, dəlilik əlamətlərindən də başımız çıxır. Onun nə boğulması, nə çırpınıb titrəməsi, nə də vəhmlənməsi vardır. Belə desək bizə yalançı deyərlər” dedi. Qureyşlilər; “Şairdir deyək...” dedilər. Vəlid bu dəfə də e’tiraz etdi və; “O şair də deyildir! Biz, şe’rin hər cürünü çox yaxşı bilirik. Onun oxuduqları şe’rə əsla bənzəməz” dedi. Bu dəfə; “O, sehrbazdır deyək” dedilər. Vəlid; “O sehirbaz deyildir. Biz, sehirbazları və göstərdikləri sehrləri gördük, onları da bilirik. Onun sözlərində sehrdən əsər-əlamət yoxdur. Məhəmmədin kəlamı bütün aləmə tə’sir edir. Tanınıb bilinməyən biri də deyildir. Xalqı Ondan ayırıb danışmalarına mane ola bilmərik. Sonra fəsahət və bəlağətdə, gözəl və mənalı danışmaqda yaşıdlarından üstündür. Yəni Onun haqqında hər nə desək, xalq bizim sözümüzün yalan olduğunu başa düşər” dedi. Qureyşlilər, deyəcək bir şey tapa bilməyincə; “Aranızda ən yaşlı və təcrübəli sənsən, sən nə desən biz ona razıyıq” dedilər.

Bundan sonra Vəlid ibn Muğirə bir müddət düşündükdən sonra; “Yenə hamısından yaxşısı, biz Ona sehrbaz, cadugar deyək, ən ağla batanı elə budur. Çünki, sözləriylə xalqı qövmündən və qohumlarından ayırır. Qardaşı qardaşdan, iki dostu bir birindən soyudur” deyərək ətrafındakılara təlimat verdi. Qureyşlilər dərhal dağılışıb, Məkkədə başlarına yığdıqları insanlara; “Məhəmməd sehrbazdır!.. “ dedilər və xalq arasında yaydılar. Kə’bəni ziyarət etmək üçün qəbilələr gəlməyə başlayınca, qarşılayıb, Cənabi Peyğəmbərimizlə görüşməkdən çəkindirmədikləri heç kim qoymadılar.

Müşriklərin bu hərəkətləri səbəbiylə, İslamiyyət bütün Ərəb ölkələrində e’lan edildi və zehnlərdə bütlərə karşı böyük bir şübhə yarandı.

Allah Təala, Vəlid ibn Muğirə kafirinə acı əzablar daddıracağı haqqında ayələr endirdi. Müddəssir surəsinin 11-ci ayəsindən e’tibarən məalən “(Ey Rəsulum!) O tək başına yaratdığım şəxsin (sərvətdən məhrum bir halda doğulmuş olan Vəlid ibn Muğirə kimi bir kafirin) işini (cəzasını) mənə həvalə et. (Ondan intiqam almağa mən kafiyəm. O münkiri yaratdım) və ona həddən artıq mal verdim. (O bir şeyə malik olmayan nankor şəxsi, daha sonra ne’mətlərə boğdum. Cürbəcür bağlar, bostanlar, mallar ehsan etdim.)

Yanında olan (özüylə birlikdə Məkkəyi mükərrəmədə yaşayan) oğullar verdim. (Daim birlikdə bolluq içində yaşadılar.) Ömrünü və e'tibarını yaydım. (Məkkədə yüksək bir riyasətə quvuşdu. Məkkə ilə Taif arasında cürbəcür bağ və bostanlara sahib oldu. Özünə, Reyhanətul-Ərəb ləqəbi verildi. Özünü, qövmünə çox mö'təbər bir adam olaraq tanıdırdı. Məgər bütün bu ne'mətlər üçün şükr etməsi lazım deyildi? Məgər bu şeyləri ona ehsan etmiş olan Allahu Təalanı təsdiq edib, Ona inanması lazım gəlməzdi?) Sonra (o həris, nankor şəxs) verdiyimizi (malını və övladını) daha da artırmağımızı arzu edir, (nail olduğu ne'mətlərin qədrini bilib, şükr etməyə çalışmır. Bu nə qədər böyük bir ehtiras, nə dərəcə çirkin bir nankorluqdur?) Xeyr! (O münkirin, o tamahkarın arzusu yerinə yetirilməyəcəkdir. Onun malı və övladı artırılmayacakdır). Çünki o bizim ayələrimizə (Qur'ani Kərimə) inad etdi, inkar etdi. (Rəsulumun sadiq olduğunu, peyğəmbər olduğunu bildiyi halda, inadından dolayı inkara cür'ət etdi. Nə qədər böyük bir zəlalət!) O münkiri səud əzabına düçar edəcəyəm... (Bu ayədə keçən səud ilə əlaqəli hədisi şərifdə buyruldu ki; "Səud, Cəhənnəmdə bir dağdır. Ona, kafir yetmiş ildə çıxa bilər. Sonra oradan düşər. Bu belə davam edər".) Sonra o inkarçı şəxs, (Rəsulullahdan eşitdiyi Qur'ani Kərimə necə söz ata biləcəyini) düşündü. (Özünə görə) bir ölçü qoydu (söyləyəcək söz hazırladı). Ona lə'nət olsun ki, (Qur'ani Kərim haqqında) belə düşünüb, ölçü qoydu. Ona dəfələrlə lə'nət olsun ki, belə bir ölçü qoydu. Sonra, (qövmünün yanına gedib Qur'ani Kərim haqqında nə deyəcəyinə) baxdı. Sonra (əsəbindən və Qur'ani Kərimə söz atacaq bir şey tapa bilmədiyindən) qaşlarını düyünləyib, üzünü turşutdu. Sonra (Allah Təalaya və Rəsuluna imandan) üz döndərib lovğalandı. "Bu (Məhəmmədin söylədiyi) ancaq sehrbazlardan öyrənilib tətbiq edilən bir sehrdir. Şübhəsiz bu ancaq insan sözüdür" dedi. Halbuki o şəxs, Qur'ani Kərimin, möhtəşəm bir kəlam olduğunu, insan və cinin sözlərinə bənzəmədiyini, əvvəlcə qövmü arasında e'tiraf etmişdi. Sonra o inkarçı şəxs, qövmünü razı etmək üçün sözünü dəyişdirib, Qur'ani Kərim haqqında, ona əsla layiq olmayan iftiralar etdi. Bu minvalla da özünü ilahi əzaba layiq gördü. Allahu Təala buyurdu ki; Mən, onu Səqərə, Cəhənnəmə atacağam. Səqərin, Cəhənnəmin nə olduğunu bilirsən? Həm də o Cəhənnəm, bədənindən heç bir əsər-əlamət saxlamaz (hamısını həlak edər), həm də yenə əvvəlki halına gətirib (eyni əzabı etməyə) davam edər".

## Müşriklərin Qur'ani Kərimə qulaq asması

Müşriklərin başda gələnləri müxtəlif hiylələrlə və zülmlə insanların iman etməsinə mane olardılar. Məkkə xalqını, Məhəmməd əleyhissalamın oxuduğu ayələri qulaq asmağa qoymurdular. Özləri isə, gecələri gizlicə, Məhəmməd əleyhissalamın yaşadığı evin yanına gələrək bir küncdə dayanıb qulaq asardılar. Səhər açılıb hava işıqlanmağa başlayınca, bir birindən xəbərsiz, gecə Qur'ani Kərimə qulaq asmağa gəldiklərini görən müşriklərin başda gələnləri, bir birilərinə tə'nə edərlər; "Bir daha belə etməyək" deyərdilər. Ancaq ertəsi gecə yenə bir birilərindən xəbərsiz, gedib bir tində dayanaraq təkrar qulaq asardılar. Səhər olunca da bir birilərini görüb çaş-baş qalırdılar. Bir daha belə etməmək üçün and içərək ayrılırlar, ancaq bundan əl çəkməzdilər. Ancaq nəfslərinə boyun əyib, lovğalanaraq, digər müşriklərin onlara tə'nə etmələrindin çəkinərək və daha bir çox boş düşüncələrə dalaraq iman etmədilər. Başqalarına da mane oldular. Bu da azmış kimi küçələrdə; "Məhəmməd sehrbazdır" deyə qışqırdılar.

Bir axşamtərəfi müşriklər Kə'bənin ətrafında toplanıb; "Məhəmmədi çağırdıb bu məs'ələni görüşək! Elə ki, axırda bizi qınamasınlar və haqlı hesab etsinlər" deyərək Rəsulullaha (səlləllahu əleyhi və səlləm) xəbər göndərdilər. Bu də'vətdən sonra Cənabi Peyğəmbərimiz Kə'bəyə gəlib, müşriklərin qarşısında oturdu. Müşriklər; "Ey Məhəmməd! Sənə xəbər göndərməyimizin səbəbi, səninlə bir məxrəcə gəlmək üçündir. And içirik ki, Ərəblərdən sənin kimi qövmünün başını dərdə salan heç kim görülməmişdir! Sən dinimizə tə'nə etdin! Tanrılarımıza söz atdın! Ağıllarımızı bəyənmədin! Birliyimizi pozub, bizim aramızı vurdun! Başımıza gətirmədiyin pis iş qalmadı! Əgər sən, bu hərəkətlərinlə və sözlərinlə varlanmaq istəyirsənsə, istədiyindən daha çox mal toplayaq. Şan və şərəf qazanmaq istəyirsənsə, sənə başımızın üstündə yer verək. Hökmdar olmaq istəyirsənsə, hökmdar olduğunu e'lan edib başına yığılaq. Şayəd tə'siri altında düşdüyün bir şey varsa, səni ondan xilas edək. Cinlərdən meydana gələn bir xəstəlik isə, bütün mal-dövlətimizi xərcləyərək çarəsini tapaq!" dedilər.

Aləmlərin sahibi onları səbrlə dinlədikdən sonra, bu möhtəşəm cavabı verdi; "Ey Qureyş camaatı! Bu dediyiniz şeylərin heç birisi məndə yoxdur. Mən sizə gətirdiyim şeylərlə, nə mallarınızı istəmək, nə içinizdə böyük şərəf və şan qazanmaq, nə də sizə hökmdar olmaq üçün gəlmişəm. Ancaq Allah Təala, məni sizə peyğəmbər olaraq göndərdi və mənə bir də Kitab endirdi. Sizin (qəbul edənləriniz) üçün (Cənnətlə)

bir müjdələyici və (qəbul etməyənləriniz üçün də Cəhənnəmlə) bir qorxutucu olmağımı, mənə əmr etdi. Mən də, Rəbbimin bu əmrini sizə təbliğ etdim, sizə nəsihət etdim. Əgər gətirdiyim şeyi qəbul etsəniz, O, sizə dünyada və axirətdə nəsib və faydalı olacaqdır. Şayəd qəbul etməyib rədd edərsəniz, Allah Təala, mənimlə sizin aranızda hökmünü verincəyə qədər, mənim üzərimə düşən, Cənabi Haqqın əmrini yerinə yetirmək üçün hər çətinliyə sinə gərib dözməkdir...”

Əbu Cəhl, Ümeyyə ibn Xələf və digər müşriklər dedilər ki; “Ya Məhəmməd! Dolanışıq cəhətdən bizdən daha çətin şəraitdə olan bir nəfərin olmadığını bilirsən. Madam ki peyğəmbərsən, Rəbbindən dilə ki, bizi əzən, dolanışığımızı çətinləşdirən bu dağları ortadan götürüb uzaqlaşdırsın! Yurdumuzu genişlədib, üstündə Şam və İrak çayları kimi çaylar axıdsın! Bir də ki, başda Qusay ibn Kilab olmaqla ata-babalarımızdan bəzi ölmüşləri diriltsin! Qusay ibn Kilab ki, doğru sözlü ve müdrik bir adam idi. Söylədiklərinin haqq veya batil olduğunu ona soruşaq! Əgər o, səni təsdiq edərsə və bizim istədiklərimizi etsən səni təsdiq edərik. Həm də beləcə sənin Rəbbin nəzdindəki mövqeyini də öyrənmiş olarıq. Əgər bizim üçün bunları etməzsən, özün üçün Rəbbindən bir şeylər istə. Söylədiklərini təsdiq edəcək, bizi, səni bizdən qoruyacaq bir mələk göndərməsini istə! Ayrıca Rəbbin sənə bağçalar, köşklər, xəzinələr versin və dolanışıq çətinliyindən xilas oll! Çünki, sən də, bizim kimi bazarlarda gəzir, dolanışığın üçün çalışırsan!”

Fəxri aləm Rəsulullah onlara; “Mən, sizə, bunlarla göndərilmədim. Allahu Təala, məni nə ilə göndərdi isə, mən, ancaq Cənabi Haqq tərəfindən sizə onu gətirdim. Sizə onu də’vət etdim. Mən, (mal, mülk verməsi üçün) Rəbbimə yalvaran bir insan deyiləm... Allah Təala məni (gətirdiklərimi qəbul edənləriniz üçün Cənnətlə) bir müjdələyici və (qəbul etməyib rədd edənləriniz üçün də Cəhənnəmlə) bir qorxutucu olaraq göndərdi. Əgər, sizə gətirdiyim şeyləri qəbul etsəniz o, dünyada və axirətdə sizin nəsib və faydanız olur. Onu qəbul etməyib, rədd etsəniz, Allah Təala mənimlə sizin aranızda hökmünü verincəyə qədər mənim üzərimə düşən, Rəbbimin əmrini yerinə yetirmək üçün hər çətinliyə sinə gərib dözməkdir?” buyurdu.

Müşriklər bu dəfə də; “Madam ki, Rəbbin istəsə hər şeyi şübhəsiz edər, istə görək, bu göyü hissələrə ayırıb üstümüzə töksün! Sən bunu etmədikcə biz sənə inanmarıq!” dedilər. Cənabi Peyğəmbərimiz; “Bu iş Allah Təalaya aiddir. O, sizə bunu göstərmək istəsə əlbəttə ki göstərər” buyurdu. Bundan sonra müşriklər daha da həddi

aşaraq; "Ey Məhəmməd! Sənin Rəbbin, bizim, səninlə oturacağımızı, sənə soruşacaqlarımızı, səndən istəyəcəklərimizi bilmir ki, sənə daha əvvəldən xəbər verib öyrətmədi? Sənin, bizə də'vət etdiklərini qəbul etmədiyimiz təqdirdə, bizə nə edəcəyini nə üçün xəbər vermədi? Sözlərinin doğruluğuna mələkləri şahid olaraq bizə gətirmədikcə sənə inanmarıq... Artıq sənə görə heç bir məs'uliyyət daşımırıq. ..And içirik ki, artıq sənin yaxandan möhkəm tutacağıq. Ya biz səni yox edərik veya sən bizi..." dedilər. Onlara yaxınlaşacağı vaxtda belə tamamiylə uzaqlaşdıqlarını görən sevgili Peyğəmbərimiz yanlarından ayrıldı.[72]

Məkkəli müşriklərin, Kainatın hökmdarını rədd etməsindən sonra, Allah Təala Cəbrayıl əleyhissalam ilə vəhy göndərərək onlara ayələrlə cavab verdi. Onların çəkəcəkləri ağır əzabları xəbər verdi. Ən'am surəsinin 4-cü ayəsindən 11-ci ayəsinə qədər məalən belə buyruldu; "Onlara, Rəblərinin ayələrindən gələn heç bir ayə (Qur'ani Kərimin ayələrindən bir ayə, dəlillərdən bir dəlil veya mö'cüzələrdən bir mö'cüzə) yoxdur ki, ondan üz döndərmiş olmasınlar. Bax onlar, Haqq (Qur'ani Kərim) gəldiyi vaxt yalan saydılar, inanmadılar. Ancaq yaxında onlara, nə ilə istehza, tə'nə etməkdə olduqlarının xəbəri (cəzası) gələcəkdir. Məgər (Məkkə xalqı), özlərindən əvvəl, neçə nəsilləri həlak etdiyimizi görmədilər? Açıq-aşkar bilmədilər? Onlara, sizə vermədiyimiz bütün imkanları vermişdik. Göydən üzərlərinə bol-bol yağış yağdırdıq. (Bostanlarının, bağçalarının və köşklərinin) altından axan çaylar axıtdıq. Sonra onları (bu ne'mətlərə şükr etməmələri və) günahları səbəbiylə həlak etdik. Onların yerinə fərqli-fərqli nəsillər yaratdıq.

Əgər sənə kağız halında yazılı bir kitab endirsəydik, özləri də əlləriylə onu tutmuş olsaydı, yenə o kafirlər inadlarından; "Bu açıq-aşkar bir sehrdən başqa bir şey deyildir" deyəcəkdilər. Ayrıca; "Nə olaydı Ona (Məhəmməd əleyhissalama bizim də görəcəyimiz) bir mələk göndəriləydi (bizə Onun peyğəmbər olduğunu söyləyəydi)" dedilər. Əgər biz, bir mələk göndərmiş olsaydıq (və onlar da iman etməsəydilər), əlbəttə iş-işdən keçmiş olardu (hamısının həlak olmasına hökm verilmiş olardı). Sonra, onlara bir göz qırpımı qədər möhlət verilməz, fikir verilməzdi. Əgər Onu (Peyğəmbəri) bir mələk kimi yaratsaydıq, əlbəttə Onu, yenə bir kişi (surətində) göstərər və onları yenə düşmüş olduqları şübhəyə düşürdürdük. And olsun ki, səndən əvvəlki peyğəmbərlərlə

[72] İbn Hişam, *əs-Sirə*, I, 315.

də istehza, tə'nə edildi və istehza etdikləri şeyin cəzası olan bəla və əzab, onları tamamiylə bürüdü. De ki; "Yer üzündə gəzin, sonra da baxın ki, peyğəmbərləri yalanlayanların aqibəti necə olmuşdur?"

Furqan surəsinin 7 və 10-cu ayələrində də məalən; "Kafirlər; "Bu necə peyğəmbərdir? Bizim kimi yeyib içir, küçələrdə gəzir. Peyğəmbər olsaydı, mələk şəklində gəlirdi. Köməkçi olar, bizə onlar da xəbər verər, Cəhənnəm ilə qorxudardılar. Yaxud, Rəbbi mal xəzinələri göndərər, yaxud meyvə bağçaları, tarlaları olar, istədiyini yeyərdi' dedilər. O zalımlar bir birilərinə dedilər ki; "Əgər siz buna tabe olsanız tilsimlənmiş bir adama tabe olmuş olarsınız". (Ey Həbibim!) Nəzər sal ki, sənin haqqında nə pis misallar deyib, haqq yoldan ayrıldılar, zəlalətə düşdülər. Artıq zəlalətdən qurtarıb hidayətə yol tapa bilməzlər. Allah Təalanın şanı nə ucadır ki O, istəsə sənə, (dünyada) bunlardan daha xeyirlı olmaq üçün, altından çaylar axan bostanlar, bağçalar verər, sənin üçün saraylar yaradar!" buyuruldu.

21-ci ayədə də məalən; "Bizə qovuşmağı ümid etməyənlər dedilər ki; "Nə olaydı bizə mələklər göndəriləydi (Məhəmmədin doğru söylədiyini xəbər verəydi) veya Rəbbimizi görəydik." And olsun ki, onlar nəfislərində bir böyüklük görmüşlər və böyük bir qudurğanlıqla həddi aşmışdılar..." buyruldu.

Səbə' surəsinin 9-cu ayədə məalən; "Əgər biz istəsək onları (açıq ayələrimizi görüb yalanlamaları səbəbiylə, Qarun kimi) yerə batırardıq veya göydən üstlərinə od parçaları tökərdik" buyuruldu.

İsra surəsi 97-ci ayədə də məalən; "...Biz, onları qiyamət günü korlar, lallar, karlar olaraq üzü üstə həşr edəcəyik! Onların gedəcəyi yer, Cəhənnəmdir ki, odu azaldıqca, biz onun odunu artırarıq!" buyruldu.

Müşriklər, özləri haqqında gələn ayələr qarşısında düşmənliklərini əməlli başlı çoxaltdılar. Əlalxüsus Übey ibn Xələf ilə qardaşı Ümeyyə, Rəsulullahı çox üzürdülər. Bəxtsiz Übey, əlində çürümüş bir sümük, Peyğəmbərimizin uca məqamına gəldi. Sonra; "Ey Məhəmməd! Bu sümüyü çürüdükdən sonra, sənin Allahın necə diriltdəcək? Demək sən, çürüdükdən sonra, bunu Rəbbinin dirildəcəyini zənn edirsən?!" dedi və sümüyü ovuşdurub toza çevirdi. Sonra tozunu sevgili Peyğəmbərimizə doğru üflədi. Davam edərək; "Ya Məhəmməd! Bunu belə çürüdükdən sonra, kim dirildə biləcək ki?" dedi. Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), buyurdu ki; "Bəli. Allah Təala səni də öldürəcək, onu da... Sonra səni dirildəcək və Cəhənnəmə atacaqdır." Bu hadisədən

sonra, Cənabi Haqq bu ayələri endirdi. Məalən; "O (inkarçı) insan, məgər onu bir nütfədən yaratdığımızı görmədi, açıq şəkildə dərk etmədi? Belə olduğu halda açıq şəkildə mücadilə edən birinə çevrildi. Yaradılışını unudaraq, bizə; "Çürüyüb dağılmışkən bu sümüyü kim dirildər?" deyə misal gətirdi. (Ey Rəsulum!) De ki; "Onları (yox ikən) ilk dəfə yaradan (Allahu Təala) dirildər və O, hər yaradılanı haqqıyla biləndir. O (Allah Təala) ki, sizə yamyaşıl bir ağacdan odu çıxardandır. İndi də siz ondan od qalayarsınız. Bəyəm göyləri və yeri yaradanın onlar kimisini yaratmağa gücü çatmaz? Əlbəttə buna gücü yetər. O, hər şeyi yaradandır, hər şeyi biləndir..." buyuruldu.[73]

### Xalid ibn Səidin imanı

İslama də'vətin ilk zamanlarında Xalid ibn Səid bir yuxu görmüşdü. Yuxusunda; Cəhənnəmin qırağında dayanarkən, atası onu itələyib yıxmaq istədi. Tam o əsnada, Peyğəmbərimizin, belindən tutub, Cəhənnəmə düşməkdən canını qurtardığını gördü. Yuxudan hövlang ayıldı və; "Vallahi bu yuxu həqiqətdir" deyə öz-özünə danışdı. Çölə çıxınca, Həzrəti Əbu Bəkirə rast gəlib yuxusunu danışdı. Həzrəti Əbu Bəkir, ona; "Yuxun həqiqətdir, bu adam, Allah Təalanın peyğəmbəridir. Bu dəqiqə get, Ona tabe ol! Sən, Ona boyun əyəcək, gətirdiyi dinə girəcək və birlikdə olacaqsan. O da səni, yuxuda gördüyün kimi Cəhənnəmə düşməkdən qoruyacakdır. Atan isə Cəhənnəmdə qalacaqdır!" dedi.

Həzrəti Xalid ibn Səid, yuxunun tə'siri altındaydı. Vaxt itirmədən dərhal, Əcyad deyilən yerə, Məhəmməd əleyhissalamın hüzuruna getdi və; "Ya Məhəmməd! Sən, insanları nəyə də'vət edirsən?" deyə soruşdu. Cənabi Peyğəmbərimiz, cavabında; "Mən, insanı, tayı və bərabəri olmayan yeganə Allaha və Məhəmmədin (əleyhissalam) də Onun qulu və peyğəmbəri olduğuna inanmağa, eşitməyən, görməyən heç bir zərər və fayda vermeyən, ona sitayiş edənləridə, sitayiş etməyənləri də tanımayan bəzi daş parçalarına sitayiş etməkdən əl çəkməyə də'vət edirəm" buyurdu. Bundan sonra, Xalid ibn Səid, dərhal; "Mən də, şəhadət edirəm ki, Allah Təaladan başqa ibadət ediləcək ilah yoxdur və yenə şəhadət edirəm ki, sən Allah Təalanın peyğəmbərisən" deyərək

---

[73] Yasin, 36/77-81

müsəlman oldu. Onun müsəlman olması Peyğəmbərimizi çox sevindirdi. Dalınca xanımı Ümeyyə də müsəlman olmaqla şərəfləndi.

Həzrəti Xalid ibn Səid, qardaşlarının da müsəlman olmasını istəyir və bunun üçün cəhd edirdi. Onlardan Ömər ibn Səid də müsəlman olmuşdu. Şiddətli bir İslam düşməni olan atası Əbu Uhəyha, Xalidin və Ömərin müsəlman olduğunu və Məkkənin tənha bir yerində namaz qıldıqlarını öyrənincə, övladlarından müsəlman olmayanları göndərib, onları yanına gətirtdi. Sonra, yeni girdikləri dindən dönmələrini söylədi. Danlayıb döyməyə başladı. Sonra Xalid ibn Səidə; "Sən, Məhəmmədə tabe oldun? Halbuki sən, Onun öz qövmünə zidd hərəkət etdiyini və gətirdiyi şeylə bütlərimizə və atalarımızı təhqir etdiyini görmürsən?" dedi. Xalid ibn Səid Həzrətləri də; "Allaha and içirəm ki, Məhəmməd əleyhissalam doğru deyir. Ona tabe oldum. Ölərəm, ancaq dinimdən dönmərəm!" deyincə, atasının qəzəbi daha da artdı. Dəyənək qırılıncaya qədər vurduqdan sonra; "Ey yaramaz oğlum! İstədiyin yerə get. And olsun ki, sənə çörək vermeyəcəyəm!" dedi. Həzrəti Xalid; "Sən mənə çörək verməzsən, Allah Təala əlbəttə ruzimi ehsan edər" dedi. Atası, o biri uşaqlarını; "Əgər sizdən birinizi, onunla danışan görsəm, ona çəkdirmədiyim əzabı sizə çəkdirərəm" deyə qorxutdu. Həzrəti Xalidi də evin zirzəmisində tutub saxladı, üç gün onu Məkkənin istisində ac, susuz qoydu.

Xalid ibn Səid Həzrətləri fürsət tapıb, atasının əlindən canını qurtardı. Atası ölümcül bir xəstəliyə tutuldu. Əbu Uhəyha, xəstə yatdığı yerdə İslamiyyətə olan düşmənliyindən; "Xəstəlikdən sağalıb ayağa qalxsam, Məkkədə yaşayan hər bir nəfər bütlərimizə sitayiş edəcək. Heç kim onlardan başqasına ibadət edə bilməyəcəkdir.. " deyirdi. Həzrəti Xalid, atasının haqq dinə olan düşmənliyinin soyuması və müsəlman qardaşlarına bir zərər verməməsi üçün əllərini qaldırıb; "Ey aləmləri yaradan Allahım! Atamın bu xəstəliyini sağaltma!" deyərək dua etdi. Cənabi Haqq, duasını qəbul etdi, Əbu Uhəyha, xəstə yatağından qalxa bilməyib öldü.

### Mus'ab ibn Umeyrin müsəlman olması

Mus'ab, Qureyşən asalətli və varlı bir ailəsinə mənsub idi. Peyğəmbərimizin Mübarək sözlərini eşidincə, qəlbində böyük bir məhəbbət hasil oldu. Ona qovuşmaq arzusu ilə alışıb yanırdı. Axırda Darul-Ərqama getdi və müsəlman oldu. Bundan xəbər tutan ana-atası, ona da işgəncə etməyə başladılar. Dinindən döndərmək üçün,

evlərindəki zirzəmiyə həbs edib, günlərlə ac və susuz qoydular. Ərəbistanın yandırıcı günəşi altında, ağır və dözülməz işgəncələr etdilər. Ancaq Mus'ab ibn Umeyr Həzrətləri, bu ağır və dözülməz işgəncələrə səbr göstərərək İslamiyyətdən dönmədi.

Həzrəti Mus'ab, müsəlman olmamışdan əvvəl ailəsinin varlı olması səbəbiylə, rahatlıq və bolluq içində böyüdülmüşdü. Hamı ona həsəd aparardı. Müsəlman olunca, ailəsi hər şeydən məhrum qoydu və işgəncə verdilər. Hər cür çətinliyə dini üçün dözən Mus'ab ibn Umeyr, bir dəfə Rəsulullahın hüzuruna getdi. Onun bu gəlişini Həzrəti Əli belə nəql etmişdir; "Rəsulullah ilə oturmuşduq. Bu əsnada Mus'ab ibn Umeyr gəldi. Əynində, yamaqlı bir paltarı vardı və acınacaqlı halda idi. Rəsulullah (səlləllahu əleyhi və səlləm), onun bu halını görüncə, Mübarək gözləri yaşla doldu. Mus'abın çəktiyi bu işgəncə və yoxsulluğa baxmayaraq, dinindən dönməməsi üçün; "Qəlbini, Allah Təalanın nurlandırdığı bu adama baxın. Ana və atasının onu, ən ləzzətli yemək-içməklə bəslədiklərini gördüm. Allah Təala və Rəsulunun sevgisi, onu gördüyünüz bu hala gətirmişdir" buyurdu.

# HƏBƏŞİSTANA HİCRƏT

Rəsulullahın peyğəmbərliyinin beşinci ilində, müşriklərin işgəncələrinə baxmayaraq, müsəlmanların sayı artmağa davam edirdi. Ancaq müşriklər də işgəncələrini artırır, əllərindən gələni edirdilər. Cənabi Peyğəmbərimiz, Əshabının dözülməz işgəncələrə məruz qalmasına, ayaqlarından kəndirlə dəvələrə bağlanıb, tərs istiqamətlərə sürülərək tikələrə ayırldılmasına çox üzülürdü. Bu işgəncələr, hər gün daha da şiddətlənir, mərhəmət dolu qəlbi, bunlara dözə bilmirdi. Bir dəfə Əshabi kiramı başına yığdı və; "Ey Əshabım! İndi yer üzünə səpələnin. Allah Təala, yaxında sizi yenə bir yerə toplayar" buyurdu. Onlar da; "Ey Rəsulallah! Haraya gedək?" deyə soruşdular. Peyğəmbərimiz, mübarək əliylə işarə edərək, Həbəş ölkəsini göstərdi və; "Bax oraya! Həbəş torpağına gedin![74] Çünki orda, heç kimə zülm etməyən bir hökmdar vardır. Həm də ora bir doğruluq ölkəsidir. Allah Təala, bu çətinliklərdən bir çıxış və xilas yolu açıncaya qədər, siz, orada qalın" buyurdu. Sərvəri aləm Məhəmməd Mustafa (səlləllahu əleyhi və səlləm), beləcə Əshabının işgəncələrdən xilas olmasına və Məkkəli müşriklərə qarşı mübarizəsinə tək başına davam etməyə qərar vermişdi. Doğulduğu vaxtda; ''Ümmətim! Ümmətim!" deyən sevgili peyğəmbərimiz, indi də, Əshabının xilası üçün, özünü fəda edirdi. Onun icazəsini aldıqdan sonra, Əshabi kiramdan bir hissəsi, vətənlərindən ayrılaraq hicrət edirdilər! Ancaq sevgili peyğəmbərimizdən ayrıldıqları üçün, üzüntüləri də çoxdu.

Bu ilk hicrətə, Həzrəti Osman və xanımı Həzrəti Ruqiyyə binti Rəsulullah, Əbu Hüzeyfə ilə xanımı Səhlə binti Süheyl, Zübeyir ibn Əvvam, Mus'ab ibn Umeyr, Əbdürrəhman ibn Əvf, Əbu Sələmə ibn Əbdüləsəd ilə xanımı, Ümmü Sələmə, Xətib ibn Əmr, Amir ibn Rəbiə və xanımı Leyla binti Əbi Xasmə, Osman ibn Məz'un, Əbu Səbrə ibn Əbi Ruhm ilə xanımı Ümmü Gülsüm binti Süheyl, Süheyl ibn Beyda, Abdullah ibn Məs'ud (Allah onlardan razı olsun) qatıldılar.[75]

Cənabi Peyğəmbərimiz, Həzrəti Osman üçün; "Şübhəsiz ki, Osman, Lut peyğəmbərdən sonra zövcəsiylə birlikdə hicrət edən ilk şəxsdir" buyurdu. Əshabi kiramın bir hissəsi süvari, bir hissəsi də piyada olaraq, gizlicə Məkkədən ayrıldılar.

[74] İbn İshaq, *əs-Sirə*, s, 194; İbn Hişam, *əs-Sirə*, I, 321; İbn Sə'd, *ət-Təbəqat*, I, 203-204; Təbəri, *Tarix*, II, 411; İbn Kəsir, *əl-Bidayə*, III, 94.

[75] İbn İshaq, *əs-Sirə*, s, 205-210; İbn Sə'd, *ət-Təbəqat*, I, 204.

Tacirlərə gediş haqqı verərək, gəmilərlə Qızıl dənizdən Həbəşistan sahilinə çatdılar. Müşriklər bundan xəbər tutub, dallarınca getdilər, cəhdləri boşa çıxdı və mə'yus bir şəkildə geri qayıtdılar.

Həbəş hökmdarı Nəcaşi, müsəlmanları yaxşı qarşıladı. Ölkəsinə yerləşdirdi. Əshabi kiram, Həbəşistan üçün; "Biz burada yaxşı bir qonşuluq və himayə gördük. Dinimizə toxunulmadı, incidilmədik. Xoşlanmadığımız bir söz də eşitmədik. Hüzur içində, Allah Təalaya ibadət etdik" dedilər.[76]

## Həzrəti Həmzənin müsəlman olması

İslamiyyətin səsi, hər ötən gün ağızdan ağıza yayılıb, daha da uzaqlardan gəlirdi. Bu vəziyyət, Qureyşli müşrikləri hiddətləndirirdi. Bütün cəhdlərinə baxmayaraq, İslamiyyətin yayılmasına mane ola bilmirdilər.

"Dəlailun-nübüvvə" və "Mə'aricun-nübüvvə"də belə deyilir ki; Müşriklərdən, Vəlid adında birinin bir bütu vardı. Səfa təpəsinə yığılışar, bu bütə ibadət edərdilər. Bir dəfə, Cənabi Peyğəmbərimiz, onların yanına getdi və müşrikləri imana də'vət etdi. Kafir olan bir cin o bütun içinə girdi və sevgili Peyğəmbərimiz için münasib olmayan sözlər sərf etdi. Fəxri aləm (səlləllahu əleyhi və səlləm) buna üzüldü. Başqa bir gün, gözə görünməyən biri, Cənabi Peyğəmbərimizə salam verərək; "Ey Rəsulallah! Kafir olan bir cin sizin için münasib olmayan şeylər söyləmiş. Mən onu tutub öldürdüm. İstəsəniz sabah Səfa təpəsinə təşrif edə bilərsiniz. Siz yenə onları İslama də'vət edərsiniz. Mən də o bütun içinə girib, sizi mədh edici sözlər deyərm" dedi. Cənabi Peyğəmbərimiz, Abdullah adındakı cinin təklifini qəbul etdi.

Sevgili Peyğəmbərimiz, ertəsi gün oraya gedib, müşrikləri təzədən imana də'vət etdi. Əbu Cəhl də orada idi. Müsəlman cin, müşriklərin əlindəki bütun içinə girib, sevgili Peyğəmbərimizi və İslamiyyəti izah etdikdən sonra, gözəl sözlər və şe'irlər söylədi. Müşriklər, bu sözləri eşidincə əllərindəki bütü qırdılar və Rəsulullahın üstünə hücum etdilər. Mübarək saçları darmadağın oldu. Mübarək üzü qana boyandı. Onların bu əza və cəfalarına dözərək; "Ey Qureyşlilər! Məni vurursunuz. Halbuki mən sizin

[76] İbn İshaq, *əs-Sirə*, s, 194-204; İbn Hişam, *Sirə*, I, 321-332; İbn Sə'd, *ət-Təbəqat*, I, 204; Təbəri, *Tarix*, II, 411.

Peyğəmbərinizəm” buyurdu, ordan ayrılıb evinə gəldi. Bir xidmətçi qız, bu hadisəni başdan axıra qədər görmüşdü.

Bu əsnada Həzrəti Həmzə, dağda ov ovlayırdı. Bir ceyrana ox atmaq isəyərkən, ceyran dilə gələrək; “Ey Həmzə! Mənə ox atmaqdansa, qardaşının oğlunu öldürmək istəyənlərə ox atsan daha xeyirlı olar” dedi. Həzrəti Həmzə bu sözlərə heyrət edərək, sür’ətlə evinə gəldi. Adətən, ovdan qayıdınca, təvaf etmək üçün Hərəmi şərifə baş çəkər, evinə sonra gedərdi. O gün təvaf edərkən, xidmətçi qız, yanına gəldi. Əbu Cəhilin, Məhəmməd əleyhissalama etdiklərindən xəbər verdi. Həzrəti Həmzə, Cənabi Peyğəmbərimizə həqarət edildiyini eşidincə, qohumluq hissi coşdu. Silahlarını götürərək müşriklərin olduğu yerə gəldi. “Qardaşımın oğluna, pis söz söyləyən, qəlbini incidən sənsən? Bax mənim dinim də Onun dinidir. Gücün çatırsa o etdiklərini mənə də et görək” deyərək boynundakı yay ilə Əbu Cəhilin başını yardı. Ordakı kafirlər Həzrəti Həmzəyə hücum etmək istədilər. Ancaq Əbu Cəhil; “Toxunmayın, Həmzə haqlıdır. Qardaşı oğluna pis sözlər söylədim” dedi. Həzrəti Həmzə ordan ayrıldıqan sonra , Əbu Cəhil ətrafındakılara “Nə badə, ona sataşasınız! Bizə qəzəblənər və müsəlman olar. Bununla Məhəmməd qüvvətlənər” dedi. Həzrəti Həmzənın müsəlman olmaması üçün, başının yarılmasına razı olmuşdu. Həzrəti Həmzənın camaat arasındakı e’tibarını, qüvvət və dəyərini onlara da xatırlatdı.

Həzrəti Həmzə, Cənabi peyğəmbərimizin yanına gəlib; “Ya Məhəmməd! Əbu Cəhildən intiqamını aldım. Onu qana boyadım. Üzülmə, sevin!” dedi. Sevgili Peyğəmbərimiz; “Mən belə şeylərə sevinmərəm” buyurdu. Həzrəti Həmzə “Səni sevindirmək, üzüntüdən qurtarmaq üçün, nə istəsən edərəm!” deyincə, Cənabi Peyğəmbərimiz; “Mən ancaq sənin iman etmən və qiymətli bədənini Cəhənnəm alovundan qurtarman ilə sevinərəm” buyurdu. Həzrəti Həmzə, dərhal müsəlman oldu. Haqqında ayə gəldi. Həzrəti Abdullah ibn Abbasın yanına gələrək; “ Qur’ani Kərimdə, Ən’am surəsi 122-ci ayədə; dirildildiyi və nura qovuşdurulduğu deyilən zat, Həzrəti Həmzə və eyni ayədə; qaranlıqlarda vurnuxduğu deyilən də Əbu Cəhildir”

Həzrəti Həmzə, müşriklərin yanına gedərək, müsəlman olduğunu və Allahu Təalanın Həbibi Məhəmməd əleyhissalamı qanı bahasına da olsa qoruyacağını deyib, bir qəsidə oxudu. Oxuduğu qəsidədə; “Qəlbimi, İslamiyyətə və Haqqa meyl etdirmiş olduğu üçün, Allah Təalaya həmd olsun. Bu din, qullarının hər etdiyini bilən, hamıya lütfü ilə davranan, qüdrəti hər şeyə qalib gələn, aləmlərin Rəbbi olan Allah Təala

tərəfindən göndərilmişdir. Qur'ani Kərim oxunduğu zaman, qəlb və ağıl sahiblərinin gözlərindən yaş axar. Qur'ani Kərim, səlis bir dillə açıqlanmış ayələr halında Məhəmməd əleyhissalama nazil olmuşdur. O, Məhəmməd Mustafa aramızda, sözü eşidilən, itaət edilən, mübarək bir adamdır. Ey müşriklər! Ağlınız başınızdan çıxıb, gözünüz dönüb, Onun haqqında sərt, ağır və kobud sözlər söyləməyin. Əgər belə bir fikrə düşsəniz, biz müsəlmanların cəsədlərinin üstündən keçib getmədən, heç kim Ona toxuna bilməz" demişdi.

Həzrəti Həmzənən müsəlman olması ilə, sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) çox sevindi. Müsəlmanlar, onun da qoşulmasıyla çox qüvvətləndilər. Həzrəti Həmzənın müsəlman olmasıyla vəziyyət dəyişdi. Çünki, Məkkəlilər Həzrəti Həmzənın; cəngavər, cəsur, mərd, pəhlivan və böyük bir qəhrəman olduğunu bilirdilər. Bunun üçün, Qureyş müşrikləri artıq müsəlmanlara, heç bir səbəb olmadan, pis rəftar edə bilmədilər, ələlxüsus Həzrəti Həmzənın qılıncının şiddətindən çəkindilər.[77]

## Həzrəti Ömərin müsəlman olması

İslam dini günbəgün yayılır, Qur'ani Kərimin nuru, ruhları işıqlandırırdı. Günahkar insanlar, Allah Təalanın ehsanı olaraq iman edir, hidayət tapırdılar. Əshabi kiramdan olmaqla şərəflənən bu mübarək şəxslər; əl-ələ, könül-könülə verir, Rəsulullahın ətrafında pərvanə kimi dönürdülər. Onun ən kiçik bir arzu vəya işarə etməyini böyük bir əmr kimi görür, yerinə yetirmək üçün yarışırdılar, hətda bu yolda canlarını belə fəda etməkdən çəkinmirdilər. Müşriklərin təşviş və həyəcanları isə, ən son həddə çatmışdı. Çünki barmaqla göstərilən qəhrəmanlardan Həzrəti Həmzə də müsəlman olmuş, Rasulullahın tərəfində yer almışdı. Bu gözlənməyən hadisə, müşrikləri, tamamiylə hövsələdən çıxartdı. Bu səbəblə Xəttab oğlu Ömər, (hələ müsəlman olmamışdı) bir dəfə, Rasulullahı, gördüyü yerdə öldürmək niyyətiylə evindən çıxdı. Sevgili Peyğəmbərimizi Məscidi Haramda namaz qılarkən gördü, namazın qurtarmasını gözləyərək, qulaq asmağa başladı. Həbibi əkrəm, əl-Haqqa surəyi şərifini oxuyurdu. Məalən; "O meydana gələcəyi haqq olan qiyamət!..Nədir o haqq olan qiyamət? O gələcəyi haqq olan qiyaməti, sənə hansı şey xəbər verdi? Səmud və Ad (qövmləri) dəhşətindən qəlblərin titrəyəcəyi qiyaməti yalan saydılar, yalanladılar.

[77] İbn İshaq, *əs-Sirə*, s, 151-153; İbn Hişam, *Sirə*, I, 291-292.

Səmud qövmü, qudurğanlıqları səbəbiylə (Cəbrayıl əleyhissalamın səyhası ilə) həlak edildilər. Ad qövmünə gəlincə; onlar da silib-süpürən, uğultulu, azğın və şiddətli bir qasırğa ilə həlak edildilər. Allah Təala o fırtınanı, yeddi gecə və səkkiz gündüz dayanmadan, onların üzərlərinə göndərdi. (Elə bir hala gəldilər ki, o vaxt orda hazır olsaydın) onların köklərindən qopub yerə yıxılan çürümüş xurma kötükləri kimi necə düşüb, yıxıldıqlarını görərdin! İndi onlardan geriyə qalan bir fərd görəbilirsən?

Firon da, ondan əvvəlkilər də, alt-üst olan qəsəbə xalqı da (Lut qövmü), daim o səhvi (şirk və üsyanı) təkrar etdilər... Beləcə Rəblərinin peyğəmbərinə (Lut əleyhissalama və digərlərinə) üsyan etdilər. Bundan sonra digər ümmətlərə gələn əzabdan, daha şiddətli bir əzaba düçar oldular... Həqiqətən biz, (Nuh tufanında) hər tərəfi su basdığı vaxt, sizə bir ibrət olması və onu eşidən qulaqların da unutmaması və əzbərləməsi üçün sizi (varlığınıza səbəb olan atalarınızı) gəmidə daşıdıq. Sura bir dəfə üfürülüncə, yer üzü və dağlar, yerlərindən qaldırılıp silkələnəcəkdir. O gün qiyamət qopacaq, göyün qüvvət və heyi qalmayıb yarılacak, dağılacakdır və mələklər səmanın ətrafındadırlar. (Rəblərinin əmrinə müntəzirdirlər). O gün Rəbbinin arşını, (səmanın ətrafında olanlardan) səkkiz mələk daşıyar. O gün (hesab üçün Allah Təalanın) hüzuruna gətiriləcəksiniz. Elə ki, (dünyada ikən gizlətdiyinizi zənn etdiyiniz) sizə aid heç bir sir, (Allah Təalaya) gizli qalmayacaqdır.

Bax o vaxt, kitabı sağ əlinə verilmiş olanlar (sevinərək) deyər ki; "Alın, kitabımı oxuyun! Çünki mən, hesabıma qovuşacağımı dəqiqliklə bildim. Bax o, razı olunmuş bir hayat içindədir. Üstün bir Cənnətdədir... (Meyvələri) sür'ətlə yetişməkdədir. (Onlara deyilir ki;) "Geçmiş günlərdə (dünyada) işlədiyiniz salih əməllərin əvəzi olaraq yeyin, için, nuş olsun".

Kitabı sol əlinə verilmiş olan adama gəlincə, o da; "Ah! Kaş ki, mənim kitabım verilməsəydi... Hesabımın da nə olduğunu bilməsəydim. Ah! Kaş ki o (ölüm, həyatıma) qət'i bir şəkildə son verəydi (və dirilməsəydim)! Malım mənə bir fayda vermədi. (Bütün) səltənətim (qüvvətim, gücüm, varım, yoxum) məndən ayrılıb məhv oldu!.." deyər. (Allah Təala Cəhənnəmdə vəzifəli mələklərə buyurar ki;) "Tutun onu və (əllərini boynuna) bağlayın! Sonra onu, o alovlu oda atın! Daha sonra, onu yetmiş arşın uzunluğunda bir zincir taxılmış halda, oraya (yenə) soxun!.. Çünki o, O üca Allah Təalaya inanmazdı. Yoxsula yemək (yedirtmək bir tərəfə qalsın, başqalarını da) verməyə təşviq etməzdi. Onun üçün, bu gün burda ona (yazığı gələcək) heç bir yaxın

(və dost) yoxdur. Qıslindən (cəhənnəm əhlinin qanla qarışıq irinlərindən) başqa yemək də yoxdur. Onu, (bilərək) günah işləyən (kafirlər)dən başqası yeməz".

Həzrəti Ömər, Cənabi Peyğəmbərimizin oxuduqlarına heyranlıqla qulaq asırdı. Ömründə belə gözəl sözlər eşitməmişdi. Bunu özü sonradan belə nəql edərdi; "Eşitdiyim bu sözlərin bəlağatına, səlisliyinə heyran olmuşdum. Öz özümə; "And içirəm ki bu, Qureyşlilərin dediyi kimi, bir şair olmalıdır!" dedim. Bu əsnada, Peyğəmbərimiz, ayələri oxumağa davam etdi; "Gördüklərinizə və görmədiklərinizə and içirəm ki, heç şübhəsiz o (Qur'ani Kərim), Allah Təalanın nəzdində çox şərəfli bir Rəsulun, (Rəbbindən) gətirdiyi bir kəlamdır. O, bir şair sözü deyildir. Siz nə qədər də az inanan insanlarsınız!"

Həzrəti Ömər; "Yenə öz özümə; "Bu bir kahin olmalıdır. Çünki ürəyimdən keçənləri anladı!" dedim. Rasulullah, surəni oxumaya davam edirdi; "O, bir kahin sözü də deyildir. Siz nə qədər də dar düşünən insanlarsınız! O (Qur'ani Kərim), aləmlərin Rəbbindən (Məhəmməd əleyhissalama Cəbrayıl əleyhissalam vasitəsiylə) endirilmişdir. Əgər (Peyğəmbər, söyləmədiyimiz) bəzi sözləri bizə qarşı özlüyündən uydurmuş olsaydı, əlbəttə Onun sağ əlini (qüvvət və qüdrətini) dərhal alar, sonra da heç şübhəsiz Onun ürək damarını qoparar (yaşatmaz)dıq! O vaxt, sizdən heç biriniz buna mane də ola bilməzdiniz! Şübhəsiz ki o (Qur'ani Kərim), təqva sahibləri üçün qət'i bir nəsihətdir. Aranızda, onu (təsdiq edənlərin mövcud olduğu kimi) yalan sayanların da mövcud olduğunu biz əlbəttə bilirik. Şübhəsiz ki, o (Qur'ani Kərim, axirətdə, onu təsdiq edənlərə verilən ne'mətləri görən) kafirlərə qarşı (qaçınılmaz) bir həsrətdir. Şübhəsiz ki, o (Qur'ani Kərim), haqqəl-yəqindir. (Ona itaət edib, əmr və qadağaları ilə əməl edəni haqqəl-yəqin mərtəbəsinə çatdırar). O halda, O üca Rəbbinin adını zikr et".

Həzrəti Ömər; "Rəsulullah, surəni axıra qədər oxuduqdan sonra, ürəyimdə İslama qarşı bir meyl hasil oldu" dedi.

Həzrəti Həmzənın müsəlman olmasından üç gün sonra, Əbu Cəhil, müşrikləri başına yığıb; "Ey Qureyş! Məhəmməd, bütlərimizə söz atdı. Bizdən əvvəl yaşamış olan ata-babalarımızın Cəhənnəmdə əzab gördüklərini, bizim də oraya gedəcəyimizi söylədi! Onu öldürməkdən başqa çarə yoxdur! Onu öldürən adama yüz dəvə və saysız-hesabsız qızıl verəcəyəm! dedi. Bir anda Xəttab oğlu Ömərin ürəyindən İslama olan meyli yox oldu və yerindən ayağa qalxdı; "Bu işi Xəttab oğlundan başqa görə bilən yoxdur" dedi. "Haydı Xəttab oğlu! Görək nə edəcəksən" deyərək onu alqışladılar.

Qılıncını belinə bağlayaraq yola düşdü. Gedərkən Nu'aym ibn Abdullaha rast gəldi. "Bu şiddət və hiddətlə hara gedirsən ey Ömər?!" deyə soruşdu. O da "Millət arasına nifaq salan, qardaşı qardaşa düşmən edən Məhəmmədi öldürməyə gedirəm" dedi. Nu'aym; "Ey Ömər! Bu çətin bir işdir. Əshabı, ətrafında pərvanə kimi dolanır, Ona bir şey olmaması üçün başının üstündə yarpaq kimi əsir. Yanlarına yaxınlaşmaq çox çətindir. Onu öldürsən belə Əbdülmüttəlib oğullarının əlindən canını qurtara bilməzsən" dedi.

Həzrəti Ömər, bu sözlərə çox qəzəbləndi; "Yoxsa sən də onlardansan? Əvvəlcə sənin işini bitirsəm yaxşı olar" deyib qılıncını qınından çıxartdı. "Ey Ömər! Mənə baş qoşma! Bacın Fatimə ilə, əri Səid ibn Zeydin yanına get; onlar da müsəlman oldular" dedi. Həzrəti Ömər bu sözə inanmadı. "Əgər inanmırsansa, get soruş! Onda bilərsən" dedi.

Həzrəti Ömər bu işi bacararsa, din ayrılığı ortadan qalxacaq, ancaq Ərəblərin adəti olan qan davası ortaya çıxacaq və Qureyş ikiyə bölünərək ardı-arası kəsilməyən çaxnaşmalar başlayacaqdı. Beləcə, ancaq Ömər ibn Xəttab deyil, bütün Xəttab oğulları öldürüləcəkdi. Ancaq Ömər ibn Xəttab çox qüvvətli, cəsur və qəzəbli olduğu üçün bunları düşünə bilməmişdi. Bacısını yadına salıb, dərhal evlərinə getdi. O əsnada Taha surəsi təzə endirilmiş, Səid ilə Fatimə (Allah onlardan razi olsun) bunu yazdırıb, Həzrəti Həbbab ibn Ərət adındaki səhabəni evlərinə gətirmiş, oxuyurdular. Həzrəti Ömər qapıdan bunların səsini eşitdi. Qapını bərkdən döydü. Onu, qılıncı belində qəzəbli bir şəkildə görüncə, yazını gizlədib, Həzrəti Həbbabı da bir yerdə gizlətdilər. Sonra qapını açdılar. İçəri girincə; "Nə oxuyurdunuz?" dedi. "Heç bir şey" dedilər. Daha da əsəbləşərək; "Eşitdiyim doğruymuş, siz də Onun sehrinə aldanmısınız" deyə qışqırdı. Həzrəti Səidi yaxasından tutub, yerə yıxdı. Bacısı ərinə kömək etmək istərkən, onun üzünə də qəzəblə bir şillə vurdu. Üzündən qan axmağa başladığını görüncə, bacısına yazığı gəldi. Fatimənin üzü dağılmış, qana boyanmışdı. Ancaq iman qüvvəti, onu hərəkətə gətirib, Allah Təalaya sığınaraq; "Ey Ömər! Nə üçün Allahdan utanmır, ayələr və mö'cüzələrlə göndərdiyi Peyğəmbərinə inanmırsan? Budur mən və ərim, müsəlman olmaqla şərəfləndik. Başımızı kəssən, bundan dönmərik" dedi və Kəliməyi şəhadəti oxudu.

Həzrəti Ömər, bacısının bu imanı qarşısında birdən yumuşaldı və yerə oturdu. Yumuşaq səslə; "Hələ bir bu oxuduğunuz kitabı çıxardın görək" dedi. Fatimə; "Sən

təmiz olmadıqca onu sənə verməram” dedi. Həzrəti Ömər güsl dəstəmazını aldı. Ondan sonra Fatimə, Qur’ani Kərim səyfəsini gətirdi. Həzrəti Ömər gözəl oxuyardı. Taha surəsini oxumağa başladı. Qur’ani Kərimin fəsahəti, bəlağəti, mənaları və üstünlükləri ürəyini get-gedə yumuşaltdı.

“Göylərdə və yer üzündə və bunların arasında və (yeddi qat) torpağın altındakı şeylər daim Onundur”[78] məalındakı ayəni oxuyunca, dərindən fikrə getdi. “Ey Fatimə! Məgər bu saysız-hesabsız varlıqlar, daim sizin ibadət etdiyiniz Allahındır? dedi. Bacısı; “Bəli, elədir! Yoxsa şübhə edirsən?” deyə cavab verdi. “Ey Fatimə! Bizim min beş yüzə yaxın qızıldan, gümüşdən, tuncdan, daşdan yonulmuş, bəzədilmiş heykəllərimiz var. Heç birinin, yer üzündə bir şeyi yoxdur” deyərək daha da heyrət etdi. Bir az daha oxudu; “Allah Təaladan başqa ibadət edilən, sitayiş edilən bir ilah, bir mə’bud yoxdur. Ən gözəl adlar Onundur”[79] məalındakı ayəni düşündü. “Həqiqətən, nə qədər də doğrudur” dedi. Həbbab bu sözü eşidincə, yerindən ayağa qalxdı və təkbir gətirdikdən sonra; “Müjdə ey Ömər! Rəsulullah, Allah Təalaya dua edərək; “Ya Rəbbi! Bu dini, Əbu Cəhil vəya Ömər ilə qüvvətləndir” buyurdu. Budur bu dövlət, bu səadət sənə nəsib oldu” dedi.

Bu ayə və bu dua Həzrəti Ömərin qəlbindəki düşmənliyi silib süpürdü. Dərhal; “Rəsulullah hardadır?” dedi. Ürəyi, Rəsulullahı görmək istəyirdi. O gün, Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Həzrəti Ərqamın evində, Əshabına nəsihət edirdi. Əshabi kiram toplanmış, Onun nurlu cəmalını görməklə, şirin, tə’sirli sözlərini eşitməklə ürəkləri riqqətə gəlir; həddən artıq ləzzət, zövq və nə’şə içində müxtəlif hallara düşərək, ruhlarına fərəh verirdilər.

Həzrəti Ömərin gəldiyi, Ərqamın evindən görüldü. Qılıncı da belində idi. Heybətli, qüvvətli olduğundan, Əshabi kiram, Rəsulullahın ətrafını tutdu. Həzrəti Həmzə, “Ömərdən qorxmayın, yaxşılıq ilə gəlirsə, xoş gəldi. Yoxsa o qılıncını sıyırmadan mən başını qopardaram” deyərkən, Rəsulullah; “Yol verin, içəri gəlsin!” buyurdu.

Cəbrayıl əleyhissalam, daha əvvəl, Həzrəti Ömərin iman etmək üçün gəldiyini və yolda olduğunu xəbər vermişdi. Rəsulullah, Həzrəti Öməri təbəssümlə qarşıladı; “Yol verin, yanından kənara çəkilin” buyurdu. Həzrəti Ömər, Rəsulullahın qabağında

---

[78] Taha 20/6.
[79] Taha 20/8.

dizləri üstündə oturdu. Rəsulullah, Həzrəti Ömərin qolundan tutub; "İmana gəl, ey Ömər!" buyurdu. O da səmimi qəlblə Kəliməyi şəhadəti dedi. Əshabi kiram, sevinclərindən təkbir səslərini göyə yüksəltdilər.

Həzrəti Ömər, müsəlman olduqdan sonra vəziyyətini belə nəql edərdi; "Müsəlman olduğum zaman, Əshabi kiram müşriklərdən gizlənər və ibadətlərini gizli şəkildə edərdilər. Bu hala çox üzüldüm, və; "Ey Rəsulallah! Bəyəm biz haqq yolda deyilik?" deyə soruşdum. Cənabi Peyğəmbərimiz; "Bəli. Canım, yədi qüdrətində olan Allah Təalaya and içirəm ki, istər ölü olun, istərsə də diri olun, siz şübhəsiz haqq yoldasınız" buyurdu. Bundan sonra; "Ey Rəsulallah! Madam ki, biz haqq, müşriklər də batil yoldadırlar, o halda nə üçün dinimizi gizlədirik ki? Vallahi biz, İslam dinini, küfrə qarşı açıqlamağa daha haqlı və daha layiqik. Allah Təalanın dini, Məkkədə heç şüphəsiz üstün gələcəkdir. Qövmümüz bizə qarşı insaflı davransalar çox əla, yox həddi aşmaq istəsələr, onlarla vuruşarıq" dedim. Rəsulallah; "Biz, sayca çox azıq!" buyurdu.

"Ey Rəsulallah! Səni haqq Peyğəmbər olaraq göndərən Allah Təalaya and işirəm ki, heç çəkinmədən və qorxmadan, oturub İslamı başa salmadığım bir müşrik camaatı qalmayacaqdır. Artıq ortaya çıxaq" dedim. Qəbul edilincə, iki sıra halında çölə çıxıb, Hərəmi şərifə tərəf yeridik. Sıraların birinin başında Həmzə, digərinin başında da mən vardım. Möhkəm addımlarla, torpağı un kimi edərcəsinə, toz qaldıraraq Məscidi Harama girdik. Qureyşli müşriklər, bir mənə, bir Həmzəyə baxırdılar. Elə bir hüzün və kədərə düşdülər ki, bəlkə həyatlarında belə bir ümidsizliyə heç düşməmişdilər".

Həzrəti Ömərin bu gəlişindən sonra, Əbu Cəhil qabağa çıxıb; "Ey Ömər! Bu nə haldır?" deyincə, Həzrəti Ömər heç əhəmiyyət vermədən; "Əşhədu ən la ilahə illallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsuluh" dedi. Əbu Cəhil nə deyəcəyini bilmədi. Yerindəcə donub qaldı. Həzrəti Ömər bu müşrik camaatına üzünü tutaraq; "Ey Qureyş! Məni tanıyan tanıyır! Tanımayan da tanısın ki, mən Xəttab oğlu Ömərəm... Arvadını dul, uşaqlarını yetim qoymaq istəyən yerindən qalxsın! Yerindən tərpənəni, qılıncımla doğrayıb yerə sərərəm!" deyincə, Qureyşli müşriklər bir anda dağılışıb, ordan uzaqlaşdılar. Rəsulullah və möhtərəm Əshabı səf tutub, uca səslə təkbir gətirdilər. Məkkə səmaları, Əshabı kiramın; "Allahu əkbər! Allahu əkbər!" sədalarıyla çalxalandı. İlk dəfə Hərəmi şərifdə açıqdan namaz qılındı.[80]

[80] İbn İshaq, *əs-Sirə*, s, 160-165, 221-229; İbn Hişam, *əs-Sirə*, I, 342-350; Süheyli, *ər-Rövzul-Unf*, II, 119.

Həzrəti Ömər müsəlman olunca, Ənfal surəsinin 64-cü ayəsi endi. Məalən; "Ey Peyğəmbərim! Sənə yardımçı olaraq, Allah Təala və mö'minlərdən sənin yolunu tutanlar yetişir" buyuruldu. Tərəddüd içində qalan bəzi adamlar, Həzrəti Ömərin müsəlman olduğunu görüncə, İslamı seçdilər. Əshab olmaqla şərəfləndilər. Artıq müsəlmanların sayısı gün keçdikcə get-gedə artmağa başlamışdı.

## Həbəşistana ikinci hicrət

Həbəşistandakı müsəlmanlar; "Məkkədə, müşriklərlə müsəlmanlar razılığa gəliblər!" deyə doğru olmayan bir xəbər aldılar. Bundan sonra "Bizim hicrətimiz, yerimizi və yurdumuzu tərk etməyimiz, müşriklərin düşmənliyi səbəbindəndir. Artıq onların düşmənliyi dostluğa çevrilmişdir. Elə isə gedib, Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm) xidmətiylə şərəflənək" deyə düşündülər. Bu səbəblə Həbəş hökmdarından icazə alaraq Məkkəyə gəldilər. Ancaq aldıqları xəbərin doğru olmadığını öyrəndilər.[81] Sonra, Cənabi Peyğəmbərimizin hüzuruna gəlib; Həbəşistanın suyunun, havasının və meyvələrinin qüvvət verdiyini; dörd dənə mə'bəd olduğunu, hər gün bu yerlərdə dəvələr, qoyunlar kəsildiyini, kasıbların və qəriblərin də'vət edilib yaxşı davranıldığını, hökmdarlarının onları ziyarət edib problemlərini dinlədiyini və çətinliklərini həll etdiyini uzun-uzadıya nəql edib, razılıqlarını bildirdilər.[82]

Əshabi kiram əleyhimurrizvan Məkkəyə gəlincə, müşriklər yenə əziyyət və cəfaya başladılar. Zülmləri getdikcə artdı. Hər cür işgəncəni heç çəkinmədən edirdilər. Bir gün Həzrəti Osman; "Ey Rəsulallah! Həbəşistanı münasib bir ticarət yeri olaraq gördüm. Bir aylıq ticarət çox qazanc gətirər. Allahu Təala hicrət yeri tə'yin edincəyə qədər, müsəlmanlar üçün bundan daha münasib bir yer ola bilməz. Heç olmasa mö'minlər, Qureyşin əziyyətindən canını qurtarar. Nəcaşi bizə qarşı çox lütfkar davrandı və xeyli yaxşılıqlar etdi" dedi. Bundan sonra Cənabi Peyğəmbərimiz; "Təkrar Həbəşistana qayıdın ki, Allah Təalanın adıyla hifz ediləsiniz" buyurdu.

Həzrəti Osman; "Ey Rəsulallah! Əgər siz, oraya təşrif etsəniz, onlar bəlkə də müsəlman olarlar. Əhli kitab olduqlarından, tez İslamı qəbul edər və yardımlarını əsirgəməzlər" deyincə, sevgili Peyğəmbərimiz; "Mən, hüzur və rahatlıq üçün

---

[81] İbn Sə'd, *ət-Təbəqat*, I, 205.

[82] İbn İshaq, *əs-Sirə*, s, 194; İbn Hişam, *əs-Sirə*, I, 364; İbn Sə'd, *ət-Təbəqat*, I, 208; Təbəri, *Tarix*, II, 414.

vəzifələndirilmədim. Hicrət barəsində Allah Təalanın əmri şərifini gözləyirəm. Necə əmr edildimsə elə əməl edərəm” buyurdu.

Bir rivayətə görə yüz bir nəfərlik bir qafilə ikinci dəfə Həbəşistana tərəf yola çıxdı. Bu qafilənin başına, Cə’fər ibn Əbi Talıb Həzrətləri tə’yin edilmişdi. Sağ-salamat Nəcaşinin ölkəsinə çatdılar. Həbəşistanda qarşılaşdıqları hadisələri, sevgili Peyğəmbərimizin möhtərəm Xanımı Ümmü Sələmə (Allah ondan razı olsun) belə nəql etmişdir; Həbəşistana getdiyimiz zaman, orda çox yaxşı bir adamla qonşuluq etdik. Bu qonşu, Kral Nəcaşi idi. Həmişə arzumuzu yerinə yetirərdi. Dinimizin əmrlərinə istədiyimiz kimi əməl edərdik. Allah Təalaya sərbəst şəkildə ibadət edə bilir, heç əziyyətə rast gəlmirdik. Heç bir pis söz eşitmirdik”.

Məkkəli müşriklər bu vəziyyətdən xəbərdar olunca, Həbəşistan kralına iki elçi göndərməyə qərar verdilər. Nəcaşiyə çox qiymətli hədiyyələr hazırladılar. Nəcaşinin çox sevdiyi Məkkənin meşin dərisindən bol-bol hazırlandı. Nəcaşinin din adamlarına, dövlət xadimlərinə hədiyyələr ayrıldı. Bu işə, Abdullah ibn Əbi Rəbiə ilə Əmr ibn As vəzifələndirildi. Bu iki elçiyə, Nəcaşinin hüzurunda nələr söyləyəcəkləri öyrədildi. Onlara; “Hökmdar ilə danışmamışdan əvvəl, onun din xadimlərinə və ordu başçılarının hər birinə hədiyyələrini verin. Sonra Nəcaşinin hədiyyəsini təqdim edin. Bu işi gördükdən sonra, ordakı müsəlmanların sizə təslim edilməsini istə’yin. Nəcaşinin müsəlmanlar ilə görüşüb danışmasına fürsət vərmeyin” deyildi.[83]

Elçilər, Həbəşistana gəldilər. Dövlət xadimləri ilə görüşüb hədiyyələrini verdikdən sonra, hər birinə; “Bizim aramızda bəzi insanlar peyda oldu. Bunlar, bizim və sizin bilmədiyimiz yeni bir din uydurdular. Bu gələnləri, öz vətənlərinə aparmaq istəyirik. Hökmdarınızla, onlar barəsində görüşdüyünüz zaman, gələnlərlə görüşməsinə fürsət vermədən bizə təslim edilməsi üçün çalışın. Bu adamlarla ən çox yaxınlıq edə bilən kəslər onların, öz ana-ataları və qonşularıdır. Onlar bunları çox yaxşı bilirlər”[84] dedilər. Din Xadimləri, bu təklifi qəbul etdilər. Sonra, Məkkəli elçilər, Nəcaşinin hədiyyələrini təqdim etdilər. Kral Nəcaşi hədiyyələri qəbul edib, onları də’vət edərək bir müddət görüşdü.

Elçilər, Nəcaşiyə belə söylədilər; “Ey Kral! Bizlərdən bəziləri sizin ölkənizə sığınmışlar. Bu gələnlər, öz millətlərinin dinini tərk etməklə kifayətlənməyib, sizin

[83] İbn İshaq, *əs-Sirə*, s, 195; İbn Hişam, *əs-Sirə*, I, 334.
[84] İbn İshaq, *əs-Sirə*, s, 195; İbn Hişam, *əs-Sirə*, I, 332.

dininizi də qəbul etməyiblər. Özlərinə xas uydurma bir dinləri vardır. Nə biz, nə də siz bu dini tanımırıq. Bizi bunların mənsub olduqları millətin başda gələnləri sizə göndərdi. Bu adamlar, sizin ölkənizə sığınan adamların ataları və doğma qohumlarıdır. İstəkləri, gələnlərin geri qaytarılmasıdır. Çünki onlar, bunların hallarını daha yaxından tanıyır. Onların öz dinlərində xoş baxmadıqları şeyləri daha yaxşı bilirlər". İstər Əmr ibn As, istərsə də Abdullah ibn Əbi Rəbiənin ən çox arzu etdikləri şey; Nəcaşinin bu sözlərə qulaq asaraq, arzularına münasib hərəkət etməsiydi. Elçilər, danışıb qurtardıqdan sonra, Nəcaşinin din xadimləri sözə başlayıb, belə demişdilər; "Bunlar çox doğru söylədilər. Bunların millətləri, onlarla daha yaxşı məşğul ola bilər, onların bəyəndiyi və bəyənmədiyi şeyləri daha yaxşı dərk edərlər. Onun üçün siz bu adamları təslim edin ki, bunlar onları vətənlərinə və millətlərinə aparsın".

Kral Nəcaşi bu sözlərdən çox əsəbləşdi; "Vallahi xeyr! Mən bu adamları təslim etmərəm. Mənə sığınan, ölkəmə gələn adamlara xəyanət edə bilmərəm. Bunlar, məni başqalarından fərqli görmüş və mənim ölkəmə gəlmişlər. Onun üçün, gələn muhacirləri sarayıma də'vət edər, onlara bu adamların söylədikləri sözlərə qarşı nə deyəcəklərini soruşar, verdikləri cavablarına da qulaq asaram. Əgər muhacirlər, bunların dedikləri kimi isələr, onları gələnlərə verib, öz millətlərinə geri qaytararam. Elə deyilsə onları qoruyar, ölkəmdə qaldıqları müddətdə yaxşılıq edərəm"[85] dedi. Daha əvvəllər Nəcaşi, səmavi kitabları araşdırmışdı. Məhəmməd əleyhissalamın gəlmə zamanının yaxın olduğunu, qövmünün Ona yalançı deyib inanmayacaqlarını və Məkkədən qovacaqlarını bilirdi.

Nəcaşi, Məkkəli elçilərə; "Onlar kimə inanarlar?" deyə soruşdu. Onlar da; "Məhəmmədə" dedilər. Nəcaşi, bu adı eşidincə, Onun peyğəmbər olduğunu anladı və üzə vurmadı. Gələnlərə təkrar soruşdu; "Onun dini və məzhəbi nədir və də'vət etdiyi şey nədir?" Əmr; "Onun məzhəbi yoxdur" dedi. Nəcaşi; "Məzhəbini, dinini bilmədiyim, mənə sığınan bir qrupu necə sizə təslim edə bilərəm? Məclis quraq. Onları da gətirək. Sizinlə üzləşdirək. Hər iki tərəfin də dedikləri müəyyən olsun. Onların da dinini tanıyaq" dedi və müsəlmanları saraya də'vət etdi.

Müsəlmanlar əvvəlcə öz aralarında məsləhətləşdilər (görüşdülər) və; "Həbəş hökmdarına xoş gələcək və mizaclarına uyğun olacaq şəkildə nə deyək" deyə müzakirə

[85] İbn İshaq, *əs-Sirə*, s, 195; İbn Hişam, *əs-Sirə*, I, 332.

etdilər. Həzrəti Cə'fər; "Vallahi bizim bu barədə bildiklərimiz, Peyğəmbərimizin bizə buyurduğundan ibarətdir. Nəticə nə olarsa olsun razıyıq" buyurdu. Hamısı qəbul etdilər və təkcə Həzrəti Cə'fərin danışması üçün razılığa gəlib, Nəcaşinin hüzuruna gəldilər. Kral Nəcaşi də alimlərini bir yerə yığdı. Böyük bir məclis quruldu. Sonra muhacirləri gətirdilər. Müsəlmanlar, gəldiklərində salam verdilər və səcdə etmədilər. Nəcaşi onlara; "Nə üçün səcdə etmədiniz" deyə soruşunca; "Biz, Allah Təaladan başqasına səcdə etmərik. Cənabi Peyğəmbərimiz, bizi, Allah Təaladan başqasına səcdə etməyi qadağan edib; "Səcdə, təkcə Allah Təalaya məxsusdur' buyurmuşdur" dedilər.

Nəcaşi, muhacirlərə üzünü tutaraq; "Ey hüzuruma gəlmiş camaat! Mənə deyiniz görək ölkəmə nə üçün gəldiniz? Siz kimsiniz? Tacir deyilsiniz, bir istə'yiniz də yoxdur. Sizin bu zühur edən Peyğəmbərinizin kimdir? Nə üçün ölkənizdən buraya gələnlərin salam verdiyi kimi salam vermirsiniz?" dedi. Cə'fər (Allah ondan razı olsun); "Ey Hökmdar! Mən əvvəlcə, üç söz deyəcəyəm. Əgər düz desəm, məni təsdiq edin, yalan desəm yalan olduğunu deyin. Hər şeydən əvvəl əmr et ki, bu adamlardan təkcə biri danışsın, digərləri sussun!" dedi. Əmr ibn As ; "Mən danışaram" dedi. Nəcaşi; "Ey Cə'fər, əvvəlcə sən danış" dedi. Həzrəti Cə'fər; "Mənim, üç sözüm var. Bu adama soruşun. Bəyəm biz, tutulub sahiblərimizə qaytarılan kölələrik?" dedi. Nəcaşi; "Ey Əmr! Onlar kölədir?" deyə soruşdu. Əmr; "Xeyr! Onlar kölə deyil, azaddır!" dedi. Həzrəti Cə'fər; "Görəsən biz haqsız yerə bir nəfərin qanını tökdük ki, qanı tökülənlərə təslim ediləcəyik?" dedi. Nəcaşi, Əmrə üzünü tutaraq; "Bunlar, yoxsa haqsız yerə birini öldürdülər?!" deyə soruşunca, Əmr; "Xeyr, bir damcı belə qan tökmədilər" dedi. Həzrəti Cə'fər, Nəcaşiyə; "Yoxsa başqasının mallarından haqsız yerə aldığımız vəya ödəməyimiz lazım gələn mallar vardı?" dedi. Nəcaşi; "Ey Əmr! Əgər, bunların nə qədər çox qızıl borcları olsa belə, onu mən ödəyəcəyəm, deyin" dedi. Əmr; "Xeyr, bir qırat (bir pul vahidi) belə yoxdur!" dedi. Nəcaşi; "O halda siz bunlardan nə istəyirsiniz?" deyə soruşunca, Əmr; "Onlar ilə biz, bir dində və bir yolda idik. Onlar, dinimizi tərk etdilər. Məhəmmədə itaət etdilər və dininə girdilər" dedi. Nəcaşi, Cə'fərə; "Siz, mensubu olduğunuz dini tərk edib niyə bir başqasına girdiniz? Qövmünüzün dinindən ayrıldığınıza, mənim dinimdə də olmadığınıza görə, sizin inandığınız bu din necədir? Haqqında məlumat verin bilək!" deyə soruşdu.

Həzrəti Cə’fər; “Ey Hökmdar! Biz cahil bir millət idik. Bütlərə sitayiş edərdik. Ölmüş heyvan leşi yeyər, hər cür pis işi görərdik. Qohumlarımızla münasəbətlərimizi kəsər, qonşularımıza pis davranardık. Güclülərimiz, zəiflərə zülm edər və mərhəmət nədir bilməzdilər. Allah Təala bizə, aramızdan; doğruluğunu, əminliyini, iffət və paklığını, soyunun düzgünlüyünü bildiyimiz bir peyğəmbər göndərincəyə qədər, bu vəziyyətdə qaldıq. O peyğəmbər bizi, Allah Təalanın varlığına və birliyinə inanmağa, Ona ibadət etməyə, bizim və ata-bablarımızın daima sitayiş ettikləri daşları və bütləri tərk etməyə də’vət etdi. Doğru sözlü olmağı, əmanətə xəyanət etməməyi, qohumluq haqlarına riayət etməyi, qonşulara gözəl rəftar etməyi, günahlardan və qan tökməkdən çəkinməyi əmr etdi. Hər cür əxlaqsızlıqlardan, yalan söyləməkdən, yetimlərin malına əl uzatmaqdan, namuslu qadınlara iftira atmaqdan bizi çəkindirdi. Bizə, Allah Təalaya şərik, ortaq qoşmadan ibadət etməyi əmr etdi. Biz də qəbul etdik və Allah Təaladan nə gətirmişsə hamısına inandıq və söylədiklərinə əməl etdik. Allah Təalaya ibadət etdik. Onun bizə haram qıldığını haram, halal qıldığını da halal gördük və eləcə də əməl etdik. Bu səbəbdən qövmümüz, bizə düşmən olub, zülm etdi. Bizi, dinimizdən döndərib, Allah Təalaya ibadət etməkdən soyudub, təzədən bütlərə sitayiş etmək üçün hər cür işgəncələrə və əziyyətlərə mə’ruz qoydular. Bizə zülm etdilər. Bizi əməlli başlı sıxışdırdılar. Bizimlə dinimizin arasına girdilər və bizi dinimizdən ayırmaq istədilər. Biz də yurdumuzu, yuvamızı tərk edərək sənin ölkənə sığındıq. Səni, başqalarından üstün tuttuq. Sənin himayənə, qonşuluğuna can atdıq. Sənin yanında zülmə, haqsızlığa düçar olmayacağımızı ümid edirik” dedi. Həzrəti Cə’fər danışığına belə davam etdi; “Salam vermə işinə gəlincə, biz səni Rəsulullahın salamı ilə salamladıq. Bir birimizə də elə salam verərik. Cənnətdəkilərin salamlarının da bu şəkildə olduğunu Cənabi Peyğəmbərimiz xəbər verdi. Bunun üçün sizə də bu şəkildə salam verdik. Cənabi Peyğəmbərimiz insanlara səcdə edilmeyəcəyini buyurduğu üçün, Allah Təaladan başqasına səcdə etməkdən Allahu Təalaya sığınırıq.

Nəcaşi; “Sən, Allahın xəbər verdiklərindən heç olmazsa bir az bilirsən?” deyə soruşdu. Həzrəti Cə’fər; “Bəli” deyincə, Nəcaşi; “Onu mənə oxu” dedi. Həzrəti Cə’fər də Məryəm surəsinin ilk ayələrini oxumağa başladı. (Ənkəbut və Rum surələrindən oxuduğu da nəql edilmişdir). Nəcaşi ağlayırdı. Gözlərindən axan yaşlar saqqalını islatdı. Rahiblər də ağladı. Nəcaşi və rahiblər; “Ey Cə’fər! Bu şirin və gözəl kəlamdan bir az da oxu” dedilər. Həzrəti Cə’fər, Kəhf surəsinin əvvəlindən e’tibarən oxudu ki, məalən;

“Kafrləri, (uca) nəzdindən göndərilən çətin bir əzab (cəhənnəm) ilə qorxutmaq, xeyirxah əməl işləyən mö’minləri də, içində əbədi olaraq qalacaqları gözəl bir əcr (Cənnət) ilə müjdələmək, “Allah Təala övlad sahibi oldu” deyənləri qorxutmaq üçün, danışığında bir səhv, mənasında bir ziddiyyət olmadığı, (ifrat və təfritdən uzaq olan) səhih bir kitabı (Qur’ani Kərimi) quluna (Məhammməd əleyhissalama) endirən Allah Təalaya həmd olsun. Nə onların (Allah Təala övlad sahibi oldu deyənlərin), nə də atalarının buna (o sözə) dair heç bir məlumatları yoxdur. Ağızlarından çıxan bu söz, böyük bir küfr (şirk) oldu. Onlar ancaq yalan söyləyərlər. (Ey Rəsulum!) Bu Qur’ani Kərimə inanmazlarsa, məgər hüzn və qəzəblə özünü həlak edəcəksən?! Biz yer üzündə olanları (mədənlər, heyvanlar və bitgiləri) yer əhlinin, hansının əməli salihdir (hansı dünya arzularını tərk etmişdir) imtahan etmək üçün zinət olaraq yaratdıq...”[86] deyilirdi. Nəcaşi özünü saxlaya bilməyib; “Vallahi, bu çıxış mərkəzi eyni olan bir nurdur. Musa və İsa da (əleyhimussalam) onunla gəlmişdir” dedi. Qureyş elçilərinə üzünü tutaraq; “Gedin, vallahi, mən nə onları sizə təslim edər, nə də onlar haqqında pis bir fikrə düşərəm” dedi. Abdullah ibn Əbi Rəbiə ilə Əmr ibn As Nəcaşinin yanından ayrıldılar.[87]

Əmr, Abdullaha; “And içirəm ki, onların bir qəbahətini Nəcaşinin yanında açıqlayıb, elə köklərini kazacağam ki, gəl görəsən” dedi. Dostu, Əmrə; “Onlar bizə müxalifət edirlərsə də, pis-yaxşı qohumluğumuz var, belə etməsən yaxşı olar” dedi. Əmr; “Onların, İsa əleyhissalamı, bir qul olaraq tanıdıqlarını Nəcaşiyə deyəcəyəm” dedi.

Ertəsi gün, Nəcaşinin yanına gəlib; Ey Hökmdar! Onlar Məryəm oğlu İsaya (əleyhissalam) böhtan atırlar. Onlara xəbər göndərib, İsa əleyhisalam üçün nə söylədiklərini bir soruş, dedi. Nəcaşi, Həzrəti İsa haqqındakı görüşlərini soruşmaq üçün müsəlmanlara xəbər göndərdi. Yenə gəldilər. Bir birilərinə; “İsa əleyhissalam haqqında soruşsalar nə cavab verəcəyik” dedilər. Həzrəti Cə’fər; “Vallahi Həzrəti İsa haqqında Allah Təalanın buyurduğunu, Cənabi Peyğəmbərimizin bizə gətirdiyini söyləyərik” dedi.

Nəcaşinin hüzuruna çıxınca, Nəcaşi; “Siz Məryəm oğlu İsa əleyhissalam haqqında nə düşünürsünüz?” deyə soruşdu. Həzrəti Cə’fər; “Biz İsa əleyhissalam haqqında, təkcə Cənabi Peyğəmbərimizin bizə Allah Təaladan gətirib, də’vət etdiyini

[86] əl-Kəhf 18/1-7.
[87] İbn İshaq, *əs-Sirə*, s, 195; İbn Hişam, *əs-Sirə*, I, 332-333.

söyləyərik. Onu, Allah Təalanın qulu və rəsulu olduğunu, dünyadan və kişilərdən əl çəkərək, Haqq Təalaya bağlanmış bir əfifə olan Həzrəti Məryəmdən dünyaya gəlmiş, Allahu Təalanın kəliməsi olduğunu qəbul edərik. Məryəm oğlu İsanın halı, mərtəbəsi bundan ibarətdir. Həzrəti Adəmi torpaqdan yaratdığı kimi, İsa əleyhissalamı da atasız yaratmışdır deyərik" deyincə, Nəcaşi, əlini yerə uzadıb, yerdən bir saman çöpü götürdü və; "And içirəm ki, Məryəm oğlu İsa da sizin söylədiyinizdən artıq bir şey deyildir. Arada bu saman çöpü qədər belə fərq yoxdur" dedi.

Nəcaşi bunu söylədiyi zaman, ətrafındakı hökumət qulluqçuları və ordu başçıları, aralarında pıçıldaşmağa və vurnuxmağa başladılar. Nəcaşi bunu görüncə, onlara; "And içirəm ki siz nə deyirsinizsə deyin, mən bunlar haqqında yaxşı şeylər düşünürəm" dedi. Sonra müsəlman muhacirlərə üzünü tutaraq; "Sizi və yanından gəldiyiniz zatı təbrik edirəm! Mən buna inandım ki, O, Allahın rəsuludur. Onsuz da biz, Onu İncildə görmüşdük. O Rəsulu, Məryəm oğlu İsa da xəbər verdi. Vallahi, əgər O, buralarda olsaydı, gedib onun ayaqqabılarını daşıyar, ayaqlarını yuyardım! Gedin! Ölkəmin əl dəyməmiş yerində, hər cür özbaşınalıqdan uzaq, əmniyyət və hüzur içində yaşayın. Sizə pislik edəni öldürdərəm. Mənə dağ qədər qızıl versələr sizlərdən birini mə'yus etmərəm" dedi.[88]

Nəcaşi, bundan sonra, Qureyş elçilərinin gətirdikləri hədiyyələr üçün; "Mənim bunlara ehtiyacım yoxdur! Başqalarının qəsb etdiyi bu mülkümü, Allah Təala mənə dala qaytararkən və xalqı mənə tabe etdirərkən, məndən rüşvət almadı" deyərək hədiyyələrini özlərinə qaytardı. Qureyş elçiləri, Nəcaşinin hüzurundan əli boş qayıtdı. Bəxtiyar Nəcaşi də İslamiyyəti seçmiş, Əshabi kiramı artıqlamasıyla sevindirmişdi.

## Hüzün illəri... Mühasirə

Müşriklər, İslamın qəlblərə nüfuz etməsini və yayılmasının qarşısını almaq üçün dayanmadan çalışırdılar. Buna baxmayaraq, gün keçdikcə müsəlmanlar daha da çoxalırdılar. Müsəlmanlara edilən işgəncə və zülmlər, onları yollarından döndərmir, əksinə bir birinə daha çox yaxınlaşdırır, qaynayıb-qarışmasına səbəb olurdu. Heç birisi dinindən dönmür, Rəsulullahın uğrunda canlarını fəda etməkdən çəkinmirdilər. Bunu eşidən Məkkə xaricindəki qəbilələrin maraqları artır və İslamın işıqları daha uzaq

[88] İbn İshaq, *əs-Sirə*, s, 195; İbn Hişam, *əs-Sirə*, I, 334; Yaqubi, *Tarix*, II, 23-24.

yerləri də işıqlandırırdı. Müşriklər, Həbəşistana göndərdikləri adamların istədiklərinə nail ola bilmədiklərini, hətta Nəcaşi Əshamənin müsəlman olduğunu və müsəlmanları qoruyub onlara gözəl rəftar etdiyini öyrənincə, özlərindən çıxdılar. Bunların hayıfını artıqlamasıyla almaq, İslamın kökünü qurutmaq üçün, toplanaraq, bu qərarı aldılar ki; "Harada olursa olsun, harada görülürsə görülsün, Məhəmməd əleyhissalam mütləq öldürüləcəkdir!" Kafirlər bunun üçün dəfələrlə and içdilər.

Müşriklərin bu qərarını öyrənən Əbu Talıb, çox üzüldü. Əzizi, mübarək qardaşının oğlunun həyatından nigaran qaldı. Qəbiləsini başına yığıb onlara, Kainatın hökmdarını Qureyşli müşriklərə qarşı qorumaları üçün əmr verdi. Haşım oğulları qohumluq qeyrəti ilə bu əmri yerinə yetirmək üçün birləşdilər. Bunun üçün də Cənabi Peyğəmbərimizi və Ona inanan bütün Əshabını Məkkənin şimal tərəfində Beytullaha təxminən üç km. məsafə qədər uzaqlıqdakı təpə üstündə yerləşən Şıb'i Əbu Talıba, yəni Əbu Talıb məhəlləsinə də'vət etdilər. Rəsulullah (səlləllahu əleyhi və səlləm), Əshabını toplayaraq, Şıbda yaşamağa başladı. Haşım oğullarından təkcə Əbu Ləhəb, Cənabi Peyğəmbərimizi qorumaq qərarına e'tiraz etdi və Şıba getmədi. O da, müşriklərlə birləşib, Peyğəmbərimizi öldürmək üçün fürsət gözləməyə başladılar.[89]

Müşriklər, Cənabi Peyğəmbərimizin və Əshabının, Əbu Talıb məhəlləsində toplandıqlarını görüncə, təzədən bir yerə toplaşdılar. Sonra, bu qərarı aldılar; "Məhəmməd əleyhisalam öldürülmək üçün Qureyşlilərə təslim edilincəyə qədər Haşım oğullarından qız alınmayacaq! Onlara qız verilməyəcək! Onlara heç bir şey satılmayacaq! Onlardan heç bir şey alınmayacaq! Onlarla baş-başa verib danışılmayacaq, görüşülməyəcək! Onların evlərinə məhəllələrinə girilməyəcək! Onların barışıq təklifi əsla qəbul edilməyəcək! Heç bir zaman onlara yazığı gəlinməyəcək!" Mənsur ibn İkrimə adındakı müşrikin bir kağıza yazdığı bu qərarı möhürlədilər. Hamının görüb riayət etməsi üçün Kəbəyi müəzzəmənın divarına asdılar.

Bu xəbər sevgili Peyğəmbərimizə çatınca, çox üzüldü və dua etdi. Duası dərhal qəbul olunub, Mənsur bədbəxtin əlləri bir anda qurudu. Müşriklər çaşıb qaldılar və; "Baxın! Haşım oğullarına etdiyımız zülmün əvəzində Mənsurun əlləri quruyub, müsibətə düçar oldu" dedilər. Ağılları başlarına gəlmək yerinə daha da çox yollarını azdılar. Şıba gedən yolun başına gözətçilər qoydular. Oraya yemək və geyim

---

[89] bn Sə'd, *ət-Təbəqat*, I, 130-140; Təbəri, *Tarix*, II. 335-336; İbn Kəsir, *əl-Bidayə*, III, 84-87; Yaqubi, *Tarix*, II, 24-25; Bəlazuri, *Ənsab*, I, 230.

aparılmasına mane oldular. Məkkəyə gələn satıcıların Şıba girməməsini, mallarını oraya aparmamalarını, lazım olarsa baha qiymətlə özlərinin alacağını söylədilər. Beləcə Şıbda yaşayanları aclıqdan öldürəcəklərini veya Haşım oğullarının peşman olub Cənabi Peyğəmbərimizi onlara təslim edəcəklərini zənn etdilər. Bu vəziyyət hər il Kə'bənin ziyarət mövsümünə qədər davam edərdi.

Adətlərə görə bu mövsümdə qan tökülməzdi. Bu səbəblə Haşım oğulları sərbəst şəkildə Məkkəyə gedər, alış-veriş edərək bir illik ehtiyaclarını tə'min etməyə çalışırdılar. Onlardan birisi bir tacirın yanına mal almağa gəlsə, müşriklərin başda gələnlərindən Əbu Ləhəb və Əbu Cəhil kimi müşriklər dərhal özlərini çatdırıb tacirlərə; "Ey tacirlər! Məhəmmədin Əshabına yuxarı qiymətdən satın. Elə ki, bahalı olduğu üçün heç kim bir şey ala bilməsin! Əgər mallarınız satılmayıb, əlinizdə qalsa, biz hamısını almağa hazırıq" deyərdilər. Onlar da mallarına yuxarı qiymət deyər, müsəlmanlar da almadan dala qayıdardılar...

Bu yolda sevgili Peyğəmbərimiz, Həzrəti Xədicə anamız, Əbu Bəkri Siddiq bütün mallarını xərclədilər, uşaqların aclıqdan göyə yüksələn qışqırıqlarını yatışdırmağa çalışdılar. Əldə ovucda olanların hamısı qurtarınca otları, ağac yarpaqlarını yeyərək ruzilərini tə'min etməyə çalışdılar. Uşaqların ağlamaması üçün, qurumuş dəri parçalarını isladıb ocaqda bişirərək yedirdirdilər. Başda Cənabi Peyğəmbərimiz olmaqla, digər Əshabi kiram da aclıqdan mübarək qarınlarına daş bağladılar. Uşaqların ağlamaması üçün analar bir dəri bir sümük qalmışdılar. Müşriklərdən birinin yazığı gəlib gizlicə bir şey gətirsəydi, onu döyər və təhqir edərdilər. Qısacası gediş-gəliş kəsilmiş və çətin vəziyyətə düşmüşdülər.

Müşriklər, etdikləri bu şiddətli zülm ilə Haşım oğullarının yola gəlib, Əbu Talıbın Cənabi Peyğəmbərimizi onlara təslim etməsini gözləyirdilər. Əbu Talıb məhəlləsindəki müsəlmanlar isə onların bu düşüncələrinin tam tərsinə Cənabi Peyğəmbərimizi qoruyur və ona zərər verilməməsi üçün hər tədbirə əl atırdılar. Əbu Talıb, ehtimal edilən bir sui qəsdin qarşısını almaq üçün, Rəsulullahın yatdığı yerə növbə ilə gözətçilər yerləşdirər veya öz evində yatmasına şərait yaradardı. Cənabi Peyğəmbərimiz isə heç qorxmadan, Allahu Təalanın əmrini yerinə yetirmək, İslamiyyəti yaymaq üçün bir saniyəsini də boşa xərcləmir, insanları dinə də'vət edərək onların Cəhənnəmdən xilas olmasına çalışır, bu yolda, səbrlə nəsihətlərinə davam edirdi. Ona yalançı deyən Qureyşli müşriklərin də, aclığın nə demək olduğunu başa düşmələri üçün,

bir dəfə Rəsulullah; “Ey Allahım! Bunlara da, Yusifin (əleyhissalam) zamanındakı yeddi qıtlıq ili kimi yeddi qıtlıq əzabı verərək mənə yardım eylə” deyərək dua etdi.

Bundan sonrakı günlərdə, göy üzündən bir damcı yağış da yağmadı. Torpaq susuzluqdan çatladı. Yerdə yaşıl bir bitgi belə tapılmırdı. Qureyşli müşriklər nə olduğunu başa düşməyib çaş-baş qaldılar. Aclıqdan ölmüş heyvan leşlərini, iylənmiş it dərilərini yeyərək ölməməyə çalışdılar. Onların da uşaqları aclıqdan qışqır-bağır salmağa başladı. Bir çoxu aclıqdan öldü. Aclıqdan, göyə baxdıqlarında hər tərəfi duman bürümüş kimi görərdilər. Ağılları başlarına gəlib, etdikləri zülmün böyüklüyünü sanki başa düşdülər. Aralarından Əbu Süfyanı Cənabi Peyğəmbərimizin hüzuru şərifinə göndərdilər. Əbu Süfyan gəlib; “Ey Məhəmməd! Sən, özünün aləmlərə rəhmət olaraq göndərildiyini söyləyirsən, Allaha inanmağı, qohumluq haqlarına riayət etməyi bizə əmr edirsən. Halbuki qövmün, quraqlıqdan və aclıqdan tələf olmaqdadır. Bu müsibətin bizdən uzaq olması üçün Rəbbinə bir dua et; Allah, sənin etdiyin duanı qəbul edər. Əgər belə bir dua etsən, hamımız iman edəcəyik!” deyərək and içdi.

Beləcə etdikləri zülm və işgəncələri bir qırağa qoyaraq, çətinliyə düşmüş və Rəsulullaha yalvarmağa başlamışdılar. Cənabi Peyğəmbərimiz, etdiklərini üzlərinə vurmamış, “iman edəcəyik” dedikdən sonra da mübarək əllərini açaraq Cənabi Haqqa dua etmişdi. Allah Təala, Həbibinin duasını qəbul edib, Məkkə üzərinə bol-bol yağış yağdırmış, torpaqlara su hopmuş və bitgilər yaşıllaşmağa başlamışdı. Müşriklər quraqlıq və qıtlıqdan xilas olmalarına baxmayaraq, verdikləri sözü yaddan çıxardaraq küfrdə israr etdilər...

Allah Təala, bunlara cavab olaraq endirdiyi ayələrdə məalən; “Əksinə onlar, (Qur’ani Kərim və yenidən dirilmə haqqında) şübhə içində olub (sənə) istehza, lağ edərlər. O halda (Ey Həbibim!) Səmanın bir duman gətirəcəyi günü gözlə. O duman, bütün insanları bürüyəcək; “Bu, çox şiddətli bir əzabdır! Ey Rəbbimiz! Bizi bu əzabdan qurtar ki, biz iman edək” deyəcəklər. Onlar çətin ki, düşünüb bundan ibrət alsınlar. Özlərinə həqiqətləri izah edən bir Peyğəmbər gəldiyi halda, Yenə Ondan üz döndərdilər. Ona; “Öyrədilmişdir, məcnundur” dedilər. Biz bu əzabı (duman veya aclığı) bir az (vəya az bir müddətdə) yox edərik. Ancaq siz yenə küfr və şirkinizə dönənlərsiniz. Çox böyük bir şiddət və sərt bir şəkildə (onları) vuracağımız gün (Bədr günü), şübhəsiz ki, biz (onlardan) intiqam alanlarıq.

Cəlalım haqqı üçün, şübhəsiz ki biz, bunlardan (Qureyş qövmündən) əvvəl, Firon qövmünü də (möhlət və çox mal verməklə) imtahan etmişdik. Onlara, bizim tərəfimizdən şərəfli bir Peyğəmbər gəldi (ki O, Musa əleyhissalamdır). O, onlara belə dedi; "Allahın qullarını (Bəni İsraili) mənə verin. (Onları mənimlə göndərin. Onlardan əl çəkin, onlara əzab etməyin). Şübhəsiz ki mən, Allah Təala tərəfindən sizə vəhylə göndərilmiş əmin bir Peyğəmbərəm. Allah Təalaya qarşı təkəbbürlü olmayın. Çünki mən, sizə mübarizəmin doğru olduğunu təsdiq edən dəlil ilə, açıq mö'cüzə ilə gəldim. Bilin ki, mən, məni daşlamağınızdan, öldürməyinizdən, mənim və sizin Rəbbiniz olan Allah Təalaya sığınıram ki, O məni qoruyar. Əgər məni təsdiq və iman etməzsəniz, mənə fikir verməyin. (Mənə bir xeyriniz toxunmadı, barı şərriniz də toxunmasın". Onlar iman etmədikləri, ona yalançı dedikləri kimi, əksinə bir növ əziyyət və cəfaya başlayınca) Musa (əleyhissalam) Allah Təalaya dua edib; "Ya Rəbbi! Bunlar küfr üçün israr edən bir qövmdür" dedi. Allah Təala Musaya (əleyhissalam) vəhy edib, buyurdu ki; "Qullarım (Bəni İsrail) ilə gecə (Misirdən) çıxıb get! Firon və əlaltıları sizin çıxdığınızdan xəbər tutan kimi arxanızca düşüb, mütləq tə'qib edəcəklər. Qövmünlə dənizi keçdikdən sonra, onu olduğu kimi qoy qalsın (əsanı təkrar vurub, açılmış olan yolları bağlama. Açıq qalsın). Çünki, Firon və əsgərləri o yollara girib gərq olacaq, boğulacaqlar".[90]

Müşriklər; "İman edəcəyik" sözlərindən dönüb yenə zülmə başladılar. Allahu Təala, bir dəfə Cənabi Peyğəmbərimizə vəhy ilə; "Kə'bədə asılı olan səhifəyə bir ağac qurdunu (güvəsini) saldığını və güvənin Allahu Təalanın adından başqa bütün yazıları yediyini xəbər verdi. Cənabi Peyğəmbərimiz də Əbu Talıba üzünü tutaraq; "Ey Əmi! Mənim Rəbbim olan Allah Təala Qureyşlilərin səhifəsinə ağac qurdunu salmışdır. Allah Təalanın adından başqa onda ifadə edilən zülüm, qohum ilə əlaqəni kəsmək, böhtan... kimi şeylərin hamısını yeyib yox etdi" buyurdu.

Əbu Talıb; "Bunu sənə Rəbbin xəbər verdi?" deyə soruşunca, Cənabi Peyğəmbərimiz; "Bəli" buyurdu. O zaman Əbu Talıb; "Mən şəhadət edirəm ki, sən ancaq doğrunu deyərsən" dedi. Dərhal geyinib Kə'bəyə getdi. Müşriklərin başda gələnləri orada oturmuşdular. Əbu Talıbın gəldiyini görüncə; "Hər halda Məhəmmədi bizə təslim etmək üçün gəlir!" dedilər. Əbu Talıb, yanlarına çatınca; "Ey Qureyş

[90] əd-Duxan 44/17-24.

camaatı! “əl-Əmin” olub, heç bir zaman yalan danışmamış olan qardaşımın oğlu, yazmış olduğunuz səhifədəki Allah Təalanın adından başqa bütün yazıları bir ağac qurdunun yediyini xəbər verdi. Gedək əleyhimizdə yazdığınız kağızı gətirin ki, görək! Əgər bu söz doğru isə, and içirəm ki, hamımız ölüncəyə qədər Onu qorumağa davam edəcəyik. Artıq siz də bu zülüm və pis davranışınızdan əl çəkin...” dedi.

Müşriklər həyəcanla Kə’bənin divarından səhifəni götürüb gətirdilər. Əbu Talıb; “Oxuyun!” deyincə, aralarından biri oxumaq üçün səhifəni açdığında, “Bismikə Allahummə”dən başqa bütün yazıların silinmiş olduğunu gördü. [91] Müşriklər nə deyəcəklərini və nə edəcəklərini bilmədilər. Hətta bəzilərinın əl çəkməsindən sonra, üç ildir davam edən unudulmaz əziyyətlərdən əl çəkərək, könüllərdə dərin yaralar buraxan bu ağır mühasirəni ləğv etdilər. Ancaq düşmənliklərindən heç vaxt əl çəkmədilər, üstəlik daha da sərt davrandılar. İslamiyyətin yayılmasına mane olmaq üçün bütün yolları sınaqdan çıxartdılar. Bütün bu cəhdlərinə baxmayaraq, İslamiyyət sür’ətlə yayılır, sevgili Peyğəmbərimiz Məhəmməd əleyhissalam, cahiliyə dövrünün zülmətindən bezən insanlara kömək etməyə çalışır və həqiqi səadətə çatdırırdı. Bu səadətə çatanlar, böyük ne’mətə şükr edir, müşriklərin həqarətləri və işgəncələri qarşısında əsla ruhdan düşmürdülər. Məhəmməd əleyhissalamın mö’cüzələrini və müsəlmanların dinlərindəki dözümlülüyünü görən bir çox könülü İslam nuru ilə işıqlanırdı.

## Ayın ikiyə bölünməsi

Cənabi Peyğəmbərimizin böyük mö’cüzələrindən biri də ayın ikiyə bölünməsidir. Aralarında Əbu Cəhil və Vəlid ibn Muğirənin də olduğu bir müşrik camaatı, Rəsuli əkrəmə (səlləllahu əleyhi və səlləm); “Əgər, sən həqiqətən Peyğəmbərsənsə, ayı yarısı Kuaykıan dağı, yarısı da Əbu Qubeys dağının üzərində görünən şəkildə ikiyə böl!” dedilər. Rəsulullah da; “Əgər bunu etsəm iman edərsiniz?” buyurdu. Onlar; “Bəli, iman edərik” dedilər. Rəsulullah ayın ikiyə bölünməsi üçün Allah Təalaya dua etdi. Cəbrayıl əleyhissalam, dərhal sevgili Peyğəmbərimizin yanında hazır oldu və; “Ey Məhəmməd! Bu gecə Məkkəlilərə, mö’cüzəni seyr etmələri üçün

---

[91] İbn İshaq, *əs-Sirə*, s, 210; İbn Hişam, *əs-Sirə*, I, 376; İbn Sə’d, *ət-Təbəqat*, I, 209; Təbəri, *Tarix*, II. 79; Süheyli, *ər-Rövzul-Unf*, II, 159; İbn Kəsir, *əs-Sirə*, II, 69,

xəbər ver" dedi. Cənabi Peyğəmbərimiz, ayın on dördü, bədr, yəni yuvarlaq olduğu o gecə, ayın ikiyə bölünəcəyini, ibrət almaq istəyənlərin seyr etməsini hamıya çatdırdı. O gecə, sevgili Peyğəmbərimiz mübarək barmağı ilə işarə edincə, ay ikiyə bölündü. Biri Əbu Qubeys, digəri də Kuaykıan dağı üzərində göründü. Sonra təkrar göy üzündə birləşdi.

Rəsulullah, Əshabına; "Ey Əbu Sələmə ibn Əbdüləsəd, Ərqam ibn Əbil-Ərqam! Şahid olun!" buyurdu. Yanında olan digər Əshabına da; "Şahid olun!" buyurdu. Müşriklər isə gözləriylə açıq-aşkar bir mö'cüzə daha gördülər.

Ancaq sözlərində durub iman etmədikləri bir tərəfə, başqalarının da iman etməsinə əngəl olmaq üçün; "Bu Ancaq Məhəmmədin bizə göstərdiyi bir sehrdir! Ancaq bütün insanları da sehirləyə bilməz ki! Bir də başqa bölgələrdən gələn insanlara soruşaq. Görək onlar da eyni hadisənin şahid olublar? Əgər görüblərsə Məhəmmədin peyğəmbərlik iddiası doğrudur. Belə deyilsə, bu bir sehrdir" dedilər. Gələnlərdən soruşdular, hətta başqa yerlərə adam göndərərək xəbər aldılar. "Bəli, o gecə ayın ikiyə bölündüyünü gördük!" deyə hamıdan eyni şeyi eşitdilər. Yenə də inkar etdilər. İnkar edənlərin başında Əbu Cəhil var idi. İnsanların iman ne'mətinə qovuşmaması üçün; "Əbu Talıbın yetiminin sehri, göyə də tə'sir etdi! deyərək, qəlblərdə şübhə yaradırdı.[92] Onun bu inkarından sonra Allah Təala ayələr endirdi, məalən; "Saat (qiyamət) yaxınlaşdı və ay yarıldı (ikiyə bölündü). Onlar (Qureyş kafirləri, Məhəmməd əleyhissalamın peyğəmbərliyini sübut edən) bir mö'cüzə görən kimi, (onu düşünməkdən və iman etməkdən) imtina edirlər və; "Daim (ardı-arxası kəsilməyən, möhkəm, şiddətli) bir sehrdir" deyərlər, və onlar, (Peyğəmbəri veya mö'cüzəni) yalan saydılar, inanmadılar, öz dediklərinə (nəfislərinin arzularına və istəklərinə) tabe oldular. Halbuki, (Cənnət əhalisinə xeyir, Cəhənnəm əhalisinə də şər) hər iş olacaqdır (Cənnət əhalisi Cənnətə, Cəhənnəm əhalisi Cəhənnəmə girəcək). And olsun ki, onlara (Məkkə müşriklərinə, Qur'ani Kərimdə, keçmiş ümmətlərə və axirət hallarına dair, onları küfr və inaddan şiddətlə) əl çəkdirəcək o qədər əhəmiyyətli xəbərlər gəlmişdir ki, bunlar tamamiyə bir hikmətdir. ( Onu təsdiq etmədikləri halda) xəbərdarlıq edən, (Cəhənnəm əzabı ilə qorxudan) peyğəmbərlər əsla (onlara) fayda verməz. O halda (ey Həbibim! Onlara risalətini, peyğəmbərliyini təbliğ və haqqa də'vətdən sonra) sən də onlardan üz

[92] Hakim, *əl-Müstədrək*, II, 512; Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 141; Fakihi, *Əxbaru Məkkə*, VII, 137; İbn Kəsir, *əs-Sirə*, II, 116; Qazı İyaz, *Şifayi Şərif*, s. 278-279; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 352.

döndər, O də’vət edicinin (İsrafil veya Cəbrayılın) kafirləri inkar etdiyi şeyə (hesaba) də’vət etdiyi gün, (şiddətindən) gözləri bərəlmiş vəziyyətdə (qorxu və dəhşətdən hara gedəcəklərini yaddan çıxartmış bir halda) ətrafa yayılmış çəyirtkələr kimi, qəbirlərindən çıxacaqlar. Kafirlər, (boyunlarını əyərək) o də’vət ediciyə tərəf gələrək; “Bu gün bizim üçün necə də çətin bir gündür” deyəcəklər”.[93]

**Rəbbim sizə də hidayət nəsib etsin!**

Müşriklərin, müsəlmanlara tətbiq etdikləri üç illik mühasirənin bitməsindən sonra, Nəcrandan bir qrup Rəsulullahın yanına gəldi. Bunlar iyirmi nəfərə yaxın bir qrup olub, Həbəşistana hicrət edən Əshabi kiramdan İslamiyyət haqqında məlumat almışdılar. Ona görə də, İslamiyyəti öyrənmək və Cənabi Peyğəmbərimizi görmək səadətinə qovuşmaq üçün Məkkəyə gəlmişdilər. Kə’bəyi müəzzəmənin yanında Rəsulullahla görüşdülər. Bir çox sual verərək, arzu etdiklərindən daha gözəl və ətraflı cavablar aldılar. Qureyşli müşriklər də kənardan onları seyr edirdi. Aləmlərə rəhmət olaraq göndərilən sevgili Peyğəmbərimiz, onlara Qur’ani Kərimdən bəzi ayələr oxudu. Bundan, həddən çox tə’sirləndilər və göz yaşlarını saxlaya bilməyərək ağladılar. Sonra da Rəsulullahın də’vətini qəbul edərək və böyük bir sevinclə kəlimeyi şəhadət gətirib, müsəlman olmaqla şərəfləndilər. Ölkələrinə qayıtmaq üçün icazə istədiklərində, Əbu Cəhil yanlarına gəlib; “Sizin qədər axmaq adamlar görmədik! Onun yanında bir dəfə oturmaqla dininizdən ayrıldınız və nə söylədisə təsdiq etdiniz!” şəklində həqarətamiz sözlər sərf etdi. Hələ yeni Əshab olmaqla şərəflənən bu adamlar; “Allah Təalanın sizə də hidayət nəsib etməyini arzu edirik. Bizə etdiyiniz bu həqarət və cahilliyi, biz sizə etmərik. Hərçənd ki biz, hər hansı bir haqqınızı tapdalamamışıq. Ancaq bunu yaxşı bilin ki, bir neçə cahilin sözüylə, qovuşduğumuz bu böyük ne’məti əsla itirmək istəmərik, bu haqq dindən dönmərik” deyə cavab verdilər.[94]

Allah Təala, bu hadisədən sonra göndərdiyi ayələrdə məalən buyurdu ki; “Bundan (Qur’ani Kərimdən) əvvəl, özlərinə kitab verdiyimiz bəzi adamlar vardır ki, onlar buna (Qur’ani Kərimə) inanırlar. Onlara (Qur’ani Kərim) oxunduğu zaman; “Buna inandıq. Şübhə yoxdur ki, bu, Rəbbimizdən (gələn) bir haqdır. Həqiqətən biz bundan

[93] əl-Qəmər 54/1-8.
[94] İbn İshaq, İbn Hişam, *əs-Sirə*, s. 199-200; İbn Hişam, *əs-Sirə*, I, 391-392.

əvvəl də İslamı qəbul etmiş kəslərdik" dedilər. Bax bunlara, səbr (və ehtiyat) etmələri səbəbiylə mükafatları, iki dəfə veriləcəkdir. Bunlar, pisliyə yaxşılıqla cavab verərlər. Özlərinə ruzi verdiyimiz şeylərdən (xeyir üçün) xərcləyərlər. Bunlar, çirkin söz eşitdikləri zaman ondan üz çevirər və; "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun, bizə cahillər lazım deyil (onlarla dostluq qurmaq da istəmirik)" deyərlər".[95]

## Hüzün ili

Cənabi Peyğəmbərimizin (səlləllahu əleyhi və səlləm) böyük oğlu Qasım on yeddi aylıq olarkən vəfat etmişdi. Bu kədərli hədisədən illər sonra, digər oğlu Abdullah da vəfat etdi. Rəsulullahın mübarək gözlərindən yaş axdığı halda üzünü dağa tutub; "Ey dağ! Mənim başıma gələn şey, sənin başına gəlsəydi, dözə bilməz, dağılardın!" buyurdu və kədərini dilə gətirdi. Hazrəti Xədicə anamızın; "Ya Rəsulallah! Onlar indi haradadır?" sualına da; "Onlar, Cənnəttədirlər" buyurdu.

Kainatın hökmdarı sevgili Peyğəmbərimizin iki oğlunun da vəfat etməsiylə, müşriklər çox sevindilər. Əbu Cəhil kimi kafirlər, bu fürsətdən istifadə edərək; "Artıq Məhəmməd sonsuzdur, nəsli kəsilmişdir. Nəslini davam etdirə biləcək oğlan uşağı qalmamışdır. Özü də vəfat edincə adı-sanı yaddan çıxacaqdır" deyə hər yerdə şayiə yaymağa başladılar. Bundan sonra Allah Təala, Kövsər surəsini endirərək Rəsulunu təsəlli etdi. Məalən; "(Həbibim!) Həqiqətən, biz sənə Kövsəri verdik (Kövsər hovuzunu, çoxlu xeyir ehsan etdik). O halda Rəbbin üçün namaz qıl. Qurban kəs. Doğrusu sənə (nəsli kəsik deyib) söz atanlar, özləri xeyirsız və nəsli kəsikdirlər... (Sənə sonsuz deyən adamın özü zürriyyətsiz, şərəfsiz və bədnamdır. Sənə gəlincə, Həbibim, sənin pak nəslin, şan və şərəfin qiyamət gününə qədər davam edəcəkdir. Axirətdə də sənə təsəvvür edilə bilməyəcək neçə böyük şərəflər ehsan edilmişdir)" buyuruldu.

Rəsulullahın (səlləllahu əleyhi və səlləm) oğullarının vəfatından sonrakı günlərdə Əbu Talıb xəstələndi və gün keçdikcə xəstəliyi daha da artdı. Bunu eşidən Qureyşli muşriklər; "Əbu Talıb həyatda ikən, Məhəmmədin himayəsinə çox cəhd etmişdi. İndi isə köçüb getmə zamanı yaxınlaşdı. Son vaxtında da olsa, ona bir baş çəkək. Çünki, Həmzə kimi tayı bərabəri olmayan bir Ərəb igidi və heybəti, pəhlivanlığı

[95] əl-Qasas 28/52-55.

və qorxmazlığı ilə tanınan Ömər müsəlman oldular. Hər ötən gün Ərəb qəbilələrindən insanlar gələrək dəstə-dəstə Ona tabe olurlar. Beləcə müsəlmanlar gündən günə çoxalır və səsləri aləmə yayılır. Bu vəziyyətə görə, ya bizim onlara tabe olmağımız vəya çaxnaşma və müharibəyə hazır olmağımız lazımdır. Əbu Talıbın yanına gəlib vəziyyəti başa salaq ki, bizim aramızı düzəltsin. Onun dininə sataşmayaq, O da bizim dinimizə bir söz deməsin" niyyəti ilə Əbu Talıbın yanına gəldilər.

Ukbə, Şeybə, Əbu Cəhil, Ümeyyə ibn Xələf kimi tanınmış şəxslər, Əbu Talıbın yatağı üstündə oturdular. Dedilər ki; "Sənin böyüklüyünə inanır, nüfuzunu qəbul edirik. Bu səbəblə sənə əsla zidd getmədik. Ondan qorxuruq ki, sən öldükdən sonra, Məhəmməd bizim işlərimizə qarışar, beləcə aramızdakı düşmənlik davam edər. Bizi barışdır ki, bir birimizin dininə qarışmayaq".

Əbu Talıb, Cənabi Peyğəmbərimizə xəbər göndərib; "Qureyşin bütün başda gələnləri səndən, onların dininə qarışmamağını xahiş edirlər. Bunu qəbul etsən, sənin əmrində çalışar və sənə yardım edərlər" dedi. Aləmlərin sahibi buyurdu ki; "Ey Əmi! Mən onları, ancaq bir sözü deməyə də'vət etmək istəyirəm ki, o söz ilə bütün Ərəblər, onlara boyun əyərlər. Ərəb olmayanlar da cizyə ödəyərlər" buyurdu. Qureyş əşrafına da; "Bəli! Siz, mənə bu bir sözü desəniz, onunla bütün Ərəblərə hakim olarsınız, Ərəb olmayanlar da sizə boyun əyərlər" buyurdu. Əbu Cəhil; "Niyə də olmasın. Onu on qat artıq deyərik. Nədir o söz?" dedi. Rəsulullah; "La ilahə illallah" deyin və Allah Təaladan başqa sitayiş etməkdə olduğunuz bütləri də atın" buyurunca, müşriklər dərhal; "Sən, bizdən, bundan başqa bir şey istə!" dedilər. Cənabi Peyğəmbərimiz; "Siz, günəşi gətirib ovcuma qoysanız belə, mən sizdən, bundan başqasını istəmərəm" buyurdu.

Müşriklər; "Ya Əbəl-Qasım! çox qəribə bir təklif edirsən. Biz sənin xətrin üçün bunu istəyirik. Sən isə, bizim xətrimizə dəyirsən!" dedilər və qalxıb getdilər. Onlar gedincə, Əbu Talıb, Cənabi Peyğəmbərimizə; "Sənin Qureyşdən istədiyin şey, yerli yerindəydi. Doğru söylədin" dedi. Əmisinın bu sözü, Rəsulullaha ümid verdi və Əbu Talıbın imana gələcəyini başa düşüb; "Ey Əmi! Bir dəfə; "La ilahə illallah" de ki, qiyamət günü sənə şəfaət edim" buyurdu. Əbu Talıb; "Xalqın, ölməkdən qorxdu ve onun üçün müsəlman oldu, deyərək istehza etməsindən çəkinirəm. Yoxsa, sənin xətrinə

dəyməzdim" deyərək nəfsinə ağır gəldiyini söylədi və xəstəliyinin daha da artması səbəbiylə vəfat etdi.[96]

*Ey padişahi cahan, ey Hökmdarı bəhrü bər!*
*Ey mələklərdən üstün, son və bənzərsiz Peyğəmbər!*
*"Li məallahi vaqtun" verər halından xəbər,*
*Sənsən bədənə həyat, dilə dad, könülə hökmdar.*

*Əhməd, Məhəmməd, Mahmud, daim öyər səni Allah;*
*Sənin isminlə bitər La ilahə illallah.*
*Bundakı incə sirri anlamaz, bilməz gümrah;*
*Öz adıyla yazmış, sənin adını Rəhman.*

*Səni sevən kölələr, hökmdar olar şahım!*
*Otur könül taxtıma, ey bənzərsiz padişahım!*
*Çox sevirəm səni, olsa da çox günahım!*
*İnandım ki, sevənlər, pay alır ikramından.*

*Necə sevmeyim ki, bədənimdə canımsan,*
*Hörmətinlə var oldum, səbəbi həyatımsan.*
*Damarımda qanımsan, mənə məndən yaxınsan.*
*Sən aşiqlərə məşuq və daim canlara canan.*

*Hər dərdə dəva sənsən, hər ruha, şəfa sənsən.*
*Gözə sürmə, başa tac, qəlblərə cila sənsən.*

---

[96] Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 214; İbn Kəsir, *əs-Sirə*, II, 127.

*Həbibullahsan, fövqiməlai ə'la sənsən,*

*Başqa qapını döyməz, səni bir az tanıyan.*

*Övliyanın mürşidi, alimlərin rəhbəri;*

*Təşrifi sevindirən yeddi qat göyü, yeri.*

*İnsanlara, cinlərə Haqqın son Peyğəmbəri;*

*Torpaq altında qalsın, qapında qul olmayan.*

**Həzrəti Xədicə anamızın vəfatı**

Rəsulullahın dərd ortağı, iyirmi dörd illik həyat yoldaşı olan mübarək Həzrəti Xədicə anamız da, dərd və kədərlə keçən üç illik mühasirədən sonra, hicrəttən üç il qabaq, Ramazan ayının əvvəlində, 65 yaşında vəfat etdi.[97] Fəxri Kainat (səlləllahu əleyhi və səlləm), Hazrəti Xədicə anamızı öz mübarək əlləriylə dəfn etdi. Onun ayrılığından, çox kədərləndi. Eyni il içində Həzrəti Xədicə anamızın və əmisi Əbu Talıbın vəfatı, Cənabi Peyğəmbərimizi üzüntüyə qərq etmişdi. Buna görə də bu ilə "Sənətül-hüzn" yəni hüzn ili deyildi.

Həzrəti Xədicə anamızın vəfatı, sevgili Peyğəmbərimizə çox pis tə'sir etmiş və Onu həddindən artıq üzmüşdü. Çünki, hamıdan da qabaq iman edən və Rəsulullahı təsdiq edən o idi. Ayrıca, Onun ən böyük dəstəyi və təsəlli verəni idi. Hamı düşmən ikən, o, bütün qəlbini açmış və Peyğəmbərimizin məhəbbətiylə dolmuşdu. Bütün malını, sərvətini, hər şeyini İslamiyyət uğrunda xərcləmiş, sevgili Peyğəmbərimizə qulluq etmək üçün, gecəsini gündüzünə qatmışdı. Rəsulullahı heç bir zaman incitməmiş, əsla xətrinə dəyməmişdi. Cənabi Peyğəmbərimiz, bunu vaxtaşırı nəql edər, beləcə mübarək xanımının fəzlətlərini yad edərdi.

[97] Əbu Ya'la, *əl-Müsnəd*, IV, 299; VIII, 74.

Bir dəfə, Həzrəti Xədicə, Peyğəmbərimiz çöldəykən, Onu axtarmaq üçün çıxmışdı. Cəbrayıl əleyhissalam insan cildində Həzrəti Xədicənin gözünə göründü. Həzrəti Xədicə anamız, ona, Cənabi Peyğəmbərimizi soruşmaq istədisə də, düşmənlərdən olma ehtimalını düşünərək fikrindən döndü. Sevgili Peyğəmbərimizi evdə görüncə, hadisəni Ona danışdı. Fəxri kainat Rəsulullah buyurdu ki; "Sənin gördüyün və məni soruşmaq istədiyin o zatın heç kim olduğunu bilirsən? O, Cəbrayıl (əleyhissalam) idi. Salamını sənə çatdırmağımı söylədi. Bunu da sənə çatdırmağımı istədi ki, Cənnətdə sənin üçün incilərdən düzəldilmiş bir bina hazırlanmışdır. Tabii ki, orda belə üzüntülü, problemli, zəhmətli və əziyyətli şeylər olmayacaqdır".

## Əli boynuna yapışdı

Sevgili Peyğəmbərimiz (salllallahu əleyhi və səlləm), insanların ən bəxtiyarlarından olan Əshabına, heç bir oxşarı olmayan söhbətlər edərək, onların könüllərini nurlandırırdı. Gələn ayələri izah edər, izah edilməyən, başa düşülməyən heç bir şey saxlamazdı. Bu müddətdə müşriklərin də imana gəlməsi üçün, yığışdıqları yerlərə gedər, bezmədən və yorulmadan imana də'vət edərdi. Bu vəziyyətə, Əbu Cəhil ilə Vəlid ibn Muğirə çox əsbləşər; "Belə getsə Məhəmməd, hamıya öz dinini qəbul etdirəcək, bütlərimizə sitayiş edən heç kim qalmayacaq" deyərdilər. Bir dəfə, bu işi həll etməyin yeganə əlacı, aləmlərin sahibi olan sevgili Peyğəmbərimizi öldürmək olduğuna qərar verdilər. Əbu Cəhil, Vəlid ibn Muğirəni və Məhzum oğullarından bir neçə cavanı da yanında götürərək Beytullaha gəldi. O əsnada sevgili Peyğəmbərimiz namaz qılırdı. Əbu Cəhil, əlinə aldığı bir daş ilə dərhal qabağa çıxdı. Həbibi əkrəm və Nəbiyyi möhtərəm Rəsulullaha daşı vurmaq üçün əlini qaldırdığı an, əlləri havada quruyub qaldı. Heç bir şey edə bilmədi və çaşıb qaldı. Necə gəlmişdisə, elə də mə'yus geri qayıtdı. Müşriklərin yanına çatınca, əli açıldı və daş yerə düşdü.

Eyni daşı Məhzum oğullarından biri götürüb; "Görəcəksiniz! Onu mən öldürəcəyəm!" deyərək, Cənabi Peyğəmbərimizə hücum etdi. Yaxınlaşınca, bir anda gözü kor olub, ətrafı görə bilmədi. Bundan sonra, Məhzum oğullarının hamısı birlikdə sevgili Peyğəmbərimizə tərəf gəlməyə başladılar. Cənabi Peyğəmbərimizə əməlli-başlı yaxınlaşdıqları an, onu görə bilmədilər. Ancaq Mübarək səsini eşidirdilər. Səsin gəldiyi yerə getdiklərində, səs arxalarından, arxaya döndüklərində isə, əvvəlki yerdən gəlməyə

başladı. Eyni hala bir neçə dəfə şahid oldular. Axırda çaş-baş qalıb, Rəsulullaha heç bir şey edə bilmədən oradan çıxıb getdilər. Bundan sonra, Allah Təala ayə göndərib, məalən; "Onların önlərinə sədd çəkdik. Gözlərinə pərdə tutduq. Artıq görə bilməzlər" buyurdu.[98]

## Taifliləri imana də'vəti

Müşriklər Sevgili Peyğəmbərimizdən bir çox mö'cüzələr gördükləri halda inadları səbəbiylə iman etmir, üstəlik müsəlman olan uşaqlarına, qardaşlarına, qohum və dostlarına əziyyət və zülm etməkdən də əl çəkmirdilər. Onların get-gedə artan bu zülm və işgəncələrinə, sevgili Peyğəmbərimiz çox üzüldü. Məkkə yaxınlarında yerləşən Taifə gedərək, oranın əhalisini İslama də'vət etməyi düşündü. Bu səbəblə, yanında Zeyd ibn Harisəni də götürüb Taifə getdi. Taifin başda gələnlərindən Əmrin oğulları; Əbdi Yəlil, Həbib və Məs'ud ilə görüşdü. Onlara İslamı izah edib, Allah Təalaya iman etmələrini istədi. Onlar nəinki iman etmədilər, hətta həqarət edərək; "Bəyəm Allah Təala Peyğəmbər göndərmək üçün, səndən başqa birini tapa bilmədi? Bəyəm Allah Təala səndən başqasını Peyğəmbər göndərməyə acizdir? Ölkəmizdən çıxıb get! Hara istəyirsən ora get! Sənin qövmün, söylədiklərini qəbul etmədiyi üçün buraya gəldin? And içirik ki, biz də səndən uzaq duracaq və heç bir istə'yini qəbul etməyəcəyik" dedilər.

Rəsulullah (səlləllahu əleyhi və səlləm), onların yanından kədərlə ayrıldı. Səqif qəbiləsini on gün veya bir ay İslamiyyətə də'vət etdi, ancaq onlardan da heç biri iman etmədi. Hətta, onu lağa qoyaraq, işgəncə etdilər və sözlərinə əhəmiyyət vermədilər. Uşaqları və gəncləri, Həzrəti Peyğəmbərin keçəcəyi yolun qıraqlarına yığaraq daşa basdılar və üstünə cumdular. Taifli gənclərin atdığı daşlara, Həzrəti Zeyd, bədənini sipər edərək Peyğəmbərimizə bir zərər gəlməsinə mane olmağa çalışırdı. Həzrəti Zeyd, sevgili Peyğəmbərimizin ətrafında pərvanə kimi dolanır, daşların Ona dəyməməsi üçün əlləşirdi. Onun mübarək bədəninə bir zərər gəlməməsi üçün ona dəyən daşlara fikir vermirdi. Məgər, canını bu günlərdə fəda etmək üçün fürsət axtarmırdı? Budur, Aləmlərin sahibini daşlayır, əziyyət və işgəncə edərək yurd-yuvalarından çıxartmağa çalışırdılar.

---
[98] Yasin 36/9.

Həzrəti Zeyd, Cənabi Peyğəmbərimizi qorumaq üçün gah sağa, gah da sola qaçdıqca, daşlar başına, bədəninə, ayaqlarına dalbadal dəyirdi. Bu səbəblə, Həzrəti Zeydin hər tərəfi qan içində qalmışdı. Sevgili Peyğəmbərini qorumaq üçün can-başla cəhd edir, daş atan zalımlara səsi çıxdığı qədər; "Dayanın! Atmayın! O, aləmlərin sahibidir! Rəsulullahdır! Mənim bədənimi tikə-tikə edin, ancaq Peyğəmbərimizə bir zərər gəlməsin!" deyə qışqırırdı. Zeyd ibn Harisəni keçib Rəsulullaha dəyən daşlar, Rəsulullahın mübarək ayaqlarını qana boyamışdı.

Sevgili Peyğəmbərimiz, kədərli, yorğun və yaralı bir halda, Utbə və Şeybə adındakı iki qardaşın bağına yaxınlaşdı. Orda, bütün mö'minlərin uğrunda canlarını fəda etmək istədiyi Rəsulullah, mübarək ayaqlarından axan qanları sildi. Dəstamaz alıb, ağacın altında iki rük'ət namaz qıldı. Sonra mübarək əllərini qaldırıp Allahdan kömək istədi.

Bu halı, bağ sahibləri seyr edirdi. Rəsulullahın başına gələnləri görmüş, qərib olduğuna şahid olmuşdular. Mərhəmət hissləri cuşa gəldi. Addas adındakı kölələri ilə üzüm göndərdilər. Sevgili Peyğəmbərimiz, üzümü yeyərkən "Bismillah" dedi. Üzümü gətirən kölə xristiyan idi. Bismillahı eşidincə çaşıb qaldı; "Neçə ildir ki, buralardayam, heç kimdən belə bir söz eşitmədim. Bu necə sözdür?" deyə soruşdu.

Rəsulullah; "Sən haralısan?" soruşdu. Addas; "Ninevalıyam" dedi. Rəsulullah; "Demək ki, Yunisin (əleyhissalam) ölkəsindənsən" buyurdu. Addas; "Sən Yunisi hardan tanıyırsan? Onu, burada heç kim tanımaz" dedi. Rəsulullah; "O, mənim qardaşımdır. O da, mənim kimi peyğəmbər idi" buyurdu.

Addas; "Bu gözəl üzün, bu şirin sözlərin sahibi yalançı ola bilməz. Mən inandım ki, Sən Allahın Rəsulusan" dedi və müsəlman oldu; "Ya Rəsulullah! Neçə ildir ki, bu zalımlara, bu yalançılara köləlik etdim. Hamının haqqını tapdalayırlar. Hamını aldadırlar. Heç yaxşı bir iş görmürlər. Dünya üçün yaşamaq və şəhvətlərini söndürmək üçün hər alçaqlığı etməkdən utanmırlar. Onlara nifrət edirəm. Sizinlə birlikdə getmək, sizə xidmətlə şərəflənmək, cahillərin, axmaqların sizə edəcəyi hörmətsizliklərə hədəf olmaq, mübarək bədəninizi qorumaq üçün canımdan keçmək istəyirəm" dedi[99].

Rəsulullah, gülümsəyərək; "İndi sahibinin yanında qal! Çox keçməz, adımı hər yerdə eşidərsən. O zaman mənim yanıma gəl" buyurdu. Bir az istirahət edib, Məkkəyə

---

[99] İbn Sə'd, *ət-Təbəqat*, I, 42; Təbəri, *Tarix*, II. 344-346; İbn Kəsir, *əl-Bidayə*, III, 135-137; Yaqubi, *Tarix*, II, 29-30; Bəlazuri, *Ənsab*, I, 227.

tərəf döndülər. Məkkəyə iki istirahət məsafəsi qaldığında, bir buludun onlara kölgə saldığını gördülər. Diqqətlə baxdıqlarında, Cəbrayıl əleyhissalam olduğunu sezdilər. Bu hədisəni sevgili Peyğəmbərimiz, Aişə Siddiqə anamıza nəql etmişdi.

Səhihi Buxaridə və Əhməd ibn Hənbəlin Müsnədində qeyd edilmişdir ki; "Bir dəfə Həzrəti Aişə anamız; Ya Rəsulullah! Sənin başına, Ühüd döyüşündən daha məşəqqətli bir hadisə gəlib bəyəm?" deyə soruşmuş, Rəsulullah da belə cavab vermişdi; "Vallahi, Ühüd döyüşündə iştirak edən kafirlərdən görmədiyim əziyyəti, sənin qövmündən gördüm".

İbni Əbdi Yəlil ibn Əbdi Kulaləni, iman etməyə də'vət etdiyimdə, qəbul etmədi. Yanından elə böyük bir kədərlə ayrıldım ki, ta Qərni Səalib deyilən yerə çatıncaya qədər özümə gələ bilmədim. Orda başımı yuxarı qaldırdım. Bir buludun mənə kölgə saldığını gördüm. Baxdım ki, buludun içində, Cəbrayıl (əleyhissalam) dayanıbdır. Məni çağırıb dedi ki; "Ya Məhəmməd! Cənabi Haqq Təala, qövmünün sənin haqqındakı sözlərini eşitdi. Səni qorumaq istəmədiklərini də bilir. Sənin üçün, dağlara hökm edən bu mələyi göndərdi. Ona istədiyin şeyi əmr edə bilərsən". "O mələk də məni səsləyib salam verdikdən sonra; "Ya Məhəmməd! Cənabi Haqq Təala, Cəbrayılın dediyi kimi, dağların mələyi olan məni, istədiyin şeyi əmr etməyin üçün sənə göndərdi. Əmrinə hazıram. Əgər bu iki sıldırımlı dağın (Kuaykıan dağı ilə Əbu Qubeys dağının) Məkkəlilərin üstünü örtərək bir biriylə birləşməsini (və müşriklərin hamısını əzməsini) istəyirsənsə, əmr et birləşdirim" dedi. Mən razı olmadım və dedim ki; "(Xeyr! Mən aləmlərə rəhmət olaraq göndərildim). Allah Təalanın bu müşriklərin nəslindən, təkcə Cənabi Haqqa ibadət edən və Allah Təalaya heç bir şeyi şərik qoşmayan bir nəsil meydana gətirməsi üçün dua edirəm".

Cənabi Peyğəmbərimiz Taifdən Məkkəyə qayıdarkən, Nəhlə bölgəsində bir az istirahət etdi. Namaz qılmağa başladıqlarında, Nusaybin cinlərindən bir dəstə ordan keçərkən, sevgili Peyğəmbərimizin oxuduğu Qur'ani Kərim ayələrini eşidincə, dayanıb qulaq asdılar. Sonra Cənabi Peyğəmbərimizlə görüşüb müsəlman oldular. Cənabi Peyğəmbərimiz onlara; "Qövmünüzün yanına gedincə, mənim iman üçün etdiyim də'vətimi onlara da söyləyin. Onları da iman etməyə də'vət edin" buyurdu. O cinlər, qövmlərinin yanına gedib bunu xəbər verincə, eşidən cinlərin hamısı iman etdilər.[100]

[100] İbn Sə'd, *ət-Təbəqat*, I, 212.

Bu məsələ, Qur'ani Kərimdə Cin surəsində, Buxari və Müslimin məşhur hədisi şərif kitablarında nəql edilməkdədir. Bu hadisədən sonra Məkkəyə tərəf yola düşdülər.

**"La ilahə illallah" deyərək xilas olun..."**

Həbibi əkrəm və Nəbiyyi möhtərəm Rəsulullah, Mut'im ibn Ədiyin himayəsində Məkkəyə gəldi. İnsanları haqq yola də'vət etməyə davam etdi. Bu vəzəyyət qarşısında, müşriklər təzədən yoldan azib əvvəlkindən daha çox işgəncə və zülm etməyə başladılar. Bundan sonra Cənabi Haqq, Cənabi Peyğəmbərimizə, Kə'bəni ziyarət mövsümündə ziyarətə gələn Ərəb qəbilələriylə görüşüb, onları İslama də'vət etməsini əmr etdi.

Sevgili Peyğəmbərimiz, bu əmrdən sonra, Məkkə ətrafında qurulan Zulməcaz, Ukaz və Məcənnə bazarlarına gedərək, qəbilələri, Allah Təalanın birliyinə və Ona ibadət etməyə də'vət edər, özünün Peyğəmbər olduğunu qəbul etmələrini söyləyərdi. Qəbul etdikləri təqdirdə, Cənabi Haqqın, onlara Cənnəti verəcəyini deyərdi. Cənabi Peyğəmbərimizin, yalvarırcasına etdiyi bu də'vətlərə, təəssüf ki, heç biri qulaq asmaz, bəziləri kobud davranır, təhqir edər, bəziləri da üzünü turşudub nalayiq sözlər sərf edərdi. Qureyş müşrikləri də Onu tə'qib edərək getdiyi qəbilələri yoldan çıxardardılar.

İmamı Əhməd, Beyhəqi, Təbərani və İbn İshaqın nəql etdiklərinə görə, Rəbiə ibn Abbad belə rəvayət etmişdir; "Cavan idim. Atamla birlikdə Minaya getmişdik. Rəsul əleyhissalam, Ərəb qəbilələrinin düşərgə saldığı yerə gedər; "Ey filankəs oğulları! Sitayiş etdiyiniz bu bütlərdən əl çəkərək, Allah Təalaya heç bir şərik qoşmadan ibadət etməyinizi, mənə inanıb, təsdiq etməyinizi, Haqq Təala tərəfindən göndərilmiş olduğum vəzifəni icra edib yerinə yetirincəyə qədər məni qorumağınızı sizə əmr edən Allah Təalanın rəsuluyam!" buyurardı.

Onun arxasınca gedən çəp gözlü, hörmə saçlı bir adam da; "Ey filankəs oğulları! Bu sizi, bütlərimiz Lat və Uzzaya sitayiş etməməyə çağırıb, özünün uydurduğu bir dinə də'vət edir! Nə badə Onu dinləyib itaət edəsiniz!" deyirdi. Mən atama; "Bu adamı tə'qib edən kimdir elə?" deyə soruşdum. "Əmisi Əbu Ləhəbdir" dedi.

Təbərani, Tariq ibn Abdullahdan belə rəvayət etmişdir; "Rəsul əleyhissəlamı Zulməcaz bazarında görmüşdüm. İnsanların eşitməsi üçün, yüksək səslə; "Ey insanlar! "La ilahə illallah (Allah Təaladan başqa ilah yoxdur)" deyin ki xilas olasınız" buyuraraq

xitab edirdi. Onu tə’qib edən bir nəfər da əlinə keçən daşları Onun ayaqlarına ataraq; “Ey camaat! İnanmayın! Ondan uzaq durun! Çünki O yalançıdır!” deyirdi. Belə ki, dəyən daşlar mübarək ayaqlarını qanatmışdı. O hələ də bezmədən, yorulmadan də’vətinə davam edirdi. “Bu gənc adam kimdir?” deyə soruşdular. Biri; “Əbdülmüttəlib oğullarından bir gəncdir” cavabını verdi. “Bəs daş atan kimdir?” deyə soruşduqlarında; “Əmisi Əbu Ləhəbdir” dedi.

İmam Buxari *ət-Tarixul-Kəbir* əsərində və Təbərani *əl-Mu’cəmul-Kəbir* əsərində qeyd etmişdir ki; “Müdrik ibn Munib, atasından, o da babasından belə nəql edib demişdir ki; “Atamla Minaya gəlib çadırımızı qurmuşduq. Bir camaatla raştlaşdıq. Bir nəfər onlara; “Ey insanlar! “La ilahə illallah” deyin ki xilas olasınız” buyururdu. Ətrafındakı insanlardan bəziləri Onun, o gözəl üzünə tüfürür, bəziləri da başına torpaq atır, bəziləri da söyərək təhqir edirdilər. Bu hal günortaya qədər davam etdi. Bu əsnada bir qız uşağı əlində su qabı ilə ora gəldi. Onu o halda görüncə ağlamağa başladı. O adam, su içdikdən sonra qıza üzünü tutub; “Ey qızım, atan haqqında, pusquya düşürülüb öldürüləcək, zillətə düçar olacaq deyə qorxma!” buyurdu. “Bu adam və o qız kimdir?” deyə soruşduq. “Bu, Əbdülmüttəlib oğullarından Məhəmmədir, yanındakı da qızı Zeynəbdir” dedilər”.

Səid ibn Yəhya ibn Səid əl-Əməvi, *Məğazi* əsərində atasından nəql etmiş, O da Əbu Naimdən, Əbdürrəhman Amiridən, o da bir çoxlarindan rəvayət etmişdir ki; “Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), bir gün Ukaz bazarına getdi. Bəni Amir qəbiləsinin yanına gəlib, onlara; “Ey Bəni Amir! Sizin qəbilənizdə, sizə sığınan adamlar necə himayə olunur?” deyə soruşdu. Onlar da; “Bizə heç kim söz deməyə cür’ət edə bilməz, xəbər vermədən ocağımızdan isinə bilməz!” dedilər. Cənabi Peyğəmbərimiz, “Mən, Allah Təalanın rəsuluyam. Yanınıza gəldiyim zaman, Rəbbimin, mənə verdiyi peyğəmbərlik vəzifəsini insanlara təbliğ edincəyə qədər məni qoruyarsınız?” buyurdu. Onlar; “Sən, Qureyşdən kimlərdənsən?” deyə soruşdular. Rəsulullah; “Əbdülmüttəlib oğullarındanam” buyurunca, onlar; “Madam ki, Əbdülmüttəlib oğullarındansan, nə üçün onlar səni qorumur?” dedilər. Rəsulullah da; “Mənə yalançı deyənlərin başda gələnləri onlar oldular” buyurdu. Bəni Amir qəbiləsi dedilər ki; “Ey Məhəmməd! Biz səni nə rədd edirik, nə də gətirdiklərinə iman edirik. Ancaq, Sən, peyğəmbərlik vəzifəni insanlara çatdırıncaya qədər səni qoruyarıq”.

Bundan sonra Cənabi Peyğəmbərimiz, onların yanına oturdu. O əsnada Bəni Amirin başda gələnlərindən Bəyhəra ibn Faris, bazarda alışverişini qurtarıb yanlarına gəldiyində, oradakılara, Cənabi Peyğəmbərimizi göstərərək; "Bu kimdir?" deyə soruşdu. Onlar da; "Məhəmməd ibn Abdullahdır" dedilər. Bəyhəra; "Sizin Onunla nə işiniz ola bilər ki, yanınızda oturtdunuz?" deyincə; "Bizə pənah gətirdi, Allahın rəsulu olduğunu söyləyir və peyğəmbərlik vəzifəsini insanlara də'vət edincəyə qədər, onu qorumağımızı istəyir" dedilər.

Bundan sonra Bəyhəra, Cənabi Peyğəmbərimizə üzünü tutub; "Səni qorumağa təşəbbüs etməyimiz, bütün Ərəblərin oxuna tuş gəlmək deməkdir" dedi və qövmünə də; "El-obalarına, sizdən daha pis bir şeylə qayıdan başqa bir qəbilə yoxdur. Demək siz, bütün Ərəblərlə vuruşacaq, onların oxuna tuş gələcəksiniz?! Əgər Onun qövmü, Onda bir xeyir görsəydi, əvvəlcə özləri qoruyardu. Siz, qövmünün yalançı deyib, yanlarından uzaqlaşdırdığı bir nəfəri qorumağa, Ona yardım etməyə çalışırsınız! çox səhv düşünürsunuz!" dedi.

Sonra sevgili Peyğəmbərimizə tərəf üzünü tutub; "Dərhal yanımızdan ayrılıb öz qövmünün yanına qayıt! And içirəm ki, qövmümün arasında olmasaydın, indi sənin boynunu vurardım!" dedi. Bu sözlərdən sonra, Aləmlərin sahibi böyük bir kədərlə dəvəsinə mindi. O alçaq Bəyhəra, Rəsulullahı dəvəsindən yerə düşürtdü. Bu hadisəni görən Əshabi kiramdan Dəbaa binti Amir adında bir xanım ah-nalə çəkib; "Allah Təalanın Həbibinə edilən bu hərəkətləri necə rəva görürsunuz? Mənim xətrim üçün Rəsulullahı bunların əlindən qurtara bilən heç kim yoxdur bəyəm?" deyərək qohumlarına səsləndi. Əmi oğullarından üç nəfər dərhal alçaq Bəyhəranın üzərinə cumdular. Bəyhəranın qövmündən də iki nəfər ona kömək etmək istədisə də, onlar Bəyhəranı və ona kömək edənləri döyüb əzişdirdilər. Bu vəziyyəti seyr edən sevgili Peyğəmbərimiz, Onun üçün dalaşan o üç nəfər üçün; "Ya Rəbbi! Bu adamlara bərəkətini ehsan et"; Bəyhəra və köməkçiləri üçün də; "Ya Rəbbi! Bunları da rəhmətindən uzaqlaşdır" deyə dua etdi.

Xeyir-dua etdiyi adamlar, müsəlman olmaqla şərəflənirkən, digərləri də kafir olaraq can verdilər. Bəni Amir qəbiləsi mənsubları, ölkələrinə qayıtdıqlarında, qəbilələrindəki, səmavi kitabları oxumuş yaşlı bir adama Məkkədə başlarından keçənləri danışdılar. O adam, Cənabi Peyğəmbərimizin adını eşidincə; "Ey Bəni Amir!

Siz nə etdiniz? İsmayıl oğullarından heç biri indiyə qədər yalan yerə peyğəmbərlik iddiası etməmişdir. Şübhəsiz ki, Onun söylədiyi doğru və haqq idi. Qaçırılan bu fürsəti artıq bərpa etmək çox çətindir! “deyərək onları qınadı.

*Nola tacım kimi başımda götürsəm daim*

*Qədəmi pakını ol Həzrəti Şahi Rasulun*

*Güli gülzarı nübüvvət o qədəm sahibidir*

*Bahtiya durma üzün sür qədəminə o gülün.*

*SOLTAN I ƏHMƏD (BAHTİ)*

# ME’RAC

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) bu şəkildə gördüyü hər qəbiləyə, İslamı təbliğ etdi. Özünü himayə edib, insanlara İslamı də’vət etməsində yardımçı olmalarını istədi. Ancaq heç kim nə müsəlmanlığı qəbul etdi, nə də himayə etməyə təşəbbüs göstərdi. Ayrıca, təhqir, zülm, işgəncə və istehza edib, yalançı dedilər. Aləmlərin sahibi yorğun, ac, susuz, kədərli və çox qəmli idi. Gündüzləri bu şəkildə keçir, gecə yarısına qədər də bu hal davam edirdi. Məkkəli müşriklər, dayanmadan arxasınca gəzir, Kə’bəni ziyarətə gələn insanların müsəlman olmasını əngəllədikləri azmış kimi, üstəlik Həbibi əkrəmə zülm də edirdilər. Artıq Rəsulullahın gedə biləcəyi bir yeri yox idi. Hər tərəf düşmən idi. O gecə birbaşa əmisi Əbu Talıbın qızı Ümmi Haninin Əbu Talıb məhəlləsində yerləşən evinə gəldi.

Ümmi Hani, o əsnada hələ ki, müsəlmanlığı qəbul etməmişdi. “Kimdir o?” soruşunca, Rəsulullah; “Əmin oğlu Məhəmmədəm. Qəbul edirsənsə, qonaq gəlmişəm” buyurdu.

Ümmi Hani; “Sənin kimi doğru sözlü, əmin, əsil-nəcabətli, şərəfli qonağa canım qurban olsun. Ancaq, gələcəyinizi qabaqcadan xəbər versəydiniz, yemək üçün də bir şey hazırlayardım. İndi süfrəyə qoyulacaq bir şeyim yoxdur” dedi.

Rəsulullah; “Yemək, içmək istəmirəm. Heç birini nəfsim çəkmir. Rəbbimə ibadət etmək, yalvarmak üçün bir yer mənə bəs edər” buyurdu.

Ümmi Hani, sevgili Peyğəmbərimizi içəri də’vət edib; bir həsır, ləyən və aftafa verdi. Gələn qonağı yeməyə də’vət etmək, onu düşməndan qorumaq, Ərəblər üçün ən şərəfli vəzifə sayılırdı. Bir evdəki qonağa zərər gəlməsi, ev sahibi üçün böyük üz qarası olardu. Ümmi Hani, “Bunun Məkkədə düşmənləri çoxdur. Hətta, öldürmək istəyənlər var. Şərəfimi qorumaq üçün, sabaha qədər Onu qoruyacağam” deyə düşündü. Atasının qılıncını götürüb, evin ətrafında dolaşmağa başladı.

*(Ol humayunbəxti ol qədri uca,*

*Ümmi Hani xanəsindəydi gecə)*

Rəsulullah, o gün çox incinmişdi. Dəstamaz alıb, Rəbbinə yalvarmağa, bağışlanma diləməyə və qulların imana gəlib, səadətə qovuşmaları üçün duaya başladı. çox yorğun, ac və kədərli idi. Həsirin üstündə uzanıb yatdı.

O əsnada Allah Təala, Cəbrayıl əleyhissalama; “Sevgili Peyğəmbərimi çox üzdüm. Mübarək bədənini, incə qəlbini çox incitdim. Bu halda, yenə mənə yalvarır. Məndən başqa heç bir şey düşünmür. Get, Həbibimi gətir! Cənnətimi, Cəhənnəmimi göstər. Ona və Onu sevənlərə hazırladığım ne’mətləri görsün. Ona inanmayanlara, sözləri, yazıları və hərəkətləri ilə Onu incidənlərə hazırladığım əzabları görsün. Onu mən təsəlli edəcəyəm. Onun incə qəlbinin yaralarını mən sarıyacağam” buyurdu.

Cəbrayıl əleyhissalam, Rəsulullahın yanına gəlincə, Onun dərin yuxuya getdiyini gördü. Oyandırmağa ürəyi gəlmədi. İnsan cildində idi. Mübarək ayağının altını öpdü. Qəlbi, qanı olmadığı üçün, soyuq dodaqları Rəsulullahı oyandırdı. Cəbrayıl əleyhissalamı dərhal tanıdı və; “Ey Cəbrayıl qardaşım! Belə bivaxt nə üçün gəldin. Yoxsa bir səhv iş gördüm. Rəbbimə qarşı xəta etdim? Yoxsa mənə acı bir xəbər gətirdin?” buyurdu və Rəbbinin ona qəzəblənəcəyindən çox qorxdu.

Cəbrayıl əleyhissalam; “Ey bütün məxluqların ən üstünü! Ey Yaradanın sevgilisi, ey peyğəmbərlərin sahibi, yaxşılıqlar mənbəyi, üstünlüklər qaynağı olan şərəfli və böyük Peyğəmbər! Rəbbin sənə salam deyir və səni öz yanına çağırır. Zəhmət olmasa, dur gedək” dedi.

Sevgili Peyğəmbərimiz dəstamaz aldı. Cəbrayıl əleyhissalam, Rəsulullahın mübarək başına nurdan bir əmmamə qoydu, əyninə nurdan bir paltar geyindirdi, mübarək belinə yaqutdan bir kəmər taxdı. Mübarək əlinə dörd yüz inci ilə bəzədilmiş zümrüddən bir əsa verdi. Hər inci, Zöhrə ulduzu kimi parıldayırdı. Mübarək ayağına yaşıl zümrüddən ayaqqabı geyindirdi. Sonra əl-ələ tutub Kə’bəyə gəldilər. Burada Cəbrayıl əleyhissalam, sevgili Peyğəmbərimizin mübarək sinəsini yardı. Qəlbini çıxartdı. Zəmzəm suyu ilə yudu. Sonra hikmət və iman dolu bir qab gətirib içinə boşaltdı və sinəsini örtü.

Sonra Cəbrayıl əleyhissalam, Cənnətdən gətirdiyi Burak adındakı ağ heyvanı göstərərək; “Ya Rəsulallah! Buna min! Bütün mələklər yolunu gözləyir” dedi. Bu əsnada Cənabi Peyğəmbərimiz kədərləndi və dərin fikrə getdi. O anda Allah Təala, Cəbrayıl əleyhissalama; “Ey Cəbrayıl! Soruş gör ki, Həbibim nə üçün qəmli dayanıb?” Soruşunca, Rəsulullah (səlləllahu əleyhi və səlləm) cavab verdi ki; “Mən bu qədər izzət

və ikram gördüm. Düşündüm ki, qiyamət günü zəif olan ümmətimin halı necə olar görəsən? Əlli min il, Ərəsat meydanında yeriyərək bu qədər günahlarını necə çəkərlər və otuz min illik yol olan siratı necə keçərlər?”

Fərmani ilahi gəldi ki; “Ey Həbibim! Ürəyini sıxma. Sənin ümmətinə əlli min illik vaxtı bir an kimi edərəm. Üzülmə” buyurdu.

Cənabi Peyğəmbərimiz, Buraka mindi. Burak çox sür’ətli gedir, bir addımda gözün gördüyü yerin daha da uzağına çatırdı. Səfər əsnasında Cəbrayıl əleyhissalam sevgili Peyğəmbərimizə bəzi yerlərə düşüb namaz qılmasını söylədi. Aləmlərin sahibi bundan sonra tam üç dəfə düşərək namaz qıldı. Cəbrayıl əleyhissalam da namaz qıldığı yerləri tanıyıb-tanımadığını soruşdu. Cavabını elə özü də verərək; “İlk düşdüyün yerin Mədinə olduğunu və bu şəhərə hicrət edəcəyini xəbər verdi. O biri yerlərin də növbə ilə Həzrəti Musanın Allah Təala ilə vasitəsiz və məlum olmayan bir şəkildə danışdığı Turi Sina olduğunu, ən axırda da İsa əleyhissalamın doğulduğu Beyti Ləhmdə namaz qıldığını xəbər verdi. Sonra Qüdüsdəki Məscidi Əqsaya gəldilər.

Məscidi Əqsada, Cəbrayıl əleyhissalam bir qayanı barmağı ilə deşərək Burakı bağladı. Keçmiş peyğəmbərlərdən bəzisinin ruhları insan şəklində toplaşmışdılar. Camaatla namaz üçün, Adəm, Nuh və İbrahim peyğəmbər (əleyhimussalam) imam olmaları üçün növbə ilə çağırıldı. Üzr istəyərək qəbul etmədilər. Cəbrayıl; “Sən olan yerdə bir başqası imam ola bilməz” deyərək Həbibullahın imam olmasını söyledi.

Cənabi Peyğəmbərimiz, peyğəmbərlərə imamlıq edib, iki rük’ət namaz qıldırdı. Bundan sonra olan hadisəni O özü belə nəql etmişdir ki; “Cəbrayıl (əleyhissalam) mənə bir qab Cənnət şərabı, bir qab da süd gətirdi. Südü götürdüm. Cəbrayıl (əleyhissalam) mənə, fitrəti seçdin (iki cahan səadətini seçdin) dedi. Daha sonra iki qab da verdilər. Birində su, o birində də bal vardı. Hər ikisindən də içdim. Cəbrayıl; “Bal, ümmətinin qiyamətə qədər davam edəcəyinə, su da, ümmətinin günahlarından təmizlənməsinə işarədir” dedi. Sonra birlikdə göyə çıxdılar. Cəbrayıl (əleyhissalam) qapını döydü. “Sən kimsən?” dedilər. “Mən Cəbrayılim”, “Sənin yanındakı kimdir?”, “O da Məhəmməddir (əleyhissalam)”. “Ona (göyə çıxmaq üçün vəhy və Me’rac də’vəti) göndərildi ki?” “Bəli, göndərildi” dedi. “Salam olsun gələn zata! Bu gələn nə qədər də gözəl yolçudur?” dedilər və dərhal qapı açıldı və qabağımda Adəmi (əleyhissalam) gördüm. Mənə “Salam olsun” dedi və dua etdi...

Burda çox mələklər gördüm. Hamısı əmrə müntəzir halda qiyamda (ayaqda duraraq) və "Subbuhun, quddusun rəbbulməlaikəti vər-ruh" deyərək zikr edirdilər. Cəbrayıldan soruşdum ki; "Bu mələklərin ibadəti budur?" "Bəli, bunlar yaradılandan bəri, ta qiyamətə qədər belə qiyamda (ayaqda duraraq) ibadət edərlər. Haqq Təaladan dilə ki, bu ibadəti ümmətinə nəsib etsin" dedi. Haqq Təaladan dilədim. Duamı qəbul etdi. Namazda olan qiyam (ayaqda durmaq) odur.

(Orda) bir camaata rast gəldim. Mələklər onların başlarını əzir, təzədən əvvəlki halına dönür, yenə döyərlər, yenə əvvəlki kimi olurdu. "Bunlar kimdir?" dedim. "Cümə və camaat namazını tərk edənlərdir. Rüku və səcdələri naqis edənlərdir" dedi.

Bir camaat gördüm. Ac və çılpaq idilər. Zəbanilər onları Cəhənnəmdə otltamaq üçün sürürdülər. "Bunlar kimdir?" dedim. "Kasıblara mərhəmət etməyənlər və zəkat verməyənlərdir" dedi.

Bir camaata da rast gəldim ki, qabaqlarına dadlı yeməklər qoymuşdular. Bir yanda da leş sərilib qalıb. O dadlı yeməkləri yeməyib, leşi yeyərdilər. "Bunlar kimdir?" dedim. "Bunlar, halalı tərk edib, harama meyl edən kişi və qadınlardır. Halal malları olduğu halda, haram yeyən şəxslərdir" dedi.

Çiynindəki yükün ağırlığından tərpənə bilməyən bir dəstə adam da gördüm. O halda ikən xalqı çağırıb, çiyinlərinə bir az da yük qoymalarını istəyirdilər. "Bunlar kimdir?" dedim. "Bu şəxslər, əmanətə xəyanət edənlərdir. İnsanlardan müqabilini aldığı halda, yenə də zülm edərlər" dedi.

Öz ətlərini kəsib yeyən bir qrup insan gördük. "Bunlar kimdir?" dedim. Cəbrayıl əleyhissalam; "Bunlar qiybət edənlər və ondan buna, bundan da ona söz gəzdirənlərdir" dedi.

Sifətləri qara, gözləri mavi, üst dodaqları alınlarına çatmış, alt dodaqları da ayaqlarına qədər sallanmış, ağızlarından qan və irin axmaqda olan bir qrup insan gördüm. Onlara, alovdan qədəhlərlə Cəhənnəmdən axan zəhərli qan və irin içirdirlər, onlar uzunqulaq kimi səs çıxardırdılar. "Bunlar kimdir?" dedim. "Bunlar içgi içənlərdir" dedi.

Bir qrup insanlara rast gəldik, dilləri başlarından çıxmış, simaları dəyişdirilib xınzır (donuz) cildinə salınaraq əzab edilirlər. Cəbrayıl əleyhissalam "Bunlar yalandan şahidlik edənlərdir" dedi.

Başqa bir qövmə rast gəldik. Onların qarınları şişmiş və aşağı sallanmış, rəngləri göm-göy olmuş, əl və ayaqları bağlanmışdı. Onlar yerlərindən qalxa bilmirdilər. Cəbrayıla bunları da soruşdum. "Bunlar faiz yeyənlərdir" dedi.[101]

Bəzi qadınlar da gördük. Sifətləri qara, gözləri mavi. Oddan paltar geyindirmişdilər. Mələklər onlara alovdan gürzlərlə vururlar. Onlar köpək və xınzırlar kimi səs çıxardırlar. "Bunlar kimdir?" dedim. Cəbrayıl; "Bunlar zina edən və ərlərini incidən qadınlardır" dedi.

Bir camaat gördüm ki, həddən çox idilər. Cəhənnəm vadilərində həbs edilmişdilər. Alov, onları yandırar, təzədən dirilir, təzədən yanardılar. "Bunlar kimdir?" dedim. "Bunlar atalarının sözündən çıxanlardır" dedi.

Bir camaata da rast gəldim ki, onlar əkin əkər və əkin bir anda göyərib sünbül verərdi. "Bunlar kimdir?" dedim. Cəbrayıl; "Allah Təala üçün ibadət edənlərdir" dedi.

Bir dənizə gəlib çatdım. Bu dənizin qəribə halını dillə demək mümkün deyildir. Süddən ağ olub dağ boyda dalğaları vardı. "Bu dəniz nədir?" dedim. "Bu dənizin adı Həyat Dənizidir. Haqq Təala ölüləri dirildəcəyi zaman, bu dənizdən yağış yağdırır. Çürümüş, torpağa qarışmış bədənlər dirilib, ot bitən kimi qəbrdən qalxarlar" dedi...

Sonra, ikinci göyün ikinci qatına çıxdıq. Cəbrayıl əleyhissalam yenə qapını döydü. Deyildi ki; "Sən kimsən?" "Mən Cəbrayılam"; "Yaxşı, bəs yanındakı kimdir?"; "O da Məhəmməd əleyhissalamdır"; "Ona vəhy və Me'rac də'vəti göndərildi mi?"; "Bəli, gəldi" dedi. "Salam olsun gələn zata. Bu gələn adam nə gözəl yolçudur" deyildi və dərhal qapı açıldı. Qapı açılan kimi, bibi uşaqları İsa ilə Yəhya ibn Zəkəriyyəni (əleyhiməssalam) gördüm. Mənə; "Salam" dedilər və dua etdilər...

Mələklərdən bir qrupa rast gəldim. Sıraya düzülüb, hamısı rükuya getmişdilər. Özlərinə məxsus bir təsbehləri vardı. Dayanmadan rükuya gedər, başlarını qaldırıb yuxarı baxmazlar. Cəbrayıl əleyhissalam; "Bu mələklərin ibadəti belədir. Haqq Təaladan istə ki, ümmətinə belə ibadət nəsib olsun" dedi. Dua etdim, qəbul edib, namazda rükunu ehsan etdi.

Sonra göyün üçüncü qatına çıxdıq. Eyni sual və cavabdan sonra, qapı açıldı və açılan kimi Yusuf əleyhissalamı gördüm. Baxdım ki, ona gözəlliyin yarısı verilmiş. Mənə "Salam" dedi və dua etdi...

---

[101] Süheyli, *ər-Rövzul-Unf*, II, 208.

Orada çox mələklər gördüm. Səf-səf düzülüb, hamısı səcdəyə getmişdilər. Yaradıldıqlarından bəri səcdədə olub, özlərinə məxsus təsbeh ilə təsbeh edirlər. Cəbrayıl əleyhissalam; “Bu mələklərin ibadəti belədir. Allah Təaladan istə ki, bu əməli ümmətinə də nəsib etsin” dedi. Haqq Təaladan dilədim. Qəbul edib namazda sizə nəsib etdi.

Dördüncü qat göyə çatdım. Saf gümüşdən düzəldilmiş, nurdan bir qapısı var. Nurdan bir qıfıl vurmuşlar. Qıfılın üstündə, “La ilahə illallah Məhəmmədən rəsulullah” yazısı vardı. Eyni sual və cavabdan sonra, İdris əleyhissalamı gördüm. Mənə “Salam” dedi və dua etdi. Allah Təala, onun haqqında (məalən); “Biz onu yüksək bir məkana qaldırdıq” buyurmuşdur.[102]

Bir mələk gördüm. Bir kürsü üstündə oturmuş, qəmli və kədərli idi. Ətrafında o qədər çox mələk vardı ki, sayını ancaq Cənabi Haqq bilir. Sağında nurani mələklər gördüm. Yaşıl rəngdə geyinmiş, çox ətirli iyləri vardı. Hər birinin gözəlliyindən üzlərinə baxmaq olmurdu. Sol tərəfində ağızlarından alov püskürdən mələklər vardı. Qabaqlarında alovdan nizələr və qamçılar vardı. Elə gözləri var ki, baxmağa cür’ət tapılmazdı. Taxtı üstündə oturan mələyin, başından ayağına qədər gözləri var. Dayanmadan qabağındakı dəftərə baxar, bir an olsun belə ondan gözünü ayırmazdı. Qabağında bir ağac vardı. Hər yarpağında bir nəfərin adı yazılmışdı. Qabağında ləyən kimi bir şey vardı. Gah sağ əliylə ondan bir şey götürüb sağındakı nurani mələklərə verər, gah da sol əliylə bir şey götürüb solundakı zülm mələklərinə verərdi. (Bu) mələyə diqqətlə baxınca, canıma qorxu düşdü. Cəbrayıla; “Bu mələk kimdir?” dedim. “Əzrayıldır. Bunun üzünü görməyə heç kimin ürəyi gəlməz” dedi. Yanına gəlib; “Ey Əzrayıl! Bu, sonuncu peyğəmbərdir və Allah Təalanın həbibi, sevgilisidir” dedi. Əzrayıl əleyhissalam başını qaldırıb gülümsədi. Qalxıb mənə baş əydi və; “Salam! Haqq Təala səndən daha şərəfli bir nəfər yaratmadı. Ümmətin də, bütün ümmətlərdən üstündür. Mən sənin ümmətinin halına, ata və analarından daha çox yanıram” dedi. “Səndən bir xahişim vardır. Ümmətim zəyifdir. Onlarla mehriban rəftar edib, ruhlarını əziyyət vermədən alarsan” dedim. O; “Səni ən son peyğəmbər olaraq göndərən və özünə həbib edən Allah Təalanın haqqı üçün, Allah Təala hər gecə və gündüzdə yetmiş dəfə;

[102] əl-Məryəm 19/57.

“Ümməti Məhəmmədin ruhlarını əziyyətsiz və ağrısız al” deyə əmr edir. Bunun üçün mən də sənin ümmətinə, ana və atalarından daha artıq şəfqət göstərirəm” dedi.

Sonra göyün beşinci qatına çıxdıq, orada Harun əleyhissalamla qarşılaşdıq. Mənə “Salam” dedi və xeyir-dua etdi.

Beşinci qat göyün mələklərinin ibadətlərini də gördüm. Hamısı ayaqda duraraq, ayaq barmaqlarına baxır, əsla başqa yerə baxmadan, yüksək səslə təsbeh edirdilər. Cəbrayıldan əleyhissalam; “Bu mələklərin ibadəti belədir?” deyə soruşdum. “Bəli, Haqq Təaladan dilə ki, bu ibadəti ümmətinə nəsib etsin” dedi. Dua etdim. Cənabi Haqq ehsan etdi.

Sonra göyün altıncı qatına çıxdıq. Orada Musa əleyhissalam ilə qarşılaşdıq. Mənə “Salam” dedi və xeyir-dua etdi. Sonra yeddinci qat göyə yüksəldik və eyni sual cavabdan sonra İbrahim əleyhissalamı Beyti Mə’mura arxasını çevirmiş gördüm. Bu Beyti Mə’mura, hər gün yetmiş min mələk girər (bir daha heç vaxt növbələri gəlməz). Ibrahim əleyhissalama salam verdim. Salamımı aldı. “Salam olsun sənə saleh peyğəmbər, saleh oğul” dedi. Sonra; “Ey Məhəmməd! Cənnətin yeri çox gözəl və torpağı da təmizdir. Ümmətinə de ki, ora çox ağac əksinlər” dedi. “Cənnətə ağac necə əkilir?” dedim. “La hovlə vəla qüvvətə illa billah”. (Bir rəvayətdə isə; “Sübhanallahi vəlhəmdulillahi və la ilahə illallahu vallahu əkbər”) təsbehini oxuyaraq” dedi. (Cəbrayıl əleyhissalam) sonra məni, Sidrətulmüntəhaya apardı. Sanki onun yarpaqları fil qulaqları, meyvələri də bürclər idi.[103] O Allah Təalanın əmrlərindən hər hansı birisiylə qarşılaşdığında, elə dəyişirdi və gözəlləşirdi ki, Allah Təalanın yaratmış olduğu məxluqatından heç kim onun gözəlliyini vəsf edə bilməz.

Cəbrayıl əleyhissalam, Sidrətulmüntəhanın o tərəfinə qədər məni yola saldı və mənimlə vidalaşdı. Dedim ki; “Ey Cəbrayıl! Məni burada tək qoyursan?” Cəbrayıl əleyhissalam çətin vəziyyətə düşdü. Haqq Təalanın heybətindən titrəməyə başladı və; “Ey Məhəmməd! Əgər bir addım da atsam, Allah Təalanın böyüklüyündən həlak olaram. Bütün bədənim yanar, yox olaram” dedi”.

Aləmlərin sahibi buraya qədər Cəbrayıl əleyhissalam ilə gəlmişdi. Cəbrayıl əleyhissalam, burada özünü, altı yüz qanadını açmış, hər bir qanadında inci və

---

[103] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 164; IV, 208; İbn Əbi Şeybə, *əl-Musannəf*, VII, 427; Darəqutni, *əs-Sünən*, I, 25, 40; Beyhəqi, *əs-Sünən*, I, 265; Qazı İyaz, *Şifayi Şərif*, s. 179; Əhməd Şami, *Sübülül-Huda*, III, 170.

yaqutların şö'lə saçdığı yaradılmış olduğu surətiylə, Rəsulullaha göstərdi. Sonra parlaqlığı günəşdən daha parlaq, Rəfrəf adında yaşıl bir Cənnət arabası gəldi. Dayanmadan Allah Təalanın zikriylə məşğul olur, aləmi təsbeh sədası doldururdu.

Cənabi Peyğəmbərimizə salam verdi. Rəsulullah Rəfrəfin üstündə oturdu. Bir göz qırpımında çox yüksəklərə çıxdılar, hicab deyilən yetmiş min pərdədən keçdilər. Hər hicabın arasında çox məsafə var idi. Hər pərdədə vəzifəli mələklər vardı. Rəfrəf Cənabi Peyğəmbərimizi bir-bir o pərdələrdən keçirtdi. Beləcə; kürsü, ərş və ruh aləmlərini aşdılar.

Həbibi əkrəm və Nəbiyyi möhtərəm (səlləllahu əleyhi və səlləm), hər bir pərdədən keçərkən; "Qorxma ya Məhəmməd! Yaxınlaş, yaxınlaş!" deyə əmr edildiyini eşidirdi. Elə yaxın oldu ki, Qabi qövseyn məqamına çatdı. Bilinməyən, başa düşülməyən, izah edilə bilməyən şəkildə, Allah Təalanın dilədiyi yüksəkliklərə çatdı. Məkansız, zamansız, cəhətsiz və təsvir edilə bilməyən bir şəkildə ru'yət hasil oldu, yəni Allah Təalanı gördü. Gözsüz, qulaqsız, vasitəsiz bir şəkildə Rəbbi ilə danışdı. Heç bir məxluqun bilməyəcəyi, başa düşməyəcəyi ne'mətlərə nail oldu.

İmam Rəbbani Həzrətləri *Məktubat* əsərində belə qeyd edir ki; "O Sərvər əleyhissalatu vəssəlam, Me'rac gecəsində, Rəbbini dünyada görmədi. Axirətdə gördü. Çünki, Rəsul əleyhissalam o gecə, zaman və məkan düşüncəsindən kənara çıxdı. Əzəli və əbədi bir zamana düşdü. Başlanğıcı və sonu, bir nöqtə kimi gördü. Cənnətə gedəcək olan kimsələrin, minlərcə il sonra Cənnətə gedişlərini və Cənnətdə oluşlarını o gecə gördü. Bax, o məqamdakı görmək, dünyadakı görməklə eyni deyildir. Axirət görməyi ilə görməkdir".

Cənabi Peyğəmbərimizə; "Rəbbinə həmd-səna et!" buyurulduğunda, O dərhal; "Əttəhiyyatu lillahi vəssalavatu vəttayyibat" (yəni, bütün dillər ilə olan mədhlər, tə'riflər və həmd-sənalar, bədən ilə olan xidmətlər və itaətlər, mal ilə olan yaxşılıqlar və ehsanlar Allah Təala üçün olsun) dedi. Əvvəlcə Allah Təala, Həbibinə məkansız, zamansız, cəhətsiz və təsvir edilə bilməyən bir şəkildə; "Əssalamu əleykə eyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh. (Ey Rəsulum! Salamım, bərəkətim və rəhmətim sənin üzərinə olsun)" buyuraraq, salam verdi. Cənabi Peyğəmbərimiz; "Əssəlamu əleyna və əla ibadillahissalihin (Ya Rəbbi! Bizə və salih qullarına da salam olsun)" deyə cavab verdi. Bunu eşidən mələklərin hamısı bir ağızdan; "Əşhədu ənla ilahə illallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsuluh (Gözümlə görmüş kimi

bilir və inanıram ki, Allah Təaladan başqa ilah yoxdur. Məhəmməd əleyhissalam Onun qulu və rəsuludur)" dedilər.

Cənabi Peyğəmbərimiz; "Əssalamu əleyna..." deyincə, Alllahu Təala; "Ey Həbibim! Burada ikimizdən başqa heç kim yoxdur. Nə üçün əleyna (bizə) dedin?" buyurdu. Rəsulullah; "Ey Allahım! Hərçənd ki, ümmətimin bədənləri mənimlə deyildir, ancaq ruhları mənimlədir. Fikrim, zikrim onlardan uzaq deyildir. Mənə salam verdin, məni pisliklərdən uzaq tutdun. Axır zaman fitnəsinə düçar olmuş, o kasıb, dərdli ümmətimi, bu böyük ikram və ehsanlardan necə məhrum edim? Belə ne'mətdən onları necə uzaq tutum ?" deyə cavab verdi.

Allah Təala buyurdu ki; "Ey Həbibim! Bu gecə mənim qonağımsan. Məndən nə istəyirsənsə istə" Rəsulullah (səlləllahu əleyhi və səlləm); "Ümmətimi istəyirəm (ya Rəbbi)" dedi.

Rəvayətə görə bu şəkildə Haqq Təala, bu sualı yeddi yüz dəfə təkrar etdi. Rəsulullah da hamısına "Ümmətimi istəyirəm" deyə cavab verdi. Allah Təala; "Hər dəfə ümmətini istəyirsən" buyurunca, O; " Ey Rəbbim! Diləyən mənəm, verən sənsən. Bütün ümmətimi mənə bağışla" deyə istədi. Cənabi Haqq; "Əgər ümmətinin hamısını bu gecə sənə bağışlasam, mənim rəhmətim və sənin izzətin izhar olmaz. Bir hissəsini bu gecə sənə bağışladım. İki hissəsini də daha sonra bağışlayacağam. Qiyamət günü sən istədiyində, mən bağışlayaram. O vaxta qədər ki, mənim rəhmətim və sənin izzətin (şərəfin) müəyyən olsun" buyurdu.

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), bir hədisi şərifində buyurmuşdur ki; "O gecə (Me'rac gecəsi), Allah Təaladan bütün ümmətimin hesabını mənə bağışlamasını istədim. Haqq Təala buyurdu ki; "Ya Məhəmməd! Bundan məqsədin odur ki, heç kim, ümmətinin qəbahətlərindən xəbər tutmasın. Mənim məqsədim odur ki, sən şəfqətli peyğəmbərsən, yadlara olduğu kimi, səndən də qəbahətləri və pis işləri gizli qalsın. Ya Məhəmməd! Sən onların yol göstərənisən. Mən onların Rəbbiyəm. Sən onları təzə gördün. Mən isə əvvəldən əbədə onlara baxdım və hər zaman da baxıram. Ya Məhəmməd! Əgər sənin ümmətinlə danışmağı istəməsəydim, qiyamət günü onları hesaba çəkməzdim. Böyük və kiçik heç bir günahlarını soruşmazdım".

Allah Təala buyurdu ki; "Ya Məhəmməd! Mübarək gözünü aç və ayağının altına bax". Baxdım, bir ovuc torpaq gördüm. Haqq Təala buyurdu ki; "Bütün mövcud

olan şeylər sənin ayağının torpağıdır. Sənin ümmətini bağışlamaq, dostunun huzuruna gətirdiyin bu toprağı bağışlamaqdan daha asandır”.

*Ya Həbibim nədir ol kim dilədin,*
*Bir ovuc torpağa minnət eylədin?*

*Mən sənə aşiq olunca ey şərif.*
*Sənin olmazmı du aləm ey lətif?*

Cənabi Peyğəmbərimiz bir hədisi şərifində buyurdu ki; “Haqq Təalaya bir neçə sual da verdim. Cavabını aldım. Sual verdiyimə peşman oldum. (Bunlardan bəziləri aşağıdakılardır); “Ya Rəbbi! Cəbrayıla altı yüz min qanad verdin. Bəs mənə verdiyin ehsanın nədir?” Haqq Təala buyurdu ki; “Sənin bir tükün mənə Cəbrayılın altı yüz min qanadından sevimlidir. Sənin bir tükünün xətrinə, minlərcə günahkarı qiyamət günü azad edərəm. Ya Məhəmməd! Cəbrayıl qanadını açsa, şərq ilə qərb arasını tutar. Sən şəfaət etsən, şərq ilə qərb arası günahkarlarla dolu olsa, hamısını sənə bağışlayaram”. Dedim ki; “Atam Adəm əleyhissalama mələkləri səcdə etdirdin. Bunun müqabilində, mənə verdiyin ikramın nədir?”. Haqq Təala buyurdu ki; “Mələklərin, Adəmə səcdə etmələri, sənin nurunun, onun alnında olması səbəbiylədir. Ya Məhəmməd! Sənə ondan daha üstün şey verdim. Adını adıma yaxın etdim və Ərşi ə’la üstünə yazdım. O zaman Adəm yaradılmamışdı, adı və bir nişanəsi yox idi. Sənin adını göylərin qapısında, hicablar üstündə, Cənnətlərin qapısında, saraylar və ağaclarda, Cənnətin hər yerində yazdım. Cənnətdə, üzərində “La ilahə illallah Məhəmmədun rəsulullah” yazısı olmayan heç bir şey yoxdu. Bu mərtəbə, Adəmə verilən mərtəbədən daha üstündür”.

*Zatıma mir’at etdim zatını,*
*Belə yazdım adım ilə adını.*

“Ya Rəbbi! Nuh əleyhissalama gəmi verdin. Bəs mənə nə ehsan etdin?” Buyurdu ki; “Sənə Burak verdim ki, bir gecədə yerdən Ərşə çatdırdım. Cənnət və Cəhənnəmi gördün. Ümmətinə də məscidlər verdim ki, qiyamət günü necə ki, gəmilərə

minirlər, elv dv ümmətin o məscidlərə minib, Sirat körpüsünü bir göz qırpımında keçib Cəhənnəmdən xilas olarlar”.

“Ya Rəbbi! İsrail oğullarına qüdrət halvası ilə bildirçinə oxşar quş əti göndərdin”. Haqq Təala buyurdu ki; “Sənə və ümmətinə, dünya və axirət ne’mətini ehsan etdim. İsrail oğullarının üzlərini, insan surətindən ayı, meymun və xınzır (donuz) surətinə çevirdim. Sənin ümmətinin heç birini elə etmədim. Onların əməlləri kimi əməl etsələr belə, bu bəlanı onlara rəva görmədim. Ya Məhəmməd! Sənə bir surə verdim ki, ona oxşar bir surə Tövratda və İncildə yoxdur. O surə Fatihə surəsidir. Hər kim o surəni oxusa, bədəni Cəhənnəmə haram olar. O şəxsin ana və atasının əzabını azaldaram. Ya Məhəmməd! Mən, səndən hörmətli (qiymətli, üstün, şərəfli) heç kim yaratmadım. Sənə və ümmətinə bir gecədə və gündüzdə əlli vaxt namaz fərz etdim.

Ya Məhəmməd! Hər kim mənim birliyimi qəbul edər və mənə şərik qoşmazsa Cənnət onundur. Ümmətindən belə edənlərə Cəhənnəmi haram etdim. Ümmətinə göstərdiyim rəhmətim, qəzəbimi keçmişdir.

Ya Məhəmməd! Mənim nəzdimdə bütün insanlardan daha hörmətlisən, şərəflisən. Qiyamət günü sənə o qədər cox hədiyyə verərəm ki, hamı heyran qalar. Ey Həbibim! Sən Cənnətə girməyincə o, digər peyğəmbərlərə və ümmətlərinə qadağandır. Sənin ümmətin girməyincə, başqa ümmətlər girə bilməz. Ya Məhəmməd! Sənin və ümmətin üçün nələr hazırladığımı görmək istəyirsən?” “İstəyirəm ya Rəbbi!” dedim. İsrafilə əmr edib; “Ey İsrafil! Qulum, əminim və rəsulum Cəbrayıla de ki, Həbibimi Cənnətə aparıb, Həbibim və ümməti üçün Cənnətdə nələr hazırladığımı göstərsin ki, ürəyi rahat olsun” buyurdu”.

Aləmlərin sahibi olan sevgili Peyğəmbərimiz, İsrafil əleyhissalam ilə birlikdə Cəbrayıl əleyhisalamın yanına gəldilər. Allah Təalanın əmrini yerinə yetirmək üçün Cəbrayıl əleyhissalam, Cənabi Peyğəmbərimizi (sallallahu əleyhi və səlləm) Cənnətə apardı. Mələklər, əllərində biri paltar, digəri nur dolu qablarla gözləyirdilər. Cəbrayıl əleyhissalam; “Ya Rəsulullah! Bunlar, Adəm əleyhissalamdan səksən min il əvvəl yaradıldı. Bu vəziyyətdə, qabdakıları sənin və ümmətinin üzərinə saçmaq üçün səbrlə gözləyirlər. Qiyamət günü Həzrətin və ümmətin, Allah Təalanın əmriylə Cənnətin eşiyinə qədəm basınca, bu mələklər qablarındakı cövhərləri üzərinizə saçacaqlar” dedi. Cənnətdə vəzifəli olan Rizvan adındakı mələk, onları qarşıladı. Cənabi Peyğəmbərimizə

müjdələr verdi və; "Haqq Təala, ikisini sənin ümmətinə, birini də digər ümmətlərinə vermək üçün Cənnəti üç hissəyə böldü" dedi və Cənnətin hər tərəfini gəzdirdi.

Həbibi əkrəm Rəsulullah buyurdu ki; "Cənnətin ortasında bir çay gördüm. Ərşin yuxarısından axar. Bir yerdən su, süd, şərab və bal çıxar. Əsla bir birinə qarışmaz. O çayın kənarı zəbərcəddən (qiymətli daş) idi. İçindəki daşlar lə'l-cəvahirat, palçığı ənbər, otları zə'fəran idi. Ətrafına gümüş qablar qoymuşdular ki, sayıları göydəki ulduzlardan da çox idi. Həndəvərində, boyunları dəvə boynu kimi quşlar vardı. Hər kim onların ətindən yeyərsə və o çaydan içərsə, Haqq Təalanın xoşnudluğuna nail olar. Cəbrayıla; "Bu çay nədir?" deyə soruşdum. "Kövsərdir. Haqq Təala onu sənə vermişdir. Səkkiz Cənnətdə olan bostanlara bu Kövsərdən su axar" dedi. O çayın kənarında çadırlar gördüm. Hamısı inci və yaqutdan idi. Cəbrayıla bu çadırların kimə məxsus olduğunu sual verdim. Dedi ki; "Sənin xanımlarının məskənləridir". "O çadırlarda hurilər gördüm. Üzləri günəş kimi parıldayır və hamısı cürbəcür mahnılar oxuyurdular". Deyirdilər ki; "Biz sevincli və gülərüzlüyük. Biz heç vaxt kədərlənmərik. Biz hər şeylə tə'min edilmişik, heç vaxt çılpaq olmarıq. Biz gənclərik, heç yaşlanmarıq. Biz yaxşı xasiyyətliyik, heç hirslənmərik. Biz daim beləyik, heç ölmərik".

Səadət saraylarına və ağaclarına çatıb, onların nəğmə və sədaları hər yeri bürüyər. Elə xoş səsləri vardır ki, o nəğmələr, dünyaya gəlsəydi, ölüm və əziyyət dünyada olmazdı. Cəbrayıl dedi ki; "Bunların üzlərini görmək istəyirsən?". "İstəyirəm" dedim. Bir çadırın qapısını açdı. Baxdım. Elə gözəl üzlər gördüm ki, əgər bütün ömrüm boyunca onların gözəlliyindən danışsam, danışıb qurtara bilmərəm. Üzləri süddən ağ, yanaqları yaqutdan qırmızı və günəşdən parlaq idi. Dəriləri ipəkdən yumuşaq və ay kimi işıqlı, iyləri müşgdən daha ətirliydi. Saçları həddən artıq qara, bəzisi hörülmüş, bəzisi saçını yığmış, bəzisi də, otursa, ətrafında çadır kimi olan, qalxsa, ayağına qədər uzanan şəkildə saçını açmışdı. Hər birinin qabağında bir qulluqçu dayanırdı. Cəbrayıl; "Bunlar, sənin ümmətin üçündir" dedi".

Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) buyurdu ki; "Səkkiz Cənnətin bağ və bostanını və hər cür ne'mətlərini gördüm. Cəhənnəmi və mərtəbələrini də görsəm yaxşı olardı deyə ağlıma gəldi. Cəbrayıl əlimdən tutub, Cəhənnəmin ən böyük mələyi Malikin yanına apardı. "Ey Malik! Həzrəti Məhəmməd, düşmənlərin Cəhənnəmdəki yerlərini görmək istəyir (Ona Cəhənnəmi göstər) dedi. Malik, Cəhənnəmin qatlarını açdı. Yeddi təbəqənin hamısını gördüm. Yeddinci təbəqəyə

Haviyə deyərlər. Onun əzabı, digər təbəqələrdən qat-qat artıq idi. Malikə sual verdim ki; “Bu təbəqədə kimlərə əzab verilir?” Malik; “Firon, Qarun və sənin ümmətinin münafiqlərina əzab verilir” dedi. Altıncı təbəqə Lazydir. Orada, müşriklərə (heç dini olmayanlara) əzab verilir. Beşinci təbəqə Hutamədir. Orada, atəşə, öküzə sitayiş edənlərə, buddistlərə əzab verilir. Dördüncü təbəqə Cəhimdir. Orada, günəşə, ulduzlara sitayiş edənlərə əzab verilir. Üçüncü təbəqə Səqərdir. Orda, xristiyanlara əzab verilir. İkinci təbəqə Sairdir. Orada yəhudilərə əzab verilir. Birinci təbəqə Cəhənnəmdir. Bunun əzabı o biri təbəqələrin əzabından az idi. (Buna baxmayaraq) orda alovdan olan yetmiş min dəniz gördüm. Hər bir dəniz o qədər böyük idi ki, əgər yerləri və göyləri bir dənizə atsalar və bir mələyə də əmr etsələr, min il axtarsa tapmaq mümkün olmazdı. Zəbanilər (Cəhənnəmdə vəzifəli mələklər) elə nəhəng idi ki, əgər onlardan biri, yerləri və göyləri ağzının bir kənarına qoysa, heç hiss edilməzdi. O dənizlər dalğalandıqca, qorxunc səslər gəlirdi. Əgər o səsdən dünyaya az bir səs gəlsəydi, bütün canlılar həlak olardı. “Bu təbə-qə kimlər üçündir?” deyə sual verdim. Malik cavab vermədi. Təzədən sual verdim. Susub cavab vermədi...

Cəbrayıl, Malikə; “Səndən cavab gözləyir” dedi. O da; “Məni üzürlü say” deyə üzr istədi. Mən; “Hər nədirsə cavab ver ki, bu gün hazırlıq görülə bilsin” dedim. Malik; “Ya Rəsulallah! Sənin ümmətinin günahkarları üçündir, onlara nəsihət et ki, bu qorxunc yerdən özlərini qorusunlar. Bədənlərini belə əzaba sürükləyəcək şeylərdən uzaq gəzsinlər. O gün mən günahkarlara mərhəmət etmərəm. Nə ağ saqqallı qocalara, nə də gənclərə şəfqət göstərmərəm” dedi.

Aləmlərin sahibi ağlamağa başladı. Mübarək başından sarığını çıxardıb, şəfaətə və (Allah Təalaya) yalvarmağa başladı. Ümmətinin zəyifliyini və belə əzaba dözə bilməyəcəklərini söylədi. Cəbrayıl əleyhissalam və bütün mələklər də birlikdə ağlaşdılar. Allah Təaladan xitab gəldi ki; “Ey Həbibim! Sənin hörmətin və qiymətin mənim nəzdimdə böyükdür, duan qəbul olunmuşdur. Ürəyin rahat olsun. Səni, muradına erdirdim. Sənə elə bir məqam verərəm ki, çoxlu günahkarları, bəs deyincəyə qədər sənin şəfaətin ilə bağışlayaram. Ey Həbibim! Hər kim, mənim əmrimi yerinə yetirərsə əzab və cəzadan canını qurtarar, rəhmətimə nail olar. Cənnətdə məni görmək şərəfinə nail olar. Sənə və ümmətinə bir gecədə və gündüzdə əlli vaxt namaz fərz etdim”.

Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) sözünə davam edərək; "O məqamdan (sonra) Ərşə çatdım. Səmavatdan keçib, Musa əleyhissalamın olduğu yerə gəldim. Mənə; " Haqq Təala, sənə və ümmətinə nə fərz etdi? Dedi ki, mənə də "Hər gün və gecə üçün əlli vaxt namaz qılınmasını fərz qıldı" dedim. O; "Rəbbinin yanına qayıt, bir az da azaltmasını dilə. Çünki ümmətin bunun altından çıxa bilməz. Mən İsrail oğullarını sınaqdan keçirtdim və yoxladım" dedi. Bundan sonra, Rəbbimin yanına qayıtdım və dedim ki; "Ya Rəbbi! Ümmətimin üstündən (bu yükü) bir az azalt!" Bundan sonra əlli vaxtdan təkcə beş vaxt azaltdı. Musa əleyhissalamın yanına gəldim və (beş vaxt azaltdı) dedim. Dedi ki; "Rəbbinin yanına qayıt! Bir az da azaltmasını istə. Çünki, ümmətin bunun altından qalxa bilməz. Beləcə Musa əleyhissalam ilə Rəbbimin arasında gedib gəldim və nəhayət Allah Təala belə buyurdu; "Bu namazı beş vaxta endirdim. Hər namaz üçün on savab vardır. Bu cəhətdən, nəticə e'tibarıyla yenə əlli namaz olur. Çünki hər kim bir savaba niyyət edərsə, ancaq görməzsə, onun üçün bir savab yazılır. Ancaq işi görərsə, birinə müqabil tam on savab yazılır. Ancaq bir günaha niyyət edib, o günah işi görməzsə, heç bir şey yazılmaz. Günah işi edərsə, təkcə bir günah olaraq qeyd olunar". Sonra Musa əleyhissalamın yanına gəlib olanları ona da dedim. Yenə; "Qayıt, bir az da azaltmasını istə" dedi. Bundan sonra ona; "Rəbbimdən çox şey istədiyim üçün artıq utanıram" dedim" buyurdu.[104]

Allah Təala beləcə sevgili Peyğəmbərimizin çəkdiyi əziyyətlərlə yaralanan mübarək qəlbini, təsəlli etdi. Heç bir məxluquna vermədiyi, heç kimin bilməyəcəyi, başa düşməyəcəyi ne'mətləri Ona ehsan etdi.

Aləmlərin sahibi, sonra bir göz qırpımında Qüdsə və oradan da Məkkəyi mükərrəməyə, Ümmi Haninin evinə gəldi. Yatdığı yer hələ də soyumamış, ləyəndəki dəstamaz suyunun hərəkəti durmamışdı. Eşikdə qalan Ümmi Hani də mürgüləmiş, bir şeydən xəbəri olmamışdı. Cənabi Peyğəmbərimiz, Qüdsdən Məkkəyə gələrkən, Qureyşin karvanına rast gəldi. Karvandakı bir dəvə hürkdü və yıxıldı.

Rəsulullah, səhər olunca, Kə'bənin yanına gedib me'racını hamıya danışdı. Kafirlər; "Məhəmməd ağlını itirib, əməlli başlı yolu azıb" deyə lağa qoydular. Müsəlman olmağa niyyətli olanlar da tərəddüd etdilər. Müşriklərdən bəziləri sevinərək, Əbu Bəkirin evinə gəldilər. Çünki onun ağıllı, təcrübəli, hesabı bilən bir tacir olduğunu

[104] Müslim, "İman", 74; İbn Sə'd, *ət-Təbəqat*, I, 132-133; Təbəri, *Tarix*, II. 307-309; Qazı İyaz, *Şifayi Şərif*, s. 179.

çox yaxşı bilirdilər. Qapıya çıxınca; “Ey Əbu Bəkir! Sən Qüdsə çox gedib gəlmisən. Oraları yaxşı tanıyırsan. Məkkədən Qüdsə gedib gəlmək, nə qədər zaman çəkər?” deyə soruşdular. Həzrəti Əbu Bəkr; “Yaxşı bilirəm. Bir aydan da çox sürər” dedi.

Bu sözə sevinən kafir camaatı; “Ağıllı, təcrübəli adamın sözü belə olar” dedilər. Gülüb, lağ edərək və Həzrəti Əbu Bəkirin də onlar kimi düşünəcəyini ümid edərək; “Sənin dostun, Qüdsə bir gecədə gedib gəldiyini söyləyir, artıq əməlli başlı yolu azıb” dedilər. Həzrəti Əbu Bəkirə sevgi və hörmət edərək ona bel bağladılar.

Həzrəti Əbu Bəkir, Rəsulullahın mübarək adını eşidincə; “Əgər O söylədisə doğrudur. Bir anda gedib gəldiyinə mən də inandım” deyib içəri girdi. Kafirlər çaş-baş qalıb; “Vay səni, Məhəmməd nə yaman sehrbaz imiş. Əbu Bəkiri sehirlədi” deyərək dala qayıtdılar.

Həzrəti Əbu Bəkir, dərhal Rəsulullahın yanına gəldi. Böyük izdihamın arasında, yüksək səslə; “Ey Rəsulallah! Me’racınız mübarək olsun! Bizləri, sənin kimi böyük Peyğəmbərə qulluqçu etməklə şərəfləndirdiyi və mübarək üzünü görməklə, qəlbləri alan, ruhları çəkən şirin sözlərini eşitməklə ne’mətləndirdiyi üçün Allah Təalaya çox şükr edirəm. Ey Rəsulallah! Sənin hər sözün doğrudur. İnandım. Canım sənə fəda olsun!” dedi. Həzrəti Əbu Bəkirin sözləri kafirləri çaşdırdı. Başqa bir şey deyə bilməyib dağılışdılar. Şübhəyə düşən, imanı zəif bir neçə nəfərin də qəlbinə qüvvət verdi. Rəsulullah o gün, Əbu Bəkirə “Siddiq” dedi. Bu adı almaqla, dərəcəsi bir qat da ucaldı.[105]

Bu hala çox əsəbləşən kafirlər, mö’minlərin güclü imanına, Peyğəmbərimizin hər sözünə dərhal inanmalarına, onun ətrafında pərvanə kimi dolanmaqlarına dözə bilmədilər. Rəsulullahı utandırıb, haqsız çıxartmaq üçün, imtahan etməyə başladılar.

“Ey Məhəmməd! Qüdsə getdim, deyirsən. De görək ki, məscidin neçə qapısı, neçə pəncərəsi var?” kimi suallar soruşmağa başladılar. Rəsulullah hamısına bir-bir cavab verdi. Rəsulullah cavab verərkən, Hazrəti Əbu Bəkir; “Elədir ey Rəsulullah” deyərdi. Halbuki, Rəsulullah ədəbindən, həyasından qabağındakının üzünə belə baxmazdı. Buyurdu ki; “Məscidi Əqsada ətrafıma baxmamışdım. Soruşduqları şeyləri görməmişdim. O anda, Cəbrayıl əleyhissalam Məscidi Əqsayı gözümün qabağına gətirdi. Pəncərələrini görüb sayır və suallarına, dərhal cavab verirdim” Rəsulullah,

[105] İbn Sə’d, *ət-Təbəqat*, I, 144.

yolda dəvəli yolçular gördüyünü də söylədi. "İnşaallah çərşənbə günü gələrlər" buyurdu. Çərşənbə günü günəş batarkən, karvan Məkkəyə çatdı. karvandakılara soruşduqlarında onlar, fırtına kimi bir şeyin əsdiyini və bir dəvənin də yıxıldığını söylədilər. Bu hal mö'minlərin imanını qüvvətləndirdi. Kafirlərin düşmənliyi də getdikcə artdı.[106]

Hicrətdən bir il qabaq, Rəcəb ayının 27-sində Cümə gecəsi baş verən bu mö'cüzəyə Me'rac deyilir. Rəsulullah, Me'raca ruh və bədəni ilə oyaq bir halda çıxdı. Me'rac gecəsində Ona neçə-neçə ilahi həqiqətlər göstərildi və beş vaxt namaz bu gecədə fərz qılındı. Ayrıca, Bəqərə surəsinin axırıncı iki ayəsi ehsan edildi. Me'rac, Qur'ani Kərimdə, İsra və Nəcm surəsi ilə bəzi hədisi şəriflərdə də nəql edilməkdədir.[107]

Sevgili Peyğəmbərimiz Me'racdan sonra Əshabına Cənnəti təsvir edərkən buyurdu ki; "Ey Əba Bəkir! Sənin sarayını gördüm. Saf qızıldan idi. Sənin üçün hazırlanan ne'mətləri seyr etdim". Həzrəti Əbu Bəkir də; "O saray və sarayın sahibi sənə fəda olsun ya Rəsulullah" dedi. Rəsulullah, Həzrəti Ömərə üzünü çevirərək; "Ey Ömər! Sənin sarayını da gördüm. Yaqutdan idi. O sarayda çox hurilər var idi. Ancaq içəri girmədim. Sənin qısqanclığın ağlıma gəldi" buyurdu. Həzrəti Ömər, çox ağladı. Göz yaşları arasında; "Anam, atam, canım sənə fəda olsun ey Rəsulullah! Sənə də qısqanmaq olar?" dedi. Daha sonra Həzrəti Osmana buyurdu ki; "Ey Osman! Səni hər göyün hər qatında gördüm. Cənnətdə sarayını görüb səni düşündüm". Həzrəti Əliyə də buyurdu ki; "Ey Əli! Sənin surətini dördüncü səmada gördüm. Cəbrayıla sual verdim. Dedi ki "Ey Rəsulullah! Mələklər Həzrəti Əliyə aşiq oldular. Haqq Təala, onun surətində bir mələk yaratdı. Dördüncü göydə dayanar, mələklər onu ziyarət edər, bərəkətlənirlər". Sonra sənin sarayına girdim. Bir ağacdan bir meyvə iylədim. Ondan bir huri çıxdı, üzünə pərdə çəkdi". "Sən kimsən və kiminsən?" deyə soruşdum. "Əmin oğlu Əli üçün yaradıldım ey Rəsulallah!" dedi".

Me'rac gecəsinin səhərində Cəbrayıl əleyhissalam gələrək Rəsulullaha beş vaxt namazı, münasib vaxtlarında imamlıq edərək qıldırdı. Hədisi şərifdə buyrulmuşdur ki; "Cəbrayıl əleyhissalam Kə'bə qapısı yanında iki gün mənə imamlıq etdi. İkimiz, dan ağararkən sübh namazını, günəş təpədən aralanarkən günortanı, hər şeyin kölgəsi öz

---

[106] İbn Sə'd, *ət-Təbəqat*, I, 215.

[107] Buxari, "Mənaqibul-Ənsar", 42; Tirmizi, "Təfsirul-Qur'an", 20; İbn Hişam, *əs-Sirə*, I, 403; Beyhəqi, *əs-Sünən*, I, 255; Süheyli, *ər-Rövzul-Unf*, II, 208.

boyu qədər olunca əsr namazını, günəş batarkən (üst kənarı da gözdən itincə) axşamı və üfüq qaralınca xiftən namazını qıldıq. İkinci günü də, sübh namazını hava işıqlanınca, günortanı hər şeyin kölgəsi öz boyunun iki qatı olunca, əsr namazını bundan dərhal sonra, axşamı da iftar edildiyi zaman, xiftəni isə gecənin üçdə biri gəlincə qıldıq. Sonra; "Ey Məhəmməd! Sənin və keçmiş peyğəmbərlərin namaz vaxtları budur. Ümmətin, beş vaxt namazın hər birini, bu qıldığımız iki vaxtın arasında qılsınlar" dedi".[108]

Namaz vaxtları beləcə bildirildikdən sonra, Həbəşistana da xəbər göndərilərək beş vaxt namazı qılmaları və fərz olduğundan e'tibarən qılmağa başladıqları vaxta qədər olan namazlarını qəza etmələri bildirildi.

*Ey camalı nuri çeşmi Övliya*
*Əlmədəd ey madəni nuri Xuda*
*Xaki payi tutiyanı əsfiya*
*Əlmədəd ey madəni nuri Xuda.*

*Kimsə sənsiz tapa bilməz Haqqa vüsul*
*Feyzi lütfünlə olar mərdi qəbul*
*"Rəhmətən lil aləmin"sin ya rəsul*
*Əlmədəd ey madəni nuri Xuda*

*Eylədim bihəd cürmi ilə cərim*
*Oldum əşxası həva ilə nədim*
*Eylə üsyanım şəfaat ya Kərim*
*Əlmədəd ey madəni nuri Xuda*

*Ey kərəmkanı Rəsuli Kibriya*
*Kəmtərindir bu Səlimi purxəta*
*Dərgahından iltica eylər ata*
*Əlmədəd ey madəni nuri Xuda*

*YAVUZ SOLTAN SƏLİM (SƏLİMİ)*

[108] İbn Əbi Şeybə, *əl-Musannəf*, VIII, 443-444; Hakim, *əl-Müstədrək*, IV, 648-649; Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 266; İbn Hişam, *əs-Sirə*, I, 403-404; İbn Sə'd, *ət-Təbəqat*, I, 213-215; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 28.

# HİCRƏT

Sevgili Peyğəmbərimiz hər il, Kə'bəni ziyarətə gələn qəbilələri dinə də'vət edir, onların Cəhənnəm odundan xilas olub əbədi səadətə qovuşması üçün əlləşir və hər cür təhqirə fikir vermədən, peyğəmbərlik vəzifəsini yerinə yetirməyə davam edirdi. Qəbilələrin düşərgə saldıqları yerlərdə dayanar, gələnlərə; "Allah Təalanın, peyğəmbərlik vəzifəsini yerinə yetirincəyə qədər məni öz yanında kim saxlayar və mənə kömək edər? (Beləcə) ona Cənnət verilər" buyurar, ancaq nə Onu qorumaq istəyən, nə də kömək edən bir nəfər tapılmırdı.

Peyğəmbərliyinin on birinci ili idi. Bazarda, Kə'bəni ziyarət üçün gələn Mədinə xalqından bir camaatla qarşılaşdı. Onlara; "Sizlər kmsiniz?" deyə soruşunca, Mədinəli və Xəzrəc qəbiləsindən olduqlarını söylədilər. Peyğəmbərimizin babası Əbdülmüttəlibin anası Səlma Xatun da, Xəzrəc qəbiləsinin Nəcran oğulları qoluna mənsub idi. Peyğəmbərimiz, Xəzrəcli bu altı nəfər ilə bir müddət oturub, onlara İbrahim surəsinin 35-ci ayəsini oxudu və İslamiyyəti izah etdi. Bu dinə girmələri üçün də'vət etdi. Qəbiləsinin böyüklərindən və Mədinədə yaşayan yəhudilərdən, yaxında bir peyğəmbərin gələcəğini eşidən bu insanlar, Rəsuli əkrəm səlləllahu əleyhi və səlləm onları bu dini qəbul etməyə çağırınca, bir birlərinə baxışdılar. Sonra; "Yəhudilərin xəbər verdiyi, Peyğəmbər bax budur!" deyə aralarında danışdılar.

Mədinədə qədimdən bu yana Evs və Xəzrəc qəbilələri, yəhudilərə düşmən idilər, fürsət tapan kimi bir birilərinə hücum edirdilər. Yəhudilərdən əvvəl müsəlman olub, İslamiyyətlə şərəflənsələr, onlara qalib gələcəklərinə və Mədinədən çıxardacaqlarına inanırdılar. Bu səbəblə dərhal Rəsulullahın hüzurunda kəlimeyi şəhadət gətirərək müsəlman oldular. Cənabi Peyğəmbərimizə də; "Ey Rəsulallah! Biz, qövmümüzdən ayrıldığımızda, onlar yəhudilərə döyüşürdülər. Ümidvarıq ki, Allah Təala, Onları da zatı aliniz sayəsində iman etməklə şərəfləndirər. Biz, dönən kimi onları və qövmümüzü sənin peyğəmbərliyini qəbul etməyə də'vət edəcəyik. Bu dindən qəbul etdiyimiz şeyləri onlara da izah edəcəyik. Əgər Allah Təala onları bu din ətrafında toplayıb birləşdirərsə, səndən daha əziz və şərəfli bir nəfər ola bilməz" dedilər.

Bu altı nəfər həqiqətən inanmış, Allah Təalanın Peyğəmbərimizlə göndərdiklərini qəbul və təsdiq etmişdilər. El-obalarına qayıtmaq üçün, Peyğəmbərimizdən icazə alıb ayrıldılar. Yeni müsəlman olan bu altı nəfər; Ukbə ibn

Amir, Əs'ad ibn Zürarə, Əvf ibn Haris, Rafi ibn Malik, Qutbə ibn Amir, Cabir ibn Abdullah (Allah onlardan razı olsun) idilər.[109]

## Birinci Əqəbə bey'əti və Mədinədə parıldayan günəş

Müsəlman olan altı nəfər Mədinəyə, qövmlərinin yanına qayıtdıqdan sonra, dərhal İslamiyyətdən və Peyğəmbərimizdən bəhs etməyə, xalqı, İslam dininə girmələri üçün də'vətə başladılar. Onlar o qədər təbliğat yaydılar ki, Mədinədə, içində Peyğəmbərimizin və İslamiyyətin danışılmadığı bir ev qalmadı. Beləcə İslamiyyət, həm Xəzrəc qəbiləsi arasında yayıldığı, həm də Evs qəbiləsindən bəziləri də müsəlman oldular.

Əqəbədəki bu görüşmədən sonra, sonrakı il Əs'ad ibn Zürarə və İslamiyyəti qəbul edən on iki dostu, həcc mövsümündə Məkkəyə gəldilər. O il, müşriklər, müsəlmanlara hər ilkindən daha çox əziyyət və cəfa edirdilər. Rəsulullahı dayanmadan tə'qib edir, Onunla danışan hamıya işgəncə verirdilər. Bundan xəbər tutan Mədinəlilər, Peyğəmbərimizlə gecə vaxtı Əqəbədə görüşmək üçün sözü bir yerə qoydular. Gecə olunca bir yerdə görüşdülər. Sadiq qalacaqlarını söyləyib, bütün əmr və istəklərinə boyun əyəcəklərinə söz verərək, bey'ət etdilər. Bu sözləşmədə; "Allah Təalaya şərik qoşmayacaqlarına, zina və oğurluq etməyəcəklərinə, iftiradan uzaq duracaqlarına, ələ salmaq və ruzi əldə edə bilməmək qorxusuyla uşaqlarını öldürməyəcəklərinə" dair öhdəlik götürdülər.[110] İkisi Evs qəbiləsinə, digərləri də Xəzrəc qəbiləsinə mənsub olan bu 12 nəfərin başçısı Əs'ad ibn Zürarə idi.

Sevgili Peyğəmbərimiz, bu on iki nəfəri qəbilələrinə təmsilçi seçdi. Bunlar, qəbilələrinə İslamiyyəti başa salıb, onların adından Rəsulullaha kəfil olacaqdılar. Əs'ad ibn Zürarə də, hamısının adına təmsilçi tə'yin edilmişdi. İlk Əqəbə bey'ətində iştirak edənlər; Malik ibn Nəccar oğullarından Əs'ad ibn Zürarə, Əvf ibn Haris, Muaz ibn Haris, Züreyk ibn Amir oğullarından Rafi ibn Malik, Zəkvan ibn Əbdiqeys, Qanim ibn Əvf oğullarından Ubabə ibn Samit, Qusayna oğullarından Yezid ibn Sə'ləbə, Əclan ibn Zeyd oğullarından Abbas ibn Ubadə, Haram ibn Kə'b oğullarından Ukbə ibn Amir,

---

[109] İbn Hişam, *əs-Sirə*, I, 429-431; İbn Sə'd, *ət-Təbəqat*, I, 219-220; Təbəri, *Tarix*, II, 88; İbn Əsakir, *Tarixu Dəməşq*, IX, 82; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 38;
[110] İbn Sə'd, *ət-Təbəqat*, I, 220; Təbəri, *Tarix*, II. 356; Bəlazuri, *Ənsab*, I, 252-253.

Səvad ibn Qanim oğullarından Qutbə ibn Amir, Əbdüləşhəl ibn Cuşəm oğullarından Əbülheysəm Malik ibn Teyyixan və Əmr ibn Əvf oğullarından Uveym ibn Səidə idi.

Bu razılıqdan sonra, Mədinəyə qayıdan Həzrəti Əs'ad və dostları, qəbilələrinə gecə gündüz İslamiyyəti yayaraq haqq dinə də'vət etdilər. Bu də'vət nəticəsində, İslamiyyət, Mədinədə sür'ətlə yayılmağa başladı. Belə ki, daha əvvəl bir birinə düşmən olan Evs və Xəzrəc qəbilələri bir olmuş, İslamiyyəti daha yaxşı öyrənə bilmək üçün Rəsulullahdan bir müəllim də istəmişdilər. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) də, Qur'ani Kərimi və İslamiyyəti öyrətmək üçün, Məkkədəki Əshabından Həzrəti Mus'ab ibn Umeyri müəllim olaraq Mədinəyə göndərdi.

Həzrəti Mus'ab, Həzrəti Əs'adın evində qaldı. Onunla birlikdə ev-ev gəzərək hamıya İslamiyyəti çatdırdılar. Rəsulullahın sevgisini və Onu, bütün düşmənlərindən qorumaq üçün can-başla çalışacaqlarına söz vermələrini istədilər. Onları, Rəsulullaha edəcəkləri bey'ətə hazırladılar.

Əs'ad ibn Zürarə Həzrətlərinin mənsub olduğu qəbilənin başçısı da Sə'd ibn Muaz olub, onunla qohum idilər. O zaman Ərəblər arasında qohumları alçaltmağın pis adət olması səbəbiylə, hələ iman etməyən Sə'd ibn Muaz, Əs'ad ibn Zürarə Həzrətlərinin evinə gedib bu işə əngəl olmağa çalışmadı. Özü bir qəbilə başçısı kimi bu işə baş qoşmaq istəmirdi. Bu məqsədlə qəbiləsinin başda gələnlərindən Üseyd ibn Xudayra; "Məhəlləmizə get, gələn bu adamı gör, ona qulaq burması ver. Əs'ad mənim xalamın oğlu olmasaydı, bunu sənin öhdənə buraxmazdım" dedi.

Bundan sonra Üseyd ibn Xudayr, nizəsini götürüb, Həzrəti Mus'ab ibn Umeyrin qaldığı evə getdi. Ora çatınca hədə-qorxu gələrək danışmağa başladı. "Bizə nə üçün gəldin? İnsanları aldadırsan! Canından bezməmisənsə, burdan dərhal get" dedi. Onun bu əsəbi halını görən Mus'ab ibn Umeyr; "Hələ bir az otur, sözümüzə qulaq as! Məqsədimizi başa düş, bəyənsən qəbul edərsən. Yoxsa mane olarsan..." deyərək, çox yumuşaq və xoş cavab verdi. Üseyd sakitləşib; "Doğru deyirsən" dedi və nizəsini yerə batıraraq oturdu.

Həzrəti Mus'abın şirin söhbəti ilə insanın qəlbinə tə'sir edən sözlərinə və xoş səsiylə oxuduğu Qur'ani Kərim ayələrinə qulaq asdı. Məst olub; "Bu nə gözəl şeydir belə!" deyə öz-özünə dedi. Sonra; "Bu dinə girmək üçün nə etmək lazımdır?" dedi. Başa saldılar və Üseyd ibn Xudayr kəlimeyi şəhadət gətirərək müsəlman oldu. Sevincindən quş kimi uçan Həzrəti Üseyd; "Mən gedib sizə birini göndərim. Əgər o

müsəlman olarsa, Mədinədə onun qövmündən iman etməyən heç kim qalmaz...” deyərək sür’ətlə yerindən qalxıb getdi. Birbaşa Sə’d ibn Muazın yanına getdi. Sə’d ibn Muaz onu görüncə; “And içirəm ki, Üseyd burdan getdiyi kimi qayıtmır” dedi.

Sonra da; “Nə etdin ey Üseyd?” deyə soruşdu. Həzrəti Üseyd ibn Xudayr, Sə’d ibn Muazın müsəlman olmasını çox arzu etdiyindən; “O adamla (Mus’ab ibn Ümeyr ilə) danışdım, onların bir pis fikirdə olduğunu görmədim. Ancaq, eşitdik ki, Bəni Harisə oğulları, xalan oğlu Əs’adın belə bir adamı evində daldalandırmasından şübhələnərək, onu öldürmək üçün hazırlıq görürlər” dedi.

Bu sözlər, Sə’d ibn Muaza tə’sir etdi. Çünki bir neçə il əvvəl baş verən bir döyüşdə, Bəni Harisə oğullarına qalib gəlib, Xeybərə sığınmağa məcbur etmişdilər. Bir il sonra da bağışlayıb, ölkələrinə qayıtmalarına icazə vermişdilər. Buna baxmayaraq onların belə bir fikrə düşmələri, Sə’d ibn Muazı çox əsəbləşdirmişdi. Halbuki, əslində belə bir şey yox idi. Üseyd ibn Xudayr, bir hiylə quraraq, Sə’d ibn Muazın xalasına və oğlu Əs’ad ibn Zürarəyə, beləcə də Mus’ab ibn Umeyrə zərər verilməsinin qarşısını almaq istəmişdi. Beləcə, onların tərəfinə keçməsinə və nəhayət müsəlman olmasına şərait yaratdı.

Sə’d ibn Muaz, Üseyd ibn Xudayrın bu sözlərindən sonra yerindən sıçrayıb, Həzrəti Əs’ad ibn Zürarənin yanına getdi. Oraya çatanda, Əs’ad ilə Mus’ab ibn Ümeyrin çox sakit və səssiz bir şəkildə oturub, söhbət etdiklərini gördü. Yanlarına yaxınlaşıb; “Ey Əs’ad! Aramızda qohumluq olmasaydı, sən bunları edə bilməzdin...”dedi.

Bu sözlərə Həzrəti Mus’ab ibn Umeyr cavab verərək; “Ey Sə’d! Bir az səbr et, otur və bizə qulaq as, sözlərimiz xoşuna getsə nə gözəl, yox bəyənməsən, bunu sənə təklif etmərik. Sən də qalxıb gedərsən!” dedi. Sə’d ibn Muaz, bu mülayim və şirin sözləin qabağında sakitləşib, bir kənarda oturdu və onlara qulaq asmağa başladı.

Mus’ab ibn Umeyr Həzrətləri, Sə’d ibn Muaza, əvvəlcə İslamiyyəti izah etdi. İslamiyyətin əsaslarını başa saldı. Sonra şirin və gözəl səsiylə Qur’ani Kərimdən bir miqdar oxudu. Oxuduqca, Sə’d ibn Muazın halı dəyişir, məst olurdu. Qur’ani Kərimin tayı-bərabəri olmayan bəlağatı qarşısında qəlbi yumuşaldı və çox tə’sirləndi. Özünü saxlaya bilməyib; “Bu dinə girmək üçün nə etmək lazımdır?” dedi.

Mus’ab ibn Umeyr, dərhal kəlimeyi şəhadəti öyrətdi. O da; “Əşhədu ən la ilahə illallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsuluh” deyərək müsəlman oldu. Sə’d

ibn Muaz müsəlman olmaqdan aldığı hüzur və sevincdən yerində dayana bilmirdi. Dərhal evinə gedib, öyrəndiyi şəkildə qüsl aldı. Sonra qövmünü çağırdı. Üseyd ibn Xudayrı da yanında götürüb, camaatın toplandığı yerə getdi. Əbduləşhəl oğullarına xitab edərək; "Ey Əbduləşhəl oğulları! Siz məni necə tanıyırsınız?" dedi. Onlar da hamısı bir ağızdan; "Sən bizim başçımız və böyüyümüzsən, biz sənə tabeyik!" deyə cavab verdilər. Sə'd ibn Muaz, onların bu sözlərindən sonra; "O halda hamınıza xəbər verərəm. Mən müsəlman olmaqla şərəfləndim. Sizin də Allah Təalaya və Onun Rəsulunə iman etməyinizi istəyirəm. Əgər iman etməsəniz, sizin heç birinizlə danışıb görüşməyəcəyəm!" dedi.

Əbduləşhəl oğulları, başçıları Sə'd ibn Muazın müsəlman olduğunu və onları da İslama də'vət etdiyini eşidən kimi, hamsı birdən müsəlman oldular. O gün axşama qədər Mədinə səmalarını kəlimeyi şəhadət və təkbir sadaları bürüdü.[111]

Bu hadisədən qısa bir müddət sonra, bütün Mədinə xalqı, Evs və Xəzrəc qəbilələri İslamiyyəti qəbul etdilər. Hər ev İslam nuruyla işıqlandı. Sə'd ibn Muaz və Üseyd ibn Xudayr, qəbilələrinə aid bütün bütləri qırdılar. Bu vəziyyət sevgili Peyğəmbərimizə (səlləllahu əleyhi və səlləm) xəbər verilincə, çox şad oldu. Məkkəli müsəlmanlar sevinirdilər. Bu səbəblə o ilə (miladi 621-ci il) "sənətus-surur" (sevinc ili) deyildi.

## İkinci Əqəbə bey'əti

Rəsulullaha, 13 il idi ki, peyğəmbərlik vəzifəsi verilmişdi. Məkkəli müşriklərin, müsəlmanlara etdikləri zülüm son həddinə çatmış və dözülməz bir hal almışdı. Mədinədə isə, Əs'ad ibn Zürarə ilə Mus'ab ibn Umeyrin cəhdləri sayəsində, Evs və Xəzrəclilər; müsəlmanlara qucaq açacaq, onları bağrına basıb uğrunda hər şeyi qurban verəcək bir şəkildə eşq və həyəcanın içindəydilər. Rəsulullahın da mümkün qədər tez Mədinəyə təşrif etməsini arzu edir, Onun uğrunda, mallarını və canlarını əsirgəməyəcəklərinə dair söz verirdilər.

Həcc mövsümü gəlmişdi. Mus'ab ibn Umeyr ilə birlikdə, Mədinəli 73 kişi və 2 qadın müsəlman Məkkəyə gəldilər. Həcdən sonra, hamısı yenə Əqəbədə

[111] İbn Hişam, *əs-Sirə*, I, 435; Təbəri, *Tarix*, II, 88; Süheyli, *ər-Rövzul-Unf*, II, 258; İbn Kəsir, *əs-Sirə*, II, 182.

Peyğəmbərimiz ilə görüşdülər. Əs’ad ibn Zürarə və 12 təmsilçi, qəbilələrinin adından Peyğəmbərimizin Mədinəyə hicrət etməsini xahiş və təklif etdilər. Rəsulullah onlara Qur’ani Kərimdən bəzi ayələri oxuduqdan sonra, öz canlarını, ailə və uşaqlarını necə qoruyup göz-qulaq olurlarsa, Onu da elə qoruyacaqlarını tə’min etmək üçün onlardan konkret söz istədi.

Hələ ki, müsəlman olmayan Rəsulullahın əmisi Həzrəti Abbas da oradaydı. Bey’ət üçün gələn bu camaata belə xitab etdi; “Ey Mədinəlilər! Bu, qardaşımın oğludur. İnsanlar içində ən çox sevdiyim də Odur. Əgər, Onu təsdiq edib, Allahdan gətirdiklərinə də inanır və özünüzlə aparmaq istəyirsinizsə, məni razı salacaq münasib bir söz verməyiniz lazımdır. Məlumunuz olduğu kimi, Məhəmməd əleyhissalam bizdəndir. Biz, Onu, Ona inanmayan şəxslərdən qoruduq. O, bizim aramızda izzət və şərəfiylə qorunmuş olaraq yaşamaqdadır. O, bütün bunlara baxmayaraq, hamıdan üz döndərmiş, sizə qoşulub, sizinlə birlikdə getməyə qərar vermişdir. Əgər, bütün Ərəb qəbilələri birləşib sizə hücum etdiklərində, onlara qarşı sinə gərə biləcək qədər döyüşmə qabiliyyətiniz varsa bu işə girişin. Bu barədə, öz aranızda yaxşı-yaxşı görüşüb müzakirə edin, sonradan ayrılığa düşməyin. Verdiyiniz sözü tutub, Onu düşmənlərindən qoruya biləcəksiniz? Bunu layiqiylə edə bilsəniz nə yaxşı. Yox əgər, Məkkədən çıxdıqdan sonra Onu tək-tənha qoyacaqsınızsa, indidən bu işdən əl çəkin ki, öz el-obasında şərəfiylə qorunmuş olaraq yaşasın”.

Həzrəti Abbasın bu sözlərinə Mədinəli müsəlmanlar üzüldülər. Sanki, Rəsulullah (səlləllahu əleyhi və səlləm) öz ölkələrinə apardıqlarında, Onu müşriklərdən qoruya bilməyəcək, çətinliyə düşüncə tərk edəcəklərmiş kimi bir sözlə qarşılaşmışdılar. Mədinəli səhabilərdən Əs’ad ibn Zürarə Həzrətləri, Cənabi Peyğəmbərimizə üzünü tutaraq; “Ey Rəsulallah! İcazə versəniz bir neçə söz deyərdim” dedi. Fəxri kainat Rəsulullah icazə verincə, Həzrəti Əs’ad; “Anam-atam sənə fəda olsun ey Rəsulallah! Hər də’vətin yumuşaq veya sərt bir yolu, üsulu vardır. İndi siz, bizi elə bir şeyə də’vət edirsiniz ki, onu insanların qəbul etməsi çox çətindir. Çünki insanların, qədim zamanlardan e’tibarən sitayiş etdikləri bütləri tərk edib, İslamı qəbul etməsi çox çətindir. Buna baxmayaraq biz, İslamı bütün qəlbimizlə qəbul etdik. Bir də müşrik olan qohum-əqrabamızla da əlaqəni kəsməyimizi əmr etdiniz, ixlas ilə onu da qəbul etdik. Bilirsiniz ki bunu da qəbul etmək çox çətindir. Əmilərinin belə düşməncəsinə davranıb, sizi qorumadıqlarına baxmayaraq, sizə qucaq açıb, bu şərəfli vəzifəni öhdəmizə

götürdük. Hamımız bu sözlərimiz barəsində eyni fikirdəyik. Dilimizlə söylədiyimizi qəlbimizlə təsdiq edirik. Öz ailə və uşaqlarımızı necə qoruyursaq, mübarək bədəninizi də, qanımızın son damcısına qədər, qoruyacağımıza and içirik. Əgər bu əhdimizi pozsaq, Allah Təalaya verdiyimiz sözü tutmasaq, bədbəxtlər zümrəsinə daxil olarıq. Ey Rəsulallah! Biz bu sözümüzün üstündə durarıq. Allah Təala bizə uğur versin" dedi. Sonra da; "Ey Rəsulallah! Bizdən istədiyiniz təminatı alıb, şərt qoşa bilərsiniz" deyə davam etdi. Cənabi Peyğəmbərimiz onları İslamiyyətə təşviq etdi. Qur'ani Kərim oxudu. Sonra buyurdu ki; "Sizdən Rəbbim üçün olan şərtim, Allah Təalaya ibadət etməyiniz və heç bir şeyi Ona şərik qoşmamağınız, mənim və Əshabım üçün olan şərtim, bizi daldalandırmağınız, mənə və Əshabıma kömək etməyiniz, özünüzü müdafiə etdiyiniz, qoruduğunuz şeylərdən bizləri də qorumağınızdır".

Bəra ibn Mərur; "Səni haqq din və kitab ilə peyğəmbər olaraq göndərən Allahu Təalaya and olsun ki, ailə və uşaqlarımızı müdafiə etdiyimiz, qoruduğumuz kimi səni də qoruyacağıq! Bizim bey'ətimizi qəbul et ey Rəsulallah" dedi.

Mədinəli müsəlmanlardan Abbas ibn Ubadə, Cənabi Peyğəmbərimizlə görüşülən razılaşmanı daha da gücləndirmək üçün, dostlarına; "Ey Xəzrəclilər! Məhəmməd əleyhissalamı nə üçün qəbul etdiyinizi bilirsiniz?" dedi. Onlar da; "Bəli" cavabını verdilər. Bundan sonra; "Siz Onu, həm sülh, həm də müharibə zamanları üçün qəbul edib, Ona tabe olursunuz. Əgər, mallarınıza bir zərər gəlincə, qohum və yaxınlarınız həlak olunca, Peyğəmbərimizi tək-tənha və köməksiz qoyacaqsınızsa, bunu indidən deyin. Vallahi, əgər belə bir şey etsəniz dünyada və axirətdə həlak olarsınız! Əgər də'vət etdiyi şeydə, mallarınızın yox olmasına və yaxın qohumlarınızın öldürülməsinə baxmayaraq, Ona sədaqətli olacağınıza inanırsınızsa, bu sözü tutun. Vallahi bu, dünyanız və axirətiniz üçün daha xeyirlidir" deyincə, dostları; "Biz Peyğəmbərimizdən, mallarımıza ziyan olsa da, yaxınlarımız öldürülsə də əlimizi üzmərik. Ondan heç bir zaman ayrılmarıq. Ölüm olsa da bundan geri dönmərik!" dedilər.

Sonra Cənabi Peyğəmbərimizə üzünü tutaraq; "Ey Rəsulallah! Biz bu əhdimizi yerinə yetirsək, bizim xeyrimiz nə olacaqdır?" deyə soruşdular. Sevgili Peyğəmbərimiz o zaman; "Allah Təalanın razı olması və Cənnət vardır!" buyurdu.

Bunlardan hər biri öz qövmünün təmsilciləri, vəkilləri olaraq söz verdilər. Əvvəlcə Həzrəti Əs'ad ibn Zürarə; "Mən Allah Təalaya və Onun Rəsuluna verdiyim

sözü yerinə yetirmək, canımla və malımla Ona kömək etmək üçün verdiyim sözü tutaraq bey'ət edirəm" deyərək musafaha etdi (əlini tutdu). Ondan sonra isə, hər biri bu şəkildə bey'ət edib; "Allah Təalanın və Rəsulunun də'vətini qəbul etdik, eşitdik və boyun əydik" deyərək öz razılıqlarını və təslimiyyətlərini göstərdilər. Beləcə, Rəsulullahın uğrunda canlarını və mallarını çəkinmədən ortaya qoydular. Qadınlar ilə təkcə sözlə bey'ət etdilər.

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm); "Allah Təalaya heç bir şeyi şərik qoşmamaq, oğruluq, iftira və zina etməmək, uşaqlarını öldürməmək, yalan danışmamaq, xeyirli işlərə mane olmamaq" mövzusunda onlardan söz aldı...

Mədinəlilərin, Cənabi Peyğəmbərimizə bey'ət etdiyi əsnada, Əqəbə təpəsindən bir səs; "Ey Minada düşərgə salanlar! Peyğəmbər ilə Mədinəli müsəlmanlar sizlərlə döyüşmək üçün razılaşdılar" deyə qışqırdı. Peyğəmbərimiz, bu səs üçün; "Bu, Əqəbənin şeytanıdır" dediktən sonra, qışqıran adama da; "Ey Allah Təalanın düşməni! Sənin də öhdəndən gələrəm" buyurdu. Bey'ət edən Mədinəlilərə də; "Siz dərhal düşərgə saldığınız yerlərinizə qayıdın" buyurdu. Abbas ibn Ubadə; "Ey Rəsulallah! And içirəm ki, əgər istəsən, səhər tezdən, Minada olan kafirlərin üzərinə hücum edər, onların hamısını qılıncdan keçirdərik" dedi. Cənabi Peyğəmbərimiz xeyli şad oldu, ancaq; "Bizə, hələ ki, bu şəkildə hərəkət etməyimiz əmr olunmadı. Hələlik yaşadığınız yerə qayıdın" buyurdu.

İmam Nəsainin, Abdullah ibn Abbasdan rəvayət etdiyinə görə; "Ənsardan Əqəbə bey'ətində iştirak edənlər, Rəsulullahın yanına gəlməklə muhacirlərdən olmuşdular.[112]

## Hicrət

Son Əqəbə bey'ətiylə Mədinə, müsəlmanlara rahat yaşayacaqları və sığınacaqları bir yer olmuşdu. İkinci Əqəbə bey'ətindən xəbər tutan Məkkəli müşriklərin sərgilədikləri davranışlar, çox sərt və çox təhlükəli bir vəziyyət almışdı. Müsəlmanlar üçün Məkkədə qalmaq artıq mümkün deyildi. Cənabi Peyğəmbərimizə (səlləllahu əleyhi və səlləm) öz vəziyyətlərini izah edərək, hicrət üçün icazə istədilər.

---

[112] İbn Hişam, *əs-Sirə*, I, 438; İbn Sə'd, *ət-Təbəqat*, I, 221-223; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 38; Süheyli, *ər-Rövzul-Unf*, II, 261; İbn Kəsir, *əs-Sirə*, II, 192.

Bir gün, sevgili Peyğəmbərimiz, sevincli bir halda Əshabi kiramın yanına gəlib; “Sizin hicrət edəcəyiniz yer mənə xəbər verildi. Ora Yəsrib (Mədinə) dir. Oraya hicrət edin” və “Orda müsəlman qardaşlarınızla bir olun. Allah Təala onlarla sizi qardaş etdi. Yəsribi (Mədinəni) sizə e’tibarlı və hüzur tapa biləcəyiniz bir yer etdi” buyurdu. Rəsulullahın icazəsi və tövsiyəsindən sonra müsəlmanlar, Mədinəyə bir birinin ardınca dəstə-dəstə hicrət etməyə başladılar.[113]

Cənabi Peyğəmbərimiz, hicrət edənlərə son dərəcə ehtiyatlı və tədbirli olmalarını tapşırırdı. Müsəlmanlar, müşriklərin diqqətini cəlb etməmək üçün kiçik qafilələr halında yola çıxır və mümkün olduqca gizli hərəkət edirdilər. Mədinəyə ilk hicrət edən Əbu Sələmə, müşriklərdən çox əziyyət görmüşdü. Bir müddət sonra müşriklər məsələni başa düşdülər və hicrət üçün yola çıxan müsəlmanlardan, görə bildiklərini yoldan qaytarmağa, qadınları ərlərindən ayırmağa, gücü çatdıqlarını da həbsə atmağa və müxtəlif əziyyətlər verməyə başladılar. Onları dinlərindən döndərmək üçün hər cür əziyyəti verdilər. Ancaq öz aralarında baş verə biləcək bir müharibənin meydana gəlməsindən qorxduqları üçün, öldürməyə cəsarət göstərə bilmədilər. Müsəlmanlar isə, buna baxmayaraq hər fürsətdən istifadə edərək Mədinə yolunu tutdular.

Həzrəti Ömər də, bir gün qılıncını qurşandı. Özü ilə birlikdə oxlarını və nizəsini də götürüb hamının gözü qabağında Kə’bəni yeddi dəfə təvaf etdi. Ordakı müşriklərə, yüksək səslə bunları dedi; “Budur, mən də dinimi qorumaq üçün Allah Təalanın yolunda hicrət edirəm. Arvadını dul, uşaqlarını yetim qoymaq, anasını ağlatmaq istəyən varsa bu vadinin o tərəfində qabağıma çıxsın!”

Beləcə Həzrəti Ömər ilə təxminən iyirmi nəfər müsəlman, gündüzün günorta çağı, qorxmadan Mədinəyə tərəf yola çıxdılar. Onun qorxusundan bu qafiləyə heç kim toxuna bilmədi. Artıq köçlərin arxası kəsilmirdi. Əshabi kiram dəstə-dəstə Mədinəyə gedib çatırdı.

Bu dəmdə, Həzrəti Əbu Bəkir də hicrət üçün icazə istədi. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm); “Səbr et, ümid edirəm ki, Allah Təala mənə də icazə verər. Birlikdə hicrət edərik” buyurdu. Həzrəti Əbu Bəkir; “Anam-atam sənə fəda olsun! Belə

---

[113] İbn Sə’d, *ət-Təbəqat*, I, 226; Təbərani, *əl-Mu’cəmul-Kəbir*, VIII, 31; Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 394.

ehtimal var bəyəm?" deyə soruşunca, Peyğəmbərimiz; "Bəli vardır" buyuraraq onu sevindirdi.

Həzrəti Əbu Bəkir səkkiz yüz dirhəm verərək iki dəvə aldı və o günü gözləməyə başladı. Artıq Məkkədə, sevgili Peyğəmbərimiz ilə Həzrəti Əbu Bəkir, Həzrəti Əli, kasıblar, xəstələr, yaşlılar və müşriklərin həbsə atdığı mö'minlər qalmışdı.

Digər tərəfdən Mədinəlilər (Ənsar), hicrət edən Məkkəliləri (Muhacirləri) çox yaxşı qarşılayıb, qonaq saxladılar. Aralarında möhkəm bir birlik meydana gəldi.

Rəsulullahın da hicrət edib müsəlmanların başına keçəcəyi ehtimalı, Məkkəli müşrikləri fikrə qərq etmişdi. Əhəmiyyətli işləri müzakirə etmək üçün bir yerə yığışdıqları Darunnədvədə toplandılar, nə edəcəklərini məsləhətləşməyə başladılar. Şeytan, Şeyxi Nəcdinin qılığına girib, yəni qoca bir Nəcdli adam şəkilində müşriklərin yanına gəldi. Öz aralarındakı danışıqlarını eşitdi. Müxtəlif təkliflər edildi. Ancaq heç biri bəyənilmədi. Sonra şeytan sözə qarışdı və; "Düşündüklərinizin heç biri çarə ola bilməz. Çünki Ondakı gülər üz və şirin dil hər bir tədbiri pozar. Başqa bir çarə tapın" deyərək öz fikrini dedi.

Qureyşin başçısı olan Əbu Cəhil; "Hər qəbilədən güclü bir adam seçək. Əllərindəki qılınclarıyla Məhəmmədə hücum etsinlər. Qılıncla qanına qəltan etsinlər. Kimin öldürdüyü müəyyən olmasın. Beləcə məcburən diyətə razı olarlar. Biz də diyətini verib, canımızı qurtararıq" dedi. Şeytan da, bu fikri bəyəndi və onları bu işə təşviq etdi.[114]

Müşriklər bunun hazırlığını görərkən Allah Təala, Rəsuluna hicrət əmri verdi. Cəbrayıl əleyhissalam gələrək, müşriklərin qərarını və o gecə yatağında yatmamasını dedi. Sevgili Peyğəmbərimiz Həzrəti Əliyə öz yatağında yatmasını, ona əmanət etdiyi şeyləri sahiblərinə verməsini söyləyərək; "Bu gecə yatağımda yat, bu gödəkçəmi də üstünə ört! Qorxma, sənə heç bir zərər verməzlər" buyurdu.

Həzrəti Əli, Cənabi Peyğəmbərimizin əmr etdiyi şəkildə yatdı. Həbibullahın yerinə, qətiyyən qorxmadan öz canını fəda etməyə hazır idi.

Hicrət gecəsi kafirlər, Rəsulullahın səadətxanələrinin ətrafını mühasirəyə almışdılar. Cənabi Peyğəmbərimiz mübarək evindən çıxdı. Yasin surəsinin əvvəlindən on ayəni oxudu və bir ovuc torpaq götürüb kafirlərin başına səpdi. Hər kimin başına bu

---

[114] İbn Hişam, *əs-Sirə*, I, 124; İbn Sə'd, *ət-Təbəqat*, I, 227; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 45.

torpaqdan düşdüsə, hamısının Bədr qəzvəsində öldürüldüyü rəvayət edilmişdir. Rəsulullah sağ və salamat aralarından keçib, Həzrəti Əbu Bəkirin evinə çatdı. Müşriklərdən heç kim Onu görə bilməmişdi.

Bir müddət sonra müşriklərin yanına birisi gəlib; "Burda nə gözləyirsiniz?" deyə soruşunca; "Məhəmmədin evdən çıxmasını" deyə cavab verdilər. O gələn; "And içirəm ki, Məhəmməd aranızdan keçib getdi, başınıza da torpaq səpdi" dedi. Müşriklər, əlləriylə başlarını yoxladılar. Həqiqətən, başlarında torpaq vardı. Dərhal qapıya cumub içəri girdilər. Həzrəti Əlini, Rəsul əleyhissalamın yatağında görüncə, Rəsuli əkrəmin harda olduğunu soruşdular. Həzrəti Əli; "Bilmirəm! Məni, Onun başında qarovulçu qoydunuz bəyəm?" dedi. Bundan sonra Həzrəti Əlini bir az incitdilər. Kə'bənin yanında bir müddət həbs edib sonra bıraxdılar. Kafirlər, Rəsulullahı tapmaq üçün çölə çıxıb axtaramağa başladılar.[115]

Əvvəlcə Həzrəti Əbu Bəkirin evinə gedərək, Həzrəti Əbu Bəkirin qızı Əsmadan soruşdular. Cavab verməyincə döydülər. Hər yeri axtaramalarına baxmayaraq, tapa bilmədilər və dəliyə döndülər. Ən əzazili olan Əbu Cəhil, Məkkə və ətrafındakı yaşayış məskənlərinə səs salaraq, sevgili Peyğəmbərimizi və Həzrəti Əbu Bəkiri tapıb gətirənlərə və yerlərini xəbər verənlərə 100 dəvə verəcəyini və'd etdi. Onun bu və'dini eşidən və mala tamah edən bəzi adamlar silahlanıb, atlarına minərək axtarmağa başladılar.

Rəsulullah, Həzrəti Əbu Bəkirin evinə təşrif edib; "Hicrət etməyimə icazə verildi" buyurunca, Həzrəti Əbu Bəkri Siddiq həyəcanla; "Mübarək ayağınızın tozuna üzümü sürüm ey Rəsulallah! Mən də Səninlə birlikdəyəm?" deyə soruşunca, Rəsulullah; "Bəli" buyurdu. Həzrəti Siddiq, sevincindən ağladı. Göz yaşları axa-axa; "Anam-atam, canım sənə fəda olsun ey Rəsulallah! Dəvələr hazırdır. Hansını istəsən onu qəbul edin" dedi. Aləmlərin hökmdarı; "Mənim olmayan dəvəyə minmərəm. (Ancaq) pulunu ödəyərək alaram" buyurdu. Bu qəti əmr qarşısında məcbur qalan Həzrəti Siddiq, dəvənin qiymətini dedi.

Həzrəti Əbu Bəkir, Abdullah ibn Ureyqit adında, bələdçiliyi ilə məşhur olan birini çağırdıb, yol göstərməsi üçün muzdla tutdu və dəvələri üç gün sonra Sevr dağındakı mağaraya gətirməsini əmr etdi. Safər ayının 27-sində Pərşənbə günü, Cənabi

---

[115] Süheyli, *ər-Rövzul-Unf*, II, 309.

Peyğəmbərimiz və Əbu Bəkri Siddiq özləriylə bir miqdar yemək götürərək yola çıxdılar. Həzrəti Əbu Bəkir, Rəsulullahın ətrafında bəzən sola, bəzən sağa, qabağa, arxaya gedirdi. Peyğəmbərimiz ona, nə üçün belə etdiyini soruşunca; "Ətrafdan gələ biləcək bir təhlikənin qabağını almaq üçün. Əgər bir zərər gəlsə əvvəlcə mənə dəysin. Canım uca zatınıza fəda olsun ey Rəsulallah!" dedi. Sərvəri aləm buyurdu ki; "Ey Əba Bəkir! Başıma gələcək bir müsibətin, mənim yerimə, sənin başına gəlmiş olmasını istəyərsən?" Həzrəti Siddiq "Bəli ey Rəsulallah! Səni haqq dinlə, haqq peyğəmbər olaraq göndərən Allah Təalaya and içirəm ki, gələcək bir müsibətin, sənin yerinə, mənim başıma gəlməsini istəyərəm" dedi.[116]

Sevgili Peyğəmbərimizin ayaqqabısı dar olduğundan, yolda söküldü və mübarək ayaqları yaralandı, yol gedəcək halı qalmamışdı. Çətinliklə dağa dırmaşıb mağaraya çatdılar. Qapısının qabağına gəldiklərində, Həzrəti Əbu Bəkir; "Nə olar ey Rəsulallah, içəri girməyin! Mən girim, orda zərərli bir şey varsa, mənə zərər versin, mübarək zatınıza bir üzüntü və bir kədər dəyməsin" dedi və içəri girdi. İçərini süpürüb təmizlədi. Sağında, solunda müxtəlif böyüklükdə bir çox dəlik vardı. Gödəkçəsini yırtıb dəliklərə tıxadı, ancaq biri açıq qaldı. Onu da dabanıyla örtüb, Rəsulullahı içəri də'vət etdi.

Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) içəri girdi və mübarək başını Əbu Bəkirin qucağına qoyub yatdı. O zaman, Həzrəti Siddiqin ayağını ilan çaldı. Rəsulullahın oyanmaması üçün səbr edib, heç hərəkət etmədi. Ancaq göz yaşı Rəsulullahın mübarək üzünə damcılayınca; "Nə oldu ey Əba Bəkir?" buyurdu.

Həzrəti Əbu Bəkir; "Ayağım ilə örtdüyüm dəlikdən bir ilan ayağımı çaldı" dedi. Rəsulullah, Əbu Bəkirin yarasına, sağalması üçün mübarək ağzının suyundan sürtüncə, ağrısı dərhal yox oldu, şəfa tapdı.

Rəsulullah (səlləllahu əleyhi və səlləm) və Əbu Bəkri Siddiq içərdə ikən, müşriklər, izi tə'qib edə-edə mağaranın qabağına gəldilər. Girişində bir hörümçəyin tor bağladığını və iki göyərçinin də yuva qurduğunu gördülər. İzi tə'qib edən Qurz ibn Əlqamə; "Baxın, burda iz qurtarır" dedi. Kafirlər; "Əgər, onlar buraya girmiş olsaydılar, qapının üstündəki hörümçək torunun yırtılmış olması lazım gələrdi" dedilər.

---

[116] İbn Sə'd, *ət-Təbəqat*, I, 230; İbn Əsakir, *Tarixu Dəməşq*, XXX, 78; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, I, 94;

Bəziləri; "Bura qədər gəldik, mağaraya biriniz girib, baxsın!" deyincə, kafir Ümeyyə ibn Xələf; "Sizin heç ağlınız yoxdur bəyəm? Üstündə qatbaqat hörümçək toru olan bu mağarada nə işiniz var? And içirəm ki, bu hörümçək, torunu, Məhəmməd doğulmadan da qabaq hörmüşdür" dedi. Müşriklər qapının qabağında bir-biriləriylə mübahisə edərkən, içərdə Həzrəti Əbu Bəkir həyəcanlandı və; "Ey Rəsulallah! Vallahi özüm üçün narahat olmuram. Ancaq uca zatınıza bir şey olmasından qorxuram. Mən öldürülsəm də, heç bir şey dəyişməz. Ancaq sizə bir zərər verilirsə, bütün ümmət həlak olar, din əldən gedər" dedi. Kainatın hökmdarı Rəsulullah; "Ey Əba Bəkir! Narahat olma! Şübhəsiz Allah Təala bizimlə birlikdədir" buyurdu.

Əbu Bəkri Siddiq; "Ey Rəsulallah! Canım sənə fəda olsun! Onlardan biri, başını əyib baxsa bizi görər!" deyincə, Rəsulullah; "Ey Əba Bəkir! Biz iki nəfərik, üçüncüsü də Allah Təaladır. Narahat olma! Haqq Təala bizimlədir" buyurdu. Müşriklər içəri baxmadan dala qayıtdılar.[117]

Allah Təala bu halı Qur'ani Kərimdə məalən belə buyurur; "Əgər siz, Ona (Həbibimə) kömək etməsəniz, (xatırlayın o vaxti ki) kafirlər Onu (Məkkədən) iki nəfərin ikincisi olaraq (Həzrəti Əbu Bəkir ilə) çıxartdıqlarında, (Sevr dağının başındakı) mağarada ikən, Allah Təala Ona (Rəsulullaha) yardım etmişdi. O zaman dostuna (Əbu Bəkri Siddiqə); "Üzülmə, Allahu Təalanın yardımı, köməyi şübhəsiz bizimlədir, demişdi. Allah Təala, Onu arxayın etmiş, Onu, (Həbibini) görmədiyiniz (mənəvi) ordularla gücləndirmiş, kafirlərin (küfr) kəliməsini alçaltmışdı. Allah Talanın (tövhid) kəliməsi isə, çox ucadır. Allah Təala qəti qalibdir. Yeganə hökm və hikmət sahibidir".[118]

Sevgili Peyğəmbərimiz ilə Həzrəti Əbu Bəkir, bu mağarada üç gecə və gündüz qaldılar. Həzrəti Əbu Bəkirin oğlu Abdullah, Məkkədə eşitdiklərini, gecələri mağaraya gəlib xəbər verər, azadlığa buraxdığı köləsi və sürülərinin çobanı Amir ibn Fuheyrə isə, gecələri süd gətirib ayaq izlərini ört-bastır edərdi.

---

[117] Muslim, "Fəzailus-Səhabə", 1; Tirmizi, "Təfsirul-Qur'an"10; İbn Sə'd, *ət-Təbəqat*, I, 228; İbn Əbi Şeybə, *əl-Musannəf*, VII, 471; VIII, 459; Fakihi, *Əxbaru Məkkə*, VI, 199; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 45.
[118] ət-Tövbə 9/40.

Sevr mağarasını dördüncü gün tərk edən sevgili Peyğəmbərimiz, Qusva adlı dəvəsinə mindi. Bir rivayətə görə tərkinə Həzrəti Əbu Bəkiri mindirdi. O biri dəvəyə də Amir ibn Fuheyrə Həzrətləri ilə, yollara yaxşı bələd olan Abdullah ibn Ureyqıt mindilər.

Aləmlərin sahibi (səlləllahu əleyhi və səlləm), Allah Təalanın mədh etdiyi, yerlərin ən qiymətlisi olan Məkkəyi mükərrəmədən, vətənindən ayrılırdı. Dəvəsini Hərəmi şərifə tərəf döndərib, kədərli bir halda; "Vallahi! Sən, Allah Təalanın yaratdığı yerlərin ən xeyirlısi və Rəbbimin nəzdində ən sevgili olanısan! Səndən çıxardılmasaydım, əsla çıxmazdım. Mənə, səndən daha gözəl, daha sevgili yer yoxdur. Qövmüm məni, səndən çıxartmamış olsaydı, çıxmaz, səndən başqa bir yerdə məskən salmazdım" buyurdu.

O əsnada Cəbrayıl əleyhissalam enib, "Ey Rəsulallah! Vətənin üçün çox darıxırsan?" deyə soruşdu. Rəsulullah da; "Bəli, çox darıxıram!" buyurdu. Cəbrayıl əleyhissalam, axırda Məkkəyə qayıdacağını müjdə verən, Qasas surəsi 85-ci ayəsini oxuyub, mübarək ruhuna təsəlli verdi.

Səfər səssiz-səmirsiz keçirdi. Müşriklər, hər yeri axtarmaqlarına baxmayaraq tapa bilmirdilər, Cənabi Haqq, Həbibini onların şərrindən quruyurdu. Rəsulullah, Qudeyd deyilən yerə çatdıqlarında, Ümmü Mə'bəd adında, səxavətli olması ilə məşhur, ağıllı, namuslu bir xanımın çadırının qabağında dayandılar. Pulunu ödəyərək yemək, xurma və ət almaq istədilər. Ümmü Mə'bəd; "Əgər olsaydı, pulla deyil, qonaq kimi sizə qulluq göstərərdim. Qıtlıq və dolanışıq çətinliyi səbəbiylə əlimizdə bir şey qalmadı" dedi. "Heç olmasa süd var?" deyə soruşduqlarında; "Yoxdur. Qoyunlar qısırdır" deyə cavab verdi. Kainatın hökmdarı (səlləllahu əleyhi və səlləm), çadırın yanında dayanan arıq bir qoyunu göstərərək buyurdu ki; "Ey Ümmü Mə'bəd! Bu qoyun nə üçün burda bağlanıb qalıb?" O da; "Çox xəstə və arıq olduğu üçün sürüyə buraxmadım. Dərmanı olmadığı üçün gedə bilmədi" dedi. "Heç südü var? İcazə verirsən ki, bu qoyunu sağım?" buyurunca; "Anam-atam sənə fəda olsun, südü yoxdur, ancaq sağmaq istəyirsinizsə sağa bilərsiniz" dedi. Rəsulullah, qoyunun yanına gəlib, Allah Təalanın adını deyib, bərəkətlə dua etdiktən sonra, mübarək əlini qoyunun əmcəyinə sürtdü. O anda qoyunun əmcəyi, südlə doldu və axmağa başladı. Dərhal qab götürüb doldurdu. Əvvəlcə Ümmü Mə'bədə verdilər. O içdikdən sonra, Həzrəti Əbu Bəkirə və o birilərinə də doyacaqları qədər verdi. Ən axırda da özü içdi. Yenə mübarək əlini qoyunun əmcəyinə toxunub sağdı və çadırda olan ən böyük qabı istədi. Onu da doldurub Ümmü Mə'bədə verdi.

Ordan getdikdən sonra, Ümmü Mə'bədin əri gəldi və südü gördü. Sevinərək; "Bu süd hardandır?" deyə soruşunca, Ümmü Mə'bəd; "Bir mübarək adam gəlib, evimizi şərəfləndirdi. Gördüklərin, onun bərəkətindəndir" dedi. "Onu mənə bir de görüm kimdir? Sifəti və görünüşü necədır?" deyə soruşdu.

Ümmü Mə'bəd; "Gördüyüm o mübarək zat, orta boylu və gülər üzlü idi. Gözlərində bir miqdar qırmızılıq var, səsi də incədir. Mübarək kirpikləri uzun idi. Gözünün ağı çox ağ, qarası da çox qara olub, sürmə çəkmişdi. Saçları qara, saqqalı qalın idi. Susduğunda, Onun çox vüqarlı və ağırbaşlı olduğu diqqəti cəlb edirdi. Danışanda təbəssüm edir, sözləri, sanki bir inci kimi ağzından tökülürdu. Uzaqdan çox heybətli görünür, yaxına gəlincə isə, çox mülayim bir hal alırdı. Yanındakılar, əmrini yerinə yetirmək üçün canla başla hərəkət edirdilər" deyərək, Onun başqa xüsusiyyətlərini də saydı. Bunlara heyrətlə qulaq asan əri; "And içirəm ki, bu zat, Qureyşin axtardığı o adamdır. Əgər mən Ona rast gəlsəydim, Ona xidmət edərək şərəf tapar, yanından ayrılmazdım" dedi.

Rəvayətə görə, o qoyun on səkkiz il sonra öldü. Fəxri aləm Rəsulullahın, bərəkəti ilə səhər-axşam onun südüylə dolanardılar. Ümmü Mə'bədin əri, Rəsulullahın ardınca düşüb, Rim vadisində Ona çatdı və müsəlman oldu. Ümmü Mə'bəd də müsəlman oldu.[119]

## Sürəqa ibn Malik

Müşriklər, Mədinəyə tərəf yola çıxan Məhəmməd əleyhissalamı və Həzrəti Əbu Bəkiri dayanmadan axtarırdılar. Tapa bilməsələr özləri üçün çox böyük bir təhlikə baş verəcəkdi. Çünki, müsəlmanların bir "İslam Dövləti" qurub, qısa bir müddətdə onların hakimiyyətinə son verəcəklərini düşünürdülər. Bu səbəblə müşriklər, bütün güclərini sərf etdilər. Cənabi Peyğəmbərimizlə Həzrəti Əbu Bəkiri öldürənə veya əsir edən adama, yüz dəvə ilə birlikdə saysız hesabsız mal və pul verəcəklərini və'd etdilər. Bu xəbər, Sürəqa ibn Malikin mənsub olduğu Müdlic oğullarına da gedib çatdı. Sürəqa ibn Malik, yaxşı iz tə'qib edərdi. Bu səbəblə də, baş verən hadisəylə yaxından maraqlandı. Müdlic oğulları bir Çərşənbə axşamı, Sürəqa ibn Malikin yaşadığı Qudeyd

[119] İbn Sə'd, *ət-Təbəqat*, I, 230; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, IV, 48; Beyhəqi, *Dəlailun-Nübüvvə*, I, 266; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 50.

məntəqəsində toplanmışdılar. Toplantıda Sürəqa ibn Malik də vardı. O əsnada Qureyşin adamlarından biri gəlib Sürəqaya; "Ey Sürəqa! Vallahi mən bir az əvvəl, sahilə tərəf gedən üç nəfərlik bir qafilə gördüm. Onlar hər halda Məhəmməd ilə Əshabıdır" dedi. Sürəqa, məsələni başa düşdü. Ancaq, ortaya çox böyük mükafat qoyulduğu üçün, bunu özü tək almaq istəyirdi. Bu səbəblə başqasının xəbərdar olmamasını istəyirdi. Ona görə də; "Xeyir, sənin gördüyün o adamlar, filankəslərdir. Bir az əvvəl burdan keçmişdilər. Onları biz də gördük" deyərək, o qədər də əhəmiyyətli olmadığını söylədi.

Sürəqa ibn Malik, bir az da gözlədi. Diqqəti cəlb etməmək üçün evinə gəldi. Qulluqçusuna, atını və silahını götürüb vadinin o tərəfində onu gözləməsini tapşırdı. Özü də qarğısını götürmüş, parıltısı diqqəti cəlb etməməsi üçün ucunu aşağıya çevirmişdi. Atını səyirtməyə başladı. Yoluna davam edərək, axırda izlərini tapdı. Yaxınlaşınca bir birlərini əməlli başlı görə bilirdilər. Hətta Sürəqa, Cənabi Peyğəmbərimizin oxuduğu Qur'ani Kərimi belə eşidirdi. Ancaq, Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) arxasına əsla baxmırdı. Həzrəti Əbu Bəkir arxaya baxınca, Sürəqanı görüb, həyəcanlandı. Cənabi Peyğəmbərimiz ona, mağaradaki kimi; "Narahat olma, Allah Təala bizimlə birlikdədir" buyurdu.

Buxari Həzrətlərinin rəvayət etdiyinə görə, bu əsnada Həzrəti Əbu Bəkir, bir atlının onlara çatdığını Rəsuli əkrəmə deyincə, Cənabi Peyğəmbərimiz; "Ey Rəbbim! Onu atından düşürt" deyə dua etdi. Başqa bir rəvayətdə isə, Sürəqa yanlarına qədər gəlincə, Həzrəti Əbu Bəkir, ağlamağa başladı. Rəsuli əkrəm ondan nə üçün ağladığını soruşunca; "Vallahi özümçün ağlamıram. Sənə bir zərər verilməsindən qorxduğum üçün ağlayıram" dedi.

Sürəqa, Cənabi Peyğəmbərimizə hücum edə biləcək qədər yaxınlaşdı. "Ey Məhəmməd! Səni, bu gün mənim əlimdən kim qortaracaq?" dedi. Sərvəri aləm Rəsulullah da; "Məni, Cabbar və Qahhar olan Allah Təala qoruyar" cavabını verdi. O əsnada Sürəqanın atının qabaq ayaqları dizlərinə qədər yerə batdı. Atı batdığı yerdən çıxardıb, yenə hücum etməyə təşəbbüs edincə, atının ayaqları təzədən yerə batdı. Sürəqa, atını nə qədər əlləşdisə də, heç cürə çıxarda bilmədi. Başqa bir şey əlinən gəlmirdi. Çarəsiz qalınca, şəfqət və mərhəmət sahibi olan Rəsulullaha yalvarmağa başladı. Bütün kamilliyə və gözəl əxlaqa sahib olan Peyğəmbərimiz onun bu diləyini qəbul etdi. Sürəqa; "Ey Məhəmməd! Qorunduğunu başa düşdüm. Dua et ki, xilas olum. Bundan sonra sənə əsla zərər verməm. Sənin dalınca gələnlərə də səni görmədiyimi

deyəcəyəm" dedi. Kainatın sahibi; "Ey Rəbbim! Əgər o sözündə doğru və səmimi isə, atını qurtar" deyə dua edincə, Allah Təala bu duanı qəbul etdi.

Sürəqa ibn Malikin atı, ancaq bu duadan sonra çuxurdan çıxa bilmişdi. Bu əsnada atın ayağının batdığı yerdən, göyə tərəf duman kimi bir şey qalxırdı. Sürəqa, heyrətə düşdü və bütün bu baş verənlərdən, Məhəmməd əleyhissalamın hər zaman qorunmaqda olduğunu dərk etdi. Bir çox şeyə şahid olmuşdu. Axırda; "Ey Məhəmməd! Mən Sürəqa ibn Malikəm! Məndən əsla şübhəniz olmasın. Sizə söz verirəm ki, bundan sonra xoşunuza gəlməyən heç bir işi görməyəcəyəm. Qövmün, səni və dostlarını əsir edənə çox mükafat verəcəyini və'd etdi" dedi və Qureyş müşriklərinin etmək istədiklərini bir-bir danışdı. Hətta, onlara yolda yemek üçün bəzi şeylər və minmək üçün dəvə vermək istədisə də, sevgili Peyğəmbərimiz qəbul etmədi və ona; "Ey Sürəqa! Sən İslam dinini qəbul etmədikcə, mən də sənin dəvəni və dananı istəmərəm. Sən bizi gördüyünü gizlət, bu kifayətdir" buyurdu.

İbni Sə'd də belə nəql edir ki, Sürəqa, Cənabi Peyğəmbərimizə, mənə, istədiyin şeyi əmr et deyincə, Rəsulullah; "Öz el-obana qayıt. Heç kimin bizə çatmasına imkan verme" buyurmuşdur.

Allah Təala istə'yincə hər şey olurdu. Ona xalis bir şəkildə güvənib, rizası üçün yola çıxınca, ağıla gəlməyən hadisələr meydana gəlirdi. Rəsulullahı öldürüb, böyük bir mükafata nail olmaq həvəsiylə, nərildəyən bir şir kimi yola çıxan Sürəqa, artıq, mülayim, yumuşaq və bir uşaq kimiydi. Hər şeyə qadir olan Allah Təala, Həbibinə zərər verə bilməməsi üçün, Sürəqanın qəlbini yaxşılığa tərəf çevirmişdi. Əlbəttə, Allah Təala Həbibini (səlləllahu əleyhi və səlləm) tək qoymayacaqdı. Çünki O, insanlara mərhəmət üçün, onların dünyada və axirətdə əbədi səadət və xoşbəxtliyə qovuşması üçün göndərdiyi sevgili peyğəmbəriydi.

Sürəqa bundan sonra geri qayıtdı və başına gələnləri də qabağına çıxanlara danışmadı.[120]

---

[120] İbn Hişam, *əs-Sirə*, I, 489; İbn Əbi Şeybə, *əl-Musannəf*, IV, 424; Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 346; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, VII, 133; Əbu Ya'la, *əl-Müsnəd*, I, 107.

### Müjdə! Müjdə! Kainatın hökmdarı gəlir!

Cənabi Peyğəmbərimiz, Həzrəti Əbu Bəkir, Amir ibn Fuheyrə və bələdçiləri Abdullah ibn Ureyqıt, "Hicrətin birinci ili Rəbiuləvvəl ayının səkkizində, Bazar ertəsi günü (Miladi 622-ci ilin Sentyabr ayının 20-ci günü) səhər tezdən "Quba" kəndinə çatdılar. Bu gün, müsəlmanların Hicri Şəmsi ilinin başlanğıcı oldu. Gülsüm ibn Hidm adında bir müsəlmanın evində qaldılar. Burada ilk məscidi tikdilər. Quba vadisində ilk Cümə namazını qıldılar və ilk xütbəni oxudular. Quba məscidi, ayədə məalən; "...Təməli təqva üzərinə qurulan məscid"[121] deyə buyurularaq mədh edildi.

Bu əsnada Məkkədə qalan Həzrəti Əli, Rəsulullahın Kə'bəyi şərifdə həmişə olduğu yerdə oturdu və; "Rəsuli əkrəmin hər kimə verəcəyi bir şey varsa, gəlib alsın!" deyə e'lan etdi. Hamı gəlib, əlamətini deyərək əmanətini aldı. Beləcə əmanətlər sahiblərinə verildi.

Məkkəyi mükərrəmədə qalan gücsüz Əshab isə, Həzrəti Əlinin qanadı altına sığındılar. Rəsulullahın səadətxanəsi Məkkədə olduğu müddətdə, Həzrəti Əli də orada qaldı. Bir müddət sonra Rəsuli əkrəm, ailəsinin Mədinəyi münəvvərəyə gətirilməsini əmr etdi.

Allahın aslanı Həzrəti Əli, Qureyş kafirlərinin yığıldıqları yerə getdi. "İnşaallah Təala, sabah Mədinəyi münəvvərəyə gedirəm. Mənə deyəcəyiniz bir şey var? Varsa mən burada ikən deyin" buyurdu. Hamısı başlarını aşağı əyib, heç bir şey deмədilər. Səhər olunca, Həzrəti Əli, Rəsuli əkrəmən əşyalarını toplayıb, Rəsulullahın Əhli Beyti və öz qohumları ilə bərləkdə yola çıxdı. Şişmiş ayaqlarından qan axar vəziyyətdə, Qubada Rəsulullaha çatdı. Gündüzləri gizlənib, gecələri payi piyada yol gəldiyi bu yolçuluğun axırında, Peyğəmbərimizin yanına gedə bilməyəcək bir hala düşmüşdü. Rəsuli əkrəm bundan xəbər tutunca, bilavasitə özü onun yanına getmiş, Həzrəti Əlini görüncə halına yanmış, sevgili, fədakar əmisi oğlunu qucaqlamış, mübarək əlləriylə o haqq yolunda minlərcə əziyyətə dözən zərif ayaqlarını sığallamış, onun sağalması üçün dua etmişdi. Hətta Həzrəti Əlinin bu fədakarlığından sonra; "İnsanlardan elələri vardır ki, Allah Təalanın rizası üçün nəfsini fəda edər"[122] ayəti cəliləsinin nazil olduğu da rəvayət edilir.

---

[121] ət-Tövbə 9/108.
[122] əl-Bəqərə 2/207.

Mədinəyə daha əvvəl hicrət edən Əshabi kiram ilə Mədinəli müsəlmanlar, Kainatın hökmdarının Məkkədən hicrət üçün yola çıxdığını eşidincə, Onun təşrifini sevinc və həyəcanla gözləyirdilər. Bu səbəblə Mədinəyi münəvvərənin ətraf səmtlərinə gözətçilər qoyub, şəhərlərini şərəfləndirəcək olan Rəsulullahı qarşılamaq üçün can atırdılar. Onun məhəbbətiylə yananlar, istidən qovrulmuş səhranın suya olan həsrəti kimi gözlərini üfüqə tikərək günlərlə gözlədilər. Axırda birdən; "Gəlirlər! Gəlirlər!" deyə bir səs eşidildi. Səsi eşidənlər, isti səhranın ortalarına tərəf göz gəzdirməyə başladılar. Bəli! Bəli! Onlar da istidən qovrulmuş səhrada, günəşin yandırıcı istiliyinə baxmayaraq, mətin addımlarla özlərinə tərəf irəlilədiklərini görmüşdülər. Sevinclə bir birilərinə; "Müjdə! Müjdə! Rəsulullah gəlir! Peyğəmbərimiz gəlir! Sevinin ey Mədinəlilər. Bayram edin! Həbibullah gəlir! Baş tacımız gəlir!" deyərək qışqırmağa başladılar. Bu xəbər qısa bir müddətdə Mədinəyi münəvvərə küçələrinə yayıldı. Yeddidən yetmiş yeddiyə, qocadan xəstəyə qədər, hamı bu bənzəri olmayan sevincli xəbəri gözləyirdilər. Bütün Mədinəlilər ən gözəl paltarlarını geyinərək, tələm-tələsik Aləmlərin sahibini qarşılamak üçün toplaşdılar. Təkbir sədaları yeri-göyü lərzəyə gətirir, sevincdən göz yaşları sel kimi axırdı.

Kədər və sevinc dolu bir hava əsir və Mədinə, tarixində ən gözəl gününü yaşayırdı. Bir tərəfdə, hamının "əl-Əmin" ləqəbiylə tanıdığı, Allahu Təalanın Həbibini öldürmək üçün mükafat verənlər, o biri tərəfdə isə, Onu və dostlarını qorumaq, bağırlarına basmaq və bu uğrunda canlarını fəda etmək istəyənlər vardı.

Mədinəlilər səbirsizliklə sevgili Peyğəmbərimizin nurlu cəmalını görmək istəyirdilər. Mədinə, qurulduğu gündən bəri belə sevincli, belə mübarək bir an görməmişdi. Bu, o günə qədər görülməmiş bir bayram idi.

Bənzəri görülməmiş və görülməyəcək olan bu bayramda, uşaqlar və qadınlar belə şe'rlər oxuyurdular;

*"Taləal-bədru əleyna,*
*Min səniyyatil-vəda,*
*Vəcəbəşşükru əleyna,*
*Ma dəallahu dai.*
*Eyyuhəlmə'busu fina,*

*Ci'tə bil-əmrilmuta!"*[123]

| |
|---|
| *Səniyyətul-vədadan, Bədr doğdu üstümüzə.*<br>*Haqqa də'vət etdikcə, şükr vacib oldu bizə.*<br>*Sən bizə göndərildin, əmrullahı gətirdin,*<br>*Mədinəyə xoş gəldin, şərəf verər də'vətin.*<br>*İzzət ikramla dolduq, köhnələrdən qurtulduq,*<br>*Məcdə qovuşduq doyduq,zərərdəydik qazandıq.*<br>*Zülməti yox edən ay der, "salam əhlinə deyin,*<br>*Məhəmmmədə (əleyhissalam) uyana, əsla zülm etməyin".*<br>*Daim birlikdə söz verdik,and içilən gündə,*<br>*Doğruluk yolumuzdur, hainlik olmaz dində.*<br>*Vallahi mən unutmam,cəfasız gün heç yoxdu,*<br>*Şahidsən Əmn ulduzu, vəfan sevgin çox çokdu.* |

"Xoş gəldin ey Rəsulallah". "Bizim qonağımız olun ey Rəsulallah" şəklindəki istəklər ortalığı qarışdırmışdı. Mədinənin möhtərəm şəxslərindən bəziləri Qusvanın yüyənindən tutub; "Ey Rəsulallah! Bizə buyurun" deyərək xahiş edirdilər. Onlara; "Dəvəmin yüyənini bıraxın, O qərar verəcək. Kimin evinin qabağında çöksə orda qonaq olaram!" buyurdu. Hamı böyük bir həyəcan və maraq içində gözləməyə başladı. Görəsən Qusva hara çökəcək? Mədinənin içinə tərəf Qusva gedir, hər qapının qabağından keçərkən ev sahibləri; "Ey Rəsulallah! Bizə təşrif gətirin, bizə təşrif gətirin!" deyə yalvarırdılar. Cənabi Peyğəmbərimiz onlara təbəssüm göstərərək; "Dəvənin qabağından çəkilin! Hara çökəcəyi ona buyurulmuşdur, deyirdi. Qusva, axırda Cənabi Peyğəmbərimizin indiki Məscidi şərifinin qapısının qabağındakı yerə çökdü. Rəsulullah (səlləllahu əleyhi və səlləm) dəvəsindən düşmədi. Heyvan yenə

[123] Beyhəqi, *Dəlailun-Nübüvvə*, V, 351; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 485; İbn Kəsir, *əs-Sirə*, II, 269; Əhməd Şami, *Sübülül-Huda*, III, 278.

ayağa qalxdı, getməyə başladı. Əvvəlki yərə çökdü və bir də qalxmadı. Bundan sonra Rəsulullah, Qusvanın üstündən düşüb; "İnşallah, mənzilimiz buradır və "Bura kimindir?" buyuranca; "Ey Rəsulallah! Əmrin oğulları Süheyl və Səhlindir" deyə cavab verdilər. Bu uşaqlar yetim idi. Peyğəmbərimiz; "Qohumlarımızdan hansının evi bura daha yaxındır?" buyurdu. Çünki Rəsulullahın babası Əbdülmüttəlibin anası, Nəccar oğullarından idi. Xalid ibn Zeyd Əbu Eyyub əl-Ənsari Həzrətləri sevinclə; "Ey Rəsulallah! Mənim evim daha yaxındır. Budur, bu evim, bu da qapısı" deyərək heyəcanla göstərdi. Qusvanın yükünü açıb, Rəsulullah içəri də'vət etdi.[124]

Mədinəli müsəlmanlar və muhacirlər, Rəsulullahın hicrətinə daha çox sevindilər.

*Ruhun bir nöqtəyi nuri Xudadır ya rəsulallah,*
*Cəmalın halət-əfza dilguşadır ya rəsulallah*

*Bədəni rəhmət-asarın tului zülməti küfrü,*

*Yox etdi bütün iman aşinadır ya rəsulallah.*

*Gülüstani risalət içrə zatı gülbünun ancaq,*

*Xudayi bir nihali müntəhadır ya rəsulallah.*

*Kərəm qıl, ey Xudavənda şərifi hüccəti Mövla,*

*Nəcibin dərdinə feyzin dəvadır ya rəsulallah*

*SULTAN III. ƏHMƏD (NƏCİB)*

[124] İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 50.

## MƏDİNƏYİ MÜNƏVVƏRƏ DÖVRÜ

Sevgili Peyğəmbərimizin, bi'sətin on üçüncü ili, Rəbiuləvvəl ayının 12-sində, miladi 622-ci ildə Mədinəyə hicrəti ilə on il davam edəcək olan Mədinə dövrü başladı.

Cənabi Peyğəmbərimiz, Xalid ibn Zeyd Əbu Eyyub əl-Ənsari Həzrətlərinin evinə təşrif edincə, alt mərtəbəsində yaşamağı seçdi və bura yerləşdi. Beləcə Kainatın sahibini öz evində qonaq saxlama şərəfi bu mübarək zata nəsib oldu.

Həzrəti Xalid belə nəql etmişdir ki; "Rəsulullah, evimi şərəfləndirdiyində, alt mərtəbədə qalmağı seçmişdi. Biz də üst mərtəbədə qalır və bu hala çox üzülürduk. Bir dəfə; "Anam-atam sizə fəda olsun, ey Rəsulallah! Mənim yuxarda qalmağıma, sizin də alt mərtəbədə qalmağınıza ürəyim razı olmur. Bu mənə çox ağır gəlir. Nə olar sizin yuxarıda, bizim də alt mərtəbədə qalmağımıza e'tiraz etməyin" dedim. Bundan sonra; "Ey Əba Eyyub! Evin alt mərtəbəsində qalmağımız bizim üçün daha münasib və əlverişlidir" buyurdu. Gələn ziyarətçilərlə daha rahat görüşə bilmək üçün alt mərtəbədə qalmağı münasib gördü. Biz də evin üst mərtəbəsində qaldıq.

Bir dəfə su səhəngimiz qırıldı. Tökülən suyun Rəsulullahın üstünə damcılayıb narahat olmasından qorxaraq, xanımımla, üstümüzü örtəcəyimiz yeganə yorğanımızı dərhal suyun üstünə basdırdıq".

Əbu Eyyubi Ənsari, üst mərtəbədə qalmaqdan çox narahat olurdu. Axırda özü alt mərtəbəyə enib, Rəsulullahı yuxarı çıxartdı. Əbu Eyyub Həzrətləri belə buyurmuşdur ki; "Rəsulullaha daim axşam yeməyi bişirib göndərərdik. Qalanını bizə göndərdiyi zaman, mən və xanımım Ümmü Eyyub, Rəsulullahın əlinin dəydiyi yerləri qarışdıraraq, oralardan yeyər və bununla bərəkət tapardıq. Yenə bir gecə, yemək bişirib göndərdiyimiz soğanlı veya sarımsaqlı yeməyi Rəsulullah dala qaytarmışdı. Qabın əl dəyilməmiş olduğunu görüncə, fəryad edərək yanına getdim. "Ey Rəsulallah! Atam-anam sənə fəda olsun! Siz axşam yeməyini dala qaytardınız. Ancaq onda mübarək izini görə bilmədim. Halbuki mən və Ümmü Eyyub, dala qaytardığın yeməkdə əlinin dəydiyi yerləri qarışdırar və bununla bərəkət tapardıq" dedim. Rəsulullah (səlləllahu əleyhi və səlləm) buyurdu ki; "Bu tərəvəzdə bir iy hiss etdim. Ondan yemədim. Mən, mələklə danışan bir adamam". Mən; "O yemək haramdır?" deyə soruşdum. O; "Xeyir! Ancaq mən iyinə görə ondan xoşum gəlmədi" buyurunca; "Sizin xoşlanmadığınız şeydən mən

də xoşlanmaram!" dedim. Peyğəmbərimiz; "Siz onu yeyin" buyurdu. Bundan sonra biz də ondan yedik və bir daha o səbzədən Rəsulullaha yemək bişirmədik.

Bir dəfə də, Rəsulullahla Əbu Bəkirə bəs edəcək qədər yemək hazırlayıb apardım. Rəsulullah; "Ey Əba Eyyub! Ənsarın möhtərəm şəxslərindən otuz nəfəri də'vət et" buyurdu. Mən, yeməyin azlığını və bəlkə Rəsuli əkrəm bu yeməyi çox zənn elədi deyə düşünürdüm ki, təkrar; "Ey Əba Eyyub! Ənsarın möhtərəm şəxslərindən otuz nəfəri də'vət et" buyurdu. Beynimdə min cürə fikir çəkə-çəkə Ənsardan otuz nəfəri də'vət etdim, onlar da gəldilər. O yeməkdən yedilər, doydular. Bir mö'cüzə olduğunu başa düşüb, gələnlərin imanları qüvvətləndi və bir daha bey'ət etdilər və getdilər.

Sonra; "Altmış nəfəri də'vət et" buyurdu. Mən, mö'cüzə olarak yeməyin azalmadığını gördüyümdən, daha artıq sevinərək altmış nəfəri Rəsulullahın hüzuruna də'vət etdim. Gəldilər və o yeməklərdən yedilər.

Hamısı Rəsulullahın mö'cüzəsini təsdiq edərək geri qayıtdılar. Arxasınca; "Ənsardan doxsan nəfər çağır" buyurdu. Çağırdım, gəldilər. Rəsulullahın göstərişiylə on nəfərlik qruplarla süfrəyə oturub, yedilər. Hamısı da bu böyük mö'cüzəni görüb getdilər. Beləcə yüz səksən nəfər yemək yedi. Yemək isə mənim apardığım qədərdi və heç əl vurulmamış kimi qalırdı".[125]

## Ənsar ilə Muhacirlərin qardaş olması

Cənabi Peyğəmbərimiz, Mədinəyi münəvvərədə daha möhkəm bir ittifaqın qurulması üçün, hicrət edən Muhacirləri və onları evlərində qonaq saxlayan Ənsarı bir-birilərinə qardaş etdi. Həzrəti Əli ən axıra qalınca, yaddan çıxardıldığını sanıb; "Ey Rəsulallah! Məni yaddan çıxartdınız?" deyə soruşmuşdu. Onda, Aləmlərin sahibi; "Sən, dünyada və axirətdə mənim qardaşımsan" buyurmuşdu. Bu qardaşlıq maddi və mənəvi yardımlaşma əsasına dayanırdı. Beləcə el-obalarından və qohumlarından ayrı qalmanın kədəri bir miqdar da olsa azalmış olacaqdı. Onsuz da Mədinəli müsəlmanlar Allah Təalanın dinini yaşaya bilmək və yaya bilmək üçün öz ölkələrini tərk edən Muhacir qardaşlarını bağrına basmış, evlərinə də'vət etmiş, onlara hər cür kömək göstərmək üçün can-başla çalışmışdılar. Bu qardaşlığın qurulması ilə bir-birilərinə daha yaxından

[125] Qazı İyaz, *Şifayi Şərif*, s. 289.

sarıldılar. Rəsulullah, hər Muhaciri, xasiyyətinə münasib olan bir Ənsar ilə qardaş etmişdi. Elə ki, bu qardaşlıq, atalarından miras qalan malı bölüşəcək səviyyədə idi.[126]

Hər Mədinəli, tarlasını, bağını, bağçasını, evini, mallarını... nəyi varsa iki yerə bölür, beləcə yarısını Muhacir qardaşına öz xoşuyla verirdi. Muhacirlərdən Əbdurrəhman ibn Əvf Həzrətləri belə nəql etmişdir ki; "Biz, Mədinəyi münəvvərəyə hicrət etdiyimizdə, Rəsulullah məni Sə'd ibn Rəbi ilə qardaş e'lan etdi. Bundan sonra qardaşım Sə'd, mənə; "Ey qardaşım Əbdurrəhman! Mən, mal cəhətindən Mədinəli müsəlmanların ən varlısıyam. Malımı iki hissəyə böldüm, yarısı sənindir" dedi. Mən də; "Allah Təala malını sənin üçün mübarək və xeyirlı etsin. Mənim, mala ehtiyacım yoxdur. Sən mənə, alış-veriş etdiyınız bazarın yerini göstər, bəsimdir" dedim.

Belə bir fədakarlık, ancaq İslam qardaşlığıyla mümkün olardı. Adəm əleyhissalamdan bu zamana qədər həddən çox köç hadisələri olmuşdu. Ancaq belə mənada bir hicrət, başqa yerdən gələnlərlə yerli xalq arasında bu qədər gözəl qaynayıb-qarışma və səmimi bir qucaqlaşma olmamışdı. Allah Təala da məalən; "Mö'minlər ancaq qardaşdırlar" buyurmuşdur.[127] Bununla, həqiqət, sevgi və səmimiyyətin maddi mənfəətlə deyil, iman və inancla ola biləcəyinə işarə edilirdi.

Sevgili Peyğəmbərimizin, mübarək qəlbindən dünyanı dolduran dəryalar misalı feyz və bərəkətlər, Əshabi kiramın qəlblərini doldurur, bunun nəticəsində, indiyə qədər görülməyən bir fədakarlıqla bir-birilərini sevir və qardaşlarını özlərindən üstün tuturdular.

Ənsar və Muhacirlər, bu yeni İslam mərkəzində əl-ələ verərək İslam dininin qüvvətlənməsi üçün hər fədakarlığa dözmək və axırda şəhadət mərtəbəsinə qovuşmaq üçün söz verdilər. Bu şəkildə, Rəsulullahın ətrafında toplaşıb, İslam dininin əsaslarına riayət edərək, yeni bir nizam və xoşbəxt bir həyat qurdular. Artıq İslamiyyət, hicrət hədisəsi ilə; "Dövlət" olma yolunda ilk addımını atmışdı. Mədinəyi münəvvərə isə İslam dininin beşiyi və mərkəzi halına gəlirdi.

Mədinədə, Əshabi kiramdan başqa, xristiyanlar, yəhudilər və bütə sitayiş edən müşriklər də vardı. Yəhudilər, Bəni Qaynuqa, Bəni Qureyza və Bəni Nadir kimi üç qəbilədən meydana gəlirdi. Bunlar, İslama və ələlxüsus sevgili Peyğəmbərimizə çox düşmənçilik bəsləyirdilər.

---

[126] İbn Sə'd, *ət-Təbəqat*, I, 238; İbn Kəsir, *əl-Bidayə*, III, 226-229; Bəlazuri, *Ənsab*, I, 270-271.
[127] əl-Hücurat 49/10.

Bu əsnada Məkkəli müşriklər, Cənabi Peyğəmbərimizin Mədinədə, Əshabını bir birilərinə qardaş edərək birliklərini daha da möhkəmlətməsini, özləri üçün böyük bir təhlükə golaraq görürdülər. Qısa zamanda bu işin öhdəsindən gəlməzlərsə, müsəlmanlar güclənib Məkkəyə hücuma keçə bilər, tərk etdikləri torpaqlarını, evlərini, el-obalarını əllərindən ala bilərdilər. Bu düşüncələr içində vurnuxan Məkkəli müşriklərdən, Mədinəli müsəlmanlara təhdid məktubları gəlirdi. Bu məktubların birində; "Şübhəsiz ki, aramızda düşmənlik olan heç bir Ərəb qəbiləsində, bizi, sizlər qədər qəzəbləndirən olmamışdır. Çünki, bizim qəbiləyə mənsub bir şəxsi, bizə təslim etməyiniz lazım ikən, Ona köməklik göstərərək və qucaq açaraq qorudunuz. Bu, sizin üçün çox böyük bir nöqsandır. Xahiş edirik ki, Onunla bizim aramıza girməyin və Onu bizə verin. Onun doğru yola qayıtmasına ən çox biz sevinərik. Əgər qayıtmasa, Ona dərs vermək yenə də bizim işimizdir!" deyilirdi.

Bu məktuba, Həzrəti Kə'b ibn Malik, Peyğəmbərimizi mədh edən çox gözəl bir cavab yazdı.

Məkkəli müşriklər, Mədinəli müşriklərə də eyni şəkildə təhdid məktubları yazdılar. Onlara da; "Əgər bizim adamımızı şəhərinizdən çıxartmaz veya öldürməsəniz, sizə hücum edib, kişilərinizi öldürər, qadınlarınızı da özümüzə qulluqçu edərik!" deyərək təhdid etdilər.

Bundan sonra Mədinəli müşriklər, münafiq Abdullah ibn Übeyin ətrafında toplaşıb, fürsət tapan kimi Rəsulullaha zərər vurmaq üçün bir qərara gəldilər.

Müsəlmanlar bu vəziyyətdən xəbər tutunca, sevgili Peyğəmbərimizi qorumaq üçün əllərindən gələn bütün güclərini ortaya qoyub, Onun ətrafında möhkəm birləşdilər. Gecələri küçəyə çıxmır, evlərində də yata bilmirdilər. Übey ibn Kə'b belə nəql etmişdir ki; "Rəsulullah ilə Əshabı, Mədinəyi münəvvərəyə təşrif etdiklərində müsəlmanlar, müşrik Ərəb qəbilələrinin düşmənliklərinə tuş gəldilər. Əshab, silahlanaraq gecələri sabaha qədər növbə tutardı".

Əshabi kiram bir nəfər kimi hərəkət edir, təhlükəli hallarda bütün gücləri ilə müsəlman qardaşlarına köməyə can atırdılar. Bunların başında sevgili Peyğəmbərimiz gəlirdi. Rəsulullah, hər gözəl işdə birinci olduğu kimi, cəsarətdə də Əshabının ən başında yer alırdı. Gecənin hansı saatında olsada olsun, bir fəryad eşidilincə, Peyğəmbərimiz, hələ heç kim ora gedib çatmadan əvvəl atı ilə ora ildırım sür'ətiylə

özünü çatdırır, qorxulu bir şeyin olmadığını Əshabına xəbər verir və onları sakitləşdirirdi.

## Məscidi Nəbəvi

Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), Mədinəyə təşrif etdiyində birinci növbədə Əshabını öyrədə bilmək, camaatla namaz qılına biləcək bir məscidin tikilməsini arzu edirdi. Bu əsnada Cəbrayıl əleyhissalam gəlib; "Ey Rəsulallah! Allah Təala sənə, özü üçün daşdan və kərpicdən bir beyt (məscid) tikməyini əmr edir" dedi. Həbibi əkrəm, dərhal dəvəsi Qusvanın, Mədinəyə gəldiyində çökdüyü yeri, pulunu ödəyərək sahiblərindən almaq istədi. Sahibləri; "Ey Rəsulallah! Biz, onun əvəzini ancaq Cənabi Haqdan gözləyirik. Oranı sizə, Allah rizası üçün hədiyyə edirik" deyərək bağışlamağı çox arzu etdilər. Buna baxmayaraq, Rəsulullah qəbul etməyib, artıqlamasıyla pulunu ödədi.[128]

Bir tərəfdən ərazinin üstü düzəldilirkən, digər tərəfdən də kərpiclər kəsilir və daşlar hörülürdü. Axırda, bütün hazırlıqlar görüldükdən sonra təməlini qazmaq üçün toplandılar. Təmələ ilk daşı, Məhəmməd Mustafa (səlləllahu Təala əleyhi və səlləm), mübarək əlləriylə qoydu. Sonra növbə ilə; "Əbu Bəkir, daşını, mənim daşımın yanına qoysun! Ömər, daşını Əbu Bəkirin daşının yanına qoysun! Osman, daşını Ömərin daşının yanına qoysun! Əli, daşını Osmanın daşının yanına qoysun" buyurdu. Əmri yerinə yetirildikdən sonra oradakı Əshabi kiramına; "Siz də daşlarınızı düzün" buyurdu. Onlar da daşları düzməyə başladılar.

Məscidin tikilməsində, başda sevgili Peyğəmbərimiz olmaqla bütün Əshabi kiram dayanmadan, dincəlmədən işlədilər. Mübarək bellərində daş və kərpic daşıdılar. Daşla təməli bir metrə yarım tikib, qalanını kərpiclə hördülər. Rəsulullah (səlləllahu əleyhi və səlləm) bir dəfə, kərpic daşıyırdı. Əshabından biri yanına gəlib, çox ədəbli bir şəkildə; "Ey Rəsulallah! Nə olar, kərpici mənim daşımağıma icazə verin!" dedi. Xatəmulənbiya Rəsulullah, ona daha böyük bir nəzakətlə, özünün də savab qazanmağa daha çox möhtac olduğunu deyib kərpici vermədi. Onun da gedib daş gətirməsini tövsiyə etdi.

---

[128] İbn Sə'd, *ət-Təbəqat*, I, 239.

Məscidi Nəbəvinin tikilməsində ən çox çalışanlardan biri də Rəsulullah idi. Ən ağır daşları götürüb, mübarək sinəsi darala-darala ustaların yanına aparırdı. Bu daşları və kərpicləri daşıyarkən görülən işin qiymətini, qovuşulacaq ne'mətləri müjdələyərək Əshabını cuşa gətirirdi.

Rəsulullahin bu iş həvəsini görən müsəlmanlar, böyük bir həvəslə çalışırdılar. Hətta Əmmar ibn Yasir, hamı bir-bir kərpic daşıyarkən, o birini Cənabi Peyğəmbərimiz, birini də özü üçün aparırıdı. Bu halı Rəsulullah gördüyündə, yanına getdi. Mübarək əlləri ilə Həzrəti Əmmarın kürəyini vurub; "Ey Sümeyyənin oğlu! Sənin iki, başqalarının da bir əcri var" buyurdu. Məscidin divarları az bir müddətdə tikilib qurtarıldı və üstü örtüldü. Ayrıca, məscidə bitişik, Rəsulullah üçün kərpicdən iki otaq da tikildi. Bunların damı da xurma kötüyü və budaqlarıyla örtüldü. (Bu otaqlar daha sonra doqquza qədər çoxaldıldı). Məscidin inşası qurtarıldıqdan sonra, Cənabi Peyğəmbərimiz Həzrəti Xalid ibn Zeydin evindən özü üçün tikilən evə köçdü.[129]

## Xurma kötüyünün inildəməsi

Cənabi Peyğəmbərimiz, Cümə günləri məsciddəki Xənnanə adındakı bir xurma kötüyünə söykənərək, xütbə oxuyardı. Sonradan üç pilləli bir minbər düzəltdilər. Rəsulullah və Əshabi kiram bir Cümə günü Məscidi Nəbidə toplanmışdılar. Rəsulullah, xütbə üçün təzəcə minbərə çıxdığında, həmişə söykəndiyi quru xurma kötüyü, hamının eşidəcəyi qədər, boğaz dəvə ağlayışını xatırladan bir səslə ağlamağa və inildəməyə başladı. Bütün Əshabi kiram, heyrətlə bu səsi eşitdilər. Ancaq, səs heç kəsilmirdi. Bundan sonra Aləmlərin sahibi minbərdən düşdü və mübarək əlləri ilə kötüyü sığalladı. O anda, ağlama və inildəmə kəsildi. Quru xurma kötüyünün, Peyğəmbərimizə olan bu məhəbbətini və sevgisini görən Səhabilər, göz yaşlarını saxlaya bilmədilər.

Bu hədisə ilə əlaqəli Həzrəti Ənəs ibn Malik; "Məscid belə onun səsindən cuşa gəldi". İbni Əbi Vədaə də; "Xurma kötüyü, çatlayıb yerindən tərpəndi. Rəsulullah gəlib mübarək əlini üstünə qoydu və ondan sonra susdu" şəklində rəvayət etmişlər.

---
[129] İbn Kəsir, *əs-Sirə*, II, 280,

Cənabi Peyğəmbərimiz; “Canım yədi qüdrətində olan Allah Təalaya and içirəm ki, əgər onu sığallamasaydım, mənə qarşı olan həsrət və kədərindən qiyamətə qədər bu şəkildə ağlayacaqdı” buyurdu. Sonra Rəsulullahın əmri ilə xurma kötüyü basdırıldı.[130]

Başqa bir rəvayətdə belə nəql edilir ki; “Rəsul əleyhissalam quru xurma kötüyünə; “İstəyirsən səni əvvəlcə bitdiyin bağçaya əkim. Təzədən göyərib pöhrə ver və əvvəlki halına dön. İstəyirsən səni Cənnətdə əkim ki, Allah Təalanın dostları meyvəndən yesinlər” buyurdu. Rəsulullah, ona qulaq asıb belə dediyini eşitdi ki; “Məni Cənnətdə ək və məndən Allah Təalanın dostları yesin və çürüməyəcəyim bir yerdə olum”. Ağacın bu danışığını, Cənabi Peyğəmbərimizin yanında olanlar da eşitdi. Bundan sonra Rəsulullah, ona; “İstədiyini edəcəyəm” deyə cavab verdi. Sonra Əshabına üzünü tutub; “Dari bəqanı, dari fənadan (bu dünyadan) üstün tutdu” buyurdu.

## Həzrəti Aişə ilə evlənməsi

Sərvəri aləmlə (səlləllahu əleyhi və səlləm) Həzrəti Əbu Bəkir, hicrət etdiklərində uşaqlarını Məkkədə qoymuşdular. Rəsulullah, Həzrəti Xədicə anamizin vəfatından bir il sonra Həzrəti Aişə ilə Məkkədə nişanlanmışdı. İmam Buxarinin rəvayət etdiyi hədisi şərifdə, Həzrəti Aişə buyurmuşdur ki; “Rəsulullah mənə; “Ey Aişə! Sən, mənə iki dəfə yuxumda göstərilmişdin. Deyəsən mən, yaşıl ipəkli bir parçada sənin şəklini görmüşdüm və mənə; “Bu rəsmin sahibi gələcək xanımındır” deyilmişdi” buyurdu. Bu yuxudan sonra Cənabi Peyğəmbərimizlə Həzrəti Aişə anamız nişanlanmışdılar. Ancaq, toy etməmişdilər. Bunu, Həzrəti Aişə anamız belə nəql etmişdir; “Rəsulullah Mədinəyə hicrət etdiyi zaman, bizi və qızlarını Məkkədə qoymuşdu. Mədinəyə çatınca, azad etdiyi köləsi Zeyd ibn Harisə ilə Əbu Rafini, iki dəvə və ehtiyacları ola biləcək şeyləri almaq üçün 500 dirhəm pulla bizə göndərdi. Atam da, Abdullah ibn Ureyqıtı iki-üç dəvə ilə onlara qoşub, anamı, məni və bacım Əsmanı dəvələrə mindirərək göndərməsini, qardaşım Abdullaha məktub yazaraq əmr etdi. Mən, anam Ümmü Rumman və Rəsulullahın qızlarından Həzrəti Zeynəb birlikdə yola düşdük. Qubeyd bölgəsinə çatdığımızda, Zeyd, 500 dirhəmlə üç dəvə də aldı. Qafiləyə Təlhə ibn Ubeydullah da qoşuldu. Mina Bölgəsində Beyd deyilən yerə çatdığımız zaman, mənim dəvəm qaçdı. Mən, gəcavənin içindəydim. Anam da

[130] İbn Sə’d, *ət-Təbəqat*, I, 239; Qazı İyaz, *Şifayi Şərif*, s. 300-301.

yanımdaydı. Anam; "Ah qızım, ah gəlinim!" deyərək baş-gözünə vururdu. Allah Təala, dəvəmizi sakitləşdirdi və bizi xilas etdi. Axır ki, Mədinəyə gəldik. Mən, Atamın əhli əyalı ilə birlikdə düşdüm. Rəsulullahın əhli əyalı qalacaqları yerin qabağında düşdülər. Həzrəti Aişə anamız, atası Həzrəti Əbu Bəkirin evində bir müddət qaldı. Həzrəti Əbu Bəkir, bir dəfə Sərvəri aləm Rəsulullaha; "Ey Rəsulallah! Öz nişanlınla evlənməyinə nə mane olur ki?" deyə soruşdu. Rəsulullah; "Mehirdir" buyurdu. Həzrəti Əbu Bəkir, Rəsulullaha mehir pulu göndərdi.

Bundan sonra Həzrəti Aişə anamızın toyu oldu. O zaman Cənabi Peyğəmbərimiz əlli beş yaşında idi.[131] Həzrəti Aişə anamız, çox zəkalı və qabiliyyətli olub, hədisələri dərhal şe'r halında əzbərləyə bilirdi. Öyrəndiyi və əzbərlədiyi bir şeyi qətiyyən yaddan çıxartmazdı. Çox ağıllı, zəkalı, bilikli, ədəbli, namuslu idi. Yaddaşı çox güclü olduğu üçün, Əshabi kiram, bir çox şeyi ondan soruşub öyrənirdi. Ayədə də mədh edilmişdir.

## Əzani Məhəmmədi

Məscidi Nəbi inşa edildikdən sonra, namaz vaxtlarında, vaxtın gəlib çatdığını bildirəcək və müsəlmanları məscidə də'vət edəcək bir üsul yox idi. Təkcə; "Əssalətu Camia" deyilirdi.

Rəsulullah, bir dəfə Əshabıyla məsləhətləşərək, namaz vaxtlarında, mö'minlərin məscidə necə də'vət edilməsi lazım gəldiyini soruşdu. Bəzisi, namaz vaxtlarını bildirmək üçün, xristiyanlar kimi, naqus, yəni zəng çalaq, bəzisi, yəhudilər kimi edək, dedilər. Bəzisi də; "Namaz vaxtı od yandırıb yuxarı qaldıraq" deyə öz fikirlərini söylədilər. Rəsulullah bunlardan heç birini qəbul etmədi.[132]

Abdullah ibn Zeyd ibn Sə'ləbə və Həzrəti Ömər, yuxuda əzan oxunmasını gördülər. Həzrəti Abdullah, sevgili Peyğəmbərimizə gəlib yuxusunu belə danışdı; "Yaşıl bir şal və yaylıq bağlamış, əlində zəng tutmuş bir nəfər gördüm. Ona; "Əlindəki zəngi satırsan?" deyə soruşdum. Mənə; "O, nəyinə lazımdır ki?" soruşdu. Mən; "Namaz vaxtlarını xəbər vermək üçün çalacağam" deyincə, o adam; "Mən sənə daha xeyirlisini öyrədərəm" dedi və qibləyə üzünü çevirərək yüksək səslə; "Allahu əkbər, Allahu

---

[131] Buxari, "Mənaqibul-Ənsar", 44; Tirmizi, "Nikah", 18; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, I, 102.

[132] İbn Sə'd, *ət-Təbəqat*, I, 247; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, XII, 287; Əbu Ya'la, *əl-Müsnəd*, IX, 378.

əkbər...” deyə oxumağa başladı. Qurtardıqdan sonra da; “Namaza qalxacağın zaman da” deyib, əzanı təkrar etdi və axırında da, “Qad qamətissalətu” cümləsini əlavə etdi”.

Bundan sonra, Rəsulullah; “Yuxu haqdır. O sözləri Bilala öyrət, oxusun!” buyurdu. Buna əzan adı verildi.[133]

Həzrəti Bilal da, Məscidi şərifin yaxınlığında yerləşən hündür bir dama çıxaraq, ilk əzanı, özünə öyrədilən kimi oxudu.

Həzrəti Ömər, əzan səsini eşidincə, qaça-qaça Rəsulullahın yanına gəldi. Həzrəti Bilalın dediyi sözləri olduğu kimi yuxusunda gördüyünü söylədi. O gecə, Əshabi kiramdan bəziləri də eyni yuxunu görmüşdülər. Elə bu əsnada, Cümə surəsinin 9-cu ayəsi nazil olub, vəhy ilə də bildirilmiş oldu.

Bilali Həbəşi, bir dəfə sübh namazı vaxtında sevgili Peyğəmbərimizin qapısının qabağında; “Əssalətu xeyrun minənnovm” deyə iki dəfə səslənmişdi. Bunu Cənabi Peyğəmbərimiz bəyəndi. “Bilal, bu nə gözəl sözdür! Sübh əzanını oxuyarkən bunu da de” buyurdu. Beləcə sübh əzanında bu söz də deyilməyə başlandı.

Peyğəmbərimizin vəfatına qədər müəzzinlik edən Bilal Həbəşinin, səsi gur, çox gözəl və çox tə’sirliydi. O, əzan oxumağa başlayınca, hamı heyranlıqla və vəcdə gələrək qulaq asıb, məst olurdular. Əzan oxunarkən hamını ağladırdı. Əshabi kiramın, bir-birilərini namaz vaxtlarında məscidə əzanı şərif ilə də’vət etmələri, Mədinəli müşriklər ilə yəhudilərin xoşlarına gəlmədi. Əzan oxunarkən istehza edərdilər. Onların bu saymamazlıqlarına qarşı, Allah Təala, Qur’ani Kərimdə məalən; “Onlar, namaza əzan ilə də’vət etdiyiniz zaman, on istehza edib lağa qoyarlar. Bu da, onların ağılsız bir qövm olmaqlarındandır” buyurdu.[134]

## Əshabi kiramın tə’lim görməsi

Fəxri kainat (səlləllahu əleyhi və səlləm), Əshabi kiramına tə’lim keçmək və məlumatlandırmaq üçün, Məscidi Nəbəvidə tayı bərabəri olmayan söhbətlər edər, Allah Təalanın ona ehsan etdiyi feyz və bərəkətləri, onların qəlblərinə də axıdardı. Cənabi Peyğəmbərimizin söhbətinə qulaq asmaq şərəfinə nail olanlar, daha ilk söhbətdə qəlblərində böyük bir dəyişiklik hiss edər və çox yüksək ilahi mərifətlərə qovuşardılar.

[133] İbn Sə’d, *ət-Təbəqat*, I, 247.
[134] əl-Maidə 5/58.

Bu söhbətlərin bərəkətiylə Əshabi kiram, başda sevgili Peyğəmbərimiz olmaqla, bütün səhabə dostlarını canından çox sevərdilər. Allah Təala onları, ayələrlə mədh etmişdir. Onlar, Rəsulullahın qabağında, sanki başlarına quş qonmuş və hərəkət edincə uçub gedəcək kimi çox ədəbli və çox diqqətli dayanırdılar. Beləcə, Əshabi kiram peyğəmbərlərdən və böyük mələklərdən sonra məxluqatın ən fəzilətliləri və ən üstüləri oldular.

Allah Təala, Qur'ani Kərimdə məalən; "Siz ümmətlərin ən yaxşısı, ən xeyirlisi oldunuz, insanların yaxşılığı üçün yaradıldınız. Yaxşılıq edilməsini əmr edər, pisliklərə mane olarsınız..."[135] "Əvvəlcə müsəlman olanlardan, Muhacirlərin və Ənsarın başda gələnlərindən və bunların yolunu davam etdirənlərdən Allah Təala razıdır və bunlar da, Allahu Təaladan razıdırlar. Allah Təala bunlar üçün, Cənnətlər hazırladı. Bu Cənnətlərin altından çaylar axmaqdadır. Bunlar Cənnətlərdə əbədi olaraq qalacaqdırlar".[136]

"Məhəmməd (səlləllahu əleyhi və səlləm), Allah Təalanın peyğəmbəridir və Onunla birlikdə olanların, (yəni Əshabi kiramın) hamısı kafirlərə qarşı sərtdirlər. Ancaq, bir birilərinə qarşı mərhəmətli, yumuşaqdırlar. Bunları çox vaxt rükuda və səcdədə görərsiniz. Hamıya, həm bu dünyada, həm də axirətdə hər bir yaxşılığı Allah Təaladan istəyərlər. Ridvanı, Allah Təalanın onları bəyənməsini də istəyərlər. Çox səcdə etdikləri, üzlərindən bilinir. Onların halları, şərəfləri beləcə Tövratda və İncildə də bildirilmişdir. İncildə də xəbər verildiyi kimi, onlar, əkinə bənzəyər, nazik bir pöhrə yerdən çıxıb qalınlaşdığı, böyüdüyü kimi, az və gücsüz olduqları halda, qısa zamanda ətrafa yayıldılar. Hər tərəfi iman nuru ilə doldurdular. Hamı pöhrənin halını görüb, qısa zamanda necə büyüdü deyərək, heyrət etdikləri kimi, hal və şanları dünyaya yayılıb, görənlər heyrətə düşdü və kafirlər buna qəzəbləndilər".[137] buyurdu.

Cənabi Peyğəmbərimiz də hədisi şəriflərində, Əshabi kiramın böyüklüyünü, dərəcələrinin yüksəkliyini izah üçün; "Əshabımın heç birinə söz atmayın. Onların şan-şöhrətlərinə yaraşmayan bir şey söyləməyin! Canım əlində olan Allah Təalaya and içirəm ki, sizin biriniz Ühüd dağı qədər qızıl sədəqə versə, Əshabımdan birinin bir

---

[135] Ali İmran 3/110.
[136] ət-Tövbə 9/100.
[137] əl-Fəth 48/29.

mud[138] arpası qədər savab ala bilməz" və "Əshabım göydəki ulduzlar kimidir. Hansını təqlid edərsəniz xilas olarsınız" buyurdu.

## Əshabi suffə

Cənabi Peyğəmbərimiz, Məscidi Nəbəvinin şimal cəhətindəki divarına xurma budaqlarıyla bir kölgəlik düzəltdirdi. Burada Məkkədən hicrət edən, var-dövləti olmayan, subay səhabilərin qalmalarını əmr etdi. Sayları bəzən on, bəzən də dörd yüz olan bu səhabilər,[139] Rəsulullahın yanından heç ayrılmaz və söhbətindən heç dala qalmazdı. Gecə-gündüz Qur'ani Kərim oxuyar, elm öyrənər, hədisi şərifləri əzbərləyərdilər. Günlərinin çoxunu oruc tutaraq keçirdər, ibadət və itaətdən bir an belə ayrılmazdılar.

Burada yetişənlər, yeni müsəlman olan qəbilələrə göndərilir, onlara Qur'ani Kərimi və sünnəti şərifləri, yəni İslam dinini öyrədirdilər. Həddən artıq fəzlətlərə sahib olan bu mübarək səhabilər, böyük bir irfan ordusu idilər. Cənabi Peyğəmbərimiz, onları çox sevər, onlarla oturub söhbət edər və birlikdə yemək yeyərdi. Burada qalanlara Əshabi suffə deyilirdi.

Rəsulullah bir dəfə Əshabi suffəyə baxıb, çox kasıb olduqlarını düşündü. Belə olduqları halda qəlb rahatlığı və parlaqlığı ilə ibadət edirdilər. Cənabi Peyğəmbərimizin onlara rəhmi gəlib, onlara; "Ey Suffə əshabı! Sizə müjdələr olsun. Əgər ümmətimdən, sizin kimi bu çətin şərtlərə razı olan bir nəfər qalsa, o, əlbəttə mənim dostlarımdandır" buyurdu.

Həbibi əkrəm (səlləllahu əleyhi və səlləm), hər şeydən əvvəl bu seçilmiş Əshabının ehtiyac gördüyü şeyleri tə'min edər, sonra Əhli beytinin ehtiyaclarını tə'min etməyə çalışardı. Əbu Hüreyrə belə nəql etmişdir ki; "Özünden başqa ilah olmayan Allahu Təalaya and içirəm ki, mən bəzən aclıqdan qarnım üstündə uzanar, bəzən də yerdən götürdüyüm bir daşı qarnıma basardım. Bir dəfə də bu vəziyyətdə idim. O gün Rəsulullahın məscidə gəldiyi yolun üstündə oturmuşdum. O əsnada aləmlərə rəhmət

---

[138] Məhəmməd peyğəmbər zamanında bir ölçü vahidi. İslamiyyətin ilk illərində 1 mud 4 sa-ya (1 sa 3, 24 kq) bərabər idi. Bax: Walter Hinz, *İslamda Ölçü Sistemləri*, s. 56.
[139] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 235; İbn Sə'd, *ət-Təbəqat*, I, 255;

olaraq göndərilən iki cahanın bəzəyi, ətrafına nur saçaraq yanıma gəldi. Vəziyyətimi başa düşüb gülümsədi və; “Ey Əba Hüreyrə!” buyurdu. Mən; “Canım sənə fəda olsun, buyur ey Rəsulallah!” deyincə; “Mənimlə gəl” buyurdu. Dərhal arxasınca getdim. Xanəyi səadətlərinə girdi. Evdə bir qab süd vardı. “Get, Əhli suffəni də bura çağır” buyurdu. Onları çağırmak üçün gedərkən öz-özümə; “Bütün suffə əhlinə bir qab süd görəsən necə bəs edəcək? Mənə də bir qurtum çatar ki?” deyə fikirləşirdim. Onları çağırdım, səadətxanəyə gəldik, icazə alıb içəri girdik, münasib yerlərdə oturduqdan sonra, Rəsulullah; “Ey Əba Hüreyrə! Bu süd qabını götür, onlara ver!” buyurdu. Mən də qabı götürüb, növbə ilə dostlarıma verdim. Hər biri qabı götürüb doyuncaya qədər içir, sonra da qabı mənə qaytarırdı. Hər biri içdikdən sonra da, qabdakı südün heç azalmadığını, eləcə südlə dolu olduğunu görürdüm. Bu şəkildə, gələn bütün dostlarıma süd verdim. Hamısı içib doydular. Sonra Rəsulullah (səlləllahu əleyhi və səlləm) qabı götürüb, mənə gülümsədi və; “Ey Əba Hüreyrə! Süd içməyən təkcə mən və sən qaldıq. Sən də otur, iç!” buyurdu. Oturub içdim. “Yenə iç!” buyurdu, içdim. Rəsulullah, bir neçə dəfə “iç!” buyurdu. Mən də hər dəfədə içdim. Axırda; “Anam-atam sənə fəda olsun ey Rəsulallah! Artıq içə bilməyəcəyəm. Səni haqq din ilə göndərən Allah Təalaya and içirəm ki, əməlli başlı doydum” dedim. “Elə isə qabı mənə ver” buyurdu. Mən də verdim. Allah Təalaya həmd və səna etdikdən sonra, bismillah deyərək südü içdi”.

Məsciddə Rəsulullahın heç bir söhbətini qaçırtmadan elm öyrənən bu seçilmiş Əshaba qarşı, Mədinəli səhabilər çox məhəbbət göstərərdilər. Bir axşam, aclıqdan heyi qalmayan Suffədən bir səhabi, Rəsulullahın yanına gəlib, halını ona dedi. Cənabi Peyğəmbərimiz, ailəsindən evdə yeməyə nə var, deyə soruşdu. “İndi evdə sudan başqa bir şey yoxdur” cavabını alınca, orada olan Əshabına; “Kim bu acı qonaq saxlayar?” buyurdu. Əshabi kiramdan Mədinəli biri, hamıdan əvvəl; “Anam-atam sənə fəda olsun ey Rəsulallah! Onu mən qonaq edərəm”dedi.

Qonağıyla evinə gedib xanımına; “Rəsulullahın qonağı üçün yemək hazırla” dedi. Xanımı; “İndi evimizdə uşaqların yeməyindən başqa bir şey yoxdur” deyə cavab verdi. O; “Əvvəlcə uşaqları yatırt. Sonra o yeməyi gətir” deyən səhabi, ancaq bir nəfərə bəs edəcək qədər olan yeməyi götürüb qonağın otağına apardı. Süfrəni hazırlayıb qonağı yeməyə də’vət etdi. Yeməyə birlikdə başladıqdan sonra qalxdı, lampanı bir bəhanə ilə söndürdü. Gəlib qaranlıqda süfrənin başında oturdu. Özünü elə göstərdi ki, guya o da yemək yeyir və beləcə qonağın doymasını gözlədi. Qonaq doyduqdan sonra

süfrəni yığışdırdı. O gecə, uşaqları ilə sabaha qədər ac qaldılar. Səhər tezdən Cənabi Peyğəmbərimizin yanına getdiklərində; Resulullah; “Allah Təala bu gecəki hərəkətinizdən xoşnud oldu” buyurdu. Bundan sonra Allah Təala, Həşr surəsinin 9-cu ayəsini göndərərək məalən, “Onların (Ənsar) özləri yoxsulluq və kasıblıq çəksə də, (Muhacirləri) öz canlarından üstün tutarlar” buyurdu.

## Cəbrayıl hədisi

Rəsulullah, Əshabına, dinimizin əmr və qadağalarını təfsilatıyla izah edər, öyrədər, imanın, İslamın şərtləri, namaz, oruc, həcc, zəkata dair bütün hökmləri, ayələrin təfsiri, haram və halal olan yeməklər, geyimlər, and içmə, nəzir, kəffarətlər, ticarət qayda-qanunları, yemək-içmək, geyinmə, görüşmə-danışma, salamlaşma ədəbi, qonşuluq, qohumluq və dostluq münasəbətləri, evlənmə, nəfəqə, vərasət və miras hökmləri, cinayətlər, cəzalar, müqavilələr və ortaqlıqlar, sağlamlıq, düşmənla qarşı-qarşıya gəlmə, müharibə hüqüqu kimi bütün “İslam Dini”ni, hamının başa düşəcəyi şəkildə izah edər, əhəmiyyətli gördüyü bir məsələni də, üç dəfə təkrar edərdi.[140] Qadınlara məxsus məlumatları da, Mübarək Xanımları vasitəsiylə öyrədirdi.

Müsəlmanların qəhrəman imamı, Əshabi kiramın məşhurlarından biri olan və həmişə doğru danışmaqla tanınan, sevgili böyüyümüz Ömər ibn Xəttab (Allah ondan razı olsun) buyurur ki; “Elə bir gün idi ki, Əshabi kiramdan bir neçəmiz, Rəsulullahın (səlləllahu əleyhi və səlləm) yanında idik və ona qulluq edirdik. O gün, o saat, elə şərəfli, elə qiymətli və heç ələ düşməz bir gün idi. O gün, Rəsulullahın söhbətində, yanında olmaqla şərəflənmək, ruhlara qida olan, canlara zövq və səfa verən camalını görmək nəsib olmuşdu. (Bu günün şərəfini, qiymətini ifadə edə bilmək üçün; “Elə bir gün idi ki...” buyurdu. Cəbrayıl əleyhissalamı insan şəklində görmək, onun səsini eşitmək, qulların möhtac olduğu məlumatı, çox gözəl və açıq şəkildə, Rəsulullahın mübarək ağzından eşitmək nəsib olduğu bir gün kimi şərəfli və qiymətli bir gün tapılar?)

O vaxt, ay kimi işıq saçan bir nəfər yanımıza gəldi. Paltarı çox ağ, saçları şox qara idi. Üzündə toz, torpaq, tər kimi uzaq səfərdən gələnlərin xüsusiyyətinə oxşar bir hal yox idi. Rəsulullahın Əshabı olan bizlərdən, heç birimiz onu tanımırdıq. Yəni,

[140] Tirmizi, *Şəmaili Şərif*, s. 240.

görüb-tanış olduğumuz bir adam deyildi. Rəsulullahın yanında oturdu. Dizlərini, mübarək dizlərinə söykədi. (Bu gələn, Cəbrayıl idi. İnsan cildinə girmişdi. Cəbrayıl əleyhissalamın belə oturması, əhəmiyyətli bir şeyi xəbər vermək üçün idi. Yəni, dini məlumatları öyrənmək üçün utanmanın doğru olmadığını və müəllimə lovğalıq və təkəbbürlülük yaraşmayacağını göstərməkdədir. Hamının, dində öyrənmək istədiklərini, müəllimlərə utanmadan və çəkinmədən soruşması lazım gəldiyini, Cəbrayıl əleyhissalam Əshabi kirama, bu şəkildə başa salmışdı. Çünki, din öyrənməkdə utanmaq və Allah Təalanın haqqını ödəməkdə, öyrətməkdə və öyrənməkdə tərəddüd etmək doğru deyildir).

O zatı şərif, əllərini Rəsuli əkrəmin mübarək dizləri üstünə qoydu və; “Ey Rəsulallah! Mənə İslamiyyəti, müsəlmanlığı başa sal” dedi.

Rəsuli əkrəm buyurdu ki; “İslamın şərtlərindən birincisi, “Kəlimeyi şəhadət” gətirməkdir. (Kəlimeyi şəhadət gətirmək demək, “Əşhədu ən la ilahə illallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsuluh” söyləməkdir. Yəni, ağıllı, həddi-buluğa çatan və danışa bilən bir şəxsin; “Yerdə və göydə, Ondan başqa ibadət edilməyə və itaətə layiq heç bir şey və heç bir şəxs yoxdur. Həqiqi mə’bud, ancaq Allah Təaladır. O, vacibulbədəndur. Hər üstünlük Ondadır. Onda heç bir qüsur yoxdur. Onun adı Allahdır” deməsi və buna qəlb ilə qəti olaraq inanmasıdır. Eyni şəkildə o; “O, gül rəngli, ağ, qırmızı, parlaq, sevimli üzlü, qara qaşlı və qara gözlü, mübarək alnı açıq, gözəl xasiyyətli, kölgəsi yerə düşməyən və şirin dilli, Ərəbistanda Məkkədə doğulduğu üçün Ərəb deyilən, Haşım övladından Abdullahın oğlu Məhəmməd adındakı zati ali, Allah Təalanın qulu və rəsulu, yəni peyğəmbəridir” deməsidir).

“Vaxtı girincə namaz qılmaqdır. Malın zəkatını verməkdir. Ramazan ayında hər gün oruc tutmaqdır. İmkanı olanın ömründə bir dəfə həccə getməsidir”.

O zat, Rəsulullahdan bu cavabları eşidincə; “Doğru dedin ey Rəsulallah!” dedi. Biz də; “Həm sual verir, həm də onu təsdiq edir!” deyə onun bu sözünə çaşıb qaldıq. Bu zat yenə; “Ey Rəsulallah! İmanın nə olduğunu da mənə de” dedi.

(Bu hədisi şərifdə, imanın lüğət mənası başa düşülməməlidir. Çünki lüğət mənası, təsdiq və inanmaq demək olduğundan, Cahiliyyə ərəblərindən hər bir nəfər belə bu mənanı bildikləri halda Əshabi kiramın (Allah onlardan razı olsun) bilməmələri mümkün deyildi. Cəbrayıl əleyhissalam, imanın mənasını Əshabi kirama öyrətmək istəyirdi. Burada, İslamiyyətdə nəyə iman deyildiyi soruşulmaqdadır). Rəsulullah

(səlləllahu əleyhi və səlləm) də, imanın altı şeyə inanmaq olduğunu belə söylədi; "Birincisi, Allah Təalaya, mələklərinə kitablarına, elçilərinə, axirət gününə, qəzavü-qədərə, xeyir və şərrin Allah Təaladan olduğuna inanmaqdır". O zat, bu dəfə də; "Doğru dedin" deyərək təsdiq etdi... Sonra təkrar; "Ey Rəsulallah! Ehsanın nə olduğunu da mənə de" dedi. Rəsulullah; "Allah Təalaya; "Sanki Onu görürsənmiş kimi ibadət etməkdir. Çünki hər nə qədər də sən Onu görmürsənsə də, O səni şübhəsiz görür" buyurdu. O zat təkrar; "Ey Rəsulallah! Mənə qiyamətdən xəbər ver!" dedi. Rəsul əleyhissalam; "Bu məsələdə sorulan şəxs soruşandan daha çox məlumata sahib deyildir" buyurdu. O zat təkrar; "O halda onun əlamətlərini təsvir et" dedi. Rəsulullah, "Cariyələrin (Kənizlərin) öz sahiblərini dünyaya gətirmələri, ayaqyalın, lüt-üryan, kasıb çobanların (varlı olaraq) hündür bina tikməkdə bir-biriləriylə yarışdığını görməyindir" buyurdu. Bundan sonra çıxıb getdi.

Rəsulullah, mənə tərəf üzünü tutub; "Ey Ömər! Soruşan adamın kim olduğunu bilirsən?" deyə soruşdu. Mən; "Allah Təala və Rəsulu daha yaxşı bilir" dedim. Rəsulullah; "O Cəbrayıl idi. Sizlərə dininizi öyrətmək üçün gəldi" buyurdu.[141]

Cənabi Peyğəmbərimiz, Əshabına, dindəki dərəcələrinə görə, başa düşəcəkləri şəkildə izah edərdi. Əshabi kiramın ən məşhurlarından olan Həzrəti Ömər, bir dəfə yoldan keçərkən, Rəsulullahın Əbu Bəkri Siddiqə bir şey başa saldığını gördü. Yanlarına gedib qulaq asdı. Bunu başqaları da gördü, ancaq, gəlib qulaq asmağa utandılar. Sabahsı gün, Həzrəti Öməri görüncə; "Ey Ömər! Rəsulullah dünən sizə bir şey başa salırdı, Bizə də de ki, biz də öyrənək" dedilər. Çünki Rəsulullah həmişə; "Məndən eşitdiklərinizi, din qardaşlarınıza da çatdırın! Bir-birinizə xəbər verin!" buyurardı. Həzrəti Ömər; "Dünən Həzrəti Əbu Bəkir, Qur'ani Kərimdən başa düşmədiyi bir ayənin mənasını soruşmuşdu. Rəsulullah da ona başa salırdı. Bir saat qulaq asdım, heç bir şey başa düşmədim" dedi. Çünki, Rəsulullah Həzrəti Əbu Bəkirin uca mərtəbəsinə görə başa salırdı. Həzrəti Ömərin mərtəbəsi də o qədər uca idi ki, Rəsulullah; "Mən peyğəmbərlərin sonuncusuyam. Məndən sonra peyğəmbər gəlməyəcəkdir. Əgər, məndən sonra peyğəmbər gəlsəydi, Ömər peyğəmbər olardı, buyurmuşdu.

---

[141] Buxari, "İman", 32; Müslim, "İman", 1; Əbu Davud, "Sünət", 17; Nəsai, "İman", 5; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 27, 51.

Belə uca mərtəbəsi olduğu və ana dili olan Ərəbcəni çox yaxşı bildiyi halda, Qur'ani Kərimin Həzrəti Əbu Bəkirə izah edilən təfsirini başa düşə bilmədi. Əbu Bəkirin mərtəbəsi, ondan daha çox yüksək idi. Həzrəti Əbu Bəkir, hətta Cəbrayıl əleyhissalam belə, Qur'ani Kərimin mənasını, sirlərini, Rəsulullaha soruşardı.

Rəsulullah, Qur'ani Kərimin hamısının təfsirini Əshabına izah etmişdi. Sevgili Peyğəmbərimiz, bu şəkildə Əshabına dini öyrətdiyi kimi, hüquqi məsələlərlə də maraqlanır, şahidlərin ifadələrinə qulaq asaraq, ən çətin işləri belə ədalətli bir şəkildə həll edərdi.

## Səlmani Farisinin müsəlman olması

Gün keçdikcə İslamın nuru yayılmağa, Cənabə Rəsulullahın mübarək adı eşidilincə qəlblərdə yer tutmağa başladı. Onun gəlməsini həsrətlə gözləyən elm mənsubları, arayış içində ve həyəcanla Mədinəyə gələrək, iman etməklə şərəflənirdilər. Bunlardan birisi də Səlmani Farisi həzrətləri idi. O, müsəlman olmasını belə nəql etmişdir ki; "Mən Farisin (İran), İsfahan şəhərinin Cəy kəndindən idim. Atam kəndin ən varlısı olub, tarlamız və malımız çox idi. Evin yeganə və çox sevilən uşağıydım. Bunun üçün məni qız kimi böyüdərdi. Evdən çıxmağıma icazə verməzdi. Məcusi olduğu üçün, mənə məcusiliyi istədiyi kimi çox yaxşı öyrətdi. Evdə həmişə bir ocaq yanar, biz də ona sitayiş edər, səcdə edərdik. Atamın var-dövləti çox olduğu üçün, məni bir dəfə ətrafı gəzdirib; "Oğlum! Mən öldüyüm zaman bu malların sahibi sən olacaqsan, onun üçün, get mallarını və ərazilərini tanı" dedi. Mən də "Oldu" deyib bağlarımızı gəzdim.

Bir dəfə tarlalara baxmağa getdiyimdə, bir kilsəyə rast gəldim. Xristiyanların səslərini eşitdim, yanlarına gedincə içərdə ibadət etdiklərini gördüm. Mən, daha əvvəl belə bir şey görmədiyim üçün, heyrət etdim. Çünki bizim ibadətimiz ocaq qalayıb, ona səcdə etməkdən başqa bir şey deyildi. Onlar isə, görünməyən bir Allaha ibadət edirdilər. Öz-özümə; "Vallahi, bunların dini haqdır və bizimki batildir" dedim. Axşama qədər onları maraqla seyr etdim. Tarlalarımıza getmədən əvvəl qaranlıq düşməyə başladı. Onlara; "Bu dinin mərkəzi hardadır?" deyə soruşunca; "Şamdadır" dedilər. Sonra; "Şama getsəm məni də qəbul edərlər görəsən?" deyə soruşunca da; "Bəli, qəbul edərlər" deyə cavab verdilər. Mən; "Sizlərdən kim bu yaxında Şama gedəcək görəsən?" deyə

soruşunca, onlar, bir müddət sonra bir karvanın gedəcəyindən bəhs etdilər. Danışdığım adamlar az idilər və Şamdan İsfahana gəlmişdilər.

Mən bunlarla məşğul ikən evə getməyə gecikdim. Mənim qayıtmadığımı görən atam, məni axtarmağa başlamış və adam göndərmişdi. Axtarsalar da tapa bilməmişdilər. Onlar səksəkə içindəykən mən evə qayıtdım. Atam; "Bu vaxta qədər hardaydın? Səni axtarmadığımız yer qalmadı" dedi. Mən də; "Atacan! Mən bu gün tarlaları gəzməyə çıxmışdım. Ancaq yolda bir xristiyan kilsəsinə rast gəldim. İçəri girib baxdım ki, görmədikləri və hər şeyə hakim və qadir olan bir Allaha iman edirlər. Onların ibadətlərinə mə'təl qaldım. Axşama qədər onları seyr etdim. Onların dininin haqq olduğunu başa düşdüm" dedim. Bunu eşidən atam; "Ey oğlum! Səhv fikirləşirsən, atalarının və babalarının dini, onların dinindən daha doğrudur. Onların dini doğru deyildir. Nə badə onlara inanasan!" dedi. Mən də; "Xeyr, onların dini bizimkindən daha xeyirlidir və onlarınkı haqq, bizimki batildir" dedim. Atam, buna çox əsəbiləşdi və məni əl-ayaqlarımdan bağlayaraq evə həbs etdi.

Bu halda ikən, hey Şama gedəcək karvandan xəbər gözləyərdim. Axırda xristiyan rahiblərin, karvanı hazırladıqlarını öyrəndim. İplərimi açıb qaçdım və karvanın olduğu kilsəyə getdim. Buralarda qala bilməyəcəyimi başa saldım və karvana qoşularaq Şamın yolunu tutdum. Şamda xristiyan dininin ən büyük alimini soraqlaşdım. Mənə birini göstərdilər, onun yanına gedib halımı başa saldım. Yanında qalmaq istədiyimi, ona qulluq edəcəyimi söyləyib, xıristiyanlığı öyrətməsini, Allahu Təalanı tanıtmasını xahiş etdim. O da qəbul etmişdi. Artıq ona qulluq etməyə, kilsənin işlərini görməyə başlamışdım. O da mənə xristiyanlığı öyrədirdi.

Ancaq sonradan onun pis adam olduğunu başa düşdüm. Çünki xristiyanların, kasıblara vermək üçün gətirdikləri sədəqə, qızıl və gümüşləri gizlədər, ehtiyacı olanlara verməzdi. Tam yeddi küp qızıl və gümüş yığmışdı. Bunu məndən başqa bilən yox idi. Bir müddət sonra o vəfat etti. Xristiyanlar dəfn üçün toplandılar. Onlara; "Niyə buna bu qədər hörmət edirsiniz, halbuki o hörmətə layiq bir insan deyildir!" dedim. Onlar; "Sən bunu hansı dəlilə görə deyirsən?" soruşdular və mənə inanmadılar. Mən də yığdığı qızılların yerini göstərdim. Yeddi küp qızılı və gümüşü çıxartdılar, sonra; "Bu, dəfn

edilməyə layiq bir adam deyildir" deyərək bir yerə atıb üstünü daşla örtdülər. Yerinə başqa birisi keçdi.[142]

Bu zat həqiqətən də elm sahibi zahid bir adam olub, dünyaya heç əhəmmiyət verməzdi. Axirət üçün çalışan biri idi və həmişə axirət üçün çalışır, gəcə-gündüz ibadət edərdi. Onu çok sevdim və uzun bir müddət yanında qaldım. Könüllü olaraq ona qulluq edərdim. Birlikdə ibadət edərdik.

Bir dəfə ona; "Ey mənim ağam! Uzun zamandan bəri yanınızdayam və sizi çox sevdim. Çünki Allahu Təalanın əmrlərinə itaət edir və qadağan etdiklərindən də uzaq durursunuz. Vəfat etdiyiniz zaman, mən nə edim, mənə nə tövsiyə edirsiniz?" deyə soruşdum. Cavab olaraq; "Oğlum, Şamda insanları doğru yola də'vət edəcək bir adam qalmadı. Kimin yanına getsən səni yoldan çıxardar. Ancaq Mosulda bir nəfər vardır ki, Onu axtarıb tapmağını tövsiyə edirəm" dedi.

Vəfat edincə, Mosula getdim, təsvir etdiyi şəxsi tapdım və başıma gələnləri ona danışdım. Məni özünə xidmət etmək üçün qəbul etdi. O da, digər şəxs kimi çox qiymətli, dünyaya meyl etməyən və həmişə ibadət edən bir adam idi. Ona da uzun zaman xidmət etdim. Ancaq bir dəfə xəstələndi. Vəfat zamanı, eyni sualları ona da soruşdum. Mənə, Nusaybində bir adamı tövsiyə etdi. Vəfatından sonra vaxt itirmədən Nusaybinə getdim. Söylədiyi adamı tapıb, yanında qalmaq istədiyimi bildirdim. Qəbul etdi, bir müddət də ona qulluq edib yanında qaldım. Xəstələnincə, məni başqa birinə göndərməsini söylədim. Bu səfər mənə Ammuriyyə deyilən Rum şəhərində yerləşən başqa bir adamın yanına göndərdi. Vəfatından sonra Ammuriyyəyə tərəf yola çıxdım. Söylədiyi bu şəxsi də tapıb, ona qulluq etməyə başladım və xeyli vaxt orda qaldım.

Onun da vəfatı yaxınlaşdı. Məni birinə tapşırmasını xahiş edincə; "Vallahi indi belə bir adam tanımıram. Ancaq, sonuncu peyğəmbərinin gəlməsi yaxınlaşdı. O, Ərəblar arasından çıxacaq, vətənindən hicrət edib, daş-kəsək içində xurması bol bir şəhərə yerləşəcək. O, hədiyyəni qəbul edər, ancaq sədəqəni qəbul etməz. Kürəyinin ortasında nübüvvət möhürü vardır" deyərək əlamətlərini sadaladı. Bu adam da vəfat edincə, söylədiklərinə əməl edərək Ərəb diyarına getməyə qərar verdim.

Ammuriyyədə bir az pul qazanıb, bir neçə öküzlə bir neçə qoyun almışdım. Bəni Kəlb qəbiləsindən bir qafilə, Ərəb diyarına gedəcəkdi. Onlara; "Bu düyə və

---

142 Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, V, 441; Süheyli, *ər-Rövzul-Unf*, I, 371.

qoyunlar sizin olsun, təki məni Ərəb vilayətinə aparın!" deyincə, təklifimi qəbul edib özləriylə birlikdə getməyimə icazə verdilər. Vadil-Qura deyilən yerə gəlincə, məni aldadıb, kölədir deyərək bir yəhudiyə satdılar. Yəhudinin qaldığı yerdə xurma bağları gördüm. "Sonuncu peyğəmbərin hicrət edəcəyi yer hər halda buradır" deyə fikirləşdim. Ancaq heç cürə alışa bilmədim. Bu yəhudiyə bir müddət qulluq etdim. Sonra məni əmisi oğluna satdı. O da alıb Mədənəyə gətirdi. Mədənəyə çatınca, buranı sanki əvvəlcədən görmüşəm kimi alışdım. Artıq günlərim Mədənədə keçir, məni pulla alan yəhudinin bağında-bostanında işləyir, ona qulluq edirdim. Bir tərəfdən də əsl məqsədimə qovuşmağımı səbirsizliklə gözləyirdim.

Bir dəfə, bir xurma ağacına çıxıb iş görürdüm. Sahibim, biri ilə bir ağacın altında nəsə danışırdı. Bu arada; "Evs və Həzrəc qəbilələri həlak olsunlar. Məkkədən bir adam Qubaya gəldi. Peyğəmbər olduğunu iddia edir. Bu qəbilələlər də Onu qəbul edib dininə girirlər..." deyə öz aralarında danışdılar. Mən bu sözləri eşidincə, özümü itirdim. Dərhal aşağı düşüb, o adama; "Nə danışırsan?" dedim. Sahibim mənə; "Nəyinə lazımdır, niyə soruşursan ki? Sən işinlə məşğul ol!" deyərək mənə bir şillə vurdu. O gün axşam olunca, bir miqdar xurma götürüb, özümü Qubaya çatdırdım. Rəsulullahın (səllallahu əleyhi və səlləm) yanına gedib; "Sən salih bir adamsan, yanında da kasıblar vardır. Bu xurmaları sədəqə gətirdim" dedim.

Rəsulullah, yanında duran Əshaba; "Gəlin xurma yeyin" buyurdu. Onlar da yedilər. Ancaq özü heç yemədi. Öz-özümə; "Bax əlamətin biri budur. Sədəqə qəbul etmir" dedim. Cənabi Rəsulullah Mədinəyə təşrif etdikdən sonra, yenə bir miqdar xurma götürüb, Rəsulullaha gətirdim. "Bu, hədiyyədir" dedim. Bu dəfə yanındakı Əshab ilə birlikdə yedi. "Bax bu da ikinci əlaməti" dedim. Götürdüyüm xurma təxminən iyirmi beş idi. Halbuki yeyilən xurma toxumları təxminən min ədəd idi. Cənabi Rəsulullahın mö'cüzəsiylə xurma artmışdı. Öz-özümə; "Bir əlamət də gördüm" dedim.

Bir dəfə yenə Rəsulullahın yanına getmişdim. Ölü dəfn edirdilər. Nübüvvət möhürünü görməyi arzu etdiyim üçün əməlli başlı yaxınlaşdım. Mənim məqsədimi başa düşüb, köynəyini qaldırdı. Mübarək kürəyi açılınca, nübüvvət möhürünü görən kimi o dəqiqə öpdüm və ağladım. O anda kəliməyi şəhadəti deyərək müsəlman oldum.

Sonra da Rəsulullaha, başıma gələn hadisələri bir-bir danışdım. Halıma təəccüb edib, bunu Əshabi kirama da danışmağımı göstəriş verdi. Əshabi kiram toplandı, mən də başıma gələn hadisələri təfislatıyla onlara danışdım...”[143]

Səlmani Farisi iman etdiyi zaman, Ərəb dilini bilmədiyi üçün, tərcüməçi istəmişdi. Gələn yəhudi tərcüməçi, onun sevgili Peyğəmbərimizi mədh etməyini tam tərsinə tərcümə edirdi. O əsnada Cəbrail əleyhissəlam gəlib, Həzrəti Səlmanın sözlərini olduğu kimi Rəsulullaha xəbər verdi. Yəhudi vəziyyəti başa düşüncə, kəliməyi şəhadət gətirərək müsəlman oldu.

Səlmani Farisi, müsəlman olduqdan sonra, bir müddət də kölə olaraq qaldı. Sevgili Peyğəmbərimizin; “Özünü köləlikdən qurtar ey Səlman” buyurmasından sonra, sahibinin yanına gedib, azad olmaq istədiyini söylədi. Buna məcburən razı olan yəhudi, üç yüz xurma ağacı əkərək xurma gətirincəyə qədər onlara qulluq etməsi və qırx uqiyyə qızıl (o zamankı ölçüyə görə bir miqdar qızıl) verməsi şərtiylə qəbul etdi.

Bunu, Cənabi Rəsulullaha xəbər verdi. O da, Əshabına; “Qardaşınıza kömək edin” buyurdu. Onun üçün üç yüz xurma ağacı topladılar. Cənabi Rəsulullah; “Bunların quyularını hazır edib, qurtardıqdan sonra mənə xəbər ver” buyurdu. Quyuları hazırlayıb, xəbər verincə, gəlib ağacları öz mübarək əlləriylə əkdi. Bir dənəsini də Həzrəti Ömər əkmişdi. Həzrəti Ömərin əkdiyindən başqa hamısı Allahu Təalanın izni ilə, o il xurma gətirdi. Cənabi Rəsulullah o bir dənə qurumuş ağacı da çıxardıb, öz mübarək əli ilə təzədən əkdi və əkdiyi anda xurma gətirdi.

Səlmani Farisi həzrətləri belə nəql etmişdir ki; “Bir dəfə, bir adam məni axtarır və; “Səlmani Farisi Mükatəbi fəqir (sahibi ilə azadlığına qovuşmaq üçün müəyyən bir miqdarda razılaşan kölə) hardadır?” deyə soruşurdu. Məni tapan kimi, əlindəki yumurta böyüklüyündəki qızılı verdi. Bunu götürüb Peyğəmbərimizin yanına getdim və vəziyyəti danışdım.

Rəsulullah qızılı yenə mənə qaytarıb; “Bu qızılı götür və borcunu ödə!” buyurdu. Mən; “Ey Rəsulallah! Bu qızıl yəhudinin istədiyi ağırlıqda deyil” deyincə, Cənabi Rəsulullah o qızılı götürüb, mübarək dilinin üstünə sürtdü. “Götür bunu! Allahu Təala bununla sənin borcunu verər” buyurdu. Allah haqqı üçün o qızılın ağırlığını

[143] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, V, 441; Süheyli, *ər-Rövzul-Unf*, I, 371.

ölçdüm, lazım olan qədər idi. Onu da götürüb verdim. Beləcə kölə olmaqdan canım qurtardı.[144]

Səlmani Farisi o gündən sonra, Əshabi suffəyə daxil oldu.

### Mələklər dinləmək üçün gəlirdi

Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) Qur'ani Kərimi elə gözəl, elə şirin və tə'sirli oxuyurdu ki, Ona qulaq asan müsəlman olmayanlar da heyran olurdular. Ona qulaq asaraq müsəlman olanların sayısı da çox idi. Həzrəti Bəra ibn Azib nəql etmişdir ki; "Bir xiftən namazından sonra Rəsulullahı, Tin surəsini oxuyarkən dinləmişdim, elə gözəl oxuyurdu ki, səsi və oxuyuşu Ondan daha nöqsansız olan bir nəfər eşitməmişdim".

Əshabi kiram arasında səsi çox gözəl olan, Qur'ani Kərimi oxuyarkən ağlayan və ağladanlar olduqca çox idi. Bunlardan biri də, Üseyd ibn Xudayr idi. Bir gecə, atını yanında bir yerə bağlayıb, Bəqərə surəsini oxumağa başladı. Oxuyarkən at birdən birə hürkdü. Həzrəti Üseyd susdu, at sakitləşdi. Oxumağa başlayınca, at yenə hürkdü. Susunca da sakitəşdi. Yenə oxumağa başlayınca, yenə hürkdü. Üseyd ibn Xudayrın oğlu Yəhya, ata yaxın bir yerdə yatırdı. Atın, uşağa bir zərər verməyindən qorxaraq, oxumağı kəsdi. Göyə baxdığında, ağ bulut kölgəsinə bənzəyən bir buludun içində, qəndil kimi parıldayan şeylər diqqətini cəlb etdi. Oxumağı kəsincə, o parıldayan şeylərin göyə tərəf yüksələrək getdiyini gördü. Səhər açılınca, sevgili Peyğəmbərimizin yanına gedib, başına gələnləri danışdı. Rəsulullah; "Onların nə olduğunu bilirsən?" deyə soruşunca, Həzrəti Üseyd; "Anam-atam sənə fəda olsun ey Rəsulallah! Bilmirəm" deyə cavab verdi. Cənabi Peyğəmbərimiz buyurdu ki; "Onlar mələklər idi. Sənin səsinə qulaq asmaq üçün yaxınlaşmışdılar. Əgər oxumağa davam etsəydin, səhərə qədər sənə qulaq asar, insanlar da onları görər və seyr edərdilər. Onlar, xalqın gözünə görünərdilər".

Qur'ani Kərimi çox yanqılı oxuyanlardan biri də Həzrəti Əbu Bəkri Siddiq idi. Namaz qılarkən oxumağa başlayınca, özünü saxlaya bilməz, mübarək gözlərindən yaş axardı. Görənlər bu halına heyran olurdular. Bir dəfə müşriklər yığılışıb; "Bu adam, peyğəmbərin gətirdiklərini yanqılı şəkildə oxuyaraq ağlayır. Uşaqlarımız və qadınlarımızın onun bu halına vurulub, müsəlman olmasından qorxuruq" demişdilər.

---

[144] Buxari, "Fəzailus-Səhabə", 81; Beyhəqi, *Dəlailun-Nübüvvə*, I, 467.

Sevgili Peyğəmbərimizin mübarək cəmalını görərək, Ona aşiq olanlardan, mübarək sözlərini və oxuduğu Qur'anı Kərimə qulaq asınca, heyran qalıb müsəlman olanlardan biri də Abdullah ibn Səllam Həzrətləridir.

Tövrat və İncili yaxşı bilən Abdullah ibn Səllam, iman etməmişdən əvvəl bir yəhudi alimi idi. Özü, müsəlman olmasını belə nəql edir; "Mən Tövratı və şərhlərini atamdan oxuyub öyrənmişdim. Bir dəfə atam, axır zamanda gələcək olan peyğəmbərin xüsusiyyətləri, əlamətləri və görəcəyi işləri mənə başa saldı və; "Əgər O, Harun övladından gəlsə, Ona tabe olaram. Yoxsa tabe olmaram!" dedi və Rəsulullahın Mədinəyə gəlişindən əvvəl öldü.

Rəsulullahın Məkkədə nübüvvətini e'lan etdiyini eşitdiyim vaxt, Onun xüsusiyyətlərini, adını və gələcəyi vaxtı bilirdim. Bu səbəblə, Onun yolunu gözlədim. Rəsulullahın Mədinə yaxınlığında Quba deyilən yerdəki Əmr ibn Əvf oğullarının evində qonaq olduğunu birindən öyrənincəyə qədər bu halımı yəhudilərə deməyib susdum.

Bir dəfə bağda xurma ağacından yaş xurma yığarkən, Nadir oğullarından biri, "Bu gün, Ərəblərin adamı gəldi" deyə bağırdı. Məni əsməcə tutmuşdu. Dərhal; "Allahu əkbər" deyərək təkbir gətirdim. O anda xalam Xalidə bint Haris, ağacın altında oturmuşdu. Çox yaşlı bir qadındı. Təkbir səsi eşidincə; "Allah əlini boşa çıxartsın və səni arzuna çatdırmasın. Vallahi sən, Musa ibn İmranın gələcəyini eşitsəydin bundan çoxlu sevinməzdin!" deyərək mənim üstümə bozardı. Ona; "Ey xala! O, vallahi Musa ibn İmranın qardaşıdır və Onun kimi bir peyğəmbərdir. Onun yolunda gedir və Onun göndərildiyi tövhid ilə göndərilmişdir" dedim.

Bundan sonra mənə; "Ey qardaşımın oğlu! Yoxsa O, qiyamətə yaxın göndəriləcəyi bizə xəbər verilən peyğəmbərdir?" dedi. "Bəli" dedim, "Elə isə haqlısan" dedi.[145]

Rəsulullah Mədinəyə hicrət etdiyi zaman, Onu görmək üçün dərhal camaatın arasına qarışdım. Mübarək cəmalını, nurlu üzünü görən kimi; "Onun üzü yalançı bir adamın üzü ola bilməz!" dedim. Rəsulullah, toplaşan insanlara İslamiyyəti izah edir, onlara nəsihət verirdi. Orada Rəsulullahdan eşitdiyim ilk hədisi şərif budur; "Salamı

[145] Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 400; Süheyli, *ər-Rövzul-Unf*, II, 373.

aranızda yayın, ac olanları doyuzdurun, qohum-əqrəbanı ziyarət edin, insanlar yuxuda ikən namaz qılın. Beləcə Cənnətə salamatlə girərsiniz".

Fəxri aləm (səlləllahu əleyhi və səlləm), məni nübüvvət nuru ilə tanıyıb; "Sən, Mədinə alimi ibni Səllam deyilsən?" buyurdu. Mən də; "Bəli" deyincə, sevgili Peyğəmbərimiz; "Yaxınlaş" buyuraraq, bu sualı soruşdu; "Ey Abdullah! Allahu Təala üçün de görək! Tövratda mənim xüsusiyyətlərimi heç oxuyub öyrənmədin?" Mən də; "Allah Təalanın sifətləri nələrdir, deyə bilirsiniz?" dedim. Bu sualın cavabında, Rəsulullah bir az dayandı və Cəbrayıl əleyhissalam İxlas surəsini endirdi; "Rəsulullahın oxuduğu bu surəni eşidincə, Peyğəmbərimizə dərhal; "Bəli, ey Rəsulallah! Düz deyirsən, şəhadət edirəm ki, Allah Təaladan başqa ilah yoxdur. Sən Onun qulu və Rəsulusan" deyərək kəlimeyi şəhadət gətirib müsəlman oldum".

Sonra; "Ey Rəsulallah! Yəhudilər, insanı mə'təl qoyan yalanlar deyib, əsilsız isnad və iftiralar söyləyən zalım bir millətdir. Əgər sən mənim xüsusiyyətlərimi və hər halımı onlardan soruşub öyrənməmişdən əvvəl, onlar mənim müsəlman olduğumu eşidib bilsələr, şübhəsiz sizin yanınızda mənə, ağla gəlməyən iftiralar edəcəklər. Siz, əvvəlcə məni onlardan soruşun!" dedim və evin bir küncündə gizləndim. Daha sonra yəhudilərin başda gələnlərindən bir qrup içəri girdi. Rəsulullah, yəhudilərə üzünü tutaraq; "Sizin camaatdan biri olan Abdullah ibn Səllam necə bir adamdır?" deyə soruşdu. Yəhudilər də; "O bizim ən böyük alimimizdir. Onun atası da ən böyük alimimiz idi! İbn Səllam bizim ən xeyirlimiz və ən xeyirlimizin də oğludur!" dedilər. Bundan sonra Rəsulullah, yəhudilərə; "Əgər o müsəlman olsa, siz buna nə deyərsiniz?" deyə soruşdu. Yəhudilər; "Allah onu belə bir şeydən qorusun!" deyə cavab verdilər.

O əsnada gizləndiyim yerdən çıxıb; "Ey yəhudi camaatı! Allah Təaladan qorxun! Sizə gələn şeyi qəbul edin. Allah Təalaya and içirəm, siz də bilirsiniz ki, əlinizdəki Tövratda adının və xüsusiyyətlərinin yazılmış olduğunu gördüyünüz Allah Təalanın rəsulu budur. Mən şəhadət edirəm ki, Allah Təaladan başqa ilah yoxdur. Yenə şəhadət edirəm ki, Məhəmməd əleyhissalam Onun qulu və rəsuludur" deyərək Onu təsdiq etdim. Bundan sonra yəhudilər; "O bizim ən pisimizdir və ən pisimizin də oğludur!" deyərək müxtəlif iftiralar edərək məni pislədilər. Mən; "Onsuz da qorxduğum bu idi. Ey Rəsulallah! Mən onların zalım, yalançı, pis, iftiraçı bir millət olduğunu sizə demişdim axı! Budur, hamısı üzə çıxdı!" dedim. Rəsulullah yəhudilərə; "Birinci şəhadətiniz bizim üçün kifayətdir, ikincisinə isə gərək yoxdur" buyurdu. Bundan sonra

dərhal evimə qayıtdım. Ailəmi və qohumlarımı İslamiyyətə də’vət etdim. Xalam da dahil hamısı müsəlman oldular.[146]

Mənim iman etməyim, yəhudiləri çox əsəbiləşdirdi. Bunun üçün məni sıxışdırmağa başladılar. Hətta yəhudi alimlərdən bəziləri; “Ərəblərdən peyğəmbər çıxmaz, sənin adamın hökmdardır” deyərək, məni İslamiyyətdən imtina etməyə təşəbbüs göstərdilərsə də, buna nail ola bilmədilər”.

Özü ilə birlikdə, Sə’ləbə ibn Sayə, Üseyd ibn Sayə, Əsəd ibn Übeyd və yəhudilərdən bəziləri səmimi şəkildə müsəlman oldular. Ancaq bəzi yəhudi alimləri; “Məhəmmədə təkcə bizim şərlilərimiz inandı. Əgər onlar xeyirlilərimizdən olsa idilər, atalarının dinini tərk etməzdilər” dedilər. Bundan sonra Allah Təala, onlara cavab olaraq ayə endirib, məalən buyurdu ki; “Onların (əhli kitabın) hamısı bir deyildir. Əhli kitabın içində ibadət və itaətdə möhkəm olan bir qrup vardır ki, onlar gecə vaxtlarında səcdəyə gedərək Allah Təalanın ayələrini oxuyarlar”.[147]

### Hicrətin birinci ilində baş verən digər bəzi hadisələr

Hicrətin birinci ilində, Ənsardan Əs’ad ibn Zürarə, Bəra ibn Mərur, Gülsüm ibn Hidm, Muhacirlərdən Osman ibn Mə’zun vəfat etdi. Kafirlərlə döyüşə icazə verildi. Ayrıca, Mədinənin havasının, suyunun tə’sirinə dözə bilməyən Həzrəti Əbu Bəkir ilə Bilal Həbəşi (Allah onlardan razı olsun) qızdırma xəstəliyinə tutuldular. Bundan sonra Rəsulullah (səlləllahu əleyhi və səlləm); “Ey Rəbbim! Məkkəyi sevdirdiyin kimi Mədinəyi də bizə sevdir və burada bizə bərəkət və ruzi bolluğu ver” deyə dua etdi. Cənabi Haqq da duasını qəbul edib, Muhacirlərə Mədinəyi sevdirdi.

Cənabi Peyğəmbərimizin (səlləllahu əleyhi və səlləm) bilavasitə iştirak etdiyi Əbva, Vəddan qəzvələri də bu ildə olmuşdur. İkinci ilin əvvəllərində Buvat, Səfvan, Züluşeyrə qəzvələri bunları tə’qib etmiş və bu qəzvələrdə döyüş olmamışdır.

---

[146] Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 400; Süheyli, *ər-Rövzul-Unf*, II, 373.
[147] Ali İmran 3/113.

## İlk yazılı müqavilə

Məkkəli müşriklər boş dayanmır, Rəsulullaha, Məkkədə edə bilmədikləri düşmənçiliyi Mədinədə etməyə təşəbbüs göstərirdilər. Həm Mədinəli müşriklərə təhdid məktubları göndərir, həm də Mədinədəki yəhudi qəbilələrinə də təhdidlərlə dolu məktublar və xəbərdarlıqlar göndərirdilər. Onların bu təhdidləri, yəhudilərin Rəsulullaha yaxınlaşmalarına səbəb oldu.

Bu əsnada yəhudilər, Rəsulullahın yanına gəlib; "Sizinlə sülh bağlamağa gəldik. Bir müqavilə imzalayaq ki, bir birimizə zərər verməyək" dedilər. Peyğəmbərimiz də onlarla əlli beş maddəlik bir müqavilə imzaladı və alınan bu qərarların bəziləri belədir;

1- Bu müqavilə, Rəsulullah Məhəmməd əleyhissalam tərəfindən Məkkəli və Mədinəli müsəlmanlarla, onlara tabe olanlar və sonradan onlara qoşulanlar və onlarla bir yerdə döyüşənlər arasında yazılan bir sənəddir.

2- Şüpbəsiz ki, bunlar digər insanlardan ayrı bir camaatdır.

3- Hər qəbilə, əsirlərinin fidyələrini (müsəlmanlar arasındakı ədalətə görə) şərikli ödəyəcəklər.

4- Müsəlmanlar, öz aralarında çaxnaşma yaradan şəxslərə, öz övladları olsa belə, əks cəbhə alacaqlar.

5- Yəhudilərdən müsəlmanlara tabe olanlar, hər hansı bir zülmə uğramayacaq, hətta onlara yardım da ediləcəkdir.

6- Yəhudilər, müsəlmanlarla birlikdə bir qrup təşkil edəcək, hər biri öz dininin qayda-qanunlarına riayət edəcəkdir.

7-Yəhudilərdən heç birisi, Məhəmməd əleyhissalamın icazəsi olmadan hərbi bir səfərə çıxa bilməyəcəklər.

8- Heç bir nəfər, qarşı tərəfə pislik etməyəcək, zülmə uğrayana mütləq yardım ediləcəkdir.

9- Mədinə vadisi, bu müqaviləni bağlayanlar üçün toxunulmaz və haram bölgədir.

10-Məkkəli müşriklər və onlara yardım edənlər heç bir surətdə himayə edilməyəcəklər.

11-Mədinəyə hücum edəcək kimsələrə qarşı, müsəlmanlar ilə yəhudilər aralarında yardımlaşacaqlar.

Yəhudilər, bu müqavilə ilə (görünüşdə) müsəlmanlarla dostluq edəcəklər, onlara kin bəsləməyəcək və düşmənlik etməyəcəklər.

**Ey Həbibim! Kədərlənmə!**

Rəsulullahın hicrətindən əvvəl, Mədinədə olan Xəzrəc qəbiləsinin başçısı Abdullah ibn Ubey, Mədinəyə hökmdar seçiləcəkdi. Əqəbə bey'ətləri, daha sonra da hicrət hadisəsiylə Evs və Xəzrəc qəbilələrinin çoxu müsəlman olunca, Abdullah ibn Ubeyin hökmdarlığı həyata keçmədi. Bu səbəblə Abdullah ibn Ubey, Cənabi Peyğəmbərimizdən, Muhacirlərdən və Mədinəli səhabələrdən acığı gəlir, ancaq düşmənliyini açıq şəkildə göstərə bilmirdi. Özü kimi bir neçə nəfərlə, münafiqlər zümrəsini təşkil edirdi. Bunlar, müsəlmanlarla birlikdə İslam dinini qəbul etdiklərini deyir, ancaq onların arxasından istehza edirdilər. Gizlicə nifaq toxumları əkməyə və fitnə-fəsad çıxartmağa başladılar. Bu işdə o qədər qabağa getdilər ki, Fəxri aləmin (səlləllahu əleyhi və səlləm) mübarək sözlərinin əksini deyib dəyişdirməyə təşəbbüs göstərdilər.

Düşmənliklərini gizli saxlayan yəhudilər, Cənabi Peyğəmbərimizlə bir müqavilə imzaladılar. Cənabi Peyğəmbərimizin yanına dəstə-dəstə gəlib özlərinə çox çətin gələn bəzi suallar soruşdular. Aldıqları cavablardan Onun, haqq Peyğəmbər olduğunu başa düşdülər. Ancaq inad və qısqanclıqlarından iman etmədilər. Bundan sonra sevgili Peyğəmbərimiz; "Mənə yəhudi alimlərindən on nəfər iman etmiş olsaydı, yəhudilərin hamısı iman edərdilər" buyurdu. Rəsulullahın belə kədərli olmasını, Allah Təala bu ayə ilə təsəlli etdi; "(Ey Həbibim!) Ey şanlı Rəsul! Qəlbləriylə inanmadıkqları halda, ağızlarıyla inandıq deyənlərlə (münafiqlərlə) yəhudilərdən küfr içində olanlar, səni kədərləndirməsin. Onlar, dayanmadan yalan deyərək və sənin yanına gəlməyən başqa bir qövm (Xeybər yəhudiləri) üçün, (Qureyza oğullarından) casusluq edənlərdir. Kəlimələri (Allah Təala tərəfindən) yerlərinə qoyulduqdan sonra dəyişdirərlər. "Əgər sizə bu (fətva) verilirsə onu qəbul edin, verəlməzsə ondan əl çəkin" deyərlər. Allah Təala, kimin fitnəyə düçar olmasını istədikdən sonra sən, Allah Təalanın iradəsinə mane olmağa heç bir şəkildə gücün çatmaz. Onlar, Allah Təala, (onların) qəlblərini

təmizləmək istəmədiyi şəxslərdir. Onlara, dünyada həqarət və başıboşluq, axirətdə də çox böyük bir əzab vardır”.[148]

Bağlanılan müqavilə səbəbiylə, səhabədən bəziləri, yəhudi qonuşularıyla dostluq qurmuşdular. Allah Təala, onları da bu dostluğuna mane olaraq buyurdu ki; “Ey iman edənlər! Din qardaşlarınızdan başqasını (kafir və münafiqləri) dost tutmayın. Onlar sizə pislik etməktə, fitnə-fəsad çıxartmaqda qüsur görməzlər və çətinliyə düşməyinizi arzu edərlər. Onların sizə qarşı olan kin və düşmənliklərini dilləriylə də iqrar edirlər. Qəlblərində duyduqları düşmənlik hisləri isə daha böyükdür. Onların düşmənliklərinə aid ayətləri, əgər düşünüb başa düşsəniz deyə açıqladıq,...”.[149]

Məkkəli müşriklər, Mədinədəki müşrikləri, münafiqləri, yəhudiləri və Mədinənin ətrafındakı qəbilələri dayanmadan qızışdırır və təhdidə davam edirdilər. Ən qısa zamanda İslamın nurunu söndürməyə çalışır, sevgili Peyğəmbərimizin mübarək bədənini yox etməyin yollarını axtarırdılar.

Münafiqlərin və müşriklərin bu şəkildəki hərəkətlərinə qarşı, Rəsulullah daim sülh yolunu tuturdu. Əshabi kiramdan bəziləri, artıq düşmənə qarşı baş qaldırmağın lazım gəldiyinə inanır və; “Ey Rəbbim! Bizim üçün, sənin yolunda, bu müşriklərlə mübarizə aparmaqdan daha qiymətli bir şey yoxdur. Bu Qureyşli müşriklər, Həbibinin peyğəmbərliyinə inanmadılar və Məkkədən çıxmağa məcbur etdilər. Allahım! Hər halda onlarla müharibə etməyimizə icazə verərsən!” deyə dua edirdilər.

Rəsulullah isə, bu barədə Allah Təalanın əmrini gözləyir, nə buyurulursa ona görə hərəkət edirdi. Artıq zamanı gəlmişdi. Cəbrayıl əleyhissalamın gətirdiyi vəhydə buyrulurdu ki; “Sizə qarşı vuruşanlarla, siz də Allah Təalanın yolunda vuruşun. Ancaq həddi aşmayın. (Sizinlə vuruşmayanlara toxunmayın. Vuruşsalar da qadınları, uşaqları, qocaları öldürməyin. İşgəncə çəkdirməyin). Şübhəsiz ki, Allahu Təala həddi aşanları sevməz. Onları (kafirləri) harda görsəniz öldürün. Onlar sizi (Məkkədən) çıxartdıqları kimi, siz də onları çıxardın. Onların şirk fitnələri, adam öldürməkdən daha pisdir. Onlar Məscidi Haramda sizinlə vuruşmayınca, siz də orada onlarla savaşmayın. Ancaq, onlar sizi orada öldürsələr, siz də onları orada öldürün. Kafirlərin cəzası budur. Əgər onlar,

[148] əl-Maidə 5/41.
[149] Ali İmran 3/118.

Allah Təalanı inkard etməkdən və muharəbədən imtina etsələr, (siz də dayanın. Çünki) şübhəsiz ki, Allah Təala həddən artıq çox məğfirət və mərhəmət sahibidir”.[150]

Daha sonra göndərilən bir ayədə də buyruldu ki; “Şirk fitnəsindən əsər-əlamət qalmayıncaya və din də təkcə Allah Təalanın oluncaya (təkcə Allahu Təalaya ibadət edilincəyə) qədər, o müşriklərlə vuruşun. (Şirkdən) əl çəksələr, (onlara zülm etməyin). Artıq düşmənlik (cəza) ancaq zalımlar üçündür”.[151]

## İlk səriyyələr

Fəxri kainat (səlləllahu əleyhi və səlləm), Mədinənin asayişini tə’min etmək, düşmənlərin mövqeyini tə’yin etmək üçün səriyyələr, yəni kiçik hərbi birliklər tərtib etdi. Bu səriyyələrin böyüklüyü, beşdən dörd yüz nəfərə qədər idi. Cənabi Peyğəmbərimizin qatıldığı və bilavasitə idarə etdiyi döyüşlərə də qəzvə deyilirdi. Sevgili Peyğəmbərimiz, düşmənın qəfildən etdiyi hücumların qarşısını almaq üçün, Mədinədə növbə tutma üsulunu qoyaraq, lazım olan təhlükəsizlik tədbirini aldı.

Müşrikləri, ticari və iqtisadi cəhətdən zəiflətmək və yola gətirmək lazım idi. Bunun üçün Suriya ticarət yollarını kəsmək lazımdı. Bu əsnada, bir müşrik karvanının Mədinə yaxınlarından keçdiyini eşitdilər. Sevgili Peyğəmbərimiz, dərhal səfər hazırlığı görülməsini əmr edib, otuz atlının başına Həzrəti Həmzəni başçı tə’yin etdi. Ona da, Allah Təaladan qorxmağı, əmri altında olanlara yaxşı davranmağı tövsiyə etdikdən sonra; “Allah Təalanın yolunda, Allah Təalanın adını anaraq qəzvəyə çıxın! Allah Təalanı tanımayanlarla vuruşun...” buyurdu. Həzrəti Həmzəyə, ağ bir ələm verərək yola saldı.

Həzrəti Həmzə, əmri altındakı atlılarla, üç yüz atlının qoruduğu müşrik karvanına tərəf hərəkətə keçdi. Karvan, Şamdan Məkkəyə getmək üçün “Seyfülbəhr” deyilən yerə gəlincə, orda mücahidlərlə qarşılaşdı. Şanlı səhabələr, dərhal döyüş vəziyyətinə girərək hazırlandılar. O əsnada, orada olan Məcdi ibn Əmr əl-Cühəni, özünü çatdırıb araya girdi. Məcdi ibn Əmr əl-Cühəni, iki tərəfin da müttəfiqi idi. Müsəlmanların say cəhətdən çox az, müşriklərin də həddən çox olduğunu görüb, müsəlmanların məğlub ola biləcəklərini fikirləşdi. Müsəlman dövlətinin əbədi davam

[150] əl-Bəqərə 2/190-192.
[151] əl-Bəqərə 2/193.

etməsini ümid edərək aranı düzəldib, iki tərəfin də vuruşmağına mane oldu. Sonra, Həzrəti Həmzə və dostları Mədinəyə qayıtdılar. Məcdinin hərəkəti Cənabi Peyğəmbərimizə deyilincə, razılığını ifadə edərək; "O mübarək insan, yaxşı və doğru bir iş görmüşdür" buyurdu.[152]

Bundan sonra səriyyələrin dalı kəsilmədi. Ubeydə ibn Haris Həzrətlərinin əmrinə altmış veya səksən nəfər mücahid verilərək, Rabiğə göndərildi. Müşriklər, müsəlmanlardan qorxub qaçaraq canlarını qurtardılar.[153]

Cənabi Peyğəmbərimiz bir dəfə, Qureyş müşriklərini tə'qib etmək üçün, Nəhləyə bir səriyyə göndərmək istədi. Göndəriləcək əsgərlərə də Əbu Ubeydə ibn Cərrah Həzrətlərini başçı qoymağı istədi. Əbu Ubeydə ibn Cərrah, bu əmri alınca, Peyğəmbərimizdən uzaq qalacağı üçün ağlamağa başladı. Rəsulullah (səlləllahu əleyhi və səlləm) onun yerinə Abdullah ibn Cahş Həzrətlərini başçı tə'yin etdi.[154]

Abdullah ibn Cahş da, İslamiyyəti həyəcanla yaşayan zatlardan biriydi. Müsəlman olduğu zaman, kafirlər ona ağla gəlməyən işgəncə etmələrinə baxmayaraq, onlara iman gücü ilə qarşı gəlmiş, əziyyət və cəfalarına mətanətlə dözmüşdü. Bu səbəblə Cənabi Peyğəmbərimiz, onun üçün Əshabına; "...Aclığa və susuzluğa ən çox dözən və dözəninizdir" buyurmuşdu. Abdullah ibn Cahş, Rəsulullahın şəhidlər üçün verdiyi müjdələri eşidərək, daim şəhid olmağa can atmışdı. Müharibələrdə ən qabaqda qəhrəmanca döyüşərdi.

Həzrəti Abdullah ibn Cahş belə nəql etmişdir ki; "O gün, Rəsul əleyhissalam, xiftən namazını qılınca, məni yanına çağırdı. "Səhər tezdən yanıma gəl. Silahın da yanında olsun. Səni bir tərəfə göndərəcəyəm" buyurdu.

Səhər açılınca məscidə getdim. Qılıncım, yayım, ox və heybəm çiynimdə, qalxanım da yanımda idi. Rəsul əleyhissalam, sübh namazını qıldırdıqdan sonra evinə getdi. Mən ən əvvəl gəldiyim üçün qapının qabağında gözləyirdim. Muhacirlərdən mənimlə gedən bir neçə nəfər seçdi. "Səni bu bunların başına əmir tə'yin etdim" buyuraraq, bir məktub verdi. "Get! iki gecə yol getdikdən sonra məktubu aç. Onda yazılana görə hərəkət et" buyurdu. "Ey Rəsulallah! Hansı tərəfə gedim?" deyə soruşdum. "Nəcdəyə tərəf get. Sonra da Rəqiyyəyə, quyuya dönərsən!" buyurdu.

---

[152] Vaqidi, *əl-Məğazi*, I, 9; əl-Kilai, *əl-İktifa*, II, 6; Əhməd Şami, *Sübülü'l-Hüda*, s. VI, 11.
[153] Vaqidi, *əl-Məğazi*, I, 10; İbn Sə'd, *ət-Təbəqat*, II, 7; əl-Kilai, *əl-İktifa*, II, 3-4.
[154] İbn Hişam, *əs-Sirə*, I, 601; Vaqidi, *əl-Məğazi*, I, 2; Təbəri, *Tarix*, II, 410; əl-Kilai, *əl-İktifa*, II, 9-10.

Abdullah ibn Cahş, Nəhlə səfərinə tə'yin edildiyi zaman, ona ilk dəfə, Əmirulmö'minin adı verildi. İslamda ilk dəfə bu adla tanınan əmir o oldu. Səkkiz veya on iki nəfərlik bir dəstə ilə, iki gün sonra Mələl mövqeyinə çatdıqlarında, açdığı məktubda; "Bismillahirrəhmanirrəhim. Bu məktubu oxuduğun zaman, Məkkə ilə Taif arasındakı Nəhlə vadisinə keçincəyə qədər, Allah Təalanın adı və bərəkətiylə gedərsən. Dostlarından heç birini, səninlə birlikdə getməyə məcbur etmə! Nəhlə vadisindəki Qureyşliləri və Qureyşlilərin karvanını izləyib baxarsan. Sonra da onlar haqqında xəbərləri bizə çatdırarsan" yazılıydı.

Əmirulmö'minin Həzrəti Abdullah ibn Cahş, məktubu Oxuduqdan sonra; "Bizlər Allah Təalanın qullarıyıq və daim Ona dönəcəyik. Eşitdim və itaət etdim. Allah Təalanın və sevgili Rəsulunun əmrini yerinə yetirəcəyəm" deyərək məktubu öpüb, alnına qoydu. Sonra dostlarına üzünü tutaraq; "Hansınız şəhid olmağa can atırsa mənimlə gəlsin. Gəlmək istəməyən qayıdıb gedə bilər. Heç birinizi məcbur edən deyiləm. Gəlməsəniz mən tək başıma gedib, Rəsul əleyhissalamın əmrini yerinə yetirəcəyəm" dedi. Dostlarının hamısı birdən; "Biz Cənabi Peyğəmbərimizin əmrlərini eşitdik. Allah Təalaya, Rəsulullaha (səlləllahu əleyhi və səlləm) və sənə itaət edirik. Allah Təalanın bərəkəti üçün hara istəsən gedək" deyə cavab verdilər.

Sə'd ibn Əbi Vəqqas Həzrətlərinin də aralarında olduğu bu kiçik ordu, Hicaza tərəf yola düşdü və Nəhləyə gəldi. Bir yerdə gizlənərək ordan gəlib-keçən Qureyşliləri izləməyə başladı. Bu əsnada, bir Qureyş qafiləsi keçdi. Dəvələri yüklü idi. Mücahidlər, qafiləyə yaxınlaşaraq onları İslama də'vət etdilər, qəbul etməyincə döyüşməyə başladılar. Birisini öldürüb, ikisini də əsir aldılar. Birisi də atlı olduğu üçün ona çata bilmədilər. Kafirlərin bütün malı mücahidlərə qaldı. Abdullah ibn Cahş, bu qənimət mallarının beşdə birini Rəsulullah üçün ayırdı. Bu, müsəlmanların aldıqları ilk qənimət idi.[155]

## Məscidi Qibləteyn

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), Mədinəyi münəvvərəyə hicrətindən on yeddi ay keçmişdi. Bu vaxta qədər daim Qüdsi şərifdəki Beyti Məqdisə

[155] İbn Hişam, *əs-Sirə*, I, 601; Vaqidi, *əl-Məğazi*, I, 13; əl-Kilai, *əl-İktifa*, II, 9-10; Əhməd Şami, *Sübülü'l-Hüda*, s. VI, 16.

üzlərini tutaraq namazlarını qılardılar. Bu əsnada yəhudilərin; "Nə qəribə işdir! Dini bizdən ayrı, ancaq qibləsi bizim kimidir!" deyə danışdıqları Rəsulullahın qulağına çatdı. Bu söz-söhbətdən qanı qaraldı. Bir dəfə Cəbrayıl əleyhissalam gəldiyində, ona buyurdu ki; "Ey Cəbrayıl! Allah Talanın, üzümü yəhudilərin qibləsindən Kə'bəyə döndərməsini arzu edirəm". Cəbrayıl əleyhissalam da; "Mən, ancaq bir qulam. Bunu, Allah Təaladan istə!" deyə cavab verdi. Bundan sonra Bəqərə surəsinin 144-cü ayəsi nazil oldu. Buyuruldu ki; "(Ey Həbibim! Vəhyin gəlməsi üçün) üzünü səmaya tərəf tutub dayandığını heç şübhəsiz ki, görürük. Bunun üçün, biz səni razı olacağın bir qibləyə döndərəcəyik. İndi üzünü Məscidi Haram tərəfinə (Kə'bəyə) döndər. (Ey mö'minlər!) Siz də, hər hansı bir yerdə olsanız olun, üzünüzü namazlarda o tərəfa çevirin. Şübhə yoxdur ki, özlərinə kitab verilənlər, qiblənin belə dəyişdirilməsini, öz Rəbləri tərəfindən haqq olduğunu əlbəttə bilirlər. Allah Təala isə, onların edəcəklərindən xəbərsiz deyildir".

Bu ayə nazil olduğunda, Rəsulullah əshabına günorta namazını qıldırırdı. Namazın yarısına gəlmişdilər. Vəhyi alan kimi namazda üzünü Kə'bəyi müəzzəməyə tərəf çevirdi. Əshabi kiram da Həbibi əkrəm kimi edərək, O tərəfə döndülər. Bu məscidə Məscidi Qibləteyn, yəni iki qibləli məscid adı verildi. Rəsulullah, Qubaya da gedib, ilk tikilən məscidin mehrabını mübarək əlləriylə təzədən düzəltdi və məscidin divarlarını dəyiştirdi.[156]

*Kəmali zatının natı anılmaz ya rəsulallah*

*Qalar ləvhi qələm mislin yazılmaz ya rəsulallah.*

*Sənin mədhində şirkət eyləsəm Mövlaya madumum*

*Bu babda cürmi üsyana baxılmaz ya rəsulallah*

*Nə xakəm mən ki naşüstə qalam dəryayı cüdunda*

*Hababı Nun fəlaq heçə sayılmaz ya rəsulallah*

[156] İbn Hişam, *əs-Sirə*, I, 549; Süheyli, *ər-Rövzul-Unf*, Iı, 409;

*Şəfaqvəş hər ki dağı atəşini eşqini açmaz*

*Güli məqsud billahi açılmaz ya rəsulallah*

*Qubari asitanın pərtevindən ab olan xatir*

*Furuği pəncəyi mihrə qapılmaz ya rəsulallah*

*Ümid oldur ki, Qalib çakəri övladi alindir*

*Guruhi əhli hüsrana qatılmaz ya rəsulallah.*

*ŞEYX QALİB*

# BƏDR QƏZVƏSİ

Göndərilən səriyyələrdə, Əshabi kiramın müvəffəqiyyət qazanması, kafirləri qorxutmağa başladı. Artıq onların karvanları qafilələr halında və muhafizəçi əskərlərin müşayətiylə səfərə çıxırdı. Hicrətin ikinci ilində, Məkkəli müşriklər hər ailədən ianə toplayıb, min dəvəlik bir karvanı Şama göndərdilər. Karvanın başında Məkkənin başda gələnlərindən Əbu Süfyan var idi və hələ müsəlman olmamışdı.[157] Karvanı qorumaq üçün qırx nəfər də gözətçi vardı! Mallar satıldıkqdan sonra, əldə edilən pulun hamısını silah almaq üçün istifadə edəcək və bu silahlar müsəlmanlarla döyüşdə lazım olacaqdı.

Rəsulullah (səlləllahu əleyhi və səlləm) müşriklərin, böyük bir karvanı, ticarət üçün Şama göndərdikləri xəbərini alınca, məsələni ətraflı öyrənmək üçün, Muhacirlərdən bir neçə nəfəri vəzifələndirdi. Züləşirə deyilən yerə çatdıqlarında, karvanın keçdiyini öyrənib, Mədinəyə qayıtdılar. Küfr əhlinin, silah və malları əllərindən alınarsa, əhli İslama zərərləri toxuna bilməz və müqavimətləri qırılardı. Bu səbəblə Rəsulullah, Təlhə ibn Abdullah ilə Səid ibn Zeyd Həzrətlərini karvanın geri qayıdacağı vaxtı öyrənmək üçün göndərdi.[158]

Fürsəti qaçırtmaq doğru olmazdı. Cənabi Peyğəmbərimiz dərhal hazırlıq görüb, Mədinədə öz yerinə namaz qıldırmaq üçün Abdullah ibn Ümmi Məktumu tə'yin etdi.[159] Xanımı xəstə olan Həzrəti Osman və onun kimi altı nəfərə vəzifə verib, Mədinədə qalmalarını əmr etdi. Özü ilə birlikdə Muhacirlərdən və Ənsardan 305 səhabəni götürərək, Ramazanı şərifin 12-ci günü Bədr tərəfə doğru hərəkət etdi. Sayıları, vəzifəli və Mədinədə qalanlarla birlikdə 313 nəfərə çatırdı.[160] Bədr, Məkkə, Mədinə və Suriyaya gedən yolların birləşdiyi bir yer idi.

Bu səfərə çıxmaq üçün yeniyetmələr, hətta qadınlar belə Cənabi Peyğəmbərimizə yalvarırdılar. Ümmü Vərəqənin, Rəsulullahın yanına gəlib; "Anam-atam sənə fəda olsun ey Rəsulallah! İcazə versəniz, sizinlə gəlmək istəyərdim. Yaralıların yaralarını sarıyar, xəstələrə qulluq edərəm. Bəlkə, Allah Təala mənə də

---

[157] Vaqidi, *əl-Məğazi*, I, 27.
[158] İbn Sə'd, *ət-Təbəqat*, II, 11.
[159] İbn Sə'd, *ət-Təbəqat*, III, 216, 382.
[160] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 248; Heysəmi, *Məcməuz-Zəvaid*, VI, 68.

şəhidlik nəsib edər!" deyəndən sonra, Həbibi əkrəm (səlləllahu əleyhi və səlləm); "Sən, evində otur, Qur'ani Kərim oxu. Şübhəsiz ki, Allah Təala sənə şəhidliyi nəsib edər, buyurmuşdu.

Sə'd ibn Əbi Vəqqas belə nəql etmişdir ki; "Rəsulullah, bizimlə qəzvəyə getmək istəyən uşaqları dala qaytarmaq istədiyində, qardaşım Umeyrin bir tərəfdə gizlənməyə, gözə dəyməməyə çalışdığını gördüm. O zaman on altı yaşında idi. Mən; "Sənə nə olub ki, belə gizlənirsən?" dedim. "Rəsulullahın məni də balaca görüb dala qaytarmasından qorxuram! Halbuki, qəzvəyə gedib, Allah Təalanın mənə şəhidlik nəsib etməsini arzu edirəm" dedi. Bu əsnada onu, Rəsulullaha göstərdiklərində, qardaşıma; "Sən dala qayıt" buyurdu. O zaman, qardaşım Umeyr ağlamağa başladı. Mərhəmət dəryası Həbibi əkrəm, onun gözünü yaşlı görüb icazə verdi. Halbuki, qardaşımın qılıncını, özü bağlaya bilmədiyi üçün belinə mən bağlamışdım".[161]

Aləmlərin sahibi olan sevgili Peyğəmbərimizin, bayrağını Mus'ab ibn Umeyr, Sə'd ibn Muaz və Həzrəti Əli daşıyırdılar.[162] Əshabi kiramda isə təkcə iki at və yetmiş dəvə varıydı. Bunlara da növbə ilə minirdilər. Rəsulullah, Həzrəti Əli, Əbu Lübabə, bir də Mərsəd ibn Əbi Mərsəd ilə bir dəvəyə növbə ilə minirdilər. Ancaq hamısı, Rəsul əleyhissalamın piyada getməyib, ancaq dəvə üzərində getməsi üçün; "Canımız sənə fəda olsun ey Rəsulallah! Siz dəvədən düşməyin. Uca zatınızın yerinə biz piyada gedərik" deyərək yalvarırdılar. Ancaq kainatın hökmdarı, özünü onlardan ayırmayıb; "Siz, həm məndən piyada getməkdə daha güclü deyilsiniz, həm də əcr və mükafat cəhətindən də mən sizdən daha çoxam" buyurdu. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) və dəyərli Əshabı, səhrada qızmar günəş altında gedirdilər. Həm də oruc tutmuşdular. Əshabi kiram, İslamiyyəti yaymaq üçün, həddən çox əzab-əziyyətlərə dözərək Cənabi Peyğəmbərimizin arxasınca həvəslə və ruh yüksəkliyi ilə gedirdilər. Çünki axırda, Allah Təalanın və Rəsulunun rizası vardı, arzu etdikləri şəhidlik və Cənnət vardı... Sevgili Peyğəmbərimiz, Əshabının halına baxıb; "Allahım! Onlar, piyadadırlar. Sən, onlara minik ver! Allahım! Onlar ayaqyalın və paltarsızdır. Sən, onları geyindir! Allahım! Onlar acdırlar, onları doyuzdur. Kasıbdırlar, fəzl və kəraminlə onları varlı et!" deyə dua etdi.

---

[161] İbn Sə'd, *ət-Təbəqat*, III, 150; Hakim, *əl-Müstədrək*, III, 208.
[162] İbn Hişam, *əs-Sirə*, I, 612; İbn Kəsir, *əs-Sirə*,II, 388; əl-Kilai, *əl-İktifa*, II, 18.

Cənabi Peyğəmbərimiz və mübarək ordusu, bu qovurucu istidə Bədrə tərəf irəliləyərkən, müşriklərin Şamdan gələn karvanları da Bədrə yaxınlaşmışdı. Cənabi Peyğəmbərimizin, karvandan xəbər gətirmək üçün göndərdiyi iki səhabə, karvanın bir-iki gün içində Bədrə çata biləcəyini öyrənib, sür'ətlə dala qayıtdılar. Karvandakılar, onların xəbəri öyrəndiyi kəndə gəlib çatdıqlarında, kəndlilərə; "Müsəlmanların casuslarından xəbəriniz var?" deyə soruşdular. Onlar; "Bilmirik. Ancaq iki nəfər gəlib, burada bir az oturdular, sonra da qalxıb getdilər" dedilər.

Əbu Süfyan, göstərilən yerə gedib baxdığında, yerdəki dəvə peyinlərini əzdi və içində yem toxumları gördü və; "Bunlar Mədinə yemləridir, elə zənn edirəm ki, o iki adam Məhəmmədin (əleyhissalam) casuslarıdır" dedi. Müsəlmanların çox yaxınlarında olduğunu fikirləşərək, çox qorxdu. Karvanından ötrü narahat olaraq, gecə-gündüz yol gedib, vaxt itirmədən Qırmızı dəniz sahilindən Məkkəyə sür'ətlə irəliləmək qərarına gəldi. Ayrıca, Damdam ibn Əmr Ğifari adında birini, məsələni xəbər vermək üçün Məkkəyə xəbərçi olaraq göndərdi.[163]

Bu şəxs, Məkkəyə gəlincə köynəyini yırtıb tikə-tikə etdi. Dəvəsinin palanını tərs çevirdi. Pis bir vəziyyətdə; "Kömək edin! Kömək edin! Ey Qureyşlilər! Özünüzü çatdırın! Karvanınıza, Əbu Süfyanın əlindəki mallarınıza, Məhəmməd və Əshabı hücum etdilər. Əgər özünüzü çatdırsanız karvanınızı qaytara bilərsiniz!" deyə qışqırıb ah-nalə çəkdi.

Bunu eşidən Məkkəlilər, dərhal toplanıb, hazırlıq görməyə başladılar. Yeddi yüz dəvəli, yüz atlı süvari və yüz əlli piyada toplaşdılar. Əbu Ləhəbə; "Haydı, sən də gəl!" dediklərində, qorxusundan xəstəliyini bəhanə etdi. Yerinə, As ibn Hişamı bədəl olaraq göndərdi. Ümeyyə ibn Xələf adındakı müşrik, döyüşə hazırlanmaqda çox istəksiz hərəkət edirdi. Çünki, Cənabi Peyğəmbərimizin; "Mənim Əshabım, Ümeyyəni öldürəcək" buyurduğunu eşitmişdi. Onun, heç bir zaman yalan demədiyini bildiyi üçün qorxurdu. Bu səbəblə, Əbu Cəhilin israr etməsinə bəhanə olaraq, özünün yaşlandığını və çox kök olduğunu dedi. Ancaq Əbu Cəhilin onu qorxaqlıqla ittham etməsindən sonra getmək məcburiyyətində qaldı.

Müşrik ordusunun çoğu zirehli idi. Özləriylə birlikdə gözəl səsli qadınlar da aparmışdılar. Çalğı alətlərini və içgi də götürməyi yaddan çıxartmamışdılar. Bu qədər

---

[163] İbn Hişam, *əs-Sirə*, II, 607; Süheyli, *ər-Rövzul-Unf*, III, 47.

güçlü bir ordu ilə, üç yüz nəfərə deyil, min nəfərlik bir orduya belə qalib gələ biləcəklərini zənn edirdilər. Yola çıxmamışdan qabaq öldürəcəkləri adamları, alacaqları qənimətləri hesab edənlər belə vardı. Ancaq hamısının ən böyük arzusu, İslamı yox etmək idi. Bu qudurğan müşrik sürüsü, qadınların çaldığı dəflər və oxuduğu mahnı sədaları altında yola çıxdı.

Bu əsnada Əbu Süfyan, Bədirdən əməlli başlı uzaqlaşmış, Məkkəyə tərəf bir xeyli yol qət' etmişdi. Təhlükənin sovuşduğundan əmin olunca, Qeys ibn İmriulqeys adındakı adamını Qureyşə göndərib; "Ey Qureyş camaatı! Siz karvanınızı, adamlarınızı və mallarınızı qorumaq üçün Məkkədən yola çıxmışdınız. Biz təhlükədən xilas olduq. Artıq dala qayıdın!" dedi. Ayrıca; "Müsəlmanlarla vuruşmaq üçün Mədinəyə getməyin!" deyə tövsiyə etdi.

Qeys, müşrik ordusuna xəbəri çatdırdığında, Əbu Cəhil; "And içirəm ki, Bədrə gələrək üç gün üç gecə şənlik edəcək və dəvələr kəsib şərab içərik. Ətrafdakı qəbilələr bizi seyr edərək bizə qibtə edər və heç kimdən qorxmadığımızı görərlər. Bundan sonra, heybətimizdən, heç kim bizə hücum etməyə cəsarət edə bilməz. Ey məğlub edilməz Qureyş ordusu! Yola çıxın..." dedi.

Qeys, Əbu Cəhilin sözə qulaq asmadığını görüb, dala qayıtdı və vəziyyəti Əbu Süfyana xəbər verdi. Uzaqgörən və tədbirli bir adam olan Əbu Süfyan özünü saxlaya bilməyib; "Vay Qureyşin halına! Bu Əmr ibn Hişamın (Əbu Cəhilin) bir planıdır. Bu işi çox güman ki, insanlara başçı olmaq niyyəti ilə etmişdir. Halbuki belə qudurğanlıq, hər zaman böyük bir əksiklik və uğursuzluqdur. Əgər müsəlmanlar, onlara rast gəlsələr Qureyşin vay halına!" dedi. Karvanı sür'ətlə Məkkəyə aparıb, özünü orduya çatdırdı.

Bu əsnada, Sərvəri kainat (səlləllahu əleyhi və səlləm), Əshabıyla Bədrə yaxınlaşırdılar. Birdən, Mədinəli müşriklərdən Hubeyb ibn Yasəflə Qeys ibn Muhərrisi İslam ordusunun içində gördülər.

Hubeybin başında dəmir dəbilqəsi vardı və Həzrəti Sə'd ibn Muaza; "Bəyəm bu, Hubeyb deyil?" buyurdu. O da; "Bəli, ey Rəsulallah!" dedi. Hubeyb döyüş taktikasına yaxşı bələd olan, igid bir pəhlivan idi. O, Qeys ilə birlikdə Rəsulullahın yanına gəldilər. Peyğəmbərimiz onlara; "Siz, bizimlə nə üçün gəlirsiniz?" buyurdu. Onlar da; "Sən, bizim bacımızın oğlusan və qonşumuzsan. Biz də öz qövmümüzlə birlikdə qənimət yığmaq üçün gəlirik!" dedilər. Rəsulullah Hubeybə üzünü tutaraq; "Sən Allah Təalaya və Rəsulunə iman etdin ki?" buyurunca; "Xeyr" dedi. Rəsul

əleyhissalam; “Elə isə dala qayıt! Bizim dinimizi qəbul etməyən bir adam, bizimlə birlikdə ola bilməz” buyurdu.

Hubeyb; “Mənim igidliyimi, qəhrəmanlığımı və düşmənin sinəsində yara vuran bir pəhlivan olduğumu hamı bilir. Qənimət üçün səninlə birlikdə düşməninə qarşı döyüşərəm” dedi. Cənabi Peyğəmbərimiz, onun yardımını qəbul etmədi.

Bir müddət gedincə Hubeyb, istə’yini təzədən dilə gətirdi, ancaq Peyğəmbərimiz, müsəlman olmadıqca arzusunun qəbul edilməyəcəyini dedi. Rəvha səmtinə gəldiklərində Hubeyb, Rəsulullahın (səlləllahu əleyhi və səlləm) yanına gəlib; “Ey Rəsulallah! Allah Təalanın, aləmlərin Rəbbi olduğuna və sənin Peyğəmbərliyinə inandım, iman etdim” deyincə, sərvəri kainat çox sevindi. Qeys də, Mədinəyə qayıtdıqdan sonra imanla şərəfləndi (Allah ondan razı olsun).

İslam ordusu, Səfra vadisinə gəldiyində, Məkkəlilərin bir ordu hazırlayıb, karvanlarını qaytarmaq üçün Bədrə tərəf getdiklərini xəbər aldı. Cənabi Peyğəmbərimiz Əshabını toplayıb, onlarla bu vəziyyəti məsləhətləşdi. Çünki, Mədinəli müsəlmanlar, Rəsulullaha Əqəbədə bey’ət etdiklərində; “Ey Rəsulallah! Sən, bizim şəhərimizə gəl. Səni orada, düşməninə qarşı var gücümüzlə qoruyacaq və sənə tabe olacağıq” deyə söz vermişdilər.

Halbuki indi, Mədinənin kənarına çıxmışdılar. Qarşılarında isə özlərindən həm sayı, həm silah və həm də mal-mülk cəhətindən qat-qat çox böyük bir düşmən ordusu vardı. Rəsulullah, Əshabından fikirlərini soruşunca, Muhacirlərdən Əbu Bəkri Siddiq və Ömərul-Faruq tək-tək ayağa qalxıb, düşmən ordusuyla döyüşmək lazım olduğunu dedilər. Muhacirlərdən də Miqdad ibn Əsvəd ayağa durub; “Ey Rəsulallah! Allah Təalanın əmri nə isə, onu yerinə yetir. Onun fərmanıyla əmr ver. Hər an səninlə birlikdəyik, bir an yanından ayrılmarıq. Biz, İsrail oğullarının Musa əleyhissalama dedikləri kimi; “Ey Musa! Cəbbarlar, zalımlar qövmü o bölgədə olduqları müddətdə biz ora gedib girə bilmərik. Artıq sən və Rəbbin birlikdə gedin və ikiniz onlarla muharəbə aparın, vuruşun. Biz burada qalıb məskən salanlarıq...” [164] şəklində bir söz də söyləmərik. Canımızı və başımızı Allah Təalanın və Rəsulunun yolunda fəda edərik. Səni, haqq peyğəmbər olaraq göndərən Allah Təalaya and içirik ki, dənizin o tərəfindəki Həbəşistana göndərsən, yenə də gedərik. Sənə əsla e’tiraz etmərik. Hər arzunuzu yerinə

---

[164] əl-Maidə 5/24.

yetirmək üçün hazırıq. Anam-atam, canım sənə fəda olsun ey Rəsulallah...” dedi. Miqdadın bu danışığı, sevgili Peyğəmbərimizi artıqlamasıyla razı saldı. Ona xeyir-dua etdi.[165]

Burada Mədinəli müsəlmanların fikirləri çox əhəmiyyətliydi. Çünki, həm sayıları çox idi, həm də Rəsulullahı Mədinədə qorumaq üçün söz vermişdilər. Mədinə xaricində döyüşmək üçün bir və’d verməmişdilər. Bu əsnada, Ənsardan Sə’d ibn Muaz ayağa qalxdı və; “Ey Rəsulallah! Əgər icazə versəniz Ənsarın adından mən danışaram” dedi. İcazə verilincə; “Ey Rəsulallah! Biz, sənə iman etdik, peyğəmbərliyini təsdiq etdik. Hər nə gətirdinsə haqdır, doğrudur. Bu mövzuda, qulaq asmaq və itaət etmək üçün sənə qət’i söz verib and içdik. Biz, o sözümüzdən əsla dönmərik və hər hansı bir yerə getsəniz, biz də sizin əmrinizə tabe olarıq. Əmrinizi başımızın üstündə tutarıq. Canımızı və başımızı yoluna fəda edərik. Səni haqq peyğəmbər olaraq göndərən Allah Təalaya and içirik ki, dənizə baş vursan arxanca biz də baş vurarıq. Heç birimiz bundan bir addım dala qalmarıq. Nə fikirləşirsinizsə, əmr edin, görək! Malımız da, canımız da Sənə fəda olsun. Düşmənin qabağından əsla qaçmarıq. Döyüşdə səbrliyik. Səni sevendirərək razılığına nail olacağımızı ümid edirik. Allah Təalanın rəhməti üzərinizə olsun...” dedi. Bu sözləri eşidən Əshabi kiram, çox həyəcanlandılar. Hamısı bu sözlərə, cani-dildən razı olduqlarını dedilər. Rəsulullah (səlləllahu əleyhi və səlləm) onların bu hərəkətlərindən çox razı qaldı. Həzrəti Sə’də və Əshabına dua etdi.

Artıq bütün tərəddüdlər ortadan qalxmışdı. Düşmən nə qədər çox, nə qədər güclü olsada olsun, şanlı Əshab, sevgili Peyğəmbərimizin arxasınca gözlərini qırpmadan şəhadətə gedəcək, Allah Təalanın və Rəsulunun rizasını qazanacaqdılar. Başlarında kainatın sahibi olduqca gedilməyəcək yer yox idi. Fəxri aləm Rəsulullah, Əshabının özünə olan bağlılığını və həyəcanını görüncə, onlara; “Haydı, gedin! Allah Təalanın lütfü ilə şad olun. Vallahi, indi mən, sanki Qureyş qövmünün döyüş meydanında vurulub öldürüləcəkləri yerlərə baxır, onları görürəm!” buyuraraq, müjdə verdi. Bu müjdədən sonra, Əshabi kiram həvəslə Rəsulullahın arxasınca getdilər.

---

165 İbn Sə’d, *ət-Təbəqat*, II, 14.

## Mələklərin yardıma gəlməsi

Bədrin yaxınlığına çatdıqlarında cümə gecəsi idi. Sevgili Peyğəmbərimiz, Əshabına; "Bu alçaq təpənin yanındakı quyunun ağzından zənn edirəm ki, bəzi məlumatlar gətirəcəksiniz" buyurdu. Allah Təalanın aslanı Həzrəti Əli, Sə'd ibn Əbi Vəqqas, Zübeyir ibn Əvvam və Əshabından bəzilərini oraya göndərdi.

Həzrəti Əli və dostları dərhal quyunun ağzına getdilər. Orada Qureyşin dəvəçilərini və su daşıyanlarını gördülər. Onlar müsəlmanları görüncə qaçdılar. Ancaq onlardan ikisi qaçıb canını qurtara bilmədilər. Bunların biri Həccac oğullarının köləsi Əşləm, digəri də As ibn Səid oğullarının köləsi Ariz Əbu Yəsar idi. Onları Cənabi Peyğəmbərimizin yanına gətirdiklərində, Rəsulullah (səlləllahu əleyhi və səlləm) onlara; "Qureyş ordusu hardadır?" soruşdu. Onlar da; "Görsənən bu qum təpəsinin o tərəfində düşərgə salıblar" cavabını verdilər. Rəsulullah; "Qureyşin ordusunun sayı nə qədərdir?" buyurdu. Onlar da; "Bilmirik" dedilər. Peyğəmbərimiz; "Gündə neçə dəvə kəsirlər?" sualına da; "Bir gün doqquz, bir gün on" deyə cavab alınca, Cənabi Peyğəmbərimiz; "Min nəfərdən az, doqquz yüzdən də çoxdurlar" buyurdu. Yenə; "Qureyşin böyüklərindən aralarında kimlər var?" deyə soruşdu. Onlar; "Utbə, Şeybə, Haris ibn Əmr, Əbül-Buhtəri, Hakim ibn Huzam, Əbu Cəhil, Ümeyyə ibn Xələf..." deyincə, Rəsulullah, Əshabına tərəf üzünü tutub; "Məkkə xalqı, əzizlərini sizə fəda etdi" buyurdu. Sonra o iki nəfərə; "Gəlirkən Qureyşdən dala qayıdan oldu?" buyurunca; "Bəli, Bəni Zührədən Əhnəs ibn Əbi Şərik dala qayıtdı" deyə cavab verdilər. Rəsulullah da; "O, doğru yolda deyilkən, axirəti, Allah Təala və Kitabı tanımazkən, Bəni Zührəyə doğru yolu göstərmişdir... Onlardan başqa dala qayıdan oldu?" buyurunca; "Ədiy ibn Kə'b oğulları qayıtdı" deyə cavab aldı.[166]

Cənabi Peyğəmbərimiz, Həzrəti Öməri axırıncı dəfə xəbərdarlıq etmək üçün Qureyşlilərlə bir razılığa gəlmək məqsədiylə göndərdi. Ömər ibn Xəttab onlara; "Ey inadçı qövm! Rəsul əleyhissalam buyurur ki; "Siz bu işdən əl çəkəsiniz. Sülh və əminamanlıqla dala qayıdasınız. Çünki sizdən başqası ilə döyüşmək, mənə sizinlə döyüşməkdən daha məqbuldur!" dedi.

---

[166] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 117; İbn Hişam, *əs-Sirə*, I, 616; Vaqidi, *əl-Məğazi*, I, 52; İbn Sə'd, *ət-Təbəqat*, II, 15; Təbəri, *Tarix*, II, 142; Süheyli, *ər-Rövzul-Unf*, III, 58.

Bu təklifi eşidən kimi Qureyş müşriklərindən Hakim ibn Huzam qabağa çıxıb; “Ey Qureyş camaati! Məhəmməd sizə çox insaflı davrandı. İstədiyini dərhal qəbul edin. Əgər, dediyini etməsəniz, and içirəm ki, bundan sonra sizə heç vaxt insaflı davranmaz!” dedi. Əbu Cəhil, Hakimin bu sözünə əsəbiləşərək; “Bunu əsla qəbul etmərik və müsəlmanlardan intiqam almadıqca dala qayıtmarıq. Bundan sonra bir də heç kim, karvanımıza hücum etməyə cəsarət etməsin!” dedi və sülh bağlamaqdan imtina etdi. Həzrəti Ömər dala qayıtdı.

O gecə, Cənabi Peyğəmbərimiz və şanlı Əshabı, müşriklərdən əvvəl Bədrə gəlib, quyulara yaxın bir yerdə düşərgə saldılar. Cənabi Peyğəmbərimiz, Əshabıyla məsləhətləşib, düşərgənin harada salınması lazım gəldiyi haqqında fikirlərini soruşdu. Aralarından, hələ otuz üç yaşı olan Həbbab ibn Münzir, ayağa qalxaraq söz istədi. Qəbul edilincə; “Ey Rəsulallah! Buranı, Allah Təalanın sizə düşərgə salınması üçün əmr etdiyi və mütləq qalınması lazım gələn bir yerdir? Yoxsa şəxsi bir görüş nəticəsi olaraq bir döyüş taktikasıdır?” deyə sual verdi. Cənabi Peyğəmbərimiz; “Xeyr! Bir döyüş taktikası olaraq burası seçildi” buyurdu.

Bundan sonra Həzrəti Həbbab; “Anam-atam, canım sənə fəda olsun ey Rəsulallah! Biz döyüşçü adamlarıq. Buraları da yaxşı tanıyırıq. Bu Qureyşlilərin düşərgə salacağı yerin yaxınlığındakı quyuda şirin və bol su var. Əgər icazə versəniz oraya düşərgv salaq. Ətrafdaki quyuların hamısını dolduraq. Sonra bir hovuz düzəldib, içini su ilə dolduraq. Düşmənlə döyüşərkən, susdadıqda hovuzumuzdan gəlib su içərik. Düşmən isə su tapmadığı üçün pis vəziyyətə düşər” dedi.[167]

O anda Cəbrayıl əleyhissalam, bu fikrin doğru olduğunu bildirən vəhyi gətirdi. Cənabi Peyğəmbərimiz; “Ey Həbbab! Doğru olan görüş sənin dediyin görüşdür” buyurdu və ayağa qalxdı. Hamısı birlikdə göstərilən quyunun başına gəldilər. Şirin suyu olan quyudan başqa bütün quyuları doldurub, böyük bir hovuz düzəltdilər. İçini su ilə doldurub içmək üçün qaplar qoydular.

Bu əsnada Həzrəti Sə’d ibn Muaz, Cənabi Peyğəmbərimizin yanına gəlib; “Ey Rəsulallah! Biz sənə, xurma budaqlarından, içində otura biləcəyin bir kölgəlik düzəldək” deyə təklif etdi. Fəxri aləm Rəsulullah, Sə’din bu fikrindən razı qaldı və ona dua etdi. Dərhal bir kölgəlik düzəldildi.

---

[167] Hakim, *əl-Müstədrək*, III, 482.

Peyğəmbərlərin Hökmdarı, şərəfli Əshabıyla döyüş meydanını gəzib baxdılar. Arada dayanıb; "İnsaallah, səhər tezdən filan adamın vurub öldürüəcəyi yer buradır! İnsaallah səhər tezdən filan adamın vurulub öldürüləcəyi yer buradır! Buradır..." buyuraraq mübarək əlləriylə Qureyşli müşriklərin öldürüləcəyi yerləri bir-bir göstərdi. Sonradan, Həzrəti Ömər bunu; "Onlardan hər birinin, Rəsuli əkrəmin mübarək əlini qoyduğu yerlərin düz üstündə vurulub öldürüldüyünü gördüm. Nə bir az qabaqda, nə də dalda idilər" şəklində xəbər vermişdir.

Aləmlərin sahibi (səlləllahu əleyhi və səlləm) Əshabi kiramı, üç dəstəyə böldü. Muhacirlərin bayrağını Mus'ab ibn Umeyrə, Evslilərin bayrağını isə Sə'd ibn Muaza, Xəzrəclilərin bayrağını da Həbbab ibn Münzirə verdi. Hər biri bayraqlarının altında toplandılar.[168] Rəsulullah, ordunu düzüb, nizama qoydu.

Ordunu nizama qoyarkən, sıradan qabağa çıxan Səvad ibn Qaziyyənin sinəsinə, mübarək əlindəki çubuqla vurdu və; "Sırada dur, ey Səvad!" buyurdu. Səvad; "Ey Rəsulallah! Əlinizdəki çubuq yaman ağrıtdı. Səni, haqq din ilə, Kitab və adalətlə göndərən Allah Təala haqqı üçün, mən də sizə çubuqla elə vurmaq istəyərdim" dedi. Onun bu sözünə bütün Əshabi kiram çaşıb-qaldılar. Kainatın sahibindən qisas almağı istəmək olardı? Belə şey edilə bilərdi? Rəsulullah, mübarək köynəyinin qabağını açdı və; "Buyur, gəl qisasını al" buyurdu.

Həzrəti Səvad, Həbibi əkrəmin (səlləllahu əleyhi və səlləm) mübarək sinəsini çox sevinərək öpdü. Hamı qisas gözləyərkən, gördükləri mənzərə qarşısında qardaşları Səvada heyran qalıb, ona qibtə etdilər. Sevgili Peyğəmbərimiz; "Nə üçün belə etdin?!" deyə soruşduqda; "Anam-atam, canım sənə fəda olsun ey Rəsulallah! Bu gün, Allah Təalanın əmriylə əcəlimin gəldiyini hiss edir, uca zatınızdan ayrılmaqdan qorxuram. Bu səbəblə, aramızda keçən bu son dəqiqələrdə, mübarək bədəninizə dodaqlarımın toxunmasını arzu etdim. Bunu, qiyamət günündə mənə şəfaat etməyinizə, beləcə əzabdan xilas olmaq üçün bir vəsilə etmək istədim" dedi. Onun bu məhəbbəti qarşısında Cənabi Peyğəmbərimiz də çox tə'sirləndi və Həzrəti Səvada dua etdi.

Mübarək İslam ordusunun sağ cinahına qəhrəman mücahid Zübeyir ibn Əvvam, sol cinahına da Miqdad ibn Əsvəd başçılıq edəcəkdi.[169]

---

[168] Vaqidi, *əl-Məğazi*, I, 58; İbn Sə'd, *ət-Təbəqat*, II, 373.
[169] İbn Kesir, *əs-Sirə*, II, 388.

Rəsulullah (səlləllahu əleyhi və səlləm), şərəfli Əshabıyla savaşa necə başlayacaqları haqqında məsləhətləşmək istədi; "Necə vuruşsaq yaxşı olaq?" buyurdu. Asim ibn Sabit əlində yayı və oxu olduğu halda ayağa qalxıb; "Ey Rəsulallah! Qureyşlilər bizə yüz metrəyə qədər yaxınlaşdıqlarında, onları ox atəşinə tutaq. Sonra daş atımı məsafəsinə gəldiklərində onlara daş ataq. Nizə atacaq məsafəyə qədər yaxınlaşdıqlarında da, qırılıncaya qədər nizələrimizlə döyüşək. Sonra da qılınclarımızı sıyırıb döyüşək!" deyərək öz fikrini dedi. Bu taktika Cənabi Peyğəmbərimizin xoşuna gəldi. Əshabına belə bir tə'limat verdi ki; "Mövqelərinizi tərk edib ayrılmayın. Bir yerə tərpənmədən yerlərinizdə dayanın. Mən əmr vermədikcə döyüşə başlamayın. Oxlarınızı düşmən sizə yaxınlaşmadan atıb israf etməyin. Düşmən, qalxanını qaldırdığında oxunuzu atınz. Düşmən əməlli başlı yaxınlaşınca, əlinizlə daş atın. Yaxınlaşdıqlarında da nizələrinizlə döyüşün. Düşmənlə üz-üzə gəlidiyiniz zaman da qılınclarınızla döyüşün..."

Sonra növbətçilər qoyularaq Əshabi kirama istirahət verildi. Onlar, Allahu Təalanın hikmətiylə şirin yuxuya getdilər. Cənabi Peyğəmbərimiz də, xurma yarpaqlarıyla düzəldilən kölgəliyə getdiyində, Həzrəti Əbu Bəkir, sonra da Sə'd ibn Muaz qılınclarını sıyırıb kölgəliyin qabağında növbəyə durdular. Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) mübarək əllərini qaldırıb, böyük bir kədər içində Allahü Təalaya; "Ey Rəbbim! Sən bu bir ovuc camaatı həlak etsən, artıq sənə yer üzündə heç ibadət olunmaz…" deyərək yalvarmağa başladı. Bu qəmgin dua səhərə qədər davam etdi.

Mübarək İslam ordusunun düşərgə saldığı yer, qumluq idi. Buna görə də çətinliklə irəliləyir və ayaqları quma batırdı. Allah Təalanın ehsanı və Rəsulullahin duasının bərəkətiylə o gecə getdikcə güclənən bir yağış yağmaya başladı. Dərələr seldən dolub daşırdı. Su qabları dolduruldu və yer, ayaqlar batmayacaq qədər sərtləşdi.

Müşriklər isə palçıq və sel içində qaldılar. Dan yeri ağardıqdan sonra, Rəsulullah Əshabını namaza qaldırdı. Sübh namazını qıldırdıqdan sonra, düşmənlə cihad etməyin və şəhidliyin fəzlətindən bəhs edərək, onları döyüşməyə cür'ətləndirdi. Belə buyurdu ki; "Şübhəsiz ki, Allah Təala, haqq və həqiqət olanı əmr edər. Heç kimin Allah Təalanın rizası üçün görülməyən işini qəbul etməz... Rəbbimizin bu yerlərdə sizə rəhmətini və məğfirətini və'd etdiyi əmrini yerinə yetirməyə çalışın və imtahanı qazanın! Çünki, Onun və'di haqq, sözü həqiqət, cəzası da şiddətlidir. Mən və siz, Həyy

və Qəyyum olan Allah Təalaya bağlıyıq. Ona sığındık, Ona bel bağladıq, Ona e'timmad etdik. Ən son dönüşümüz də Onadır. Allah Təala, məni və bütün müsəlmanları bağışlasın!"

Ramazanı şərifin on yeddisində cümə gününün günəşi parladı. Bir az sonra tarixin ən amansız, ən nisbətsiz, ən əhəmiyyətli, ən böyük döyüşü başlayacaqdı... Bir tərəfdə Fəxri aləm (səlləllahu əleyhi və səlləm) və canlarını fəda etməkdən zərrə qədər qorxmayan bir ovuc şərəfli Əshabı, digər tərəfdə isə, İslamı bir qaşıq suda boğmaq, Allah Təalanın həbibi olmakla şərəflənən bir peyğəmbəri məhv etmək üçün toplaşan qudurğan və yoldan azmış bir kafir qrupu vardı. Təəssüf ki, bunların içində Rəsuli əkrəmin qohumları da var idi. Onlar da sevgili qohumları ilə döyüşmək üçün Bədirə gəlmişdilər.

Cənabi Peyğəmbərimiz, ordusunun intizamına bir də göz gəzdirib, verdiyi tə'limatları təkrarladı. Bu əsnada, Qureyş müşrikləri qərargahlarından çıxıb, Bədr vadisinə tərəf gəlməyə başladılar. Çoxu zirehli idilər. Böyük bir lovğalıq və təkəbbürlə İslam ordusuna hücuma keçmişdilər. Rəsulullah, müşriklərin bu halını görüncə, Həzrəti Əbu Bəkirlə çadıra girdi və mübarək əllərini qaldıraraq Cənabi Haqqa yalvarmağa başladı; "Ey Rəbbim budur, Qureyş müşrikləri lovğalıq ve təkəbbürlə gəlirlər! Sənə meydan oxuyur, Peyğəmbərini yalançı çıxardırlar. Ey Allahım! Mənə etdiyin yardım və qələbə və'dini yerinə yetirməyini Səndən istəyirəm! Allahım! Əgər bu bir ovuc müsəlmanın həlakını istəyirsənsə, sonra sənə ibadət edən tapılmayacaqdır!".

Bu şəkildə, dayanmadan, dönə-dönə yardım istəyərək Allah Təalaya yalvarırdılar. Cənabi Peyğəmbərimizin, belə kədərli, qəlbləri riqqətə gətirən yalvarışı, huşunu itirərək ridasının (paltarının) mübarək çiynindən düşməsinə qədər davam etdi. Bu ürəkdən yalvarışa dözə bilməyən Həzrəti Əbu Bəkir, mübarək ridanı böyük bir ehtiramla yerdən götürüb, Rəsulullahın mübarək çiyninə qoyarkən; "Canım sənə fəda olsun ey Rəsulallah! Bu qədər yalvarmağınız kifayətdir! Rəbbinə qarşı israrla dua etdiniz! Şübhəsiz ki, Allah Təala, sənə və'd etdiyi qələbəni yaxında verəcəkdir" deyə təsəlli etdi. O anda, Aləmlərin sahibi bu ayəti kərimələri oxuyaraq çadırdan çıxdı. Məalən; "(Bədirdəki) bu camaat, şübhəsiz ki az sonra darmadağın olub məğlubiyyətə

düçar olacaq və dabanlarına tüpürüb qaçacaqlar. Daha doğrusu, onların əsl əzab vaxtı qiyamətdədir. O vaxtın əzabı daha çox, daha əziyyətlidir" buyurulurdu.[170]

Sevgili Peyğəmbərimiz, ordusunun başına keçdi. Şanlı Əshabına, bu ayəti kərimələri oxudu; "Ey iman edənlər! Siz, bir düşmən qrupu ilə üzbəüz gəldiyiniz zaman səbirli olun və Allah Təalanı çox zikr edin ki, xilas olasınız... Səbr və səbat göstərin. Çünki, Allah Təala səbr edənlərlə birlikdədir"[171] Qrup şəklində olan ilk döyüş bu olacaqdı. Döyüşün başlamasına az qalmışdı. Həyəcan son həddinə çatmışdı. Bütün Əshabi kiram, Rəsuli əkrəmin; "Allah Təalanı çox zikr edin..." məalındakı ayəti oxumasından sonra, hamısı birlikdə "Allahu əkbər! Allahu əkbər!" demeyə və qələbə ehsan etməsi üçün Cənabi Haqqa yalvarmağa başladılar. Artıq Cənabi Peyğəmbərimizin bir işarəsini gözləyirdilər.

O zamankı adətlərə görə, iki ordu üz-üzə gəlməmişdən qabaq, hər iki tərəfdən igidlər meydana çıxar, qarşılıqlı döyüşərdilər. Bu döyüşdə, hər iki tərəfin döyüş əzmi, və arzusu çoxalar, döyüşə isinib cəsarətlənərdilər. Müşriklərdən Amir ibn Hədrami bu qaydaya riayət etməyərək, İslam ordusuna tərəf bir ox atdı. Ox, Muhacirlərdən Mihcaya dəydi və şəhid olub, mübarək ruhu Cənnətə yüksəldi. Peyğəmbərlərin sahibi, bu ilk şəhid üçün; "Mihca, şəhidlərin sahibidir" buyurarak müjdə verdi. Əshabi kiram yerində dura bilmirdilər. Ancaq, Rəsulullahdan bir əmr gəlmədən kiçik bir hərəkət də etmirdilər. Onlardan hər biri vulkan kimi qaynamağa başladı!

Bu əsnada, müşrik ordusundan üç nəfərin qabağa çıxdığı görüldü. Bunlar; Rəbiə oğullarından qəddar İslam düşmənləri Ütbə, qardaşı Şeybə və oğlu Vəlid idi. Mücahidlərə tərəf; "Aranızda bizimlə döyüşə bilən bir nəfər var bəyəm?" deyə qışqırdılar. Əshabi kiramdan, ən birinci Həzrəti Əbu Huzeyfə, atası Ütbəyə qarşı döyüşmək üçün qabağa çıxınca, Aləmlərin hökmdarı, ona; "Sən dayan!" buyurdu. Mədinəli mücahidlərdən Afra xatunun oğulları, Muaz və Müəvvəz, Abdullah ibn Rəvaha qabağa çıxdılar. Ütbə, Şeybə və Vəlidin qabağında durdular. Əllərində qılınc döyüşə hazır idilər.

Müşriklər; "Siz kimsiniz" deyərək özlərini tanıtmalarını istədilər. Onlar da; "Mədinəli müsəlmanlardanıq" deyincə, müşriklər; "Bizim sizinlə bir işimiz yoxdur! Bizə Əbdülmüttəlib oğulları lazımdır. Onlarla döyüşmək istəyirik" dedilər və İslam

[170] əl-Qəmər 54/45-46.
[171] əl-Ənfal 8/45-46.

ordusuna tərəf; “Ey Məhəmməd! Bizim qarşımıza, öz qövmümizdən tayımız olanları çıxart!” deyə qışqırdılar.

Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), meydandakı bu üç igid Əshabına dua etdikdən sonra, yerlərinə qayıtmalarını əmr etdi. Sonra Əshabına göz gəzdirib; “Ey Haşim oğulları! Qalxın! Allah Təalanın nurunu, batil dinləriylə söndürmək üçün gələnlərə qarşı, Haqq yolunda vuruşun ki, Allah Təala onsuz da Peyğəmbərinizi bunun üçün göndərmişdir. Qalx, ey Ubeydə! Qalx, ey Həmzə! Qalx, ey Əli!” buyurdu.

Allah Təalanın aslanları Həzrəti Həmzə, Həzrəti Əli və Həzrəti Ubeydə dəbilqələrini taxıb meydana çıxdılar. Onların qarşılarına keçdiklərində, müşriklər; “Siz kimsiniz? Əgər bizim tayımızsınızsa sizinlə döyüşərik” dedilər. Onlar da; “Mən Həmzəyəm! Mən Əliyəm! Mən Übeydəyəm!” deyə cavab verincə, müşriklər; “Sizlər də bizim kimi şərəfli adamlarsınız. Sizinlə döyüşməyi qəbul edirik” dedilər. Qəhrəman İslam mücahidləri, müşrikləri əvvəlcə imana də’vət etsələr də, onlar qəbul etmədilər. Bundan sonra üçü birdən qılınclarını sıyırıb müşriklərin üzərinə hücuma keçdilər. Həzrəti Həmzə və Həzrəti Əli, Ütbə və Vəlid kafirlərini elə birinci cəhddə öldürdülər. Həzrəti Übeydə, Şeybəni yaraladı. Şeybə də, Übeydəni yaraladı. Həzrəti Həmzə və Həzrəti Əli, Übeydənin köməyinə çatıb, Şeybəni oradaca öldürdülər. Həzrəti Übeydəni qucaqlarına götürüb, Rəsulullahin yanına gətirdilər.[172]

Həzrəti Übeydə ibn Harisin mübarək ayaq biləyi qan içində idi. O, bu halına heç əhəmiyyət verməyib; “Canım sənə fəda olsun ey Rəsulallah! Mən bu vəziyyətdə ölsəm şəhid olaram?” deyə sual verdi. Cənabi Peyğəmbərimiz də; “Bəli, sən şəhidsən” buyuraraq cənnətlik olduğunu müjdələdi. (Həzrəti Übeydə, döyüşdən qayıdarkən Səfra mövqeyində vəfat etdi).

Bu döyüşdə üç əhəmiyyətli adamını itirən müşriklər, çaş-baş qaldılar. Buna baxmayaraq Əbu Cəhil, ordusunun ruh yüksəkliyini çoxaltmaq üçün; “Siz Utbənin, Şeybənin, Vəlidin öldürülməsinə baxmayın, onlar tələsib özlərini həlak etdilər! And içirəm ki, müsəlmanları tutub qandallamadıqca dala qayıtmayacağıq!” deyərək təsəlli vərməyə çalışırdı.

Qəhrəman Əshabi kiram isə, bu müşrik tayfasını qılınclarıyla cəzalandırmaq üçün səbirsizliklə gözləyirdilər. Cənabi Peyğəmbərimiz də (səlləllahu əleyhi və səlləm)

[172] İbn Hişam, *əs-Sirə*, I, 708; İbn Sə’d, *ət-Təbəqat*, II, 17; Təbəri, *Tarix*, II; 134-135.

mübarək dilindən yerə salmadığı bu duanı təkrarlayırdı; "Allahım! Mənə etdiyin və'dini yerinə yetir! Allahım! Bu bir ovuc İslam camaatını həlak etsən, artıq sənə yer üzündə ibadət edən heç kim qalmaz!".

Bu əsnada müşriklərin səflərində, Qureyşin ən cəsarətli və sərrast ox atanlarından Həzrəti Əbu Bəkirin hələ müsəlman olmayan oğlu Abdurrahman meydana çıxıb, döyüşmək istədi. Mücahidlərin səflərindən də bir nəfərin, dərhal qılıncına sarılıb qabağa çıxdığı görüldü. Bu adam, ilk müsəlman olmakqla və Siddiqlik məqamıyla şərəflənən, peyğəmbərlərdən sonra ən uca insan, qəhrəman Həzrəti Əbu Bəkir idi. Oğluna qarşı döyüşmək üçün qabağa çıxmışdı. Ancaq Aləmlərin sahibi ona; "Ey Əba Bəkir! Bilmirsən ki, sən mənim görən gözüm, eşidən qulağım yerindəsən?" buyuraraq onun döyüşməyinə icazə vermədi. Əbu Bəkir Siddiq, oğluna; "Ey xəbis! Hanı mənə olan hörmətin?" deməkdən özünü saxlaya bilmədi.

Sonra Peyğəmbərlərin hökmdarı Həbibi əkrəmin yerə əyilib bir ovuc qum götürdüyü görüldü. Bu qumu düşmən tərəfə ataraq; "Üzləri qara olsun! Allahım! Qəlblərinə qorxu sal, ayaqlarına titrəmə tutsun!" buyurdu və üzünü Əshabına tutub; "Hücuma çıxın! Hücum edin" əmrini verdi. Bir işarət gözləyən şanlı Əshab, qabaqcadan verilən tə'limata görə hərəkət etməyə başladı. "Allahu əkbər! Allahu əkbər!" sədaları arasında oxlar vıyıldamağa, daşlar hədəflərinə dəyməyə, nizələr zirehləri dəlməyə başladı. Allah Təalanın aslanları Həzrəti Həmzə əllərində tutduğu iki qılıncla vuruşur, Həzrəti Əli, Həzrəti Ömər, Zübeyir ibn Əvvam, Sə'd ibn Əbi Vəqqas, Əbu Dücanə, Abdullah ibn Cahş müşrik səflərinin bir tərəfindən girib digər tərəfindən çıxır, kafirləri çaşbaş salırdılar. Hər biri alınmaz bir qala olmuşdu. "Allahu əkbər! Allahu əkbər!" sadaları aləmi doldurur, Allah Təalanın şanının böyüklüyü, kafirlərin beyinlərinə həkk edilirdi. Cənabi Peyğəmbərimiz; "Ya Həyyu! Ya Qəyyum!" deyə Allah Təalaya yalvarırdı. Həzrəti Əli; "Bədirdə hamımızdan ən çox cəsarətli, ən qəhrəman Rəsul əleyhissalamdı. Müşrik səflərinə ən yaxın olan da O idi. Çətin vəziyyətə düşdüyümüz zaman Ona sığınardıq" demişdir.

Müşriklər, başçıları Əbu Cəhili içlərində gizlətdilər. Özlərindən birini Əbu Cəhil kimi geyindirib ona oxşatdılar. Bu bədbəxtin adı Abdullah ibn Münzir idi. Həzrəti Əli, Abdullaha hücum etdi. Əbu Cəhilin gözləri qabağına, Abdullahın başını kəsdi. Əbu Qeysi geyindirdilər. Onu da Həzrəti Həmzə öldürdü.

Həzrəti Əli bir müşriklə döyüşürdü. Müşrik, qılıncını Həzrəti Əliyə elv vurmuşdu ki, qalxana yapışıb çıxmırdı. Həzrəti Əli Zülfüqarını, müşrikin zirehli bədəninə vurub, çiynindən sinəsinə qədər kəsmişdi ki, başının üstündə bir qılıncın sıyrıldığını gördü. Tez başını yana əydi. Qılıncı sıyıran; "Al! Bu da Həmzə ibn Əbdülmüttəlibdən" deyib, müşrikin kəlləsini dəbilqəsiylə bir yerdə yerə düşürtdü. Həzrəti Əli çevrilib baxdığında gördü ki, əmisi Həzrəti Həmzə iki qılıncla döyüşürdü. Peyğəmbərimiz, Əshabının belə igidcəsinə döyüşdüyünü gördükcə; "Onlar, Allah Təalanın yer üzündəki aslanlarıdır" buyuraraq, onları ucaldırdı.

Bu dəmdə, Rəsulullahın ətrafında döyüşən Həzrəti Ukaşənin qılıncı qırıldı. Bunu görən sevgili Peyğəmbərimiz, yerdə gördüyü bir dəyənəyi götürüb ona uzatdı və; "Ey Ukaşə! Bununla döyüş!" buyurdu. Ukaşə dəyənəyi götürən kimi, dəyənək Peyğəmbərimizin bir mö'cüzəsi olaraq, uzun və iti bir qılınca çevrildi. Döyüşün axırına qədər bu qılıncla bir çox müşriki öldürdü.

Aləmlərin sahibi Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) bir tərəfdən döyüşür, digər tərəfdən də Əshabını cuşa gətirən bu mübarək hədisi şərifini deyirdi; "Varlığım qüdrət əlində olan Allah Təalaya and içirəm ki, bu gün Cənabi Haqqın rizası üçün səbr və səbat göstərərək döyüşənləri, qorxmadan düşmənə hücum edərkən öldürülənləri, Haqq Təala, şübhəsiz Cənnətinə qoyacaqdır". Bu mübarək sözü eşidən Ümeyr ibn Hümam; "Necə də gözəl! Necə də gözəl! Demək, Cənnətə girə bilməyim üçün şəhid olmağımdan başqa heç nə lazım deyilmiş" deyərək, hücumlarını daha da artırdı. Bir tərəfdən düşmənlə vuruşur, bir tərəfdən də; "Allah Təalaya maddi şeylərlə deyil, ancaq Haqq Təalanın qorxusu, axirət arzusu, cihada səbr və səbat göstərərək gedilir. Bundan başqa bütün şeylər heç şübhə yoxdur ki, bitər, tükənər!" deyirdi. Beləcə, şəhid olana qədər döyüşdü.

Muharəbə əməlli başlı qızışmışdı! Bir səhabənin üzərinə ən az üç müşrik birdən hücum edirdi. Hər birinə ayrı-ayrılıqda qılınc vurmağa çalışan şanlı Əshabi kiramı heç bir şey ruhdan düşürtmürdü. "Allahu əkbər! Allahu əkbər!" dedikcə təzədən güclənir, dayanmadan vuruşmaqdan yorulmurdular. Bu dəmdə müşriklərin hücumu daha da artdı. Əshabi kiram çətin vəziyyətə düşdülər. O əsnada Rəsulullah, Həzrəti Əbu Bəkir ilə xurma budaqlarından düzəldilmiş çadırına girdilər. Peyğəmbərimiz, yenə Allah Təalaya yalvarmağa başladı; "Ey Rəbbim! Mənə və'd etdiyin yardımı lütf eylə!" O anda vəhy gəldi. Məalən buyurulurdu ki; "O vaxt Rəbbinizdən yardım və qələbə

istəyirdiniz. O sizə; “Həqiqətən mən dalbadal gələn min məlaikə ilə yardım edərəm” deyə duanızı qəbul etmişdi”[173] Cənabi Peyğəmbərimiz, dərhal ayağa qalxdı və; “Müjdə ey Əbu Bəkir! Sənə, Allah Təalanın yardımı çatdı! Bax, bu da Cəbrayıldır. Qum təpələrin üstündən, atının yüyənini tutub, silahlı vəziyyətdə, əmr gözləyir” buyurdu.

Ənfal surəsində nazil edildiyi kimi, sonra Cənabi Haqq, mələklərə məalən buyurmuşdu ki; “Onda ki, Rəbbin mələklərə; (Müsəlmanlara kömək və yardım barəsində) sizin yanınızdayam, deyə vəhy etdi. Gedin mö’minlərə (kömək müjdəsiylə qəlblərinə) səbat ilham edin. Mən indi kafirlərin qəlblərinə dəhşət və qorxu salacağam. Onların boyunlarını dərhal vurun. Barmaqlarının oynaqlarına qədər vurun! Çünki onlar, Allah Təalaya və Rəsuluna qarşı gəldilər. Hər kim Allah Təala və Rəsuluna qarşı gələrsə, Allah Təalanın (əzabına uğrayar) cəzası çox çətindir!”[174]

Bu əmrdən sonra Cəbrayıl, Mikayıl və İsrafil əleyhimussalam, hərəsi min mələk götürərək sevgili Peyğəmbərimizin yanında sırasıyla, sağında və solunda yerlərini aldılar.[175]

Cəbrayıl əleyhissalam, başına sarı bir əmmamə bağlamışdı. Digər mələklərin başlarında isə ağ əmmamə vardı. Əmmamələrin uclarını dala sallamışdılar, ağ atlara minmişdilər. Sərvəri aləm Rəsulullah Əshabına; “Mələklər, əlamətli və nişanlıdırlar. Siz də özünüz üçün bir əlamət və nişan tə’yin edin!” buyurdu. Zübeyir ibn Əvvam, başına sarı, Əbu Dücanə kırmızı bir parçanı əmmamə kimi bağladılar. Həzrəti Əli ağ bir lələk, Həzrəti Həmzə də sinəsinə dəvəquşu lələyi taxdı.

Mələklərin döyüşə başlamasıyla vəziyyət dərhal dəyişdi. Əshabı kiram qabağındakı kafrə qılıncını vurmamışdan qabaq, kafirin başı bədənindən qopub yerə düşürdu. Cənabi Peyğəmbərimizin sağında, solunda, qabağında və arxasında kim olduğu bilinməyən adamların müşriklərlə vuruşduğu görülürdu.

Həzrəti Səhl belə nəql etmişdir ki; “Bədr qəzvəsində, hər birimiz bir müşrikin başına qılıncımızı vurmaq istədiyimizdə, hələ qılıncımız dəyməmiş kafirin kəlləsinin qopub yerə diyirləndiyini görürduk!”.

---

173 əl-Ənfal 8/9.
174 əl-Ənfal 8/12-13.
175 Vaqidi, *əl-Məğazi*, I, 57; İbn Sə’d, *ət-Təbəqat*, I, 16; Beyhəqi, *Dəlailun-Nübüvvə*, III, 40; Hakim, *əl-Müstədrək*, III, 72.

## Əbu Cəhilin öldürülməsi...

Müşriklərin bayraqdarı Əbu Əziz ibn Umeyr əsir alındı. Sərkərdələri Əbu Cəhil isə Qureyşlilərə cəsarət verməK üçün dayanmadan şe'rlər söyləyərək, əsgərinin ruh yüksəkliyini artırmağa çalışırdı. Cavanlar kimi hücuma keçərək; "Anam məni bu günlər üçün doğmuşdur!" deyərək lovğalanır, gəncləri təşviq edirdi.

Müşriklərdən Ubeydə ibn Səid, baştan ayağa qədər zirehli idi. Təkcə gözləri görünürdu. Atının üstündə bir o tərəfə, bir bu tərəfa çevrilib; "Mən, Əbu Zatulkərişəm! Mən Əbu Zatulkərişəm!" yəni mənim qarnım böyükdür, deyərək öz aləmində meydan oxuyurdu. Qəhrəman mücahid Həzrəti Zübeyir ibn Əvvam, ona yaxınlaşıb nizəsini düz sinəsinə tuşladı və; "Allahu əkbər!" deyib atdı. Hədəfinə dəyən nizə, onu atından yerə sərdi. Həzrəti Zübeyir, özünü ona çatdırana qədər Ubeydə ölmüşdü. Ayağını, üzünə qoyub var gücüylə çıxrtmağına baxmayaraq nizəni çox çətinliklə çıxarda bildi.

Həzrəti Zübeyirin, Bədir döyüşündə göstərdiyi qəhrəmanlıq çox böyükdü. Bədəni tamamiylə yara içində idi. Bu vəziyyəti oğlu Urvə; "Atam, üç ciddi qılınc yarası almışdı. Bunlardan biri boynunda idi. Yara o qədər dərin bir iz qoymuşdu ki, içinə barmağımı sala bilirdim" deyə nəql etmişdi.

Əbdurrəhman ibn Əvf də can-başla Qureyşlilərlə döyüşür, aldığı yaralardan axan qanı vecinə almadan qabağına çıxanı aşırdırdı. Həzrəti Əbdurrəhman şahid olduğu bir hadisəni belə nəql etmişdir ki; "Qabağımda heç kim qalmamışdı. Sağıma, soluma baxdığımda, Ənsardan iki yeniyetmə gözümə dəydi. Bunlardan ən qüvvətli və güclü olanı ilə bir yerdə olmaq istədim. Bu iki yeniyetmədən biri, məni başdan ayağa süzdü, sonra mənə üzünü tutaraq; "Ey əmi! Əbu Cəhili tanıyırsan?!" deyə soruşdu. Mən də; "Bəli tanıyıram" dedim və; "Ey qardaşımın oğlu, Əbu Cəhilə nə edəcəksən?" deyə soruşunca; "Mənə xəbər verildiyinə görə o Rəsulullahı söyürmüş. Allah Təalaya and içirəm ki, onu bir dəfə görsəm, öldürüncəyə veya özüm ölüncəyə qədər onunla vuruşacağam" dedi. Bir gəncin həyəcanlı şəkildə dediyi bu qət'i və qərarlı sözə çox heyran qaldım".

Bu iki gəncdən digəri də məni başdan ayağa süzərək o birisinin dediyini dedi. Bu əsnada, Əbu Cəhili görmüşdüm! O, Qureyş əsgəri içində dayanmadan dala-qabağa çevrilib baxırdı. Mən; "Ey gənclər! Ora-bura həyəcanla gedən bu adam, Əbu Cəhildir"

deyincə, dərhal qılınclarına sarıldılar və Əbu Cəhilin yanına yaxınlaşaraq döyüşməyə başladılar. Bu gənclər, Əfra xatunun uşaqları Muaz və Müəvvəz idilər.

Bu əsnada Əshabi kiramın qəhrəmanlarından Muaz ibn Əmr, fürsət tapıb Əbu Cəhilin yanına yaxınlaşdı və uzun quyruqlu bir ata minən Əbu Cəhilə hücum edib, var gücüylə qılıncını ayağına vurdu. Əbu Cəhilin ayağı qopub yerə düşdü. O əsnada atasının köməyinə çatan və hələ müsəlman olmayan İkrimə, Həzrəti Muaz ibn Əmr ilə döyüşməyə başladı.

O əsnada Muaz və Müəvvəz qardaşları bir şahin kimi qabağa atıldılar. Qarşılarına çıxanları aşırdaraq Əbu Cəhilə çatdılar. Onu öldürüncəyə qədər qılınclarıyla vurdular.

Həzrəti Muaz ibn Əmr isə, İkrimə ilə döyüşdə əlindən və qolundan yaralanmışdı. Mübarək əli biləyindən kəsilmiş, əli dərisindən sallanıb qalmışdı. Döyüşməyə başı qarışan Muaz ibn Əmrin, öz əliylə vaxt itirməyə, onu sarımağa vaxtı yoxdu. Kəsilmiş əli dərisindən sallanırkən belə qəhrəmanca döyüşürdü. “Allahu əkbər!” Bu nə güclü imandır! Bu nə mənzərə idi! Həzrəti Muaz bir müddət belə vuruşduqdan sonra, hərəkət qabiliyyətinin azaldığını gördü. Buna səbəb, kəsilmiş əli idi. Onu dərhal ayağının altına qoyaraq qopardıb atdı...[176]

Qəddar İslam düşmənlərindən Nofəl ibn Xuveylid, Qureyşin ən məşhur pəhlivanlarından idi. Dayanmadan qışqırır, müşrik sürüsünü həyəcana və riqqətə gətirməyə çalışırdı. Cənabi Peyğəmbərimiz, onun belə bir vəziyyətdə görüncə; “Allahım! Nofəl ibn Xuveylidə qarşı mənə yardımçı ol. Onun öhdəsindən gəl” buyuraraq dua etmişdi. Allah Təalanın aslanı Həzrəti Əli, müşrik Nofəli görüncə, dərhal ona hücum etdi. Şiddətlə qılıncını endirdi. Elə vurmuşdu ki, ayaqları zirehli olmasına baxmayaraq ikisi də birdən kəsildi. Sonra boynuna da vurub, başını gövdəsindən ayırdı.[177]

Bilali Həbəşini qızmar qumun üstünə uzadıb, sinəsinə böyük daşları qoyan Ümeyyə ibn Xələf müşriklərin ən qəddarlarından biriydi. Rəsulullaha (səlləllahu əleyhi və səlləm) işgəncə vermək üçün hər bir fürsətdən istifadə edən bu böyük İslam düşməni də Bədir vadisində müşrikləri qızışdırmağa çalışır, İslamın nurunu söndürmək üçün

---

[176] Buxari, “Məğazi”, 8; Müslim, “Cihad və Siyər”, 147; İbn Hişam, *əs-Sirə*, I, 634; Beyhəqi, *Dəlailun-Nübüvvə*, III, 83; Süheyli, *ər-Rövzul-Unf*, III, 77.

[177] Vaqidi, *əl-Məğazi*, I, 92; Beyhəqi, *Dəlailun-Nübüvvə*, III, 98; Əhməd Şami, *Sübülül-Huda*, IV, 94.

dəridən qabıqdan çıxırdı. Onun bu halını görən Həzrəti Bilal, əlində qılıncı tutmuş halda yaxınlaşaraq qabağında durdu və; "Ey küfrün başı olan Ümeyyə ibn Xələf! Sən xilas olsan mən olmaram!" deyib hücum etdi. Bir tərəfdən də; "Ey Ənsar qardaşlarım! Gəlin, küfrün başı buradadır!" deyən kimi Əshabi kiram toplaşıb Ümeyyəni dərhal öldürdülər.[178]

Müşrik ordusunda, artıq başçı qalmamışdı. Hər biri nə edəcəklərini bilmir, hara oldu qaçmağa çalışırdılar. Küfrün qalası yıxılmışdı. Şanlı Əshab isə tə'qib etməyə davam etdi. Müşriklərdən bir hissəsi tutularaq əsir alındı. Cənabi Peyğəmbərimizin əmisi Abbas da əsirlər arasındaydı.[179]

## Qələbə inananlarındır...

Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), şanlı Əshabına; "Nofəl ibn Xuveylid haqqında məlumatı olan var" buyurdu. Həzrəti Əli qabağa çıxıb; "Ey Rəsulallah! Onu mən öldürdüm" dedi. Bu xəbərə çox sevinən sevgili Peyğəmbərimiz; "Allahu əkbər!" deyərək təkbir gətirdi və; "Allahu Təala, onun haqqındakı duamı qəbul etdi" buyurdu.

Ümeyyə ibn Xələfin öldürüldüyünü eşidəndə də çox sevindilər və; "Əlhəmdulillah! Allah Təalaya şükrlər olsun. Rəbbim qulunu təsdiq etdi, dinini ucaltdı" buyurdu.

Rəsuli əkrəm, Əbu Cəhil üçün; "Görəsən Əbu Cəhil nə etdi, nə oldu, kim gedib bir baxar?" buyuraraq, ölülər arasında onun axtarılmasını əmr etdi. Axtardılarsa da tapa bilmədilər. Cənabi Peyğəmbərimiz; "Axtarın, onun barəsində sözüm var. Əgər onu tanıya bilməsəniz dizindəki yara izinə baxın. Bir dəfə mən və o Abdullah ibn Cüdanın də'vət etdiyi qonaqlıqda idik. İkimiz də cavan idik. Mən ondan bir az böyük idim. Yerimiz dar olunca onu itələdim. Dizi üstünə düşdü. Dizlərindən birisi yaralandı və bu yaranın izi dizindən getmədi" buyurdu.

Bundan sonra Abdullah ibni Məs'ud, Əbu Cəhili axtarmağa getdi. Onu yaralı halda tapdı və tanıdı. "Əbu Cəhil sənsən?" dedi. Boynuna ayağını basdı. Saqqalından

---

178 Buxari, "Vəkalət", 2; İbn Hişam, *əs-Sirə*, II, 631; İbn Əbi Şeybə, *əl-Musannəf*, VIII, 477; Beyhəqi, *Dəlailun-Nübüvvə*, III, 94; Təbəri, *Tarix*, II. 153.
179 İbn Hişam, *əs-Sirə*, I, 715; Süheyli, *ər-Rövzul-Unf*, III, 173.

tutub dartdı və; “Ey Allah Təalanın düşməni! Allah Təala axırda səni xor və həqir gördü ki!” dedi. Əbu Cəhil; “Niyə məni xor və həqir görsün! Ey qoyun çobanı! Allah səni xor və həqir etsin. Sən sıldırımlı bir qayaya çıxmısan! Sən mənə bu gün zəfər və qələbənin hansı tərəfdə olduğunu xəbər ver” dedi. İbni Məs’ud Həzrətləri; “Qələbə, Allah və Rəsulunun tərəfindədir” dedi. Əbu Cəhilin dəbilqəsini başından çıxardarkən; “Ey Əbu Cəhil! Səni öldürəcəyəm” dedi. Əbu Cəhil; “Sən qövmünin xalqını öldürənlərin birincisi deyilsən. Ancaq doğrusu, sənin məni öldürməyin mənə çox ağır gələcək. Heç olmasa boynumu sinəmə yaxın hissəsindən kəs ki, başım məğrur görünsün!” deyərək küfrünün, qürur və təkəbbürünün nə dərəcəyə çıxmış olduğunu göstərdi.

İbni Məs’ud, Əbu Cəhilin başını öz qılıncıyla kəsə bilməyincə, Əbu Cəhilin qılıncıyla kəsdi və silahını, zirehini, dəbilqəsini və başını gətirib, Cənabi Peyğəmbərimizin qabağına qoydu. “Anam-atam sənə fəda olsun ey Rəsulallah! Bu, Allah Təalanın düşməni Əbu Cəhilin başıdır” dedi. Sevgili Peyğəmbərimiz; “O Allah ki, Ondan başqa ilah yoxdur” buyurdu. Sonra qalxıb Əshabıyla birlikdə Əbu Cəhilin meyitinin yanına qədər getdi. Orada; “Allah Təalaya həmd olsun ki, səni zəlil və həqir gördü. Ey Allahın düşməni! Sən bu ümmətin Fironu idin” buyurdu. Sonra da; “Ey Rəbbim! Mənə olan və’dini yerinə yetirdin” deyərək Allah Təalaya şükr etdi.

Rəsulullah (səlləllahu əleyhi və səlləm), yaralı Əshabi kiramın yaralarını bağlatdırdı. Şəhid olanları dəqiqləşdirdi. Muhacirlərdən altı, Ənsardan səkkiz olmaqla on dörd şəhid verilmişdi. Hamısının də mübarək ruhları Cənnətə uçarkən, İslamın nurunu söndürməyə çalışan müşriklərdən, yetmiş nəfər öldürüldü və bir o qədər də əsir alındı.

Rəsulullah, qələbəni müjdələmək üçün Abdullah ibn Rəvaha və Zeyd ibn Harisəni Mədinəyə göndərdi.

Cənabi Peyğəmbərimiz, şəhidlərin meyyit namazını qıldıraraq onları dəfn etdirdi.

Müşriklərin cəsədlərindən iyrmi dörd dənəsini bir quyuya, digərlərini də bir yerdə çuxurlara atıb, üstünü torpaqla doldurdular.

Aləmlərin sahibi, şərəfli Əshabıyla quyunun başına gəlib; “Ey quyuya atılanlar!” buyurduqdan sonra, öldürülən müşriklərin adlarını, atalarının adlarıyla birlikdə sadalayıb; “Ey Utbə ibn Rəbiə! Ey Umeyyə ibn Xələf! Ey Əbu Cəhil ibn

Hişam! Sizlər, Peyğəmbərinizə qarşı nə pis bir qövm idiniz. Siz, məni yalançı adlandırdınız, başqaları isə məni təsdiq edib e'timad etdi. Siz, məni şəhərimdən, diyarımdan qovdunuz. Başqaları isə mənə qapılarını açıb bağrına basdılar. Siz, mənimlə döyüşdünüz, başqaları isə mənə yardım etdilər. Rəbbimin, və'd etdiyi şeyə qovuşdunuz? Mən, Rəbbimin və'd etdiyi qələbəyə qovuşdum" buyurdu.

Həzrəti Ömər; "Ey Rəsulallah! Leşi qalmış bunlarla nə danışırsan ki?" deyə sual verdi. Bundan sonra Rəsuli əkrəm Rəsulullah; "Məni haqq olaraq göndərən Rəbbimin haqqı üçün deyirəm ki, onlar məni sizdən daha çox eşidir. Ancaq onlar cavab verə bilmirlər" buyurdu.

Müşriklər, döyüş meydanından canlarını qurtarmaq üçün sür'ətlə qaçarkən, gətirdikləri hər şeyi özləriylə apara bilməmişdilər. Hamısı müsəlmanların əlinə keçdi. Cənabi Peyğəmbərimiz, qənimət mallarını Bədir döyüşündə iştirak edən və vəzifəli olan bütün Əshabı arasında bölüşdürdü.

Bu əsnada muştuluqçu olaraq göndərilən Abdullah ibn Rəvaha və Zeyd ibn Harisə, Mədinəyə yaxınlaşmışdılar. Bazar günü dan yeri ağararkən, Əqiq mövqeyinə gəlincə, ayrıldılar. Abdullah ibn Rəvaha bir tərəfdən, Zeyd ibn Harisə də başqa bir tərəfdən Mədinəyə girdilər. Evbəev gəzib qələbəni xəbər verdilər. Rəsulullahın şairi olan Abdullah ibn Rəvaha;

*"Ey Ənsar camaatı! Sizə müjdələyirəm ki,*
*Sağ və salamətdədir, Allahın Peyğəmbəri.*

*Müşriklər öldürüldü və əsir edildilər,*
*Var əsirlər içində, çox şöhrətliləri.*

*Rəbiə və Həccacın oğulları bittamam,*
*Öldürüldü həm Bədirdə, Əbu Cəhil, Əmr ibn Hişam"*

deyərək yüksək səslə qələbəni müjdələyirdi. Həzrəti Asim ibn Ədiy; "Ey İbni Rəvahə! Dediyin doğrudur?" deyə soruşdu. Abdullah ibn Rəvahə; "Bəli, vallahi doğrudur! İnşaallah, sabah Rəsulullah da, əlləri bağlı əsirlərlə birlikdə gələcək!" buyurdu.

O gün, sevgili Peyğəmbərimizin qızı Həzrəti Ruqiyyə vəfat etmişdi. Həyat yoldaşı Həzrəti Osman meyyit namazını qıldırmışdı. Bu kədərli hadisədən sonra gələn qələbə xəbəri, onları bir az fərəhləndirmişdi.

Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) Əshabıyla Bədir qələbəsini onlara ehsan edən Allah Təalaya həmd edib, şükr səcdəsinə getdikdən sonra, Mədinəyi münəvvərəyə tərəf əsirlərlə birlikdə yola çıxdı.

Daha əvvəl müjdəni çatdıran Abdullah ibn Rəvahə ilə Zeyd ibn Harisə, Bədir qəzvəsində baş verən hadisləri və kimlərin şəhid olduğunu da demişdilər. Mədinədə qalan uşaqlar, qadınlar və vəzifəlilər qələbə üçün çox sevinmişdilər. Cənabi Peyğəmbərimizi qarşılamağa çıxdılar. Şəhid olanların arasında Harisə ibn Surəqa da vardı. Həzrəti Harisənin anası Rəbi, oğlunun hovuzdan su içərkən, bir düşmən oxuyla vurulub şəhid olduğunu öyrənmişdi. Rəbi anamız, bu xəbəri eşitdiyində; “Rəsul əleyhissalam gəlmədikcə oğlum üçün ağlamaram. Təmtəraqla Mədinəyə təşrif etdiyində, özündən soruşaram. Əgər oğlum Cənnətdədirsə heç ağlamaram. Yox əgər Cəhənnəmdədirsə, gözlərimdən yaş yerinə qan axıdaram” demişdi.

Sevgili Peyğəmbərimiz, mübarək Əshabi kiramıyla Mədinəyə təşrif etdiklərində, Rəbi yanına gəlib; “Anam-atam sənə fəda olsun ey Rəsulallah! Oğlum Harisəni çox sevdiyimi bilirdin. Görəsən şəhid olub Cənnətə girib? Əgər belədirsə, səbr edim. Yox elə deyilsə, gözümdən qanlı yaşlar axıdım” dedi. Həbibi əkrəm Rəsulullah ona; “Ey Ümmü Harisə! Sənin oğlun bir deyil, bir neçə Cənnəttədir. Onun yeri Firdövsdür” buyuraraq müjdə verdi. Bundan sonra Rəbi; “Artıq oğlum üçün ağlamaram” dedi.

Kainatın hökmdarı, bir qab su istədi. Mərhəmət buyurup mübarək əlini suya batırıb çıxartdı. Bu suyu Həzrəti Harisənin anası və bacısına içirtdi. Ayrıca bu suyu, onların başlarına və üzlərinə sürtdü. O gündən sonra Rəbi və qızının üzləri şox nurlu idi. Ömürləri də çox uzun oldu.

Kainatın hökmdarı (əleyhi əfzəlussəlavat), Mədinəyə gətirilən yetmiş əsiri, Əshabı arasında bölüşdürərək onlara yaxşı rəftar edilməsini əmr etdi. Əsirlərin aqibəti haqqında, Allah Təaladan hələ ki bir vəhy gəlməmişdi. Rəsulullah, Əshabıyla məsləhətləşdikdən sonra əsirlərin, fidyə müqabilində azadlığa buraxılması qərarına gəldilər. Hər əsirin mal-mülkünə görə fidyə miqdarı tə’yin edildi. Pulu olmayanlardan oxuyub yazma bilənlər, Mədinədə oxuyub yazma bilməyən on nəfərə oxumağı və

yazmağı öyrədəcək, ondan sonra Məkkəyə gedə biləcəkdilər. Əsirlər arasında, Cənabi Peyğəmbərimizin əmisi Abbas da vardı. Rəsulullah ona; "Ey Abbas! Özün və qardaşının oğlu Uqayl (Aqil) ibn Əbi Talib, Nofəl ibn Haris üçün xilas olmağınıza görə fidyə ödəyin. Çünki sən, varlısan" buyurdu. Həzrəti Abbas da; "Ey Rəsulallah! Mən müsəlmanam. Qureyşlilər məni məcbur edərək Bədirə gətirdilər" dedi. Rəsulullah; "Sənin müsəlmanlığını Allah Təala bilər. Doğru deyirsən, Allah Təala sənə əlbəttə onun əcrini verər. Ancaq sən, görünüş e'tibarıyla əleyhimizdəsən. Bunun üçün, fidyə pulunu ödəməyin lazımdır" buyurdu. Abbas; "Ey Rəsulallah! Üstümdə qənimət olaraq götürdüyünüz 800 dirhəmdən başqa sərvətim yoxdur" deyincə, Cənabi Peyğəmbərimiz; "Ey Abbas! Bəs o qızılları nə üçün demirsən?" buyurdu. O da; "Hansı qızılları?" dedi, Sevgili Peyğəmbərimiz; "Sən Məkkədən çıxacağın gün, xanımın Harisin qızı Ümmü Fəzlə verdiyin qızıllar yadındadır?! Onları verərkən yanınızda sizdən başqa heç kim yox idi. Sən, Ümmül Fəzlə; "Bu səfərdə başıma nə gələcəyini bilmirəm. Əgər bir bədbəxtçiliyə düçar olub qayıtmasam, bu qədəri sənindir, bu qədəri Fəzl üçündür, bu qədəri Abdullah üçün, bu qədəri Ubeydullah üçün, bu qədəri də Qusəm üçündir" demisən" buyurunca, Həzrəti Abbas çaşbaş qaldı və; "And içirəm ki, mən bu qızılları xanımıma verərkən yanımızda heç kim yox idi. Bunu hardan bilirsən?" dedi. Cənabi Peyğəmbərimiz; "Allah Təala xəbər verdi" buyurduğunda, Abbas; "Sənin, Allah Təalanın rəsulu olduğuna və doğru dediyinə şəhadət edirəm" deyib kəliməyi şəhadət gətirdi. [180] Müsəlman olunca, Cənabi Peyğəmbərimiz Həzrəti Abbası Məkkədə vəzifələndirdi. Oradakı müsəlmanları qorumasını, İslamiyyətə düşmən olanlarla əlaqəli xəbərləri göndərməsini əmr etdi.

Bədir qəzvəsində məğlubiyyətə düçar olan Qureyşə xəbər göndərilib, fidyə müqabilində əsirlərini ala biləcəkləri xəbər veririldi. Ancaq, hicrətdən əvvəl peyğəmbərlərin peyğəmbərinə həddən çox əziyyət və işgəncə verən Nadr ibn Harisin boynu vuruldu. Bir də, Rəsul əleyhissalam Kə'bədə namaz qılarkən mübarək kürəyinə dəvə içalatını qoymaq bədbəxtliyini göstərən alçaq Uqbə ibn Əbi Muayt öldürüldü. Bu qəddar İslam düşməninin başı bədənindən qopardılınca, Rəsulullah Allah Təalaya həmd etdilər. Yanına gəlib; "Vallahi Allah Təalanı, rəsulunu və Qur'ani Kərimi inkar edən, Peyğəmbərinə çox işgəncə verən sənin qədər pis bir adam tanımıram" buyurdu.

---

[180] Təbəri, *Tarix*, II, 523-524.

Əsirlər, sahibləri tərəfindən fidyə müqabili alınıncaya qədər, Əshabi kiramın yanında qaldılar. Səhabənin hamısı da əsirlərə çox yaxşı rəftar edib, onları öz yeməklərinə şərik qoşdular. Mus'ab ibn Umeyrin qardaşı Əbu Əziz də əsirlər arasında idi. O nəql etmişdir ki; "Mən də Mədinəli bir müsəlmanın evində əsir qalırdım. Mənə çox yaxşı rəftar edir, səhər və axşam yeməklərində çörəyi mənə verir, özləri təkcə xurma yeyirdilər. Onlardan birinin əlinə bir çörək tikəsi keçsə, tez mənə gətirib verərdi. Utandığımdan çörəyi gətirənin özünə qaytarardım. Ancaq o, çörəyi təzədən mənə qaytarardı".

Yenə əsirlərdən Yezid adındakı Qureyşli belə nəql etmişdi ki; "Müsəlmanlar Bədirdən Mədinəyə gələrkən, biz əsirləri heyvanlara mindirdilər, özləri isə piyada gəldilər".

Müşriklərin Bədirdə məğlubiyyətə düçar olub, darmadağın bir vəziyyətdə döyüş meydanından qaçmaları, Məkkədə böyük bir təəccüblə qarşılandı. Heç gözləmədikləri, hətta heç ağıllarına gəlməyən bir nəticə ortaya çıxmışdı. Xəbəri ilk gətirənin sözlərinə nə Əbu Ləhəb, nə də digər müşriklər inanmadılar. Döyüş meydanından qaçan Əbu Süfyan Məkkəyə gəldiyində, onu dərhal yanlarına çağırdılar. Əbu Ləhəb ona; "Ey qardaşımın oğlu! De görək, necə oldu?" deyə soruşdu. Əbu Süfyan yerə oturdu. Çoxları ayaq üstündə qulaq asırdılar. Əbu Süfyan belə nəql etdi ki; "Heç soruşma! Müsəlmanlarla üzbəüz gəlincə, sanki əlimiz qolumuz bağlı idi. İstədikləri kimi hərəkət etdilər. Bir hissəmizi öldürdülər, bir hissəmizi də əsir aldılar. And içirəm ki, mən bizimkilərdən heç kimi qınayıb, günahlandırmıram. Çünki, o əsnada yerlə göy arasında atlara minmiş, ağ paltarlar geyinmiş adamlarla rastlaşdıq. Onların qabağında nə bir şey, nə də bir nəfər dura bilərdi".

İslamın ilk zamanlarında müsəlman olmasına baxmayaraq, müşriklərin şərrindən qorxduğu üçün müsəlmanlığını gizlədən Abbasın köləsi Əbu Rafi Həzrətləri də orda idi. Səssiz səmirsiz onlara qulaq asan Əbu Rafi, sevincindən hər şeyi yaddan çıxartdı və; "Vallahi onlar mələklərdir" dedi. Əbu Ləhəb, ona bərk bir şillə çəkdi və qamarlayıb yerə yıxdı. Bir xeyli də döydü. Buna, orda olan Həzrəti Abbasın xanımı Ümmü Fəzl dözə bilmədi. Çünki özü də qabaqcadan müsəlman olmuşdu. Ümmü Fəzl, otağındakı dəyənəklərdən birini götürüb; "Heç kimi yoxdur deyə onu gücsüz gördün?" deyərək, Əbu Ləhəbi möhkəm vurdu. Əbu Ləhəbin başı yarıldı. Başından qan axaraq zəlil, həqir və pis bir vəziyyətdə çıxıb getdi. Yeddi gün sonra, Allahu Təala ona qara

qızıl deyilən bir xəstəlik verdi. Bu xəstəlikdən öldü. Oğulları iki veya üç gecə dəfn etməyərək saxladılar. Axırda iylənməyə başladı. Hamı, Əbu Ləhəbin xəstəliyindən, taundan qaçan kimi qaçır və iyrənirdi. Bundan sonra Qureyşdən biri, Əbu Ləhəbin oğullarına; "Vay halınıza, heç utanmırsınız? Atanızı, iylənincəyə qədər evdə saxladınız. Heç olmasa onu bir yerə basdırıb ortalıqdan götürün" dedi. Oğulları o adama; "Biz ondakı xəstəlikdən qorxuruq!" deyə cavab verdilər. Bu dəfə adam onlara; "Siz gedin, mən də gəlirəm, sizə kömək edəcəyəm" dedi. Sonra, üçü köməkləşib meyiti uzaq bir yerə apardılar. Üstünü örtənə qədər daş atdılar. Əbu Ləhəb beləcə əbədiyyən əzab və alovlar içində qalacağı yurduna, qaranlıq və Cəhənnəm çuxuru olan qəbrinə girdi.

Bədirdə əsir alınan Qureyşlilər arasında Vəlid ibn Vəlid də vardı. Onu Abdullah ibn Cahş əsir almışdı. Vəlidin qardaşları Hişam ilə hələ müsəlman olmayan Xalid ibn Vəlid Mədinəyə gəldilər. Abdullah ibn Cahş fidyəyi nicat, yəni xilas olmaq üçün pulu ödənmədikcə azadlığa buraxmaq istəmədi. Qardaşlarından Xalid razı oldusa da, atası bir anası ayrı qardaşı Hişam qəbul etmədi. Rəsulullah, atalarının silah-sursatının verilməsini təklif etdi. Buna Hişam razı oldusa da Xalid qəbul etmədi. Ancaq axırda atalarının yüz dinar qiymətindəki qılıncı, zirehi və dəbilqəsi müqabilində razılığa gəldilər. Vəlidi əsirlikdən qurtarıb, Məkkəyə tərəf yola düşdülər. Ancaq Vəlid, Məkkə yolu üstündəki Mədinəyə dörd mil uzaqlıqdakı Zulhuleyfədə onlardan ayrılıb, Cənabi Peyğəmbərimizin yanına gəldi, iman edib Əshabi kiramdan oldu. Müsəlman olduqdan bir müddət sonra, Məkkəyə qardaşlarının yanına getdi. O zaman Xalid ibn Vəlid; "Madam, müsəlman olacaqdın, barı xilas fidyəsi ödəməsəydin? Atamızdan qalan xatirəni əlimizdən çıxartdın. Nə üçün belə etdin?" deyə soruşunca; "Qureyşlilərin; "Əsarətə dözə bilmədi və Məhəmməd əleyhissəlama tabe oldu" deməlırindən qorxdum" cavabını verdi.

Bu cavaba çox əsəbiləşən qardaşları onu, İyaş ibn Əbi Rəbiə və Sələmə ibn Hişam kimi Məhzum oğullarından bəzi müsəlmanlarla birlikdə həbs etdilər. Vəlid ibn Vəlid, iman etdiyi üçün illərlə Məhzum oğullarından bəzi müsəlmanlarla birlikdə həbsdə qaldı. İslamiyyətin qəddar düşmənlərindən əmisi Hişam ilə, müşrik qohumlarından çox zülm və işgəncə gördü. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), müşriklərin zülmünə mə'ruz qalan İyaş ibn Əbi Rəbiə ilə Əbu Sələmə ibn Hişam və Vəlid üçün belə dua etdi ki; "İlahi! Vəlid ibn Vəlidi, Sələmə ibn Hişamı, İyaş ibn Rəbiəni (küffar əlində bezib) zəif (və aciz) görülən digər mö'minləri xilas et! İlahi,

Mudarı (Qureyşi) daha betər (çox pis) əz. Bu ili (onlar üçün) Yusifin illərinə oxşat!". Vəlid, Rəsulullahın duasının bərəkətiylə fürsət tapıb, saxlandığı yerdən qaçdı. Mədinəyi münəvvərəyə gəlib, sevgili Peyğəmbərimizə qovuşdu. Həbibullah, İyaş ibn Rəbiə ilə Sələmə ibn Hişamın halını soruşunca, onların ayaqlarından bir birlərinə bağlı olduqlarını, şiddətli əzab və işgəncələrə məruz qaldıqlarını xəbər verdi.

Kainatın hökmdarı, onların halına çox üzülüb, onları xilas etmək üçün çarə axtarmağa başladı. Kimin xilas edə biləcəyini soruşunca, illərdir işgəncə verilməsinə baxmayaraq, Vəlid böyük bir cəsarət və həvəslə; "Ey Rəsulallah! Onları mən xilas edib sənə gətirərəm" deyə cavab verdi. Təzədən Məkkəyə gəlib, işgəncə verilən müsəlmanların yerini, onlara yemək aparan bir qadını tə'qib edərək öyrəndi. İkisi də tavansız bir binada həbs edilmişdi. Vəlid gecə, ölümdən qorxmayaraq böyük bir cəsarətlə divarı dırmaşıb, dostlarının yanına gəldi. İman etməkdən başqa bir günahları olmayan iki məzlum, müşriklər tərəfindən bir daşa bağlanıb, Ərəbistanın səhra havasındakı yandırıcı istisində, hər cür zülmə mə'ruz qalırdı. Vəlid bu mübarək qardaşlarını xilas edib, dəvəsinə mindirdi. Özü də ayaqyalın Mədinəyi münəvvərəyə, çox sevdiyi Rəsulullahın yanına tezliklə çatmaq üçün yola çıxdı. Onu səhranın yandırıcı istisi deyil, aləmlərin sahibinə qovuşmaq eşqi yandırırdı.

Mədinəyə ac, susuz, ayaqyalın üç gündə gəldi. Daş-kəsəkdən barmaqları tikə-tikə olmuşdu. Vəlid ibn Vəlid, qan-tər içində çox sevdiyi Həbibullaha qovuşdu.

*(Şövqi həddin narına hər can ki, yansa nur olar.*
*Eşq dərdiylə xarab olan könül mə'mur olar.)*

Bədir qələbəsi müsəlmanları böyük bir sevincə qərq etdi. Müşriklər isə böyük bir kədər və qanqaraçılığa düşmüşdülər. Həbəşistan kralı Nəcaşi də Rəsulullahın qalib gəldiyini eşidincə, dərhal ölkəsindəki Əshabi kiramın yanına gedib; "Allah Təalaya həmd olsun ki, Rəsuluna Bədrdə qələbə nəsib edib, qələbə ehsan etdi" deyərək müjdə verdi.

## Həzrəti Əli ilə Həzrəti Fatimənın evlənməsi

Hicrətin ikinci ili idi. Fəxri kainat (səlləllahu əleyhi və səlləm) Rəsulullahın qızı Həzrəti Fatimə on beş yaşına gəlib çatmışdı.

Bir dəfə Həzrəti Fatimə Rəsuli əkrəmin qulluğunda durmaq üçün Onun hüzuruna girmişdi. Rəsulullah, qızının evlənmə yaşına gəlib çatdığını müşahidə etdi. O gündən sonra, Fatimətüz-Zəhra anamıza çoxları elçiliyə gəldilər. Rəsul əleyhissalam bunlara məhəl qoymayıb; "Onun işi Haqq Təalanın əmrinə bağlıdır" buyurdu.

Bir dəfə Əbu Bəkir, Ömər və Sə'd ibn Muaz məsciddə oturub; "Həzrəti Fatiməni Həzrəti Əlidən başqa hamı istədi. Heç kimə verilmədi" deyə danışdılar. Həzrəti Siddiq; "Zənn edirəm ki, Əliyə nəsib olacaq. Gəlin ona baş çəkək və bu məsələni açaq. Əgər kasıblığı bəhanə edərsə kömək edək" dedi. Sə'd də; "Ey Əba Bəkir! Sən, həmişə xeyir iş görürsən. Qalx, biz də sənə yoldaş olaq" dedi. Üçü birdən məsciddən çıxıb Həzrəti Əlinin evinə getdilər. Həzrəti Əli, dəvəsini götürüb Ənsardan birinin xurmalığına su verirdi. Onları görüncə, qarşılayıb hal və xətirlərini soruşdu. Həzrəti Əbu Bəkir; "Ey Əli! Hər xeyirlı işdə sən qabaqda gəlirsən və Rəsuli əkrəmin nəzdində heç kimə nəsib olmamış bir mərtəbədəsən. Həzrəti Fatiməni hamı istədi. Heç kimə nəsib olmadı. Sənə nəsib olacağını zənn edirik. Nə üçün təşəbbüs göstərmirsən?" deyə soruşdu.

Həzrəti Əli bunu eşidincə, mübarək gözləri yaşla doldu və; "Ey Əba Bəkir! Yaralı yerimə toxundun. Ona məndən başqa rəğbət edən yoxdur. Lakin əlimin darlığı buna manedir" dedi. Həzrəti Əbu Bəkir; "Belə demə. Allah Təala və Rəsulunun yanında dünya heç nədir. Buna kasıblıq mane ola bilməz. Get Fatiməni istə" dedi.

Həzrəti Əli buyurmuşdur ki; "Rəsulullahın yanına utanaraq və çəkinərək girdim. Rəsulullah hər zamankı kimi heybətli və vüqarlı idi. Yanında oturdum və danışmağa cəsarət tapmadım. Rəsulullah; "Nə üçün gəldin, bir ehtiyacın var?" buyurdu. Susdum. "Yəqin ki, Fatiməni istəməyə gəldin" buyurunca; "Bəli" deyə bildim. (Cənabi Peyğəmbərimiz, Həzrəti Fatimyə Həzrəti Əlinin onu istədiyini eşitdirdi. O da susdu). Cənabi Peyğəmbərimiz; "Fatiməyə mehir olaraq nə verəcəksən?" buyurdu. "Yanımda ona verəcək heç bir şeyim yoxdur ey Rəsulallah" dedim. "Sənə vermiş olduğum Hutami

zirehli qaftanın hardadır, onu nə etdin?” buyurdu. “Yanımdadır” deyincə; “Onu sat və pulunu mənə gətir ver. Mehir olaraq o bəs edər” buyurdu.[181]

Başqa bir rəvayətdə də; “Rəsulullah, Həzrəti Əliyə; “Yanında nəyin var?” buyurduğunda; “Atım və zirehli qaftanım var” deyə cavab vermiş, Rəsulullah da; “Atın sənə lazım olar, ancaq zirehini sat” buyurmuşdu. Başqa bir rəvayətdə də; “Ey Əli, get özünə bir ev kirayə tut” buyurdu.

Həzrəti Əli, evlənincəyə qədər Cənabi Peyğəmbərimizlə bir yerdə yaşayırdı. Cənabi Peyğəmbərimizin göstərişindən sonra, Məscidi Nəbəvinin yaxınlığında, Həzrəti Aişənin otağının qabağında yerləşən Harisə ibn Nomanın evini kirayə tutdu. Zirehini də, Həzrəti Osmana 480 dirhəmə satdı. Həzrəti Osman, zirehi satın aldıqan sonra, hədiyyə olaraq dala qaytardı.

Həzrəti Əli, zireh və dirhəmləri götürüb Peyğəmbərimizin yanına gəlincə, Cənabi Peyğəmbərimiz Həzrəti Osmana çox xeyir-dua etdi və; “Osman, Cənnətdə mənim rəfiqimdir” buyurdu. Sonra Bilal Həbəşini çağırdı və pulun bir hissəsini verərək; “Bu pulu götür və bazara get! Bir az gül suyu, artıq qalan pulla da bal al və məscidin bir kənarında təmiz bir qabın içində su ilə qarışdırın. Bal şərbəti edin ki, nikah kəsildikdən sonra içək. Ənsar və Muhacirlərdən orda olan Əshabımı məscidə də’vət et və Fatimə ilə Əlinin nikahlarının kəsiləcəyini xalqa e’lan et” deyə əmr etdi.

Bilal Həbəşi, çölə çıxıb Həzrəti Əli ilə Həzrəti Fatimənın nikahlarının kəsiləcəyini xalqa e’lan etdi. Əshabi kiram, Məscidi Nəbəviyə gəldilər. Cənabi Peyğəmbərimiz ayağa qalxaraq bu xütbəni oxudu; “Bütün həmd və şükr aləmlərin Rəbbinə məxsusdur. O, verdiyi ne’mətlərlə təriflənən, sonsuz qüdrət və qüvvətə sahib olduğu üçün ibadət edilən, əzab və hesabından qorxulan, hökm və fərmanı yer üzündə və səmalarda hakim olandır. Məxluqatı qüdrətiylə yaradan, ədalətli hökmləriylə bunları bir-birindən ayıran, insanları (İslam) dini və Peyğəmbəri Məhəmməd (əleyhissalam) ilə şərəfləndirən Odur...

Allahu Təala mənə, qızım Fatiməni Əli ibn Əbi Talıba nikahlamağımı əmr etdi. İndi sizi şahid tuturam ki, (Allah Təalanın əmriylə) 400 misqal gümüş mehir ilə Fatiməni Əli ibn Əbi Taliba nikahladım. Rəbbim onları bu birliyi onlara mübarək etsin.

---

[181] Beyhəqi, *Dəlailun-Nübüvvə*, III, 173; İbn Kəsir, *əs-Sirə*, II, 544.

Nəsillərini təmiz və rəhmətə açar, hikmətə mədən, ümməti Məhəmmədə əmin qılsın. Deyəcəklərim bundan ibarətdir. Rəbbimdən özüm və sizlər üçün məğfirət diləyirəm".

Həzrəti Əli də qalxaraq bu qısa xütbəni oxudu; "...Hüzurunda olduğumuz Məhəmməd əleyhissalama salat və salam göndərirəm ki, mübarək qızı Fatiməni 400 misqal gümüş mehirlə mənə nikahlamışdır. Ey din qardaşlarım! Şübhəsiz ki, Cənabi Peyğəmbərimizin buyurduqlarını eşitdiniz və şahid oldunuz. Mən də buna şahid və razıyım. Eyni ilə qəbul edirəm. Allah Təala hamımızın sözlərinə şahiddir, hamımıza vəkildir".[182]

Nikah əqdi bitdikdən sonra, Cənabi Peyğəmbərimiz təzə xurma gətirtdi və; "Gəlin bu xurmadan götürüb yeyin" buyurdu. Hamı götürüb yedi. Sonra Həzrəti Bilal bal şərbəti payladı, onu da içdilər və bütün səhabələr; "Bərakallahu fikuma və əleykuma və cəməa şəmləkuma" deyə dua etdilər.

Həzrəti Fatimə nikahdan sonra ağlayırdı. Cənabi Peyğəmbərimiz onun yanına gəldi və; "Ey Fatimə! Sənə nə oldu ki, ağlayırsan? Allah Təalaya and içirəm ki, səni istəyənlərin ən aliminə, bacarıqlısına və ağıl cəhətiylə ən üstününə və ilk müsəlman olanına nikahladım" buyurdu. Həzrəti Fatimə; "Atacan! Evlənən hər qızın mehiri qızıl və gümüşlə tə'yin edilir. Mənim də mehirim belə tə'yin edilsə, səninlə başqaları arasında nə fərq olar? Qiyamət günü sən, mö'minlərin günahkarlarından nə qədərinə şəfaat edəcəksənsə, mən də onların xanımlarından o qədərinə şəfaat etmək istəyərdim. Arzum budur" dedi.

Allah Təala, Həzrəti Fatimənın bu arzusunu qəbul edildiyini xəbər verincə, Rəsulullah; "Ey Fatimə, Peyğəmbər övladı olduğunu göstərdin" buyurdu.

Həzrəti Əli belə nəql etmişdi ki; "Bu işlərin üstündən bir ay keçmişdi. Bu barədə məclisdə heç danışılmadı. Mən də utandığımdan ağzımı aça bilmədim. Ama Rəsulullah, bəzən məni təklıkdə gördüyü zaman; "Sənin xatunun nə yaxşı xanımdır. Sənə müjdə olsun ki, o, dünyadakı bütün xanımların ağasıdır" buyururdu. Bir ay sonra Əlinin qardaşı Həzrəti Aqil; "Ey Əli! Bu izdivac əqdi ilə bizi sevindirdin. Lakin arzum odur ki, bu iki məs'ud bir-birinə yaxın olsunlar" deyincə, Həzrəti Əli; "Mənim də arzum odur, ancaq utanıram" dedi. Həzrəti Aqil, Əlinin əlindən tutub, Cənabi Peyğəmbərimizin evinə apardı. Rəsulullahın cariyəsi Ümmü Eymənlə qarşılaşdılar.

---

[182] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 24; İbn Əsakir, *Tarixu Dəməşq*, LII, 445.

Vəziyyəti ona başa saldılar. Ümmü Eymən də; "Buna görə sizin gəlməyiniz lazım deyil. Biz əzvaci tahirat (Həzrəti Peyğəmbərimizin xanımları) ilə məsləhətləşib, sizə xəbər verərik. Çünki bu barədə xanımların sözünə qulaq asılır" dedi. Ümmü Eymən bu vəziyyəti Rəsulullahın xanımlarına dedi. Digər əzvaci tahirat, Həzrəti Aişənin otağına gəldilər. Həzrəti Xədicəni yada salaraq; "Əgər o həyatda olsaydı, bizim o qədər də çətinlik çəkməzdik" dedilər. Rəsulullah ağladı və buyurdu ki; "Xədicə kimi xatun hanı? Xalq məni yalançı çıxardarkən, o, təsdiq etdi və bütün malını mənim üçün sərf etdi. İslam dininə çox yardım etdi. Hələ o sağ ikən Haqq Təala mənə əmr etdi ki, Xədicəyə müjdə ver; Cənnətdə onun üçün zümrüddən bir köşk düzəldilmişdir".

Rəsulullahin Xanımlari Həzrəti Əlinin istə'yini çatdırdılar. Bundan sonra Rəsulullah Ümmü Eymənə, Həzrəti Əlini yanına çağırmasını əmr etdi. Əli gəlincə, məclisdəki xanımlar qalxıb getdilər. Həzrəti Əli başını aşağı salıb oturdu. Rəsulullah; "Xanımnı istəyirsən ey Əli?" buyurdu.

Əli (Allah ondan razı olsun); "Bəli ey Rəsulallah! Anam və atam sənə fəda olsun" dedi. Rəsuli əkrəm Əsma binti Umeysə; "Get, Fatimənin evini hazırla" buyurdu. Əsma, Həzrəti Fatimənin gəlin gedəcəyi evə getdi. Təzə parçadan bir nimdər, köhnə parçadan bir nimdər, həsirdən də bir nimdər düzəldib, içini xurma ağacının qabıqlarıyla doldurdu. Rəsulullah xiftən namazından sonra Fatimənin evinə gəlib evə göz gəzdirdi.

Peyğəmbərimiz, Həzrəti Əlinin gətirdiyi pulun üçdə ikisiylə yemək, bəzək və ətir kimi şeylər, üçdə biriylə də paltar alınmasını əmr etdi və ev əşyalarını tamamlatdı. Həzrəti Fatimənin cehizi və ev əşyasında bunlar vardı; Əsma binti Umeysin hazırladığı üç nimdər, saçaqlı bir xalça, içi xurma ağacının qabıqlarıyla doldurulmuş bir üz yastığı, iki dənə əl dəyirməni, bir su qabı, torpaqdan düzəldilmiş bir su səhəngi, dəridən düzəldilmiş bir su qabı, bir dəsmal, bir paltar, dabağlanmış bir qoç dərisi, köhnəlib tükü tökülmüş süzülmüş bir Yəmən xalçası, xurma yarpağından hörülmüş bir yataq. Yəmən e'malı iki köhnə paltar və bir də yorğan.

Bundan sonra Rəsulullah, Həzrəti Əliyə bir miqdar pul verib, xurma və yağ almasını söylədi. Həzrəti Əli bundan sonrasını belə nəql etmişdir ki; "Beş dirhəmlə xurma, dörd dirhəmlə də yağ aldım. Rəsulullahın yanına gətirdim. Dəridən bir süfrə qurulmasını istədi. Xurma, un, yağ və qatığı mübarək əli ilə karışdırıb, bir növ yemək düzəltdi və; "Ey Əli! Get, kimi tapsan gətir" buyurdu. Mən çölə çıxdım, çoxlu adam

gördüm, hamısını də’vət etdim və içəri girib; “Ey Rəsulallah, xalq çoxdur” deyərək öz fikrimi dedim.

Aləmlərin sahibi Fəxri kainat Rəsulullah; “Onları on nəfər-on nəfər içəri gətir, təam (yemək) yesinlər buyurdu. Mən də dediyi kimi etdim. Hesabladılar ki, yeddi yüz nəfər yemək yemişlər və doymuşlar”.

Həzrəti Əlinin və Fatimənın vəliməsi (Toy yeməyi) yeyildikdən sonra, Ümmü Eymənin nəql etdiyinə görə, Cənabi Peyğəmbərimiz Həzrəti Əliyə “Ey Əli, qızım Fatimə gəlin olaraq evinizə getdi. Mən də axşam namazından sonra gəlib dua edəcəyəm. Məni gözləyin” buyurdu. Həzrəti Əli evə gəlincə, bir küncdə oturdu. Həzrəti Fatimə də evin o biri küncündə oturdu. Sonra Rəsulullah gəlib qapını döydü. Ümmü Eymən qapını açdı. Rəsulullah; “Qardaşım evdədir?” buyurdu. Ümmü Eymən; “Anam-atam sənə fəda olsun ey Rəsulallah! Qardaşınız kimdir?” dedi. Rəsulullah; “Əli ibn Əbi Talıbdır” deyincə, Ümmü Eymən; “Qızınızı qardaşınızla evləndirdiniz?” dedi. Rəsulullah; “Bəli” buyurdu.

Ümmü Eymən, Rəsulullahın; “Qardaşım buradadır?” buyurmasından elv zənn elədi ki, nikah caiz olmayacaq. Rəsulullah da “Bəli” buyurmaqla, evlənməyə mane olanın eyni anadan doğulmaq olduğuna işarət etmişdir.

Bundan sonra Rəsulullah Ümmü Eymənə; “Əsma binti Umeys də buradadır?” buyurdu. “Bəli” deyə cavab verincə; “Demək Rəsulullahın qızına qulluq etmək üçün gəldi” buyurdu. Ümmü Eymən; “Bəli” deyincə; “Xeyrə qovuşsun” buyurub dua etdi.

Bundan sonra bir qabla su gətirtdi. Mübarək əllərini yudu. Suyun içinə də bir miqdar müşg tökdü. Sonra Həzrəti Fatiməni çağırdı. Həzrəti Fatimə utandığından paltarına baxırdı. Rəsulullah sudan bir miqdar götürüb Fatimənin sinəsinə, başına və kürəyinə səpdi və; “Allahummə inni əuzuha bikə və zürriyətiha minəşşeytanir racim (Ey Rəbbim! Onun və zürriyətinin racim olan, daşlanan şeytanın şərrindən qorunması üçün sənə sığınıram)” deyə dua etdi. Sonra Həzrəti Əliyə də eyni şəkildə dua edib; “Allahummə barik fihima və barik əleyhima və barik ləhuma fi nəslihima” deyə dua etdi. İxlas və Müəvvizəteyn surələrini oxuyub; “Allah Təalanın adı və bərəkəti ilə xanımının yanına gir” buyurdu. Sonra mübarək əlləriylə qapının iki tayını tutub, bərəkətlə dua etdi və oradan ayrıldı.[183]

---

[183] Əbdurrəzzaq, *əl-Musannəf*, V, 485.

Həzrəti Əli buyurdu ki; “Toyumuzdan dörd gün sonra, Rəsulullah bizə baş çəkdi. Könülləri xoş edən, hikmət dolu sözləri ilə bizə nəsihət etdi və buyurdu ki; “Ey Əli! Su gətir!” Qalxıb su gətirdim. Bir ayə oxudu və; “Bu sudan bir az iç. Bir azı da qalsın” buyurdu. Elə də etdim. Qalan suyu, başıma və sinəmə səpdi. Təzədən; “Su gətir” buyurdu. Yenə su gətirdim. Mənə etdiyı kimi, Fatimənin də üstünə səpdi. Sonra mənim çölə çıxmağımı istədi”.

O çölə çıxdıqdan sonra qızına, Həzrəti Əli barəsində soruşdu. Fatimə dedi ki; “Atacan, kamil insana məxsus bütün xüsusiyyətlər onda vardır. Lakin, bəzi Qureyş xanımları mənə; “Sənin ərin kasıbdir” deyirlər” deyincə, Rəsulullah buyurdu ki; “Ey qızım! Sənin Atan və ərin kasıb deyildir. Bütün yer və göyün xəzinə və dəfinələrini mənə verdilər ancaq qəbul etmədim. Allah Təalanın nəzdində qəbul olan şeyi qəbul etdim. Ey qızım! Əgər mənim bildiyimi sən bilsəydin, dünya sənin gözündə heç nə olardı. Allah Təalanın haqqı üçün, ərin əshabın birincisidir. İslamın da böyüyüdür, elm cəhətiylə ən dərinidir. Ey qızım! Allah Təala Əhli beytdən iki nəfəri seçdi. Biri Atan və o biri də ərindir. Nə badə onun sözündən çıxasan və əmrinə qarşı gələsən!”

Fəxri kainat (əleyhi əfzəlussalavat) qızına nəsihət etdikdən sonra, Həzrəti Əlini də çağırdı. Ona da Fatimə barəsində nəsihət etdi; “Ey Əli! Fatimənin ürəyini qırma! O, mənim bir hissəmdir. Ona xoş rəftar et! Əgər onu üzsən, məni üzmüş olarsan” buyurdu. İkisini də Allah Təalaya tapşırdı. Sonra qalxıb getmək istəyirdi ki, Həzrəti Fatimə; “Ey Rəsulallah! İçəridə mən işləyirəm, çöl işlərini də Əli görür. Mənə bir kəniz ehsan etsəniz, o, bəzi işlərimdə mənə kömək edər. Beləcə məni sevindirərsiniz” dedi. Rəsulullah buyurdu ki; “Ey Fatimə! Sənə qulluqçudan daha yaxşı bir şey ehsan edim, yoxsa qulluqçu ehsan edim?”

Fatimə anamız; “Qulluqçudan yaxşısını ehsan et” dedi. Rəsulullah; “Hər gün yatarkən otuz üç dəfə Sübhanallah, otuz üç dəfə Əlhəmdulillah, otuz üç dəfə Allahu əkbər, bir dəfə də “La ilahə illəllahu vəhdəhu lə şərikə ləh. Ləhul mülkü və ləhul həmdu və huvə alə kulli şeyin qadir” de. Hamısı yüz kəlimədir. Qiyamətdə min həsənə (yaxşılıq) görərsən. Mizanda həsənatın ağır gələr” buyurdu. Sonra Cənabi Peyğəmbərimiz, qızının evindən ayrılıb xaneyi səadətinə getdi.

Həzrəti Əli ilə Həzrəti Fatimənın nikahları hicrətdən beş ay sonra, toyları isə Bədir qəzvəsindən sonra olmuşdur.[184]

## Kə'b ibn Əşrəfin öldürülməsi

Bədir qalibiyyəti ilə Mədinədə yaşayan yəhudi və bütpərəst müşriklərin canlarına qorxu düşdü. Bəzi yəhudilər, insafa gəlib; "Xüsusiyyətlərini kitablarımızda oxuduğumuz zat mütləq budur. Artıq Ona qarşı gəlmək mümkün deyil. Çünki O, həmişə qalib gələcəkdir" deyərək müsəlman oldular. Bəziləri da; "Məhammməd, müharibədən baş açmayan Qureyşlilərlə vuruşdu. Onun üçün qalib gəldi. Əgər bizimlə vuruşsaydı Ona, müharibə necə aparılır, qələbə necə qazanılır göstərərdik" dedilər.

Kə'b ibn Əşrəf adında bir yəhudi də, Bədirdə İslam ordusunun qalibiyyətini eşidincə, müsəlmanlara kin bəslədiyi üçün Məkkəyə getdi. Oradakı müşrikləri başına yığıb, Mədinəyə hücum etmələri üçün şe'rlər söylədi, onları təşviq edib qızışdırdı. Cənabi Peyğəmbərimiz ilə döyüşmək üçün onlarla razılığa gəldi. Hətta, sevgili Peyğəmbərimizə sui qəsd təşkil etdi. Allah Təala bunu Rəsulullaha xəbər verdi və məalən buyurdu ki; "Onlar, Allah Təalanın özlərinə lə'nət etdiyi (rəhmətindən uzaqlaşdırdığı) şəxslərdir..."[185]

Bundan sonra Rəsuli əkrəm, şərəfli Əshabına; "Kə'b ibn Əşrəfi kim öldürər? Çünki o, Allah Təala və Rəsuluna əziyyət vermişdir" buyurdu. Məhəmməd ibn Məsləmə; "Ey Rəsulallah! İstəyirsinizsə mən onu öldürərəm" dedi. Rəsulullah da; "Bəli, istəyirəm" buyurdu. Məhəmməd ibn Məsləmə, bir neçə gün bu iş hakkında fikirləşib, planlar qurdu. Dostlarından Əbu Nailə, Abbas ibn Bişr, Haris ibn Evs, Əbu Əbs ibni Cəbrin yanına gedib məsələni onlara danışdı. Hamısı münasib olduğunu deyib; "Birlikdə öldürərik" dedilər. Birlikdə Cənabi Peyğəmbərimizin yanına gəldilər. "Ey Rəsulallah! İcazə versəydiniz, biz onunla danışırkən, sizinlə əlaqəli, Kə'bin xoşuna gələn bəzi sözlər söyləyərdik" dedilər. Cənabi Peyğəmbərimiz onlara istədiklərini söyləməyə icazə verdi.

---

[184] İbn İshaq, *əs-Sirə*, s, 230-231; Əbdurrəzzaq, *əl-Musannəf*, V; 485; Beyhəqi, *Dəlailun-Nübüvvə*, III, 172; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, XX, 407; .

[185] ən-Nisa 4/52.

Bundan sonra, Məhəmməd ibn Məsləmə, dostlarıyla Kə'b ibn Əşrəfin yanına getdi. "Bu Məhəmməd, bizdən sədəqə istədi. Bizə çox vergi yüklədi. Onun üçün səndən borc bir şey almaq üçün gəldim" dedi. Kə'b sevinərək, Məhəmməd ibn Məsləmənin də özü kimi düşündüyünü sandı və; "O sizi daha da bezdirəcək" dedi. Məhəmməd ibn Məsləmə; "Nə edək ki, Ona bir səhv edib itaət etdik. Ona tabe olmaqda davam edəcəyik. Görək axırı necə olacaq? İndi sən bizə bir az borc xurma ver" dedi. Kə'b; "Bəli, verərəm, ancaq mənə bir şeyi girov verməlisiniz!" dedi. Məhəmməd ibn Məsləmə ilə yanındakılar; "Nə istəyirsən" dedilər. Kə'b; "Qadınlarınızı girov istəyirəm" deyincə razı olmadılar. Kə'b; "Onda oğullarınızı girov qoyun" dedi. "Onları da girov qoya bilmərik. Onlardan birinə, bir-iki dəvə yükü xurma müqabilində girov qoyuldu deyə deyilər ki, bu da bizim üçün unudulmaz bir biyabırçılıq olar. Ancaq sənin yanında silahımızı və zirehimizi girov qoya bilərik" dedilər. Kə'b bu təklifi qəbul etdi. Onlara nə zaman gələcəklərini də dedi.[186]

Məhəmməd ibn Məsləmə, bir gecə Kə'bin yanına gəldi. Əbu Nailə də onunla birlikdə idi. Kə'b onları qalanın içinə çağırdı. Özü də onları qarşılamaq üçün aşağı düşdü. Kə'bin arvadı; "Bu saatda hara gedirsən" dedi. Kə'b; "Gələnlər, Məhəmməd ibn Məsləmə ilə qardaşım Əbu Nailədir" dedi. Arvadı; "Eşitdiyim bu səs mənə o qədər də yaxşı gəlmir. Sanki ondan, qan damlayır" dedi. Kə'b; "Yox, onlar Məhəmməd ibn Məsləmə ilə süd qardaşım Əbu Nailədir. O, yaxşı bir gəncdir. Gecənin bir saatında, qılınc döyüşünə belə çağırılsa, heç tərəddüd etmədən gələr. O, belə biridir" dedi. Məhəmməd ibn Məsləmə özüylə birlikdə iki nəfəri, bir rəvayətə görə də üç nəfəri qalaya apardı. Bunlar, Əbu Əbs ibn Cəbr, Haris ibn Evs, Abbad ibn Bişr idi.[187] Məhəmməd ibn Məsləmə Həzrətləri, dostlarına; "Kə'b gəlincə, ona saçını iyləyəcəyimi dedikdən sonra başını tutub iyləyəcəyəm. Siz mənim, Kə'bin başını yaxşıca yapışdığımı gördüyünüz zaman, qılınclarınızla vurun" dedi. Kə'b ibn Əşrəf səliqəli geyinib, gözəl ətir sürtərək, onların yanına gəldi. İbni Məsləmə; "İndiyə qədər belə gözəl iy iyləmədim" deyərək Kə'bin yanına yaxınlaşdı. Kə'b; "Ərəblərin ən gözəl ətirli qadınları mənim yanımdadır" deyərək lovğalandı. Məhəmməd ibn Məsləmə; "Başını iyləməyimə icazə verərsən" dedi. Kə'b də icazə verdiyini dedi. Məsləmə onu iylədi. Dostlarına da iylətdirdi. Sonra, yenə iyləmək istədiyini söylədi. Bu dəfə, Məhəmməd ibn Məsləmə

[186] İbn Sə'd, *ət-Təbəqat*, II, 33-34.
[187] İbn Sə'd, *ət-Təbəqat*, II, 32.

başını tutub, dostlarına qılınclarıyla vurmalarını işarə etdi. İlk qılınc vurulduğunda Kə’b bərkdən qışqırdı, ancaq ölmədi. Bundan sonra Məhəmməd ibn Məsləmə, xəncəri ilə onu öldürdü. Kə’bi öldürən mücahidlər dərhal oranı tərk edib, özlərini Mədinəyə çatdırdılar. Rəsulullaha müjdəni verdiklərində Peyğəmbərimiz, Allah Təalaya həmd etdi və mücahidlərə dua etdi.

Kafir Kə’b ibn Əşrəfin öldürülməsi yəhudiləri çox qorxutdu. Çünki, Kə’b kimi başda gələn bir rəhbər öldürüldükdən sonra, özlərinin öldürülməsi daha asan idi. Səhər vaxtı toplaşıb, Cənabi Peyğəmbərimizin hüzuruna gəldilər. Gecə olan hadisədən şikayət etdilər. Rəsuli əkrəm; “O, bizi həmişə narahat edər, əleyhimizdə şe’rlər deyərdi. Əgər sizdən hər kim belə hərəkət edərsə, bilsin ki, cəzası qılıncdır” buyurdu. Bu təhdiddən sonra yəhudilər qorxularından Rəsulullahla təzədən bir müqavilə imzaladılar...[188]

## Bəni Qaynuqa yəhudiləri

Bir dəfə Bəni Qaynuqa yəhudiləri, bir müsəlman xanıma sataşmaq istəmiş, bunu görən səhabədən biri, dərhal qılıncını sıyırıb o yəhudini öldürmüşdü. Yəhudilər də toplaşıb, o mübarək səhabəni şəhid etdilər. Hadisə Cənabi Peyğəmbərimizə çatdırıldı. Rəsuli əkrəm onları, Qaynuqa bazarında toplayıb; “Ey yəhudi camaatı! Siz, Allah Təalanın Qureyşə verdiyi əzab kimi bir əzaba düçar olmaqdan qorxun və müsəlman olun. Mənim, Allah Təala tərəfindən göndərilmiş bir peyğəmbər olduğumu yaxşı bilirsiniz. Bunu da, Allah Təalanın sizə olan əhdini də kitabınızdan oxumusunuz...” buyurdu.

Bu mərhəmətə baxmayaraq, imzaladıqları müqaviləni pozan yəhudilər, Aləmlərin hökmdarına; “Ey Məhəmməd! Döyüş bacarmayan bir qövmü məğlubiyyətə uğratmaq səni aldatmasın! And içirik ki, biz cəngavər adamlarıq! Sən, ancaq bizimlə döyüşməyə başladığın zaman, necə igid olduğumuzu anlayarsan!” deyərək meydan oxudular.

Beləcə, əvvəlcə imzaladıqları müqaviləni pozaraq meydan oxuduqlarını açıq şəkildə dedilər. Bundan sonra Cəbrayıl əleyhissalam vəhy gətirdi ki, məalən belə

---

[188] Buxari, “Məğazi”, 15; Vaqidi, *əl-Məğazi*, I, 182; İbn Sə’d, *ət-Təbəqat*, II, 31; İbn Əsakir, *Tarixu Dəməşq*, LV, 271.

buyurulurdu; "(Ey Həbibim!) Əgər (səninlə) müqavilə bağlayan bir qövmün, bir xainliyində (müqaviləyə zidd hərəkət etdiyində) şübhəyə düşsən, (döyüşmədən əvvəl) haqq və ədalət üçün əhdlərinə əməl etmədiklərini birbaşa özlərinə bildir. Çünki, Allah Təala xainləri sevməz".[189]

Başqa bir ayədə də məalən buyuruldu ki; "Ey Rəsulum! O kafir olan yəhudilərə de ki; "Siz şübhəsiz məğlub olacaqsınız və toplanıb Cəhənnəmə atılacaqsınız. O Cəhənnəm nə pis bir yerdir".[190]

Həbibi əkrəm, vaxt itirmədən bir ordu düzəldib Qaynuqa yəhudilərinin yerləşdiyi qalaya hücum etdi. Ağ bayrağı Həzrəti Həmzə daşıyırdı və Mədinəyə vəkil olaraq Əbu Lübabə tə'yin edilmişdi.[191] Mübarək ordu Qaynuqa qalasını mühasirə etdi. "Biz nə cəngavər igidlərik" deyən yəhudilər nəinki döyüşmək, qalalarından bir ox belə atmağa cəsarət edə bilmədilər. Rəsulullah giriş və çıxışları nəzarət altına aldı. Heç kim çölə çıxa bilmədi. Bu vəziyyət on beş gün davam etdi.[192] Yəhudilər qorxuya düşüb, təslim oldular. Hər birinin öldürülmələri lazım ikən, aləmlərə rəhmət olaraq göndərilən sevgili Peyğəmbərimiz mərhəmət göstərib, Qaynuqa yəhudilərinin Şama getməsinə icazə verdi. Beləcə Mədinə torpaqlarından çıxardıldılar.[193]

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), Mədinədə həm yəhudilərlə, həm Abdullah ibn Ubey kimi müsəlman görünən münafiqlərlə, həm də müşriklərlə mübarizə aparırdı. Ayrıca, Mədinə xaricindəki müşrik qəbilələri İslama də'vət edir, müsəlman olmaqla şərəflənmələri üçün cəhd edirdi. Seviq, Qatafan, Karadə, Bahran... kimi qəzvələrin hamısı da Bədir qəzvəsindən sonra baş verdi.

Bu müddətdə zəkatın fərz edilməsi, fıtir sədəqəsinin verilməsi, bayram namazlarının qılınması və qurban kəsilməsi ilə əlaqəli əmrlər gəldi. Rəsulullah, qızı Ümmü Gülsümü Həzrəti Osman ilə evləndirdi. Zeynəb binti Cahş və Həzrəti Ömərin qızı Hafsanı özü nikahladı. Həzrəti Əlinin oğlu Həzrəti Həsən dünyaya gəldi.

---

[189] əl-Ənfal 8/58.
[190] Ali İmran 3/12.
[191] İbn Sə'd, *ət-Təbəqat*, II, 29.
[192] İbn Sə'd, *ət-Təbəqat*, II, 29.
[193] Vaqidi, *əl-Məğazi*, I, 176-180; İbn Sə'd, *ət-Təbəqat*, II, 29; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 114.

## ÜHÜD QƏZVƏSİ

Məkkəli müşriklər Bədir qəzvəsində uğradıqları məğlubiyyətdən dərs almadıqları azmış kimi, bunu heç cür yaddan çıxarda bilmirdilər. Qureyş başda gələnlərindən bir çoxunu bu döyüşdə itirmişdi. Həm də Şam ticarət yolunun müsəlmanların nəzarətinə keçməsi onları çox düşündürürdü.

Əbu Süfyanın başçılığındakı ticarət karvanı Məkkəyə yüz faiz qazancla qayıtmışdı. Sərmayədə ortaq olanların çoxu, Bədir qəzvəsində öldüyündən, karvanın qazancı Darunnədvə deyilən, müşriklərin qərar vermək üçün toplandıqları binada qorunurdu.

Səffan ibn Ümeyyə, İkrimə ibn Əbi Cəhil, Abdullah ibn Rəbiə kimi atalarını, qardaşlarını, ərlərini, oğullarını Bədirdə itirənlər; "Müsəlmanlar, bizim böyüklərimizi öldürdü. Bizləri darmadağın etdi. Artıq onlardan intiqam almaq zamanı gəldi. Karvanın qazancıyla bir ordu hazırlayaq. Mədinəyə hücum edib, intiqamımızı alaq" deyə Əbu Süfyanla məsləhətləşdilər.

Əbu Cəhil, Utbə, Şeybə kimi qəddar kafirlər daha əvvəl öldürüldüyü üçün, müşriklərin başında, hələ müsəlmanlığı qəbul etməyən Əbu Süfyan var idi. Şam ticarətində yüz min qızıl əldə edilmişdi. Bunun yarısı sərmayə, yarısı da qazanc idi. Sərmayə vaxt itirilmədən sahiblərinə qaytarılıb, qazanc da ikiyə bölünərək, yarısıyla silah, digər yarısıyla da əsgər yığıldı. Bir az da şair və xətiblərə verildi. Xətiblər və şairlər xalqı cuşa gətirib, döyüşə təşvik etmək üçün şe'rlər, mərsiyələr oxuyur, qadınlar da dəf, nağara çalaraq onları qızışdırırdılar. Müsəlmanları Mədinədən çıxartmaq, sevgili Peyğəmbərimizi məhv etmək və İslamiyyəti yox etmək niyyətində olan müşriklər, ətraf qəbilələri də gəzərək əsgər topladılar.

Axırda Məkkədə, 3000 nəfərlik böyük bir ordu hazırlandı. Bunların 700-ü zirehli, 200-ü süvari olub, 3000 də dəvələri var idi. Çalğıçıların və qadınların da iştirak etdiyi bu böyük orduya Əbu Süfyan başçılıq edirdi. Xanımı Hind də qadınların başında olub, müşrikləri döyüşə təşviq üçün çox cəhd edirdi. Çünki Bədir qəzvəsində atasını və iki qardaşini itirmişdi. Bunu yaddan çıxarda bilmir, qadınların döyüşdə iştirak etməməsini istəyənlərə qarşı; "Bədir döyüşünü xatırlayın! Qadınlarınıza, uşaqlarınıza qovuşmaq üçün Bədirdən qaçdınız! Bundan sonra qaçmaq istəyənlər, qarşılarında

bizləri görəcəklər!" deyərək onları susdururdu. Bu şəkildə Qureyşliləri qızışdıraraq bütün gücüylə onları savaşa təşviq etdi.[194]

Müşriklərdən Cübeyr ibn Mut'imin nizə atmaqda çox usta, çox mahir olan Vəhşi adlı bir köləsi vardı. Atdığını vuran sərrast atıcı idi. Hind, atası Utbəni, Cübeyr də əmisi Tüeyməni Bədirdə öldürdüyünə görə Həzrəti Həmzədən intiqam alamq üçün yanıb tutuşurdu. Cübeyr, köləsi Vəhşiyə; "Əgər Həmzəni öldürsən, səni azad edərəm!" dedi. Hind də; "Onu öldürsən sənə həddən çox qızıl və lə'l-cəvahirat verəcəyəm!" deyərək və'd etdi.[195]

Bütün hazırlıqlarını görən Qureyş ordusu, bayraqlarını açaraq birini Təlhə ibn Əbi Təlhəya, birini Əhabişdən (Həbəş əsilli) birinə, birini Uveyf oğlu Süfyana verdilər.

Məkkədə hazırlıqlar görülüb qurtarmışdı. Həzrəti Abbas, müşriklərin üç min nəfərlik bir ordu hazırladıqlarını, bunların yeddi yüzünün zirehli, iki yüzünün süvari olduğunu, üç min dəvələrinin və sayısız hesabsız silahlarının olduğunu xəbər verən və yola çıxmaq üzərə olduqlarını bildirən, buna görə tədbir alınmasını istəyən bir məktubu e'tibar etdiyi bir nəfərlə vax itirmədən Mədinəyə göndərdi.

Bundan sonra Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), vəziyyəti daha ətraflı öyrənmək üçün bir neçə dostuna vəzifə tapşırdı. Bu səhabələr, Məkkəyə tərəf yola düşdülər. Yolda müşrik ordusunun gəldiyindən xəbər tutaraq qısa zamanda işlərini görərək sür'ətlə Mədinəyə qayıtdılar. Gördükləri və əldə etdikləri məlumatlarla gələn məktub üst-üstə düşürdü.

Aləmlərin sahibi dərhal hazırlığa başladı. Həm də qəflətən bir hücuma mə'ruz qalmamaq üçün, Mədinənin ətrafına növbətçilər qoyaraq, tədbir gördü. Əshabi kiram, qısa zamanda hazırlıqlarını gördülər. Evdə qalanlarla xudahafizləşib halallaşaraq, peyğəmbərlərin hökmdarı Rəsulullahın ətrafında toplandılar.

O gün Cümə idi. Cənabi Peyğəmbərimiz Əshabına Cümə namazını qıldırdı. Xütbədə Allah Təalanın dinini yaymaq üçün cihad etməyin, fisəbilillah (Allah yolunda) döyüşməyin əhəmiyyətini vurğuladı. Bu yolda ölənlərin şəhid olub, Cənnətə gedəcəyini müjdələdi. Düşmən qarşısında dözənlərə, çətinliklərə qarşı sinə gərənlərə, Allah Təalanın yardım edəcəyini xəbər verdi.

---

[194] İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 172; Əhməd Şami, *Sübülül-Huda*, IV, 182.
[195] Buxari, "Məğazi", 23; İbn Hişam, *əs-Sirə*, II, 69; Süheyli, *ər-Rövzul-Unf*, III, 253.

Rəsuli əkrəm, Əshabi kiramıyla döyüşün harda olması barəsində məsləhətləşmək istədiyini və o gecə gördüyü bir yuxunu danışdı. Buyurdu ki; “Röyamda gördüm ki, qalın bir zireh geymişəm. Qılıncım Zülfüqarın ağzında bir dəlik açıldığını, kəsilmiş bir düyəni, sonra da bir qoçun gətirildiyini gördüm”. Əshabi kiram; “Ey Rəsulallah! Bu röyanı necə yozdunuz?” deyə soruşduqlarında isə; “Qalın zireh geymək Mədinəyə, Mədinədə qalmağa işarədir. Orada qalın... Qılıncımın ağzında bir dəlik açıldığını görməyim, bir ziyana düşəcəyimə işarədir. Kəsilmiş düyə, Əshabımdan bəzilərinın şəhid ediləcəyinə işarədir. Onun dalınca da bir qoçun gətirilməsinə gəlincə, qoç, orduya işarədir ki, inşallah onları Cənabi Haqq öldürəcəkdir” buyurdu.

Başqa bir rəvayətdə də; “Röyamda qılıncımı yerə vurdum, ağzı qırıldı. Bu Ühüd günü Əshabımdan bəzilərinın şəhid ediləcəyinə işarədir. Qılıncımı təzədən yerə vurdum, əvvəlki düz halına çevrildi. Bu da, Allah Təaladan bir fəth (qələbə) gələcəyinə, mö’minlərin toplaşacağına işarədir” buyuruldu.

Rəsulullah (səlləllahu əleyhi və səlləm) özünə vəhylə xəbər verilməyən mövzularda Əshabıyla məsləhətləşər, ona görə hərəkət edərdi. Düşməni harda qarşılamaq lazım olduğu barəsində Əshabdan bəziləri; “Mədinədə qalaraq müdafiə olunaq” dedilər. Bu təklif, Cənabi Peyğəmbərimizin arzularıyla da üst-üstə düşürdü. Həzrəti Əbu Bəkir, Ömər, Sə’d ibn Muaz (Allah onlardan razı olsun) kimi Əshabın böyükləri Cənabi Peyğəmbərimiz kimi düşünürdülər.

Ancaq Bədir qəzvəsində iştirak etməyən qəhrəman və gənc səhabələr, Bədir qəzvəsinə qatılan səhabələrin qazandığı əcr və savabı, Bədir şəhidlərinin çatdığı uca dərəcələri Cənabi Peyğəmbərimizdən eşitdikcə, o döyüşdə iştirak etmədiklərinə görə çox heyfislənirdilər. Bunun üçün düşməni Mədinə kənarında qarşılamaq və üzbəüz döyüşmək istəyirdilər. Həzrəti Həmzə, Noman ibn Malik, Sə’d ibn Ubadə də bunlardan idi. Həzrəti Heysəmə icazə alaraq; “Ey Rəsulallah! Qureyşli müşriklər, müxtəlif Ərəb qəbilələrindən əsgər topladılar. Dəvələrinə, atlarına minib torpaqlarımıza girdilər. Bizi evlərimizdə və qalalarımızda mühasirə edib, sonra da qayıdıb gedəcəklər. Arxamızca çox danışacaqlar. Bu hal onların cəsarətlərinin artmasına səbəb olacaq, yeni hücumlar təşkil edəcəklər. İndi onların qabağına çıxmasaq, digər Ərəb qəbilələri bizə yuxarıdan aşağı baxacaqlar. Allah Təalanın bizə, müşriklərin qarşısında qələbə ehsan edəcəyini ümid edirəm.

Şayət ikincisi olarsa ki, şəhidlikdir. Bədir məni ondan məhrum etdi. Halbuki mən şəhid olmağı çox istəmişdim. Oğlum Bədir qəzvəsində iştirak etmək istədiyimi eşitdiyində, mənimlə püşg atmışdı. O məndən daha bəxtli imiş, şəhidlik şərəfinə çatdı.

Ey Rəsulallah! Şəhidliyi çox istəyirəm. Dünən gecə röyada oğlumu gözəl bir surətdə gördüm. Cənnət bağçaları və çayları arasında dolaşır və mənə; "Cənnət Əshabına qatıl! Mən, Allah Təalanın və'd etdiyi həqiqətə qovuşdum!" deyirdi.

Ey Rəsulallah! Vallahi, səhər vaxtı, oğluma Cənnət dostu olmağı həddən çox arzu etməyə başladım. Artıq yaşım da çoxaldı. Rəbbimə qovuşmaqdan başqa arzum-muradım qalmadı.

Canım sənə fəda olsun ey Rəsulallah! Şəhid olub, oğluma Cənnətdə dost olmaqla şərəflənəbilməyim üçün, Allah Təalaya dua et!" deyərək yalvardı. Rəsulullah onun bu istə'yini qırmadı və şəhid olması üçün dua etdi.

Əksəriyyətinin bu fikirdə olduğunu görən sevgili Peyğəmbərimiz, düşməni Mədinədən kənarda qarşılamaq üçün qərar verdi. Sonra; "(Ey Əshabım!) Səbr və səbat etsəniz, bu dəfə də Cənabi Haqq sizə yardımını ehsan edər. Biz dözümlü olmalı və vuruşmalıyıq!" buyurdu.

Əsr namazını qıldıran Kainatın hökmdarı, səadətli və mübarək evinə getdi. Onun arxasınca Həzrəti Əbu Bəkir və Ömər icazə istəyərək girdilər. Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm) sarığını sarımasına, zirehini geyməsinə kömək etdilər. Rəsulullah qılıncını taxdı, qalxanını belinə bağladı.

Bu əsnada çöldə Əshabi kiram toplanaraq Cənabi Peyğəmbərimizi gözləyirdilər. Mədinədə qalmaq və müdafiə olunmaq istəyənlər digərlərinə; "Rəsulullah Mədinədən çıxmaq fikrində deyildi. Sizin sözünüzlə bunu qəbul etdi. Halbuki Rəsulullah əmri Allah Təaladan alır. Siz, bu işi Ona həvalə edin. Onun əmr etdiyi şeyi yerinə yetirin" dedilər. Digərləri də etdiklərinə peşman oldular və; "Rəsuli əkrəmə müxalifət etməyək" deyərək bu fikirlərindən əl çəkdilər. Sevgili Peyğəmbərimiz səadət xanəsindən çıxınca, yanına gəlib; "Canımız sənə fəda olsun ey Rəsulallah! Sən necə istəyirsənsə elə də et. Mədinədə qalmaq istəyirsənsə qalaq. Biz sənin əmrinə müxalifət etməmək üçün Cənabi Haqqa sığınırıq" deyə üzr istədilər. Həbibi əkrəm də; "Bir Peyğəmbər zirehini geydisə, Cənabi Allah onunla düşməni arasında hökm verincəyə qədər döyüşmədən çıxartmaz. Sizə nəsihətim budur ki, əmr etdiyim şeyləri edər, Allah

Təalanın adını zikr edərək səbr edib, dözsəniz, Allah Təala sizə yardım edəcəkdir...” buyurdu.

Bu əsnada Əmr ibn Cəmuh Həzrətləri evində dörd oğluna; “Övladlarım! Məni də bu qəzvəyə aparın!” deyir, oğulları da; “Atacan! Ayağının zədəli olması səbəbiylə, Allah Təala səni üzürlü saydı. Rəsulullah sənin səfərə getməyinə icazə vermədi. Cihada çıxmaqla mükəlləf deyilsən. Sənin yerinə biz gedirik!” deyərək atalarını razı salmağa çalışırdılar. Ancaq Hazrəti Əmr; “Hayıf ki, sizin kimi övladım var! Bədir qəzvəsində də belə deyərək, Cənnəti qazanmağa imkan vermədiniz. Bu dəfə də imkan verməyəcəksiniz?” dedi. Sonra sevgili Peyğəmbərimizin yanına getdi və; “Canım sənə fəda olsun ey Rəsulallah! Oğullarım, bəzi bəhanələr gətirərək, məni bu qəzvədan məhrum etmək istəyirlər. Vallahi mən, səninlə birlikdə səfərə çıxıb, Cənnətə girməklə şərəflənmək istəyirəm. Ey Rəsulallah! Sən, mənim Allah yolunda döyüşməyimi və şəhid olaraq bu şikəst ayaqlarımla Cənnətdə gəzməyimi doğru saymırsan bəyəm?” dedi. Fəxri aləm Rəsulullah; “Bəli, doğru sayıram” buyurdu. Buna çox sevinən Əmr ibn Cəmuh Həzrətləri hazırlanaraq orduya qoşuldu.[196]

Mədinədə namaz qıldırmaq üçün Abdullah ibn Ümmi Məktum tə’yin edildi.[197]

Rəsulların hökmdarı üç bayraq hazırlatdı. Birini Həbbab ibn Münzirə, birini Üseyd ibn Xudayra, digərini də Mus’ab ibn Umeyrə verdi. Təxminən min nəfərdən ibarət olan orduda iki atlı, yüz də zirehli var idi.[198]

Zirehlərini geyən Sə’d ibn Ubadə ilə Sə’d ibn Muaz Həzrətləri qabaqda, sağda Muhacirlər, solda da Ənsar olmaqla yola düşən sevgili Peyğəmbərimiz, Cümə günü əsrdən sonra; “Allahu əkbər!” təkbir səsləri arasında bayram əhvali ruhiyyəsiylə, Ühüdə tərəf getməyə başladılar.

Yolda yəhudilərdən meydana gələn altı yüz nəfərlik orduya rast gəldilər. Bunlar, münafiqlərin başçısı Abdullah ibn Ubey ibn Səlulun müttəfiqləri olub, İslam ordusuna qoşulmaq istəyirdilər. Cənabi Peyğəmbərimiz, “Onlar, müsəlman olublar?” deyə soruşdu. “Xeyir, ey Rəsulallah” deyərək cavab verdilər. Rəsulullah bu dəfə; “Onlara gedib söyleyin ki, dala qayıtsınlar. Çünki biz müşriklərə qarşı, kafirlərin yardımını istəmirik” buyurdu.

---

[196] İbn Hişam, *əs-Sirə*, II, 90; Vaqidi, *əl-Məğazi*, I, 265; Beyhəqi, *əs-Sünən*, II, 387; *Dəlailun-Nübüvvə*, III, 265; Süheyli, *ər-Rövzul-Unf*, III, 276.
[197] İbn Sə’d, *ət-Təbəqat*, IV, 209.
[198] Vaqidi, *əl-Məğazi*, I, 215, 240; İbn Əsakir, *Tarixu Dəməşq*, LV, 267.

Nəbiyyi möhtərəm (səlləllahu əleyhi və səlləm), Mədinə ilə Ühüd arasındakı Şeyxeyn deyilən yerə gəldi. Burada, gecələmək üçün düşərgə saldılar. Hələ günəş batmamışdı. Ordu içində düşmənlə döyüşmək və şəhidlik mərtəbəsinə qovuşmaq istəyən uşaq yaşda səhabələr də vardı. Sevgili Peyğəmbərimiz burda orduya nəzər salınca, bu uşaqlardan on yeddisini gördü. Onlardan Rafi ibn Xədic, pəncələri üstünə qalxaraq hündür görünməyə çalışırdı. Həzrəti Zuheyrin; "Ey Rəsulallah! Rafi yaxşı ox atar" sözündən sonra, onu orduya götürdülər. Bunu görən Səmürə ibn Cündəb; "Mən, güləşdə Rafini yıxa bilərəm. Onun üçün mən də qəzvədə iştirak etmək istəyirəm" dedi. Cənabi Peyğəmbərimiz təbəssüm edib, ikisini güləşdirdi. Həzrəti Səmürə Rafini yıxınca, onu da mücahidlər arasına qatdılar. Digər uşaqlar Mədinəyə, oradakıları qorumaq üçün göndərildilər.[199]

Axşam və xiftən əzanını Bilali Həbəşi yanıqlı səsiylə oxudu. Sevgili Peyğəmbərimiz namazı qıldırdıqdan sonra, Məhəmməd ibn Məsləməni əlli nəfərlik bir dəstənin başçısı tə'yin edib və səhərə qədər növbə tutmasını əmr etdi. Əshabi kiram istirahət etmək üçün dağılışdılar. O gecə, Cənabi Peyğəmbərimizin başının üstündə növbə tutma şərəfi Həzrəti Zəkvana nəsib olmuşdu.

Bu dəmdə düşmən ordusu İslam ordusunun Şeyxeyndə istirahət etdiyini öyrənib, İkrimə komandanlığında bir süvari dəstəsini göndərdilər. Hələ müsəlman olmayan İkrimə, dəstəsiylə Harrə mövqeyinə qədər İslam ordusunun içinə soxuldusa da mücahidlərdən qorxaraq, geri çəkildi.

Dan yeri ağarandan sonra Aləmlərin sahibi, Əshabını oyandırdı. Ühüd dağına gəldilər. Burada iki ordu bir-birini görə bilirdi. Bilali Həbəşi ruhları coşduran, ürəkləri əridən yanıqlı səsiylə sübh əzanını oxudu. Mücahidlər silahlanmış şəkildə sevgili Peyğəmbərimizin arxasında namazlarını qıldılar, dualarını oxudular. Kainatın hökmdarı əyninə ikinci bir zireh və mübarək başlarına da dəbilqəsini taxdı.

Bu əsnada, münafiqlərin başçısı Abdullah ibn Ubey; "Biz, buraya özümüzü öldürtməyə gəlmişik bəyəm? Bunu əvvəlcədən niyə başa düşmədik ki?" deyərək, təxminən 300 münafiqlə birlikdə İslam ordusunu tərk edərək Mədinəyə dala qayıtdı.

---

199 İbn Hişam, *əs-Sirə*, II, 66; Vaqidi, *əl-Məğazi*, I, 215; Təbəri, *Tarix*, II. 191; Süheyli, *ər-Rövzul-Unf*, III, 246; İbn Kəsir, *əs-Sirə*, III, 30.

İnanan, könül birliyi edən, canlarını, başlarını bu yolda qoyan və gözünü qırpmadan şəhadət rütbəsinə çatmaq üçün can atanların sayı yeddi yüz nəfər idi. Hamısı da sevgili Peyğəmbərimizi qanlarının son damcısına qədər qorumaq üçün söz verdilər.

Peyğəmbərlərin sahibi (səlləllahu əleyhi və səlləm), mücahidləri sıraya düzdü. Ordunu, arxası Ühüd dağına, qabağı Mədinəyə düşəcək şəkildə yerləşdirdi. Sağ qanada Ukaşə ibn Mihsanı, sol qanada Əbu Sələmə ibn Əbduləsədi sərkərdə tə'yin etdi. Sə'd ibn Əbi Vəqqas ilə Əbu Ubeydə ibn Cərrah qabaqda, oxçu dəstələrinin başında yer aldılar. Zirehli qüvvələrin başına Zübeyir ibn Əvvam, qabaqdakı zirehsiz qüvvələrin başına Həzrəti Həmzə keçdi. Miqdad ibn Əmrə isə arxadakı qüvvələrin başçısı vəzifəsi verildi.

İslam ordusunun sol tərəfində Ayneyn təpəsi vardı. Bu təpədə dar bir keçid vardı. Rəsuli əkrəm bu keçidə Abdullah ibn Cübeyr başçılığında əlli oxçu yerləşdirdi. Oxçular keçiddə yerlərini tutdular. Sevgili Peyğəmbərimiz yanlarına gələrək bu qəti əmrini verdi ki; "Bizi arxadan qoruyun. Yerinizdə durun və burdan qətiyyən ayrılmayın. Düşməni məğlub etdiyimizi görsəniz də sizə xəbər verilmədikcə, adam göndərmədikcə yerlərinizdən əsla ayrılmayın. Düşmənin bizi öldürəcəklərini, öldürdüklərini görsəniz də, gəlib bizə kömək etməyin. Onlardan bizi qorumağa çalışmayın. Sizə tərəf gəldikdə düşmən süvarilərini oxa tutun. Çünki süvarilər atılan oxlara tərəf gələ bilməzlər. Allahım! Onlara bunu dediyimə Sən şahid ol!"

Bu əmrlərini bir neçə dəfə təkrarlayan sevgili Peyğəmbərimiz; "Quşların cəsədlərimizi didişdirdiyini görsəniz də, mən sizə adam göndərmədikcə qətiyyən yerinizdən ayrılmayın.[200] Bizim kafirləri qırıb, ayaqlarımızın altında tapdaladığımızı görsəniz belə, yenə mən sizə xəbər göndərmədikcə əsla yerinizi tərk etməyin!" buyurdu. Sonra ordan ayrılıb, ordunun başına keçdi.

Bayrağı Mus'ab ibn Umeyrə verdi. Həzrəti Mus'ab, əlində bayrağı tutaraq Cənabi Peyğəmbərimizin qabağında yerini tutdu.[201]

Bu əsnada təzə evlənən Həzrəti Hənzələ, Mədinədən sür'ətlə Ühüdə gəlib, mücahid səflərinə qoşuldu.

---

[200] Buxari, "Cihâd", 164; "Məğazi", 10, 20; Əbu Davud, "Cihâd", 116; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 293; İbn Hişam, *əs-Sirə*, II, 65; Vaqidi, *əl-Məğazi*, I, 160, 220, 224; İbn Sə'd, *ət-Təbəqat*, I, II, 47; III, 476; Təbəri, *Tarix*, II, 192.

[201] İbn Hişam, *əs-Sirə*, II, 73; Təbəri, *Tarix*, II, 199; Süheyli, *ər-Rövzul-Unf*, III, 258.

Ühüdə üç gün əvvəl gələn müşrik ordusuna Əbu Süfyan komandanlıq edirdi. Onlar Mədinə arxalarında qalacaq şəkildə yerləşdilər. Sağ qanaddakı süvarilərə Xalid ibn Vəlid, sol qanaddakı süvarilərə də İkrimə komandanlıq edəcəkdi. Səffan ibn Umeyyənin də süvari dəstələrinin başçısı olduğu rəvayət edilmişdir. Müşrik bayrağını Təlhə ibn Əbi Təlhə daşıyırdı.

İki ordu arasındakı güc mütənasibliyi çox fərqliydi. Qureyş ordusu sayı, silah və ləvazimat cəhətindən, İslam ordusundan dörd qat çox idi.

Qureyş ordusunda səs-küy, hay-həşir çoxalır, intiqam həvəsiylə gözləri hədəqəsindən çıxan qadınlar dəf, nağara çalır, mahnılar oxuyaraq əsgərləri döyüşə təşviq edir, sitayiş etdikləri bütlərdan kömək umurdular.

Mücahidlərin tərəfində isə, dualar edilir; “Allahu əkbər! Allahu əkbər!” deyə təkbirlər gətirilir, “Dini İslam”ın qorunması və yayılması üçün Allah Təaladan kömək istənilirdi. Sevgili Peyğəmbərimiz də qəhrəman Əshabını cihada, Cənabi Haqqın yolunda döyüşməyə təşviq edir, bu yolda qazanacaqları savabları deyərək; “Ey Əshabım! Sayıları az olan orduya düşmənla döyüşmək çətin olar. Əgər onlar səbr edib, çalışsalar, Allah Təala onları qələbəyə çatdırar. Çünki Allah Təala, özünə itaət edənlərlə birlikdədir... Allah Təalanın sizə və’d etdiyi mükafatı istə’yin...” buyururdu. Ühüd qəzvəsiylə əlaqəli ayələrdə də məalən; “(Ey mö’minlər!) Allah Təalaya və Rəsuluna (əmr etdiklərinə) itaət edin ki, mərhəmət olunasınız. Rəbbinizdən məğfirət istəməyə və Cənnətə girməyə çalışın. Bunun üçün çalışın! Cənnətin böyüklüyü, göylər və yer kürəsi qədərdır. Cənnət, Allah Təaladan qorxanlar üçün hazırlandı. Bunlar, az da olsa, çox da olsa, mallarını Allah yolunda verərlər. Qəzəbləndiklərini biruzə etməzlər. Hamını bağışlayarlar. Allah Təala ehsan edənləri sevər”.[202]

“Bax, onların mükafatı Rəblərindən bir məğfirət və ağacları altından çaylar axan Cənnətlərdir. Onlar, orada əbədiyyən qalacaqlar. Belə edənlərin, Allah Təalaya və Rəsulunə itaət edənlərin mükafatı nə gözəldir!” buyurulurdu.[203]

Könülləri imanla dolu, gözlərindən cəsarət qığılcımları sıçrayan, şəhid olmaq arzusuyla yanan Əshabi kiram yerlərində dayana bilmir, səbrsizliklə düşmən üzərinə atılmaq üçün əmr gözləyirdi. Bədir qəzvəsində olduğu kimi Həzrəti Əli ağ, Zübeyir ibn

[202] Ali İmran 3/132-134.
[203] Ali İmran 3/136.

Əvvam sarı, Əbu Dücanə də qırmızı rəngdəki əmmamələrini başlarına bağladılar. Həzrəti Həmzə də dəvə quşu qanadından düzəldilmiş əmmaməsini qoydu.

İki ordu bir-birilərinə əmməlli başlı yaxınlaşdı. Artıq həyəcan son həddə çatmışdı. Bir az sonra, bir tərəfdə Allah Təalanın dinini yaymaq üçün ən yaxınları ilə döyüşməkdən əsla tərəddüd etməyən İslam mücahidləri, digər tərəfdə də batil yolu tutmaqda israr edən İslam düşmənləri arasında böyük bir meydan müharibəsi başlayacaqdı.

Ox atımı məsafəsinə yaxınlaşdıqlarında, düşmən sıralarından dəvəsini irəli sürən zireh geymiş bir müşrik, mücahidlərdən döyüşmək üçün birini meydana çağırdı. Hamının özündən qorxduğunu zənn edərək, istə'yini üç dəfə təkrar etdi. Bundan sonra İslam ordusundan uzun boylu, sarı əmmaməli bir qəhrəman mücahidin, piyada olaraq meydana çıxdığı görüldü. Bu, Cənabi Peyğəmbərimizin xalasının oğlu Zübeyir ibn Əvvam idi. İslam ordusundan; "Allahu əkbər!" sədaları ucalır, Həzrəti Zübeyirin qalib gəlməsi üçün dua edilirdi. Zübeyir ibn Əvvamın müşrikə yaxınlaşan kimi, dəvəsinə sıçradığı görüldü. Dəvə üstündə qızğın döyüş başladı. Bu əsnada sevgili Peyğəmbərimizin; "Onu yerə düşürt!" buyurduğu eşidildi. Həzrəti Zübeyir, bu əmri alan kimi, rəqibini yerə itələdi. Özü də düşüb qılıncı ilə boynuna vurdu. Müşrikin dəbilqəli başı zirehli bədənindən ayrıldı. Rəsulullah Zübeyir Həzrətlərinə dua etdi.

Sonra, müşriklərin bayraqdarı Təlhə ibn Əbi Təlhə meydana çıxdı; "Aranızda qabağıma çıxa bilən kim var?" deyə qışqırdı. Qabağına Allah Təalanın aslanı Həzrəti Əli çıxdı. Bir vuruşda başdan ayağa zirehlərə bürünmüş müşrik bayraqdarının başını çənəsinə qədər yardı. Bunu görən sevgili Peyğəmbərimiz; "Allahu əkbər! Allahu əkbər!" deyə təkbir gətirdi. Bu təkbir sədalarına Əshabı kiram da qoşulunca təkbir sadaları yeri göyü titrətdi.[204]

Müşrik bayrağının yərə düşdüyünü görən Təlhənin qardaşı Osman ibn Əbi Təlhə meydana cumdu. Bayraqlarını qaldırıb döyüşmək üçün rəqib çağırdı. Onun qabağına da Həzrəti Həmzə çıxdı; "Ya Allah!" deyərək Osmanın çiyninə elə bir qılınc vurdu ki, bayraq tutan qolu qopan müşrik yerə düşüb can verdi.[205]

---

[204] İbn Hişam, *əs-Sirə*, II, 151; Vaqidi, *əl-Məğazi*, I, 224, 308; İbn Sə'd, *ət-Təbəqat*, II, 40; Beyhəqi, *Dəlailun-Nübüvvə*, III, 239; Süheyli, *ər-Rövzul-Unf*, III, 318.

[205] İbn Hişam, *əs-Sirə*, II, 74; Vaqidi, *əl-Məğazi*, I, 227; İbn Sə'd, *ət-Təbəqat*, II, 41; Süheyli, *ər-Rövzul-Unf*, III, 258;

Müşriklərdən Əbu Sə'd ibn Əbi Təlhə da piyada döyüş meydanına çıxdı. O da başdan ayağa zirehli idi. Küfr bayrağını yerdən qaldırdı və İslam ordusuna üzünü tutub; "Mən Qusamın atasıyım. Mənim qabağıma kim çıxa bilər?" deyərək qışqırmağa başladı. Cənabi Peyğəmbərimiz onun qabağına yenə Həzrəti Əlini çıxartdı. Həzrəti Əli, o müşriki də öldürüb bayraqlarını yerə düşürtdükdən sonra, mücahidlərin sıraları arasında yerini tutdu.

Bundan sonra bir çox müşrik sıra ilə meydana çıxıb yerə düşən bayraqlarını qaldıraraq, mücahidlərdən qarşılarına çıxacaq igid tələb etdilər. Ancaq, hər dəfə də qəhrəman səhabələr Allah Təalanın izniylə qalib gəldilər. Hər bayraqdar öldürüldüyündə, İslam əsgərlərinin təkbir sadaları ucalır, düşmən sıralarına böyük bir kədər və ümidsizlik çökürdu. Hətta daha əvvəl deyib-gülən müşrik qadınlar belə; "Ar olsun sizə!" deyərək öz əsgərlərini bir tərəfdən danlayır, bir tərəfdən də; "Daha nə dayanmısınız?" deyərək döyüşə təşviq edirdilər.

Hər iki tərəfin yerində dura bilmədiyi bir anda sevgili Peyğəmbərimizin əlində tutduğu və üstündə; "Qorxaqlıqda ar, irəliləməkdə şərəf və e'tibar var. İnsan qorxmaqla qəzavü qədərdən qurtara bilməz" beyti yazılmış qılıncını göstərərək; "Bu qılıncı məndən kim alar?" buyurduğu eşidildi. Bunu eşidən Əshabi kiramdan birçoxu bu qılıncı almaq üçün əllərini uzatdılar. Peyğəmbərimiz təzədən; "Bunun haqqını vermək üçün kim alar?" deyincə, Əshabi kiram susub duruxdular. Qılıncı həvəslə istəyənlərdən Zübeyir ibn Əvvam; "Mən alaram ey Rəsulallah" dedi. Peyğəmbərimiz qılıncı Həzrəti Zübeyirə vermədi. Əbu Bəkir, Ömər və Əlinin istəkləri də Peyğəmbərimiz tərəfindən qəbul edilmədi.

Əbu Dücanə; "Ey Rəsulallah! Bu qılıncın haqqı nədir?" deyə soruşdu. Sevgili Peyğəmbərimiz; "Onun haqqı, əyilib bükülüncəyə qədər onunla düşmənə qarşı döyüşməkdir. Onun haqqı, müsəlman öldürməməyin, onunla kafirlərin qabağından qaçmamağındır. Onunla Allah Təala sənə qələbə, yaxud şəhidlik nəsib edincəyə qədər Allah yolunda vuruşmağındır" buyurunca, Əbu Dücanə; "Ey Rəsulallah! Mən onun haqqını yerinə yetirmək üçün alıram" dedi. Peyğəmbərimiz də əlindəki qılıncı ona verdi.[206] Əbu Dücanə çox cəsarətli, qəhrəman olduğu halda, döyüş meydanlarında çox

---

[206] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 123; İbn Hişam, *əs-Sirə*, II, 66; Vaqidi, *əl-Məğazi*, I, 259; İbn Əbi Şeybə, *əl-Musannəf*, VII, 562; VIII, 491; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, XIX, 9.

hiyləgər davranır; “Müharibə hiylədir”[207] hədisinə artıqlamasıyla riayət edərdi. Əbu Dücanə Həzrətləri qılıncı alınca, döyüş meydanına tərəf məğrur, vüqarlı və mətin addımlarla, beytlər deyərək yeriməyə başladı. Əynində bir köynəyi və başında qırmızı əmmaməsindən başqa bir şeyi yoxdu.

Əbu Dücanə Həzrətlərinin bu yerişi, Əshabi kiramın xoşuna gəlmədi. Bundan sonra Cənabi Peyğəmbərimiz; “Bu bir yerişdir ki, bu yerlər (döyüş meydanları) xaricində Allah Təalanın qəzəbinə səbəb olar” buyuraraq, təkcə düşmənə qarşı məğrur yeriməyin caiz olduğunu bildirdi.

Daha çox gözləyə bilməyən müşrik sıralarından Xalid ibn Vəlid, əmri altındakı qüvvələrlə hücuma keçdi. Yerində dura bilməyən Əshabi kirama, sevgili Peyğəmbərimiz də hücum əmri verdi. Bir anda; “Allahu əkbər” sadaları döyüş meydanını doldurmuşdu. Ən qabaqda Həzrəti Həmzə əllərindəki qılınclarıyla, zirehsiz qüvvələrin başında olduğu halda hər qabağına çıxan kafirə qılınc vurmağa başladı. Böyük bir həvəslə gələn Xalid ibn Vəlidin qüvvələri, dərhal dala püskürdüldü. Xalid ibn Vəlid, bu dəfə dağ keçidindəki yerdən dolanıb, arxadan vurmaq üçün geniş bir qövs şəklində Ayneyn təpəsinə çatdı. Ancaq Həzrəti Abdullah ibn Cübeyr və əmri altındakı əlli igid, sərrast ox atışlarıyla onların yollarını kəsdi.

Artıq savaş qızışmışdı. Hər iki tərəf, var gücləriylə döyüşürdülər. Hər bir səhabə, ən az dörd müşrik ilə döyüşərək, irəliləməyə çalışırdı. Həzrəti Həmzə, bir tərəfdən; “Allahu əkbər! Allahu əkbər!” deyir, bir tərəfdən də; “Mən Allah Təalanın aslanıyam!” deyir və düşməni qıra-qıra irəliləyirdi. Səfvan ibn Umeyyə ətrafındakılara; “Həmzə hardadır? Onu mənə göstərin” deyir, döyüş meydanına göz gəzdirirdi. İki qılıncla döyüşən birini gördü və; “Bu döyüşən kimdir elə?” deyə soruşdu. Ətrafındakılar; “Axtardığın adamdır! Həmzədir!” dedilər. Səfvan; “Mən bu günə qədər öz qövmünü öldürmək üçün hücum edən, onun kimi həvəsli və cəsarətli başqa bir adam görmədim” dedi.

Döyüş əməlli başlı qızışdığında, muhacirlərdən Zübeyir ibn Əvvam, qılıncın ona verilməməsi səbəbiylə qanı qara olduğundanndan, öz özünə; “Mən Rəsulullahdan qılıncı istədim, ancaq O Əbu Dücanəyə verdi. Halbuki, mən xalası Safyyənin oğluyam. Üstəlik də Qureyşliyəm. Halbuki əvvəlcə mən istəmişdim. Gedib baxım Əbu Dücanə

[207] Buxari, “Cihad”, 157; Müslim, “Cihad”, 29; Əbu Davud, “Cihad”, 101; Tirmizi, “Cihad”, 5; İbn Macə, “Cihad”, 28.

məndən artıq nə edəcək?” dedi. Daha sonra Əbu Dücanəyə göz gəzdirdi. Əbu Dücanə Həzrətləri; “Allahu əkbər!” deyərək təkbir deyir, müşriklərdən kimə rast gəlsə, onu vurub öldürürdu. Müşriklərin ən qəddarlarından yekəpər, hər tərəfi zirehlərlə örtülü, təkcə gözləri görünən birisi Əbu Dücanə ilə qarşılaşdı. Əvvəlcə özü Əbu Dücanə Həzrətlərinə hücum etdi. Əbu Dücanə onun zərbəsini qalxanıyla sovuşdurdu. Müşrikin qılıncı Əbu Dücanənin qalxanına yapışdı. Nə qədər əlləşdisə də qılıncı çıxarda bilmədi. Növbə Əbu Dücanəyə gəlmişdi. Bir qılınc zərbəsiylə rəqibini öldürdü.

Bundan sora Əbu Dücanə, hər qabağına çıxan imansızı öldürərək, dağın yamacında dəfləriylə müşrikləri qızışdıran qadınların yanına qədər gəldi. Ancaq qılıncını qaldırdığı halda, Əbu Süfyanın xanımı Hindi öldürmək fikrindən döndü.[208] Bunu görən Zübeyir ibn Əvvam öz-özünə; “Qılıncın kimə veriləcəyini Allah və Rəsulu məndən daha yaxşı bilir” dedi. “Vallahi mən ondan daha üstün döyüşən, vuruşan bir adam görmədim” buyurdu.

Miqdad ibn Əsvəd, Zübeyir ibn Əvvam, Həzrəti Əli, Həzrəti Ömər, Təlhə ibn Übeydullah, Mus’ab ibn Umeyr də qala kimi düşmənin qabağında durmuşdular. Cənabi Peyğəmbərimizin düşmənə çox yaxın döyüşdüyünü, dayanmadan hücum etdiyini görən şanlı Əshab, yerində dura bilmirdi. Rəsulullaha bir zərər dəyə bilər deyərək, ətrafına toplaşır, zirehlərə bürünmüş düşmənə göz açmağa fürsət vermirdilər. Bu əsnada, Abdullah ibn Əmr Həzrətləri şəhid oldu. Bu, Ühüdün ilk şəhidiydi. Onun şəhid olduğunu görən dostları, Allah Təalanın rizası üçün aslan kimi düşmənin içinə dalmışdılar.

Döyüşün çox qızışdığı bir anda igidliyin simvolu Həzrəti Abdullah ibn Cahş ilə oxçuların ustası Sə’d ibn Əbi Vəqqas Həzrətləri rastlaşdılar. Müxtəlif yerlərindən yaralanmışdılar. Sə’d ibn Əbi Vəqqas Həzrətləri belə nəql etmişdir ki; “Ühüddə, döyüşün şiddətli bir anıydı. Birdən birə Abdullah ibn Cahş yanıma gəlib, əlimdən tutdu və məni bir qayanın dibinə apardı. Mənə; “İndi burada, sən dua et, mən “amin” deyim. Mən də dua edim, sən də “amin” de!” dedi. Mən də; “Yaxşı” dedim. Mən belə dua etdim; “Allahım, mənə çox qüvvətli və güclü düşmənləri göndər. Onlarla başabaş döyüüşüm. Hamısını öldürüm. Qazi olaraq dala qayıdım”. Mənim etdiyim bu duaya bütün qəlbiylə; “Amin” dedi.

---

[208] İbn Hişam, *əs-Sirə*, II, 68; Süheyli, *ər-Rövzul-Unf*, III, 247; İbn Kəsir, *əs-Sirə*III, 33.

Sonra o da dua etməyə başladı; “Allahım, mənə güclü düşmənlər göndər ki, onlarla başabaş vuruşum. Cihadın haqqını verim. Hamısını öldürüm. Axırda da biri məni şəhid etsin. Sonra dodaqlarımı, burnumu, qulaqlarımı kəssin. Qan axa-axa sənin hüzuruna gəlim. Sən; “Abdullah! Dodaqlarına, burnuna, qulaqlarına nə oldu?” deyə soruşduğunda; “Allahım, mən onlarla çox günah iş gördəm, lazım olan yerdə istifadə etmədim. Hüzuruna gətirməyə utandım. Sevgili Peyğəmbərimin iştirak etdiyi bir döyüşdə, toz-torpağa bulaşdım və eləcə gəldim” deyim” dedi. Könlüm belə bir duaya “amin” deməyi arzu etmirdi. Ancaq o istədiyi və əvvəlcədən söz verdiyim üçün, istəməyərək; “Amin” dedim.

Daha sonra, qılınclarımızı sıyıraraq, döyüşməyə davam etdik. İkimiz də qabağımıza çıxanı öldürürduk. O, həddən artıq cəsarətlə hücum edir və düşmən səflərini darmadağın edirdi. Düşmənə dayanmadan vurur, şəhid olmaq üçün həvəsdən düşmədən hücum edirdi. “Allahu əkbər! Allahu əkbər!” deyə döyüşərkən qılıncı qırıldı. O anda sevgili Peyğəmbərimiz ona bir xurma budağı uzadaraq, döyüşə davam etməsini buyurdu. Bu budaq bir mö’cüzə olarak qılınc oldu və qabağına çıxan müşriklərlə vuruşmağa davam etdi. Çox düşmən öldürdü. Döyüşün axırına yaxın Əbül-Hakim adında bir müşrikin atdığı oxlarla arzu etdiyi şəhadətə qovuşdu. Şəhid olunca, kafirlər cəsədinə hücum edərək, burnunu, dodaqlarını və qulaqlarını kəsdilər. Hər tərəfi qana boyandı”.

Mücahidlər səfində, qılıncının qınını sındırıb; “Ölmək qaçmaqdan daha çox yaxşıdır!” deyərək, müşriklərin qarşısına təkcə qılıncla çıxan Quzman, çox igidliklər və qəhrəmanlıqlar göstərdi. Tək tənha yeddi-səkkiz kafir öldürdü. Axırda yaralanıb yerə yıxıldı. Əshabi kiram, onun bu qəhrəmanlığına heyran olub Cənabi Peyğəmbərimizə xəbər verincə; “O cəhənnəmlikdir” buyurdu. Qatadə ibn Numan Həzrətləri, Quzmanın yanına gəlib; “Ey Quzman! Şəhadət sənə mübarək olsun!” deyincə, Quzman; “Mən din üçün deyil; Qureyşlilərin Mədinəyə gəlib xurmalığımı məhv etməmələri üçün döyüşdüm!” dedi. Sonra ox ilə bilək damarlarını deşib intihar etdi. Cənabi Peyğəmbərimizin; “O cəhənnəmlikdir!” buyurmasının hikməti də beləcə anlaşıldı.

Döyüşün əvvəlindən e’tibarən başda aləmlərin sahibi sevgili Peyğəmbərimiz olmaqla, bütün Əshabi kiram qizğın mübarizə apardılar. Şiddətli hücumlarla müşrik ordusunu geriyə püskürtdülər. Daşdan, ağacdan düzəldib “Lat, Uzza, Hübəl” tanrıları deyərək sitayiş etdikləri bütlərdan fayda və kömək istəyən müşriklər, mücahidlərin bu

qəhrəmanlıqları qarşısında dura bilməyib qaçmağa başladı. Onları döyüşə təşviq etmək üçün gələn qadınlar, ah-fəğan edərək, qaçan əsgərlərə çatmağa çalışırdılar.

Qureyşli müşriklər, müharibə meydanını tərk edib özləriylə gətirdikləri malları buraxıb Məkkəyə tərəf qaçmağa başlayınca, İslam əsgərləri sevinərək Allah Təalanın özlərinə və'd etdiyi qələbəyə nail olduqları üçün həmd etdilər. Say və güc cəhətiylə qat-qat üstün olmalarına baxmayaraq müşriklər müsəlmanlar qarşısında darmadağın olmuşdular. Bir-birilərini əzə-əzə qaçarkən, şanlı Əshab da onları tə'qib edir, çata bildiklərini vuraraq öldürürdülər. Bu dəmdə təzə evlənən Hənzələ ibn Əbu Amir Həzrətləri, atı ilə qaçmağa çalışan müşrik ordusunun başçısı Əbu Süfyana çatdı. Atının ayaqlarına qılınc vuraraq yerə yıxdı. Yerə yıxılan Əbu Süfyan var gücüylə; "Ey Qureyşlilər! Özünüzü çatdırın! Mən Əbu Süfyanam! Hənzələ məni qılıncla doğramaq istəyir!" deyə fəryad etməyə başladı. Onunla birlikdə qaçmağa çalışan müşriklər, bu halı gördükləri halda öz canlarının hayına qalmış və başçılarına əhəmiyyət verməmişdilər.

Ancaq, o əsnada Həzrəti Hənzələ arxasından gələn müşrik Şəddad ibn Əsvəd, nizəsini Hənzələnin kürəyinə vurdu. Həzrəti Hənzələ; "Allahu əkbər!" deyərək hücum etmək istəsə də, yerə yıxılıb şəhid oldu və mübarək ruhu Cənnətə uçdu. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm); "Mən, Hənzələni mələklərin, göylə yer arasında, gümüş bir ləyən içində yağış suyu ilə yuyundurduqlarını gördüm" buyurdu. Əbu Useyd belə nəql etmişdir ki; "Rəsulullahın bu sözünü eşidincə, Hənzələnin yanına getdim. Başından yağış suyu damcılayırdı. Qayıdıb bunu Rəsuli əkrəmə xəbər verdim". Həzrəti Hənzələyə "Ğəsilulməlaikə"[209] dedilər".[210]

Müşriklərin qaçdığını görən Ayneyn keçidindəki oxçuların bəziləri, döyüşün sona çatdığını zənn edərək yerlərini tərk etdilər. Təkcə başçıları Abdullah ibn Cübeyr və on iki nəfər yerlərində qaldılar.[211]

## Həzrəti Əlinin qəhrəmanlığı

Bu əsnada pusquda gözləyən, hər bir fürsətdən istifadə etməyə çalışan Qureyş oxçu birliyinin başçısı Xalid ibn Vəlid, keçiddəki mücahidlərin azaldığını görüncə, əmri

---

[209] Mələklərin yuduğu şəxs.

[210] İbn Hişam, *əs-Sirə*, II, 74; Vaqidi, *əl-Məğazi*, I, 273-274; Təbəri, *Tarix*, II, 203; Süheyli, *ər-Rövzul-Unf*, III, 258.

[211] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 293; İbn Sə'd, *ət-Təbəqat*, II, 47.

altındakı süvariləri hərəkətə keçirtdi. İkrimə ibn Əbi Cəhillə birlikdə bir anda Ayneyn keçidinə gəldilər. Abdullah ibn Cübeyr Həzrətləri ilə vəfalı, sadiq dostları səf-səf düzüldülər. Oxlar qurtarıncaya qədər düşmənə ox yağdırdılar. Sonra nizələriylə, üzbəüz gəlincə də; "Allahu əkbər! Allahu əkbər!" deyə deyə qılınclarıyla neçə qəhrəmanlıqlar göstərdilər.

İmanlı ilə imansızlar arasında iyirmibeşdə bir qədər çox nisbətsiz bir vəziyyət vardı. Şanlı Əshabi kiram Peyğəmbərlərinin əmrini yerinə yetirmək üçün, qanlarının son damcısına qədər döyüşdülər. Bir-biri arxasınca şəhadət şərbətini içib, mübarək bədənləri torpağa düşdü və ruhları Cənnətə uçdu (Allah onlardan razı olsun).

Müşriklər kinlərindən Həzrəti Abdullahın paltarını soyunduraraq, mübarək bədənini nizələrlə dəlik-deşik etdilər. Qarnını yırtıb, daxili organlarını çölə çıxartdılar.

Xalid ibn Vəlid və İkrimə, keçiddəki mücahidləri şəhid edincə, İslam ordusuna arxadan hücum etdilər. Əshabi kiram, bir anda arxalarında peyda olan düşməni görüncə, ordu nizamı almağa fürsət tapa bilmdi. Çünki, bir çoxu silahlarını belə çıxartmışdı. Hər şey birdən-birə dəyişdi. Qabaqda qaçan Qureyşli müşriklər, Xalid ibn Vəlidin arxadan hücuma keçdiyini görüncə, təzədən qayıtdılar. Mücahidlər, iki od arasında qalmışdı. Düşmən qabaqdan və arxadan hücuma keçərək mücahidləri sıxışdırmağa başladı. Səhabənin bir-biriləriylə əlaqələri kəsildi. Dağılışmaq məcburiyyətində qaldılar.[212]

Həzrəti Əli belə nəql etmişdir ki "Aralarında İkrimə ibn Əbi Cəhilin də olduğu bir müşrik dəstəsinin içinə girdim. Məni mühasirəyə aldılar. Çoxunu qılıncdan keçirtdim. Başqa bir dəstənin içinə daldım, onlardan da çoxunu qılıncdan keçirtdim. Əcəlim gəlmədiyi üçün mənə bir şey olmamışdı. Bir müddət Rəsulullahı görə bilmədim. Öz özümə; "And içirəm ki, O, döyüş meydanını tərk edib gedən bir adam deyildir. Hər halda Allah Təala etdiyimiz namünasib hərəkətlərdə görə Onu aramızdan çəkib çıxartmışdır! Artıq mənim üçün döyüşə-döyüşə ölməkdən savayı bir yol qalmamışdır" dedim və qılıncımın qınını qırdım. Müşriklərin üzərinə hücum edib onları pərən-pərən etdiyimdə, Rəsulullahın onların arasında qaldığını gördüm. Başa düşdüm ki, Rəsulullahı Allah Təala mələkləriylə qoruyurdu". Düşmən əsgərləri Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm) yanına qədər yaxınlaşmışdılar. Vəziyyət çox təhlikəliydi. Sevgili Peyğəmbərimiz, sanki bir ordu kimi döyüşür, yerindən ayrılmırdı. Bir tərəfdən

---

[212] Vaqidi, *əl-Məğazi*, I, 232, 301.

düşmənlə döyüşür, digər tərəfdən də səpələnən Əshabını bir yerə toplamağa çalışaraq; "Ey filan, mənə tərəf gəl! Ey filan, mənə tərəf gəl! Mən Rəsulullaham. Mənim yanıma gələn üçün Cənnət vardır" buyururdu. Həzrəti Əbu Bəkir, Əbdurrəhman ibn Əvf, Təlhə ibn Ubeydullah, Əli ibn Əbi Talıb, Zübeyir ibn Əvvam, Əbu Dücanə, Əbu Ubeydə ibn Cərrah, Sə'd ibn Mu az, Sə'd ibn Əbi Vəqqas, Həbbab ibn Münzir, Useyd ibn Xudayr, Səhl ibn Hənif, Asim ibn Sabit, Haris ibn Simmə bir anda sevgili Peyğəmbərimizin ətrafında halqa qurub Onu qorumaq üçün canlı bir qala divarı meydana gətirdilər.

Bu əsnada Abbas ibn Ubadə Həzrətlərinin, dağılişan Əshabi kiramın bir yerə toplanması üçün; "Ey qardaşlarım! Başımıza gələn bu müsibət, Peyğəmbərimizin əmrini yerinə yetirməməyimizin bir nəticəsidir. Dağılışmayın! Peyğəmbərimizin yanına gəlin! Əgər biz, qoruyucuların yanında dayanmayıb, Rəsulullaha bir zərər verilməsinə səbəb olsaq, artıq Rəbbimizin qarşısında bir bəhanəmiz qalmaz" deyə səsləndi. Həzrəti Abbas ibn Ubadə, Xaricə ibn Zeyd və Evs ibn Ərqamla birlikdə, "Allahu əkbər!" sədaları ilə, əllərində təkcə qılıncla düşmənə hücum etdilər. Rəsulullahın uğrunda, Onu qorumaq üçün qəhrəmancasına döyüşdülər. Xaricə ibn Zeyd, on doqquz yerindən yaralanmışdı. O birilərininki də ondan az deyildi. Onların hər üçü də çox arzu etdikləri şəhidlik mərtəbəsinə çatdılar.

Əshabi kiram, bu çox təhlükəli məqamda, Cənabi Peyğəmbərimizin ətrafında yavaş-yavaş toplaşmağa başladı. Müşriklər, sevgili Peyğəmbərimizi və Onu qoruyan şanlı Əshabını dairə şəklində mühasirəyə aldılar. Hər tərəfdən dəstə-dəstə irəliləyərək dairəni daraldırdılar. Qureyşlilərdən bir qrupun qabağa çıxdığını görən Aləmlərin sahibi, yanında olan və canlarını fəda etməyə hazır olan Əshabına; "Bu dəstəni kim qarşılaya bilər?" buyurunca, Vəhb ibn Kabus Həzrətlərinin; "Canım sənə fəda olsun ey Rəsulallah! Mən qarşılayaram" deyib, irəli atıldığı görüldü. Allah Təalanın şərəfli adını dilindən düşürtməyən bu qəhrəman, yalın qılıncla müşriklərin üstünə cumdu. Cənabi Peyğəmbərimiz; "Səni Cənnətlə müjdələyirəm" buyurdu. Onun düşmən qarşısında göstərdiyi səbat və cəsarətini görüncə də; "Allahım! Ona rəhm et! Ona yazığın gəlsin" buyurdu.

Müşriklərin Həzrəti Vəhbi təkləyib nizə ilə şəhid etdiklərini görən Sə'd ibn Əbi Vəqqas, ona kömək etmək üçün qabağa atıldı, düşmənin içinə girib, çox qəhrəmanlıq göstərdi. Bir çox kafiri məhv etdi. Digərlərini də geri püsgürdərək, sevgili

Peyğəmbərinin yanına gəldi. Rəsuli əkrəm Həzrəti Vəhb üçün; "Mən səndən razıyam. Allah Təala da razı olsun" buyurdu.

Həbibi əkrəm, mücahidlərin səfini yarıb, özünə tərəf bir müşrik dəstəsinin gəldiyini görüncə, Həzrəti Əliyə; "Onlara hücum et" buyurdu. Həzrəti Əli, hücum edib, Əmr ibn Abdullahı öldürüb, digərlərini də qovdu. Qılıncı qırılınca, Peyğəmbərimiz, zülfüqarı ona verdi. Başqa bir dəstə gəlirkən Cənabi Peyğəmbərimiz; "Ey Əli! Bunların şərrini məndən uzaq eylə" buyurdu. Canını Rəsulullaha fəda edən Allah Təalanın aslanı dərhal hücuma keçdi. Şeybə ibn Maliki öldürüb, o birilərini də geri püsgürtdü. O anda Cəbrayıl əleyhissalam gəlib Cənabi Peyğəmbərimizə; "Ey Rəsulallah! Bu iş, Əlidən zühur edən bir igidlikdir" deyincə, Rəsulullah; "O məndən, mən də ondanam" buyurdu. Cəbrayıl əleyhissalam da; "Mən də ikinizdənəm" dedi. O əsnada bir səs; "Əli kimi igid, zülfüqar kimi qılınc tapılmaz" deyirdi.

Müşriklər, sevgili Peyğəmbərimizin yanına yaxınlaşa bilməyəcəklərini başa düşüncə, ox atmağa başladılar. Atılan oxlar, ya başının üstündən keçir, ya qabağına, ya sağına veya soluna düşürdu. Düşməni geriyə püsgürtmək üçün canını dişinə tutaraq döyüşən Əshabi kiram, bu halı görən kimi Aləmlərin sahibinin ətrafına toplanaraq, gələn oxlara mübarək bədənlərini sipər etməyə başladılar. Cənabi Peyğəmbərimiz Əshabına, düşmənə oxla cavab vernəsini əmr edincə, səhabələr də düşmənə ox atmağa başladılar. Sevgili Peyğəmbərimiz, Sə'd ibn Əbi Vəqqas Həzrətlərini qabaqda oturtdu. Çox sərrast ox atan biri olan Həzrəti Sə'd dayanmadan, dalbadal düşmənin üzərinə ox yağdırmağa başladı. Sadağından, yəni ox qabından hər dəfə ox götürəndə; "Ey Rəbbim! Bu sənin oxundur. Onunla düşməni vur!" deyir, Cənabi Peyğəmbərimiz də; "Allahım! Sə'din duasını qəbul et! Allahım! Sə'din oxunu hədəfə tuşla! Dayanma, ey Sə'd! Davam et! Anam-atam sənə fəda olsun!" buyururdu. Bu şəkildə hər ox atdığında Cənabi Peyğəmbərimiz eyni dualarını təkrar edirdi.

Həzrəti Sə'din oxu qurtarınca, sevgili Peyğəmbərimiz atması üçün öz oxlarını da ona verdi. Sə'd ibn Əbi Vəqqas Həzrətlərinin hər oxu ya bir düşmənə vəya mindiyi heyvana dəyirdi.

Müşriklərin ox atışları altında, Əbu Təlhə Həzrətləri sevgili Peyğəmbərimizin qabağında dayanaraq, hər bir oxa öz bədəni və qalxanı ilə sipər olur, bəzən də düşməni çaş-baş salan nərə çəkirdi. Cənabi Peyğəmbərimiz; "Əsgər içində Əbu Təlhənin səsi, yüz nəfərdən xeyirlidir buyurdu. Əbu Təlhə fürsət tapdıqca müşriklərə dalbadal ox da

atırdı. Atdığı boşa getmirdi. Atdığı oxları Rəsuli əkrəm, bəzən mübarək başını yuxarı qaldırdıqca, Əbu Təlhə, Rəsulullaha bir ox dəyə biləcəyindən qorxaraq; "Anam-atam, canım sənə fəda olsun ey Rəsulallah! Mübarək başınızı qaldırmayın. Sizə bir düşmən oxu dəyib zərər verməsin! Bədənim, mübarək bədəninə sipər və sənə fədadır! Məni öldürməyincə, sənə bir şey edə bilməzlər! Mən ölmədikcə, sizə bir şey olmaz!" deyərək sevgili Peyğəmbərimizi öz nəfsindən üstün görürdü.

Ühüd meydanının hər tərəfində amansız və qəddar bir döyüş bütün şiddətiylə davam edir, bəziləri atlı, bəziləri da piyada, iman-küfr mübarizəsini davam etdirirdilər. Əshabi kiram hələ ki, özünə gələ bilməmişdi. Cənabi Peyğəmbərimizin ətrafında təxminən otuz nəfər səhabi pərvanə kimi fırlanır, gələn oxlara, nizələrə və qılınclara öz bədənlərini qalxan edirdilər. Yeganə arzuları, Cənabi Peyğəmbərimizin əmrini yerinə yetirmək və Ona gələcək hər cür zərəri uzaqlaşdırmaq idi. İgidlərin sərdarı Həzrəti Həmzə, o həngamədə Cənabi Peyğəmbərimizdən ayrı qalmış, bir qələbəliyin ortasında hər iki əlində qılıncla döyüşür; "Allahu əkbər!" sədalarıyla düşmənin qəlbinə qorxu salırdı. İndiyə qədər, tək başına düz otuz bir müşrik öldürmüş, bir çoxunu da ya qolundan veya ayağından yaralamışdı. Ortasında qaldığı müşrik sürüsünü dağıtdığı əsnada, Siba ibn Ümmü Ənmar; "Mənə gücü çata bilən bir igid var görəsən?" deyərək Həzrəti Həmzəyə meydan oxudu. Həzrəti Həmzə; "Yanıma gəl, ey sünnətçi qadının oğlu! Demək sən Allaha və Rəsuluna meydan oxuyorsan?" deyib, o fürsət tapmamış ayaqlarından tutub yerə yıxdı.[213] Üstünə çıxıb, başını bədənindən ayırdıqdan sonra, qabaqadakı bir qayanın arxasında, Vəhşinin əlində nizə ilə onu nişan aldığını gördü. Dərhal üstünə getdi, selin yaratdığı çuxura çatanda ayağı sürüşdü və arxası üstə yıxıldı. O əsnada qarnından zirehi açılmışdı. Fürsəti fövtə verməyən Vəhşi, nizəsini atdı! Nizə Həzrəti Həmzənın mübarək bədəninə batdı və arxa tərəfindən çıxdı. Qəhrəmanların qəhrəmanı; "Allahım!" deyərək oradaca qaldı. Şəhid olmuş, arzu etdiyi məqama qovuşmuşdu. Allah Təalanın yolunda, sevgili Peyğəmbərinin uğrunda canını fəda etmişdi (Allah ondan razı olsun).

Bu əsnada, düşmən səflərindən birisi; "Ey Qureyş camaatı! Qohumluq haqlarını tapdalayan, qövmünüzü ayıran Məhəmməd ilə döyüşməkdən çəkinməyin. Əgər Məhəmməd xilas olarsa, mən heç xilas olmayım!" deyərək müşrikləri Kainatın

---

[213] Buxari, "Məğazi", 23; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 501; İbn Sə'd, *ət-Təbəqat*, III, 164; Təbəri, *Tarix*, II, 516;

sahibinə (səlləllahu əleyhi və səlləm) hücum etməyə təşviq edirdi. Bu səs, Asim ibn Əbi Əfvin səsi idi. Əbu Dücanə Həzrətləri də bu səsi eşitmişdi. Döyüşə-döyüşə Asim ibn Əbi Əfvi tapdı və vaxt itirmədən onu öldürdü. Ancaq arxasındakı müşrik Mə'bəd, var gücüylə qılıncını Həzrəti Əbu Dücanəyə vurmaq istədi. Allahu Təalanın bir ehsanı olaraq ani və çox cəld bir hərəkətlə yerə əyilən Əbu Dücanə, öldürücü zərbədən xilas oldu. Dərhal qalxıb, qılıncıyla Mə'bədə vuraraq öldürdü.

Qureyşli müşriklərin hədəfləri, Aləmlərin sahibi idi. Ona yaxınlaşa bilmək üçün bütün güçlərini sərf edirdilər. Ancaq, ətrafında pərvanə kimi fırlanan, bir zərər dəyməsin deyə canlarını fəda etməkdən zərrə qədər də qorxmayan şanlı, şərəfli Əshabı heç cür keçə bilmirdilər. Bu qəhrəman otuz igid, Rəsulullahın qabağında; "Ey Rəsulallah! Yanından heç ayrılmamaq üçün üzümüz, mübarək üzünün qabağında sipər və qalxan, bədənimiz, mübarək bədəninə fədadır. Yetər ki, sən salamat qalasan" dedilər. Müşriklər, dəstə-dəstə hücum edirdilər. Fəxri aləm Rəsulullah, yanında olan və bədənlərini sipər edən qəhrəman Əshabına, bir dəstəni göstərərək; "Allah Təalanın yolunda bədənini bizə kim fəda edər?" buyurunca, Mədinəli beş səhabi qabağa çıxmışdı. Rəsulullahın mübarək gözləri qabağında təkbir gətirərək, Cəsarətlə döyüşdülər. Axırda bunlardan dördü şəhid oldu. Beşincisi on dörd yerindən yaralanıb yerə yıxılınca, Aləmlərin sahibi; "Onu, mənim yanıma gətirin" buyurdu. Bədəninin hər yerindən qan axırdı. Sevgili Peyğəmbərimiz oturaraq, mübarək ayaqlarını başına yastıq etdi. Bu vəziyyətdə şəhid olmaq şərəfinə qovuşan bu bəxtəvər səhabi, Umarə ibn Yezid Həzrətləriydi.

### Təlhə ibn Ubeydullahın qəhrəmanlığı

Müşriklərin əməlli başlı yaxınlaşdıqları bir əsnada, Peyğəmbərimiz; "Bunların qabağına kim çıxar, bunları kim dayandırar?" buyurdu. Təlhə ibn Ubeydullah Həzrətləri; "Mən! Ey Rəsulallah!" deyib, qabağa çıxmaq istədi. Cənabi Peyğəmbərimiz; "Sənin kimi başqa kim var?" buyurdu. Mədinəli səhabilərdən biri; "Ya Rəsulallah! Mən!" deyərək icazə istədi. Sevgili Peyğəmbərimiz; "Haydı, sən çıx" buyurunca,

qabağa atıldı və müşriklərin üstünə hücum etdi. Tayı-bərabəri olmayan qəhrəmanlıqlar göstərdi. Bir neçə imansızı öldürdükdən sonra şəhadət şərbətini içdi.[214]

Rəsuli əkrəm, yenə; "Bunların qabağına kim çıxar, kim dayandırar?" buyurdu. Hamıdan qabaq, yenə Təlhə Həzrətləri çıxdı. Cənabi Peyğəmbərimiz; "Sənin kimi başqa kim var?" deyə soruşunca, Ənsardan bir mübarək zat; "Mən çıxaram ya Rəsulallah" dedi. Peyğəmbərimiz; "Haydı onların qabağına sən çıx" buyurdu. O da müşriklərlə döyüşə-döyüşə şəhid oldu. Bu şəkildə Cənabi Peyğəmbərimizin o əsnada yanında olan bütün səhabilər, vuruşa-vuruşa şəhadətə erdilər. Kainatın hökmdarı Rəsulullahın o əsnada yanında Təlhə ibn Ubeydullah Həzrətlərindən başqa heç kim qalmamışdı. Həzrəti Təlhə, Rəsulullaha bir zərər dəyməməsi üçün narahat olur, dörd bir tərəfa qaçır, kafirlərlə qəhrəmanca döyüşürdü. Onun bu qədər məharətli qılınc vurması, eyni zamanda Rəsulullahın hər tərəfindəki düşmənə cavab verməsi, ox, nizə və qılınc zərbələrinə bədənini qalxan etməsi tayı-bərabəri olmayan bir hadisəydi. Həzrəti Təlhə, pərvanə kimi fırlanır, özünə dəyən qılınc zərbələrini heç vecinə almırdı. Diləyi, Kainatın hökmdarını qorumaq, bu yolda digər qardaşları kimi şəhid olmaqdı. Bədənində yaralanmadığı yer qalmamışdı. Paltarı da qana boyanmışdı. Ancaq o, buna baxmayaraq dörd tərəfə də özünü çatdırırdı. O əsnada Həzrəti Əbu Bəkir və Sə'd ibn Əbi Vəqqas Həzrətləri də özlərini Rəsuli əkrəmə çatdırdılar.

İgidlərin hökmdarı Həzrəti Təlhə da bu dəmdə qan itirdiyindən yerə yıxılıb huşunu itirdi. Hər yeri qılınc, nizə və ox zərbələriylə dəlik-deşik olmuşdu. Altmış altı böyük, saysız-hesabsız da kiçik yarası vardı. Sevgili Peyğəmbərimiz, Həzrəti Əbu Bəkirə, vaxt itirmədən Həzrəti Təlhəyə kömək etməsini əmr etdi. Əbu Bəkiri Siddiq, Həzrəti Təlhənin özünə gəlməsi üçün mübarək üzünə su səpdi. Təlhə ibn Ubeydullah Həzrətləri özünə gələn kimi; "Ey Əba Bəkir! Rəsulullah nə edir?" deyərək, sevgi və bağlılığın ən gözəl nümunəsini göstərdi. Rəsuli əkrəmi sevmək, canını, Onun mübarək bədəninə fəda etmək bundan artıq ola bilməzdi. Həzrəti Əbu Bəkir; "Rəsulullah yaxşıdır. Məni O göndərdi" deyincə, Təlhə rahat bir nəfəs alıb; "Allah Taalaya çox şükr olsun. O sağ olduqdan sonra hər müsibət heçdir" dedi. O əsnada bir neçə səhabə də özlərini çatdırmışdılar.

---

[214] Əhməd Şami, *Sübülül-Huda*, IV, 203.

Aləmlərin sahibi, Məhəmməd Mustafa (səlləllahu Taala əleyhi və səlləm), Həzrəti Təlhənın yanına təşrif etdi. Yaralı mücahid, Rəsulullahı sağ olarak görüncə, sevincindən ağladı. Cənabi Peyğəmbərimiz, onun bədəninə məsh etdikdən sonra, əllərini qaldırıb; "Allahım! Ona şəfa ver, qüvvət ehsan et" deyə dua buyurdu. Rəsuli əkrəmin bir mö'cüzəsi olaraq, Həzrəti Təlhə sap-sağlam ayağa qalxdı və təzədən düşmənlə döyüşməyə başladı. Sevgili Peyğəmbərimiz onun üçün; "Ühüd günü, yer üzündə sağımda Cəbrayıldan, solumda da Təlhə ibn Ubeydullahdan başqa heç kimin mənə yaxın olmadığını gördüm".[215] "Yer üzündə gəzən cənnətlik birinə baxmaq istəyən, Təlhə ibn Ubeydullaha baxsın" buyurdu.

Bütün meydanda döyüş şiddətlə davam edirdi. Cənabi Peyğəmbərimizin ətrafında Əbu Dücanə, bayraqdar Mus'ab ibn Umeyr, Təlhə ibn Ubeydullah, Peyğəmbərimizi qorumaq üçün arxa səflərdən özlərini çatdıran Nəsibə Xatun və bir neçə səhabi vardı. Müşriklərə qarşı, Rəsulullahla birlikdə döyüşürdülər. Başdan-ayağa silahlı, zirehli və dəbilqəli bir qəddar müşrik olan Abdullah ibn Hüneyd, sevgili Peyğəmbərimizi görüncə, atını səyirtdi. "Mən Züheyrin oğluyam. Mənə Məhəmmədi göstərin. Ya mən Onu öldürərəm, yaxud Onun yanında ölərəm!" deyə qışqırırdı. Atını, Cənabi Peyğəmbərimizə tərəf sürərkən, Əbu Dücanə Həzrətləri qabağına çıxdı və; "Gəl görək! Mən bədənimlə Məhəmməd əleyhissalamın mübarək bədənini qoruyan bir adamam. Məni əzib keçmədikcə, Ona yaxınlaşa bilməzsən!" dedi. Qılıncıyla atın ayaqlarına kəsib, Abdullah ibn Hüneydi yerə yıxdı və qılıncını qaldıraraq; "Al, bu da Harəsənin oğlundan!" deyib, bir vuruşda yerə sərdi. Hadisəni seyr edən Aləmlərin sahibi; "Allahım! Harəsənin oğlundan (Əbu Dücanədən) mən necə razı isəm, sən də elə razı ol" deyərək dua buyurdu.

Müşriklərdən çox sərrast bir atıcı və hər atdığını vuran bir oxçu olan Malik ibn Zuheyr, hər yerdə Cənabi Peyğəmbərimizi axtarır, fürsət tapıb oxla vurmaq istəyirdi. Rəsulullahın yaxınlığına gəlib, yayını dartdı və sevgili Peyğəmbərimizin mübarək başını tuşlayaraq oxunu atdı. Bir göz qırpımı qədər zaman yoxdu. Həzrəti Təlhə əlini açaraq hədəf oldu. Ox, Həzrəti Təlhənin ovcuna batdı və əlini deşdi. Barmaqlarının bütün sinirləri kəsildi, əlinin sümükləri qırıldı. Olanları Fəxri aləm (səlləllahu əleyhi və

[215] Hakim, *əl-Müstədrək*, III, 426; Heysəmi, *Məcməuz-Zəvaid*, IX, 52.

səlləm) də görmüş və; "Əgər (məni qorumaq üçün əlini oxa uzadarkən) Bismillah deseydin, insanların gözü qabağında mələklər səni göylərə ucaldardı" buyurmuşdu.[216]

Məkkəli müşriklərdən Abdullah ibn Kamiə, Ubey ibn Xələf, Utbə ibn Əbi Vəqqas, Abdullah ibn Şihabı Zuhri adında dörd müşrik, Rəsuli əkrəmin həyatına son qoymaq üçün bir qərara gəlib and içmişdilər. Belə bir vaxtda Rəsulullah, yanında bir neçə səhabi olduğu halda düşmənlə amansızcasına mübarizə aparırdı. Cənabi Peyğəmbərimizin qabağında bayraqdar Mus'ab ibn Umeyr Həzrətləri vardı. Həzrəti Mus'ab, bədəninə geydiyi zirehindən sevgili Peyğəmbərimizə çox bənzəyirdi. O da sağ əlində İslam Bayrağı olduğu halda müşriklərlə amansız bir mübarizəyə girişmişdi. Bu əsnada başdan-ayağa zireh geymiş İbni Kamiə, atını ora sürdü. Səsi çıxdığı qədər; "Mənə Məhəmmədi göstərin. O xilas olarsa, mən xilas olmayım!" deyə qışqıraraq, Cənabi Peyğəmbərimizə tərəf atını səyirtdi. Həzrəti Mus'ab ilə Nəsibə Xatun qabağa çıxıb bədənlərini Cənabi Peyğəmbərimizə sipər edərək döyüşməyə başladılar. Bu kafirə nə qədər qılınc vurdularsa, zirehli olduğu üçün tə'sir etmədi. İbni Kamiə, Nəsibə Xatuna bir qılınc vuraraq çiynini yaraladı. Sonra Həzrəti Mus'abın bayraq tutan sağ əlinə qılıncını endirdi. Sağ əli kəsilən Mus'ab ibn Umeyr, canından üstün tutduğu mübarək İslam Bayrağını yerə düşürtmədən sol əlinə götürdü. O əsnada, Məhəmməd (əleyhissalam) Rəsuldur. Ondan əvvəl də Rəsullar gəlmişdir"[217] məalındakı ayəni oxuyurdu. İbni Kamiə, bu dəfə qılıncını Həzrəti Mus'abın sol əlinə endirdi. Sol əli də kəsilən şanlı bayraqdar, İslam Bayrağını yerə düşürtmürdü. Qəhrəman səhabi, bayrağı qolları ilə tutub bədəninə sıxaraq dalğalandırmağa davam etdi. İbni Kamiə, bu dəfə nizəsini şanlı səhabinin bədəninə batırdı. O da, digər dostları kimi şəhid olaraq axirətə köçdü.

Həzrəti Mus'ab yerə yıxılarkən, şanlı İslam Bayrağı yerə düşürdülməmiş, onu dərhal Mus'abın cildinə girən bir mələk götürmüşdü. Sevgili Peyğəmbərimiz; "İrəli ey Mus'ab! İrəli!" buyurduğunda, bayrağı tutan mələk; "Mən Mus'ab deyiləm" dedi. O

---

[216] Vaqidi, *əl-Məğazi*, I, 254; İbn Sə'd, *ət-Təbəqat*, III, 217; Beyhəqi, *əs-Sünən*, II, 220; Hakim, *əl-Müstədrək*, III, 416.
[217] Ali İmran 3/144.

zaman, Kainatın hökmdarı Rəsulullah onun mələk olduğunu başa düşüb, bayrağı Həzrəti Əliyə verdi.[218]

İbni Kamiə isə, Həzrəti Mus'abı Cənabi Peyğəmbərimiz zənn elədiyi üçün, özünü müşriklərə çatdırıb; "Məhəmmədi öldürdüm!" deyərək qışqırmağa başladı. Bunu eşidən müşriklər, hədəflərinə nail olmağın verdiyi həzz ilə daha da qudurdular. Hadisədən bixəbər olan Əshabi kiramın isə, əli ayağı tutmurdu. Ortalıqda matəm havası əsirdi. Həzrəti Ömərin belə ruhdan düşmüş, dostlarıyla birlikdə olduğu yerdə çöküb qalmışdılar. Ənəs ibn Nadr onları o halda görüncə; "Niyə oturursunuz?" deyə soruşdu.

Onlar da; "Rəsulullah şəhid edilmişdir!" deyə cavab verdilər. Həzrəti Ənəs də; "Rəsulullah şəhid edildisə, Onun Rəbbi (Allah Təala) baqidir (əbədidir). Rəsulullahdan sonra biz sağ qalıb nə edəcəyik?! Haydı qalxın! Peyğəmbərimizin döyüşərək mübarək canını fəda etdiyi şey üçün biz də canımızı fəda edək" dedi və qılıncının qınını qırıb; "Allahu əkbər!" sədalarıyla əlində yalın qılınc düşmənin içinə daldı. Kafirlərdən bir xeylisini qırdı və şəhid oldu. Təkcə üzündə yetmiş yara vardı. Bədənində saysız-hesabsız yara olduğu üçün, onu bacısından başqa heç kim tanıya bilməmişdi.

Əshabi kiramın çoxu dağılışmış, bir hissəsi də şəhid olmuşdu. Onların bu dağınıqlığından istifadə edən müşriklər, Rəsuli əkrəmin ətrafına toplanmışdılar. Daşla, qılıncla iki cahanın hökmdarını şəhid etməyə çalışırdılar. Əynində iki zirehi olduğu üçün, zərbələr tə'sir etmirdi. Utbə ibn Əbi Vəqqasın atdığı daşlar, sevgili Peyğəmbərimizin mübarək üzünə dəydi və alt dodağı yaralandı. Alt çənəsindəki mübarək sağ rəbaiyyə, yəni kəsici dişi qırıldı. O əsnada İbni Kamiə deyilən müşrik də gəldi və qılıncını Aləmlərin sahibinin mübarək başına vurdu. Sevgili Peyğəmbərimizin dəbilqəsi qırıldı, iki halqası da mübarək yanaqarına batdı. Yenə İbni Kamiənin vurduğu bir qılınc ilə mübarək çiynindən yaralandı və müsəlmanları tələyə salmaq üçün Əbu Amirin qazdığı dərin çuxura düşdü. Sevgili Peyğəmbərimiz, xain İbni Kamiə üçün; "Allah Təala səni zəlil və pərişan etsin!" deyə dua etdi. İbni Kamiə həddən çox sevinib; "Məhəmmədi öldürdüm! Məhəmmədi öldürdüm!" deyə qışqıraraq Əbu Süfyanın yanına getdi. Müşriklər hədəflərinə çatmışdılar! Artıq Peyğəmbərimizə baş qatmırdılar. Cənabi

---

[218] İbn Hişam, *əs-Sirə*, II, 73; Vaqidi, *əl-Məğazi*, I, 300; İbn Sə'd, *ət-Təbəqat*, II, 42; Beyhəqi, *Dəlailun-Nübüvvə*, III, 255; Suheyli, *ər-Rövzul-Unf*, III, 258; İbn Kəsir, *əs-Sirə*, III, 39.

Peyğəmbərimizin olduğu çuxurun ətrafından çəkilmişdilər. Əshabi kiram ilə döyüşməyə üz tutmuşdular.[219]

Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), çuxura düşdüyündə, mübarək yanaqlarından qan axırdı. Mübarək əllərini üzünə sürtüncə, əllərinin və saqqalı şərifinin qana boyandığını gördü. Bir damcı yerə düşmədən Cəbrayıl əleyhissalam özünü çatdırıb, o mübarək qanı tutdu və dedi ki; "Ey Həbibullah! Allah Təalanın haqqı üçün, əgər bu qandan bir damcı yerə düşsə, qiyamətə qədər yerdə ot bitməzdi". Fəxri aləm Rəsulullah da; "Əgər məndən bir damcı qan yerə düşərsə, göydən əzab nazil olar. Ya Rəbbi! Qövmümü bağışla! Çünki, onlar bilmirlər, buyuraraq onu öldürməyə təşəbbüs edən, mübarək bədəninə qılınc vurub, mübarək dişlərini sındıran və mübarək üzünü qana boyayan kəslərin hidayətə gəlməsi üçün dua edirdi.

Bu əsnada, Kə'b ibn Malik Həzrətləri; "Ey müsəlmanlar! Müjdə! Baxın Rəsulullah burdadır!" deyə uca səslə qışqırırdı. Bu səsi eşidən şanlı Əshab təzədən həyata gəlmiş kimi sevinclə ora qaçdılar. Həzrəti Əli ilə Təlhə ibn Ubeydullah dərhal ora gələrək Rəsulullahı çuxurdan çıxartdılar. Həzrəti Əbu Ubeydə ibn Cərrah, sevgili Peyğəmbərimizin mübarək yanaqlarına batan dəbilqəsinin halqalarını dişləriylə dartaraq çıxartdı. Bu dəmir qırıntılarını çıxardarkən qabaq dişlərindən ikisi də çıxdı. Əshabi kiramdan Malik ibn Sinan Həzrətləri, Rəsulullahın mübarək üzündən sızan qanı əmdi. Bundan sonra Cənabi Peyğəmbərimiz; "Qanım qanına qarışan kəsə Cəhənnəm odu toxunmaz" buyurdu.

Müşriklər, yenə üstlərinə gəlməyə başladılar. Əshabi kiram, Cənabi Peyğəmbərimizə təzədən qovuşmağın sevinci ilə bir anda Rəsulullahın ətrafında dövrə qurub heç bir müşrikə imkan vermədilər. Cənabi Peyğəmbərimizə artıq bir şey edə bilməyəcəklərini başa düşən müşriklər, dağın təpəsinə çıxmağa başladılar. İki cahanın hökmdarı, yanında olan Sə'd ibn Əbi Vəqqas Həzrətlərinə; "Onları dala qaytar" buyurdu. Həzrəti Sə'd; "Ey Rəsulallah! Yanımda təkcə bir oxum var. Bununla onları necə dala qaytarım?" deyə soruşunca, Rəsuli əkrəm, yenə eyni əmri verdi. Bundan sonra oxçuların oxçusu Sə'd ibn Əbi Vəqqas Həzrətləri oxunu atdı. Hədəfinə dəyən ox bir müşriki öldürdü. Əlini təzədən ox çantasına uzatdığında, yenə bir oxun da olduğunu gördü. Fikir verdi ki, bu ox, bir az əvvəlki ox idi. Bir müşrik də öldürdü. Bu minvalla bu

[219] İbn Hişam, *əs-Sirə*, II, 79; Suheyli, *ər-Rövzul-Unf*, III, 263; İbn Kəsir, *əs-Sırə*, III, 45.

vəziyyət dəfələrlə təkrarlandı. Sevgili Peyğəmbərimizin bir mö'cüzəsi olaraq, Həzrəti Sə'd, hər dəfə ox çantasında əvvəlcə atdığı oxu görmüşdü. Dalbadal adamlarının öldürüldüyünü görən Qureyşlilər, dağa çıxmaqdan əl çəkdilər. Aşağı düşüb dala çəkildilər.

Aralarından Ubeyy ibn Xələf, atını Cənabi Peyğəmbərimizə tərəf sürərək; "Hardadır o peyğəmbər olduğunu iddia edən adam? Qabağıma çıxsın və mənimlə döyüşsün!" deyə qışqırmağa başladı. Əshabi kiram, onu susdurmaq istədilərsə də, sevgili Peyğəmbərimiz icazə vermədi. Haris ibn Simmə Həzrətlərinin nizəsini götürüb irəli çıxdı. Alçaq Ubeyy atını səyirdib; "Ey Məhəmməd! Sən xilas olsan, mən xilas olmayım!" deyərək yaxınlaşdı. Başdan-ayağa zirehli idi. Aləmlərin sahibi, əlindəki nizəni Ubeyyin boynuna tuşladı. Nizə uçaraq, dəbilqəsi ilə zirehin yaxası arasından girib boynuna batdı. Ubeyy, dana kimi böyürərək atından yerə yıxıldı. Qabırğa sümükləri qırıldı. Müşriklər, onu qaldırıb apardılar. Yolda; "Məhəmməd məni öldürdü!" deyərək qışqıra-qışqıra can verdi.

Rəsulullah, yanındakı Əshabı ilə Ühüd qayalıqlarına tərəf çıxmağa başladılar. Qayaların yanına çatınca, yuxarı çıxmaq istədilər. Həddən artıq yorulduğu, üst-üstə iki zireh geydiyi və mübarək bədəninə yetmişdən artıq qılınc vurulduğu üçün taqəti kəsilmişdi. Bundan sonra Təlhə, Cənabi Peyğəmbərimizi belində daşıyaraq qayaların üstünə çıxartdı. Sevgili Peyğəmbərimiz; "Təlhə, Rəsulullaha kömək etdiyi zaman Cənnət ona vacib oldu" buyurdu. Heç macalları qalmadığından, zöhr namazını oturaraq əda etdi.

Dağın yamaclarında səhabilər, hər biri bir aslan kimi müşriklərə hücum edirdilər. Onlar Peyğəmbərimizə qılınc vuranlara dünyanı dar etmişdilər. Bu dəmdə Hatib ibn Bəltəa, sevgili Peyğəmbərimizin yanına gəldi və; "Canım sənə fəda olsun ey Rəsulallah! Sənə bunu kim etdi!" deyə soruşdu. Rəsulullah; "Utbə ibn Əbi Vəqqas mənə daş atıb üzümə vurdu və rəbaiyyə dişimi sındırdı" buyurunca, Həzrəti Hatib; "Ey Rəsulallah! O, hansı tərəfə getdi!" deyə soruşdu. Cənabi Peyğəmbərimiz işarə edərək, onun getdiyi tərəfi göstərdi. Həzrəti Hatib dərhal o tərəfə qaçdı. Axtara-axtara Utbəni tapdı. Atından yerə salıb, bir vuruşda başını kəsdi və Rəsulullahın hüzuruna gətirib müjdə verdi. Cənabi Peyğəmbərimiz də; "Allah Təala səndən razı olsun. Allah Təala səndən razı olsun" buyuraraq ona dua etdi.

Müşriklər, özünə gələn və təzədən hücuma keçən Əshabi kiramın qabağında dayana bilmədilər. Yetmiş itgi verərək, döyüş meydanını tərk edib Məkkəyə tərəf yola düşdülər. Cənabi Peyğəmbərimizin şəhid olduğu şayiəsi Mədinəyə çatmışdı. Həzrəti Fatimə, Həzrəti Aişə, Ümmü Süleym, Ümmü Eymən, Hamnə binti Cahş, Queybə kimi xanımlar Ühüdə gəldilər. Həzrəti Fatimə, atası Cənabi Peyğəmbərimizi yaralı görüncə ağladı. Rəsulullah, ona təsəlli verdi. Həzrəti Əli qalxanı ilə su gətirdi. Fatimə anamız, o su ilə Cənabi Peyğəmbərimizin mübarək üzünü və qanı yudu. Ancaq üzünün qanı heç cür dayanmırdı. Həzrəti Fatimə bir həsir parçasını yandırıb, külünü yaraya basdırınca, qan dayandı.[220]

Sonra döyüş meydanına gəldilər. Əvvəlcə yaralılar aydınlaşdırılaraq yaraları bağlandı. Müşriklər, bəzi şəhidləri tanınmaz hala gətirmişdilər. Qulaq, burun və digər üzvlərini kəsmiş, qarınlarını yırtmışdılar. Abdullah ibn Cahş Həzrətləri də bunlar arasında idi. Bu halı görən sevgili Peyğəmbərimiz və Əshabı çox üzüldülər. Ən seçgin səhabilər şəhadət şərbətini içmiş, Ühüd torpaqlarını qanlarıyla sulayaraq Cənnətə uçmuşdular. Ancaq şəhidlərə edilən bu davranış, çox qəddarcasına idi. Cənabi Peyğəmbərimizlə birlikdə bütün səhabilərin kədərdən qanları qaraydı. Bu mənzərə qarşısında Aləmlərin hökmdarı ağladı. Mübarək gözlərindən yaş axa-axa; “Mən, bu şəhidlərin, Allah Təalanın yolunda canlarını fəda etdiklərinə, qiyamət günü şahidlik edəcəyəm. Onları qanlarıyla basdırın. Vallahi, qiyamət günü məhşərə yaraları qanayaraq gələcəklər. qanlarının rəngi qan rəngi, iyləri da müşg iyi olacaqdır.” buyurdu.

Sevgili Peyğəmbərimiz; “Həmzəni görəmürəm. O, necə oldu?” buyurdu. Həzrəti Əli onu axtarıb tapdı. Peyğəmbərimiz ora gəlib ağla gəlməyən bir mənzərə ilə qarşılaşınca, dözə bilmədi. Həzrəti Həmzənin qulaqları, burnu və sair üzvləri kəsilmiş, üzü tanınmaz hala gətirilmiş, qarnı yırtılmış, ciyəri çıxardılmışdı. Cənabi Peyğəmbərimiz mübarək gözlərindən yaş axa-axa Həzrəti Həmzəyə üzünü tutub; “Ey Həmzə! Heç bir zaman, heç kim, sənin qədər müsibətə düçar olmamış və olmayacaqdır. Ey Rəsulullahın əmisi! Ey Allah Təalanın və Rəsulunun aslanı Həmzə! Ey xeyir əməllər görən Həmzə! Ey Rəsulullahı qoruyan Həmzə! Allah Təala sənə rəhmət etsin!” buyurdu.

---

[220] İbn Macə, “Tibb”, 15; Vaqidi, *əl-Məğazi*, I, 250; Beyhəqi, *əs-Sünən*, II, 80; Təbərani, *əl-Mu’cəmul-Kəbir*, VI, 144; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 180.

Bu əsnada, qabaqda həyəcan içində gələn bir qadın gözə dəydi. Bu, sevgili Peyğəmbərimizin xalası Həzrəti Safiyyə anamız idi. O da, digər xanımlar kimi, Rəsulullahın şəhid olduğu şayiəsini eşidincə, hər şeyi yaddan çıxardıb qaça-qaça Ühüdə gəlmişdi. Rəsuli əkrəm, xalasını görüncə şəhidlərin halına dözə bilməz düşüncəsiylə, oğlu Zübeyir ibn Əvvam Həzrətlərinə; "Ananı dala qaytar, qardaşının cəsədini görməsin" buyurdu. Həzrəti Zübeyir, qaçıb anasının yanına getdi. Mübarək Xatun həyəcanla; "Oğlum! Rəsulullahdan nə xəbər var?!" dedi. Yanlarına Həzrəti Əli də gəlmişdi. O; "Rəsulullah həmd olsun yaxşıdır" deyincə, rahat nəfəs aldı, ancaq; "Onu mənə göstərin" dedi. Həzrəti Əli, Aləmlərinin sahibini işarə edərək göstərdi. Həzrəti Safiyyə anamız, iki cahanın günəşini sağ görüncə, çox sevindi və Allah Təalaya həmd etdi. Bu dəfə, qardaşı Həzrəti Həmzənin halını görmək üçün irəli getmək istədi. Oğlu Zübeyir; "Anacan! Rəsulullah dala qayıtmağınızı əmr edir" deyincə, Həzrəti Safiyyə; "Əgər onu mənə göstərməmək üçün dala qayıdacağamsa, onsuz da mənim qardaşımın cəsədinin kəsilib-doğrandığından xəbərim var. O, bu hala Allah Təala yolunda düşmüşdür. Biz, bu yolda daha betərlərinə də razıyıq. Savabını Allah Təaladan gözləyəcəyik. İnşallah səbr edib dözəcəyik" dedi. Zübeyir ibn Əvvam Həzrətləri gəlib bunu xəbər verincə, Cənabi Peyğəmbərimiz; "Elə isə qoy görsün" buyurdu. Həzrəti Safiyyə, Həzrəti Həmzənin cəsədinin yanında oturdu və səssizcə ağladı.

Həzrəti Safiyyə gələrkən yanında iki yapıncı gətirmişdi. Onları çıxardıb; "Bunları qardaşım Həmzə üçün gətirdim, onunla sarıyın" dedi. Seyyiduş-şühəda, yəni şəhidlərin sahibi olan Həzrəti Həmzəni bu yapıncılardan biri ilə kəfənlədilər.[221]

Həbibullah bayraqdar Mus'ab ibn Umeyrin cəsədinin yanına gəldi. Həzrəti Mus'abın əlləri kəsilmiş, çox yerindən yaralanmışdı. Ətrafı qan gölünə çevrilmişdi. Cənabi Peyğəmbərimiz, burda da çox kədərləndi və bu əziz şəhidlərə xitabən, Əhzab surəsindən 23-cü ayəsini oxudu. Məalən; "Mö'minlərdən elə igidlər vardır ki, Onlar Allah Təalaya verdikləri sözdə sədaqət göstərdilər. Onlardan bəziləri şəhid oluncaya qədər döyüşəcəyinə dair verdiyi sözü yerinə yetirdi (şəhid oldu). Bəzisi də şəhid olmağı gözləyir. Onlar verdikləri sözü əsla dəyişdirmədilər" buyrulurdu. Cənabi Peyğəmbərimiz, bundan sonra da belə buyurdu; "Allah Təalanın Rəsulu də şahiddir ki, siz qiyamət günü Allah Təalanın hüzurunda şəhid olaraq həşr olunacaqsınız".

---

[221] İbn Əbi Şeybə, *əl-Musannəf*, VIII, 493; Əbdurrəzzaq, *əl-Musannəf*, III, 427; İbn Sə'd, *ət-Təbəqat*, III, 14.

Daha sonra yanındakılara üzünü tutub; "Bunları ziyarət edin. Onlara salam verin. Allah Təalaya and içirəm ki, kim bunlara bu dünyada salam verərsə, qiyamətdə bu əziz şəhidlər onlara salam verəcəklər".

Mus'ab ibn Umeyr Həzrətlərini kəfənləmək üçün bir şey tapa bilmədilər. Öz qaftanı mübarək bədənini tamamiylə örtmürdu. Baş tərəfinə örtsələr ayaqları, ayaq tərəfinə örtsələr başı açıqda qalırdı. Həbibi əkrəm; "Baş tərəfini qaftanıyla, ayaqlarını isə izhir[222] otu ilə örtün" buyurdu. Həyatını İslama xidmət etməklə keçirdən və bu yolda şəhidlik mərtəbəsinə qovuşan bu xoşbəxt səhabi, dünyadan yarım kəfən ilə köçdü.[223]

Digər şəhidlər də, namazları qılınaraq, qanlı paltarlarıyla iki-iki, üç-üç bir qəbrə qoyularaq dəfn edildilər (Allah onlardan razı olsun). Ühüd qəzvəsində yetmiş şəhid verilmişdi. Bunlardan altmış dördü Ənsardan, altısı Muhacirlərdən idi.

Əshabi kiramın çoxunun qohum-qardaşı şəhid olmuşdu. Bu səbəblə, qəlbləri yaralı idi. Qalanları təsəlli etmək üçün, Həbibi əkrəm (səlləllahu əleyhi və səlləm) buyurdu ki; "Vallahi, Əshabımla birlikdə mən də şəhid olub, Ühüd dağının qoynunda gecələməyi nə qədər də istəyərdim. Qardaşlarınız şəhid olduqları zaman, Allah Təala onların ruhlarını yaşıl quşların qursaqlarına qoydu. Onlar, Cənnətin çaylarına gələr, sularından içərlər, meyvələrindən yeyərlər. Cənnətin dörd bir bucağını seyr edərlər. Gülüstanlarında uçarlar. Daha sonra Ərşi ə'la altından asılan, qızıl lampaların içinə girib axşamı keçirdərlər. Onlar, belə yemək və içgilərin xoşluğunu, gözəlliyini görüncə; "Kaş ki, Allah Təalanın, bizə nələr ikram etdiyini qardaşlarımız bilsə idilər və cihaddan çəkinməsəydilər, döyüşməkdən qorxub, düşmənin qabağından qaçmasaydılar" deyərlər. Allah Təala da; "Mən sizin əhvalınızı onlara çatdırdım" buyurdu. (və ayə inzal edib məalən belə buyurdu); "Nə badə Allah Təalanın yolunda şəhid olanları ölü sayasınız! Doğrusu onlar, Rəbləri nəzdində diridirlər. Elə ki, Allah Təalanın onlara verdiyi, ehsan etdiyi şəhidlik mərtəbəsiylə hamısı da sevinərək, Cənnət ne'mətləriylə ruziləndirilirlər. Özlərindən sonra hələ ki, şəhid olmayanlar haqqında da; "Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər" deyə müjdə vermək istəyərlər. Onlar, Allah Təaladan gələn bir ne'mətlə, hətta daha çoxuyla sevinərlər. Allah Təalanın, mö'minlərə olan

---

222 Bölgədə bitən bir növ bitgi.

223 Buxari, "Cənaiz", 27; Əbu Davud, "Vəsaya", 11; İbn Əbi Şeybə, *əl-Musannəf*, III, 147; İbn Sə'd, *ət-Təbəqat*, III, 121; Suyuti, *Camiul-Əhadis*, XXXIV, 451.

mükafatını zay etməyəcəyi müjdəsiylə şad olarlar".[224] Allah Təala, onların gözünə görünüb; "Ey qullarım! Canınız nə istəyirsə deyin, sizə onu artıqlamasıyla daddırım" buyurar. Onlar da; "Ey Rəbbimiz! Sənin bizə ehsan etdiyin ne'mətlərdən daha üstün bir ne'mət yoxdur ki, onu istəyək. Biz, Cənnətdə istədiyimiz şeylərdən yeyib-içirik. Ancaq, biz təkcə ruhlarımızın cəsədlərimizə qayıdıb dünyaya qaytarılmağımızı və sənin yolunda döyüşərək təzədən öldürülməyimizi istəyərik" deyərlər".

Artıq burda olan olmuşdu. Cihad fi səbilillah, yəni Allah Təalanın dinini yaymaq üçün gəldikləri Ühüddə, tarixin tayı-bərabəri olmayan bir qəzvəsi baş vermişdi. Burada, Əshabi kiramın neçə-neçə qəhrəmanlıqlarına şahid olunmuş, kafirlərə bir dərs də verilmişdi.

Aləmlərin sahibi (səlləllahu əleyhi və səlləm), mübarək Əshabıyla nurlu Mədinəyə tərəf yola düşdülər. Harrə mövqeyinə gəldiklərində, Əshabını sıraya düzüb, mübarək əllərini qaldıraraq, Allah Təalaya yalvarmağa və belə dua etməyə başladı; "Allahım! Həmd və səna ən çox sənədır. Allahım! Sənin zəlalətə düşürtdüyünə hidayət verən, hidayət verdiyini də yoldan çıxardan yoxdur... Allahım! Bizə imanı sevdir. Qəlblərimizi iman ilə bəzə. Bizi, küfr, qudurğanlıq və ifrata nifrət elətdir. Din və dünyamıza zərərlı olan şeyləri bilənlərdən, doğru yolda gedənlərdən et. Allahım! Bizləri, müsəlman olaraq yaşat və müsəlman olaraq öldür. Bizi, salihlər və yaxşılar zümrəsindən et. Çünki, onlar nə şərəf və heysiyyətlərini itirənlərdir, nə də dinlərindən üz döndərənlərdir. Allahım! Sənin Rəsuluna yalançı deyənlər, sənin yolundan üz döndərən, Peyğəmbərinlə döyüşən kafirlərin də cəzalarını ver! Onlara haqq və həqiqət olan əzabını endir! Amin!" Əshabi kiram da, "Amin! Amin" deyərək bu duanı təkrarladılar.

Sevgili Peyğəmbərimiz, Əshabıyla Mədinəyə yaxınlaşmışdı. Mədinədə qalan qadınlar, uşaqlar yollara səpələnmiş, maraq və kədərlə, gələn ordunun içində Kainatın sahibini görməyə çalışırdılar. Onun, cahanı işıqlandıran nurlu üzünü görüncə, Allah Təalaya həmd edirdilər. Sonra, gözlər orduya baxır, atalar, sahiblər, oğullar, dayı və əmilər axtarılırdı. Görə bilməsələr göz yaşlarını tuta bilmirdilər. Əshabının bu kədərli halını görən mərhəmət dəryası Rəsuli əkrəm da, çox kədərlənir, mübarək gözlərindən yaş axıdırdı.

---

[224] Ali İmran 3/169-171.

Bu dəmdə, Sə'd ibn Muaz Həzrətlərinin anası Kəbşə xatunun Cənabi Peyğəmbərimizə yaxınlaşdığı görüldü. Ühüddə oğlu Əmr şəhid olmuşdu. Həzrəti Peyğəmbərin yanına gəldiyində; "Anam-atam, canım sənə fəda olsun ey Rəsulallah! Əlhəmdulillah ki, səni sağ-salamat gördüm. Sən sağ olduqdan sonra, bütün fəlakətlər mənim üçün heçdir!" dedi. Oğlunu heç soruşmadı belə. Sevgili Peyğəmbərimiz ona, oğlu Əmr üçün baş sağlığı verdikdən sonra; "Ey Sə'din anası! Sənə və onun ailəsinə müjdə olsun ki, onlardan şəhid düşənlərin hamısı da Cənnətdə toplaşdılar və bir-birilərinə dost oldular. Onlar, ailələrinə də şəfaət edəcəklər" buyurdu. Kəbşə xatun; "Allah Təaladan gələn hər şeyə razıyıq ey Rəsulallah! Bu müjdələrdən sonra artıq onlar üçün kim ağlayar ki! Siz, dalda qalanlar üçün dua edin" dedi. Aləmlərin sahibi də; "Allahım! Onların qəlblərindəki kədərləri yox et! Dalda qalanlarını da, dalda qalmışların ən xeyirlisi et!" deyə dua buyurdu.

Cənabi Peyğəmbərimiz Əshabına, cismani istəklərlə mübarizə aparmağı nəzərdə tutaraq; "(Ey Əshabım! İndi) kiçik cihaddan qayıtdıq, böyük cihada başlıyacağıq"[225] buyurdu. Sonra, hamının evlərinə gedib istirahət etməsini və yaralıların yaralarını müalicə etmələrini tövsiyə etdi. Özü də yaralı idi. Birbaşa evinə getdi.

## Həmraul-Əsəd səfəri

Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Mədinəyə qayıtdığında, müşriklərin hər an dala qayıdıb Mədinəyə hücum edə bilmə ehtimalı olduğundan tədbir almaq istədi. Ertəsi gün, yaralı olduğu halda, müsəlmanların dünənki döyüşdə zəifləmədiklərini göstərmək, düşmənə qulaqburması verərək Mədinəyə təzədən hücum etmələrinin qabağını almaq üçün, Bilal Həbəşiyə; "Rəsulullah, sizə düşməni tə'qib etməyi əmr edir! Dünən, Ühüddə bizimlə birlikdə döyüşməyənlər gəlməyəcək, təkcə döyüşdə iştirak edənlər gələcəklər, de!" buyurdu. O da, Əshaba bu əmri çatdırınca, çoxu yaralı olmasına baxmayaraq dərhal hazırlandılar. Hətta, ağır yaralı olan Abdullah ilə Rafi adlı qardaşlar, Rəsuli əkrəmin bu də'vətini eşidən kimi, bütün ağrı və sızıltılarına məhəl qoymayaraq, "Bəyəm biz Rəsulullah ilə qəzvəyə çıxmaq fürsətini qaçırdacağıq?!" deyərək, mücahidlərə qoşuldular.

---

[225] Suyuti, *Camiul-Əhadis*, XV, 139; XXXIV, 106.

Sevgili Peyğəmbərimiz, şanlı Əshabıyla müşrikləri tə'qib etməyə başladılar. Rəvha deyilən mövqedə, müşriklərin toplaşarak, Mədinəyə basqın etmək və müsəlmanları məhv etmək üçün bir qərara gəldiklərini öyrəndilər. Bu tədbirin də, Cənabi Peyğəmbərimizin bir mö'cüzəsi olduğu ortaya çıxdı.

Müşriklər, Rəsuli əkrəmin onların üstünə gəldiyini eşidincə, qorxaraq olduqları yeri tərk edib, Məkkəyə qayıtdılar.

Cənabi Peyğəmbərimiz, onları Həmraul Əsəd deyilən yerə qədər tə'qib etdilər. Müşriklərdən iki nəfər əsir götürüldü. Burda üç gün qaldılar, sonra Mədinəyə qayıtdılar.[226]

Allah Təala, Həmraul-Əsədə gedən bu şərəfli Əshabı, inzal etdiyi ayədə məalən belə mədh etdi; "Yaralandıqdan sonra, yenə Allah Təalanın və Peyğəmbərinin də'vətinə cavab verən və hələ də onlardan yaxşılıq edib pisliklərdən çəkinənlər üçün, çox böyük bir mükafat vardır".[227]

Ühüddə, sevgili Peyğəmbərimizi öldürməyə and içənlərdən İbn Kamiə, Məkkəyə qayıtdığında, bir gün qoyunlarına baxmaq üçün dağa çıxmışdı. Dağın təpəsində qoyunlarını tapdı. Sürünün içindən bir qoç, sür'ətlə qaçaraq İbni Kamiəni buynuzlamağa başladı. Vura-vura İbn Kamiəni öldürdü.

Abdullah Şihabi Zührini də, Məkkəyə gedərkən ağ zolaqlı bir ilan vuraraq öldürdü. Cənabi Peyğəmbərimizin canına qəsd edənlərin hamısı bir il içində cəzalarını çəkib öldülər.

## Rəci vaqiəsi

Ühüd qəzvəsinin sərrast oxçularından Asim ibn Sabit Həzrətləri, bu qəzvədə müşriklərdən Musaf ibn Təlhə ilə qardaşı Harisi öldürmüşdü. Anaları çox kinli olması ilə məşhur olan Sulafə binti Sə'd, oğullarının ikisini də öldürən Asim ibn Sabit Həzrətlərinin başını gətirənə yüz dəvə verəcəyini və'd etmişdi. Həzrəti Asimin kəlləsində şərab içməyə and içmişdi. Bununla birlikdə, Rəsulullahın göndərdiyi bir səriyyədə, Abdullah ibn Uneysin, Lihyan oğullarından Xalid ibn Süfyanı öldürməsi səbəbiylə, Lihyan oğulları Adəl və Qarə qəbilələriylə ittifaq qurdu.

---

[226] Vaqidi, *əl-Məğazi*, I, 4; İbn Sə'd, *ət-Təbəqat*, II, 48; Suheyli, *ər-Rövzul-Unf*, III, 289.
[227] Ali İmran 3/172.

Mədinə həndəvərində yerləşən bu iki qəbilə bir plan qurub, elçilər hazırladılar. Onlara; "Müsəlman olduğunuzu söyləyərsiniz. Verdiyimiz zəkatı almaq və bizə İslamı öyrətmək üçün müəllim istəyirik" deyərsiniz. Gələnlərin bir hissəsini öldürər, beləcə hayıfımızı çıxarıq. Bir hissəsini də Məkkəyə aparıb Qureyşə satarıq" dedilər.

Hicrətin dördüncü ilinin Səfər ayında, bu iki qəbilədən altı veya yeddi nəfərlik bir hey'ət, Cənabi Peyğəmbərimizin yanına gələrək; "Müsəlman olduq, bizə Qur'ani Kərimi və dini öyrədən müəllimlər göndər" dedilər. Bu əsnada sevgili Peyğəmbərimiz, Məkkəli müşriklərin döyüşə hazırlaşdıqları haqqında məlumat almaq üçün on nəfərdən ibarət bir səriyyə hazırlamışdı. Adəl və Qarə qəbiləsindən də belə bir hey'ətin gəlib müəllim istəməsindən sonra, vəziyyəti öyrənib, xəbər vermək üçün bu on nəfərlik kəşfiyyat bölüyünü gələnlərlə birlikdə göndərdi. Əshabi kiramdan ibarət olan bu səriyyədə Mərsəd ibn Əbi Mərsəd, Xalid ibn Əbi Bukeyr, Asim ibn Sabit, Hubeyb ibn Ədəy, Zeyd ibn Dəsinnə, Abdullah ibn Tariq, Muattib (Muğir) ibn Ubeyd və adları məlum olmayan üç səhabi də var idi.

Bu kəşfiyyat bölüyü, gündüzləri gizlənib, gecələri yol gedərək bir səhər vaxtında Rəci suyunun başına gəldilər. Orada bir müddət istirahət edib, Əcvə deyilən yaxşı cins Mədinə xurmasından yedilər. Sonra oradan ayrılaraq, yaxınlarındakı bir dağa çıxıb gizləndilər. Huzeyl qəbiləsindən qoyun güdən bir qadın da Rəci suyunun başına gəlmişdi. Xurma çəyirdəklərini görüb, Mədinə xurması yeyildiyini başa düşdü. "Bura Mədinədən gələnlər olub" deyə qışqıraraq qəbiləsinə xəbər verdi. Bu əsnada Əshabi kiramdan bu on nəfərlik səriyyənin yanında olan Adəl və Qarə qəbiləsinin hey'ətindən biri, bir bəhanə edib yanlarından ayrıldı. Dərhal Lihyan oğullarına gedib, xəbər verdi.

Lihyan oğulları bu xəbərdən sonra hərəkətə keçdilər. Yüzü oxçu, hamısı birlikdə iki yüz nəfərlik bir dəstə, bu kiçik səriyyənin üstünə göndərildi. Gələn bu müşrik sürüsü, Həzrəti Asim ibn Sabit və dostlarını dağın təpəsində taparaq mühasirəyə aldı. Bu dəmdə, bu on səhabini sataraq müşriklərə çatdıran adam da onlara qoşuldu. Əshabi kiram, o əsnada aldadıldıqlarını başa düşdülər və döyüşmək qərarına gəldilər. Bunu görən müşriklər, onları tovlatmağa çalışıb; "Əgər yanımıza gəlsəniz, heç birinizi öldürməyəcəyik. Qət'i söz veririk. Vallahi, sizləri öldürmək istəmirik. Ancaq sizin üstünüzdən Məkkəlilərdən fidyə almaq istəyirik" dedilər.

Asim ibn Sabit, Mərsəd ibn Əbi Mərsəd və Xalid ibn Əbi Bukeyr; "Müşriklərin verdikləri sözlərini heç bir zaman qəbul etmərik" deyərək bütün təkliflərini rədd etdilər.

Asim ibn Sabit Həzrətləri; "Heç bir zaman müşriklərin himayəsini qəbul etməməyə and içdim. Vallahi, onların himayəsinə və sözlərinə aldanaraq aşağı düşüb təslim olmaram" dedi. Əllərini açdı və; "Allahım! Peyğəmbərini vəziyyətimizdən xəbərdar et" deyərək dua etdi. Allah Təala, Həzrəti Asimin duasını qəbul etdi və Rəsulullahı onlardan xəbərdar etdi.

Həzrəti Asim müşriklərə; "Biz ölməkdən qorxmarıq. Çünki, dinimizdə bəsirətliyiz (ölüncə şəhid olar, Cənnətə gedərik)" buyurdu. Müşriklərin rəisi; "Ey Asim! Özünü və dostlarına yazığın gəlsin, təslim ol!" deyincə, Asim ibn Sabit ona oxla cavab verdi. Ox atarkən;

*"Mən güclüyəm heç əksiyim yox.*
*Yayımın qalın teli gərilmişdir.*
*Ölüm haqq, həyat boş və keçicidir.*
*Müqəddəratın hamısı başa gəlicidir.*
*İnsanlar ər-gec Allaha rucu edicidir.*
*Əgər mən sizinlə döyüşməsəm;*
*Anam, (kədərindən) ağlını itirər".*

misralarını oxuyordu. Asimın ox qabında yeddi ox vardı. Atdığı hər ox ilə bir müşriki öldürdü. Oxu qurtarınca, bir neçəsini də nizəsiylə dəlik-deşik etdi. Ancaq nizəsi də qırıldı. Dərhal qılıncını sıyırdı, qınını sındırıb atdı. (Bu, ölüncəyə qədər döyüşəcəyi, təslim olmayacağı mənasına gəlirdi). Sonra da; "Ey Allahım! Mən bu günə qədər sənin dinini qorudum. Səndən, bu günün axırında mənim bədənimi qoruyub, hifz etməyini niyaz edirəm" deyə dua etdi. Həzrəti Asim ibn Sabitin və digər səhabilərin; "Allahu əkbər!" sədaları dağları lərzəyə gətirirdi. İki yüz nəfərə qarşı on mücahid qəhrəmancasına döyüşür, yanlarına yaxınlaşanlara da layiqli cavablarını verirdilər. Asim (Allah ondan razı olsun) ən axırda iki ayağından da yaralanıb yerə yıxıldı. Kafirlər, ondan çox qorxduqları üçün, yerə yıxılandan sonra da yanına yaxınlaşa bilmədilər və uzaqdan ox ataraq şəhid etdilər. O gün ordakı on səhabidən yeddisi şəhid, üçü də əsir götürüldü.

Lihyan oğulları, Sulafə binti Sə'də satmaq üçün, Asim ibn Sabitin mübarək başını kəsmək istədilər. Ancaq Allah Təala, Həzrəti Asim ibn Sabitin duasını qəbul etdiyi üçün, bir arı sürüsü göndərdi. Bulut kimi Asim ibn Sabitin üzərində dayandılar. Müşriklər yanına yaxınlaşa bilmədi. Axırda; "Əl çəkin, axşam olunca arılar gedər, biz də başını kəsib apararıq" dedilər.

Axşam üstü Allah Təala leysan yağdırdı. Dərələrdən sel axdı və Asim ibn Sabit Həzrətlərinin mübarək cəsədini götürüb, naməlum bir yerə apardı. Nə qədər axtarsalar da tapa bilmədilər. Bunun üçün müşriklər, Asim ibn Sabit Həzrətlərinin heç bir yerini kəsməyə imkan tapa bilmədilər. Arıların, Həzrəti Asimi qoruduqları hadisəsi nəql edildiyi zaman, Həzrəti Ömər; "Allah Təala əlbəttə mö'min qulunu qoruyar. Asim ibn Sabit, sağlığında müşriklərdən necə qorundu isə, Allah Təala da ölümündən sonra cəsədini qoruyub, müşriklərin toxunmasına imkan vermədi" buyurdu. Bunun üçün Asim ibn Sabit yad edilərkən; "Arıların qoruduğu kimsə" deyə yad edilərdi.[228]

Lihyan oğulları, başda Asim ibn Sabit olmaqla yeddi səhabəni şəhid etdilər. Üç səhabəni də əsir etdilər. Əsir düşən üç səhabi, Hubeyb ibn Ədəy, Zeyd ibn Dəsinnə və Abdullah ibn Tariq idi. Lihyan oğulları, üçünü də yayların kirişləri ilə bağladılar. Aralarından Abdullah ibn Tariq, Məkkəli müşriklərə aparılmağa razı olmadı. Getməmək üçün müqavimət göstərdi. "Şəhid edilən dostlarım Cənnətlə şərəfləndilər" deyərək qışqırdı. Əllərinin ipini qırdı, ancaq Lihyan oğulları, daşa basaraq onu da şəhid etdilər. Hubeyb ibn Ədəy və Zeyd ibn Dəsinnə Həzrətləri; "Rəsulullahın verdiyi kəşfiyyat vəzifəsini yerinə yetirməyə bəlkə imkan tapa bilərik" düşüncəsi ilə səbr etdilər.

Lihyan oğulları, hər ikisini də Məkkəyə apardılar. Bədir və Ühüd döyüşlərində yaxınları öldürülən müşriklər, kin və intiqam atəşiylə od tutub yanırdılar və fürsət axtarırdılar. Hubeybi, müşriklərdən Huceyr ibn Əbi İhabi Təmimi, Bədir döyüşündə öldürülən qardaşının, Zeyd ibn Dəsinnəni də, Səfvan ibn Umeyyə, Bədir döyüşündə öldürülən atası Umeyyə ibn Xələfin intiqamını almaq üçün pulla aldılar. Müşriklərin niyyəti hər ikisini də öldürmək idi. Ancaq, doyüşməyi qadağan saydıqları aylar olduğu üçün, həbs edərək zamanın keçməsini gözlədilər. Ayrı-ayrı yerlərdə həbs etdilər. Hər iki səhabi də bu əsarət qarşısında böyük bir səbr, taqət və əsalət göstərdilər.

---

[228] Buxari, "Məğazi" 28; Vaqidi, *əl-Məğazi*, I, 354; Əbdurrəzzaq, *əl-Musannəf*, V, 354; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, IV, 221; Safədi, *əl-Vafi*, IV, 357.

Hubeyb ibn Ədəyin həbs edildiyi evdə azadlı bir cariyə olan Maviyə (bu xanım, daha sonra müsəlman olmuşdur) belə nəql etmişdir ki; "Hubeyb, mənim qaldığım evdə bir otaqda həbs edilmişdi. Mən, ondan daha xeyirlı bir əsir görmədim. Bir gün baxdım, əlində səhəng kimi böyük bir üzüm salxımı vardı. Ondan yeyirdi. Hər gün belə üzüm salxımı əlində görülürdü. O mövsümdə, həm də Məkkədə üzüm tapmaq əsla mümkün deyildi. Allah Təala ona ruzi verirdi. Həbs olunduğu otaqda namaz qılar, Qur'ani Kərim oxuyardı. Oxuduğu Qur'ani Kərimi eşidən qadınlar ağlaşar və ona yazıqları gələrdi. Bəzən; "Bir istəyin var?" deyə soruşduğumda; "Mənə şirin su ver, bütlər üçün kəsilən heyvanların ətindən gətirmə. Bir də, məni öldürəcəkləri zaman qabaqcadan xəbər ver, başqa bir şey istəmirəm" deyərdi. Öldürüləcəyi gün dəqiqləşdirilincə, gedib ona çatdırdım. Bunu öyrənincə, az da olsa dəyişiklik və zərrə qədər kədər əlaməti görsənmədi. O gün yaxınlaşınca, ölmədən əvvəl bədənini təmizləmək istədiyini söylədi və bir ülgüc istədi. Mən də uşağımın əlinə bir ülgüc verib göndərdim. Uşaq yanına gidincə birdən qorxdum. "Eyvah! Bu adam, uşağı ülgüclə kəsər. O, nə təhər olmasa öldürüləcək" dedim. Qaçaraq gedib uşağa baxdım.

Hubeyb, göndərdiyim ülgücü uşağın əlindən alıb, uşağa nəvaziş göstərmək üçün dizinin üstündə oturtmuşdu. Mən bu halı görüncə çox qorxub, fəryad etməyə başladım. Vəziyyəti başa düşüncə; "Bu uşağı öldürəcəyəmi zənn edirsən? Bizim dinimizdə belə şey yoxdur. Haqsız yerə cana qəsd etmək bizim hal və şanımızdan deyildir" dedi.

Hubeyb ibn Ədəyi və Zeyd ibn Dəsinnəni öldürmək üçün müşriklərin qərara aldıqlar gün gəlib çatmışdı. O gün sabah tezdəndən zincirlərini açıb, Məkkə kənarında Təmim deyilən yerə apardılar. Məkkə xalqı və müşriklərin başda gələnləri, bunların edam edilməsini seyr etmək üçün toplanmışdı. Ətrafda böyük bir qələbəlik vardı.

Müşriklər, əsirləri edam edəcəkləri yerdə iki dar ağacı qurmuşdular. Hubeybi dar ağacına qaldırıb bağlamaq istədikləri əsnada; "Mənə imkan verin iki rük'ət namaz qılım" dedi. Ona; "Orda qıl" dedilər. Hubeyb, dərhal namaz qılamq üçün durub, xuşu ilə iki rük'ət namaz qıldı. Toplaşan müşriklər, qadınlar, uşaqlar həyəcanla onu seyr edirdilər. Namazını qurtardıqdan sonra; "Vallahi, əgər ölümdən qorxaraq namazı uzatdığımı zənn eləməsəydiniz, namazı uzadardım və daha çox qılardım" dedi. Belə edam edilərkən iki rük'ət namazı ilk dəfə qılan, adət və sünnət olmasına səbəb olan Həzrəti Hubeyb ibn Ədəydir. Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), onun

edam edilərkən iki rük'ət namaz qıldığını eşidincə, bu hərəkətini yerində və münasib görmüşdü.[229]

Namazını qıldıqdan sonra, Hubeybi dar ağacına çixardaraq bağladılar. Üzünü, qiblədən Mədinəyə tərəf döndərdilər. Sonra; "Haydı dinindən dön! Səni azad edək" dedilər. Belə cavab verdi ki; "Vallahi, dönmərəm! Bütün dünya mənim olsa, mənə verilsə, yenə İslamiyyətdən dönmərəm!" Bu cavabı alan müşriklər; "İndi sənin yerinə Məhəmmədin olmasını, onun öldürülməsini istəyərdin? Bəli desən, xilas olar, evində rahat oturarsan!" dedilər. Hubeyb; "Mən, Məhəmməd əleyhissalamın ayağına bir tikanın batmasına belə əsla razı olmaram!" dedi. Müşriklər istehza edib, gülüşərək; "Ey Hubeyb! İslam dinindən dön! Əgər dönməsən, səni şübhəsiz öldürəcəyik!" dedilər. Hubeyb; "Allah Təala yolunda olduqdan sonra, mənim üçün öldürülməyin heç əhəmiyyəti yoxdur" deyə cavab verdi.

Bundan sonra Hubeyb; "Allahım! Burda düşmən üzündən başqa üz görmürəm. Allahım! Məndən Rəsuluna salam çatdır. Bizə edilən bu işi Rəsuluna xəbər ver!" deyərək dua etdi və; "Əssalamu əleykə ya Rəsulallah" dedi. Hubeyb bu duanı etdiyi əsnada, sevgili Peyğəmbərimiz, Əshabi kiramla otururdu. Zeyd ibn Harisə belə nəql etmişdir ki; "Bir gün Rəsulullah, Əshabıyla oturarkən; "və əleyhissalam" dedi. Əshabi kiram; "Ya Rəsulallah! Kimin salamını aldın ki?" dedilər. "Qardaşımız Hubeybin salamını aldım. Cəbrayıl (əleyhissalam) Hubeybin salamını mənə çatdırdı" buyurdu.[230]

Hubeybin ətrafında toplaşan Qureyş müşrikləri; "Bax, atalarınızı öldürən bu adamdır" deyərək gənclərin nizələrlə ona hücum etməsi üçün qızışdırdılar və mübarək bədənini yaralamağa başladılar. Bu əsnada, Hubeybin üzü Kə'bəyə tərəf çevrildi. Müşriklər, Mədinəyə tərəf çevirdilər. Hubeyb; "Allahım! Əgər mən sənin nəzdində məqbul bir qul isəm, üzümü qibləyə çevir" deyərək dua etdi. Üzü təzədən qibləyə çevrildi. Müşriklərdən heç biri, onun üzünü Kə'bədən başqa bir tərəfə çevirə bilmədi. Bu əsnada Hubeyb, dar ağacındaykən, düşmənin içində amansızcasına şəhid edilməkdə olduğunu dilə gətirən bir şe'r dedi. Müşriklər, əllərindəki nizələri bədəninə batıraraq, işgəncə etməyə başlayınca; "Vallahi, mən müsəlman olaraq öldürüləndən sonra,

---

[229] Buxari, "Məğazi" 28; Vaqidi, *əl-Məğazi*, I, 354; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, IV, 221; Safədi, *əl-Vafi*, IV, 357.

[230] Təbərani, *əl-Mu'cəmul-Kəbir*, IV, 221; Əbu Nuaym, *Hilyətul-Övliya*, I, 159; İbn Əbdilbər, *əl-İstiab*, II, 28.

vurulub, hansı tərəfə düşsəm də qəm yemərəm! Bunların hamısı Allah Təalanın yolundadır” dedi.

Hubeyb, bundan sonra müşriklərə belə bəd dua etdi; “Allahım! Qureyş müşriklərinin hamısını məhv et! Camaatlarını dağıt! Bir-bir canlarını al, onları sağ qoyma!” Müşriklər bu bədduanı eşidincə çox qorxub, bir hissəsi ordan qaçıb uzaqlaşdılar. Qalanlardan bir hissəsi nizələrini dalbadal atmağa başladılar. Aralarından biri nizəsini sinəsinə batırdı, nizə kürəyindən çıxdı. Hubeyb, bədənindən qan fışqırarkən və dar ağacından sallanaraq son nəfəsini verərkən; “Əşhədu ənla ilahə illallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsuluh” deyərək şəhid oldu.[231]

Hubeyb ibn Ədəyin cənazəsi qırx gün dar ağacında asılı qaldı. Bədəni çürüyüb iylənmədi. Dayanmadan təzə qan axdı. Sevgili Peyğəmbərimiz, onun cənazəsini gətirmək üçün Əshabi kiramdan Zübeyir ibn Əvvam və Miqdad ibn Əsvədi göndərdi. Gecə, gizlicə Məkkəyə girdilər. Hubeybi asıldığı dar ağacından düşürdüb, dəvəyə yükləyərək Mədinəyə tərəf yola düşdülər. Məsələdən agah olan müşriklər, böyük bir qələbəlik halında onlara hücum etdilər. Hər iki səhabi özlərini müdafiə etmək üçün, cənazəni yerə qoydular. Bir az sonra cənazəni qoyduqları yerin yarılaraq cəsədi udub, sonra da örtüldüyünü gördülər və Mədinənin yolunu tutdular.

Zeyd ibn Dəsinnəni də basdırdıqları ağaca bağladılar. Dinindən döndərmək üçün məcbur etdilər. Ancaq, Zeydin imanını qüvvətləndirməkdən başqa bir şey əldə edə bilmədilər. Bundan sonra Zeydi oxa tutdular. Axırda Səfvan ibn Umeyyənin azadlı köləsi Nistas tərəfindən şəhid edildi.

## Bi’ri Məunə vaqiəsı

Eyni ilin Səfər ayında, Ərəbistanın Nəcd bölgəsində Amir oğullarının rəisi Əbu Bəra Amir ibn Malik Mədinəyə gəldi. Rəsuli əkrəmi (səlləllahu əleyhi və səlləm) ziyarət etdi. Cənabi Peyğəmbərimiz də ona İslamiyyəti başa salıb, müsəlman olmasını tövsiyə etdi. Əbu Bəra müsəlman olmadı, ancaq İslamın gözəl və şərəfli bir din olduğunu bildirdi. Ayrıca, Nəcddə İslamın yayılması üçün Əshabi kiramdan bir neçə nəfəri ora göndərməsini istədi. Sevgili Peyğəmbərimiz; “Göndərəcəyim adamlar

[231] Əbdurrəzzaq, *əl-Musannəf*, V, 354; Təbərani, *əl-Mu’cəmul-Kəbir*, IV, 221.

haqqında Nəcd xalqına e'tibar etmirəm!" buyurdu. Amir; "Onları mən himayəmə götürürəm. O zaman onlara heç kim zərər verə bilməz" dedi.

Aləmlərin sahibi bu adamın sözünü qəbul edib, Əshabi Suffədən yetmiş nəfərlik bir hey'ət hazırladı və Munzir ibn Əmr Həzrətlərinin başçılığında yola saldı.

Öz qəbiləsinin İslamiyyətlə şərəflənməsini istəyən Əbu Bəra, Əshabi Suffədən əvvəl yola çıxıb qəbiləsinin yanına gələrək hey'əti himayəsinə götürdüyünü, onlara heç kimin toxunmamasını tapşırdı. Bacısı oğlu Amir ibn Tufeyldən başqa hamısı onlara toxunmamağı qəbul etdi. Əbu Bəranın bacısı oğlu Amir ibn Tufeyl, üç qəbilənin adamlarını silahlandıraraq başına keçdi və Bi'ri Məunəyə gələn Əshabi kiramı mühasirə etdi. Dörd tərəfi əhatə edilən səhabilər, qılınclarına sarılıb, birindən başqa hamısı da səhid oluncaya qədər qəhrəmancasına doyüşdülər.

Bu mübarək Əshabın son sözləri; "Ya Rəbbi! Bu vəziyyətimizi Rəsulullaha təkcə Sən xəbər verərsən. Ona salamımızı çatdır!" dedilər. O anda Cəbrayıl əleyhissalam çox kədərli bir halda, Cənabi Peyğəmbərimizin yanına gəlib, salamlarını çatdırdı və; "Onlar, Allah Təalaya qovuşdular. Allah Təala onlardan razı oldu, onlar da Allah Təaladan razı oldu" dedi. Sevgili Peyğəmbərimiz də; "Əleyhimussalam" deyə cavab verdikdən sonra, çox kədərlənərək Əshabi kirama üzünü tutub; "Qardaşlarınız müşriklərə rast gəldilər. Müşriklər onları kəsib-doğradılar, nizələrlə dəlik-deşik etdilər" buyuraraq vəziyyətdən xəbər verdi.

Bu hadisədə düşmənlə döyüşərkən, Amir ibn Fuheyrə Həzrətlərinin kürəyinə Cabbar adlı biri nizəsini batırmışdı; O əsnada Həzrəti Amir; "Vallahi, Cənnəti qazandım!" demiş, Cabbarın və digər müşriklərin gözlərinin qabağında göyə yüksəlmişdi. Bu hala hamı heyrət etmiş, ancaq aralarından təkcə onu şəhid edən Cabbar müsəlman olmuşdu.

Cənabi Peyğəmbərimiz, Rəci və Bi'ri Məunə hadisələrinə çox kədərləndi. Bu kədərli hadisəni törədən qəbilələrə, bəla üçün bir ay hər namazdan sonra bəddua etdi. Allah Təala, Rəsulunun duasını qəbul etdi. O qəbilələrə qorxunc bir quraqlıq və qıtlıq verdi. Sonra yolxucu bir xəstəliklə yeddi yüz nəfər öldü.[232]

---

[232] Buxarə, "Məğazə", 28; Müslim, "İmarə", 147; İbn Hişam, *əs-Sərə*, II, 183; Vaqıdi, *əl-Məğazi*, I, 346-352; İbn Sə'd, *ət-Təbəqat*, II, 51-54.

## Bəni Nadir yəhudiləri

Ühüd qəzvəsindan sonra, hicrətin dördüncü ilində, Nadir oğulları adındakı yəhudi qəbiləsi, sevgili Peyğəmbərimizə suiqəsd hazırladılar. Bunu, Cəbrail əleyhissalam Cənabi Peyğəmbərimizə xəbər verdi, beləcə suiqəsd nəticəsiz qaldı. Bundan sonra Aləmlərin sahibi, razılaşmanı pozan bu yəhudi qəbiləsinə, Məhəmməd ibn Məsləməni göndərdi və; "Nadir oğılları yəhudilərinin yanına get! Onlara Rəsulullah məni sizə; "El-obamızdan çıxıb gedin! Burda mənimlə birlikdə yaşamayın! Siz, mənə bir suiqəsd planı hazırladınız. Sizə on gün möhlət verirəm. Bu müddətdən sonra, buralarda sizdən kim görülərsə boynu vurulacaq" əmrini çatdırmaq üçün göndərdi de!" buyurdu.

Məhəmməd ibn Məsləmə Həzrətləri bu əmri çatdırınca, qorxularından yol hazırlığına başladılar. Ancaq, münafiqlərin başçısı Abdullah ibn Ubeyy, onlara; "Nə badə qalanızdan çıxasınız. Mallarınızı və el-obanızı tərk edib getməyin. Adamlarımdan iki min nəfərlə sizə köməyə gələrik" deyərək xəbər göndərdi. Bundan sonra Kainatın hökmdarı Rəsulullah, Əshabi kiramıyla Mədinəyə dörd km. uzaqlıqda yerləşən Nadir oğulları qalasına hücum etdilər. Bayrağı Həzrəti Əli daşıyırdı. Qala mühasirə edildi. Daha əvvəl Əshabi kirama meydan oxuyan yəhudilər, qaladən çıxmağa cəsarət edə bilmədilər. Münafiqlərin köməyi də gəlib çatmadı. Əshabi kiram, qalanı nəzarətdə saxlayıb quş uçurtmurdu. İyirmi gündən artıq davam edən mühasirənin axırında yəhudilər təslim oldular. Bütün silahlarını, qızıl və gümüşlərini müsəlmanlara verərək bir hissəsi Şama, bir hissəsi də Xeybərə sürgün edildi. Beləcə, Mədinədə yəhudilərdən təkcə Qureyza oğulları qaldı.[233]

## Fatimə Binti Əsədin vəfatı

İçgi içməyin haram olduğunu bildirən ayə də, hicrətin dördüncü ilində inzal edildi.[234] Ühüd qəzvəsinda yaralanıb, sonra da vəfat edən Həzrəti Ümmü Sələmənin ərindən bir neçə uşağı yetim qalmışdı. Ümmü Sələmə anamız, yaşlı halyla çətin

[233] Vaqidi, *əl-Məğazi*, I, 441; Suheyli, *ər-Rövzul-Unf*, III, 386.
[234] İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 221; Əhməd Şami, *Sübülül-Huda*, XXII, 59.

vəziyyətdə qalmışdı. Sevgili Peyğəmbərimiz, onun halına yanıb mərhəmət edərək, onu özünə nikahlamaqla şərəfləndirdi.[235]

Həmçinin bu ildə Zaturriqa qəzvəsi təşkil edilərək, ətrafdakı müşrik qəbilələr yola gətirildi.[236]

Həzrəti Osmanın, Cənabi Peyğəmbərimizin qızı Həzrəti Ruqiyyədən olan altı yaşındakı oğlu Abdullah vəfat etdi. Aləmlərin sahibi, nəvəsinin namazını qıldırdı və bilavasitə özü qəbrə qoydu. Çox kədərlənmişdi, mübarək göz yaşları qəbrə töküldü. Qəbir daşını mübarək əlləriylə qoydu və; "Allahu Təala, qullarından mərhəmətli və ürəyi yumuşaq olanlara rəhmət edər" buyurdu.[237]

Həzrəti Əlinin anası Fatimə binti Əsəd də bu ildə vəfat etdi.[238] Buna, sevgili Peyğəmbərimiz çox üzülüb; "Bu gün anam vəfat etdi!" buyurdu. Sevgili Peyğəmbərimiz, babası Əbdülmüttəlibin vəfatından sonra, onun yanında böyümüşdü. Peyğəmbərliyini e'lan etdiyində isə, dərhal müsəlman olmaqla şərəflənmişdi. Bu səbəblə, Kainatın hökmdarı onu ana kimi görər, çox hörmət edərdi. Ona olan mərhəmətindən, əynindəki mübarək köynəyini çıxardıb kəfən olaraq sarılmağını əmr etdi. Meyyit namazını qıldırdıqdan sonra, yetmiş min mələyin namazda hazır olduğunu bildirdi. Qəbrə qədər gedib içinə girdi. Qəbir həyatının rahat və xoş olması üçün, qəbrin künclərinə tərəf, sanki genişləndirir kimi işarə etdikdən sonra qəbrə uzandı.

Qəbirdən çıxdığında, mübarək gözləri yaşla dolmuş və mübarək göz yaşları qəbrə tökülmüşdü. Aman ya Rəbbi! Bu nə mərhəmətdi? və bu nə qədər bəxtəvər bir xanım idi? Həzrəti Ömər belə özünü saxlaya bilməmiş; "Canım sənə fəda olsun ey Rəsulallah! Heç birinə etmədiyinizi bu xanım üçün etdiniz!" deyə sual verincə, vəfalıların ən vəfalısı olan sevgili Peyğəmbərimiz; "Əbu Talıbdan sonra bu xanım qədər mənə yaxşılığı dəyən heç kim olmamışdır. O mənim anamdı. Öz uşaqları ac qalarkən ən əvvəl mənim qarnımı doyuzdrurdu. Öz uşaqlarının üst-başları toz-torpaqlı ikən, o, ən əvvəl mənim saçımı darayar və gül yağları ilə yağladardı. O, mənim anamdı! Ona, Cənnət paltarlarından geyindirilməsi üçün, köynəyimi kəfən kimi geyindirdim. Qəbir

---

[235] Tirmizi, "Nikah", 40; İbn Kəsir, *əs-Sirə*, III, 174.
[236] Buxari, "Vuzu", 34; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 343; İbn Hişam, *əs-Sirə*, II, 203; Vaqidi, *əl-Məğazi*, I, 396; İbn Sə'd, *ət-Təbəqat*, II, 61; Suheyli, *ər-Rövzul-Unf*, III, 400.
[237] Hakim, *əl-Müstədrək*, IV, 51; Əhməd Şami, *Sübülül-Huda*, XI, 35.
[238] Təbərani, *əl-Mu'cəmul-Kəbir*, XXIV, 351; Əbu Nuaym, *Hilyətul-Övliya*, III, 121.

həyatının ona mülayim və asan olması üçün qəbirdə yanına uzandım. Cəbrayıl, Allahu Təala tərəfindən; "Bu xanım cənnətlikdir" deyərək mənə xəbər verdi" buyurdu. Bundan sonra Fatimə binti Əsəd anamız üçün belə dua etdi; "Allah Təala səni bağışlasın, səni mükafatlandırsın. Ey anam! Allah Təala sənə rəhmət etsin. Özünn ac ikən məni doyuzdurdun. Özün geyməz, mənə geyindirər, yeməz, mənə yedizdirərdin. Dirildən də, öldürən də Allah Təaladır. O daima diridir. O ölməz. Allahım! Anam Fatimə binti Əsədi əfv et, bağışla! Ona hüccətini bildir. Qəbrini genişləndir. Ey mərhəmətlilərin ən mərhəmətlisi olan Allahım! Mən Peyğəmbərinin və keçmiş Peyğəmbərlərin haqqı üçün, bu duamı qəbul buyur".

Bundan sonra, Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm) mübarək xanımlarından Həzrəti Zeynəb binti Huzeymə otuz yaşında ikən vəfat etdi.[239] Yenə bu ildə Həzrəti Əli ilə Həzrəti Fatimənin ikinci uşaqları Həzrəti Hüseyin doğuldu.[240]

Həmçinin bu ildə, Məkkəli müşriklər, Əbu Süfyan komandanlığında iki min əsgərlə İslamın yayılmasının qarşısını almaq üçün Bədirə gəldi. Aləmlərin sahibi, min beş yüz qəhrəman Əshabıyla onlardan əvvəl Bədirə gəldi. Mücahidlərin, özlərindən qabaq Bədirə gəldiyini öyrənən müşriklərin ürəyinə qorxu düşdü. Ancaq, Mərrazzəhrana qədər irəliləyə bildilər. Qəhrəman İslam əsgəri ilə qarşılaşmağa cəsarət edə bilmədilər və Məkkəyə dala qayıtdılar. Rəsuli əkrəm, şanlı Əshabıyla müşrikləri səkkiz gün Bədirdə gözlədi. Sonra isə Mədinəyə tərəf hərəkət etdilər.

## Bəni Müstəliq qəzvəsi

Hicrətin beşinci ilində, Müstəliq oğullarının rəisi Haris ibn Əbi Dirar, Cənabi Peyğəmbərimizlə döyüşmək üçün həddən çox adam toplamışdı. Onları silahlandıraraq, Mədinəyə hücum etməyi fikirləşirdi. Bu xəbər, sevgili Peyğəmbərimizə çatan kimi, dərhal yeddi yüz nəfərlik bir bölüklə Müstəliq oğullarına qarşı səfərə çıxdı. Mureysi quyusu başında qərargah quruldu. Əvvəlcə Müstəliq oğulları İslama də'vət edildi. Qəbul etməyərək, ox atıb doyüşü başlatdılar. Rəsulullahın; "Hamınız birlikdə, anidən hücuma keçin" əmrini yerinə yetirən Əshabi kiram, Müstəliq oğullarından on nəfəri öldürdü. Qəbilə rəisi qaçaraq canını qurtarmış, ancaq qızı Bərrə və qəbiləsindən 600

[239] Təbərani, *əl-Mu'cəmul-Kəbir*, XXIV, 58; İbn Kəsir, *əs-Sirə*, IV, 593.
[240] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 392; Heysəmi, *Məcməuz-Zəvaid*, IV, 68.

nəfər əsir edilmişdi. Qənimətlər paylaşdırıldı. Bərrə, Cənabi Peyğəmbərimizin hüzuruna çıxıb; "Hissəsinə düşdüyüm sahibimlə, doqquz qızıl müqabilində azadlığa buraxılmağım üçün razılaşdım. Mənə kömək edin!" dedi. Cənabi Peyğəmbərimiz, mərhəmət edərək onun bu arzusunu yerinə yetirib satın aldı. Sonra azad edib, azadlığa buraxdı. Sevgili Peyğəmbərimizin İslamı təbliğ etməsiylə müsəlman oldu. Onun müsəlman olmasına çox sevinən Aləmlərin sahibi, mükafat olaraq evlənməklə şərəfləndirdi. Bunu görən Əshabi kiramın hamısı da; "Biz, Rəsulullahın ailəsi olan anamızın, qohum-əqrabalarını qulluqçu olaraq işlətməkdən həya edərik" dedilər və əsirlərini azad etdilər. Bu nikah yüzlərlə əsirin azad olmasına səbəb oldu. Sevgili Peyğəmbərimiz, mübarək Xanımı Bərrənin adını Cüveyriyyə olaraq dəyişdirdi. Həzrəti Cüveyriyyə anamız üçün, Həzrəti Aişə anamız; "Mən, Cüveyriyyədən daha xeyirli, daha bərəkətli bir qadın görmədim" deyərdi.[241]

İslam ordusu qalib gələrək, nurlu Mədinənin yolunu tutarkən, ətrafdakı müşrik qəbilələrinin gözləri qorxmuş, müsəlmanlara hücum etməyə cəsarət göstərməyin nə qədər təhlükəli olduğunu başa düşmüşdülər.

*Sən aləmlərə təbib, mən qəlbi çox xəstə,*

*Şəfa tapmaq ümidi ilə sənə gətirdim.*

*Belimdə günah dağı və üzüm saman kimi*

*Ümidliyəm buraya zaval üçün gətirdim.*

*Alimlərin sərvəri, sənə aşiq heyranam,*

*Sənin ayrılığından gecə-gündüz ağlaram.*

*Sənin böyük rəhmətin abi həyat, mən susu,*

*Bir damcısı olmazsa ölərəm, can verərəm.*

*Ağıl onu öyməkdə çox çətinliyə düşdü,*

[241] İbn Hişam, *əs-Sirə*, II, 294; Vaqidi, *əl-Məğazi*, I, 413; İbn Sə'd, *ət-Təbəqat*, II, 74; Suheyli, *ər-Rövzul-Unf*, IV, 13.

*Məazallah mümkünmü, o bu qədər anlayır.*

*Onu xulquyla öymək, boş yerə əlləşməkdir.*

*Onu sözlə anlatmaq bundan da zor gələr.*

*Bağışlayan və Kərim və o qədər comərddir.*

*Sudan inci, daşdan cövhər, tikandan gül gəlir.*

*Günəş nur saçırsa, onun nurlarındandır,*

*Güldəki tər damcısı gül üzündən gəlir.*

*Onu vəsf etmək bundan daha yüksəkdir amma,*

*Daha yüksək söylərsəm, ağyar inkar edər.*

*Aləmi bir zərrəyə sığdırmaq mümkün olar,*

*Onu sözlə anlatmaq bundan da zor gələr.*

*MÖVLANA XALİDİ BAĞDADİ*

# XƏNDƏK QƏZVƏSİ

Hicrətin beşinci ili idi. Mədinəyi münəvvərədən sürgün edilən fitnə və fəsad qaynağı yəhudi Nadir oğulları, qruplara bölünmüş, bir hissəsi Şama, bir hissəsi də Xeybərə getmişdilər. Ancaq, İslama və Cənabi Peyğəmbərimizə olan kin və intiqam duygğuları qəlblərini bürümüşdü. Başçıları Huyey, qövmünün başda gələnlərindən yanına yığdığı iyirmi adamı ilə Məkkəyə getdi. Əbu Süfyan ilə görüşüb, sevgili Peyğəmbərimizin mübarək bədənini məhv etmək üçün razılaşdılar. "Bu işi həll edincəyə qədər axıra kimi yanınızda olacağıq!" dedilər. Əbu Süfyan; "Bizim düşmənimizə düşmən olanlar, bizim nəzərimizdə məqbuldur. Ancaq, sizə e'tibar edə bilməyimiz üçün, bütlərimizə sitayiş etməyiniz lazımdır. Ancaq, bundan sonra səmimi olduğunuzu qəbul edib, əmin ola bilərik" dedi. Məqsədlərinə nail olmaq üçün dinlərini belə qurban verən xain yəhudilər, bütlərin qabağında tə'zim etdilər... Kitablı kafir ikən, kitabsız oldular. Sevgili Peyğəmbərimizi məhv etmək və İslam dinini yıxmaq üçün and içdilər.

Müşriklər, dərhal döyüş hazırlığına başladılar. Qonşu müşrik qəbilələrə də adamlar göndərdilər. Yəhudilər də müxtəlif qəbilələri yola gətirmək üçün hərəkətə keçdilər. Bəzi qəbilələrə pul və xurma və'd edərək silahlandırdılar. Müşriklər, Məkkə ətrafından dörd min nəfərlik böyük bir ordu çıxartmışdı. Əbu Süfyan, Darunnədvədə bayraq açıb, Osman ibn Əbi Təlhəyə verdi. Orduda üç yüz at, çox sayıda silah və min beş yüz dəvə vardı.

Dörd min nəfərlik müşrik ordusu, Mərrazzəhrana gəldiklərində Süleyman oğulları, Fəzarə oğulları, Qatafanlılar, Murrə oğulları, Əsəd oğulları kimi bir çox qəbiləni, altı min nəfərlik əlavə qüvvəylə müşrik ordusunun sayısını on minə çıxartmışdı. Bu, o zamana görə çox böyük bir ordu idi.

Əvvəldən bəri Rəsuli əkrəm (səllallahu əleyhi və səlləm) ilə dost görünən Xuzaə qəbiləsi, dərhal Mədinəyə xəbər çatdırmış, on günlük yolu dörd gündə gedən bir süvari, Cənabi Peyğəmbərimizə, müşriklərin vəziyyətini təfərruatıyla xəbər vermişdi.

İşlərini Əshabi kiramla məsləhətləşərək görən sevgili Peyğəmbərimiz, dərhal səhabilərini toplayıb, məsələni müzakirə etdi. Döyüşün harda və necə olacağı mövzusunda, hər səhabi öz təklifini dedi. Bu hey'ət içində yer alan Səlmani Farisi Həzrətləri sözə başlayıb; "Ya Rəsulallah! Bizdə bir döyüş üsulu vardır. Düşmənin, hücum etmə ehtimalını nəzərə alaraq ətrafımıza xəndək qazaraq müdafiə olunardıq"

dedi. Bu üsul, Cənabi Peyğəmbərimiz və Əshabi kiramın xoşuna gəldi və bu şəkildə düşmənlə döyüşməyə qərar verildi.[242]

Cənabi Peyğəmbərimiz dərhal, Əshabından bəziləriylə birlikdə, xəndəyin harda qazılması lazım gəldiyini tə'yin etdilər. Mədinənin cənub tərəfi bağ-bağat olub, sıx ağaclarla örtülüydü. Müşriklərin burdan hamısı birdən hücuma keçmələri ehtimalı az idi. Həm də ki, buranı az bir qüvvə ilə müdafiə etmək olardı. Şərqdə isə razılaşma əldə edilən Bəni Qureyza adlı yəhudi qəbiləsi yerləşirdi. Bu səbəblə müşriklər, təkcə qərb və şimal tərəfdəki açıq ərazidən hücuma keçə bilərdilər. Bu tərəflərdən xəndək qazılacaq yerlər tə'yin edildi. Əshabi kiramın hər birinə təxminən üç metr yer düşürdü. Hamı hissəsinə düşən yeri iki adam boyunda (təxminən 3,5 metr) qazacaq, xəndək, sür'ətlə çapan bir atlının tullana bilməyəcəyi qədər geniş olacaqdı. Zaman az idi, düşmən Məkkədən çıxmış, Mədinəyə tərəf gəlirdi. Xəndəyin ən qısa müddətdə qazılması lazımdı.

Sevgili Peyğəmbərimiz, başta bilavasitə özü olmaqla, qəhrəman əshabıyla "Bismillahirrəhmanirrəhim" deyərək, ilk külüngü vurdu. Hamı, var gücüylə imkan olduğu qədər tez xəndəyi qazmağa çalışırdı. Hətta burda, uşaqlar belə iştirak edirdilər. Rəsulullah üçün Zübab təpəsində bir çadır quruldu. Xəndəkdən çıxardılan torpaqlar zənbillərlə bu təpənin ətrafına tökülür, qayıdarkən də düşmənə atmaq üçün Səl dağından daş gətirilirdi. Zənbil tapa bilməyənlər, ətəklərində torpaq daşıyırdı. Sevgili Peyğəmbərimiz də yoruluncaya qədər çalışırdı. Bu halı görən Əshabi kiram, qeyrətə gəlir və; "Canımız sənə fəda olsun ey Rəsulallah. Bizim işləməyimiz bəs edər. Sən işləmə, istirahət et" deməklərinə baxmayaraq; "Mən də işləyərək qazandığınız savaba şərik olmaq istəyirəm" buyuraraq cavab verərdi.

O günlərdə hava çox soyuqdu. Həm də, o il quraqlıq səbəbiylə qıtlıq hökm sürürdu. Yemək tapmaq da xeyli çətin idi. Aləmlərin hökmdarı daxil olmaqla, bütün Əshabi kiram aclıq içində idilər. Özlərini güclü hiss edə bilmələri üçün, aclıqdan qarınlarına daş bağlayır, mədələrini sıxışdıraraq yemək ehtiyacını tə'min etməyə çalışırdılar.

Aləmlərə rəhmət olaraq göndərilən sevgili Peyğəmbərimiz, öz aclığına məhəl qoymur, Əshabının bu soyuqda ac-acına işləməyinə və çəkdiyi zəhmətlərə çox üzülür,

---

[242] İbn Hişam, *əs-Sirə*, I, 220; Vaqidi, *əl-Məğazi*, I, 441; İbn Sə'd, *ət-Təbəqat*, II, 65-74; Suheyli, *ər-Rövzul-Unf*, III, 415.

onlara ürəyi yanırdı və; “Allahım! Axirət həyatından başqa (istəniləcək) bir həyat yoxdur. Ya Rəbbi! Ənsar ilə Muhacirlərə məğfirət et!” deyərək dua edərdi. Onlar da canlarından çox sevdikləri Həbibi əkrəmə; “Həyatımızın axırına qədər Allah Təalanın yolunda, İslam dinini yaymaq üçün Rəsulullaha tabe olduq” deyərək cavab verirdilər. Bu qarşılıqlı məhəbbət aclıq, susuzluq kimi bütün çətinlikləri kökündən silib atırdı.

Xəndək qazmaq, hər gün səhər tezdəndən başlayar, axşama qədər davam edərdi. Bir gün qazarkən Əli ibn Hakim Həzrətləri ayağından yaralandı. Ata mindirərək Cənabi Peyğəmbərimizin hüzuruna gətirdilər. Aləmlərin hökmdarı; “Bismillahirrəhmanirrəhim” deyərək, onun ayağını sığalladı. Rəsulullahın bir mö’cüzəsi olaraq, bir göz qırpımında ayağının qanı dayandı və ağrısı kəsildi.

Xəndək qazmağa davam edilirdi. Əshab bir ara çox bərk bir yerlə qarşılaşdı. Qazmaq mümkün olmurdu. Rəsuli əkrəmin yanına gəlib, vəziyyəti izah etdilər. Təşrif edərək xəndəyə düşdü. Bir qab su istədi. Bir qurtum içib, yenə qaba boşaltdı. Sonra suyu bərk yerə səpdilər. Gürzü götürüb, o yeri bir vuruşda qum kimi dağıtdı. Artıq ora asan qazılırdı. Bu vuruş əsnasında, sevgili Peyğəmbərimizin mübarək qarnı açılınca, oradakılar, Rəsulullahın aclıqdan mədəsinə daş bağladığını gördülər. Rəsulullahın bu halını görən Cabir ibn Abdullah Həzrətləri, hüzuruna gəlib; “Anam-atam sənə fəda olsun ey Rəsulallah! İcazə versəniz evə gedib gələrdim” dedi. İcazə aldıqdan sonrasını Həzrəti Cabir belə nəql etmişdir ki “İzin verilincə evə gəlib xanımıma; “Rəsul əleyhissalamda elə bir aclıq halı gördüm ki, dözmək mümkün deyildir. Evdə yeməyə nə var?” deyə soruşdum. O da; “Bu oğlaqdan və bir neçə ovuc arpadan başqa bir şey yoxdur” dedi. Dərhal oğlağı kəsdim, Xanımım da arpanı əl dəyirmanında üyüdüb un halına gətirdi. Sonra onunla xəmir yoğurdu. Əti bir saxsı qaba qoyub, təndirdə bişirməyə başladı. Bundan sonra Rəsulullahın yanına gəldim və; “Ey Rəsulallah! Çox az bir yeməyim var. Özünüzlə birlikdə bir-iki nəfər götürüb bizə yeməyə buyurun!” dedim.

Rəsulullah; “Yeməyiniz nə qədərdır?” buyurdu. Nə qədər olduğunu dedim. Bundan sonra; “Həm çox, həm də gözəl yeməkdir. Xanımına de, mən gəlincəyə qədər təndirdən nə saxsı qabı, nə də çörəyi çıxartsın” buyurdu. Sonra mücahidlərə üzünü tutub; “Ey xəndək xalqı! Durun! Cabirin qonaqlığına gedəcəyik!” buyurdu. Bu əmrdən sonra Əshabi kiram toplaşaraq Peyğəmbərimizin arxasınca getməyə başladılar. Mən dərhal evə qayıdıb olanları xanımıma dedim və; “İndi nə edəcəyik?” deyincə, mənə;

"Rəsul əleyhissalam, yeməyin nə qədər olduğunu soruşmadı ki?" dedi. Mən də; "Soruşdu və mən də dedim" cavab verdim. Xanımım; "Əshabi kiramı sən çağırdın, yoxsa Rəsulullah də'vət etdi?" deyə soruşdu. "Rəsulullah də'vət etdi" deyincə; "Rəsul əleyhissəlam daha yaxşı bilər" deyərək mənə təsəlli verdi.

Bir az sonra, Cənabi Peyğəmbərimizin nurlu camalı qapımızda göründü. Qələbəlik olan səhabilərə; "Bir-birinizi sıxışdırmadan içəri girin" buyurdu... Səhabi qardaşlarım, on nəfərlik qruplar şəklində oturdular. Nəbiyyi möhtərəm, çörəyin və ətin bərəkətlənməsi üçün dua etdi. Sonra, saxsı qabı təndirdən çıxartmamışdan qabaq kəfkirlə içindəkiləri, götürdüyü çörəklərin üstünə qoyaraq Əshabına verdi. Bütün Əshab doyuncaya qədər belə davam etdi. And içirəm ki, yemək yeyən min nəfərdən çox olduğu halda, çörək və ət eyni ilə qalırdı. Biz də yedikdən sonra qonşularımıza payladıq".[243]

Səlmani Farisi Həzrətləri çox yaxşı xəndək qazardı. Tək başına on nəfərin işini görərdi. O da dostları ilə özünə ayrılan yeri qazarkən, çox möhkəm, böyük, ağ rəngdə bir daşa rast gəldilər. Sındırmaq üçün çox əlləşdilər. Ancaq, bütün zəhmətləri boşa çıxdı. Üstəlik gürz, külüng və kürəkləri də sınmışdı. Həzrəti Səlman, sevgili Peyğəmbərimizin yanına gəlib; "Anam-atam, canım sənə fəda olsun ey Rəsulallah! Xəndəyi qazarkən möhkəm bir qayaya rast gəldik. Dəmirdən düzəldilmiş bütün alətlərimiz sındığı halda, yerindən belə tərpədə bilmədik" deyərək, vəziyyətin nə yerdə olduğunu bildirdi. Həbibi əkrəm (səllallahu əleyhi və səlləm), səadətlə oraya gəlib bir gürz istədi. Orda olan Əshabi kiram da nəticəni maraqla gözləyirdilər.

Nəbilərin hökmdarı Rəsulullah, aşağı düşdü. "Bismillahirrəhmanirrəhim" deyərək gürzü qaldırıb, qayaya elə vurdu ki, bu vuruşdan, Mədinəni işıqlandıran bir şimşək çaxdı və qayadan bir hissə qopdu. Rəsuli əkrəm; "Allahu əkbər!" deyərək təkbir gətirdi. Bunu eşidən Əshab da təkbir gətirdi. Sonra ikinci dəfə gürzü vurdu. Yenə hər tərəfi işıqlandıran bir şimşək! və qayadan qopan hissələr... Sevgili Peyğəmbərimiz yenə; "Allahu əkbər!" deyərək təkbir gətirdi. Əshabi kiram da bunu təkrar etdi. Gürz üçüncü dəfə vurulduğunda, hər tərəfi işıqlandıran bir şimşək də çaxmış və qaya parça-parça olmuşdu. Aləmlərin hökmdarı yenə; "Allahu əkbər!" deyərək təkbir gətirdi. Şərəfli Əshabı da Onun kimi etdilər.

---

[243] Buxari, "Məğazi", 27; Darimi, "Müqəddimə", 7; İbn Əbi Şeybə, *əl-Musannəf*, VII, 425.

Həzrəti Səlman əlini uzatdı. Sevgili Peyğəmbərimiz yuxarı çıxdı. Səlmani Farisi; "Anam-atam, canım sənə fəda olsun ey Rəsulallah! Ömrümdə heç görmədiyim bir şeyi indi gördüm. Bunun hikməti nədir?" deyincə, Cənabi Peyğəmbərimiz Əshabına üzünü tutub; "Səlmanın gördüyünü sizlər də gördünüz?" buyurdu. Onlar da; "Bəli, ey Rəsulallah! Gürzü qayaya vurduğunuz zaman, şiddətli bir şimşəyin çaxdığını gördük. Siz təkbir gətirincə, biz də təkbir gətirdik" dedilər. Cənabi Peyğəmbərimiz də; "Əvvəlki zərbənin işığında Kisranın (Mədayindəki) sarayları mənə göründü. Cəbrayıl (əleyhissalam) gəlib; "Ümmətin o ölkələrə sahib olar" deyə xəbər verdi. İkinci zərbədə Rum vilayətinin (Şamın) qızıl sarayları göründü. Cəbrayıl (əleyhissalam) gəlib; "Ümmətin o diyara da sahib olar" dedi. Üçüncüsündə, Sənanın (Yəmənin) sarayları göründü. Cəbrayıl (əleyhissalam); "O yerə də ümmətin sahib olar" deyə xəbər verdi" buyurdu.

Sonra Kainatın hökmdarı, Əcəm kisrasının Mədayindəki sarayını vəsf edincə, oralı olan Həzrəti Səlman; "Canım sənə fəda olsun ey Rəsulallah! Səni, haqq din və Kitabla göndərən Allah Təalaya and içirəm ki, o saraylar tamamiylə dediyiniz kimidir. Sənin, Allah Təalanın Rəsulu olduğuna şəhadət edirəm" dedi. Cənabi Peyğəmbərimiz; "Ey Səlman! Şam, heç şübh yoxdur ki, fəth ediləcəkdir. Herakl, ölkəsinin ən ucqar yerinə qaçacaqdır. Siz, Şamın hər tərəfinə hakim olacaqsınız. Sizə, heç kim müqavimət göstərə bilməyəcəkdir. Yəmən, heç şübhə yoxdur ki, fəth ediləcəkdir. Bu "Məşriq Diyarı" da heç şübhə yoxdur ki, fəth ediləcək və Kisra öldürüləcəkdir. Allah Təala bu fəthləri məndən sonra sizə nəsib edəcəkdir" buyurdu.[244]

Səlmani Farisi Həzrətləri; "Rəsulullahın, bu müjdələrinin hamısının həqiqətə çevrildiğini gördüm" deyə xəbər verdi.

Düşmənin gəlib çatmağına az qalmışdı. Xəndək sür'ətlə qazılır və ən qısa zamanda bitirilməyə çalışılırdı. Mücahidlər məcburiyyət qarşısında Cənabi Peyğəmbərimizdən icazə alaraq işə ara verir, daha sonra təzədən işlərinin başına qayıdrdılar.

Münafiqlər çox yavaş hərəkət edir, istədikləri zaman işə gəlir, istədikləri zaman icazəsiz çıxıb gedirdilər. Üstəlik Əshabın bu şəkildə işləməklərinə istehza edirdilər. Cənabi Peyğəmbərimizin verdiyi müjdələrə belə; "Biz, düşmən qorxusundan xəndəklərə

---

[244] Vaqidi, *əl-Məğazi*, I, 450; İbn Kəsir, *əs-Sirə*, III, 159; Beyhəqi, *Dəlailun-Nübüvvə*, III, 482.

sığınırıq. Ancaq, bizə Yəmən, Rum və Fars ölkələrinin saraylarını və’d edir. Sizin bu halınıza çaşıb qalırıq!” deyirdilər.

Bundan sonra, mücahidlər üçün enən ayədə, məalən buyuruldu ki; “Həqiqətən mö’minlər, ancaq (ixlas ilə) Allah Təalaya və Rəsuluna iman edənlər və (cihad, cihada aid tədbirlər, Cümə və bayram toplanmaları kimi) ümumi bir iş üçün, Onun (Rəsulullahın) əlinin altında olduqları vaxt, Ondan icazə almadıqca, çıxıb getməyənlərdir. O halda (ey Həbibim!) Səndən icazə istəyənlər, Allah Təalaya və Rəsuluna iman edənlərdir. Bu mö’min kəslər bəzi işləri üçün səndən icazə istədikləri vaxt, sən də onlardan dilədiyin kimsəyə icazə ver və özləri üçün Allah Təaladan məğfirət istə. Şübhəsiz ki, Allah Təala, Qafururrəhimdir, çox bağışlayan, çox mərhəmət edəndir”.[245]

Münafiqlər üçün enən ayəti kərimələrdə də məalən buyruldu ki; “Allah Təalanın Rəsulunun də’vətini, öz aranızda bir-birinizi (bəzən icabət edib, bəzən etmədiyiniz) də’vətləriniz kimi bir tutmayın (də’vətinə vaxt itirmədən gedin və icazəsiz ayrılmayın)! Aranızdan, bir-birinizin arxasında gizlənərək gizlicə qaçanlarınızı, Allah Təala şübhəsiz bilir. Onun əmrindən uzaqlaşıb gedənlər, dünyada fitnəyə, axirətdə də əziyyət verici bir əzaba düçar olmaqdan çəkinsinlər! Fikir verin! Göylərdə və yerdə nə varsa, hamısı da Allah Təalanındır. O, sizin, hansı inancda (mö’min veya münafiq) olduğunuzu və (münafiq və kafirlərin) dirildiləcəkləri qiyamət gününü də bilir. Allah Təala onların dünyada etdiklərini özlərinə xəbər verəcəkdir. Allah Təala hər şeyi bilir”.[246]

Xəndəyi qazma işinə altı gün idi ki, başlanmışdı. Hamı işini, layiqiylə görmüsdü. Ancaq bir yer, zaman az olduğu üçün geniş və dərin qazılamamışdı. Cənabi Peyğəmbərimiz burası üçün narahat olaraq; “Müşriklər, burdan başqa bir yerdən keçə bilməzlər” buyurdu. Bura növbətçilər qoydular.

Müşrik ordusunun Mədinəyə çox yaxınlaşdığı əsnada, yəhudi Nadir oğullarının başçısı Huyey, Qureyş ordu komandanına; “Mədinədəki Qureyza yəhudilərin müsəlmanlarla razılaşma halında olduqlarını, ancaq, onların başçısı Kə’b ibn Əsədi aldadıb, öz tərəflərinə çəkə biləcəyini bildirdi. Komandan da; “Ey Huyey! Dərhal Kə’b ibn Əsədin yanına get. Müsəlmanlar ilə bağladıqları müqaviləni pozub bizə kömək

245 ən-Nur 24/62.
246 ən-Nur 24/63-64.

etsinlər" dedi. Bu razılaşmanın maddələrindən biri, "Mədinəyə bir düşmən ordusu hücum edərsə, Müsəlmanlarla birlikdə düşmənə qarşı müqavimət göstərmək" idi.

Yəhudi Huyey, müşrik ordusundan ayrılıb, gecə Bəni Qureyzanın başçısı Kə'bin evinə gəldi. Qapını döyüb özünü tanıtdı və; "Ey Kə'b! Qureyşin bütün ordusunu, Kinanə və Qatafan oğulları kimi bir çox qəbilədən on min nəfərlik bir ordu gətirmişəm. Artıq, Məhəmməd və Əshabı xilas ola bilməyəcəkdir. Onları tamamiylə məhv edincəyə qədər, Qureyşlilərlə burdan ayrılmamağa and içdik!" dedi. Kə'b; "Məhəmməd və Əshabı öldürüləməzsə və Qureyş və Qatafanlılar ölkələrinə qayıdıb getsə, burda biz tək-tənha qalarıq. Axırda hamımızı öldürəcəklərindən qorxuram!" deyə narahatçılığını biruzə verincə, Huyey; "Bu qorxunun yox olması üçün Qureyş və Qatafanlılardan yetmiş nəfər girov istəyərsən. Bu girovlar səndə olduğu müddətdə, onlar burdan gedə bilməzlər. Əgər məğlub olub getsələr, mən sizin yanınızdan ayrılmaram. Sizin başınıza gələn fəlakət mənim başıma gəlmiş olar" deyərək, Kə'bi sonra da digər yəhudiləri aldatdı. Müsəlmanlarla olan razılaşmanı ləğv etdirdi. Beləcə razılaşma pozulmuş oldu.

Huyey, müşrik ordusuna qayıdıb onları məsələdən agah etdi. Bəni Qureyzanın müsəlmanları arxadan vuracaqlarını söylədi.

Yeddinci gün, müşriklər on min nəfərlik böyük bir ordu ilə Mədinənin qərb və şimal tərəfinə gəlib, ordugahlarını qurdular. Bu ordugah, xəndəyin qazıldığı yerdə idi. Müşriklərin düşüncələri, bu böyük ordu ilə Mədinəyi başdan-ayağa yandırıb yıxmaq, Cənabi Peyğəmbərimizi və Əshabını məhv etmək, İslamiyyəti yox etmək idi. Bu, görünüşdə çox çətin müqavimət göstərilə biləcək bir ordu idi.

Müşriklər, xəyallarından keçirtmədikləri xəndək əngəlini görüncə, çaş-baş qaldılar və həvəsdən düşdülər. Çünki, xəndək yaxşı bir atın sür'ətlə çapılıb atıla bilməyəcəyi genişlikdə idi. İçinə düşən bir adam da asan şəkildə çıxa bilməzdi. Hələ zirehli bir adamın yuxarı dırmaşaraq çıxması çox çətin idi.

Müşriklərin gəldiyini xəbər tutan sevgili Peyğəmbərimiz, dərhal altı gündür dayanmadan çalışaraq yorulan Əshabını toplayıb, xəndəyin bu tərəfindəki Səl dağı ətəklərində qərargahını qurdu. Arxalarında Səl dağı və Mədinə, qabaqlarında xəndək və o xəndəyin o tərəfində də düşmən... Yenə İbni Ümmi Məktum Mədinədə Cənabi Peyğəmbərimizin vəkili olaraq qaldı. Qadınlar və uşaqlar qalalara yerləşdirildi. Üç min nəfərlik İslam ordusunun otuz altı süvarisi var idi. Bayraqları Zeyd ibn Harisə ilə Sə'd

ibn Ubadə Həzrətləri daşıyırdılar.[247] Rəsulullahın dəridən düzəldilmiş çadırı, Səl dağının ətəyində quruldu.

Neçə-neçə qəhrəmanlıqlar göstərəcək olan Əshabi kiram, diqqətlə düşmənin hərəkətlərini tə'qib etməyə başladı. Bu əsnada, Həzrəti Ömərin sevgili Peyğəmbərimizin hüzuruna gəldiyi görüldü. "Ya Rəsulallah! Eşitdiyimə görə, Qureyza yəhudiləri aramızdakı müqaviləni pozmuş və bizə qarşı döyüşə hazırlanırlarmış!" dedi. Gözlənilməyən bu xəbərə, Aləmlərin hökmdarı; "Həsbun Allahu və ni'məl-vəkil-Allah Təala bizə yetər. O nə gözəl vəkildir" deyərək cavab verdi. Bu, Ona çox tə'sir etmişdi. İndi İslam ordusu, iki od arasında qalmışdı. Şimal və qərbdə müşrik orduları, cənub və şərqdə isə yəhudilər vardı.

Rəsulullah, Zübeyir ibn Əvvam Həzrətlərini Qureyza oğullarının qalasına göndərdi. Həzrəti Zübeyir gedib məsələnin nə yerdə olduğunu öyrəndi. Gəlincə; "Ya Rəsulallah! Onlar, qalalarını tə'mir edir, döyüş təlimləri və taktikaları keçirlər. Həm də heyvanlarını da bir yerə yığırlar" deyərək gördüklərini dedi. Bundan sonra Həbibi əkrəm (səlləllahu əleyhi və səlləm) Sə'd ibn Muaz, Sa d ibn Ubadə, Xəvvat ibn Cübeyr, Əmr ibn Əvf, Abdullah ibn Rəvahanı Qureyza oğullarına nəsihət verib müqaviləni təzədən bağlamaları üçün göndərdi.[248]

Vəzifə verilən bu beş səhabi, Qureyza yəhudilərinin qalasına gedib, onlara nəsihət etdilər. Ancaq, nəsihət kar etmirdi. Ayrıca, həqarət etməyə də başlamışdılar. Axır sözləri; "Qardaşlarımız Nadir oğullarını, el-obalarından sürgün edib çıxartmaqla, bizim qolumuzu qanadımızı qırdınız. Məhəmməd kimdir ki?! Onunla aramızda heç bir sözləşmə və müqavilə yoxdur. Peyğəmbərinizin üstünə hamımız bir yerdə hücum edib, öldürmək üçün and içmişik. Qardaşlarımıza heç şübhə yoxdur ki, kömək edib, yardımçı olacağıq!" dedilər.

Sə'd ibn Muaz Həzrətləri və dostları Rəsulullahın yanına gəlib, hər kəsin başa düşə bilməyəcəyi bir şəkildə üstü örtülü olaraq vəziyyəti anlatdılar. Cənabi Peyğəmbərimiz; "Xəbərinizi gizli saxlayın. Ancaq bilənə deyin. Çünki müharibə, tədbir və aldatmadan ibarətdir"[249] buyurdu.

---

[247] İbn Sə'd, *ət-Təbəqat*, II, 67.
[248] Vaqidi, *əl-Məğazi*, I, 460; Beyhəqi, *Dəlailun-Nübüvvə*, IV, 8.
[249] Buxari, "Cihad", 157; Əbu Davud, "Cihad", 101; Tirmizi, "Cihad", 5; İbn Macə, "Cihad", 28; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 126.

Əshabi kiram, xəndəyin bu tərəfində Cənabi Peyğəmbərimizi gözləyir, necə hərəkət edəcəklərini maraqla seyr edirdilər. Bir az sonra Kainatın hökmdarı, qəhrəman Əshabının yanına gəldi və; "Allahu əkbər! Allahu əkbər!" deyərək təkbir gətirdi. Bunu eşidən şanlı səhabilər, hamısı bir ağızdan təkbir gətirərək, Cənabi Haqqın ismi şərifnin ucalığını bildirib, xəndəyin o biri tərəfində qum kimi qaynayan kafirlərin qəlbinə qorxu saldılar. Müşriklər təkbirləri eşidincə; "Məhəmməd və Əshabına hər halda sevindirici bir xəbər gəldi" dedilər.

Cənabi Peyğəmbərimiz, Əshabına; "Ey müsəlman camaatı! Allah Təalanın fəth və yardımı ilə sevinin!" buyuraraq, qalib gələcəklərinin müjdəsini verdi. Şanlı Əshab, indiyə qədər bir çox səriyyələrdə iştirak etmiş, Bədir və Ühüd qəzvələrində döyüşmüşdülər. Say və qüvvət cəhətiylə çox olan müşrikləri, Allahu Təalanın izni və Rəsuli Əkrəmin duasının bərəkətiylə hər dəfə məğlub etmişdilər. Başlarında, məxluqatın "Baş tacı" olduqdan sonra, edə bilməyəcəkləri iş, dözə bilməyəcəkləri çətinlik ola bilməzdi. Hava soyuq, qıtlıq şiddətli, aclıq çətin idi... Cənabi Peyğəmbərimiz daxil olmaqla, bir çoxları mübarək qarınlarına daş bağlamışdılar. Qarşı tərəfdə düşmən qum kimi qaynayırdı! Ancaq şanlı Əshab üçün düşmənin çoxluğu və çəkilən əziyyətlərin əhəmiyyəti yox idi. Allah Təala ən gözəl vəkil idi... Ona e'tibar etmiş, Ona bel bağlamış, Ona sığınmışdılar.

Qureyşin başda gələn komandanları və Qureyşlə birlikdə gələn digər qəbilələrin başçıları ümumi hücuma keçmək üçün bir qərar verməmişdən əvvəl, xəndəyin ətrafında, keçə biləcəkləri bir yer axtarmağa başladılar. Xəndəyi hər tərəfini gəzib baxdılar. Axırda, vaxt az olduğu üçün yarımçıq qalan dar yerdə dayanıb, burdan hücum etməyin münasib olacağına qərar verdilər. Müşrik əsgərləri də komandanlarının arxasınca hərəkət edir, bir xəndəyə, bir də şanlı Əshaba baxıb mə'təl qalırdılar. "And içirik ki, bu, Ərəblərin çarə tapdığı bir üsul deyildir. Heç şübhə yoxdur ki, bunu, o Farslı adam tövsiyə etmişdir!" deyirdilər.

Qureyşli komandanlar, əsgərlərinə xəndəyin dar yerini göstərərək; "Burdan kim atlayıb, o biri tərəfə keçə bilər?" deyincə, aralarından beş süvari qabağa çıxdı. Bunlar təkbətək döyüşmək üçün xəndəyin digər tərəfinə keçməliydilər. Şanlı Əshabi kiram və müşrik əsgərləri maraqla bu beş atlının hərəkətlərini tə'qib etməyə başladılar. Süvarilər sür'ətlənmək üçün geriyə çəkildilər. Sonra atlarının başını xəndəyin ən dar yerinə çevirib sür'ətləndilər. Dördnala çapan beş cins at, bir sıçrayışda xəndəyin o biri

tərəfinə keçməyi bacardılar. Onları başqa atlılar da tə’qib etmək istədilərsə də bacarmayıb, xəndəyin o biri tərəfində qaldılar. Bu keçənlər arasında Əmr ibn Əbd adında çox güclü biri vardı. Başdan-ayağa qədər zireh geymiş, vahiməli bir görünüşü vardı. Görünüşdə ürəklərə qorxu salan bu adam, mücahidlərə tərəf; “Mənimlə döyüşə bilən kimsə varsa meydana çıxsın?” deyə qışqırdı.

Bu əsnada Həzrəti Əlinin, sevgili Peyğəmbərimizin hüzuruna çıxaraq; “Canım sənə fəda olsun ya Rəsulallah! Onunla mən döyüşüm” deyərək icazə istədiyi görüldü. Əynində zirehi belə yox idi. Əshabi kiram, ona qibtə edirdilər. Sevgili Peyğəmbərimiz, öz mübarək zirehini çıxardıb, Həzrəti Əliyə geyindirdi. Qılıncını ona verdi. Mübarək başından əmmaməsini çıxardıb, onun başına bilavasitə öz əlləriylə sarıdı. Sonra da; “Allahım! Bədir qəzvəsində əmim oğlu Ubeydə, Ühüd qəzvəsində əmim Həmzə şəhid oldu. Yanımda qardaşım və əmim oğlu Əli qaldı. Sən onu qoru. Ona yardımını ehsan et. Məni tək başıma qoyma!” deyərək dua etdi. Əshabi kiram; “Amin!” dedilər.

Dua və təkbir sədaları altında piyada yeriyən Allah Təalanın aslanı, atının üstündə, bir div kimi duran Əmr ibn Əbdin qabağında dayandı. Gözlərindən başqa hər yeri zirehlə örtülü olan Əmr, bu qəhrəmanı tanıya bilmədi və kim olduğunu soruşdu. O da; “Mən Əli ibn Əbi Talıbam” deyərək özünü tanıdınca, Əmr; “Ey qardaşımın oğlu! Atan mənim dostum idi. Buna görə də səni qanına qəltan etmək istəmərəm. Mənim qabağıma çıxa bilən əmilərindən heç biri yoxdur bəyəm?” deyərək guya ona yazığı gəldi. Həzrəti Əli isə; “Ey Əmr! Vallahi, mən sənin qanını tökmək istəyirəm. Ancaq, ikimizin də eyni vəziyyətdə olması daha doğru olmaz məgər? İgidliyin şanına da bu yaraşar. Halbuki, mən piyadayam, sən isə atlısan!” deyərək onu qızışdırdı.

Bunu eşidən Əmrin qeyrət damarı tutub dərhal atından düşdü və atının ayaqlarını qılıncla kəsdikdən sonra, qəzəblə Həzrəti Əlinin qabağında dayandı. Hücum etmək istədiyində, Allah Təalanın aslanı; “Ey Əmr! Eşitdim ki, sən, Qureyşdən birisiylə üzbəüz gəldiyində, onun iki arzusundan birini yerinə yetirəcəyinə and içmisən. Bu doğrudur?” deyə soruşdu. O da; “Bəli, doğrudur” deyə cavab verincə, bu dəfə; “O halda, birinci istəyim sənin, Allahu Təala və Rəsulunə iman gətirib, müsəlman olmağındır!” deyərək imana də’vət etdi. Bunu eşidən Əmr çox əsəbiləşdi və; “Keç bunu! Bu mənə lazım deyil!” dedi. Həzrəti Əli; “İkinci istəyim isə döyüşməyib Məkkəyə qayıtmağındır. Çünki, Rəsul əleyhissalam, düşmənə qalib gələrsə, sən bu hərəkətinlə Ona yardım etmiş olarsan!” dedi. Əmr; “Bunu da keç! Mən intiqam

almadıqca, ətirlənməyəcəyimə and içdim. Başqa bir diləyin varsa de!" deyincə, Həzrəti Əli; "Ey Allah Təalanın düşməni! Artıq səninlə döyüşməkdən başqa bir yol qalmadı!" dedi.

Əmr bu sözlərə gülüb; "Düzü tə'əccüb edirəm! Ərəb diyarında qabağıma çıxa bilən bir igidin olduğu ağlıma gəlməzdi! Ey qardaşımın oğlu! And içirəm ki, mən səni öldürmək istəmərəm. Çünki, atan mənim dostum idi. Mən qabağımda Qureyşin mö'təbərlərindən Əbu Bəkir kimi, Ömər kimi bir nəfər çıxmasını istəyərdim" dedi. Həzrəti Əli; "Elə olsa da, mən səni öldürmək üçün bura çıxdım" deyincə, Əmrin qan beyninə vurdu. Qılıncını qaldırması ilə vurması bir oldu. Belə bir şeyi gözləyən Allah Təalanın aslanı, şimşək kimi yana sıçrayıb, hücumu qalxanıyla qarşıladı. Ancaq Əmr, bunun kimi çox qalxan yarmışdı. Onun vuruşuna ən güclü qalxanlar belə dözə bilməzdi. Bu dəfə də elə oldu. Həzrəti Əlinin qalxanı parçalandı, həm də qılınc başını sıyırıb yaraladı. Hücum növbəsi Həzrəti Əliyə gəlmişdi; "Ya Allah!" deyərək zülfüqarı Əmrin boynuna vurdu. Vurmasiyla İslam ordusunda; "Allahu əkbər! Allahu əkbər!" sədaları yeri göyü lərzəyə salmağa, kafirlərin ordusunda isə fəryadlar yüksəlməyə başladı. Bəli, Nəbilərin hökmdarı, məxluqatun baş tacının duası qəbul olmuşdu. Nəhəng Əmr yerə sərilmiş, bədənindən sel kimi qan axarkən, başı dəbilqəsiylə birlikdə uçmuşdu. Ən çox e'timad etdikləri Əmrin yerə sərildiyini görən dostları, dərhal Həzrəti Əliyə hücum etdilər. Bunu görən Əshabi kiram da, ora axışıb gəldilər. Zübeyir ibn Əvvam, Nofəl ibn Abdullahı yaralayıb atıyla birlikdə xəndəyə yıxdı. Həzrəti Əli, xəndəyə düşüb Nofəli ikiyə böldü. O biriləri isə xəndəyi güc-bəla keçib dala qaçdılar. Müşrik ordusunun sərkərdəsi isə, hələ döyüşün əvvəlində böyük bir ümidsizliyə düşmüşdü.

Artıq döyüşin şəkli tə'yin olmuşdu. Xəndək, üzbəüz döyüşməyə mane olurdu. Ox atışlarıyla bir-birilərinə itgi verməyə çalışdılar. Bu, nəticəni uzatmaqdan başqa bir işə yaramırdı. Müşriklər, bu şəkildə qalib gələ bilməyəcəklərini başa düşüb, xəndəyin hər tərəfindən hücuma keçməyin ən münasib bir yol olacağına qərar verdilər və hücuma keçdilər. On min nəfərlik böyük düşmən ordusu, xəndəyi keçmək üçün çalışır, üç min nəfərlik şanlı İslam ordusu isə, oxla və daşla onların xəndəyi keçməsinə mane olurdu. Amansız bir mübarizə başlamışdı. Bu mübarizə axşama qədər davam etdi.

Rəsuli Əkrəm (səlləllahu əleyhi və səlləm), gecə, xəndəyin müxtəlif yerlərinə növbətçilər yerləşdirdi. Özü də dar olan yerdə növbə tutmağa başladı. Mədinəyə beş yüz

nəfərlik bir dəstə göndərərək, küçələrdə yüksək səslə təkbir gətirmələrini əmr etdi. Beləcə, yəhudilərdən veya Qureyş müşriklərindən gələ bilən bir təhlükənin vaxtında qabağı alınacaq, qadınlar və uşaqlar qorunacaqdı.

Qureyza yəhudiləri isə, Huyey ibn Əhtabı müşriklərə göndərib, gecə basqınları təşkil etmək üçün iki min nəfərlik bir birlik istədi. Gecələri, müdafiəsiz qalan qadın və uşaqlara hücum etmək istəyirdilər. Ancaq mücahidlərin səhərə qədər vaxtaşırı küçələrdə gəzmələri; "Allahu əkbər!" sədalarıyla təkbir gətirmələri, onların canına çox qorxu salmışdı. Qalalarına sığınıb, fürsət gözləməyə başladılar. Bəzən kiçik dəstələr halında Mədinəyə girməyə cəhd etdilər.

Bir gecə Qureyza oğullarının başda gələnlərindən Qəzzal, özü ilə birlikdə götürdüyü on nəfərlik bir birlik ilə, Cənabi Peyğəmbərimizin xalası Safiyyə anamızın olduğu evə qədər gəlməyi bacardı. İçərdə qadınlar və uşaqlar vardı. Özlərini qorumaq üçün bir dənə belə silahları yox idi. Yəhudilər, əvvəlcə evə ox atmağa, sonra da içəri girməyə çalışdılar. Aralarından biri, evin baxçasına keçməyi bacardı və içəri girmək üçün ətrafa göz gəzdirməyə başladı. Bu əsnada sevgili Peyğəmbərimizin qəhrəman xalası, yanındakılara səssiz olmalarını tapşırdıqdan sonra, aşağı düşüb, qapının yanına gəldi. Bir əmmamə başına bağlayıb, özünü kişiyə oxşatdıqdan sonra, əlinə bir dəyənək götürüb, belinə də bir bıçaq bağladı. Yavaşca qapını açıb arxadan o Yəhudiyə yaxınlaşdı və əlindəki dəyənəyi var gücüylə başına vurdu. O dəqiqə yerə yıxılan Yəhudini öldürdü. Sonra öldürülən yəhudinin başını çöldə ox atan yəhudilərə atdı. Dostlarının kəsiimiş başını ayaqları altında görən yəhudilər, çox qorxub qaçmağa başladılar. Bir tərəfdən də; "Bizə, müsəlman kişilərin hamısı döyüşə getmişdir, şəklində xəbər verilmişdi!" deyə bir-birilərinə danışırdılar.[250]

Döyüş, sabahsı gün yenə eyni şiddətlə davam etdi. Oxlar havada vıyıldayaraq uçuşurdu. Aləmlərin hökmdarı (səlləllahu əleyhi və səlləm), şanlı Əshabına; "Canım yədi qüdrətində olan Allah Təalaya and içirəm ki, qarşılaşdığımız çətinliklər, üstünüzdən heç şübhə yoxdur ki, yox olacaq və sizlər rahatlıq tapacaqsınız" buyuraraq, onlara səbr etmələrini tövsiyə etdi və mö'minlərin qələbə çalacağını müjdələdi. Bu müjdəni alan qəhrəman səhabilər, aclıq, qıtlıq kimi çətinlikləri yaddan çıxardıb canla, başla əlləşib-vuruşdular. Xəndəkdən bir müşrikin belə keçməsinə imkan vermədilər.

[250] Vaqidi, *əl-Məğazi*, I, 463.

Əshabi kiramın başda gələnlərindən Sə'd ibn Muaz Həzrətləri, böyük bir qəhrəmanlıq göstərərək doyüşürdü. Doyüş əsnasında, Hibban ibn Qeys ibn Əraqa adlı bir müşrikin atdığı oxla qolundan yaralandı. Ox, arterial damara dəymiş, çox qan itirməsinə səbəb olmuşdu. Həzrəti Sə'd, yaralı bir halda, ətrafındakıların qanı saxlamaq üçün cəhd etdiklərini görərək, yaranın ciddi olduğunu başa düşdü və; "Ya Rəbbi! Qureyş döyüşə davam edəcəksə mənə ömür ehsan et. Çünki sənin Rəsuluna əziyyət verən, Ona yalançı deyən bu müşriklərlə doyüşməkdən xoşlandığım qədər, başqa heç bir şeydən xoşum gəlməz. Əgər aramızdakı döyüş qurtarsa məni şəhidlik mərtəbəsinə yüksəlt. Ancaq, Bəni Qureyzanın aqibətini görmədən əvvəl canımı alma" deyərək dua etdi. Duası qəbul olunub qanı dayandı.

Əshabi kiram arasında özünü döyüşən kimi göstərən Abdullah ibn Ubey kimi münafiqlər isə, çox yavaş hərəkət edir, irəli can atmırdılar. Həm də, mücahidlərin əhval-ruhiyyəsini pozmaq üçün əllərindən gələni edir; "Məhəmməd sizə, dayanmadan Qeysər və Kisranın xəzinələrini və'd edir. Halbuki, indi xəndək içində həbs olmuşuq. Qorxumuzdan dəstəmaz pozmağa belə gedə bilmirik. Allah və Rəsulu, bizi aldatmaqdan başqa bir şey və'd etmir!" deyərək fitnə-fəsad törətməyə çalışırdı. Çətinliyə düşdükləri zaman, evlərinə düşmənin hücum edə billəcəyini bəhanə edib vəzifə yerlərini tərk edirdilər. Münafiqlərin bu hərəkətləri də ayrı bir dərd və ayrı bir baş ağrısı olurdu.

Müşrik ordusu, ən qısa zamanda istədiklərinə nail olamq üçün bütün güclərini xərcləyir, ancaq şərəfli səhabələrin qəhrəmanca müdafiə olunmaları qarşısında heç bir şey edə bilmirdilər. Ən çox hücum etdikləri yer dar keçid idi. Sevgili Peyğəmbərimiz, burdan ayrılmır, Əshabını doyüşə təşviq edirdi. Cənabi Peyğəmbərimizin yanında döyüşmək şərəfinə nail olmaq istəyən Əshabi kiram, döyüş meydanında tayı-bərabəri görülməmiş qəhrəmanlıqlar göstərirdilər. Bir müddət müşriklər şiddətli bir ox atışına başladılar. Bütün hədəf, Kainatın hökmdarının olduğu çadır idi.

Sevgili Peyğəmbərimizin mübarək vücudunu bir zireh örtürdu. Mübarək başında isə dəbilqəsi vardı. Çadırın qabağında dimdik dayanır, döyüşün gedişatına görə Əshabına əmrlər verirdi. Müşriklər, bəzən ən zəif görünən yerə qəflətən hücum edir, mübarək səhabilər ora tələsib, din düşmənlərini qovuncaya qədər, həvəslə döyüşürdülər. Bu misli bərabəri görülməmiş mübarizə çox şiddətli olur, qəhrəman səhabilər başlarını yana çevirib baxacaq qədər döyüşməkdən vaxt tapa bilmirdilər. O gün, səhər açılınca

başlayan bu mübarizə, gecəyə qədər davam etdi. Namaz vaxtları gəldikcə, şanlı səhabilər; "Ya Rəsulallah! Namazımızı qıla bilmədik" deyir, aləmlərin sahibi, Kainatın hökmdarı, böyük bir kədərə qərq olaraq; "Vallahi, mən də qıla bilmədim" buyururdu. Xiftən namazı vaxt, ibadət etməyə mane olan müşrik sürüsünü çox şiddətli bir hücumla geri püsgürdüb dağıtdılar. Bu dağınıqlıqdan özlərinə gələ bilməyən Qureyşlilər və Qatafanlılar gecəni keçirtmək üçün qərargahlarına çəkildilər. Mücahidlər də sevgili Peyğəmbərimizin çadırının yanında toplaşdılar. O zaman, aləmlərə rəhmət olaraq göndərilən Fəxri aləm (səlləllahu əleyhi və səlləm), bəddua etmək adəti şərifləri deyilkən, namazda özünü saxlaya bilməyib; "Onlar, necə ki, günəş batıncaya qədər bizim başımızı qatıb namaz qılmağa imkan vermədilərsə, Allah Təala da onların evlərinə, qarınlarına və qəbirlərinə od doldursun!" buyuraraq, müşriklərə bəddua etdi. Qəza hökmünə keçən zöhr, əsr və axşam namazlarını qıldıqdan sonra, xiftən namazını qıldırdı.

Müşriklər, İslamı tamamiylə ortadan götürmək üçün etdikləri bu mübarizələrindən sonra, müsəlmanları gündüz məğlub edə bilməyəcəklərini başa düşdülər. Onlara görə yeganə çarə eyni şiddətlə gecə hücumları təşkil etməkdi. Müsəlmanlar ancaq bu şəkildə məğlub edilə bilərdi. Bu qərarlarını dərhal tətbiq edib, yəhudi Qureyza oğullarıyla birlikdə gecə basqınları təşkil etməyə başladılar. Əsgərlərini dəstələrə ayıran müşriklər, növbə və sıra ilə hücuma keçirdilər. Bu vəziyyət günlərlə davam etdi. Başda sevgili Peyğəmbərimiz və qəhrəman Əshabi kiram ac, yuxusuz, yorğun olduqları halda müdafiəyə davam etdilər. Heç bir düşmən əsgərinə xəndəkdən bu tərəfə keçməsinə imkan vermədilər. Can-başla edilən bu müdafiə, daha əvvəlki bütün qəzvələrdən daha qorxulu, daha şiddətli, daha çətin və daha əziyyətli idi.

Günlərdir döyüşməkdə olan müşriklərdə, ərzaq qıtlığı baş göstərməyə başladı. At və dəvələrin otarılması üçün də yerdə ot tapılmadığına görə ölməyə başlamışdı. Bu səbəblə müşriklərin sərkərdəsi, Dirar ibn Xəttab komandanlığında bir birliyi Qureyza yəhudilərinə ərzaq təmini üçün göndərmişdi. Kafirlərə hər şeylərini fəda edən yəhudilər, dərhal iyirmi dəvə yükü buğda, arpa, xurma və heyvanlar üçün saman yükləyib göndərdilər. Dirar, əsgərləri ilə sevinc içində qayıdarkən, Quba yaxınlarında bir qrup səhabi ilə qarşılaşdı. Qəhrəman Əshab dərhal hücum etdi. Qanlı bir döyüşdən sonra,

müşrikləri qaçırdaraq yüklü dəvələri Cənabi Peyğəmbərimizə gətirdilər. Cənabi Peyğəmbərimiz onlara çox dua etdi.[251]

Kainatın hökmdarı (səlləllahu əleyhi və səlləm), bir aya yaxın davam edən bu şiddətli döyüşdə, çox çətin vəziyyətə düşən qəhrəman Əshabına yazığı gəlir, onlara, atalarından qat-qat çox şəfqət göstərirdi. Şanlı Əshabının göstərdiyi bu fövqəladə cəhdlər qarşısında özü mübarək alnını torpağa qoyur, onlar üçün Allah Təalaya belə yalvarırdı ki; "Ey darda qalanların imdadına yetişən! Ey möhtac və çarəsiz qalmışların duasını qəbul edən Allahım! Mənim və Əshabımın vəziyyətlərini heç şübhə yoxdur ki, görür və bilirsən. Ya Rəbbi! Sən kafirləri məğlub et, aralarına nifaq toxumu ək və onlara qarşı bizə qələbə ehsan et!".

Sevgili Peyğəmbərimiz bu duasını, son günlərdə tez-tez təkrarlayırdı. Müşriklər, qıtlığın da verdiyi çətinliklərin tə'siri ilə ən qısa zamanda müsəlmanları məhv etmək üçün var güclərini xərcləyirdilər. Belə döyüşün qızğın getdiyi bir axşam, müşrik ordusundan, qəlbinə İslamın sevgisi düşmüş bir nəfər Cənabi Peyğəmbərimizin yanına gəldi. Bu, Qatafan qəbiləsindən Nuaym ibn Məs'ud idi. Sevgili Peyğəmbərimizə; "Ya Rəsulallah! Mən, Allahu Təalanın bir olduğunu və sənin haqq Peyğəmbər olduğunu təsdiq etmək üçün gəldim. Həmd olsun müsəlman olmaqla şərəfləndim. İndiyə qədər sizə qarşı döyüşmüşdüm. Bundan sonra da kafirlərə qarşı döyüşəcəyəm. Mənə nə əmr etsəniz hazıram! Ya Rəsulallah! Mənim müsəlman olduğumu qövmüm belə bilmir" dedi. Rəsuli əkrəm; "Bu kafirlərin arasına girib, nifaq toxumu əkərək onları bir-birindən ayıra bilərsən?" buyurdu. O da; "Ya Rəsulallah! Allah Təalanın yardımı ilə onları bir-birindən ayıra bilərəm. Ancaq, hər nə istəsəm deməyə icazə verərsən?" deyə sual verdi. Rəsulullah da; "Müharibə hiylədir, istədiyini deyə bilərən" buyurdu.

Nuaym ibn Məs'ud Həzrətləri əvvəlcə Qureyza yəhudilərinin yanına gəlib; "Mənim sizi sevdiyimi bilirsiniz. Ancaq bu danışacaqlarımız aramızda qalsın, heç kim bilməsin!" dedi. Yəhudilər də; "Heç kim bilməyəcək" deyərək and içdilər. Bundan sonra Həzrəti Nuaym; "Bu adamın (Cənabi Peyğəmbərimizin) işi, heç şübhə yoxdur ki, bir bəladır. Onun, Nadir və Qaynuqa oğullarına etdiyi məlumdur. Onları, el-obalarından sürgün edib çıxartdığını hamınız da gördünüz. İndi, Qureyşlilər və Qatafanlılar gəlib

---

[251] Vaqidi, *əl-Məğazi*, I, 467.

müsəlmanlarla döyüşməkdədirlər, siz də onlara yardım etməkdəsiniz. Günlərdir döyüşdüyümüz halda, hələ ki, bir nəticə hasil olmayıb. Belə davam edərsə, yəqin ki, mühasirə uzanacaq. Qureyşlilər və Qatafanlıların malları, mülkləri, el-obaları, uşaqları, sizin kimi burda deyildir. Bu döyüşdə əgər fürsət tapıb qalib gəlsələr qənimətləri toplayıb gedərlər. Şayəd məğlub olsalar çıxıb gedərlər. Sizi, onlarla başbaşa qoyacaqlar. Halbuki, sizin müsəlmanlara qalib gələ biləcək qədər nə gücünüz, nə də qüvvəniz var. Döyüşün hal-hazırdakı vəziyyəti isə, müsəlmanların qələbə çalacağını göstərməkdədir. Dediyim kimi olsa, müsəlmanlar sizi qılıncdan keçirtmədən əl çəkməzlər. Onun üçün tələsik bir tədbir almağımız lazımdır!” dedi.[252]

Bu sözlərə böyük bir həyəcan və qorxu ilə qulaq asan yəhudilər, Həzrəti Nuaymın onlara canı yanmasından çox razı qaldılar və; “Sən bizə dostluğunu layiqiylə göstərdin. Bizə, necə bir tədbir almaq lazım gəldiyini də de” dedilər. Elə bunu gözləyən Nuaym ibn Məs’ud; “Doğrusu budur ki, Qureyş və Qatafanın başda gələnlərindən bəzilərini girov götürmədikcə, müsəlmanlarla əsla döyüşə girməyin! Girovlar sizin yanınızda olduğu müddətdə döyüşdən qaçıb gedə bilməzlər!” dedi. Bunun da çox gözəl bir tədbir olduğunu qəbul edən yəhudilər, ona təşəkkür edib razılıqlarını ifadə etdilər.

Həzrəti Nuaym, yəhudilərdən ayrılıb bir başa Qureyş qərargahına getdi. Başçılarına; “Mənim Məhəmmədə olan düşmənliyimi və sizləri də nə qədər çox sevdiyimi bilirsiniz. Öyrəndiyim bir şeyi, dostluğumuzun xətrinə sizə deməyi böyük bir vəzifə bildim. Ancaq, bu dediklərimi heç kimin bilməyəcəyinə söz verib and içməlisiniz!” dedi. Onlar da and içib maraqla; “Danış görək” dedilər. O; “Xəbəriniz olsun ki, Qureyza yəhudiləri, sizinlə müttəfiq olduqlarına peşman olmuş və Məhəmmədə xəbər göndərmişlər; “Qureyşdən və Qatafanlıların başda gələnlərindən boyunlarını vurmaq üçün girovlar götürüb sənə verək. Sonra səninlə müttəfiq olub müşriklərin kökünü quruduncaya qədər döyüşək! Ancaq, qardaşlarımız Nadir oğullarını bağışlayıb el-obalarına geri qayıtmalarını təşkil etməlisən!” demişlər. Məhəmməd də, yəhudilərin bu istəklərini qəbul etmiş! Əgər yəhudilər, sizdən girov istəsə, nə badə qəbul edəsiniz, yoxsa hamısını öldürəcəklər! Bu danışdıqlarımı heç kim bilməsin!” dedi. Qureyşlilər, bu əhəmiyyətli xəbər üçün Həzrəti Nuayma çox təşəkkür etdilər.

---

[252] İbn Hişam, *əs-Sirə*, II, 228; Vaqidi, *əl-Məğazi*, I, 481; Suheyli, *ər-Rövzul-Unf*, III, 433; Kəttani, *Təratibul-İdariyyə*, I, 543.

Nuaym ibn Məs'ud ordan ayrılıb, Qatafanlıların yanına gəldi. Qureyşlilərə dediklərini onlara da dedi.

Bir gün sonra Qureyş komandanı Qureyza oğullarına; "Artıq burda qalmaq bizim üçün çox çətinləşdi. Çünki, hava soyuq, heyvanlarımız aclıqdan tələf olub ölməkdədir. Bu gecə yaxşı bir hazırlıq görüb sabah bir yerdə şiddətli bir hücuma keçək" deyə xəbər göndərdi. Yəhudilər də; "Biz, həm Şənbə günü döyüşmərik, həm də sizinlə birlikdə döyüşmək üçün, başda gələnlərinizdən bir neçə nəfəri bizə girov olaraq verməyiniz lazımdır. Əgər mühasirə müddəti uzanar və siz aciz qalıb öz ölkənizə qayıtsanız, bizi Muhammədə təslim etmiş olarsınız. Şayəd, girov versəniz, bizi tək qoyub getməzsiniz!" dedilər. Bu xəbər, Qureyş komandanına çatan kimi; "Nuaym ibn Məs'udun sözü doğru imiş!" dedi və yəhudilərə yenə xəbər göndərib; "Biz sizə bir adamımızı belə girov olaraq vermərik. Əgər, sabah gəlib bizimlə birlikdə döyüşsəniz nə gözəl, yoxsa biz öz el-obamıza qayıdacağıq. Siz də Məhəmməd və Əshabı ilə təkbətək qalarsınız!" dedilər.

Bunu eşidən Qureyza yəhudiləri, Nuaymın sözünün doğru çıxdığını düşünüb; "Bu vəziyyətdə, biz də sizinlə müttəfiq olub müsəlmanlara qarşı doyüşmərik..." dedilər. Beləcə hər iki tərəfin də ürəklərinə qorxu düşdü.[253]

Cənabi Peyğəmbərimizə, Cəbrayıl əleyhissalam gəlib; Allah Təalanın, müşrikləri qasırğa ilə darmadağın edəcəyini müjdələdi. Bundan sonra Aləmlərin sahibi, mübarək dizləri üstündə oturub, mübarək əllərini qaldıraraq; "Allahım! Mənə və Əshabıma yazığın gəldiyi üçün sənə şükr edirəm" deyərək, Allah Təalaya şükr etdi. Sonra qəhrəman Əshabına müjdəni xəbər verdi.

O gecə Şənbə gecəsi idi. Ətrafı zil qaranlıq bürümüş, göz-gözü görmürdu. Həm də soyuq bir ayaz və dalınca da çox qüvvətli bir külək əsməyə başladı. Bu gecəni, Huzeyfə ibn Yəman Həzrətləri belə nəql etmişdir ki "Elə bir gecə idi ki, o zamana qədər ondan daha qaranlıq bir gecə görməmişdik. Bu zil qaranlıqla birlikdə, göy gurultusuna oxşar bir gurultuyla qorxunc bir külək də əsməyə başlamışdı. Bu əsnada, müşrik ordusunun səksəkəyə və qorxuya düşüb, öz aralarında ixtilaf etdiklərini Cənabi Peyğəmbərimiz bizə xəbər verdi. Biz, şiddətli soyuqdan, aclıqdan və gecənin

---

[253] İbn Hişam, *əs-Sirə*, II, 228; Vaqidi, *əl-Məğazi*, I, 481; Suheyli, *ər-Rövzul-Unf*, III, 433.

dəhşətindən ayağa qalxa bilmir, oturduğumuz yerdə üstümüzə bir şey örtərək gözləyirdik.

Rəsulullah namaz üçün qalxdı və gecənin bir hissəsini namaz qılaraq keçirtdikdən sonra, üzünü bizə tutaraq belə buyurdu; "Aranızdan, müşrik ordusunun yanına gedib, vəziyyətlərindən xəbər tutaraq, kim məni agah edə bilər? Bu xəbəri gətirənin Cənnətdə mənə dost olmasını Allah Təaladan diləyərəm". Orada olanlar şiddətli aclıq və soyuqdan ayağa qalxa bilmədilər. Sonra Rəsulullah, mənim yanıma gəldi. Soyuqdan və aclıqdan dizlərim üstündə çöküb büzüşərək otururdum. Rəsulullah mənə toxunaraq; "Sən kimsən?" buyurdu. "Mən Huzeyfəyəm ey Rəsulallah" dedim. Rəsulullah; "Get, bu qövm nə edir bir bax! Yanıma qayıdıb gəlincəyə qədər onlara ox və daş atma, nizə və qılınc vurma. Sən mənim yanıma qayıdıb gəlincəyə qədər, nə soyuqdan, nə istidən zərər görməyəcək, əsir tutulub, işgəncəyə də düçar olmayacaqsan" buyurdu.

Qılıncımı və yayımı aldım, getmək üçün hazırlandım. Rəsulullah, mənim üçün; "Allahım, onu qabaqdan-arxadan, sağdan-soldan, üstdən-altdan qoru" deyərək dua buyurdu.

Müşriklərə tərəf getməyə başladım. Sanki hamamda yol gedirdim. Vallahi, ürəyimdə nə bir qorxu, nə bir titrəmə, nə də bir səksəkə vardı. Axırda, müşriklərin ordugahına çatdım. Sərkərdələri və başda gələnləri bir səngərdə ocaq qalayıb isinirdilər. Əbu Süfyan; "Buradan çıxıb getməliyik" deyirdi. Dərhal ağlıma, onu orda öldürmək gəldi. Ox çantamdan bir ox çıxardıb yayıma qoydum. Ocağın işığından faydalanıb onu vurmaq istədim. Elə atırdım ki, Rəsulullahın; "Mənim yanıma qayıdıb gəlincəyə qədər, bir hadisə yaratma" buyurduğunu xatırladım və öldürməkdən əl çəkdim. Bundan sonra, özümü çox cəsarətli hiss etdim. Müşriklərin yanına gedib ocağın ətrafında oturdum. Görülməmiş dərəcədəki şiddətli külək və Allahu Təalanın görünməyən ordusu (mələklər), onlara edəcəyini edirdi. Küləkdə, qab-qacaqları çevrilir, ocaqları və işıqları sönür, çadırları başlarına yıxılırdı. Bu dəmdə, müşrik ordusunun komandanı Əbu Süfyan ayağa durub; "Aranızda casuslar ola bilər, diqqətli olun. Hamı yanındakının kim olduğuna baxsın! Hamı yanında oturanın əlini tutsun" dedi. Əbu Süfyan, aralarına bir casusun girdiyini hiss etmişdi. Dərhal əllərimi uzadıb, sağımda və solumda oturan iki nəfərin əllərindən tutub, onlardan əvvəl adlarını soruşdum. Beləcə onların məni tanımalarına imkan vermədim.

Nəhayət Əbu Süfyan, ordusuna belə xitab etdi; "Ey Qureyşlilər! Sizin burada qalmağınız əbəsdir. Atlar, dəvələr qırılmağa başladı. Qıtlıq baş alıb gedir. Küləyin başımıza nə gətirdiyini də görürsunuz. Vaxt itirmədən köçüb gedin! Budur, mən də gedirəm!" deyərək dəvəsinə mindi. Müşrik ordusu nizam-intizamsız bir halda toplanıb Məkkəyə tərəf hərəkət etdi. Üstlərinə qum və çınqıl yağırdı.[254]

Müşrik ordusu çıxıb gedincə, mən də Rəsulullahın yanına gəldim. Yolun yarısına gəldiyimdə qarşıma təxminən iyirmi ağ əmmamə geyinmiş süvari (mələklər) çıxdı. Mənə; "Rəsulullaha xəbər ver. Allah Təala düşməni darmadağın etdi..." dedilər. Rəsulullahın yanına gəldiyimdə, bir palaz üstündə namaz qılırdı. Ancaq mən qayıdan kimi getməmişdən qabaqkı üşümə və titrəmə halım yenə başlamışdı. Rəsulullah, namazdan sonra, nə xəbər gətirdiyimi soruşdu. Mən də, müşriklərin nizam-intizamsız hallarını və çıxıb getdiklərini xəbər verdim. Rəsulullah bu xəbərə çox sevindi və gülümsədi. Çox yuxusuz qalmışdıq. Peyğəmbərimiz, məni də yanına oturdub, üstündəki palazın bir ucunu üstümə örtdü. O gecə bu şəkildə gecəni keçirtdik. Səhər vaxtı Rəsulullah məni oyandırdı. Səhər olunca, müşrik ordusundan əsər qalmamışdı. Onlar, Məkkəyə yaxınlaşıncaya qədər arxalarınca şiddətli bir külək əsdi və arxalarından da dayanmadan təkbir səsləri eşitdilər.

Qureyş müşrikləri, qərargahlarını tərk edib qaçınca, onlara boyun əyib gələn digər müşrik qəbilələr də Mədinəni tərk etdilər. Yaddan çıxarda bilməyəcəkləri çox böyük bir məğlubiyyətin kədər və üzüntüsünə boğuldular. Onlar bu məğlubiyyətə düçar olarkən, Kainatın hökmdarı (səlləllahu əleyhi və səlləm) və şanlı Əshabı (Allah onlardan razı olsun), Allah Təalaya şükr səcdəsinə qapanır, həmd və şükr edirdilər. Mücahidlər; "Allahu əkbər! Allahu əkbər!" sədaları altında, nurlu Mədinənin yolunu tutdular. Uşaqlar Mədinə küçələrinə tökülmüş, Kainatın hökmdarını və mübarək atalarını, əmilərini, dayılarını, ərlərini qarşılamağa çıxmışdılar. Cənabi Peyğəmbərimiz də onlara baxaraq təbəssüm edirdi...

Xəndək qəzvəsində altı şəhid verilmişdi... Bu qəzvə haqqında Allah Təala, ayələrdə məalən buyurur ki; "Allah Təala (Xəndək doyüşündəki) o kafirləri, heç bir xeyirə, qələbəyə qovuşamadıqları halda, öz qəzəbiylə dala qaytardı. Beləcə Allah Təala,

[254] Vaqidi, *əl-Məğazi*, I, 489.

(mələklər və küləklə) döyüşdə (müvəffəqiyyət əldə edə bilmələri üçün) mö'minlərə bəs etdi. Allah Təalanın hər şeyə gücü yetər. O, hər şeyə qalibdir".[255]

"Ey iman edənlər! Allah Təalanın üzərinizdəki ne'mətlərini xatırlayın. O, sizin üstünüzə (Xəndək doyüşündə) ordular tökmüşdü və biz onların üstünə bir külək və sizin görmədiyiniz (mələklərdən) ordular göndərmişdik...".[256]

Bu doyüşdən sonra sevgili Peyğəmbərimiz; "Artıq növbə sizindir. Bundan sonra Qureyş sizin üstünüzə gələ bilməz" buyurdu.

## Bəni Qureyza yəhudiləri

Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Mədinəyi münəvvərəyə qayıdınca, Həzrəti Aişə anamızın evinə gəldi. Silahlarını və zirehini çıxartdı. Mübarək bədəni tozlanmışdı. Yuyundu. O əsnada Həzrəti Dihyə surətində, əynində zirehi və silahları olduğu halda bir süvari gəldi. Bu Cəbrayıl əleyhissalam idi. Cənabi Peyğəmbərimizin yanına gəldiyində; "Ey Allah Təalanın Rəsulu! Cənabi Haqq, vaxt itirmədən Qureyza oğullarının üstünə hücum etməyini sənə əmr edir!" deyərək əmri çatdırdı. Kainatın hökmdarı, Həzrəti Bilalı çağırdaraq, Əshabi kirama xəbər vermək üçün bu əmri verdi; "Ey Əshabım! Qalxın, atlarınıza, dəvələrinizə minin! İtaət edənlər, zöhr namazını Qureyza oğullarının obasında qılsınlar!"

Həbibi Əkrəm, dərhal zirehini geyinib qılıncını taxdı. Dəbilqəsini mübarək başına keçirdib, qalxanını belinə, nizəsini də əlinə aldı. Sonra atına mindi. Əshabının yanına gəlib, Həzrəti Əliyə İslam bayrağını verərək, öncü birliyin başında Qureyza yəhudilərinin qalasına göndərdi. Hər zaman olduğu kimi Abdullah ibn Ümmi Məktumu Mədinədə vəkil olaraq qoydu.[257]

Şanlı Əshab, sevgili Peyğəmbərimizi aralarına alaraq Mədinədən; "Allahu əkbər! Allahu əkbər!" təkbir sədaları altında ayrıldılar. Yolda Qanim oğulları ilə qarşılaşdılar. Silahlanaraq Rəsulullahı gözləyirdilər. Cənabi Peyğəmbərimiz onlara; "Sizə kimsə rast gəldi?" buyurdu. Onlar da; "Ya Rəsulallah! Bizə Dihyəyi Kəlbi rast gəldi. Yəhərlənmiş ağ bir qatıra minmişdi. O qatırın belinin üstündə atlasdan bir parça

---

[255] əl-Əhzab 33/25.
[256] əl-Əhzab 33/9.
[257] İbn Hişam, *əs-Sirə*, II, 234; Vaqidi, *əl-Məğazi*, I, 497; İbn Sə'd, *ət-Təbəqat*, II, 74; Suheyli, *ər-Rövzul-Unf*, III, 436.

vardı" dedilər. Sevgili Peyğəmbərimiz onlara; "Bu Cəbrayıldır. Bəni Qureyzanın üstünə göndərildi. Onların qalalarını sarsıtsın və canlarına qorxu salsın deyə..." buyurdu. Qureyza yəhudilərinin qalasına çatıncaya qədər, İslam ordusunun sayısı üç mini aşmışdı.

Həzrəti Əli, İslam bayrağını Qureyza yəhudilərinin qalasının qabağında tikəltdi. Bunu görən yəhudilər, Cənabi Peyğəmbərimiz əleyhində danışmağa başladılar. Həzrəti Əli gedib vəziyyəti Rəsulullaha dedi. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) üç min əsgərlə oraya gəldikdən sonra, mərhəmət göstərib onları İslama də'vət etdi. Yəhudilər, bu gözəl təklifi qəbul etmədilər. Sevgili Peyğəmbərimizin; "Elə isə, Allah Təala və Rəsulunun əmrinə boyun əyərək qaladan çıxıb təslim olun" əmri şərifini də rədd etdilər. Bundan sonra Aləmlərin hökmdarı, oxçuların ustası Sə'd ibn Əbi Vəqqas Həzrətlərinə; "Ey Sə'd! Yaxınlaş və onları oxa tut!" buyurdu. Həzrəti Sə'd və digər oxçular, ox qablarındakı oxları, təkbir sədaları altında yəhudi qalasına atmağa başladılar. Onlar da ox və daş ataraq döyüşü başlatdılar.

Müsəlmanların zəif vaxtlarında, arxadan vuran və həsəd etdiklərindən Məhəmməd əleyhissalamın Peyğəmbərliyini qəbul etməyən bu yəhudi camaatının qala qapısını açıb meydana çıxmağa cəsarətləri yox idi.

Döyüş mühasirə halında davam edirdi. İslam əsgərləri arasında olan münafiqlər də qalaya gizlicə xəbər göndərərək; "Nə badə təslim olasınız! Mədinədən getməyinizi istəsələr belə qəbul etməyin! Əgər döyüşməyə davam etsəniz, biz sizə var gücümüzlə kömək edər, heç bir şeyimizi sizdən əsirgəmərik. Şayəd, sizi Mədinədən çıxartsalar, biz də sizinlə birlikdə çıxıb gedərik!" deyirdilər. Bu xəbər ilə münafiqlərin köməyini gözləyən yəhudilər ruhlanaraq müdafiəyə davam etdilər. Mühasirə uzandı, bir ay keçməsinə baxmayaraq münafiqlərdən kömək gəlmədi. Ürəklərinə qorxu düşüb, razılaşma istədiklərini bildirdilər.

Razılıq üçün Nəbbaş ibn Qeys adında bir yəhudi Rəsulullahın hüzuruna gəlib; "Ya Məhəmməd! Nadir oğullarına göstərdiyiniz mərhəməti bizə də göstərin. Malımız və silahlarımız sizin olsun! Yetər ki, bizi öldürməyin. Uşaqlarımız və qadınlarımızı da özümüzlə götürüb el-obamızdan çıxmağımıza icazə verin. Silahlardan başqa, hər ailə üçün bir dəvə yükü götürməyimizə də icazə verin!" dedi. Aləmlərin hökmdarı; "Xeyir, bu təklifi qəbul edə bilmərəm!" buyurdu. Bu dəfə də; "Malımız sizin olsun. Bizi öldürməyin! Qadınları və uşaqlarımızı götürməyə icazə verin!" dedi. Sevgili

Peyğəmbərimiz; “Xeyir! Qeydsiz və şərtsiz hökmümə boyun əyməkdən, itaət edib təslim olmaqdan başqa çarəniz yoxdur!” buyurdu. Yəhudi Nəbbaş qanı qara bir halda qalaya qayıdıb danışıqları ordakılara da dedi. Qureyza oğulları, bu dəfə böyük bir matəm və üzüntüyə qərq oldular.[258]

Başçılarından Kə’b ibn Əsəd, insafa gəlib qövmünə e’tiraf edərək belə təklif etdi ki; “Ey qövmüm! Gördüyünüz kimi, başımıza böyük bir fəlakət gəlmişdir. Bu vəziyyətdə sizə üç nəsihətim olacaq. Bunlardan istədiyinizi seçib, ona görə hərəkət edə bilərsiniz! Birincisi, bu Zata tabe olub, peyğəmbərliyini qəbul edək! Vallahi Onun, Allah tərəfindən göndərilən və kitablarımızda xüsusiyyətlərini gördüyümüz peyğəmbər olduğu hamımıza məlumdur. Əgər Ona iman etsək, qanımız, uşaqlarımız, qadınlarımız və mallarımız bizdə qalar. Bizim Ona tabe olmamağımızın yeganə səbəbi, Ərəblərə qarşı duyduğumuz qısqanclıq və Onun İsrail oğullarından olmamasıdır. Halbuki, bu Allahın biləcəyi bir işdir. Gəlin, Ona tabe olaq!” Yəhudilər hamısı birdən e’tiraz etdilər və; “Xeyr! Biz, bunu qəbul etmərik və bizdən başqasına tabe olmarıq!” dedilər.

Bu dəfə Kə’b ikinci təklifini etdi; “Hamımız uşaqlarımızı və həyat yoldaşlarımızı öldürüb fikrini çəkməyəcəyimiz heç kim qalmayınca, müsəlmanların üstünə hücum edək və ölüncəyə qədər döyüşək!” Yəhudilər bunu da rədd etdilər.

Kə’b üçüncü təklifində; “Bu gecə Şənbə gecəsidir. Müsəlmanlar, bizim bu gecədə döyüşməyəcəyimizi bildikləri üçün bizdən arxayın ola bilərlər. Qılınclarımızı sıyırıb, qala qapısından birlikdə çıxaq. Belə bir basqın ilə bəlkə qalib gələ bilərik!” dedi. Yəhudilər; “Biz, Şənbə günü işləmək qadağasını tapdalaya bilmərik!” deyərək, bu təklifi də rədd etdilər. Təkcə, aralarından Əsid və Sə’ləbə qardaşları, bir də əmilərinin oğlu Əsəd ilk təklifi qəbul edib müsəlman olmaqla şərəfləndilər. Qaladan çıxıb Əshabi kiramın arasına girdilər.[259]

Yəhudilər, öz aralarında uzun müddət müzakirə etdilər. Nəticədə təslim olmağı seçərək, Cənabi Peyğəmbərimizdən öz haqlarında hökm vermək üçün bir nəfəri hakim tə’yin etməsini istədilər. Rəsulullah da; “Əshabımdan istədiyiniz adamı hakim seçin” buyurdu. Onlar da; “Biz, Sə’d ibn Muazın verəcəyi hökmə razı olarıq” dedilər. Cənabi Peyğəmbərimiz bu təklifi qəbul edib Sə’d ibn Muaz Həzrətlərinin gətirilməsini əmr etdi.

---

[258] Vaqidi, *əl-Məğazi*, I, 460.
[259] İbn Hişam, *əs-Sirə*, II, 235; Vaqidi, *əl-Məğazi*, II, 501; Suheyli, *ər-Rövzul-Unf*, III, 439; İbn Kəsir, *əs-Sirə*, III, 230.

Sə'd ibn Muaz, Xəndək qəzvəsində ağır yaralanmışdı. Rəsulullah, onu Məscidi Nəbidə bir çadır içində müalicə etdirirdi. Hakim seçilincə, xərəklə Həzrəti Sə'di Qureyza qalasına apardılar. Yolda Həzrəti Sə'd öz-öznə; "Vallahi, Allah Təalanın yolunda heç kimin qınağına qulaq asmayacağam!" deyirdi. Rəsulullahın hüzurunda xərəkdən düşürtdülər. Cənabi Peyğəmbərimiz; "Ey Sə'd! Bunlar, sənin hökmünə görə təslim olmağı qəbul etdilər. Buyur, onlar haqqındakı hökmünü mənə bildir" buyurdu. Sə'd ibn Muaz isə; "Canım sənə fəda olsun ey Rəsulallah! Heç şübhə yoxdur ki, hökm verməyə Allah Təala və Rəsulu daha layiqdir" dedi. Rəsulullah da; "Bunlar haqqında hökm verməyi Allah Təala sənə əmr etmişdir" buyurdu. Həzrəti Sə'd yəhudilərdən, hökmünə razı olacaqlarına dair qət'i söz aldı. Hər iki tərəf də veriləcək hökmü maraqla gözləməyə başladılar. Bundan sonra Həzrəti Sə'd üstünlüyünü göstərən, qanı donduran, şan-şöhrətinə layiq olan bu hökmü açıqladı; "Mənim hökmüm odur ki, ağlı başında olan və həddi-büluğa çatan bütün kişilərin boynu vurulsun! Qadınları və uşaqları əsir alınsın, malları da müsəlmanlar arasında bölüşdürülsün!".

Bu qət'i hökm qarşısında yəhudilər donub qaldılar. Çünki, öz kitablarında qudurğanlıq edənlərə verilən cəza eyniylə belə idi ki; "Bir şəhərə döyüş e'lan etdiyində onları sülhə də'vət et. Bunu qəbul edib qapılarını açsalar, içindəkilərin hamısı sənə xərac versinlər və xidmət etsinlər. Şayəd, döyüşməyə qərar versələr, onları mühasirə et. Allah Təalanın ehsanı ilə onlara qalib gəldiyin zaman, kişilərinin hamısını qılıncdan keçirt. Qadınlarını, uşaqlarını və mallarını qənimət olaraq götür!" deyə yazırdı.

Sə'd ibn Muaz Həzrətlərinin verdiyi hökmün ilahi hökmə münasib gəldiyi üçün, aləmlərin sahibi sevgili Peyğəmbərimiz onu təbrik edib; "Sən, onlar haqqında Allah Təalanın yeddi qat göyün üstündə, Lövhi məhfuzdakı hökmünə münasib hökm verdin!" buyuraraq ondan razı qaldığını ifadə etdi.

Yəhudilər, öz kitablarında bildirilən bu hökmə e'tiraz edə bilmədilər. Ağlı başında olan və həddi-büluğa çatan bütün kişiləri bir yerə yığıb əlləri bağlandı və hökm yerinə yetirildi. Uşaqlar, qadınlar və mallar Əshabi kiram arasında bölüşdürüldü.[260]

Beləcə, müsəlmanların ən çətin vaxtlarında onlara xəyanət edən, bağlanılan bütün müqavilələri pozan, Cənabi Peyğəmbərimizi uşaqlığından ta bu yaşına qədər mübarək bədəni şərifini məhv etməyə fürsət axtaran bu qövm, Mədinədən təmizləndi.

---

[260] İbn Sə'd, *ət-Təbəqat*, II, 75.

Əshabi kiram səadətlə, hüzur və sevinc içində nurlu Mədinənin yolunu tutdular...

Əsirlər arasında bir qadın, müsəlman olmaq səadətinə qovuşdu. Onun bu hərəkətinə çox sevinən sevgili Peyğəmbərimiz, onun da sevinməsi, Cənnətdə dərəcəsinin çox uca olması üçün mərhəmət edərək onu özünə həyat yoldaşı seçdi. Bu, Həzrəti Reyhanə anamız idi.[261]

## Sə'd ibn Muazın şəhadəti

Sə'd ibn Muaz Bəni Qureyza yəhudiləri haqqındakı hökmü verdikdən sonra, təzədən çadırına qayıtdı. Yarası daha da pisləşib, vəziyyəti ağırlaşmışdı. Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) yanına gəlib onu qucaqladı və; "Allahım! Sə'd, sənin rizan üçün, sənin yolunda cihad etdi. Rəsulunu da təsdiq etdi. Ona rahatlıq ehsan et..." buyuraraq dua etdi. Sə'd ibn Muaz Həzrətləri, sevgili Peyğəmbərimizin bu mübarək sözlərini eşidincə gözlərini açıb, "Ya Rəsulallah! Sənə salam və ehtiramımı çatdırıram. Sənin, Allahu Təalanın Peyğəmbəri olduğuna şəhadət edirəm" deyə yavaşca deyə bildi. Bundan sonra Sə'd ibn Muazın yaxınları, onu qaldığı çadırdan Əbdüləşhəl oğullarının evinə apardılar. O gecə vəziyyəti çox ağırlaşmışdı. Cəbrayıl əleyhissəlam Cənabi Peyğəmbərimizə gəlib; "Ya Rəsulallah! Bu gecə sənin ümmətindən vəfat edib vəfatı mələklər arasında müjdələnən kimdir?" soruşdu. Bundan sonra Kainatın hökmdarı dərhal Sə'd ibn Muazın halını soruşdu. Evinə aparıldığından xəbər tutdu. Cənabi Peyğəmbərimiz, yanında Əshabi kiramdan bəziləriylə birlikdə Sə'd ibn Muazın yanına getdi. Yolda çox sür'ətli getmələri səbəbiylə Əshabi kiram; "Yorulduq ya Rəsulallah!" dedilər. Cənabi Peyğəmbərimiz də; "Mələklər, Hənzələnin cənazəsinə bizdən qabaq gəldikləri kimi, Sə'din də cənazəsində bizdən qabaq hazır olacaqlar. Biz onlardan daha tez çata bilməyəcəyik" buyuraraq sür'ətli getmələrinin səbəbini izah etdi. Cənabi Peyğəmbərimiz Sə'd ibn Muazın yanına gəlincə, o artıq vəfat etmişdi. Başının üstündə dayanıb, Sə'd ibn Muazın künyəsini deyərək; "Ey Əbu Əmr! Sən başçıların ən yaxşısı idin. Allah Təala sənə səadət, bərəkət və ən xeyirli mükafat versin! Allah

---

[261] İbn Hişam, *əs-Sirə*, II, 245; Vaqidi, *əl-Məğazi*, II, 519; İbn Sə'd, *ət-Təbəqat*, II, 75; Suheyli, *ər-Rövzul-Unf*, III, 449; İbn Kəsir, *əs-Sirə*, III, 242.

Təalaya verdiyin sözü yerinə yetirdin. Allah Təala da sənə və'd etdiyi şeyi verəcəkdir!" buyurdu. Bu əsnada, Sə'd ibn Muazın anası ağlayaraq bu beyti oxudu.[262]

*"Necə dözə bilər, vah yazıq anasına!*
*Təhəmmul istər, ağlaram başıma gələnə!"*

Əsləm ibn Haris də belə nəql etmişdir ki; "Rəsulullah, Sə'd ibn Muazın evinə gəldi. Biz qapıda gözləyirdik. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) içəri girdi, iri adımlarla qabağa getdi. Biz də dalınca gedirdik. Rəsulullah ayaq saxlamağımızı işarə edincə dayandıq və dala çevrildik. İçərdə Sə'din cənazəsindən başqa heç kim yox idi. Rəsulullah, içərdə bir müddət dayandıqdan sonra çölə çıxdı. Maraqla; "Ya Rəsulallah! Addımlarınızı iri ataraq getməyinizin hikməti nədir?" deyə soruşdum. Bundan sonra; "Belə bir basabas bir məclisdə heç olmamışdım. (Mələklər dolmuşdu). Mələyin biri məni qanadı üstünə götürdükdən sonra otura bildim" buyurdu. Sonra; "Sə'd ibn Muazın künyəsini deyərək; "Sənə nuş olsun ya Əba Əmr! Sənə nuş olsun ya Əba Əmr! Sənə nuş olsun ya Əba Əmr" buyurdu.

Onun vəfatına Rəsulullah və Əshabi kiram çox kədərləndi və göz yaşı töküb ağladılar. Cənazəsində bütün Əshabi kiram toplandı. Sevgili Peyğəmbərimiz meyyit namazını qıldırdı, cənazəsini daşıdı. Əshabi kiram Sə'd ibn Muazın cənazəsini daşıyarkən; "Ya Rəsulallah! Biz, belə asan daşınan cənazə görmədik!" dedilər. Bundan sonra Cənabi Peyğəmbərimiz; "Mələklər enərək onu daşıyırlar!" buyurdu.

Cənazəsi gedərkən, münafiqlər d pisləmək üçün; "Nə qədər da yüngüldür!" dediklərində, sevgili Peyğəmbərimiz; "Sə'din cənazəsinə yetmiş min mələk endi. İndiyə qədər yer üzünə bu qədər qələbəlik olaraq enməmişdilər" buyurdu.

Əbu Səid əl-Xudri, babasının belə dediyini nəql etmişdir ki; "Sə'd ibn Muazın qəbrini qazanlardan biri də mən idim. Onun üçün qəbir qazmağa başlayınca, ətrafa qəbirdən müşg iyi yayıldı!" Şurahbil ibn Həsənə də belə demişdir ki; "Sə'd ibn Muaz dəfn edilirkən, biri qəbrindən bir ovuc torpaq götürmüşdü. Sonra onu evinə aparınca, o torpaq müşg oldu. Cənazəsi qəbrə qoyularkən, Peyğəmbərimiz qəbrinin başında oturub

[262] İbn Hişam, *əs-Sirə*, II, 250.

mübarək gözləri yaşardı və mübarək saqqalını əliylə tutub çox kədərləndi. "Sə'd ibn Muazın ölümü səbəbiylə Ərş titrədi" buyurdu.

Bir dəfə, Peyğəmbərimizə çox qiymətli bir paltar hədiyyə edilmişdi. Əshabi kiram; "Bu, nə qədər qəşəngdir" dediklərində; "Sə'd ibn Muazın Cənnətdəki dəsmalları bundan daha qəşəngdir" buyurmuşdu.

Hicrətin beşinci ilinin bəzi əhəmiyyətli hadisələri də bunlardır; Rəsulullah, Dumətul-Cəndəldə yaşayan və Şama gedib-gələn yolçuları narahat edən və Mədinəyi münəvvərəni təhlükə altında qoyan qəbilələr üzərinə min nəfərlik bir ordu ilə səfərə çıxdı. İslam ordusunun gəldiyini xəbər tutan düşmən qəbilələri qaçdılar. Burda bir-neçə gün qaldıqdan sonra Mədinəyə qayıtdılar.[263]

Rəsuli Əkrəm, Zilqə'də ayında Zeynəb bint Cahş ilə evləndi.[264] Bu ildə hicab ayəti endi və müsəlman xanımlara örtünmə əmr edildi.[265] Ayrıca, münafiqlər Həzrəti Aişə anamıza iftira atdılar. Bəzi müsəlmanlar da bu iftiralara aldanmışdı. Ayələr endirilərək münafiqlərin iftiraları ortaya çıxardıldı və Həzrəti Aişə mədh edildi.[266] Mədinəyi münəvvərə yaxınlarında yaşıyan Muzeynə qəbiləsi hey'ət göndərərək müsəlman oldu və muhacirlərdən sayıldı.[267] Yenə bu ildə zəlzələ və ay tutulması baş verdi. Həc də bu ildə fərz buyuruldu.

*Könül xun oldu şövqündən boyandım ya Rəsulallah,*
*Necə bilməm bu nirana dözdüm ya Rəsulallah.*
*Əzəl bəzmində bir dinməz fəğandım ya Rəsulallah,*
*Cəmalınla fərahnak et ki, yandım ya Rəsulallah.*

*Yanan qəlbə dəvasan sən, tapılmaz bir şəfasan sən,*
*Muəzzəm bir səxasən sən, dilərsən rahnumasan sən.*
*Həbibi Kibriyasan sən, Məhəmməd Mustafasan sən,*

---

[263] Vaqidi, *əl-Məğazi*, I, 403; İbn Sə'd, *ət-Təbəqat*, II, 62; Suheyli, *ər-Rövzul-Unf*, III, 414; İbn Kəsir, *əs-Sirə*, III, 177.
[264] İbn Sə'd, *ət-Təbəqat*, III, 42; Təbəri, *Tarix*, II, 231.
[265] Buxari, "Tövhid", 22; İbn Sə'd, *ət-Təbəqat*, VIII, 106; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 237.
[266] Buxari, "Məğazi", 34; Müslim, "Tövbə", 68; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 194; Vaqidi, *əl-Məğazi*, II, 431.
[267] İbn Sə'd, *ət-Təbəqat*, I, 291; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 545.

*Cəmalınla fərahnak et ki yandım ya Rəsulallah.*

*Gül açmaz, çağlayan axmaz, İlahi nurun olmasa,*
*Sönər aləm, nəfəs qalmaz, fələk mənzurun olmasa.*
*Firaq ağlar, vüsal ağlar, əzəl məsturun olmasa,*
*Cəmalınla fərahnak et ki, yandım ya Rəsulallah.*

*YAMAN DƏDƏ*

# HÜDEYBİYYƏ SÜLHNAMƏSİ

Xəndək qəzvəsindan sonra, İslam dövlətinin gücünü ətrafda yerləşən qəbilələrin bir hissəsi qəbul etdi. Artıq müsəlmanlarla dostluq qurmağın, hətta müsəlmanlığı qəbul etməyin ən doğru yol olacağını düşünməyə başlamışdılar. Bəziləri Cənabi Peyğəmbərimizin hüzuruna gəlib müsəlman olmaqla şərəfləndilər.

Aləmlərin sahibi (səlləllahu əleyhi və səlləm), İslam dininin yayılması üçün, Əshabından birliklər təşkil edərək ətrafda yerləşən qəbilələri İslama də'vət etməyə göndərdi. Bəzi qəbilələrə bilavasitə özü getdi. Dumətul-Cəndəl əhalisi kimi qəbilələr, verilən nəsihətləri qəbul edib müsəlman oldular. Qatafanlılar, Lihyan oğulları kimi qəbilələr də İslam əsgəriylə üz-üzə gəlməkdən qorxub qaçdılar. Beləcə, ətrafda yerləşən qəbilələrə qulaqburması verilmiş oldu.

Hicrətin altıncı ilində, misli görünməmiş bir qıtlıq olmuş, göydən bir damcı belə düşməmişdi. Bu səbəblə yerdə ot bitməmiş, insanlar və heyvanlar aclıq çəkmişdilər. Ramazanı şərif ayının bir Cümə günündə sevgili Peyğəmbərimizə; "Ya Rəsulallah! Nə olar, dua edin ki, Allah Təala yağış ehsan etsin!" deyərək, istəklərini ifadə etdilər. Cənabi Peyğəmbərimiz, Əshabıyla çölə çıxıb, əzan oxunmadan və qamət gətirmədən iki rük'ət namaz qıldı. Cənabi Peyğəmbərimiz, mübarək əbasını tərs çevirib təkbir gətirdi. Sonra mübarək əllərini, paltarının altından mübarək qoltuqlarının altı görününcəyə qədər qaldırıb; "Ey Allahım! Bizə yağış ehsan et!" deyə dua etməyə başladılar. Əshabi kiram da; "Amin! Amin!" deyirdi.

O əsnada göyün üzü çox təmiz olub, bir bulut belə yox idi. Rəsuli əkrəm dua edərkən bir külək əsməyə başladı və göy üzünü buludların örtdüyü görüldü. Sonra narın-narın yağış yağmağa başladı. Aləmlərin sahibi bu dəfə; "Allahım! Bu yağışı qabdan boşaldılır kimi yağdır və bizim üçün xeyirli et!" deyərək dua etdi. O əsnada qabdan su boşalan kimi yağış yağmaya başladı.

Cənabi Peyğəmbərimiz və Əshabi kiram başdan-ayağa islandılar. Evə çatıncaya qədər hər tərəf göl oldu. Hamı suyun içində getməyə başladı. Yağış davam edirdi. O gün, sabahsı gün... ertəsi gün... bir sonrakı Cümə vaxtında Əshabi kiram; "Ya Rəsulallah! Evlərimiz yağış sularından yıxılmağa, heyvanlarımız da boğulmağa başladı. Allah Təalaya dua edin ki, yağış kəsilsin!" dedilər. Sevgili Peyğəmbərimiz, gülümsədi və mübarək əllərini qaldırıb; "Ya Rəbbi! Bu yağışı əkinlərə, ağac bitən yerlərə, vadilərə

göndər!" deyərək dua etdi. O anda, bir həftədir ki, aramsız yağan yağış kəsildi və dua edilən yerlər islanmağa başladı.

Hicrətin altıncı ilinin Zilqə'də ayı idi. Bir gecə Nəbiyyi möhtərəm (səallallahu əleyhi və səlləm) röyasında Əshabi kiramla Məkkəyi mükərrəməyə gedib Kə'bəni təvaf etdiklərini, bir hissəsinin saçlarını qısaltdıqlarını, bir hissəsinin də tamamiylə qırxdırdıqlarını gördü. Rəsulullah, bu röyasını Əshabına danışdığında, onlar daha çox həyəcanlandılar. Hicrətdən bəri, doğulub böyüdükləri, pis-yaxşı xatirələrlə dolu, o gözəl el-obaları olan Məkkəyə gedəcəkdilər. Beş vaxt namazda üzlərini çevirdikləri və həsrətini çəkdikləri müqəddəs Kə'bəni ziyarət edib təvaf eəcəkdilər. Bu nə gözəl bir müjdə idi... Əshabi kiram, sevgili Peyğəmbərimizin; "Siz heç şübhə yoxdur ki, Məscidi Harama girəcəksiniz!" müjdəsini alan kimi vaxt itirmədən hazırlıqlara başladı.

Həbibi əkrəm hazırlandıqdan sonra, Abdullah ibn Ümmi Məktumu Mədinədə vəkil qoydu. Zilqə'də ayının birinci Bazar ertəsi günü, Qusva adındakı dəvəsinə mindi. Hazırlanan min dörd yüz Əshabı ilə birlikdə, Mədinədə qalanlarla xudahafizləşdilər. Umrəyə niyyət edərək, Müqəddəs məkana-Məkkəyə tərəf yola düşddülər. Özləriylə birlikdə yolçu silahı olan qılınclarını və yetmiş qurbanlıq dəvə götürmüşdülər. Qafiləyə iki yüz atlı və dörd xanım səhabi də qoşulmuşdu. Xanımlardan biri sevgili Peyğəmbərimizin mübarək və mütəhhər xanımı Həzrəti Ümmü Sələmə idi.

Zul-Huleyfə deyilən miqat yerinə gəldiklərində, ehrama girdilər və zöhr namazını qıldılar. Sonra, qurbanlıq dəvələrin qulaqlarına işarə vurub, boyunlarına ip bağladılar. Həzrəti Məhəmməd Naciyə ibn Cündüb Əsləmiyə bir neçə köməkçi verərək dəvələrə nəzarət etməyi tapşırdı. Abbad ibn Bişr iyirmi nəfərlik bir süvari birliyinə komandan tə'yin edilərək kəşfiyyata göndərildi. Buşr ibn Süfyan Məkkəyə xəbərçi göndərildi.[268]

Ehramı geyən sevgili Peyğəmbərimiz və qəhrəman Əshab, ağa bürünmüş bir vəziyyətdə, Allah Təalaya həmd etməyə, şanının ucalığını təsdiq etməyə və yalvarmağa başladılar; "Ləbbeyk! Allahummə Ləbbeyk! Ləbbeyk! La şərikə ləkə Ləbbeyk! İnnəl həmdə vənni'mətə ləkə vəlmülkə la şərikə lək!" Bu mübarək təlbiyə ilə yer-göy lərzəyə gəlir, Zul-Huleyfə nurani bir havaya bürünürdu. Hamı həyəcanlanmış, ən qısa zamanda Məkkəyə çatmaq üçün Zul-Huleyfədən ayrılmışdılar.

---

[268] Vaqidi, *əl-Məğazi*, II, 574; İbn Sə'd, *ət-Təbəqat*, II, 95.

Yolda Həzrəti Ömər ilə Sə'd ibn Ubadə Həzrətləri Həbibi əkrəmə yaxınlaşıb; "Ya Rəsulallah! Səninlə müharibə vəziyyətində olanların üstünə silahsız gedəcəyik bəyəm? Qureyşlilərin sizə hücum edib, mübarək bədəninizə bir zərər verməl追rindən qorxuruq!" deyərək, narahatçılıqlarını dilə gətirdilər. İki cahanın sərvəri onlara; "Mən, umrəyə niyyət etdim. Bu halda ikən silah daşımaq istəmərəm" buyurdu.

Səfər sakit keçirdi. Yol üstündə yerləşən müxtəlif qəbilələrə dəyir, Cənabi Peyğəmbərimiz onları İslama də'vət edirdi. Bir hissəsi qəbul etməkdən imtina edir, bir hissəsi hədiyyələr göndərirdilər. Bu şəkildə yolun yarısını qə't etmiş, Usfanın arxasında Qadirul-Əştat deyilən mövqeyə gəlmişdilər. Burda daha əvvəl Məkkəlilərə xəbər göndərilmək üçün seçilən Buşr ibn Süfyan Həzrətləri Qureyşlilərlə görüşüb dala qayıtmışdı. Cənabi Peyğəmbərimizə gördüklərini belə nəql etmişdir ki "Ya Rəsulallah! Qureyşlilər, sənin gəldiyindən xəbər tutmuşlar. Qorxularından ətrafdakı qəbilələrə qonaqlıqlar təşkil edərək onlardan kömək istəmişlər. İki yüz nəfərlik bir süvari birliyini kəşfiyyat üçün sizə tərəf yola çıxartdılar. Ətrafdakı qəbilələr bu istəyi qəbul edib Bəldah mövqeyində birləşdilər. Həddən çox əsgər toplaya bildilər və sizi Məkkəyə buraxmamaq üçün and içdilər".

Bu xəbərə Aləmlərin sahibinin qanı qaraldı və; "Qureyş həlak oldu. Onsuz da döyüş onları zəiflətmişdir... Qureyş müşrikləri özlərinin gülcü olduğunu zənn edirlər? Vallahi, Allah Təalanın yaymaq üçün məni göndərdiyi bu dini, hakim və üstün oluncaya, başım bədənimdən ayrılıncaya qədər onlarla döyüşməkdən əsla çəkinməyəcəyəm!" buyurdu.

Sonra qəhrəman Əshabına üzünü tutaraq, bu barədə rə'y və fikirlərini soruşdu. Bütün mənliyi ilə özlərini Rəsulullaha bağlamış şanlı Əshab; "Allahu Təala və Rəsulu daha yaxşı bilər. Canımız sənə fəda olsun ya Rəsulallah! Biz, Beytullahı təvaf etmək niyyətiylə yola çıxmışıq. Bizim niyyətimiz nə birini öldürmək, nə də döyüşməkdir. Ancaq, Kə'bəni ziyarət etməyimizə mane olmaq istəsələr, heç şübh yoxdur ki, onlarla döyüşər, hədəfimizə nail olarıq!" dedilər.

Əshabi kiramın bu qərarlı halı sevgili Peyğəmbərimizin xoşuna gəldi. Buyurdu ki; "Haydı, elə isə Allah Təalanın adını tutaraq gedin!" Səhabilər, Cənabi Peyğəmbərimizin ətrafında; "Ləbbeyk! Allahummə Ləbbeyk!" deyərək təlbiyə və; "Allahu əkbər! Allahu əkbər!" deyərək təkbir gətirərək Məkkəyə doğru irəliləməyə başladılar.

Bir zöhr namazı vaxtında Bilal Həbəşi, səsinin bütün gözəlliyi ilə əzanı şərifi oxuyaraq, namaz vaxtının girdiyini bildirmişdi. Bu əsnada, iki yüz nəfərlik Qureyş süvari birliyi oraya çatmış, Məkkə ilə səhabilərin arasına girərək, hücuma hazır vəziyyətdə dayanmışdı. Buna baxmayaraq, Aləmlərin sahibi uca Əshabı ilə səf olub namaza durdular. Sevgili Peyğəmbərimizin yanında təxminən min beş yüz Əshabının səf-səf düzülərək hərəkətsiz namazda duruşları, rükuya əyilmələri görülməyə dəyər bir mənzərə idi. Həm də, hamısı birlikdə səcdəyə getmələri nəhəng bir dağın əyilib, qalxmasına oxşayırdı.

Onların, Allah Təalanın hüzurunda şərəfli alınlarını torpağa sürtərək təvazökarlıq göstərmələri, Qureyş süvarilərindən bəzilərinin qəlblərinə İslamın məhəbbətini yerləşdirdi. Əshabi kiram, salam verib namazı qurtardıqlarında, Qureyş süvari ordusunun komandanının; "Müsəlmanların bu vəziyyətlərindən istifadə edərək basqın etsəydik, onların çoxunu öldürərdik! Onlar namazda ikən nə üçün biz hücum etmədik ki?" deyə heyfisləndiyi, sonra da; "Heç zərəri yoxdur. Necə olsa, canlarından və ailə-uşaqlarından da çox sevdikləri bir namaz vaxtı da gələcəkdir!" deyərək, bu dəfə fürsəti qaçırtmayacaqlarını yanındakılara bildirdi.

Onların bu sözlərini Allah Təala, Cəbrayıl əleyhissalam ilə vəhy göndərərək Cənabi Peyğəmbərimizə bildirdi.

Gələn ayədə buyrulurdu ki; "(Ey Həbibim!) Sən də aralarında ikən, (düşmən qarşısında) onlara (Əshabına) namaz qıldıracağın zaman (onları iki hissəyə ayır), bir hissəsi səninlə birlikdə (namazda, digəri də düşmən qarşısında) dursun. Silahlarını özləriylə birlikdə götürsünlər. Səninlə birlikdə namaz qılıb, bir rük'ət qılanlar (namazı kəsməkdən ehtiyat edərək) düşmənin qabağına çıxsınlar. Bundan sonra, hələ namazını qılmamış olan digər hissəsi gəlib, ikinci rük'əti səninlə birlikdə qılsınlar və onlar da zirehlərini, qalxanlarını və silahlarını özləriylə birlikdə götürsünlər. (Təşəhhüdü səninlə oxusunlar. Sən salam verincə, onlar salam verməmişdən əvvəl düşmənin qabağına çıxsınlar, əvvəlcə bir rük'ət qılmış olanlar dala qayıdıb, öz başlarına bir rük'ət də qılaraq salam versinlər. İkinci rük'əti imamla qılmış olanlar da təzədən gəlib, bir rük'ət də qılaraq namazı qurtarıb salam versinlər). Kafirlər arzu edərlər ki, silah və əşyalarınız yanınızda olmasın və sizə qəfildən hücum etsinlər... Əgər sizə, yağışdan bir əziyyət olarsa, yaxud xəstələnsəniz, silahlarınızı götürməməyinizdə bir günah yoxdur. Ancaq,

bütün ehtiyat tədbirlərini də görün. Şübhə yoxdur ki, Allah Təala kafirlərə xor və həqir edici bir əzab hazırlamışdır”.[269]

Əsr namazı vaxtında, Həzrəti Bilal əzan oxuduğunda, Qureyş süvariləri təzədən Məkkə ilə Əshabi kiramın arasında hücuma hazır şəkildə dayandılar. Cənabi Peyğəmbərimiz, Əshabına ayədə bildirildiyi kimi namazlarını qıldırdı.

Müsəlmanların bu tədbirli namaz qılmalarına müşriklər çaş-baş qaldılar. Allahu Təala, onların ürəklərinə qorxu saldı. Hər hansı bir cəhd edə bilmədən Məkkəyə xəbər çatdırmaq üçün ordan ayrıldılar. Cənabi Peyğəmbərimiz və Əshabı da burdan Hüdeybiyyə deyilən mövqeyə tərəf hərəkətə keçdilər.

Müqəddəs Məkkə kənarına gəldiklərində, Rəsulullahın (səlləllahu əleyhi və səlləm) dəvəsi Qusva, zahiri heç bir səbəb yoxkən yerə çökdü. Qaldırmaq üçün çox əlləşdilər, ancaq qalxmadı. Bundan sonra, Kainatın hökmdarı Rəsulullah buyurdu ki; “O, heç belə çökməzdi. Ancaq, bir zamanlar (Əbrəhənin) fili(nin) Məkkəyə girməsinə mane olan Allah Təala, indi də Qusvaya mane oldu. Canım yədi qüdrətində olan Allah Təalaya and içirəm ki, Qureyş Allah Təalanın, Haram bölgəsi daxilində haram etdiyi (döyüşməyi və qan tökməyi tərk etmək kimi) şeylərdən hansını məndən istəsələr istəsinlər, onların bu istəklərini heç şübhə yoxdur ki, yerinə yetirəcəyəm!”

Bundan sonra Qusvanı qaldırmaq istədilər. Dəvə sıçrayıb qalxdı. Haram bölgəsindən içəri girmədi, düz kənarda yerləşən Hüdeybiyyə mövqeyində dayandı. Cənabi Peyğəmbərimiz Əshabi kiramla az suyu olan bu yerdə düşərgə saldılar.

Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), çadırını mübarək Məkkə bölgəsinin kənarında qurdurdu. Əshabıyla burda gözləməyə başladılar. Vaxt gəlib çatınca, namazları Məkkəyi mükərrəmə bölgəsi içində qılırdılar. Quyularda içmək vəya istifadə etmək üçün su qalmamışdı. Təkcə Cənabi Peyğəmbərimizin kuzəsində vardı. Çətin vəziyyətə düşən səhabilər; “Canımız sənə fəda olsun ya Rəsulallah! Yanımızda, təkcə sizin kuzənizdə su var. Məhv olduq” dedilər.

Aləmlərin hökmdarı; “Mən sizinlə birlikdəykən, siz məhv olmazsınız” buyurdu. Sonra “Bismillah” deyərək, mübarək əlini kuzənin üstünə qoydu. Sonra əlini götürüb; “İçin!” buyurduğunda, mübarək barmaqlarının arasından bulaq kimi, su axmağa başladı. Əshabi kiram doyunca su içdilər, dəstəmaz aldılar, bütün qablarını

[269] ən-Nısa 4/102.

doldurdular, at və dəvələrini suladılar. Əshabını gülümsəyərək seyr edən mərhəmət dəryası sevgili Peyğəmbərimiz Allah Təalaya həmd etdi.

O gün, orda olan Həzrəti Cabir ibn Abdullah; "Biz, min beş yüz nəfər idik. Əgər yüz min nfər də olsaydıq, o su hamımıza bəs edərdi" buyurdu.

*(Heyrət ilən barmağın dişlər kim etsə istima*
*Barmağından verdiyi şiddət günü Ənsara su)*

**Bey'əti Rizvan**

Rəsuli əkrəm, Hüdeybiyyədə ikən əvvəldən bəri müsəlmanlarla dost olan Xuzaə qəbiləsinin başçısı Budeyl yanına gəlib, Qureyş ordusunun ətraf qəbilələrinin də qoşulmasıyla Hüdeybiyyədə düşərgə saldıqlarını, orduları darmadağın oluncaya qədər döyüşməyə and içdiklərini xəbər verdi. Bundan sonra Cənabi Peyğəmbərimiz; "Biz, bura heç kiminlə döyüşmək üçün gəlməmişik. Ancaq, Umrə etmək, Kə'bəyi müəzzəməni təvaf və ziyarət etmək üçün gəlmişik. Buna baxmayaraq, kim bizim Beytullahı ziyarətimizə mane olarsa, onunla döyüşərik. Heç bir şübhə yoxdur ki, döyüşlər Qureyşi artıqlamasıyla yormuş, gücsüz vəziyyətə düşürtmüş və çox zərər vermişdir. Şayəd, onlar arzu etsələr bir sülh müqaviləsi bağlamaq üçün onlara vaxt tə'yin edərəm. Bu müddətdə, məndən arxayın olarlar. Onlar, mənimlə digər qəbilələr arasına girməsinlər. Mənim işimə qarışmasınlar. Əgər mən, o qəbilələrə qalib gələr və Cənabi Haqq da onlara hidayət ehsan edib müsəlman olarsa, Qureyş müşrikləri də istəsələr onlar kimi müsəlman ola bilərlər. Şayəd mən, zənn elədikləri kimi, digər qəbilələrə qalib gələ bilməsəm, o zaman özləri də rahatlıq tapar, güc-qüvvət qazanmış olarlar. Əgər, Qureyş müşrikləri bunları qəbul etməyib mənimlə döyüşməyə təşəbbüs etsələr, canım yədi qüdrətində olan Allah Təalaya and içirəm ki, yaymağa çalışdığım bu din uğrunda, başım bədənimdən ayrılıncaya qədər onlarla döyüşəcəyəm. O zaman Allah Təala da, mənə yardım edəcəyi haqqındakı və'dini heç bir şübhə yoxdur ki, yerinə yetirəcəkdir!" buyurdu.

Xuzaə qəbiləsinin başçısı Budeyl, Cənabi Peyğəmbərimizin buyurduqlarını Qureyş ordugahına çatdırmaq üçün yola düşdü. Müşriklər Budeyldən, Rəsulullahın buyurduqlarını eşitdikdən sonra, başda gələn adamlarından Urvə ibn Məs'udu, görüşmək üçün Cənabi Peyğəmbərimizin yanına göndərdilər. Urvə, Qureyşin heç kimi Məkkəyə buraxmamaq üçün qət'i qərar verdiyini deyincə, Həbibi əkrəm; "Ey Urvə! Allah xatirinə cavab ver! Bu qurbanlıq dəvələrin qurban edilməsinə, bu Kə'bəni ziyarət və təvaf etməyə heç mane olunar bəyəm?" buyurduqdan sonra, Xuzaə qəbilə başçısına dediklərini Urvəyə də izah etdi.

Urvə bir tərəfdən Cənabi Peyğəmbərimizə qulaq asarkən, digər tərəfdən də Əshabı kiramın hal və hərəkətlərinə, bir-birilərinə və Aləmlərin sahibinə qarşı olan davranışlarına, hörmət və ehtiramlarına fikir verirdi. Sevgili Peyğəmbərimizin təklifinə qulaq asdıqdan sonra durdu və Qureyşlilərə bunu çatdırmaq üçün getdi. Onların yanına gəlib; "Ey Qureyş camaatı! Mənim Qeysər, Nəcaşi, Kisra kimi bir çox hökmdarların hüzurlarına elçi olaraq getdiyimdən xəbəriniz var. And içirəm ki, mən indiyə qədər müsəlmanların, Məhəmmədə göstərdikləri hörmət və ehtiramın heç bir hökmdara göstərilmədiyinin şahidi olmadım. Səhabilərindən heç biri ondan icazə almadıqca danışmır, başından bir tük tökülsə, götürüb bərəkətlənmək üçün üstlərində gəzdirirlər. Yanında danışarkən səslərini eşidilməyəcək qədər az çıxardırlar. Ona olan hörmətlərindən üzünə baxa bilmir və başlarını aşağı salırlar. O, Əshabına bir işarə versə vəya bir əmr versə, canı bahasına da olsa, yerinə yetirmeyə çalışırlar.

Ey Qureyş camaatı! Əlinizi qılınclarınıza atsanız da bütün çarələrə baş vursanız da onlar, Peyğəmbərlərinin bir tükünü belə sizə verməzlər. Hətta, hər hansı bir zərərin Ona toxunmasına və Ona birinin əl vurmağına belə imkan verməzlər. Bundan sonrasını yaxşı fikirləşin! Belə bir vəziyyətdə Məhəmməd bizə yaxşı bir razılaşma təklif edir, bundan faydalanın!" dedi.

Qureyşli müşriklər bu sözləri qəbul etməyib, Urvəyə kobud davrandılar və onu incitdilər.

Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Qureyş qərargahından bir xəbər gəlməyincə, təzədən təklif etmək üçün Hiraş ibn Umeyyəni elçi olaraq göndərdi. Müşriklər, İslam elçisinə çox kobud davrandılar. Dəvəsini kəsib yedilər, özünü də öldürmək üçün üstünə düşdülər. Əllərindən birtəhər qaçıb xilas olan Hiraş ibn Umeyyə,

Cənabi Peyğəmbərimizin hüzuruna gəlib vəziyyətdən agah edincə, elçisinə edilən bu təhqirə çox üzüldü.

Bu əsnada müşrik qərargahından Əhabiş qəbiləsinin başçısı Huleys göründü. Cənabi Peyğəmbərimizə tərəf gəlirdi. Müşriklər onu elçi tə'yin etmişdilər. Sevgili Peyğəmbərimiz Huleysin gəldiyini görüncə; "Bu gələn, qurbana ehtiram edən, Allah Təalanın əmrlərini yerinə yetirməyə və ibadət etməyə həvəs göstərən bir qövmdəndir. (Ey Əshabım!) Qurbanlıq dəvələri ona tərəf sürün ki, o da görsün!" buyurdu. Əshabi kiram, qurbanlıq dəvələri ona tərəf sürdülər və; "Ləbbeyk! Allahummə Ləbbeyk!" deyə təlbiyə gətirdilər.

Huleys boyunları bağlı, qulaqlarına işarə vurulmuş qurbanlıqları görüncə, bir xeyli baxdı. Gözləri yaşardı və özünü saxlaya bilməyib; "Müsəlmanların, Kə'bəni təvaf və ziyarətdən başqa heç bir niyyətləri yoxdur. Onlara mane olmaq nə qədər pis bir hərəkətdir! Kə'bənin Rəbbinə and içirəm ki, Qureyşlilər bu səhv hərəkətləri üzündən həlak olacaqlar!" dedi. Bu sözləri eşidən Aləmlərin sahibi; "Bəli, elədir, ey Kinanə oğullarına mənsub olan qardaş" buyurdu. Huleys, utandığından Rəsulullahın həm hüzuruna gələ bilmədi, həm də mübarək üzünə baxa bilmədi. Birbaşa Qureyş qərargahına qayıtdı. Gördüklərini onlara da deyib; "Sizin Onu, Kə'bəni ziyarətə imkan verməməyiniz doğru deyildir" deyə öz fikrini açıq-aşkar ifadə etdi. Qureyş müşrikləri çox əsəbləşdilər və Huleysi cahilliklə ittiham etdilər.

Müşriklər, bu dəfə qəddarlığı ilə ad çıxartmış Miqrəz ibn Həfsi elçi göndərdilər. O da cavabını alaraq dala qayıtdı. Miqrəzin elçiliyindən sonra müşriklər, müsəlmanların qəflətən hücum etməsindən qorxuya düşdülər.

Cənabi Peyğəmbərimiz işi yarıda qoymaq istəmir və Qureyşlilərin də e'tibar etdiyi bir Əshabını göndərmək istəyirdi. Nəticədə Həzrəti Osmanın göndərilməsinə qərar verildi. Sevgili Peyğəmbərimiz Osman ibn Əffana; "Biz bura, heç kiminlə döyüşmək üçün gəlmədik. Ancaq, Kə'bəyi müəzzəməni təvaf və ziyarət etmək üçün gəlmişik. Yanımızdakı qurbanlıq dəvələri kəsib qayıdacağıq, deyə onlara söylə və Onları İslama də'vət et!" buyurdu. Həm də Məkkədə qalan müsəlmanlara, Məkkənin yaxın bir zamanda fəth ediləcəyini müjdələməsini də tapşırdı.[270]

---

[270] İbn Sə'd, *ət-Təbəqat*, II, 97.

Həzrəti Osman müşriklərin yanına gedib Cənabi Peyğəmbərimizin buyurduqlarını olduğu kimi onlara çatdırdı. Onlar, Həzrəti Osmanın təklifinə də mənfi cavab verdilər. Ancaq özünün Beytullahı təvaf edə biləcəyini söylədilər. Həzrəti Osman isə; "Rəsul əleyhissalam Beytullahı təvaf etmədikcə, mən də etmərəm!" buyurdu.

Buna çox əsəbiləşən müşriklər onu tutub saxladılar. Bu xəbər Əshaba; "Osman şəhid edildi!" şəklində çatdı. Məsələni Cənabi Peyğəmbərimizə söylədiklərində çox üzüldü və; "Bu xəbər doğru isə bu qövmlə döyüşmədikcə burdan ayrılmayacağıq" buyurdu. Sonra orda olan Səmurə adındakı ağacın altında oturub; "Allah Təala mənə bey'ət etməyinizi əmr etdi" buyuraraq, Əshabını bey'ətə də'vət etdi.

Qəhrəman Əshab əlini, Cənabi Peyğəmbərimizin mübarək əlinin üstünə qoyaraq; "Allah Təala sənə qələbə ehsan edincəyə qədər döyüşə-döyüşə fəthi həyata keçirtmək vəya bu yolda şəhid olmaq üçün bey'ət etdik!" deyə söz verdilər. Cənabi Peyğəmbərimiz bir əlini digər əlinin üstünə qoyaraq orda olan Həzrəti Osmanın adından öz-özünə bey'ət etdi. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) Əshabının bu bey'ətindən çox razı qalıb; "Ağac altında, həqiqətən bey'ət edənlərdən heç biri Cəhənnəmə girməyəcəkdir buyurdu. Bu bey'ətə, Bey'əti Rizvan deyildi.[271]

Əshabi kiram (Allah onlardan razı olsun), artıq qılınclarını sıyıraraq yerlərində dayana bilmir, Rəsul əleyhissalamın bir işarəsini gözləyirdilər.

Bu əsnada İslam qərargahına nəzarət edən Qureyş casusları, mücahidlərin, sevgili Peyğəmbərimizə, bu yolda şəhidlik şərbətini içincəyə qədər döyüşmək üçün bey'ət etdiklərini və hazırlıq gördüklərini sezmişdilər. Vaxt itirmədən Qureyş qərargahına gəlib onları vəziyyətdən agah etdilər.

Cənabi Peyğəmbərimiz hər bir ehtimalı nəzərə alaraq gecələri Əshabını qorumaq üçün növbətçilər qoyurdu. Həzrəti Osmanın tutulub saxlandığı günlərdən bir gecə, Miqrəz başçılığında əlli nəfərlik bir müşrik dəstəsi İslam əsgərlərinə yuxudaykən hücum etmək üçün gəlmişdilər. O gecə, Məhəmməd ibn Məsləmə və dostları növbə çəkirdilər. Gələn kafirləri qısa çəkən bir mübarizədən sonra əsir tutdular. Təkcə Miqrəz qaça bildi. Əsirləri Rəsulullahın hüzuruna gətirdilər. Bir hissəsi həbs edilib, bir hissəsi də bağışlandılar. Müşriklər ertəsi gecə də basqın etmək istədilər. Ancaq yenə əsir edildilər. Cənabi Peyğəmbərimiz onları da bağışlayıb buraxdı.

---

[271] Buxari, "Məğazi", 19; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 59; Vaqidi, *əl-Məğazi*, I, 279; İbn Sə'd, *ət-Təbəqat*, II, 97.

## Qurtar məni ya Rəsulallah!

İslam ordusunun gecə-gündüz döyüşə hazır vəziyyətdə gözlədiyini və hər an hücum edə biləcəklərini başa düşən kafir ordusunun canına qorxu düşdü. Razılığa gəlməkdən başqa yol olmadığını görərək, tələm-tələsik bir elçi hey'əti seçdilər. Suheyl ibn Əmr başçılığında seçilən bu hey'ətə; "Bu il Məkkəyə girməməkləri şərtiylə razılığa gəlin" deyildi.

Sevgili Peyğəmbərimiz Qureyş elçilərini qəbul etdi. Elçilərin ilk istəkləri, həbs olunmuş adamlarının azadlığa buraxılması oldu. Aləmlərin sahibi də; "Məkkədə əsir götürdüyünüz Əshabımı azadlığa buraxmadığınız müddətdə bu adamlarınızı buraxmaram!" buyurdu. Suheyl; "Doğrusu bizə çox ədalətli və insaflı davrandınız" deyərək Məkkədə tutulan Həzrəti Osmanı və daha əvvəl həbs etdikləri təxminən on nəfər Əshabını azadlığa buraxılmasını tə'min etdi. Bundan sonra basqın əsnasında tutulub həbs edilən müşriklər azadlığa buraxıldı.

Uzun danışıqlardan sonra razılığa gəlindi. Növbə yazılmasına gəlmişdi. Həzrəti Əli katib seçildi. Sülhnaməni yazmaq üçün kağız və mürəkkəb hazırlandı. Aləmlərə rəhmət olaraq göndərilən Həbibullah Hazrəti Əliyə; "Yaz" buyurdu. "Bismillahirrəhmanirrəhim!" Buna Suheyl dərhal e'tiraz edib; "And içirəm ki, mən Rəhman sözünün nə demək olduğunu bilmirəm. Belə yazma, "Bismikə Allahummə" deyə yaz! Yoxsa razılığa gəlmərəm!" dedi. Cənabi Peyğəmbərimiz sülh müqaviləsi bağlanmasında çox böyük hikmətlər görürdu. Bu səbəblə; "Bismikə Allahummə də gözəldir" buyurdu və Həzrəti Əliyə belə yazmasını əmr etdi. Yazıldıqdan sonra, Cənabi Peyğəmbərimiz; "Bu, Məhəmməd Rəsulullahın Suheyl ibn Əmr ilə razılığa gəldikləri, şərtlərini hər iki tərəfin də yerinə yetirmək üçün imzaladığı maddələrdir" buyurduğunda, Suheylin Həzrəti Əlinin əlini tutduğu görüldü və Cənabi Peyğəmbərimizə üzünü tutub; "And içirəm ki, biz sənin Rəsulullah olduğunu qəbul etseydik, sənə qarşı çıxmaz, Kə'bəni ziyarət etməyinə mane olmazdıq. Bu səbəblə Rəsulullah yerinə Abdullahın oğlu Məhəmməd yaz!" dedi.

Cənabi Peyğəmbərimiz onu da qəbul edərək; "Vallahi, siz mənə yalançı desəniz də mən onsuz da heç bir şübhə yoxdur ki, Allah Təalanın Rəsuluyam. Adımı və

atamın adını yazdırmaq, mənim Peyğəmbərliyimə mane olmaz. Ya Əli! Onu sil, Məhəmməd ibn Abdullah yaz" buyurdu.

Rəsulullah sözünün silinməsinə Əshabi kiramdan heç birinin könlü razı olmadı. Bir əsnada hər şeyi yaddan çıxardıb; "Ya Əli! Məhəmməd Rəsulullah yaz, yoxsa bu müşriklərlə aramızdakı məsələni ancaq qılınc həll edər!" dedilər. Cənabi Peyğəmbərimiz Əshabının bu qeyrətlərindən xoşlandı, ancaq mübarək əlləriylə susmalarını işarə etdi. Həzrəti Əliyə silinməsini əmir edincə, O; "Canım sənə fəda olsun ya Rəsulallah! Sənin bu mübarək vəsfini silməyə əlim gəlmir!" deyərək üzr istədi. Sevgili Peyğəmbərimiz oranı göstərməsini istədi. Göstərincə əlindən alıb, öz mübarək barmağı ilə silərək Abdullahın oğlu yazdırdı.

Sonra maddələr yazılmağa başlandı.

1- Razılaşma on il keçərli olacaq, bu zaman içində hər iki tərəf bir-biriylə döyüşməyəcək.

2- Müsəlmanlar bu il Kə'bəni ziyarət etməyəcək. Ancaq bir il sonra ziyarət edə biləcəklər.

3- Kə'bəni ziyarətə gələn müsəlmanlar üç gün qalacaq və özləriylə birlikdə yolçu silahından başqa silah daşıya bilməyəcəklər.

4- Müsəlmanlar Kə'bəni təvaf edərkən Məkkəli müşriklər Kə'bədən çölə çıxıb onların sərbəst şəkildə təvaf yapmalarına şərait yaradacaqlar.

5- Qureyşlilərdən müsəlman olan biri vəlisindən icazə almadan Mədinəyə gedərsə, qaytarılacaq, müsəlmanlardan biri Qureyş tərəfinə keçərək Məkkəyə gedərsə qaytarılmayacaqdır. Həzrəti Ömər bu maddə üçün; "Ya Rəsulallah! Bu şərti də qəbul edəcəksən bəyəm?" deyə soruşunca; sevgili Peyğəmbərimiz gülümsəyərək; "Bəli, bizdən onlara gedənləri Allahu Təala bizdən uzaq etsin!" buyurdu.

6- Əshabdan biri həcc vəya umrə niyyətiylə Məkkəyə gəlsə, canı və malından arxayın olacaq.

7- Müşriklərdən biri Şama, Misirə vəya başqa yerə gedərkən Mədinəyə baş çəkərsə, onun da canı, malı əmniyyətdə olacaq.

8- Digər Ərəb qəbilələri istədikləri tərəfin himayəsinə girə biləcəklər. Müsəlmanlar vəya müşriklərlə birləşməkdə sərbəst olacaqlar.[272]

Növbə razılaşmanın imzalanmasına gəlmişdi. O əsnada ayaqlarındakı zincirləri sürüyə-sürüyə İslam ordusuna tərəf bir nəfərin gəlməkdə olduğu görüldü. Yaxınlaşan kimi; “Məni xilas edin!” deyərək qışqırdı. Bu səsi eşidən Qureyş hey’əti başçısı yerindən hövlang qalxdı. Əlinə götürdüyü tikanlı ağac budağını onun baş-gözünə vurmağa başladı. O, bütün gücünü toplayaraq özünü Rəsulullahın mübarək ayaqlarının altına atdı və; “Məni xilas et ya Rəsulallah!” deyə yalvardı. Bu, Məkkədə müsəlmanlıqla şərəfləndiyi üçün, atası tərəfindən zincirə vurulmuş bir müsəlmandı. Hər gün ağır işgəncələr edilir, bütlərə sitayiş etməsi üçün məcbur edilirdi. Müşriklərin Hüdeybiyyəyə getməsindən istifadə edərək, zincirlərini qırmış, gözə görsənmədən Məkkədən çıxıb, özünü müsəlmanların arasına atmışdı. Hidayət tapan bu mübarək adam, müşrik hey’ətinin başçısı Suheylin oğlu Əbu Cəndəl Həzrətləriydi. Suheyl, Cənabi Peyğəmbərimizə oğlu Əbu Cəndəli göstərərək; “Bir az əvvəl yazdığımız razılaşmaya görə mənə qaytaracağın ilk adam budur!” dedi.

Cənabi Peyğəmbərimiz və səhabilərə bu çox tə’sir etmişdi. Hamı, Rəsulullahın nə cavab verəcəyini maraqla gözləyirdilər. Bir tərəfdə sülhnamə, bir tərəfdə işgəncə verilən bir səhabi... Aləmlərin sahibi, Suheylə; “Biz, bu sülhnaməyə hələ ki, qol çəkməmişik!” buyurdu. Suheyl; “Ya Məhəmməd! Razılaşmanın maddələrini, oğlum hələ bura gəlməmişdən qabaq yazıb qurtarmışdıq. Əgər oğlumu qaytarmasanız, mən də heç sülhnamənin altına qol çəkmərəm!” deyə inadkarlıq etdi.

Cənabi Peyğəmbərimiz; “Onu mənim xətrim üçün razılaşmaya aid etmə” buyurdusa da müşriklər bunu qəbul etmədilər. Suheyl ibn Əmr, oğlunu darta-darta apararkən, Əbu Cəndəl; “Ya Rəsulallah! Ey müsəlman qardaşlarım! Müsəlman olmaqla şərəflənib sizə sığındığım halda məni müşriklərə qaytarırsınız? Mənə hər gün dözülməz işgəncələrin verilməsini rəva görürsunuz? Ya Rəsulallah! Dinimdən döndərmələri üçün məni qaytarırsınız?!” deyə fəryad edirdi.

Bu ürək ağrıdan yalvarışa dözmək çox çətin idi. Könülləri yaralanan səhabilər ağlamağa başladılar. Mərhəmət dəryası sevgili Peyğəmbərimizin də mübarək gözləri

[272] Buxari, “Məğazi”, 35; Əbu Davud, “Cihad”, 168; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 323; İbn Hişam, *əs-Sirə*, II, 307; Vaqidi, *əl-Məğazi*, II, 608; İbn Sə’d, *ət-Təbəqat*, II, 97-98.

dolmuşdu. Suheylin yanına gəlib; “Gəl sən bundan əl çək! Onu mənə bağışla!” deyə xahiş etdi. Ancaq Suheyl; “Heç cürə mümkün deyil, bağışlamaram!” deyə cavab verdi.

Bundan sonra sevgili Peyğəmbərimiz; “Ey Əbu Cəndəl! Bir az da səbr et! Sənə verilən işgəncələrə döz! Bunların mükafatını Allah Təaladan istə. Allahu Təala, sənə və sənin kimi zəif və qohum-əqrabasız müsəlmanlara heç bir şübhə yoxdur ki, bir genişlik, bir çıxış yolu ehsan edəcəkdir” buyuraraq təsəlli verdi və; “Verdiyimiz sözü tutmamaq bizə yaraşmaz” buyurdu.

Bu ürək ağrıdan hadisəyə, hey’ətdəki müşriklər belə dözə bilməmiş və; “Ey Məhəmməd! Əbu Cəndəli sənin xətrin üçün biz himayəmizə götürürük. Ona, Suheylin işgəncə verməsinə imkan vermeyəcəyik!” demişdilər. Bundan sonra Rəsulullah və Əshabi kiram bir az rahat nəfəs aldılar. (Suheyl ibn Əmr, Məkkənin fəthindən sonra müsəlman olub Əshabi kiramdan oldu).

Sülhnamə iki nüsxədə yazılıb, hər iki tərəf də qol çəkdi. Müşriklər düşərgələrinə qayıtdılar.[273]

Sanki müsəlmanların əleyhində görünən bu maddələr üçün Qureyş hey’əti çox sevinirdi. Əksinə, bu sülhnamə böyük bir qələbə idi və bu maddələr müsəlmanların leyhinə idi. Hər şeydən qabaq, müsəlmanların bir dövlət olduğunu qəbul edirdilər. Məkkədən bir müşrik ticarət veya başqa bir şey üçün Şama, Misirə gedərkən Mədinəyə baş çəkərsə, canı malı əmniyyətdə olacaqdı. Beləcə, müşriklər müsəlmanların yaşayışlarını yaxından görə biləcək, İslamın ədaləti, Əshabın bir-birilərinə olan gözəl davranışları qarşısında heyran qalacaq və İslamiyyəti sevəcəkdilər. Nəticə e’tibarıyla da müsəlman olub səhabilərin səflərinə qoşulacaqdılar.

On il davam etməsi lazım gələn bu razılaşma ilə müsəlmanlar çoxalacaq, güclənəcəkdilər. İslamiyyət hər tərəfə yayılacaqdı.

Ancaq; “Qureyşlilərdən biri, müsəlman olub Mədinəyə sığınmaq istəsə, qaytarılacaq” maddəsi üçün, Cənabi Peyğəmbərimizin qanı qaralaraq; “Allah Təala, onlar üçün, əlbəttə bir rahatlıq, bir çıxış yolu yaradacaqdır” buyurmuşdu...

Artıq müşriklərlə görüləcək başqa bir iş qalmamışdı. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Əshabi kirama; “Qalxın! Qurbanlarınızı kəsin. Başlarınızı qırxdıqdan sonra ehramdan çıxın” buyurdu. Cənabi Peyğəmbərimiz, hamıdan qabaq qurbanını

---

[273] İbn Hişam, *əs-Sirə*, II, 321; Vaqidi, *əl-Məğazi*, II, 608; İbn Sə’d, *ət-Təbəqat*, VII, 405; Suheyli, *ər-Rövzul-Unf*, IV, 56.

kəsdi. Saçını bərbəri Hiraş ibn Umeyyə Həzrətləri qırxdı. Əshabi kiram, o mübarək saçları daha yerə düşmədən havada tutdular və bərəkətlənmək üçün özləriylə götürdülər. Səhabilər də qurbanlarını kəsib, bir hissəsi saçlarını dibindən qırxdırdı, bir hissəsi də qısaltdırdı.[274]

Hüdeybiyyədə təxminən iyirmi gün qalınmışdı. Cənabi Peyğəmbərimiz dostları ilə birlikdə Mədinəyə qayıtmaq üçün yola düşdülər. Yolda Allah Təala, Cənabi Peyğəmbərimizə Fəth surəsini vəhy edərək, ne'mətini və yardımlarını tamamlayacağını müjdələdi.

Kainatın hökmdarı (səlləllahu əleyhi vəsəlləm), qalib kimi nurlu Mədinəyə təşrif etdiyi günlərdə Qureyşin Səqif qəbiləsindən Əbu Basir müsəlman olmaqla şərəflənmişdi. Müşriklərin arasında yaşaya bilməyəcəyini başa düşən Əbu Basir, payi piyada Mədinəyə gəldi. Hüdeybiyyə razılaşmasının gərəyi olaraq da Mədinədən çıxıb, Qırmızı dəniz sahilindəki İs deyilən yerə yerləşdi.[275]

Bura, Qureyş müşriklərinin Şama getdikləri ticarət yolu üstündə yerləşirdi. Bundan sonra Qureyşdən müsəlman olanlar Məkkəni tərk edib, Mədinəyə deyil, İsə, Əbu Basirin yanına getdilər. Bunlardan birincisi Əbu Cəndəl Həzrətləriydi. Artıq bunun dalı kəsilmirdi. Əlli nəfər, yüz nəfər, iki yüz, üç yüz nəfər oldular. Qureyş karvanları Şama gedərkən burdan keçmək məcburiyyətində qalırdılar. Əbu Basir Həzrətləri yanındakı müsəlmanlarla burdan keçən müşrikləri tutub saxlayar və müsəlman olmalarını istəyərdilər. Müsəlman olmayanlarla döyüşüb onları çətin vəziyyətə düşürdürdülər.

Məkkəli müşriklər artıq Şam ticarət yollarının kəsildiyini görüb, Mədinəyə bir hey'ət göndərdilər. Hüdeybiyyə sülhnaməsinin, "Qureyşlilərdən müsəlman olan heç bir nəfər vəlisindən icazəsiz Mədinəyə gedərsə qaytarılacaq!" maddəsinin keçərli olmaması üçün yalvardılar. Cənabi Peyğəmbərimiz mərhəmət göstərib, onların bu istəklərini qəbul etdi. Beləcə, Qureyşlilərin Şam ticarət yolları açılmış oldu. Müsəlmanlar da səbr etmələrinin müqabilində Mədinəyə Cənabi Peyğəmbərimizin yanına gəldilər.

*Qudumun rəhməti zövqü səfadır ya Rəsulallah,*

---

274 Buxari, "Şurut", 15; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 323; Təbəri, *Tarix*, II, 283.
275 İbn Hişam, *əs-Sirə*, II, 324; Vaqidi, *əl-Məğazi*, II, 625; Suheyli, *ər-Rövzul-Unf*, IV, 57.

*Zühurrun dərdi uşşaqa dəvadır ya Rəsulallah.*

*Nəbi idin dahı Adəm durarkən mau tin içrə,*

*İmamı ənbiya olsan rəvadır ya Rəsulallah.*

*Kəmali zümrəyi kumməl sənin nurunla olmuşdur,*
*Bədənin məzhəri tamı Xudadır ya Rəsulallah.*

*Səninlə erdilər zata dahı ənvayi ləzzata,*
*İşin ərbabı hacətə ətadır ya Rəsulallah.*

*Hüdayiyə şəfaət qıl əgər zahir, əgər batin,*

*Qapına intisab etmiş gədadır ya Rəsulallah!*

*ƏZİZ MAHMUD HÜDAYİ*

# DƏ’VƏT MƏKTUBLARI

## Hökmdarlara göndərilən məktublar

Nəbiyyi möhtərəm (səlləllahu əleyhi və səlləm), Hüdeybiyyədən qayıtdıqdan sonra, İslamın bütün dünyaya yayılmasını, insanların Cəhənnəm əzabından xilas olub, həqiqi səadətə qovuşmasını arzu edirdi. Çünki O, bütün aləmlərə rəhmət olaraq göndərilmişdi. Buna görə də O, qonşuluqda yerləşən hökmdarlara elçilər göndərib İslama də’vət etməyi düşündü. Dihyəyi Kəlbini Bizans, Əmr ibn Umeyyəni Həbəşistan, Hatib ibn Əbi Bəltəanı da Misir hökmdarına elçi göndərdi. Bundan başqa Salit ibn Əmri Yəmaməyə, Şüca ibn Vəhbi Ğassana, Abdullah ibn Huzafəni də İran hökmdarına göndərdi.[276]

Bu elçilər Əshabi kiramın ən bacarıqlılarıydılar. Onlarin həm üzləri yaraşıqlı, həm də danışıqları gözəl idi. Hər bir hökmdara ayrı-ayrı İslama də’vət məktubu yazıldı. Sevgili Peyğəmbərimiz məktubların altını gümüş üzüyünün qaşında üç sətirlik yazı olan, “Allah Təalanın Rəsulu Məhəmməd əleyhissalam” möhürü ilə möhürlədi. Hökmdarlara göndərilən elçilər səhərsi gün yuxudan oyandıqlarında, Cənabi Peyğəmbərimizin bir mö’cüzəsi olaraq, artıq gedəcəkləri dövlətin dilini bilirdilər.[277]

Həbəşistana gedəcək olan Əmr ibn Umeyyə Həzrətləri, Nəcaşi Əshamədən daha əvvəl ora hicrət etmiş Əshabi kiramın Mədinəyə göndərilməsini də istəyəcəkdi.

Əmr ibn Umeyyə, qısa zamanda Həbəşistana gəlib məlik Nəcaşi Əshamənin hüzuruna çıxdı. Nəcaşi taxtından aşağı düşdü, məktubu çox böyük bir hörmət və ehtiramla aldı. Öpdü, üzünə və gözünə sürtdükdən sonra açıb oxutdurdu;

“Bismillahirrəhmanirrəhim!

Allah Təalanın rəsulu Məhəmməd əleyhissalamdan Həbəş kralı Nəcaşi Əshaməyə!

---

[276] Buxari, “Təfsîr”, 4; “Məğazi”, 77, 82, 84; “Elm”, 7; Muslim, “Cihâd”, 109; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 262; III, 441; İbn Hişam, *əs-Sirə*, II, 607; Beyhəqi, *əs-Sünən*, II, 43, 353; İbn Sə’d, *ət-Təbəqat*, I, 259; Təbərani, *əl-Mu’cəmu’l-Kəbir*, IV, 301; VII, 4; Xuzai, *ət-Təxric*, s. 183-184; Kəttani, *ət-Təratibu’l-İdariyyə*, I, 345-346.

[277] İbn Sə’d, *ət-Təbəqat*, II, 15.

Hidayət tapana salam olsun! Ey hökmdar! Sələmətdə olmağını arzu edir, sənə verdiyi ne'mətlərinə görə Allah Təalaya həmd edirəm. Ondan başqa ilah yoxdur. O, Məlikdir (Bütün kainatın ixtiyar sahibi yalnız Odur). Quddüsdür (Hər cür ayıb və qüsurlardan uzaqdır). Salamdır (Qullarını bütün təhlükələrdən qoruyandır). Mu'məndir (Əmniyyət verəndir). Muheymindir (Hər şeyi nəzarətdə saxlayıb qoruyandır).

Mən şəhadət edirəm ki, İsa (əleyhissalam) Allah Təalanın, çox təmiz, iffətli, hər cür dünya həyatından tamamiylə uzaq qalan Məryəmə ilqa etdiyi ruhu və kəliməsidir. Beləcə o, İsaya hamilə qaldı. Allah Təala, Adəmi qüdrətiylə necə yaratdısa, İsanı da elə yaratmışdır.

Ey hökmdar! Mən səni, şəriki olmayan Allah Təalaya iman etməyə, Ona ibadət etməyə, mənə tabe olmağa və Allah Təalanın mənimlə göndərdiklərinə inanmağa də'vət edirəm. Çünki, mən Allah Təalanın bunları də'vət etmək üçün göndərdiyi elçisiyəm.

İndi mən, sənə lazım olan təbliği və dünya və axirət səadətini bəxş edən nəsihəti etmişəm. Nəsihətimi qəbul edin! Hidayət tapanlara və doğru yola gələnlərə salam olsun".

Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm) məktubuna böyük bir ədəb və təvazökarlıqla qulaq asan hökmdar Əshamə, dərhal; "Əşhədu ən la ilahə illallah və əşhədu ənnə Məhəmmədən əbduhu və rəsuluh" deyərək kəlimeyi şəhadət gətirdi və müsəlman oldu. Sonra; "And içirəm ki, O, kitab əhli olan yəhudi və xristiyanların gəlməsini gözlədiyi, özündən əvvəlki peyğəmbərlərin gələcəyini müjdələdiyi Peyğəmbərdir.

Əgər yanına getməyə imkanım olsaydı, heç bir şübhə yoxdur ki, gedər, xidmətiylə şərəflənərdim!" dedi. Məktubu hörmətlə gözəl bir qutuya qoyub; "Bu məktublar burda olduğu müddətdə, Həbəşistandan xeyir və bərəkət getməz" dedi.[278]

Rəsulullah Nəcaşiyə iki məktub göndərmişdi. Nəcaşi Əshamə digər məktubda bildirilən əmrləri yerinə yetirib, sevgili Peyğəmbərimizin mübarək Xanımı Ümmü Həbibə anamızı və orada olan Əshabi kiramı gəmilərə mindirib, çoxlu hədiyyələrlə Mədinəyə göndərdi. Göndərdiyi məktubda iman etdiyini ifadə edirdi.

---

[278] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 198; İbn Hişam, *əs-Sirə*, I, 223; Beyhəqi, *əs-Sünən*, II, 79; İbn Sə'd, *ət-Təbəqat*, I, 207-208; Təbərani, *əl-Mu'cəmu'l-Kəbir*, XX, 80.

Həzrəti Dihyəyi Kəlbiyə də Bizans imperatorunu İslama də’vət etmək üçün vəzifə verilmişdi. Məktubu Busradakı Ğassan hökmdarı Harisə verəcək, o da Bizans imperatoru Herakla göndərəcəkdi.

Cənabi Peyğəmbərimizin (səlləllahu əleyhi və səlləm) də’vət məktubunu böyük bir hörmətlə alan Həzrəti Dihyə vaxt itirmədən Busraya gəldi. Haris ilə görüşüb vəziyyəti başa saldı. Haris, Dihyə ilə birlikdə hələ ki, müsəlman olmayan Ədiy ibn Hatəmi də o əsnada Qüdsdə olan Heraklın yanına göndərdi. İkisi birlikdə Qüdsə gəlib imperatorla görüşmək üçün təmasa keçdilər. İmperatorun adamları, ona; “Qeysərin hüzuruna çıxdığın zaman başını aşağı əyib gedəcək, yaxınlaşınca da diz çöküb səcdə edəcəksən. Səcdədən qalxmağına icazə vermədikcə əsla yerdən başını qaldırmayacaqsan” dedilər.

Bu sözlər Həzrəti Dihyəyə ağır gəldi və onlara; “Biz müsəlmanlar Allah Təaladan başqa heç kimə səcdə etmərik. Həm də ki, bir insanın başqa bir insana səcdə etməsi onun fitrətinə ziddir” buyurdu. Bundan sonra Qeysərin adamları; “O halda Qeysər gətirdiyin məktubu heç vaxt qəbul etməz və səni hüzurundan qovar” dedilər. Həzrəti Dihyə; “Bizim Peyğəmbərimiz Məhəmməd əleyhissalam bir başqasının, nəinki özünə səcdə etməsinə, qabağında bir balaca əyilməsinə belə razı olmaz. Özüylə görüşmək istəyən, kölə belə olsa, onu hörmətlə qarşılayar. Hüzuruna qəbul edər, dərdinə qulaq asar, çətinliklərinə kömək edər və könlünü alar. Bunun üçün Ona tabe olanların hamısı azaddır, şərəflidir” buyurdu.

Bu sözlərə qulaq asanlardan biri; “Madam ki, Qeysərə səcdə etməyəcəksən, o zaman öhdənə götürdüyün vəzifəni yerinə yetirə bilməyin üçün, sənə başqa yol göstərərəm. Qeysərin sarayının qabağında, istirahət etdiyi bir yer var. Hər gün günortadan sonra bu bağçaya çıxar, orda gəzər. Orda bir minbər də vardır. Onun üstündə nə yazı olsa əvvəlcə onu götürüb oxuyar, sonra istirahət edər. Sən də indi get, məktubu o minbərə qoy və çöldə gözlə. Məktubu görüncə səni çağırdacaq. O zaman vəzifəni yerinə yetirərsən” dedi.

Bundan sonra Həzrəti Dihyə məktubu deyilən yerə qoydu. Herakl məktubu götürdü və Ərəbcə bilən bir tərcüməçi istədi. Tərcüməçi Rəsulullahın məktubunu oxumağa başladı. Məktubun baş tərəfində; “Bismillahirrəhmanirrəhim! Allah Təalanın Rəsulu Məhəmməddən (əleyhissalam) Bizanslıların başçısı Herakla” deyə yazırdı. Heraklın qardaşının oğlu Yənnaq məktubun belə başlamasına çox əsəbiləşdi və

tərcüməçinin sinəsinə möhkəm bir yumruq ilişdirdi. Tərcüməçi, yumruğun şiddəti ilə yerə yıxıldı və mübarək məktub əlindən düşdü. Herakl Yənnaqa; "Nə üçün belə etdin?!" deyə soruşunca, o da; "Məktubu görmürsən? Məktuba, həm sənin adından qabaq öz adı ilə başlamış, həm də sənin hökmdar olduğunu ifadə etməyib; "Bizanslıların başçısı Herakla" demiş. Nə üçün; "Bizanslıların hökmdarı" deyə yazmamış və əvvəlcə sənin adınla başlamamışdır? Onun məktubu bu gün oxunmaz" dedi.

Bundan sonra Herakl; "Vallahi, sən ya çox ağılsızsan, ya da ki, əməlli başlı dəli olmusan. Sənin belə olduğunu bilməzdim. Mən hələ məktubun içində nə olduğuna baxmadan, cırıb atmaq istəyirsən? Həyatıma and içirəm ki, əgər O, dediyi kimi Rəsulullah isə məktubuna mənim adımdan qabaq öz adını yazmaqda və məni Bizanslıların başçısı kimi qələmə verməyində haqlıdır. Mən, ancaq onların sahibiyəm. Hökmdarları deyiləm" dedi və Yənnaqı hüzurundan qovdu.

Sonra xristiyanların ən bilikli alimi, başçısı və özünün məsləhətçisi olan Usquf adındakı bir nəfəri çağırtdırıb məktubu ona oxutdurdu. Məktubun davamında belə buyurulurdu; "Allah Təalanın hidayətinə tabe olanlara, doğru yola gələnlərə salam olsun!" Bundan sonra; (Ey Bizanslıların başçısı!) Səni İslama də'vət edirəm. İslamı qəbul et ki, səlamət tapasan. Müsəlmanlığı qəbul et ki, Allah Təala sənə iki qat əcir versin. Əgər üz döndərsən, bütün xristiyanların günahı sənə yazılacaqdır! "De ki; "Ey kitab əhli (olan yəhudi və xristiyanlar). Aramızda ortaq olan kəliməyə gəlin. O da Allah Təaladan başqa heç bir şeyə sitayiş etməz və Ona heç bir şeyi şərik qoşmarıq. Allah Təaladan üz döndərib, aranızdan heç kimi xaliq Rəbb olaraq tanımarıq. Əgər bu sözdən üz döndərsələr; "Şahid olun. Biz müsəlmanıq" deyin".[279]

Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm) məktubu oxunarkən, Heraklın alnından tər damcıları tökülürdu. Məktub qurtarınca; "Süleyman əleyhissalamdan sonra mən belə; "Bismillahirrəhmanirrəhim" deyə başlayan bir məktub görməmişdim" dedi. Herakl, Usqufa bu məsələ ilə əlaqədar öz fikrini soruşunca; "Vallahi, O, Musa və İsanın (əleyhimussalam), bizə gələcəyini müjdələdiyi Peyğəmbərdir. Onsuz da biz, Onun gəlməyini gözləyirdik" dedi.

Herakl; "Sən bununla əlaqədar nə etməyimi tövsiyə edirsən və nəyi münasib görürsən?" deyə soruşdu. Usquf; "Ona tabe olmağını tövsiyə edirəm" deyə cavab verdi.

---

279 Ali İmran 3/64.

Herakl; “Mən, sənin dediyin şeyi çox yaxşı bilirəm. Ancaq, Ona tabe olub müsəlman olmağa gücüm çatmaz. Çünki, həm hökmdarlıqdan məhrum olaram, həm də məni öldürərlər” dedi. Bundan sonra Həzrəti Dihyəni və Ədiy ibn Hatəmi çağırtdırdı. Ədiy; “Ey hökmdar! Qoyun-dəvə sahibi Ərəblərdən olan bu yanımdakı adam öz ölkəsində baş verən qeyri adi bir hadisədən bəhs edir” dedi. Herakl; “Ölkənizdəki hadisə nədir ki elə?” deyə soruşunca, Həzrəti Dihyə; “Aramızda bir nəfər zühur etdi. Peyğəmbər olduğunu söylədi. Xalqın bir hissəsi Ona tabe olmaqda, bir hissəsi də qarşı çıxmaqdadır. Biz inananlarla, inanmayanlar arasında bəzən döyüşlər də baş verməkdədir” dedi.

Bundan sonra Herakl Cənabi Peyğəmbərimiz haqqında məlumat əldə etməyə başladı. Şam valisinə əmr verib Rəsuli əkrəmlə eyni nəsildən gələn bir nəfəri tapmalarını əmr etdi. Bu müddətdə də özünün dostu olan və İbrani dilini bilən Romadakı bir alimə də məktub yazıb bu məsələni soruşdu. Romadakı dostundan, bəhs etdiyi bu adamın sonuncu Peyğəmbər olduğunu xəbər verən bir məktub gəldi. Şam valisi də ticarət üçün gedən bir Qureyş karvanına rast gəldi. Bunların arasında, hələ müsəlman olmayan Qureyşin başçısı Əbu Süfyan da vardı.

Əbu Süfyan belə nəql etmişdir ki; “Biz Qəzzədə oldğumuz əsnada, Heraklın Şam valisi, sanki bizə hücum edəcəkmiş kimi gəldi və; “Siz, bu Hicazdakı adamın qövmündənsiniz?” deyə soruşdu. “Bəli” dedik. “Haydı, bizimlə birlikdə imperatorun yanına gedəcəksiniz” dedi və Əbu Süfyanla yanındakıları Şama apardı. Şam valisi Əbu Süfyanı və yanındakıları Heraklın yanına çıxartdı. Bu əsnada Herakl Qüdsdəki bir kilsədə idi. Vəziriylə birlikdə oturmuş və başına tacını qoymuşdu. Herakl, Əbu Süfyan və yanındakı təxminən otuz nəfər Məkkəlini burda hüzuruna qəbul etdi.

Tərcüməçi çağırtdırdı və onlara; “Aranızda peyğəmbər olduğunu iddia edən adama nəsəb cəhətindən ən yaxın hansınızdır?” deyə soruşdu. Əbu Süfyan; “Ona, nəsəb cəhətdən ən yaxın olan mənəm” deyə cavab verdi. Herakl; “Qohumluq dərəcəniz nədir?” deyə soruşunca; “Əmimin oğludur” dedi. Herakl, Əbu Süfyanın özünə yaxın gətirilməsini istədi və digərlərinin də Əbu Süfyanın arxasında dayanmasini əmr etdi. Əbu Süfyan, əvvəlcə yalan dedisə də, hökmdarın hədə-qorxusuyla qorxdu və yalan danışa bilmədi. Sonra aralarında bu dialoq keçdi. Herakl;

- Peyğəmbər olduğunu söyləyən zatın aranızdakı nəsəbi necə tanınır?
- O, dövrün ən yaxşı nəsəbinə sahibdir. Soy cəhətindən ən seçginimizdir.

- Aranızda ondan əvvəl peyğəmbərlik iddiasında olnan başqa biri olub heç?

- Olmadı.

- Onun atalarından heç hökmdar olan olub?

-Xeyr.

- Ona xalqın varlıları, yoxsa kasıb və zəifləri tabe olurlar?

- Ona tabe olanlar kasıblər, zəiflər, gənclər və qadınlardır. Qövmünün yaşlılarından və varlılarından çox da tərəfdarı yoxdur.

- Ona tabe olanlar artır, yoxsa azalır?

- Artır.

- Onun dininə girdikdən sonra bəyənməyərək vəya xoşlanmayaraq çıxanlar var?

- Yoxdur.

- Peyğəmbər olduğunu deməmişdən qabaq Onun heç yalan danışdığı görülüb?

- Xeyr.

- O Peyğəmbərin heç sözünü tutmadığı, sözünü yerinə yetirmədiyi olub?

- Xeyr, olmadı. Ancaq biz indi, onunla bir müddətliyinə döyüşməyi dayandıraraq razılıq əldə etmişik. Bu müddət ərzində Onun nə edəcəyini bilmirik.

- O sizə nəyi əmr edir?

- Bir bir olan Allaha ibadət etməyi, Ona heç bir şeyi şərik qoşmamağı əmr edir. Ata-babalarımızın sitayiş etdiyi şeylərə (bütlərə) sitayiş etməkdən bizi çəkindirir. Namaz qılmağı, doğru yolda olmağı, kasıblara kömək etməyi, haramlardan uzaq durmağı, əhdə vəfa etməyi, əmanətə xəyanət etməməyi və qohum-əqrəbanı ziyarət etməyimizi əmr edir.

Kilsədə bu dialoq baş vermiş, Rəsulullahın (səlləllahu əleyhi və səlləm) mübarək məktubu oxunmuşdu. Herakl məktubu öpüb, gözlərinə sürtdü və alnına qoyunca, Bizanslılar arasında səs-küy artdı. Qeysər, Əbu Süfyan və yanındakı Qureyşlilərin çölə çıxardılmasını əmr etdi. Hələ müsəlman olmayan Əbu Süfyan, burda and içərək, sevgili Peyğəmbərimizin tuttuğu yolun müvəffəqiyyətlə başa çatacağına inandığını söyləmişdi.

Həzrəti Dihyə, Heraklın qabağanda durub mübarək gözəl üzü və şirin diliylə; “Ey Qeysər! Məni, səndən daha xeyirli olan Busradan birisi (Haris) göndərdi. Allah Təalaya and içirəm ki, məni, ona göndərən kəs (Rəsulullah) isə, həm ondan, həm də

səndən daha xeyirlidir. Sən, mənim sözlərimə təvazökarlıqla qulaq asıb, edilən nəsihətləri qəbul etməlisən! Çünki, təvazökarlıq göstərsən, nəsihətləri başa düşərsən. Nəsihətləri qəbul etməsən, insaflı ola bilməzsən!" dedi.

Herakl; "Davam et" deyincə, Həzrəti Dihyə; "Elə isə, mən səni İsa əleyhissalamın Onun üçün namaz qılmış olduğu Allah Təalaya iman etməyə də'vət edirəm. Mən səni, əvvəlcə Musa əleyhissalamın, ondan sonra İsa əleyhissəlamın gələcəyini müjdələyib, xəbər verdiyi bu ümmi Peyğəmbərə iman etməyə də'vət edirəm. Əgər bu barədə bir şey bilir, dünya və axirət səadətini qazanmaq istəyirsənsə, bunları gözlərinin qabağına gətir. Yoxsa, axirət səadətini qaçırdar, küfr və şirk içində qalarsan. Bunu da yaxşı bil ki, sənin Rəbbin olan Allah Təala zalımları həlak edən və ne'mətləri dəyişdirəndir" dedi.

Herakl; "Mən, əlimə keçən bir yazını oxumadan qabaq, yanıma gələn bir alimdən bilmədiklərimi soruşub öyrənmədən getməyinə icazə vermərəm. Bundan, ancaq xeyir və yaxşılıq görürəm. Sən mənə fikirləşib həqiqəti tapana kimi möhlət ver" dedi. Herakl daha sonra Həzrəti Dihyəni yanına çağırdıb, üzbəüz danışdı. Ürəyindəkini belə açdı ki; "Mən bilirəm ki, səni göndərən kəs, kitablarda gələcəyi müjdələnən və gəlməsi gözlənilən son Peyğəmbərdir. Ancaq, Ona tabe olsam Bizanslıların məni öldürmələrindən qorxuram. Səni, onların ən böyük alimi və məndən daha çox hörmət etdikləri Dağatırın yanına göndərim. Bütün xristiyanlar ona tabedir. Əgər o iman etsə, Bizanslıların hamısı iman edər. Mən də o zaman ürəyimdəkini və e'tiqadımı açıq şəkildə deyərəm".

Bundan sonra Herakl bir məktub yazaraq Həzrəti Dihyəyə verib, Dağatırın yanına göndərdi.

Rəsulullah Dağatıra da məktub göndərmişdi. Dağatır, məktubları oxuyub, Cənabi Peyğəmbərimizin xüsusiyyətlərini eşidincə Onun, Həzrəti Musanın və Həzrəti İsanın gələcəyini xəbər verdikləri son Peyğəmbər olduğunda heç bir şübhə olmadığını söylədi və iman etdi. Evinə gedib hər bazar oxuduğu və'zlərə üç həftə çıxmadı. Xristiyanlar; "Dağatıra nə olub ki, o ərəblə görüşdükdən bəri çölə çıxmır? Onu istəyirik!" deyə səs-küy qaldırdılar.

Dağatır, əynindəki qara keşiş paltarını çıxartdı. Ağ paltar geyindi, əlinə əsasını götürüb kilsəyə gəldi. Bölgənin əhalisini bir yerə yığdıqan sonra ayağa duraraq; "Ey

xristiyanlar! Bilin ki, bizə Əhməddən (əleyhissalam) məktub gəldi. Bizi haqq dinə də'vət etmişdir. Mən açıq-aşkar bilirəm və inanıram ki, O, Allah Təalanın haqq rəsuludur" dedi. Xristiyanlar bunu eşidincə, Dağatırın üstünə tökülüşdülər və döyərək şəhid etdilər. Həzrəti Dihyə gəlib vəziyyəti Herakla çatdırdı.

Herakl; "Mən sənə demişdim axı? Dağatır, xristiyanların yanında məndən daha çox hörmət sahibi və əzizdir. Əgər eşitsələr məni də onun kimi öldürərlər" dedi.

Buxarinin "*Səhih*" əsərində nəql etdiyi və Zührinin rəvayət etdiyi xəbərdə isə; "Herakl, Humusdakı sarayında Bizanslıların başçılarını çağırtdırıb qapıların örtülməsini əmr etdi. Sonra, hündür bir yerə çıxdı və; "Ey Bizans camaatı! Sizlər səadətə, hüzura qovuşmağı və hakimiyyətinizin uzun müddət qalmağını, Həzrəti İsanın dediklərinə tabe olmağı istəməzsiniz bəyəm?" dedi. Bizanslılar; "Ey bizim hökmdarımız! Bunları əldə etmək üçün nə etməliyik ki?" deyə soruşdular. Herakl; "Ey Bizans camaatı! Mən, sizləri xeyirli bir iş üçün bir yerə yığdım. Mənə Həzrəti Məhəmmədin məktubu göndərildi. Məni İslam dininə də'vət edir. Vallahi, O, gəlməsini gözlədiyimiz, kitablarımızda yazılmış və əlamətlərini bildiyimiz Peyğəmbərdir. Gəlin, Ona tabe olub dünyada və axirətdə xeyir tapaq" dedi. Bundan sonra hamı pis sözlər deyib, donquldanaraq çölə çıxmaq üçün qapılara yaxınlaşdılar. Ancaq qapılar bağlı olduğu üçün çıxa bilmədilər. Herakl, Bizanslıların bu hərəkətlərini görüb, İslamiyyəti qəbul etmək istəmədiklərini görüncə, canından qorxdu və; "Ey Bizans camaatı! Mənim dediyim sözlər, sizlərin dininizə olan bağlılığınızı ölçmək üçün idi. Dininizə bağlılığınızı və məni sevindirən davranışınızı bilavasitə gözlərimlə gördüm" dedi. Bundan sonra Bizanslılar Herakla səcdə etdilər və sarayın qapıları açılınca çıxıb getdilər.[280]

Herakl Həzrəti Dihyəni çağırtdırdı və baş verənləri ona da dedi. Ona cürbəcür qiymətli hədiyyələr verdi. Ayrıca, Cənabi Peyğəmbərimizə (səlləllahu əleyhi və səlləm) də bir məktub yazdı. Məktubunu, hazırlatdığı hədiyyələrlə birlikdə Həzrəti Dihyə ilə sevgili Peyğəmbərimizə göndərdi. Herakl müsəlman olmaq istəmiş, ancaq vəzifə və ölüm qorxusundan iman etməmişdi. Cənabi Peyğəmbərimizə yazdığı məktubda, "Həzrəti İsanın müjdələdiyi Allahın Rəsulu Məhəmmədə, Bizans hökmdarı Qeysərdən! Elçin məktubunu gətirdi. Mən şəhadət edirəm ki, sən Allahın haqq rəsulusan. Onsuz da biz, sənin haqqında İncildə yazılmış məlumatları görmüşdük və Həzrəti İsa səni bizə

---

[280] İbn Sə'd, *ət-Təbəqat*, I, 259.

müjdələmişdi. Bizanslıları sənə iman etməyə də’vət etdimsə də qəbul etmədilər. Mənim sözümə qulaq assaydılar, heç bir şübhə yoxdur ki, bu onlar üçün xeyirli olardı. Mən sənin yanında olub, sənə xidmət etməyi və ayaqlarını yumağı çox arzu edirəm” deyilirdi.

Həzrəti Dihyə, Heraklın yanından çıxıb Hismaya gəldi. Yolda Cüzam vadilərindən Şənar vadisində Huneyd ibn Us öz oğlu və adamları ilə birlikdə Həzrəti Dihyəni soydular. Köhnə paltarlarından başqa hər şeyini götürdülər. Bu mövqedə, Dubeyb ibn Rifaə ibn Zeyd və qövmü İslamiyyəti qəbul etmişdilər. Dihyə bunların yanına gəlib baş verənləri çatdırınca bunlar, Huneyd ibn Us və qəbiləsinin üzərinə hücum edib, əşyalarının hamısını dala qaytardılar. Daha sonra Rəsulullah, Zeyd ibn Harisi Huneyd ibn Us və adamlarının üzərinə göndərdi. O bölgədə olanların hamısı iman etdi. Həzrəti Dihyə Mədinəyə gəlincə, evinə baş çəkməmişdən qabaq birbaşa Həbibi əkrəmin evinə getdi. Qapını döydü. Peyğəmbərimiz; “Kimdir?” deyə soruşdu. Dihyə; “Dihyətul-Kəlbidir” dedi. Aləmlərin sahibi; “İçəri gir” buyurdu. Həzrəti Dihyə içəri girdi və baş verənlərin hamısını təfərruatı ilə danışdı. Cənabi Peyğəmbərimizə Heraklın məktubunu oxudu. Rəsulullah; “O, bir müddət də (hakimiyyətdə) qalacaqdır. Məktubum yanlarında olduqca, onların hökmdarlığı davam edəcəkdir” buyurdu.[281]

Herakl, məktubunda Peyğəmbərimizə iman etdiyini yazsa da, Rəsulullah (səlləllahu əleyhi və səlləm); “Yalan deyir. Dinindən dönməmişdir” buyurdu. Herakl, sevgili Peyğəmbərimizin məktubunu ipəkdən bir atlas parçaya büküb, dairəvi qızıl bir qutunun içərisində saxladı. Herakl ailəsi bu məktubu saxlamış və bunu da hamıdan gizlətmişdilər. Bu məktub onlarda olduğu müddətdə, hökmdarlıqlarının davam edəcəyini deyər və buna inanardılar. Həqiqətən də elə olmuşdur.

Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Hatib ibn Əbi Bəltəanı, Misir hökmdarına göndərməmişdən qabaq; “Ey Əshabım! Mükafatı Allahu Təaladan gözləmək üçün bu məktubu Misir hökmdarına hansınız aparar?” deyə soruşunca, Həzrəti Hatib yerindən tez ayağa qalxdı və; “Ya Rəsulallah! Mən apararam!” dedi. Peyğəmbərimiz də; “Ey Hatib! Bu vəzifəni Allah Təala sənin barəndə mübarək etsin?” buyurdu.

---

[281] Buxari, “Təfsîr”, 4; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 441; Beyhəqi, *əs-Sünən*, II, 353; İbn Sə’d, *ət-Təbəqat*, I, 259.

Hatib ibn Əbi Bəltəa Həzrətləri məktubu sevgili Peyğəmbərimizdən aldı. Xudahafizləşib öz evinə getdi. Minəcəyi heyvanı hazırladı. Ailəsi ilə də xudahafizləşdikdən sonra yola düşdü. Misir hökmdarı Muqavqısın İskəndəriyyədə olduğunu öyrəndi və sarayına getdi. İçəriyə buraxmamışdan qabaq məqsədini öyrənən qapıçı, Həzrəti Hatibə çox hörmət etdi. Onu heç gözlətmədi. Muqavqıs o əsnada dənizdəki bir gəmidə adamlarıyla danışırdı. Həzrəti Hatib, bir qayığa minib Muqavqısın olduğu gəmiyə getdi. Peyğəmbərimizin məktubunu verdi. Məktubu Hatibdən alan Muqavqıs oxumağa başladı;

"Bismillahirrəhmanirrəhim!

Allah Təalanın qulu və rəsulu Məhəmməddən, Qibtin (Qədim Misir xalqının) başçısı Muqavqısa! Salam, hidayət tapanların üzərinə olsun. Səni, səlamət tapmağın üçün İslama də'vət edirəm. Müsəlman ol ki, səlamət tapasan və Allah Təalanın iki qat əcrinə nail olasan. Əgər üz döndərsən bütün Qibtin günahı səninindir. Ey Əhli kitab olan (yəhudi və xristiyanlar)! Aramızda ortaq olan kəliməyə gəlin. O da, Allah Təaladan başqa heç bir şeyə sitayiş etməyin və Ona heç bir şeyi şərik qoşmayın. Allah Təalanı qoyub aramızdan heç kimi yaradan Rəbb kimi tanımayın. Əgər bu sözdən üz döndərsələr; "Şahid olun. Biz müsəlmanıq" deyin!".[282]

Kainatın hökmdarının məktubu oxununca, Muqavqıs Həzrəti Hatibə; "Xeyirlisi olsun!" dedi. Misir hökmdarı sərkərdələrini, dövlət adamlarını çağırtdırıb Hatib ilə danışmağa başladı. Dedi ki; "Başa düşmək istədiyim bəzi şeyləri soruşacaq, bu barədə səninlə danışacağam". Həzrəti Hatib; "Buyurun, danışaq!" deyincə, Muqavqıs;

- Sizi göndərən adam haqqında mənə məlumat verin. O bir peyğəmbərdir? Bir az bu barədə danış!

- Bəli, O bir peyğəmbərdir.

- O, həqiqətən də Peyğəmbərdirsə, nə üçün özünü öz yurdundan çıxardıb başqa bir yerə sığınmağa məcbur edən qövmünün pisiliyi üçün bəddua etmədi?

- Sən, İsa ibn Məryəm əleyhissalamın peyğəmbər olduğuna inanırsan? Öz qövmü onu tutub, öldürmək istəməyinə baxmayaraq onlara bəddua etmədi və Cənabi Haqq onu dünya səmasına çıxartdı və mükafatlandırdı. Halbuki, qövmünün həlak olması üçün Allah Təalaya bəddua etməsi lazım deyildi bəyəm? Ancaq O, belə etmədi.

[282] Ali İmran 3/64.

- Çox gözəl cavab verdin. Həqiqətən sən hikmət sahibi olan bir adamın yanından gələn hakimsən. Bu gecə yanımızda qal, sabah sənə cavabımı verərəm.

Həzrəti Hatib Həzrəti Musa dövründəki Fironu nəzərdə tutaraq Muqavqısa belə ded;

- Səndən qabaq burda bir hökmdar vardı. O, öz xalqına; "Ən böyük tanrı mənəm!" deyərək Rəbb olduğunu iddia etmişdi. Allah Təala da onu, dünya və axirət əzablarıyla cəzalandırdı və ondan intiqam aldı. Sən bundan ibrət al ki, başqasına ibrət olmayasan!

- Bizimim bir dinimiz vardır. Biz bu dinimizi, ondan daha xeyirlisi olmadıqca dəyişmərik.

- Sənin bağlı olduğun və daha xeyirlisi olmadıqca dəyişməyəcəyini dediyin dinindən daha xeyirli olan din, heç bir şübhə yoxdur ki, İslamiyyətdir. Biz, səni Allahu Təalanın bu son dininə, İslamiyyətə də'vət edirik. Allah Təala dinini Onunla tamamlamış, Onu insanlar üçün kafi qılmışdır və bu qət'idir. Bu Peyğəmbər təkcə səni deyil, bütün insanları İslam dininə də'vət etdi. O zaman, ən çox Qureyş Ona e'tiraz edib kobud rəftar etdi, yəhudilər ən çox düşmənlik etdilər, xristiyanlar da ən çox yaxınlıq göstərdilər. Allah Təalaya and içirəm ki, Musa əleyhissalamın İsa əleyhissalamı müjdələməsi, elə İsa əleyhissalamın Məhəmməd əleyhissalamı müjdələməsi kimidir. Buna görə də, bizim səni Qur'ani Kərimə də'vət etməyimiz, sənin yəhudiləri İncilə də'vət etməyin kimidir. Heç bir şübhə yoxdur ki, hər peyğəmbər özünü başa düşüb, idrak edən bir qövmə göndərilmişdir. O qövmün bu Peyğəmbərə itaət etməsi ona vacib olmuşdur. Bax sən də bu Peyğəmbərin dövrünə çatanlardan birisən. Biz səni bu yeni dinə də'vət edirik.

Həzrəti Hatibin bu sözlərindən sonra Muqavqıs;

- Mən bu Peyğəmbərin halına baxdım. Əmr və qadağalarında əsla ağla zidd düşən bir şey tapa bilmədim. Başa düşdüyüm qədəriylə O, sehrbaz, kahin və bir yalançı da deyildir. Onda bəzi peyğəmbərlik əlamətləri vardır. Gizli olan şeyləri meydana çıxartmaq bu əlamətlərdən biridir. O, bəzi sirlərdən də xəbər verir. Hələ bir az fikirləşim! deyərək möhlət istədi.

Muqavqıs, gecə Hatib Həzrətlərini oyandırıb Cənabi Peyğəmbərimiz haqqında bir çox sual vermək istədiyini bildirdi. Sonra aralarında bu dialoq keçdi;

- Onun haqqında soruşacağım şeylərə doğru cavab verəsən, üç şey soruşmaq istəyirəm.

- İstədiyini soruş! Mən sənə hamısını doğru deyəcəyəm.

- Məhəmməd insanları nəyə də’vət edir?

- Bir olan Allah Təalaya ibadət etməyə də’vət edir. Hər gecə və gündüzdə beş vaxt namaz qılmağı, Ramazan orucunu tutmağı, verilən sözü tutmağı əmr edir. Ölmüş heyvan əti yemeyi qadağan edir.

Bundan sonra Muqavqıs; “Onun şəkil və şəmailini (fiziki görünüşünü) mənə təsvir et! deyin də qısaca təsvir etdi. Bir çoxunu saymamışdı. Muqavqıs; Yaddan çıxartdığın bəzi başqa şeylər də qaldı. Onun gözlərində azca qırmızılıq, kürəyində peyğəmbərlik möhürü vardır. Özü qatıra minər, yun geyinər, xurma və az ətli yeməklə dolanar. Əmiləri vəya əmi oğulları tərəfindən qorunar, dediyində, Həzrəti Hatib;

- Bunlar da onun xüsusiyyətidir, dedi.

Muqavqıs Hatib Həzrətlərinə Peyğəmbərimiz haqqında yenə soruşdu ki;

- O, gözlərinə sürmə çəkir?

- Bəli! Güzgüyə baxar, saçını darayar, həmişə güzgünü, sürmədanlığı, darağı və misvaqı özü ilə gəzdirər!

- Mən, gələcək bir peyğəmbər qaldığını bilir və Şamdan çıxacağını zənn edirdim. Çünki, daha əvvəlki peyğəmbərlər elə ordan çıxmışdılar. Hərçənd ki, son peyğəmbərin Ərəbistanda, çətinlik, qıtlıq, yoxsulluq ölkəsində çıxacağını da kitablarda görmüşdüm. Kitablarda xüsusiyyətləri yazılan peyğəmbərin ortaya çıxma zamanı da, heç bir şübhə yoxdur ki, bu zamandır. Biz Onun xüsusiyyətini belə bilirik ki, o, iki bacının bir adama nikahlanmasına icazə verməz, hədiyyəni qəbul edər, sədəqəni qəbul etməz. Kasıblarala, yoxsullarla oturub-durar! Ona tabe olmaq barəsində Qibtilər mənə qulaq asmazlar. Mən taxt-tacımdan da ayrılamayacağam. Bu barədə çox xəsisəm. O Peyğəmbər, ölkələrə hakim olacaq, özündən sonra da səhabiləri bu torpaqlarımıza qədər gəlib çıxacaqlar. Ən axırda buradakılara qalib gələcəklər. Mən nə Qibtilərə, nə də başqalarına bu barədə qət’iyyən danışmaram!

Bu dialoqdan sonra Muqavqıs Ərəbcə yazan katibini çağırdı. Peyğəmbərimizin məktubuna belə cavab yazdırdı;

“Abdullahın oğlu Məhəmmədə, Qibtilərin başçısı Muqavqısdan!

Salam sənin üzərinə olsun. Göndərdiyin məktubunu oxudum. Orda dediyin şeyi və etdiyin də’vəti başa düşdüm. Mən də bir peyğəmbərin gələcəyini bilirdim. Amma onun Şamdan çıxcağını zənn edirdim. Elçinə hörmətə layiq şəkildə davrandım.

Sənə Qibtilər nəzdində çox dəyərli iki cariyə ilə paltar göndərdim. Bir də minməyin üçün dişi bir qatır hədiyyə etdim”.

Muqavqıs bundan başqa bir şey etmədi, müsəlman da olmadı. Həzrəti Hatibi Misirdə beş gün qonaq saxladı. Çox hörmət edib, ehtiram göstərdi. Sonra; “Dərhal ölkənə, sahibinin yanına qayıt! Onun üçün iki cariyə, iki minik heyvanı, min misqal (Bir misqal 4,8 qram) qızıl, iyirmi dəst Misir e'malı zərif paltar və bəzi başqa hədiyyələr göndərilməsini əmr etdim. Sənin üçün də yüz dinar və beş dəst paltar verilməsini əmr etdim. Burdan çıxıb get! Nə badə, Qibtilər sənin ağzından bir kəlimə belə eşitsinlər!” dedi.

Muqavqıs Cənabi Peyğəmbərimizə ayrıca billur bir qədəh, ətirli bal, əmmamə, Misirə məxsus kətan parça, müşg kimi gözəl ətirlər, əsa, bir qutu içində sürmədanlıq, gül yağı, daraq, qayçı, misvaq, güzgü, iynə və iplik də hədiyyə etdi.

Muqavqıs İslam elçisi Hatib ibn Əbi Bəltəa Həzrətlərini qorumaq üçün, mühafizə dəstəsi də göndərdi. Ərəbistan torpaqlarına qədəm basdıqlarında Mədinəyə gedən bir qafiləyə rast gəldilər. Hatib Muqavqısın əsgərlərini dala qaytarıb o qafiləyə qoşuldu. Hatib ibn Əbi Bəltəa hədiyyələrlə Mədinəyə gəlib Rəsulullahın hüzuruna çıxdı. Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), Muqavqısın hədiyyələrini qəbul etdi. Hatib Muqavqısın məktubunu verib sözlərini çatdırınca, Cənabi Peyğəmbərimiz; “Nə pis adamdır! Səltənətinə qıymağa ürəyi gəlmədi. Halbuki iman etməsinə mane olan səltənəti ona qalmayacaq!” buyurdu.[283]

Muqavqısın Peyğəmbərimizə hədiyyə olaraq göndərdiyi iki cariyə, Mariyə və bacısı Sirindi. Hatib ibn Əbi Bəltəa, yolda bunlara müsəlman olmalarını təklif edincə qəbul edib müsəlman olmuşdular. Cənabi Peyğəmbərimiz Həzrəti Mariyə anamızın müsəlman olmasına çox sevinib, onu nikahıyla şərəfləndirdi. Ondan İbrahim adında bir oğlu oldu. Sirini də Əshabından “Peyğəmbərin şairi” olan Hassan ibn Sabitə verdi. Ən yaxşı cins və ağa çalan boz rəngli iki minik heyvanından qatıra Düldül, o birinə də Ufeyr vəya Ya'fur adı verildi. O günə qədər Ərəbistanda ağ tüklü qatır görülməmişdi. Müsəlmanların ilk gördüğü ağ tüklü qatır Düldül oldu. Cənabi Peyğəmbərimiz hədiyyə edilən billur qədəhlə su içərdi.

---

[283] İbn Hişam, *əs-Sirə*, II, 607; İbn Sə'd, *ət-Təbəqat*, I, 260.

Muqavqıs Peyğəmbərimizin məktubuna çox hörmət göstərib fil dişindən düzəldilmiş bir qutu içinə qoydu. Qutunu möhürlədi və cariyələrindən birinə verdi. (Həmin bu məktub 1267-ci ildə (miladi 1850-ci ildə), Misirin Ahmin bölgəsində qədim bir monastırdakı Qibt kitabları arasında tapılmış və Osmanlı padışahı 96-cı xəlifə Soltan Əbdülməcid Xan tərəfindən pulla alınaraq, İstanbul Topqapı Sarayı Müqəddəs Əmanətlər hissəsinə qoyulmuşdur.

İran hökmdarına da Abdullah ibn Huzafə göndərilmişdi. Həzrəti Abdullah, təkəbbürlü İran Kisrasına (şahına), Aləmlərin sahibinin qiymətli məktubunu təqdim etdiyində, oxuması üçün katibinə verdi.

"Bismillahirrəhmanirrəhim!

Allah Təalanın rəsulu Məhəmməddən (əleyhissalam) Farsların başçısı Kisraya..." Katib bura qədər oxumuşdu ki, təkəbbürlü şahın qan beyninə vurdu, qəzəbləndi və məktubu cırıb atdı. Məktubun, Cənabi Peyğəmbərimizin adıyla başlamasına həddən çox əsəbiləşmişdi. İslam elçisi Abdullah ibn Huzafə Həzrətlərini də hüzurundan qovmaq istədiyində, Həzrəti Abdullah Kisra və yanında toplanmış atəşpərəstlərə belə dedi; "Ey Əcəm xalqı! Siz peyğəmbərlərə inanmır, kitabları qəbul etmirsiniz. Üstündə yaşadığınız bu torpaqlarda ömrünüz az qaldı və siz xəyali bir həyat yaşayırsınız!

- Ey Kisra! Səndən əvvəl neçə hökmdar bu taxtda oturub hökm sürdü. Allah Təalanın əmrlərini yetirənlər axirətlərini qazanaraq, yerinə yetirməyənlər də ilahi əzaba düçar olaraq bu dünyadan köçüb getdilər!

- Ey Kisra! Gətirib təqdim etdiyim bu məktub əslində sənin üçün böyük bir dövlət idi. Bunu xor gördün. Allah Təalaya and içirəm ki, o xor gördüyün din, bura gəlincə qaçmağa yer axtaracaqsan!".

Sonra Kisranın sarayını tərk edib atına mindi. Sür'ətlə ordan uzaqlaşdı. Mədinəyə gəlib baş verənləri Kainatın hökmdarına çatdırdığında; "Allahım! O, mənim məktubumu necə yırtdısa, sən də onu və onun mülkünü məhv et!" buyurdu.

Allah Təala, Rəsulunun duasını qəbul etmiş, Kisra oğlu tərəfindən bir gecə xəncərlənərək tikə-tikə edilmişdi. Həzrəti Ömər dövründə də bütün İran torpaqları fəth edilərək müsəlmanların əlinə keçdi.[284]

Şüca ibn Vəhb Həzrətləri də Ğassan hökmdarı Haris ibn Əbi Şimrə göndərilmişdi. Şüca əvvəlcə hökmdarın qapıçısı ilə görüşdü. Onu İslama də'vət edincə qəbul edib Rəsulullaha hörmət və salamlarını bildirdi. Heç gözlətmədən Həzrəti Şücanı hökmdarla görüşdürdü. Haris ibn Əbi Şimr məktubu oxuyunca, əsəbiləşib yerə atdı. Həzrəti Şüca dərhal Mədinəyi münəvvərəyə qayıdıb, Allah Təalanın Sevgilisini məsələdən agah etdi. Sevgili Peyğəmbərimiz məktubunun yerə atılmasına üzüldü və; "Səltənəti yox olsun!" buyurdu. Qısa bir müddət sonra Haris ibn Əbi Şimr ölüb dövləti parçalandı.[285]

Salit ibn Əmr Yəmamə hökmdarı Həvzə ibn Əliyə göndərilmişdi. Həvzə xristiyan idi. Cənabi Peyğəmbərimiz məktubunda belə buyururdu;

"Bismillahirrəhmanirrəhim!

Allah Təalanın rəsulu Məhəmməddən (əleyhissalam), Həvzə ibn Aliyə!

Hidayət tapan, doğru yol tutanlara salam olsun! (Ey Həvzə!) Bil ki, İslamiyyət dəvələrin və atların gedə biləcəyi ən uzaq yerlərə qədər yayılacaq, bütün dinlərə qalib gələcəkdir. Sən də İslamı qəbul et ki, salamət tapasan. Müsəlman olsan, hakimiyətin altında olan yerlərin idarəsini yenə sənə verərəm...".

Yəmamə hökmdarı Həvzə, bu mübarək də'vəti qəbul etmədi. Səltənət eşqi, vəzifə həvəsi gözünü bürümüşdü. Buna görə də o, Kainatın hökmdarının duasına qovuşmaq kimi, uca bir dövlətdən məhrum oldu. İslam elçisi Salit ibn Əmr Həzrətləri mərhəmət göstərib; "Ey Yəmamənin hökmdarı Həvzə! Sən, bu qövmün başçısısan! Sənin böyük zənn etdiyin qeysərlər ölüb torpaq olmuşlar. Həqiqi böyüklər isə, Allah Təalanın əmrlərini yerinə yetirib, qadağalarından çəkinərək Cənnəti qazanan kəslərdir. Bir cəmiyyət, iman etməklə şərəflənmişsə, onları doğru olmayan öz e'tiqadınla, doğru yoldan çıxartmaqdan çəkin! Doğrusu mən, sənə Allah Təalanın əmrlərini yerinə yetirməyini və qadağalarından çəkinməyini tövsiyə edirəm. Allah Təalaya iman edib əmrlərini yerinə yetirsən Cənnətə girərsən. Şeytana tabe olsan Cəhənnəmdə qalarsan.

---

[284] Buxari, "Təfsîr", 4; "Məğazi", 77, 82, 84; "Elm", 7; İbn Hişam, *əs-Sirə*, II, 607; İbn Sə'd, *ət-Təbəqat*, I, 189, 259; Xuzai, *ət-Təxric*, s. 184.

[285] İbn Hişam, *əs-Sirə*, II, 607; İbn Sə'd, *ət-Təbəqat*, I, 261.

Əgər bu nəsihətlərimi qəbul etsən qorxduqlarından əmin olar, arzu etdiklərinə qovuşarsan. Şayəd, nəsihətlərimi rədd etsən, artıq sizin üçün edə biləcəyim bir şey qalmamışdır. Bundan sonrasını sən fikirləş!" dedi.

Həvzə İslam elçisinin bu gözəl nəsihətlərini də qulaqardına vurdu. Salit ibn Əmr artıq Yəmamədə qalmağın mənasız olduğunu başa düşüb, sür'ətlə Mədinəyə qayıtdı. Sevgili Peyğəmbərimizə nəticəni çatdırdı. Rəsuli Əkrəm, Həvzənin İslama girmə səadətindən məhrum olmasına üzüldü. Qısa bir müddət sonra Həvzənin ölüm xəbəri gəldi. Səltənət eşqi, vəzifə həvəsi, Cəhənnəm çuxuru olan qəbrində sona çatdı.[286]

Beləcə altı İslam elçisi vəzifələrini yerinə yetirmiş, zamanın böyük dövlətlərinə İslamiyyətin varlığını çatdırmışdılar. Onlara həqiqi səadəti xəbər vermiş, qiyamət günündə, "Biz eşitməmişdik" bəhanələrinə yer qoymamışdılar.

Həbəşistan hökmdarı Əshamə müsəlmanlığı qəbul edib Əshabi kiramını görməklə, Cənabi Peyğəmbərimizin mübarək duasına qovuşmaqla şərəflənmişdi. Bizans imperatoru Herakl və Misir hökmdarı Muqavqıs müsəlman olmamışlar. Ancaq gələn məktublara çox hörmət edib mülayim cavablar vermiş, elçilərə yaxşı davranmış və Rəsulullaha hədiyyələr göndərmişdilər. Ğassan və İran hökmdarları elçilərə yaxşı davranmamış, düşmənliklərini açıq-aşkar üzə vurmuşdular. Yəmamə hökmdarı isə, İslam elçisinə mülayim davranmışdı.

*Ərir canlar o gülbuyə rəvanbəxşən həvasından,*
*Günəş titrər, yanar didarının, bax, ehtirasından.*
*Pərişan bir niyaz inlər həyatın müntəhasından,*
*Cəmalinlə fərahnak et ki, yandım ya Rəsulallah.*

*Susuz qalsam, yanan çöllərdə can versəm ələm duymam,*
*Yanardağlar yanar bağrımda, ummanlardan nəm duymam.*
*Alovlar yağsa göylərdən və mən məss eyləsəm duymam,*
*Camalınla fərahnak et ki, yandım ya Rəsulallah*

[286] İbn Hişam, *əs-Sirə*, II, 607; İbn Sə'd, *ət-Təbəqat*, IV, 203; Suheyli, *ər-Rövzul-Unf*, IV, 390.

# XEYBƏRİN FƏTHİ

Nurlu Mədinədə görünüşdə müsəlman, həqiqətdə isə münafiq olan yəhudilər də vardı. Bunların aralarında sehrbazlıqla məşhur münafiq Ləbid ibn Ə'sam adında biri var idi. Yəhudilər ona qızıl verərək; "Məhəmmədin qövmümüzü Mədinədən sürgün etdirib çıxartdığını və kişilərimizi necə öldürdüyünü bilirsən. Onu sehrləyib cəza vermək istəyirik!" dedilər. O da bunu qəbul edib sevgili Peyğəmbərimizin mübarək saçlarından və darağının dişlərindən əldə etməyə çalışdı. Bu arzusunu Rəsulullaha xidmət edən bir yəhudi qulluqçusu ilə həyata keçirtdi.

Ləbid, Cənabi Peyğəmbərimizin mübarək saçlarına və daraq dişlərinə bir ip ilə on bir düyün vurub üfürdü. Sonra quyuda bir daşın altına basdırdı. Bundan sonra Cənabi Peyğəmbərimizin səhhəti pozuldu. Xəstələnib yatağa düşdü və günlərlə qalxa bilmədi. Əshabi kiram tez-tez Onu ziyarət edir, hər keçən gün xəstəliyinin artdığını gördükcə ürəkləri ağrayır, gözlərindən yaş yerinə qan axıdırdılar. Münafiqlər isə sevindiklərindən bayram edirdilər.

Nəhayət bir gün Cənabi Peyğəmbərimiz Həzrəti Aişə anamıza belə buyurdu ki; "Ey Aişə! Bilirsən? Allah Təala, mənim xəstəliyimə şəfa olan şeyi xəbər verdi. Belə ki, mənim yanıma iki nəfər (Cəbrayıl və Mikayıl) gəlib biri başımın üstündə, o biri də ayaqlarıma yaxın yerdə oturdu. Onlardan biri, o birisinə; "Bu adamın xəstəliyi nədir?" deyə soruşdu. O da; "Sehr edilmişdir" deyə cavab verdi. "Kim sehr etmişdir?" deyə soruşduğunda da o biri mələk; "Ləbid ibn Ə'sam" deyə cavab verdi. Sonra; "Bu sehr nə ilə edilmişdır?" deyə soruşdu. O da; "Bir daraq, tökülmüş saç və bir də erkək xurma tumurcuğu ilə" deyə cavab verdi. "O hardadır" sualına da, "Zərvan quyusunda" deyə cavab verdi".[287]

Zərvan, Mədinədə Bəni Zureyk qəbiləsinin bağçasında yerləşən bir quyu idi. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), o quyuya Hazrəti Əli, Zubeyir, Təlhə və Əmmarı göndərdi. quyunun suyunu çəkib dibindəki daşı qaldırdılar. Altından on bir düyünlə düyünlənmiş bir iplik tapdılar. Götürüb, sevgili Peyğəmbərimizə apardılar. Bir xeyli cəhd etmələrinə baxmayaraq düyünləri aça bilmədilər. Cəbrayıl əleyhissalam

[287] Buxari, "Bəd'ul-Xalq", 11; "Tibb", 47; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 63; Beyhəqi, *əs-Sünən*, II, 341; İbn Sə'd, *ət-Təbəqat*, II, 196.

Fələq və Nas surələrini gətirdi. Rəsulullah bu surələri, yəni hamısı bir yerdə on bir ayədən hər birini oxuduqca, düyünün biri açıldı. Düyünlər açılıb qurtarınca Kainatın sahibi sağaldı və rahat oldu.

Yəhudi Ləbid tutulub Rəsulullahın hüzuruna gətirildi. Cənabi Peyğəmbərimiz ona; "Allah Təala məni, etdiyin sehrdən agah edərək yerini göstərdi. Sən bunu nə üçün etdin?" buyurduqlarında, "Qızıla olan hərisliyimdən etdim! " deyə cavab verdi. Əshabi kiramdan bəziləri; "Ya Rəsulallah! İcazə versən bu yəhudinin boynunu vurarıq!" dediklərində, özü üçün heç kimə cəza verməyən sevgili Peyğəmbərimiz; "Onun, axırda görəcəyi ilahi əzab daha şiddətlidir" buyuraraq öldürülməsinə icazə vermədi.[288]

Yəhudilər Mədinədən sürgün edilincə Ərəbistanın şimal bölgələrinə getmişdilər. Bunlardan bir hissəsi Xeybərdə qalıb yerləşdilər. Bir hissəsi isə daha şimalda yerləşən Şama getdilər. Rəsulullaha sui qəsd düzəltdiklərinə görə el-obalarından çıxardılmışdılar. Ancaq, müsəlmanlara qarşı güddükləri kin, hərislik və intiqam hisləri heç vaxt sönmədi. Hətta, gündən-günə daha da artdı. Bir an əvvəl kainatın hökmdarı olan Allah Təalanın Həbibinin həyatına son qoymaq, İslam dinini yox etmək istəyirdilər. Başda gələnlərindən bəziləri, "Qatafanlılara gedib yardım istəyək, müsəlmanlara qarşı onlarla birlikdə döyüşək!" dedilər. Bəziləri də; "Fədək, Teyma və Vadil-Qura yəhudilərini də köməyə çağırıb, müsəlmanlar bizə hücum etməmişdən qabaq biz onların şəhərinə hücum edib, bu günə qədər olan bütün intiqamımızı alaq!" dedilər.

Xeybər yəhudiləri bu sözü qəbul edib ətrafdakı yəhudi qəbilələrini və Qatafanlıları köməyə çağırdılar. Elə təkcə Qatafanlılardan çox sayda seçmə döyüşçü gəlib Xeybərdə hazırlıq görməyə başladılar.

Onlar bu hazırlıqlarını görərkən, Aləmlərin sahibi (səlləllahu əleyhi və səlləm), yəhudilərin vəziyyətlərindən xəbərdar oldu. Abdullah ibn Rəvaha Həzrətləriylə birlikdə üç səhabi göndərib, dərhal Xeybərdə baş verən hadisələri öyrənmək üçün göndərdi. Abdullah ibn Rəvaha və üç dostu sür'ətlə Xeybərə gəldilər. Bura, səkkiz möhkəm qalası, məhsuldar torpaqları, çoxlu bağ-bağçaları olan varlı bir şəhər idi. Həzrəti Abdullah dostlarından birini Şıqq, birini Qətibə, digərini Natat qalasına göndərdi. Özü də başqa bir qalaya girib, üç gün ərzində yəhudilərin vəziyyətlərini, döyüşə

[288] Buxari, "Tibb", 47; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 63; İbn Sə'd, *ət-Təbəqat*, II, 198.

hazırlıqlarını yaxından gördü. Üç gündən sonra görüşmə yerində toplaşıb, sür'ətlə Mədinəyə gəlib, yəhudilərin etdikləri hazırlıqları Cənabi Peyğəmbərimizə bircə-bircə dedilər.

Sevgili Peyğəmbərimiz Əshabının tələsik hazırlanmasını əmr etdi. Yəhudilərin, Mədinəyi münəvvərəyə hücum etmələrini əngəlləmək üçün Xeybərə getməyi qərara aldılar. Bu qərarı eşidən Mədinə yəhudiləri əl-ayağa düşdülər. Müsəlmanların əhval-ruhiyyəsini pozmaq üçün; "And içirik ki, əgər siz Xeybərdəki qalaları, oraya yığılmış igid döyüşçüləri görsəydiniz, heç vaxt ora addım atmazdınız! Dağların başındakı hündür bürclü qalaları zireh geyinmiş igidlər qorumaqdadır. Ətrafdan minlərlə əsgər onlara köməyə gəlmişdir! Sizin, Xeybəri fəth etməyiniz mümkündür bəyəm?!" deyirdilər. Bunlara qarşı qəhrəman səhabilər; "Allah Təala Həbibinə, Xeybəri fəth edəcəyini və'd etmişdir" deyərək yəhudilərdən heç vaxt qorxmayacaqlarını ifadə edirdilər. Əshabın bu cür'ətli davranışı yəhudiləri daha çox üzür, onları daha çox narahat olmağa sövq edirdi.

Münafiqlərın başçısı Abdullah ibn Ubeyy; "Məhəmməd, az bir qüvvə ilə sizə hücum edir. Qorxulu bir vəziyyət yoxdur, ancaq tədbirli olub, mallarınızı qalalarınıza yığın. Qaladan çıxaraq onların qabağına çıxın!" deyərək, Xeybərə tələm-tələsik xəbər göndərdi.

Əshabi kiram hazırlıqlarını gördü, evdəkilərdən halallıq istəyib, Cənabi Peyğəmbərimizin yanında toplaşdı. İki yüz süvari və min dörd yüz piyada yığılmışdılar. Allah Təalanın dinini yaymaq, cihad etmək və şəhidlik mərtəbəsinə qovuşmaq üçün sevgili Peyğəmbərlərinin əmrini gözləyirdilər. Bu əsnada bəzi qadınların, döyüşdə Əshabi kiramın yeməklərini bişirib, yaralıları sarımaq kimi işləri görmək üçün, Cənabi Peyğəmbərimizdən icazə istədikləri görüldü. Rəsulullah mərhəmət göstərib, onları bu savabdan məhrum etmədi. Beləcə mücahidlərə, başda sevgili Peyğəmbərimizin mübarək xanımı Ümmü Sələmə Həzrətləri olmaqla, iyirmi mücahidə xanım da qoşulmuş oldu.[289]

Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Mədinədə yerinə vəkil olaraq Ğifar qəbiləsindən Siba Həzrətlərini qoydu və Xeybərə tərəf hərəkətə keçmə əmrini verdi. (Numeylə ibn Abdullahın vəkil olaraq Mədinədə qoyulduğu da deyilmişdir). Səfər təkbirlərlə başladı. İşləri səbəbiylə döyüşdə iştirak edə bilməyən, yaşları kiçik olduğu

---

[289] Əbu Davud, "Cihad", 152; Vaqidi, *əl-Məğazi*, II, 685.

üçün icazə verilməyən səhabilər, Cənabi Peyğəmbərimizə və qəhrəman atalarına, babalarına, əmilərinə, dayılarına və böyük qardaşlarına qibtə ilə baxır, onları təkbir və dualarla yola salırdılar.

Təqvim hicrətin yeddinci ilini göstərirdi. Cənabi Peyğəmbərimizin müqəddəs bayrağını Həzrəti Əli daşıyır, sağ cinah komandanlığını da Həzrəti Ömər yerinə yetirirdi. [290] Səfər deyib-gülərək keçirdi. Şairlər şe'rləriylə Allah Təalaya verdiyi ne'mətlərinə görə həmd edir, sevgili Peyğəmbərimizə salavat göndərir və şanlı Əshabı mədh edirdilər. Səhabilər də sanki bayrama gedirlərmiş kimi hamısı birlikdə; "Allahu əkbər!

**YA RƏSULALLAH!**

Ya Rəsulallah! Sənin qapındakı kölənin,
Ayaqlarına dəyən torpağı öpməyənin,
və bu səadət üçün can fəda etməyənin,
Sənə sevgisi yoxdur, inanmaram, sözü yalan.

Basdığın torpaqları başıma tac eyləsəm,
Öpsəm, sürtsəm gözümə, qəlbə əlac eyləsəm.
Sirati müstəqimi tapan sirac eyləsəm,
və düşsəm yollarına, sənə aşiq və heyran.

Sənin tərəfdən gələn hər küləyi qoxlaram,
Gözəl qoxundan əsər var mı, deyə yoxlaram.
Fəda olsun uğruna əhlim və uşaqlarım,
Anam, atam, qohumlarım və minlərlə can.

Deyir Mövlana Xalid sənin candan aşiqin,

[290] Buxari, "Məğazi", 40; Vaqıdi, *əl-Məğazi*, II, 653; Kilai, *əl-İktifa*, II, 258.

Ey aləmin hökmdarı, ey cananı cahanın!
Bir canım var səndəndir, sənin mənə ehsanın,
Deyə bilmərəm fəda üçün sənə gətirdim bir can.

Sənin kölən möhrünü vurmayanlar alnına,
Sevgi gərdanlığını taxmayanlar boynuna,
Hədəf olmayan bənzərsiz nəzərinin oxuna,
Sevirəm deməsin əgər sevərsə insan.

Min üç yüz bu qədər il, səni mədh edənlərin,
Qəlbi yanan, dilləri daim səni tərif edənlərin.
Şəfaət diləyərək qapına gələnlərin,
Ən pisi bu qulun, ən acizi bu qurban.

Allahu əkbər! La ilahə illallahu vallahu əkbər!" deyərək hər tərəfi lərzəyə salırdılar. Hər düşərgə yerində Kainatın hökmdarı; "Allahım! Gələcəyimiz üçün narahat olmaqdan, keçmiş üçün şübhə etməkdən, gücsüzlük və halsızlıq, paxıllıq, qorxaqlıq və bel bükən borcdan, zalım və haqsız kəslərin hökmranlığından sənə sığınıram!" deyərək dua edirdi. Xeybərə yaxınlaşıldığı zaman sevgili Peyğəmbərimizin Əshabını dayandırdığı görüldü. Əlllərini göyə qaldıraraq; "Ey göylərin və əhatə etdiyi yerlərin Rəbbi olan Allahım! Ey yerlərin və yer üzündəkilərin Rəbbi olan Allahım! Ey şeytanların və yoldan çıxartdıqlarının Rəbbi olan Allahım!

Der ki, Haqqın məhbubu sənə tərəf gəlim,
Unudum hər şeyi, yalnız səni bilim.
Düşüm səhralara, yanım, əriyim,
Hər an, daim sənə tərəf,

Məhəbbət atəşinlə yanan dodaqlarımı,
Doydurmaq üçün öpsəm, Rövzənin tozlarını,
Öpsəm, üzümə sürtsəm təmiz torpaqlarını,
Ruhuma şəfa etsəm, xəstə bədənə dərman.

Hüzurunda əllərimi açıb Haqqa yalvarsam,
Saatlarla, günlərlə, aylarla elə qalsam,
Daim istiğfar eyləsəm və daim səlat oxusam,
İqrar edirəm ki, acizəm şükranından.

İnləyərək ağlasam, könlümü sənə versəm,
və yandırıcı məhəbbət göz yaşlarımı töksəm,
Yaşım bitsə, qan gəlsə və mum kimi ərisəm.
Ərşdən, uca Rövzənin qarşısında versəm can.

Ən gözəl vasitə sən, ən doğru rəhbər sənsən,
Əbədi səadəti yalnız sən göstərirsən.
və sənə tabe olanlara müjdələr verərsən,
Nə izah edər qələm, nə iqrar edər lisan.

Nə olar bir kərə, kasıba hökmdar kimi,
Ağlamaqdan kor olan Yaquba Kənan kimi,
Bir qaranlıq gecədə, bir mahi təban kimi,
Görün, viranə könlüm bir əsnada olsun umran.

Ey küləklərin və sovurduqları şeylərin Rəbbi olan Allahım! Biz səndən, bu ölkənin xeyrini və yaxşılığını, bu ölkədə yaşayan insanların xeyrini və yaxşılığını, yenə bu ölkədə olan hər şeyin xeyrini və yaxşılığını istəyərik. Bu ölkənin şərrindən, insanlarının şərrindən və içindəki hər şeyin şərrindən də sənə sığınarıq!" deyə yalvarmağa başladılar. Səhabələrin dodaqlarından; "Amin, amin" səsləri tökülürdü. Bundan sonra Əshabına; "Bismillahirrəhmanirrəhim" deyərək, irəliləyin" buyurdu.

Əshabi kiram, Rəsuli əkrəmlə birlikdə təzədən yola düşdülər. Xeybərin ən güclü qalalarından Natat qalası yaxınlığına gəlib, düşərgə saldılar. Axşam vaxtı idi. Rəsulullahın, adəti şərifəsi belə idi ki, səhər açılmayınca hücum etməz və əvvəlcə İslama də'vət edərdi. Təklifini qəbul etmədiklərində isə döyüşə başlardı. Bu səbəblə Əshabi kiram səhərin açılmasını gözlədilər. Yəhudilərin heç biri, İslam ordusunun gəldiyindən xəbər tutmamışdı.

Kainatın sahibi, sübh namazını qıldırdıqdan sonra hazırlıqlarını gördü və mücahidləri hücuma keçirtdi. İki yüz süvari və min dörd yüz piyada, nizamlı şəkildə hərəkət edərək Natat qalasnın qabağına gəlib çatdılar. Bu əsnada bağ, bağça, tarla işləriylə məşğul olmaq üçün qaladan çıxan yəhudilər, qəflətən İslam əsgərləriylə qarşılaşınca çaş-baş qaldılar və; "And içirik ki, bunlar Məhəmməd və Onun nizam-intizamlı ordusudur!" deyərək arxaya dönüb qaçmağa başladılar. Onların bu halını görən sevgili Peyğəmbərimiz; "Allahu əkbər! Allahu əkbər! Xeybər, xarab olub getdi" buyurdu və bu mübarək sözünü üç dəfə təkrar etdi.

Cənabi Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), yəhudilərə, ya müsəlmanlığı qəbul etmələrini, ya təslim olub xərac və cizyə vermələrini təklif etdi. Yoxsa onlarla döyüşüləcəyini və qan töküləcəyini dedi. Yəhudilər, başda gələnlərindən Səllam ibn Mişkənin yanına gedib, vəziyyəti ona çatdırdılar. Səllam; "Daha əvvəl, Məhəmmədə siz hücum edin demişdim, ancaq siz qəbul etməmişdiniz. Barı indi, onunla döyüşməkdən dala qalmayın. Müsəlmanlarla döyüşə-döyüşə ölməyiniz, həyatda heç kimsiz qalmağınızdan daha xeyirlidir!" deyərək onları döyüşə təşviq etdi. Yəhudilər, vaxt itirmədən uşaq və qadınlarını Kətibə qalasına, ərzaqlarını Naimə, əsgərlərini də Natat qalasına yığdılar.

İslam ordusunun müsəlman olma təklifinə yəhudilər ox ataraq cavab verdilər. Mücahidlər, oxları qalxanlarıyla qarşıladılar. Sevgili Peyğəmbərimizin əmri ilə yaylar

çəkildi, hamı birdən qala bürclərində yerləşən yəhudilərin üstünə; “Allahu əkbər!” sədaları altında ox atdılar. Artıq döyüş başlamışdı. Bir tərəfdə Kainatın hökmdarı və qəhrəman Əshabı İslamiyyəti yaymaq, onların müsəlman olub Cəhənnəmdən xilas olmalarına səbəb olmaq üçün döyüşür, digər tərəfdə isə, nəsihət qanmayan, fürsət tapan kimi müsəlmanlara arxadan zərbə vurmaq istəyən və həqiqəti görməmək üçün israr edən yəhudilər vardı. Xatəmul-ənbiyanın (son Peyğəmbərin), öz qövmlərindən zühur etmədiyini görüncə, qısqanclıqlarından Onu qəbul etməmiş, Cənabi Peyğəmbərimizi, uşaqlığından bəri məhv etmək üçün, ağıllarına gələn hər hiyləni sınaqdan keçirtmiş, ancaq Allah Təalanın hifzi ilə heç bir şey edə bilməmişdilər.

Min altı yüz şanlı mücahidin üstünə on mindən artıq yəhudi əsgəri ox atırdı. Əshabi kiram, dalbadal atılan bu oxlara qarşı qalxanlarıyla qorunur, fürsət tapan kimi də, yerə düşən oxları yəhudilərə atırdılar. Ancaq, səhabilərdən bəziləri yaralanmışdılar.

Bu dəmdə Həbibullahın hüzuruna, Həbbab ibn Münzir Həzrətlərinin böyük bir ədəb ilə yaxınlaşdığı görüldü və; “Canım sənə fəda olsun ya Rəsulallah! Düşərgəmizi başqa bir yerdə salsaq olmaz bəyəm?” deyə soruşunca, Cənabi Peyğəmbərimiz; “İnşallahu Təala axşam olunca dəyişdirərik!” buyurdu. Mücahidlər, ox məsafəsi içinə girmişdilər. Yəhudilərin qaladan atdığı oxlar İslam ordugahının arxa tərəfinə qədər çata bilirdi.[291]

**SƏNƏ GƏLDİM!**

Ey günahlıların sığınağı, sənə sığınmağa gəldim!
Çox qəbahətlər gördüm, sənə yalvarmağa gəldim!

Qaranlıq yerlərə düşdüm, bataqlıqlara batdım,

Doğru yolu aydınladan, işıq qaynağına gəldim.

Çıxacaq bir canım qaldı, ey bütün canların canı!

Münasib olarmı söyləmək, canımı fədaya gəldim.

[291] Vaqidi, *əl-Məğazi*, II, 641.

Dərdlilərə təbibsən, mən isə könül xəstəsi,

Qəlb yarama dəva üçün, qapını döyməyə gəldim.

Comərdlərin qapısına bir şey aparmaq xətadır,

Basmaqla şərəf verdiyin torpağı öpməyə gəldim.

Günahlarım çox, dağ kimi, üzüm qara, qətran kimi,

Bu yükdən və qaralıqdan tamamiylə xilas olmağa gəldim.

Təmizlər əlbət hamısını ehsan dəryandan bir damcı,

Hərçənd üzüm kimi qara əməl dəftərimlə gəldim.

Qapına üz sürtə bilsəm ey canımdan əziz canan,

Su ilə olmayan işlər hasil olar o torpaqdan!

O gün axşama qədər döyüş ox atışlarıyla davam etdi. Təxminən əlli nəfər səhabi atılan oxlarla yaralanmışdılar. Axşam olunca, yeni bir düşərgə seçmək üçün Məhəmməd ibn Məsləmə Həzrətlərinə vəzifə verildi. O da, Rəci deyilən mövqeyin münasib olduğunu göstərincə, İslam ordusu burada düşərgə saldı. Yaralılar da müalicə edilib, yaraları sarılmağa başlandı.[292]

Ertəsi gün Natat qalasının qabağına gələn qəhrəman Əshab axşama qədər döyüşdü. Üçüncü, dördüncü və beşinci gündə də mühasirə davam etdi. Yəhudilər elə müdafiə olunurdular. O günlərdə sevgili Peyğəmbərimiz, ağır şəkildə baş ağrısına tutulduğuna görə iki gün mücahidlərlə birlikdə döyüşə bilməmişdi. İlk gün bayrağı Həzrəti Əbu Bəkirə, ikinci gün Həzrəti Ömərə verdi. Hər ikisi də Əshabi kiramın

[292] Vaqidi, *əl-Məğazi*, II, 641; Suheyli, *ər-Rövzul-Unf*, IV, 68.

başında yəhudilərə qarşı çox şiddətli döyüşdülər, ancaq qalanı fəth etmək mümkün olmadı.

Bu müddətdə cəsarətləri artan yəhudilərin qala qapılarını açıb hücuma keçdikləri görüldü. Artıq üzbəüz döyüşməyə başlamışdılar. Doyüş daha da qızışmışdı. Cənabi Peyğəmbərimiz, Əshabına; "Allahu əkbər! Allahu əkbər! deyərək təkbir gətirin" buyurduqca, təkbir sədaları altında eşq və şövq ilə düşmənə qılınc vururdular. Bu dəmdə Məhəmməd ibn Məsləmənin qardaşı Mahmud şəhid edildi. Döyüş də qızğın bir şəkildə axşama qədər davam etdi.

Ertəsi gün Xeybərin ən məşhur komandanlarından Mərhəb, başdan-ayağa zirehə bürünərək qaladan çölə çıxdı. O, güclü, qüvvətli div kimi bir adam idi. İndiyə qədər qabağına bir pəhləvan çıxmamışdı. Mücahidlərə üzünü tutub; "Mən, cəsarəti, qəhrəmanlığı ilə məşhur olmuş Mərhəbəm!" deyərək lovğalanmağa başladı. Belə lovğalanırkən, səhabilərin arasında bir mücahidin qabağa çıxdığı görüldü. Mərhəbə; "Mən də, dəhşətli və ağır döyüşlərin ortasına atılmaqdan qorxmayan Amirəm" deyə cavab verdi və dərhal qabağaına çıxdı. Div Mərhəb, üstündə; "Kimə dəysə həlak edər!" yazılmış qılıncını var gücüylə Həzrəti Amirə vurdu. Qəhrəman Amir cəld qalxanını qaldırdı. Enli qılınc qalxana dəyəndə şiddətli bir səs çıxartdı və qalxana yapışıb qaldı.

Həzrəti Amir Yaradana sığınıb; "Ya Allah!" deyərək qılıncını Mərhəbin zirehli ayaqlarına vurdu. Qılınc, dəmir zirehə dəyən kimi dala qayıtdı və səhabinin öz ayağına dəydi. Qılıncın qəfildən dala qayıtması Həzrəti Amirin ayağındakı arteryal damarının kəsilməsinə səbəb oldu. Əshabi kiram qaçıb Amiri götürərək sağaltmaları üçün düşərgəyə apardılar. Ancaq Amir orada şəhadətə qovuşdu.[293]

Mübarizə çox ağır şəkildə davam edirdi. Axşam üstü sevgili Peyğəmbərimiz yəhudilərə dörd min əsgərlə köməyə gələn və döyüşdə iştirak edən müşrik Qatafanlılara, çıxıb öz torpaqlarına qayıtmalarını təklif etdi. Belə etdikləri təqdirdə, Xeybərin bir illik xurma məhsulunu onlara verəcəyini də və'd etdi. Ancaq Qatafanlılar bu təklifi rədd etdilər. Bundan sonra Aləmlərin sahibi (səlləllahu əleyhi və səlləm), Əshabına, Qatafanlıların olduğu qalanın ətrafında sabaha qədər durmalarını əmr etdi. Qatafanlılar gecə mücahidlərin hücuma keçməsindən çox qorxdular, heç cürə yata bilmədilər. O gecə, bilinməyən bir səs; "Qatafana basqın edildiyini, arvad-uşaqlarının

---

[293] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 51; Vaqidi, *əl-Məğazi*, II, 639; Beyhəqi, *əs-Sünən*, II, 174; İbn Sə'd, *ət-Təbəqat*, II, 211.

əsir edildiyini və mallarının yağmalandığını" xəbər verirdi. Bu səs üç dəfə təkrar edilmiş və bunu bütün Qatafanlılar böyük bir qorxu içində eşitmişdilər. Sərkərdələri Uyeynə də eyni səsi üç dəfə eşitmiş, dan yeri ağarmamışdan qabaq əsgərlərini də götürərək Xeybərdən tələm-tələsik uzaqlaşıb öz ölkələrinə getmişdilər. Səhər açılınca yəhudilər, Qatafanlıların səbəbsiz yerə Xeybərdən çıxıb getməklərinə çaşıb qaldılar və ümidsizliyə düşdülər. Onları köməyə çağırdıqlarına da çox peşman oldular.

## Həzrəti Əlinin qəhrəmanlığı

O gün də Xeybərin qabağında ağır döyüşlər oldu. Ancaq qala fəth edilə bilmədi. Axşam, Kainatın hökmdarı; "Sabah bayrağı elə bir igidə verəcəyəm ki, O, Allah Təalanı və Rəsulunu sevər, Allah Təala və Rəsulu da onu sevər. Allah Təala, onun Əli ilə fəthi həyata keçirdəcəkdir!" buyuraraq müjdə verdi. O gecə Əshabi kiram həyəcanla sabahı gözlədilər. Hər biri bayrağın özünə verilməsini ümid edir, bu yolda, Allah Təalaya dua edirdilər. Bilali Həbəşi Həzrətləri sübh əzanını yanıqlı və gözəl səsi ilə oxudu. Əzan oxunarkən hamı həyəcanlanar, əzandan zövq alar, o ilahi zövqün dadına doymazdı. Sevgili Peyğəmbərimiz Əshabına sabah namazını qıldırdıqdan sonra ayağa qalxdı. Mübarək İslam bayrağının gətirilməsini əmr etdi. Müqəddəs bayraq gətirilərkən, Əshabi kiram ayaqda dayanıb gözləyir, maraqla Rəsuli əkrəmin mübarək dodaqlarından çıxacaq sözlərə qulaq asmaq üçün diqqətlə baxırdılar. Nəhayət Aləmlərin sahibi; "Məhəmmədin zatını peyğəmbərliklə şərəfləndirən Allah Təalaya and olsun ki, mən, bu bayrağı döyüşdən qaçmayan bir igidə verəcəyəm" buyurduqdan sonra mübarək gözləriylə Əshabını süzüb; "Əli hardadır?" buyurdu. Səhabilər; "Ya Rəsulallah! Onun gözləri ağrayır" deyincə, Rəsulullah; "Onu çağırın gəlsin" buyurdu. O günlərdə Həzrəti Əli göz ağrısına tutulduğu üçün gözlərini aça bilmirdi. Yanına gedərək vəziyyəti çatdırdılar və mübarək qoluna girib, Rəsulullahın hüzuruna gətirdilər. Kainatın hökmdarı, Həzrəti Əlinin şəfa tapması üçün, Allah Təalaya dua etdi və mübarək barmaqlarını ağzında isladıb gözlərinə sürtdü. Elə o andaca Həzrəti Əlinin gözlərində heç bir ağrı qalmadı. Ayrıca; "Ya Rəbbi! istinin və soyuğun verdiyi əziyyətdən də Əlini qoru" deyərək, onun üçün dua etdi. Sonra Həzrəti Əlinin əyninə, mübarək əlləriylə bir zireh geyindirib belinə də öz qılıncını bağlayaraq ağ İslam bayrağını əlinə verdi və;

“Allah Təala, sənə qələbə nəsib edincəyə qədər döyüş. Nə badə arxana dönəsən!” buyurdu.

Həzrəti Əli də; “Canım sənə fəda olsun ya Rəsulallah! Onlarla İslam dinini qəbul etdikləri vaxta qədər döyüşəcəyəm” dedi. Sevgili Peyğəmbərimiz də; “Vallahi, sənin səbəbinlə Allah Təalanın, onlardan bir nəfəri belə hidayətə qovuşdurması, sənin üçün, çoxlu qırmızı yunlu dəvələrə sahib olub, onları Allahu Təalanın yolunda sədəqə etməyindən daha xeyirlidir” buyurdu.[294]

Həzrəti Əli əlində bayrağı tutaraq yəhudi qalasına tərəf irəliləyərkən, şanlı səhabilər də Onun arxasınca gedirdilər. Qalaya əməlli-başlı yaxınlaşıbıb, bayrağın bir daşın dibinə basdırıldığı əsnada, Natat qalasının qapısının açıldığı görüldü. Yəhudilərin hücum dəstələri qaladan çölə çıxdılar. Bunlar, Xeybərin ən seçmə qəhrəmanları idi. Hər biri iki zireh geyinmiş, dəmir paltarlara bürünmüşdülər. Aralarından birinin Həzrəti Əliyə tərəf gəlib döyüşmək üçün qabağında durduğu görüldü. Bu, Mərhəbin cəsarətdə tayı-bərabəri olmayan qardaşı Haris idi. Sür’ətlə hücum etdi... İki dəmirin çıxartdığı səs ətrafa yayılarkən, zülfqarın şimşək kimi çaxdığı və Harisin başını bədənindən ayırdığı görüldü. Bu əsnada, “Allahu əkbər! Allahu əkbər!” səsləri göylərə ucalırdı.

Qardaşının öldürüldüyünü eşidən Mərhəb, əmri altındakı əsgərlərlə birlikdə meydana cumdu. Həzrəti Əlinin qabağanda dayandı. Onun da əynində cüt zireh vardı. İki qılınc tutmuşdu. Nəhəng bədəniylə sanki bir div idi. Qəzəblə; “Mən döyüşlərin ən ağır olduğu zamanlarda ortaya çıxıb, qəhrəmanca döyüşən Mərhəbəm! Mən, kükrəyən aslanları belə nizə vəya qılıncımla dəlik-deşik edərəm!” deyərək, özünü tərifləməyə başladı.

Həzrəti Əli də; “Mənə anam Heydər (Aslan) adı vermişdir. Mən, heybətli bir aslan kimiyəm! Səni elə birinci cəhddə yerə sərərəm!” deyərək cavabını verdi. Mərhəb, Həzrəti Əlidən Heydər sözünü eşidincə canına qorxu düşdü. Çünki, gecə röyasında bir aslan onu parçalamışdı. Röyada gördüyü aslan bu idi görəsən? Bunu fikirləşərkən qəfildən div kimi Mərhəbin həmlə etdiyi və Həzrəti Əlinin ondan qalxanıyla qorunduğu görüldü. Sonra, Allah Təalaya sığınıb zülfüqarı kafirin başına elə vurdu ki, nəhəng Mərhəbin zülfüqardan qorunmaq üçün əlində tutduğu qalın polad qalxanını və poladdan

---

[294] Vaqidi, *əl-Məğazi*, II, 653.

düzəldilmiş dəbilqəsini ikiyə bölüb, başını təpəsindən ənsəsinə qədər bölüb ayırdığı göründü. Zülfqarın çıxartdığı qorxunc səs Xeybərin hər tərəfində eşidilmişdi.

Cənabi Peyğəmbərimiz; "Sevinin! Xeybərin fəthi artıq asanlaşdı, rahat oldu" buyurdu. Əshabi kiram, Həzrəti Əlinin bu igidliyinə heyran qalmış, "Allahu əkbər!" sədalarıyla yeri-göyü lərzəyə salmışdılar. Döyüş amansız bir şəkildə davam edirdi. Əshabi kiram döyüşə-döyüşə qala qapısının yanına gəldikləri əsnada, bir yəhudi qılıncıyla Həzrəti Əlinin qalxanına vurdu. Qalxan yerə düşdü. Ancaq, əyilib götürmək üçün vaxt yox idi. Fürsəti fövtə vermək istəməyən yəhudi qalxanı götürüb dala qaçdı. Buna çox üzülən Allah Təalanın aslanı zülfüqar ilə ətrafındakı düşmənləri pərən-pərən etdikdən sonra, qalanın qapısını qalxan etməyi fikirləşdi. "Bismillahirrəhmanirrəhim" deyərək, böyük dəmir qapının halqalarından sallandı. Qıralarını divarından qırıb çıxartdı... Həzrəti Əli qapını sökərkən qala yerindən oynadı. Səkkiz-on pəhləvanın yerindən tərpədə bilməyəcəyi bu qapını bir əliylə qalxan kimi tutub, döyüşməyə başladı.

Qabağına dalbadal yəhudilərin ən igid altı pəhləvanı daha çıxdı. Onları da Allah Təalanın izni ilə məhv edən Həzrəti Əli, qəhrəman dostları ilə qalaya girdi. Artıq qalanın içində döyüşürdü. Qısa zamanda, qabaqlarına çıxa biləcək heç kim qalmamışdı. İslam bayrağını qalaya taxdılar. Beləcə ən möhkəm qalaları olan Natat fəth edildi.

Sevgili Peyğəmbərimiz, Həzrəti Əlinin gözlərindən öpdükdən sonra; "Göstərdiyin qəhrəmanlıq üçün, Allah Təala və Rəsulu səndən razı oldu" buyurdu. Bu mübarək kəlamı eşidən Əli sevincindən ağladı. Cənabi Peyğəmbərimiz; "Nə üçün ağlayırsan?" buyurduğunda; "Canım sənə fəda olsun ya Rəsulallah! Sevincimdən ağlayıram. Çünki, Allah Təala və Rəsulu məndən razı oldu" dedi. Bundan sonra sevgili Peyğəmbərimiz; "Təkcə mən deyil, Cəbrayıl, Mikayıl və bütün mələklər səndən razı oldular" buyurdu.

Bu əsnada Devs qəbiləsindən dörd yüz müsəlman Cənabi Peyğəmbərimizə kömək üçün gəldi.[295] Bundan sonra digər qalaları fəth etmək üçün döyüşlərə şiddətli bir şəkildə davam edildi. Xeybərin digər yeddi qalası bir-bir alınınca, çarəsiz qalan yəhudilər hey'ət göndərərək sülh istədiklərini bildirdilər. Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), bu təklifi qəbul etdi və bu maddələr üzərində razılığa gəldilər;

1- Bu qəzvədə müsəlmanlarla döyüşən yəhudilərin qanı tökülməyəcək.

---

[295] İbn Sə'd, *ət-Təbəqat*, I, 353.

2- Xeybəri tərk edən yəhudilər, özləriylə birlikdə ancaq uşaqlarını və bir dəvə yükü əsas lazım olan ev əşyalarını götürə biləcəklər.

3- Geridə qalan daşınan və daşına bilməyən malların hamısı; zireh, qılınc, qalxan, yay, ox kimi bütün silahlar, əyinlərindəki paltarlardan başqa bütün geyim-keçimləri, par-parça, qızıl-gümüş və ayrıca xəzinələr, at, dəvə, qoyun kimi bütün heyvanlar... nə varsa hamısı müsəlmanlara qalacaq.

4- Müsəlmanlar üçün tərk ediləcək hər hansı bir şey gizlədilməyəcək. Gizlədənlər, Allah Təala və Rəsulunun əmanından və himayəsindən kənarda qalacaq...

Bu şərtlərə riayət etməyən, xəzinələrini dəri qablara qoyaraq torpağa basdıran Kinanə ibn Rəbi cəzalandırıldı. Ələ keçən qənimətin sayı-hesabı yox idi. Xeybərin o məhsuldar torpaqları, xurmalıqlarının hamısı İslam ordusuna verilmişdi.[296]

Bu əsnada, ölkələrinə qayıdan Qatafanlılar yəhudilərə kömək etmək üçün dala qayıtmışdılar. Cənabi Peyğəmbərimizin Xeybəri fəth edib yəhudiləri əsir aldığını gördükləri zaman; "Ey Məhəmməd! Sən, Xeybəri tərk etdiyimiz təqdirdə, bizə Xeybərin bir illik xurmasını verməyi və'd etmişdin. Sözümüzdə durduq. Haydı sən də sözünü tut!" dedilər. Rəsulullah onlara; "Filan dağ sizin olsun" buyurdu. Qatafanlılar da; "Elə isə biz sizinlə döyüşərik" deyərək təhdid etdilər. Rəsuli əkrəm də; "Döyüş yerimiz Cənəfə olsun" buyurdu. Cənəfə, Qatafanlıların bir bölgəsinin adı idi. Qatafanlılar bunu eşidincə qorxularından çıxıb getdilər.

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) və qəhrəman Əshabı, Xeybərin fəthi əsnasında çox yorulmuşdular. Bir tərəfdən yaralılar sağaldılır, digər tərəfdən də istirahət edirdilər. Yəhudilərin başda gələnlərindən Səllam ibn Mişkənin arvadı Zeynəb Cənabi Peyğəmbərimizi zəhərləyərək öldürmək istədi. Bunun üçün, bir keçi kəsib bişirdi və ətə bol miqdarda zəhər qatdı. Sonra, Rəsulullahın hüzuruna çıxaraq hədiyyə gətirdiyini söylədi. Rəsuli əkrəm hədiyyəni qəbul edib Əshabını çağırdı. Hamısı bir yerdə yemək üçün süfrəyə oturdular.

Aləmlərin sahibi, keçinin qol hissəsindən bir tikə qopardıb; "Bismillahirrəhmanirrəhim" deyərək mübarək ağzına apardı. Bir neçə dəfə çeynədikdən sonra dərhal mübarək ağzından çıxardıb; "Ey Əshabım! Bu yeməkdən əlinizi çəkin. Çünki, bu kürək əti zəhirlənmiş olduğunu mənə xəbər verdi" buyurdu. Səhabilər dərhal

---

[296] İbn Hişam, *əs-Sirə*, II, 336; Vaqidi, *əl-Məğazi*, II, 672.

əllərini yeməkdən çəkdilər. Ancaq ətdən bir tikə udan Bişr ibn Bəra Həzrətlərinin o dəqiqə bədəni göyərdi və şəhid oldu. Sevgili Peyğəmbərimizə Cəbrayıl əleyhissalam gəlib, mübarək tüpürcəyinə qarışan zəhərin tə'sirindən xilas olmaq üçün, mübarək kürəyinin ortasından qan aldırmasını söylədi. Elə də edildi. Sonra, zəhərli kabab torpağa basdırıldı. Bu işi görən Zeynəb tutularaq hüzura gətirildi. Rəsulullah ona; "Bu keçi kababını sən zəhərlədin?" buyurdu. O da zəhərlədiyini e'tiraf edərək; "Bəli! Mən zəhərlədim!" dedi. Cənabi Peyğəmbərimiz; "Bunu nə üçün etmək istədin?!" deyə soruşduğunda; "Sən, mənim ərimi, atamı, əmimi öldürdün. Öz-özümə; "Əgər O, həqiqətən peyğəmbərdirsə, Allah Ona xəbər verər. Yox əgər peyğəmbər deyilsə, bu zəhər Ona tə'sir edər və ölər. Beləcə ondan xilas olmuş olarıq" dedim. Əshabi kiram, bu hadisəyə çox üzülmüşdü. "Canımız sənə fəda olsun ya Rəsulallah! Bunu öldürək?" deyə soruşduqlarında, özünə edilən hər bir təhqiri bağışlayan Aləmlərin sahibi, bunu da bağışladı. Bu böyük mərhəməti görən Zeynəb, kəlimeyi şəhadət gətirərək müsəlman oldu".[297]

Xeybərdə ələ keçirilən qənimətlər və əsirlər arasında Huyey ibn Əhtabın qızı Safiyyə də vardı. O, sərkərdə kimi Cənabi Peyğəmbərimizin payına düşmüşdü. Aləmlərin sahibi əsirini azad etdi. O da bu haldan çox tə'sirlənib səmimi qəlbdən kəlimeyi şəhadət gətirərək müsəlman oldu. Bu vəziyyətə çox sevinən sevgili Peyğəmbərimiz, Həzrəti Safiyyə anamızı nikahıyla şərəfləndirib sevindirdi. Beləcə Həzrəti Safiyyə də mö'minlərin anası oldu. Səhba mövqeyində toyu olub, yemiş və xurmadan vəlimə, yəni toy yeməyi verildi.[298]

Safiyyə anamızın mübarək gözlərində bir göyərmə görülürdu. Sevgili Peyğəmbərimiz; "Bu iz nədir?" buyurduğunda O; "Bir gecə röyamda ayın göydən enib qoynuma girdiyini görmüşdüm. Yuxumu ərim Kinanəyə danışınca; "Sən bu üstümüzə hücum etmək üçün gələn Ərəb Kralının xanımı olmağa can atırsan!" deyərək gözümə bir yumruq vurdu və gördüyünüz kimi göyərdi" dedi.

Xeybər fəth edildikdən sonra, yəhudilər Cənabi Peyğəmbərimizə; "Ya Məhəmməd! Biz Xeybərdən çıxıb gedəcəyik. Ancaq, bizim dədə-babadan tarla, bağ-

---

[297] İbn Hişam, *əs-Sirə*, II, 337; Vaqidi, *əl-Məğazi*, II, 678; İbn Sə'd, *ət-Təbəqat*, II, 202; Təbəri, *Tarix*, II, 303; Suheyli, *ər-Rövzul-Unf*, IV, 81; İbn Kəsir, *əl-Sirə*, III, 398; Qəzzali, *İhya*, II, 891.

[298] Buxari, "Salat", 12; "Cihad", 74; Əbu Davud, "Xərac", 21; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 101; İbn Hişam, *əs-Sirə*, II, 330; Vaqidi, *əl-Məğazi*, II, 669; İbn Sə'd, *ət-Təbəqat*, VIII, 121; İbn Kəsir, *əl-Sirə*, IV, 645.

bağça işlərindən yaxşı başımız çıxar. İstəyirsənsə bu məhsuldar torpaqları bizə kirayə ver. Bu torpaqlarda işləyək və yığılan məhsulun yarısını sənə verək!" deyə təklif etdilər. Sevgili Peyğəmbərimizin və səhabilərin əkin-biçin işləri ilə məşğul olmaq üçün vaxtları yox idi. Onlar İslam dinini yaymaq üçün əlləşir, cihad fi səbilillah üçün gecə-gündüz dayanmadan çalışırdılar. Bu təklif Cənabi Peyğəmbərimizin xoşuna gəldi və; "Sizi istədiyimiz zaman çıxartmaq şərti ilə!" buyurdu. Yəhudilər bunu qəbul etdilər və Xeybər torpaqlarında işləməyə başladılar.[299]

Cənabi Peyğəmbərimiz Əshabı ilə, qalib gələrək Mədinəyə qayıtdılar. Bu müddətdə, daha əvvəl Həbəşistana hicrət edən Əshabının Cə'fər ibn Əbi Talıb başçılığında gəldiklərini görüncə çox sevindi. Həzrəti Cə'fərin alnından öpüb, bağrına basdı və; "Mən Xeybərin fəthinə, yoxsa Cə'fərin gəlişinə sevinim görəsən? Sizin hicrətiniz iki dəfədır. Siz, həm Həbəş ölkəsinə, həm də yurduma hicrət etdiniz" buyurdu.

Xeybərdə əldə edilən qənimətlər Hüdeybiyyə müqaviləsində iştirak edən bütün Əshabi kirama, Xeybərdə iştirak edənlərə, Həbəşistandan hicrət edən Əshaba və fəthdə iştirak edən Devs qəbiləsinə bölüşdürüldü.[300]

Xeybərin fəth edilməsi ilə Ərəbistandakı bütün yəhudilər, Cənabi Peyğəmbərimizin əmri altına girmiş oldular. Artıq, müşriklərə yardım etmə imkanları qalmamışdı. Ətrafda yerləşən qəbilələr və dövlətlər də silah və əsgər cəhətindən fəth edilməsi imkansız kimi görünən Xeybər qalasını alan müsəlmanların böyük bir gücə sahib olduğunu başa düşdülər və bu İslam dövlətindən qorxmağa başladılar. Məkkəli müşriklər Xeybərin fəthi ilə böyük bir üzüntüyə və ümidsizliyə düşdülər. Bu fəthdən sonra, həm böyük, həm də kiçik bir çox qəbilə, müsəlman olmaq üçün Mədinəyi münəvvərəyə gəldilər və Əshabi kirama qoşulmaqla şərəfləndilər. Hətta Qatafanlılar belə müsəlmanlığı qəbul etdilər... Yola gəlməyən bəzi qəbilələr isə hərbi dəstələr göndərilərək itaət altına alındılar.

---

[299] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, II, 157; İbn Hişam, *əs-Sirə*, II, 641; İbn Əbi Şeybə, *əl-Musannəf*, IV, 377; Heysəmi, *Məcməuz-Zəvaid*, I, 205.
[300] İbn Sə'd, *ət-Təbəqat*, I, 353.

## UMRƏTUL-QƏZA SƏFƏRİ

Hüdeybiyyə sülhünün üzərindən bir il keçmişdi. Qurban Bayramına bir ay qalmış, Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Əshabi kiramına umrə üçün hazırlıq görmələrini əmr etdi. Umrəyə, Hüdeybiyyəyə gedib Bey'əti Rizvanda iştirak edənlər və vəfat edənlər xaricindəki müsəlmanlar gedəcəkdilər. Bu əmrin verilməsindən sonra, iki min səhabi hazırlandı. Qurban edilmək üçün yetmiş dəvə də götürüldü. Bunların Məkkəyə qədər otarılaraq aparılması üçün, Naciyə ibn Cündübə və dörd dostuna vəzifə verildi. Ayrıca, Məhəmməd ibn Məsləmə Həzrətlərinin əmri altına yüz süvari verilərək zireh, nizə, qılınc kimi döyüşdə istifadə olunacaq silahları aparmaq üçün qabaqcadan göndərildi. Müşriklərə e'tibar edilməzdi. Hər hansı bir hücum əsnasında bu silahlardan istifadə ediləcəkdi. Əshabi kiramdan bəziləri; "Ya Rəsulallah! Hüdeybiyyə sülhünə görə, umrəyə, ancaq qılınclarla getmək lazımdır!" dedilər. Aləmlərin sahibi; "Biz, bu silahları Hərəmə, Qureyşlilərin yanına aparmayacağıq. Ancaq bu silahlar, Qureyşlilərin bizə hücum edə biləcəyi ehtimalını nəzərə alaraq yaxınlığımızda, əlimiz çatan yerdə saxlanacaqdır" buyurdu.

Mədinəyi münəvvərəyə vəkil olaraq Əbu Zərril-Ğifari qoyuldu. [301] Əbu Ruhmul-Ğifarinin də qoyulduğu rəvayət edilmişdir. İki min səhabi, sevgili Peyğəmbərimizlə birlikdə Məkkəyə tərəf yola düşdülər. Əshabi kiram çox həyəcanlanmışdı. Allah Təala yolunda, sevgili Peyğəmbərimiz uğrunda illərdir ki, görmədikləri evlərini, həyət-bacalarını tərk etdikləri el-obalarını görəcəkdilər... Beş vaxt namazda üzlərini çevirdikləri Kə'bəyi müəzzəməni ziyarət edəcəkdilər... Müsəlman olub, ancaq razılaşmaya görə Mədinəyə gələ bilməyən qohumlarına qovuşacaqdılar. İllərdir ki, onlara gözlərindən yaş yerinə qan axıdan, zülm edən, bütlərinə sitayiş etməyə məcbur edən, bir çox qardaşını şəhid edən Qureyşli müşriklərə, İslamın heysiyyət və şərəfini göstərəcəkdilər. Bəlkə bunu görən müşriklərin qəlbinə İslam sevgisi düşər və müsəlman olardılar!

Mədinədə qalanlar Vəda yoxuşuna qədər Aləmlərin sahibini təkbirlərlə təşyi edib, yola saldıqdan sonra dala qayıtdılar...

---

[301] İbn Hişam, *əs-Sirə*, I, 434; II, 289; Vaqıdi, *əl-Məğazi*, I, 8; İbn Sə'd, *ət-Təbəqat*, II, 59; Makrizi, *İmtaul-Əsma*, I, 74, 128, 193, 197; Kəttani, *ət-Təratibul-İdariyyə*, I, 484-486.

Sevgili Peyğəmbərimiz, Mədinəyə təxminən on kilometr uzaqda yerləşən Zulhuleyfəyə çatınca, ehrama büründü. Şanlı Səhabilər də Onu təqlid etdilər. Hamı ağ rəngə bürünmüşdü. Umrə etmək üçün Məkkəyi mükərrəmə səfəri başlamışdı. Artıq; "Ləbbeyk! Allahummə Ləbbeyk! Ləbbeyk! La şərikə ləkə ləbbeyk! İnnəl-həmdə vənni'mətə ləkə vəlmülkə, la şərikə lək" sədalarıyla yer-göy lərzəyə gəlirdi. Səfər, Allah Təalaya həmd etmək və yalvarmaqla, Onun mübarək adını zikr etməklə çox zövqlü keçirdi.

Qabaqda gedən Məhəmməd ibn Məsləmə komandanlığındakı dəstə Məkkəyə yaxınlaşınca Qureyşli müşriklər tərəfindən görüldü. Qorxa-qorxa yaxınlaşıb, biz bir il əvvəl belə razılığa gəlmişdik məgər deyirlərmiş kimi; "Bu nə işdir?" deyə soruşdular. Məhəmməd ibn Məsləmə onlara qanını donduran bu cavabı verdi; "Bunlar, Allah Təalanın Rəsulunun süvariləridir... Allah Təala izin versə, sabah onlar da buraya təşrif edəcəklər!" Müşriklər qorxa-qorxa geri qayıdıb xəbəri Məkkəyə çatdırdılar. Məkkəli müşriklər də; "And içirik ki, biz razılaşmaya sadiq qaldıq. Daha Məhəmməd bizimlə nə üçün döyüşsün ki?" deyirdilər. Vaxt itirmədən Cənabi Peyğəmbərimizlə görüşmək üçün bir hey'ət göndərdilər.

Bu əsnada Aləmlərin sahibi (səlləllahu əleyhi və səlləm), Məkkəni görə biləcəkləri Bətni Yəcəc deyilən yerə gəlmişdilər. Qılıncdan başqa bütün silahlarını burada qoydular. Silahlarına nəzarət etmək üçün də iki yüz səhabini növbətçi qoydular.

Bu hazırlıqlar görülüncə, Qureyş hey'əti Cənabi Peyğəmbərimizlə görüşmək və hüzura qəbul edilmək üçün icazə istədi. Qəbul edilincə; "Ya Məhəmməd! Hüdeybiyyə razılaşmasından bəri sizə qarşı hər hansı bir xəyanətimiz olmamışdır. Buna baxmayaraq Məkkəyə, qövmünün yanına bu silahlarla girəcəksən? Halbuki, razılaşmaya görə, qınına salınmış qılıncdan başqa bir silah götürməməliydiniz!" dedilər. Buna, Aləmlərin sahibi; "Mən, uşaqluğumdan bu günə qədər verdiyim sözü tutmaqla və e'tibarlılığımla tanınırım. Hərəmə, qınına salınmış qılınclarımızdan başqa bir silahla girmərik. Ancaq, silahların mənə yaxın bir yerdə olmasını istəyirəm" buyuraraq cavab verdi. Hey'ət, onlara verilən xəbərin yalan olduğunu başa düşərək, rahat oldular və; "Ya Məhəmməd! Doğrusu səndən həmişə vəfakarlık və yaxşılıq gördük. Sənə layiq olan da elə budur" deyərək dala qayıtdılar. Məkkəyə gəlib vəziyyəti Qureyşlilərə çatdırdılar. Onlar da rahat nəfəs aldılar.

Qureyşin başda gələnləri, kin və qısqanclıqlarından, Cənabi Peyğəmbərimizin və Əshabının bu məs'ud anlarını görməmək üçün Məkkəni tərk edərək dağlara çıxdılar.

Sevgili Peyğəmbərimiz, işarə qoyulmuş qurbanlıq dəvələri qabaqcadan Zituva mövqeyinə göndərdi. Sonra, Əshabıyla hazırlıq görüb müqəddəs Məkkə şəhərinə girmək üçün yola düşdülər. Əshabi kiram, Aləmlərin sahibinin ətrafında dairə qurmuşdular. Kainatın hökmdarı dəvəsi Qusvaya minərək minlərlə ulduza işıq verən bir günəş kimi ətrafına nur saçırdı. Aman ya Rəbbi! O nə gözəllikdir! O, nə gözəl mənzərəydi! Dillərdə; "Ləbbeyk! Allahummə Ləbbeyk! Ləbbeyk! La şərikə ləkə Ləbbeyk!" sədaları, könüllərdə Allah Təala və Rəsulunun məhəbbəti vardı. Addım-addım müqəddəs Kə'bəyə tərəf irəliləyirdilər. Yaxınlaşdıqça həyəcanları qat-qat artır, sanki coşurdular. Hamısının bir ağızdan dediyi təlbiyə sədaları Məkkədə əks-səda verir, müşriklər bu mənzərəni gördükcə qanları qaralır, ürəklərinə qurtum-qurtum bir məhəbbət şərbətinin axdığını hiss edirdilər. Bir çoxlarının qəlbinə, İslamın sevgisi düşmüşdü. Nəhayət ki, Məhəmməd əleyhissalam qalib gəlmişdi...

Budur, sevgili Peyğəmbərimiz və şanlı Əshabı bellərində qılıncları bağlanmış halda Kə'bəyə girirdilər. Cənabi Peyğəmbərimizin dəvəsi Qusvanın yüyənini Abdullah ibn Rəvaha Həzrətləri tutmuşdu. Məkkəli bəzi müşriklər, qadınlar və uşaqlar Darun-Nədvədə dayanmış, sevgili Peyğəmbərimizi və qəhrəman Əshabını seyr edirdilər. Abdullah ibn Rəvaha irəlilədikcə, bu beytləri müşriklərin başına elə bil bir gürz kimi vurur, onları mə'yus edirdi;

Ey kafirlər çəkilin, Peyğəmbərin yolundan,
Ki Allah Təala, Ona göndərdi Qur'an.
Hər xeyir və yaxşılıq vardır Onun dinində,
Bu din üçün ölməkdir, ən xeyirli ölüm də.
Həqiqət Rəsulullahdır, qəbul etdim ürəkdən,
Hər sözünə inandım, qəbul etdim indi mən.
Ey kafirlər! Qur'anın, Allah Təaladan,

Endiyini siz inkar elədiyiniz zaman,

Necə endirdik isə, zərbələri anidən,

və necə qopartdıqsa, başınızı bədəndən.

Onun mənasına da inanmasanız əgər,

Enər eyni şəkildə başınıza zərbələr.

Başlarım O Allahın, mübarək adıyla ki,

Yoxdur Onun dinindən, başqa dini həqiqi.

və yenə başlaram ki, adıyla O Allahın,

Məhəmməd həm qulu və həm rəsuludur Onun.

Həzrəti Ömər dözə bilməyib; "Ey İbni Rəvaha! Sən, Rəsulullahın qabağında və Hərəmi şərifdə necə şe'r oxuya bilirsən ki?" deyə xatırlatmaq istəmişsə də, Cənabi Peyğəmbərimiz; "Ey Ömər! Ona mane olma. Allah Təalaya and içirəm ki, onun sözləri, bu Qureyş müşriklərinə ox yağdırmaqdan daha ağır, daha çox tə'sirlidir. Ey İbni Rəvaha davam et" buyurdu. Cənabi Peyğəmbərimiz bir az sonra Abdullah ibn Rəvaha Həzrətlərinə; "Allah Təaladan başqa ilah yoxdur! Bir olan Odur! Və'dini həyata keçirdən Odur! Bu quluna yardım edən Odur! Əsgərlərini gücləndirən Odur! Toplanmış olan qəbilələri, tari-mar edən də yalnız Odur! de!" buyurdu. Abdullah ibn Rəvaha da;

*"Allah Təaladan yoxdur,*

*Başqa bir ilah!*

*Yoxdur Onun şəriki,*

*La ilahə illallah!*

*Odur müsəlmanların,*

*Əsgərinə güc verən!*

*və Odur kafirləri,*

*Dağıdan, məğlub edən!"*

deyə şe'r demeyə başladı. Müsəlmanlar da bu sözləri təkrar edirdilər.

Sevgili Peyğəmbərimiz Beytullaha girincə, mübarək sağ çiynini açdı. Mübarək bədəninin gözəlliyi gözləri qamaşdırır, könülləri cəzb edirdi. Sonra; "Bu gün, bu şirk əhalisinə özünü güclü və hərəkətli göstərəcək igidlərə, Allah Təala rəhməti ilə hökm versin!" buyurdu. Bundan sonra Əshabi kiram sağ çiyinlərini açıb, heybətli bir şəkildə sür'ətlə yeriyərək Kə'bəni üç dəfə təvaf etdilər. Ancaq, Rukni Yəmani ilə Həcəruləsvədin tini arasında yavaş-yavaş yeridilər. Cənabi Peyğəmbərimiz və Əshabı Həcəruləsvədə yaxınlaşaraq onu öpür vəya arxadan əllərini açıb Həcəruləsvədə tərəf tuturdular.

Müşriklər arxadan Əshabı tə'qib edir, onların bu heybətli və göstərişli yerişlərinə çaşıb qalırdılar. Çünki, onlara müsəlmanların Mədinəyə getdiklərindən sonra zəif və xəstə olduqları deyilmiş və buna bənzər xəbərlər yayılmışdı. İndi isə, tam tərsinə şahid olduqları üçün heyrət edirdilər.

Daha sonrakı dörd təvaf isə yavaş-yavaş, ahəstə addımlarla yeriyərək tamamlandı. Təvafdan sonra, Məqami İbrahimdə iki rük'ət namaz qıldılar. Daha sonra, Səfa ilə Mərvə təpələri arasında yeddi dəfə sə'y etdilər. Qurbanlar kəsildikdən sonra, Cənabi Peyğəmbərimiz mübarək başını qırxdırdı. Mübarək saçları yerə düşmədən qabaq havadaca tutuldu. Əshabi kiram da saçlarını qırxdırdılar. Beləcə Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm) tam bir il əvvəl gördüyü röya həqiqətə çevrildi.

Umrə ziyarəti tamamlanmış, zöhr namazının vaxtı girmişdi. Aləmlərin sahibi Həzrəti Bilala, Kə'bədə əzan oxumasını əmr edincə, Bilali Həbəşi dərhal əmri yerinə yetirdi. O, Kə'bədə əzanı şərifi oxuyarkən, bütün Məkkə çalxalanmağa başladı. Əshabi kiram böyük bir sükunət içində əzana qulaq asır, dodaqlarının altında zümzümə edərək onu təkrar edirdilər. Qurtarınca, Həbibullah imam oldu. Hamısı birlikdə qıldığı zöhr namazının müşriklərin qəlbindəki tə'siri bambaşqa idi.

Sevgili Peyğəmbərimizə Əbtahda dəridən bir çadır qurulmuşdu. Səhabilər də ətrafındakı çadırlarda üç gün qaldılar. Namaz vaxtlarında Beytullahda toplaşır, camaatla namazlarını qılırdılar. Digər vaxtlarda isə qohum-əqrabalarını ziyarət edir, İslamın onlara bəxş etdiyi gözəl əxlaqla onlara nümunə olurdular. Onlar da, Əshabın bu gözəl davranışları qarşısında sanki əriyir, heyranlıqlarını gizlədə bilmirdilər. Bu üç gün ərzində, Məkkə sanki içəridən fəth edilmişdi.

Üç gün dolmuşdu... Artıq ayrılıq zamanı gəlmişdi. Axşama yaxın Cənabi Peyğəmbərimiz; "(Umrə üçün gələn) müsəlmanlardan heç kim, axşamı Məkkədə qalmayacaq, yola düşəcəkdir!" buyurunca, hamı hazırlanıb əşyalarını topladı və Mədinəyə tərəf yola düşdülər...

*Nə dövlətdir yumub eşqinlə göz, rahında can vermək*
*Nəsib olmaz mı Hökmdarım hərəmgahında can vermək.*
*Sönərkən gözlərim asan olar ahında can vermək,*
*Camalınla fərahnak et ki, yandım ya Rəsulallah.*

*Boyun büküdüm, pərişanam, bu dərdin səndə tədbiri*
*Ləbim qovruldu atəşdən dönər payində təzkiri.*
*Nə dəm könlüm murad eylərsə təltif eylə Qıtmiri,*
*Camalınla fərahnak et ki, yandım ya Rəsulallah.*

# MUTƏ QƏZVƏSİ

Aləmlərə rəhmət olaraq göndərilən Həbibi əkrəm (səlləllahu əleyhi və səlləm) Məkkəyə umrə üçün getdiklərində, Əshabından Vəlid ibn Vəlid Həzrətlərinə; "Xalid haralardadır? Onun kimi birinin İslamiyyəti tanımaması, bilməməsi mümkün deyil. Kaş ki, O, bütün güc və qəhrəmanlıqlarını müsəlmanlarla birlikdə müşriklərə qarşı göstərsəydi. Onu sevər, üstün tutardıq" buyurmuşdu. Vəlid ibn Vəlid, daha əvvəl də böyük qardaşına vaxtaşırı məktub yazar, müsəlman olmasını təşviq edərdi. Cənabi Peyğəmbərimizin bu mübarək sözlərini də eşidincə, İslamiyyətə olan meyli getdikcə artdı. Umrə ziyarətinə gedən səhabilər Mədinəyə qayıtmışdılar. Aradan günlər keçmiş, hicrətin səkkizinci ilinə girilmişdi. Xalid ibn Vəlid isə, artıq yerində dayana bilmir, vaxt itirmədən Mədinəyə çatmaq, Aləmlərin sahibinin hüzurunda diz çöküb, müsəlman olmaqla şərəflənmək üçün dəridən-qabıqdan çıxırdı. Özü belə nəql etmişdir ki; "Allah Təala mənə Cənabi Peyğəmbərimizin məhəbbətini ehsan etdi. Qəlbimə İslamın sevgisini yerləşdirdi. Xeyri və şərri ayırd edəcək hala gətirdi. Öz-özümə; "Mən, Məhəmməd əleyhissalama qarşı bütün döyüşlərdə iştirak etdim. Amma hər döyüş yerini tərk edərkən, səhv yolda olduğumu və Onun bir gün mütləq bizə qalib gələcəyini bilir və bu hisslərlə ayrılırdım. Rəsulullah (səlləllahu əleyhi və səlləm), Hüdeybiyyəyə gəldiyi zaman da, düşmən süvarilərinin komandanı idim. Usfanda, müsəlmanların bizi görə biləcəkləri yerə qədər yaxınlaşdım. Rəsulullah, bizdən arxayın bir şəkildə, Əshabına zöhr namazını qıldırırdı. Onlara qəfildən hücum etmək istədik, amma mümkün olmadı. Belə olması da xeyirli oldu. Rəsulullah, ürəyimizdən keçənləri yəqin ki, başa düşmüşdü. Ona görə də əsr namazını təmkinlə qıldılar.

Bu vəziyyət mənə çox tə'sir etdi. Bu zat hər halda, Allah tərəfindən qorunur, dedim və ordan çıxıb getdik. Mən, ağlımdan cürbəcür fikirlər keçirdərkən, Məhəmməd əleyhissalam umrə üçün Məkkəyə gəlincə, Ona görünmədim. Qardaşım Vəlidlə birlikdə gəlmiş, ancaq məni tapa bilməmişdilər. Qardaşım belə bir məktub göndərmişdi ki; "Bismillahirrəhmanirrəhim! Allah Təalaya Həmdü səna və Rəsulullaha səlatu salamdan sonra deyirəm ki, həqiqətən mən, sənin İslamiyyətdən üz döndərib getməyin qədər tə'əccüb ediləcək şey bilmirəm.

Halbuki, getdiyin yolun səhv olduğunu başa düşməyəcək qədər aciz deyilsən. Niyə ağlınla ölçüb-biçmirsən? İslamiyyət kimi bir dini tanıyıb başa düşməməyin nə

qədər də qəribədir! Cənabi Peyğəmbərimiz, məndən səni soruşdu. Sənin, İslamiyyəti tanıyıb, güc və qəhrəmanlığını müsəlmanlarla birlikdə, müşriklərə qarşı istifadə etməyini arzu edir. Ey qardaşım! Çox fürsəti qaçırtdın, artıq daha çox gecikmə!”.

Qardaşımın məktubu mənə çatınca, müsəlman olmaq arzusu məndə daha da artdı. Getmək üçün tələsirdim. Rəsulullahın söylədikləri məni çox sevindirmişdi. O gecə yatarkən, yuxumda qorxulu, dar və səhra kimi susuz yerlərdən, yamyaşıl, geniş və düz bir yerə çıxmışdım. Mədinəyə çatınca, bu röyamı Həzrəti Əbu Bəkirə danışıb, tə’bir etməyini ondan xahiş etməyə qərar verdim.

Mən, Rəsulullahın yanına getmək üçün hazırlaşarkən; “Görəsən, ora gedərkən mənə kim yoldaşlıq edə bilər?” deyə düşünürdum. Bu dəmdə Səfvan ibn Umeyyəyə rast gəldim. Vəziyyəti ona başa saldım. Təklifimi rədd etdi. Daha sonra İkrimə ibn Əbu Cəhlə rast gəldim. O da rədd edincə evimə getdim. Miniyimə minib, Osman ibn Təlhənın yanına getdim. Ona da müsəlman olmaq üçün Rəsulullahın yanına gedəcəyəmi və mənə yoldaşlıq etməsini söylədim. Tərəddüd etmədən qəbul etdi və ertəsi günü səhər vaxtı birlikdə yola çıxdıq. Həddə deyilən yerə çatdığımızda, Əmr ibn As ilə qarşılaşdıq. O da müsəlman olmaq üçün Mədinəyə gedirdi.

Mədinəyə çatdıq. Qəşəng paltarlarımdan geyinib Rəsulullahla görüşməyə hazırlandım. O əsnada qardaşım Vəlid gəldi və; “Tələs, çünki Cənabi Peyğəmbərimizə sizin gəldiyiniz xəbər verilmiş, O da çox sevinmişdir. İndi sizi gözləyir” dedi. Tələm-tələsik, O uca Peyğəmbərin hüzuruna getdim. Gülümsəyirdi. Salam verdim; “Allah Təaladan başqa ilah olmadığına və sənin də Allah Təalanın Peyğəmbəri olduğuna şəhadət edirəm” dedim. “Sənə hidayət verən, doğru yolu göstərən Allah Təalaya həmd olsun” buyurdu. Sonra günahlarımın bağışlanması üçün Allah Təalaya dua etməsini istədim. Mənim üçün dua etdi və; “İslamiyyət, daha əvvəl görülmüş olan günahları kəsib atar” buyurdu. Digər iki yoldaşım da müsəlman oldular.[302]

Beləcə, Məkkənin ən igidlərindən, məqsədləri uğrunda canlarını verməkdən zərrə qədər çəkinməyən bu üç pəhlivan, könüllərindən gələn bir səmimiyyətlə Rəsuli əkrəmin hüzurunda Əshabi kiramdan olmaqla şərəflənmişdilər. Artıq, bütün gücləriylə küfrü məhv etmək üçün çalışacaqdılar. Onların müsəlman olmalarına, səhabilər çox sevinmiş, sevinclərini; “Allahu əkbər!” deyə təkbirlərlə ifadə etmişdilər.

---

[302] Beyhəqi, *Dəlailun-Nübüvvə*, IV, 455; İbn Əsakir, *Tarixu Dəməşq*, XVI, 228.

Hicrətin səkkizinci ilində, aləmlərə rəhmət olan Sərvəri kainat (əleyhi əfzəlüs sələvat), İslamiyyətin yayılması üçün yenə müxtəlif qəbilələrə, dövlətlərə elçilər göndərdi. Bunların bəzilərindan müsbət cavablar gəlmiş, ancaq Busra valisinə göndərilən Haris ibn Umeyr Həzrətləri, Şamın Bəlqa nahiyəsinin Mutə kəndində xristiyan əsgərləri tərəfindən tutulub saxlanmışdı. Şam valisi Şurahbil ibn Əmrin yanına aparılan Həzrəti Haris, elçi olduğu halda alçaqca qətl edilib, şəhid edilmişdi.[303]

Bu xəbərə sevgili Peyğəmbərimiz çox üzülmüş və dərhal qəhrəman Əshabının toplanmasını əmr etmişdi. Bu əmri alan səhabilər, uşaqlarıyla halallaşıb tələm-tələsik Curf ordugahında toplaşdılar. Həbibi əkrəm zöhr namazını qıldırdıqdan sonra; "Cihada çıxacaq olan bu insanlara, Zeyd ibn Harisəni komandan tə'yin etdim! Zeyd ibn Harisə şəhid olarsa, yerinə Cə'fər ibn Əbi Talıb keçsin. Cə'fər ibn Əbi Talıb şəhid olarsa, Abdullah ibn Rəvaha keçsin. Abdullah ibn Rəvaha da şəhid olarsa, müsəlmanlar aralarında münasib birini seçsin və onu özlərinə komandan tə'yin etsin!" buyurdu. Bundan sonra Əshabi kiram, adları sadalanan qəhrəmanların şəhid olacağını başa düşərək ağlamağa başladılar; "Ya Rəsulallah! Kaş ki, onlar sağ qalsalar və onlardan istifadə etsək!" dedilər. Cənabi Peyğəmbərimiz onlara cavab vermeyib susdu.[304]

Bunları, orda olan Həzrəti Zeyd, Cə'fər və Abdullah da eşitmiş və böyük bir sevincə qərq olmuşdular. Çünki, ən böyük məqsədləri Allah Təalanın dinini yayarkən şəhid olmaqdı. Artıq müjdə verilmiş və bunu bilavasitə öz qulaqları ilə eşitmişdilər. Mücahidlər hazırlıqlarını görmüş, komandanlarını gözləyirdilər. Sevgili Peyğəmbərimiz, ağ İslam bayrağını Zeyd ibn Harisə Həzrətlərinə verdi. Ona, Haris ibn Umeyrin şəhid edildiyi yerə qədər getməsini və İslamı də'vət etməsini əmr etdi. Qəbul etməsələr düşmənlə döyüşməsini əmr etdi.

Abdullah ibn Rəvaha Həzrətləri, yanındakı komandan dostlarıyla birlikdə xudahafizləşdiyi əsnada ağladı. Ona; "Ey Rəvahanın oğlu! Nə üçün ağlayırsan?" deyə soruşdular. Şair olan Abdullah ibn Rəvaha;

*"Ağlamağın səbəbi,*
*deyil dünya sevgisi,*
*və deyildir vallahi,*

*"Heç bir şübhə yoxdur, bilin ki,*
*sizlərin içinizdən*
*Heç bir kəs yoxdur ki,*

---

[303] Vaqidi, *əl-Məğazi*, II, 756; İbn Sə'd, *ət-Təbəqat*, II, 128; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 336; İbn Əsakir, *Tarixu Dəməşq*, XI, 464.

[304] Buxari, "Məğazi", 46; Vaqidi, *əl-Məğazi*, II, 756-758; İbn Sə'd, *ət-Təbəqat*, II, 128-130.

*Özləyəcəyəm sizi.*

*Əsl səbəb budur ki,*
*Qur'ani Kərimində,*
*Belə buyurmaqdadır,*
*Rəbbimiz bir ayətdə;*

*keçməsin Cəhənnəmdən..."*

*Eşitdim bu ayəti,*
*Rəsulullah oxuyarkən,*
*Cəhənnəmə düşərsəm,*
*necə səbr edərəm mən!"*

dedi. Dostları; "Allah Təala səni, sevgili qullarından etsin, salihlərdən olasan!" deyə dua etdilər. Sonra Abdullah ibn Rəvaha Həzrətləri; "Ancaq mən, Allah Təaladan bağışlanmağımı istəyirəm. Bir də, qanları fışqırdıb axıdan bir qılınc zərbəsiylə vəya ciyər və bağırsaqlarımı bir-birinə qarışdıran bir nizənin batmasıyla şəhid olmaq istəyərdim!" dedi. Ordu getməyə hazırlandığı əsnada, Həzrəti Abdullah ibn Rəvaha, Cənabi Peyğəmbərimizin yanına gəlib xudahafizləşdikdən sonra; "Ya Rəsulallah! Mənə əzbərləyəcəyim və heç yadımdan çıxartmayacağım bir şey tövsiyə edərsən?" dedi. Cənabi Peyğəmbərimiz ona; "Sən, sabah Allah Təalaya çox az səcdə edilən bir ölkəyə gedəcəksən. Orda səcdələri, namazları çoxalt" buyurdu. Abdullah ibn Rəvaha; "Ya Rəsulallah! Mənə, daha çox nəsihət edin!" deyincə, sevgili Peyğəmbərimiz; "Allah Təalanı həmişə zikr et. Çünki, Allah Təalanı zikr etmək, məqsədinə nail olmağa həmişə kömək olar" buyurdu.

Üç min nəfərlik İslam ordusu; "Allahu əkbər! Allahu əkbər!" sədaları altında yola düşməyə başladı. Sevgili Peyğəmbərimiz və Mədinədə qalan səhabilər, mücahid qaziləri Vəda təpəsinə qədər yola saldılar. Burda Aləmlərin sahibi, mübarək İslam ordusuna belə xitab etdi; "Mən sizə, Allah Təalanın əmrlərini yerinə yetirib, qadağalarından çəkinin, yanınızdakı müsəlmanlara qarşı xeyirli olmanızı və onlara yaxşı davranmanızı tövsiyə edirəm. Allah Təalanın yolunda, Onun adını anaraq döyüşün. Qənimət alınan mallara xəyanət etməyin. Əhdə vəfasızlıq etməyin. Uşaqları öldürməyin. Orda xristiyanların kilsələrində, insanlardan uzaq qalıb özlərini ibadətə həsr etmiş bəzi adamlar görəcəksiniz. Onlara toxunmayın! Onların xaricində, başlarında şeytanların yuva qurduğu bəzilərinə də rast gələcəksiniz ki, onların başlarını qılıncınızla kəsib qopardın. Siz, qadınları, qocaları öldürməyin. Ağacları yandırmayın və kəsməyin. Evləri də yıxmayın!".

Baş komandan Zeyd ibn Harisəyə də; “Müşriklərdən düşmənlə qarşılaşdığın zaman, onları üç şeydən birinə də’vət et! (Əgər müsəlman olsalar) onları, muhacirlər yurdu olan Mədinəyə hicrət etməyə də’vət et! Də’vətini qəbul etsələr, muhacirlərin sahib olduqları haqlara onların da sahib olacaqlarını və onların mükəlləf olduqları vəzifələrlə özlərinin də mükəlləf olacaqlarını bildir. Şayəd, müsəlman olub ölkələrində qalmaq istəsələr, müsəlmanlardan köçəri Ərəblər kimi olacaqlarını və onlar haqqında verilən ilahi hökmün, özləri üçün də veriləcəyini, müharibə qənimətlərindən onlara bir pay ayrılmayacağını və qənimətdən ancaq müsəlmanlarla birlikdə döyüşənlərin faydalanacağını de!

Əgər İslamı qəbul etməsələr, onları cizyə vermeyə də’vət et! Aralarında bunu qəbul edənlərə toxunma! Cizyə vermeyi də qəbul etməsələr, Allah Təalanın yardımına sığınaraq onlarla döyüş! “ buyurdu.

Bu nəsihətlərdən sonra mücahidlərlə xudahafizləşdi. İslam ordusu, təkbir sədalarıyla ayrıldı. Arxada qalanlar, gedənlərə əl sallayıb; “Allah Təala sizi hər cür təhlükədən qorusun, yenə sağ-salamat dala qaytarsın...” deyə dua edirdilər. Üfüqdə gözdən itənə qədər, yaşlı gözlərlə arxalarından qibtə ilə baxdılar...

Zeyd ibn Harisənin əlindəki müqəddəs bayraq dalğalanır, mücahidlər ucu-bucağı bilinməyən uzun bir səfərə Allah Təalanın dininə xidmət üçün gedirdilər. İslam ordusu, sür’ətlə Suriyaya tərəf irəliləyirdi. Səfər sakit və gözəl keçirdi. Mücahidlər, düşmənlə üzbəüz gəlməyi səbirsizliklə gözləyirdilər. Şəhidliyi istəyənlərin içində ən arzulu olanlardan biri də Abdullah ibn Rəvaha Həzrətləriydi. Bunu Zeyd ibn Ərkam belə nəql etmişdir ki; “Mən Abdullah ibn Rəvahanın tərbiyəsi altında boya-başa çatmış bir yetim idim. O, Mutə səfərinə çıxdığında məni də dəvəsinin belinə mindirmişdi. Gecə vaxtı bir müddət gedincə, dodaqlarından bu beytlər tökülürdü.

*“Ey dəvəm! qumluqdakı,*
*quyuya əgər məni,*
*Ordan da dörd düşərgə,*
*apararsan irəli.*

*Çıxartmaram artıq səni,*
*bundan başqa səfərə,*

*Son düşərgədə mö’minlər,*
*keçdi məni sür’ətlə,*
*Ey Rəvahanın oğlu,*
*ən yaxınların belə,*

*Qardaşlıq bağlarını,*
*qopararaq keçdilər,*

*Sahibsiz qalacaqsan,*
*az sonra, ona görə.*

*Səni Haqq Təalaya*
*tərk edərək getdilər.*

*Mən hər halda evimə,*
*dala qayıtmayacam.*
*Umuram ki, bu müharibədə,*
*mən şəhid düşəcəyəm.*

*Artıq düşünmürəm,*
*arxada nə malım var? ,*
*Heç vecimə deyil,*
*Ağaclarla xurmalar!”*

Bunları eşidincə, ağladım. Abdullah ibn Rəvaha məni yavaşca qamçısıyla vuraraq; “Ey yaramaz! Sən niyə ağlayırsan? Belə deməyimin sənə nə zərəri var? Allah Təala, mənə şəhidlik nəsib etsə sən də miniyə minərək dala qayıdıb, öz el-obana çatarsan. Mən isə dünyanın bütün dərdlərindən, şübhə və kədərlərindən, hadisələrindən xilas olar, rahatlıq taparam” dedi. Miniyindən düşüb iki rük’ət namaz qıldı. Axırda uzun bir dua etdikdən sonra mənə; “Ey uşaq!” deyə səsləndi. “Buyur” dediyimdə; “Bu səfərdə inşallah şəhidlik nəsib olacaqdır!” dedi.

Qəhrəman səhabilər, Suriyaya yaxınlaşarkən Şam valisi Şurahbil ibn Əmr, İslam ordusunun yaxınlaşmaqda olduğunu çoxdan xəbər tutmuşdu. Dərhal Bizans Qeysəri Heraklı vəziyyətdən agah edib, böyük bir ordu alaraq rahat nəfəs almışdı. Çünki, kəşfiyyat məlumatlarına görə, müsəlmanlar vur-tut üç-beş min nəfər idi. Buna baxmayaraq öz ordusu, yüz mindən çoxdu. Silahların isə sayı-hesabı yoxdu.

Əshabi kiram (Allah onlardan razı olsun), Şam torpaqlarından Muana çatdıqları əsnada, Bizanslıların yüz min nəfərlik bir ordu ilə üzərlərinə gəldiklərini öyrəndilər. Orda düşərgə salıb iki gecə qaldılar. Komandan Zeyd ibn Harisə Həzrətləri, dostlarını yığıb vəziyyəti bildirdi. Bizans ordusuna qarşı nə etmək lazım gəldiyi haqqındakı görüşlərini soruşdu. Səhabilərdən bəziləri; “Bizans ordusuyla üzbəüz gəlməmişdən qabaq, ölkələrinə qəflətən basqınlar təşkil edək. İnsanlarını əsir alıb Mədinəyə qayıdaq”. Bəziləri də; “Rəsul əleyhissəlama məktub yazıb, düşmənin sayısını xəbər verək. Bizə vaxt itirmədən əsgər göndərməsini vəya nə etməyimiz lazım olduğunu soruşaq” deyirdilər. İkinci təklifin daha münasib olduğuna qərar verdikləri əsnada, Abdullah ibn Rəvaha Həzrətləri sözə müdaxilə edərək;

*“Ey Qövmüm nə səbəbdən, tərəddüd edirsiniz?*

*Şəhid olmaq qəsdiylə, cəngə gəlmədikmi biz?*

*Silahca, süvaricə çoxluq olduğumuzdan,*

*Dolayı döyüşmədik, kafirlərlə heç bir an.*

*Allah Təalanın, bizə ehsan etdiyi,*
*Bu din qüvvəti ilə, döyüşdük aslan kimi.*

*Gedin, döyüşün, heç bir şübhə yoxdur ki, yaxşılıq var,*

*Bu işin nəticəsi, ya şəhadət ya qələbə.*
*Bədr günü vallahi, vardı iki atımız,*
*Ühüddə tək at ilə, çox azdı silahımız.*

*Bu cəngdə qalib gəlmək, varsa əgər qədərdə,*

*Zatən belə və'd etdi, Allah və Peyğəmbər də.*
*Haqq Təala vədindən, donməz əsla geriyə,*
*Ey mö'minlər eləysə, yürüyün irəliyə.*
*Şəhidlik varsa əyər, bizim qədərimizdə,*
*Qovuşarıq Cənnətdə şəhid qardaşlarımızla*".

dedi. Həzrəti Abdullah ibn Rəvahanın bu sözləri, mücahidlərə cəsarət vermişdi. "Vallahi Rəvahanın oğlu düz deyir" dedilər.

Artıq qərar verilmişdi. Şəhid oluncaya qədər döyüşə davam edəcəkdilər. Şanlı səhabilər Mutə adındakı kəndə gəldiklərində yüz min nəfərlik Bizans ordusuyla üz-üzə gəldilər. Dağ-dərə düşmən əsgəri ilə dolmuşdu. Bir tərəfdə Allah Təalanın dinini yaymaq üçün ta Mədinədən çıxıb Şama qədər gələn üç min nəfərlik bir İslam ordusu, digər tərəfdə də İslamı boğmaq üçün toplanan yüz min nəfərlik bir kafir sürüsü vardı... Görünüşdə, bu iki ordunu müqayisə etmək mümkün deyildi. Buna görə, bir müsəlmanın otuzdan çox Bizans əsgəriylə döyüşməsi lazım gəlirdi.

Hər iki tərəf də döyüş vəziyyətini aldılar. Bu əsnada, Cənabi Peyğəmbərimizin (səlləllahu əleyhi və səlləm) əmrinə münasib olaraq İslam ordusundan bir hey'ətin, Bizans ordugahına tərəf irəlilədiyi görüldü. Bunlar Bizans ordusuna İslamı qəbul etmələri, yoxsa cizyə vermələrini təklif etdilər. Ancaq onlar, bu də'vəti rədd etdilər. Artıq, vaxt itirməyin mənası yox idi. Komandan Zeyd ibn Harisə Həzrətləri, əlində müqəddəs İslam bayrağı olduğu halda, ordusuna hücum əmrini verdi. Bu anı gözləyən mücahidlər; "Allahu əkbər!" sədaları altında ox kimi irəli atıldılar. İldırım kimi qılınclarını sıyırıb, fırtına kimi düşmənin içinə daldılar... At kişnərtiləri, qılınc cingiltiləri, təkbir sədaları və vurulanların fəryadları bir-birinə qarışır, hələ döyüşün əvvəlində, meydan qan gölünə çevrilirdi. Şanlı səhabilər hər qılınc vurduqlarında ya bir baş, ya da bir qol qopardırdılar.

Əlində Rəsulullahın ağ bayrağı olan Həzrəti Zeyd, düşmənin ta ortalarında; "Allah Allah" deyərək vuruşurdu. Vurduğu qılınclarla ətrafını bir əsnada açır, düşməni qabağına çıxdığına peşman edirdi. Komandanlarının qəhrəmanca döyüşdüyünü görən şanlı səhabilər, ondan dala qalmır, tək başına otuz düşmənə qılınc vurub onları məğlub etməyə çalışırdılar. Bu dəmdə, bir neçə nizənin eyni vaxtda, komandan Həzrəti Zeydin mübarək sinəsinə vurulduğu görüldü. Digərləri də nizələrini vurmağa başladılar. Şanlı səhabinin bədəni dəlik-deşik olmuşdu. Beləcə, Zeyd ibn Harisə isti torpağa düşdü və çox həsrətini çəkdiyi şəhadət şərbətini içdi.

Zeyd ibn Harisədən sonra Həzrəti Cə'fər dərhal bayrağı əlinə götürdü. İslam bayrağının dalğalandığını görən mücahidlər, təzədən böyük bir həvəslə döyüşə davam etdilər. Həzrəti Cə'fər də, Zeyd ibn Harisə kimi qəhrəmanca döyüşürdü. Bir tərəfdən düşmənə hücum edir, digər tərəfdən də dostlarına cəsarət verirdi. İgidcəsinə döyüşən bu yeni komandan, daha sür'ətli, daha cəld hərəkətlərlə qılınc vurur, düşmənə göz açmağa imkan vermirdi. Həzrəti Cə'fərin döyüşə çox başı qarışdığı üçün, dostlarından bir xeyli qabağa getmişdi. Bizanslıların ortasında tək-tənha döyüşür, hər birinə ayrı-ayrı qılınc vurudu. Ancaq bu gedişin bir qayıdışı olmadığını başa düşməkdə gecikmədi. Qəhrəman komandan; "Mənim vəzifəm, kafirlərin hər birinə qılıncımla vurmaqdır!" deyir, Allah Təalanın mübarək adını dilindən düşürtmür və yorulmaq bilmədən döyüşürdü. Axırda bir düşmən əsgəri Həzrəti Cə'fərin sağ qoluna bir qılınc vurdu. Sağ əli kəsilən Həzrəti Cə'fər, müqəddəs İslam bayrağını sol əliylə yerə düşmədən tutdu. Qaldırıb yenə dalğalandırdı. Yenə bir qılınc zərbəsi... Sol əli də kəsilmişdi. Bu dəfə bayrağı kəsik

qollarının arasında sinəsinə dayayaraq dalğalandırmağa çalışdı. Ancaq, dalbadal vurulan düşmən qılıncları ilə çox həsrətini çəkdiyi şəhadət mərtəbəsinə qovuşdu. Mübarək ruhu Cənnətin ən yüksək mərtəbələrinə uçmuşdu... Bədənində doxsandan artıq qılınc və nizə yarası sayılmışdı.[305]

Komandanlarının şəhid edildiyini görən qəhrəman mücahidlər, yerə düşən İslam bayrağını götürən kimi, Abdullah ibn Rəvaha Həzrətlərinə verdilər. O da, atının üstündə bayrağı dalğalandıraraq düşmənə şiddətlə hücum etdi. Bir tərəfdən qabağına çıxan düşməni vurur, bir tərəfdən də belə deyirdi;

*"Ey nəfsim, mənə boyun əyəcəksən əlbəttə.*
*Bu gün şəhid olaram, and içdim bu döyüşdə.*

*Ya sən özlüyündən, razı olarsan buna,*

*Ya qəbul etdirərəm, bunu mən, zorla sənə.*

*Əgər öldürülməsən, şayəd sən bu döyüşdə,*

*Heç ölməyəcəksənmi, ey nəfsim söylə mənə.*

*Cə'fər ibn Əbi Talıb ve Zeyd ibn Harisənin*
*Etdiyini etsən, bil ki yaxşı edərsən.*
*Onlar şəhid oldular, ey nefsim durma geri,*
*Sonra bədbaxt olarsan, haydı atil irəri".*

Həzrəti Abdullah da; "Allahu əkbər!" sədaları altında düşmənlə amansız bir mübarizəyə girmişdi. Bu dəmdə bir qılınc zərbəsi barmağına dəydi və kəsik barmaq əlində sallanmağa başladı. Allah Təalanın və Rəsulunun eşqiylə yanan bu mübarək komandan, dərhal atından yerə tullandı, döyüşməsinə mane olan yaralı barmağını, ayağının altına qoyub; "Sən sadəcə, yaralı bir barmaq deyilsən məgər? Onsuz da bu aqibətə Allah Təalanın yolunda düçar olmusan!" deyərək dartıb qopartdı. İldırım kimi atının belinə tullanıb, var gücüylə təzədən döyüşməyə başladı. Ancaq, bu qədər

---

[305] Vaqidi, *əl-Məğazi*, II, 756; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 336.

döyüşməsinə baxmayaraq, şəhidlik mərtəbəsinə qovuşamadığı üçün öz-özünü qınamağa başladı... Dayanmadan düşmənə hücum edirdi. Axırda bir nizə zərbəsi ilə yerə yıxıldı. Allah Təala və Rəsulu yolunda döyüşərkən şəhid olub mübarək ruhu Cənnətə uçdu...

O əsnada Həzrəti Abdullahın yanında döyüşən Əbul-Yusr Kə'b ibn Umeyr bayrağı dalğalandırmağa çalıştı.

Gözləriylə Əshabı süzərək özündən daha yaşlı və yetişgin birini axtarırdı. Sabit ibn Əkrəmi görüncə, bayrağı ona verdi. Həzrəti Sabit, bayrağı mücahidlərin qabağında yerə batırdıqdan sonra; "Ey qardaşlarım! Vaxt itirmədən aranızdan birini komandan seçin və ona tabe olun" dedi. Onlar; "Səni seçdik" dedilərsə də, Həzrəti Sabit bunu qəbul etmədi. Gözləri Xalid ibn Vəlid Həzrətlərinə sataşdı. Ona; "Ey Əbu Süleyman! Bayrağı sən götür!" dedi. Müsəlmanlar arasına təzə qoşulan Həzrəti Xalid, ədəbindən müqəddəs bayrağı götürmək istəmədi və mübarək dodaqlarından; "Mən bu bayrağı səndən ala bilmərəm! Sən buna məndən daha çox layiqsən. Çünki, daha yaşlısan və Bədir qəzvəsində Rəsulullahla birlikdə döyüşməklə şərəflənmisən!" sözləri tökülmüşdü.

Ancaq, zaman qiymətli idi. Ətraflarındakı Əshabi kiram düşmənlə amansızcasına vuruşur, yüz min nəfərlik düşməni qabağında durmağa çalışırdılar. Həzrəti Sabit sözünü təkrar etdi; "Ey Xalid! Tez Rəsulullahın müqəddəs bayrağını götür! Vallahi, bunu sənə vermək üçün götürmüşdüm. Sən, döyüş üsulunu məndən daha yaxşı bilirsən!" dedi və ətrafındakı mücahidlərə; "Ey qardaşlarım! Xalidin komandan olmasına nə deyirsiniz?" deyə soruşdu. Onlar da hamısı bir ağızdan; "Onu başımıza komandan seçdik" dedilər.

Bundan sonra Həzrəti Xalid, Aləmlərin sahibinin mübarək əliylə verdiyi bayrağı böyük bir hörmət və ədəblə götürüb öpdü. Atına minib var gücüylə düşmənə hücum etdi.[306]

Qəhrəman səhabilər yeni komandanlarının arxasında təzədən hücuma keçdilər. Həzrəti Xalid tayı-bərabəri görülməmiş bir cəsarət və maharətlə döyüşürdü. Qabağına gələni aşırdırdı. Bu dəmdə Qutbə ibn Qatadə Həzrətləri düşmən komandanlarından Malik ibn Zafilənin başını bədənindən ayırdı. Bizanslıların əhval-ruhiyyələri pozulmuşdu. Ancaq, vaxt azalmış, axşam düşmüş və hava qaralmağa başlamışdı. Qaranlıqda döyüşmək çox təhlükəliydi. Çünki, səhvən öz dostlarını da vura bilərdilər...

---

[306] Vaqidi, *əl-Məğazi*, II, 756; İbn Sə'd, *ət-Təbəqat*, II, 129; Əbdurrəzzaq, *əl-Musannəf*, III, 390; Təbərani, *əl-Mu'cəmu'l-Kəbir*, II, 105; Suheyli, *ər-Rövzul-Unf*, IV, 130.

Bu səbəblə, hər iki tərəf də qərargahlarına çəkildi. Yaralıların yaraları sarılmağa başlandı. Həzrəti Xalid, döyüş üsulunu yaxşi bilirdi. Səhər açılınca düşmənin qabağına yeni bir taktikayla çıxmaq və onları çaşdırmaq istəyirdi. O gecə, əsgərlərin yerlərini dəyişdirdi. Sağ tərəfdəkiləri solda, soldakıları sağda, qabaqdakıları arxada, arxadakıları da qabaqda yerləşdirdi.

Səhər təzədən hücuma keçən qəhrəman mücahidlər, “Allahu əkbər” sədaları altında döyüşməyə başladı. Düşmən əsgərləri özlərinə hücum edən əsgərləri ilk dəfə görürdülər. Bunlar dünənki döyüşdükləri əsgərlər deyildi. Yəqin ki, müsəlmanlara kömək üçün yeni bir ordu gəlmişdi! Bunları böyük bir qorxu içində düşünən Bizans əsgərlərinin əhval-ruhiyyələri pozuldu. Canlarına vəlvələ düşdü. Bu fürsəti əldən verməyən Həzrəti Xalid və qəhrəman səhabilər o gün əmməlli-başlı döyüşərək düşmənə qılınc vurdular və minlərlə əsgərin canını Cəhənnəmə göndərdilər. O gün Xalid ibn Vəlid Həzrətlərinin əlində doqquz qılınc qırılmışdı.[307] Allah Təalanın ehsanı, Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm) dualarının bərəkətiylə üç min mücahid qazi, yüz min düşmən əsgərini pərən-pərən etmişdi. Bu böyük meydan muharəbəsində on beş şəhid verilmişdi. Beləcə, Bizans İmperatorluğuna qulaqburması verilmiş, daha cənuba hücumlar təşkil etməsinə mane olunmuşdu...

Rəsuli əkrəm və Nəbiyyi möhtərəm, müharibə meydanından bir xəbər almamışdan qabaq, Mutədə baş verənləri çatdırmaq üçün Əshabını məscidə toplamışdı. Sevgili Peyğəmbərimizin mübarək üzündən çox üzüntülü olduğu məlum olur, daha da çox üzülər qorxusu ilə heç kim bir şey soruşmurdu. Nəhayət Əshabi kiramdan biri; “Canımız sənə fəda olsun ya Rəsulallah! Sizdə olan üzüntünü gördüyümüzdən bəri qanımız qaralır, üzüntümüzün dərəcəsini ancaq Cənabi Haqq bilir!” dedi. Sevgili Peyğəmbərimizin mübarək gözlərindən yaş axraq belə buyurdu ki; “Məndə gördüyünüz üzüntü, məni kədərə boğan şey, Əshabımın şəhid olmaları idi. Bu hal, onları Cənnətdə üzbəüz taxtlar üstündə oturmuş vəziyyətdə görüncəyə qədər davam etdi. Zeyd ibn Harisə bayrağı əlinə götürdü. Axırda şəhid edildi. O indi Cənnətə girdi. Orda gəzişir. Sonra bayrağı Cə’fər ibn Əbi Talıb götürdü. Düşmən ordusuna hücum etdi. Şəhid oluncaya qədər o da döyüşdü. O, şəhid olaraq Cənnətə girdi və yaqutdan iki qanadı ilə istədiyi kimi uçur. Cə’fərdən sonra bayrağı Abdullah ibn Rəvaha götürdü. Əlində

[307] Buxari, “Məğazi”, 42; İbn Sə’d, *ət-Təbəqat*, IV, 253; İbn Əbi Şeybə, *əl-Musannəf*, IV, 582; Hakim, *əl-Müstədrək*, III, 44.

bayrağı tutaraq döyüşdü və şəhid olaraq Cənnətə girdi. Onlar, Cənnətdə qızıldan düzəldilmiş taxtlar üstündə mənə göstərildi. Ey Allahım! Zeydi bağışla! Ey Allahım! Cə'fəri bağışla! Ey Allahım Abdullah ibn Rəvahanı bağışla!".

Aləmlərin sahibinin mübarək gözlərindən hələ də yaş axırdı. Göz yaşları axa-axa sözünə belə davam etdi; "Abdullah ibn Rəvahadan sonra bayrağı Xalid ibn Vəlid götürdü. Budur, indi döyüş daha da ağırlaşdı. Ey Allahım! O (Xalid ibn Vəlid) sənin qılınclarından bir qılıncdır. Ona yardım et!" buyurdu.[308]

Sevgili Peyğəmbərimiz, Allah Təalanın izni ilə min kilometrdən daha uzaq olan döyüş meydanındakı vəziyyəti, bir mö'cüzə olaraq görmüş və Əshabına bildirmişdi. Cə'fər ibn Əbi Talıb Həzrətlərinin şəhid edildiyi gün bu hadisəni nəql etdikdən sonra qalxdı. Həzrəti Cə'fərin evinə getdi. Xanımı Əsma ev işlərini görmüş, uşaqlarını yuyundurub saçlarını daramışdı. Sevgili Peyğəmbərimiz; "Ey Əsma! Cə'fərin oğlanları hardadır? Onları mənim yanıma gətir!" buyurdu. Əsma xatun uşaqları gətirincə Rəsulullah onları qucaqladı və doya-doya öpüb bağrına basdı. Mübarək ürəyi dözə bilmədi, mübarək gözlərindən yaş axmağa başladı. Bunu görən Həzrəti Cə'fərin xanımı; "Anam-atam, canım sənə fəda olsun ya Rəsulallah! Nə üçün uşaqlarıma yetimlərə göstərdiyiniz mərhəməti göstərirsiniz? Yoxsa Cə'fər və dostlarından qara xəbər aldınız?!" deyə yalvararaq soruşdu. Aləmlərin sahibi bu hadisədən çox tə'sirlənmişdi; "Bəli! Onlar, bu gün şəhid oldular!" buyurdu. Həzrəti Əsma anamız da yetim balalarını bağrına basaraq ağlamağa başladı. Bu mənzərəyə sevgili Peyğəmbərimiz daha dözə bilməmiş, ordan çıxıb getmişdi.[309]

Səadətxanələrinə qayıdan Həbibi əkrəm (səlləllahu əleyhi və səlləm), mütəhhər xanımlarına; "Cə'fərin ailəsi üçün yemək bişirməyi yaddan çıxartmayın!" buyurdu. Üç gün şəhid ailələrinə yemək göndərildi.

Hadisədən günlər keçmişdi ki, Mədinəyə müjdə xəbərini Ya'la ibn Umeyyə Həzrətləri çatdırdı. Baş verən hadisələri çatdırmamışdan qabaq Rəsuli əkrəm ona; "İstəyirsənsə baş verənləri sən de, istəyirsənsə mən sənə deyim!" buyuraraq döyüş meydanında olanları təfərrüatıyla birlikdə danışdı. Bundan sonra Ya'la ibn Umeyyə;

---

[308] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, V, 299; İbn Sə'd, *ət-Təbəqat*, VII, 395; İbn Əbi Şeybə, *əl-Musannəf*, VIII, 546; Təbəri, *Tarix*, II, 322; Heysəmi, *Məcməuz-Zəvaid*, VI, 150.

[309] Əhməd ibn Hənbəl, *əl-Musnəd*, VI, 370; İbn Hişam, *əs-Sirə*, II, 380; İbn Sə'd, *ət-Təbəqat*, VIII, 282; İbn Kəsir, *əl-Bidayə*, III, 474; IV, 251; Suheyli, *ər-Rövzul-Unf*, IV, 126; Heysəmi, *Məcməuz-Zəvaid*, VI, 156.

“Səni haqq din və Kitabla Peyğəmbər olaraq göndərən Allah Təalaya and içirəm ki, mücahidlərin başından keçən hadisələrin hamısını danışdınız” dedi. Rəsulullah da; “Allahu Təala, mənim üçün aradakı məsafəni götürdü və döyüş meydanını öz gözlərimlə gördüm” buyurdu.

Bir neçə gün sonra xəbərçilər İslam ordusunun Mədinəyə yaxınlaşdığını çatdırdılar. Cənabi Peyğəmbərimiz, Əshabı ilə qalxdı və Mədinədən kənara onları qarşılamağa çıxdı. Uzaqlardan bir toz buludu qalxır, müqəddəs İslam bayrağı dalğalanırdı. Qılınc, qalxan parıltıları ətrafa güzgü kimi işıq saçırdı... Hamı, çox həyəcanlanmışdı. Bir az sonra mücahid qazilər Mədinəyə girdilər. Onların başında Xalid ibn Vəlid Həzrətləri vardı...

# MƏKKƏNİN FƏTHİ

Hicrətin səkkizinci ili idi. Hüdeybiyyə sülhnaməsinin bir maddəsi də; "Hər iki tərəflə də müttəfiq olmayan Ərəb qəbilələri, istədikləri tərəfin himayəsinə girə biləcəklər, müsəlmanlar vəya müşriklərlə birləşməkdə sərbəst olacaqlar" idi. Buna görə, Cənabi Peyğəmbərimizin müttəfiqi olan Xuzaə qəbiləsi müsəlmanlar, Bəni Bəkir qəbiləsi də müşriklər tərəfində yer almışdı. Xuzaə qəbiləsi ilə Bəni Bəkir qəbiləsi əvvəldən də düşmən olub, fürsət tapan kimi bir-birilərinə hücum edirdilər. Hüdeybiyyə sülhünə görə, onlar da bir müddətliyinə hücumlarına ara vermişdilər. Ancaq, buna Bəni Bəkir qəbiləsi iki il riayət edə bildilər. Bəkir oğullarından biri, sevgili Peyğəmbərimizə həqarət edən bir şe'r demiş, bunu eşidən Xuzaə qəbiləsindən bir gənc, dözə bilməmiş və onun başını yarmışdı. Bəkir oğulları, bu fürsətdən istifadə edib razılaşma gərəyi təhlükədən arxayın olan Xuzaə qəbiləsinə hücum etmişdilər. Bu hücumu, Qureyşli müşriklər silah verərək və gizlicə adam göndərərək dəstəkləmişdilər. Hərəmi şərifdə Xuzaə qəbiləsindən iyirmidən artıq adamı öldürmüşdülər. Döyüş əsnasında Xuzaə qəbiləsindən bəzi müsəlmanlar Cənabi Peyğəmbərimizdən yardım istəmişdilər. Xuzaə qəbiləsinə gecə vaxtı təşkil edilən bu basqınlarda, Bəkir oğulları ilə birlikdə, Qureyşli müşriklərin də olduğunu görənlər olmuşdu.[310]

O gecə Mədinədə, Həzrəti Meymunə anamızın evində olan sevgili Peyğəmbərimiz, namaz qılmaq üçün durub dəstəmaz alarkən, Allah Təalanın izni ilə bir mö'cüzə olaraq, Məkkədəki müsəlmanların özündən kömək istədiklərini eşitmişdi. Onlara cavab olaraq; "Ləbbeyk! (Də'vətinizə cavab verirəm!)" buyurdu. Meymunə anamız, Cənabi Peyğəmbərimizin yanında heç kim olmadığı halda belə dediyini görüncə; "Ya Rəsulallah! Yanınızda birisi var?" deyə soruşdu.

Sevgili Peyğəmbərimiz ona, Məkkədə meydana gələn hadisəni və Qureyşlilərin bu işdə əli olduğunu xəbər verdi.

Qureyş müşrikləri Bəni Bəkir qəbiləsinə kömək edərək, Xuzaə qəbiləsinə basqın edib onları öldürməklə, Hüdeybiyyə sülhnaməsinin maddələrinə zidd hərəkət etmiş, beləcə sülhnaməni pozmuş olurdular. Ancaq, bu hadisədən, o əsnada Şama ticarət üçün gedən Qureyşin başçısı Əbu Süfyanın xəbəri olmamışdı. Şamdan qayıdan kimi

---

[310] İbn Hişam, *əs-Sirə*, II, 389; Vaqidi, *əl-Məğazi*, II, 786; İbn Sə'd, *ət-Təbəqat*, II, 134; Əbdurrəzzaq, *əl-Musannəf*, V, 374; İbn Əbi Şeybə, *əl-Musannəf*, VIII, 531; Suheyli, *ər-Rövzul-Unf*, IV, 140.

hadisəni ona danışdılar və; “Bu, mütləq düzəldilməsi lazım olan bir səhvdir. Gizli qalması mümkün deyildir. Əgər düzəldilməzsə, Məhəmməd bizi Məkkədən sürgün edər!” dedilər. Əbu Süfyan isə; “Hər nə qədər bu hadisədən mənim xəbərim olmyıbsa da, təşkil edilən qətliam xəbəri Mədinəyə çatmamışdan qabaq, sülhü təzələyib uzatmaq üçün tələsik getməyim lazımdır” dedi.

Halbuki, sevgili Peyğəmbərimiz, xəbəri elə o dəqiqə öyrənmişdi. Həm də hadisədən üç gün sonra, Xuzaə qəbiləsindən Əmr ibn Salim, özü ilə birlikdə qırx süvari ilə gəlib vəziyyəti Rəsuli əkrəmə (səlləllahu əleyhi və səlləm) danışmışdı. Həbibullah da; “Xuzaə oğullarına kömək etməsəm, mənə də kömək edilməsin!” buyuraraq bir məktub yazdırdı. Qureyş müşriklərinə göndərilən bu məktubda, sevgili Peyğəmbərimiz; “...Siz, ya Bəkir oğulları ilə olan ittifaqınızdan əl çəkərsiniz, yaxud da Xuzaə oğullarından öldürülənlərin diyətlərini ödəyərsiniz! Şayəd, bu dediklərimdən birini yerinə yetirməzsəniz sizinlə döyüşəcəyimi bilin!” buyururdu.

Qureyşlilər, bu mərhəmətin də qədrini başa düşmədilər. “Həm ittifaqımızı kəsmərik, həm də diyəti ödəmərik! Ancaq döyüşə də bilərik” deyə xəbər göndərdilər. Ancaq, belə etdiklərinə çox peşman olub, qorxularından razılaşmanı təzələmək üçün Əbu Süfyanı Mədinəyə göndərdilər.[311]

Hələ Əbu Süfyan Mədinəyə gəlməmişdən qabaq, sevgili Peyğəmbərimiz onun gələcəyini Əshabi kiramına bildirdi və; “Belə başa düşürəm ki, Əbu Süfyan sülhü təzələyib, sülh müddətini də uzatmaq üçün gəlir. Lakin, məqsədinə nail olmayıb əli boş qayıdacaq!” buyurdu.

Hələ müsəlman olmayan Əbu Süfyan, Mədinəyi münəvvərəyə gəldi. Qızı və Cənabi Peyğəmbərimizin mübarək xanımı, mö’minlərin anası olan Ümmü Həbibənin evinə getdi. Sevgili Peyğəmbərimizin döşəyi üstündə oturmaq istədi. Həzrəti Ümmü Həbibə anamız, o oturmadan çatıb döşəyi götürdü. Atası buna çox üzülüb; “Ey qızım! Bu döşəyi məndən əsirgəyirsən?” deyərək heyrətini ifadə edincə, Rəsulullahın məhəbbətini hər şeydən üstün tutan mö’minlərin anası Həzrəti Ümmü Həbibə atasına; “Bu döşək, Allah Təalanın Rəsulunun döşəyidir. Ona müşriklər otura bilməz! Sən, müşrik və nəcissən! Bu döşək üstündə oturmağın, əsla düzgün deyildir!” deyə cavab verdi.

---

[311] İbn Hişam, *əs-Sirə*, II, 395; Vaqidi, *əl-Məğazi*, II, 783; İbn Sə’d, *ət-Təbəqat*, II, 134; Əbdurrəzzaq, *əl-Musannəf*, V, 374; İbn Əbi Şeybə, *əl-Musannəf*, VIII, 531; Suheyli, *ər-Rövzul-Unf*, IV, 146.

Atası; “Ey qızım! Evimdən ayrılandan sonra sənə nə oldu belə?!” deyincə, o da; “Əlhəmdülillah ki, Allah Təala mənə İslamiyyəti nəsib etdi. Sən isə hələ də, eşitməyən, görməyən daşdan düzəldilmiş bütlərə sitayiş edirsən! Ey Ata! Sənin kimi Qureyşin böyüyü və yaşlısı olan bir nəfər, necə ola bilər ki, İslamdan uzaq qalsın?” dedi. Atası çox əsəbiləşib; “Mənə bu qədər hörmətsizlik edib cahilliklə ittiham edirsən! Demək mən, atalarımın illərdir sitayiş etdikləri bütləri qoyub, Məhəmmədin dininə girəcəm?!” deyərək ordan çıxıb getdi.[312]

Sevgili Peyğəmbərimizin hüzuruna gələn Qureyşin başçısı; “Mən, Hüdeybiyyə sülhnaməsini təzələmək və müddətini də uzatmaq üçün gəldim. Haydı, aramızdakı bu razılaşmanı bir yazı ilə təzələyək!” dedi. Həbibi əkrəm (səlləllahu əleyhi və səlləm); “Biz, Hüdeybiyyə sülhnaməsinə zidd bir hərəkət etmədik və onu dəyişdirmərik!” buyurdu. Qureyşin başçısı dəfələrlə, “Sülhnaməni dəyişdirək! Təzələyək!” dedisə də, sevgili Peyğəmbərimiz ona heç bir cavab vermədi. Qureyşin başçısı bütün cəhdlərinin puça çıxdığını görüncə Məkkəyə qayıdıb, müşriklərə vəziyyəti başa saldı. Müşriklər; “Demək heç bir şey edə bilmədən dala qayıtdın?!” deyərək onu qınadılar. Artıq onlar üçün gözləməkdən başqa bir çarə qalmamışdı.

### Kim Məscidi Harama sığınsa...

Əbu Süfyan Mədinədən ayrılınca, Sevgili Peyğəmbərimiz Məkkəni fəth etməyi qərara aldı. Çünki, Qureyşlilər verdikləri sözün üstündə durmamış və razılaşmanı pozmuşdular. Ancaq, bu sirri çox gizli tutur, müşriklərə hazırlanma fürsəti vermədən və Hərəmi şərifdə qan tökülmədən Məkkəni almaq istəyirdi. Bu bir döyüş tədbiri idi. Çünki, Məkkə fəth edilincə, bəlkə də bir çoxu müsəlman olmaqla şərəflənəcəkdi.

Bu vəziyyəti Həzrəti Əbu Bəkirə və əshabının başda gələnlərindən bir neçəsinə dedi. Əshabına, səfər üçün hazırlıq görməsini əmr edib, hara gediləcəyini demədi. Əshabi kiram cihad üçün hazırlıq görməyə başladılar. Cənabi Peyğəmbərimiz, həm də ətrafdakı müsəlman qəbilələrdən Əsləm, Əşca, Cüheynə, Husayn, Ğifar, Muzeynə, Suleym, Dəmra və Xuzaə oğullarına da xəbər göndərdi. Bu qəbilələrə,“Allah Təalaya

[312] Beyhəqi, *Dəlailun-Nübüvvə*, V, 43; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 347; İbn Kəsir, *əl-Sirə*, III, 530.

və axirət gününə iman edənlər, Ramazan ayının əvvəlində Mədinədə hazır olsunlar" buyurulur, döyüşdə iştirak etməyə də'vət edilirdi.

Həbibullah (səlləllahu əleyhi və səlləm), bir tədbir olaraq Məkkəyə gedən yollarda əlaqəni kəsmək üçün Həzrəti Ömərə vəzifə verdi. Həzrəti Ömər, dərhal dağ yollarına, keçidlərə və digər yollara növbətçilər qoyub; "Məkkəyə getmək istəyən hər adamı dala qaytaracaqsınız!" əmrini verdi.

Sevgili Peyğəmbərimiz, bu işin gizlicə görülməsi üçün; "Ya Rabbi! El-obalarına qəflətən gəlib qovuşuncaya qədər, Qureyşlilərin casus və xəbərçilərini saxla. Onları görməyən və eşitməyən et. Bizi qəfildən görüb, eşitsinlər" deyərək Allah Təalaya dua edirdi.

Cənabi Peyğəmbərimiz, şimaldakı müşriklər vəya Bizanslılara hücum etmək düşüncəsi yaratmaq üçün də, Əbu Qatadə Həzrətlərini hərbi dəstə ilə şimala, İzam vadisinə tərəf göndərdi.

Bu əsnada Mədinədəki görülən hazırlıqları Məkkəli müşriklərə çatdırmaq üçün göndərilən bir məktubu Sevgili Peyğəmbərimiz bir mö'cüzə olaraq xəbər verdi. Həzrəti Əlini göndərərək məktubu aparanı tutub gətirtdi.

Ramazan ayının ikinci gününə qədər, ətraf qəbilələrdən kömək gəlmiş, Əbu İnəbə quyusu başındakı düşərgədə yığılışmışdılar. Əshabi kiramın sayı on iki minə çatmışdı. Bunlardan dörd mini Ənsar, yeddi yüzü muhacir, qalanları da ətrafda yerləşən müsəlman qəbilələrdən idi.[313]

Sevgili Peyğəmbərimiz Mədinəyə vəkil olaraq Abdullah ibn Ümmi Məktum Həzrətlərini qoydu.[314] Zübeyir ibn Əvvam Həzrətlərini də iki yüz nəfərlik bir süvari dəstənin başında kəşfiyyat üçün qabaqcadan göndərdi.

Aləmlərin sahibi, könülləri Allah Təala və Rəsulunun məhəbbətiylə dolu olan on iki min nəfərlik böyük ordusunun başında, Allah Təalanın adını anaraq yola düşdü. Bundan səkkiz il qabaq işgəncə və zülm edilərək hicrət etməyə məcbur edildikləri el-obalarına, Məkkəyə gedirdilər. Bütxanaya çevrilən müqəddəs Kə'bəni bütlərdən təmizləməyə gedirdilər... İnadkarlıqlarından heç cür əl çəkmək istəməyən müşriklərə, haqq, ədalət və mərhəmət göstərməyə gedirdilər... Allah Təalanın dinini yaymağa,

---

[313] İbn Sə'd, *ət-Təbəqat*, II, 135; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 347.
[314] İbn Sə'd, *ət-Təbəqat*, II, 135; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 347.

ordakıların əbədi cəhənnəm əzabından xilas olmalarına vəsilə olmağa gedirdilər. Aman ya Rəbbi! Bu nə böyük mərhəmət idi!

İslam ordusu Zulhuleyfəyə gəldiyi əsnada, Məkkədən ailəsi ilə birlikdə hicrət edən Cənabi Peyğəmbərimizin əmisi Həzrəti Abbasa rast gəldi. Sevgili Peyğəmbərimiz əmisinın gəldiyinə çox sevindi və; "Ey Abbas! Mən Peyğəmbərlərin axırıncısı olduğum kimi, sən də muhacirlərin axırıncısısan" buyuraraq könlünü aldı. Həzrəti Abbasın ailəsini Mədinəyə göndərdi. Həzrəti Abbas, Cənabi Peyğəmbərimizin yanında qalıb Məkkənin fəthində iştirak etdi.[315]

Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Məkkənin yaxınlığında yerləşən Qudeydə gəldiyində, şanlı Əshabını döyüş vəziyyətinə gətirdi. Hər bir qəbiləyə ayrı-ayrı bayraq verdi. Muhacirlərin bayrağını Həzrəti Əli, Zübeyir ibn Əvvam və Sə'd ibn Əbi Vəqqas daşıyırdı. Ənsarın on iki bayraqdarı, Əşca və Suleym qəbiləsinin hərəsinin bir bayraqdarı, Muzeynə qəbiləsinin üç, Əsləm qəbiləsinin iki, Xuzaə oğullarının üç, Cüheynə oğullarının da dörd bayraqdarı vardı.[316]

Dörd gün idi ki, Mədinədən yola düşmüşdülər. Axşam üstü Məkkəyə əmməlli-başlı yaxınlaşılmış, xiftən namazı vaxtında Mərruzzəhrana gəlinmişdi. Cənabi Peyğəmbərimiz, Əshabına burda dayanmalarını əmr etdi. Ayrıca, Həzrəti Ömərə vəzifə verib, hər mücahidin ocaq qalamasını da buyurdu.[317] Bir əsnada on mindən çox ocaq yanınca Məkkə işıqlandı. Heç bir şeydən xəbəri olmayan Məkkəli müşriklər çaş-baş qaldılar. Nə baş verdiyini öyrənmək üçün Əbu Süfyanı göndərdilər. O da özü ilə birini götürərək İslam ordusuna tərəf gizlənə-gizlənə yaxınlaşdı. Bu əsnada sevgili Peyğəmbərimiz Əshabından bəzilərinə; "Əbu Süfyana nəzarət edin. Mütləq onu görəcəksiniz" buyurdu.

Qureyşlilər, irəlilədikcə daha çox tə'əccüblənir, dəhşətə düşürdülər. Məkkənin ətrafında nə qədər çox əsgər yığılmışdı və nə qədər çox ocaq qalamışdılar... Onlar, bunlar barəsində danışa-danışa, Əraq isimli yerə gəldilər.

Bu əsnada Cənabi Peyğəmbərimiz, yenə; "Əbu Süfyan, indi Əraqdadır" buyurdu. Həzrəti Abbas onları tanıdı və Cənabi Peyğəmbərimizin yanına apardı. Yolda Əbu Süfyan Həzrəti Abbasa; "Xəbərlər necədir?" deyə soruşdu. O da; "Ey Əbu Süfyan!

---

[315] İbn Əsakir, *Tarixu Dəməşq*, XXVI, 297.
[316] Vaqidi, *əl-Məğazi*, II, 800.
[317] İbn Sə'd, *ət-Təbəqat*, II, 135.

Vay halınıza! Rəsul əleyhissalam qabağında dura bilməyəcəyiniz bir ordu ilə üstünüzə gəlir. And içirəm ki, Qureyşlilərin halı çox pis olacaq. Vay onların başına gələnlərə!" dedi. Əbu Süfyan və yanındakılar, qorxa-qorxa mücahidlərin arasından keçərək sevgili Peyğəmbərimizin hüzuruna gəldilər. Kainatın hökmdarı onları gözəl qarşıladı. Məkkəlilər haqqında məlumat aldı. Gecə vaxtına qədər danışdıqdan sonra, onları İslama də'vət etdi. Hakim ibn Hizam ilə Budeyl dərhal kəlimeyi şəhadət gətirərək müsəlman oldu. Ancaq Əbu Süfyan tərəddüd etməyə davam edirdi.

Səhər açılınca, mərhəmət dəryası sevgili Peyğəmbərimiz; "Ey Əbu Süfyan! Sənə yazığım gəlir! Allah Təaladan başqa ilah olmadığını dərk etməyin vaxtı hələ də gəlib çatmadı bəyəm?" buyurdu. O da; "Anam-atam sənə fəda olsun! Yumuşaq xasiyyətlikdə, şərəfli olmaqda və qohum-qardaş haqqına riayət etməkdə səndən yaxşı başqa birini tanımıram. Sənə verdiyimiz bu qədər əziyyətdən sonra, sən hələ də bizi hidayət yoluna də'vət edirsən. Nə gözəl kərəm sahibisən. Allahdan başqa ilah olmadığına inandım... Əgər olsaydı mənə bir faydası olardu. Sən də Allahın Rəsulusan" deyərək Əshabi kiramdan olmaqla şərəfləndi.[318]

Həzrəti Abbas; "Ya Rəsullallah! Əbu Süfyana Məkkəlilər nəzdində e'tibar qazandırmaq üçün gəlsənə bir şey ehsan edəsən?" dedi. Cənabi Peyğəmbərimiz, bunu qəbul edib; "Hər kim Əbu Süfyanın evinə girib sığınsa ona aman verilmişdir, beləliklə O, öldürülməkdən canını qurtarar" buyurdu. Əbu Süfyan Həzrətləri; "Ya Rəsulallah! Bir az da genişlədə bilərsən? deyə xahiş edincə, sevgili Peyğəmbərimiz; "Hər kim Məscidi Harama girib, sığınsa ona aman verilmişdir! Hər kim qapısını bağlayıb evində otursa, ona da aman verilmişdir" buyurdu.

Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Əbu Süfyanın İslam ordusunun heybətini və çoxluğunu görüb Məkkəli müşriklərə bunu deməsi üçün Həzrəti Abbasa; "Onu, vadinin daraldığı, atların sıxışa-sıxışa keçdiyi dağ keçidinə apar. Müsəlmanların, Allah Təalanın ordusunun böyüklüyünü görsün" buyurdu.

Əbu Süfyan görməliydi ki, şahid olduğu mənzərəni müşriklərə danışsın və ordunun qabağına çıxan olmasın... Beləcə, Hərəmi şərifdə qan tökülməzdi...

Həzrəti Abbas, Əbu Süfyan ilə dağ keçidinə tərəf gedərkən, mücahidlər döyüş hazırlığına girməyə başladı. Hər qəbilə, bayraqlarını açaraq keçiddən keçməyə

---

[318] İbn Hişam, *əs-Sirə*, II, 400; Vaqidi, *əl-Məğazi*, II, 811; Beyhəqi, *Dəlailun-Nübüvvə*, V, 62; Suheyli, *ər-Rövzul-Unf*, IV, 155.

başladılar. Hər birinin əynində zireh və yanında silahı var idi. Hər dəstə keçərkən təkbir gətirirdilər. Əbu Süfyan Həzrətləri; "Bunlar kimdir?" deyə soruşur, Həzrəti Abbas da; "Bunlar, Suleym oğullarıdır! Komandanları Xalid ibn Vəliddir!", "Bunlar Ğifar oğullarıdır!", "Bunlar Kə'b oğullarıdır!" deyərək cavab verirdi. Yeri-göyü, "Allahu əkbər! Allahu əkbər!" sədaları bürüyür, mücahidlərin çoxluğu və silahların parıltıları göz qamaşdırırdı.

Həzrəti Əbu Süfyanın ən çox fikir verdiyi, Fəxri aləm (səlləllahu əleyhi və səlləm) Rəsulullah idi. Onun ətrafındakı əsgərlərin keçişi ona çox maraqlı gəlir, başqalarından fərqli olacağını təxmin edirdi. Buna görə də tez-tez; "Bunlar Rəsulullahın dəstəsidir?" deyə soruşmaqdan özünü saxlaya bilmirdi... Nəhayət Peyğəmbərlərin hökmdarı, Aləmlərin sahibi günəş kimi nur saçaraq dəvəsi Qusvanın belində göründü. Ətrafında muhacirlər və Ənsar vardı. Hər biri başdan-ayağa Davudi zirehə bürünmüş, hindistan tərzində qılınc bağlamış, cins atlara və dəvələrə minərək gəlirdilər.

Əbu Süfyan Həzrətləri onları görüncə; "Bunlar kimdir ey Abbas!" deyərək maraqla soruşdu. O da; "Ortadakı Rəsul əleyhissalamdır. Ətrafındakılar da şəhid olmaq həvəsi ilə yanan Ənsar və muhacirlərdir!" dedi.

Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm), onların yanından keçərkən Əbu Süfyan Həzrətlərinə; "Bu gün, Allah Təalanın, Kə'bənin şanını ucaldacağı bir gündür. Bu gün, Beytullaha örtük örtüləcəyi bir gündür! Bu gün, mərhəmət günüdür... Bu gün, Allah Təalanın Qureyşliləri (İslam) ilə güclü edəcəyi bir gündür" buyurdu.

Həzrəti Əbu Süfyan, görəcəyini görmüş, eşidəcəyini də eşitmişdi. "Mən, Qeysərin də, Kisranın da taxt-tacını görmüşəm. Ancaq, belə təmtəraqlısını görmədim. Mən, heç bir zaman bu günkü kimi bir ordu və camaatla üz-üzə gəlmədim. Belə bir ordunun qabağında heç kim dayana bilməz. Onlara heç kimin gücü çatmaz" deyərək Məkkəyə tərəf yola düşdü...

Əbu Süfyan Məkkəyə gəlib, özünü maraqla gözləyən müşriklərə müsəlman olduğunu e'lan etdikdən sonra; "Ey Qureyş camaatı! Məhəmməd əleyhissalamın böyük ordusunun qabağında dura bilməyəcəyik. Nahaq yerə öz-özünüzü aldatmayın. Müsəlman olun ki, xilas olasınız. Mən sizin görmədiklərinizi gördüm. Saysız-hesabsız igidlər, atlar və silahlar gördüm. Heç kimin onlara gücü çatmaz. Hər kim, Əbu Süfyanın evinə girsə, ona aman verimli və öldürülməkdən xilas olmuşdur. Hər kim Beytullaha

sığınsa, ona aman verilmişdir. Hər kim, evinə girib qapısını örtsə, ona da aman verilmişdir” dedi.[319]

Bundan sonra bəzi qəddar müşriklər Əbu Süfyan Həzrətlərinə e’tiraz edərək, onu təhqir etdilər. Hətta, İslam ordusuna müqavimət göstərmək üçün, tələm-tələsik hazırlığa başladılar. Ancaq, bunların sayları çox az idi. Digərləri, bunlara əhəmiyyət verməyib evlərinə qaçdılar. Bir hissəsi də Məscidi Harama sığındılar.

Sərvəri aləm (səlləllahu əleyhi və səlləm) və şanlı səhabilər, Zituva vadisinə gəlib yığıldılar. Aləmlərin sahibi, mübarək gözləriylə Əshabı kiramını süzdükdən sonra, səkkiz il qabaq Məkkədən ayrılmağı, hicrət etməyi yadına düşdü. O zaman səadətxanələrinin ətrafını müşriklərin mühasirə etdiyini, Yasini şərifdən ayələr oxuyaraq çıxdığını, Həzrəti Əbu Bəkir ilə heç kimin gözünə görsənmədən Sevr mağarasına girdiklərini, Məkkədən ayrılmamışdan qabaq axırıncı dəfə baxıb, “(Ey Məkkə) Vallahi, bilirəm ki, sən, Allah Təalanın yaratdığı yerlərin arasında ən xeyirlisisən. Rəbbimin yanında da, mənim yanımda da ən sevgili olanısan. Səndən məcbur edilərək çıxardılmamış olsaydım, səndən çıxmaz ayrılmazdım” buyurduğunu, bu heyfislənməyi qarşısında, Cəbrayıl əleyhissəlamın Qəsas surəsi 85-ci ayəsini oxuyub, mübarək könlünə təsəlli verdiyini və Məkkəyi Mükərrəməyə qayıdacağını müjdələdiyini, bir ovuc Əshabı ilə Bədirdə, Ühüddə, Xəndəkdə, Xeybərdə, Mutədə düşmənlərə necə qalib gəldiyini xatırladı. İndi isə on iki min əshabı ətrafında pərvanə kimi fırlanır, Məkkəyə girmək üçün əmr gözləyirdilər. Sərvəri aləm Rəsulullah, bütün bunları ehsan edən Allah Təalaya, ən dərin razılıq və şükr duyğularıyla dolu bir şəkildə həmd etdi. Təvazökarlıqla mübarək başını aşağı saldı.

Fəxri kainat Rəsulullah, qəhrəman Əshabını dörd dəstəyə böldü. Sağ qol komandanlığına Xalid ibn Vəlid Həzrətlərini, sol qol komandanlığına Zübeyir ibn Əvvam Həzrətlərini, piyadaların başına Əbu Ubeydə ibn Cərrah Həzrətlərini, digər dəstəyə də Sə’d ibn Ubadə Həzrətlərini tə’yin etdi. Həzrəti Xalid, Məkkənin cənubundan girəcək, müşriklərdən kim müdaxilə edərsə cəzalarını verəcək, Səfa təpəsində, Fəxri kainat Rəsulullahla birləşəcəkdi. Həzrəti Zübeyir, Məkkənin

[319] Əbu Davud, “Xərac”, 25; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, İİ, 292; İbn Hişam, *əs-Sirə*, II, 401; Vaqidi, *əl-Məğazi*, II, 817; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 356; Suheyli, *ər-Rövzul-Unf*, IV, 155.

şimalından girəcək, Hacun mövqeyinə bayrağını taxıb Sərvəri aləm Rəsulullahı gözləyəcəkdi. Qərbdən, Həzrəti Sə'd ibn Ubadə Həzrətləri hücuma keçəcəkdi.[320]

Rəsuli əkrəm komandanlarına, "Sizə hücum etmədikcə, əsla heç kiminlə döyüşməyin. Heç kimi öldürməyin" buyurdu. Ancaq, adları məlum olan on beş nəfərdən kim tutulsa, Kə'bənin örtüyünün altında belə gizlənsələr, başları kəsiləcəkdi.[321]

Haqq gəldi, batil zail oldu...

Ramazanın on üçü, Cümə günü idi. Mücahidlərdən ən əvvəl hərəkətə keçən Xalid ibn Vəlid Həzrətləri oldu. Məkkənin cənubundan, Həndəmə dağının yamaclarına gəldiklərində, qəddar Qureyş müşriklərinin onlara ox atdıqlarını gördü. İki mücahid şəhid olmuşdu. Həzrəti Xalid doyüş vəziyyətindəki əsgərlərinə, "Ancaq, darmadağın olub qaçan əsgərlər öldürülməyəcək" əmrini verdikdən sonra, irəli hücum etdilər. Qısa zamanda müşrikləri geriyə püsgürtdülər. Döyüş əsnasında yetmiş müşrik öldürüldü. Digərləri dağlara vəya evlərinə qaçdılar.

Müqəddəs Məkkəyə o biri tərəflərdən girən şanlı səhabilər hər hansı bir müqavimətə rast gəlmədilər. Öldürülməsi əmr edilənlər arasında beşi tutulub cəzaları verildi. O biriləri də Məkkədən qaçdılar. Mücahidlər, böyük bir həyəcanla dağla-dalğa, "Allahu əkbər! Allahu əkbər!" təkbirləri sədaları altında Məkkəyə girirdilər. Sərvəri aləm (səlləllahu əleyhi və səlləm), dəvəsi Qusvanın belində, Üsamə ibn Zeydi tərkinə alaraq böyük bir təvazökarlıqla doğulduğu müqəddəs Məkkəyə girirdi. Ona bu günləri göstərən Allah Təalaya həmd edir, Məkkənin fəthini müjdələyən, Fəth surəsini oxuyurdu.

Fəxri kainat Rəsulullah, böyük bir sevinc içində, qalib gələn Əshabının arasında Kə'bəyi müəzzəməyə tərəf üz tutdu. Sağında Həzrəti Əbu Bəkir, solunda Useyd ibn Xudayr Həzrətləri ilə birlikdə Kə'bəyi müəzzəməyə yaxınlaşdı. Həcəruləsvədi ziyarət etdikdən sonra, təlbiyə və təkbir gətirdi. Bunu səhabilər də təkrarladı və "Allahu əkbər! Allahu əkbər!" sədalarıyla Məkkəyi mükərrəmə səmaları lərzəyə gəldi. Bu ülvi mənzərə qarşısında müsəlmanlar sevinc göz yaşları tökür, Hərəmi şərifə sığınmış, evlərində gizlənmiş müşriklər qorxu ilə gözləyirdilər.

[320] Əbu Davud, "Xərac", 25; Əbdurrəzzaq, *əl-Musannəf*, V, 377; Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 431.
[321] İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 361.

Sonra Aləmlərin sahibi və şanlı Əshabı təvaf etməyə başladılar. Təvafın yeddinci dövrəsini qurtardıqdan sonra, dəvəsindən düşən sevgili Peyğəmbərimiz, məqami İbrahimdə iki rük'ət namaz qıldı. Sonra Həzrəti Abbasın quyudan çıxartdığı zəmzəm suyundan içdi. Zəmzəm suyu ilə dəstəmaz almağa başladı. Fəxri kainat Rəsulullah dəstəmaz alarkən, Əshabi kiram sevgili Peyğəmbərimizin mübarək bədəninə dəyən dəstəmaz suyunu yerə düşmədən qabaq havada tutmağa başladılar. Bu vəziyyəti görən müşriklər, "Biz həyatımızda belə bir hökmdar nə görmüşük, nə də eşitmişik" deyərək heyrətə düşdülər.

Sərvəri aləm (səlləllahu əleyhi və səlləm) Rəsulullah, Kə'bənin ətrafında daşdan və taxtadan düzəldilmiş bütün bütlərin yıxılmasını əmr etdi. "Haqq gəlincə batil gedər, batil hər zaman müvəqqətidir"[322] məalındakı ayəni oxuyaraq, mübarək əlindəki əsanı bütlərə tərəf uzatdı. Əsanın dəydiyi hər büt, bir-bir üzü üstə yıxıldı. Üç yüz altmış büt yerlə-yeksan edildi.[323]

Zöhr vaxtı girdiyində, Rəsuli əkrəm Həzrəti Bilala Kə'bədə əzani şərifi oxumasını əmr etdi. O da, dərhal bu müqəddəs vəzifəni yerinə yetirdi. Əzan oxunarkən, mö'minlərin ürəyində hədsiz bir sevinc meydana gəlir, müşriklər isə kədər və üzüntü içində qovrulurdular.[324]

Sevgili Peyğəmbərimiz, Kə'bənin açarını istədi. Açarı Ona gətirdilər. İçərdəki şəkilləri və yıxılan bütün bütləri təmizlətdikdən sonra, Həzrəti Usamə ibn Zeyd, Həzrəti Bilal, Həzrəti Osman ibn Təlhə il birlikdə Kə'bəyə girdilər. Cənabi Peyğəmbərimiz, içərdə arxasını qapıya tərəf çevirərək iki rük'ət namaz qıldı. Hər küncdə təkbir gətirib dua etdi. Xalid ibn Vəlid Həzrətləri qapının qabağında duraraq camaatın ora yığılmasına mane olmağa çalışırdı.

Kainatın hökmdarı, Kə'bənin qapısının iki tərəfindən iki mübarək əliylə tutmuşdu. Bütün Qureyşlilər Məscidi Harama dolmuş, qorxu qarışıq ümidlə, sevgili Peyğəmbərimizə baxırdılar. Çünki onlar, Cənabi Peyğəmbərimizə və əshabına hər cür işgəncəni etmişdilər. Boyunlarına ip bağlayıb, sürümüşdülər. Ocağa atıb, yandırmağa çalışmışdılar. Qızmar daşları sinələrinin üstünə qoyub, huşunu itirincəyə qədər işgəncə vermişdilər. Odda qızdırılmış şişləri bədənlərinə batırmışdılar. Üç il ac, susuz bir

---

322 əl-İsra 17/81.
323 İbn Hişam, *əs-Sirə*, Iİ, 416.
324 Suheyli, *ər-Rövzul-Unf*, IV, 172.

məhəllədə tutub saxlayıb, hər şeydən məhrum etmişdilər. Ayaqlarından dəvələrə bağlayıb, əks tərəflərə dartmaqla parça-parça etmişdilər. Hamısından da ağır, öz el-obalarından çıxartmışdılar. Bu azmış kimi, tamamilə yer üzündən silmək üçün neçə dəfə döyüşmüşdülər.

Ancaq, bütün bunlara baxmayaraq ümidli idilər. Çünki, qabaqlarında, aləmlərə rəhmət olaraq göndərilən mərhəmət dəryası vardı. Sevgili Peyğəmbərimiz bir müddət onlara baxdıqdan sonra, "Ey Qureyş camaatı, indi haqqınızda mənim nə edəcəyimi fikirləşirsiniz?" buyurdu. Onlar da; "Biz səndən xeyir gözləyir, xeyir ümid edirik. Çünki, sən çox mərhəmətlisən. Kəramətli və yaxşılıq sahibi bir qardaşımızın oğlusan. Bizə qalib gəldin. Səndən yaxşılıq umuruq" dedilər.

Rəsuli əkrəm (səllələhu əleyhi və səlləm) onlara baxıb təbəssüm etdi və; "Mənim halımla sizin halınız, Yusif (əleyhissalamın) qardaşlarına dediyi kimi olacaqdır. Onun kimi mən də bu gün (dən sonra, günahınızı üzünüzə vurmaqla) sizi qınamır, ayıblamıram. "Allah Təala sizi bağışlasın"[325] deyirəm. Gedin, artıq azadsınız" buyurdu.

Bu tayı-bərabəri görülməyən mərhəmət, daş ürəkliləri yumuşaltmış, nifrət halını məhəbbətə çevirmişdi. Aləmlərin sahibi, onları İslama də'vət edincə, müsəlman olmaq üçün bir yerə yığışdılar. Sevgili Peyğəmbərimiz peyğəmbərliyini Qureyşlilərə e'lan edib ilk dəfə İslama də'vət etdiyi Səfa təpəsinə çıxdı. Yenə orda, böyük-kiçik, qadın-kişi, bütün Məkkəlilərin bey'ətini qəbul etdi. Beləcə, Qureyşlilər müsəlman olaraq Əshabı kiramdan sayılmaqla şərəfləndilər.

Kişilərdən bey'ət alındıqdan sonra, qadınlardan da bəzi mövzularda bey'ət alındı.[326]

Allah Təalaya şərik qoşmamaq, Cənabi Peyğəmbərimizə üsyan etməmək, oğruluqdan uzaq durmaq, iffət və namusunu qorumaq, qız uşaqlarını öldürməmək, bunlardan bəziləriydi. Müsəlman olan qadınların arasında öldürülməsi lazım olan şəxslərin siyahısında adı olan Həzrəti Əbu Süfyanın xanımı Hind də vardı. Ancaq, Aləmlərə rəhmət olan sevgili Peyğəmbərimiz onu da bağışlamışdı. Müsəlman olan hər kəs evlərindəki bütün bütləri qırdı. Ətraf qəbilələrə hərbi dəstələr göndərilərək oralardakı bütlər də yerlə-yeksan edildi. Beləcə, haqqın gəlməsi ilə batilin kökü

---

[325] əl-Yusuf 12/92.

[326] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 9; Safədi, *əl-Vafi*, VIII, 432.

kəsilmişdi. Mərhəmətə qovuşanlar arasında Əbu Cəhlin oğlu İkrimə, Həzrəti Həmzəni şəhid edən Vəhşi kimi şəxslər də vardı. Bunlardan Həzrəti İkrimə Yərmuk döyüşündə şəhid olmuşdu. Həzrəti Vəhşi də Yəmamə döyüşündə Museyləmətul-Kəzzabı öldürmüşdü.[327]

*Həmən Allah içün xalqı sevərdi buğz edərdi həm,*
*Nə dost olmuşdu nəfsiyçün nə düşmən ol kərəmkanı.*

*Nə güldü qəhqəhəylə ol nə söydü əşyaya hərgiz,*

*Gözəl sözlü, gülər üzlüydü hər an ol kərəmkanı.*

*Həyavu hilm ilə məvsuf idi həm lütfi hörmətlə,*

*Gəlib yalvaranı qoymazdı giryan ol kərəmkanı.*

*Qəbul eylərdi üzrü günahkarlardan əfvü lütfüylə,*

*Əzimülxulq idi şəfqətli xənnan ol kərəmkanı.*

[327] Vaqidi, *əl-Məğazi*, II, 863; Təbərani, *əl-Mu'cəmu'l-Kəbir*, XXII, 36; Safədi, *əl-Vafi*, V, 392; İbn Əsakir, *Tarixu Dəməşq*, LXII, 404.

## HUNEYN QƏZVƏSİ

Sərvəri aləm (səlləllahu əleyhi və səlləm) Rəsulullah Məkkəni fəth etmək niyyətiylə Mədinədən çıxdıqdan sonra, Məkkə ətrafında yerləşən Həvazin və Səqif adında iki böyük qəbilə müsəlmanların onlara hücum edəcəyini zənn edərək döyüşmək üçün hazırlıq görməyə başladılar. Aləmlərin sahibinin Məkkəni fəth etmək üçün gəldiyini öyrəndiklərində bir az rahat nəfəs almışdılarsa da, Qureyşlilərdən sonra növbənin heç bir şübhə yoxdur ki, özlərinə gələcəyini düşünərək sür'ətlə hazırlıqlarına davam etdilər. Ayrıca; "And içirik ki, müsəlmanlar yaxşı döyüşən bir qövmə rast gəlmədilər. O, bizim üstümüzə gəlməmişdən qabaq, biz Onun üstünə hücum edək ki, döyüşün necə olduğunu Ona göstərək" dedilər. Həvazin qəbiləsinin başçısı Malik ibn Əvf komandanlığındakı iyirmi min nəfərlik çox güclü bir orduyla hərəkətə keçdilər. Əsgərlərinin cəsarətini artırmaq və çətinliyə düşdüklərində qaçmamaları üçün, bütün qiymətli mallarını, qadın və uşaqlarını da özləriylə apardılar.

Bu xəbər qısa zamanda Məkkəyə çatdı. Fəxri kainat Rəsulullah xəbərin doğruluğunu öyrənmək üçün Abdullah ibn Əbi Xədrədi Həvazin qəbiləsinə göndərdi. Həzrəti Abdullah pal-paltarını dəyişdirərək düşmənin arasına girdi. Fikirləri haqqında məlumat toplayıb dərhal sevgili Peyğəmbərimizə çatdırdı.

Rəsuli əkrəm dərhal şanlı Əshabını topladı. Məkkəyə iyirmi yaşındakı Əttab ibn Əsid Həzrətlərini vali qoyaraq vaxt itirmədən yola düşdü. On iki min nəfərlik ordusu ilə müşrik Həvazin və Səqif qəbilələrinə öz düşərgələrində basqın etmək istəyirdi. Mücahidlərin bayrağını Həzrəti Əli daşıyırdı. [328] Kəşfiyyat dəstəsinin komandanlığı da Xalid ibn Vəlid Həzrətlərinə verilmişdi. [329] Aləmlərin sahibi dəbilqəsini taxmış, üst-üstə zirehini geyinmiş, Düldül adındakı qatırına minmişdi. Şəvval ayının 11-ci günü Huneyn vadisinə çatdılar. O gecə, Sərvəri aləm Rəsulullah ordusunu yoxlayıb, döyüş vəziyyətinə gətirdi. Sübh namazını qıldırdıqdan sonra hərəkətə keçdi.

Müşriklərin komandanı gecədən istifadə edərək Huneyn vadisinin iki yamacına ordusunu yerləşdirmiş, burda pusqu qurmuşdu. Qabaqda əmri altındakı dəstəsi ilə gedən

---

[328] İbn Sə'd, *ət-Təbəqat*, IV, 357; Suheyli, *ər-Rövzul-Unf*, IV, 204.
[329] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 350; İbn Hişam, *əs-Sirə*, II, 428; Vaqidi, *əl-Məğazi*, II, 912; Suheyli, *ər-Rövzul-Unf*, IV, 195;

Xalid ibn Vəlid Həzrətləri pusqudan bixəbər keçidə tərəf atını sürmüşdü. Səhərin alaqaranlığı düşməni görməyə mane olurdu. Birdən minlərlə ox mücahidlərin üstünə yağmağa başladı. Bunu gözləməyən mücahidlər geri çəkilmək məcburiyyətində qaldılar. Sür'ətli şəkildə geri çəkilərkən, arxadan gələn əsgərlərin nizam-intizamı pozuldu. Onlar da geri çəkilmək üçün döndüyündə iyirmi min nəfərlik düşmən ordusunun sel kimi vadiyə axışmağa başladığını gördülər.

Sevgili Peyğəmbərimiz tək başına, hücuma keçən müşriklərin üstünə atıldı. Ancaq Həzrəti Abbas, Həzrəti Əbu Bəkir və təxminən yüz qəhrəman səhabi ölməyi düşünmədən özlərini Rəsuli əkrəmə çatdırdılar. Bədənlərini sevgili Peyğəmbərimizə qalxan etdilər. Həzrəti Abbas qatırın yüyənini, Süfyan ibn Haris Həzrətləri də üzəngisini tutaraq sür'ətini azaltmağa, Rəsulullahın düşmən ordusunun içinə dalmasına mane olmağa çalışırdılar. Aləmlərin sahibi Allah Təalanın dininin yox olacağına üzüldüyü üçün; "Ya Abbas! sən onları "Ey Mədinəlilər! Ey Səmurə ağacının altında bey'ət edən səhabilər" deyərək çağır!" buyurdu. Həzrəti Abbas tökmərək və heybətli idi. Qışqırdığı zaman səsi çox uzaqlardan eşidilirdi. Var gücü ilə; "Ey Mədinəlilər! Ey Səmurə ağacının altında Peyğəmbərimizə söz verən əshab, dağılışmayın. Bura gelin!" deyə qışqırdı. Bunu eşidən Əshabi kiram dala qayıtmaq istədi. Ancaq, mindikləri heyvanların həddən çox hürkməsi dala qayıtmalarına mane olurdu. Nəhayət zirehlərini, qılınclarını, nizələrini götürüb mindikləri heyvanlarından özlərini yerə atmaq məcburiyyətində qaldılar. Sür'ətlə Rəsulullahın yanına çatıb düşmənlə amansızcasına döyüşməyə başladılar. "Allahu əkbər! Allahu əkbər!" sədaları yeri-göyü lərzəyə salır, düşməni qorxudub dəhşətə düşürdürdü. Bədirdə, Ühüddə, Xəndəkdə və Xeybərdə çox böyük qəhrəmanlıq göstərən Əshab, ələlxüsus Həzrəti Əli, Əbu Dücanə, Zübeyir ibn Əvvam dayanmadan döyüşür, düşmənə üstün gəlib, dala püsgürdürdülər.

Aləmlərin sahibi, Əshabının ürəkdən döyüşdüyünü görür, mübarək dodaqlarından; "Allahım bizə yardımını endir. Heç bir şübhə yoxdur ki, sən onların bizə qalib gəlməsini istəməzsən" duaları eşidilirdi. Sevgili Peyğəmbərimiz Allah Təalaya etdiyi yalvarışları arasında yerdən bir ovuc qum götürdü və "Üzləri qara olsun" buyuraraq müşriklər tərəfə atdı. Sevgili Peyğəmbərimizin bir mö'cüzəsi olaraq düşmən əsgərlərinin hamısının gözlərinə qum doldu. Mələklər də yardıma gəlmişdi. Cənabi Peyğəmbərimiz; "Allah Təalaya and olsun ki, onlar darmadağın oldular" buyurdu. Müşriklər, məğlub olmağa, dala qaçmağa başlamışdılar. Dala qaçdıqca arxalarından

şanlı səhabiləri görür, döyüş meydanına gətirdikləri ailə-uşaqlarını və mallarını qoyaraq sür'ətlə qaçırdılar.

Döyüş meydanında yetmiş ölü, altı min əsir və saysız-hesabsız mal qoymuşdular. Qaçanların bir hissəsi Taif qalasına sığındı. Bir hissəsi də Nəhləyə, Əvtasa getdilər. Komandanları Malik ibn Əvf Taifə sığınanlar arasında idi. Əshabi kiram onları bir müddət tə'qib etdi. Əvtasta təzədən şiddətli döyüşlər oldu. Düşmən yenə də məğlub oldu.[330]

Bu qəzvədə Allah Təalanın izni, Rəsulullahın (səlləllahu əleyhi və səlləm) himməti bərəkəti ilə qələbə yenə də müsəlmanların olmuşdu. Dörd şəhid verilmiş, bəzi səhabilər də yaralanmışdı. Xalid ibn Vəlid Həzrətlərinin də yaralı olduğunu eşidən sevgili Peyğəmbərimiz, onun yanına getmiş, yarasını mübarək əlləriylə ovxalayınca yara elə o dəqiqə sağalmışdı.

*Canım qurban olsun sənin yoluna,*

*Adı gözəl, özü gözəl Məhəmməd,*

*Şəfaət eyləsin kəmtər quluna,*

*Adı gözəl, özü gözəl Məhəmməd.*

*Mö'min olanların çoxdur cəfası,*

*Axirətdə olar zövqü səfası,*

*On səkkiz min aləmin Mustafası,*

*Adı gözəl, özü gözəl Məhəmməd.*

*Yeddi qat göyləri seyran eyləyən,*

*Kürsünün üstündə cövlan eyləyən.*

*Me'racında ümmətini diləyən,*

[330] Vaqidi, *əl-Məğazi*, II, 925; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 408; İbn Kəsir, *əl-Sirə*, III, 640.

*Adı gözəl, özü gözəl Məhəmməd.*

*Yunis neylər iki cahanı sənsiz,*

*Sən haqq Peyğəmbərsən şəksiz, gümansız.*

*Sənə uymayanlar gedər imansız,*

*Adı gözəl, öz gözəl Məhəmməd*

## TAİF SƏFƏRİ

Kainatın hökmdarı (səlləllahu əleyhi və səlləm) Taifə qaçan düşmənə də hücum edərək qət'i qələbə qazanmaq istəyirdi. Məkkəyə yaxın olan bu qala, küfrün axırıncı, ancaq ən möhkəm qalalarından biriydi. Cənabi Peyğəmbərimiz hicrətdən əvvəl Taifə gəlib bir ay onlara nəsihət etmişdi. Ancaq Taiflilər, Aləmlərin sahibinə çox işgəncə və zülm etmişdilər. Hətta, mübarək ayaqlarını al-qana boyamışdılar. Rəsulullah burda Zeyd ibn Harisə Həzrətləriylə həyatının ən çətin və ən əziyyətli günlərini yaşamışdı. Sevgili Peyğəmbərimiz, Xalid ibn Vəlid Həzrətlərini qabaqcadan göndərdi. Şanlı Əshabıyla özləri isə arxadan Taifin qabağına qədər gəldilər. Səqif qəbiləsi möhkəm olan qalalarına qabaqcadan bol miqdarda ərzaq yığmışdılar. Əshabi kiramın gəldiyini görüncə qapıları örtüb müdafiəyə keçdilər. Qalanın yaxınlarına qədər gedən mücahidlərə ox atışlarıyla cavab verirdilər. Döyüş bu şəkildə davam edirdi. Taiflilər heç cür qaladan çıxıb meydanda, üzbəüz döyüşməyə cəsarət edə bilmirdilər.

Əshabi kiramdan bəziləri qalanın içinə mancanaqla daş atılmasını təklif etdilər. Cənabi Peyğəmbərimiz bu təklifi münasib görüb, mancanaqlar düzəltdirdi. Onlarla müşriklərə daş atdıraraq mühasirəyə davam etdilər. Əshabi kiram ürəkdən döyüşür, ən qısa zamanda qalanı fəth etməyə çalışırdılar. Bu müddətdə on dörd səhabi şəhadət mərtəbəsinə qovuşmuşdu. Ancaq qalanın çox möhkəm olması fəth edilməsinə mane olurdu.

Mühasirənin iyirminci günündə, gecə vaxtı Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), yuxusunda, özünə hədiyyə edilən bir qab dolu kərə yağını, bir xoruzun dimdikləyərək yerə tökdüyünü gördü. Bu yuxunu, Taifin bu il fəth edilə bilinməyəcəyinə yozaraq mühasirədən çəkildi.

Mərhəmət dəryası olan sevgili Peyğəmbərimiz bundan səkkiz il qabaq, Ona əziyyət verən Taiflilər üçün; "İcazə verirsənsə bu dağları başlarına uçurdum" deyən mələyə; "Mən aləmlərə rəhmət olaraq göndərildim. Arzu etdiyim bircə şey, Allah Təalanın, bu müşriklərin zülmündən Haqq Təalaya heç bir şərik qoşmayan ibadət edəcək bir nəsil ortaya çıxartmasıdır" buyurmuşdu. İndi də mərhəmət göstərib; "Ya Rəbbi! Səqiflilərə doğru yolu göstər! Onları bizə gətir" deyə dua edirdi.

Həbibi əkrəm Əshabı ilə Taifdən ayrılıb, Huneyndə ələ keçirilən əsirlərlə qənimətlərin toplandığı Ciranəyə gəldi. Altı min əsirdən başqa, iyirmi mindən çox böyük və qırx mindən çox kiçik baş heyvan ilə, saysız-hesabsız zinət əşyası qənimət götürülmüşdü. Onları, haqq sahibi mücahidlər arasında paylaşdırmışdı. O əsnada Həvazin qəbiləsindən bir hey'ətin hüzuruna qəbul edilmək üçün xahiş etdikləri öyrənildi. Sevgili Peyğəmbərimiz onları qəbul etdi. Hey'ət Həvazin qəbiləsinin hamısının müsəlman olduğunu deyincə, Aləmlərin sahibi çox şad olmuşdu. Bundan sonra, öz payına düşən əsirləri dərhal azad etdi. Əshabı kiram da eyni şəkildə sevgili Peyğəmbərimiz kimi etdilər. Rəsulullahın bu mərhəməti sayəsində, bir əsnada altı min əsir azadlığa qovuşmuşdu. Bu xəbər Taifə sığınan Həvazin qəbiləsinin başçısı Malik ibn Əvfə çatdığında, o da gəlib müsəlman olmuşdu. Cənabi Peyğəmbərimiz də ona çoxlu mal-dövlət vermişdi.[331]

Artıq, burda görüləcək bir iş qalmamışdı. Kainatın hökmdarı hər zaman olduğu kimi qalib gələrək Əshabı ilə Məkkəyə qayıtdı. Əttab ibn Əsidi Məkkəyə vali qoydu.[332] Muaz ibn Cəbəl Həzrətlərini də din işlərini öyrətmək üçün tə'yin etdi.[333] Kə'bəyi müəzzəməni təvaf edib, umrə etdikdən sonra şanlı Əshabı ilə təzədən Mədinəyə yola düşdülər...

Bir il sonra, Taiflilər müsəlman olmaq üçün altı nəfərlik bir hey'əti Mədinəyə, sevgili Peyğəmbərimizin hüzuruna göndərdilər. Aləmlərin sahibi bir il qabaq Taifdən qayıdarkən; "Ya Rəbbi Səqiflilərə doğru yolu göstər, onları bizə gətir" deyə dua etmişdi. Budur, indi Səqiflilər müsəlman olmaq üçün gəlmişdilər. Rəsuli əkrəm, onların müsəlman olmalarına çox sevinib, onlara bəzi imtiyazlar verib Taifə göndərdi. Başlarına Osman ibn Əbil-As Həzrətlərini vali tə'yin etdi.[334]

---

331 İbn Hişam, *əs-Sirə*, II, 452; Vaqidi, *əl-Məğazi*, III, 925; İbn Sə'd, *ət-Təbəkat*, I, 312; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 408.

332 İbn Macə, "Ticarat" 20; İbn Hişam, *əs-Sirə*, II, 440; Hakim, *əl-Mustədrək*, III, 687; Beyhəqi, *əs-Sünən*, I, 498; II, 264; Vaqidi, *əl-Məğazi*, I, 890, 960; İbn Sə'd, *ət-Təbəqat*, II, 137; Fakihi, *Əxbaru Məkkə*, V, 144; Əzraqi, *Əxbaru Məkkə*, I, 232.

333 Vaqidi, *əl-Məğazi*, III, 959; İbn Sə'd, *ət-Təbəkat*, II, 137.

334 Əbu Davud, "Salat", 12; İbn Macə, "Məsacid", 3; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 21; İbn Hişam, *əs-Sirə*, II, 541; İbn Sə'd, *ət-Təbəqat*, V, 509.

# TƏBUK SƏFƏRİ

Sərvəri aləm (səlləllahu əleyhi və səlləm) Mədinəyi münəvvərəyə təşrif etdikdən sonra, müxtələf dövlətlərə elçilər göndərib, onları İslama də’vət etdi. Oman, Bəhreyn hökmdarları rəiyyətləriylə birlikdə müsəlmanlığı qəbul etdilər. Ayrıca, bir çox qəbilədən hey’ətlər gələrək, Aləmlərin sahibinə tabe olduqlarını bildirdilər və səadətə qovuşdular.

Artıq İslamiyyət çox sür’ətlə yayılırdı. Ətraf qəbilələrə, dövlətlərə dinin əsaslarını öyrətmək üçün müəllimlər, onları idarə etmək üçün valilər göndərilirdi. Hicrətin doqquzuncu ilində Mədinə müsəlman olan hey’ətlərin hədəfinə çevrildi.

Hicrətin doqquzuncu ilinin Rəcəb ayı idi. Bir gün Rəsulullah Əshabına; “Bu gün saleh bir qardaşınız vəfat etdi. Durun, onun namazını qılaq!” buyurdu. Cənabi Peyğəmbərimiz imam olub, qiyabən meyyit namazını qıldırdı. Sonra buyurdu ki, “Qardaşınız Nəcaşi Əshamə üçün Allahu Təaladan məğfirət istədik”.

Bir müddət sonra Həbəşistandan gələn xəbərdə Nəcaşi Əshamənin vəfat etdiyi öyrənildi. Onun vəfat etdiyi gün, Cənabi Peyğəmbərimizin meyyit namazını qıldırdığı günlə üst-üstə düşürdü.[335]

İslamiyyətin Ərəb yarmadasında sür’ətlə yayıldığı bu doqquzuncu ildə “İslam Dövlətini” qısqanan və böyüməsinə mane olmaq istəyən Bizans imperatoru Herakla xristiyan Ərəblər; “Bu Peyğəmbərlik iddiasıyla zühur edən adam vəfat etdi. Müsəlmanlar indi qıtlıq və yoxsulluq içindədirlər. Əgər onları öz dininə çəkmək istəyirsənsə indi yaxşı fürsətdir” deyə məktub yazdılar. Bu məktubdan sonra Herakl, qırx min nəfərlik bir ordunu, Qubadın komandanlığında müsəlmanlarla döyüşmək üçün göndərdi.

Bu vəziyyətən xəbər tutan Fəxri kainat Rəsulullah, Əshabını toplayaraq döyüşə hazırlanmalarını əmr etdi. O il quraqlıq olduğu üçün səhabilər maddi cəhətdən çox çətinlik çəkirdilər. Təkcə ticarətlə məşğul olanların vəziyyəti bir balaca yaxşıydı. Cənabi Peyğəmbərimiz Əshabına, döyüşdə iştirak edən əsgərlərin hər cəhətdən tə’min edilməsi üçün mali yardım etmələrini də arzu etmişdi. Rəsulullahın (səlləllahu əleyhi və

[335] Buxari, “Cənaiz”, 52; Nəsai, “Cənaiz”, 37; İbn Əbi Şeybə, *əl-Musannəf*, III, 183; Əhməd Şami, *Sübülül-Huda*, III, 92.

səlləm), bu arzusu səhabiləri hərəkətə keçirtdi. Hamı əlində-ovcunda nə vardısa gətirir, malı və canı ilə cihada hazırlanmağa çalışırdı.

Cənabi Peyğəmbərimizin mağarada bir yerdə olan dostu Həzrəti Əbu Bəkir, malının hamısını gətirmişdi. Rəsuli Əkrəm Rəsulullah, "Ailə-uşaqlarına nə qoydun ey Əba Bəkir?" buyurunca, O; "Allah Təala və Rəsulu onlara bəstir" deyə cavab vermişdi. Həzrəti Ömər malının yarısını ianə olaraq gətirmiş, Cənabi Peyğəmbərimiz ona da; "Ailə-uşaqlarına nə qoydun ey Ömər?" deyə soruşunca, "Gətirdiklərim qədər də evdə qoydum" deyə cavab vermişdi. Cənabi Peyğəmbərimiz də; "İkinizin arasındakı fərq dedikləriniz arasındakı fərq kimidir" buyurmuşdu. Bundan sonra Həzrəti Ömər "Anam-atam sənə fəda olsun ey Əba Bəkir! Xeyir yolundakı bütün yarışlarda məni keçirsən. Artıq heç bir şeydə səni keçə bilməyəcəyəmi yaxşı başa düşdüm" deyərək onu təqdir etmişdi.[336]

Əshabi kiram gücü çatdığı qədər yardım etməyə çalışırdı. Ancaq münafiqlər, "Siz gözə girmək üçün verirsiniz" deyə Əshabi kirama istehza edirdi. Cənabi Peyğəmbərimiz; "Hər kim bu gün bir sədəqə versə, sədəqəsi qiyamət günü Allahu Təala nəzdində onun leyhinə şahidlik edəcəkdir" buyurdu. Cənabi Peyğəmbərimizin mübarək sözlərindən sonra mö'minlər daha çox yardım etməyə başladılar. Həzrəti Osman ibn Əffan, ordunun üçdə birini təchiz etdi. Beləcə, müsəlmanlar arasında ən çox yardımı O etdi. Həzrəti Osman ordunun ehtiyac gördüyü ləvazimatları elə tə'min etmişdi ki, su tuluqlarını tə'mir edərkən istifadə edəcəkləri qıyıqları belə qoymağı yaddan çıxartmamışdı. Onun bu yardımına görə Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), "Bu gündən sonra, Osmana günah yazılmaz" buyurdu.[337]

Maddi vəziyyəti çox zəif olan səhabilərdən biri də, cihada yardım savabına qovuşmaq üçün, o gecə səhərə qədər bir xurma bağını suvarmış, qazandığı xurmanı Cənabi Peyğəmbərimizə gətirmiş və "Ya Rəsulallah! Rəbbimin rizasını qazanmaq üçün əlimdən bu gəlirdi, onu da gətirdim. Qəbul edin" demişdi.

Müsəlman kişilər əllərindən gəldiyi qədər yardım etməyə çalışarkən, qadınlar da bu yolda özlərinə düşən vəzifəni haqqıyla görürdülər.

Təbük səfərinə hazırlandıqları zaman, müsəlmanlar çox çətinlik çəkirdilər. Qıtlıq elə şiddətli idi ki, əlində-ovcunda bir şey qalmayan Əshabi kiramdan bir çoxu

---

[336] Vaqidi, *əl-Məğazi*, II, 990; İbn Əsakir, *Tarixu Dəməşq*, II, 34.
[337] Vaqidi, *əl-Məğazi*, II, 990.

Rəsulullahın yanına gəlib; "Ya Rəsulallah! Piyadayıq! Yeməyə də bir şeyimiz qalmadı! Bu qəzvədə sizdən ayrılmayıb cihad savabına qovuşmaq istəyirik" deyirdilər. Sevgili Peyğəmbərimiz, minmək üçün onlara veriləcək bir miniyi qalmadığını üzülərək deyirdi. Salim ibn Umeyr, Abdullah ibn Muğəffəl, Əbu Leyla Mazini, Ulbə ibn Zeyd, Əmr ibn Humam, Hərəmi ibn Abdullah, İrbad ibn Sariyə də sevgili Peyğəmbərimizin hüzuruna gələrək eyni diləyi ifadə etmişdilər. Rəsulullah da çox üzülərək onlara; "Sizi mindirəcək bir minik tapa bilmirəm" buyurunca, onlar Cənabi Peyğəmbərimizdən ayrı qalmaq və cihada qatıla bilməməyin verdiyi üzüntü ilə ağlamağa başladılar. Bundan sonra Allah Təala, bu ayəni göndərdi. Məalən; "Bir də o kəslərə günah yoxdur ki, onları mindirib aparmağın üçün sənin yanına gəldikləri zaman onlara; "Sizi mindirəcək bir heyvan tapa bilmirəm" demişdin. Bu yolda sərf edəcəkləri şeyi tapa bilmədikləri üçün kədərlənərək göz yaşları tökə-tökə qayıtdılar"[338] buyurulurdu. Axırda onları da Həzrəti Abbasla Həzrəti Osman qəzvəyə hazırladılar.

Hazırlıq görülüb qurtarınca Cənabi Peyğəmbərimiz ordunu Səniyyətul-Vədada topladı. Qəzvədə demək olar ki, hamı iştirak edirdi. Rəsuli əkrəm, ordunu toplayıb hərəkətə keçməyə qərar verincə Məhəmməd ibn Məsləməni Mədinədə öz yerinə vəkil qoydu.[339] Səfərə başlayacağı əsnada Cənabi Peyğəmbərimiz; "Özünüzlə birlikdə ehtiyat üçün əlavə bir dənə də ayaqqabı götürün. Ehtiyatda ayaqqabınız olduğu müddəttə çətinlik çəkməzsiniz" buyurdu.

Ordu hərəkət etdiyi zaman, münafiqlərın başçısı Abdullah ibn Ubeyy, müsəlmanları qorxutmaq üçün, ağla gəlməyən şey danışdı. Hətta; "Elə bil ki, mən Onu və Əshabını sanki iki-iki, üç-üç bağlanmış halda görürəm..." deyirdi. Ancaq bu sözlərə, Əshabi kiram heç əhəmiyyət vermir, cihadda iştirak etmək həvəsi get-gedə daha da artırdı. Bunu görən münafiqlər pis vəziyyətə düşürdülər.

Rəsulullah Səniyyətul-Vədadan Təbükə hərəkət edəcəyi vaxt, ordunun ələm və bayraqlarını açdırdı. Ən böyük ələmi Həzrəti Əbu Bəkirə, ən böyük bayrağı da Zübeyir ibn Əvvam Həzrətlərinə verdi. Əvs qəbiləsinin bayrağını Useyd ibn Xudayra, Xəzrəc qəbiləsinin bayrağını Əbu Dücanəyə verdi.[340] Cənabi Peyğəmbərimizin komandanlığındakı Əshabi kiramın sayı, on mini süvari olmaqla, otuz min nəfər idi. Sağ

---

338 ət-Tövbə 9/92.

339 İbn Hişam, *əs-Sirə*, II, 519; Vaqidi, *əl-Məğazi*, I, 8; Beyhəqi, *Dəlailun-Nübüvvə*, V, 294; İbn Kəsir, *əs-Sirə*, IV, 12; Suheyli, *ər-Rövzul-Unf*, IV, 297; Xuzai, *ət-Təxric*, s. 327; Kəttani, *ət-Təratibul-İdariyyə*, I, 485.

340 Vaqidi, *əl-Məğazi*, II, 996; İbn Əsakir, *Tarixu Dəməşq*, II, 36; Əhməd Şami, *Sübülül-Huda*, V, 443.

cinah komandanlığına Hazrəti Təlhə ibn Ubeydullah, sol cinaha da Əbdurrahman ibn Əvf Həzrətləri tə'yin edildi.[341]

Şanlı səhabilər çox isti bir havada və Peyğəmbərlərinin komandanlığında hərəkətə keçdilər. Başlarında Allah Təalanın Həbibi olduqdan sonra, ərzaq və suyun olmaması onları yollarından döndərə bilməz, gedəcəkləri yolun uzaqlığı, düşmən əsgərlərinin çoxluğu da gözlərini qorxuda bilməzdi. Bu halda hər yerə gedə bilərdilər.

Sevgili Peyğəmbərimiz və qəhrəman səhabilər hər düşərgə yerində bir müddət istirahət etdikdən sonra təzədən yollarına davam edirdilər. Səkkizinci düşərgə yerləri, Saleh əleyhissalamın qövmünün həlak edildiyi Hicr idi. Peyğəmbərlərinin əmrini yerinə yetirmədikləri üçün Allah Təala, şiddətli bir səyha, yəni səslə onları həlak etmişdi. Kainatın hökmdarı əshabına; "Bu gecə güclü və əks istiqamətdən bir fırtına əsəcəkdir. Heç kim yanında dostu olmadıqca ayağa qalxmasın. Hamı dəvəsinin dizini bağlasın. Bura əzab enən yerdir. Heç kim bu sudan içməsin və dəstəmaz almasın!" buyurdu. Hamı bu əmrə itaət etdi. Gecə başlayan güclü bir fırtına hər tərəfi darmadağın etməyə başladı. Bu əsnada dəvəsini bağlamağı yaddan çıxardan biri, axtarmaq üçün tək-tənha ayağa qalxdığında fırtına onu götürərək Tayy dağının ətəklərinə atdı. Birisi də dəstəmaz pozmaq üçün getdiyi yerdə Hunaq deyilən xəstəliyə tutuldu. Cənabi Peyğəmbərimizin dua etməsiylə təzədən sağaldı.

O səhər su qablarında heç su qalmamışdı. Susuzluqdan hamı az qala öləcəkdilər. Münafiqlər bu fürsətdən istifadə edib; "Məhəmməd həqiqətən peyğəmbər olsaydı, dua edib yağış yağdırardı" deyə fitnə çıxartmağa başladılar. Vəziyyətin nə yerdə olduğu Aləmlərin sahibinə çatdırıldığında, mübarək əllərini qaldırdı və Allah Təalaya yağış ehsan etməsi üçün yalvardı. İsti və buludsuz bir havada dərhal yağış buludları peyda oldu. Leysan yağmağa başladı. Hamı qablarını dolduraraq dəstəmaz alıb, heyvanları suladı. Yağış kəsilib buludlar yox olunca yağışın ancaq ordunun üstünə yağdığı görülmüşdü. Sevgili Peyğəmbərimiz və səhabilər təkbir gətirdilər. Allah Təalaya həmd etdilər. Münafiqlərə də; "Artıq bir bəhanəniz qalmadı. Allah Təalaya və Rəsuluna iman edin və saleh bir müsəlman olun!" dedilər. Ancaq utanmaz münafiqlər; "Nə olsun ki? Bir bulud keçərkən yağdı və getdi!" deyə cavab verdilər.

Aclıq da son həddə çatmışdı. Elə ki, bir xurmanı iki nəfər bölüşürdülər. Qızmar istiyə, çəkilən aclıq və susuzluğa baxmayaraq, Təbükə yaxınlaşmışdılar. Həbibi əkrəm

[341] Vaqidi, *əl-Məğazi*, II, 1001; İbn Əsakir, *Tarixu Dəməşq*, II, 36.

(səlləllahu əleyhi və salləm); “Sabah inşallah dan yeri ağararkən Təbük bulağına çatacaqsınız. Mən gəlincəyə qədər o suya əl vurmayın” buyurdu. Ertəsi gün ora çatdılar. Bulağın suyu çox az idi. Sevgili Peyğəmbərimiz, o sudan bir qaba doldurub içinə mübarək əlini salıb dua etdi. Sonra suyu bulağa tökdü. Bulaqdakı su o dəqiqə artıb çoxaldı. Otuz min nəfərlik İslam ordusu içdiyi halda heç əksilmədi. Sonradan Fəxri kainatın bir mö’cüzəsi olan bu su ilə hər tərəf sulandı. O bölgə yamyaşıl bir yerə çevrilib bol-bərəkətli oldu.

Rəsuli əkrəm, şanlı Əshabı ilə Təbükə gəldiklərində, Bizanslılarla Amilə, Ləhm və Cüzam kimi xristiyanlaşdırılmış Ərəb qəbilələrindən təşkil edilmiş ordunu görə bilmədilər. Mutədə üç min mücahidə qarşı yüz min nəfərlik Bizans ordusu məğlub olmuşdu. İndi isə, qarşılarında otuz min mücahid vardı və sərkərdələri də Kainatın sahibi idi. Bizanslılar sevgili Peyğəmbərimizin qəhrəman Əshabını toplayıb gəldiyini eşidən kimi, hər biri qaçıb gizlənmişdi.

Rəsulullah, Əshabıyla istişarə edərək Təbükdən o tərəfə getmədi. Bu əsnada o bölgədə yerləşən bəzi qəbilələr və dövlətlər, İslam ordusunun gəldiyini eşitmişdilər. Qorxularından Cənabi Peyğəmbərimizə bir hey’ət göndərib, cizyə vermək üçün aman istədilər. Cənabi Peyğəmbərimiz, mərhəmət göstərib təkliflərini qəbul etdi və hər biriylə ayrı-ayrı razılaşma müqaviləsi imzalayaraq əmniyyətdə olduqları söyləndi.

**Pusqu...**

Sərvəri kainat (əleyhi əfzəlussalavat), iyirmi günə yaxın düşməni nəzarətdə saxladı. Təbükdə Əshabi kiramıyla söhbət edib, könüllərini nur dəryası ilə yudu. Mübarək qəlbindən fışqıran feyz və bərəkətləri onların qəlblərinə axıtdı. Tayı-bərabəri olmayan söhbətlərindən birində belə buyurmuşdu ki; “İnsanların ən yaxşısının və şərəflisinin kim olduğunu sizə deməyimi istəyirsiniz?” Əshabi kiram; “Deyin, ya Rəsulallah!” dedilər. Bundan sonra; “İnsanların xeyirlisi, atının vəya dəvəsinin belində yaxud iki ayağı üstündə axır nəfəsinə qədər Allah Təalanın yolunda çalışan kəsdir. İnsanların pisi də, Allah Təalanın Kitabını oxuyub, ondan heç faydalana bilməyən qudurğan kəsdir” buyurdu.

Şəhidlik haqqında soruşan bir nəfərə də; “Canımı yədi qüdrətində tutan Allah Təalaya and içirəm ki, şəhidlər qiyamət günü qılıncları boyunlarında asılı olaraq gələcəklər. Nurdan minbərlərin üstündə oturacaqlar” buyurdu.[342]

Təbükdən Mədinəyə qayıtmaq üçün hazırlıq görülməyə başladığı vaxt, aclıqdan ayaq üstündə dayana bilməyən səhabilər, vəziyyətlərini Cənabi Peyğəmbərimizə çatdırdılar. Rəsulullah onların artıq qalan yeməklərini bir dəri üstündə yığdırdı. Bunlar kiçik bir qazanı güc-bəla doldurdu. Sərvəri aləm (səlləllahu əleyhi və səlləm), təzədən dəstəmaz alıb iki rük’ət namaz qıldı. Mübarək əllərini açıb yeməklərin bərəkətli olması üçün dua etdi. Sonra Əshabına, qablarını gətirmələrini əmr etdi. Böyük orduda heç bir qab boş qoyulmayacaq şəkildə dolduruldu. Ayrıca, bütün mücahidlər doyuncya qədər yedikləri halda, süfrədəki yeməklərin heç əksilmədiyi görüldü.

Mücahidlər, Təbükdən ayrılıb Mədinənin yolunu tutmuşdular. Bir gecə münafiqlər, qabaqdakı dar keçiddə, sevgili Peyğəmbərimizi pusquya salıb öldürmək üçün öz aralarında razılığa gəldilər və pusquda gözləməyə başladılar. Cənabi Peyğəmbərimizin dəvəsinin yüyənini Əmmar ibn Yasir Həzrətləri çəkir, arxasında da Həzrəti Huzeyfə ibn Yəman gəlirdi. Münafiqlərin razılığa gəlib, suiqəsd tərtib etdiklərini Cəbrail əleyhissalam xəbər verdi. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) ora yaxınlaşınca, bu münafiq dəstəsi üzlərini gizlədərək hücuma keçdilər. Həzrəti Huzeyfə; “Ey Allah Təalanın düşmənləri!” deyərək əlindəki dəyənəklə münafiqlərə və heyvanlarına vurmağa başladı. Bu səs-küydən qorxaraq on iki münafiq dərhal əsgərlərə qarışdılar. Rəsulullah, onların adlarını Həzrəti Huzeyfəyə dedi və başqalarına söyləməməsini tapşırdı.

Hadisəni eşidərək hüzura gələn Useyd ibn Xudayr Həzrətləri, Cənabi Peyğəmbərimizə; “Canım sənə fəda olsun ya Rəsulallah! Onları mənə de ki, başlarını sizə gətirim!” deyərək çox yalvardı. Ancaq Rəsulullah (səlləllahu əleyhi və səlləm) buna icazə vermədi.[343]

---

[342] Vaqidi, *əl-Məğazi*, II, 1018.
[343] Vaqidi, *əl-Məğazi*, II, 1040.

## Məscidi Dirar

Nəhayət sevgili Peyğəmbərimiz və qəhrəman Əshabı Bizanslıların gözünü qorxutmuş və müqavimətlərini qıraraq nurlu Mədinəyə yaxınlaşmışdılar. Kainatın hökmdarı, Mədinəyə çox yaxın olan Ziəvan deyilən yerdə, Əshabına dəşərgə salmalarını əmr etdi. Səhabilər istirahət edərkən bir neçə münafiq, sevgili Peyğəmbərimizin yanına gəlib Məscidi Dirara təşrif etməsini istədi.

Məscidi Dirar, Qubada tikilmişdi. Rəsulullah, Mədinəyə hicrət etdiyi əsnada Qubada tikdirdiyi ilk məscidin qabağında münafiqlər tərəfindən inşa edilmişdi. Sevgili Peyğəmbərimiz, Əshabıyla Təbükə gedərkən, münafiqlər yanına gəlib; "Ya Rəsulallah! yeni bir məscid tikdik, təşrif edib bizə namaz qıldırarsınız?" deyərək də'vət etmiş, ancaq səfərə çıxdığı üçün Aləmlərin sahibi, qismət olsa Təbükdən qayıdandan sonra məscidə baş çəkə biləcəyini buyurmuşdu.

Münafiqlərin məqsədi müsəlman camaatın arasında nifaq toxumu əkmək, onları da öz mənfur əməllərinə alət etmək, fitnə-fəsad törədərək onların arasını vurmaq idi. Hətta, Bizans əsgərlərini Mədinəyə də'vət edib, bu məsciddə gizlətdikləri silahlarla onlara yardım etməyi planlamışdılar. Cənabi Peyğəmbərimizin orda namaz qılması isə Məscidi Dirarın müqəddəs bir yer olduğu fikri meydana gələcəkdi. Beləcə müsəlmanlar orda namaz qılmaq üçün bir-biriləriylə yarışacaq və güya münafiqlərın toruna düşəcəkdilər!

Sərvəri aləm (səlləllahu əleyhi və səlləm), münafiqlərin bu də'vətini qəbul etmiş, getməyə qərar vermişdi. Allah Təala Tövbə surəsinin 107 və 108-ci ayələrini göndərərək onların mənfur məqsədlərini aşkar etdi. Bundan sonra Aləmlərin sahibi, Malik ibn Duhşum ilə Asim ibn Ədiyə; "Bu camaatı zalım olan məscidə girin. Onu yıxın və yandırın" buyurdu. Onlar axşamla xiftən namazı arasında gedib, binaya od vurdular. Sonra da yıxıb dağıtdılar. Münafiqlər buna səsini də çıxarda bilmədi.[344]

Cənabi Peyğəmbərimizin və şanlı əshabının yolda olduğunu eşidən Mədinəlilər, dərhal toplanıb böyük bir həyəcanla qarşılamağa çıxdılar...

---

[344] İbn Hişam, *əs-Sirə*, II, 529; Vaqidi, *əl-Məğazi*, II, 1040; İbn Sə'd, *ət-Təbəqat*, III, 466, 549; Suheyli, *ər-Rövzul-Unf*, IV, 306.

Sevgili Peyğəmbərimiz Təbük səfərindən qayıtdıqdan iki ay sonra, münafiqlərin başçısı Abdullah ibn Ubeyy öldü. Bundan sonra münafiqlərin birliyi pozulub dağılışdılar.[345]

Beləcə, təkcə münafiqlərin deyil, Ərəbistandakı müşriklərin və yəhudilərin də başları əzilmiş, İslama mane olma və əngəlləmə fəaliyyətləri söndürülmüş oldu.

[345] Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 332; İbn Kəsir, *əs-Sirə*, IV, 74.

# VƏDA HƏCCİ

İslamın beş şərtindən biri olan Həcc də, hicrətin doqquzuncu ilində fərz qılındı. Nazil olan ayədə buyurulurdu ki; "Orda (Kə'bədə) açıq-aşkar əlamətlər, İbrahimin məqamı vardır. Kim ora girsə təhlükədən uzaq qalar. Ona bir yol tapa bilənlərin (gücü çatanların) o Beyti həcc (və ziyarət) etməsi, Allah Təalanın insanlar üzərindəki bir haqqıdır, fərz qıldığı şeydir. Hər kim bu fərzi inkar etsə, heç bir şübhə yoxdur ki, Allah Təala bütün aləmlərdən müstəğnidir.[346]

Fəxri Aləm (səlləllahu əleyhi və səlləm), Allah Təalanın bu əmrini Əshabına bildirdi. O il Həzrəti Əbu Bəkiri üç yüz nəfərlik bir qafilənin başında həcc əmiri tə'yin etdi. Bu qafilədə yer alan Əshabi kiram, Həzrəti Əbu Bəkirin əmirliyində Məkkəyə getdi. Bu əsnada "Bəraə surəsinin ilk ayələri nazil oldu. Burda müqavilə bağlamaq haqqındakı bəzi hökmlər bildirildi. Sevgili Peyğəmbərimiz bunu bildirmək üçün Həzrəti Əlini də Məkkəyə göndərdi.[347]

O zaman Ərəblər arasında məşhur olan bir adətə görə, bir müqavilə bağlandığında vəya düzəldilmiş bir müqavilə pozulduğunda, bunu bilavasitə pozan vəya onun tə'yin etdiyi bir qohumu e'lan edərdi. Cənabi Peyğəmbərimiz, bu iş üçün Həzrəti Əlini Həcc qafiləsinin arxasınca Məkkəyə göndərdi. Həzrəti Əli qafiləyə çatıb Həzrəti Əbu Bəkirlə birlikdə Məkkəyə girdilər.[348]

Həzrəti Əbu Bəkir bir xütbə oxudu və həcc ibadətini başa saldı. Əshabi kiram (Allah onlardan razı olsun), öyrədilən əsaslara görə həcc ibadətini yerinə yetirdilər. Həcc ibadəti yerinə yetirilərkən, Hazrəti Əli də Minada "Cəmrəi Əqəbə" deyilən yerdə bir xütbə oxudu. Bu xütbəsində; "Ey insanlar! Məni sizə Rəsulullah göndərdi" deyərək sözə başladı və Bəraə surəsinin ilk ayəsini oxudu. Bundan sonra; "Mən sizə dörd şeyi bildirmək üçün tapşırıq aldım" dedi. Bu dörd mövzu aşağdakılar idi.

1- Mö'minlərdən başqa heç kim Cənnətə girə bilməz.

2- Bu ildən sonra heç bir müşrik, Kə'bəyə yaxınlaşa bilməyəcək.

3- Heç kim Kə'bəni lüt-üryan təvaf edə bilməyəcək. (o zaman müşriklər Kə'bəni lüt-üryan olduqları halda təvaf edərdilər)

---

[346] Ali İmran 3/97.

[347] İbn Quteybə, *əl-Məarif*, s. 72, 283; Kettanî, *et-Terâtîbü'l-İdâriyye*, I, 256.

[348] Buxari, "Məğazi", 68; "Cizyə", 16; İbn Hişam, *əs-Sirə*, IV, 545-546; İbn Sə'd, *ət-Təbəqat*, II, 169; İbn Səllam, *əl-Əmval*, s. 161-162; İbn Quteybə, *əl-Məarif*, s. 72, 283; Kilai, *əl-İktifa*, II, 409; Kettanî, *et-Terâtîbü'l-İdâriyye*, I, 256.

4- Hər kimin Rəsulullahla razılaşması varsa, müddəti bitincəyə qədər keçərli olacaq. Bunun xaricindəki şəxslərə dörd ay möhlət verilmişdir. Bundan sonra heç bir müşriklə razılaşma və himayə yoxdur.

O gündən sonra heç bir müşrik Kə'bəyə gəlmədi və heç kim lüt-üryan olaraq Kə'bəni təvaf etmədi. Bu mövzular bildirildikdən sonra, müşriklərdən çoxu müsəlmanlığı qəbul etdi. Həcc ibadəti yerinə yetirildikdən sonra, Həzrəti Əbu Bəkir və Həzrəti Əli özləriylə gələn Əshabi kiramla birlikdə Mədinəyə qayıtdılar.

Hicrətin onuncu ilində İslamiyyət bütün Ərəb yarmadasına yayıldı. Ərəbistanın hər tərəfindən insanlar Mədinəyə gəlir, müsəlman olmaqla şərəflənmək, əbədi səadətə qovuşmaq üçün bir-biriləriylə yarışırdılar. Artıq Ərəbistanda müsəlmanların qabağında dura biləcək heç bir güc qalmamış, İslamiyyət hər tərəfə hakim olmuşdu. Təkcə bəzi yəhudi və xristiyan qəbilələri hələ müsəlman olmamışdı.

Sevgili Peyğəmbərimiz hicrətin onuncu ilində, Xalid ibn Vəlidi dörd yüz mücahidlə Yəmən tərəflərdə yerləşən Haris ibn Kə'b oğullarını İslama də'vət etmək üçün göndərdi. Xalid ibn Vəlid Həzrətləri Rəsulullahın verdiyi əmrə görə bu qəbiləni üç gün üst-üstə İslama də'vət etdi. Onlar da də'vəti qəbul edərək müsəlman oldular. Yenə bu ildə Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), Nəcranlı xristiyanlarla sülh müqaviləsi bağladı. Bunlardan bəziləri daha sonra özləri müsəlmanlığı qəbul etdi. Eyni ildə Həzrəti Əli də, Əshabi kiramdan üç yüz nəfərlə birlikdə, Yəməndə yerləşən Mudlic qəbiləsini İslama də'vət etmək üçün göndərildi. Əvvəlcə qəbul etməsələr də, daha sonra müsəlman oldular. Cənabi Peyğəmbərimiz, bu il, İslamın yayıldığı bütün yerlərə valilər və zəkat mə'murları (amil, sai) göndərdi.[349]

Hicrətin onuncu ilində Cənabi Peyğəmbərimiz, həcc üçün hazırlanıb Mədinədəki müsəlmanlara da həcc üçün hazırlanmalarını əmr etdi. Mədinə xaricində qalanlara da xəbər göndərdi. Bundan sonra minlərlə müsəlman Mədinədə toplaşdı. Hazırlıqlar görülüb qurtarınca, sevgili Peyğəmbərimiz Zilqə'də ayının 25-ci günü qırx min nəfərlik bir qafilə ilə zöhr namazından sonra Mədinədən yola düşdü. Sərvəri kainat; "Ey Allahım! Bunu mənim üçün, içində riya, lovğalıq və şöhrət olmayan məbrur və məqbul bir həcc et" deyərək dua etdi. Ehrama bürünüb, Cəbrayıl əleyhissalamın xəbər vərməsiylə yüksək səslə, təlbiyə gətirməyə başladı. Buna Əshabi kiram da qoşulunca, yer-göy təlbiyə sədaları ilə lərzəyə gəlməyə başladı. "Ləbbeyk! Allahummə ləbbeyk!

[349] Vaqidi, *əl-Məğazi*, II, 974; İbn Sə'd, *ət-Təbəqat*, II, 160; İbn Əsakir, *Tarixu Dəməşq*, XVIII, 23.

Ləbbeyk! La şərikə ləkə ləbbeyk! İnnəl həmdə vənni'mətə ləkə vəl mülkə la şərikə lək!" Sevgili Peyğəmbərimiz, qurban kəsmək üçün 100 qurbanlıq dəvə götürdü. 10 gün çəkən səfərdən sonra, Zilhiccənin 4-cü günü Məkkəyə çatdılar. Yəməndən və digər yerlərdən həcc zityarətini yerinə yetirmək üçün gələnlərin də qoşulmasıyla, müsəlmanların sayı 124 mini keçdi. Sevgili Peyğəmbərimiz, Zilhiccə ayının 8-ci günü Minaya, 9-cu günü (Ərəfə) günü Ərafata getdi. Ərafat vadisinin ortasında günortadan sonra, Qusva adındakı dəvəsinin belində, Vəda Xütbəsini oxuyub Əshabi kiramla vədalaşdı.[350]

[350] Buxarı, "Həcc", 95; İbn Sə'd, *ət-Təbəqat*, II, 173; İbn Kəsir, *əl-Sirə*, IV, 617.

# VƏDA XÜTBƏSİ

...Ey insanlar! Sözümə yaxşı-yaxşı qulaq asın! Bilmirəm, bəlkə bu ildən sonra sizinlə burda əbədi olaraq bir daha görüşə bilməyəcəyəm.

Ey insanlar! Bu günləriniz necə müqəddəs bir gündürsə, bu aylarınız necə müqəddəs bir aydırsa, bu şəhəriniz (Məkkə) necə mübarək bir şəhərdirsə, canlarınız, mallarınız, namuslarınız da elə müqəddəsdir. Hər cür təhlükədən qorunmuşdur.

Ey Əshabım! Sabah Rəbbinizə qovuşacaqsınız və bu günkü hər hal və hərəkətinizdən heç bir şübhə yoxdur ki, məs'uliyyət daşıyacaqsınız. Nə badə məndən sonra əvvəlki səhv yollara qayıdıb bir-birinizin boynunu vurmayın! Bu vəsiyyətimi burda olanlar olmayanlara çatdırsın! Ola bilər ki, çatdırılan kəs, burda olub eşidəndən daha yaxşı başa düşərək əməl etsin.

Ey Əshabım! Hər kimə bir əmanət verilmişsə onu sahibinə qaytarsın! Faizin hər növü haramdır, ayaqlarımın altındadır. Lakin, borcunuzun miqdarını verməyiniz lazımdır. Nə zülm edin, nə də zülmə düçar olun. Allah Təalanın əmriylə, faizlə məşğul olmaq bundan sonra qadağandır. Cahiliyyətdən qalma bu mənfur adətin hər növü ayaqlarımın altındadır. İlk ləğv etdiyim faiz də Əbdülmüttəlibin oğlu (əmim) Abbasın faizidir.

Ey Əshabım! Cahiliyət dövründə baş verən qan davaları da tamamilə ləğv edilmişdir. Ləğv etdiyim ilk qan davası Əbdülmüttəlibin nəvəsi (əmi oğlum) Rəbiənin qan davasıdır.

Ey insanlar! döyüşmək üçün haram ayların yerlərini dəyişdirmək, heç bir şübhə yoxdur ki, küfürdə ifrata getməkdir. Bu, kafirlərin səhv yola düşürdüldükləri bir şeydir. Bir il halal olaraq qəbul etdikləri (bir ayı), o biri il haram olaraq e'lan edərlər. Cənabi Haqqın halal və haram etdiklərinin sayına uyğun gətirmək üçün bunu belə edərlər. Onlar, Allah Təalanın haram qıldığını halal, halal qıldığını da haram edərlər.

Heç şüphə yoxdur ki, zaman, Allah Təalanın yaratdığı gündəki vəziyyət və qaydasına dönmüşdür.

Ey insanlar! Bu gün şeytan, sizin bu torpaqlarınızda bir daha öz hakimiyyətini qurmaq gücünü əbədiyyən itirmişdir. Ancaq siz, bu ləğv etdiyim şeylər xaricində, gözünüzə kiçik görsənən işlərdə onu təqlid etsəniz bu onun xoşuna gedəcəkdir. Dininizi qorumaq üçün bunlardan da çəkinin!

Ey insanlar! Qadınların haqlarına riayət etməyinizi və bu barədə Allahu Təaladan qorxmağınızı tövsiyə edirəm. Siz, qadınları, Allah Təalanın əmanəti olaraq aldınız, onların namus və iffətlərini Allah Təala adına söz verərək halal etdiniz. Sizin qadınlar üzərində haqqınız, onların da sizin üzərinizdə haqları vardır. Sizin qadınlar üzərindəki haqqınız, onların, ailəvi sirlərini sizin xoşlanmadığınız heç kimə danışmamalarıdır. Əgər gəlməyindən razı olmadığınız hər hansı birinin evinizə girməsinə imkan yaratsalar, onlara yüngülvari dərs verə bilərsiniz. Qadınların da sizin üzərinizdəki haqları, halal yolla ruzi və pal-paltarlarını tə'min etmənizdir.

Ey mö'minlər! Sizə bir əmanət qoyuram ki, ondan bərk yapışdığınız müddətdə, yolunuzu heç azmazsınız. O əmanət, Allah Təalanın kitabı Qur'ani Kərimdir. (Başqa rəvayətlərdə; "Sünnətim" və "Əhli beytim" deyə bildirilmişdir).

Ey Mö'minlər! Sözümə yaxşı qulaq asın və yaxşı yadda saxlayın! Müsəlman, müsəlmanın qardaşıdır və beləcə bütün müsəlmanlar qardaşdır. Din qardaşınəza aid olan hər hansı bir haqqı yemək, başqasına halal deyildir. Könül xoşluğuyla versə o zaman halaldır.

Ey Əshabım! Nəfsinizə (özünüzə) zülm etməyin. Özünüzün də öz üzərinizdə haqqı vardır.

Ey insanlar! Allah Təala hər haqq sahibinə haqqını (Qur'ani Kərimdə) vermişdir. Varisə, vəsiyyətə ehtiyac yoxdur. Uşaq kimin yatağında doğulmuşsa, onundur. Zina edən haram iş görmüşdür. Atasından başqasına aid soy iddia edən soysuz, yaxud sahibindən başqasına nəsəb iddia etməyə təşəbbüs edən nankor, Allah Təalanın qəzabına, mələklərin və bütün müsəlmanların lə'nətinə gəlsin! Cənabi Haqq, belə insanların nə tövbələrini, nə də ədalət ilə şəhadətlərini qəbul edər.

Ey insanlar! Rəbbiniz birdir. Atanız da birdir. Hamınız Adəmin övladlarısınız. Adəm isə torpaqdan yaradılmışdır. Allah nəzdində ən qiymətliniz, taqvası çox olanınızdır. Ərəbin Ərəb olmayana bir üstünlüyü yoxdur. Üstünlük ancaq təqva cəhətiylədir.

Ey insanlar! Sabah məni sizdən soruşacaqlar, o zaman nə deyəcəksiniz?!

"Əshabi kiram; "Allah Təalanın dininə də'vət etdin. Vəzifəni yerinə yetirdin. Bizə vəsiyyət və nəsihət etdin, deyə şəhadət edərik" dedilər.

Bundan sonra Rəsuli əkrəm (səlləllahu əleyhi və sədləm), mübarək şəhadət barmağını qaldıraraq camaatı göstərib; “Şahid ol ya Rəbb! Şahid ol ya Rəbb! Şahid ol ya Rəbb!” buyurdu.

Sevgili Peyğəmbərimiz, Vəda Xütbəsini oxuduğu gün, Maidə surəsinin; “Bu gün dininizi sizin üçün mükəmməl etdim. Üzərinizə olan ne’mətimi tamamladım və sizə din olaraq İslamiyyəti verməklə razı oldum...” məalındakı 3-cü ayəsi nazil oldu. Cənabi Peyğəmbərimiz, bu ayəni, Əshabi kirama oxuyunca Həzrəti Əbu Bəkir ağlamağa başladı. Əshabi kiram ondan ağlamasının səbəbini soruşunca; “Bu ayə, Rəsulullahın vəfatının yaxınlaşdığını göstərir. Onun üçün ağlayıram” buyurdu.[351]

Rəsulullah Məkkədə 10 gün qalıb, Vəda Həccini yerinə yetirdi və Vəda təvafını edərək Mədinəyə qayıtdı. Vəda həccindən sonra, Əshabi kiram gəldikləri yerlərə gedib, Rəsulullahın bildirdiyi və əmr etdiyi şeyləri yaymağa başladılar.

Hicrətin onuncu ilində baş verən bir hadisə də, peyğəmbərlik iddiasında olan yalançıların zühur etməsidir. Bunlardan birisi Yəməndə ortaya çıxan Əsvədi Ansidir. Sevgili Peyğəmbərimizin əmrindən sonra Əsvədi Ansi Yəməndəki müsəlmanlar tərəfindən öz evində öldürüldü… (Digəri Museyləmətul-Kəzzabdır. Cənabi Peyğəmbərimizin vəfatından sonra Həzrəti Əbu Bəkir, Museyləmənin üzərinə Xalid ibn Vəlid komandanlığında bir ordu göndərdi. Museyləmə, Vəhşi “Allah ondan razı olsun” tərəfindən öldürüldü).[352]

*Qinayı sevməyib fəqri sevərdi fəxr edərdi həm,*

*Qılıb misginləri öüznə ixvan ol kərəmkanı.*

*Yamaqlar tikib əsvabına nalin geyinib dahi,*

*Gəlib hər xəstəyə eylərdi dərman ol kərəmkanı.*

*Həm əhli beytinin xidmətlərin bilavasitə edərdi xoş,*

*Qamu müşkülləri eylərdi asan ol kərəmkanı.*

*Əgər xubzi şəirü mərcimək şorbası əkliyçün,*

[351] İbn Hişam, *əs-Sirə*, II, 603; Suheyli, *ər-Rövzul-Unf*, IV, 383.
[352] Vaqidi, *əl-Məğazi*, II, 863; Təbərani, *əl-Mu'cəmu'l-Kəbir*, XXII, 36; Safədi, *əl-Vafi*, V, 392; İbn Əsakir, *Tarixu Dəməşq*, LXII, 404.

*Olunsa dəvət olardı o mehman ol kərəmkanı.*

*Minərdi gah dəvə gah at və gah qatır gahi mərkəb,*

*Yalın ayaq yeriyərdi gah o hökmdar ol kərəmkanı.*

# VƏFATI

Hicrətin on birinci ili idi. Cəbrayıl əleyhissalam, bu il gəldiyində sevgili Peyğəmbərimizə Qur'ani Kərimi iki dəfə əvvəldən axıra kimi oxudu. Halbuki, daha əvvəlki illərdə Qur'ani Kərimi bir dəfə oxumuşdu. Sərvəri aləm (səlləllahu əleyhi və səlləm), Cəbrayıl əleyhissalamın ən axırıncı dəfə də'vət etdiyi "Allah Təalanın yardımı və qələbə günü gəlib, insanların Allah Təalanın dininə (İslamiyyətə) dəstə-dəstə girdiklərini görüncə, Rəbbini həmd ilə təsbih et! Ondan məğfirət dilə! Çünki, O, tövbələri daima qəbul edər" məalındakı Nəsr surəsini dinlədikdən sonra; "Ey Cəbrayıl! Mənə elə gəlir ki, ölmək vaxtım gəlib çatıb" buyurdu. Bundan sonra Cəbrayıl əleyhissalam bu ayətləri oxudu; "Axirət, sənin üçün dünyadan daha xeyirlidir. Rəbbin sənə razı oldum deyincəyə qədər hər istədiyini verəcək".[353]

Sevgili Peyğəmbərimiz, o gün Mədinədə olan bütün Əshabi kiramının, zöhr namazında məsciddə toplanmaları üçün xəbər göndərdi. Sərvəri aləm Rəsulullah, namazı qıldırdıqdan sonra, bir xütbə oxudu. Bu elə bir xütbə idi ki, qulaq asan bütün ürəklər riqqətə gəlmiş, gözlərdən sel kimi yaş axmışdı. Daha sonra; "Ey insanlar! Sizin Peyğəmbəriniz olaraq mənim haqqımda nə fikirləşirsiniz?" buyurunca, Əshabi kiram; "Ya Rəsulallah! Allah Təala, sənə bizim tərəfimizdən çox xeyir ehsan etsin. Sən, bizim üçün çox şəfqətli bir ata, həmişə bizə nəsihət verən şəfqətli bir qardaş kimi idin. Allah Təalanın sənə bəxş etdiyi peyğəmbərlik vəzifəsini yerinə yetirdin. Vəhy olunan ayələri bizə təbliğ etdin. Rəbbinin yoluna, yəni İslama hikmətlə, gözəl nəsihətlə də'vət etdin, çağırdın. Allah Təala sənə ən gözəl və ən yüksək mükafatını versin" dedilər.

Cənabi Peyğəmbərimiz; "Ey mö'minlər! Allah sevirsinizsə, deyin görək kimin məndə haqqı var? Kimin məndə haqqı varsa durub gəlsin, qiyamətdən qabaq elə burdaca alsın" buyurdu. Ancaq, haqqını almaq üçün durub gələn olmadı. Rəsulullah, ikinci və üçüncü dəfə də Allah Təalanın adını çəkərək; "Haqqı olan varsa gəlib alsın" buyurdu. Bundan sonra Əshabi kiramdan olan Həzrəti Ukaşə adında yaşlı birisi yerindən qalxdı. Rəsulullahın hüzuruna gəldi. Sonra; "Anam-atam sənə fəda olsun ya Rəsulallah! Təbük qəzvəsinda səninlə birlikdə idim. Təbükdən qayıtdğımız əsnada mənim dəvəmlə, sizin dəvəniz yan-yana gəlmişdilər. Mən dəvəmdən düşüb sənə

[353] əd-Duha 93/4-5.

yaxınlaşdım. Məqsədim sənin mübarək bədənini öpmək idi, o zaman qamçı ilə kürəyimə vurmuşdun. Nə üçün vurduğunu başa düşmədim" dedi.

Cənabi Peyğəmbərimiz; "Ey Ukaşə! Allah Təala səni, Rəsulunun bilə-bilə vurmasından qorusun. Ey Bilal! Qızım Fatimənin evinə get. O qamçını mənə gətir" deyə əmr etdi. Həzrəti Bilal, məsciddən çıxdı. Fikrə getmiş; "Rəsulullah özündən qisas aldıracaq!" deyə heyrətə düşüb qalmışdı. Evə çatınca qapını döyüb; "Ey Rəsulullahın Kəriməsi! Mənə Rəsulullahın qamçısını ver!" deyincə Həzrəti Fatimə anamız; "Ey Bilal! İndi nə həcc, nə də cihad zamanıdır! Atam qamçını nə edəcək görəsən?" deyə soruşdu. Həzrəti Bilal; "Ey Fatimə! Xəbərin yoxdur bəyəm? Rəsulullaha o qamçıyla qisas olunacaq!" dedi.

Fatimə anamız; "Ey Bilal! Rəsulullahdan qisas yoluyla haqqını almağa kimin ürəyi razı olar? Madam ki, istədi verərəm. Ancaq, Həsən və Hüseynə de ki, haqqını kim alacaqsa, qisası onlardan alsın. Nə badə Rəsulullahdan qisas aldırmasınlar" deyə Həzrəti Bilala möhkəm tapşırdı. Həzrəti Bilal məscidə gəldi və qamçını Rəsulullaha, O da Həzrəti Ukaşəyə verdi.

Əbu Bəkir və Ömər bu vəziyyəti görüncə; "Ey Ukaşə! Bax biz yanındayıq, haqqını bizdən al. Nə olar, Rəsulullahdan alma!" deyə yalvardılar. Bundan sonra Cənabi Peyğəmbərimiz Həzrəti Əbu Bəkirə; "Ey Əbu Bəkir! Sən aramıza girmə. Ey Ömər! Sən də qırağa dur. Allah Təala, sizin yüksək dərəcənizi bilir" buyurdu. Sonra Həzrəti Əli ayağa durdu; "Ey Ukaşə! Rəsulullaha vurmana ürəyim dözməz, budur kürəyimi və qarnımı açmışam. Gəl haqqını məndən al, istəyirsən yüz dəfə vur. Ancaq Rəsulullaha toxunma!" deyincə, Cənabi Peyğəmbərimiz; "Ey Əli! Sən də otur. Allah Təala, sənin də yüksək mərtəbəni, yerini bilir" buyurdu. Bu dəfə Həzrəti Həsən ilə Hüseyin ayağa qalxdılar; "Ey Ukaşə! Sən də bilisən ki, biz Rəsulullahın nəvələriyik. Onun üçün bizdən qisas almaq, Rəsulullahdan qisas almaq deməkdir. Haqqını bizdən al, nə olar Rəsulullaha vurma!" deyincə, Cənabi Peyğəmbərimiz, onlara; "Siz də oturun, ey iki gözümün nurları" buyurdu. Sonra; "Ey Ukaşə! Gəl vur!" buyurdu.

Ukaşə; "Ya Rəsulallah! Sən mənə vurduğun zaman mənim kürəyim açıq idi" deyincə, sevgili Peyğəmbərimiz mübarək kürəyini açdı. Bu əsnada Əshabi kiramdan hünkürtü çıxmağa başladı; "Ey Ukaşə! Rəsulullahın mübarək kürəyinə vuracaqsan məgər?" dedilər. Hamı kədərlə gözləyirdi. Həzrəti Ukaşə, Rəsulullahın mübarək kürəyindəki peyğəmbərlik möhürünü görüncə, birdən-birə; "Anam-atam sənə fəda olsun

ya Rəsulallah! Haqqını almaq üçün, sənin o mübarək kürəyinə vurmağa, səndən qisas almağa kimin gücü çatar, buna kim cəsarət edə bilər?” deyərək, Kainatın hökmdarının mübarək nübüvvət möhürünü öpdü. Bundan sonra Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) ona; “Xeyir, ya vuracaqsan, yaxud da bağışlayacaqsan” buyurunca, Ukaşə Həzrətləri; “Canım sənə fəda olsun ya Rəsulallah! Bağışladım. Görəsən Allah Təala da məni qiyamət günündə bağışlayar?” dedi.

Cənabi Peyğəmbərimiz; “Kim, mənim Cənnətdəki dostumu görmək istəyirsə, bu yaşlı adama baxsın” buyurdu. Rəsulullahın bu mübarək sözünü eşidən Əshabi kiram, onun gözlərinin arasından öpməyə başladı. Hamı; “Necə də xoşbəxtsən, necə də xoşbəxtsən! Ey Ukaşə! Rəsulullah ilə birlikdə olmağının hörmətinə, Cənnətdə yüksək dərəcələrə qovuşdun” deyirdilər.[354]

Səfər ayının axırıncı günləriydi. Aləmlərin sahibi (səlləllahu əleyhi və səlləm), şimaldakı Bizans imperatorluğunun müsəlmanlar üçün böyük bir təhlükə halına gəlməmişdən qabaq, onları təzədən İslama də’vət etmək, qəbul etməsələr döyüşmək və İslam dövlətinin tə’siri altına salmaq istəyirdi. Bu səbəblə Bizanslılarla döyüşmək üçün qəhrəman Əshabının hazırlanmasını əmr etdi. Əshabi kiram hazırlıq görmək üçün dağılışdı. Rəsuli əkrəm, Həzrəti Üsamə ibn Zeydi çağırdı; “Ey Üsamə! Şama, Bəlqa sərhəddinə, Fələstindəki Daruma, Ətanın şəhid edildiyi yerə qədər, Allah Təalanın adı və bərəkətiylə get. Onları atlarının nallarıyla tapdala. Səni, bu orduya sərkərdə tə’yin etdim. Ubnalıların üstünə qəfildən hücum edib onları darmadağın et. Gedəcəyin yerə xəbər çatmamışdan qabaq sən çat. Özünlə bələdçilər götürüb, casus və kəşfiyyatçıları qabaqcadan göndər. Allah Təala qələbə ehsan etsə, onların arasında bir az qal” buyurdu. Curfdə düşərgə salmalarını əmr edib, mübarək əlləriylə bayrağı Üsaməyə verdi.[355]

Məsciddə minbərə çıxaraq; “Ey Əshabım! Üsamənin atası Zeyd, komandanlığa necə layiq idi isə və mənim nəzdimdə necə ən sevgili idi isə, özündən sonra oğlu Üsamə də komandanlığa elə layiqdir. Üsamə, mənim nəzdimdə insanların ən sevgili olanlarından biridir” buyurdu.

Həzrəti Üsamənin komandanlığı altında, döyüşə gedəcək müsəlmanlar arasında Həzrəti Əbu Bəkir, Həzrəti Ömər, Həzrəti Əbu Ubeydə ibn Cərrah, Həzrəti Sə’d ibn Əbi Vəqqas kimi Əshabın başda gələnləri də vardı.

---

[354] Təbərani, *əl-Mu’cəmu’l-Kəbir*, III, 58; Suheyli, *ər-Rövzul-Unf*, VIII, 318.
[355] Vaqidi, *əl-Məğazi*, III, 1117; İbn Əsakir, *Tarixu Dəməşq*, II, 46; Suheyli, *ər-Rövzul-Unf*, IV, 384.

Ancaq ertəsi gün, Kainatın hökmdarı anidən xəstələndiyi üçün, ordunun getməsi Cənabi Peyğəmbərimizin axirətə köçməsindən sonraya qalmışdı. Sevgili Peyğəmbərimiz, ağır şəkildə qızdırmaya tutulmuşdu. Getdikcə qızdırması qalxır, xəstəlik daha da ağırlaşırdı. Ağrılarının azaldığı bir gecə yarısı, yatağından qalxdı. Geyinərək getməyə hazırlandı. Bunu görən Həzrəti Aişə anamız; "Anam-atam, canım sənə fəda olsun ya Rəsulallah! Hara gedirsiniz ki?" deyə soruşdu. Sərvəri aləm (səlləllahu əleyhi və səlləm); "Bəqi qəbristanlığında basdırılmış kəslər üçün istiğfar etmək üçün əmr aldım. Oraya gedirəm" buyurdu. Özü ilə Əbu Muveyhib ilə Əbu Rafini də götürərək getdi. Qəbristanlıqda uzun-uzadıya dua edib, onların bağışlanması və məgfirəti üçün Allah Təalaya yalvardı. Cənabi Peyğəmbərimizin bu qədər çox yalvarması qarşısında, yanında olan səhabilər; "Biz də, kaş ki, burda dəfn edilsəydik, Rəsulullahın bu duasıyla şərəflənsəydik!" dedilər. Sevgili Peyğəmbərimiz, Əbu Muveyhibə üzünü tutaraq; "Ey Əbu Muveyhib! Dünya xəzinələri ilə axirət ne'mətlərini seçmək mövzusunda mənə ixtiyar verildi. İstəyirsənsə dünyada qal, sonra Cənnətə get, istəyirsənsə də Liqaullah (Allah Təalaya qovuşmaq) hasil olub Cənnətə gir, dedilər. Mən, Liqaullahı və sonra Cənnəti seçdim" buyurdu.

Bir gün də, Ühüddə şəhid olanlar üçün məğfirət diləmək niyyətiylə yola çıxdı. Onlar üçün, Allah Təalaya uzun-uzadıya yalvararaq dua etdi. Sonra məscidə gəlib Əshabi kirama; "Mən, sizin ən birinci Kövsər hovuzuna qovuşanınız, qarşılayanınız olacağam. Sizinlə görüş yerimiz oradır... Mən, sizin üçün, məndən sonra müşrikliyə qayıtmağınızdan qorxmaram. Ancaq dünyaya meyl edər, dünya malından ötrü bir-birinizə həsəd aparar, bir-birinizi öldürərsiniz. Nəticədə sizdən əvvəlkilərin məhv olub getdikləri kimi, sizin də məhv olub getməyinizdən qorxuram..." buyurdu. Sonra səadətxanələrinə təşrif etdi.

Xəstəliyi daha da ağırlaşmışdı. Mübarək xanımları sevgili Peyğəmbərimizin, Həzrəti Aişə anamızın evində qalmasına razı olub, öz haqlarını ona verdiklərini dedilər. Mütəhhər xanımlarının bu canıyananlıqlarından razı qalıb, hamısına dua etdi və ondan sonrakı günlərini Həzrəti Aişə anamızın evində keçirtməyə başladı.

Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm), qızdırması çox qalxmışdı. Qızdırmanın tə'sirindən yatağında o tərəf, bu tərəfə çevrilmək məcburiyyətində qalırdı. O vəziyyətdə ikən, Əshabi kiram Onu ziyarət edir, Rəsulullahın çəkdiyi çətinliyə çox üzülürdülər. Əbu Səidi Xudri belə nəql etmişdir ki; "Rəsulullahın mübarək hüzuruna

getmişdim. Üstündə  məxmər bir yorğan vardı. Qızdırmanın istiliyi yorğandan çölə vurur, hərarətdən əlimizi yorğana vura bilmirdik. Heyrətimizi və üzüntümüzü görən Rəsulullah; "Ən şiddətli bəla, peyğəmbərlərin başına gələr. Buna baxmayaraq peyğəmbərin bəlalara sevinməsi, sizin verilən ehsanlara sevinmənizdən daha çoxdur" buyurdu.

Ümmü Bişr ibn Bəra belə nəql etmişdir ki; "Rəsulullahı ziyarət etmək üçün yanına getmişdim. Mübarək bədəni od kimi yanırdı. "Canım sənə fəda olsun ya Rəsulallah! Mən, heç bir zaman belə ağır bir xəstəlik görmədim!" dedim. Buyurdu ki; "Ey Ümmü Bişr! Qızdırmanın ağır olması, savabımın çox olması üçündir.

Bu xəstəlik, Xeybərdə daddığım zəhərli ətin tə'sirindəndir. O ətin verdiyi ağrını həmişə hiss edərdim. O gün yediyim zəhər, indi əbhərimi, yəni şah damarımı qopartmaqdadır" buyurdu.[356]

Sevgili Peyğəmbərimiz, Abdullah ibn Məs'ud Həzrətlərinə də buyurdu ki; "Xəstəliyə tutulan heç bir müsəlman yoxdur ki, Allah Təala, onun xəta və günahlarını ağacın yarpaqları töküldüyü kimi tökməsin!".[357]

Xəstəlik gündən-günə daha da ağırlaşırdı. Əshabi kiram bu vəziyyətə çox üzülür, evlərində rahat dura bilmirdilər. Məscidə toplaşdılar. Cənabi Peyğəmbərimizin vəziyyətindən xəbər tutmaq üçün Həzrəti Əlini göndərdilər. Aləmlərin sahibi, işarəylə; "Əshabım nə deyir?" deyə soruşdu. O da; "Rəsulullah aramızdan getsə halımız necə olacaq! deyib çox üzülürlər" dedi. Əshabına qarşı daha çox mərhəmət göstərən sevgili Peyğəmbərimiz, xəstələliyinin ağrısına dözərək ayağa qalxdı. Həzrəti Əli və Həzrəti Fəzl ibn Abasın qoluna girərək məscidə gəldi. Minbərə çıxaraq Allah Təalaya həmd və səna etdikdən sonra, Əshabi kirama; "Ey Əshabım! Mənim ölümümü düşünüb narahat olursunuz deyəsən. Heç bir peyğəmbər ümməti ilə birlikdə əbədi qalmadı. Mən də sizinlə birlikdə əbədi qalmayacağam. Bilin ki, mən Rəbbimə qovuşacağam. Sizə nəsihətim budur ki, muhacirlərin böyüklərinə hörmət edin! Ey muhacirlər! Sizə də vəsiyyətim budur ki, Ənsara yaxşılıq edin! Onlar sizə yaxşılıq etdi. Evlərində qonaq saxladı. Dolanışıqları o qədər də yaxşı olmadığı halda, sizi özlərindən üstün saydılar. Mallarına sizi şərik etdilər. Hər kim Ənsara başçılıq edərsə, onlara xoş rəftar etsin, səhvə yol verənlərini bağışlasın" buyurdu. Sonra çox gözəl tə'sirli nəsihətlər edib;

---

[356] İbn Hişam, *əs-Sirə*, II, 337; Vaqidi, *əl-Məğazi*, II, 678; Təbəri, *Tarix*, II, 303; İbn Kəsir, *əs-Sirə*, III, 399.
[357] İbn Hibban, *əs-Səhih*, VII, 189; Bezzar, *əl-Müsnəd*, II, 460; Suyuti, *Camiul-Əhadis*, XIX, 336.

“Allah Təala, bir quluna dünyada qalmaqla Rəbbinə qovuşmaq arasında iki şeyi seçməkdə ixtiyar verdi. O qul, Rəbbinə qovuşmaq istədi” buyurdu. Həzrəti Əbu Bəkir, Rəsulullahın sözləriylə vəfatına işarə etdiyini başa düşüb; “Canımız sənə fəda olsun ya Rəsulallah!” deyərək ağlamağa başladı. Mərhəmət dəryası, sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm); “Ağlama ey Əba Bəkir!” buyuraraq ona səbr etmək və dözmək lazım gəldiyini əmr etdi. Mübarək gözlərindən yaş axırdı. “Ey Əshabım! İslam dini uğrunda doğruluq və ixlasla öz malını fəda edən Əbu Bəkirdən çox razıyım. Axirət yolunda dostla birlikdə getmək mümkün olsaydı, Onu seçərdim” buyurdu və; “Məscidə açılan qapılardan Əbu Bəkirin qapısından başqa bütün qapıları örtün” deyə əmr etdi.

Sonra, minbərdən düşərək Həzrəti Aişə anamızın otağına qayıtdı. Əshabi kiram ağlamağa başladılar. Bundan sonra Cənabi Peyğəmbərimiz, Həzrəti Əlinin və Fəzl ibn Abbasın qollarına girərək təzədən məscidə təşrif etdi. Minbərin ilk pilləsində dayanıb, Əshabi kirama belə buyurdu ki; “Ey Muhacirlər və ey Ənsar! Vaxtı müəyyən olan bir şeyə qovuşmaq üçün tələsməyin bir faydası yoxdur. Allah Təala, heç bir qulu üçün tələsməz. Hər kim Allah Təalanın qaza və qədərini dəyişdirmyə, iradəsindən üstün olmağa təşəbbüs edərsə, onu alçaldar. Allah Təalaya qarşı hiyləgərlik etmək, Onu aldatmaq istəyən öz-özünü aldatmış olar. Bilin ki, mən sizlərə qarşı rauf və rəhiməm. Siz də mənə qovuşacaqsınız. Qovuşacağınız yer Kövsər hovuzunun başıdır. Cənnətə girmək, mənə qovuşmaq istəyən, boş yerə danışmasın. Ey müsəlmanlar! Kafir olmaq, günah işləmək, ne’mətin dəyişməsinə və ruzinin azalmasına səbəb olar. İnsanlar, Allah Təalanın əmrlərinə itaət etsə, dövlət başçıları, dövlət qulluqçuları, valiləri onlara mərhəmət və şəfqət göstərər. Fasiqlik, pislik, qudurğanlıq edib günah işlərlə gününü keçirtsə, mərhəmətli başçılara qovuşa bilməzlər. Mənim həyatım, sizin üçün xeyirli olduğu kimi, ölümüm də xeyir və rəhmətdir. Əgər bir kəsi haqsız yerə döymüş vəya birinə pis bir söz demişəmsə, məndən də eyni qaydada haqqını almasına, birinizdən haqsız yerə bir şey almışamsa, dala qaytarmasına və halalaşmağa hazıram. Çünki, dünya cəzası, axirət cəzasından çox asandır. Buna dözmək daha asandır”. Daha əvvəl Həzrəti Əbu Bəkirdən razı qaldığını dediyi kimi, bu xütbədə də Həzrəti Ömərdən razı qaldığını bildirib; “Ömər mənimlədir, mən də onunlyam. Məndən sonra haqq Ömərlə birlikdədir” buyurdu.

Rəsulullah bu xütbədən sonra minbərdən düşdü. Namazdan sonra yenə minbərə çıxıb, vəsiyyət və nəsihətdən sonra; "Sizi Allah Təalaya tapşırdım" buyurdu və Əshabdan ayrılıb otağına gəldi.

Aləmlərin sahibi (səlləllahu əleyhi və səlləm), şiddətli ağrılarının olduğu bir gün, Əshabi kiramla halallaşmaq, axirətə qul haqlarıyla getməmək üçün Bilali Həbəşi Həzrətlərini çağırtdırdı. Ona; "Xalqı çağır! Məsciddə toplansınlar. Onlara axırıncı vəsiyyətimi etmək istəyirəm!" buyurdu.

Həzrəti Bilal Əshabı məscidə topladı. Sevgili Peyğəmbərimiz, Həzrəti Əli və Fəzlin köməyiylə məscidə təşrif etdi. Minbərdə oturub, Allah Təalaya həmd və sənadan sonra; "Ey Əshabım! Bilin ki, aranızdan ayrılmağıma az qaldı. Kimin məndə haqqı varsa, məndən istəsin. Mənim yanımda sevgili olan, məndən haqqını istəsin vəya halal etsin ki, Rəbbimə və rəhmətinə bunları ödəmiş vəziyyətdə qovuşum" buyurdu. Sonra minbərdən düşüb, zöhr namazını qıldırdı. Namazdan sonra, təzədən minbərə çıxıb, namazdan qabaq dediyi şeyləri təkrarladı.

Sevgili Peyğəmbərimizin vəfatına üç gün qalmış xəstəlıyi daha da ağırlaşdı. Məscidə çıxıb camaata namaz qıldıra bilmədi. Camaatla qıla bilmədiyi ilk namaz xiftən namazı idi. Həzrəti Bilal həmişəki kimi, o vaxtda qapıya gəlib; "Əssalat, ya Rəsulallah!" dedi. Sevgili Peyğəmbərimiz xəstəliyin ağırlığından məscidə getməyə macal tapa bilmirdi. "Əbu Bəkirə deyin! Əshabıma namaz qıldırsın" buyurdu. Həzrəti Aişə anamız; "Canım sənə fəda olsun ya Rəsulallah! Atam yumuşaq qəlbli və çox üzüntülüdür. Zatı alinizin yerinə keçib, orda sizi görə bilməsə ağlamaqdan namazı qıldıra bilməz. Camaata imam olmaq üçün Ömərin keçməsini əmr etsəniz daha yaxşı olmaz bəyəm?" deyərək soruşdu. Cənabi Peyğəmbərimiz təzədən; "Əbu Bəkirə deyin! Əshabıma imamlıq edib namaz qıldırsın" buyurdu. Həzrəti Bilal, Əbu Bəkiri Siddiqə vəziyyəti çatdırdı. Həzrəti Əbu Bəkir, mehrabda Rəsulullahı görə bilməyincə, ürəyi yerindən oynadı. O ki var ağladı! Əshabi kiram da ağlaşmağa başladılar. Həbibullah, məsciddən gələn bu səsin səbəbini soruşunca, Həzrəti Fatimə anamız; "Canım sənə fəda olsun ya Rəsulallah! Əshabın, ayrılığınıza dözə bilmədiyi üçün ağlayır!" deyə vəziyyəti başa saldı.[358]

Mərhəmət dəryası sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) çox tə'sirlənmişdi. Əshabına təsəlli vermək üçün xəstəliyinin bu qədər ağır olmasına

[358] Suheyli, *ər-Rövzul-Unf*, III, 198; Tirmizi, *Şəmaili Şərif*, s. 386-387.

baxmayaraq, çətinliklə də olsa yataqdan qalxdı. Həzrəti Əli və Həzrəti Abasın köməyi ilə məscidə gəldi. Namazdan sonra; “Ey Əshabım! Sizi Allah Təalaya tapşırdım və sizi Allah Təalaya əmanət etdim! Təqvalı olun. Allah Təaladan qorxun. Allah Təalanın əmrini yerinə yetirin və Ona itaət edin. Mən, artıq bu dünyadan gedirəm” buyurdu.

Həzrəti Əbu Bəkir, Əshabi kirama on yeddi vaxt namaz qıldırdı. Bir dəfəsində zöhr namazını qıldırırdı. O əsnada Kainatın hökmdarı, mübarək bədənində bir yüngüllik hiss etmiş, Həzrəti Əli və Həzrəti Abasın köməyiylə məscidə gəlmişdi. Əbu Bəkiri Siddiq, sevgili Peyğəmbərimizin təşrif etdiyini sezib, dala durmaq istədi. Rəsulullah ona; “Yerində dayan!” mənasında işarə etdi. Cənabi Peyğəmbərimiz, Həzrəti Əbu Bəkirin solunda Əshabına axırıncı dəfə namaz qıldırdı.[359]

Sevgili Peyğəmbərimizin vəfatından üç gün əvvəl idi. Cəbrayıl əleyhissəlam, Rəsulullahı ziyarətə gəlib; “Ya Rəsulallah! Allah Təalanın sənə salamı var. Vəziyyətinizi bildiyi halda, necə olduğunuzu, özünüzü necə hiss etdiyinizi soruşur” dedi. Aləmlərin sahibi isə; “Kədərliyəm!” buyurdu.

Cəbrayıl əleyhissalam Bazar günü yenə gəldi və eyni şeyləri dedi. Cənabi Peyğəmbərimiz yenə əvvəlki cavabı verdi. Cəbrayıl əleyhissalam ayrıca; Yəməndə Peyğəmbər olduğunu iddia edən Əsədi Ansinin öldürüldüyünü xəbər verdi. Rəsuli əkrəm də bu xəbəri Əshabına bildirdi. Xəstəlikdən əvvəl Onun üçün gətirilən bir neçə qızılı kasıblara, bir neçəsini də Həzrəti Aişəyə vermişdi. Bazar günü Rəsulullahın xəstəliyi daha da artdı. Yanına gələn ordu komandanı Həzrəti Üsaməyə bir şey demədi. Ancaq mübarək əllərini qaldırıb onun üzünü sığalladı. Mə’lum oldu ki, ona dua edir.

Sevgili Peyğəmbərimizin dünyanı şərəfləndirdiyi və axirətə köçdüyü gün Bazar ertəsi idi. Xəstəliyinin on üçüncü, yəni axırıncı günü... Əshabi kiram Məscidi şərifdə Əbu Bəkiri Siddiq Həzrətlərinin arxasında sübh namazını qılarkən, aləmlərin sahibi, Məscidi şərifə gəldi. Ümmətinin səf-səf düzülüb ibadət etdiklərini gördü. Sevinərək təbəssüm etdi. Özü də Həzrəti Əbu Bəkirin arxasında durub namaz qıldı. Əshabi kiram, Rəsulullahı məsciddə görüncə, xəstəliyinin sağaldığını zənn edərək çox sevindilər. Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm) isə Həzrəti Aişənin otağına gedib yatdı. Sonra da; “Allah Təalanın hüzuruna, özümdən sonra dünya malı qoymadan getmək istəyirəm, yanında qalan qızılları da kasıblara payla” buyurdu. Sonra qızdırması çoxaldı. Bir müddətdən sonra, təzədən gözlərini açıb, Həzrəti Aişəyə qızılları paylayıb-

---

[359] Beyhəqi, *əs-Sünən*, II, 4; Əbu Ya’la, *əl-Müsnəd*, XIII, 428.

paylamadığını soruşdu. Aişə də paylayacağını dedi. Bunların dərhal paylanmasını dönə-dönə əmr etdi. Dərhal paylanıb qurtarınca; “İndi rahat nəfəs aldım” buyurdu.

Yatağında bir müddət istirahət etdikdən sonra Həzrəti Əlini yanına çağırdı. Mübarək başını onun qucağına qoydu. Mübarək alnı tərləmiş, mübarək rəngi dəyişmişdi. Həzrəti Fatimə anamız, mübarək atasının o halını görüncə, baxmağa dözə bilmədi və oğulları Həzrəti Həsənlə Həzrəti Hüseynin yanına getdi. Əllərindən tutub ağlamağa başladı. “Ey mənim Atam! Qızına kim baxar?! Həsən və Hüseyni kimə əmanət edirsən? Ey Ata! Canım sənə fəda olsun! Səndən sonra mənim halım necə olar?! Gözüm mübarək üzündən sonra kimə baxar?!”

Rəsulullah, qızının ürəkləri riqqətə gətirən bu sözlərini eşidincə, mübarək gözlərini açdı və onu yanına çağırdı “Ya Rəbbi! Buna səbr ehsan et” deyə dua etdikdən sonra “Ey Fatimə! Ey gözümün nuru! Atan canını tapşırmaqdadır!” buyurunca, hünkürüb ağlaması daha da artdı. Həzrəti Əli; “Ey Fatimə! Nə olar sakit ol, Rəsulullahı daha çox üzmə!” deyincə, sevgili Peyğəmbərimiz; “İncitmə ey Əli! Qoy atası üçün göz yaşı töksün!” buyurduqdan sonra, mübarək gözlərini yumaraq sanki huşunu itirdi.

Sonra Həzrəti Həsən, mübarək babasının yanına gəlib; “Ey mənim mübarək babam! Sənin ayrılığına kim dözə bilər?! Ürəyimizi kimə açıb danışarıq?! Səndən sonra anama, atama və qardaşıma kim şəfqət göstərər? Qadın və kişi səhabilərin o gözəl əxlaqınızı hardan bilər?!” deyərək ağlayınca, Cənabi Peyğəmbərimizin mübarək xanımları özlərini saxlaya bilmədilər. Hamısı birlikdə ağlamağa başladılar.

Çöldə çox kədərli bir halda gözləyən Əshabi kiram, Cənabi Peyğəmbərimizin xəstəliyinin çox artdığını eşidincə ürəkləri ağrıdı. Ağlamağa başladılar. Son bir dəfə də olsa, sevgili Peyğəmbərlərinin mübarək camalını görmək üçün; “Nə olar, qapını açın! Rəsul əleyhissalamın mübarək üzünü bir dəfə də görək!” deyərək qapıda yalvarırdılar. Aləmlərə rəhmət olaraq göndərilən Allah Təalanın Həbibi, sevgilisi, Əshabının bu yalvarışlarını eşidincə, mərhəmət göstərib; “Qapını açın!” buyurdu. Əshabın başda gələnləri içəri girdilər.

Sevgili Peyğəmbərimiz, onlara səbr tövsiyə etdikdən sonra; “Ey Əshabım! Siz, insanların ən üstünü, ən şərəflisisiniz. Sizdən sonra kim gəlsə gəlsin, siz hamısından qabaq Cənnətə girərsiniz. Dini ayaqda tutmaqda əzmkar olun və Qur’ani Kərimi özünüzə rəhbər tutun. Dinin hökmlərindən xəbərsiz qalmayın” buyurdu. Sonra; “Ya

Rəbbi! Təbliğ etdim?" deyib mübarək gözlərini yumdu. Mübarək üzü tərlədi. Həzrəti Əli, Əshaba işarə edərək çıxmalarını söylədi.

Onlar getdikdən sonra, Həzrəti Aişə anamız gəlib nəsihət istədi. Cənabi Peyğəmbərimiz; "Ey Aişə! Evinin bir küncündə oturub özünü qoru!" buyurduqdan sonra, mübarək gözlərindən yaş axmağa başladı. Kainatın hökmdarı ağlayırdı... Ordakıların ürəkləri ağradı, ciyərləri parçalandı. Həzrəti Ümmü Sələmə anamız; "Canım sənə fəda olsun ya Rəsulallah! Nə üçün ağlayırsan?" deyərək soruşunca; "Ümmətimə mərhəmət olunması üçün ağlayıram" buyurdu.

Günəş təpədən yüksəlirdi. Vaxt yaxınlaşmışdı... Sevgili Peyğəmbərimizin mübarək başı, Həzrəti Aişə anamızın sinəsinə söykənmişdi. Aləmlərin sahibi, artıq son nəfəsini yaşayır, mübarək dodaqlarından "Nə badə! Nə badə! Əlinizin altındakı kölələrinizə yaxşı davranmayasınız! Onlara pal-paltar geyindirməyib, qarınlarını doyuzdurmayasınız. Onlarla mülayim danışınuz. Namaz qılmağa davam edin. Qadınlarınız və kölələriniz haqqında Allah Təaladan qorxunuz! Ey Allahım! Məni bağışla! Mənə rəhmətini ehsan et! Məni Rəfiqi ə'la zümrəsinə qovuşdur!" cümlələri süzülürdü. Həzrəti Fatimə anamızın göz yaşları sel kimi axır, ah-naləsi ürəkləri ağrıdırdı. Sevgili Peyğəmbərimiz (səlləllahu əleyhi və sələm) onu yanında oturdub; "Qızım, bir miqdar səbr et, ağlama. Çünki, Həmələyi Ərş (mələklər) sənin ağladığın üçün ağlayır" buyurdu. Həzrəti Fatimə anamızın göz yaşını sildi. Təsəlli verib, Allah Təaladan səbr istədi və; "Ey qızım, mənim canım alınacaq. "İnnə lillahi və innə ileyhi raciun" de!. Ey Fatimə! Başa gələn hər müsibətə bir mükafat verilir" buyurdu. Bir müddət mübarək gözlərini yumub, sonra; "Bundan sonra daha mənə üzüntü və qəm-qüssə (kədər) olmaz. Çünki, fani aləmdən və möhnət məkanından xilas oluram" buyurdu. Sonra Həzrəti Əliyə; "Ya Əli! Məndə filan yəhudinin bu qədər malı vardır. Ordu hazırlamaq üçün almışdım. Onu ödəməyi əsla yaddan çıxartma. Əlbəttə ki, sən borcumu verərsən. Kövsər hovuzunun üstündə mənimlə görüşənlərdən birincisi sənsən. Məndən sonra sənə çox zərər gələr, səbr et, insanlar dünyanı istədikləri vaxt sən axirəti seç" buyurdu.

Üsamə təzədən gəldi. Rəsulullah; "Allah Təala köməyin olsun! Haydı döyüşə get!" buyurdu. O da çıxıb ordusunun başına getdi. Dərhal hərəkət əmri verdi.[360]

[360] İbn Hişam, *əs-Sirə*, II, 650; Təbəri, *Tarix*, II, 474; Suheyli, *ər-Rövzul-Unf*, IV, 434.

Aləmlərin sahibi, artıq son nəfəsini verirdi... Vaxt əməlli-başlı yaxınlaşmışdı... Allah Təala, Əzrayıl əleyhissalama; "Həbibimə ən gözəl surətdə get! Əgər icazə versə ruhunu çox asan al. İcazə verməsə dala qayıt!" deyə vəhy etdi. Əzrayıl əleyhissalam, ən gözəl surətdə, insan cildində, sevgili Peyğəmbərimizin səadətxanələrinin qapısına gəldi və; "Əssalamu əleykum ey nübüvvət evinin sahibi! İçəri girməyə icazə verirsiniz? Allah Təala sizə rəhmət etsin" dedi.

Həzrəti Aişə anamız, sevgili Peyğəmbərimizin (səlləllahu əleyhi və səlləm) yanında oturan Həzrəti Fatiməyə; "Bu gələnə sən cavab ver" dedi. O da qapıya çıxıb, çox kədərli bir səslə; "Ey Allah Təalanın qulu! Rəsulullahın indi başı qarışıqdır" dedi. Əzrayıl əleyhissalam, təzədən icazə istədi. Eyni cavab verildi. Üçüncü dəfə salamını təkrar edib, mütləq girməsi lazım olduğunu yüksək səslə deyincə, Cənabi Peyğəmbərimiz bunu eşitdi və "Ey Fatimə! Qapıda kim var?!" buyurdu.

Həzrəti Fatimə; "Ya Rəsulallah! Qapıda biri içəri girmək üçün icazə istəyir. Bir neçə dəfə cavab verdim. Ancaq üçüncü dəfədə bədənim titrədi" dedi. Bundan sonra Rəsulullah; "Ey Fatimə! Qapıdakının kim olduğunu bilirsən? O, keyflərə soğan doğrayan, insanları yıxan, qadınları dul, uşaqları yetim qoyan, evləri xarabaya çevirən, qəbirləri tarimar edən ölüm mələyi Əzrayıldır. Ey Əzrayıl, gir" buyurdu. O zaman Həzrəti Fatimə anamız, çox üzüldü və mübarək ağzından bu cümlələr süzüldü; "Aman Allah! Mədinə xarabaya çevrildi".

Peyğəmbərimiz, Həzrəti Fatimənın əlini tutub mübarək sinəsinin üstünə qoydu və mübarək gözlərini yumdu. Ordakılar mübarək ruhunun alındığını zənn etdilər. Həzrəti Fatimə anamız dözə bilməyib, atasının mübarək qulağına tərəf əyildi və ürəklərə od vuran bir səslə; "Atacan!" deyə səsləndi. Heç cavab gəlməyincə bu səfər; "Canım sənə fəda olsun ya Rəsulallah! Nə olar mübarək gözlərini aç, mənə bir şey de..." dedi. Aləmlərin sahibi mübarək gözlərini açıb, qızının göz yaşlarını sildi və onun qulağına vəfat edəcəyini bildirdi. Bundan sonra Həzrəti Fatimə ağlamağa başladı. Bu dəfə qulağına; "Əhli beytimdən, ən birinci mənim yanıma sən gələcəksən" buyurdu. O da bu müjdəyə sevinib təsəlli tapdı.

Həzrəti Fatimə anamız; "Atacan! Bu gün ayrılıq günüdür! Bir də sənə nə vaxt qovuşaram?" deyə soruşdu. Rəsulullah; "Ey qızım! Məni qiyamət günü hovuzun kənarında görərsən. Orda mən ümmətimdən hovuza gələnlərə su verəcəyəm" buyurdu. Həzrəti Fatimə; "Əgər səni orda görməsəm, nə edərəm?" deyə soruşunca, Cənabi

Peyğəmbərimiz; “Mizanın yanında taparsan. Orda, mən ümmətimə şəfaət edəcəyəm” buyurdu.

Həzrəti Fatimə anamız; “Orda da tapa bilməsəm necə olacaq ya Rəsulallah?!” deyincə, Cənabi Peyğəmbərimiz; “Sirat körpüsünün yanında görərsən. Mən orda Rəbbimə; “Ya Rəbbi! Mənim ümmətimi cəhənnəmdən qoru” deyə yalvaracağam” buyurdu.

Bundan sonra Həzrəti Əli kədərli bir səslə; “Ya Rəsulallah! Siz ruhunuzu təslim etdikdən sonra, sizi kim yuyacaq, nəylə kəfənləyəcəyik? Namazınızı kim qıldıracaq, qəbrə kim qoyacaq?” deyə soruşdu. Cənabi Peyğəmbərimiz; “Ey Əli, məni sən yu, Fəzl ibn Abbas sənə su tökməkdə kömək etsin. Cəbrayıl sizin üçüncünüz olar. Ğasl (yuma) işini qurtarınca, kəfənə bükərsiniz. Cəbrayıl, Cənnətdən gözəl ətir gətirər. Sonra məni məscidə aparıb məsciddən çıxın. Çünki, ən birinci Cəbrayıl sonra Mikayıl, sonra İsrafil, sonra da mələklər dəstə-dəstə namazımı qılacaqlar. Daha sonra siz girin, səf-səf durun. Heç kim məndən qabağa keçməsin” buyurdu.[361]

Sonra, qapıda gözləyən Əzrayıl əleyhissalama; “Ey Əzrayıl! Ziyarət üçün gəldin, yoxsa canımı almaq üçün?” deyə soruşunca, Əzrayıl əleyhissalam; “Həm qonaq, həm də vəzifəli olaraq gəldim. Allah Təala mənə, sənin hüzuruna icazə alaraq girməyimi əmr etdi. Mübarək ruhunu ancaq icazə versən ala bilərəm. Ya Rəsulallah! İcazə verirsinizsə əmrinizi yerinə yetirər, canınızı alardım. Yoxsa qayıdıb Rəbbimin yanına gedərəm” dedi.

Cənabi Peyğəmbərimiz; “Ey Əzrayıl! Bəs Cəbrayıl harda qaldı?” buyurdu. “Cəbrayıli dünya səmasında qaldı. Mələklər, sənin vəfatın səbəbiylə ona baş sağlığı verirlər” dedi. Bu dəmdə Cəbrayıl əleyhissalam da gəldi. Rəsulullah; “Ey qardaşım Cəbrayıl! Artıq dünyadan köçməyimin vaxtı gəldi. Allah Təalanın nəzdində mənim üçün nə hazırlanıb? Mənə onu müjdələ ki, ürəyim rahat olsun və əmanəti sahibinə verim” buyurdu. Cəbrayıl əleyhissalam; “Ey Allah Təalanın sevgilisi! Mən səmanın qapısını açıq qoydum. Mələklər səf-səf olub sənin ruhunu sevgiylə gözləyirlər” dedi. Cənabi Peyğəmbərimiz; “Həmd, Allah Təalaya məxsusdur. Sən mənə müjdə ver! Rəbbimin nəzdində mənim üçün nə var?” buyurdu. Cəbrayıl əleyhissalam; “Ya

---

[361] İbn Sə’d, *ət-Təbəqat*, II, 258; Suheyli, *ər-Rövzul-Unf*, VIII, 329; Əhməd Şami, *Sübülül-Huda*, XII, 264.

Rəsulallah! Sənin təşrifin səbəbiylə Cənnət qapıları açılmış, Cənnətin çayları axmış, Cənnətin ağacları bar vermiş, hurilər bəzənmişdir” dedi.

Cənabi Peyğəmbərimiz yenə; “Həmd, Allah Təalaya məxsusdur. Sən mənə başqa müjdə ver ey Cəbrayıl!” buyurdu. Cəbrayıl əleyhissalam; “Ya Rəsulallah! Sən qiyamət günü ilk şəfaət edən və ilk şəfaəti qəbul olunan kəssən” dedi. Sevgili Peyğəmbərimiz yenə; “Həmd Allah Təalaya məxsusdur. Ey Cəbrayıl! Mənə başqa müjdə ver” buyurunca, Cəbrayıl əleyhissalam; “Ya Rəsulallah! Sən nəyi nəzərdə tutursan ki?” dedi. Bundan sonra Cənabi Peyğəmbərimiz; “Mənim bütün narahatçılığım, üzüntüm və kədərim məndən sonra gələn ümmətimdir” buyurdu. Həzrəti Cəbrayıl; “Ey Allah Təalanın Həbibi! Allah Təala qiyamət günü sən razı olana qədər ümmətini bağışlayar. Bütün peyğəmbərlərdən qabaq səni, bütün ümmətlərdən qabaq da sənin ümmətini Cənnətə salacaqdır” dedi. Sevgili Peyğəmbərimiz, Cəbrayıl aleyhissalama; “Allah Təala nəzdində üç muradım vardır. Birincisi, ümmətimin günahkarlarına məni şəfaətçi etməsi, ikincisi, dünyada etdikləri günahlara görə onlara əzab verilməməsi, üçüncüsü, Pərşənbə və Bazar ertəsi günləri ümmətimin əməllərinin mənim öhdəliyimə verilməsidir. (Əgər əməlləri yaxşı olsa, dua edərəm, Allah Təala qəbul edər. Pis olsa şəfaət edib, əməl dəftərindən silinməsini istəyərəm)” buyurdu. Cəbrayıl əleyhissalam, Allah Təaladan bu üç arzusunun da qəbul edildiyi xəbərini verdi. Bundan sonra sevgili Peyğəmbərimiz rahat nəfəs aldı.

Allah Təala vəhy etdi ki; “Ey Həbibim! Ümmətinə bu qədər məhəbbət və şəfqət göstərməyini kim mübarək qəlbinə qoydu?” Cənabi Peyğəmbərimiz; “Məni yaradıb, tərbiyə edən Rəbbim Təala” deyə cavab verdi. Cənabi Haqq da; “Sənin ümmətinə, mənim rəhmətim, mərhəmətim səninkindən min qat daha çoxdur. Onlar haqqında mən qərar verəcəyəm” buyurdu. Sonra sevgili Peyğəmbərimiz; “İndi rahat nəfəs aldım. Ey Əzrayıl! Əmr olunduğun vəzifəni yerinə yetir!” buyurdu.

Əzrayıl əleyhissalam, vəzifəsini yerinə yetirmək üçün hörmətinə yaradıldığı Kainatın hökmdarının yanına yaxınlaşdı. Sevgili Peyğəmbərimiz yanındakı su qabına mübarək əllərini salıb, islaq əllərini mübarək üzünə sürtdü və; “La ilahə illallah! Ey Allahım! Rəfiqi al!” buyurdu. Əzrayıl əleyhissalam, Aləmlərin sahibinin mübarək canını almağa başladı. Rəsulullahın mübarək bənizi gah qızarır, gah da saralırdı. Əzrayıl aleyhissalama; “Ümmətimin canını da belə çətin və əziyyətli alırsan?!” buyurunca, o; “Ya Rəsulallah! Heç kimin canını belə asan almadım” cavabını verdi. Axırıncı

nəfəsində belə ümmətini yaddan çıxartmayan sevgili Peyğəmbərimiz; "Ey Əzrayıl! Ümmətimə edəcəyin əziyyəti mənə ver! Çünki, onlar zəifdır, dözə bilməzlər..." buyurdu. Sonra; "La ilahə illallah! Rəfiqi al!" buyurdu və mübarək canı alındı və ə'layi illiyyinə aparıldı...

*Əssalatu vəssalamu əleykə ya*
*Rəsulallah!*
*Əssalatu vəssalamu əleykə ya*
*Həbiballah!*
*Əssalatu vəssalamu əleykə ya Seyyidəl-*
*əvvəlinə vəlaxirin!*
*Şəfaət ya Rəsulallah! Daxiylək ya*
*Rəsulallah!*

Cəbrayıl əleyhissalam, Cənabi Peyğəmbərimizə; "Əssalamu aleykum ey Allahu Təalanın Rəsulu! Mənim məqsəd və məramım sən idin. Artıq, bir daha yer üzünə gəlmərəm!" deyərək xudahafizləşdi.

Rəsuli əkrəm mübarək ruhu, uca aləmə gedincə, Hazrəti Fatimə anamız və əzvaci tahirat[362] "Allah onlardan razı olsun" hünkür-hünkür ağlamağa başladılar.[363]

Bu əsnada qeybdən bir səs; "Əssalamu əleykum ya Əhli beyt və Rəhmətullahi və bərəkatuhu!" deyə salam verdi və; "Bilin ki, hər canlı ölümü dadacaqdır və qiyamət günü, sizə əcrləriniz tamamilə veriləcəkdir" məalındakı Ali İmran surəsinin 185-ci ayəsini oxudu. Sonra, onlara təsəlli verib; "Allah Təalanın ehsanlarına, verdiklərinə e'tibar edin. Ona sarılıb, Ondan istəyin. Fəryad etməyin! Əsl müsibətə düçar olan, savabdan məhrum qalanlardır!" deyərək baş sağlığı verdi.

Bu sözləri ordakıların hamısı eşitdi və salamına cavab verdilər. Bunları söyləyən Xızır əleyhissalam idi.

Rəsuli əkrəmdə mövt (ölüm) əlamətləri görülüncə, Ümmi Eymən oğlu Üsaməyə xəbər göndərdi. Üsamə, Həzrəti Ömər və Əbu Ubeydə bu acı xəbəri alınca, ordudan ayrılıb Məscidi Nəbəviyə gəldilər. Aişəyi Siddiqə və digər xanımlar ağlayınca, Məscidi şərifdəki Əshabi kiram özlərini itirdilər. Nə baş verdiyini başa düşmədilər. Çaş-

---

[362] Məhəmməd Peyğəmbərin Xanımları.
[363] İbn Sə'd, *ət-Təbəqat*, II, 262.

baş qaldılar. Həzrəti Əli yerində donub qaldı. Həzrəti Osmanın dili tutuldu. Həzrəti Əbu Bəkir o əsnada evində idi. Qaçaraq özünü çatdırıb gəldi. Dərhal hücrəyi səadətə girdi. Fəxri aləmin üzünü açdı. Vəfat etmiş olduğunu gördü. Mübarək üzü və hər yeri nur kimi parıldayırdı. "Məmatın da, həyatın kimi gözəldir ya Rəsulallah!" deyərək, öpdü. Çox ağladı. Mübarək üzünü örtdü. Evdəkilərə təsəlli verdi. Məscidi şərifə gəldi. Minbərə çıxaraq Əshabi kirama bir xütbə oxudu. Allah Təalaya həmd və səna etdi və Rəsuli əkrəmə (səlləllahu əleyhi və səlləm) səlat oxuduqdan sonra; "Hər kim Məhəmməd əleyhissalama iman etmişsə bilsin ki, Məhəmməd əleyhissalam vəfat etdi. Hər kim Allah Təalaya itaət edirsə, O, həyy (diri) və baqidir (ölməz, əbədidir)" buyurdu və sonra; "Məhəmməd (əleyhissalam) Rəsuldur. Ondan qabaq da rəsullar gəlmişdir. O da öləcəkdir. Vəfat edərsə vəya öldürülərsə dininizdən dönəcəksiniz bəyəm? Dinindən çıxan osa, Allah Təalaya zərər verməz. Öz-özünə zərər verər. Dinindən dönməyənlərə Allah Təala savab verər" məalındakı Ali İmran surəsinin 144-cü ayəsini oxudu. Əshabi kirama nəsihət edib, ortalığı sakitləşdirdi.[364]

Beləcə hamısı Rəsulullahın vəfat etmiş olduğuna inandı. Hüzn və kədər, Əshabi kiramın ürəyinə bir zəhərli xəncər kimi batdı. Gözlər ağlayır, göz yaşları axır, həsrət çəkmək hamının ürəyini ağrıdırdı.

Əshabi kiramın (Allah onlardan razı olsun) ən birinci işi, bütün işləri idarə etməsi üçün Həzrəti Əbu Bəkiri xəlifə seçmək oldu. Ona bey'ət edib, tabe oldular və əmrinə görə işləri görməyə başladılar.[365]

Rəsuli əkrəm, hicrətin on birinci ilində (miladi 632) Rəbiuləvvəl ayının 12-ci günündə Bazar ertəsi günü günortadan qabaq dünyadan köçdü. O əsnada Qəməri ilə görə 63, Şəmsi ilə görə də 61 yaşı vardı.[366]

Cənabi Peyğəmbərimizi, Həzrəti Əli, Həzrəti Abbas, Həzrəti Fəzl ibn Abbas, Həzrəti Qusəm ibn Abbas, Həzrəti Üsamə ibn Zeyd, Həzrəti Salih yudular.[367] Yuma əsnasında mübarək bədənindən elə bir müşg iyi yayıldı ki, indiyə qədər heç kim elə bir iy iyləməmişdi. Sonra da kəfənə bükdülər. Bir xərək üzərində götürüb, məscidə gətirildi. Daha əvvəl sevgili Peyğəmbərimizin vəsiyyət etdiyi şəkildə, hamı məsciddən çölə çıxdı. Mələklər, dəstə-dəstə gəlib namazını qıldılar. Mələklərin namazı qurtarınca,

---

[364] Buxari, "Fəzailus-Səhabə", 5; İbn Hişam, *əs-Sirə*, II, 655; İbn Sə'd, *ət-Təbəqat*, II, 271; Hakim, *əl-Müstədrək*, II, 323; Suheyli, *ər-Rövzul-Unf*, IV, 443; İbn Kəsir, *əs-Sirə*, IV, 480.

[365] İbn Hişam, *əs-Sirə*, II, 655; Suheyli, *ər-Rövzul-Unf*, IV, 444; Təbəri, *Tarix*, II, 442.

[366] İbn Sə'd, *ət-Təbəqat*, II, 272; Suheyli, *ər-Rövzul-Unf*, II, 341; Təbəri, *Tarix*, II, 441.

[367] Tirmizi, *Şəmaili Şərif*, s. 396.

qeybdən bir səs; "Girin! Peyğəmbərinizin namazını qılın!" deyirdi. Bundan sonra Əshabi kiram içəri girdi. İmamsız olaraq sevgili Peyğəmbərimizin namazını qıldılar. Çərşənbə günü axşamına qədər hamı namazı qılıb qurtara bildi.

Əshabi kiram, sevgili Peyğəmbərimizin mübarək qəbrinin qazılması mövzusunda Həzrəti Əbu Bəkirin xatırlatdığı bu hədisə riayət etdilər; "Peyğəmbərlər, vəfat etdikləri yerdə dəfn olunarlar".

Əbu Təlhə Ənsari Həzrətlərinin, ləhd şəklində qazdığı qəbrdə Çərşənbə günü gecə yarısına yaxın dəfn edildi. Həzrəti Abbasın oğlu Qusəm, ən axırda qəbirdəki hazırlıqları görüb qurtardı. Özü belə nəql etmişdir ki; "Rəsulullahın mübarək üzünü ən axırıncı görən mənəm. Mübarək dodaqları tərpənirdi. Yaxınlaşıb diqqətlə qulaq asdım; "Ya Rəbbi! Ümmətim! Ya Rəbbi! Ümmətim!" deyə yalvarırdı.[368]

Sevgili Peyğəmbərimiz, dünyadan köçdüyü gün, Abdullah ibn Zeyd Həzrətləri; "Ya Rəbbi! Mən bu gözü, Həbibinin mübarək nurlu üzünə baxmaq üçün istəyərdim. O yoxdursa, artıq bu göz mənim nəyimə lazımdır? Ya Rəbbi, gözümü kor et!" deyə dua etdi və beləcə gözlərinin nur yox oldu...

## Dindən çıxma təşəbbüsləri

Cənabi Peyğəmbərimizin vəfatından sonra, irtidad, dindən çıxma təşəbbüsləri başladı. Bu təşəbbüslər get-gedə vüs'ət aldı. Bunlarla mübarizədə, Həzrəti Əbu Bəkirin böyük əməyi oldu. Əgər belə dirayətli (bacarıqlı) birisi olmasaydı təhlükə bütün Ərəbistana yayılacaqdı. Bunun üçün Həzrəti Aişə "Rəsulullah vəfat edincə, Ərəblər irtidad etdi. Nifaq baş alıb getdi. Atamın üstünə çökən, dağların üstünə çöksəydi, heç bir şübhə yoxdur ki, onları toz edərdi!" demişdir.[369]

Həzrəti Əbu Hüreyrə də "Əgər Əbu Bəkir olmasaydı, Məhəmməd əleyhissalamın vəfatından sonra Məhəmməd ümməti həlak olardı!" demisdir.[370]

O; "Özündən başqa ilah olmayan O Allaha and olsun ki, Əbu Bəkir xəlifəliyi öz öhdəsinə götürməsəydi, Allah Təalaya ibadət edən tapılmazdı!" demiş və bu sözünü, üç dəfə təkrar etmişdi.

---

[368] İbn Sə'd, *ət-Təbəqat*, II, 298.
[369] İbn Hişam, *əs-Sirə*, II, 665; Suheyli, *ər-Rövzul-Unf*, IV, 474; İbn Əsakir, *Tarixu Dəməşq*, XXX, 312.
[370] Suheyli, *ər-Rövzul-Unf*, IV, 467.

Əbu Rəcaul-Utaridi belə nəql etmişdir ki; "Mədinəyə girincə, insanların toplandıqlarını və bir adamın "Mən, sənə qurban olum! Vallahi, sən olmasaydın, heç bir şübhə yoxdur ki, biz həlak olardıq!" deyərək bir adamın başını öpdüyünü gördüm.

"Bu öpən və öpülən kimdilər?" deyə soruşdum. "Mürtədlərlə döyüşdüyü üçün Ömər Əbu Bəkirin başını öpür!" dedilər".[371]

Həzrəti Aişə də nəql etmişdir ki; "Atam, Ərəblərin irtidad etdikləri günlərdə qılıncını sıyırıb dəvəsinə minincə, Həzrəti Əli yaxınlaşıb dəvəsinin yüyənindən yapışdı və "Sənə, Rəsulullah əleyhissalamın Ühüd döyüşü günündə dediyinin eynisini indi deyirem; "Qılıncını qınına sal, özünü təhlükəyə atıb bizi intizarda qoyma! Vallahi, Sənin başına bir fəlakət gəlsə, səndən sonra artıq İslamiyyət birdəfəlik düzəlməz!" dedi". (Əgər xəlifəliyinə e'tiraz etmiş olsaydı, gedib ölməyini istəyərdi. Beləcə xəlifəlik üçün bir maneə qalmazdı).

Həzrəti Aişə o günləri belə nəql etmişdir ki; "Rəsulullahın vəfatından sonra Ərəb qəbilələrindən bir çoxu irtidad etdilər, dindən çıxdılar. Yəhudilik, xristiyanlıq və münafiqlik ortaya çıxmağa başladı.

Müsəlmanlar, qoyun kimi soyuq gecədə yağışa düşüb hara gəldi getməyə başladılar. Hətta o əsnada, Məkkəlilərin çoxu İslamiyyətdən çıxmağa hazırlandılar. Suheyl ibn Əmr Kə'bənin qapısının qabağında duraraq Məkkəlilərə səsləndi. Onlara tə'sirli bir nitq danışıb şübhələrinin, dindən çıxmalarının qabağını aldı.

İslam tarixində dini rədd etmə, dindən çıxma mənalarında "irtica-dala qayıtma, "mürtəci-dala qayıdan" ifadələri də bu hadisələrdən sonra istifadə edilməyə başlandı.

Peyğəmbərimizin vəfatından sonra münafiqlərın, yəhudilərin və xristiyanların aranı qarışdırmasıyla dəstə-dəstə dindən çıxma hadisələri baş alıb getdi.

Həzrəti Suheyl ibn Əmr, Kə'bənin qapısının qabağında dayanaraq Məkkəlilərə səsləndi. Onlara belə söylədi; "Ey Məkkəlilər! Siz, müsəlman olanların axırıncısı oldunuz. Nə badə irtidad edənlərin, müsəlmanlıqdan çıxanların birincisi olasınız! Vallahi, uca Allah, Rəsul əleyhissalamın buyurduğu kimi, bu işi heç bir şübhə yoxdur ki, tamamlayacaqdır! Mən; "Mənimlə birlikdə "La ilahə illallah" deyin ki, sizə baxaraq Ərəblər dinə girib Ərəb olmayanlar sizə cizyə versin! Vallahi, Kisranın və Qeysərin xəzinələri Allah yolunda xərclənəcəkdir!" buyurduğunu eşitmişəm.

---

[371] İbn Əsakir, *Tarixu Dəməşq*, XXXXIII, 502; Suyuti, *Camiul-Əhadis*, XXV, 300.

İstehza edilənlərin zəkat və sədəqə toplayan mə'mur olduqlarını hamınız gördünüz. Vallahi, bundan sonra da Onun dedikləri həyatə keçəcəkdir! Vallahi, mən yaxşı bilirəm ki, Günəşin çıxması və batması davam etdiyi müddətcə, bu din davam edəcəkdir. Aranızdakı bəzi adamlar sizi aldatmasın! Mənim bildiyim bu işi, onlar da yaxşı başa düşür.

Ancaq, Haşim oğullarına qısqanclıq etdikləri üçün onlar başqa cür fikirləşirdilər.

Ey insanlar! Mən, Qureyşin quruda və dənizdə ən çox nəqliyyəta sahib olan adamıyam. Siz, Əmirinizə itaət edin və zəkatlarınızı ona ödəyin.

Əgər, İslamiyyət axıra qədər davam etməsə, mən sizin zəkatlarınızı sizə dala qaytarmağa zamin oluram! "dedi və ağladı.

Bundan sonra xalq sakitləşdi.

Suheyl ibn Əmr, etdiyi bu tə'sirli nitqlə Məkkəliləri irtidaddan əl çəkməyə razı edincə, Məkkə valisi Əttab ibn Əsid ortaya çıxa bildi.

Suheyl ibn Əmr Bədir döyüşündə müşriklərlə birlikdə iştirak edib əsir edildiyi zaman, Peyğəmbərimizin Həzrəti Ömərə, onun haqqında "Müqəddəs bir yerdə durub xalqa nitq söyləyəcəkdir!" hədisi ilə xəbər verdiyi çətin məqamdakı danışmasından məqsədinin bu nitqi və xidməti olduğu başa düşüldü.

Həzrəti Ömər də, Suheylin nitqini eşitdiyi zaman, Peyğəmbərimizin Həzrəti Suheyl haqqında söylədiyi sözü xatırlamış və özünü saxlaya bilməyərək; "Mən şəhadət edirəm ki, Sən heç bir şübhə yoxdur ki, Rəsulullahsan!" demişdir.[372]

[372] İbn Əbi Şeybə, *əl-Musannəf*, VIII, 484; Suheyli, *ər-Rövzul-Unf*, III, 100.

# QƏBİR HƏYATI

## Qəbrində siri olması

Peyğəmbərlər qəbirlərində diridirlər. Övliya və şəhidlər də diridirlər. Onlar həqiqi mənada canlıdırlar. Ali İmran surəsinin 169-cu ayəsində məalən; "Allah Təala yolunda öldürülənləri ölü saymayın! Onlar, Rəblərinin yanında diridirlər. Onlara ruzi verilməkdədir" buyurulur.

Bu ayə, şəhidlərin diri olduqlarını göstərməkdədir. Peyğəmbərlər şəhidlərdən əlbəttə daha fəzilətli və daha üstündür. İslam alimlərinə görə hər peyğəmbər, şəhid olaraq ölmüşdür. Rəsulullah həyatının son günlərində; "Xeybərdə yediyim yeməyin verdiyi ağrını həmişə hiss edərdim"[373] buyurmuşdu. Bu hədis Rəsulullahın şəhid olaraq vəfat etdiyini göstərir.

Bu səbəblə, Rəsulullahın bütün şəhidlər kimi qəbrində diri olduğu nəticəsi ortaya çıxır. Buxari və Müslimin kitablarında da nəql edilən hədisdə; "Me'rac gecəsində, Musanın (əleyhissalam) qəbri yanından aparıldım. Qəbrinin içində ayaq üstə durub namaz qılırdı" buyurulmuşdu.[374]

Başqa bir hədisdə də; "Allah Təala, torpağın peyğəmbərləri çürütməsini haram etmişdir" buyurulmuşdur.[375] Bunun doğru olduğunu bütün alimlər təsdiq etmişdirlər. Buxari və Müslimin kitablarında; "Allah Təala, Me'rac gecəsində bütün peyğəmbərləri Peyğəmbərimizə göndərdi. Onlara imamlıq edib, iki rü'kət namaz qıldırdı" yazılmışdır.

Namaz qılmaq, rüku və səcdə edərək yerinə yetirilir. Bu rəvayət, diri olaraq, bədənlə qıldıqlarını göstərir. Musa əleyhissalamın qəbrində namaz qılması da, bunu göstərməkdədir. "*Mişqat*" kitabının axırıncı cildində Me'rac babının birinci fəslinin sonunda, Müslimdən nəql edərək Əbu Hüreyrənin rəvayət etdiyi hədisdə; "Allah Təala mənə göstərdikdən sonra gördüm ki, Musa (əleyhissalam) ayaq üstündə namaz qılırdı,

---

[373] İbn Hişam, *əs-Sirə*, II, 337; Vaqidi, *əl-Məğazi*, II, 678; Təbəri, *Tarix*, II, 303; İbn Kəsir, *əs-Sirə*, III, 399.
[374] İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 36; Əhməd Şami, *Sübülül-Huda*, XII, 355.
[375] Nəsai, "Cümə", 5; İbn Macə, "İqamətus-Salat", 79; Darimi, "Salat", 206; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, I, 353.

arıq idi. Saçları pırtlaşıq deyildi. Sanki Şənə qəbiləsindən bir igidə oxşayırdı. İsa (əleyhissalam), Urvə ibn Məs'ud Səqafiyə bənzəyirdi" buyrulmuşdur.[376]

Şənə Yəməndə yerləşən iki qəbilənin adıdır. Bu hədislər peyğəmbərlərin, Rəbləri nəzdində diri olduqlarını göstərməkdədir. Onların cəsədləri (bədənləri), ruhları kimi lətif olmuşdur. Kəsif, yəni qatı deyildir. Maddə və ruh aləmində görünə bilirlər.

Bunun üçün, peyğəmbərlər həm ruhları və həm də bədənləriylə görünə bilirlər. Hədisdə, Musa və İsa əleyhissalamın namaz qıldıqları da nəql edilir. Namaz qılmaq, müxtəlif hərəkətlər etməkdir. Bu hərəkətlər ruhla deyil, bədənlə olar. Musa əleyhissalamı, "Orta boylu, arıq, zəif, saçları daranmış gördüm" buyurması, ruhunu deyil, bədənini gördüyünü göstərir.

İmam Beyhəqi də belə nəql etmişdir ki; "Peyğəmbərlər qəbrə qoyulduqdan sonra, ruhları bədənlərinə qaytarılır. Biz onları görə bilmirik. Mələklər kimi gözə görünmürlər. Ancaq Allah Təalanın kəramət ehsan etdiyi bəziləri onları görə bilir". İmam Suyuti də eyni şəkildə demişdir.

Çoxları, salamlara qəbri səadətdən cavab verildiyini eşitmişdir. Başqa qəbirlərdən də salamlara cavab verildiyi çox eşidilmişdir.

Hədisdə də; "Mənə salam verilincə, Allah Təala ruhumu qaytarır, salama cavab verirəm" buyurulmuşdur.[377]

İmamı Suyuti Həzrətləri belə demişdir ki; "Rəsulullah, Allahın camalını görməyə özünü həsr etmiş, bədənindəki hissiyyatları unutmuşdur. Bir müsəlman salam verincə, mübarək ruhu bu haldan çıxıb, bədən hissiyyatlarını alır. Dünyada belə olanlar da az deyildir. Bir dünya işi vəya axirət işi həddən artıq düşünüldüyündə insan, yanında danışılanı eşitməz. Allahın camalına özünü həsr edən Peyğəmbər də başqa bir səsi eşidə bilir ki?".

Qazı İyaz Həzrətləri "*Şifa*" kitabında Süleyman ibn Suhaymdan nəql etdiyi rəvayətində; "Bir gecə röyada Fəxri Kainatı gördüm; "Ya Rəsulallah! Gəlib sənə salam verənlərin salamından heç xəbərin olur?" dedim. "Bəli xəbərim olur və onların salamına cavab verirəm" buyurulmuşdur.

---

[376] Müslim, "İman", 346; İbn Sə'd, *ət-Təbəqat*, I, 215; Beyhəqi, *Dəlailun-Nübuvvə*, II. 243; Suyuti, *Camiul-Əhadis*, XVII, 428.
[377] Əbu Davud, "Mənasik", 100; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, II, 527; Beyhəqi, *əs-Sünən*, II, 245; *Şuabul-İman,* IV, 101.

Peyğəmbərlərin, qəbrlərində diri olduğunu göstərən hədislər olduqca çoxdur. Məsələn, "Qəbrimin yanında, mənim üçün oxunan salavatı eşidərəm. Uzaq yerlərdə oxunanlar isə mənə çatdırılır" buyrulmuşdur.

Bu hədisi Əbu Bəkir ibn Əbi Şeybə nəql etmişdir. Bu və buna oxşar hədislər, altı böyük hədis imamının kitablarında da vardır.

Abdullah ibn Abbas Həzrətlərindən İbni Əbid-Dünyanın nəql etdiyi hədisi şərifdə; "Bir nəfər tanıdığı bir adamın qəbrini ziyarət edib salam versə, meyyit onu tanıyar və cavab verər. Tanımadığı meyyitə salam versə, meyyit sevinər və cavab verər" buyurulmuşdur.

Rəsulullah, dünyanın hər yerində eyni zamanda salat və salam edənlərin hər birinə ayrı-ayrılıqda necə cavab verə bilər, deyə sual verilsə, günorta vaxtı günəşin eyni vaxtda minlərlə şəhərə işıq salması kimidir, deyə cavab verilir.

İbrahim ibn Bişar Həzrətləri; "Həcc ibadətini yerinə yetirdikdən sonra, qəbri səadəti ziyarət üçün Mədinəyə getdim. Hücrəyi səadətin qabağında salam verdim "və əleykəssalam cavabını eşitdim" buyurmuşdur.

Rəsulullah; "Mən öldükdən sonra da, diri ikən olduğu kimi hiss edərəm" buyurmuşdur. Başqa bir hədisdə; "Peyğəmbərlər, qəbirlərində diri olub namaz qılarlar" buyurulmuşdur.[378]

Övliyanın böyüklərindən Seyyid Əhməd Rifayi Həzrətlərinin və bir çox vəlilərin Rəsulullaha verdikləri salamın cavabını aldıqlarını eşitdikləri və Əhməd Rıfayinin, Rəsulullahın mübarək əlini öpməklə şərəflənmiş olduğu, çox e'tibarlı kitablarda yer almaqdadır.

İmamı Suyuti öz kitabında; "Uca mərtəbəyə malik olan övliyalar, peyğəmbərləri sanki diri kimi görərlər. Cənabi Peyğəmbərimizin Musa əleyhissalamı qəbrində diri olaraq görməsi bir mö'cüzə idi. Övliyanın da belə görmələri kəramətdir. Kəramətə inanmamaq, cahillikdən qaynaqlanır" buyurmaqdadır.

İbni Hibban, İbni Macə və Əbu Davudun nəql etdikləri hədisdə; "Cümə günləri mənə çox salavat oxuyun! Bunlar, mənə çatdırılır" buyurulmuşdur. "Öldükdən sonra da çatdırılır?" soruşulduqda; "Torpaq, peyğəmbərlərin bədənini çürütməz. Bir mö'min mənə salavat oxuyunca, bir mələk mənə xəbər verərək, ümmətindən filankəsin oğlu filankəs sənə salam verdi və dua etdi, deyər" buyurmuşdur.

---

[378] İbn Əsakir, *Tarixu Dəməşq*, XIII, 326; Suheyli, *ər-Rövzul-Unf*, I, 89; Suyuti, *Camiul-Əhadis*, XI, 43.

Rəsulullah diri ikən Əshabına, Allah Təalanın bir rəhməti, böyük bir ne'məti olduğu kimi, vəfatından sonra da bütün ümməti üçün böyük ne'mətdir. Yaxşılıqlara səbəb olmaqdadır.

Bəkir ibn Abdullah Muzəninin rəvayət etdiyi hədisdə Rəsuli əkrəm; "Həyatım sizin üçün xeyirlidir. Bir-birimizlə danışarıq. Öldükdən sonra vəfatım da sizin üçün xeyirli olar. Əməlləriniz mənə göstərilir. Yaxşı işlərinizi gördüyüm zaman, Allah Təalaya həmd edərəm. Pis işlərinizi gördüyüm zaman, sizin üçün bağışlanma və məğfirət istəyərəm" buyurmuşdur.[379]

Qusəm ibn Abbas Həzrətləri, Rəsulullahı dəfn etməklə şərəflənmişdi. Qəbirdəki işi qurtarınca ən axırda o çıxmış, belə demişdi ki; "Rəsuullahın mübarək üzünü ən axırıncı görən mənəm. Qəbrində mübarək dodaqları tərpənirdi. Əyilib qulaq asdım. "Ya Rəbbi! Ümmətim! Ya Rəbbi! Ümmətim!" deyirdi.[380]

## Rəsulullahi görmək

Rəsulullah, yuxuda və oyanıq ikən görülə bilər? Görülə bilərsə, görünən özüdür, yoxsa oxşarıdır? Alimlərimiz buna müxtəlif cavablar vermişlər. Qəbirdə diri olduğunu hamısı təsdiq etdiktən sonra, özünün görüldüyünü də çoxu ifadə etmişdir. Belə olduğu hədislərdən də başa düşülməkdədir. Bir hədisdə; "Məni röyada görən, oyanıq ikən görən kimidir" buyurulmuşdur.[381]

Bunun üçün, İmamı Nəvəvi Həzrətləri; "Onu röyada görmək, bilavasitə özünü görmək deməkdir" demişdir. Hədisdə; "Məni röyada görən düz görmüşdür. Çünki şeytan, mənim cildimə girə bilməz" buyurulmuşdur.[382]

İbrahim Ləkani Həzrətləri belə demişdir ki; "Hədis alimləri, Rəsulullahın röyada olduğu kimi, oyanıq ikən də görülə biləcəyini təsdiq etmişdirlər. Hər iki vəziyyətə dair çoxlu misallar verilə bilər. Bunlardan bir neçəsini qeyd edək;

Muinuddin Çəşti Həzrətləri getdiyi hər yerdə qəbristanları ziyarət edər, orda bir müddət qalardı. Getdiyi yerlərdə tanınıb məşhur olduqdan sonra, orda qalmaz, heç kimə demədən gizlincə çıxıb gedərdi. Bu səyahətlərindən biri də Məkkəyə olmuşdu. Məkkəyi

---

[379] Heysəmi, *Məcməuz-Zəvaid*, XIII, 313; İbn Kəsir, *əs-Sirə*, IV, 547; İbn Sə'd, *ət-Təbəqat*, II, 194.
[380] İbn Sə'd, *ət-Təbəqat*, II, 298.
[381] Tirmizi, *Şəmaili Şərif*, s. 409.
[382] Buxari, "Tə'bir", 10; Müslim, "Ru'ya", 22; Əbu Davud, "Ədəb", 96; Tirmizi, "Ru'ya", 4; İbn Macə, "Tə'birur-Ru'ya", 4; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 400; İbn Əbi Şeybə, *əl-Musannəf*, VII, 232.

mükərrəməyə gedib, Kə'bəyi muəzzəməni ziyarət etdi. Bir müddət Məkkədə qalıb, ordan Mədinəyi münəvvərəyə getdi. Peyğəmbərimizin qəbri şərifini ziyarət etdiyi bir gün, türbəsindən; "Muinuddini çağırın" deyə bir səs eşidildi.

Bundan sonra türbəyə baxan adam; "Muinuddin!" deyə qışqırdı. Bir neçə yerdən; "Bəli, sahibim" səsi eşidildi. Sonra da; "Hansı Muinuddini istəyirsən? Burda adı Muinuddin olan çox adam var" dedilər.

Bundan sonra türbəyə baxan adam dala qayıdıb, Rövzəyi mütəhhərənin qapısında ayaqda durdu. İki dəfə; "Muinuddin Çəştini çağır" deyən bir səs eşitdi. Türbəyə baxan adam bu əmrdən sonra camaata üzünü tutub; "Muinuddin Çəştini istəyirlər" deyə qışqırdı.

Muinuddin Çəşti Həzrətləri bu sözü eşidincə, tamamilə başqa bir vəziyyətə düşdü. Ağlayıb, göz yaşları tökərək və salavat oxuyaraq sevgili Peyğəmbərimizin türbəsinə yaxınlaşdı və ədəblə ayaqda durdu. Bu əsnada; "Ey Qütbi məşayix! İçəri gir!" deyə bir səs eşitdi.

Peyğəmbərimiz ona belə buyurdu ki; "Sən mənim dinimə xidmət edirsən. Sənin Hindistana getməyin lazımdır. Hindistana get. Orda Əcmir deyilən bir şəhər vardır. Orda mənim övladımdan (nəvələrimdən) Seyyid Hüseyin adında biri var. Ora cihad və qəzvədə iştirak etmək niyyətiylə getmişdi. O təzəcə şəhid oldu. Əcmirin kafirlərin əlinə düşməsinə az qalıb. Sənin ora getməyinin səbəb və bərəkətiylə İslamiyyət yayılacaq və kafirlər məğlub edilib gücsüz və tə'sirsiz qalacaqlar". Sonra ona bir nar verdi və; "Bu nara diqqətlə bax. Hara gedəcəyini görüb, bil" buyurdu.

Muinuddin Cəşti Həzrətləri, Cənabi Peyğəmbərimizin verdiyi narı götürüb, əmr edildiyi kimi baxdı, şərqlə qərb arasındakı bütün məsafəni gördü.

Əhməd Rifayi Həzrətləri də həccə getmişdi. Qayıdanda, Mədinəyi münəvvərədə Rəsuli əkrəmin mübarək türbəsini ziyarət etdiyi əsnada, bu mənada bir şe'r oxumuşdu;

*"Uzaqdıq, toprağını*
*öpmək üçün sahibim,*
*Özüm gələ bilməz,*
*vəkil ruhumu göndərərdim.*
*İndi səni ziyarət*

*ne'məti oldu nəsib,*

*Ver mübarək əlini,*

*dodağım öpsün Həbib!"*

Şe'r qurtarınca, sevgili Peyğəmbərimizin qəbrindən mübarək əlləri göründü. Seyyid Əhməd Rifayi də həddən artıq tə'zim və hörmətlə Cənabi Peyğəmbərimizin mübarək əlini öpdü. Orda olanların hamısı heyrətlə hadisəni gördü.

Cənabi Peyğəmbərimizin mübarək əllərini öpdükdən sonra, Rövzəyi mütəhhərənin qapılarının ağzında yatdı. Ağlayaraq, ordakıların hamısına; "Məni tapdalayaraq keçin!" deyə yalvardı. Alimlər başqa qapılardan çıxmaya məcbur qaldılar. Bu kəramət çox məşhur olub, dildən-dilə günümüzə qədər gəlmişdir.

İbni Abidin Həzrətlərinin də kəramətləri və mənqibələri çoxdur. Beş vaxt namazda təhiyyatı oxuyarkən, Rəsulullahı normal gözlə görərdi. Görə bilmədiyi zaman o namazı təzədən qılardı.

İslam alimlərinin ən böyüklərindən ikinci min illiyin mücəddidi İmam Rabbani Əhməd Faruqi Sərhəndi Həzrətləri buyurmuşdur ki; "Ramazani şərifin axırıncı on günündə olduqca gözəl bir vəziyyət ortaya çıxdı. Yatağımda uzanıb yatırdım. Gözlərimi yummuşdum. Yatağımın üstündə başqa birisinin gəlib oturduğunu hiss etdim. Bir də nə görsəm yaxşıdır? Əvvəlkilərin və sonrakıların rəhbəri və sahibi Peyğəmbərimizdir.

Buyurdu ki; "Sənin üçün icazət yazmağa gəldim. Heç kimə belə bir icazət yazmadım". Gördüm ki, o icazətnamənin mətnində, bu dünyaya aid böyük lütüflər, arxa tərəfində də axirət dünyasına aid çoxlu inayətlər yazılıydı".

Əbdülqadir Geylani Həzrətləri "*Ğunyə*" kitabında İbrahim Təmimi Həzrətlərindən nəql edərək belə rəvayət etmişdir ki; "Xızır əleyhissalam mənə; "Əgər röyada Rəsulullahı görmək istəsən, axşam namazını qıldıqdan sonra, xiftən namazına qədər heç kimlə danışmadan ayağa durar, axşam namazından sonrakı təvvabin namazını qılarsan. Hər iki rük'ətdə bir salam verərsən. Hər rük'ətda bir dəfə Həmd, yəni Fatihə surəsini və yeddi dəfə İxlas surəsini oxuyarsan. Xiftən namazını da camaatla qıldıqdan sonra evinə gəlib vitr namazını qılarsan. Yatmamışdan qabaq da iki rük'ət namaz qılıb hər rük'ətdə Həmd (İxlas surəsini yeddi dəfə oxuyarsan. Namazdan sonra səcdəyə gedib yeddi dəfə Allah Təaladan bağışlanmağını istəyər, yeddi dəfə; "Subhanəllahi vəlhəmdu lillahi vəla quvvətə illa billahil aliyyil azim" deyərsən. Sonra başını səcdədən qaldırıb

oturaraq əllərini açıb; "Ya həyyu, ya qəyyum, ya zəlcəlali vəl ikram, ya ilahəl əvvəlinə vəl axirin və ya Rəhmanəddünya vəl axirəti və rahiməhuma, ya Rəbbi, ya Rəbbi, ya Rəbbi, ya Allah, ya Allah, ya Allah" deyərsən. Sonra ayağa qalxıb, eyni duanı oxuyarsan. Sonra səcdəyə gedib eyni duanı oxuyarsan. Sonra başını səcdədən qaldıraraq üzünü qibləyə tutub istədiyin şəkildə yatıb yuxuya gedərsən. Gözünə yuxu gedincəyə qədər Cənabi Peyğəmbərimizə salavati şərifə gətirərsən" dedi.

Mən; "Bu duanı kimdən öyrənmisənsə, mənə deməsəni istəyirəm" dedim. Həzrəti Xızır; "Mənə inanmırsan məgər?" dedi. "Məhəmməd əleyhissalamı haqq Peyğəmbər olaraq göndərən Allah Təalaya and içirəm ki, sənə inanıram" dedim.

Xızır əleyhissalam; "Mən, Rəsulullahın bu duanı öyrətdiyi və vəsiyyət etdiyi məclisdə iştirak etdim. Bu duanı Onun öyrətdiyi adamdan öyrəndim" buyurdu.

Mən də Xızır əleyhissalamın dediyi kimi etdim. Yatağımda Cənabi Peyğəmbərimizə salavati şərifə oxumağa başladım. Cənabi Peyğəmbərimizi görəcəyəmə çox sevindiyim üçün gözlərimə yuxu getmədi və səhərə qədər yata bilmədim.

Sübh namazını qılıb günəş çıxıncaya qədər oturdum. Zuha, yəni quşluq namazını qıldım. Öz-özmə; "Axşama çatsam, dünən gecə etdiyim kimi edərəm" dedim. O əsnada yatmışdım. Röyamda mələklər gəlib məni götürüb Cənnətə apardılar. Orda yaqut, zümrüd və incidən düzəldilmiş imarət və saraylar, bal, süd və Cənnət içgilərindən çaylar gördüm.

Məni Cənnətə aparan mələklərə; Bu imarət kimin üçündir?" deyə soruşdum. Mələklər; "Sənin gördüyün əməli görən kəslər üçündir" dedilər. Cənnət yeməklərindən yedirtməyincə və Cənnət sularından içirtməyincə məni Cənnətdən çıxartmadılar. Sonra məni Cənnətdən çıxardıb, əvvəlki yerə gətirdilər.

Sonra Rəsulullah, yanında yetmiş peyğəmbər və hər səfin arası şərqlə qərb arasını tutmuş yetmiş səf mələklə mənim yanıma gəlib salam verdi və əlimi tutdu. Bu əsnada mən; "Ya Rəsulullah! Xızır əleyhissalam bu hədisi səndən eşitdiyini söylədi" dedim. Cənabi Peyğəmbərimiz; "Xızır düz deyib, dedikləri doğrudur. Xızır yer üzündəkilərin ən bilgəsidir. Abdalların başçısıdır. Yer üzündəki Allahın əsgərlərindəndir" buyurdu.

Mən yenə; "Ya Rəsulallah! Bu əməli görənə, mənim bu gördüyümdən başqa bir mükafat var görəsən?" dedim. "Sənin gördüyündən, sənə ehsan olunandan daha üstün

nə mükafat ola bilər? Sən Cənnətdəki yerini və məqamını gördün. Cənnətin meyvələrindən yeyib, içgilərindən içdin. Mənimlə birlikdə mələkləri və peyğəmbərləri gördün. Hurilərini gördün” buyurdu.

“Ya Rəsulallah, Mənim gördüyüm əməli görüb, röyada mənim gördüyümü görməyən hər adama mənə ehsan edilən şeylər verilir?” dedim. “Məni haqq Peyğəmbər olaraq göndərən Allah Təalaya and içirəm ki, onların etdikləri böyük günahlar bağışlanır. Allah Təalanın o adam haqqındakı qəzəbi yox olar. Məni haqq Peyğəmbər olaraq göndərən Allah Təalaya and içirəm ki, bu əməli görən, röyada sənin gördüyünü görməsə də, sənə verilən ona da verilər. Səmadan bir səs, Allah Təala bu əməli göreni və şərqdən qərbə qədər olan Məhəmməd ümmətini bağışladı, deyə səslənir” buyurdu.

“Ya Rəsulallah! Sənin camalını və Cənnəti gördüyüm kimi, o adamın da bunlardan bir nəsibi var görəsən?” dedim. “Bəli, hamısı da ona verilər” buyurdu. “Ya Rəsulallah! Kişi və qadın, bütün mö’minlərə bu duanı öyrətmək və savablarını bildirmək doğrudur görəsən?” dediyimdə; “Məni haqq Peyğəmbər olaraq göndərən Allah Təalaya and içirəm ki, bu əməli Allah Təalanın səid (xoşbəxt) yaratdığı kəslərdən başqası görməz” buyurdu.

Röyada Peyğəmbərimiz Məhəmməd əleyhissalamı həqiqi şəkliylə görən, heç bir şübhə yoxdur ki, Onu görmüş olar. Çünki, şeytan Onun cildinə girə bilməz. Ancaq, şeytan başqasının cildinə girib görünə bilər. Rəsulullahı tanımıyan birinin, bunu ayırd etməsi heç də asan olmaz.

Bəzi alimlər də, “Cənabi Peyğəmbərimizi başqasını cildində görmək, elə Onu görmək kimi olar. Ancaq bu, o adamın dindəki nöqsanlığına dəlalət etməkdədir. Cənabi Peyğəmbərimizi röyada həqiqi şəkliylə görən və mö’min olaraq ölən hər kəs Cənnətə gedər” buyurmuşdurlar.

Əbu Hüreyrə, Rəsulullahın bu hədisini nəql etmişdir ki; “Bir nəfər Cümə gecəsində, iki rük’ət namaz qılsa, hər rük’ətdə Fatihə və Ayətəlkürsini bir dəfə, İxlas surəsini on beş dəfə oxusa, namazdan sonra min dəfə; “Allahummə salli ala Muhammədin nəbiyyil-ummiyyi” desə, o biri Cümə gəlməmişdən qabaq məni röyasında görər. O kimsənin keçmiş və gələcək bütün günahları bağışlanar. Cənnət məni görənlər üçündir”.

## Cənabi Peyğəmbərimizin qəbri çərifini ziyarət

Fəxri kainat Rəsulullah buyurmuşdur ki; “Hər kim vəfatımdan sonra məni ziyarət etsə, məni sağlığımda ziyarət etmiş kimidir”. “*Mirati Mədinə*” kitabında nəql edilən bir hədisdə; “Qəbrimi ziyarət edənə şəfaətim vacib oldu” buyurmşdur. Bu hədisi İbn Huzeymə, Bəzzar, Darəqutni və Tabərani qeyd etmişdir. Bəzzar Həzrətlərinin qeyd etdiyi başqa bir hədisdə; “Qəbrimi ziyarət edənə şəfaətim halal oldu” buyurulmuşdur.

Mislimin kitabında və Əbu Bəkir ibn Məkkarinin “*Mu’cəm*” kitabında yer alan hədisdə; “Hər kim ancaq məni ziyarət etmək üçün niyyət edib gəlsə, qiyamət günü ona şəfaət etməyim lazım gələr” buyurulmuşdur. Bu hədis, Rəsulullahın (səlləllahu əleyhi və səlləm) özünü ziyarət etmək üçün Mədinəyi münəvvərəyə gələnlərə şəfaət edəcəyini xəbər verməkdədir.

Darəqutninin nəql etdiyi başqa bir hədisdə isə; “Həcc ibadətini yerinə yetirdikdən sonra məni ziyarət etməyən məni incitmiş olar” buyurulmuşdur. Rəsulullahın (səlləllahu əleyhi və səlləm) ziyarət olunmaq istəmələri, ümmətinin bu yoldan da savab qazanmalarını tə’min etmək üçündir.

Bunun üçün fiqh alimlərimiz, həcc vəzifəsini yerinə yetirdikdən sonra, Mədinəyi münəvvərəyə gələrək, Məscidi şərifdə namaz qılardılar. Sonra “Rövzəyi mütəhhərə” ilə Minbəri muniri və Ərşi ə’ladan əfzəl olan qəbri şərifi, sonra oturduğu, getdiyi, dayandığı yerləri, vəhy gəldiyi vaxt söykəndiyi sütunu, məscid tikilərkən və təmir edilərkən can-başla işləyən və ianə verməklə şərəflənən Əshabi kiramın və tabiunun keçdikləri yerləri ziyarət edər, oraları görməklə bərəkətlənərdilər. Onlardan sonra gələn alimlər və saleh şəxslər də, həcdən sonra Mədinəyə gələr, fiqh alimlərimiz kimi edərdilər. Keçmişdə olduğu kimi, bu gün də hacılar bu adətə bağlı qalaraq Mədinəyi münəvvərəyə ziyarət üçün gedərlər.

Çəkin tərki ədəbdən, kuyi məhbubi Xudadır bu,
Nəzərgahı ilahidir, məqami Mustafadır bu!
Muraəti ədəb şərtiylə gir Nabi bu dərgaha,
Mətafi qüdsiyandır, busəgahı ənbiyadır bu!

*NABİ*

İslam alimlərinin günəşi Əbu Hənifə Həzrətləri; “Müstəhəblərin ən üstünlərindən olan qəbri səadətin ziyarəti, vacib dərəcəsinə yaxın bir ibadətdir” buyurmuşdur.

Rəsulullahın qəbri şəriflərini ziyarətə gedən şəxsin çox salavati şərifə gətirməsi lazımdır. Oxunan bu səlat və salamların Cənabi Peyğəmbərimizə çatdığı hədisdə nəql edilmişdir. Sevgili Peyğəmbərimizi ziyarət etmə ədəb-ərkanı da belə bildirilmişdir; “Mədinəyi münəvvərə şəhəri uzaqdan görülüncə, səlat və salam verilir. Sonra; “Allahummə həzə harəmu nəbiyyikə, fəc’alhu viqayətən li minənnar və əmanən minələzab və suilhisab” deyilir. Əgər mümkün olsa şəhərə vəya məscidə girməmişdən qabaq qüsl dəstəmazı alınır. Xoş iyli ətrdən istifadə edilir. Təzə və təmiz paltar geyinilir. Çünki bunlar, tə’zim və hörmət ifadə edər. Mədinəyi münəvvərəyə təvazökarlılıq və sükunət içində girilir. “Bismillahi və ala milləti Rəsulillah” dedikdən sonra, İsra surəsinin 80-ci ayəsi oxunur. Onsan sonra isə; “Allahummə salli ala Muhammədin və ala Ali Muhamməd. Vağfir li zunubi vəftah li əbvabə rahmətikə və fazlikə” deyərək, Məscidi Nəbəviyə girilir. Sonra Rəsulullahın minbərinin yanında iki rük’ət təhiyyətulməscid[383] namazı qılınmalı, minbərin dirəyi, sağ çiyin tərəfində qalacaq şəkildə namazda durulmalıdır.

Sevgili Peyğəmbərimiz də burda namaz qılardı. Bura, Cənabi Peyğəmbərimizin qəbri ilə minbəri arasıdır. Hədisdə; “Qəbrim ilə minbərim arası Cənnət bağçalarından bir bağçadır. Minbərim, hovuzumun üstündədir” buyurulmuşdur.[384] Sonra, ziyarət edən şəxs, Rəsulullahın mübarək qəbrini ziyarət etməyi özünə nəsib etdiyi üçün Allah Təalaya səcdə etməlidir. Duadan sonra durub, Cənabi Peyğəmbərimizin qəbri şərifinə, hücrəyi səadətə gəlməli, arxasını qibləyə çevirərək Rəsulullahın mübarək üzündən təxminən iki metr uzaqda ədəb-ərkanla dayanmalıdır. Daha çox yaxınlaşılmamalıdır. Bütün bunlar saf niyyətlə olmalıdır. Allah Təalanın Qur’ani Kərimdə əmr etdiyi şəkildə, sanki hələ də yaşayan Rəsulullahın hüzuruna çıxmışcasına ədəb qaydalarına riayət edilməlidir. Sükunətli və təmkinli olunmalıdır. Əlini, qəbri şərifin divarlarına sürtmədən

[383] Hər hansı bir məscidə girərkən iki rü’kət sünnət namazı qılmaq.
[384] Beyhəqi, *Şuabul-İman,* III, 491. Ancaq, bəzi qaynaqlarda “Qəbrim ilə minbərim arası Cənnət bağçalarından bir bağçadır. Minbərim, hovuzumun üstündədir” şəkilində yer almaqdadır. Bax; Buxari, “İtisam”, 16; Muslim, “Həcc”, 588; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, II, 236.

uzaqda ədəblə durmaq, hörmətə daha münasibdir. Namaz əsnasındakı duruş kimi durulmalıdır.

Rəsulullahın mübarək, lətif surətini xəyalına gətirməli, onu gördüyünü, salamını və dualarını eşitdiyini düşünməli, ona cavab verdiyini, amin dediyini fərz etməlidir. Rəsulullah da; "Kim mənə qəbrimin başında səlat oxuyarsa, onu eşidərəm" buyurmuşdur. Yenə hədisdə, Rəsulullahın qəbri şəriflərində bir mələk vəkil qoyulmuşdur, o mələyin ümmətindən salam verənlərin salamını özünə çatdırdığı bildirilmişdir. Sonra; "Əssalamu aleykə ya seyyidi, ya Rəsulallah! Əssalamu aleykə ya Nəbiyyallah! Əssalamu aleykə ya Safiyyallah! Əssalamu əleykə ya Həbiballah! Əssalamu aleykə ya Nəbiyyərrahməti! Əssalamu aleykə ya Şəfiəlumməti! Əssalamu aleykə ya Seyyidəlmursəlin! Əssalamu aleykə ya Xatəmənnəbiyyin!

Allah Təala sənə ən yüksək mükafat və əcr ehsan etsin. Mən şəhadət edirəm ki, sən peyğəmbərlik vəzifəni yerinə yetirdin. Sənə verilən əmanəti verdin. Ümmətinə nəsihət etdin. Yaxın (ölüm) sənə gəlincəyə qədər, Allah Təalanın yolunda cihad etdin. Allah Təala sənə qiyamət gününə qədər səlat və salam etsin. Ya Rəsulallah! Biz sənin yanına çox uzaq yerlərdən gəldik. Sənin qəbri şərifini ziyarət etmək, sənin haqqını ödəmək, sənin etdiklərini bilavasitə öz yerində görmək, səni ziyarət ilə bərəkətlənmək, sənin Allah Təalanın nəzdində bizə şəfaətçi olmağını ummaq üçün gəldik. Çünki, günahlarımız bellərimizi bükdü. Günahlarımız çiyinlərimizə ağır gəldi. Ya Rəsulallah! Sən, həm şəfaət edən və həm də şəfaəti qəbul olunansan. Məqami Mahmud sənin üçün və'd edilmişdir.

Həm də ki, Allah Təala da Qur'ani Kərimdə (Nisa surəsinin 64-cü ayəsində məalən); "Biz, hər bir peyğəmbəri ancaq Allah Təalanın əmri ilə (göndərildiyi qövmü tərəfindən) özünə itaət olunması üçün göndərdik. Onlar, nəfslərinə zülm etdikdən sonra, gələr, Allah Təaladan bağışlanmalarını istəyərlər. Rəsulum da onlar üçün məğfirət diləsə, Allah Təala əlbəttə ki, tövbələri qəbul edər və O, çox mərhəmətlidir" buyurmaqdadır. Biz sənin hüzuruna gəldik. Ancaq, biz nəfslərimizə zülm etdik. Günahlarımızın bağışlanmasını diləyirik.

Ya Rəsulallah! Allah Təalanın nəzdində bizə şəfaət et. Ya Rəsulallah! Allah Təaladan, bizim ruhumuzu sünnətin üçün almasını, qiyamət günündə də səninlə birlikdə məhşər yerinə gələnlərdən etməsini, sənin hovuzuna gəlib, orda sənin hovuzundan içməyi nəsib etməsini dilə. Ya Rəsulallah! Sənin şəfaətini istəyirik" deyə dua edilməli

və “... Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman etmiş qardaşlarımızı bağışla! İman etmiş olanlar üçün qəlblərimizdə bir kin qoyma! Ey Rəbbimiz! Heç bir şübhə yoxdur ki, sən şəfqət və mərhəmət sahibisən!” məalındakı Həşr surəsinin 10-cu ayəsi oxunmalıdır.

Sonra salam göndərənlərin salamını çatdırıb; “Əssalamu əleykə ya Rəsulallah! Bu adam, sənin Allah Təalanın nəzdində özünə şəfaətçi olmağını istəyir. Ona və bütün müsəlmanlara şəfaət et” deyilməli və istədiyi qədər salavat oxunmalıdır. Sonra təxminən yarım metr sağa, Əbu Bəkiri Siddiq Həzrətlərinin mübarək qəbrinin yanına gəlinib; “Əssalamu aleykə ya xəlifətə Rəsulillah! Əssəlamu aleykə ya rəfiqahu filğar! Əssalamu aleykə ya əminəhu alələsrar!”.

Allahu Təala, bu ümmətinin imamı olaraq sənə ən yüksək mükafat və əcr versin. Sən Rəsulullaha ən yaxşı şəkildə xəlifə oldun. Ən yaxşı şəkildə Onun uca sünnətini tə’qib etdin. Mürtədlərlə (dindən çıxanlarla) və səhv yola düşənlərlə muharibə apardın. Həmişə haqqı söylədin. Vəfat edincəyə qədər, haqq yolda olanlara yardımçı oldun. Allah Təalanın salamı, rəhməti və bərəkəti üzərinə olsun! Allahım! Rəhmətinlə, Onun sevgisi üçün ruhumuzu al. Bu ziyarətimizi boşa çıxartma!” deyə dua edilməlidir.

Sonra yenə yarım metr sağa, Həzrəti Ömərin qəbrinin yanına gəlinməli və; “Əssalamu aleykə ya Əmirəlmu’minin! Əssalamu aleykə ya Muzhirəlİslam! Əssalamu aleykə ya Muksirələsnam!” Allah Təala sənə ən yüksək əcr və mükafat versin. Sağ olarakən də, öldükdən sonra da İslama və müsəlmanlara yardım etdin. Yetimlərə zamin durdun. Qohumlara yaxşılıq etdin. Müsəlmanlar üçün, razı qaldıqları, həm özü hidayət tapan və həm də insanlara doğru yol göstərən bir rəhbər oldun. Onların işlərini səhmana saldın. Kasıbllarını varlandırdın, yaralarına məlhəm sürtdün. Allah Təalanın salamı, rəhməti və bərəkəti sənin üzərinə olsun!” deyilməlidir.

Sonra Həzrəti Əbu Bəkir və Həzrəti Öməra xitab edərək; “Əssalamu aleykuma yə daciayrəsulillah və rəfiqeyhi və vəzireyhi və muşireyhi vəl muavineyni ləhu aləlqiyami fiddini vəlqaimeyni ba’dəhu biməsalihilmüslimin!” Allah Təala, sizə ən yaxşı mükafatını versin. Allah Təaladan, Rəsulullahın bizə şəfaət etməsini, bizim sə’y göstərməyimizi qəbul etməsini, bizi İslam dini üçün öldürüb, yenə İslam dini üçün diriltməsini, qiyamət günündə Rəsulullaha yaxın olanlar arasında həşr etməsini diləməsi üçün, Rəsulullahla birlikdə sizi vəsilə edirik” deyilməlidir.

Sonra özü, ana-atası, dua istəyənlər və bütün müsəlmanlar üçün dua edilməlidir. Bundan sonra Rəsulullahın mübarək üzünə tərəf dayanıb; “Ey Allahım!

“Biz hər peyğəmbəri, ancaq Allah Təalanın əmri ilə (göndərildiyi qövmü tərəfindən) özünə itaət olunması üçün göndərdik. Onlar öz nəfslərinə zülm etdikdən sonra, gəlib Allah Təaladan məğfirət istəyərlər. Rəsulum da onlar üçün məğfirət istəyərsə, Allah Təala əlbəttə ki, tövbələri qəbul edər. O, mərhəmət sahibidir” buyurursan.[385] Ya Rəbbi! Sənin uca kəlamına əməl edərək, əmrinə itaət edərək, sevgili Peyğəmbərinin sənin hüzurunda bizə şəfaət etməsini diləyirik” deyə dua edildikdən sonra, daha əvvəl oxunan; “Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman etmiş qardaşlarımızı bağışla. İman etmiş olanlar üçün qəlblərimizdə bir kin qoyma! Ey Rəbbimiz! Heç bir şübhə yoxdur ki, sən çox şəfqət və mərhəmət sahibisən!” məalındakı Həşr surəsinin 10-cu ayəsi ilə, “Rabbənağfir ləna və liabaina və liumməhatina və liixvaninəlləzinə səbəqunə bilimani” “Rabbəna atina...” və “Subhanə Rabbikə...” ayələri oxunduqdan sonra Hücrəyi səadət ziyarət edilib qurtarılar.

Sonra Rəsulullahın qəbri ilə minbəri arasında yerləşən və Əbu Lubabə Həzrətlərinin öz-özünü bağlayaraq tövbə etmiş olduğu sütunun yanına gedilər. Burda iki rük’ət namaz qılınar və Allah Təalaya tövbə edib, məğfirət istənilər. İstənilən dualar oxunar. Sonra Rövzəyi mütəhhərəyə gedilər. Bura dörd bucaq şəklində bir yerdir. Burda istənilən qədər namaz qılınar və dua edilər. Təsbihlər oxunar. Allah Təalaya həmdü sənalar deyilər. Sonra minbərin yanına gəlib, Rəsulullahın bərəkətinə nail olmaq niyyətiylə, Cənabi Peyğəmbərimizin xütbə oxuyarkən mübarək əlini üstünə qoyduğu yerə əl qoyular. Burda iki rük’ət namaz qılınar. Allah Təalaya dua edilər. Allah Təalanın qəzəbindən rəhmətinə sığınılar. Sonra, Hənnanə dirəyinin yanına gəlinər. Bu sütun, Rəsulullahın xütbə oxumaq üçün minbərə çıxarkən, onu tərk etdiyi üçün inildəyib, sonra Rəsulullahın düşüb onu qucaqlamasından sonra sakitləşən dirəkdir. Burda qaldığı müddətdə, gecələrini Qur’ani Kərim oxumaqla, Allah Təalanı zikr etməklə, minbərlə qəbrinin yanında, səssizcə və yüksək səslə dua etməklə məşğul olunmalıdır.

Rəsulullahın mübarək Xanımlarının otaqları, Məscidi səadətə bitişdirilməmişdən qabaq, Hücrəyi səadətin qiblə tərəfində yeri çox az idi. Muvacəhəyi səadətə tərəf durmaq çətin idi. Ziyarətçilər, Hücrəyi səadətin Rövzəyi mütəhhərənin divarındakı qapısının qabağında qibləyə tərəf dayanıb, salam verərdilər. Sonra İmam Zeynəlabidin, Rövzəyi mütəhhərəyə arxasını çevirib salam verərdi. Uzun zaman bu

[385] ən-Nisa 4/64.

şəkildə ziyarət edildi. Mübarək Xanımların otaqları da məscidə bitişdirildikdən sonra, Muvacəhəyi şərifənin pəncərəsinin qabağında dayanıb ziyarət edilməyə başlandı.

Həzrəti Aişənin otağı üç metr hündürlüyündə, kərpiclə xurma budaqlarından tikilmişdi. Biri qərb, digəri də şimal tərəfində iki qapısı vardı. Qərb qapısı Rövzəyi mütəhhərə tərəfindədir. Həzrəti Ömərin xəlifəliyinin axırıncı illərində Məscidi səadət genişlədilərkən, Hücrəyi səadətin ətrafına daşdan qısa bir divar tikildi.

Abdullah ibn Zübeyir xəlifə olduğunda bu divarı yıxdırıb, qara daşdan daha möhkəm bir divar tikdirdi. Üstü açıq olan divarın şimal tərəfində bir qapısı vardı. Həzrəti Həsən, hicrətin qırx doqquzuncu ilində vəfat edincə Həzrəti Hüseyin, vəsiyyətini yerinə yetirərək qardaşının cənazəsini Hücrəyi səadətin qapısı ağzına gətirib, dua və istiğasə edəcəyi zaman, bura dəfn edəcəklərini zənn edərək içəri salınmasına e'tiraz edənlər olunca, Bəqi qəbristanlığına dəfn etdirdi. Daha sonra belə hadisələrlə qarşılaşmamaq düşüncəsi ilə divarın və otağın qapısını hörərək örtdülər.

Əməvi xəlifələrinin altıncısı olan Vəlid, Mədinə valisi ikən Məscidi səadətin divarını hündürləşdirdi və üstünə kiçik bir qübbə örtdürdü. Üç qəbir, nə çöldən görülə bildi, nə də içəri girilə bildi. Ömər ibn Əbdüləziz Mədinəyi münəvvərə valisi ikən, 707-ci ildə (Hicri 88-ci il) xəlifə Vəlidin əmri ilə, zəvcati tahiratın otaqlarını sökdürüb Məscidi səadəti genişlətdi. Ayrıca, bu divarın ətrafında qapısı olmayan beş künclü bir divar da hördürdü.

İraqda Zəngi xanədanlığının idarə etdiyi Atabəylər dövlətinin vəziri və Səlahəddin Eyyubinin əmisi oğlu olan Cəmaləddin İsfəhani, 1189-cu ildə (Hicri 584-cü il) Hücrəyi səadətin çöl divarı ətrafında səndəl və abnos ağaclarından məscidin tavanına qədər uzanan bir məhəccər düzəltdirdi.

Ancaq, 1289-cu ildə baş ver birinci yanğında yanınca, yerinə dəmirdən bir məhəccər düzəldilərək yaşıl rəngə boyandı. Bu məhəccərə Şəbəkəyi səadət deyilir. Şəbəkəyi səadətin qiblə tərəfinə Muvacəhəyi səadət, şərq tərəfinə Qədəmi səadət, qərb tərəfinə Rövzəyi mütəhhərə, şimal tərəfinə isə Hücrəyi Fatimə deyilir.

Məkkəyi mükərrəmə, Mədinəyi münəvvərənin cənubunda olduğu üçün, Məscidi nəbəvinin ortasında, yəni Rövzəyi mütəhhərədə, qibləyə üzünü tutan bir adamın sol tərəfində Hücrəyi səadət, sağ tərəfində isə Minbəri şərif yer alır.

847-ci ildə (Hicri 232-ci il) ilində Şəbəkəyi səadətin olduğu yerlə çöl divarların arasında və bu yerin çölünə vaxtaşırı dəyişdirilən mərmər döşəndi. Bu vəzifəni ən axırıncı dəfə Hökmdar Əbdülməcid Xan yerinə yetirdi.

Hücrəyi səadətin beş künclü divarları ilə birlikdə üstünə Qübbətunnur deyilən kiçik bir qübbə də örtülmüşdü. Osmanlı padşahlarının göndərdikləri Kisvəyi şərifə bu qübbə üstünə örtülərdi. Qübbətunnurun üstündəki, Məscidi Səadətin böyük yaşıl qübbəsinə isə Qübbətulxadra deyilir. Şəbəkəyi səadət deyilən məhəccərin çöl tərəfinə örtülən kisvə Qübbətulxadranın altındakı tağlardan asılıdır. Bu iç və çöl pərdələrə Səttarə deyilir.

Şəbəkəyi səadətin şərq, qərb və şimal tərəflərindən hər birində bir qapı vardır. Şəbəkəyi səadətin içinə harəmi şərif ağalarından başqa birisi girə bilməzdi. Onsuz da qapı və pəncərələri olmadığından, təkcə qübbənin ortasında kiçik bir dəlik olub, tel məhəccərlə örtülüdür. Bu dəliklə üst-üstə düşən yerdə Qübbətulxadrada da bir dəlik açılmışdır. Məscidi şərifin qübbəsi 1837-ci ilə (Hicri 1253-cü il) qədər qurğuşun rəngində idi. Hökmdar İkinci Mahmud Adli Xanın əmri ilə yaşıl rəngə boyandı. 1872-ci ildə (Hicri 1289-cu il) Əbdüləziz Xanın əmri ilə təzədən boyandı.

Məscidi səadəti tə’mir edilməsi və bəzədilməsi üçün hökmdar Əbdülməcid Xan qədər çox vəsait xərcləyən və çalışan başqa bir nəfər olmamışdır. Harəmeyni tə’mir etmək üçün yeddi yüz min qızıl xərcləmiş və tə’mir işləri 1861-ci ilə qədər (Hicri 1277-ci il) davam etmişdir.

Məscidi Nəbəvinin tə’mir edilməsi üçün minlərlə qızıl sərf edən Hökmdar Əbdülməcid Xan, köhnə şəklini İstanbulda Hırkayi şərif məscidində əbədiləşdirmək məqsədiylə əmr etmiş, bunun üçün 1850-ci ildə, mühəndis məktəbi müəllimlərindən mayor rəssam Hacı İzzət Əfəndi Mədinəyə göndərilmişdir. İzzət Əfəndi hər yeri ölçərək, əlli üç dəfə balacalaşdırılmış bir maketini bir ildə düzəldib İstanbula göndərincə, Hökmdar Əbdülməcid Xanın tikdirdiyi Hırkayi şərif məscidində saxlanmışdır.

Əbdülməcid Xanın tə’mirindən sonra, qiblə divarı ilə Şəbəkəyi səadət arasındakı məsafə yeddi metr yarım, şərq divarından Qədəmi səadət şəbəkəsinə altı metr, Şəbəkəyi Şaminin uzunluğu on bir metr, Muvacəhəyi şərifənin şəbəkəsi ilə Şəbəkəyi Şami arasındakı uzunluq on doqquz metrdir. Məscidi Nəbəvinin qiblə tərəfindən uzunluğu yetmiş yeddi metr, qiblə divarından Şami divarına qədər olan

uzunluq isə yüz on yeddi metrdir. Hücrəyi səadət ilə minbəri şərifin arasında yerləşən Rövzəyi mütəhhərənin uzunluğu isə on doqquz metrdir.

Hücrəyi səadət ilə minbəri şərif arasında yerləşən Rövzəyi mütəhhərənin uzunluğu isə on doqquz metrdir. Osmanlılardan sonra, bu müqəddəs yerlərdə bir çox dəyişikliklər edilmiş, beləcə əcdadımızın düzəltdirdiyi çox qiymətli tarixi əsərlər yıxılmış və talan edilmişdir.

Rəsulullahı ziyarət etdikdən sonra Bəqi qəbristanlığına getmək, oranı da ziyarət etmək müstəhəbdir. Sonra digər qəbirləri, ələlxüsus Seyyiduşşühəda (şəhidlərin ağası) Həzrəti Həmzənın qəbri ziyarət edilməlidir. Yenə Bəqidə Həzrəti Abbas və orda dəfn edilən Həsən ibn Əli, Zeynəlabidin, oğlu Məhəmməd Baqir və onun oğlu Cə’fəri Sadiq, Əmirülmö’minin Həzrəti Osman, Rəsulullahın oğlu İbrahim, Rəsulullahın orda dəfn edilən mütəhhər xanımları, xalası Safiyyə, bir çox Səhabə və Tabiun böyükləri ziyarət edilməlidir. Bəqidəki Fatimə Məscidində namaz qılınmalıdır. Pərşənbə günü Ühüd şəhidlərini ziyarət etmək müstəhəbdir. Orda; “Salamun aleykum bima sabərtum. Fəni’mə uqbəddar. Salamun aleykum ya əhlə darilqavmilmu’minin və inna inşaallahu an qaribin bikum lahiqun” deyilməlidir. Sonra Ayətəlkürsi və İxlas surəsi oxunmalıdır.

Hücrəyi səadəti ziyarət edənlərin çox məntiqli olması lazımdır. Ürəyində dünya düşüncələri yer almamalıdır. Məhəmməd əleyhissalamın mübarək nurunun və dərəcəsinin ucalığını fikirləşməlidir. Dünya işlərini və sözü keçən şəxslərlə görüşüb qazanc əldə etməyi və alver niyyətiylə edilən duaları Allah Təala qəbul etməz, istəklərinə qovuşa bilməzlər.

Hücrəyi səadəti ziyarət etmək şərəfli bir ibadətdir. Buna inanmayanların müsəlmanlıqdan bir payı olduğuna şübhə edilir. Çünki bunlar, Allah Təalaya, Rəsuluna və bütün müsəlmanlara qarşı gəlmiş olur. Maliki alimlərindən bir neçəsi, Rəsulullahı (səlləllahu əleyhi və səlləm) ziyarət etməyin vacib olduğunu demişlər. Ancaq, bu ibadətin ümümiyyətlə müstəhəb olduğu bildirilmişdir.

## Təvəssül

Cənabi Peyğəmbərimizə hər zaman; yaradılmamışdan qabaq, yaradıldıqdan sonra, dünyada ikən və vəfatından sonra, bərzəx, yəni qəbir həyatında təvəssül edilmiş,

qiyamət günü dirildikdən sonra Ərasat meydanında və Cənnətdə də ediləcəkdir. Vəsilə, Allah Təalanın nəzdində yaxınlığa və duaların qəbul edilməsinə səbəb olan hər şeydir.

Rəsuli əkrəm ilə təvəssül etmək, yəni Rəsulullahı Allah Təala nəzdində vəsilə etmək, Onun yardımını və şəfaətini istəmək caizdir. Bunlar, Peyğəmbər (əleyhimussalam), Sələfi salihinin, alimlər və digər müsəlmanların etdiyi şeylərdəndir. Müsəlmanlardan heç kim bunu pis görməmişdir. İndiyə qədər, yalnış e'tiqad sahibləri xaricində, bunları qəbul etməyən heç kimə rast gəlinməmişdir.

İnsanlığın atası Adəm əleyhissalam yer üzünə endirildiyi vaxt, Cənabi Peyğəmbərimizə təvəssül etmişdir. Bunu sevgili Peyğəmbərimiz bir hədisində belə buyurmuşdur; "Adəm əleyhissalam, səhvi səbəbiylə Cənnətdən çıxardılınca; "Ya Rəbbi! Məni Məhəmmədin hörmətinə bağışla" dedi. Allah Təala "Ey Adəm! Sən Məhəmmədi hardan tanıyırsan? Hələ mən Onu yaratmamışam" buyurdu. Adəm (əleyhissalam); "Ya Rəbbi! Məni yaradıb mənə ruh verdiyin zaman, gözümü açıb baxdığımda, ərşin kənarında "La ilahə illallah, Məhəmmədun Rəsulullah" yazıldığını gördüm. Adını adınla sevdiyin Odur, dedi. Allah Təala; "Doğru dedin ey Adəm! Məxluqatımdan ən çox sevdiyim Odur. Onun hörmətinə məğfirət dilədiyin üçün səni bağışladım" buyurmuşdur".[386]

Bir rəvayətə görə də; "O, sənin zürriyyətindən gələcək olan bir Peyğəmbərdir. Onu yaratmasaydım, səni və övladlarını yaratmazdım. Onu şəfaətçi göstərdiyin üçün səni bağışladım" buyurmuşdur".[387]

Bununla əlaqəli minlərlə misal vardır. Bunlardan bir neçə dənəsi aşağıda verilmişdir; "İki gözü kor olan bir adam, gözlərinin açılması üçün Rəsulullahdan dua etməsini istədi. Rəsulullah (səlləllahu əleyhi və səlləm) də; "İstəsən dua edərəm. Ancaq, səbr edib dözsən, sənin üçün daha yaxşı olar" buyurdu. "Səbr etməyə heyim qalmadı. Dua etməyiniz üçün yalvarıram" dedi. "Elə isə, dəstəmaz alıb bu duanı oxu!" buyurdu. "Allahummə inni əsalukə və ətəvəccəhu ileykə bi nəbiyyikə Məhəmmədin nəbiyyirrəhməti. Ya Məhəmməd! İnni ətəvəccəhu bikə ila Rəbbi fi hacəti litaqdiyə Allahummə şəffihu fiyyə".

O adam, bu duanı oxuyunca, Allah Təala qəbul edərək gözlərinin açıldığını hədis alimlərindən İmam Nəsayi nəql etməkdədir.

---

[386] Hakim, *əl-Müstədrək*, II, 672; İbn Kəsir, *əs-Sirə*, I, 320.
[387] Heysəmi, *Məcməuz-Zəvaid*, VIII, 198.

Rəsulullaha təvəssül edilməsi ilə əlaqəli Osman ibn Hənif Həzrətləri bu hadisəni nəql etmişdir ki; "Osman ibn Əffan xəlifə ikən, böyük bir çətinliyə düşən bir nəfər, Xəlifəyə öz dərdini danışmağa utandığı üçün mənə danışmışdı. Mən də Ona; "Vaxt itirmədən dəstəmaz al! Məscidi səadətə get! Yuxarıda deyilən duanı oxu, istəyini bildir" dedim.

Adam, dua etdikdən sonra Xəlifənin olduğu yerə gedib hüzuruna çıxardılmış, Xəlifə onu səccadəsi üstündə oturdub, dərdini dinləmiş və qəbul etmişdi. Adam, işinin birdən-birə həll edildiyini görüncə, sevinərək mənim yanıma gəldi. "Allah Təala səndən razı olsun! Xəlifəyə sən deməsəydin, çətinlikdən xilas ola bilməyəcəkdim" dedi. O, mənim Xəlifə ilə görüşdüyümü zənn eləyirdi.

Həzrəti Ömər xəlifə ikən qıtlıq baş verdi. Əshabi kiramdan Bilal ibn Hars, Rəsulullahın türbəsinə gedib; "Ya Rəsulallah! Ümmətin aclıqdan az qala ölsün. Yağış yağması üçün sənə təvəssül edərək yalvarıram" dedi. Rəsulullah o gecə röyasında görünüb; "Xəlifənin yanına get! Məndən salam de! Yağış duasına çıxsın!" buyurdu. Həzrəti Ömər yağış duasına çıxınca, yağış yağmağa başladı.

Allah Təala sevdiklərinin xətri üçün, duaları qəbul etməkdədir. Allah Təala, Məhəmməd əleyhissalamı çox sevdiyini bildirmişdir. Bunun üçün bir adam, "Allahummə inni əsalukə bicahi Nəbiyyikəl-Mustafa" deyərək bir dua etsə, duası rədd olunmaz. Bununla birlikdə, xırda-xuruş dünya işləri üçün Rəsulullaha təvəssül etmək ədəbə münasib düşməz.

Burhanəddin İbrahim Maliki buyurmuşdur ki; "Çox ac olan kasıb bir nəfər, Hücrəyi səadətə gedib; "Ya Rəsulallah! Qarnım acdır" dedi. Bir az sonra başqa biri gəlib, kasıb adamı evinə aparıb, qarnını doyuzdurdu. Kasıb etdiyi duanın qəbul olduğunu deyincə, "Qardaşım! Ailə-uşağından ayrılıb uzaq yollardan əzab-əziyyətlərlə Rəsulullahı ziyarət üçün gəldin. Bir tikə çörək üçün Rəsulullahın hüzuruna çıxmaq heç yaraşar? O yüksək hüzurda Cənnəti və əbədi ne'mətləri istəməliydin! Burda istənilən şeyləri Allah Təala rədd etməz" dedi. Rəsulullahı ziyarət etmək şərəfinə qovuşanlar, qiyamət günündə şəfaət etməsi üçün dua etməlidir".

İmam Əbu Bəkiri Mukri, bir gün İmam Tabərani və Əbu Şeyx ilə Məscidi səadətdə oturmuşdular. Bir neçə gündən bəri bir şey yemədikləri üçün çox acımışdılar. İmam Əbu Bəkir dözə bilməyərək; "Acam ya Rəsulallah!" dedikdən sonra, bir küncdə oturdu. Seyyidlərdən bir zat, iki qulluqçusu ilə gələrək; "Qardaşlarım! Babam

Rəsulullahdan kömək istəmisiniz. Sizi doyuzdurmağımı əmr etdi" dedi və gətirdiklər yeməkləri birlikdə yedilər. Artıq qalanını da onlar üçün qoyub getdilər.

İslam alimlərindən Əbu Abdullah Məhəmməd Məraqəşi (Vəfatı 683/1284), "*Misbahuz-zulam*" adlı qiymətli kitabında Rəsulullaha təvəssül edərək muradlarına qovuşan yüzlərlə müsəlmanı və dualarını ətraflı şəkildə yazmaqdadır. Rəsulullaha təvəssül edərək muradlarına qovuşanlardan biri də, Məhəmməd ibn Munkədirdir. Belə nəql etmişdir ki; "Bir adam, atama səksən qızıl əmanət verib cihada getmişdi. "Bunları saxla! Çox möhtac olan birisinə də kömək edə bilərsən" demişdi. O aralar Mədinədə qıtlıq baş verdi. Atam qızılların hamısını aclıqdan qovrulanlara payladı. Daha sonra qızılların sahibi gəlib əmanətini istədi. Atam; "Bir gün sonra gəl" dedi. Hücrəyi səadətə gedib, səhərə qədər Rəsulullaha yalvardı. Gecə yarısı bir adam gəlib; "Uzat əlini!" dedi. Bir kisə qızıl verib, gözdən itdi. Atam evdə qızılları sayıb səksən ədəd olduğunu görüncə, sevinərək dərhal sahibinə qaytardı".

İmam Məhəmməd Musa Həzrətləri, bu kitabında başına gələn bir hadisəni belə nəql edir ki; "637-ci ildə (Miladi 1239-cu il) Sadər qalasından seçgin bir camaatla birlikdə çıxdıq. Yanımızda bizə bələdçilik edən bir nəfər də vardı. Bir müddət getdikdən sonra suyumuz qurtardı. Su axtarmağa başladıq. Mən də fürsətdən istifadə edib pişova getmək üçün aralandım. Bu əsnada yuxu mənə güc gəldi. Necə də olsa, gedərkən məni oyandırarlar deyib, yuxuya getdim. Oyandığımda, özümü çölün ortasında tək-tənha gördüm. Dostlarım məni yaddan çıxardıb getmişdilər. Tək olduğum üçün yaman qorxdum. Çöldə, o tərəf, bu tərəfə getməyə başladım. Harda olduğumu, hara gedəcəyəmi bilmirdim. Hər tərəf qum idi. Bir az sonra hava qaraldı. Bir yerdə səfərə çıxdığımız qafilənin izi-tozu belə yox idi. Mən, gecə qaranlığında tək-tənha qalmışdım. Qorxum daha da çoxaldı. Həyəcanlanıb daha sür'ətlə getməyə başladım.

Bir müddət getdikdən sonra, çox susdamış və yorulmuş bir halda yerə yıxıldım. Artıq həyatımdan ümidimi kəsmiş, ölümümün yaxınlaşdığını hiss edirdim. Susuzluq və yorğunluqdan, əziyyət və ələmim həddən artıq çox idi. Birdən ağlıma gəldi və gecə qaranlığında; "Ya Rəsulallah! Özünü çatdır! Səndən, Allah Təalanın izniylə yardım etməyini istəyirəm!" deyə dua etdim.

Sözümü qurtaran kimi, birinin məni çağırdığını eşitdim. Səsin gəldiyi tərəfə baxdığımda gecə qaranlığında, ətrafına işıq saçan, ağ-appaq paltarlar geyinmiş, o zamana qədər heç görmədiyim bir nəfərin məni çağırdığını gördüm. Mənə yaxınlaşıb

əlimdən tutdu. O əsnada bütün yorğunluğum və susuzluğum yox oldu. Təzədən doğulmuş kimi oldum. Onu özümə yaxın hiss etdim. Əl-ələ bir müddət yol getdik. Həyatımın ən şirin məqamlarından birini yaşadığımı hiss etdim. Bir qum təpəcəyini aşınca, birlikdə səfərə çıxdığım qafilənin işıqlarını görüb, dostlarımın səslərini eşitdim. Onların yanına yaxınlaşdıq.

Mənim mindiyim heyvan ən dalda onları tə'qib edirdi. Birdən gəlib qabağımda dayandı. Miniyimi qabağımda görüncə, sevindiyimdən nə edəcəyimi bilmədim. Mən qışqırınca, mənimlə gələn zat əlini əlimdən çəkdi. Sonra əlimdən tutub miniyimə mindirdi. Sonra da; "Bizdən bir şey istəyəni və kömək diləyəni əli boş dala qaytarmarıq" deyərək çıxıb getdi. O zaman, Onun Rəsulullah olduğunu başa düşdüm. O çıxıb gedərkən, ətrafına yaydığı nurların gecə qaranlığında göyə tərəf yüksəldiyi görülürdü. O gözümdən itincə birdən ağlım başıma gəldi. "Necə oldu ki, mən Rəsulullahın əlini, ayağını öpmədim?" deyə özümü danladım. Amma, artıq olan olmuş, keçmiş fürsət əldən çıxmışdı.

Əbul-Xayr Əxda, Mədinədə beş gün ac qalmışdı. Hucrəyi səadətin yanına gəlib, Rəsulullaha salam vermişdi. Ac olduğunu bildirmişdi. Bir tərəfdə uzanıb yatmışdı. Röyada, Rəsulullahın gəldiyini gördü. Sağında Əbu Bəkiri Siddiq, solunda Ömər Faruq və qabağında Əliyyul-Murtəza vardı. Həzrəti Əli gəlib, ya Əbəl-Xayr! Qalx, niyə yatırsan? Rəsulullah gəlir, dedi. Dərhal qalxdı. Rəsulullah gəlib, böyük bir çörək verdi. Əbul-Xayr belə demişdir ki; "Çox ac olduğum üçün dərhal yemeyə başladım. Yarısı qurtarınca oyandım. Qalan yarısını əlimdə gördüm".

Əhməd ibn Məhəmməd Sufi belə demişdir ki; "Hicaz səhralarından çox çətinliklə keçərək Mədinəyə gəldim. Hucrəyi səadətin yanında Rəsulullaha salam verdim. Bir tərəfdə oturub yatdım. Yuxuda Rəsulullah görünüb; "Əhməd gəldin? Ovucunu aç!" buyurdu. Ovucumu qızılla doldurdu. Oyandığımda əllərim qızılla doluydu.

İmamı Səmhudi, qapısının açarını itirmişdi. Tapa bilməyib Hucrəyi səadətin qabağına gəlib; "Ya Rəsulallah! Evin açarını itirdim. Evimə girə bilmirəm" dedi. Bu dəmdə bir uşaq açarı gətirib verdi. Uşaq; "Bunu yerdən tapdım, sizindi görəsən?" dedi.

Kilisli Mustafa İşqi Əfəndi, "*Məvaridi Məcidiyyə*" adlı tarix kitabında belə nəql edir ki; "Məkkədə iyirmi il qaldım. 1247-ci ildə (miladi 1831-ci il) altmış qızıl yığıb, ailə-uşaqla birlikdə Mədinəyə gəldik. Qızılları yolda xərcləyib qurtardım. Bir

tanışımın evində qonaq qalıb Hücrəyi səadətə gəldim. Rəsulullahdan yardım istədim. Üç gün sonra, qaldığım evə bir bəy gələrək, mənim üçün bir ev kirayə tutduğunu söylədi. Əşyalarımı ora daşıtdırdı. Bir illik kirayə pulunu ödədi. Bir neçə ay sonra, bir ay xəstə yatdım. Evdə yemək və satılası bir şey qalmamışdı. Həyat yoldaşımın köməyiylə evdən çıxıb, Rəsulullahın türbəsinə gedib çəkdiyim çətinliklərimi dilə gətirib yardım diləmək istədim. Əllərimi açınca, dünyalıq istəməkdən utandım. Bir şey deyə bilmədim. Təzədən evimə qayıtdım.

Ertəsi gün, bir nəfər gəlib, filan ağa bu qızılları sənə hədiyyə göndərdi, dedi. Qızıl kisəsini aldım. Dolanışığımız qaydasına düşdüsə də, xəstəlikdən xilas ola bilmədim. Bir təhər Hücrəyi səadətin qabağına gəlib, Rəsulullahdan şəfa istədim. Məsciddən çıxıb, heç kimdən kömək istəmədən evimə qədər gələ bildim. Evə girərkən xəstəliyimdən əsər-əlamət qalmamışdı. Göz dəyməməsi üçün, bir neçə gün küçəyə əsa götürüb çıxdım. Ancaq, pulum qurtarmışdı. Ailə-uşağı qaranlıqda qoyub, Məscidi Nəbəviyə gəldim. Xiftən namazından sonra, dərdimi Rəsulullaha açdım. Yolda tanımadığım bir nəfər mənə yaxınlaşıb bir kisə verdi. İçində, hər biri doqquz quruş dəyərində qırx doqquz qızıl vardı. Mum və evə lazım olan əşyalar alaraq evə gətirdim.

"*Şəqaiqi Nu'maniyyə*" kitabının tərcüməsinin ikinci cildində deyilir ki, Osmanlı dövlətinin ilk Şeyxulislamı və dövrün mücəddidi olan böyük İslam alimi Mövlana Şəmsəddin Məhəmməd ibn Həmzə Fənarinin gözləri toran görməyə başladı. Bir gecə, Rəsulullah; "Taha surəsini təfsir et!" buyurduqda, "Uca hüzurunuzda, Qur'ani Kərimi təfsir etməyə gücüm çatmadığı kimi, gözlərim də görmür" demiş. Peyğəmbərlərin təbibi olan Rəsulullah, mubarək yapıncısından bir parça pambıq çıxardıb, mubarək ağzının suyuyla islatdıqdan sonra, gözlərinin üstünə qoymuşdu. Molla Fənari yuxudan oyanıb, pambığı gözlərinin üstündə olduğunu hiss edərək götürmüş, görməyə başlamışdı. Allah Təalaya həmd və şükr etmişdir. Pambıq parçasını saxlayıb, öldüyü zaman gözlərinin üstünə qoyulmasını vəsiyyət etmişdir. O, 834-cü ildə (Miladi 1431-ci il) Bursada vəfat edincə, vəsiyyətini yerinə yetirdilər.

Abbasi xəlifələrindən Əbu Cə'fər Mənsur, Məscidi Nəbəvi içində İmam Malik ilə danışırmış. İmam Malik; "Ey Mənsur! Bura Məscidi səadətdir! Yavaş səslə danış! Haqq Təala, Hücurat surəsində məalən; "Səsinizi Rəsulullahın səsindən daha yüksək qaldırmayın!"[388] buyuraraq, bir camaatı danlamışdır. "Rəsulullahın yanında yavaş səslə

[388] əl-Hücürat, 49/3.

danışanlar”[389] ayəsi ilə də yavaş danışanlar təqdir edilmişdir. Rəsulullaha vəfat etdikdən sonra ehtiram göstərmək, sağ ikən hörmət etmək kimidir” demiş.

Mənsur başını yana salaraq; “Ya Əba Abdullah! Qibləyə tərəf, yoxsa Qəbri səadətə tərəf dayanmaq lazımdır?” deyə soruşmuş. İmam Malik Həzrətləri; “Rəsulullahdan üzünü döndərmə! Qiyamət gününün şəfaətçisi olan o uca Peyğəmbər (səlləllahu Təala əleyhi və səlləm), qiyamət günü sənin və atan Adəm əleyhissalamın xilas olması üçün vəsilə olacaqdır. Qəbri səadətə qayıdaraq və Rəsulullahın mübarək ruhuna sarılaraq şəfaət istəməlisən! Nisa surəsinin 64-cü ayəsində məalən; “Nəfslərinə zülm edənlər, sənə gəlib, Allah Təaladan məğfirət diləyərsə və Rəsulum da onların bağışlanması üçün dua edərsə, Allah Təala tövbələri qəbul edən və mərhəmət göstərəndir” buyurmuş. Bu ayənin, Rəsulullaha təvəssül edənlərin tövbələrinin qəbul olunacağını söz verməkdədir, buyurulmuşdur. Bundan sonra, Mənsur oturduğu yerdən qalxıb, Hücrəyi səadətin qabağında dayandı; “Ya Rəbbi! Bu ayədə, Rəsuluna təvəssül edənlərin tövbəsini qəbul edəcəyinə dair söz verdin. Mən də, uca Peyğəmbərinin yüksək hüzuruna gəlib səndən məğfirət diləyirəm. Özü sağ ikən məğfirət diləyib bağışladığın qulların kimi, məni də bağışla! Ya Rəbbi! Nəbiyyur-rəhmə olan uca Peyğəmbərinə təvəssül edərək sənə yalvarıram. Ey Peyğəmbərin ən üstünü olan Məhəmməd əleyhissalam! Sənə təvəssül edərək, Rəbbimə yalvardım. Ya Rəbbi! O uca Peyğəmbəri mənə şəfaətçi eylə!” deyərək yalvarmağa başladı. Arxası qibləyə, üzü Muvacəhəyi səadət pəncərəsinə tərəf dayanıb, ayaq üstündə durub dua etdi. Minbəri Nəbəvi sol tərəfində qalmışdı.

İmam Malikin Xəlifə Mənsura verdiyi nəsihət Hücrəyi səadətin qabağında dua edənlərin çox diqqətli olmaları lazım gəldiyini göstərməkdədir. O məqama münasib ədəb və ehtiramı göstərməyənlərin, Mədinəyi münəvvərədə çox qalmalarının doğru olmadığı buyurulmuşdur.

Anadolu kəndililərindən biri, Mədinəyi münəvvərədə illərlə qalmış, orda evlənmiş və Hücrəyi səadətdə müəyyən bir xidmətə girmişdi. Bir gün möhkəm bir qızdırma xəstəliyinə tutuldu və canı ayran istədi. “Əgər kəndimdə olsaydım, qatıqdan ayran düzəltdirib içərdim” xəyalını ürəyindən keçirtdi. O gecə, Rəsulullah, yuxuda Şeyxul-Hərəmin gözünə görünüb, o adamın gördüyü işin başqa birisinə verilməsini əmr etdi. Şeyxul-Harəm; “Ya Rəsulallah! O xidməti, ümmətindən filankəs yerinə yetirir”

[389] əl-Hücürat, 49/4.

deyincə; "O adama de! Kəndinə gedib, ayran içsin!" buyurdu. Ertəsi gün bu əmr bildirilincə, kəndli, baş üstünə, deyərək öz ölkəsinə getdi.

Ancaq ürəkdən keçən bir xəyal bu qədər zərər verirsə, Allah qorusun zarafat belə olsa, yersiz bir sözün yaxud ədəb-ərkana zidd bir hərəkətin nə qədər böyük bir zərəri olacağı burdan başa düşülməlidir.

## Salavati Şərifə Oxumağın Əhəmiyyəti və Fəziləti

Cənabi Peyğəmbərimizin adının çəkildiyi və yazıldığı zaman, hörmət və ehtiram ifadəsi olaraq, Ona salavati şərifə oxumaq, ən əhəmiyyətli vəzifələrimizdən biridir. Qur'ani Kərimdə Əhzab surəsinin 56-cı ayəsində məalən; "Həqiqətən Allah Təala və mələkləri, Peyğəmbərə səlat edərlər (Şərəf və şanını ucaldarlar). Ey iman edənlər! Siz də Ona səlat edin və Ona səmimi qəlb ilə itaət edin" buyurulmuşdur.

Təfsir alimləri bu ayədə zikr edilən səlat sözünün, "Allah Təaladan rəhmət, mələklərdən istiğfar və mö'minlərdən dua" mənalarına gəldiyini bildirmişlər. Bütün İslam alimləri, Cənabi Peyğəmbərimizin mübarək adlarından biri eşidildiyi, yazıldığı və söyləndiyi zaman, salavati şərifə yazmaq və oxumağın birincisində vacib, ikincisində isə müstəhəb olduğunu ittifaqən bildirmişlər.

Allah Təaladan bir şey istəyən kəs, əvvəlcə Allah Təalaya həmd və səna etdikdən sonra, Rəsulullaha səlat oxumalıdır. Belə bir dua qəbul edilməyə çox layiqdir. İki səlat ilə (duanın əvvəlində və axırında) oxunan dua rədd edilməz.

Əbu Təlhə Həzrətləri belə nəql etmişdir ki; "Rəsulullahın hüzuruna girmişdim. Onu, daha əvvəl əsla görmədiyim bir sevinc və xoşnudluq içində gördüm. Səbəbini soruşduğumda; "Necə sevinməyim ki? Bir az əvvəl Cəbrayıl (əleyhissalam) müjdə verdi. Allah Təala buyurdu ki; "Ümmətimdən biri sənə bir salavat oxuyunca, Allah Təala onun müqabilində ona on salavat verər, dedi" buyurdu".[390]

Bu mövzudakı hədislərdən bəziləri belədir; "Yanında adım çəkildikdə mənə səlatu salam verməyən kəsin üzü qara olsun. Ramazan ayı girdikdən sonra, ayın qurtarmasına qədər günahlarının bağışlanması üçün heç bir şey etməyən kəsin də üzü qara olsun. Ana və atasının yaşlı vaxtlarına qədər yaşayıb, ancaq onların xeyir-duasını alıb Cənnətə girə bilməyən kəsin də üzü qara olsun".

---

[390] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 102; İbn Əbi Şeybə, *əl-Musannəf*, II, 399.

“Yanında adım çəkildiyində, mənə səlatu salam verməyən kəs, ən çox paxıllıq edəndir”.

Əbu Humeyd əs-Saidi Həzrətləri belə nəql edir ki; “Səhabəyi kiramdan bəziləri, Rəsulullahdan soruşub dedilər ki; “Ya Rəsulallah! Sənə necə səlatu salam verək?” Rəsulullah buyurdu ki; “Allahummə salli alə Muhammədin və əzvacihi və zurriyyətihi kəma salleytə alə İbrahimə və barik alə Muhammədin və əzvacihi və zurriyyətihi kəma barəktə alə İbrahimə innəkə hamidun məcid” deyin”.[391]

Bəzi salavati şərifələr belədir; “Əleyhissalam”, “Səlləllahu əleyhi və səlləm”, “Allahummə salli alə seyyidina Muhamməd”, “Allahummə salli alə Muhəmmədin və alə Ali Muhamməd, kəma salleytə alə İbrahimə və alə Ali İbrahim...”, “Allahummə salli alə Muhammədin və alə alihi və sahbihi əcmain”, “Əleyhissəlatu vəssalamu vəttəhiyyə”, “Aleyhi və alə cəmii minəs-salavati ətəmmuha və minəttəhiyyəti eymənuha”.

Bir nəfər də belə nəql etmişdir ki; “Dostlarımdan biri göndərdiyi bir məktubda, Rəsulullahın mübarək adının keçdiyi hər yerə “Səlləllahu əleyhi və səlləm, təslimən kəsirən kəsira” deyə yazmışdı. Görüb səbəbini soruşduğunda; “Gəncliyimdə hədis kitabları yazdım. Rəsulullahın mübarək adını yazdıqca salavatı yazmazdım. Röyada Aləmlərin sahibini görüb yanına getdim. Mübarək üzünü məndən çevirdi. O biri tərəfinə keçdim, yenə üzünü çevirdi. Qabağaında durub; “Ya Rəsulallah! Nə üçün mənim üzümə baxmırsınız?” deyə soruşdum. Buyurdu ki; “Çünki, sən kitabında mənim adımı yazınca, mənə səlat vermədin!” O zamandan bəri Onun adını, həmişə səlat ilə birlikdə yazıram” dedi”.

Hədisdə; “Hər kim mənə bir dəfə səlat etsə, Allah Təala ona on dəfə səlat (rəhmət) edər, onun on günahını bağışlayar və dərəcəsini on qat ucaldar”.

“Qiyamət günü mənə ən yaxın olan, mənim şəfaətimə ən layiq olan, mənə ən çox səlatu salam verən kəsdir”.

Haqq Təala Həzrəti Musaya; “Ey Musa, dilinə sözündən, ürəyinə xəyalından, bədəninə ruhundan, gözünə nurundan daha yaxın olmağımı istəyərsən?” buyurdu. Bəli, ya Rəbbi dedi. “O halda, Məhəmmədə (səlləllahu əleyhi və səlləm) çox salavat gətir” buyurdu. “Ey Musa, qiyamət günü, susuzluq çəkməməyi istəyərdin?” buyurdu. Bəli, ya

[391] Əhməd Şami, *Sübülül-Huda*, XII, 434.

Rəbbi, dedi. "O halda, Məhəmmədə (səlləllahu əleyhi və sələm) çox salavat gətir" buyurdu.[392]

Peyğəmbərimiz buyurmuşdur ki; "Qiyamətdə hər məqamda mənə ən yaxın olanınız, dünyada mənə çox salavat oxuyanınızdır. Cümə günü və gecəsi mənə yüz salavat oxuyanın Allahu Təala yüz ehtiyacını görər. Bunların yetmişi axirət, otuzu da dünyaya aid işlərdir. Sonra, Allah Təala bir mələklə bu səlatları mənim qəbrimə gətirdər. Sizə gələn bir hədiyyə kimi olar. O mələk, mənə salavat göndərənin adını, əslini və qəbiləsini çatdırar. Mənim yanımdakı ağ bir səhifəyə nüsxəsini köçürdər. Mənim öldükdən sonra bilməyim, sağ ikən də bilməyim kimidir".[393]

"Pərşənbə günü gəlincə, Allah Təala yanında gümüş dəftər və qızıl qələmlər olan mələklər göndərər. Pərşənbə günü və Cümə gecəsi Peyğəmbərə çox səlat oxuyanları yazarlar".

"İki müsəlman üzbəüz gəlib müsafəha, yəni əl sıxsalar və Peyğəmbərə salavat oxusalar, bir-birindən ayrılmadan qabaq əvvəlki və sonrakı günahları bağışlanar".

"Biriniz məscidə girincə, Peyğəmbərə salam versin və; "ya Rəbbi! Məni şeytandan qoru!" desin!".[394]

Bir rəvayətdə də; "Çıxarkən, "Allahummə inni əsəlukə min fəzlikə" desin.

"Duanın əvvəli Allah Təalaya səna (Həmd) və Rəsulullaha salavat olmayınca, dua pərdə arxasında qalar. Əvvəlində həmd və salavat olan dua qəbul olunar".

"Rəsulullaha və Əhli-əyalına salavat oxumadıqca dua ilə səma arasında pərdə örtülü qalar. Salavat oxununca bu pərdə yırtılar və dua səmaya çıxar. Oxumayınca dua dala qayıdar".

"Bir məclisdə Allah Təala zikr edilməz və Rəsulullaha səlat edilməsə, ordakıların başının üstündə qamçı olar. Allah istəsə onlara əzab edər, istəsə bağışlayar".

"Qulağı cıngıldəyən məni xatırlasın və mənə səlat oxusun".

"Bir işə niyyət edən, o barədə məsləhətləşsin. Allah Təala işində ona rüşd (bacarıq) ehsan edər. Hər kim bir söz demək istəyib yaddan çıxartsa, mənə səlat oxusun. Çünki, mənə edəcəyi səlatında, sözü üçün xələf vardır. Ümid edilər ki, o sözü xatırlayar".[395]

---

[392] Əbu Nuaym, *Hilyətul-Övliya*, VI, 33.
[393] Beyhəqi, *Şuabul-İman,* III, 111; İbn Əsakir, *Tarixu Dəməşq*, LIV, 301.
[394] İbn Əbi Şeybə, *əl-Musannəf*, I, 374; VII, 124; Əbu Nuaym, *Hilyətul-Övliya*, VIII, 139.
[395] Tirmizi, "Fitən", 78; Suyuti, *Camiul-Əhadis*, III, 457.

“Xeyirli bir işə Allahın adı və mənə səlat ilə başlanmazsa, o işin axırı yoxdur və bütün bərəkəti yox olmuşdur”.[396]

İslam böyüklərindən Əbu Həfs Kağidi vəfat edincə birisi onu röyasında görüb, “Allah Təala sənə nə etdi?” deyə soruşdu. O; “Mənə rəhmət və məğfirət edib, məni Cənnətə qoydu” dedi. “Hanı səbəblə?” deyə soruşdu. Məni mələklərin yanında saxlatdı. Günahlarımla Rəsulullaha oxuduğum salavatlarımı hesab etdilər. Salavatım daha çox gəldi. Allah Təala onlara; “Ey mələklərim, işinizi qurtardınız. Başqa hesaba çəkməyin. Onu Cənnətimə aparın” buyurdu, deyə cavab verdi.

Sələfdən biri belə nəql etmişdir ki; “Bir yerdə hədis öyrəndiyimiz bir dostum vəfat etdi. Röyada onu kürəyində yaşıl paltarlar geyinmiş halda gördüm. Səbəbini soruşduğumda; “Hər hədisdə gördüyüm Rəsulullahın adının yanında, “səlləllahu əleyhi və səlləm” yazardım. Haqq Təala onun mükafatını bununla verdi” dedi.

Yenə sələfdən başqa birisi belə nəql etmişdir ki; “Bir katib qonşum vəfat etdi. Onu yuxumda gördüm. “Allah Təala sənə nə etdi?” deyə soruşdum. O da; “Bağışladı” dedi. Mən; “Hansı səbəblə?” dedim. O; “Rəsulullahın adını hər yazdığım zaman “səlləllahu əleyhi və səlləm” sözünü də birlikdə yazdığım üçün” dedi.

Əbu Süleyman Darani belə nəql etmişdir ki; “Hədis yazarkən, Peyğəmbərimizin adını yazdıqca, “səlləllahu aleyhi” deyə yazar “və səlləm” sözünü yazmazdım. Röyada Peyğəmbərimizi gördüm. Mənə buyurdu ki; “Ey Əba Süleyman, hədisdə adımı yazdığın zaman səlatla birlikdə “və səlləm” sözünü də yaz. O dörd hərfdir. Hər hərfinə görə on savab vardır. Yazmasan qırx savabı tərk edirsən, deməkdir”.

Başqa birisi də Peyğəmbərimizin adını belə yazmağı adət etmişdi. Ona Rəsulullah, röyasında görünüb; “Sənə nə olub ki, mənə səlatı bütöv şəkilfə yazmırsan?” buyurdu.

Əbu Bəkiri Siddiq də belə buyurmuşdur; “Unutmağından qorxan, Rəsulullaha çox salavat oxusun”.

Salihlərin böyüklərindən Məhəmməd ibn Səid ibn Mutarrıf belə nəql etmişdir ki; “Hər gecə yatacağım zaman müəyyən miqdarda səlat oxuyardım. Bir gecə röyada, Rəsulullah gəlib içəri girdi. Otağımın içi nurla doldu. Sonra mənə tərəf gəlib; “Yaxın gəl ki, mənə çox salavat oxuyan ağzından öpüm” buyurdu. Mən də ağzımı tutmağa

---

[396] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, II, 359; Əbdurrəzzaq, *əl-Musannəf*, XI, 163.

utanıb, yanağımı uzatdım. Mübarək ağzıyla öpdü. Hövlang yuxudan ayıldım. Otağımın içi müşg iyi ilə dolmuşdu. Səkkiz gün yanağımdan o xoş ətirli iy getmədi.

Sələfin böyüklərindən Xəllad ibn Kəsir vəfat edincə, başı altında; "Bu Xəllad ibn Kəsirin Cəhənnəmdən xilas bəratidir" deyə yazılmış bir kağız tapdılar. Qohum-əqrabalarına, bu adamın əməli nə idi, deyə soruşdular. Onalar da; "Hər Cümə günü salavat oxuyardı" dedilər.

Şeyx Ayninin "*Zeynul-Məcalis*" əsərində belə yazılmışdır; "Rəsulullah, "Qiyamət günü üç qrup, heç bir şeyin kölgəsinin olmadığı vaxtda Ərşin kölgəsinin altında kölgələnirlər" buyurdu. Onların kim olduqlarını soruşdular. "Ümmətimi çətinlikdən qurtaran, sünnətimi yaşadan və mənə çox salavat gətirənlərdir" buyurdu.

Şeyh Əbu Musa Dariri belə nəql etmişdir ki; "Dənizdə tufan bizi tutdu. Hamı ölüm qorxusuyla ağlayırdı. O halda mənə yuxu güc gəldi. Yuxumda Rəsuli Əkrəmi gördüm. Mənə; "Gəmidəkilərə de ki, min dəfə "Allahummə salli alə seyyidina Muhammədin və alə Ali seyyidina Muhamməd, səlatən tuncina biha min cəmiil əhvali vəlafat və taqdi ləna biha cəmiəl hacat və tutahhiruna bihə min cəmiisseyyiat və tərfəunə bihə indəkə aləddərəcat və tubəlliğunnə bihə aqsəlğayat min cəmiil xayrati filhəyati və ba'dəlməmat" oxusunlar, buyurdu. Hələ üç yüz dəfə oxumuşduq ki, tufan səngidi və xilas olduq.

Bu səlatın, bütün əhəmiyyətli işlərdə və hər bəlada, qəzada, zəlzələdə oxunması tövsiyə edilmişdir. Mö'təbər kitablarda, səlatı haqqında qırxdan çox hədis vardır. Onlardan bəziləri belədir;

"Allahummə salli alə Muhammədin və alə Ali Muhamməd, kəma salleytə alə İbrahimə və alə Ali İbrahim və barik alə Muhammədin və alə Ali Muhamməd, kəma barəktə alə İbrahimə və alə Ali İbrahim, innəkə hamidun məcid.

Allahummə salli və səllim və barik vərham alə seyyidina Muhammədin huvə seyyidul-Ərəbi vəl-Əcəm və imami Məkkətil-mukərrəməti vəl-Mədinətil-munəvvərati vəl-Harəm. Alləməl-insanə mə ləm yə'ləm.

Asluhu nurun və nəsluhu Adəm. Bə'suhu muaxxarun və xalquhu muqaddəm. İsmuhuş-şərifu məktubun aləl-Lövhil-məhfuzi biyaqil-qaləm və cismuhuş-şərifu mədfunun fil-Mədinətil-munəvvərəti vəl-Harəm. Ya leytə əktəhilu turabəlləzi təhtəl-qadəm.

Fə tuba, summə tuba limən dəa və təbiahu və limən əsləmə sahibəş-şəfaəti lil-aləmin.

Qailən ya Rəbbi! Səllim ümməti, ümməti va ümməta yaz əl-lütfi vəl-kərəm.

Fə yunadil-munadi min qıbəlir-Rahman, qabiltu şəfaətəkə ya Nəbiyyəl-muhtərəm. Udxulul-Cənnətə la xavfun aleykum vəla huznun vəla aləm.

Summə Radiyallahu Təala an Əbi Bəkrin və Umərə və Usmanə və Aliyyin zil-Kərəm.

Və səlləllahu ala seyyidina Muhamməᴅin vəl-Həmdu ləkə ya Rabbəl-aləmin. Bi hurməti Seyyidil-mürsəlin”.

*Murabba oturardı ya diz üstə, ya dikərdi diz,*
*Dolu ədəb idi peydavu pünhan ol kərəmkanı.*

*Yeyib üç barmağıyla həm yalardı anı ləzzətlə,*

*İçərdi üç nəfəsdə abi reyyan ol kərəmkanı.*

*Sevərdi balu halva həm qabaq, sirkə, tirit, amma,*

*Doyunca yeməmişdi arpadan nan ol kərəmkanı.*

*Mübarək qarnına daş bağlar idi gahi aclıqdan*
*Fuadım olmasın dərdi lərzan ol kərəmkanı.*

*Səadətxanəsində neçə aylar yanmaz idi od,*
*Qənaətlə yer idi təmru rumman ol kərəmkanı.*

# HİLYƏYİ SƏADƏT

## Mübarək adları və künyələri

Sevgili Peyğəmbərimizin ən məşhur adı Məhəmməddir. Çox təriflənmiş, çox bəyənilmiş mənasına gəlir. Bu ad, Qur'ani Kərimdə Ali İmran, Əhzab, Fəth və Məhəmməd surələrinin sırayla; 144, 40, 29 və 22-ci ayələrində dörd dəfə keçməkdədir. Saf surəsinin 6-cı ayəsində isə Həzrəti İsanın ümmətinə; "Haqq Təalanı çox tərifləyən, mədh edən" mənasına gələn "Əhməd" adıyla xəbər vermiş olduğu bildirilməkdədir. Qur'ani Kərimdə, Məhəmməd və Əhməd adından başqa, Mahmud, Rəsul, Nəbi, Şahid, Bəşir, Nəzir, Mubəşşir, Munzir, Dai iləllah, Sıraci munir, Rauf, Rəhim, Musaddıq, Muzəkkir, Muddəssir, Abdullah, Kərim, Haqq, Munir, Nur, Xatəmun-Nəbiyyin, Rəhmət, Ne'mət, Hadi, Taha, Yasin… deyə keçməkdədir. Bundan başqa bəzi mübarək adları Qur'ani Kərimdə, bəziləri hədislərdə, bəziləri də özündən əvvəlki peyğəmbərlərə göndərilən müqəddəs kitablarda zikr edilmişdir.

Peyğəmbərimizin adları, bəzi hədislərdə Mahi, Aqib, Muqaffi, Nəbiyyur-Rəhmə, Nəbiyyut-Tövbə, Nəbiyyul-Mulahim, Qattal, Mutəvəkkil, Fatih, Xatəm, Mustafa, Ummi, Qusəm (hər xeyiri özündə cəmləşdirən) adları keçməkdədir.

Bir hədisdə Peyğəmbərimiz; "Mənə məxsus beş ad vardır. Mən Məhəmmədəm, Mən Əhmədəm, Mən Mahiyəm ki, Allah Təala mənimlə küfrü yox edər. Mən, Haşirəm ki, xalq qiyamət günü mənim ardımca həşr olunacaqdır. Mən, Aqibəm ki, məndən sonra peyğəmbər yoxdur" buyurmuşdur.[397]

Sevgili Peyğəmbərimizə, Həzrəti Xədicədən olan və kiçik yaşda vəfat edən oğlu Qasıma görə, "Əbul-Qasım" künyəsi verilmişdir. Yenə peyğəmbərliyindən qabaq, ondakı doğruluq, e'timad, əminlik, e'tibarlılıq kimi bir çox üstün məziyyətlərinə görə, Qureyş qəbiləsi arasında O, "əl-Əmin" adıyla çağrılmışdır.

Rəsulullahın, Qur'ani Kərimdə keçən adlarından biri də Qur'ani Kərimin qəlbi sayılan Yasin surəsindəki "Yasin" kəliməsidir. İslam alimlərinin böyüklərindən olan Seyyid Əbdülhakim Ərvasi Həzrətləri; "Yasin, "Ey mənim məhəbbət dəryamın dalğıcı olan Həbibim" deməkdir" buyurmuşdur.

Cənabi Peyğəmbərimizi mədh edən ayrı-ayrı yazılan şe'rlər və mədhiyyələr bir tərəfə qalsın, Onun üçün bir çox əsər yazılmışdır. Bunları yazanlar içində şan-şöhrətləri

---

[397] Beyhəqi, *Şuabul-İman,* III, 436; Qazı İyaz, *Şifayi Şərif*, s. 230; Əhməd Şami, *Sübülül-Huda*, I, 403.

bütün dünyaya yayılanlar belə, Rəsulullahı mədh etməkdə aciz qaldıqlarını açıq-aşkar ifadə etmişlər. Onu görüb, gözəlliyinə aşiq olanlar, Onun haqqında ağız dolusu danışmağa çalışmış, o gözəlliyi vəsf etməyin insan bacarığı xaricində olduğunu söyləmişlər.

## Hilyəyi səadət

Həbibi əkrəmin (səlləllahu əleyhi və səlləm) görünüşünün vəsf edilməsinə "Hilyəyi səadət" deyilir.

İslam alimləri, Məhəmməd əleyhissalamın görünən bütün bədən üzvlərini, şəklini, sifətlərini, gözəl əxlaqını və bütün xırdalıqlarına qədər həyatını, əvvəldən axıra açıq bir şəkildə isnad və mə'xəzləriylə birlikdə yazmışlar. Bu məlumatlar, bilavasitə Cənabi Peyğəmbərimizin özünün buyurduğu hədislərindən və Əshabının nəql etdiyi xəbərlərdən toplanmışdır. Bunları əhatə edən əsərlərə siyər kitabları deyilməkdədir. Minlərlə siyər kitabı içində, Cənabi Peyğəmbərimizin hilyəyi səadətini vəsf edən ən məşhur kitablar İmam Tirmizinin "*əş-Şəmailur-Rəsul*", Qazı İyazın "*Şifayi şərif*", İmam Beyhəqinin və Əbu Nuaym İsfəhaninin "*Dəlailun-Nübüvvə*" əsərləri, bir də İmam Qastalani Həzrətlərinin "*Məvahibi Lədunniyə*" adlı əsəridir.

Hədislərdə və Əshabi kiramın nəql etdiyi xəbərlərdə, sevgili Peyğəmbərimizin hilyəyi səadəti belə vəsf edilməkdədir;

Fəxri kainatın mübarək üzü ilə bütün əzaları və mübarək səsi, bütün insanların üzlərindən, əzalarından və səslərindən gözəl idi. Mübarək üzü bir balaca girdə idi və üzü güldüyü zamanda ay kimi nur saçardı.[398] Sevindiyində mübarək alnından bəlli olardı. Rəsulullah gündüz necə görürdüsə, gecə də elə görərdi. Qabağındakıları gördüyü kimi, arxasında olanları da görərdi. Yan tərəfə və arxaya baxdığı zaman, bütün bədəni ilə çevrilib baxardı. Yer üzünə, səmadan daha çox baxardı. Mübarək gözləri böyük və kiprikləri uzun idi. Mübarək gözlərində bir az qızartı vardı və gözlərinin qarası çox qara olub, gecələri sürmə çəkərdi. Fəxri aləmin (sallallahu əleyhi və səlləm) alnı açıq idi. Mübarək qaşları incə olub, qaşlarının arası açıq idi. İki qaşı arasındakı damar, hiddətlənincə qabarardı. Mübarək burnu çox gözəl olub, ortası bir balaca qabağa çıxıq idi. Mübarək başı böyük idi. Mübarək ağzı balaca deyildi. Mübarək dişləri ağ olub,

[398] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 459; Hakim, *əl-Müstədrək*, II, 605; Bəğavi, *əl-Ənvar*, I, 242.

qabaqdakılar seyrək idi. Danışanda, sanki dişləri arasından nur çıxardı. Allah Təalanın qulları arasında Ondan daha fəsahətli və daha şirin danışa bilən heç kim görülmədi. Mübarək sözləri çox asan başa düşülər, könülləri cəzb edər və ruhları özünə çəkərdi. Söz söylədiyi zaman, sözlər inci kimi düzülərdi. Sözləri sayıla biləcək qədər təmkinlə danışardı. Bəzən yaxşı başa düşülməsi üçün, üç dəfə təkrar edərdi. Cənnətdə Məhəmməd əleyhissalam kimi danışılacaqdır. Mübarək səsi, hamının səsindən daha uzağa çatardı.

Fəxri aləm (səlləllahu əleyhi və səlləm), gülər üzlü idi. Təbəssüm edərək gülər və mübarək qabaq dişləri görünərdi. Gülüncə, nuru divarda əks edərdi. Ağlamağı da, gülməyi kimi təmkinliydi. Qəhqəhə ilə gülməz, bərkdən də ağlamazdı. Amma üzülüncə, mübarək gözlərindən yaş axar, mübarək döş qəfəsinin səsi eşidilərdi. Ümmətinin günahlarını düşününcə, Allah Təalanın qorxusundan, Qur'ani Kərimi eşidincə və bəzən da namaz qılarkən ağlayardı.

Fəxri aləm Rəsulullahın mübarək barmaqları böyük və mübarək qolları ətli idi. Mübarək ovuclarının içi geniş idi. Bütün bədəninin ətri müşgdən daha ətirli idi. Mübarək bədəni, həm yumuşaq, həm də qüvvətli idi. Ənəs ibn Malik belə nəql etmişdir ki; "Rəsulullaha on il qulluq etdim. Mübarək əlləri ipəkdən yumuşaq idi. Mübarək bədənindən, müşgdən və çiçəkdən daha gözəl iy gəlirdi. Mübarək qolları, ayaqları və barmaqları uzun idi. Mübarək ayaqlarının barmaqları böyük, altı da çox hündür olmayıb yumuşaq idi. Mübarək qarnı geniş olub, sinəsi ilə eyni böyüklükdə qabağa çıxmışdı. Çiyin sümükləri iri olub mübarək sinəsi də geniş idi. Rəsulullahın qəlbi şərifi, nəzərgahi ilahi idi.

Rəsuli əkrəm, nə çox uzun boylu, nə də çox qısa boylu idi. Yanına uzun bir nəfər gəlsə, ondan uzun görünərdi. Oturduğu zaman, mübarək çiyni oturanların hamısından yuxarı olardı.

Mübarək saçı və saqqalının tükləri nə çox qıvrım, nə də çox düz idi. Anadangəlmə qıvrım idi. Mübarək saçı uzun idi. Əvvəlcə saçını qabağa darayardı, sonra isə ortadan ikiyə ayırardı. Mübarək saçını bəzən uzadar, bəzən də kəsib qısaldardı. Saç və saqqalını boyamazdı. Vəfat etdiyində, saç və saqqalındakı ağ tüklərin sayı iyirmidən az idi. Mübarək bığını qırxardı. Bığının uzunluğu və forması mübarək qaşları qədər idi. Əlinin altında xüsusi bərbərləri var idi. Rəsulullah (səlləllahu əleyhi və səlləm), misvaqını və darağını həmişə özüylə gəzdirərdi. Mübarək saçını və saqqalını darayarkən

güzgüyə baxardı. Fəxri kainat, qabağına baxaraq, sür'ətlə gedər və bir yerdən keçdiyi xoş iyindən bəlli olardı. Rəsulullah əslən Ərəb idi. Yəni, qırmızı ilə qarışıq ağ bənizli olub, çox gözəl, nurlu və sevimli idi. Bir nəfər Cənabi Peyğəmbərimizə qara desə, kafir olar.

"Ərəb", lüğətdə "gözəl" deməkdir. Məsələn, "lisani Ərəb", "gözəl dil" deməkdir. Termin mənası isə, yəni, coğrafiyada "Ərəb" demək, "Ərəbistan adındakı yarmadada doğulub böyüyən, oranın iqlimi, havası, suyu və qıdası ilə boya-başa çatan və onların qanından gələn adam" deməkdir. Anadoludakı qandan gələnlərə Türk, Bolqarıstanda doğulub böyüyənlərə Bolqar, Almaniyadakılara Alman dedikləri kimi, Rəsulullah (səlləllahu əleyhi və səlləm) də, Ərəbistan yarmadasında doğulduğu üçün Ərəbdir. Ərəblər ağ, buğday bənizli olurlar. Ələlxüsus Peyğəmbərimizin sülaləsi ağ və çox yaraşıqlı idi. Onsuz da ulu babası İbrahim əleyhissalam ağ olub, Bəsrə şəhəri əhalisindən Taruh adında ağ bir mö'minin oğlu idi. Kafir olan Azər, İbrahim əleyhissalamın atası deyil, əmisi və ögey atası idi.

Sevgili Peyğəmbərimizin atası Abdullahın yaraşıqlılığı, Misirə qədər yayılmış və alnındakı nura görə təxminən iki yüz qız, evlənmək üçün Məkkəyə gəlmişdi. Ancaq, Məhəmməd əleyhissalamın nuru, Aminəyə nəsib olmuşdu.

Əmisi Abbas ilə Abbasın oğlu Abdullah da ağ bənizli idilər. Peyğəmbərimizin qiyamətə qədər övladı da yaraşıqlı və ağ bənizlidirlər.

Rəsulullahın Əshabı da ağ bənizli və yaraşıqlı idilər. Osman (Allah ondan razı olsun), ağ və sarışın idi. Rəsulullahın, Bizans imperatoru Herakla göndərdiyi elçisi Dihyəyi Kəlbi çox yaraşıqlı olub, yolda gedərkən, üzünü görmək üçün Bizans qızları küçələrə tökülərdi. Cəbrayıl əleyhissalam çox dəfə, Dihyənin (Allah ondan razı olsun) cildində gələrdi.

Misir, Şam, Afrika, Siciliya və İspaniya yerliləri Ərəb deyildir. Ərəblər, İslamiyyəti dünyaya yaymaq üçün, Ərəbistan yarmadasından çıxaraq buralara gəldiklərindən, bu gün bu yerlərdə də vardırlar. Necə ki, Anadoluda, Hindistanda və başqa ölkələrdə də mövcuddurlar. Ancaq, bu gün bu ölkələrin heç birinin əhalisini Ərəb deyə adlandırmaq doğru olmaz.

Misir əhalisi qarayanızdır. Həbəşistan əhalisi qaradır. Bunlara Həbəş deyilir. Zənzibar əhalisinə Zənci deyilir. Bunlar da qaradır. Peyğəmbərimizin qohum-əqrabasını, nəvələrini sevmək və onlara ehtiram göstərmək ibadətdir. Onları hər

müsəlman sevər. Anadoluya qonaq gələn qara fəhlələr, həbəşlər, zəncilər, özlərinə hörmət və ehtiram edilsin deyə özlərini Ərəb olaraq tanıtmış, Anadolunun saf müsəlmanları da sözlərinə inanıb bunları sevmişdir. Çünki, bu sevgidə qara, ağ ayırımı yoxdur. Qara bir müsəlman, ağ bir kafirdən qat-qat daha üstün, daha qiymətli və sevimlidir. İnsanın qara olması, imanın şərəfini azaltmaz. Bilal Həbəşi Həzrətləri və Rəsulullahın çox sevdiyi Üsamə də qara idilər. Pisliyi və alçaqlığı hamı tərəfindən bilinən Əbu Ləhəb və Əbu Cəhil kimi kafirlər isə ağ idilər. Allahu Təala insanın rənginə deyil, imanının qüvvətinə və təqvasına qiymət verməkdədir. Ancaq, qaraların özlərini Ərəb olaraq tanıtmaları, İslam düşmənlərinin, yəhudilərin işlərinə gəldi. Bir tərəfdən qara bənizli insanları, aşağı və iyrənc olaraq tanıtdılar. Bunlardan kölə olaraq istifadə etdilər. Bir tərəfdən də qara pişikləri, itləri, "Ərəb, Ərəb" deyə çağırarak, qəzet və jurnallarda dərc etdikləri qara rəsim və karikaturalara Ərəb deyərək, gəncliyə, Ərəbləri qara olaraq tanıtmağa, beləcə, müsəlman balalarını Peyğəmbərimizdən soyutmağa çalışdılar.

Xoş xasiyyətlərin hamısı, sevgili Peyğəmbərimizdə cəmlənmişdi. Xoş xasiyyətləri, vəhbi, yəni Allah Təala tərəfindən verilmiş olub, kəsbi, yəni sonradan qazanılmış deyildi. Hər hansı bir müsəlmanın adını çəkərək əsla lə'nət etməmiş və mübarək əliylə heç kimi vurmamışdır. Allah üçün intiqam almış, özü üçün heç kimdən intiqam almamışdır. Qohum-əqrabasına, Əshabına və qulluqçularına təvazökarlıqla və yaxşı rəftar edərdi. Ev içində çox yumuşaq və gülər üzlü idi. Xəstələri ziyarətə gedər, cənazə yerlərində iştirak edərdi. Əshabının işlərinə kömək edər, uşaqlarını qucağına alardı. Ancaq, qəlbi bunlarla məşğul olmazdı. Mübarək ruhu, mələklər aləmində idi.

Birdən birə Rəsulullahı görən adam qorxuya düşərdi Özü xoş rəftar etməsəydi, Peyğəmbərlik xüsusiyyətlərindən ötrü heç kim yanında otura bilməz, sözünü eşitməyə taqəti qalmazdı. Halbuki O, həyasından mübarək gözləriylə heç kimnin üzünə baxmazdı. Fəxri aləm (səlləllahu əleyhi və səlləm), insanların ən ürəyi açıqı idi. Ondan bir şey istniləndə də, yox dediyi görülməmişdir. İstənilən şey varsa verər, yoxdursa cavab verməzdi. O qədər yaxşılıqları, o qədər ehsanları vardı ki, Bizans imperatorları, İran şahları və hər hansı bi hökmdar Onun qədər ehsan verə bilməzdi. Ancaq, özü çətinliklə yaşamağı sevər, elə bir ömür sürərdi ki, çox vaxt yeyib-içməyi ağlına belə gətirməzdi. "Yemək gətirin yeyək vəya filan yeməyi bişirin, deməzdi. Yemək gətirilsə yeyər, hər nə meyvə versələr qəbul edərdi. Bəzən aylarla az yeyər, aclığı sevərdi. Bəzən

də çox yeyərdi. Yeməkdən sonra su içməzdi. Suyu oturaraq içərdi.[399] Başqaları ilə yemək yeyərkən, hamıdan axırda əl çəkərdi.[400] Hamının hədiyyəsini qəbul edərdi. Hədiyyə gətirənə, yerinə qat-qat çoxunu verərdi.

Müxtəlif paltarlar geyinmək adəti idi. Xarici dövlət səfirləri gəlincə bəzənib, qiymətli və qəşəng paltarlar geyərək, gözəl üzünü göstərərdi. Qaşı əqiqdən, gümüş üzük taxar və möhür olaraq istifadə edərdi. Üzüyünün üstündə "Muhammədu Rəsulullah" yazılmışdı. Döşəyi dəridən olub, içi xurma ağacının qabıqlarıyla doldurulmuşdu. Bəzən bu yataqda, bəzən yerə sərilmiş dəri üstündə, bəzən da həsir vəya quru torpaq üstündə yatardı. Mübarək ovucunun içini sağ yanağının altına qoyub, sağ tərəfi üstündə yatardı.[401] Zəkat malı almaz, çiy soğan və sarımsaq kimi tərəvəzlər yeməz və şe'r oxumazdı.

Cənabi Peyğəmbərimizin mübarək gözləri yumular, ancaq qəlbi şərifi yatmazdı. Ac yatıb tox qalxardı. Qət'iyyən əsnəməzdi. Mübarək bədəni nurani olub, kölgəsi yerə düşməzdi. Paltarına milçək qonmaz, ağcaqanad və digər böcəklər mübarək qanını içməzdi. Allah Təala tərəfindən Rəsulullah olduğu bildirildikdən sonra, şeytanlar göylərə çıxaraq xəbər ala bilmədi və kahinlər kəhanət edə bilmədilər. Sərvəri aləm (səlləllahu əleyhi və səlləm), bizim bilmədiyimiz bir həyat ilə indi də yaşamaqdadır. Bədəni şərifi əsla çürüməz. Qəbrində bir mələk olub, ümmətinin söylədikləri salavati şərifələri Ona çatdırar. Minbəri ilə qəbri şərifi arasına Rövzəyi mütəhhərə deyilir. Bura Cənnət bağçalarından biridir. Qəbri şərifini ziyarət etmək, ən böyük itaət və ən böyük ibadətdir.

Cənabi Peyğəmbərimizin gözəlliyini, Əshabi kiramın böyükləri çox nəql etmişdir. Bunlardan Əbu Hüreyrə belə nəql etmişdir ki; "Rəsulullahdan daha gözəl bir nəfər görmədim, sanki günəş bütün parlaqlığı ilə üzündə parıldayırdı. Güldüyü zaman, dişləri divarlara əks salardı".

İbni Əbi Halə; "Cənabi Peyğəmbərimizin mübarək üzü, on dörd gecəlik ay kimi parıldayardı" buyurmuşdur.

Həzrəti Əli; "Onu qəfildən görən, heybətindən qorxuya düşərdi. Onunla söhbət edib tanıyan, dərhal isinişib sevərdi" buyurmuşdur.

---

[399] Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 318.
[400] Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 319.
[401] Bəğavi, *əl-Ənvar*, I, 358.

Cabir ibn Səmurə; “Rəsulullah, mübarək əlini üzümə sürtdü. Əlində, sanki əttarların, yəni ətir satanların çantasından təzəcə çıxardılmış xoş ətir kimi, təravətləndim. Rəsulullah, əliylə bir nəfərin əlini tutsa, bütün gün o adamın əlindən o xoş ətir çıxmazdı” buyurmuşdur.[402]

Həzrəti Aişə anamız; “Rəsulullah, bir uşağın başını sığalladığı zaman, digər uşaqlar arasında o uşaq, gözəlliyiylə o dəqiqə bəlli olardı” buyurmuşdur.[403]

Rəsulullah (səlləllahu əleyhi və səlləm), bir gün öz evində yatmışdı. Ənəs ibn Malikin anası Ümmi Suleym gəldi. Rəsulullahın, yuxudaykən mübarək üzündə tər damcıları yığılmışdı. Ümmi Suleym, Cənabi Peyğəmbərimizin mübarək tərini bir qaba yığmağa başladı. Oyanıb səbəbini soruşunca, Cənabi Peyğəmbərimizin süd xalası olan Ümmi Suleym; “Onu ətirlərimizə qarışdırırıq. Sizin təriniz, ətirlərin ən gözəli və ən xoşudur” dedi.[404]

Əbu Hüreyrə; “Yol gedərkən Rəsulullahdan daha sür’ətli heç kimi görmədim. Sanki yer özünə tərəf gəlirdi. Onunla birlikdə yol gedərkən, biz bütün gücümüzü sərf edib Ona çatmağa çalışırdıq” buyurmuşdur.

Cənabi Peyğəmbərimiz, həddən artıq gözəl danışardı. Sözün hardan başladılıb harda qurtarılacağını ən yaxşı bir şəkildə O, bilərdi. Sözləri, danışığı cəhətiylə səlist, həddən artıq fəsahətli və bəlağətli idi. Söz və kəlimələrində, mənanın doğruluğu hər zaman özünü göstərərdi. İfadə etmə gücü çox yüksək olduğundan, danışarkən qət’iyyən yorulmaz və çətinliyə düşməzdi.

### Cənabi Peyğəmbərimizin gözəlliyi

“Uləmayi rasixin” deyilən, həm zahiri, həm də batini xəbərlər mövzusunu yaxşı bilən və Cənabi Peyğəmbərimizə varis olan mö’təbər İslam alimləri, Onu bütün gözəllikləriylə görmüş və aşiq olmuşlar. Bunlardan ən birincisi Əbu Bəkiri Siddiq gəlməkdədir. O, Rəsulullahdakı (səlləllahu əleyhi və səlləm) nübüvvət nurunu görüb, üstünlük, gözəllik və ucalığını idrak edərək, aşiq olmuşdu. O, bu sevgisində elə qabağa getmişdi ki, başqa heç kim onun kimi olamamışdır. Həzrəti Əbu Bəkir, hər an, hər

---

[402] Müslim, “Fəzail”, 120; Təbərani, *əl-Mu’cəmu’l-Kəbir*, II, 228; Qazı İyaz, *Şifayi Şərif*, s. 68; Əhməd Şami, *Sübülül-Huda*, II, 74.

[403] Qazı İyaz, *Şifayi Şərif*, s. 68.

[404] Müslim, “Fəzail”, 125; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 221; Təbərani, *əl-Mu’cəmu’l-Kəbir*, XXV, 119; Beyhəqi, *əs-Sünən,* I, 254.

baxdığı yerdə Rəsulullahı görərdi. Bir dəfə bu halını Ona açıb; “Ya Rəsulallah! Hara baxsam sizi görürəm” demişdi. Bir dəfə də; “Bütün yaxşılıqlarımı, sizin bir səhvinizə (xəta etməyinizə) dəyişərəm” demişdi. Rəsulullahın gözəlliyini ən yaxşı şəkildə görüb başa düşən və nəql edənlərdən biri də, mö’minlərin anası Həzrəti Aişə anamız idi. Həzrəti Aişə alim, müctəhid, ağıllı, zəkalı və ədəbiyyata maraq göstərən birisiydi. Çox bəlağətli və fəsahətli danışardı. Qur’ani Kərimin mənalarını, halal və haramları, Ərəb şe’rlərini və hesab elmini çox yaxşı bilirdi. Onun, Rəsulullahı mədh edən şe’rləri vardır. Aşağdakı bu iki beyti Həzrəti Aişə anamız demişdir;

*“Və ləv səmiu fi Mısra əvsafə xaddihi;*

*Ləma bəzəlu fi sovmi Yusufə min naqdin.*

*Ləvima Zəlixa ləv raeynə cəbinəhu,*

*Lə asərnə bilqat’il-qulubi aləl-eydi”.*

**Tərcüməsi;**

“Əgər Misirdəkilər, Onun (Cənabi Peyğəmbərimizin) yanaqlarının gözəlliyini eşitmiş olsaydılar, (gözəlliyi dillərdə dastan olan) Yusif əleyhissəlama heç qiymət verməzdilər. Yəni, bütün mallarını, onun yanaqlarını görə bilmək üçün saxlayardılar. Zəlixanı (Züleyxanı), “Yusif əleyhissalama aşiq oldu deyərək” pisləyən qadınlar, Rəsulullahın nurlu alnını görsəydilər, əllərinin yerinə ürəklərini kəssələr də ağrısını hiss etməzdilər”.

Həzrəti Aişə anamız belə buyurmuşdur ki; “Bir gün Rəsulullah, mübarək nalininin (ayaqqabısının) bağını açırdı. Mən də ip əyirirdim. Mübarək üzünə baxdım. Parlaq alnından tər damcılayırdı. Tər damcısı, hər tərəfə nur saçır, gözlərimi qamaşdırırdı. Mənə tərəf baxıb; “Sənə nə olub ki, belə fikrə getmisən?” buyurdu. “Ya Rəsulallah! Mübarək üzündəki nurların parlaqlığına və mübarək alnındakı tər damcılarının saçdığı işıqlara baxaraq özümü itirdim” dedim. Rəsulullah, durub yanıma gəldi. Gözlərimdən öpdü və; “Ya Aişə! Allah Təala sənə yaxşı şeylər nəsib etsin! Məni

sevindirdiyin kimi, səni sevindirə bilmədim" buyurdu. Yəni, sənin məni sevindirməyin, mənim səni sevindirməyimdən çoxdur, buyurdu. Həzrəti Aişənin mübarək gözlərini öpməsi, Rəsulullahı sevərək, Onun camalını dərk edərək gördüyü üçündir. Bu səbəblə təqdir və təltif edilmişdir.

Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm), mübarək bədənində yığılan, batini gözəllikləri göstərən zahiri gözəlliklər, heç bir kəsin bədənində toplanmamışdır. İmam Qurtubi Həzrətləri belə demişdir ki; "Rəsuli əkrəmin gözəlliyi tamamilə görülməmişdir. Əgər həqiqi gözəlliyi görünsəydi, Əshabi kiram Ona baxa bilməzdi. Şayəd, həqiqi gözəlliyini göstərsəydi, heç kim buna dözə bilməzdi".

Yusif əleyhissalam, zahiri, Rəsulullah da, batini gözəllikləriylə insanlara göründülər. Yusif əleyhissalamın camalı görülüncə əllər kəsildi. Rəsulullahın kəmalı ilə bütlər qırıldı və küfr buludları yox oldu.

Əshabi kiram, Cənabi Peyğəmbərimizə; "Ya Rəsulallah! Siz, yoxsa Yusif əleyhissalam daha gözəldir?" deyə soruşdular. Rəsulullah; "Qardaşım Yusif məndən sabih (gözəl), mən ondan məlihəm (sevimliyəm). Onun görünən gözəlliyi, mənim görünən gözəlliyimdən çoxdur" buyurdu.

Cənabi Peyğəmbərimiz bir hədisində; "Allah Təalanın göndərdiyi hər peyğəmbər gözəl üzlü və gözəl səslidir. Sizin Peyğəmbəriniz isə, onların ən gözəl üzlüsü və ən gözəl səslisidir" buyurmuşdur.

Rəsulullahın (səlləllahu əleyhi vəsəlləm), Qur'ani Kərimdə keçən adlarından biri də Qur'ani Kərimin qəlbi olan Yasin surəsindəki "Yasin" kəliməsidir. Mö'təbər İslam alimlərindən olan Seyyid Əbdülhakim Ərvasi Həzrətləri; "Yasin, "Ey mənim məhəbbət dəryamın dalğıcı olan Həbibim" deməkdir" buyurmuşdur. Bu dəryanın adını eşidənlər, uzaqdan görənlər, yaxınına gələnlər, içinə girib qisməti olduğu qədər dərinə enənlərin hamısı, ömürlərinin hər səhifəsində Rəsulullahın eşqi ilə yanıb tutuşmuş, yanıqlı fəryadlar, göz yaşları və ürəklərə od vuran misralarla bu eşqlərini dilə gətirmişlər. Bunların içində ən böyük və məşhurlarından biri olan, bu məhəbbət dəryasından böyük pay alan Mövlana Xalid Bağdadi Həzrətləridir. O, Rəsulullaha olan məhəbbət və eşqini dilə gətirdiyi qəsidələrindən birində bunları yazmaqdadır;

Sərvəri aləm, sənə aşiq olub da, yanaram!

Harda olsam da, o gözəl camalın araram.

Qabi qövseyn taxtının hökmdarı sən, mən bir heçəm,
Qonağınam deməyimi, hörmətsizlik sayaram.

Hər şey cahanda sənin şərəfinə yaradıldı,
Rəhmətin mənə də yağsa, o an olar baharım.

Hamı Kə'bəni təvaf üçün gələr Hicaza,
Sənə qovuşmaq şövqüylə, mən dağları aşaram.

Səadət tacı geydirildi, röyada başıma,
Ayağın torpağı səpildi üzümə sanaram.

Dostunu tərifləyən aşiqlərin bülbülü, ey Cami!
Divanında bu yazılar, olar tərcümanım;

"Dil çıxartmış, susuz qalmış, qotur bir köpək kimi,

Sənin ehsan dənizindən bir damcı arzalaram".

Cənabi Peyğəmbərimizi mədh edən kiçik şe'rlər və mədhiyyələr bir tərəfdə qalsın, Onun üçün bir çox əsər yazılmışdır. Bunları yazanlar arasında şan-şöhrətləri bütün dünyaya yayılanlar belə, Rəsulullahı mədh etməkdə aciz qaldıqlarını ifadə etmişlər. Onu görüb gözəlliyinə aşiq olanlar, bacardıqları qədər Onu vəsf etməyə çalışmış, o gözəlliyi dillə söyləməyə insan gücünün çatmayacağını e'tiraf etmişlər. İslam alimlərinin kitablarında yüzlərlə belə aşiqlərin yazıları yer almışdır. Oxuyanlar, Allah Təalanın sevgili Peyğəmbərini, təsəvvür edilməsi çətin olan və qeyri adi bir gözəllikdə yaratmış olduğunu o dəqiqə başa düşərlər. Onu görmədən, Ona könül bağlayarlar. Həbibullaha aşiq olanlar, hər nəfəsdə, ciyərlərinə girən havanın sərinliyində, Onun sevgisinin dadını hiss edərlər. Hər dəfə aya baxdıqlarında, Onun

mübarək gözlərindən çıxmış şüaların əkslərini axtarmaqla zövq alarlar. Onun gözəlliyinin dəryasından bir damcıya qovuşanların hər zərrəsi belə deyər ki;

*"Gözəl yanağını bilən, gülə heç baxmaz,*
*Sənin sevgində əriyən, dərman axtarmaz!"*

Ənəs ibn Malikdən rəvayət edilən bir hədisdə belə buyrulmuşdur ki; "Heç biriniz, mən ona, övladından, ata-anasından və bütün insanlardan daha sevimli olmadıqca iman etmiş ola bilməz".[405]

Bir gün Həzrəti Ömər, Cənabi Peyğəmbərimizə; "Ya Rəsulallah! Allah Təalaya and içirəm ki, sən mənə canımdan başqa hər şeydən daha sevimlisən" dedi. Rəsulullah isə; "Mən, sənə canından daha sevgili olmadıqca, sizdən biriniz əsla iman etmiş ola bilməz" buyurdu. Bundan sonra Həzrəti Ömər; "Ya Rəsulallah! Sənə Qur'ani Kərimi göndərən Allah Təalaya and içirəm ki, sən mənə canımdan daha sevgilisən" deyincə; "Ey Ömər, indi (tamam) oldu" buyurdu.

Bir nəfər, Rəsulullahın yanına gəlib belə demiş ki; "Ey Allah Təalanın Rəsulu! Qiyamət nə zaman olacaq?" Cənabi Peyğəmbərimiz; "Qiyamət üçün nə hazırladın?" buyurmuş. O adam; "Doğrudur, çox namaz qılıb, oruc tutub, sədəqə verib qiyamət üçün hazırlanmadım. Ancaq mən, Allah Təalanı və Onun Rəsulunu sevirəm" dedi. Bundan sonra Cənabi Peyğəmbərimiz. "Hər kəs sevdiyi adamla birlikdədir" buyurmuşdur.[406]

Rəsulullahı sevmək, bütün müsəlmanlara fərzi ayndır. O sərvərin sevgisi bir könülə yerləşsə, İslamiyyəti yaşamaq, imanın və İslamın dadına, doyulmaz zövqünü hiss etmək çox asan olar. Bu sevgi, iki cahanın Sahibinə tamamilə itaət etməyə səbəb olar. Bu sevgi ilə Allah Təalanın Həbibinə ikram etdiyi saysız-hesabsız və sayılması mümkün olmayan ne'mətlərə, bərəkətlərə qovuşmaqla şərəflənilər. Böyük, kiçik hər müsəlmanı, bilavasitə Rəsulullahın sevgisinə aparan Əhli sünnət alimləri və kitabları bu bərəkətlərin qaynağıdırlar.

---

[405] Müslim, "İman", 76; Nəsai, "İman", 19; İbn Macə, "Müqəddimə", 9; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 207; Hakim, *əl-Müstədrək*, II, 528; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, I, 36.

[406] Buxari, "Əhkam", 10; Tirmizi, "Zühd", 50; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 104; Heysəmi, *Məcməuz-Zəvaid*, XI, 186; Qazı İyaz, *Şifayi Şərif*, s. 77.

Rəsul əleyhissalamın mübarək adını çəkən vəya eşidən mö'minin, sanki Rəsulullahın şərəfli məclisində iştirak etdiyini düşünüb sükunət, ədəb, qəlb və bədənlə tə'zim etməyi vacibdir.

Rəsulullahın mübarək sözlərindən və işlərindən xəbər verilən bir şeyi, Onun şanını ucaldan bir şey ilə təsdiq etmək, Ona edilən tə'zim və hörmətdəndir. İnsanlar arasında alçaltmaq və aşağı bir dərəcə üçün istifadə edilən sözlərlə Rəsulullahı vəsf etməmək də Ona tə'zim əlamətlərindəndir.

Məsələn, Rəsulullaha kasıb deyilməz. Çoban da deyilməz. "Rəsulullah, filan şeyi sevərdi" deyilincə; "Halbuki, mən onu sevmirəm" deməmək də Ona tə'zim etməyin bir işarəsidir. Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm); "Mən bir şeyə söykənərək yemək yemərəm"[407] buyurmasına; "Mən bir şeyə söykənərək yeyərəm" deyib, sonra söykənərək yemək yemək kimi bir hərəkət etməmək də ədəb qaydalarındandır. Bunlara riayət etmək, Rəsulullaha olan tə'zimə münasib hərəkət etmək deməkdir. Bunlara bilə-bilə əhəmiyyət verməmək niyyətiylə riayətsizlik, küfr qapılarına yol açar.

Qur'ani Kərimin və hədis kitablarının üstünə, başqa hər hansı bir kitab vəya hər hansı bir ev əşyası qoymamaq da Allah Təala və Rəsulunə tə'zim əlamətlərindəndir. Onların üstündə yığılan tozu silmək, içərisində Allah Təalanın adı vəya Rəsulullahın mübarək adlarının olduğu bir kağızı atmamaq da Allah Təalaya və Rəsuluna tə'zim etmək deməkdir.

Belə kağızlar cırılmaz. İslami hərflərlə yazılan kağızlara daha çox hörmət etmək lazımdır. Şayəd, içərisində Allah Təalanın adı, ayələr olan kitablar və kağızlar köhnəldiyi üçün cırılarsa, bunları təmiz parçaya büküb torpağa basdırmaq vəya su ilə yuyaraq üstündəki yazıları silmək ya da yandırmaq lazımdır. Yandırdıqdan sonra isə küllərini basdırmaq lazımdır. Yandırmaq, yuyub yazıları yox etməkdən daha yaxşı olar. Çünki, yuyulmaq üçün istifadə edilən su ayaq altında da qala bilər.

Rəsulullahın harəmi olan Mədinəyi münəvvərəyə tə'zim və hörmət etmək, orda qadağan edilən şeylərdən (vəya günah iş tutmaqdan) çəkinmək və Mədinəyi münəvvərə əhalisinə maddi köməklik göstərmək də Rəsulullaha tə'zim etmək sayılır.

*Eşqin ilə aşiqlər yansın ya Rəsulallah*

[407] Suyuti, *Əvsafun-Nəbi*, s. 81; Qəzzali, *İhya*, II, 877.

*İçib eşqin şərabın doysun ya Rəsulallah*

*Şol səni sevən kəs, qoymuş yoluna başı*
*İki cahan günəşi sənsən ya Rəsulallah*

*Şol səni sevənlərə qıl şəfaət onlara*
*Mö'min olan tənlərə cansan ya Rəsulallah*

*Eşıqim şol didara, bülbülüm şol gülzara*

*Səni sevməyən nara, yansın ya Rəsulallah*

*Şol səni sevən sübhan oldu hamıya hökmdar*

*Canım yoluna qurban olsun Ya Rəsulallah*

*Dərviş Yunisin canı aləm şəfaət kanı*

*İki cahan hökmdarı sənsən ya Rəsulallah!*

## FƏZİLƏTLƏRİ

### Yüksək əxlaqı

Allah Təala, sevgili Peyğəmbərinə (səlləllahu əleyhi və səlləm) verdiyi yaxşılıqları, ehsanları sayaraq, Onun mübarək könlünü alarkən, özünə gözəl xüsusiyyətlər verdiyini də sadalamaqda, məalən; "Sən, gözəl xasiyyətli olaraq yaradıldın" buyurmaqdadır. Həzrəti İkrimə belə buyurmuşdur ki; "Abdullah ibn Abbasdan eşitdim ki, bu ayə haqqında belə deyir; "Xuluqi əzim" yəni, gözəl xasiyyətlər, Qur'ani Kərimin bildirdiyi əxlaqdır. Ayədə məalən; "Sən xuluqi əzimlə yaradıldın"[408] buyuruldu. Xuluqi əzim, Allah Təala ilə Onun arasında sirr, gizli şeylərin mövcud olması, insanlar ilə də gözəl xasiyyətlə rəftar etmək, deməkdir. Bir çox insanın İslam dinini qəbul etməsinə Rəsulullahın gözəl əxlaqı səbəb olmuşdur.

[408] əl-Qələm, 68/4.

Şirin sözlü idi. Könülləri alar, ruhları cəzb edərdi. Ağlı o qədər çox idi ki, Ərəbistan yarmadasında, kobud, inadkar insanlara başçılıq edib, onları çox gözəl idarə edərək və verdikləri əziyyətlərə səbr edərək, onları yumuşaqlığa və itaətə gətirmişdi. Bu insanların bir çoxu öz dinlərini tərk edib müsəlmanlığı qəbul etdi və İslam dini yolunda, ata və oğullarına qarşı döyüşməyə məcbur oldu. Onun uğrunda mallarını, el-obalarını fəda edib, qanlarını axıtdı. Halbuki, belə şeylərə adət etməmişdilər. Xoş xasiyyəti, yumuşaqlığı, təvazökarlığı, səbrliliyi, ehsanı və ürəyiaçıqlığı o qədər çox idi ki, hamı Ona heyran qalardı. Görənlər və eşidənlər ürəkdən müsəlmanlığı qəbul edərdilər. Heç bir hərəkətində, heç bir işində, heç bir sözündə, heç bir vaxt, heç bir kobudluq, heç bir əksiklik görülməmişdir. Özü üçün heç kimin xətrinə dəymədiyi halda, dinə iftira atan din düşmənlərinə qarşı sərt və amansız idi.

Məhəmməd əleyhissalamın minlərlə mö’cüzəsi vardı. Bu mö’cüzələrini istər dosları, istərsə də düşmənləri görmüşdülər. Bu mö’cüzələrin ən dəyərlisi, ədəbli və xoş xasiyyətli olması idi. Əbu Səid əl-Xudri Həzrətləri belə buyurmuşdur ki; “Rəsulullah (səlləllahu əleyhi və səlləm) heyvanlara yem verər, dəvəni bağlayar, evini süpürər, qoyunun südünü sağar, ayaqqabısını tə’mir edər, paltarına yamaq tikərdi.[409] Qulluqçusu ilə birlikdə yemək yeyərdi. Qulluqçusu əl dəyirmanında dən üyüdərkən yorulunca, ona kömək edərdi. Bazardan şey-şüy alıb, torbaya qoyub evə gətirərdi. Kasıbla, varlıyla, böyüklə, balacayla üzbəüz gəlincə əvvəlcə salam verərdi. Bunlarla görüşmək üçün, mübarək əlini əvvəlcə uzadardı. Kölə, ağa, bəy, rəngi qara və ağ olan arasında fərq görməzdi. Hər kim çağırsa, də’vət edilən yerə gedərdi. Qabağına qoyulan şeyi, az olsa da, O, az görməzdi. Axşamdan səhərə və səhərdən də axşama yemək saxlamazdı. Xoş xasiyyətli idi. Yaxşılıq etməyi sevər, hamıya yaxşı davranardı. Gülər üzlü, şirin sözlü olub danışarkən gülməzdi. Kədərli görünərdi. Ancaq, qanı qara olmazdı. Alçaq könüllü idi. Ancaq, alçaq təbiətli deyildi. Qarşısındakı adamda hörmət və qorxu hasil edəcək qədər heybətli idi. Ancaq, kobud deyildi. Zərif və ürəyiaçıq idi. Ancaq, israf etməz, boş yerə bir şey verməz, hamıya ürəyi yanardı. Mübarək başı həmişə qabağa əyilmiş vəziyyətdə idi. Heç kimdən bir şey ummazdı. Səadət və hüzur istəyən, Onun kimi olmağa çalışmalıdır”.

[409] Qəzzali, *İhya*, II, 877.

Ənəs ibn Malik belə buyurmuşdur ki; “Rəsulullaha on il xidmət etdim, bir dəfə də olsun “of” demədi. Bunu nə üçün belə etdin, bunu nə üçün etmədin buyurmadı”.[410]

Əbu Hüreyrə; “Bir qəzvədə, kafirlərin yox olması üçün dua etməsini xahiş etdik; “Mən, lə’nət etmək üçün, insanların əzab çəkməsi üçün göndərilmədim. Mən, hamıya yaxşılıq etmək və insanların hüzura qovuşması üçün göndərildim” buyurdu”.[411]

Allah Təala, Ənbiya surəsinin 107-ci ayəsində məalən; “Səni, aləmlərə rəhmət, yaxşılıq etmək üçün göndərdik” buyurur.

Əbu Səid il-Xudri belə buyurmuşdur ki; “Rəsulullahın həyası, bakirə İslam qızlarının həyalarından daha çox idi”.[412]

Ənəs ibn Malik belə demişdir ki; “Rəsulullah, bir nəfərlə görüşüncə, o adam əlini çəkmədikcə, mübarək əlini ondan çəkməzdi.[413] O adam, üzünü çevirmədikcə, mübarək üzünü ondan çevirməzdi. Bir nəfərin yanında oturarkən, dizləri üstündə oturar, qarşısındakı adama qarşı ədəbli olmaq üçün mübarək ayağını uzadıb oturmazdı”.

Cabir ibn Sümurə də belə rəvayət etmişdir ki; “Rəsulullah az danışardı. Lazım gəldiyində vəya bir şey soruşulanda cavab verərdi”.

Bundan belə başa düşülür ki, hər bir müsəlman boş və faydasız şeylər danışmayıb, susmalıdır. Mübarək sözlərində tərtil və tərsil vardı. Yəni, çox açıq və səlist danışar və asan başa düşülərdi.

Ənəs ibn Malik belə buyurmuşdur ki; “Rəsul əleyhissalam xəstələri ziyarət edər, cənazə arxasınca gedər, də’vət edilən yerə gedərdi. Uzunqulağa da minərdi. Rəsul əleyhissalamı Xeybər qəzvəsində gördüm. İpdən bir yüyəni olan uzunqulağa minmişdi. Rəsul əleyhissalam, sübh namazından çıxınca, Mədinə uşaqları və işçiləri su dolu qablarını onun qabağına qoyar, mübarək barmağını içinə salmasını istəyərdilər. Həzrəti Peyğəmbər su soyuq olsa da, onların istəklərini yerinə yetirər, könüllərini xoş edərdi”.[414]

Yenə Ənəs belə demişdir ki; “Bir kiçik kız, Rəsul əleyhissalamın əlindən tutub bir iş üçün aparsaydı, birlikdə gedər, işini həll edərdi”.

---

410 Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 255; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 291.
411 Qəzzali, *İhya*, II, 878.
412 Müsləm, “Fəzail”, 99; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 71; İbn Əbi Şeybə, *əl-Musannəf*, V, 213; İbn Sə’d, *ət-Təbəqat*, I, 368; Beyhəqi, *əs-Sünən,* II, 477; Bəğavi, *əl-Ənvar*, I, 264.
413 Qəzzali, *İhya*, II, 879.
414 İbn Macə, “Zühd”, 16; Hakim, *əl-Müstədrək*, II, 506; İbn Sə’d, *ət-Təbəqat*, I, 371; Beyhəqi, *Şuabul-İman,* VI, 289.

Cabir də belə demişdir ki; "Rəsul əleyhissalamdan bir şey istəndiyində, yox dediyi əsla eşidilməmişdir".

Cənabi Peyğəmbərimiz, həya sahibi olmaq cəhətiylə də bütün məxluqatdan üstün idi. Münasib olmayan şeyləri gözləri sanki görməzdi. Heç kimə xoşlanmadığı şeylə xitab etməzdi.

Həzrəti Aişə anamız belə nəql etmişdir ki; "Rəsulullaha, bir nəfərin, xoşlanılmayan bir şeyi etdiyi xəbər verildiyində, adını çəkmədən ümumi mənada "Nə üçün belə edirlər?" buyurardı. Belə edərək o adamı, etdiyi pis işdən vəya dediyi pis sözdən çəkindirərdi. Ancaq adını əsla çəkməzdi.[415]

Ənəs ibn Malik belə nəql etmişdir ki; "Bir dəfə Cənabi Peyğəmbərimizin hüzuruna, üzünə sarı rənkdə bir şey sürtmüş bir nəfər gəldi. Ona heç bir şey demədi. Xətrinə də dəymədi. O çölə çıxınca; "Kaş ki, ona üzünü yumağı desəydiniz ki, üzündəki şeyi yusaydı!" buyurdu.[416]

Rəsulullah, qövmləri bir-birilərinə yaxınlaşdırardı, onları bir-birilərindən ayırmazdı. Hər qövmün başçısına hədiyyələr verər və ona baş tərəfdə yer verərdi.

Heç kimi öz mübarək camalından məhrum etməzdi. Əshabi kiramı ilə maraqlanar, görsənməyənləri soruşardı. Yanına oturanlara nəsihət edər, onlara xeyirli məsləhətlər verərdi.

Davranışı ilə, birini o birindən daha çox sevir, düşüncəsi heç kimi ürəyinə gəlməzdi. Yanına şikayət üçün gələn bir nəfərə qarşı vaxt ayırıb və ona qulaq asardı.

Gələn şəxs yanından getmədikcə, onu qoyub getməzdi. Bütün insanlara xoş xasiyyət və əxlaqını ən yaxşı şəkildə göstərərdi. Onun yanında, haqq və ədalət cəhətiylə hamı bərabər idi. Heç kimin, heç kimdən bir üstünlüyü, bir ucalığı yoxdu.

Həzrəti Aişə anamız belə buyurmuşdur ki; "Rəsulullah qədər gözəl əxlaqa sahib heç kim görmədim. Nə zaman Əshabından vəya Əhli beytindən biri Onu çağırmışsa mütləq, "Buyur" deyərək cavab vermişdir".[417]

Rəsulullah, Əshabını ən gözəl adlarla çağırar, heç kimin sözünü ağzında qoymazdı. Danışdığı adam sözünü qurtarmadan vəya getmək üçün ayağa qalxmadan sözünü kəsməzdi.

---

[415] Qazı İyaz, *Şifayi Şərif*, s. 116.
[416] Qazı İyaz, *Şifayi Şərif*, s. 116.
[417] Əhməd Şami, *Sübülül-Huda*, VI, 7.

Onun gözəl davranışı, şəfqəti və mərhəməti haqqında Allah Təala məalən; "Zəhmət çəkməyiniz Onu incidər və üzər. Sizə çox bağlıdır, mö'minlərə qarşı çox mərhəmətlidir, onlara çox xeyir gəlməsini diləyər" buyurur.

Ənbiya surəsinin 107-ci ayəsində məalən; "(Ey Həbibim!) Səni ancaq aləmlərə rəhmət olaraq göndərdik" buyurur.

Cənabi Peyğəmbərimiz, öz ümmətinə bəzi şeylərin çətin olacağını düşünərək asanlaşdırardı. "Ümmətimə çətinlik verməmiş olsaydım, hər dəstəmazda misvaqdan istifadə etmələrini əmr edərdim" buyurmuşdur.[418]

Sözünü tutmaq cəhətiylə də insanlar arasında Cənabi Peyğəmbərimizdən daha üstün bir nəfər gəlmədi.

Abdullah ibn Əbil-Hamsə belə nəql etmişdir ki; "Peyğəmbərimizlə, hələ peyğəmbərliyi verilmədən qabaq alver etmişdım. Mənə bi az verəcəyi qalmışdı. Ona, filan vaxtda filan yerdə görüşmək üçün söz verdim, ancaq unutdum. Üç gün sonra verdiyim sözü xatırlayınca dərhal o yerə qaçdım. Onun üç gündür orda gözləməkdə olduğunu görüncə təəccüb etdim. Mənə; "Cavan oğlan, məni yordun! Mən səni burda düz üç gündür gözləyirəm" buyurdu.

Cənabi Peyğəmbərimizin təvazökarlıq xisləti, heç kimdə, hətta heç bir peyğəmbərdə (əleyhimussalam) olmamışdır.

Lovğalıq hissi, Onda əsla meydana gəlməmişdir. Peyğəmbərimizə, mələk vəya qul peyğəmbər olmaq təklif edilmiş, O, qul peyğəmbər olmağı seçmişdi.[419]

Bundan sonra İsrafil əleyhissalam, Cənabi Peyğəmbərimizə; "Heç bir şübhə yoxdur ki, Allah Təala təvazökarlıq göstərdiyin o xisləti də sənə vermişdir. Çünki qiyamətdə sən, Adəm oğullarının ən büyüyüsən. Qəbrindən qalxan ilk insan sən olacaqsan. İlk şəfaət edən də sən olacaqsan" dedi.

Cənabi Peyğəmbərimiz Həzrəti Aişə anamıza belə buyurmuşdur ki; "Mənə Məkkənin daşının, torpağının qızıla çevrilməsi təklif edildi. "Xeyr, ya Rəbbi", dedim. Bir gün ac qalıb, bir gün də tox qalmağı, ac qaldığım gün sənə yalvarıb dua edərəm. Tox olduğum gün də sənə həmdu səna edərəm".[420]

---

[418] Buxari, "Təmənni", 9; Əbdurrəzzaq, *əl-Musannəf*, I, 556; Qazı İyaz, *Şifayi Şərif*, s. 123.
[419] Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 309.
[420] İbn Sə'd, *ət-Təbəqat*, I, 381; Əhməd Şami, *Sübülül-Huda*, VII, 75; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 308-309; Qəzzali, *İhya*, III, 196.

Cəbrayıl əleyhissalam, Cənabi Peyğəmbərimizə gəlib; "Allah Təalanın sənə salamı var. İstəyirsə bu dağları Onun üçün qızıla çevirim. Hara getsə o qızıl dağları Onunla birlikdə getsin" buyurmuşdu. Sevgili Peyğəmbərimiz də belə buyurmuşdur ki; "Ey Cəbrayıl! Dünya, evsizlərin evidir. Dünya, malı olmayanların malıdır. Bunları ağlı olmayanlar yığar".[421] Bundan sonra Cəbrayıl əleyhissalam; "Ya Məhəmməd! Allah Təala səni, dəyişməz kəlamıyla məğrur yaratmışdır" demişdir.

Həzrəti Aişə anamız; "Bəzən düz bir ay gözləyərdik, evimizdə (yemək bişirmək üçün) ocaq yandırmazdıq. Təkcə xurma ilə su tapılardı" buyurmuşdur.

İbn Abbas; "Rəsulullah və Əhli beyti, çox vaxtı axşam yeməyi yemədən yatardılar. Axşam yemək üçün bir şey tapa bilməzdilər" buyurmuşdur.

Aişə anamız buyurmuşdur ki; "Rəsulullahın mübarək mə'dəsi, heç bir zaman yeməkdən doymamışdır. Bu barədə heç kimə də gileylənməmişdir. Ehtiyac, Onun üçün varlı olmaqdan daha yaxşı idi. Bütün gecə aclıqdan əziyyət çəksə belə, gündüzləri oruc tutardı.[422]

İstəsəydi, Rəbbindən yer üzünün bütün xəzinələrini, yeməklərini və firavan həyatı istəyərdi. And içirəm ki, Onun bu halını gördüyüm zaman, ürəyim yanar, ağlayardım. Əlimlə mübarək qarnını sığallayar; "Canım sənə fəda olsun! Bir az da dünya ne'mətlərindən faydalansan olmaz bəyəm?" deyərdim.

O da, "Ey Aişə! Dünya mənim nəyimə lazımdır? Ulul-Azmdan olan peyğəmbər qardaşlarım, bundan daha çətin vəziyyətlərlə dözdülər. Ancaq, o öz həyatlarına eləcə də davam etdilər. Rəblərinə qovuşdular.

Bu səbəblə Rəbləri, onların özünə qayıdışlarını çox gözəl bir şəkildə etdi və savablarını artırdı. Mən firavan bir həyat yaşamaqdan həya edirəm. Çünki, belə bir həyat məni onlardan dala salır.

Mənim üçün ən gözəl və sevimli şey, qardaşlarıma, dostlarıma qovuşmaq və onlarla birlikdə olmaqdır" buyururdu.

Həzrəti Aişə anamız belə buyurmuşdur ki; "Rəsulullah, bu sözlərindən təxminən bir ay sonra vəfat etdi".

Cənabi Peyğəmbərimiz ürəyiaçıqlığı ilə də dillərdə dastan olmuşdu. Bu gözəl xasiyyətdə də Peyğəmbərimizə heç kim çata bilməzdi.

---

[421] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 71; İbn Əbi Şeybə, *əl-Musannəf*, VII, 243; Beyhəqi, *Şuabul-İman,* VII, 375.

[422] Beyhəqi, *Şuabul-İman,* V, 25; Əbu Ya'la, *əl-Müsnəd*, VIII, 139; İbn Sə'd, *ət-Təbəqat*, I, 406.

İbn Abbas "Rəsulullah yaxşılıq etmək cəhətiylən insanların ən ürəyiaçığı idi. Ramazani şərifdə və Cəbrayıl əleyhissalamla görüşdükləri zaman, səhər küləyindən daha həlimn olardı" demişdir.

Ənəs ibn Malik belə buyurmuşdur ki; "Rəsul əleyhissalam ilə birlikdə yol gedirdim. Əynində Nəcrani bürdə vardı. Yəni, Yəmən parçasından tikilmiş bir palto vardı. Arxadan bir kəndli gəlib, yaxasından elə dartdı ki, paltonun yaxası mübarək boynunu siyirdi və izi qaldı. Rəsul əleyhissalam, adamın bu halına güldü və ona bir şey verilməsi üçün əmr etdi".

Rəsul əleyhissalamın qonşusu olan yaşlı qadın vardı. Qızını, Rəsul əleyhissalamın yanına göndərib; "Namaz qılmaq üçün geyinəcək bir paltarm yoxdur. Mənə, namazda geyinəcək bir paltar göndər" deyə yalvardı. Rəsul əleyhissəlamın o əsnada başqa paltarı yoxdu. Mübarək əynindəki köynəyini çıxardıb, o qadına göndərdi. Namaz vaxtı gəlincə, paltarsiz məscidə gedə bilmədilər. Əshabi kiram, vəziyyətdən xəbər tutunca, Rəsul əleyhissalam o qədər ürəyiaçıqlıq edir ki, köynəksiz qalıb, məscidə camaat namazı qıldırmağa gələ bilmir. Biz də hər şeyimizi kasıblara paylayaq, dedilər. Allah Təala, bu vaxt İsra surəsinin 29-cu ayəsini göndərdi. Əvvəlcə Həbibinə məalən; "Xəsislik etmə" buyurub, sonra da; "Çətinliyə düşəcək və namaz vaxtını keçirdəcək, kədərlənəcək qədər də paylama! Sədəqədə verməkdə mö'tədil ol" buyurdu.

O gün namazdan sonra Həzrəti Əli Rəsulullahın yanına gəlib; "Ya Rəsulallah! Bu gün, ailə-uşağımın dolanışığını tə'min etmək üçün səkkiz dirhəm gümüş borc almışam. Bunun yarısını sizə verim. Özünüzə əntari (paltar) alın" dedi. Rəsul əleyhissalam bazara çıxıb, iki dirhəmlə bir əntari aldı. Artıq qalan iki dirhəmlə də yemək almağa gedərkən kor bir adamın oturduğunu gördü; "Allah rızası üçün və Cənnət paltarlarına qovuşmaq üçün, mənə kim bir köynək verər?" deyirdi. Aldığı əntarini ona verdi. Kor adam əntarini əlinə götürüncə, müşg kimi gözəl ətir hiss etdi. Bunun, Rəsul əleyhissalamın mübarək əlindən gəldiyini başa düşdü. Çünki, Rəsul əleyhissalamın bir dəfə geydiyi hər paltar, köhnəlib yırtılsa belə, hər parçası müşg kimi gözəl iy verərdi.

Kor adam dua edərək; "Ya Rəbbi! Bu köynəyin hörmətinə, mənim gözlərimi aç" dedi. İki gözü də o dəqiqə görməyə başladı. Rəsul əleyhissalam da yoluna davam etdi. Bir dirhəmlə bir əntari aldı. Bir dirhəmlə yemək almağa gedərkən, bir qulluqçu qızın ağladığını görüb; "Qızım, nə üçün belə ağlayırsan?" buyurdu. "Bir yəhudinin qulluqçusuyam. Mənə bir dirhəm verib "Yarısıyla bir şüşə, yarsıyla da yağ al" dedi.

Bunları alıb gedirdim ki, əlimdən düşdü. Həm şüşə sındı, həm də yağ zay oldu. İndi nə edəcəyimi bilmirəm" dedi. Rəsul əleyhissalam, axırıncı dirhəmini qıza verib; "Bununla şüşə və yağ al, evinə apar" buyurdu. Kızcığaz; "Evə gec getdiyim üçün yəhudinin məni döyəcəyindən qorxuram" deyincə, Rəsulullah; "Qorxma! Səninlə birlikdə gəlib, sənə bir şey etməməsini söyləyərəm" buyurdu.

Evə gəlib qapını döydülər. Yəhudi qapını açıb, Rəsulullahı (səlləllahu əleyhi və səlləm) görüncə, çaşib qaldı. Rəsulullah yəhudiyə, baş verənləri danışıb, qıza bir şey etməməsi üçün tapşırdı. Yəhudi, Rəsulullahın ayaqlarına düşüb; "Minlərlə insanın baş tacı olan, minlərlə aslanın, əmrini yerinə yetirmək üçün növbədə gözlədiyi ey böyük Peyğəmbər! Bir qulluqçu qız üçün, mənim kimi bir yazığın qapısını şərəfləndirdin. Ya Rəsulallah! Bu qızı sənin şərəfinə azad etdim. Mənə imanı, İslamı öyrət ki, hüzurunda müsəlman olum" dedi. Rəsul əleyhissalam ona müsəlmanlığı öyrətdi. Yəhudi müsəlman olduqdan sonra, ailə-uşaqları da müsəlmanlığı qəbul etdilər. Bunların hamısı, Rəsulullahın gözəl əxlaqının bərəkətiylə baş verdi.

Rəsul əleyhissalamın gözəl əxlaqı həddən artıq çoxdur. Hər müsəlmanın bunları bilməsi və tətbiq etməsi lazımdır. Beləcə, dünyada və axirətdə fəlakətlərdən, çətinliklərdən xilas olmaq və o iki cahanın sahibinin şəfaətinə qovuşmaq nəsib olar.

Onun gözəl əxlaqından bəziləri aşağıdakılardır;

1-Rəsulullahın elm və irfanı, fəhmi, anlayışı, ağlı, zəkası, ürəyiaçıqlığı, təvazökarlığı, şəfqəti, səbrliliyi, qeyrəti, mühafizəkarlığı, sədaqəti, əmanəti, şücaəti, məhəbbəti, bəlağəti, fəsahəti, fətanəti, məlahətliliyi, doğruluğu, iffəti, kərəmi, insafı, həyası, zahidliyi, təqvası bütün peyğəmbərlərdən daha çoxdu. Dostundan və düşmənindən gördüyü zərərləri və əziyyətləri bağışlayardı. Heç birindən intiqam almazdı. Ühüd qəzvəsində kafirlər yanağını qanadıb, mübarək dişlərini sındırdıqları zaman, bunu edənlər üçün; "Ya Rəbbi, bunları bağışla! Cahilliklərinə bağışla" buyurmuşdu.

2-Özünü heç kimdən üstün tutmazdı. Bir səfərdə, bir qoyun kababı bişiriləcəyi vaxt, biri; "Mən kəsərəm" dedi. Bir başqası da; "Mən dərisini soyaram" dedi. Digəri də; "Mən bişirərəm" dedi, Rəsulullah da; "Mən odun yığaram" deyincə; "Ya Rəsulallah! Sən istirahət et! Biz toplayarıq" dedilər. Rəsulullah; "Bəli! Sizin hər şeyi edəcəyinizi bilirəm. Ancaq, iş görənlərdən ayrılaraq oturmaq istəmərəm. Allah Təala, dostlarından ayrılıb oturanı sevməz" buyurdu və odun toplamağa getdi.

3-Əshabının oturduqları yerə gəlincə, baş tərəfə keçməzdi. Gördüyü boş yerdə oturardı. Əlində əsası olduğu halda, bir gün küçəyə çıxdığında, görənlər ayağa qalxdılar. Rəsulullah; “Başqalarının bir-birilərinə etdikləri kimi, mənim üçün ayağa qalxmayın! Mən də, sizin kimi bir insanam. Hamı kimi yeyərəm. Yorulunca oturaram” buyurdu.

4-Çox vaxt diz üstündə oturardı. Dizlərini yığıb, qollarını dizlərinə sarıyaraq oturduğu da görülmüşdür.[423] Yeməkdə, geyinməkdə və hər şeydə qulluqçularını özündən ayırmazdı. Onların işlərinə kömək edərdi. Heç kimi döydüyü vəya pis söz dediyi əsla görülmədi. Həmişə Ona xidmət edən Ənəs ibn Malik; “Rəsulullaha on il xidmət etdim. Onun mənə etdiyi xidmət, mənim ona etdiyimdən çox idi. Məndən acığı gəldiyini, mənimlə sərt danışdığını əsla görmədim” demişdir.[424]

5-Sübh namazlarını qıldırdıqdan sonra, camaata üzünü çevirib oturar; “Xəstə olan qardaşımız var görəsən? Varsa onu ziyarət etməyə gedək!” buyurardı. Xəstə yoxdursa; “Cənazəsi olan var görəsən? Varsa köməyə gedək!” buyurardı. Cənazə varsa, yuyulmasına, kəfənə bükülməsinə kömək edər, namazını qıldırar, qəbrinə qədər gedərdi. Cənazə yoxdursa; “Yuxu görən varsa danışsın! Qulaq asıb, tə’bir edək!” buyurardı.

6-Qonaqlarına, Əshabına xidmət edər; “Bir camaatın ən üstünü, onların xidmət edənidir” buyurardı.

7-Qəhqəhə ilə güldüyü əsla görülmədi. Səssizcə təbəssüm edərdi. Bəzən gülərkən mübarək qabaq dişləri görünərdi.

8-Gərəksiz və faydasız bir şey deməzdi. Lazım olunca, qısa, faydalı və mənası açıq olaraq deyərdi. Yaxşı başa düşülməsi üçün bəzən üç dəfə təkrar edərdi.

9-Heybətindən heç kim üzünə baxa bilməzdi. Biri gəlib mübarək üzünə baxınca, ona baxanın üzü tərləyərdi. Rəsulullah da; “Həyəcanlanma! Mən mələk deyiləm, zülmkar da deyiləm. Ət suyu içən zavallı bir qadının oğluyam” deyərdi. Bundan sonra adamın həyəcanı yox olub, dərdini danışmağa başlayardı.

10-“Aranızda Allah Təalanı ən yaxşı qavrayan və Ondan ən çox qorxan mənəm”, “Mənim gördüyümü siz görsəydiniz, az gülüb, çox ağlayardınız”[425] buyurardı. Havada bulud görüncə; “Ya Rəbbi! Bu buludla bizə əzab göndərmə!”, külək əsincə; “Ya Rəbbi! Bizə xeyirli bir külək göndər”, göy guruldayınca; “Ya Rəbbi! Bizdən inciyib, bizi öldürmə. Əzabını göndərmə. Xeyir ehsan et!” deyə dua edərdi. Namaz qılarkən, ağlayan

---

[423] Əbu Davud, “Ədəb”, 25.
[424] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 255.
[425] Qazı İyaz, *Şifayi Şərif*, s. 145.

bir nəfərin hıçqırdığı kimi, sinəsində səs eşidilərdi. Qur'ani Kərim oxuyarkən də belə olardı.

11-İradə qüvvəti, şücaəti insanı heyrətə salacaq qədər çox idi. Huneyn qəzvəsində müsəlmanlar pərən-pərən olub, üç-dörd nəfərlə birlikdə qalmışdı. Bir neçə dəfə kafirlərin hücumuna tək başına sinə gərdi və əsla dala çəkilmədi.

12-Çok ürəyiaçıq idi. Yüzlərlə dəvə və qoyun bağışlar, özünə bir şey saxlamazdı. Bir çox daş qəlbli kafir, Onun bu ehsanlarını görərək iman etmişdilər.

13-Xanımlarına və bir neçə qulluqçusuna bəzən bir illik arpa və xurma ayırar, bundan kasıblara də sədəqə verərdi.

14-Yeməklərdən qoyun ətini, ət suyunu, balqabağı, şirniyyatı, balı, xurmanı, südü, qaymağı, qarpızı, qovunu, üzümü və xiyarı sevərdi.[426]

15-Suyu yavaş-yavaş, Bismillahla başlayaraq üç qurtumda içər, axırda da; "Əlhəmdulillah" deyər və dua edərdi.

16-Caiz olan hər paltarı geyərdi. Qalın parçadan ehram şəkilində tikilməmiş şeylərlə örtünər, qətfəyə bürünər, qaftan (köynək) və əba da geyərdi. Bunlar pambıqdan, yundan vəya (keçi) tükündən toxunmuşdu. Çox vaxt ağ, bəzən də yaşıl geyərdi. Nadirən tikili paltar da geyərdi. Cümə günündə, bayramlarda, xarici elçilər gəldikdə və döyüş zamanlarında qiymətli qaftanlər, əbalar, yaşıl, qırmızı və qara da geyərdi. Qollarını biləklərinə qədər, mübarək ayaqlarını baldırının yarısına qədər örtərdi.

17-Ərəbistandakı adətə riayət edərək saçlarını qulaqlarının yarısına qədər uzadar, artığını qırxdırardı. Saçlarına xüsusi hazırlanmış, xoş ətirli yağ sürtərdi.

18-Əllərinə, başına və üzünə müşg vəya başqa ətirlər sürtər, ud ağacı və kafurla xoş ətir hopdurardı.

19-Yatağı dəridən idi. Yatağının içi xurma ağacının qabıqlarıyla doldurulmuşdu. İçi yunla dolmuş bir yataq gətirdiklərində, qəbul etməmiş və; "Ey Aişə! Allah Təalaya and içirəm ki, əgər istəsəm, Allah Təala hər yerdə mənim başıma qızıl-gümüş yağdırar" buyurmuşdu. Bəzən həsir, taxta, döşək, yundan toxunmuş keçə vəya quru torpaq üstündə yatardı.

20-Hər gecə gözlərinə üç dəfə sürmə çəkərdi.

21-Evində güzgü, daraq, sürmə qabı, misvaq, qayçı, iynə və iplik əksik olmazdı. Hər səfərə çıxdığında bunları özüylə götürərdi.

---

[426] Qəzzali, *İhya*, II, 884.

22-Xiftən namazından sonra, gecə yarısına qədər yatıb, sonra sübh namazına qədər ibadət edərdi. Sağ tərəfi üstündə yatar, sağ əlini yanağının altına qoyar, yatmamışdan qabaq bəzi surələri oxuyardı.

23-Təfəul edərdi. Yəni, ilk gördüyü, birdən-birə gördüyü şeyləri xeyrə yozardı. Heç bir şeyi uğursuz saymazdı.

24-Kədərli olduğu vaxtlarda saqqalını tutar, düşünərdi.

25-Kədərləndiyi zaman, dərhal namaza başlardı. Namazın ləzzət və səfasıyla qəm-qüssvsi yox olub gedərdi.

Cənabi Peyğəmbərimizin, Allah Təaladan qorxması, Ona itaət və ibadət etməsi o qədər çodu ki, Onun bu halına heç kim taqət gətirə bilməzdi. Mübarək ayaqları şişincəyə qədər namaz qılardı. "Ya Rəsulallah! Sizin gəlmiş-keçmiş bütün günahlarınız bağışlandığı halda, niyə bu qədər özünüzə zəhmət verirsiniz?" deyildiyində; "Mən, Allah Təalanın ən çox şükr edən qulu olmayım bəyəm?" deyə cavab verdi.

## Fəzlətləri

Məhəmməd əleyhissalamın fəzlətlərindən xəbər verən yüzlərlə kitab vardır. Fəzilət, üstünlük deməkdir. Üstünlüklərindən bəziləri aşağıda verilmişdir;

1-Məxluqlar içində, ilk olaraq Məhəmməd əleyhissalamın nuru və ruhu yaradılmışdır.

2-Allah Təala Onun adını Ərşə, Cənnətlərə və yeddi qat göyə yazmışdır.

3-Hindistanda bitən bir gülün yarpaqlarında, "La ilahə illallah Muhamməndən rəsulullah" yazılıdır.

4-Bəsrə şəhərinə yaxın bir çayda tutulan balığın sağ tərəfində "Allah", sol tərəfində "Məhəmməd" yazılmış olduğu görülmüşdür.

5-Məhəmməd əleyhissalamın adını zikr etməkdən başqa vəzifəsi olmayan mələklər vardır.

6-Mələklərin Həzrəti Adəmə səcdə etməsi üçün əmr verilməsinin səbəbi, alnında Məhəmməd əleyhissalamın nurunun olması idi.

7-Allah Təala bütün peyğəmbərlərə, Məhəmməd əleyhissalamın gələcəyini, ayrıca, öz ümmətlərinə, Onun dövrünə çatdıqlarında, Ona inanmalarını əmr etməyi tapşırmışdır.

8-Dünyaya gələcəyi zaman, çox böyük əlamətlər görülmüşdür. Bu əlamətlər tarix və mövlud kitablarında yazılıdır.

9-Dünyaya gəldiyi zaman, göbəyinin kəsik və sünnət olduğu görülmüşdür.

10-Dünyaya gəlincə, şeytanlar göyə qalxıb, mələklərdən xəbər ala bilmədilər.

11 Dünyaya gəldiyi zaman, yer üzündəki bütün bütlər, sitayiş edilən heykəllər üzü üstə yıxıldı.

12-Beşiyini mələklər yırğaladılar.

13-Beşikdə ikən göydəki ayla danışardı. Ay, mübarək barmağı ilə işarə etdiyi tərəfə meyl edərdi.

14-Beşikdə ikən danışmağa başladı.

15-Uşaq ikən, çöldə gəzərkən, başının üstündə bir bulud gəzərək kölgə salardı. Bu hal, peyğəmbərliyi başlayana qədər davam etdi.

16-Hər peyğəmbərin sağ əlinin üstündə nübüvvət möhürü vardı. Məhəmməd əleyhissalamın möhürü isə, mübarək kürəyinin ortasında sol tərəfə yaxın, ürəyinin tuşundaydı.

17-Həm qabağını, həm də arxasını görərdi.

18-Aydınlıqda da, qaranlıqda da görərdi.

19-Ağzının suyu ilə acı suyu şirinə çevirərdi, xəstələrə şəfa verərdi. Körpələrə də süd kimi qida olardı.

20-Gözləri yumularkən, ürəyi oyaq olardı. Bütün peyğəmbərlər də belə idi.

21-Ömründə heç əsnəmədi. (Bütün peyğəmbərlər də belə idi.)

22-Mübarək təri, gül kimi gözəl iy verərdi. Bir kasıb adam qızını evləndirirkən, Ondan kömək istəmişdi. O əsnada verməyə bir şeyi yox idi. Balaca bir şüşəyə tərindən qoyub verdi. O qız, üzünə, başına sürtüncə, evi müşg kimi iy verərdi. Evi, (Xoş ətirli ev) adı ilə məşhur oldu.

23-Orta boylu olduğu halda, uzun adamların yanındaykən, onlardan da hündür görünərdi.

24-Günəş və ay işığında yol gedərkən, kölgəsi yerə düşməzdi.

25-Bədəninə və paltarına milçək, ağcaqanad və başqa böcəklər qonmazdı.

26-Nə qədər geysə də pal-paltarları qət'iyyən kirlənməzdi.

27-Hər yol getdiyində, arxasınca mələklər gedərdi. Bunun üçün, Əshabına qabaqdan getməsini tapşırar; "Qoyun mələklər arxamdan gəlsinlər" buyurardılar.

28-Daşın üstünə ayaq qoyunca, daşda ayağının izi qalardı. Qumun üstündə gedərkən heç iz qoymazdı. Dəstəmaz pozduğu zaman, yer aralanıb bövl (sidik) və s. torpağın içində qalardı. (Bütün peyğəmbərlər də belə idi).[427]

29-İnsanlar və mələklər içində ən çox elm Ona verildi. Ümmi olduğu halda, yəni heç kimdən bir şey öyrənmədiyi halda, Allah Təala Ona hər şeyi öyrətmişdir. Adəm əleyhissalama hər şeyin adı öyrədildiyi kimi, Ona da hər şeyin adı və elmi öyrədilmişdir.

30-Ümmətinin adları, özləri və aralarında baş verəcək olan şeylərin hamısı Ona bildirildi.

31-Ağlı, bütün insanların ağlından daha çoxdur.

32-İnsanlarda olan bütün yaxşı xasiyyətlərin hamısı Ona ehsan olundu.

Böyük şair Ömər İbnil-Farizə; “Rəsulullahı nə üçün mədh etmədin?” soruşduqlarında; “Onu mədh etməyə gücüm çatmayacağını başa düşdüm. Onu mədh edəcək bir söz tapa bilmədim” demişdir.

33-Kəlimeyi şəhadətdə, əzanda, iqamədə, namazdakı təşəhhüddə, bir çox dualarda, bəzi ibadətlərdə və xutbələrdə, nəsihətlərdə, çətin vaxtlarda, qəbirdə, məhşərdə, Cənnətdə və hər məxluqun dilində Allah Təala Onun adını öz adının yanına qoymuşdur.

34-Fəzilətlərinin ən üstünü Həbibullah olmasıdır. Allah Təala Onu özünə sevgili, dost etmişdır. Onu hamıdan, hər mələkdən daha çox sevmiş; “İbrahimi Xəlil etdimsə, səni də özümə Həbib etdim” buyurmuşdur.

35-“Sənə razı olana qədər, (bəsdir deyənə qədər) hər istədiyini verəcəyəm”[428] məalındakı ayə, Allah Təalanın Peyğəmbərinə bütün elmləri, bütün fəzilətləri, İslam hökmlərini, düşmənlərinə qarşı yardım və qələbə, ümmətinə fəthlər, qələbələr, qiyamətdə hər cür şəfaət və təcəllilər ehsan edəcəyini və’d etməkdədir. Bu ayə gəldiyi zaman, Cəbrayıl əleyhissalama baxaraq; “Ümmətimdən heç birinin Cəhənnəmdə qalmasına razı ola bilmərəm” buyurdu.

36-Allah Təala, Qur’ani Kərimdə hər peyğəmbərə öz adıyla, Məhəmməd əleyhissalama isə; “Ey Rəsulum! Ey Peyğəmbərim!” deyə xitab etmişdir.

---

[427] Qazı İyaz, *Şifayi Şərif*, s. 69.
[428] əd-Duha 93/5.

37-Çox açıq, asan başa düşülən bir şəkildə Ərəb dilinin hər ləhcəsi ilə danışardı. Müxtəlif yerlərdən yanına gələnlərlə öz ləhcələrində danışardı. Qulaq asanlar heyran qalardılar; "Allah Təala məni çox gözəl tərbiyə etdi" buyurardı.[429]

38-Az sözlə çox şey danışardı. Yüz mindən çox hədisi, Onun "Cəvamiul kəlim" olduğunu göstərməkdədir. Bəzi alimlər belə demişlər ki; "Məhəmməd əleyhissalam, İslam dininin dörd təməlini dörd hədislə bildirmişdir; "Əməllər niyyətə görədir"[430] və "Halal mə'lumdur, haram da mə'lumdur"[431] və "İddia edənin şahid göstərməsi və iddiaçının and içməsi lazımdır" və "Bir nəfər, özünə istədiyini, din qardaşı üçün də istəmədikcə, imanı kamil olmaz".[432] Bu dörd hədisdən birincisi, ibadət, ikincisi davranışlar, üçüncüsü xusumət, yəni ədalət işləri və siyasət, dördüncüsü də ədəb və əxlaq bilgilərinin təməlidir".

39-Məhəmməd əleyhissalam, mə'sun və mə'sum idi. Yəni, bilə-bilə vəya bilməyərək, böyük vəya kiçik, qırx yaşından əvvəl vəya sonra heç bir günah iş görməmişdir. Çirkin heç bir işi görülməmişdir.

40-Müsəlmanların namazda oturarkən "Əssalamu əleykə eyyuhənnəbiyyu və rəhmətullahi" oxuyaraq, Məhəmməd əleyhissalama salam verməleri əmr olundu. Namazda başqa bir peyğəmbərə və mələklərə salam vermək caiz olmadı.

41-"Sən olmasaydın heç bir şeyi yaratmazdım" buyruldu.[433]

42-Başqa peyğəmbərlər, kafirlərin böhtanlarına özləri cavab vermişdir. Məhəmməd əleyhissalama atılan böhtanlara isə, Allah Təala cavab verərək, Onu müdafiə etmişdır.

43-Məhəmməd əleyhissalamın ümmətinin sayı, başqa peyğəmbərlərin ümmətlərinin sayının hamısından daha çoxdur. Onlardan daha fəzilətli və daha şərəflidirlər. Cənnətə düşənlərin üçdə ikisinin bu ümmətdən olacağı hədislərdə nəql edilmişdir.

44-Rəsulullaha verilən savablar, digər peyğəmbərlərə verilən savablardan qatbaqat çoxdur.

45-Rəsulullahı öz adıyla çağırmaq, yanında yüksək səslə danışmaq, uzaqdan Onu çağırmaq, yolda Ondan qabağa keçmək haram edilmişdir. Başqa peyğəmbərlərin ümmətləri, onları adları ilə çağırardılar.

---

[429] Suyuti, *Camiul-Əhadis*, XXXI, 237.
[430] Buxari, "Bədul-Vəhy", 1; Əbu Davud, "Talaq;, 11; İbn Macə, "Zuhd", 26.
[431] Əbu Davud, "Buyu", 3; Nəsai, "Buyu", 2.
[432] Buxari, "İman", 7; Tirmizi, "Sifətul-Qiyamə", 59; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 176.
[433] Suyuti, *əl-Ləali'l-Məsnua*, I, 272; Əcluni, *Kəşfu'l-Xəfa*, II, 164; Əli əl-Qari, *Şərhu'ş-Şifa*, I, 6.

46-Cəbrayıl əleyhissalamı mələk cildində iki dəfə görmüşdür. Başqa heç bir peyğəmbər onu əsl cildində görməmişdir.

Cəbrayıl əleyhissalam Rəsulullaha iyirmi dörd min dəfə gəlmişdir. Başqa peyğəmbərlərdən ən çox Musa əleyhissalama gəlmişdir. Bu gəliş dörd yüz dəfə vaqe olmuşdur.

47-Allah Təalaya Məhəmməd əleyhissalamın adını çəkərək and vermək caiz olub, başqa peyğəmbərlər və mələklərin adlarıyla caiz deyildir.

48-Məhəmməd əleyhissalamdan sonra, xanımlarını başqalarının nikahlaması haram edilmiş, bu cəhətdən mö'minlərin anaları olduqları bildirilmişdir.

49-Nəsəb və səbəb cəhətindən, yəni qan və nikah cəhətindən olan qohumluğun qiyamətdə heç bir faydası olmayacaq. Ancaq, Rəsulullahın qohumluğu istisnadır.

50-Rəsulullahın adını qoymaq dünyada da, axirətdə də faydalıdır. Onun adını daşıyan həqiqi mö'minlər Cəhənnəmə girməyəcəkdir.

51-Onun hər sözü, hər işi doğrudur. Hər ictihadı, Allah Təala tərəfindən təsdiq edilər.

52-Onu sevmək hamıya fərzdir. "Allah Təalanı sevən, məni sevər" buyurmuşdur. Onu sevməyin əlaməti dininə, yoluna, sünnətinə və əxlaqına riayət etməkdir. Qur'ani Kərimdə; "Mənə itaət etsəniz, Allah Təala sizi sevər" deməsi əmr olundu.

53-Onun Əhli beytini sevmək vacibdir. "Əhli beytimə düşmənlik edən münafiqdir" buyurmuşdur. Əhli beyt, zəkat almağı haram edilən qohum-əqrabasıdır. Bunlar, xanımları və babası Haşimin nəslindən olan mö'minlərdir. Əlinin, Aqilin, Cə'fər Təyyarın və Abbasın nəslindən olanlardır.

54-Əshabının hamısını sevmək vacibdir. "Məndən sonra Əshabıma düşmənlik etməyin! Onları sevmək, məni sevməkdir. Onlara düşmən olmaq, mənə düşmən olmaqdır. Onları incidən, məni incitmiş olar. Məni incidən də, Allah Təalanı incidər. Allah Təala da, özünü incidənə əzab edər" buyurmuşdu".

55-Allah Təala, Məhəmməd əleyhissalama, göydə iki, yerdə iki köməkçi yaratmışdır. Bunlar Cəbrayıl, Mikayıl, Əbu Bəkir və Ömərdir (Allah Təala onlardan razı olsun).[434]

[434] Tirmizi, "Mənaqib", 17; Hakim, *əl-Müstədrək*, II, 290; Buxari, *ət-Tarixul-Kəbir*, II, 158; Xuzai, *ət-Təxric*, s. 39.

56-İstər kişi, istərsə də qadın, böyük yaşda vəfat edən hər kəsə, qəbrində Məhəmməd əleyhissalam soruşulacaqdır; “Rəbbin kimdir?” deyildiyi kimi; “Peyğəmbərin kimdir?” də soruşulacaqdır.

57-Məhəmməd əleyhissalamın hədislərini oxumaq ibadətdir. Oxuyana savab verilər.

58-Mübarək canını almaq üçün, Əzrayıl əleyhissalam insan cildində gəlmiş, içəri girmək üçün icazə istəmişdi.

59-Qəbrinin içindəki torpaq hər yerdən, Kə’bədən və Cənnətlərdən daha fəzilətlidir.

60-Qəbirdə bizə namə’lum olan bir həyatla diridir. Qəbirdə Qur’ani Kərim oxuyar, namaz qılar. Bütün peyğəmbərlər də belədir.

61-Dünyanın hər yerində, Rəsulullaha salavat oxuyan müsəlmanların salamlarını eşidən mələklər, qəbrinə gəlib xəbər verərlər. Qəbrini hər gün minlərlə mələk ziyarət edər.

62-Ümmətinin əməlləri və ibadətləri hər səhər və hər axşam Ona göstərilər. Bunları edənləri də görər, günah iş tutanların bağışlanması üçün dua edər.

63-Qəbrini ziyarət etmək, qadınlar üçün də müstəhəbdir. Başqa qəbirləri isə, ancaq tənhada və müsəlmana layiq olan pal-paltarlarla ziyarət etmələri caizdir.

64-Diri ikən olduğu kimi, vəfatından sonra da, dünyanın hər yerində, hər zaman Ona təvəssül edənlərin, yəni Onun xətri və hörməti üçün istəyənlərin duasını Allah Təala qəbul edər.

65-Qiyamət günü qəbirdən ən birinci Rəsulullah qalxacaqdır.[435] Əynində Cənnət paltarları olacaqdır. Buraqın belində məhşər yerinə gedəcəkdir. Əlində Livaul-Həmd deyilən bayraq olacaqdır. Peyğəmbərlər və bütün insanlar bu bayrağın altında duracaqdır. Hamısı, min il gözləməkdən çox bezəcəklər. İnsanlar növbəylə Adəm, Nuh, İbrahim, Musa və İsa peyğəmbərlərin (əleyhimussəlam) yanına gedib, şəfaət etmələrini istəyəcəklər. Hər biri, üzr istəyərək Allah Təaladan utanıb, qorxduqlarını söyləyəcəklər və şəfaət etməkdən ehtiyat edəcəklər. Sonra, Rəsulullahın yanına gedib yalvardıqlarında, O, səcdəyə gedib dua edəcək və şəfaəti qəbul olacaqdır. Əvvəlcə, Onun ümmətinin hesabı görüləcək, ən əvvəl sirat körpüsündən onlar keçəcək, ən birinci Cənnətə girəcəklər. Hər getdiyi yeri nura bürüyəcəklər. Həzrəti Fatimə, sirat körpüsündən keçərkən; “Hamı gözlərini yumsun! Məhəmməd əleyhissalamın qızı gəlir” deyiləcəkdir.

---

[435] Bəğavi, *əl-Ənvar*, I, 62.

66-Altı yerdə şəfaət edəcəkdir. Birincisi, "Məqami Mahmud" deyilən şəfaəti ilə, bütün insanları məhşərdə gözləmək əzabından xilas edəcəkdir.[436] İkincisi, şəfaətiylə çox adamı Cənnətə qoyacaqdır. Üçüncüsü, əzab çəkməsi lazım olanları əzabdan xilas edəcəkdir. Dördüncüsü, günahı çox olan mö'minləri Cəhənnəmdən çıxardacaqdır. Beşincisi, savabı və günahı bərabər olub, Araf deyilən yerdə gözləyənlərin Cənnətə getmələrinə şəfaət edəcəkdir. Altıncısı, Cənnətdə olanların dərəcələrinin yüksəlməsinə şəfaət edəcəkdir.

67-Rəsulullahın Cənnətdə olan məqamın adı Vəsilədir. Bura Cənnətin ən yüksək dərəcəsidir. Cənnətdə olan hər bir nəfərə bir budağı uzanan Sidrətul-Müntəha ağacının kökü ordadır. Cənnətdəkilərə ne'mətlər bu budaqlardan gələcəkdir.

## İstiğfarı

Cənabi Peyğəmbərimiz, həm məxluqatın ən üstünü, həm də Allah Təalanı haqqıyla dərk edib, Ondan ən çox qorxan idi. Cənabi Haqq, Onu günah iş görməkdən qoruduğu halda O, heç dayanmadan ibadət edər, Allah Təalaya dua və istiğfar etməkdən yorulmazdı. Gecənin əvvəlində (Xiftən namazından sonra) yatar, gecənin axırında da ibadət edərdi.

İbn Abbas belə nəql etmişdir ki; "Bir gecə mö'minlərin anası Həzrəti Meymunənin evinə qonaq getmişdim. Rəsulullah təxminən gecə yarısına qədər yatdı. Sonra oyanıb oturdu, əlləriylə gözlərini ovuşdurdu. Qalxıb asılı su kuzəsini götürüb dəstəmaz aldı. Ali İmran surəsinin axırından on ayə oxudu və namaza başladı. Mən də durub Rəsulullahın aldığı kimi dəstəmaz aldım və namazda Onun yanında dayandım. Rəsulullah iki rük'ət namaz qıldı. Sonra iki rük'ət də qıldı. Bundan sonra təzədən iki rük'ət də qıldı. Sonra vitr namazına başladı. Bu namazı qılıb qurtarınca sübh əzanı oxununcaya qədər yatdı. Sonra qalxıb təzədən iki rük'ət namaz qıldı və məscidə girib sübh namazının fərzini qıldı".[437]

Həzrəti Aişə anamız belə nəql etmişdir ki; "Rəsulullah bir gecə yatmışdı. Oyanınca; "Ey Aişə, narazı deyilsənsə, bu gecəni Rəbbimə ibadət etməklə məşğul olardım" buyurdu. Sonra qalxdı. Ağlaya-ağlaya Qur'ani Kərim oxudu. Hətta, o qədər

---

[436] Qazı İyaz, *Şifayi Şərif*, s. 217.
[437] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 284; Beyhəqi, *əs-Sünən,* I, 89.

göz yaşı tökdü ki, dizləri islandı. O, oxumağa davam etdi, oxuduqca mübarək göz yaşları bədəninə dəyən hər yeri islatmışdı. Bu vəziyyət səhərə qədər davam etdi.

Səhər açılınca Bilal Həbəşi gəlib vəziyyəti görüncə; "Anam və atam fəda olsun ya Rəsulallah! Allah Təala sənin keçmiş və gələcək xətalarını bağışlamadı bəyəm?" deyincə, Rəsulullah; "Ey Bilal! Mən şükr edən bir qul olmayım? Allah Təala bu gecə; "Göylərin və yerin yaradılmasında, gecə və gündüzün bir-birinin arxasınca gəlməsində ağıl sahibləri üçün əlbəttə çox əlamət və işarələr vardır"[438] ayəsini inzal etdi".[439]

"Müslim"də rəvayət edilən hədisdə də; "Ürəyimə elə şeylər gəlir ki, buna görə hər gün, hər gecə yetmiş dəfə Allah Təalaya istiğfar edirəm", "Ürəyimdə (ənvari ilahiyyənin gəlməsinə mane olan) pərdə araya girir. Buna görə hər gün, 70 dəfə istiğfar edirəm" və "Allah Təalaya hər gün yüz dəfə istiğfar edirəm" buyurmuşdur.[440]

Cənabi Peyğəmbərimizin Allah Təaladan qorxması o qədər çox idi ki, qəhqəhəylə güldüyü əsla görülməzdi.

İmam Tirmizinin Əbu Zərdən mərfu[441] olaraq nəql etdiyi hədisdə; "Heç bir şübhə yoxdur ki, sizin görmədiklərinizi mən görürəm. Eşitmədiklərinizi də mən eşidirəm. Səmada mələklərin səcdə etmədikləri dörd barmaq böyüklüyünde belə boş yer yoxdur. Vallahi, mənim bildiyimi bilsəydiniz az gülüb, çox ağlayardınız. Yollara düşüb səsinizin çıxdığı qədər yüksək səslə Allah Təalaya yalvarardınız" buyurmuşdur.[442]

Əbu Hüreyrənin rəvayət etdiyi hədisdə də Rəsulullah; "Heç kimi öz əməli Cənnətə aparmaz" buyurdu. "Sizi də ya Rəsulallah?" deyə soruşulunca; "Bəli, məni də əməlim Cənnətə aparmaz. Ancaq, Allah Təalanın fəzli və rəhməti məni örtər" buyurdu.

İbn Ömər də belə nəql etmişdir; "Rəsulullahla birlikdə bir məclisdə olduğumuz zaman; "Ya Rəbbi! Məni bağışla və tövbəmi qəbul et. Sən tövbələri qəbul edən və mərhəmətlisən" deyə yüz dəfə təkrar etdiyini sayardıq".[443]

Ənəs ibn Malik belə nəql etmişdir ki; "Rəsulullah (səlləllahu əleyhi və səlləm) həmişə "Allahummə ya Muqallibəl-qulub, səbbit qəlbi alə dinik" buyurardı.[444]

---

[438] Ali İmran 3/190.
[439] İbn Hibban, *əs-Səhih*, II, 386; Beyhəqi, *Şuabul-İman,* II, 185; İbn Əsakir, *Tarixu Dəməşq*, IV, 142.
[440] İbn Macə, "Ədədb", 57; Beyhəqi, *Şuabul-İman,* I, 438; Qazı İyaz, *Şifayi Şərif*, s. 148.
[441] Səhabənin bilavasitə Həzrəti Peyğəmbərdən nəql etdikləri hədislər.
[442] İbn Əbi Şeybə, *əl-Musannəf*, VII, 123; Hakim, *əl-Müstədrək*, II, 554; Beyhəqi, *Şuabul-İman,* I, 484.
[443] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, II, 89; İbn Əbi Şeybə, *əl-Musannəf*, VI, 57; Suyuti, *Camiul-Əhadis*, XXXVI, 323.
[444] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 257; Hakim, *əl-Müstədrək*, I, 706.

Tirmizinin Əbu Səid-əl-Xudridən rəvayət etdiyi hədisdə, Cənabi Peyğəmbərimiz belə buyurmuşdur ki; “Yatağına girdiyində üç dəfə “Əstağfirullahəlazim əlləzi la ilahə illa huvəl-həyyul-qəyyum və ətubu ileyh” deyən bir nəfərin günahları dəniz köpükləri, Təmim diyarının qumları, ağac yarpaqlarının sayı vəya dünyanın günləri qədər çox olsa da, Allah Təala onun günahlarını bağışlayar”.

Buxari və Müslimin nəql etdiklərinə görə Rəsulullah belə istiğfar edərdi; “Allahumməğfir xatiəti və cəhli və israfi fi əmri və ma əntə ə’ləmu bihi minni”.

(Allahım! Sənin bildiyin və mənim (bilərək vəya) bilməyərək, həddimi aşaraq etdiyim və gördüyüm xətaları bağışla!).

“Allahumməğfirli xəzli və ciddi və xətai və amdi və kullu zəlikə indi. Allahumməğfirli ma qaddəmtu vəma axxartu vəma əsrartu vəma aləntu vəma əntə ə’ləmu minni əntəl muqəddəmu və əntəl muaxxaru və əntə ala kulli şeyin qadir”.[445]

(Allahım, zarafat, ciddi, unudaraq və bilərək mənim edə biləcəyim bütün qüsurlarımı bağışla. Allahım! Təqdim və tə’xir etdiyim, gizlicə və açıq-aşkar gördüyüm, sənin bildiyin hər cür qüsurlarımı bağışla. Muqaddəm və muxxar olan sənsən. Hər şeyə qadir olan sənsən).

## Şəfaəti

Rəsuli əkrəm, qiyamət günündə ümmətinə şəfaət edəcək, onları çətinlik və üzüntüdən xilas edəcəkdir. Bir hədisində belə buyurmuşdur ki; “Ümmətimin yarısının Cənnətə girməsiylə şəfaət mövzusunda seçim haqqı mənə verildi. Mən şəfaəti seçdim. Çünki, o daha çox şeyi əhatə edir. Şəfaətin ancaq təqvalı olanlar üçün olduğunu zənn etməyin. Şəfaət həm də xətaya düşən günahkarlar üçündir”.[446]

Əbu Hüreyrə Həzrətlərinin rəvayət etdiyi hədisdə, Cənabi Peyğəmbərimiz; “Mən, ürəyi dilini təsdiq edən şəkildə, ixlas ilə “La ilahə illallah” deyərək kəlimeyi şəhadət gətirənlərə şəfaət edəcəyəm” buyurmuşdur.[447]

Başqa hədislərdə də; “Ümmətimdən, Əhli beytimi sevənlərə şəfaət edəcəyəm”, “Ümmətimdən, böyük günah iş görənlərə şəfaət edəcəyəm”, “Əshabıma böhtan

---

[445] Əbu Davud, “Salat”, 123; Tirmizi, “Dəavat”, 29; Darimi, “Salat”, 169; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 94; Darəqutni, *əs-Sünən*, III, 264; Hakim, *əl-Müstədrək*, I, 692, Beyhəqi, *əs-Sünən,* II, 420.

[446] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 29; Təbərani, *əl-Mu’cəmul-Kəbir*, XVIII, 58; Heysəmi, *Məcməuz-Zəvaid*, XI, 308; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 290.

[447] Əbu Ya’la, *əl-Müsnəd*, XI, 39; Heysəmi, *Məcməuz-Zəvaid*, XI, 321; Qazı İyaz, *Şifayi Şərif*, s. 217.

atanlardan başqa, hamıya şəfaət edə bilərəm", "Ümmətimdən, nəfsinə zülm edənlərə, nəfslərinə aldananlara şəfaət edəcəyəm", "Qiyamət günü, ən birinci mən şəfaət edəcəyəm",[448] "Şəfaətimə inanmayan, ona qovuşa bilməz" buyurulmuşdur.[449]

Qiyamət günündə Sura üfürülmənin dəhşətindən tüklər biz-biz olar, gözlər hara baxacağını bilməz, mö'min və kafirlər məhşər yerinə gətirilərlər. Bu, qiyamət gününün şiddətini artıran bir əzabdır. Bu vaxt, Ərşi səkkiz mələk daşıyar. Onlardan biri bir addım atdığında, iyirmi min illik dünya yolunu gedir.

Mələklər və buludlar, Ərşi ə'la sabit durana qədər, idrak olunmayan təsbihlərlə təsbih edərlər. Bu şəkildə, Ərşi ə'la Allah Təalanın yaratdığı ağ yerin üstündə yerləşər. Bu məqamda, heç bir şeyin taqət gətirə bilməyəcəyi Allah Təalanın əzabından başlar aşağı əyilər. Bütün məxluqat çaş-baş qalıb, şəfqət axtararlar.

Peyğəmbərlər və alimlər də qorxar. Övliya və şəhidlər çətinliklə dözülə bilən Allah Təalanın əzabından fəryad edərlər. Bunlar, bu vəziyyətdə ikən, günəşin nurundan da çox olan bir nur peyda olar. Onsuz da günəşin hərarətinə taqəti qalmayanlar, bu nurdan pərən-pərən düşərlər. Bu minvalla min il də bu vəziyyət davam edər. Allah Təala tərəfindən özlərinə heç bir şey deyilməz.

Bu vaxt insanlar ilk peyğəmbər olan Adəm əleyhissalamın yanına gedər; "Ey Adəm əleyhissalam! Sən əziz və şərif bir peyğəmbərsən. Allah Təala səni yaratdı və mələkləri sənə səcdə etdirdi. Sənə öz ruhundan üflədi. Hesaba başlanması üçün bizə şəfaət et ki, Allah Təalanın dilədiyi kimi məhkum olaq və hara əmr edərsə, hamı ora getsin. Hər şeyin hakimi və maliki olan Allah Təala məxluqlarına istədiyini etsin" deyə yalvararlar.

Adəm əleyhissalam buyurar ki; "Mən, Allah Təalanın qadağan etdiyi ağacın meyvəsindən yedim. Ona görə də indi Allah Təaladan utanıram. Yaxşısı budur ki, siz Nuh peyğəmbərin yanına gedin". Bundan sonra min il öz aralarında məsləhətləşib qalarlar.

Sonra Nuh əleyhissalamın yanına gedər və; "Vəziyyətimiz dözülməzdir. Bizim hesabımızın tez çəkilməsi üçün şəfaət et ki, bu məhşər cəzasından xilas olaq" deyə yalvararlar. Nuh əleyhissalam onlara cavab olaraq; "Mən Allah Təalaya dua etdim. Yer üzündə nə qədər insan varsa, o duanın səbəbiylə boğuldu. Bunun üçün, Allah Təaladan utanıram. Ancaq, siz Xəlllilullah olan İbrahim əleyhissalamın yanına gedin. Allah Təala

[448] Bəğavi, *əl-Ənvar*, I, 62.
[449] Təbərani, *əl-Mu'cəmul-Kəbir*, XII, 421; Heysəmi, *Məcməuz-Zəvaid*, XI, 324.

Həcc surəsinin axırıncı ayəsində məalən; "İbrahim (əleyhissalam) siz dünyaya gəlməmişdən qabaq sizə müsəlman adını qoydu" buyurdu. Bəlkə o sizə şəfaət edə bilər" deyər.

Yenə əvvəlki kimi öz aralarında min il məsləhətləşərlər. Sonra İbrahim əleyhissalamın yanına gələrək; "Ey müsəlmanların atası! Sən Allah Təalanın özünə xəlil (dost) etdiyi zatsan. Bizə şəfaət et ki, Allah Təala məxluqat barəsində hökmünü versin" deyərlər. İbrahim əleyhissalam da onlara; "Mən dünyada üç dəfə kinayəli danışdım. Bununla din yolunda mübarizə apardım. İndi, Allah Təaladan bu məqamda şəfaət icazəsi istəməkdən utanıram. Siz Musa əleyhissalamın yanına gedin. Çünki, Allah Təala onunla danışdı və mənəvi yaxınlıq göstərdi. O, sizin üçün şəfaət edər" buyurar.

Bundan sonra yenə min il bir-biriləriylə müzakirə edərlər. Ancaq, bu müddətdə vəziyyətləri daha da çətinləşər. Məhşər yeri çox daralar. Sonra Musa əleyhissalamın yanına gəlib belə deyərlər; "Ey İbn İmran! Allah Təala səninlə danışmış, sənə Tövratı endirmişdir. Hesabın başlaması üçün bizə şəfaət et! Çünki, burda artıq həddən çox qaldıq. O qədər izdiham oldu ki, iynə atsan yerə düşməz".

Musa əleyhissalam onlara belə deyər ki; "Mən, Allah Təalaya, Firon və onun tərəfdarlarını cəzalandırması üçün illər uzunu dua etdim. Sonra gələnlər üçün ibrət dərsi olmalarını xahiş etdim. İndi isə şəfaət etməyə utanıram. Ancaq, cənabı Haqq rəhmət və məğfirət sahibidir. Siz İsa əleyhissalamın yanına gedin. Çünki, yəqin cəhətiylə rəsulların ən doğrusu, mərifət və zahidlik cəhətiylə ən fəzilətlisi və hikmət cəhətiylə də ən üstünüdür. Sizə o şəfaət edər" buyurar.

Məhşər əziyyətlərindən xilas olmaq üçün daha sonra İsa əleyhissalamın yanına gələrək belə deyərlər ki; "Sən Allah Təalanın ruhu və kəliməsisən. Allah Təala, sənin üçün Ali İmran surəsinin 45-ci ayəsində məalən; "Dünyada və axirətdə vəcih, yəni çox qiymətli" buyurmuşdur. Bizə Rəbbindən şəfaət et!".

İsa əleyhissalam da belə buyurar ki; "Mənim qövmüm, məni və anamı Allaha şərik qoşdular. Bu vəziyyətdə mən necə şəfaət edərəm. Mənə də ibadət etdilər, mənə oğul və Allah Təalaya da ata dedilər. İçində dolanışıq üçün lazım olan bir pul kisəsinin ağzının açıq olduğunu heç gördünüz? Bu pul kisəsinin ağzını açmadan o pul götürülə bilər? Peyğəmbərlərin ən fəzilətlisi və axırıncısı Məhəmmədin yanına (səlləllahu əleyhi və səlləm) gedin. Çünki O, də'vətini və şəfaətini ümməti üçün hazırlayardı. Öz qövmü ona dəfələrlə əziyyət etdilər. Mübarək alnını yardılar. Mübarək dişini sındırdılar. Dəli

olduğunu söylədilər. Halbuki, O uca Peyğəmbər, onların iftixar cəhətindən ən yaxşısı və şərəf cəhətindən ən ucası idi. Onların qəddarcasına etdikləri əziyyətlərinə müqabil, Yusif əleyhissalamın qardaşlarına dediyi; "İndi sizin üzünüzə vurub utandırmayacağam. Ərhamurrahimin olan Cənabi Allah, sizə məğfirət edər"[450] məalındakı ayə ilə cavab verərdi". İsa əleyhissalam, Peyğəmbərimizin (səlləllahu əleyhi və səlləm) fəzlətlərindən danışınca, hamısı tezliklə Ona qovuşmaq istəyər.

Dərhal Məhəmməd əleyhissalamın minbərinə gələrək belə deyərlər; "Sən Həbibullahsan! Həbib isə, ən faydalı vasitədir. Bizə şəfaət et! Çünki, peyğəmbərlərin birincisi olan Adəm əleyhissalamın yanına getdik. Bizi Nuh əleyhissalamın yanına göndərdi. Nuh əleyhissalamın yanına getdik. İbrahim əleyhissalamın yanına, İbrahim əleyhissalamın yanına getdik, Musa əleyhissalamın yanına göndərdi. Musa əleyhissalamın yanına getdik, İsa əleyhissalama, O da sizə göndərdi. Ya Rəsulallah (səlləllahu əleyhi və səlləm)! Səndən sonra başqa bir yer yoxdur ki, gedə bilək".

Rəsulullah; "Allah Təala izin versə və razı olsa, şəfaət edərəm" buyurar.

Suradiqati cəlalə, yəni cəlal pərdəsinə gedər. Allah Təaladan şəfaət üçün izin istəyər. Ona izin verilər. Pərdələr qalxar. Ərşi ə'laya keçərək orda səcdəyə gedər. Min il səcdədə qalar. Bundan sonra, Cənabi Haqqı elə bir həmd ilə həmd edər ki, kainat yaradıldığından bəri, heç kim Allah Təalanı belə mədh etməmişdir. Bəzi ariflər; Allah Təala kainatı yaradınca, özünü belə həmdlərlə mədh və səna etdiyini söyləmişdir.

Məhşərdə, insanların vəziyyətləri daha da ağırlaşar. Məşəqqət və əziyyətləri daha da çoxalar. İnsanlardan hər biri, dünyadaykən yığdıqları mallları boyunlarına keçirtmişlər. Dəvənin zəkatını verməyənlərin boynuna dəvə yüklənər. Elə qışqırar və ağırlaşar ki, böyük dağlar kimi olar. İnək və qoyunun zəkatını verməyənlər də belə olar. Bunların fəryadları göy gurultusuna oxşayar.[451]

Əkinin zəkatını, yəni öşrünü verməyənlərin boynuna sünbül dəstələri yüklənər. Dünyada hansı növ əkinin zəkatını verməmişsə, o növdən sünbüllər yüklənmişdir. Buğda isə buğda, arpa isə arpa vurulmuşdur. Ağırlığından altında "vaveyla", "vasəbura" (Veyl, əzab deməkdir. İnsan əzaba dözə bilmədiyi vaxt belə qışqırar. Səbur da həlak olarkən deyilər) deyə qışqırar.

---

[450] Yusif, 12/92.
[451] Müslim, "İman", 399; Tirmizi, "Sifətül-Qiyamə", 10; İbn Macə, "Zühd", 37; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 4.

Qızıl, gümüş, (kağız) pul və sair ticarət malı zəkatından verməyənlərə də, qorxunc bir ilan sarılar. Qışqıraraq; "Bu nədir?" dediklərində, mələklər; "Bunlar, dünyada zəkatını vermədiyiniz mallarınızdır" deyə cavab verərlər. Bax bu acınacaqlı vəziyyət, Ali İmran surəsinin 180-ci ayəsində; "Dünyada əsirgədikləri, qiyamət günü boyunlarından asılar" məalı ilə bildirilmişdir.

Başqa bir qrupun isə, övrət yerlərindən qan və irin axar. Onların pis iyi ətrafdakılara həddən artıq pis tə'sir edər. Bunlar zina edənlər və haram iş görənlərdir.

Başqa bir qrup da vardır ki, ağacların budaqlarından asılarlar. Bunlar dünyada livata (kişilərin bir-birilərıyə qeyri normal cinsi əlaqə) edənlərdir.

Başqa bir qrupun da, dilləri ağızlarından çıxmış, sinələrinə qədər sallanmış çox çirkin bir vəziyyətdədirlər. İnsanlar bunları qət'iyyən görmək istəməz. Bunlar yalan danışan və böhtan atanlardır.

Bir qrupda yer alanların da qarınları hündür dağlar qədər şişmişdir. Bunlar, dünyada ehtiyac olmadan faizli mal və pul sələmçiliyi edənlərdir. Belə haram iş görənlərin günahları çox təhqir edilərək üzlərinə vurular.

Allah Təala məalən; "Ey Məhəmməd, başını səcdədən qaldırıb de, eşidilər. Şəfaət et, qəbul olunar" buyurar. Bundan sonra Peyğəmbər (səlləllahu əleyhi və səlləm); "Ya Rəbbi! Qulların arasından yaxşılarla pisləri ayır. Onlar bir yerdə çox qaldılar. Hər biri günahlarıyla Ərasat meydanında rəzil və rüsvay oldular" deyər.

Belə bir səs gələr ki; "Bəli, ey Məhəmməd!". Cənabi Haqq, Cənnətə əmr edər və hər cins öz zinəti ilə bəzənər. Ərasat meydanına gətirilər. O qədər gözəl iyi vardır ki, beş yüz illik yol məsafəsi uzaqlıqdan hiss edilər. Bu haldan ürəklər fərəhlənər. Ruhlar dirilər. (Lakin kafirlər, mürtədlər və müsəlmanlara istehza edənlər, gəncləri aldadaraq iman etmələrinə mane olanlar) və əməlləri xəbis, pis olanlar Cənnətin iyini hiss edə bilməzlər.

Məhşərdə Cənabi Haqq Cənnəti və Cəhənnəmi gətirməyi əmr edər. O vaxt, Cəhənnəmin səsi, gurultusu, od saçması və bütün göy üzünü zil qara edən bir dumanı vardır. Gurultusu, səs-küyü və istiliyi dözülməzdir. Hamının dizlərində taqəti qalmaz və o yerdəcə qalarlar.

Hətta peyğəmbərlər və rəsullar belə özlərini saxlaya bilməz. Həzrəti İbrahim, Həzrəti Musa, Həzrəti İsa, Ərşi ə'ladan yapışar. İbrahim əleyhissalam qurban etdiyi İsmail əleyhissalamı yaddan çıxardar. Musa əleyhissalam qardaşı Harun əleyhissalamı

və İsa əleyhissalam anası Həzrəti Məryəmi yada salmazlar. Hər biri; “Ya Rəbbi! Bu gün nəfsimdən başqa bir şey istəmirəm” deyər.

Məhəmməd əleyhissalam isə; “Ümmətimə salamatçılıq və nicat yolu ver ya Rəbbi!” deyər. Orda bu əziyyətlərə dözə bilən heç kim tapılmaz. Çünki, Allah Təala bunu qabaqcadan xəbər vermişdir. Casiyə surəsinin 28-ci ayəsində məalən; “Cənabi Haqqın qorxusundan hər bir ümməti dizləri üstünə çökmüş olaraq görərsən. Hər biri, dünyada gördükləri əməllərin kitabına də’vət olunarlar” buyurmuşdur.

Allah Təala, Mülk surəsinin 8-ci ayəsində məalən; “Ğeyz və şiddətinin çoxluğundan, sanki Nar ikiyə ayrılacaqdır” buyurar. Bundan sonra, Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) ortaya çıxıb Cəhənnəmin qabağını alar. Buyurar ki; “Alçaq və zəlil olaraq dala qayıt! Elə ki, sənə öz əhlin dəstə-dəstə gəlsinlər”.

Cəhənnəm də; “Ey Məhəmməd! Mənə fürsət ver! Çünki, sən mənə haramsan” deyər. Ərşdən bir səs eşidilərək; “Ey Cəhənnəm! Məhəmməd əleyhissalamın dediyinə qulaq as və ona itaət et!” deyər. Sonra Rəsulullah Cəhənnəmi dartar. Ərşi ə’lanın sol tərəfində bir yerdə yerləşdirər. Məhşərdəkilər, Cənabi Peyğəmbərimizin bu mərhəmətli davranışını və şəfaətini bir-birilərinə müjdə verərlər. Qorxuları bir az azalar. Ənbiya surəsində 107-ci ayənin; “Səni aləmlərə rəhmət olaraq göndərdik” məalı zahir olar.[452]

Beləliklə Rəsulullah altı yerdə şəfaət edəcəkdir. Birincisi, Məqami Mahmud deyilən şəfaəti ilə bütün insanları məhşərdə gözləmək əzabından xilas edəcəkdir. İkincisi, şəfaətiylə çoxlarını Cənnətə göndərəcəkdir. Üçüncüsü, əzab çəkməsi lazım olanları əzabdan qurtaracaqdır. Dördüncüsü, günahı çox olan mö’minləri Cəhənnəmdən çıxardacaqdır. Beşincisi, savabı və günahı bərabər olub, Araf deyilən yerdə gözləyənlərin Cənnətə girmələri, altıncı olaraq da Cənnətdəkilərin dərəcələrinin yüksəldilməsi üçün şəfaət edəcəkdir.

[452] Müslim, “İman”, 399; Tirmizi, “Sifətül-Qiyamə”, 10; İbn Macə, “Zühd”, 37; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 4; Qazı İyaz, *Şifayi Şərif*, s. 220.

# MÖ’CÜZƏLƏRİ

Sevgili Peyğəmbərimiz Məhəmməd əleyhissalamın, Allah Təalanın Peyğəmbəri olduğunu bildirən saysız-hesabsız rəvayətlər vardır. Allah Təala; “Sən olmasaydın kainatı yaratmazdım”[453] buyurmuşdur. Bütün məxluqlar, Allahu Təalanın varlığına, birliyinə işarə etdikləri kimi, Məhəmməd əleyhissalamın peyğəmbər olduğunu və fəzilətini də göstərməkdədirlər. Ümmətinin övliyasında meydana çıxan kəramətlər də Onun mö’cüzələridir. Çünki, kəramətlər Ona tabe olanlarda, Onun yoluyla gedənlərdə meydana çıxmaqdadır. Hətta, bütün peyğəmbərlər, Onun ümmətindən olmaq istədikləri üçün, daha doğrusu hamısı Onun nurundan yaradıldıqları üçün, Onların mö’cüzələri də Məhəmməd əleyhissalamın mö’cüzələrindən sayılır.

Sevgili Peyğəmbərimiz Məhəmməd əleyhissalamın mö’cüzələri, zaman cəhətiylə üç yerə ayrılmışdır; Birincisi, mübarək ruhu yaradıldığından başlayaraq peyğəmbərliyinin verildiyi bi’sətə qədər baş verən mö’cüzələrdir. İkincisi, bi’sətdən vəfatına qədər olan zaman içindəki mö’cüzələrdir. Üçüncüsü, vəfatından qiyamətə qədər olmuş və baş verəcək olan mö’cüzələrdir. Bunlardan birinci qrupa irhas deyilir. Hər biri də ayrıca, görərək vəya görməyib ağılla başa düşülən mö’cüzələr kimi iki hissəyə ayrılır. Bütün mö’cüzələr o qədər çoxdur ki, onları saymaq mümkün olmamışdır. İkinci qrup mö’cüzələrin təxminən üç min olduğu bildirilmişdir. Bunlardan məşhur olan bir neçə dənəsi aşağıdadır;

1-Məhəmməd əleyhissalamın mö’cüzələrinin ən böyüyü Qur’ani Kərimdir. Bu günə qədər gələn bütün şairlər və ədəbiyyatçılar, Qur’ani Kərimin üslübu və mənası mövzusunda aciz və heyran qalmışlar. Bir ayənin oxşarını deyə bilməmişlər. İcaz və bəlağəti bəşər sözünə oxşamamaqdadır. Yəni, bir kəlməsi çıxardılsa vəya bir söz əlavə edilsə, cümlədəki və manasındakı gözəllik pozulmaqdadır. Bir kəlməsini yerinə qoymaq üçün, başqa kəlmə axtaranlar tapa bilməmişlər. Üslubu, Ərəb şairlərinin şe’rlərinə oxşamaz. Keçmişdə olmuş və gələcəkdə baş verəcək gizli şeylərdən xəbər verməkdədir. Qulaq asanlar və oxuyanlar dadından doya bilmirlər. Yorulsalar da, bezmirlər. Oxuması və eşidilməsinin, insana rahatlıq verdiyi bir çox təcrübəylə sabit olmuşdur. Qulaq asınca canına dəhşət və qorxu düşənlər, bu səbəbdən ölənlər belə görülmüşdür. Neçə-neçə

[453] Suyuti, *əl-Ləali’l-Məsnua*, I, 272; Əcluni, *Kəşfu’l-Xəfa*, II, 164; Əli əl-Qari, *Şərhu’ş-Şifa*, I, 6.

qəddar İslam düşmənləri Qur'ani Kərimə qulaq asmaqla qəlbləri yumuşalmış, iman etmişlər.

2- Bir gün əmisi Abbasın evinə gedib onu və övladını yanında oturtdu. Onların üstünə öz örtüyünü örtərək; "Ya Rəbbi! Bu əmimi və Əhli beytimi örtdüyüm kimi, sən də, Cəhənnəm odundan onları qoru" dedi. Divarlardan üç dəfə amin səsi eşidildi.[454]

3- Bir gün əlində büt tutmuş bir adama; "Büt mənimlə danışsa, iman edərsən?" buyurdu. Adam; "Mən buna əlli ildir ki, ibadət edirəm. İndiyə qədər mənimlə heç nə danışmadı. Səninlə bəs necə danışacaq?" dedi. Məhəmməd əleyhissalam; "Ey büt! Mən kiməm?" buyurunca; "Sən Allahın peyğəmbərisən" səsi eşidildi. Bütun sahibi, elə o dəqiqə iman etdi.

4- Rəsuli əkrəm (səlləllahu əleyhi və səlləm), bir çəməndə gedərkən üç dəfə, "Ya Rəsulallah" səsini eşitdi. O tərəfə baxıb bağlanmış bir ceyran gördü. Yanında bir adam yatırdı. Ceyrandan nə istədiyini soruşunca; "Bu ovçu məni ovladı. Qaabaqdakı təpədə iki balam var. Məni burax! Gedib, onları doyuzdurub gəlim" dedi. Rəsul əleyhissalam; "Sözündə dayanıb gələcəksən?" buyurdu. Ceyran; "Allah üçün söz verirəm, gəlməsəm Allah mənə əzab versin" dedi. Rəsulullah ceyranı buraxdı. Bir az sonra gəldi. Adam oyanıb; "Ya Rəsulallah! Mənə bir əmriniz var?" dedi. Cənabi Peyğəmbərimiz də; "Bu ceyranı azadlığa burax!" buyurdu. Adam, ceyranın ipini açıb buraxdı. Ceyran; "Əşhədu ən la ilahə illallah və ənnəkə Rəsulullah" deyərək getdi.

5- Tirmizi və Nəsainin "*Sünən*" kitablarında belə deyilir ki; "İki gözü də ama (kor) bir nəfər gəlib; "Ya Rəsulallah! Dua et, gözlərim açılsın" dedi. Rəsulullah, mərhəmət göstərib yaxşıca bir dəstəmaz almasını, sonra; "Ya Rəbbi! Sənə yalvarıram. Sevgili Peyğəmbərin Məhəmməd əleyhissalamın xətrinə səndən istəyirəm. Ey çox sevdiyim Peyğəmbərim Həzrəti Məhəmməd! Səni vəsilə edərək, Rəbbimə yalvarıram. Sənin xətrin üçün qəbul etməsini istəyirəm. Ya Rəbbi! Bu uca Peyğəmbəri mənə şəfaətçi et! Onun hörmətinə duamı qəbul et" duasını oxumasını tapşırdı. Adam, dəstəmaz alıb dua edincə gözləri açıldı. Bu duanı müsəlmanlar həmişə oxumuş və arzularına nail olmuşlar.

6- Bir qadın, hədiyyə olaraq bal göndərdi. Balı qəbul edib boş qabı dala qaytardı. Allah Təalanın qüdrəti ilə, qab bal ilə dolaraq qaytarıldı. Qadın gələrək; "Ya Rəsulallah! Günahım nədir ki?" Hədiyyəmi nə üçün qəbul etmədiniz? dedi. Rəsulullah; "Sənin hədiyyəni qəbul etdik. Gördüyün bal, Allah Təalanın hədiyyənə verdiyi bərəkətdir"

---

[454] Heysəmi, *Məcməuz-Zəvaid*, IX, 226; İbn Əsakir, *Tarixu Dəməşq*, XXVI, 311.

buyurdu. Qadın sevinərək balı evinə götürdü. Ailə-uşağı ilə birlikdə aylarla yedilər. Qət'iyyən azalmadı. Bir gün səhvən balı başqa qaba qoydular. Ordan yeyərək qurtardılar. Bunu Rəsulullaha xəbər verdilər. "Göndərdiyim qabda qalsaydı, heç azalmadan dünyanın sonuna qədər yeyərdilər" buyurdu.

7- Ümmətindən çoxlarının dəniz yolula cihada gedəcəklərini və səhabədən olan Ümmü Haram adındakı xanımın cihada iştirak edəcəyini qabaqcadan xəbər vermişdi. Həzrəti Osman xəlifə ikən müsəlmanlar gəmilərlə Kipr adasına gedib döyüşdülər. Bu xanım da orada idi. Elə ordaca şəhid oldu.[455]

8- Həzrəti Muaviyəyə; "Bir gün ümmətimə başçı olsan, yaxşılıq edənlərə mükafat ver! Pislik edənləri də bağışla!" buyurdu. Həzrəti Muaviyə, Həzrəti Ömər və Həzrəti Osman dövrlərində Şamda iyirmi il valilik, sonra iyirmi il də xəlifəlik etmişdi.

9- Abdullah ibn Abbasın anasına baxıb; "Sənin bir oğlun olacaq. Doğulduğu vaxt mənim yanıma gətir!" buyurdu. Uşağı gətirdiklərində, qulağına əzan və iqamət oxuyub, mübarək ağzının suyundan ağzına sürtdü. Adını Abdullah qoyub, anasının qucağına verdi; "Xəlifələrin atasını al, apar!" buyurdu. Uşağın atası Həzrəti Abbas bunu eşidib, gəlib soruşunca; "Bəli, belə dedim. Bu uşaq xəlifələrin atasıdır. Onlar arasında Səffah, Mehdi və İsa əleyhissalamla namaz qılan bir nəfər də olacaqdır" buyurdu. Abbasi dövlətinin başına çox xəlifələr gəldi. Bunların hamısı Abdullah ibn Abbasın nəslindən idi.

10-Əmisinin oğlu Abdullah ibn Abbasın alnına mübarək əlini qoyub; "Ya Rəbbi! Bunu dində dərin alim et, hikmət sahibi et! Qur'ani Kərimin elmini ona ehsan et!" buyurdu. Abdullah ibn Abbas, bundan sonra bütün elmlərdə, ələlxüsus təfsir, hədis və fiqh elmlərində öz dövrünün yeganə alimi oldu. Səhabə və tabiin hər şeyi ondan öyrənərdi. "Tərcümanul-Qur'an", "Bəhrul-elm" və "Rəisul-müfəssirin" adlarıyla məşhur oldu. İslam ölkələri Abdullah ibn Abbasın tələbələriylə doldu.[456]

11-Qulluqçularından Ənəs ibn Malikə; "Ya Rəbbi! Bunun malını və uşaqlarını çox, ömrünü uzun, günahlarını bağışla!" duasını etdi. Zaman keçdikcə malları, mülkləri çoxaldı. Bağ-bağçaları hər il meyvə verdi. Bir çox uşağı oldu. Yüz on il yaşadı. Ömrünün axırında; "Ya Rəbbi! Həbibinin mənim üçün etdiyi dualardan üçünü qəbul

---

[455] Buxari, "Cihad", 3; "İstizan", 41; Əbu Davud, "Cihad", 10; Tirmizi, "Fəzailul-Cihad", 15; Nəsai, "Cihad", 40; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 423; İbn Sə'd, *ət-Təbəqat*, VIII, 435.

[456] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 266; İbn Sə'd, *ət-Təbəqat*, II, 365; Heysəmi, *Məcməuz-Zəvaid*, XI, 234.

etdin, ehsan etdin! Görəsən dördüncüsü olan günahlarımın bağışlanması necə olacaq?" deyincə; "Dördüncüsünü də qəbul etdim. Fikir eləmə!" səsini eşitdi.

12-Hicrətin üçüncü ilində, Rəsul əleyhissalam Qattan qəzvəsində bir ağac dibində tənha yatarkən, Dasur adında bir pəhləvan kafir, əlində qılıncla gəlib; "Səni mənim əlimdən kim ala bilər?" dedi. Rəsulullah; "Allah Təala qurtarar" buyurdu. Cəbrayıl əleyhissalam insan şəklində görünüb, kafirin sinəsinə vurdu. Kafir yerə yıxılıb qılınc əlindən düşdü. Rəsul əleyhissalam qılıncı əlinə götürüb; "Səni məndən kim ala bilər?" buyurdu. "Məni səndən başqa heç kim xilas edə bilməz" deyə yalvardı. Həzrəti Peyğəmbər onu bağışlayıb azad etdi. Kafir iman edib, başqalarının da iman etməsinə səbəb oldu.[457]

13-Rəsul əleyhissalam, bir gün dəstəmaz alıb, məstlərindən birini geyinib, ikincisinə əlini uzadarkən, bir quş məsti götürüb havada silkələdi. İçindən bir ilan düşdü. Sonra quş, məsti yerə atdı. Bu gündən sonra, ayaqqabı geyərkən, əvvəlcə silkələmək sünnət oldu.

14-Həzrəti Ənəs belə nəql etmişdir ki; "Rəsulullahın mübarək üzünü sildiyi bir dəsmalı vardı. Bununla üzünü silər, kirləndiyi zaman, odun nüstünə atardı. Dəsmal qət'iyyən yanmazdı, ancaq kirləri tmizlənərdi.

15-Ühüd qəzvəsində, Əbu Qətadənin bir gözü çıxıb yanağının üstünə düşdü. O vəziyyətdə ikən Rəsulullahın yanına gətirdilər. Mübarək əliylə gözünü yerinə qoyub; "Ya Rəbbi! Gözünü gözəl et!" buyurdu. Bu gözü, o biri gözündən də gözəl oldu. Ondan daha iti görərdi. Əbu Qətadənin nəvələrindən biri, xəlifə Ömər ibn Əbdüləzizin yanına gəlmişdi. Xəlifə Ona; "Sən kimsən?" deyə soruşdu. O, bir beyt oxuyaraq, Rəsulullahın mübarək əliylə gözünü yerinə qoymuş olan zatın nəvəsi olduğunu bildirdi. Xəlifə, bu beytləri eşidincə, ona çoxlu hədiyyələr verdi.

16-Rəsulullah, bir gün qızı Həzrəti Fatimənın evinə baş çəkib vəziyyətlərini soruşdu. Həzrəti Fatimə; "Atacan! Üç gündən bəri balalarımla heç bir şey yeyib, içmədik. Aclığa səbr edirik. Özümü o qədər də fikirləşmirəm. Ancaq, Həsən və Hüseynin vəziyyəti məni çox üzür" deyə cavab verdi.

Bundan sonra Sərvəri aləm Rəsulullah; "Ey Fatimə! Canım qızım! Sən üç gündən bəri acsan. Mən isə dörd gündür acam" buyurdu. Mübarək nəvələri Həzrəti Həsən və Hüseynin ac olmalarına çox üzüldü...

---

[457] İbn Sə'd, *ət-Təbəqat*, II, 35; İbn Kəsir, *əs-Sirə*, III, 4; Qəzzali, *İhya*, II, 890.

Həzrəti Əli iş görüb qazanaraq mübarək uşaqları üçün bir şey almaq və onları doyuzdurmaq üçün yola düşdü. Mədinədən çölə çıxdığı əsnada bir quyunun ağzında dəvələrinə su verməyə çalışan bir kəndlini gördü.

Yanına gedib; "Ey bədəvi! Dəvələrinə muzdla su verdirmək üçün bir nəfərə ehtiyacın var?" buyurdu. Kəndli; "Bəli, mən də belə birisini axtarıram. İstəyirsən gəl, dəvələrimə su ver! Quyudan çıxartdığın hər qab su üçün sənə üç xurma verərəm" dedi.

Həzrəti Əli qəbul edib quyudan su çəkməyə başladı. Doqquz qab çıxartmışdı ki, qabın ipi birdən-birə qırıldı və qab quyunun içində qaldı. Bunu görən kəndli hiddətlə yerindən durub, Həzrəti Əlinin üzünə vurdu.

Sonra səkkiz qab suyun müqabilində iyirmi dörd xurma verdi. Buna olduqca üzülən Həzrəti Əli əllərini quyuya uzatdı. İçindəki qabı götürüb quyunun ağzına qoydu çıxıb getdi.

Kəndli lap mə'təl qalmışdı! Əli bu qədər dərin quyunun dibinə necə çatmışdı görəsən?! Yoxsa, bu zat gələcəyi qabaqcadan deyilən dinin mənsubu idi? Belə fikirləşərək; "Onun, peyğəmbəri, haqq peyğəmbərdir. Ona iman etdim!" dedi.

Bir az əvvəl göstərdiyi cür'ətə, gördüyü pis işə görə çox peşman oldu. "Belə bir adama qaldırılan əllər kəsilməli, sümükləri sındırılmalıdır" deyərək bir əlinə qılıncını götürüb, əlini kəsdi... İstədiyi olmuşdu.

Çox böyük bir ağrı hiss etmişdi, ama, artıq ürəyi rahat idi. Kəsilən əlini o bir əliylə götürüb, düz Məscidi Nəbəviyə gəldi. Əshabi kiramdan, Peyğəmbərlərinin harda olduğunu soruşdu. Qızıgilə getdiyini öyrnincə Həzrəti Fatimənın evini soraqlaşıb ora getdi.

O əsnada Cənabi Peyğəmbərimiz, nəvələri Həzrəti Həsən və Həzrəti Hüseyni mübarək dizlərinin üstündə oturtmuş, gətirilən xurmaları yedizdirirdi.

Kəndli, etdiyi səhvin böyüklüyünü fikirləşdikcə çox peşman olur, gözlərindən sel kimi yaş axıdırdı.

Belə vəziyyətdə Həzrəti Fatimənın evinə gəldi və qapını döydü. İçərdən Aləmlərin Sahibi nur saçaraq bir günəş kimi çölə çıxdı. Kəndli, Rəsulullahı görən kimi, "İnandım ki, sən Allahın Rəsulusan! Etdiyimə peşman oldum, məni bağışla ya Rəsulallah!" deyərək yalvardı.

Sevgili Peyğəmbərimiz; "Əlini nə üçün kəsdin?" deyə soruşunca; "Sənə iman etmiş mübarək bir üzə vuran bu əli daşımaqdan həya etdiyim üçün! Canım sənə fəda olsun ya Rəsulallah!" dedi.

Mərhəmət dəryası sevgili Peyğəmbərimiz, kəsilmiş əli kəndlinin əlindən alıb "Bismillahirrəhmanirrəhim" deyərək, qan axan biləyinə bitiştirdi. Əl, Allah Təalanın izniylə, Cənabi Peyğəmbərimizin bir mö'cüzəsi olaraq əvvəlki halına çevrildi. Allah Təala hər şeyə qadirdir, hər şeyə gücü çatar.

*Gözəl işlərdə sağ yanın sevərdi eyləyib təqdim,*

*Vuzuya olsa ya'lbisə şitaban ol kərəmkanı.*

*Yatırdı sağ yanı üstə üzü müstəqbəlulqiblə,*

*Edərdi hər nəfəsdə qeybı seyran ol kərəmkanı.*

*Yatardı gözləri heç yatmazdı könlü dostuyla,*
*Əzəldən hüsnünə olmuşdu heyran ol kərəmkanı.*

## ƏHLİ BEYT

### Mübarək xanımları

Rəsulullah (səlləllahu əleyhi və səlləm), Həzrəti Xədicə anamızın vəfatından sonra, ikinci evliliyini əlli beş yaşında ikən Həzrəti Əbu Bəkirin qızı Həzrəti Aişə ilə həyata keçirtdi. Allah Təalanın əmri ilə nikah kəsilmişdi. Axirətə köçüncəyə qədər, səkkiz il onunla bir yerdə yaşadı.

Başqa evliliklərinin hamısını dini, siyasi səbəblərlə vəya mərhəmət göstərərək etmişdir. Evlendiyi xanımların hamısı dul olub, çoxu yaşlı idi. Məsələn, Məkkədəki kafirlərin müsəlmanlara əziyyət və zərərləri həddən artıq çoxalınca, Əshabi kiramın bir hissəsi Həbəşistana hicrət etmişdi. Həbəş padışahı Nəcaşi xristiyan idi. Müsəlmanlardan müxtəlif şeylər soruşub, aldığı səlist cavablara heyran qalaraq iman etdi. Müsəlmanlara çox yaxşılıqlar göstərdi. İmanı zəif olan Ubeydullah ibn Cahş isə, kasıblıqdan xilas olmaq üçün rahiblərə aldanıb mürtəd olmuş, dinini dünyaya dəyişmişdi.[458] Rəsulullahın xalasının oğlu olan bu məl'un, həyat yoldaşı Ümmi Həbibəni də dindən çıxıb varlı olmağa məcbur etsə də, kasıblığa və ölümə razı olacağını, ancaq Məhəmməd əleyhissalamın dinindən çıxmayacağını deyincə, qadını boşamışdı. Öz həyat yoldaşının sürünərək, səfalətdən ölməsini gözləyirdi. Ancaq, qısa müddət keçmədən özü öldü. Ümmü Həbibə, Məkkədəki Qureyşin o zamankı başçısı Əbu Süfyanın qızı idi. Rəsulullah, o zamanlarda, Qureyş orduları ilə çox çətin döyüşlərə girir və Əbu Süfyan İslamiyyəti məhv etmək üçün var gücüylə döyüşürdü.

Rəsulullah, Ümmi Həbibənin dininin gücünü və başına gələn çox acınacaqlı halı xəbər tutmuşdu. Nəcaşiyə məktub yazıb; "Ordakı Ümmi Həbibə ilə evlənəcəyəm. Nikahımı kəs! Sonra da onu bura göndər" şəklində tələb etdi. Nəcaşi bundan əvvəl müsəlmanlığı qəbul etmişdi. Məktuba çox hörmət edib, ordakı müsəlmanları sarayına də'vət edərək ziyafət verdi. Hicrətin yeddinci ilində Nəcaşi nikahı kəsib, ona çoxlu hədiyyə və ehsan verdi. Bu minvalla Ümmi Həbibə imanının mükafatına qovuşaraq, orda varlandı və rahat həyat yaşadı. Onun sayəsində, digər müsəlmanlar da rahat yaşamağa başladılar. Cənnətdə, qadınlar öz həyat yoldaşlarının yanında olacaqları üçün, Ümmü Həbibə də Cənnətin ən yüksək dərəcəsi ilə müjdələnmiş oldu. Dünyanın bütün

[458] İbn Hişam, *əs-Sirə*, I, 223; İbn Sə'd, *ət-Təbəqat*, III, 89; Təbəri, *Tarix*, II, 414; Suheyli, *ər-Rövzul-Unf*, I, 379.

zövq və ne'mətləri bu müjdənin yanında çox qiymətsiz qalar. Bu nikah, Əbu Süfyanın daha sonra müsəlman olmaqla şərəflənməsini hazırlayan səbəblərdən birisi oldu. Həm də ki, bu nikah Rəsulullahın ağlının, zəkasının, ehsanının və mərhəmətinin dərəcəsini də göstərməkdədir.[459]

İkinci misal; Həzrəti Ömərin qızı Həzrəti Həfsə dul qalmışdı. Hicrətin üçüncü ilində Həzrəti Ömər, Həzrəti Əbu Bəkirə və Həzrəti Osmana; "Qızımı alarsan?" dedikdə, Onlar, hələ bir düşünək, demişdilər. Bir gün, Rəsulullah (səlləllahu əleyhi və səlləm), başqalarıyla birlikdə onların da hər üçü yanındaykən; "Ey Ömər! Səbəb nədir ki, səni çox kədərli görürəm?" deyə soruşdu. Bir şüşədəki mürəkkəbin rəngi rahat görüldüyü kimi, Rəsulullah da hamının fikrini bir baxışda başa düşərdi. Ehtiyac görsə soruşardı. Ona, hətta hamıya düzü deməyimiz fərz olduğundan, Həzrəti Ömər də; "Ya Rəsulallah! Qızımı Əbu Bəkirə və Osmana təklif etdim, almadılar" cavabını verdi. Rəsulullah, ən çox sevdiyi bu üç Əshabının üzülməsini heç istəmədiyindən, onları sevindirmək üçün, dərhal buyurdu ki; "Ey Ömər! Qızını, Əbu Bəkirdən və Osmandan daha yaxşı birisinə verməyimi istəyərsən?" Həzrəti Ömər bu sözə çaşıb qaldı. Çünki, Həzrəti Əbu Bəkirdən və Həzrəti Osmandan daha yaxşı heç kimin olmadığını bilirdi. "Bəli, ya Rəsulallah!" dedi. "Ey Ömər, qızını mənə ver!" buyurdu. Beləcə, Həzrəti Həfsə, Həzrəti Əbu Bəkirin, Həzrəti Osmanın və bütün mö'minlərin anası oldu. Bütün Əshab ona qulluqçu oldu. Həzrəti Əbu Bəkir, Həzrəti Ömər və Həzrəti Osman da bir-birilərinə daha yaxın və daha sevgili oldular.[460]

Üçüncü bir misal; Hicrətin beş vəya altıncı ilində, Bəni Müstə'liq qəbiləsindən alınan yüzlərlə əsirin arasında qəbilənin başçısı Harisin qızı Cüveyriyyə də vardı. Bunu pulla alıb azad edərək, onunla evlənincə Əshabi kiramın (Allah onlardan razı olsun) hamısı; "Biz Rəsulullahın ailəsini, anamızın qohum-əqrabalarını cariyə və qulluqçu olaraq işlətməkdən həya edirik" dedilər. Hamısı, öz paylarına düşən əsirlərini azad etdilər. Bu nikah, yüzlərlə əsirin azad olmağına səbəb oldu. Həzrəti Cüveyriyyə, bu hadisəni həmişə qürurula danışardı. Həzrəti Aişə; "Cüveyriyyədən daha xeyirli, daha bərəkətli bir qadın görmədim" deyərdi.[461]

---

459 İbn Hişam, *əs-Sirə*, II, 607; İbn Sə'd, *ət-Təbəqat*, I, 258; Beyhəqi, *Dəlailun-Nübüvvə*, II, 188; Safədi, *əl-Vafi*, I, 42; Xuzai, *ət-Təxric*, s. 184.

460 İbn İshaq, *əs-Sirə*, s, 237; İbn Sə'd, *ət-Təbəqat*, VIII, 83; İbn Kəsir, *əl-Bidayə,* V, 294; Heysəmi, *Məcməuz-Zəvaid*, IV, 320.

461 Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 277; İbn Hişam, *əs-Sirə*, I, 294; Təbəri, *Tarix*, II, 264; İbn Həbib, *əl-Mühəbbər*, s. 90; Suheyli, *ər-Rövzul-Unf*, IV, 18.

## Digər xanımları

Həzrəti Aişə; Rəsulullahın mütəhhər xanımlarından ikincisidir. Həzrəti Aişə Əbu Bəkiri Siddiqın qızıdır, çox ağıllı, zəkalı, alim, ədibə, iffətli və salihə idi. Çox güclü yaddaşı olduğu üçün, Əshabi kiram bir çox şeyləri ondan soruşub öyrənərdi. Ayədə mədh edilmişdir. İctihadı Həzrəti Əlinin ictihadı ilə üst-üstə düşmədiyi üçün, Cəməl hadisəsində Həzrəti Əli ilə döyüşən Əshabi kiram ilə birlikdə idi. Həzrəti Əli şəhid edilincə çox üzüldü. Hurufilər, onun Həzrəti Əlini sevmədiyini iddia etmişdilər. Halbuki; "Əlini sevmək imandandır" hədisini Həzrəti Aişə bizə nəql etmişdir. Beləcə, onu sevdiyini və hamının da sevməsi lazım gəldiyini bildirmişdir. Hicrətdən səkkiz il qabaq doğulmuş və əlli yeddinci ildə, altmış beş yaşında ikən Mədinədə vəfat etmişdir.

Sevdə bint Zəm'a; Rəsulullahın üçüncü xanımıdır. Öz əri ilə birlikdə iman edib Həbəşistana hicrət etmişdilər. Məkkəyə qayıdınca əri vəfat etdi. Rəsulullah əvvəlcə Həzrəti Aişənin, sonra da Sevdənin nikahını kəsdi. Sevdəni Məkkədə, Həzrəti Aişəni isə Mədinədə evinə gəlin gətirdi. Çox ürəyi yumuşaq və namuslu bir xanım idi. Həzrəti Ömər dövründə vəfat etdi.[462]

Zeynəb binti Huzeymə; Çox ibadət edər, çox sədəqə verərdi. Daha əvvəl Abdullah ibn Cahşın xanımı idi. Abdullah, Rəsulullahın xalası Ümeymənin oğlu idi. Ühüd qəzvəsində şəhid oldu. Rəsulullahın nikahı ilə şərəfləndisə də, səkkiz ay sonra vəfat etdi.[463]

Ümmü Sələmə; Adı Hind idi. Əri Əbu Sələmə ilə Həbəşistana ən birinci onlar hicrət etdilər. Əbu Sələmə, Rəsulullahın xalası Bərrənin oğlu Ubeydullah ibn Cahşın qardaşı olub, Mədinədə hicrətin dördüncü ili Ühüd qəzvəsinda aldığı yaradan vəfat etdi. Əbu Bəkir və Ömərin nikah istəklərini qəbul etmədi. Rəsulullahın nikahı ilə şərəfləndi. Əlli doqquzuncu ildə Mədinədə səksən dörd yaşında vəfat etdi. Rəsulullahın ən axırıncı vəfat edən xanımı bu idi.[464]

Zeynəb bint Cahş; Rəsulullahın xalası olan Ümeymənin qızı, Abdullah ibn Cahşın qardaşı idi. Atasının adı Bərrə idi. İman etmədiyi üçün Cahş deyilmişdir. Zeynəb ilk iman edənlərdəndir. Rəsulullah (səlləllahu əleyhi və səlləm) onu, əvvəlcə oğulluğa

---

[462] İbn İshaq, *əs-Sirə*, s, 238; İbn Həbib, *əl-Mühəbbər*, s. 79; Makrizi, *İmtaul-Əsma*, VI, 34.
[463] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 115.
[464] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 96; İbn Həbib, *əl-Mühəbbər*, s. 85.

götürdüyü Zeyd ibn Harisə ilə evləndirmişdi. Zeydlə Zeynəbin arası düz gəlmədiyinə görə hicrətin üçüncü ilində boşandılar. Rəsul əleyhissalam onunla evlənmək istədi. Zeynəb bunu eşidincə, sevincindən iki rük'ət namaz kılıb; "Ya Rəbbi! Sənin Rəsulun məni istəyir. Əgər Onun xanımlığı ilə şərəflənməyimi alnıma yazdınsa, məni Ona sən ver" deyə dua etdi və duası qəbul olundu. Belə ki, Əhzab surəsinin; "Zeyd, onunla boşandıqdan sonra, biz onu səninlə evləndirdik" məalındakı 37-ci ayəsi nazil oldu. Zeynəbin nikahını Allahu Təala kəsdiyi üçün, Rəsulullah (səlləllahu əleyhi və səlləm) ayrıca nikah kəsmədi. Zeynəb (Allah ondan razı olsun) bununla hər an fəxr edər və; "Hər qadını atası evləndirər. Məni isə, Allah Təala nikahlamışdır" deyərdi. O zaman otuz səkkiz yaşında idi. Hicrətin iyirminci ilində, əlli üç yaşında ikən vəfat etdi.[465] Çox xeyirxah bir qadın idi. Sədəqə vermeyi çox sevərdi. Əl işlərində də mahir idi. Düzəltdiyi şeyləri və əlinə keçən hər şeyi qohum-əqrəbasına və kasıblara verərdi. Hətta, Xəlifə Ömər, Əzvaci mütəhhəratın hər birinə on iki min dirhəm verərdi. Zeynəb, bu pulu alan kimi hamısını sədəqə verib paylayardı. Rəsulullahdan sonra, Onun xanımları arasında ən birinci vəfat edən də Zeynəb idi. Həzrəti Aişə, onu çox mədh və səna etmişdir. Xanımlarım içində, mənə ən birinci qovuşan, əli açıq olanıdır"[466] hədis də onun ən birinci vəfat edəcəyini xəbər vermişdi. Çünki, ən çox sədəqə verən o idi. (Fransız vətəndaşı ədəbsiz və iftiraçı bir şair olan Volter, Rəsulullahın Həzrəti Zeynəbi xanımlığa qəbul etməsini tarixlərə, hadisələrə, xəbərlərə tamamilə zidd və qondarma, alçaqcasına iftiralarla şe'r qoşaraq bir teatr oyunu yazmışdır. Ədəbiyat və fikir xadiminə yaraşmayan bu çirkin və iyrənc yazısı, onu rədd etmiş olan, böyük düşməni papanın xoşuna gəlmiş, ona öz məmnuniyyətini ifadə edən bir məktub yazmışdır. Müsəlmanların xəlifəsi, soltan II Əbdülhəmid Xan, bu piyesin səhnədə oynadılacağını eşidincə, Fransa və İngiltərə hökumətlərinə ultimatom verərək dərhal qabağını almış, bütün insanlığı, üz qızardıcı alçaqlıqlardan xilas etmişdir).

Həzrəti Safiyyə; Xeybər yəhudilərinin başçısı olan Huyey ibni Əhtabın qızı idi. Xeybərdə bir yəhudiylə nişanlı idi. Sonra çox varlı biri olan Kənanə ibn Haqiq ilə evlənmişdi. Hicrətin yeddinci ilində Xeybər fəth olunduqda, Safiyyə də əsir alınmışdı. Rəsulullahın payına düşən Safiyyə azad edildikdən sonra iman etdi və Rəsulullahın nikahı ilə şərəfləndi. Hicrətin əllinci ilində Mədinədə vəfat etdi.[467]

---

[465] Darəqutni, *əs-Sünən*, III, 301; Hakim, *əl-Müstədrək*, IV, 24.
[466] Buxari, "Zəkat", 10; Müslim, "Fəzailus-Səhabə", 101; İbn Sə'd, *ət-Təbəqat*, VIII, 108.
[467] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 129; İbn Həbib, *əl-Mühəbbər*, s. 91.

Həzrəti Meymunə; Adı Bərrə ikən Rəsulullah Meymunə olaraq dəyişdirdi. Xeybərin fəthindən sonra Məkkəyə Umrə üçün gedildiyində, Meymunənin əri vəfat etmişdi. Rəsulullahın nikahı ilə şərəfləndi. Hicrətin əlli üçüncü ilində Məkkədə xəstələndi. “Məni Məkkədən çıxardın! Çünki, Rəsulullah mənim Məkkədən kənarda vəfat edəcəyəmi xəbər vermişdi” dedi. Məkkədən kənara çıxartdıqdan sonra Rəsulullaha nikahı kəsildiyi yerdə vəfat etdi.[468]

Həzrəti Mariyə; Cənabi Peyğəmbərimizin cariyəsi ikən iman etdi və Rəsulullahın nikahı ilə şərəfləndi. Mariyə, Misir və İskəndəriyyənin hökmdarı Muqavqısdan hədiyyə olaraq göndərildiyi üçün, nəsəbi (silsiləsi) və doğum tarixi dəqiq bilinməməkdədir. Rəsuli əkrəmin, Həzrəti Mariyə anamızdan İbrahim adında bir oğlu olmuşdur. Həzrəti Mariyə çox sakit, səssiz və həlim idi. Həzrəti Ömərin xəlifəliyinin axırıncı illərında 637-ci ildə (Hicrətin 16-cı ilində) vəfat etmişdir. Bəqi qəbristanlığında dəfn edilmişdir.[469]

Həzrəti Reyhanə; Cənabi Peyğəmbərimizin cariyəsi ikən müsəlman olmuşdur. Mədinədə yaşayan yəhudilərin Bəni Qureyza qəbiləsindəndir. Nəsəbi (silsiləsi), Reyhanə bint Şəm’un ibn Yezid vəya Reyhanə bint Zeyd ibn Əmr ibn Hənəfə ibn Şəm’un ibn Yeziddir. Doğum tarixi dəqiq şəkildə müəyyən deyildir. Cənabi Peyğəmbərimizdən qabaq 631-ci ildə (Hicrətin 10-cu ilində) Mədinədə vəfat etdi. Bəqi qəbristanlığında dəfn edilmişdir.[470]

Hədisdə belə buyrulmuşdur ki; “Bütün xanımlarımla etdiyim evliliklərim və qızlarımı evləndirməyim, hamısı Cəbrayılın (əleyhissalam) Allah Təaladan gətirdiyi icazəylə olmuşdur”.

Rəsulullahın çox evlənməsinin ən birinci səbəbi, İslam dinini yaymaq üçün idi. Hicab ayəsi gəlmədən, yəni qadınların örtünmələri əmr olunmadan qabaq, qadınlar da Rəsulullahın yanına gəlib, bilmədiklərini soruşar, öyrənərdilər. Rəsulullah birinin evinə getsə, qadınlar da gələr, oturar, qulaq asardılar. Hicab ayəsi gəlib, qadınların yad kişilərilə oturmaları, danışmaları qadağan edilincə, Rəsulullah naməhrəm qadınları qəbul etmədi. Onların bilmədiklərini mübarək xanımı Həzrəti Aişədən soruşub öyrənmələrini əmr etdi. Gəlib soruşanların çoxluğundan, Həzrəti Aişə hamısına cavab verməyə vaxt tapa bilmirdi. Bu vacib xidməti asanlaşdırmaq və Aişə anamızın yükünü

---

[468] İbn Sə’d, *ət-Təbəqat*, VIII, 140.
[469] İbn Sə’d, *ət-Təbəqat*, VIII, 216.
[470] İbn Sə’d, *ət-Təbəqat*, VIII, 130.

yüngülləşdirmək üçün, lazım olduğu qədər xanımla evləndi. Qadınlara aid yüzlərlə naməhrəm məlumatları müsəlman qadınlarına mübarək xanımları vasitəsiylə bildirərdi. Təkcə bir xanımı olsaydı, bütün qadınların ondan soruşması çətin və hətta imkansız olardı. Allah Təalanın dinini tam olaraq çatdırmaq üçün, çox evlənmək yükünü də çiyninə götürdü.

## Uşaqları

Cənabi Peyğəmbərimizin üçü oğlan, dördü qız yeddi uşağı olmuşdur. Həzrəti Fatimə xaric, hamısı da Rəsulullahdan qabaq vəfat etmişdilər. Sevgili Peyğəmbərimizin nəsli Həzrəti Fatimə anamızla davam etmişdir. Nəvələri Həzrəti Hüseynin nəslinə seyyid, Həzrəti Həsənin nəslinə də şərif deyilir. Seyyidlərə və şəriflərə hörmət, Cənabi Peyğəmbərimizə hörmət etmək deməkdir. Seyyidləri və şərifləri sevmək, axır nəfəsdə mö'min olaraq can verməyə səbəb olar.

Qasım; Rəsulullahın üç oğlundan birincisidir. Buna görə Rəsulullaha Əbul-Qasım deyilmişdir. Nübüvvətdən qabaq Məkkədə dünyaya gəldi. Anası Xədicətul-kübradır. On yeddi aylıq ikən vəfat etdi.[471]

Zeynəb; Rəsulullahın dörd qızından birincisidir. Peyğəmbərimiz otuz yaşında ikən dünyaya gəldi. Nübüvvətdən qabaq, anası Xədicənin əmisinin oğlu Əbul-As ibn Rəbi ilə evləndi.[472] Əbul-As, əvvəlcə iman etmədi. Bədir qəzvəsində əsir düşüb, xanımını Mədinəyə göndərmək şərti ilə azadlığa buraxıldı. Zeynəbi doğma qardaşı ilə göndərsə də, kafirlər yarı yoldan qaytardılar. Rəsul əleyhissalam Zeyd ibn Harisəni Məkkəyə göndərib, Zeynəbi gecə Mədinəyə qaçırtdı. Əbul-As, Hüdeybiyyə qəzvəsindən sonra iman etdi. Zeynəblə təzədən evləndi. Hicrətin səkkizinci ilində, otuz bir yaşında ikən vəfat etdi. Oğlu Əlini, Məkkənin fəthində Rəsulullah öz dəvəsinin tərkinə mindirmişdi. Zeynəbin qızı Ümmamə ilə isə Həzrəti Əli evlənmişdi.[473]

Ruqiyyə; Rəsulullahın ikinci qızıdır. Peyğəmbərimiz otuz üç yaşında ikən dünyaya gəldi. Çox gözəl idi. Əbu Ləhəbin oğlu Utbə ilə nişanlanmışdı. "Təbbət yəda" surəsi nazil edilincə, Utbə toydan qabaq onu boşadı. Vəhy gəldikdən sonra Ruqiyyə Həzrəti Osmanla evləndirildi. Birlikdə iki dəfə Həbəşistana hicrət etdilər. İyirmi iki

[471] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 16.
[472] İbn İshaq, *əs-Sirə*, s, 229; Əbdurrəzzaq, *əl-Musannəf*, VII, 171; İbn Sə'd, *ət-Təbəqat*, VIII, 31.
[473] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 31.

yaşında ikən, Bədir qəzvəsindən qabaq xəstələndi. Həzrəti Osmana Bədirdə iştirak etməyib, xanımına baxması əmr edildi. Bədir qələbəsinin müjdəsi Mədinəyə gəldiyi gün dəfn olundu.[474]

Ümmü Gülsüm; Rəsulullahın üçüncü qızıdır. Əbu Ləhəbin ikinci oğlu Uteybəyə nişanlanmışdı. "Təbbət yəda" surəsi endirilincə, hələ toyları olmamışdan qabaq boşadı və Rəsulullaha yaraşmayan sözlər söylədi. Rəsulullah (səlləllahu əleyhi və səlləm) də; "Ya Rəbbi! Bunu yırtıcılardan birinə rast gətir!" deyə bəddua etdi. Şam yolunda bir pələng bunu parçaladı. Ruqiyyə vəfat etdikdən sonra vəhy gələrək, Ümmü Gülsüm də Həzrəti Osmanla evləndirildi. Hicrətin doqquzuncu ilində vəfat etdi. Namazını Rəsulullah qıldırıb, dəfn olunarkən qəbri yanında dayanıb, mübarək gözlərindən yaş axardı.[475]

Fatimə; Rəsulullahın dördüncü qızı, Həzrəti Əlinin xanımı və Həzrəti Ömərin qaynanasıdır. Nikah kəsilərkən on beş yaşında idi.[476] Mehiri dörd yüz misqal gümüş olduğu "*Məvahibi lədunniyyə*"də, Seviq qəzvəsində qeyd olunmuşdur. Bu miqdar, 57.14 misqal qızıla bərabərdir. (Bu gün üçün 38 qızıl liradır). Əli (Allah ondan razı olsun) iyirmi bir yaşında idi. Əhli Beytdəndir. Ağ bənizli, çox yaraşıqlı idi. Hicrətdən on üç il qabaq Məkkədə doğuldu və hicrətin on birinci ilində iyirmi dörd yaşında vəfat etdi. Həsən, Hüseyin və Muhsin adında üç oğlu ilə Ümmü Gülsüm və Zeynəb adında iki qızı oldu.[477] Rəsulullahın nəsli Fatimədən davam etdi. Zeynəb, Abdullah ibn Cə'fər Təyyar ilə evlənib, Əli və Ümmü Gülsüm adlarında uşaqları oldu. Bunlara "Şərifi Cə'fəri" deyilir.

Abdullah; Rəsulullahın Xədicətul-kübradan olan axırıncı uşağıdır. Nübüvvətdən sonra doğulub, hələ südəmər körpə ikən vəfat etdi. Tayyib və Tahir də deyilirdi. Abdullah vəfat edincə, As ibn Vail; "Məhəmməd əbtər oldu" yəni nəsli kəsildi, dedi. Allah Təala; "İnna ə'tayna" ilə kafir Asa cavab verdi.[478]

İbrahim; Rəsulullahın oğullarının üçüncüsü və bütün uşaqlarının axırıncısıdır. Heraklın Misir valisi olan Muqavqısın hədiyyə göndərdiyi Mariyənin oğludur. Hicrətin səkkizinci ilində dünyaya göz açıb, bir yaş yarımlıq ikən vəfat etdi. Xəstə ikən, Rəsulullah qucağına götürüb mübarək gözlərindən yaş axardı. Vəfatı günü günəş

[474] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 36.
[475] İbn Əsakir, *Tarixu Dəməşq*, XXXIX, 37.
[476] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 22.
[477] İbn İshaq, *əs-Sirə*, s, 231; İbn Sə'd, *ət-Təbəqat*, VIII, 26; İbn Kəsir, *əl-Bidayə,* V, 293.
[478] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 16;Təbəri, *Tarix*, III, 175.

tutulmuşdu. Bəziləri çocuğun ölümü səbəbiylə günəşin tutulduğunu deyincə, Rəsulullah (səlləllahu əleyhi və səlləm) "Ay və günəş Allahu Təalanın varlığını və birliyini göstərən iki məxluqudur. Heç kimin ölməsi vəya qalması ilə tutulmaz. Onları görüncə Allah Təalanı xatırlayın!" buyurdu. İbrahim vəfat edincə "Ya İbrahim! Ölümünə çox kədərləndik. Gözlərimiz ağlayır, qəlbimiz də sızlayır. Ancaq, Rəbbimizin xoşuna gəlməyən bir şey demərik" buyurdu.[479]

## Əhli Beyti

Sevgili Peyğəmbərimizin bütün ailə fərdlərinə "Əhli Beyt" deyilir. Mübarək xanımları, qızı Həzrəti Fatimə ilə Həzrəti Əli və bunların mübarək övladları olan Həzrəti Həsən, Həzrəti Hüseyin və bunların da uşaqlarının hamısı, bir də Peyğəmbərimizin pak nəslindən gələn Haşim oğulları Əhli Beytdəndirlər.

Allah Təala, Qur'ani Kərimdə Əhli Beytə məalən belə buyurur ki; "Allahu Təala sizlərdən ricsi, yəni hər qüsur və hər kiri yox etmək, sizi tamamilə pak etmək istəyir".[480]

Əshabi kiram; "Ya Rəsulullah! Əhli Beytə kimlər daxildir?" soruşduqları əsnada İmam Əli gəldi. Onu mübarək əbasının üstündə oturtdu. Növbəylə Fatimətuzzəhra, İmam Həsən və İmam Hüseyn gəldi. Hər birini yanında oturdaraq; "Baxın bunlar mənim Əhli Beytimdir" buyurdu. Bu möhtərəm insanlara həm də, "Ali Əba" və "Ali Rəsul" da deyilir.[481]

Əhli Beyti nəbəvini sevmək, axirətə iman edərək getməyə, axır nəfəsdə, nicat tapmağa səbəb olar. Əhli Beyti sevmək, hər mö'minə fərzdir. Sərvəri aləm (səlləllahu əleyhi və səlləm), bir hədisində belə buyurur ki; "Əhli Beytim, Nuh əleyhissalamın gəmisi kimidir. Onlara tabe olan, nicat tapar. Qalanları isə həlak olar".[482]

Əhli Beyti nəbəvinin fəzlət və kəmalı həddən artıq çoxdur. Onları nəql etməyə, mədh etməyə insan gücü çatmaz. Onların qiymətləri və böyüklükləri, ancaq ayə ilə başa düşülməkdədir.

İmam Şafii; "Ey Əhli Beyti Rəsul! Sizi sevməyi, Allah Təala Qur'ani Kərimdə əmr edir. Namazlarında sizə dua etməyənlərin namazlarının qəbul olmaması,

---

[479] İbn Sə'd, *ət-Təbəqat*, VIII, 212-215.
[480] əl-Əhzab 33/33.
[481] Təbərani, *əl-Mu'cəmul-Kəbir*, III, 55; Hakim, *əl-Müstədrək*, II, 451.
[482] Təbərani, *əl-Mu'cəmul-Kəbir*, III, 45; Hakim, *əl-Müstədrək*, II, 373.

qiymətinizi və uca mərtəbənizi göstərir. Şərəfniz nə qədər böyükdür ki, Allah Təala Qur'ani Kərimdə sizi salamlayır" deyərək, bunu ən gözəl şəkildə ifadə etməkdədir.

Həzrəti Ənəs də belə demişdir ki; "Rəsulullahdan; "Əhli Beytin arasından ən çox kimi sevirsiniz" deyə soruşdular. O; "Həsənlə Hüseyni" buyurdu".[483]

Həzrəti Əbu Hüreyrə belə nəql etmişdir ki; "Rəsulullahın yanında idim. Bu dəmdə Həsən gəldi. "Ya Rəbbi! Bunu sevirəm. Sən də bunu sev və bunu sevənləri də sev" və bir başqa zaman da; "Həsənlə Hüseyin, dünyada mənim gözəl ətirlərimdir" buyurmuşdur".

Cənabi Peyğəmbərimiz bir dəfə də belə buyurmuşdur ki; "Özümdən sonra sizə iki şey əmanət qoyuram. Bunlara yapışsanız, yoldan çıxmazsınız. Birincisi ikincisindən daha böyükdür. Biri, Allah Təalanın kitabı olan Qur'ani Kərimdir ki, göydən yerə qədər sallanmış möhkəm bir ipdir. İkincisi isə Əhli Beytimdir. Bunların ikisi bir-birinə bağlıdır. Bunlara bağlı olmayan mənim yolumdan ayrılar".[484]

Bir dəfə də Həzrəti Həsən və Həzrəti Hüseyin xəstələnmişdilər. Cənabi Peyğəmbərimiz Həzrəti Əli və Həzrəti Fatiməyə; "Bu əzizləriniz üçün bir nəzir götürün!" buyurdu. Həzrəti Əli, Fatimə anamız və Fizza adlı cariyələri üç gün oruc nəzir etdilər. Bundan sonra o iki Cənnət ətirləri şəfa tapdılar. Ancaq, evlərində yemək üçün bir şey qalmamışdı. Həzrəti Əli bir yəhudidən üç sa[485] arpa borc aldı. Üçü də nəzir etdikləri oruclara niyyət etdilər. O qədər arpanın bir hissəsini Həzrəti Fatimə üyüdüb, beş dənə çörək bişirdi. Özləri beş nəfər idilər. İftar vaxtı çatdı. O beş çörəyin birini Həzrəti Əlinin, birini Həzrəti Həsənin, birini Həzrəti Hüseynin, birini cariyə Fizzanın və birini də öz qabağına qoydu. Elə iftar etməyə başlayacaqları vaxt bir kasıb adam gəlib; "Ey Rəsulullahın Əhli Beyti! Mən kasıb bir müsəlmanam. Mənə yemək verin. Allah Təala Həzrətləri sizi Cənnət ne'mətləri ilə mükafatlandırsın. Bunu eşidən kimi əllərindəki çörəkləri ona sədəqə verib, özləri su ilə iftarı açdılar. Ertəsi gün yenə oruc tutdular. Qulluqçu bir qab da arpa üyüdüb, təzədən beş çörək bişirdi. İftar vaxtında qabaqlarına qoyub, iftarlarını açacaqdılar ki, bir yetim gəldi. Beşi də çörəkləri ona verib, o yetimi sevindirdilər. Özləri isə suyla iftarlarını açıb, yatdılar. Ertəsi günü yenə oruc tutdular. Axırıncı bir qab arpanı da üyüdüb ondan beş çörək bişirdilər. İftar

---

[483] Əbu Ya'la, *əl-Müsnəd*, VII, 274; İbn Əsakir, *Tarixu Dəməşq*, XI, 153; Əhməd Şami, *Sübülül-Huda*, XI, 58.

[484] Tirmizi, "Mənaqib", 32; İbn Əbi Şeybə, *əl-Musannəf*, VI, 309; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, III, 66.

[485] 1 sa 3, 24 kiloqrama bərabər idi. Bax; Walter Hinz, *İslamda Ölçü Sistemləri*, s. 63.

edəcəkləri vaxt bir əsir gəlib, üç gündür ac qaldığını, ona yemək verilmədiyini, Allah Təalanın rızası üçün onun dərdinə şərik olmalarını xahiş etdi. Beşi də çörəklərini ona verib, təkcə su ilə iftarlarını açdılar. Bundan sonra ayə nazil edilərək Allah Təala məalən belə buyurdu ki; "Bunlar nəzirlərini, yerinə yetirdilər. Uzun və əbədi olan qiyamət günündən qorxduqları üçün çox arzu etdikləri və təblərinin çəkdiyi yeməkləri kasıb, yetim və əsirlərə verdilər. Biz bunları, Allah Təalanın rızası üçün yedizdirdik. Onlar; "Sizdən bunun əvəzində ya bir təşəkkür, ya da bir şey istəmərik" dedilər... Bunun üçün Cənabi Haqq onlara şərabi tahur içirtdi...".[486]

Əbu Hüreyrənin nəql etdiyinə görə, Peyğəmbərimiz belə buyurmuşdur ki; "Sizin yaxşılarınız, məndən sonra Əhli Beytimə yaxşılıq edənlərdir".

Həzrəti Əli də Peyğəmbərimizin belə buyurduğunu nəql etmişdir ki; "Əhli Beytimə yaxşılıq edənlərə qiyamət günü şəfaət edərəm", "Sirat körpüsündən ayaqları sürüşmədən keçənlər, Əhli Beytimi və Əshabımı çox sevənlərdir".

İmam Rəbbani Həzrətlərinin nəql etdiyi bir hədisdə; "Əlini sevən, heç bir şübhə yoxdur ki, məni sevmişdir. Ona düşmənlik edən də, heç bir şübhə yoxdur ki, mənə düşmənlik etmişdir. Onu incidən, heç bir şübhə yoxdur ki, məni incitmişdir. Məni incidən də, heç bir şübhə yoxdur ki, Allah Təalanı incitmiş olar" buyrulmuşdur.

Rəsulullah yenə belə buyurmuşdur ki; "Allah Təala, mənə dörd nəfəri sevməyim üçün əmr etdi. Onları özünün də sevdiyini xəbər verdi". Bunlar kimdir, adlarını bizə söyləyərsiniz?" soruşulduğunda; "Əli onlardandır, Əli onlardandır, Əli onlardandır. Bir də ki, Əbu Zərr, Miqdad və Salman".

Bir hədisdə də; "Ailəmi incidərək məni incidənlər üçün ağır bir əzab vardır".

Başqa bir hədisdə də; "Fatimə mənim bir hissəmdir. Onu incidən məni incidər" buyurmuşdur. Həzrəti Əbu Hüreyrə belə demişdir ki, Cənabi Peyğəmbərimiz Həzrəti Əliyə; "Fatimə, mənə səndən daha sevimlidir. Sən mənə, ondan daha əzizsən! (yəni qiymətlisən) buyurmuşdur".[487]

Yenə belə buyurmuşdur ki; "Sizə İslam dinini gətirdiyim üçün əvəzində bir şey istəmirəm. Ancaq, mənə yaxın olan Əhli Beytimi sevməyinizi istəyirəm".

---

[486] əl-İnsan 76/7-21.
[487] Heysəmi, *Məcməuz-Zəvaid*, IX, 100; İbn Əsakir, *Tarixu Dəməşq*, XXXXII, 125; Əhməd Şami, *Sübülül-Huda*, XI, 44.

İslam alimləri, Əhli Beyt sevgisini axır nəfəsdə mö'min olaraq vəfat etmək üçün şərt qoşmuşlar. Əhli Beytdə, Rəsulullahın zərrələri vardır. Əhli Beytə qiymət vermək, ehtiram göstərmək hər bir müsəlmanın vəzifəsidir.

Böyük İslam alimi İmam Rəbbani (rəhmətullahi əleyh), belə buyurmuşdur ki; "Atam zahiri və batini elmlərdə, yəni mənəvi elmlər sahəsində güclü bir alim idi. Həmişə Əhli Beyti sevməyi tövsiyə və təşviq edərək; "Bu sevgi insanın axır nəfəsdə mö'min olaraq vəfat etməsinə çox tə'sir edər" deyərdi. Atam vəfat edərkən yanındaydım. Axır nəfəsində bu nəsihətləri xatırlatdım və o sevginin necə tə'sir etdiyini soruşdum. O vəziyyətdəykən belə; "Əhli Beytin sevgisinin dəryasında üzürəm" buyurdu. Mən Allah Təalaya həmd və səna etdim. Əhli Beytin sevgisi Əhli Sünnətin sərmayəsidir. Axirət qazanclarını həmişə bu sərmayə gətirəcəkdir".

Rəsulullahın Əhli Beyti üç qrupdur; Birincisi, xalaları kimi nəsəb və soy cəhətiylə qohum olanlardır. İkincisi, pak xanımlarıdır. Üçüncüsü, xanımlarının başlarını daramaq, yeməklərini bişirmək, otağlarını silib-süpürmək, pal-paltar yumaq və ev işlərini görmək üçün həmişə evlərində qalan qulluqçu qadınlardır. Çöl işlərini görən, məsciddə əzan oxuyan Bilal, Salman, Suheyb də xaneyi səadətdə yeyib içərdilər.

Həzrəti Fatimə ilə qiyamətə qədər davam edən nəslindən gələn uşaqları da Əhli Beytdəndirlər. Onlar, üsyankar olsalar belə sevmək lazımdır. Onları sevmək, mənəvi, fiziki və mali yardım etmək, hörmət və ehtiram göstərmək, mö'min olaraq dünyadan köçməyə səbəb olar. (Suriyanın Hama şəhərində, seyyidlər üçün məhkəmə vardı. Bu mübarək sülalədən doğulan uşaqlar, iki şahid ilə hakim hüzurunda dəqiqləşdirilər və qeydiyyata alınardı. Bu məhkəməni İngilislərin sadiq dostu Mustafa Rəşid Paşa ləğv etmişdir).

**Rəsulullahın əshabı**

Peyğəmbərimizin dostları, qadın vəya kişi, uşaq vəya böyük hər hansı bir müsəlman, Rəsulullahı heç olmasa bir dəfə görmüşsə, kor olan ən az bir dəfə danışarsa və iman ilə vəfat edərsə buna "Sahib" vəya "Səhabi" deyilir. Bir neçəsinə isə "Əshab" vəya "Səhabə" yaxud "Sahb" deyilir.

Peyğəmbərimizi kafir ikən görüb Rəsulullahın vəfatından sonra iman edən vəya müsəlman ikən, sonra mürtəd olan (Müsəlmanlıqdan çıxan) səhabi deyildir. Səhabi

olduqdan sonra mürtəd olub, Rəsulullahın vəfatından sonra təzədən iman edən səhabi olur. Cənabi Peyğəmbərimiz cinlərə də Peyğəmbər olduğu üçün, cin də səhabi olur.

Əshabi kiram, dini hökmlər mövzusunda ən mö'təbər qaynaqdır. Çünki, onlar Qur'ani Kərimi Peyğəmbərimizdən öyrənib, daha sonrakı nəslə öyrətmiş və izah etmişdirlər. Peyğəmbərimizin etdikləri və söylədikləri haqqında məlumatlar, onların bilavasitə görərək və eşidərək nəql etdikləri şeylərə istinad edir.

Bax bunların nəql etdikləri hökmlər, hədislərin əsasını təşkil etmişdir. İslamiyyətdə ümmətin icması, yəni alimlərin müştərək qəbul etdiyi hökmlər, ancaq Əshab dövründə tam və mükəmməl bir şəkildə həyata keçirilmişdir. Ayrıca, Əshabın hər biri dində sözü sənəd, vəsiqə olan müctəhid alimlərdəndir. Onlar özlərindən sonra gələn müctəhidlərdən daha üstündürlər.

Əhli sünnət alimləri, Əshabi kiramın üstünlük sırasını üç qrupa ayırmışlar;

1. Muhacirlər; Məkkə şəhəri alınmadan əvvəl, Məkkədən vəya başqa yerlərdən vətənlərini, qohum-əqrəbalarını tərk edərək Mədinə şəhərinə hicrət edənlərdir. Bunlar, Rəsulullahın yanına iman ilə gəlmiş vəya gəlincə iman etmişdilər. Əmr ibn As Həzrətləri də bunlardandır.
2. Ənsar; Mədinə şəhərində vəya bu şəhərə yaxın yerlərdə və Əvs, Xəzrəc adındakı iki Ərəb qəbiləsinə mənsub olan müsəlmanlara Ənsar deyilir. Çünki, Cənabi Peyğəmbərimizə və Məkkəlilərə hər cür köməkliyi göstərəcəklərinə söz vermiş və öz sözlərini tutmuşdular.
3. Digər Əshabi kiram; Məkkə şəhəri fəth edildiyi zaman və daha sonra Məkkədə vəya başqa yerlərdə imana gələnlərdir. Bunlara Muhacir və Ənsar deyilməz. Sadəcə səhabi deyilər.

Əshabi kiramın ən üstünləri, Rəsulullahın dörd xəlifəsidir. Bunlar xilafət sırasına görə Həzrəti Əbu Bəkir, Həzrəti Ömər, Həzrəti Osman və Həzrəti Əlidir. Bunlardan sonra ən üstünləri Aşərəyi Mubəşşərədən, yəni Cənnət ilə müjdələnmiş olan on nəfərdən qalan altısı da; (Təlhə, Zübeyir ibn Əvvam, Abdurrahman ibn Əvf, Sə'd ibn Əbi Vəqqas, Səid ibn Zeyd, Əbu Ubeydə ibn Cərrah) və Həzrəti Həsənlə Həzrəti Hüseyndir.

Dörd böyük xəlifə və Cənnətlə müjdələnənlərdən sonra Əshabi kiramın ən üstünləri ilk müsəlman olan qırx nəfərdir. Bunlardan sonra ən üstün olanları Bədir qəzvəsində iştirak edən üç yüz on üç səhabidir. Bunlardan sonra ən üstün olan Ühüd

qəzvəsində iştirak edən yeddi yüz qəhrəmandır. Bunlardan sonra ən üstün olan, hicrətin altıncı ilində, ağac altında Rəsulullaha; "Ölərik, amma yolumuzdan dönmərik!" deyə söz verən min dörd yüz nəfərdir. Bu andiçməyə "Bey'əti Rizvan" deyilir.[488]

Əshabi kiramın sayı; Məkkə fəthində on min, Təbük qəzvəsində yetmiş min, Vəda Həccində doxsan min və Rəsulullah vəfat etdiyi zaman yer üzündə yüz iyirmi dörd mindən çox səhabi vardı. Bu barədə başqa rəvayətlər də vardır.

Əshabi kiramdan ən son vəfat edənlər bunlardır; Abdullah ibn Əvfa 705-ci ildə (Hicri 86-cı il) Kufədə vəfat etdi. Abdullah ibn Yəsr 706-cı ildə (Hicri 88-ci il) Şamda, Səhl ibn Sə'd 709-cu ildə (Hicri 91-ci il) 100 yaşında Mədinədə, Ənəs ibn Malik 711-ci ildə (Hicri 93-cü il) Bəsrədə, Əbut-Tufeyl Amir ibn Vasilə 718-ci ildə (Hicri 100-cü il) Məkkədə vəfat etdilər.

Peyğəmbərimizin vəfatından sonra, dörd Xəlifə dövründə də Əshabi kiram İslam dinini yaymaq, cihad etmək barəsində sözlərinə sadiq qaldılar. Sözlərindən dönmədilər. Hamısı birlikdə el-obalarını tərk edərək Ərəbistandan çıxıb, hər tərəfə yayıldılar. Gedənlərin çoxu dala qayıtmayıb, getdikləri yerlərdə ölüncəyə qədər cihad etdi və İslam dinini yaydı. Beləcə az vaxtda çox ölkə fəth edildi. Fəth edilən yerlərdə İslamiyyət sür'ətlə yayıldı.

Əshabi kiramın hamısı adildir. İslamiyyəti yaymaqda hamısı ortaqdır. Qur'ani Kərimi onlar bir yerə gətirdi. Hədisləri Peyğəmbərimizdən onlar nəql etdi.

(Əshabi kiramın İslam dininə etdiyi xidmətlərini, nümunəvi yaşayışlarını, fəzlətlərini, hamısının adlarını və tərcümeyi hallarını yazan bir çox əsər tə'lif edilmiş, işıq üzü görmüşdür. Həqiqət Kitab evi tərəfindən çap edilən "Əshabi kiram" kitabı çox qiymətlidir).

Peyğəmbərlərdən və mələklərin üstünlərindən sonra, bütün məxluqların ən üstünü Əshabi kiramdır. Hər birinin adını hörmətlə, ehtiramla yad etmək lazımdır.

Əshabi kiramın hər biri, bu ümmətin hamısından üstündür. Məhəmməd əleyhissalamın peyğəmbər olduğuna inanan hamıya, yəni hər müsəlmana, hansı irqdən, hansı ölkədən olmasına fərq qoyulmadan Məhəmməd əleyhissalamın ümməti deyilir.

Sahabənin fəzlət və üstünlüyü ilə əlaqəli ayələrdə məalən buyrulur ki; "Siz ümmətlərin xeyirlisisiniz",[489] "Əvvəlcə müsəlman olanlardan, Muhacirlərin və Ənsarın

---

[488] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 59; II, 101, 120; İbn Hişam, *əs-Sirə*, II, 315; Vaqidi, *əl-Məğazi*, I, 279; İbn Sə'd, *ət-Təbəqat*, II, 97; İbn Kəsir, *əs-Sirə*, III, 324; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 255.

başda gələnlərindən və onların yolunu tutanlardan Allah Təala razıdır və bunlar da Allahu Təaladan razıdırlar. Allah Təala bunlar üçün Cənnətlər hazırladı. Bu Cənnətlərin altından çaylar axmaqdadır. Bunlar Cənnətlərdə əbədi qalacaqlar”.[490]

“Məhəmməd (əleyhissalam) Allah Təalanın Peyğəmbəridir. Onunla birlikdə olanların (yəni Əshabi kiramın) hamısı kafirlərə qarşı amansızdırlar. Ancaq, bir-birilərinə qarşı mərhəmətlidirlər. Bunları çox vaxt rükuda və səcdədə görərsiniz. Hamı üçün (dünya və axirətdə) hər bir yaxşılığı, hər bir üstünlüyü Allah Təaladan istəyərlər. Rizvanı (yəni Allah Təalanın onlardan razı qalmasını) da istəyərlər. Çox səcdə etdikləri üzlərindən bəlli olar. Onların halları, şərəfləri beləcə Tövratda (və İncildə) bildirilmişdir. İncildə də bildirildiyi kimi, onlar əkinə oxşayırlar. Kiçik bir tingin yerdən çıxıb bitdiyi, yüksəldiyi kimi, az və gücsüz olduqları halda, az zamanda ətrafa yayıldılar. Hər tərəfi iman nuru ilə doldurdular. Hamı tingi görüb, az zamanda necə böyüdü deyərək çaş-baş qaldılar. Onların hal və şanları görənləri heyrətə düşürdəcək və düşmənləri də əsəbiləşdirəcək şəkildə dünyaya yayıldı”.[491]

Əshabi kiram haqqındakı bəzi hədislər aşağıda verilmişdir;

“Əshabıma söyməyin! Əshabımdan sonra gələnlərdən hər kim dağ qədər qızıl sədəqə versə də, Əshabımdan birinin bir ovuc arpa verərək qazandığı savaba vəya yarısına nail ola bilməz”.[492]

“Əshabım göydəki ulduzlar kimidir. Hansını təqlid etsəniz, hidayət taparsınız”.[493]

“Əshabıma düşmənlik etməkdən çəkinin. Allahdan qorxun! Onları sevən məni sevdiyi üçün sevər. Onlara düşmənlik edən, mənə düşmənlik etmiş olar. Onları incidən, məni incitmiş olar. Məni incidən də, əlbəttə Allah Təalanı incidər”.

“Ümmətimin ən yaxşıları mənim yaşadığım dövrdə yaşayanlardır. Onlardan sonra ən yaxşıları onlardan sonra gələnlərdir. Onlardan sonra da ən yaxşıları daha sonra gələnlərdir. Məni görən və məni görənləri görən bir müsəlmanı Cəhənnəm odu yandırmaz”.[494]

---

[489] Ali İmran 3/110.
[490] ət-Tövbə 9/100.
[491] əl-Fəth 48/29.
[492] Buxari, “Fəzailus-Səhabə”, 5; Əbu Davud, “Sünnə”, 11; Tirmizi, “Mənaqib”, 70; İbn Macə, “Müqəddimə”, 31; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 11; Beyhəqi, *əs-Sünən*, II, 116.
[493] Əhməd Şami, *Sübülül-Huda*, X, 329; Safədi, *əl-Vafi*, II, 362.
[494] Buxari, “Riqaq”, 7; Müslim, “Fəzailus-Səhabə”, 319; Nəsai, “İman”, 29; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 438.

Bu ayə və hədislər, Əshabi kiramın üstünlük və fəzlətini açıq-aşkar göstərməkdədir.

*Havadan söyləməzdi nutqu pakı cümlə vəhy idi,*

*Dürri hikmətlə idi bəhri umman ol kərəmkanı.*

*Təni xalq içrə idi könlü dostuyla tək tənha,*

*Tapardı vəhdəti kəsrətdə hər an ol kərəmkanı*

## CƏNABİ RƏSULULLAHIN BƏZİ ZƏVAİD SÜNNƏTLƏRİ*

### Mübarək saqqal və saçı

Rəsulullahın mübarək saçının necə olduğu barəsində Həzrəti Ənəs ibn Malikə soruşuldu;

"Rəsulullahın mübarək saçı necə idi? Həzrəti Ənəs belə cavab verdi; "Nə çox qıvrımsaç, nə də çox düz idi. İkisinin ortasında və orta dərəcədə idi. Uzunluqda və qısalıqda görünüşü qulaqları ilə çiyninin üstünə düşərdi" dedi.[495]

İbn Abbas Həzrətləri; "Fəxri Aləm Rəsulullah mübarək saçını alnının üstünə tökmüşdü. Daha sonra isə mübarək saçını ortadan ayırardı" demişdir.[496]

Alimlər belə buyurmuşlar ki; "Saçı iki tərəfə ayırmaq Fəxri Kainat Rəsulullahın sünnətidir. Çünki, sonradan belə edərdi. Alnının üstünə tökmək də caizdir, iki tərəfə ayırmaq da caizdir. Amma, ayırmaq daha üstündür".

Həzrəti Aişəyi Siddiqə anamız belə buyurmuşdur ki; "Cənabi Peyğəmbərimizin cümmədən yuxarı və vəfrədən aşağı bir saçı vardı".[497]

Cümmə, çiynin üstün tökülən saça deyərlər. Vəfrə is qulağın yumuşaq hissin qədər çatan saça deyərlər. Yəni, Həzrəti Aişənin rəvayətinə görə Rəsulullahın mübarək saçının uzunluğu mübarək qulaqlarının yumuşağından aşağı düşmüş, amma çiyninə çatmamışdı. İkisinin arasında idi.

Qazı İyaz Həzrətləri də belə buyurmuşdur ki; "Bu nəql edilən rəvayətlərin təhlili belə ola bilər ki, mübarək qulaqlarının üstündəki saçları saçı qulaqlarının yumuşağına qədər uzanardı. Başının dalındakı saçı isə çiyninə çatardı".

Bu barədə belə də buyurmuşlar ki; "Bəzi rəvayətlərdə qulağına qədər çatardı, bəzi rəvayətlərdə çiyninə qədər tökülmüşdü, deyilməsinin səbəbi bəzən elə, bəzən də belə olmasıydı. Rəvayətlərin hamısı da doğrudur. Rəsulullah mübarək saçını bəzən uzadar, düz çiyninin üstünə tökərdi. Bəzən da kəsdirər, mübarək qulaqlarının yumuşağına yaxud ortalarına qədər çatardı.

---

* Zəvaid sünnəti, Cənabi peyğəmbərimizin ibadət olaraq deyil, bir adət olaraq davamlı etdiyi şeylərə deyilir. Zəvaid sünnətləri tərk etmək məkruh deyildir. Cənabi peyğəmbərimizin geyim tərzi, yaxşı işlərə sağdan başlaması kimi şeyləri zəvaid sünnətdir.

[495] Buxari, "Libas", 68; Əbu Davud, "Tərəccul", 9; Tirmizi, *Şəmaili Şərif*, s. 31; Suyuti, *Əvsafun-Nəbi*, s. 51.

[496] İbn Sə'd, *ət-Təbəqat*, I, 430; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 279.

[497] Əbu Davud, "Tərəccul", 9; Tirmizi, "Libas", 21; İbn Macə, "Libas", 36; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 118; İbn Sə'd, *ət-Təbəqat*, I, 428; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, I, 167.

Ümmü Hani belə buyurmuşdur ki; "Fəxri Aləm Rəsulullah bir dəfə Məkkədə bizə gəlmişdi. O vaxt dörd ğadirəsi vardı".[498]

Ğadirənin mənası saç hörüyü deməkdir. Yəni, mübarək saçını dörd hissəyə ayırmışdı, deməkdir.

Qısacası, Cənabi Peyğəmbərimizin mübarək saçı və saqqalı çox qıvrım və çox düz deyil, anadangəlmə qıvrımsaç idi. Mübarək saçı uzundu. Əvvəlcə kəkili vardı, sonradan isə ikiyə ayırardı. Mübarək saçını bəzən uzadar, bəzən də kəsib, qısaldardı.

Kişilərin başı daz qırxdırmaları vəya saçlarını uzadıb, darayaraq ikiyə ayırmaları sünnətdir. Vəziyyətə, adətə, zamana görə hərəkət edilməlidir. Saçları yığmaq vəya hörmək məkruhdur.

Rəsulullahın mübarək saqqalının necə olduğu barəsində Həzrəti Ənəs belə nəql etmişdir ki; "Cənabi Peyğəmbərimizin mübarək saqqalında çox az ağ tük vardı. Mübarək başında və mübarək saqqalında ağ tüklər, on yeddi yaxud on səkkiz dənədən çox deyildi.

Həzrəti Əbu Bəkiri Siddiq bir dəfə;

- Saçlarına dən düşdü, ya Rəsulallah, dedi.

Rəsulullah da;

- Mənim saçımı Hud, Vaqiə, Mürsəlat, Ammə yətəsə'ələnə və İzəşşəmsu kuvvirət (Nəbə və Təkvir) surələri ağartdı, buyurdu.[499]

Yəni, bu surələrdə cənnət və cəhənnəmdən çox bəhs edilmişdir. Ümmətinin axirətdəki vəziyyətini fikirləşərək qəm və qüssəylə saç-saqqalının ağardığını söyləmək istəmişdir.

Əmr ibn Şuayb belə buyurmuşdur ki; "Rəsulullah, mübarək saqqalının həm enindən, həm də uzundan qırxardı. Tirmizi Həzrətlərinin nəql etdiyi hədisdə, Cənabi Peyğəmbərimiz "Bığını qısaltmayan kəs bizdən deyildir",[500] deyə buyurmuşdur. Başqa bir hədisdə də "Saqqallarınızı uzadın və bığlarınızı isə qısaldın",[501] deyə buyrulmuşdur.

---

[498] Tirmizi, "Libas", 39; İbn Macə, "Libas", 36; Tirmizi, *Şəmaili Şərif*, s. 59; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 279; Suyuti, *Əvsafun-Nəbi*, s. 54.

[499] Tirmizi, "Təfsirul-Qu'ran", 56; İbn Sə'd, *ət-Təbəqat*, I, 435; Tirmizi, *Şəmaili Şərif*, s. 74; Suyuti, *Əvsafun-Nəbi*, s. 60.

[500] Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 280.

[501] İbn Sə'd, *ət-Təbəqat*, I, 449; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, I, 119; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 280.

İbn Əbdul-Hakim də belə buyurmuşdur ki; "Bığ yaxşıca qırxılmalı, saqqal isə qırxılmamalıdır. Bığı yaxşıca qırxmaqdan məqsəd ülgüclə qırxmaq deyildir" buyurmuşdur.

İmam Nəvəvi Həzrətləri, "Bığın qırxılmasında münasib olan dodağın kənarı görününcəyə qədər qırxılması, ancaq düz dibindən qırxılmamasıdır", demişdir.

Alimlər bığın üstünü qırxıb iki tərəfdən ucunu uzatmağı məkruh görmüşlər. Bununla əlaqəli İbn Ömər belə nəql etmişdir ki, Rəsulullahın yanında Məcusilər barəsində danışıldı. Bundan sonra Rəsulullah; "Onlar bığlarının ucunu uzadar və saqqallarını qırxarlar, ona görə də siz onların tərsini edin", buyurdu.[502]

Əbu Umamə; "Ya Rəsulallah! Kitab əhli saqqallarını qırxar və bığlarını da uzadarlar" deyincə, Rəsulullah; "Siz bığlarınızın ucunu qırxın və saqqallarınızı uzadın", buyurdu.

Alimlərin bildirdiklərinə görə, bığları qırxaraq, qaşlar qədər qısaltmaq sünnətdir. Çənə hissəsindəki saqqalı əllə tutula bilən qədər uzatmaq və bundan çoxunu qırxmaq isə sünnətdir.

Saqqalı əllə tutula bilən qədər uzatmaq və bundan artığını qırxmaq sünnətdir. Saqqalı əllə tutula bilən qədər uzatmaq da sünnətə münasib deyildir. Sünnətə riayət etmək niyyəti ilə qısa saqqal saxlamaq bidətdir və haramdır. Saqqal saxlamaq sünnəti zəvaiddir. Əmri məruf üçün, dolanışığı tə'min etmək üçün, fitnə çıxmasının qabağını alamaq üçün saqqalı tamamiylə qırxmaq caizdir. Bunlar, sünnəti tərk etmək üçün bir bəhanə ola bilər, ancaq bidət iş görmək üçün bəhanə ola bilməz.

## Rəsulullahın yatması

Cənabi Peyğəmbərimiz, yatağında yatmaq istədiyi vaxt, sağ tərəfi üstündə yatar, sağ əlini sağ yanağının altına qoyar, sonra da; "Allahım! Özümü, sənə tapşırdım. Üzümü sənə tutdum. İşimi sənə tapşırdım. Sənə e'timad etdim. Mən, sənin əzabından qorxur, rəhmətini umuram. Sənin rəhmətindən başqa sığınmağa bir yerim yoxdur. Sənin əzabından başqa qorunmağa başqa bir şey yoxdur. Ancaq, sənin rəhmətinə sığınılar və ancaq sənin rəhmətinlə nicat tapılar. Mən, sənin endirdiyin kitabına və göndərdiyin Peyğəmbərinə inandım. Ey Rəbbim! Sənin adını çəkərək yatıram. Əgər canımı alsan,

[502] İbn Sə'd, *ət-Təbəqat*, I, 439; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 281.

bədənimə rəhmətinlə rəftar et! Əgər canımı almasan, saleh qullarını qoruduğun kimi onu da qoru! Allahım! Mən sənin adınla ölər, sənin adınla dirilərəm. Bizi yedizdirən, içizdirən, hər bir ehtiyacımızı tə'min edən, bizi daldalandıran, sığındıran Allaha həmd olsun! Çoxları var ki, heç kim onların nə ehtiyaçlarını tə'min edir, nə də onları daldalandırır! Allahım! Qullarını hüzurunda topladığın gündə məni əzabından qoru!" deyərək dua edər, yuxudan qalxarkən də; "Həmd olsun o Allaha ki, bizi öldükdən sonra diriltdi. Qiyamət günü də, Ona qayıdacağıq" deyərdi.[503]

Cənabi Peyğəmbərimiz yatağına girdiyi zaman; "Göylərin və yerin Rəbbi, hər şeyin Rəbbi olan, toxumu cücərdən, Tövratı, İncili və Qur'anı endirən Allahım! Mən hər pislik edənin pisliyindən sənə sığınıram! Çünki, onu kəkilindən tutan sənsən! Allahım! Əvvəl sənsən! Səndən əvvəl olan heç bir şey yoxdur! Axır da sənsən! Səndən sonra olan heç bir şey də yoxdur! Zahir sənsən! Səndən başqa heç bir şey yoxdur!" deyə dua edərdi.

Yuxudan oyandığı zaman da; "Başqa ilah yoxdur, ancaq sən varsan! Səni, təsbih və tənzih edirəm. Allahım! Günahlarımı bağışlamağını və rəhmətini diləyirəm. Allahım! Elmimi çoxalt! Mənə doğru yolu göstərdikdən sonra, yoldan çıxartma! Uca nəzdindən mənə bir rəhmət et, ehsan buyur! Çünki, ən çox bağışlayan da sənsən!" deyərək bəzən dua edərdi.

Bəra ibn Azib də bu barədə belə nəql etməkdədir ki; "Kainatın sahibi mənə "Yatmağa getdiyin vaxt, namaz üçün dəstəmaz aldığın kimi dəstəmaz al! Sonra, sağ tərəfinin üstünə yat və; "Allahım! Özümü, sənə tapşırdım. Üzümü, sənə tutdum. Sənə e'timad etdim. Mən, sənin əzabından qorxur, rəhmətini umuram. Sənin rəhmətindən başqa sığınmağa bir yerim yoxdur. Sənin əzabından başqa qorunmağa başqa bir şey yoxdur. Ancaq, sənin rəhmətinə sığınılar və ancaq sənin rəhmətinlə nicat tapılar. Mən, sənin endirdiyin kitabına və göndərdiyin Peyğəmbərinə inandım!" de!

O gecə əgər ölsən, İslam fitrətiylə ölərsən. Kim bunu desə və o gecə dünyadan köçsə, İslam fitrətiylə ölər!" buyurdu.

Cənabi Peyğəmbərimiz; "Sizdən biriniz gecə vaxtı yatağından qalxıb, sonra təzədən yatacağı zaman, yatağı üç dəfə çırpsın. Çünki, özündən sonra nə baş verdiyini, nəyin gəlib yatağına uzandığını bilməz. Yatağına yatmaq istədiyi vaxt, sağ sağ tərəfi üstündə yatsın. Yatdığı, yataqda uzandığı vaxt da; "Allahım! Səni təsbih və tənzih

---

[503] Tirmizi, *Şəmaili Şərif*, s. 281.

edirəm. Ya Rəbbi! Sənin adını çəkərək yatağa uzandım. Sənin adınla da qalxdım. Əgər, canımı alsan, ona rəhmət və məğfirət et. Əgər, canımı almasan saleh qullarını qoruduğun kimi, onu da qoru!"

Oyandığı zaman da; "Həmd olsun Allaha ki, məni yaratdı, ruhumu mənə qaytardı və zikri üçün mənə izin verdi" desin, buyurmuşdur.

Cənabi Peyğəmbərimiz üzü üstə yatan bir adama rast gəlincə; "Bax bu yatmağı Allah qət'iyyən sevmir!" buyurmuşdur.

Şərid ibn Suveydin nəql etdiyinə görə, Cənabi Peyğəmbərimiz üzü üstündə yatan bir nəfəri görüb ona ayağının ucu ilə toxunaraq; "Bu, uca Allahın ən çox xoşuna gəlmədiyi bir yatışdır!" buyurmuşdur.

Belə yatan adamın Əshabi Suffədən Abdullah ibn Tahfə olduğu nəql edilməkdədir. Onun özü belə demişdir ki; "Mən, səhər vaxtı Məsciddə qarnım üstündə yatmışdım ki, biri mənə ayağı ilə toxunaraq; "Bu kimdir? deyə soruşdu.

- Mən; "Abdullah ibn Tahfəyəm! dedim. Bir də nə görsəm yaxşıdır? Sən demə bu adam Kainatın sahibi imiş!
- Bu, uca Allahın ən çox xoşuna gəlmədiyi bir yatışdır! buyurdu".[504]

Cənabi Peyğəmbərimiz əsla dəstəmazsız qalmazdı.

Rəsulullahın dəstəmaz pozduqdan sonra, dəstəmazını təzələmədiyi əsla görülməmişdir.

**Rəsulullahın oturuşu**

Hənzələ ibn Xizyəm; "Cənabi Peyğəmbərimizin yanına getdim. O dəmdə O, bardaş qurub oturmuşdu" demişdir.

Cabir ibn Səmurə də, Cənabi Peyğəmbərimizin sübh namazını qıldıqdan sonra, günəş çıxıncaya qədər bardaş qurub oturduğunu nəql etmişdir.

Cənabi Peyğəmbərimizin heç bir zaman ayaqlarını qabağındakılara tərəf uzatdığı görülməmişdir.

Şərid ibn Suveyd belə demişdir ki; "Bir dəfə Kainatın sahibi mənə baş çəkmişdi. O əsnada mən, sol əlimi arxaya dayayıb oturmuşdum. Kainatın sahibi; "Sən, qəzəbə düçar olanlar kimi oturursan?!" buyurdu". (Qəzəbə düçar olanlar yəhudilərdir).

---

[504] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 262; V, 426; Suheyli, *ər-Rövzul-Unf*, VIII, 16.

Qaylə bint Məhrəmə belə nəql etmişdir ki; "Cənabi Peyğəmbərimizi qurfusa şəklində oturarkən gördüm. Cənabi Peyğəmbərimizi xuşu içində oturan gördüm".[505]

(Qurfusa, pəncələri yerə dayayaraq dizin qarına yapıştırılaraq əllərlə ayaqları qucaqlayıb oturulduğu şəkildir).

Cənabi Peyğəmbərimizin yemək yeyərkən oturuşu da çox sadə idi. Nə gizlicə yeyərdi, nə də qabağına boşqablarla yeməklər gətirilərdi.

Cənabi Peyğəmbərimiz torpaq üstündə oturar, yeməyini də yerdə yeyərdi. "Mən, qulun oturduğu kimi oturar, qulun yediyi kimi yeyərəm. Mən, ancaq bir qulam! Sünnətimdən üz döndərən, məndən deyildir!" buyurardı.[506]

Cənabi Peyğəmbərimiz, Məkkənin yuxarı tərəflərində bir yerə söykənərək yemək yediyi əsnada, Cəbrayıl əleyhissalam gəlib; "Ey Məhəmməd! Demək sən də padışahlar kimi yeyirsən?!" deyincə, Cənabi Peyğəmbərimiz elə ordaca yerdə oturmuşdu.[507]

Bir dəfə Cənabi Peyğəmbərimizə Cəbrayıl əleyhissalamla birlikdə bir mələk gəlmişdi. Bu mələk daha əvvəl heç gəlməmişdi.

Mələk, Cənabi Peyğəmbərimizə; "Rəbbin, sənə salam deyir və sənin, hökmdar-peyğəmbər və qul-peyğəmbər titullarından birini seçməyini istəyir. "İstəsən səni hökmdar-peyğəmbər, istəsən qul-hökmdar edər!" buyurur" dedi.

Cəbrayıl əleyhissalam; "Təvazökarlıq et!" deyə işarə verincə, Cənabi Peyğəmbərimiz; "Qul-peyğəmbər olmağı seçirəm!" cavabını vermişdi. Bundan sonra Cənabi Peyğəmbərimiz nə ayaq üstündə, nə də bir yerə söykənərək yemək yemişdir.

## Rəsulullahın yeməsi və içməsi

Əbu Cuheyfə belə nəql etmişdir ki; "Kainatın sahibi "Mən bir şeyə söykənərək yemək yemərəm" buyurdu.[508] Söykənmək üç cürdür; Bir tərəfə söykənmək, bardaş qurmaq, bir əli yerə dayayıb digəriylə yemək yemək.

Bu üçüncü söykənmə şəkli tənqid edilmiş, qınanmışdır.

---

505 Buxari, "İstizan", 34; Əbu Davud, "Ədəb", 25; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, I, 273; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, I, 163; Heysəmi, *Məcməuz-Zəvaid*, V, 423; Bəğavi, *əl-Ənvar*, I, 355; Suyuti, *Əvsafun-Nəbi*, s. 80.
506 İbn Sə'd, *ət-Təbəqat*, I, 381.
507 İbn Sə'd, *ət-Təbəqat*, I, 380.
508 Tirmizi, *Şəmaili Şərif*, s. 164; Qazı İyaz, *Şifayi Şərif*, s. 86.

Rəsulullah yeməyi üç barmaqla, şəhadət barmağı ilə yanındakı iki barmaqla yeyərdi.

Cənabi Peyğəmbərimiz belə buyurmuşdur ki; "Yeməyin bərəkəti, yeməkdən qabaq və sonra dəstəmaz almaqda, bir də əlləri yumaqdadır!".[509]

"Hər kim ət və un kimi şeylər yedikdən sonra əllərini yumadan yatarsa, öz başına bir şey gəlsə özsündən başqasını günahlandırmasın!".

Cənabi Peyğəmbərimizin Ğarra deyilən bir yemək qabı vardı. Quşluq vaxtı, quşluq namazını qıldıqdan sonra içində sərid (tirid) olan bu qab gətirilib ortaya qoyulardı. (Tirid, xırda-xırda doğranmış çörək və çox ətlə bişirilən yeməyə deyilir).

Müsəlmanlar, tirid qabını ətrafına yığıldığı vaxt, Cənabi Peyğəmbərimizi dizlərinin üstündə oturduğunu görən bədəvi (səhra kəndlisi) özünü saxlaya bilməyərək; "Bu, necə oturmaqdır?!" dedi.

Cənabi Peyğəmbərimiz də; "Heç bir şüphə yoxdur ki, Allah məni, çətinliyə salan və inadkar deyil, kərəm sahibi bir qul olaraq yaratdı! Haydı, kənarından yeməyə başlayın! Ortasından yeməyin.

Yeməyin bərəkəti ortasındadır! Sizdən biriniz yemək yeyəcəyği vaxt, qabın ortasından yeməsin. Ancaq, kənarından yesin. Çünki, bərəkət onun ortasından gələr!" buyurdu.

Ömər ibn Əbi Sələmə belə demişdir ki; "Kainatın sahibinin tərbiyəsi altında boya-başa çatan bir uşaq idim. Yemək yeyərkən əlimi yemək qabının içinə salıb qarışdırardım. Kainatın sahibi, mənə "Ey oğul! Bismillah de. Sağ əlinlə ye! Öz qabağından ye!" buyurdu.[510]

Bundan sonra, həmişə belə yeməyə davam etdim.

Cənabi Peyğəmbərimiz; "Biriniz üçün qulluqçusu yeməyini bişirib gətirdiyi vaxt, yeməyin istisinə, tüstüsünə dözən o qulluqçusunu da süfrədə özüylə birlikdə oturtsun. Əgər qulluqçu imtina edərsə vəya yemək az olarsa, barı yeməkdən bir iki-tikə versin" buyurmuşdur.

Cənabi Peyğəmbərimiz heç bir yeməyi pisləməmişdir.

Bir yeməyi ürəyi istəsə yeyər, istəməsə yeməyib susardı.

Ən az ne'mətə belə şükr edər, heç bir ne'məti pisləməzdi.

---

[509] Tirmizi, "Ətimə", 39.
[510] Tirmizi, *Şəmaili Şərif*, s. 204.

Heç bir ne'məti, nə xoşuna getdiyi üçün tərifləyər, nə də xoşlanmadığı üçün pisləyərdi.

Yemək süfrəyə qoyulduğu vaxt, Cənabi Peyğəmbərimiz; "Allahummə barik ləna fima rəzaqtəna vəqina əzabənnar. Bismillah!" deyərək dua etdikdən sonra yeməyə başlayardı.

Həzrəti Aişə anamız belə nəql etmişdir ki; "Kainatın sahibi "Sizdən biriniz yemək yeyəcəyi vaxt, "Bismillah!" desin və uca Allahın adını çəksin. Yeməyə başlamadan qabaq belə deməyi yaddan çıxartsa; "Yeməyin əvvəli və axırı üçün Bismillah!" desin" buyurmuşdur.[511]

Umeyyə ibn Məhşinin rəvayət etdiyinə görə bir nəfər, bəsmələ çəkmədən yemək yeyir, Cənabi Peyğəmbərimiz də oturaraq ona baxırdı. Yeməyin axırında təkcə bir tikə qaldığı və onu da götürüb ağzına apardığı əsnada, adam; "Yeməyin əvvəli və axırı üçün Bismillah!" dedi.

Cənabi Peyğəmbərimiz buna güldü. Sonra da "Şeytan, onunla birlikdə yeyirdi. Adam, uca Allahın adını çəkincə, şeytan yediklərinin hamısını qusdu!" buyurmuşdur.

Cənabi Peyğəmbərimiz dəstəmaz və qüsl alarkən, ayaqqabısını geyinərkən və saçını darayarkən, mümkün qədər həmişə sağdan başlamağı sevər, bir şey alacağı zaman sağ əli ilə alar, bir şey verəcəyi zaman sağ əli ilə verər və başlayacağı hər şeyə də sağdan başlayardı.[512]

"Sizdən biriniz ayaqqabısının sağ tayından geyinməyə başlasın!

Ayaqqabısını çıxardacağı zaman da, çıxartmağa soldan başlasın!

Ayaqqabı geyinilərkən sağ ayaq birinci geyinilsin. Ayaqqabı çıxardılarkən də sağ ayaq axırıncı çıxardılsın!" buyurardı.

Abdullah ibn Ömərin bildirdiyinə görə Cənabi Peyğəmbərimiz, "Sizdən biriniz yemək yeyəcəyi zaman, sağ əli ilə yesin. Bir şey içəcəyi zaman da yenə sağ əli ilə içsin. Çünki, şeytan sol əli ilə yeyər və sol əli ilə içər!" buyurmuşdur.[513]

Sələmə ibn Əqvanın atasından nəql etdiyinə görə, "Cənabi Peyğəmbərimiz Əşca qəbiləsindən Büsr ibn Raiyul'ir deyilən bir nəfərin sol əllə yemək yediyini görüncə, ona; "Sağ əlinlə ye!" buyurmuşdur.

---

[511] Əbu Ya'la, *əl-Müsnəd*, XIII, 62; Əhməd Şami, *Sübülül-Huda*, VII, 170.

[512] Buxari, "Vuzu", 41.

[513] Müslim, "Əşribə", 142; Əbu Davud, "Ətimə", 20; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, II, 8, 33; Beyhəqi, *əs-Sünən*, II, 43.

Adam "Bunu edə bilmirəm, sağ əlimlə yeyə bilmirəm!" deyərək yalan söylədi. Cənabi Peyğəmbərimiz "Edə bilməyəsən! Bu adama, sağ əllə yeməyə ancaq lovğalıq və qürurlanmaq mane olmaqdadır!" buyurdu. Bundan sonra o adam, bir daha əlini ağzına apara bilmədi!".[514]

Cənabi Peyğəmbərimiz "Əziz və Cəlil olan Allah, yeyiləcək bir şeyi yeyib vəya içiləcək bir şeyi içib, buna görə özünə həmd edən qulundan, heç bir şübhə yoxdur ki, razı olar!" buyurardı.

Əbu Səidul-Xudri Cənabi Peyğəmbərimizin, yeyib-içdiyi zaman belə dua etdiyini nəql etmişdir; "Əlhəmdu lillahilləzi ət'aməna və səqana və cəaləna muslimin-Bizi yedizdirən, içizdirən və bizi müsəlman edən Allaha həmd olsun".[515]

Əbu Umamətul-Bahilinin bildirdiyinə görə Cənabi Peyğəmbərimiz, yeməyini yeyib süfrə yığışdırılacağı əsnada belə dua edərdi ki; "Əlhəmdu lillahi kəsirən tayyibən mübarəkən fihi ğayrə məkfiyyin vəla muvəddain vəla mustağnən anhu Rəbbəna" (Həmd Allaha məxsusudur).[516]

Ey Rəbbimiz! Biz sənə çoxlu, pak, içi feyz və bərəkətlə dolu olan, rədd edilməyən və dala qaytarılmayan bir həmd ilə həmd edərik!".

"Əlhəmdu lillahilləzi kəfəna və ərvana ğayrə məkfiyyin vəla məkfurin-Bizə kifayət qədər yedizdirən, içizdirən, bizi rədd etməyən və nankorlar sırasına qatmayan Allaha həmd edərik".

Əbu Hüreyrə də, Cənabi Peyğəmbərimizin yeməkdən sonra əllərini yuduğunu rəvayət etmişdir.

Cənabi Peyğəmbərimiz dünyaya və dünyadakı şeylərə əhəmiyyət verməzdi. Abdullah ibn Məs'ud belə nəql etmişdir ki; "Kainatın sahibi, bir həsirin üstündə yatıb qalmış və həsir böyründə iz qoymuşdu. Oyanınca, böyrünü ovuşduraraq; "Atam, anam, sənə fəda olsun ya Rəsulallah! Kaş ki, bizə desəydin həsirin üstünə sənin üçün bir şey sərsəydik" dedim və dalınca da; "Sənin üçün bir yumuşaq döşək düzəldək?" soruşduq.

---

[514] Beyhəqi, *əs-Sünən*, II, 45.
[515] Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 315.
[516] İbn Macə, "Ətimə", 16; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, VIII, 142; Hakim, *əl-Müstədrək*, IV, 150; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 315.

Kainatın sahibi; “Dünyaya aid şeylər mənim nəyimə lazımdır ki? Mənim, dünyanın misalı, bir ağacın altında bir az kölgələndikdən sonra, oranı tərk edərək yoluna davam edən bir atlının misalı kimidir!” buyurdu.[517]

Əbu Umamətul-Bahilinin nəql etdiyinə görə, Cənabi Peyğəmbərimiz; “Əziz və Cəlil olan Rəbbim mənə Məkkə vadisini qızıla çevirməyi təklif etdi. Mən; “Xeyr! Ya Rəbbi! Mən, bir gün tox, bir gün də ac olum. Ac olduğum zaman sənə dua edib zikr edim. Tox olduğum zaman da, sənə həmd ədib, şükr edim!” dedim” buyurmuşdur.[518]

Həzrəti Aişə anamız belə nəql etmişdir ki; “Cənabi Peyğəmbərimizin Mədinəyə gəlişindən vəfatına qədər Ev əhli, üç gecə dalbadal buğdadan bişirilən çörəkdən yeyib doymamışdılar.[519]

Cənabi Peyğəmbərimizin və Ev əhlinin, çox vaxt yedikləri arpa çörəyi ilə xurmadan ibarət olub, bunlar da az idi.

Rəsulullah vəfatından əvvəl zirehini Ev əhlinin dolanışığını tə’min etmək üçün Əbu Şəhma adındakı yəhudidən aldığı bir vəsq[520] vəya otuz sa arpa müqabilində girov qoymuşdu.[521]

Həzrəti Aişə anamız; “Məhəmməd əleyhissalamı haqq din və Kitabla peyğəmbər olaraq göndərən Allaha and içərək deyirəm ki; “Uca Allahın, Onu Peyğəmbər olaraq göndərdiyi zamandan, canını aldığı zamana qədər, özü nə bir ələk görmüş, nə də ələklə ələnmiş undan bişirilən çörək yemişdir!” demiş; “Elə isə, arpanı necə yeyərdiniz?” soruşulduğunda da; “Kəpəyini (Üf!) deyərək üfləyərdik!” deyə cavab vermişdi.

“Kainatın sahibi vəfat edinceyə qədər nə özü, nə də Ev əhli dalbadal iki gün arpa çörəyindən doymamışdılar!”.

“Vallahi, Kainatın sahibinin evində qırx gecə qalardıq. Bu müddətdə nə şam, nə də bir ocaq yanardı!”.[522]

---

[517] Hakim, *əl-Müstədrək*, IV, 344; Beyhəqi, *Şuabul-İman,* II, 166; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 334.

[518] İbn Sə’d, *ət-Təbəqat*, I, 381; Əhməd Şami, *Sübülül-Huda*, VII, 75.

[519] Nəsai, “Dəhaya”, 37; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 42; Beyhəqi, *əs-Sünən*, II, 487; *Şuabul-İman,* II, 166; Qəzzali, *İhya*, II, 877.

[520] İslamiyyətin ilk illərində 1 vəsq 194, 3 kiloqrama bərabər idi. Bax; Walter Hinz, *İslamda Ölçü Sistemləri*, s. 65.

[521] Buxari, “Buyu”, 33; “Rehn”, 5; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 160; İbn Əbi Şeybə, *əl-Musannəf,* IV, 271; Tirmizi, *Şəmaili Şərif,* s. 334; Bəğavi, *əl-Ənvar*, I, 299; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 307.

[522] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 71; Hakim, *əl-Müstədrək*, IV, 119; Beyhəqi, *Şuabul-İman,* VII, 314.

“Aylar, gəlir keçərdi də, Rəsulullah Əleyhissalamın evlərindən hər hansı birində ocaq yanmaz, duman tütdüğü görülməzdi!”.

“İki ay keçərdi, amma bu müddətdə Məhəmməd əleyhissalamın Ev əhli üçün nə bir çörək bişirilər, nə də bir qabda vəya qazanda yemək bişərdi!”.[523]

“Biz əsvədeynlə, yəni xurma və suyla doyduğumuz zaman, Kainatın sahibi vəfat etdi”.[524]

“Cənabi Peyğəmbərimiz bir gündə iki cür yemək yeməmiş, özü qarnını xurma ilə doyuzdurduğu zaman, çörəklə doyuzdurmamış, çörəkdən doyuzdurduğu zaman da xurmadan doyuzdurmamışdır! Bax, məni ağladan da elə budur!” demişdir.[525]

Ənəs ibn Malik də; “Cənabi Peyğəmbərimizin, Allaha qovuşuncaya qədər nə Xıvan üstündə bir şey yediyini, nə xalis buğda unundan bişirilmiş lavaş, nə də qızardılmış quzu kababı daddığını görmədim!” demişdir.[526]

(Xıvan, yemək yeyiləcəyi əsnada üstünə yemək qoyulan taxta, stol kimi şeyə deyilir).

Əbu Hüreyrə Həzrətləri, Cənabi Peyğəmbərimizin; “Allahım! Ev əhlimə, Məhəmmədin Ev əhlinin acından ölməyəcəyi qədər ruzi ver! Məhəmmədin Ev əhlinin ruzisini acından ölməyəcək qədər ehsan et!” deyərək dua etdiyini nəql etmişdir.

Rəsulullah, yeyəcəyi şeyi süfrədə yeyərdi. Əslində süfrə, yolçuların özləriylə götürdüyü yeməyə deyilmiş, daha sonra dəriyə bükülərək daşındığından, yeməyin adı dəri qaba verilmiş və ona süfrə deyilmişdir.

Rəsulullah, bu yeməyi bişirin, bu yeməyi bişirməyin, deməzdi. Nə varsa onu da yeyərdi. Həzrəti Aişə anamız belə nəql etmişdir ki; “Cənabi Peyğəmbərimiz mənim yanıma gələr; “Yanında yemək var?” deyə soruşardı. Mən də; “Xeyr!” deyərdim. Bundan sonra “Elə isə mən orucluyam!” buyurardı.[527]

Kainatın sahibi, yenə bir dəfə bizə gəlmişdi. Mən; “Ya Rəsulallah! Bizə bir hədiyyə verdilər” dedim. O; “Nə hədiyyədir elə?” deyə soruşdu. Mən; “Haysdır!”

---

[523] Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 306.
[524] Buxari, “Ətimə”, 41; Müslim, “Zühd”, 39; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 71; Tirmizi, *Şəmaili Şərif*, s. 366.
[525] Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 306.
[526] Beyhəqi, *Şuabul-İman,* II, 169; İbn Əsakir, *Tarixu Dəməşq*, IV, 81.
[527] Tirmizi, *Şəmaili Şərif*, s. 196.

dedim. O; “Amma, mən bu gün oruc tutmuşam” buyurdu. (Hays xurma, yağ və s. şeylər qarışdırılaraq bişirilən yeməkdir).[528]

Cənabi Peyğəmbərimizin halvadan və baldan, çörək tiridindən, xurma tiridindən və tərəvəzli yeməklərdən xoşu gələrdi. Rəsulullaha süd gətirilib verildiyi zaman; “Süddə iki bərəkət vardır” buyurardı.[529]

Abdullah ibn Abbas belə nəql etmişdir ki; “Mən və Xalid ibn Vəlid Kainatın sahibi ilə birlikdə xalam Meymunə bint Harisin evinə getmişdik. Ümmü Hufeyd Kainatın sahibinə kərə yağı və süd vermişdi. Xalam; “Verilən süddən sizə də verim?” deyə soruşdu. Kainatın sahibi “Olar!” buyurdu. Xalam gedib bir qab süd gətirdi.

Kainatın sahibi, götürüb içdi. Mən, Kainatın sahibinin sağında, Xalid ibn Vəlid isə solunda oturmuşdu. Rəsulullah süddən artıq qalanını mənə verib; “Sən, iç! İstəyirsən özün iç, istəyirsənsə Xalidə ver içsin!” buyurdu.

“Mən, sənin artığını içməkdə, heç bir zaman, heç birini özümdən üstün tutmaram!” dedim.

Bundan sonra Rəsulullah; “Allahın yemək yedirtdiyi adam; “Allahummə barik ləna fihi və ət’amna xayran minhu-Allahım! Sən, bu yeməkdə bizim üçün bərəkət ehsan et! Bizə, ondan daha xeyirlisini də yedirt!” desin!

Allahın süd içirtdiyi adam da; “Allahummə barik lənə fihi və zidna minhu-Allahım! Sən, bu süddə bizim üçün bərəkət ehsan et və ondan bizə ehsanını artır” desin! Çünki, südün yerini heç nə tutmaz” buyurdu”.[530]

Mədinəli müsəlmanlar, xurma yetişən kimi ən birinci Cənabi Peyğəmbərimiz üçün gətirər, Rəsulullah da xurmanı əlinə götürüb bərəkət duası etdikdən sonra, gördüyü uşaqlardan ən balacasını çağırar və ona verərdi. O; “Bir evdə xurma tapılmazsa, o evin xalqı acdır” buyurardı.

Ənəs ibn Malikin nəql etdiyinə görə Cənabi Peyğəmbərimiz, balqabaqdan bişirilmiş yeməkdən xoşu gələrdi. İçində balqabaq olan bir yemək gətirildiyi zaman, yeməyin içindəki balqabaq Cənabi Peyğəmbərimizin qabağına qoyulardı. Rəsulullah qoyunun ən ləzzətli ətinin, kürək əti olduğunu da deyərdi.[531]

---

[528] Suyuti, *Əvsafun-Nəbi*, s. 97.
[529] İbn Sə’d, *ət-Təbəqat*, I, 393.
[530] Əbu Davud, “Əşribə”, 21; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 284; İbn Sə’d, *ət-Təbəqat*, I, 397; Beyhəqi, *Şuabul-İman,* V, 104; Tirmizi, *Şəmaili Şərif*, s. 220.
[531] İbn Sə’d, *ət-Təbəqat*, I, 391-393; Tirmizi, *Şəmaili Şərif*, s. 188; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 310.

Ümmü Eyyuba; “Rəsulullah əleyhissalam evinizdə yeddi ay qalmışdı. Kainatın sahibinin ən çox xoşuna gələn yemək hansı idi?” deyə soruşulldu.

Ümmü Eyyub; “Onun, özü üçün nə bir yeməyin bişirilməsini əmr etdiyini, nə də xoşuna gəlməyən bir yeməyi pislədiyini gördüm. Onun üçün beş, altı vəya on gündə bir bişirilən hərisə və keşkədən xoşu gəldiyini görərdik” dedi.[532]

Əbu Musa əl-Əşəridən də belə nəql edilmişdir ki; “Kainatın sahibinin toyuq əti yediyini gördüm”.

Cənabi Peyğəmbərimiz qabın dibində qalan yeməyi yeməkdən xoşu gələrdi. “Hər kim, bir qabda yemək yedikdən sonra onu sıyırarsa o, onun üçün istiğfar edər!” buyurardı.

Cənabi Peyğəmbərimiz, yaşıl xurma ilə birlikdə qovun vəya xiyar yeyərdi. “Bunun istiliyini, onun soyuqluğu ilə, onun soyuqluğunu da, bunun istiliyi ilə azaldar, sərinlədərik!” deyərdi.[533]

Cənabi Peyğəmbərimizin yeməklə əlaqəli aşağıdakı bu hədislərinin də olduğu zikr edilmişdir;

“Ey Əbu Zərr! Ət bişirdiyin zaman, qonşularını da nəzərə alaraq suyunu çoxalt və onlara da payla”.[534]

“Qonşusu ac olduğu halda, özü tox yatan kamil mö’min deyildir!”.

“Allaha ibadət edin! Yemək yedizdirin! Salamı yayın ki, Cənnətlərə girəsiniz!”.[535]

“Bir nəfərin yeməyi, iki nəfərə çatar. Üç nəfərin yeməyi, dörd nəfərə çatar. Dörd nəfərin yeməyi də, səkkiz nəfərə çatar!”.[536]

Əsma bint Əbi Bəkir, bişən yeməyin qaynaması və buxarı çəkilincəyə qədər qapağının örtülməsini tövsiyə edər və Kainatın sahibinin “Belə etmək ən böyük bərəkətdir!” buyurduğunu eşitdiyini deyərdi.

Rəsulullah, Məkkənin fəthində Əmisi Əbu Talıbın qızı Həzrəti Ümmü Haninin evinə getmişdi. Ona; “Evdə yeməyə nə var?” deyə soruşdu. Həzrəti Ümmü Hani;

---

[532] İbn Sə’d, *ət-Təbəqat*, I, 393.
[533] Tirmizi, *Şəmaili Şərif*, s. 213; Suyuti, *Əvsafun-Nəbi*, s. 99.
[534] Tirmizi, “Ətimə”, 30; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, V, 149; Beyhəqi, *əs-Sünən*, II, 232.
[535] Hakim, *əl-Müstədrək*, III, 14; Beyhəqi, *əs-Sünən*, II, 259; *Şuabul-İman,* III, 424; Heysəmi, *Məcməuz-Zəvaid*, V, 29.
[536] İbn Macə, “Ətimə”, 2; Təbərani, *əl-Mu’cəmul-Kəbir*, XII, 320.

“Təkcə qurumuş çörək qırıntıları və sirkə var! Ancaq, bunları sənə verməkdən utanıram!” dedi.

Cənabi Peyğəmbərimiz “Çörək qırıntılarını ufalayıb suyun içinə tök. Duz da gətir!” buyurdu. Sirkəni də onun içinə töküb yedikdən sonra uca Allaha şükr etdi və; “Ey Ümmü Hani! Sirkə nə gözəl iştah verir! Bir evdə sirkə olsa, orda iştahsız olmaz!” buyurdu.[537]

“İçgilərdən də hansı daha dadlıdır?” deyə soruşulduğu zaman, Cənabi Peyğəmbərimiz; “Şirin və sərin sudur!” buyurmuşdur.[538]

Cənabi Peyğəmbərimiz, Buyutussuqyadan gətirilən şirin sudan içərdi. Buyutussuqyadakı su, Mədinəyə iki günlük məsafədə idi.[539]

Cənabi Peyğəmbərimiz; “Sizdən biriniz, bir şey yeyərkən sağ əli ilə yesin. Bir şey içərkən də, sağ əli ilə içsin. Çünki, Şeytan sol əli ilə yeyər və sol əli ilə içər!”.[540]

“Sizdən biriniz bir şey içərkən, qabın içinə başını soxmasın!” buyurmuş, yemək və içilən şeylərin içinə başı soxmağı qadağan etmişdi. Eyni zamanda qızıl və gümüş qabların içində yeyib-içməyi də qət’i olaraq qadağan etmişdir.

Cənabi Peyğəmbərimiz su içərkən, bir stəkan suyu iki-üç dəfəyə içər və; “Bu, daha yararlı və daha doyurucudur” deyərdi.

“Sizdən biriniz, bir şey içəcəyi zaman bir nəfəsə içməsin”.

“Dəvələr kimi bir nəfəsə içməyin! İki vəya üç nəfəsə için! Sonra, içəcəyiniz zaman ”Bismillah!” və ağzınızı su qabından çəkdiyiniz zaman da “Əlhəmdulillah!” deyin!” buyurmuşdur.[541]

Nofəl ibn Muaviyə; “Kainatın sahibi bir şey içərkən üç dəfə nəfəs alardı. Birincisində uca Allahın adını çəkər, “Bəsmələ” deyər, axırıncısında da, “Əlhəmdulillah” deyərək həmd edərdi” demişdir.[542]

---

[537] Tirmizi, “Ətimə”, 35; Hakim, *əl-Müstədrək*, IV, 59; Təbərani, *əl-Mu’cəmul-Kəbir*, XXIV, 437; İbn Əsakir, *Tarixu Dəməşq*, IV, 243; Tirmizi, *Şəmaili Şərif*, s. 181; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 307; Suyuti, *Əvsafun-Nəbi*, s. 91.
[538] İbn Sə’d, *ət-Təbəqat*, I, 391.
[539] Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 100; Hakim, *əl-Müstədrək*, IV, 154.
[540] Müslim, “Əşribə”, 142; Əbu Davud, “Ətimə”, 20; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, II, 8, 33; Beyhəqi, *əs-Sünən*, II, 43; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 315.
[541] Tirmizi, “Əşribə”, 13; Təbərani, *əl-Mu’cəmul-Kəbir*, XII, 166; Beyhəqi, *Şuabul-İman,* V, 116.
[542] Tirmizi, *Şəmaili Şərif*, s. 228; Suyuti, *Əvsafun-Nəbi*, s. 100.

Həzrəti Aişənin nəql etdiyinə görə Cənabi Peyğəmbərimiz, Onun üçün dəri qabda səhər vaxtı düzəldilən şərbəti axşam vaxtı içərdi. Axşam vaxtı düzəldilən şərbəti də, səhər-səhər içərdi.

Yeməkdən qabaq və yeməkdən sonra əllləri yumaq, sağ əllə yemək və sağ əllə içmək Rəsulullahın adətiydi. Yeməkdən qabaq əl yuyarkən əvvəlcə cavanlar, yeməkdən sonra isə əvvəlcə yaşlılar yuyardı.

Boşqabın bir kənarından yemək, öz qabağından yemək, sol ayağı üstündə oturmaq Rəsulullahın sünnətidir. Həddən artıq isti yemək yeyilməməli və iylənməməlidir. Yeyərkən tamamilə susmağı Cənabi Peyğəmbərimiz münasib görməzdi. (Bu, Atəşpərəstlərin adətidir). Xoş sözlər danışılmalıdır. Yeməyə duzla başlamaq və duzla qurtarmaq Rəsulullahın sünnətidir və şəfadır.

Yemə və içmə ədəbini öyrənmək, ibadət bilgisini öyrənməkdən əvvəl gəlir. İslamiyyətdə əvvəlcə ortaya çıxan bid'ətdən biri də doyuncaya qədər yeməkdir. Hər gün ət yemək ürəyə güc salar. Mələklər də bunu sevməz. Əti az yemək isə əxlaqı pozar. Süfrə, yəni yerə sərilmiş örtüyün üstündə yemək xoş olar. Süfrə dəridən olardı. Tərəvəzli yeməklər çox xeyirlidir. Tərəvəzli yemək olmayan süfrə, ağlını itirmiş qocaya bənzədilmişdir.

İmam Cə'fəri Sadiq "Malı və övladının çox olmasını istəyən tərəvəzli yeməklərdən çox yesin!" buyurmuşdur. Əvvəlcə süfrəyə əyləşilməli, yemək sonra gətirilməlidir. Peyğəmbərimiz; "Mən bir qulam. Qullar kimi yerdə oturub yeyərəm" buyurmuşdur.[543]

Acımadan yeməməli, yeyərkən də çox yeyilməməməlidir. Doymadan süfrədən qalxılmalı, süfrə başında boş yerə gülüşülməməlidir. Cənabi Peyğəmbərimiz; "Yaxşılıqların başı aclıqdır, pisliklərin başı isə toxluqdur" buyurardı. Yeməyin dadı aclığın çoxluğu qədər artar. Toxluq, yaddaşsızlığa aparıb çıxardar, ürəyi kor edər, alkaqollu içgilər kimi qanı pozar. Aclıq isə zehni təmizləyər, qəlbi parıldadar.

Fasiqlərlə, pis adamlarla birlikdə bir süfrədə oturulmamalıdır. İsti yeməklər ağzı örtülərək soyudmalıdır. Rəsulullah; "Sağ əllə yeyin. Sağ əllə için" buyurardı.[544] Peyğəmbərimiz, çörəyi sağ əllə götürər, sonra qarpızı sol əli ilə yeyərdi. Çörək bir əllə deyil, iki əllə kəsilməlidir.

---

[543] İbn Sə'd, *ət-Təbəqat*, I, 381; Qazı İyaz, *Şifayi Şərif*, s. 86.

[544] Müslim, "Əşribə", 142; Əbu Davud, "Ətimə", 20; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, II, 8, 33; Beyhəqi, *əs-Sünən*, II, 43; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 315.

Loxma kiçik olmalı və yaxşı çeynənməlidir. Sağa, sola, havaya baxmamalı, loxmaya və qabağa baxılmalıdır. Ağız çox açılmamalıdır. Süfrədə əl üst-başa sürtülməməlidir. Öskürüləcəyi və asqırılacağı zaman, baş arxaya tutulmalıdır.

Çağrılmayan süfrədə oturulmamalıdır. Süfrədə hamıdan çox yeyilməməlidir. Qarın doyunca, bunu günah iş görmək yolunda istifadə etməmək üçün dua edilməlidir. Bunun qiyamətdəki hesabı düşünülməlidir. İbadət etməyə güc qazanmaq niyyəti ilə yemək yeyilməlidir. Ac ikən də, yavaş-yavaş yeyilməlidir. Yeməyə əvvəlcə böyüklər başlamalıdır. Üç dəfədən artıq "ye" deyərək heç kimə məcbur edilməməlidir. Birlikdə yemək yediyi zaman, qonaqlar doymadan, ev sahibi yeməkdən əl çəkməməlidir.

Rəsulullah az yeyər, çox yeməməyi tövsiyə edərdi.

"İnsan ürəyi, tarladakı əkin kimidir. Yemək yağış kimidir. Çox su, əkini qurutduğu kimi, çox qida da ürəyi öldürər. Çox yeyəni və çox içəni Allah Təala sevməz" buyurardı.

Rəsulullah, mə'dənin üçdə birinin yeməyə, üçdə birinin içməyə ayrılmasını tövsiyə edərdi. Üçdə birinin nəfəs almaq üçün boş qalması minimum həddir. Ən yaxşı dərəcə az yemək və az yatmaqdır. Çox yemək xəstəliklərin başı, az yemək dərmanların başıdır. Bir nəfərlik yemək iki nəfərə çatar. Qonaq, ev sahibindən duz-çörəkdən başqa bir şey gözləməməlidir. Ev sahibi qonağa çörək təklif etməli, əlinə su tökməlidir.

Xəlifə Harun Ərrəşid, qonağının əlinə kuzə ilə su tökərdi. Qonağa xoşuna gələn yeməklərdən verilməlidir. Təmiz yerə düşürdülən loxma götürülüb qonağa verilməlidir. Kirlənmiş yerə düşən loxma isə, it-pişiyə atılmalıdır. Belə evin bərəkəti artar. Bu bərəkət nəvələrinə belə çatar. Yerə düşən loxmalar yığılmasa onları şeytan yeyər. Qabın dibini sıyırıb, yemək sünnətdir. Kompot və ayran kimi içgilərin dibində qalan hissəsinə su tökərək çalxalayıb içmək çox savabdır. Boşqabın, stəkanın dibində artıq qalması caizdir. Rəsulullah mö'minin artığını yeməsini sevərdi.

Yeməkdən sonra dişləri misvaqla vəya bir çöplə təmizləmək Rəsulullahın sünnətidir. Bu bir təmizliktir. Təmizlik də imanı artırar. Yeməkdən sonra ev sahibinə bərəkət, rəhmət və məğfirətlə dua edilər. Sonra, getməyə icazə istənilər. Yeməyə də'vət edilər.

Yemək əsnasında qorxunc və iyrənc şeylərdən danışılmamalıdır. Ölümdən, xəstəlikdən bəhs edilməməlidir. Süfrəyə gələn yeməklərə baxılmamalıdır. Bir loxma

udulmadan qabaq, ikinci loxma ələ götürülməməlidir. Yemək əsnasında bir şey üçün, hətta namaz üçün, süfrədən durulmamalıdır. Namaz yeməkdən əvvəl qılınmalıdır.

Əgər, hazırlanmış yeməklər soyuyub xarab olacaqsa və yeməkdən sonra nazmaz qılmaq daha əlverişliysə, yemək namazdan qabaq yeyilməlidir. Yemək yığışdırıldıqdan sonra, süfrədən əl çəkilməlidir. Yolüstü, ayaqüstü, yol gedə-gedə yemək yeyilməməlidir.

Ağzından, əlindən ət vəya yemək iyi gələrkən yatılmamalıdır. Uşaqların əlləri də yuyulmalıdır. Tox ikən yatılmamalıdır. Qida maddələrini, ehtiyac olduğu qədər çəkərək götürməli, çəkməyərək çox götürülməməlidir. Yoxsa israf olar. Yemək və içgi qablarının ağzı qapaqlı olmalıdır. Çaydan, hovuzdan əyilib, ağız ilə içilməməlidir. Kuzə vəya səhəng ağzından da içilməməlidir. Fincanın, stəkanın qırıq yerindən içilməməlidir.

Yaz vaxtı sərin içilməlidir. Rəsulullah sərin şərbət içməyi sevərdi. Zəmzəm ayaqüstü içilə bilər. Yolçuya, hər suyun ayaqüstü içilməsinin caiz olduğunu demişlər. Ac qarına su içilməməlidir. Su yavaş-yavaş qurtumlayaraq içilməlidir.

Rəsullah hədiy yeməyini sevərdi. Hərisə, yəni keşkək bişirməyi, Cənabi Peyğəmbərimizə Cəbrayıl əleyhissalam öyrətmişdi. Hərisə, insanı çox gücləndirər. Bütün peyğəmbərlər arpa çörəyi yemişdir. Rəsulullah balqabaqdan düzəldilmiş şirniyyatı, mərcimək şorabasını, ov ətini və qoyun ətini sevərdi. Qoyunun qol, sinə və kürək tərəfi xoşuna gələrdi. Oğlağın kürək ətini çox sevərdi. Oğlaq ətinin həzm edilməsi asan və hamı üçün münasibdir.[545]

Erkək heyvan əti, dişi heyvan ətindən, dana-quzu əti də quş ətindən daha asan həzmə gedir. Həzmin asan olması və ləzzəti cəhətiylə qoyunun əti, inəyin isə südü daha yaxşıdır. Ov ətlərinin ən yaxşısı ceyran ətidir. Dovşan əti də halaldır. Peyğəmbərimiz də yemişdir. Dovşan əti faydalıdır, amma çox yeyildikdə yuxusuzluq verər. Hər kəs üçün münasibdur. Quş vəya çolpa əti də hamı üçün yaxşıdır. Ev heyvanlarından ən yaxşı toyuğun ətidir.

Peyğəmbərimiz; “Sirkə, nə gözəl yeməkdir” buyurmuşdur. Sirkə, ən faydalı yeməkdir. Xurma da yeməyin bir növüdür. Yəni xurma da çörəklə yeyilir. Üzüm, həm yeməkdir, həm də meyvədir. Üzümü çörəklə yemək sünnətdir. Xurmanı yavan yemək sünnətdir.

---

[545] Tirmizi, *Şəmaili Şərif*, s. 188.

Quru üzüm, qoz və badam yemək sünnətdir. Balda şəfa vardır. Yetmiş peyğəmbər bala bərəkətli olması üçün dua etmişdir. Rəsulullahın xurmadan çox xoşu gələrdi. Xurma ilə qovun və qarpızı bir yerdə yeyərdi. Qovun və qarpız böyrəkləri təmizləyər, baş ağrısını sağaldar. Mə'dədəki qurdları düşürdər. Gözlərə qüvvət verər. Rəsulullah sərin şərbətləri çox sevərdi. Plov yeyərkən salavati şərifə oxunmalıdır.

Cənabi Peyğəmbərimiz, paxlanı qabığıqarışıq yeməyi məsləhət görmüşdür. Həbbətussevda, yəni qara çörəkotu xəstəliklərə çarədir, buyurmuşdur. Qozu pendirlə yemək faydalıdır. Bunları yavan yemək zərərlidir. Bir şey ilə birlikdə yeyilməlidir. Üzümün toxumu da zərərlidir. Rəsulullah, üzüm salxımını sol əlinə götürər, üzümü sağ əllə yeyərdi.[546] Heyva ürəyə xeyirlidir. Hər qovun, qarpız və narda bir damcı Cənnət suyu vardır. Narın bir damcısını da yerə düşürtmədən yeyilməlidir. Nar, ürək döyüntülərini tənzimləyir. Mə'dəni qüvvətləndirir. Qabığıyla birlikdə sıxılıb suyu içilsə, ödə xeyirlidir və qəbizliyi sağaldar. Əncir, ürəyi fərəhləndirir. Qulunca, mə'də-bağırsaq sancılarına faydalıdır.

Yaşıl xiyarı duzla yemək, qozu xurma və balla yemək Rəsulullahın sünnətidir.[547] Peyğəmbərimiz zeytun yağında bişirilmiş badımcanı da tövsiyə etmişdir. Pərpətöyünü də tövsiyə etmişdir. Kərəvizin yaddaşın güclənməsinə xeyri vardır. Qan və süd artırar. Qara ciyəri təmizləyər. Harşəf, yəni ənginar öd daşını əridər, qanı təmizləyər, damar sərtliyinə faydalıdır. Tər iyini də yox edər.

Bir yerə təzə gələn adamın, əvvəlcə bir az çiy soğan yeməsi sağlamlıq üçün yaxşıdır. Soğan, mikroblara qarşı müqavimət gücünü artırır. Soğandan sonra kərəviz yeyilərsə, soğanın pis iyini yox edər. Üzərlik yeməklə də soğanın iyinin yox olduğunu demişlər. Rəsulullahın ən axırıncı yediyi yeməyin içində soğan vardı. O; "Soğan və sarımsağı bişirərək yeyin", buyurardı. Bunların iyindən mələklər narahat olar. Turp, idrar gətirici, həm də həzmi asanlaşdırıcıdır.

## Rəsulullahın evdəki və çöldəki davranışları

Həzrəti Hüseyin belə nəql etmişdir; "Cənabi Peyğəmbərimizin evdə olarkən nə ilə məşğul olduğu barəsində atamdan soruşdum. Atam belə cavab verdi ki; "Cənabi

546 Qəzzali, *İhya*, II, 884.
547 Qəzzali, *İhya*, II, 884.

Peyğəmbərimiz evinə girişindən e'tibarən vaxtını Allaha ibadət etməyə, ailəsi ilə maraqlanmağa və öz şəxsi işlərini görməyə ayırmışdı.

Özü üçün ayırdığı vaxtın bir hissəsini də insanlarla keçirtməyə sərf edərdi. O vaxtda, Onun yanına ancaq seçgin səhabiləri girərdi. Xalqa dini məsələləri, onlar vasitəsiylə çatdırar, xalqı maraqlandıran hər şey izah edərdi.

Cənabi Peyğəmbərimizin ümmətinə ayırdığı vaxtını, fəzlət sahiblərini dindəki üstünlük dərəcələrinə görə bölüşdürüb, ona görə hüzuruna çağırmaq şəklində tənzimləyərdi. Onlardan bəzilərinin bir istəyi, bəzilərinin iki istəyi, bəzilərinin də daha çox istəyi vardı.

Cənabi Peyğəmbərimiz, onların dini məsələləriylə məşğul olar, suallarına lazımi cavablar verər, sonra da; "Bu dediklərimi burdakılar, burda olmayanlara çatdırsın! Mənə bilavasitə özü gəlib öz istəyini deyə bilməyən adamın istəyini siz mənə çatdırın. Heç bir şübhə yoxdur ki, Allah istəyini gəlib deyə bilməyən adamın istəyini mənə çatdıran adamın qiyamət günündə Sirat körpüsündə sabit tutar!" buyurardı.

Cənabi Peyğəmbərimizin yanında bundan başqa bir şey deyilməz, dilə gətirilməzdi. Onsuz da, özü də heç kimdən, bundan başqa bir şeyi qəbul etməzdi.

Cənabi Peyğəmbərimizin hüzuruna gələnlər, tələbə olaraq girər, ən böyük elm zövqünü dadaraq, insanlara rəhbər olaraq çıxardılar!".

Həzrəti Hüseyin atasından, Cənabi Peyğəmbərimizin evdən çıxdıqdan sonra, çöldəki məşğuliyyətini də soruşmuşdu. Bunları da belə nəql etmişdir ki; "Kainatın sahibi, çöldə danışmazdı. Ancaq, müsəlmanlar üçün faydalı olacaqsa, onları bir-birilərinə yaxınlaşdıracaqsa, aralarındakı təfriqəni, soyuqluğu yox edəcəksə danışardı.

Hər qövmün başda gələnlərinə yaxşı davranar və onları öz qövmlərinin başına vali tə'yin edərdi. [548] Xalqı çəkindirər və onlardan da çəkinərdi. Heç kimdən gülərüzlülüyünü və gözəl xasiyyətini əsirgəməzdi.

Əshabını görməsə axtarar, camaatdan da dolanışıqlarını xəbər alardı. Yaxşılığa təşviq edər, pislikdən isə əl çəkməyi məsləhət görərdi. Özü də hər bir işini sağlam görərdi. Birdən səhv yola düşəcəklərini fikirləşib müsəlmanları həmişə diqqətli olmağa çalışardı.

---

[548] İbn Hişam, *əs-Sirə*, II, 254; Vaqidi, *əl-Məğazi*, III, 925; İbn Sə'd, *ət-Təbəqat*, I, 262; Təbəri, *Tarix*, II, 289; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, III, 697; Suheyli, *ər-Rövzul-Unf*, IV, 364.

Rəsulullahın ibadət və itaət etmək üçün böyük bir bacarığı vardı. O, bir işi nə həddən artıq çox görər, nə də əksik yerinə yetirərdi. Onun yaxınlığındakılar da insanların ən xeyirliləri idilər.

Onun nəzdində Əshabının ən üstünü öyüd-nəsihət edənlər və ən uca mərtəbəyə malik olanlar da möhtaclara yardım və yaxşılıq edənlər idi. Kainatın sahibi, Allahı zikr etməsə nə oturar, nə də qalxardı.

Məclisdə hər hansı bir yeri özü üçün ayırmaz, belə etməkdən də çəkindirərdi. Harda olsa da olsun, oturan bir camaatın yanına gəldiyi zaman baş tərəfə keçməz, məclisin ayağında oturar və müsəlmanlara da belə etmələrini əmr edərdi.

Onunla bir yerdə oturan hər kəsə nəzakət göstərərək elə ikram edərdi ki, hamı Rəsulullahın yanında özsündən daha dəyərli heç kimin olmadığını zənn edərdi. Onunla oturan vəya gəlib öz problemini danışan hər adamın hər sözünə, çıxıb gedincəyə qədər qulaq asardı.[549]

Bir nəfər Ondan bir şey istəsə, onu rədd etməyib verər yaxud şirin və yumuşaq dillə yox deyərdi. Onun gözəl əxlaqı, bütün insanlara geniş bir şəkildə tə'sir edərdi.

Onlara şəfqətli bir ata olmuşdu. Haqq barəsində hamı Onun nəzdində bərabər idi. Cənabi Peyğəmbərimizin məclisi bir elm, həya, səbr və əmanət məclisi idi.

Məclisində nə səs-küy çıxardılar, nə heç kim günahlandırılar, nə də hər hansı bir qüsur vəya səhv üzə vurulardı. Kainatın sahibinin məclisində iştirak edənlər bir-birilərinin tayı olub, bir-birilərinə qarşı üstünlükləri təkcə təqva cəhətiylə idi. Hamısı da təvazökar idilər. Böyüklərə hörmət edər, kiçiklərə şəfqət və mərhəmət göstərər, ehtiyac sahiblərinin problemlərini həll etməyə çalışar, qərib və yolda qalanları qoruyar və daldalandırardılar.

Cənabi Peyğəmbərimiz həmişə gülər üzlü, yumuşaq xasiyyətli idi. Daşürəkli deyil, çox bağışlayan və yazığı gələn birisiydi.

Heç kimlə mübahisə etməzdi. Qət'iyyən qışqırıb-bağırmaz, pis söz danışmazdı. Heç kimin ayıbını üzə vurmazdı. Xəsis deyildi. Xoşu gəlmədiyi şeyi açıq şəkildə deməz, qarşısındakı adamı ümidsizliyə salmaz, bir şey barəsindəki xoşnudsuzluğunu bildirməzdi.

Rəsulullah üç şeydən uzaq gəzərdi;

İnsanlarla mübahisə etməkdən,

---

[549] Qəzzali, *İhya*, II, 880.

Çox danışmaqdan,

Faydasız, boş şeylərlə məşğul olmaqdan.

İnsanların işlərinə də üç mövzuda qarışmazdı;

Heç kimi nə üzünə, nə də arxasınca qınamaz, ayıbını üzə vurmazdı.

Heç kimin ayıb və qüsurunu üzə çıxartmazdı.

Heç kimə, haqqında savab və xeyirli olmayan söz deməzdi.

Cənabi Peyğəmbərimiz danışarkən hüzurunda olanlar, başlarına quş qonmuş kimi, səssiz və hərəkətsiz dayanar, sözünü qurtarıb susunca, özləri danışar, ancaq Onun yanında əsla mübahisə etməzdilər.

Cənabi Peyğəmbərimizin yanında birisi danışarkən, digərləri susardılar. Cənabi Peyğəmbərimizin yanında ən sonrakının sözü ilə ən əvvəlkinin sözü arasında bir fərq yox idi.

Məclisində iştirak edənlər bir şeyə gülsələr, O da onlarla birlikdə gülər, bir şeyə təəccüb etsələr, O da onlarla birlikdə təəccüb edərdi.

Hüzuruna gələn qəriblərin, yolda qalanların sözlərində və suallarındakı kobudluğa Əshabı da, Onun kimi davransınlar deyə dözərdi.

“Bir problemi olan adamın, gəlib kömək istədiyində, problemini həll etməsi üçün ona kömək edin!” buyurardı.

Həqiqətə uyğun gəlməyən tərifi qəbul etməzdi. Haqqı dediyi müddətdə heç kimin sözünü kəsməzdi. Haqqı tapdaladığı zaman da, ya ona mane olaraq sözünü kəsər yaxud məclisdən çıxıb gedərdi. Kainatın sahibinin susmağı dörd şey; helm, həzər, təqdir və təfəkkür barəsində idi.

Təqdir, insanlara bərabər səviyyədə baxış və dinləyişdə, təfəkkür, dünya və axirət işlərini düşünməsində gözə dəyərdi. Helm və səbr də Onda kifayət qədər vardı. Dünyaya aid heç bir şey onu hirsləndirməzdi.

Hazər isə Onda dörd xisləti toplamışdı; Ən yaxşısını götürər, çirkin olan şeyləri isə rədd edərdi. Öz fikrini ümmətinin xeyrinə olan şeylərdə xərcləyərdi. Himmətini ümmətinin dünya və axirət xoşbəxtliklərini tə’min edən şeylərdə istifadə edərdi.

Kainatın sahibinin hər hansı bir şey üçün “Xeyr!” dediyi olmazdı. Etmək istədiyi bir şey ondan istənildiyi vaxt “Olar!” buyurar, etmək istəmədiyi bir şey istənilincə, susar, onu etmək istəmədiyi bu susqunluğundan başa düşülərdi.

Hamının dünya və axirət səadəti üçün çalışardı. Bir qəzvədə, kafirlərin məhv olması üçün dua etməsi istənildiyində, “Mən lə’nət etmək üçün, insanların əzab çəkməsi üçün göndərilmədim. Mən hamıya yaxşılıq etmək üçün, insanların hüzura qovuşması üçün göndərildim” buyurmuşdu.

Ənbiya surəsinin 107-ci ayəsinin məalında, “Səni aləmlərə rəhmət, yaxşılıq üçün göndərdik” buyurulmuşdur. Buna görə O, hamının yaxşılığı üçün çalışardı.

Hind ibn Əbi Halə Cənabi Peyğəmbərimizin yerişini belə nəql etmişdir ki; “Kainatın sahibi, yeriyərkən ayaqlarını yerdən düz qaldırar, basa-basa getməz, adımlarını iri atar, sanki enişdən enən kimi qabağa tərəf əyilər, sakit və rahat bir şəkildə yeriyərdi.

Baxmaq istədiyi, baxacağı tərəfə tam dönərək baxardı.

Ətrafına necə gəldi baxmazdı.

Yer üzünə baxışı, səmaya baxışından uzundu.

Yer üzünə də göz ucuyla baxardı.

Yeriyərkən, Səhabilərinin arxasınca yeriyərdi.

Birisiylə üzbəüz gəldiyi zaman, əvvəlcə özü salam verərdi”.

Əbu Hüreyrə Həzrətləri də belə nəql etmişdir ki; “Kainatın sahibindən daha sür’ətli yeriyən heç kimi görmədim. Yeriyərkən yer üzü sanki Onun ayağının altında bükülürdü! Biz, Ona çatmaq üçün özümüzü çox sıxar, Kainatın sahibi isə yeriyərkən çox rahat yeriyərdi”.[550]

Ənəs ibn Malikin nəql etdiyinə görə, Cənabi Peyğəmbərimiz biriylə üzbəüz gəldiyi zaman müsafəhə edər, o adam əlini çəkmədikcə, Cənabi Peyğəmbərimiz də əlini çəkməz, o adam üzünü çevirmədikcə, Cənabi Peyğəmbərimiz də ondan üzünü çevirməzdi. (Müsafəhə, iki nəfərin üzbəüz gəlincə, əl-ələ görüşüb bir-birilərinin üzlərinə baxışmaları deməkdir).

Ənəs ibn Malik Həzrətləri yenə belə nəql etmişdir ki; “Rəsulullaha, “Ya Rəsulullah! Bəzilərimiz, bəzlərimizə baş əysin?” deyə soruşduq. O; “Xeyr!” buyurdu. Biz; “Bəzilərimiz, bəzilərimizlə qucaqlaşsın?” deyə soruşduq. O; “Xeyr! Ancaq, müsafəhə edin!” buyurdu.[551]

---

[550] Tirmizi, “Mənaqib”, 12; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, II, 350; İbn Sə’d, *ət-Təbəqat*, I, 380; İbn Əsakir, *Tarixu Dəməşq*, III, 267; Bəğavi, *əl-Ənvar*, I, 352; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 282.

[551] İbn Macə, “Ədəb”, 15; Əbu Ya’la, *əl-Müsnəd*, IV, 197.

Bəra ibn Azib də, Cənabi Peyğəmbərimizin; "İki müsəlman üzbəüz gəlib salamlaşar və müsafəhə etsələr, onlar hələ bir-birilərindən ayrılıb uzaqlaşmadan qabaq bağışlanarlar!" buyurduğunu nəql etmişdir.

Kainatın sahibi həmişə fikirli idi. Onun susmağı, danışığından daha uzun çəkərdi. Rəsulullah boş yerə danışmazdı. Sözə başlayarkən də, sözü bitirərkən də Allahın adını çəkərdi.

Danışarkən, qısa və konkret kəlmələrlə danışardı. Rəsulullah sözləri həmişə doğru və yerində deyərdi. Rəsulullah danışarkən nə çox, nə də az sözdən istifadə edərdi.

Heç kimiin xətrinə dəyməz, heç kimi xor görməzdi. Ən xırda ne'mətə belə şükr edər, heç bir ne'məti kiçik görməzdi. Bir ne'məti nə xoşuna gəldiyi üçün tə'rifləyər, nə də xoşlanmadığı üçün pisləyərdi.

Rəsulullah dünya üçün, dünya işləri üçün hirslənməzdi. Ancaq, bir haqq tapdalanmaq istənildiyi zaman, haqqı yerinə qoyuncaya qədər heç bir şey Onun hirsini soyutmazdı.

Özü üçün əsla hirslənməz və qisas almazdı. Bir şeyə işarə edəcəyi zaman barmağıyla deyil, bütün əliylə işarə edərdi. Təəccübləndiyində, əgər əli aşağıysa yuxarı, yuxarıysa da aşağı çevirərdi. Əl-qol hərəkətləriylə danışar, sağ əlinin ovucunu, sol əlinin baş barmağının içinə vurardı. Hirsləndiyi zaman hirsini açıb-ağartmazdı.

Güldüyü, fərəhləndiyi zaman gözlərini yumardı. Ən çox gülümsəyərək gülərdi. Gülümsəyərkən də ağzındakı dişləri inci kimi görünərdi.[552]

Əbu Səid əl-Xudri Həzrətləri belə nəql etmişdir ki; "Rəsulullah heyvana ot verər, dəvəni bağlayar, evini süpürər, qoyunun südünü sağardı. Ayaqqabısını tə'mir edər, paltarlarını yuyardı.[553] Qulluqçusuyla birlikdə yemək yeyərdi. Qulluqçusu əl dəyirmanı ilə məşğul olarkən yorulunca, ona kömək edərdi. Bazardan şey-şüy alıb bir torbaya qoyaraq evə gətirərdi. Kasıbla, varlıyla, böyüklə, kiçiklə üzbəüz gəlincə əvvəlcə özü salam verərdi. Bunlarla müsafəhə etmək üçün mubarək əlini onlardan qabaq uzadardı.

Kölə, ağa, qara dərili və ağ dərili arasında fərq görməzdi. Hər kim olsa da olsun, çağrılan yerə gedərdi. Qabağına qoyulan şeyi, az olsa da üzə vurmazdı. Yaxşılıq etməyi sevərdi. Hamıya yaxşı davranardı. Gülər üzlü, şirin sözlü idi. Danışarkən

[552] Qazı İyaz, *Şifayi Şərif*, s. 132; Suyuti, *Əvsafun-Nəbi*, s. 85.
[553] Tirmizi, *Şəmaili Şərif*, s. 343; Qəzzali, *İhya*, II, 877.

gülməzdi. Kədərli görünərdi. Ancaq, qaşlarını da düyünləməzdi. Təvazökar idi. Görənlərdə hörmət ve ehtiram hisslərini oyadan heybətə malik idi. Ancaq, kobud deyildi. Zərif və əliaçıq idi. Ancaq, israf etməz, boş yerə bir şey verməzdi. Hamıya yazığı gələr, heç kimdən bir şey gözləməzdi. Səadət, hüzur istəyən, Onun kimi olmalıdır.

Hər bir müsəlman Rəsulullahın bu davranışlarından nümunə götürməlidir. Allah Təalanın əxlaqı ilə əxlaqlanmaq hər müsəlmana lazımdır. Çünki, Rəsulullah; "Allah Təalanın əxlaqı ilə əxlaqlanın!" buyurmuşdur.

Allah Təalanın vəsflərindən biri də Səttar, yəni günahları örtəndir. Müsəlmanın da din qardaşının ayıbını, qüsurunu örtməsi lazımdır. Allahu Təala, qullarının günahlarını bağışlayandır. Müsəlmanlar da, bir-birilərinin qüsurlarını, qəbahətlərini bağışlamalıdırlar. Allah Təala Kərimdir, Rəhimdir. Yəni, lütfü, ehsanı boldur və mərhəməti çoxdur. Müsəlmanın əliaçıq və mərhəmətli olması lazımdır. Bütün gözəl əxlaqlar da belədir.

Rəsul əleyhissalamın gözəl əxlaqı həddən artıq çoxdur. Hər müsəlmanın bunları bilməsi və belə əxlaqlanması lazımdır. Beləcə, dünya və axirətdə fəlakətlərdən və çətinliklərdən xilas olmaq, O iki cahanın sahibinin şəfaətinə qovuşmaq nəsib olar.

## Rəsulullahın geyindiyi paltarlar

Cənabi Peyğəmbərimizin bir ədəd xıbərə paltarı vardı. Xıbərə, pambıq və kətandan toxunan naxışlı Yəmən parçasına deyilir. Peyğəmbərimiz, xıbərə paltarını geyməyi çox sevərdi.

Peyğəmbərimizin bir də Omanda tikilmiş iki izarı vardı. Beldən aşağı hissəyə bağlanan dəsmal və qətfəyə izar deyilir. Peyğəmbərimizin yundan toxunmuş, üstündə dəvə yəhərinə bənzəyən naxışları olan izar kimi bir dəsmalı da vardı. O, bununla bəzən çölə də çıxardı.

Əbu Burdə belə nəql etmişdir ki; "Ziyarətinə getdiyimiz zaman Həzrəti Aişə, bizə Muləbbədə deyə bilinən süzülmüş, köhnəlmiş bir paltarla, Yəməndə tikilən qalın

bir izar çıxardıb and içərək; “Rəsulullah əleyhissalam vəfat etdiyində əynində bu paltarlar vardı” dedi.[554]

Peyğəmbərimiz soyuq qış gecələrində namazlarını da nə çox sərt, nə də çox yumuşaq ipdən toxunan yun bir dəsmala bürünərək qılardı.

Peyğəmbərimiz, kişilərin bellərinə bağladıqları izarı, ancaq ayağın yarısına, yumuşaq ətinə və bir az da aşağısına qədər uzada biləcəklərini, ancaq topuqlara qədər uzada bilməyəcəklərini əmr etmişdi.

Lovğalanmaq məqsədiylə izarlarını yerlə sürüyənlərə, qiyamət günündə uca Allahın rəhmət nəzəriylə baxmayacağını da xəbər vermiş, Cabir ibn Süleymə də; “İzarını, ayağının yarısına qədər qaldır! Belə edə bilməsən, barı topuqlarına qədər uzat! Yerlə sürünəcək qədər uzatmaqdan çəkin! Çünki, bu lovğalıq əlamətidir. Allah isə lovğalanmağı sevməz!” buyurmuşdur.[555]

Bunun üçün Abdullah ibn Ömər izarını ayaqlarının yarısına qədər uzadar, köynəyini onun üstünə, ridasını[556] da köynəyinin üstünə atardı.

Peyğəmbərimizin hey’ətlər gələndə geyindiyi Hadrami ridasının uzunluğu dörd arşın, eni iki arşın bir qarış, qiyməti də bir dinar idi. Rəngi də yaşıldı.

Peyğəmbərimizin bu ridası, xəlifələr dövründə bükülüb bir boxça içində xəlifələrin yanında saxlanardı. Xəlifələr, Ramazan və Qurban bayramlarında onu geyinərdilər.

Peyğəmbərimizin Suharda tikilən iki ədəd paltarı da vardı. Suhar, Omanda bir qəsəbədir. Peyğəmbərimizin Suharda tikilən bir köynəyi də vardı. Suhar qəsəbəsində tikilən qaftan, Suhari deyə bilinirdi. Peyğəmbərimizin ən çox sevdiyi paltar, qamis (qaftan) idi. Qamis, sırf pambıq ipliyi ilə toxunmuş bezdən tikilən köynəyə deyilir. Peyğəmbərimizin qaftanlarının uzunluğu biləyə qədər çatardı. Həbəş Nəcaşisinin Peyğəmbərimizə göndərdiyi hədiyyələr arasında bir də qaftan vardı.

Cənabi Peyğəmbərimizin, təkqat pambıq ipliyindən toxunmuş bezdən tikillmiş köynəyi vardı. Suhul, Yəmən kəndlərindən biri olub, orda təkqat pambıq ipliyindən

---

[554] Müslim, “Libas”, 57; Əbu Davud: ‘Libas’; 7; İbn Macə, “Libas”, 1; İbn Əbi Şeybə, *əl-Musannəf*, V, 174; İbn Sə’d, *ət-Təbəqat*, I, 453; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 326; Suyuti, *Əvsafun-Nəbi*, s. 78.

[555] Əbu Davud, “Libas”, 27; Beyhəqi, *əs-Sünən*, II, 325; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 321; Suyuti, *Əvsafun-Nəbi*, s. 78.

[556] Bir növ geyim.

toxunmuş bezdən tikilən paltarlara Suhuliyyə deyilərdi. Həbəş Nəcaşisinin Peyğəmbərimizə göndərdiyi hədiyyələr arasında bir də paltar vardı.

Peyğəmbərimizin ağ bir paltarı da vardı. Rəsulullah; "Ağ paltarlar geyinin! Diriləriniz ağ paltar geyinsin. Ölülərinizi də ağ kəfənə bükün! Çünki, o, xeyirli və yaxşı bir geyimdir!" buyurmuşdur.[557]

Peyğəmbərimiz bəzən də yaşıl paltar geyərdi. Əbu Rimsə Peyğəmbərimizin üst-üstə iki yaşıl paltar geyindiyini gördüyünü söyləmişdir.[558]

Peyğəmbərimiz, qırmızı Hullə də geyərdi. Bəra ibn Azib; "Qırmızı Hulləyə bürünmüş, saçları qulaqlarının yumuşağına qədər çatanlar arasında Rəsulullah əleyhissalamdan daha yaraşıqlı heç kimi görmədim!" demişdir.[559] Peyğəmbərimizin Cümə günündə və bayramlarda əyninə geydiyi qırmızı bir cübbəsi vardı. Peyğəmbərimizin bir dənə Yəməndə tikilmiş cübbəsi də vardı. Peyğəmbərimiz, qollarının ağzı dar dar olan Şamda toxunan bu cübbəni səfərlərdə geyərdi.

Peyğəmbərimiz, İran şahlarının geydikləri təyləsan parçasından tikilmiş, yaxasında atlasdan bir parça, ətəyinin qabaq və arxadakı açıq tərəflərində və qollarının üstündə atlasdan bir kant olan bu cübbəni də döyüşlərdə düşmənlərlə qarşılaşdığı ərəfələrdə geyərdi.

Həzrəti Aişənin vəfatına qədər yanında qalan bu cübbəni, ondan sonra Əsma bint Əbi Bəkir almışdı. Peyğəmbərimizin geydiyi bu cübbənin yuyulduğu suyla xəstələr yuyunar və şəfa tapardı.[560]

Dumətulcəndəl Hakimi Ukeydirin öldürülən qardaşı Hassanın, əyirilmiş ipəkdən toxunmuş atlas parçadan tikilmiş, naxışlarında qızıl simlə xurma liflərindən istifadə edilmiş cübbəsi Peyğəmbərimizə göndərilmişdi.

Peyğəmbərimiz bu cübbəni geyərək minbərə çıxıb oturdu, heç danışmadan da minbərdən düşdü. Müsəlmanlar əllərini o cübbəyə sürtüb heyranlıqla baxdılar.

Peyğəmbərimiz; "Siz, bunun qəşəngliyinə heyran qalmısınız? Bu, çox xoşunuza gəldi?" deyə soruşdu. Onlar da; "Biz, bundan daha gözəl bir paltar görmədik!" dedilər.

---

[557] İbn Sə'd, *ət-Təbəqat*, I, 449.
[558] Tirmizi, "Ədəb", 48; İbn Sə'd, *ət-Təbəqat*, I, 450; Tirmizi, *Şəmaili Şərif*, s. 97; Əbu Nuaym, *Hilyətul-Övliya*, IX, 40.
[559] İbn Sə'd, *ət-Təbəqat*, I, 450.
[560] Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 327.

Peyğəmbərimiz; “Varlığım, qüdrət əlində olan Allaha and içirəm ki, Sə’d ibn Muazın Cənnətdəki dəsmalları, gördüyünüz şeydən daha qəşəng və xoşdur!” buyurdu.

Peyğəmbərimiz, özünə hədiyyə edilən atlas bir qaftanı geyinib namaz qıldı. Namazdan qayıdan kimi, ondan acığı gələn kimi əynindən çıxartdı və; “Bu, müttəqilərə yaraşmaz!” buyurdu. Paltarı Həzrəti Ömərə göndərdi. Ordakılar; “Ya Rəsulallah! Niyə paltarı çıxardarkən tələm-tələsik çıxartdınız?” deyə soruşdular.

Peyğəmbərimiz; “Cəbrayıl, bunu geyinməyə qoymadı!” buyurdu. Həzrəti Ömər ağlayaraq yaxınlaşıb; “Ya Rəsulallah! Sən geyinmək istəmədiyin bir şeyi mənə verdin! Bunu mən necə geyərəm?” dedi.

Peyğəmbərimiz; “Mən onu, geyinməyin üçün deyil, satmağın üçün verdim” buyurdu. Bundan sonra Həzrəti Ömər bu qaftanı iki min dirhəmə satdı.

Bizans kralı Peyğəmbərimizə atlasdan, qızılla bəzədilmiş, uzun qollu bir kürk hədiyyə etmişdi. Peyğəmbərimiz onu geyincə, görənlər; “Ya Rəsulallah! Bu kürk sənə göydən endirildi?” dedilər.

Peyğəmbərimiz; “Çox xoşunuza gəldi? Varlığım qüdrət əlində olan Allaha and içirəm ki, Sə’d ibn Muazın Cənnətdəki dəsmallarından təkcə birisi bundan daha xeyirli və daha qəşəngdir!” buyurdu.

Sonra da o kürkü Həzrəti Cə’fər ibn Əbi Talıba göndərdi. Həzrəti Cə’fər kürkü geyincə, Peyğəmbərimiz; “Mən, bu kürkü geyməyin üçün göndərməmisdim!” buyurdu. Həzrəti Cə’fər; “Bəs onu nə edim?” deyə soruşdu. Peyğəmbərimiz; “Nəcaşiyə göndər!” buyurdu.

Peyğəmbərimizə, Siyəra deyilən ipək parçadan sarı rəngdə naxışları olan bir dəst paltar da hədiyyə edilmişdi. Peyğəmbərimiz bu paltarı da Həzrəti Əliyə göndərdi.

Həzrəti Əlinin bu paltarı geydiyini görüncə Peyğəmbərimizin üzündən əsəbləşdiyi hiss edildi və; “Mən onu, sənə geyməyin üçün göndərmədim. Qadınlara yaylıq kimi bağlamaları üçün bölüb verməyin üçün göndərdim” buyurdu.

Bundan sonra, Həzrəti Əli bu paltarı bölüb Əhli Beyt qadınları arasında paylaşdırdı.

Həbəş Nəcaşisinin Peyğəmbərimizə göndərdiyi hədiyyələr arasında Misirdə tikilmiş bir palto da vardı.

Peyğəmbərimiz bəzən qara rəngli bir palto da geyinərdi.

Həzrəti Aişə; “Rəsulullah əleyhissalam üçün qara rəngdə, yundan tikilmiş bir paltar hazırlanmışdı. O paltarı geyinib tərləyincə, yunun iyini hiss etdi. Dərhal onu əynindən çıxardıb bir yerə qoydu. Çünki, O, təkcə gözəl iydən xoşu gələrdi” demişdir.

Həzrəti Ömər bazarda, Məscidin qapısının qabağında satışa çıxardılan Siyəra, İstəbraq cinsindən bir dəst ipək paltar götürüb Peyğəmbərimiz üçün gətirdi və; “Ya Rəsulallah! Bəlkə bunu alıb Cümə günlərində, bayramlarda yanına gələn hey’ətlərin qabağına çıxarkən geyəsən?!” dedi.

Peyğəmbərimiz; “Bu, ancaq axirətdən bir payı olmayanların paltarıdır! Bunu, ancaq axirətdən bir payı olmayanlar geyər!” buyurdu. Sonra, özünün atlas parçadan tikilmiş bir Cübbəsini Həzrəti Ömərə göndərdi. Həzrəti Ömər, bu paltarı götürüb Peyğəmbərimizin yanına gəldi; “Ya Rəsulallah! Sənin “Bu, ancaq axirətdən bir payı olmayanların paltarıdır. Bunu, ancaq axirətdən bir payı olmayanlar geyər!” buyurduğunu eşitdim. Sonra da, onu mənə göndərdin!” dedi. Peyğəmbərimiz; “Bu paltarı satıb, puluyla bir problemini həll etməyin üçün sənə göndərdim. Yoxsa, geyməyin üçün göndərmədim!” buyurdu.

Peyğəmbərimiz; “Şöhrət və göstəriş üçün paltar geyən hər birindən, o paltarı çıxardıncaya qədər Allah üz döndərər!”, “Qiyamət günündə ona zillət paltarı geyindirər!”, “Şöhrət və göstəriş üçün paltar geyən adama qiyamət günündə, Allah eyni paltarın oxşarını geyindirər, sonra da onu yandırar!” buyurmuşdur.

Bürdə, Yəməndə toxunmuş, naxışlı, xət-xət bir parça olub ehram kimi bədənə bürünülər. Əba və yapıncıya da bürdə deyilir. Səhl ibn Sə’d belə demişdir ki; “Bir qadın, özünün toxuduğu bir bürdəni Rəsulullah əleyhissalam üçün gətirərək; “Ya Rəsulallah! Bunu, öz əlimlə sənin üçün toxudum” dedi. Rəsulullah da, ehtiyacı olduğu üçün o bürdəni qəbul etdi. Rəsulullah bu bürdəni ordaca geyib yanımıza gəldi. Camaatdan biri əlini bürdəyə sürtüb; “Ya Rəsulallah! Bu bürdədən daha qəşəngi tapılmaz! Bunu mənə verərsən?” dedi. Rəsulullah da; “Niyə olmasın!” buyurdu.

Rəsulullah məclisdə bir az oturduqdan sonra evə getdi. Bürdeni büküb o adama göndərdi. Camaat; “Sən yaxşı iş görmədin! Rəsulullahın geydiyi və ehtiyacı olduğu bir şeyi Ondan istədin! Sən də yaxşı bilirsən ki, Rəsulullah əleyhissalam heç bir istəyi rədd etməz, dala qaytarmaz!” deyərək qınadılar.

O adam da; “Vallahi, mən bunu geyinmək üçün istəmədim. Ancaq, öldüyümdə kəfənim olması üçün istədim!” dedi.

Həqiqətən də o bürdə, öldüyü gün o adamın kəfəni oldu.[561]

## Kə'b ibn Zuheyrə verdiyi yapıncı

Rəsulullah Təbükdə, Eylə xalqına bir əman fərmanı yazıb verdiyi zaman, əman əlaməti olması üçün bir dənə də bürdə (yapıncı) vermişdi. Əbu Abbas Abdullah ibn Məhəmməd, bu bürdəni onlardan üç yüz dinara aldı. Abbas oğulları bu yapıncını atadan oğula miras olaraq verdilər.

Xəlifələr, bayram günlərində bu bürdəni geyinib Peyğəmbərimizə aid əsanı da götürərək çölə çıxdıqları zaman, ürəklər riqqətə gələr, gözlər qaralardı.

Məşhur Ərəb şairlərindən Kə'b ibn Zuheyr, bağışlanmaq və müsəlmanlığı qəbul etmək üçün Peyğəmbərimizin yanına gəlib, içində "Şübhə yoxdur ki, Rəsulullah doğru yolu göstərən bir Nur, pislikləri yox etmək üçün Allahın sıyrılmış iti qılınclarından biridir!" beyti də olan (Banət Suad) qəsidəsini oxuduğu zaman, Peyğəmbərimiz əynindəki bürdəsini (yapıncısını) çıxardıb ona geyindirmişdi.[562]

Həzrəti Muaviyə xəlifə olarkən Kə'b ibn Zuheyrə; "Rəsulullahın yapıncısını bizə sat!" deyə xəbər göndərərək on min dirhəm göndərdi.

Kə'b ibn Zuheyr; "Mən, Rəsulullahın yapıncısını geyinmək barəsində heç kimi özümdən üstün tutmaram!" deyərək Həzrəti Muaviyənin istəyini rədd etdi.

Kə'b ibn Zuheyr vəfat etdiyində Həzrəti Muaviyə o bürdəni Kə'bin oğullarından iyirmi min dirhəmə aldı. Peyğəmbərimizin Kə'b ibn Zuheyrə verdiyi bu mübarək yapıncı, xəlifədən xəlifəyə miras yoluyla keçdi. Əməvi səltənətının çöküşündən sonra isə, ilk Abbasi xəlifəsi Əbu Abbas Səffah ibn Abdullah ibn Məhəmməd tərəfindən üç yüz dinara alındı.

Bayramlarda xəlifələr tərəfindən geyildi. Xəlifə Muqtədirin öldürüldüğü zaman qanı bu bürdəyə bulaşaraq kirləndi. Abbasilər Misirə yerləşərkən də bu bürdəni özləriylə gətirdilər. Soltan Yavuz Səlim, Misiri alıb xəlifə olduğu zaman Misirdəki "Mübarək Əmanətlər" arasında bu mübarək yapıncı da İstanbula gətirildi.

İstanbulda "Topqapı Hırqayı Səadət Dairəsində" hər kəs tərəfindən ziyarət edilən bu mübarək yapıncının uzunluğu 1,24 santimetr olub, qolları gen, qara rəngdə

---

[561] İbn Macə, "Libas", 1; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, V, 333; İbn Sə'd, *ət-Təbəqat*, I, 454; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, VI, 169; Beyhəqi, *əs-Sünən*, II, 346.

[562] İbn Hişam, *əs-Sirə*, II, 514; Hakim, *əl-Müstədrək*, III, 673; Beyhəqi, *əs-Sünən*, I, 381; Suheyli, *ər-Rövzul-Unf*, IV, 33; İbn Kəsir, *əs-Sirə*, III, 708.

parçadan tikilmişdir. Yapıncının astarı, qaba toxunmuş krem rəngdə yun parçadandır. Qabağındakı sağ tərəfindən 0,23 x 0,30 böyüklüyündə bir hissəsi əksikdir. Sağ qolunda da əksiklik vardır. Yapıncının bəzi yerləri süzülmüşdür.

Bir neçə boxçanın içinə qoyulmuş bu bürdə 0,57 x 0,45 x 0,21 böyüklüyündə üstdən açılan qapaqlı qızıl bir çəkməcənin içindədir. Hırqayi Səadətin, Soltan III Murad tərəfindən düzəltdirilmiş eyni böyüklükdəki qızıldan bir boxçası da vardır. Bu boxça, çox qiymətli bir sənət əsəri olub, zümrüdlərlə də bəzədilmişdir.

Peyğəmbərimizin, zə'fəranla boyanmış bir örtüyü də vardı. Bu örtüyü xanımlarının evlərində örtərdi.

Xəmisə, dörd bucaqlı və iki tərəfi naxışlı qara əbaya deyilir. Peyğəmbərimiz, xəstələnməmişdən qabaq xəmisənin üstündə namaz qılardı.

Həzrəti Aişənin nəql etdiyinə görə Peyğəmbərimiz, bir gün xəmisənin üstündə namaz qılarkən gözü naxışa dəymiş, salam verib qurtarınca; "Bu xəmisəmi, Əbu Cəhmə verin. Çünki, bir az əvvəl mənim namaz qılmağıma mane oldu. Mənə, Ədiy ibn Kə'b oğıllarından Əbu Cəhm ibn Huzeyfə ibn Ğanimin ənbicaniyəsini gətirin!" buyurdu.

Əbu Cəhm; "Ya Rəsulallah! Nə üçün bunu mənə göndərdiniz?" deyə soruşunca, Peyğəmbərimiz; "Gözüm, namazda onun naxışına dəydi" buyurdu. Bu xəmisəni, Peyğəmbərimizə Əbu Cəhm hədiyyə etmişdi.

Şəhərdə yundan və naxışsız parçadan toxunan örtüyə Ənbicani deyilir. Peyğəmbərimizə, Xeybər qənimətlərindən pay düşən əşyalar arasında bir ədəd xəmisə də vardı.

Peyğəmbərimiz, nimdaş bir xəmisənin üstündə də namaz qılardı. Peyğəmbərimiz, xəstəliyi ağırlaşınca, bu xəmisəni tez-tez üstünə örtərdi. Xəmisə, Ona ağırlıq verdiyində də üstündən atar, üzünü açardı.[563]

Mədinə torpağı nəmli olduğu üçün bu xəmisə, Peyğəmbərimizin vəfatında qəbrinin üstünə sərilmişdi.

Bəni Dar hey'ətindən Hani ibn Həbib, hicrətin doqquzuncu ilində Mədinəyə gəldiyi zaman Peyğəmbərimizə çizgili bir paltar hədiyyə etmişdi. Peyğəmbərimiz bu paltarı əmisi Həzrəti Abbasa verdi. Həzrəti Abbas; "Bunu, nə edəcəyəm ki?" deyə soruşdu. Peyğəmbərimiz; "Qızılını çıxart, xanımına zinət, ya da dolanışığın üçün sat.

---

[563] Buxari, "Salat", 19; Əbu Davud, "Salat", 93; Darimi, "Salat", 101; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, I, 269; İbn Əbi Şeybə, *əl-Musannəf*, I. 256; İbn Sə'd, *ət-Təbəqat*, I, 468.

Atlasını da sat, pulunu al!" buyurdu. Həzrəti Abbas bu paltarı bir yəhudiyə səkkiz min dirhəmə satdı.

Ənəs ibn Malik belə nəql etmişdir ki; "Kral Ziyəzən otuz üç dənə yaşlı, dişi dəvə müqabilində aldığı bir Hulləni, Rəsulullah əleyhissalama hədiyyə vermiş, Rəsulullah əleyhissalam da onu qəbul etmişdi".

İshaq ibn Abdullah ibn Haris də; "Rəsulullah, təxminən iyirmi doqquz cavan dəvə müqabilində aldığı bir Hulləni Ziyəzənə hədiyyə göndərdi" demişdir.

Hullə, Yəmən parçasından vəya başqa bir parçadan tikilmiş, iki hissədən ibarət dəst paltara deyilir. Təkcə bir paltardan ibarət olsa ona Hullə deyilməz.

## Nəcaşinin göndərdiyi qızıl üzük

Həbəş Nəcaşisi Əshamənin Peyğəmbərimizə göndərdiyi hədiyyələr arasında, qaşı Həbəş daşından düzəldilmiş qızıl bir üzük də vardı. Peyğəmbərimiz, Əbul-Asın qızının qızı Ümaməni çağırıb; "Ey qızım! Bunu sən tax!" buyurdu.[564]

Kişilərə təkcə gümüş üzüyün halal olduğu, qızıl, dəmir və sarı qaşı olan üzük taxmağın haram olduğunu Peyğəmbərimiz bildirmişdir. Özü də, vəfat edincəyə qədər təkcə gümüş üzük taxmışdı.

Rəsulullah üzüyünü sağ əlinə taxardı. Bəzən də sol əlinə taxardı. Sağ ələ də, sol ələ də üzük taxmaq caizdir. Çöçələ barmağa vəya yanındakı barmağa taxıla bilər. Bayramlarda hər kəsin üzük taxması müstəhəbdir. Göstəriş üçün, lovğalıq üçün taxmaq haramdır.

Bir dəfə Numan ibn Bəşir Rəsulullahın yanına gəldi. Barmağında qızıl üzük vardı. Rəsulullah; "Cənnətə girməmişdən qabaq, nə üçün Cənnət zinətindən istifadə etmirsən?" buyurdu. Bundan sonra Numan dəmir üzük taxmağa başladı. Rəsulullah bunu görüncə; "Nə üçün Cəhənnəm əşyasını daşıyırsan?" buyurdu. Numan bunu da çıxartdı. Bürünc, yəni tuncdan üzük taxdı. Rəsulullah bunu görüncə; "Nə üçün səndən büt iyi gəldiyini hiss edirəm?" buyurdu. Bundan sonra Numan; "Bəs necə üzük taxım, ya Rəsulallah?" soruşdu. Rəsulullah; "Gümüş üzük taxa bilərsən. Ağırlığı da bir misqalı (4.8 qr) keçməsin və sağ əlinə tax!" buyurdu.

---

[564] Əbu Davud, "Xatim", 8; İbn Macə, "Libas", 40; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 119; Beyhəqi, *əs-Sünən*, II, 407; Tirmizi, *Şəmaili Şərif*, s. 121.

Əmr ibn Şueyb belə nəql etmişdir ki; “Rəsulullah qızıl və dəmir üzükləri çıxartdırar, gümüş üzüklərə isə mane olmazdı”.

Peyğəmbərimiz, Əcəm şahına, Bizans Qeysərinə və Həbəş Nəcaşisinə məktub yazdırmaq istədiyi zaman, “Ya Rəsulallah! Onlar, bir məktubu möhürlü olmasa oxumazlar!” deyilmişdi. Bundan sonra, Peyğəmbərimiz gümüşdən bir üzük taxdı və qaşına üç sətir şəklində “Muhammədur-Rəsulullah” nəqş edilmişdi. Möhür üzükdəki yazı, aşağıdan yuxarıya tərəf “Məhəmməd”, “Rəsul” və “Allah” şəklində idi. Peyğəmbərimizin gümüş üzüyündəki daş, Həbəş daşı idi.[565]

Bu gümüş üzüyün qaşının gümüşdən olduğu da rəvayət edilmişdir.

Əmr ibn Səid bir dəfə Peyğəmbərimizin yanına gəlmişdi. Peyğəmbərimiz, onun barmağındakı üzüyü görüncə; “Barmağındakı bu üzük nədir elə?” deyə soruşdu. Əmr ibn Səid; “Ya Rəsulallah! Bu bir halqadır. Mən özüm düzəltdim” dedi. Peyğəmbərimiz “Onun üstündəki naxışda nə yazılıb?” deyə soruşdu. Əmr ibn Səid; “Muhammədur-Rəsulullah” dedi. Peyğəmbərimiz; “Çıxart bir baxım” buyurdu və o üzüyü götürüb özünün möhürü olaraq istifadə etdi. Ancaq, başqalarına, üzüklərinə (Muhammədur-Rəsulullah) yazısını nəqş etməyi qadağan etdi.[566]

Peyğəmbərimiz vəfat etdiyində barmağında bu möhür üzük vardı. Peyğəmbərimiz, mühür üzüyünü sol əlinin çöçələ barmağına taxardı. Bəzən də sağ əlinə taxardı.

Peyğəmbərimiz, üzüyün qaş olan tərəfini ovucunun içində tutardı. Peyğəmbərimiz dəstəmaz pozacağı zaman üzüyünü barmağından çıxardardı.

Peyğəmbərimizin möhür üzüyünü, vəfatından sonra Həzrəti Əbu Bəkir, ondan sonra Həzrəti Ömər, Həzrəti Ömərdən sonra da Həzrəti Osman barmağına taxmışdır.

Həzrəti Osman xəlifə ikən, bir gün Əris quyusunun ağzında oturduğu əsnada, barmağından çıxartmış, əlində oynadarkən, quyuya düşürtmüşdü. Quyunun bütün suyu boşaldılsa da, üç gün axtarılsa da, bu mübarək üzük tapılmamış, quyunun içində yoxa çıxmışdı.[567]

Üzük daşına yazı yazmaq Peyğəmbərimizdən sonra da davam etmişdir. Həzrəti Əbu Bəkirin üzüyündə, “Ni’məl-Qadir Allah” (Allahın hər şeyə gücü nə gözəl çatar),

---

[565] İbn Sə’d, *ət-Təbəqat*, I, 471, 473; Tirmizi, *Şəmaili Şərif*, s. 123; Suyuti, *Əvsafun-Nəbi*, s. 74.
[566] İbn Sə’d, *ət-Təbəqat*, I, 474.
[567] Buxari, “Libas”, 50; Nəsai, “Ziynət”, 82; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, II, 22; İbn Sə’d, *ət-Təbəqat*, I, 476-477; Beyhəqi, *əs-Sünən*, II, 239; Heysəmi, *Məcməuz-Zəvaid*, V, 184; Suyuti, *Əvsafun-Nəbi*, s. 75.

Həzrəti Ömərin "Kəfə bilməvt vaizən ya Ömər" (Nəsihət olaraq ölüm bəsdir), Həzrəti Osmanın, "Lənasbirənnə", (Əlbəttə səbr edəcəyik), Həzrəti Əlinin, "Əl-mulku lillah" (Mülk ancaq Allahındır), Həzrəti Həsənin üzüyündə, "Əl-izzətu lillah" (Əzəmət Allaha aiddir), Həzrəti Muaviyənin üzüyündə, "Rəbbigfrli" (Rəbbim bağışla), İbn Əbi Leylanın, "Əd-dunya ğarurun", (Dünya yalançıdır), İmam Əbu Hənifənin "Qulil-xayr və illa fəskut", (Ya xeyir danış, ya da sus!), İmam Əbu Yusifin "Mən amilə birə'yihi nədimə", (Öz fikriylə hərəkət edən peşman olar), İmam Məhəmmədin, "Mən sabərə zafərə", (Səbr edən qələbə çalar), İmam Şafinin, "Əl-Bərəkətu fil qana'a" (Bərəkət qənaətdədir) yazısı vardı. Bu şəxslər üzüklərini möhür kimi istifadə edirdilər.

## Peyğəmbərimizin döşəyi

Peyğəmbərimizin, üstündə yatdığı döşəyin və yatağın üstü dəridən idi. İçi, xurma ağacının qabıqlarıyla doldurulmuşdu. Özü də, xanımı da onun üstündə yatardı. Peyğəmbərimizin başının altına qoyduğu yastığının da üzü dəridən olub, içi xurma ağacının qabıqlarıyla doldurulmuşdu.

Həzrəti Aişə anamız belə nəql etmişdir; "Yanıma, Ənsar qəbiləsindən bir qadın gəldi. Rəsul əleyhissalamın döşəyini görüncə, gedib içi yunla doldurulmuş bir döşək göndərdi.

Rəsul əleyhissalam, yanıma gələndə; "Bu nədir elə?" deyə soruşdu. Mən; "Ya Rəsulallah! Ənsardan filan qadın yanıma gəlmişdi. Döşəyini görüncə, gedib bunu sənə göndərdi" dedim. Rəsulullah; "Bunu, dərhal ona qaytar!" buyurdu. Ancaq, mən qaytarmadım. Onun, otağımda olması xoşuma gəlmişdi. Rəsul əleyhissalam, bu sözünü üç dəfə təkrar etdi. Axırda; "Vallahi, ey Aişə! İstəsəydim, Allah qızıl və gümüş dağlarını mənim yanımda gəzdirərdi!" buyurdu.[568]

Peyğəmbər əleyhissalamın nimdəri də iki əbadan ibarət idi. Bir gecə, yanıma gəldiyi zaman, bu əbanı qatlayıb daraltmışdım. Onun üstündə yatdı. Oyandıqdan sonra; "Ey Aişə! Bu gecəki döşəyim, nə üçün həmişəki kimi deyildi?" deyə soruşdu. Mən; "Ya Rəsulallah! Onu, sənin üçün qatlayıb daraltdım" dedim. Rəsulullah; "Sən, onu əvvəlki kimi et!" buyurdu.[569]

---

568 İbn Sə'd, *ət-Təbəqat*, I, 465.
569 İbn Sə'd, *ət-Təbəqat*, I, 465.

Həzrəti Aişə başqa bir vaxt belə nəql etmişdir ki; "Qureyşilərin Məkkədə, çarpayıda yatmaqdan çox xoşları gələrdi. Rəsul əleyhissalam Mədinəyə gəldiyi və Əbu Eyyubun evinə qonaq düşdüyü zaman, ona; "Ey Əbu Eyyub! Sizin bir çarpayınız yoxdur bəyəm?" deyə soruşdu. Əbu Eyyub da; "Vallahi yoxdur" dedi. Ənsardan Sə'd ibn Zurarə, bundan xəbər tutunca, Rəsulullah üçün, dirəkləri bir növ ağacdan düzəldilmiş, üstü kətan lifiylə toxunmuş həsirlə örtülmüş bir çarpayı göndərdi. Rəsulullah, öz evinə köçüncəyə qədər bu çarpayının üstündə yatmışdı. Vəfat edincəyə qədər də onun üstündə yatdı. Rəsulullah əleyhissalam, yuyulub kəfənə büküldüyündə, bu çarpayınınn üstünə qoyulmuş, belə bir vəziyyətdə meyyit namazı da qılınmışdı. Camaat, ölülərini daşımaq üçün, bu çarpayını bizdən istəyər və ondan xeyir umardılar. Əbu Bəkirin, Ömərin cənazəsi də onun üstündə daşınmışdı".

Həzrəti Aişə belə demişdir ki; "Rəsul əleyhissalamın, gecə vaxtı üstündə namaz qıldığı, gündüz də yerə sərib üstündə camaatla oturduğu bir həsiri vardı".[570]

## Rəsulullahın əsası

Cənabi Peyğəmbərimiz, Cümə günləri xütbə irad edərkən, əsaya vəya bir yaya (səfərdə də yaya) söykənərdi.

Peyğəmbərimiz, əsaya söykənmənin, Peyğəmbər əxlaqından olduğunu deyər, özü də əsaya söykənər və əsaya söykənməyi tövsiyə edərdi.

Muaviyə ibn Əbi Süfyanın xəlifəliyi dövründə, Peyğəmbərimizin əsası Sə'dul-Qarazda idi.

Muaviyə ibn Əbi Süfyan, hicrətin əllinci ilində həccə getmişdi. Peyğəmbərimizin məscidindəki minbəri sökdürüb Şama daşıtdırmaq istədi. Sadul-Qarazdakı əsanın da alınmasını istədi. Cabir ibn Abdullahla Əbu Hüreyrə gedib ona; "Ey Mö'minlərin Əmiri! Rəsul əleyhissalamın minbərinin, qoyulduğu yerdən sökülüb daşınması da, əsasının Şama aparılması da doğru olmaz!" dedilər.

Bundan sonra Həzrəti Muaviyə fikrindən əl çəkib üzr istədi.

Bir dəfə Peyğəmbərimiz Abdullah ibn Uneysi məsciddən evinə aparıb ona bir əsa verdi və; "Bu əsanı saxla, ey Abdullah ibn Üneys!" buyurdu. Abdullah ibn Üneys o əsa ilə camaatın yanına gedincə, ona; "Bu əsa nədir elə?" deyə soruşdular. O da; "Bunu

[570] İbn Sə'd, *ət-Təbəqat*, I, 468.

mənə Rəsul əleyhissalam verdi və saxlamağımı əmr etdi" dedi. Abdullah ibn Üneysə, "Rəsul əleyhissalamın yanına qayıdıb, bunu sənə nə üçün verdiyini soruş bir görək!" dedilər. Bundan sonra, Abdullah ibn Üneys Peyğəmbərimizin yanına qayıdıb; "Ya Rəsulallah! Bu əsanı mənə nə üçün verdiniz?" deyə soruşdu. Peyğəmbərimiz; "Bu, qiyamət günü ikimizin arasında bir əlamətdir! O zaman Cənnətdə insanların çox azı əsaya söykənəcəklər! Sən, buna Cənnətdə söykənərsən!" buyurdu.

Abdullah ibn Üneys, bu əsanı həmişə qılıncı ilə birlikdə gəzdirərdi. Ölüm xəstəliyinə tutulduğu zaman da, onu kəfəninin içinə qoymalarını və özüylə birlikdə dəfn etmələrini öz ailəsinə vəsiyyət etdi. Bu əsa, cənazəsiylə kəfəni arasına qoyularaq vəsiyyəti yerinə yetirildi.

### Peyğəmbərimizin daşıdığı yeddi şey

Cənabi Peyğəmbərimizin bir arşın uzunluğunda vəya bir az da uzun bir mihcəni vardı.

Mihcən, ucu əyri dəyənəyə deyilir. Peyğəmbərimiz, Həcəruləsvədə uzaqdan onunla işarə edərək salam verərdi.

Peyğəmbərimiz dəvəyə mindiyi zaman, onu qabağına qoyardı. Rəsulullahın, urcun deyilən bir də mihsərrəsi vardı. Peyğəmbərimiz Baqiulğarqada gedərkən onu da özüylə götürər, ona söykənər, oturarkən onu əlində oynadardı. Peyğəmbərimiz xutbə oxuduğu zamanlarda bəzən bu mihsərrəni də əlində tutardı. Peyğəmbərimizin, dağ ağaclarından kəsilmiş, məmşuq adı verilən bir də Qadibi dəyənəyi vardı.

Həzrəti Osman, Peyğəmbərimizin Qadibi əlindəykən minbərdə xutbə oxuduğu əsnada, Cahcah ibn Səid vəya Cahcah ibn Qeys yaxınlaşıb Həzrəti Osmanın əlindən Qadibi alar və diziylə qırar. Ordakı camaat Cahcaha əsəbiləşərlər. Bundan sonra Həzrəti Osman minbərdən düşüb evinə gedər.

Bu hadisədən sonra, uca Allah Cahcahın əlinə vəya dizinə əkilə (qaşıntı) xəstəliyi verər. Cahcah, Həzrəti Osmanın şəhadətindən sonra bir il keçmədən qaşına-qaşına ölər.

Peyğəmbərimiz özüylə daraq, güzgü, misvaq, gül yağı, sürmə və qayçı gəzdirər, səfərə çıxarkən də bunları özüylə aparardı.

Həzrəti Aişə; “Qəzvələr üçün Rəsul əleyhissalamın gül yağını, darağını, güzgüsünü, iki qayçısını, sürmədanlığını və misvaqını hazırlayardım” buyurmuşdur.

Həzrəti Aişə anamız; “Səfərdə və normal vaxtlarda Rəsul əleyhissalamın yeddi əşyasını; Gül yağı şüşəsi, darağı, güzgünü, sürmədanlığı, misvaqı, iki qayçını və saçı ortadan ayırmaq üçün sümüyü özüylə gəzdirərdi” demişdir.[571]

Peyğəmbərimiz hər gün saqqalını iki dəfə darayardı.

Ənəs ibn Malik; “Rəsul əleyhissalam, tez-tez başının saçına gül yağı sürtər, saqqalını da su ilə darayardı” demişdir.[572]

## Tərtib nizamına çox əhəmiyyət verərdi

Cənabi Peyğəmbərimiz təmizliyə, tərtib nizamına əhəmiyyət verər və; “Kimin saçı varsa, ona yaxşı baxsın!” buyurardı.

Peyğəmbərimiz məsciddə ikən saç-saqqalı pırtlaşıq birisi içəri girmişdi. Peyğəmbərimiz; “Bu kişinin saçını düzəltmək üçün gül yağı da yoxdur bəyəm?” buyurduqdan sonra ona, dərhal çölə çıxaraq saç-saqqalını düzəltməsini əli ilə işarə etdi. O adam, saç-saqqalını düzəldib qayıdınca, Peyğəmbərimiz; “Sizdən birinizin bu vəziyyətdə olması daha yaxşıdır, yoxsa saç-saqqalı şeytan saçı kimi pırtlaşıq olması?” buyurdu.

Peyğəmbərimiz, saqqalının uzunluğundan və yanlarından bir az qırxardı. Cümə namazını qılmamışdan qabaq, bığını qırxar, dırnaqlarını kəsərdi. Müsəlmanlara da, bığlarını qırxmalarını əmr etmişdir.

Peyğəmbərimiz, güzgüyə baxdıqca, Allaha həmd edər və; “Allahım! üzümü gözəl yaratdığın kimi, əxlaqımı da gözəlləşdir!” deyərək dua edərdi.

Peyğəmbərimiz hər gecə, yatmamışdan qabaq, gözlərinə üç dəfə sürmə çəkərdi. Sürməni sağ gözünə üç, sol gözünə isə iki dəfə çəkərdi. “Sürmə çəkin! Çünki o, gözü qüvvətləndirir, saçı (kipriyi) bitirər” buyurardı.[573]

İslam alimləri, kişilərin müalicə üçün sürmə çəkməsinin caiz olduğunu, ancaq zinət olaraq çəkməsinin caiz olmadığını bildirmişlər. Camal və zinət sözləri də bir-biri ilə qarışdırılmamalıdır. Camal, çirkinliyi yox etmək, özünə inamı olmaq və şükr etmək

---

[571] İbn Sə’d, *ət-Təbəqat*, I, 484.
[572] İbn Sə’d, *ət-Təbəqat*, I, 484.
[573] İbn Sə’d, *ət-Təbəqat*, I, 485.

üçün ne'məti göstərmək, deməkdir. Lovğalıq üçün, qürurlanmaq üçün, ne'məti göstərmək camal deyil, lovğalıqdır.

Rəsulullah misvaqdan istifadə etməyə çox əhəmiyyət verərdi. Bunu həmişə özüylə gəzdirərdi. Peyğəmbərimiz; "Ərak ağacının çubuğuyla misvaqlanın! Ağıza gözəl iy verər. O, həm mənim, həm də məndən əvvəl gələn peyğəmbərlərin misvaqıdır" buyurmuşdur.

Cənabi Peyğəmbərimiz; "Əgər ümmətimə məşəqqət verməsəydim, hər namaz üçün misvaqdan istifadə etmələrini onlara əmr edərdim!".[574]

"Misvaqdan istifadə etməyinizi sizə çox tövsiyə edirəm!".

"Misvaq, ağızın təmizliyi və Rəbbimin xoşnudluğudur!" buyurmuşdur.

Peyğəmbərimizin, evinə girdiyi zaman, ilk işi dişini misvaqla təmizləmək olardı.

Peyğəmbərimiz yanında misvaq olmadan yatmaz, oyandığı zaman da işə dişlərini misvaqlamaqla başlayardı. Peyğəmbərimiz, gecə vaxtı təhəccüd namazına qalxdığı zaman da dişlərini misvaqla təmizləyərdi.[575]

Həzrəti Aişə; "Peyğəmbər əleyhissalam oyandıqdan sonra, dəstəmaz almamışdan qabaq mütləq misvaqdan istifadə edərdi!" demişdir.

## Rəsulullahın qılıncları

Peyğəmbərimizin doqquz qılıncı vardı. Bunlar aşağıdakılardır;

Atasından qalan və Mə'sur adıyla tanınan qılınc. Peyğəmbərimiz bu qılıncı, Mədinəyə hicrəti əsnasında özüylə aparmışdı.[576]

Abd adlı qılınc. Bu qılıncı Peyğəmbərimizə, Sə'd ibn Ubadə hədiyyə vermişdi. Peyğəmbərimiz Bədir döyüşünə gedərkən bu qlıncı aparmışdı.

Zülfüqar; Bu, Qureyş müşriklərindən Munəbbih ibn Həccacın vəya As ibn Munəbbihin qılıncı olub, Bədir döyüşündə qənimət olaraq alınmışdı. Qılınc, girintili-çixintılı olduğu üçün, ona Zülfüqar deyilmişdi. Peyğəmbərimiz, Zülfüqarı Həzrəti Əliyə hədiyyə etmişdi. Qəbzəsinin baş tərəfi, halqaları və zincirləri gümüşdən idi.[577]

---

[574] Tirmizi, "Təgarət", 18.
[575] İbn Macə, "Təharət", 7.
[576] İbn Sə'd, *ət-Təbəqat*, I, 484; Tirmizi, *Şəmaili Şərif*, s. 135; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 245.
[577] İbn Sə'd, *ət-Təbəqat*, I, 484; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 245; Suyuti, *Əvsafun-Nəbi*, s. 76.

Peyğəmbərimizin vəfatından sonra Həzrəti Abbas, Həzrəti Əbu Bəkirə müraciət edib Zülfüqarı Həzrəti Əlidən almaq istədiyi zaman, Həzrəti Əbu Bəkir; “Mən, bu qılıncı həmişə Onun əlində gördüm. Ondan bu qılıncı almağı düzgün qəbul etmirəm!” demiş, beləcə qılınc yenə Həzrəti Əlidə qalmışdı.

Rəsulullahın nizələrı də bunlardı;

Peyğəmbərimizə, Bəni Qaynuqa yəhudilərindən üç nizə qənimət olaraq qalmışdı.

Peyğəmbərimizin nizələrindən birinin adı Musvi, digərinin adı Musna idi. Peyğəmbərimizin, Beyza adıyla tanınan böyük bir nizəsiylə, Anəzə deyilən mizraqdan kiçik bir nizəsi də vardı. Naba adıyla da tanınan bu nizəni Həbəş Nəcaşisi, Zübeyir ibn Əvvama vermişdi. Peyğəmbərimiz Xeybər döyüşündən qayıdarkən onu Zübeyir ibn Əvvamdan almışdı.

Həbəş Nəcaşisi Əshama Peyğəmbərimizə üç Anəzə (nizə) göndərmişdi. Peyğəmbərimiz onlardan birini özü üçün götürüb, ikincisini Həzrəti Əliyə, üçüncüsünü də Həzrəti Ömərə vermişdi.

Bilali Həbəşi, Peyğəmbərimizin Anəzəsini Ramazan və Qurban bayramlarında namazgaha qədər Peyğəmbərimizin qabağında daşıyıb, namazgahda Peyğəmbərimizin yanında yerə batırardı. Peyğəmbərimiz də, bayram namazını nizəyə tərəf üzünü tutaraq qıldırardı.

Peyğəmbərimizin vəfatından sonra, Bilali Həbəşi bu Anəzəni bayramlarda Həzrəti Əbu Bəkirin qabağında daşıyıb namazgahda yanında yerə batırardı. Həzrəti Əbu Bəkirdən sonra Həzrəti Ömər və Ondan sonra da Həzrəti Osman dövründə bu vəzifə müəzzin Sə’dul-Qaraz tərəfindən eyni şəkildə yerinə yetirildi. Mədinə valiləri dövründə də bu cür davam edildi.

## Peyğəmbərimizin yayları və qalxanları

Peyğəmbərimizin altı yayı vardı. Bunlardan Rəvha, Beyza, Səfra adıyla tanınan üç yay Bəni Qaynuqa yəhudilərindən qənimət alınmışdı. Səfra yayı Nəb ağacından düzəldilmişdi.[578] Kətum adındakı yay da Nəb ağacından düzəldilmişdi. Bu yay Ühüd

---

[578] İbn Sə’d, *ət-Təbəqat*, I, 489; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 246.

döyüşündə qırılmışdı. Qatadə ibn Noman qırıldıqdan sonra bu yayı götürmüşdü. Peyğəmbərimizin Sədəd və Zəvra adlarında yayları da vardı.[579]

Peyğəmbərimizin üç qalxanı vardı;

Zəluk, üstündə qoç kəlləsinin şəkli olan bir qalxan idi. Bu qalxan Peyğəmbərimizə hədiyyə edilmişdi. Ancaq, Peyğəmbərimiz onun üstündəki şəkili bəyənməmişdi. Səhər olunca, Allah o şəkili qalxandan silmiş, yox etmişdi.[580]

Peyğəmbərimizin yeddi dənə zirehi vardı;

Zatulfudul; Bu zirehi Sə'd ibn Ubadə, Peyğəmbərimizə Bədir döyüşünə gedərkən hədiyyə etmişdi.[581]

Sağdiyyə və Fizza; Bu iki zireh də Peyğəmbərimizin, Bəni Qaynuqa yəhudilərindən qənimət olaraq aldığı silahlar arasında idi.

Peyğəmbərimiz, Ühüd döyüşündə Fudul ilə Fizzanı üst-üstə geyinmişdi.[582]

Peyğəmbərimizin zirehinin qabağında və arxasında gümüşdən iki halqa vardı. Sağdiyyə adındakı zireh isə, Həzrəti Davud Əleyhissəlamın Calut ilə döyüşmək üçün geydiyi tarixi bir zireh idi.

Peyğəmbərimiz vəfat etdiyi əsnada, zirehlərindən biri, Bəni Qələbə qəbiləsindən Əbuşşəhm adındakı yəhudidən ailəsi üçün alınan otuz sa arpa müqabilində girov qoyulmuşdu. Bu zireh Zatulfudul adı verilən zireh idi.[583]

O biri zirehləri isə Zatulvişah, Zatulhəvaşi, Bətra və Hırnıq idi.[584]

Peyğəmbərimiz, Zatulfudul ilə Sağdiyyəni Huneyn döyüşündə geyinmişdi.

Rəsulullahın Muvaşşah adında bir dəbilqəsi də vardı. Bu dəbilqə, Bəni Qaynuqa yəhudilərindən qənimət alınmışdı.

Zussubuğ, Zussusub vəya Məşbuğ adlı dəbilqəni isə Peyğəmbərimiz Ühüd döyüşündə başına qoymuşdu Bu dəbilqənin halqalarından ikisi Peyğəmbərimizin yanaqlarına batmışdı. Peyğəmbərimiz Məkkə fəth edilərkən də bu dəbilqəni qoymuşdu.

---

579 Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 246.
580 İbn Sə'd, *ət-Təbəqat*, I, 489.
581 İbn Sə'd, *ət-Təbəqat*, I, 487.
582 İbn Sə'd, *ət-Təbəqat*, I, 487; Tirmizi, *Şəmaili Şərif*, s. 138; Suyuti, *Əvsafun-Nəbi*, s. 77.
583 Buxari, "Buyu", 33; "Rehn", 5; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, VI, 160; İbn Əbi Şeybə, *əl-Musannəf*, IV, 271; Tirmizi, *Şəmaili Şərif*, s. 334; Bəğavi, *əl-Ənvar*, I, 299; Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 307.
584 Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə*, s. 246.

## Rəsulullahın ələm və bayraqları

Cənabi Peyğəmbərimizin rayəsi, yəni bayrağı qara, livası, yəni ələmi ağ idi. Məhəmməd ibn Qasımın azadlığa buraxdığı kölə Yunis ibn Ubeyd; "Məhəmməd ibn Qasım, Rəsulullah əleyhissalamın bayrağını soruşmaq üçün, məni Bəra ibn Azibin yanına göndərdi" demişdi.

Bəra ibn Azib, bu bayrağın, qara rəngdə və dörd bucaqlı, Nəmirədən (Qara-ağ xətli yun parçadan) olduğunu bildirmişdir.

Bu bayraq, Həzrəti Aişənin verdiyi qara rəngdə yun parçadan düzəldilmişdi. Üstündə dəvə palanı və naxışı olan bu bayrağa Uqab deyilirdi.

Peyğəmbərimizin bayrağı Həzrəti Əlinin yanında saxlanardı. Peyğəmbərimiz, Xeybər döyüşündə; "Bayrağı, elə bir adama verəcəyəm ki, O, Allahı və Rəsulunu sevər, Allah və Rəsulu da Onu sevər!" buyurmuş və Həzrəti Əlini çağırıb bayrağını Ona vermişdi.[585]

Uca Allah, Xeybərin fəthini Həzrəti Əliyə nəsib etmişdir. Peyğəmbərimizin livasının (ələm) üstündə "La ilahə illallah Məhəmmədur-Rəsulullah" yazılmışdı.

Peyğəmbərimiz, Hərrar səfərində Sə'd ibn Əbi Vəqqas üçün ağ bir ələm bağlamışdı.

Həzrəti Əlini Yəmənə göndərərkən, qarğının ucuna bir əmmaməni bağlayıb; "Ələm belədir!" buyurmuşdur. Ələmi, ancaq ordu komandanı götürər və daşıyardı.

Əbva və Vəddan qəzvəsində Peyğəmbərimizin ağ ələmini Həzrəti Həmzə, Buvat qəzvəsində Sə'd ibn Əbi Vəqqas, Kurz ibn Cabirul-Fihrinin tə'qib edilməsi əsnasında Həzrəti Əli, Zuluşeyrə qəzvəsində Həzrəti Həmzə daşımışdır.

Peyğəmbərimiz Bədir qəzvəsinə gedərkən, ağ ələmini Mus'ab ibn Umeyrə vermiş, Həzrəti Əli Peyğəmbərimizin qabağında qara rəngli Bayrağını (Uqabı) daşımışdı.[586]

Peyğəmbərimizin ağ ələmini Bəni Qaynuqa qəzvəsində Həzrəti Həmzə, Qarqaratulkudr, Ühüd və Bədirulmöv'id qəzvələrində Həzrəti Əli, Xəndək qəzvəsində də Zeyd ibn Harisə daşımışdır. Məkkə fəthində də ağ ələm götürülmüşdü.

Təbuk səfərində ən böyük ələmini Həzrəti Əbu Bəkirə və ən böyük bayrağını da Zübeyir ibn Əvvama vermişdi.

---

585 İbn Sə'd, *ət-Təbəqat*, II, 80; İbn Kəsir, *əs-Sirə*, III, 354.
586 Təbərani, *əl-Mu'cəmul-Kəbir*, I, 105, 120; İbn Kəsir, *əs-Sirə*, II, 388.

## Cənabi Peyğəmbərimizin atları

Peyğəmbərimizin Mədinədə, Bəni Fəzarə qəbiləsinə mənsub bir bədəvidən on uqıyyə gümüşə aldığı səhra sakinlərinin Daris, Peyğəmbərimizin də Səkb adını verdiyi ilk atıdır. Ühüd döyüşündə ona minmişdi.[587]

Səkbin dodağında ağlık var idi. Sağ ayağından başqa üç ayağı ala idi. Səkb, çox yaxşı gedən at idi. Gedərkən, su kimi axardı.

Murtəciz adlı atını isə Peyğəmbərimiz Bəni Murrə qəbiləsinə mənsub bir bədəvidən almışdı. Murtəciz, gözəl, ahənkli və şe’r deyirmiş kimi kişnəyərdi.[588]

Lizaz adlı atını da Peyğəmbərimizə İskəndəriyyə kralı Muqavqıs hədiyyə etmişdi. Lizaz çox sür’ətli gedərdi.[589] Zarib adlı atı da Peyğəmbərimizə Fərvə ibn Umeyrul-Cüzami hədiyyə etmişdi. Zarib çox güclü və dözümlü bir at idi.

Lahif (vəya Luhayf) adı verilən atı da Peyğəmbərimizə Rəbia ibn Əbi Bəraul-Kəlbi hədiyyə etmişdi. Lahifin quyruğu yerlə sürünəcək qədər uzun idi. Yasub adındakı atı isə Peyğəmbərimizin atlarının ən yaxşısı idi. Bir başqa atı-Muravih də yarış atı olub, Peyğəmbərimizə Ubeyd ibn Yasir tərəfindən Təbukdə hədiyyə edilmişdi. Muravih külək kimi sür’ətli gedərdi.

Mirvah adındakı başqa bir atını da, hicrətin onuncu ilində Mədinəyə gələn Bəni Rəha hey’əti Peyğəmbərimizə hədiyyə etmişdilər. Mirvah, Peyğəmbərimizin qabağında, belinə minilib gəzdirildiyində çox xoşuna gəlmişdi.

Vərd adındakı atını isə Peyğəmbərimizə Təmimi Dari hədiyyə etmişdi. Vərdin rəngi kürən idi. Peyğəmbərimiz onu Həzrəti Ömərə hədiyyə etmişdi. Həzrəti Ömər də Vərdin belində Allah yolunda döyüşmüşdü.

Peyğəmbərimiz, atlarından üçünü yarışa qatardı. Zaribin süvarisi Səhl ibn Sə’d, Lizazın süvarisi də Əbu Useydus-Saidi idi. Lizaz, qabaqda, Zarib onun arxasında, Səkb də Zaribin arxasında gedərdi.

Rəsulullahın uzunqulaq və qatırı da vardı. İskəndəriyyə kralı Muqavqıs Peyğəmbərimizə, boz bir qatırla, boz bir uzunqulaq hədiyyə etmişdi. Qatır Düldül,

[587] İbn Sə’d, *ət-Təbəqat*, I, 489.
[588] İbn Sə’d, *ət-Təbəqat*, I, 490; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 247.
[589] İbn Sə’d, *ət-Təbəqat*, I, 490; Kastalani, *əl-Məvahibu’l-Ləduniyyə*, s. 247.

uzunqulaq da Yafur vəya Ufeyr adıyla tanınardı.[590] İslamda ilk görülən ağ qatır Düldül olmuşdur. Peyğəmbərimizin Xeybər döyüşündə miniyi bu boz qatırı, Huney döyüşündə isə digər boz qatırı idi. Peyğəmbərimiz qatırını səyirdib Həvazinlilərin üzərinə hücum etmək istəmiş, Həzrəti Abbas qatırın yüyənindən, Əbu Süfyan ibn Haris də üzəngisindən tutaraq sür'ətini azaltmağa və Peyğəmbərimizin düşmən arasına dalmasına mane olmağa çalışmışdılar. Xeybər döyüşündə Yafurun belinə yəhər qoyulub, başına xurma ağacı qabıqlarından düzəldilmiş ipdən yüyən keçirdildiyi və Peyğəmbərimizin ona da mindiyi rəvayət edilir.

Peyğəmbərimiz Vəda həccindən qayıtdığında Yafur ölmüş, Düldül isə Peyğəmbərimizin vəfatından sonra Həzrəti Əliyə qalmışdı. Şəhadətinə qədər Həzrəti Əli, sonra Həzrəti Həsən, sonra Həzrəti Hüseyin, daha sonra da Həzrəti Məhəmməd ibn Hənəfiyyə ona minmişdi. Düldül Həzrəti Muaviyə dövrünə qədər qalmışdı.

### Cənabi Peyğəmbərimizin dəvələri

Qusva adıyla məşhur olan, ancaq Cəda və Adba adlarıyla da tanınan bu dəvəsi Bəni Quşayr ibn Kə'b ibn Rəbia ibn Amir vəya Xureyş ibn Kə'b qəbiləsinə məxsus idi. Daha sonra onu Həzrəti Əbu Bəkir dörd yüz dirhəmə almış və eyni məbləğdə pula Peyğəmbərimizə satmışdır. Həzrəti Əbu Bəkirin, bu dəvəni Peyğəmbərimizə bağışladığı da rəvayət edilir.

Peyğəmbərimiz, Mədinəyə Qusvanın belində hicrət etdi. Hüdeybiyyə umrəsinə onun belində getdi. Məkkəni də, onun belindəykən fəth etdi. Peyğəmbərimiz, Qusvanı yarışdırar, heç bir dəvə onu keçə bilməzdi. Ancaq, bir bədəvi iki yaşlı bir dəvəylə yarışa girib onu keçmişdi.

Peyğəmbərimiz, Vəda həccində Ərafat xutbəsini Qusvanın belində oxumuşdur. Qusva, Həzrəti Əbu Bəkirin xəlifəliyi dövründə Bəqi qəbristanlığına buraxıldı. Elə orda yavaş-yavaş öldü.[591]

Əbu Cəhildən qənimət alınan dəvə; Peyğəmbərimiz, Bədirdə Əbu Cəhlin məşhur dəvəsini də sərkərdəlik haqqı olaraq almışdı. Hüdeybiyyə umrəsinə qədər qəzvələrə bu dəvənin belində çıxardı. Ona, umrə üçün qurbanlıq nişanı vurmuşdu.

[590] İbn Sə'd, *ət-Təbəqat*, I, 491.
[591] İbn Sə'd, *ət-Təbəqat*, I, 492-493.

Müşriklər, yüz dəvə verib onu almaq istədilər. Peyğəmbərimiz; "Əgər, qurbanlıq adıyla ayırmasaydıq arzunuzu yerinə yetirərdim" buyurmuşdu.

Sağmal dəvələr;

Peyğəmbərimizin Zulcədr və Cəmma otlağında otarılan, Hənna, Səmra, Ureys, Sə'diyyə, Bəqum, Yəsirə, Dəbba adlarıyla tanınan yeddi sağmal dəvəsi olub, Peyğəmbərimizin ailəsi onların hər gecə gətirilən iki qab dolusu sütləriylə dolanardılar.[592]

Ancaq, Peyğəmbərimizin vəfatı əsnasında bunlardan heç biri qalmamışdı.

## Rəsulullahın Xanəyi səadətləri

Peyğəmbərimiz, Mədinədə məscidini tikdirdiyi zaman, məscidin yanında kərpicdən iki otaq da tikdirmiş və üstünü xurma kötüyü və budaqlarıyla örtdürmüşdü.

Həzrəti Aişənin otağnın qapısı məscidə gedən yola tərəf idi. Həzrəti Sevda üçün düzəldilən otağın qapısı da məscidin üçüncü qapısı olan Ali Osman qapısına tərəf idi.

Peyğəmbərimiz, başqa xanımlarla da evlənincə, sonradan otaqların sayı artdı və bunlar da Həzrəti Aişənin otağıyla qiblə arasında, yəni məscidin şərq tərəfinə düşən hissəsində düzəldildi. Otaqların bəzisi kərpicdən, bəzisi də daşdan idi. Bəzisi xurma budaqlarından (Bağdad tərzi) düzəldilərək üstünə palçıq-samanla suvaq çəkilmiş və xurma budaqlarıyla da örtülmüşdü.

Həsən ibn Əbilhəsən belə nəql etmişdir ki; "Mən, həddi-buluğ yaşıma çatanda Rəsulullahın evinə girmiş, əlimi tavanına uzadıb toxunmuşdum. Rəsulullahın otağının tavanı, sərv vəya ardıc kötüyü üstünə sərilmiş bir keçədən ibarət idi".

İmam Buxarinin nəql etdiyinə görə də, Rəsulullahın evinin qapısında halqa yox idi və qapı yayın ucuyla döyülərdi.

Məhəmməd ibn Hilal ilə Ataul-Xorasani də, Peyğəmbərimizin xanımlarının otaqlarını görmüş, onların xurma budaqlarından örtülmüş, qara keçədən düzəldilmiş Kilimdən ibarət olduğunu söyləmişlər.

[592] İbn Sə'd, *ət-Təbəqat*, I, 494.

Davud ibn Qeysin ifadəsinə görə, otaqların, bir qapıdan o bir qapıya qədər hər birinin eni təxminən 67 zira,[593] içəridən hündürlüyü də təxminən on zira idi.

Həzrəti Sevda, otağını Həzrəti Aişəyə tapşırmış, Həzrəti Səfyyənin otağını da vəfatına qədər içində yaşamaq şərtiylə, sahibləri yüz səksən vəya iki yüz min dirhəmə Muaviyə ibn Əbi Süfyana satmışdılar.

Xəlifə Əbdülməlikin, Peyğəmbərimizin xanımlarına aid otaqların alınaraq məscidə qatılması haqqındakı fərmanı Mədinədə oxunduğu gün, bir çoxları gözlərinin yaşını saxlaya bilməmiş, Mədinəlilər Peyğəmbərimizin vəfat etdiyi gündəki kimi ağlaşmışdılar.[594]

Səid ibn Museyyəb də; "Vallahi, onların o vəziyyətdə qalmalarını elə çox arzu edərdim ki! Beləcə Mədinədəki indiki nəsil və Mədinəyə səhradan gələnlər, Rəsul əleyhissalamın, həyatında nə ilə kifayətləndiyini görər və insanlar çox mallarının olmasına, bununla lovğalanmağa təşəbbüs göstərməzdilər" deyərək bu barədəki üzüntüsünü ifadə etmişdir.

## Rəsulullahın vəqf etdiyi mülklər

İslamda ilk vəqf, Ühüddə şəhid olan yəhudi alimlərindən və varlılarından biri olan Muhayrıqın, Peyğəmbərimizə verilməsini vəsiyyət etdiyi və Peyğəmbərimizin də alıb vəqf etdiyi Misəb, Səfiyyə, Dəlal, Hüsna, Burka, Avaf və Məşrəbə adlarıyla bilinən yeddi bağça və bostan olmuşdur.[595]

Peyğəmbərimizin Mədinədəki vəqfləri, ümumiyyətlə Muhayrıqın mallarındandır. İbn Humeyd belə nəql etmişdir ki; "Bir dəfə Xəlifə Ömər ibn Əbdüləziz, Muhayrıqın vəqf etdiyi xurmalıqlarından xurma gətirilməsini istəmişdi. Xurmaları bir qaba qoyub onun üçün gətirdilər. Ömər ibn Əbdüləziz; "Əbu Bəkir ibn Hazm mənə, bu xurmanın Rəsul əleyhissalamın dövründən qalma xurma ağacından dərildiyini və Rəsul əleyhissalamın da ondan yediyini, deyincə mən; "Ey Mö'minlərin Əmiri! Bunu, bizim aramızda bölüşdür!" dedim. O da bölüşdürdü. Hər birimizə doqquz xurma düşdü.

---

[593] Bir zira 48 santimetrdir.
[594] İbn Sə'd, *ət-Təbəqat*, I, 499.
[595] İbn Sə'd, *ət-Təbəqat*, I, 503.

Ömər ibn Əbdüləziz; “Mən, Mədinə valisi ikən o xurmalığa girdiyimdə, həmin xurma ağacının xurmasından yemişdim. Onun qədər dadlı və şirin bir xurma görməmişəm!” demişdir.

Əmr ibn Muhacir də belə nəql etmişdir ki; “Rəsul əleyhissalamın əşyaları Ömər ibn Əbdüləzizin yanındakı bir otaqda saxlanardı. O, hər gün ona baxardı. Qureyşlilərdən yanına gələnləri də bu otağa aparar, sonra da bu əşyaları göstərərək; “Bax, Allahın sizi, özüylə şərəfləndirdiyi zatın mirası budur!” deyərdi.

Bu əşyalar aşağıdakılardır;

1. Bir ədəd, içinə xurma yarpaqları doldurulmuş yataq,
2. Bir ədəd üzü dəri, içi xurma ağacının qabıqlarıyla doldurulmuş yastıq,
3. Bir ədəd böyük çanaq,
4. Bir ədəd su qabı,
5. Bir ədəd paltar,
6. Bir ədəd əl dəyirmanı,
7. Bir ədəd ox çantası,
8. Bir ədəd yorğan.

Bu yorğanda, Rəsulullahın başının hopduğu təri müşg iyindən daha ətirli iy verərdi.

Ömər ibn Əbdüləziz, xəstələndiyində onun suyu ilə yuyunar, beləcə sağalardı. Ömər ibn Əbdüləziz, Mədinəli tabiun alimlərindən olub, imam, fəqih, müctəhid və sünnəti çox yaxşı bilən birisi idi. Anası, Ümmü Asim bint Asim ibn Ömər ibn Xəttab idi. Ədalət və zühdü təqvada örnək göstərilərdi.

İmam Şafii; “Xuləfayi Raşidin beşdir; 1) Əbu Bəkir, 2) Ömər, 3) Osman, 4) Əli, 5) Ömər ibn Əbdüləziz!” deyərdi. Ömər ibn Əbdüləziz ədalətdə Həzrəti Ömərə, zühd və təqvada Həsənul-Bəsriyə, elmdə imam Zuhriyə oxşayırdı.

*Səlatu həm salam olsun ona həm ali sahbeynə*

*Ki qıldı onları özünə yaran, ol kərəmkanı*

*Gəl ey Haqqı, unut xalqı Həbibi Haqdan al xulqu*

*Ki Haqdan hüsni xulq almışdı məccan ol kərəmkanı*

*ƏRZURUMLU İBRAHİM HAQQI*

# İSLAM DİNİ

Allah Təalanın Cəbrayıl adındakı mələk vasitəsiylə sevgili Peyğəmbəri Məhəmməd əleyhissalama göndərdiyi, insanların həm bu dünyada, həm də axirətdə rahat və xoşbəxt olmalarını tə'min edən üsul və qaydalardır. Bütün üstünlüklər, faydalı şeylər İslamiyyətin içindədir. Qədim dinlərin barındırdıqları bütün yaxşılıqlar da İslamiyyət özündə cəmləşdirmişdir. Bütün səadətlər, müvəffəqiyyətlər ondadır. Səhvə düşməyən, yolunu azmayan ağıl sahiblərinin qəbul edəcəyi əsaslardan və əxlaqdan ibarətdir.

Yaradılışında qüsursuz olanların heç biri onu rədd etməz və ona nifrət etməzlər. İslamiyyətin içində heç bir zərər, xaricində də heç bir mənfəət yoxdur, ola da bilməz. İslamiyyətin xaricində bir mənfəət axtarmaq əbəsdir. İslamiyyət, ölkələri inkişaf etdirməyi, insanları yaxşı həyat səviyyəsinə və firavançılığa qovuşdurmağı əmr etməkdə, Allah Təalanın əmrlərinə boyun əyməyə və məxluqata mərhəmətli davranmağı istəməkdədir.

İslamiyyət, kənd təsərrüfatını, ticarəti və sənətkarlığı qət'i surətdə əmr edir. Elmə, fənnə, texnologiyaya və sənayeyə də layiq olduğu əhəmmiyəti verir. İnsanların bir-birilərinə yardım etmələrini, bir-birilərinə xidmət etmələrini israrla istəməkdədir. Öz idarəsi altında olan insanların, övladların, ailənin və millətlərin haqq-hüquqlarını öyrətməkdə, həm hal-hazırda yaşayanlara, həm keçmişdəkilərə, həm də gələcəkdəki nəsillərə qarşı bir haqq və məs'uliyət qoymaqdadır. Xoşbəxtçiliyi dareyn, yəni həm bu dünya və həm də axirət səadətini özündə cəmləşdirmişdir.

İslamiyyət, insanların həm ruhi, həm də maddi səviyyəsini ən yaxşı şəkildə tə'min edəcək prinsiplər qoymuşdur. Hər hansı bir insan üçün, öz haqq və vəzifələrini ən geniş şəkildə tərtib etmişdir. Qısacası, İslam dininin iman, ibadət, evlənmə, muəməlat (insanların bir-biriləriylə davranışları) və uqubat (cəzalar) kimi əsasları vardır.

## İman

Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm), Allah Təalanın Peyğəmbəri olduğunu və Onun tərəfindən seçilmiş, xəbər çatdıran nəbisi olduğunu doğru bilmək, inanaraq demək, Onun, Allah Təala tərəfindən bildirilən hər cür şeyə olduğu kimi

inanmaq və güc çatan qədər kəlimeyi şəhadəti diliylə də iqrar etməkdir. Qüvvətli iman, alovun yandırdığına, ilanın zəhərləyib öldürdüyünə yəqinən inanıb ondan uzaq gəzdiyi kimi, ürəkdən tam olaraq Allah Təalanı və sifətlərini tanıyaraq, Onun rızasına və camalına nail olmaq, qəzəbindən, cəlalətindən qaçmaq və imanı mərmər üstündə yazılan yazı kimi sağlam olaraq ürəyinə həkk etməkdir.

Mütləq inanmağımız lazım olan imanın altı şərti vardır;

Birincisi, Allahu Təalanın vacibulbədən, həqiqi mə'bud və bütün məxluqatın yaradıcısı olduğuna inanmaqdır. Dünya və axirət aləmində olan hər şeyi maddəsiz, zamansız və bənzərsiz olaraq yoxdan var edən, ancaq Allah Təaladır, deyə qət'i inanmaqdır. Hər məxluqun yaradanı, sahibi, hakimi Odur. Ondan daha üsütün heç kimin olmadığına da inanmaq lazımdır. Hər üstünlük, hər kamal vəsf Onundur. Onda, heç bir qüsur, heç bir nöqsan bir xüsusiyyət yoxdur. Hər istədiyini edə bilər. Etdikləri, özünə vəya başqasına faydalı olmaq üçün deyildir. Etdiklərinin əvəzində bir şey gözləməz. Bununla birlikdə Onun hər işində, hikmət, fayda, lütf və ehsanlar vardır.

Qullarına yaxşı və faydalı olanı verməyə, bəzilərinə savab, bəzilərinə də əzab verməyə məcbur deyildir. Asilərin, günah iş görənlərin hamısını Cənnətə qoysa, Onun fəzlinə və ehsanına yaraşar. İtaət və ibadət edənlərin hamısını Cəhənnəmə atsa, yenə ədalətə zidd olmaz. Ancaq, müsəlmanları, ibadət edənləri Cənnətə qoyacağını, bunlara saysız-hesabsız ne'mətlər verəcəyini, kafirlərə isə Cəhənnəmdə əbədi əzab edəcəyini diləmiş və bildirmişdir. O, sözündən dönməz. Bütün canlılar iman etsə, itaət etsə, Ona heç bir faydası olmaz. Bütün aləm kafir, qudurğan, üsyankar və müxalif olsa, yenə Ona heç bir zərər verməz. Şirkdən, küfrdən başqa, hər hansı böyük günah iş görüb, tövbəsiz ölən adamı diləsə bağışlayar. Kiçik günahlar üçün əgər diləsə əzab verər. Kafir və mürtəd olaraq ölənləri qət'iyyən bağışlamayacağını, bunlara əbədi əzab verəcəyini bildirmişdir.

Müsəlman və əhli qiblə olub, ibadət edib, ancaq e'tiqadı Əhli sünnət e'tiqadıyla üst-üstə düşməyən tövbə etmədən ölənlərə isə Cəhənnəmdə əzab verəcəkdir. Ancaq, belə bid'ət sahibi müsəlmanlar Cəhənnəmdə əbədi qalmayacaqlar.

Allah Təalanı, bu dünyada normal gözlə görmək caizdir. Ancaq, heç kim görməmişdir. Qiyamət günü, məhşər yerində kafirlərə və günahı olan mö'minlərə qəhr və cəlal ilə, saleh mö'minlərə isə lütf və camal ilə görünəcəkdir. Mö'minlər Allahı, Cənnətdə camal vəsfiylə görəcəkdir. Mələklər və qadınlar da görəcəkdir. Kafirlər isə

bundan məhrum olacaqdır. Cinlərin də məhrum olacaqlarını bildirən xəbər də qüvvətlidir.

Allah Təala üçün gecə-gündüz və zaman məfhumunun düşünülməsi əbəsdir. Allah Təalada heç bir cəhətdən heç bir dəyişiklik olmayacağı üçün, Onun haqqında "keçmişdə, gələcəkdə belədir vəya belədir" deyilməsi doğru deyildir. Allah Təala, heç bir şeyə hulul[596] etməz. Heç bir şeylə birləşməz. Allah Təalanın ziddi, əksi, bənzəri, ortağı, köməkçisi və qoruyucusu yoxdur. Anası, atası, oğlu, qızı və xanımı yoxdur. Hər zaman, hər kəsin yanındadır və hər şeyi əhatə etmişdir. Hər kəsə şah damarından daha yaxındır. Ancaq, hazır olması, əhatə etməsi, birlikdə və yaxın olması bizim başa düşdüyümüz kimi deyildir. Onun yaxınlığı alimlərin elmi, fənn mütəxəssislərinin zəkası, övliyaların kəşf və şuhuduyla başa düşülməz. Bunların məfhumunu insan ağlı dərk edə bilməz. Allah Təala, zatında və vəsflərində birdir, heç birində dəyişiklik və başqalaşma olmaz.

Allah Təalanın adları saysız-hesabsızdır. Min bir adı olduğu şəklində məlumatlar məşhurdur. Yəni, adlarından min bir dənəsini insanlara bildirmişdir. Məhəmməd əleyhissalamın dinində, bunlardan doxsan doqquzu bildirilmişdir. Bunlara "Əsmayi husna" deyilir.

İmanın altı şərtindən ikincisi, mələklərə inanmaqdır. Mələklər cisimdir və lətifdir. Qazdan daha lətifdirlər. Nuranidirlər, diridirlər, ağıllıdırlar. İnsanlardakı pisliklər mələklərdə yoxdur. Hər dona bürünə bilirlər. Qazlar maye və qatı olduğu kimi, qatı olunca bir şəkilə döndüyü kimi, mələklər də gözəl şəkillər alabilirlər. Mələklər mö'təbər insanların bədənindən ayrılan ruhlar deyillər. Xristiyanlar mələklərin belə bir ruh olduqlarını zənn edirlər. Enerji, güc kimi maddəsiz də deyillər. Qədim filosoflardan bəziləri də bu cür zənn edərdilər.

Mələk, elçi, xəbər verən vəya qüvvət deməkdir. Cəmi "Məlaikə"dir. Mələklər, bütün canlılardan əvvəl yaradıldılar. Onun üçün, kitablara imandan əvvəl, mələklərə iman edilməsi gəlməkdədir. Kitablar da peyğəmbərlərdən qabaqdır. Qur'ani Kərimdə də iman edilməsi lazım olan şeylərin adı bu sıra ilə yer almaqdadır.

Mələklərə iman belə olmalıdır; Mələklər, Allah Təalanın şərikləri deyil, qullarıdır. Kafir və müşriklərin zənn etdikləri kimi Allahın qızları da deyildir. Allahu Təala mələklərin hamısından razıdır. Onlar Allah Təalanın əmrlərinə itaət edər, günah iş

---

[596] İçinə girməz, qarışmaz.

görməz, əmrlərə üsyan etməzlər. Erkək və dişi deyillər. Onlar nə evlənər, nə də uşaqları olar. Həyat sahibidirlər, yəni diridirlər. Allah Təala, insanları yaradacağını buyurduğu zaman; "Ya Rəbbi! Yer üzünü ifsad edəcək və qan tökəcək məxluqları yaradacaqsan?" şəklində mələklərin, "zəllə" deyilən sualları, bunların məsum və günahsız olmalarına xələl gətirməz.

Mələklər, sayları ən çox olan məxluqlardır. Bunların saylarını Allah Təaladan başqa heç kim bilməz. Göylərdə mələklərin ibadət etmədikləri boş bir yer yoxdur. Göylərin hər yeri, rüku vəya səcdədə olan mələklərlə doludur. Göylərdə, yerlərdə, bitgilərdə, ulduzlarda, canlılarda, cansızlarda, yağış damcılarında, ağacların yarpaqlarında, hər malekulda, hər atomda, hər reaksiyada, hər hərəkətdə və hər şeydə mələklərin vəzifələri vardır. Hər yerdə Allahu Təalanın əmrlərini yerinə yetirərlər. Allah Təala ilə məxluqları arasında vasitədirlər. Bəziləri də başqa mələklərin dediklərini yerinə yetirərlər. Bəziləri insanların peyğəmbərlərinə xəbər gətirərlər. Bəziləri insanların ürəyinə ilham dediyimiz yaxşı fikirlər gətirirlər. Bəzilərinın insanlardan və bütün məxluqlardan xəbəri yoxdur. Allah Təalanın camalı qarşısında özlərini itirmişlər. Hər birinin müəyyən yeri vardır. O yerdən qət'iyyən ayrılamazlar. Cənnət mələkləri Cənnətdədir. Bunların böyüklərinin adı Rizvandır. Cəhənnəm mələklərinə "Zəbani" deyilir. Bunlar, Cəhənnəmdə əmr edilən vəzifələrini yerinə yetirər. Dəniz balığa zərər vermədiyi kimi, Cəhənnəm odu da bunlara zərər verməz. Cəhənnəm zəbanilərinin böyükləri on doqquz dənədir. Ən böyüyünün adı Malikdir.

Hər insanın xeyr və şərr olsun, bütün işlərini yazan, ikisi gecə, ikisi də gündüzləri gələn dörd mələyə isə, "Kiramən katibin" vəya "Hafaza" mələkləri deyilir. Hafaza mələklərinin ayrı mələklər olduqları da rəvayət edilmişdir. Sağ tərəfdəki mələk yaxşı işləri, soldakı isə pis işləri yazar.

Qəbirlərdə kafirlərə və üsyankar müsəlmanlara əzab edən mələklər və qəbirdə sual soruşan mələklər də vardır. Sual mələklərinə "Münkər" və "Nəkir" deyilir. Mö'minlərə soruşanlara, "Mübəşşir" və "Bəşir" də deyilir.

Mələklərin də öz aralarında bir-birilərindən üstün olduqları məlumdur. Ən üstün olanları dörd dənədir. Bunların birincisi Cəbrayıl əleyhissalamdır. Bunun vəzifəsi, peyğəmbərlərə vəhy gətirmək, əmr və qadağaları bildirməkdir. İkincisi "sur" deyilən borunu çalacaq İsrafil əleyhissalamdır. Suru iki dəfə çalacaqdır. Birincisində, Allah Təaladan başqa hər bir canlı öləcəkdir. İkincisində hamısı təzədən diriləcəkdir.

Üçüncüsü, Mikayıl əleyhissalamdır. Ucuzluq, bahalıq, qıtlıq, bolluq yaratmaq və hər maddəni hərəkətə gətrirmək onun vəzifəsidir. Dördüncüsü, Əzrayıl əleyhissalamdır. İnsanların canını alan bu mələkdir. Bu dörd mələkdən sonra üstün olan dörd qrup mələk də vardır. "Həmələyi Ərş" deyilən mələklər dörd dənədir. Qiyamətdə bunlar səkkiz olacaqdır. Allahın yanında olan mələklərə "Muqərrəbin" deyilir. Əzab mələklərinin böyüklərinə də "Kərubiyan" deyilir. Rəhmət mələklərinə "Ruhaniyan" deyilir. Bunların hamısı mələklərin xəvassı, yəni üstün olanlarıdır. Bunlar peyğəmbərlərdən başqa bütün insanlardan daha üstündür. Müsəlmanların salehləri və vəliləri adi mələklərdən daha fəzilətli və daha üstündürlər. Adi mələklər isə, adi müsəlmanlardan, yəni asi və fasiqlərdən daha fəzilətlidirlər.

İmanın altı şərtindən üçüncüsü, Allah Təalanın göndərdiyi kitablarına inanmaqdır. Allah Təala bu kitabları bəzi peyğəmbərlərə mələklə oxutduraraq, bəzilərinə bir lövhədə yazılı olaraq, bəzilərinə də mələksiz eşitdirərək göndərmişdir. Bu kitabların hamısı Allah Təalanın kəlamıdır. Bu kitablar əbədi və əzəli olub məxluq deyildir. Bunlar, mələklərin vəya peyğəmbərlərin öz sözləri deyildir. Allah Təalanın göndərdiyi kitabların hamısı haqdır və doğrudur.

Qur'ani Kərim, bütün kitabları nəsh etmiş, hökmlərini e'tibarsız saymışdır. Qur'ani Kərimdə qiyamətə qədər, heç bir zaman səhv, unutqanlıq, artıqlıq və nöqsanlıq olmaz. Keçmiş və gələcəkdəki bütün elmlər Qur'ani Kərimdə vardır. Bunun üçün O, bütün kitablardan üstün və qiymətlidir. Rəsuli əkrəmin (səlləllahu əleyhi və səlləm) ən böyük mö'cüzəsi Qur'ani Kərimdir. Bütün insanlar və cinlər bir yerə yığılsa, hamısı Qur'ani Kərimin ən qısa surəsi kimi bir söz deyə bilmək üçün çalışsalar, yenə də deyə bilməzlər.

Bizə deyilənə görə yüz dört səmavi kitab vardır. Bunlardan on suhuf (səhifə) Adəm əleyhissalama, əlli suhuf Şis (Şit) əleyhissalama, otuz suhuf İdris əleyhissalama, on suhuf İbrahim əleyhissalama göndərildiyi bilinməkdədir. Tövrat Musa əleyhissalama, Zəbur Davud əleyhissalama, İncil İsa əleyhissalama və Qur'ani Kərim Məhəmməd əleyhissəlatu vəssalama nazil olmuşdur.

İman edilməsi lazım olan altı şərtdən dördüncüsü, Allah Təalanın peyğəmbərlərinə inanmaqdır. Peyğəmbərlər, insanları Allah Təalanın istədiyi yola qovuşdurmaq, doğru yolu göstərmək üçün göndərilmişlər. Yaradılış, mizac, elm və ağıl cəhətindən öz dövrlərinəki bütün insanlardan üstün, qiymətli və möhtərəm kəslərdir.

Heç bir pis əxlaq və bəyənilməyən bir xüsusiyyətləri yoxdur. Peyğəmbərlərdə ismət vəsfi vardır. Yəni, peyğəmbər olduğu bildirilmədən əvvəl və bildirildikdən sonra, istər kiçik, istərsə də böyük olsun heç bir günah iş görməzlər. Peyğəmbər olduğu bildirildikdən sonra, peyğəmbər olduğu yayılıncaya, məlum oluncaya qədər, korluq, karlıq və buna oxşar ayıb və qüsurları da olmaz. Hər peyğəmbərdə aşağdakı yeddi vəsfin olğuna inanmaq lazımdır; Əmanət, sədaqət, də'vət, ədalət, ismət, fətanət (çox ağıllı və çox anlayışlı) və əmnuləzl (yəni, hər hansı bir peyğəmbər peyğəmbərlikdən əzl edilməz).

Yeni bir din gətirən peyğəmbərlərə "Rəsul" deyilir. Yeni din gətirməyib, insanları özündən əvvəlki dinə də'vət edən peyğəmbərlərə də "Nəbi" deyilir. Əmrləri yerinə yetirməkdə və insanları Allahın dininə çağırmaqda, rəsul ilə nəbi arasında bir fərq yoxdur. Peyğəmbərlərə iman etmək, aralarında heç bir fərq qoymayaraq, hamısının sadiq, doğru sözlü olduğuna inanmaq, deməkdir. Onlardan birinə inanmayan heç birisinə inanmamış sayılır.

Peyğəmbərlik əlləşməklə, aclıq və çətinlik çəkməklə, çox ibadət etməklə qazanılmaz. Ancaq Allah Təalanın ehsanı və seçməsi ilə olar. İnsanların dünya və axirətdəki işlərinin düzgün və faydalı olması, onları zərərlı işlərdən qoruyub, səlamətə, hidayətə və firavançılığa qovuşdurmaq üçün, peyğəmbərlər vasitəsiylə dinlər göndərilmişdir. Peyğəmbərlər, düşmənlərin çoxluğuna, inanmayanların istehza etmələrinə, üzmələrinə baxmayaraq, Allah Təalanın əmrlərini insanlara də'vət etmək və çatdırmaq üçün düşmənlərdən qorxmamış, çəkinməmişlər. Allah Təala, peyğəmbərlərin doğru söz sahibi olduqlarını, doğru söylədiklərini göstərmək üçün, onları mö'cüzələrlə qüvvətləndirmişdir. Heç kim bu mö'cüzələrə qarşı gələ bilmədi. Bir peyğəmbəri qəbul edib inanan kəslərə, həmin peyğəmbərin ümməti deyilir. O peyğəmbərlərə, qiyamət günündə, ümmətlərindən günahı çox olanlara şəfaət etmələri üçün izin veriləcək və şəfaətləri qəbul olacaqdır. Ümmətlərindən, alim, saleh, vəli olanlarına da şəfaət etmələri üçün Allah Təala izin verəcək və şəfaətlərini qəbul edəcəkdir. Peyğəmbərlər (əleyhimussalavatu vəttəslimat), öz qəbrlərində, bizim bilmədiyimiz bir həyatla diridirlər. Mübarək bədənlərini torpaq çürütməz. Buna görə hədisdə; "Peyğəmbərlər, öz qəbrlərində namaz qılarlar" buyrulmuşdur.

Peyğəmbərlərin (əleyhimüssalam) mübarək gözləri yatarkən, qəlb gözləri yatmaz. Peyğəmbərlik vəzifələrini görməkdə və peyğəmbərlik üstünlüklərini

daşımaqda, bütün peyğəmbərlər bərabərdir. Yuxarıda bildirilən yeddi vəsf hamısında vardır. Peyğəmbərlər, peyğəmbərlikdən əzl edilməz. Vəlilər isə, övliyalıqdan çıxa bilərlər. Peyğəmbərlər (əleyhimussalavatu vəttəslimat) insanlardan olar. Cindən, mələkdən və qadınlardan insanlara peyğəmbər olmaz. Cin və mələk, peyğəmbərlərin dərəcələrinə qalxa bilməz. Peyğəmbərlər də bir-birilərindən şərəf və fəzilət cəhətlərinə görə üstünlükləri vardır. Məsələn, ümmətlərinin çox olması, göndərildikləri ölkələrin böyük olması, elm və mərifətlərinin çox olması və çox yerlərə yayılması, mö'cüzələrinin daha çox və mütəmadi olması, özləri üçün ayrı dəyər və ehsanların verilməsi kimi üstünlüklər cəhətindən axır zaman peyğəmbəri Məhəmməd əleyhissəlam, bütün peyğəmbərlərdən daha üstündür. Ululəzm olan peyğəmbərlər, olmayanlardan, rəsullar da rəsul olmayan nəbilərdən daha üstündürlər.

Peyğəmbərlərin (əleyhimussalam) sayı tam mə'lum deyildir. Yüz iyirmi dörd mindən çox olduqları bilinməkdədir. Bunlardan üç yüz on üç vəya üç yüz on beş nəfəri rəsuldur. Bunlardan da altısı daha yüksək mərtəbəyə malikdir. Bunlara "Ululəzm" peyğəmbərlər deyilir. Ululəzm peyğəmbərlər; "Adəm, Nuh, İbrahim, Musa, İsa və Məhəmməd Mustafa (əleyhimussalatu vəssalam)" Həzrətləridir.

İbrahim əleyhissalam Xəlilullahdır. Çünki, Onun ürəyində Allah sevgisindən başqa heç bir məxluqun sevgisi yox idi. Musa əleyhissalam Kəlimullahdır. Çünki, O, Allah Təala ilə danışmışdı. İsa əleyhissalam Ruhullah və Kəlimətullahdır. Çünki, Onun atası yox idi. O, ancaq "Ol" ilahi kəlməsiylə anasından dünyaya gəlmişdi. Bundan başqa, Allah Təalanın hikmət dolu kəlmələrini, nəsihət edərək insanların çatdırardı.

Məxluqların yaradılmasına səbəb olan və Adəm oğullarının ən üstünü, ən şərəflisi və ən dəyərlisi olan Məhəmməd əleyhissalam Həbibullahdır. Onun, Həbibullah olduğunu, böyüklüyünü və üstünlüyünü göstərən həddən çox dəlillər vardır. Buna görə də Onun haqqında, "Məğlub olmaq" və "Darmadağın olmaq" kimi ifadələr deyilməz. Qiyamətdə, hamıdan qabaq qəbirdən qalxacaqdır. Məhşər yerinə ən əvvəl gedəcəkdir. Cənnətə hər kəsdən qabaq girəcəkdir. Gözəl əxlaqı, saymaqla qurtarmaz və bəhs etməyə insan gücü çatmaz.

Qiyamət günü bütün peyğəmbərlər, Onun bayrağı altında kölgələnəcəklər. Allah Təala, hər peyğəmbərə əmr etmişdir ki; "Məxluqlarımın arasında, seçib sevdiyim, Həbibim Məhəmməd əleyhissalamın peyğəmbər olduğu zamana çatsanız, Ona iman edin və köməklik göstərin! Bütün peyğəmbərlər də, ümmətlərinə belə vəsiyyyət və əmr

etdi. Məhəmməd əleyhissalam, “Xatəmulənbiya”dır. Yəni, Ondan sonra heç bir peyğəmbər gəlməyəcəkdir.

İman edilməsi lazım olan şərtlərdən beşincisi, axirət gününə inanmaqdır. Axirət gününün başlanğıcı insanın öldüyü gündür və qiyamətin axırına qədərdir. Qiyamətin nə vaxt olacağı insanlara bildirilmədi, ona görə də indiyə qədər heç kim zamanını bilməmişdir. Ancaq, Cənabi Peyğəmbərimiz bir çox əlamətlərini və başlanğıclarını belə xəbər vermişdir ki; “Qiyamət gününə yaxın vaxtlarda Həzrəti Mehdi gələcək, İsa əleyhissalam göydən Şama enəcək, Dəccal ortaya çıxacaq, Yəcuc-Məcuc hər yeri qarışdıracaq, günəş qərbdən çıxacaq, böyük zəlzələlər olacaq, dini mə’lumatlar yaddan çıxacaq, fasiqlik və pislik çoxalacaq, dinsiz, əxlaqsız, namussuz kəslər başçı olacaq, Allah Təalanın əmrləri yerinə yetirilməyəcək, hər yerdə haram iş görüləcək, Yəməndən bir od çıxacaq, göylər və dağlar parçalanacaq, günəş və ay qaralacaq, dənizlər bir-birinə qarışacaq və qaynayıb quruyacaqdır.[597]

Günah iş görən müsəlmanlara fasiq deyilir. Fasiqlərə və bütün kafirlərə qəbirdə əzab olacaqdır. Bunlara əlbəttə inanmaq lazımdır. Ölü qəbrə qoyulunca, naməlum bir həyat ilə diriləcək, rahat olacaq vəya əzab cəkəcəkdir. Münkər və Nəkir adındakı iki mələyin, naməlum qorxunc bir insan cildində qəbrdə sual soruşacaqlarını hədislər açıq şəkildə bildirməkdədir.[598] Bəzi alimlərin rəyinə görə qəbirdə verilən sualların bir hissəsi əqidə ilə, bəzi alimlərə görə isə hamısı əqaid barəsində olacaqdır. Bunun üçün uşaqlara, “Rəbbin kimdir? Hansı dinə mənsubsan? Kimin ümmətindənsən? Kitabın hansıdır? Qiblən haradır? E’tiqadda və əməldə məzhəbin nədir?” suallarının cavabları öyrədiməlidir! Əhli sünnət olmayanın doğru cavab verə bilməyəcəyi, “*Təzkirəyi Qurtubi*” əsərində yazılmışdır. Gözəl cavab verənlərin qəbri genişlənəcək, Cənnətdən bir pəncərə açılacaqdır. Səhər və axşam, Cənnətdəki yerlərini görüb, mələklər tərəfindən onlara yaxşılıqlar ediləcək, müjdələr veriləcəkdir. Yaxşı cavab verə bilməsə, dəmir dəyənəklərlə elə vurulacaq ki, qışqırığını insandan və cindən başqa hər məxluq eşidəcəkdir. Belə bir adamın qəbri o qədər daralır ki, sümükləri bir-birinə qarışar. Cəhənnəmdən bir dəlik açılar. Səhər və axşam Cəhənnəmdəki yerini görüb, qəbrdə məhşərə qədər ağır əzablar çəkər.

[597] Buxari, “Elm”, 21; İbn Macə, “Fitən”, 25; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, III, 108.
[598] İbn Macə, “Fitən”, 25.

Öldükdən sonra təzədən dirilməyə də inanmaq lazımdır. Sümüklər, ətlər çürüyüb torpaq və qaza çevrildikdən sonra, hamısı təzədən bir yerə yığılacaq, ruh bədənlərinə girib qəbirlərindən qalxacaqdır. Buna görə də bu zamana qiyamət günü deyilir.

Bütün canlılar məhşər yerində toplanacaq. Hər insanın əməl dəftərləri uçaraq sahibinin yanına gələcəkdir. Bunları, yerlərin, göylərin, zərrələrin və ulduzların yaradanı, hədsiz qüdrət sahibi olan Allah Təala edəcəkdir. Bunların olacağını, Allah Təalanın Rəsulu (səlləllahu əleyhi və səlləm) xəbər vermisdir. Onun söylədikləri heç şübhəsiz ki, doğrudur və hamısı həyata keçəcəkdir.

Salehlərin və yaxşıların dəftərləri sağ tərəfindən, fasiqlərin və pislərin dəftərləri isə arxa vəya sol tərəfindən veriləcəkdir. Yaxşı və pis, böyük və kiçik, gizli və açıq hər şey dəftərdə olacaqdır. Kiramən katibin mələklərinin bilmədiyi işlər belə, bədən üzvlərinin xəbər verməsiylə və Allah Təalanın bilməsi ilə ortaya çıxardılacaq, hər şeydən sual verilib, hesaba çəkiləcəkdir. Məhşərdə, Allah Təalanın dilədiyi hər gizli şey meydana çıxacaqdır. Mələklərə, "Yerlərdə və göylərdə nə iş gördünüz?", Peyğəmbərlərə, "Allah Təalanın hökmlərini qullara necə çatdırdınız?" Hər kəsə də, "Peyğəmbərlərə necə itaət etdiniz, sizlərə xəbər verilən vəzifələri necə yerinə yetirdiniz? Bir-birinizin haqlarınıza necə riayət etdiniz?" deyə soruşulacaqdır. Məhşərdə imanı olub, əməli və əxlaqı gözəl olanlara mükafat və ehsanlar veriləcək, pis əxlaqlı, pozğun əməllərə sahib olanlara isə ağır cəzalar veriləcəkdir.

Allah Təala, ədaləti ilə bəzi kiçik günahlar üçün də əzab verəcək, dilədiyi mö'minlərin böyük və kiçik bütün günahlarını öz fəzliylə və ehsanıyla bağışlayacaqdır. Şirkdən və küfrdən başqa, bütün günahları istəsə bağışlayacaq, diləsə kiçik günahlara görə də əzab verəcəkdir. Müşrik və kafir olaraq ölənləri qət'iyyən bağışlamayacağını bildirməkdədir. Kitablı və kitabsız kafirlər, yəni Məhəmməd əleyhissalamın bütün insanlara peyğəmbər olduğuna inanmayan, Onun bildirdiyi əhkamdan, yəni əmr və qadağalardan birini belə bəyənməyənlər, bu vəziyyətdə ölsələr, əlbəttə Cəhənnəmə atılacaq, əbədi əzab çəkəcəklər.

Qiyamət günü, əməlləri, işləri ölçmək üçün, bizim bilmədiyimiz bir mizan, bir ölçü aləti, bir tərəzi vardır. Yer-göy bir gözünə sığar. Savab gözü parlaq olub, Ərşin sağında Cənnət tərəfindədir. Günah tərəfi isə Ərşin solunda, Cəhənnəm tərəfində qaranlıqdadır. Dünyada görülən işlər, sözlər, düşüncələr, baxışlar, orda formalaşaraq,

yaxşılıqlar parlaq, pisliklər isə qaranlıq və iyrənc görünüb, bu tərəzidə çəkiləcəkdir. Bu tərəzi dünya tərəzilərindən fərqlənir. Belə ki, bu tərəzinin, dünyadakı tərəzilər kimi ağır tərəfi yuxarı, yüngül tərəfı isə aşağı enməz. Alimlərin bir hissəsinə görə, müxtəlif tərəzilər olacaqdır.

Sirat körpüsü vardır. Sirat köprüsü, Allah Təalanın əmri ilə, Cəhənnəmin üstündə qurulacaqdır. Hər kəsə, bu körpüdən keçməsi əmr ediləcəkdir. O gün, bütün peyğəmbərlər; "Ya Rəbbi! Səlamət ver" deyə yalvaracaqlar. Cənnətlik olanlar körpüdən rahat keçərək Cənnətə gedəcəklər. Bunlardan bəzisi ildırım kimi, bəzisi külək kimi, bəzisi də at kimi çaparaq keçəcəklər. Sirat körpüsü tükdən nazik, qılıncdan itidir. Dünyada İslamiyyətə riayət etmək də belədir. İslamiyyətə tam riayət etməyə çalışmaq, sirat körpüsündən keçmək kimidir. Burda nəfs ilə mübarizə aparmağın çətinliyinə dözənlər, orda sirat körpüsünü rahat keçəcəkdir. Elə buna görə də, Allah Təala İslamiyyətin göstərdiyi doğru yola; "Sirati müstəqim" adını vermişdir. Bu ad bənzərliyi də, İslamiyyətə sarılmağın, elə sirat körpüsünü keçmək mənasına gəldiyini göstərməkdədir. Cəhənnəmlik olanlar siratdan keçə bilməyib Cəhənnəmə düşəcəklər.

Cənabi Peyğəmbərimizə (səlləllahu əleyhi və səlləm) məxsus olan Kövsər hovuzu da vardır. Böyüklüyü bir aylıq yol uzunluğundadır. Suyu südən daha ağ, iyi müşgdən daha gözəldir. Ətrafındakı qədəhlər ulduzlardan daha çoxdur. Bir dəfə içən, Cəhənnəmdə olsa belə, bir daha susuzluq hiss etməz.

Şəfaət haqdır. Tövbəsiz ölən mö'minlərin kiçik və böyük günahlarının bağışlanması üçün, peyğəmbərlər, vəlilər, salehlər, mələklər və Allah Təalanın izin verdiyi kəslər şəfaət edəcək və şəfaətləri də qəbul ediləcəkdir.

Cənnət və Cəhənnəm hal-hazırda da vardır. Cənnət, yeddi qat göyün üstündədir. Cəhənnəm, hər şeyin altındadır. Səkkiz Cənnət, yeddi də Cəhənnəm vardır. Cənnət, yer kürrəsindən, günəşdən və göylərdən daha böyükdür. Cəhənnəm də günəşdən böyükdür.

İnanılması lazım olan əsaslardan altıncısı, qəxavu-qədərə, xeyir və şərlərin Allah Təaladan gəldiyinə inanmaqdır. İnsanlara gələn xeyir və şər, fayda və zərər, qazanc və ziyanların hamısı Allah Təalanın təqdir etməsindən qaynaqlanır. Allah Təalanın, bir şeyin var olmasını diləməsinə "Qədər" deyilmişdir. Qədərin, yəni var olmasının istənilən şeyin mövcud olmasına isə "Qəza" deyilir. Qəza və qədər sözləri bir-birinin yerinə də istifadə olunur.

Bütün heyvanların, bitgilərin, cansızların, bərk və maye halda olanların, qazların, ulduzların, malekulların, atomların, elektronların, eləktromaqnit dalğaların, qısaca hər bir varlığın hərəkəti, fiziki hadisələri, kimyəvi reaksiyaları, nüvə reaksiyaları, enerji mübadilələri, canlılardakı fiziolojik fəaliyyətlər, hər şeyin var olması vəya olmaması, qulların yaxşı vəya pis işləri, dünyada və axirətdə bunların cəzasını çəkmələri, hər şey, əzəldən Allah Təalanın elmində mövcud idi. Allah, bütün bunların hamısını əzəldən bilirdi. O, əzəldən əbədə qədər baş verəcək şeyləri, xüsusiyyətləri, hərəkətləri və hadisələri əzəldən bildiyinə münasib şəkildə yaratmaqdadır. İnsanların, istər yaxşı, istərsə də pis olsun bütün işlərini, müsəlman vəya kafir olacaqlarını, istəkli vəya istəksiz bütün işlərini Allah Təala yaratmaqdadır. Yaradan və edən ancaq Odur. Səbəblərin meydana gətirdiyi hər şeyi də yaradan Odur. Hər şeyi bir səbəb ilə yaratmaqdadır.

Məsələn, od yandırıcıdır, halbuki yandıran Allah Təaladır. Odun yandırmaqla heç bir əlaqəsi yoxdur. Ancaq, onun xüsusiyyəti, özünə bir şeyin təmas etməsiylə ortaya çıxar. Od, alışıb-yanma istiliyinə qədər, isitməkdən başqa bir şey etməz. Təbii cismlərin quruluşunda olan karbona və hidrogenə, oksigenlə birləşmək qabiliyyəti verən, elektron mübadilələrini ortaya çıxardan şey od deyildir. Doğrunu görə bilməyənlər, bunları odun etdiyini zənn edərlər. Yandıran, yanma reaksiyasını yerinə yetirən nə od, nə oksigen, nə istilik, nə də eləktron mübadiləsidir. Yandıran, ancaq Allah Təaladır. Bunların hamısını, yanmaq üçün bir səbəb olaraq yaratmışdır. Bu barədə məlumatı olmayanlar odun yandırdığını zənn edərlərlər. İbtidai məktəbi qurtaran bir nəfərin, “Od yandırar” sözünü deyil, “Hava yandırar” sözünü demək xoşuna gələr. Orta məktəbi qurtaran da bunu qəbul etməz və “Havadakı oksigen yandırar” deyər. Litseyi qurtaran; “Yandırmaq xüsusiyyəti oksigenə məxsus deyildir. Hər elektron daşıyan element yandırıcı xüsusiyyətə malikdir” deyər. Universitetli isə, maddə ilə birlikdə enerjini də nəzərə alar. Buradan belə başa düşülür ki, elm artdıqca, işin məğzinə yaxınlaşılmaqda, səbəb zənn edilən şeylərin arxasında, daha neçə səbəblərin var olduğu ortaya çıxmaqdadır. Elmin və fənnin ən yüksək dərəcəsinə sahib olan, həqiqətləri tam olaraq görən peyğəmbərlər və o böyüklərin yolunu tutaraq elm dəryalarından damcılara qovuşan İslam alimləri, bu gün yandırıcı və yaradıcı zənn edilən şeylərin, aciz, zavallı bir vasitə vəya bir məxluq olduqlarını, həqiqi yaradanın, onları bir səbəb kimi istifadə etdiyini bildirirlər. Yandıran, ancaq Allah Təaladır. O, od olmadan da yandırar. Ancaq, odla yandırmaq bir

adətidir. Yandırmaq istəməsə, odun içində belə yandırmaz. Necə ki, İbrahim əleyhissalamı odda yandırmadı. Onu çox sevdiyi üçün bu adətini pozdu.

Allah Təala diləsəydi hər şeyi səbəbsiz yaradardı. Odsuz yandırar, yemədən doyuzdurardı. Ancaq lütf edərək, qullarına yaxşılıq edərək, hər şeyi yaratmasını bir səbəbə bağlamışdır. O, müəyyən şeyləri, müəyyən səbəblərlə yaratmağı diləmişdir. İşlərini də səbəblərin altında gizlətmişdir. Qüdrətini də səbəblər altında gizlətmişdir. Onun bir şeyi yaratmasını istəyən, o şeyin səbəbinə bağlanar və o şeyə qovuşar. Lampanı yandırmaq istəyən kibritdən istifadə edər. Zeytun yağını sıxmaq istəyən, bunun üçün alətdən istifadə edər. Başı ağrıyan aspirin atar. Cənnətə gedib, saysız-hesabsız ne'mətlərə qovuşmaq istəyən, İslamiyyətə riayət edər. Özünə qəsd edən vəya zəhər içən ölər. Tərli ikən su içən xəstələnər. Günah iş görən, küfrə düşən də Cəhənnəmə gedər. Hər kəs hansı səbəbə baş vurarsa, o səbəbin vasitə olduğu şeyə qovuşar. İslami kitabları oxuyan müsəlmanlığı öyrənər, sevər və müsəlman olar, dinsizlərin arasında yaşayan, onların sözlərini dinləyən din cahili olar. Din cahillərinin çoxu isə imansız olar. İnsan hansı yerin miniyinə minərsə ora da gedər.

Allah Təala, öz işlərini səbəblərlə yaratmamış olsaydı, heç kim heç kimə möhtac olmazdı. Hər kəs, hər şeyi Allah Təaladan istəyər, heç bir şeyə baş qatmazdı. Belə olunca, insanlar arasında başçı, qulluqçu, işçi, sənətkar, tələbə, müəllim və başqa bəşəri əlaqələr qalmaz, dünya və axirətin nizamı pozulardı. Gözəl ilə çirkin, yaxşı ilə pis və itaət edənlə asi arasında fərq qalmazdı.

İslamiyyət müsəlmanlardan, Cənabi Peyğəmbərimizin (səlləllahu əleyhi və səlləm) inandığı və bildirdiyi kimi iman etmələrini istəməkdədir. Peyğəmbərimiz bir cür iman bildirmişdir. Əshabi kiramın hamısı, Onun bildirdiyi kimi inanmış, e'tiqadda (inancda) heç bir ayrılıqları olmamışdır. Cənabi Peyğəmbərimizin vəfatından sonra insanlar, İslamiyyəti Əshabi kiramdan eşidərək və soruşaraq öyrənmişdilər. Hamısı eyni imanı bildirmişdilər. Onların, Peyğəmbərimizdən nəql edərək bildirdikləri bu imana Əhli sünnət e'tiqadı deyilmişdir. Əshabi kiram bu iman bilgilərinə öz rəylərini, filosofların kəlamlarını, nəfsani arzularını, siyasi görüşlərini və buna bənzər başqa şeyləri əsla qarışdırmamışlar.

Əshabi kiram, hamısında kamal dərəcəsində mövcud olan Allah Təalanı tənzih və təqdis etmək, Onun bildirdiklərini tərəddüdsüz qəbul edib inanmaq, mutəşabih (mənası açıq olmayan) ayələrin şərhinə həddən artıq aludə olmamaq... kimi vəsfləriylə

öz imanlarını Peyğəmbərimizdən eşitdikləri kimi mühafizə etmiş, İslamiyyətdəki iman əsaslarına saf, bərraq və əslinə münasib bir şəkildə də'vət etmiş, bildirmişlər.

Əshabi kiramın Rəsulullahdan nəql edərək bildirdikləri bu təbliği, olduğu kimi, heç bir şey əlavə etmədən vəya çıxartmadan qəbul edib, olduğu kimi inanıb, onların yolunda olanlara Əhli sünnət və camaat qrupu, bu doğru və əsl (həqiqi) İslamiyyət yolundan ayrılanlara da, Bid'ət qrupları (zəlalətə düşən, yolunu azan qruplar) deyilmişdir.

Əshabi kiramın hamısı müctəhid idilər. Onlar dini bilgilərini bilavasitə Rəsulullahdan aldılar. Onu bilavasitə görməyin, Onun söhbətlərində iştirak etməyin qazandırdığı çox yüksək mənəvi kamallara, yetişginliklərə və üstünlüklərə çatdılar. Nəfsləri tox olub, hər biri ixlas, ədəb, elm və irfanda Əshabdan olmayanlardan heç bir alimin və övliyanın əldə edə bilməyəcəyi dərəcələrə qovuşdular. Hər birinin bir hidayət ulduzu olduğu hədisdə bildirilmişdir.[599] Hamısının imanı və e'tiqadı bir idi. Barələrində nass (ayə və hədis) olmayan məsələlər barəsində ictihad etdilər. Hər biri, əməldə məzhəb sahibi idilər. Çoxusunun ictihadlarından çıxartdıqları hökmlər bir-birilərinə bənzəyərdi. İctihadlarının bir yerə yığılıb kitablaşdırılmaması səbəbiylə onların məzhəbləri yaddan çıxardıldı. Buna görə də, bu gün Əshabı kiramdan hər hansı birinin məzhəbinə riayət etmək mümkün deyildir.

İslamiyyəti Əshabi kiramdan öyrənən tabiun və bunlardan öyrənən təbəyi tabiundan da dini bilgilər mövzusunda yüksəlib, mütləq müctəhidlik dərəcəsinə çatan böyük imamlar çıxdı. Bunlar da əməldə məzhəb sahibi idilər və hər birinin ictihadlarından meydana gələn hökmlərə, o alimin məzhəbi deyilmişdi. Bu alimlərdən də çoxunun məzhəbi kitablaşdırılmadığı üçün unudulmuşdur. Ancaq, dörd böyük imamın ictihadları, tələbələri tərəfindən kitablaşdırılmış, beləcə mühafizə edilərək müsəlmanlar arasında yayılmışdır. Yer üzündə yaşayan bütün müsəlmanlara doğru yolu göstərən və İslam dinini dəyişməkdən, pozulmaqdan qoruyan bu dörd imamın birincisi İmam Əzəm Əbu Hənifə, ikincisi İmam Malik ibn Ənəs, üçüncüsü İmam Məhəmməd ibn İdris Şafii, dördüncüsü də Əhməd ibn Hənbəldir.

Əhli sünnət e'tiqadına sahib olan bu dörd imamdan İmam Əzəmin yoluna Hənəfi məzhəbi, İmam Malikin yoluna Maliki məzhəbi, İmam Şafiinin yoluna Şafii məzhəbi, İmam Əhməd ibn Hənbəlin yoluna da Hənbəli məzhəbi deyilmişdir. Bu gün

[599] Əhməd Şami, *Sübülül-Huda*, X, 329.

bir müsəlmanın Allah Təalanın rızasına münasib ibadət və iş görə bilməsi, ancaq bu dörd məzhəbdən birinə riayət etməsiylə mümkündür.

### İbadətlər

Birincisi, şərtlərinə və fərzlərinə münasib olaraq, hər gün beş dəfə, vaxtı girincə namaz qılmaqdır. Namazlar fərzlərinə, vaciblərinə və sünnətlərinə fikir verilərək Haqdan başqa hər şey unudularaq, vaxtını qaçırtmadan qılınmalıdır. Qur'ani Kərimdə, namaza "Salat" deyilir. Salat, lüğətdə insanın dua etməsi, mələklərin istiğfar etməsi, Allah Təalanın mərhəmət etməsi, yazığı gəlməsi deməkdir. İslamiyyətdə salat demək, elmihal kitablarında bildirildiyi kimi, müəyyən hərəkətləri etmək və müəyyən şeyləri oxumaq deməkdir. Namaz qılmağa iftitah (başlanğıc) təkbiri ilə başlanır. Yəni, namaz kişilərin əllərini qulaqlarına qədər qaldırıb göbək altına üst-üstə qoyarkən, "Allahu əkbər" deməələri ilə başlanır. Axırıncı oturuşda, başı sağ və sol çiyinlərə çevirib, salam verərək namaz qurtarılır.

İkincisi, malın zəkatını verməkdir. Zəkatın mənası, təmizlik, tərifləmək və yaxşı, gözəl vəziyyətə çevrilmək deməkdir. İslamiyyətdə zəkat demək, ehtiyacından artıq, nisab deyilən müəyyən bir miqdarda zəkat malı olan hər hansı bir nəfərin, malından müəyyən miqdarını ayırıb, Qur'ani Kərimdə vəsfləri bildirilən müsəlmanlara, minnət qoymadan verməsi deməkdir. Zəkat, səkkiz qrupa verilir. Dörd məzhəbdə də dörd cür zəkat malı vardır. Qızıl və gümüşün zəkatı, ticarət malının zəkatı, ilin yarısından çoxunu otlaqlarda otlayan dördayaqlı ev heyvanlarının zəkatı və yerdə bitən hər növ ehtiyac maddəsinin zəkatıdır. Bu dördüncü zəkata "öşr" deyilir. Yerdən məhsul yığılan kimi öşr verilir. Digər üç zəkat isə nisab miqdarı olduqdan bir il sonra verilir.

Üçüncüsü, Ramazan ayında hər gün oruc tutmaqdır. Oruc tutmağa "Savm" deyilir. Savm, lüğətdə bir şeyi, bir şeydən qorumaq deməkdir. İslamiyyətdə isə, şərtlərinə riayət edərək, Ramazan ayında hər gün üç şeydən özünü qorumaq deməkdir. Bu üç şey yemək, içmək və cimadır. Ramazan ayı göydə hilalı (yəni ayı) görməklə başlayar. Təqvimlə qabaqcadan hesablamaqla başlamaz.

Dördüncüsü, gücü çatan hər bir nəfərin ömründə bir dəfə həccə getməsidir. Yol təhlükəsiz və bədən də sağlam olarsa, Məkkəyi mükərrəmə şəhərinə gedib gəlincəyə

qədər, ailəsinə bəs edəcək maldan artıq qalan pulla hər kəs ömründə bir dəfə, ehramlı olaraq, Kə'bəyi muəzzəməni təvaf etməsi və Ərafat meydanında durması fərzdir.

Beşincisi, Allah Təalanın dinini yaymaq üçün çalışmaq, yəni cihad etməkdir. Cihada hazırlanmaq ibadətdir.

Munakəhat; Evlənmə, boşanma, nəfəqə (aliment)... kimi qismləri vardır.

Muamələt; Alver, kirayə, şirkətlər, faiz, miras... kimi qismləri vardır.

Uqubat; Qisas, sirqat (oğruluq), zina, qəzf (iftira), riddət, yəni mürtəd olmağın cəzaları kimi beş esas hissəyə ayrılan cəzalardır.

## Əxlaq

İslamiyyət, gözəl əxlaqa sahib olmağı, nəfsi pis xasiyyətlərdən təmizləməyi, yaxşı xüsusiyyətlərə malik olmağı, hər cəhətdən iffətli və həyalı olmağı əmr edir. Bu məlumatları və yolları öyrədən elmə "Təsəvvüf" deyilir.

Bədən sağlığına aid bilgiləri tibb elmi öyrətdiyi kimi, qəlbin və ruhun pis əxlaqdan xilas olmasını da təsəvvüf elmi öyrədir. Qəlb xəstəliyinin əlamətləri olan pis işlərdən uzaqlaşdırıb, Allahın rızası üçün gözəl iş görməyi və ibadət etməyi tə'min edir.

İslamiyyət, əvvəlcə elm öyrənməyi, sonra da öyrəndiklərinə münasib iş görülməsini və ibadət edilməsini, bütün bunların da Allahın rızası üçün olmasını, qısacası elm, əməl və ixlası əmr etməkdədir. İnsanın mənəvi olaraq yüksəlməsi, dünya və axirət səadətinə qovuşması, bir təyyarənin uçmasına bənzədilərsə, iman ilə ibadət bunun gövdəsi və mühərrikləri kimidir. Təsəvvüf yolunda irəliləmək də, bunun enerji maddəsi, yəni yanacağıdır. Məqsədə nail olmaq üçün təyyarə təşkil edilir. Yəni, iman və ibadət qazanılır. Hərəkətə keçmək üçün də, güc, yəni təsəvvüf yolunda irəliləmək lazımdır.

Təsəvvüfün iki amalı vardır. Birincisi, imanın vicdaniləşməsi, yəni qəlbə yerləşməsi və şübhəyə düşürən tə'sirlərlə zədələnməməsi üçündür. Hətta ağıl, dəlil və isbatla gücləndirilən iman belə sağlam olmaz. Allah Təala, Qur'ani Kərimdə Rə'd surəsinin 28-ci ayəsində məalən belə buyurmuşdur ki; "Qəlblərə imanın hopması və yerləşməsi, ancaq və ancaq zikrlə olar". Zikr, hər işdə və hər hərəkətdə Allah Təalanı yada salmaq, Onun rızasına münasib iş görmək deməkdir.

Təsəvvüfun ikinci amalı, fiqh elmi ilə bildirilən ibadətlərin cani dildən, asanlıqla yerinə yetirilməsini və nəfsi əmmarədən törəyən tənbəlliklərin, çətinliklərin dəf edilməsidir. İbadətlərin cani dildən və rahat yerinə yetirilməsi, günah olan işlər görməyə də nifrət edərək uzaqlaşılması, ancaq təsəvvüf elmini öyrənib, bu yolda irəliləməklə mümkündür. Təsəvvüfə sarılmaq, hər kəsin bilmədiklərini görmək, qeybdən xəbər vermək, nur, ruh və qeyri adi röyalar görmək üçün deyildir. Təsəvvüflə qazanılan mərifətlərə, bilgilərə və hallara qovuşmaq üçün, əvvəlcə imanı düzəltmək, İslamiyyətin əmr və qadağalarını öyrənib, bunlara münasib iş görmək və ibadət etmək lazımdır. Onsuz da bu üçünü etmədikcə, qəlbin təmizlənməsi, pis əxlaqdan arınması, nəfsin təzkiyəsi və tərbiyə edilməsi mümkün deyildir.

## Məhəmməd əleyhissalama tabe olmaq

Məhəmməd əleyhissalama tabe olmaq, yəni Onu təqlid etmək, Onun getdiyi yolu tutmaqdır. Onun yolu, Qur'ani Kərimin göstərdiyi yoldur. Bu yola İslam dini deyilir. Onu təqlid etmək üçün, əvvəlcə iman etmək, müsəlmanlığı yaxşı öyrənmək, sonra da fərz olan dini əməlləri yerinə yetirib, haramlardan uzaq qalmaq, daha sonra da, sünnətləri yerinə yetirib, məkruh olan şeylərdən çəkinmək lazımdır. Bütün bunlardan sonra isə, mübah olan şeylərdə də Onu təqlid etməyə çalışmaq lazımdır.

İman etmək, Ona tabe olmağa başlamaq və səadət qapısından içəri girmək deməkdir. Allah Təala Onu, dünyadaki bütün insanları səadətə də'vət üçün göndərdi və Səbə surəsinin 28-ci ayəsində məalən; "Ey sevgili Peyğəmbərim! Səni, dünyadakı bütün insanlara, əbədi səadəti müjdələmək və bu səadət yolunu göstərmək üçün göndərirəm" buyurmuşdur.

Məsələn, Onu təqlid edən bir nəfərin, günorta vaxtı bir balaca yatması, yatmadan, bir neçə gecə ibadət etməsindən həmin adam üçün qat-qat daha qiymətlidir. Çünki, "Qaylulə" etmək, yəni günortadan qabaq bir az yatmak Peyğəmbərimizin adətiydi. Məsələn, Onun dini əmr etdiyi üçün, bayram günü oruc tutmamaq və yeyib-içmək, illər uzunu nafilə tutulan oruclardan daha qiymətlidir. Onun dininin əmri ilə kasıba verilən zəkat, öz istəyiylə dağ qədər qızıl sədəqə verməkdən daha üstün, daha fəzlətlidir.

Həzrəti Ömər, bir dəfə səhər vaxtı namazını camaatla qıldıqdan sonra, camaata baxıb, aralarında bir nəfəri görə bilməyincə, onun harda olduğunu soruşdu. Əshab belə dedilər ki; “Gecələri səhərə qədər ibadət edir. Bəlkə də indi yatıb qalmışdır”. Əmirulmö’minin; “Kaş ki, bütün gecəni yatıb, sübh namazını camaatla qılsaydı. Bu onun üçün daha yaxşı olardı” buyurdu.

İslamiyyətə bağlanmadan, özünü əziyyətə salıb mübarizə aparanlar nahaq yerə nəfslərini incidirlər. Bu insanların, əziyyətlərinin müqabilində bu dünyada xırda-xuruş bir-neçə mənfəətdən başqa əllərinə bir şey keçməz. Halbuki, bütün dünyanın qiyməti və əhəmiyyəti ibadətlərin bir neçəsindən belə dəyərsizdir. Dünyaya əhəmiyyət verənlər, hamıdan daha çox çalışıb yorulan nadan kəslərə bənzəyərlər. Onların qazancları da, gördükləri işə nisbətlə hamının işindən aşağıdır. İslamiyyətə tabe olanlar isə, lə’l-cəvahir və qiymətli almaslar ilə məşgul olan zərgərlər kimidir. Bunların işi az, qazancları isə daha coxdur. Bəzən bir saatlıq iş müqabilində, yüz minlərlə ilin qazancını qazanarlar. Bunun səbəbi, İslamiyyətə münasib olan əməlin, Haqq Təalanın məqbul gördüyü bir əməl olmasına görədir.

Belə olduğunu öz kitabının çox yerində bildirmişdir. Məsələn, Ali İmran surəsinin 31-ci ayəsində məalən; “Ey sevgili Peyğəmbərim! Onlara de ki, əgər Allah Təalanı sevirsinizsə və Allah Təalanın da sizi sevməsini istəyirsinizsə, mənə tabe olun! Allah Təala, mənə tabe olanları sevər” buyurur.

Məhəmməd əleyhissalama tabe olmaq, Əhkami İslamiyyəni bəyənib, ibadətləri sevə-sevə etmək, Onun əmrlərinə, İslamiyyətin qiymət verdiyi, üstün tutduğu şeylərə, alimlərinə, salehlərinə ehtiram göstərib hörmət etmək və Onun dinini yaymağa çalışmaq, dininə boyun əymək istəməyənləri, onu bəyənməyənləri və əhəmiyyət verməyənlərə də baş qoşmamaq deməkdir.

İslamiyyətə münasib olmayan şeylərin heç birisini Haqq Təala xoşlamaz, bəyənməz. Xoşlanılmayan, bəyənilməyən şeyə savab deyil, əksinə cəza verilər.

Hər iki dünyanın səadətinə qovuşmaq, ancaq və ancaq dünya və axirətin sahibi olan Məhəmməd əleyhissalama tabe olmağa bağlıdır. Ona tabe olmaq üçün iman etmək və İslam hökmlərini öyrənmək, haqqıyla yerinə yetirmək lazımdır.

Axirətdə Cəhənnəmdən xilas olmaq, ancaq Məhəmməd əleyhissalama tabe olanlara məxsusdur. Dünyada edilən bütün yaxşılıqlar, bütün işlər, bütün hallar və bütün elmlər Rəsulullahın (səlləllahu əleyhi və səlləm) yolunu tutmaq şərtiylə axirətdə işə

yarayar. Amma, Allah Təalanın Peyğəmbərinə tabe olmayanların etdiyi hər yaxşılıq dünyada qalar və axirəti üçün bir fayda verməz. Yəni bu, yaxşılıq şəklində görünən bir istidracdan başqa bir şey olmaz.

Məhəmməd əleyhissalama tam mənasıyla və qüsursuz tabe ola bilmək üçün, Onu tam mənasıyla və qüsursuz bir şəkildə sevmək lazımdır. Bütöv bir sevginin əlaməti də, Onun düşmənlərindən uzaq durmaq, Onu bəyənməyənləri bəyənməməkdir. Sevgidə mudahənə, yəni saymamazlıq olmaz. Aşiqlər, sevgililərinin divanəsi olub, əmrlərindən əsla çıxmazlar. Bir-birinə zidd olan şeylər bir yerdə qala bilməz. İki zidd şeyin məhəbbəti də bir qəlbdə ola bilməz.

Bu dünyanın ne'mətləri müvəqqəti və aldatıcıdır. Bu gün qazanılan şeylər sabah bir başqasının əlinə keçər. Axirətdə xeyir verən şeylər isə saysız-hesabsızdır və dünyada ikən qazanılar. Bu bir neçə günlük həyat, əgər dünya və axirətin ən qiymətli insanı olan Məhəmməd əleyhissalama tabe olaraq keçirilərsə, onda əbədi xoşbəxtlik, nicat və xilas mümkündür. Yoxsa, Ona tabe olmadıqca, hər şey bir heçdir. Ona tabe olmadıqca, görülən hər xeyir iş, hər yaxşılıq bu dünyada qalar, axirətdə isə bir faydası olmaz.

Ona tabe olmaq nəticəsində verilən savabın kiçik bir hissəsi, bütün dünya ne'mətlərindən və axirət səadətlərindən qat-qat üstündür. İnsanlıq məziyyəti və şərəfi, Ona tabe olmaqdır. Rəsulullaha tabe olmaq üçün müsəlmanların Əhli sünnətin dörd haqq məzhəbindən birində olmaları təməl şərtdir. Cənabi Peyğəmbərimizə iman edib gətirdiklərini təsdiq etmək, Onu sevib, itaət etmək, nəsihətlərini qəbul etmək, Ona hörmət edib, tə'zim göstərmək fərzdir. Bu barədə Allah Təala məalən; "O halda Allah Təalaya və Onun ümmi nəbisi olan Rəsuluna iman edin, Ona tabe olun ki, doğru yolu tapasınız".[600]

"Hər kim, Allah Təalaya və Peyğəmbərinə iman etməsə, heç bir şübhə yoxdur ki, (bilsin) ki, biz o kafirlər üçün yandırıcı bir od hazırlamışıq" buyurmaqdadır.

Rəsulullah da belə buyurmuşdur ki; "Allah Təaladan başqa ilah olmadığına şəhadət edib, mənə və mənim gətirdiklərinə iman edincəyə qədər, insanlarla (kafirlərlə) döyüşməyim mənə əmr olundu. Onlar iman edincə, müsəlmanlıq haqqının muqtəzası (cəzaları) xaricində, mallarını və canlarını azad edərlər. (Öz aralarındakı gizli işlərin) hesablarını isə Allah Təala görər".

---

[600] əl-Ə'raf 7/158.

"Mənə kim itaət etsə, Allah Təalaya itaət etmiş olar. Hər kim mənə üsyan etsə, Allah Təalaya üsyan etmiş olar. Mənim əmrimə itaət edən, mənə itaət etmiş, əmrlərimə üsyan edən də mənə üsyan etmiş olar".

"Mənə itaət edən və mənim gətirdiklərimə tabe olanın halı ilə, mənə üsyan edən və mənim gətirdiklərimi yalan sayanın halı, bir ev tikdirib, (insanlara gözəl bir ziyafət vermək üçün) cürbcür dadlı yeməklər hazırlayan, camaatı yeməyə çağırmaq üçün birisinə tapşıran bir adamın halına oxşayar. Çağrılan yerə gələn adam evə girər və hazırlanan yeməklərdən istədiyi qədər yeyər. Ancaq çağrılan yerə gəlməyən adam isə, evə girə bilməz və hazırlanan yeməklərdən də yeyə bilməz. Ev, (Rəsulullahın çağırışına qulaq asan muttəqilər üçün hazırlanan) Cənnətdir. (Allah Təalaya və Onun ne'mətləri ilə dolu olan Cənnətə) çağıran isə Məhəmməddir (əleyhissalam). Hər kim Məhəmmədə (əleyhissalam) üsyan etsə, Allah Təalaya üsyan etmiş olar. Məhəmməd (əleyhissalam), insanları özünü təsdiq edən mö'minlər və yalançı çıxardan kafirlər şəklində iki hissəyə ayırmışdır".

"Mənim sünnətimə və məndən sonra Xuləfayi raşidinin sünnətlərinə riayət edin. Ona var gücünüzlə və əhəmiyyət verərək sarılın. (Dində) sonradan meydana çıxardılan (Qur'ani Kərimdə, sünnəttə, ümmətin icmasında (fikir birliyində) və fəqihlərin qiyasında olmayan) şeylərdən çəkinin. Çünki, (dində) hər sonradan ortaya çıxan şey bid'ətdir. Hər bid'ət isə zəlalətdir".[601]

Ənəs ibn Malikin Rəsulullaha tabe olmaqla əlaqəli rəvayət etdiyi hədisdə, Peyğəmbərimiz (səlləllahu əleyhi və səlləm) belə buyurmuşdur ki; "Hər kim mənim sünnətimi ihya etsə (onunla əməl edərək yaysa), məni ihya etmişdir (şanımı ucaltmış, əmrimi izhar etmişdir). Məni ihya edən də Cənnətdə mənimlə birlikdədir".

Cənabi Peyğəmbərimiz, Bilal ibn Harisə belə buyurmuşdur ki; "Bir nəfər, İslamda yaxşı bir sünnət iş görsə, bu adamın savabına və onu edənlərin savablarına qovuşar. Bir nəfər İslamda bir pis sünnətə cığır açsa, onun günahı və onu edənlərin günahları özünə verilər".[602]

Ömər ibn Əbdüləziz Həzrətləri belə buyurmuşdur ki; "Rəsulullah gözəl bir cığır açdı. Ondan sonra da xəlifələri cığır açdılar. Rəsulullahın sünnətiylə və özündən

---

[601] İbn Macə, "Müqəddimə", 6; Darimi, "Müqəddimə", 16; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 126; Hakim, *əl-Müstədrək*, I, 174; Beyhəqi, *əs-Sünən*, II, 422; İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad*, I, 178, 411.

[602] İbn Macə, "Müqəddimə", 36; Darimi, "Müqəddimə", 44; Əhməd ibn Hənbəl, *əl-Müsnəd*, IV, 361; Təbərani, *əl-Mu'cəmul-Kəbir*, II, 315; Beyhəqi, *əs-Sünən*, II, 136.

sonrakı xəlifələrinin sünnətləriylə əməl etmək, Allah Təalanın kitabına münasib olaraq hərəkət etməkdir. Allahu Təalaya və Cənabi Peyğəmbərimizə itaət etmək, Allah Təalanın dinini qüvvətləndirməkdir. İslamiyyəti heç kimin pozmağa və dəyişdirməyə haqqı yoxdur. Sünnətə zidd olan kəslərin sözləriylə də əməl etmək caiz deyildir".

Cənabi Peyğəmbərimizin və Əshabi kiramın sünnətlərinə tabe olanlar hidayət tapmışlar. Bunlardan hər kim yardım istəsə, ona yardım edilmişdir. Hər kim sünnətlərə zidd gedib, onlarla əməl etməsə, müsəlmanların getdiyi yoldan fərqli bir yol tutmuşdur. Allah Təala o adamı pis işlər gördürərək Cəhənnəmə atar. Cəhənnəm necə də pis bir yerdir.

Əhməd ibn Hənbəl Həzrətləri belə buyurmuşdur ki; "Bir gün bir camaatın arasındaydım. Onlar əməlli-başlı soyunub suya girdilər. Mən isə; "Hər kim Allah Təalaya və axirət gününə iman edirsə, hamama (övrət yerlərini örtmədən) girməsin" hədisinə riayət edərək soyunmadım. O gecə röyamda bir nəfər; "Ey Əhməd! Sənə müjdə var! Çünki, Allah Təala, Rəsulullahın sünnətinə riayət etdiyin üçün səni bağışladı. Səni imam etdi. İnsanlar sənə tabe olarlar" dedi. Mən; "Siz kimsiniz?" deyə soruşunca, O; "Cəbrayılam" dedi".

Hər kim, hər işində, Rəsulullaha (səlləllahu əleyhi və səlləm) tabe olmasa, mö'min ola bilməz. Onu, öz canından çox sevməsə imanı natamam olar. O, bütün insanların və cinlərin Peyğəmbəridir.

Hər əsrdə yaşayan hər millətin Ona tabe olması vacibdir. Hər mö'minin, Onun dininə yardım etməsi, Onun əxlaqını örnək götürməsi, Onun mübarək adını çox zikr etməsi, adı çəkildikdə və eşidildikdə, hörmət və sevgiylə səlatu salam gətirməsi, mübarək camalını görməyə aşiq olması, gətirdiyi Qur'ani Kərimi, dinini sevməsi və ehtiram göstərməsi lazımdır.

## HİLYƏYİ SƏADƏT

Hilyəyi pakımı görsə biri,
Olar o, üzümü görmüş kimi,
Gördükdə hubbu hasil olsa,
Yəni hüsnümə aşiq olsa,
Məni görməyi etsə arzu,
Qəlbi sevgimlə olsa dolu,
Cəhənnəm olar ona haram,
Rəbbim Cənnəti edər ikram.
Daha, həşr etməz çılpaq anı Haqq,
Olar ğufranına Haqqın mülhaq.
Deyildi ki, hilyəyi Rəsuli,
Sevərək yazsa birinin əli,
Edər Haqq onu qorxudan əmin,
Bəla ilə dolsa ruyi zəmin.
Xəstəlik görməz dünyada təni,
Ağrı çəkməz heç bütün bədəni.
Günah etmiş isə də bu adam,
Cəhənnəm cisminə olar haram.
Axirətdə əzabdan xilas olar,
Dünyada hər işi asan olar.
Həşr eylər anı həm Rabbi cəllə,
Dünyada Rəsulu görənlərlə.
Hilyəyi Nəbiyi çətinkən bəyan,
Başlarıq ona olduqca imkan.
Sığınaraq zülcəlala,
Vəsf edərik acizanə.
İttifaq etdi bu sözdə üməm,
Qırmızı ağdı Fəxri aləm.
Mübarək üzü xalis ağ idi,
Gül kimi qırmızımtıl idi.
İnci kimi üzündəki təri,
Həm cism idi Rəsuli əkrəm,
Yaraşar, ruhi mücəssəm desəm.
Gözəl, həm sevimli idi Rəsul,
Haqqa çox sevgili idi Rəsul.
Maliklə Əbu Halə söylədi,
Hilal kimi açıq qaşlı idi.
İki qaşı arası hər zaman,
Gümüş kimi görünərdi, ə’yan.
Mübarək üzü az yuvarlaqdı,
Dərisi, bərraq, həm də parlaqdı.
Qara qaşları mihrabı anın,
Qibləsi idi, bütün cahanın.
Ortası yüksəkcə görünərdi,
Yandan baxınca mübarək burnu.
Çox gözəl idi çəkmə və lətif,
Edə bilməz görən tam tərif.
Seyrək idi dişlərinin arası,
Parlayardı, sanki inci sırası.
Ön dişləri etdikcə zühur,
Hər tərəfə yayılardı bir nur.
Gülsə idi iki cahan sərvəri,
Canlı cansız hər şeyin Peyğəmbəri.
Görünərdi ön dişləri, çox əfif,
Dolu danələri kimi, çox lətif.
İbni Abbas der Həbibi Xuda,
Gülməyə, eylər idi istihya.
Həm həyasından O dinin sənədi,
Qəhqəhə etmədi derlər əbədi.
Zərif, məhcub idi Rəsuli cənab,
Daim eylər idi baxmağa hicab.
Üzü bənzərdi, yuvarlaq aya,

Çox xoş eylərdi gözəl cövhəri.
Tərləyincə, O mənbəyi sürur,
Dalğalanardı sanki bəhri nur.
Görünərdi gözü daim sürməli,
Qəlbləri çəkərdi gözəl gözləri.
Ağı, ağ idi əlbəttə,
Mədh eylədi Rəbbi ayətlə.
Siyahı anın, deyildi ufaq,
Bir idi ona yaxınla uzaq.
Geniş, gözəl və lətifdi gözü,
Nur saçardı həp mübarək üzü.
Quvvəyi basırayi Mustafavi,
Gecə, gündüz kimi olardı qəvi.
Baxmaq arzu etsəydi bir yerə,
Cismi pakı da dönərdi belə.
Başa tabe edərdi cəsədi,
Bunu tərk etməmişdi əbədi.
Əshab içindən çox əhli ədəb,
Qarnı, sinəsiylə birdi dedi həp.
Açılsaydı mübarək sinəsi,
Feyz saçardı elm xəzinəsi.
Eşqə olunca məhəlli təşrif,
Başqa olarmı o sadri şərif?
Mübarək sinəsi geniş idi,
Elmi lədun ona inmiş idi.
Ağ və bərraqdı o sadri kəbir,
Sanardı görənlər bədiri munir.
Atəşi eşqi zati əzəli,
Odlara vurmuşdu O gözəli.
Bilir əlbət bunu piru cavan,
Yastı kürəkliydi Fəxri cahan.
Kürək ortası həm ətli idi,
Zatı aynaydı, uca Mövlaya.
Nurlu idi həp o vəchi həsən,
Baxılmazdı, tənəvvurundan.
Könüllər aldı o gözəl Nəbi,
Aşiqi oldu yüz min səhabi.
Bir dəfəcik görənlər röyada,
Dedilər belə zövq yox dünyada.
Həm gözəl yanaqları bilsinlər,
Çox ətli deyildi desinlər.
Anın etmişdi Cənabi Xalıq,
Severək üzün ağ, alnın açıq.
Boynunun nuru edərdi hər an,
Saçları arasında ləməan.
Mübarək saqqalından yaxşı bil,
Ağarmışdı ancaq on yeddi qıl.
Nə qıvrımdı, nə də uzun,
Hər üzvü kimi idi, mövzun.
Gərdani pakı Rəsuli afaq,
Çox ağ idi və çox da bərraq.
Bir sıra qıl düzülmüşdü, xilafsız.
Bu qara xətt, bu mübarək bədəndə,
Xoşdu halqa kimi, ay çevrəsində.
Bütün ömründə qalmışdı qəza,
Gənclikdə kimi mübarək əza.
İrəlilədikcə sinni Nəbəvi,
Təzələnirdi həp, qonça kimi.
Həm dahi, kainatın hökmdarı,
Zənn eyləmə ki, ola çox yağlı,
Nə zəif, nə də çox ətli idi,
Mötədil, həm çox qüvvətli idi.
Ləhmi, şəhmi dedilər əhli dərun,
Bir-birindən, nə ziyadəydi, nə dun.

Kərəm sahibi dövlətli idi.
Gümüş tənində lətafət vardı,
İricə möhri nübüvvət vardı.
Kürəyindəydi möhrü nübüvvət.
Sağ tərəfinə yaxındı əlbət.
Bildirdi bizə edənlər tərif,
Bir böyük xal idi möhrü şərif.
Rəngi sarıya yaxın qaraydı,
Göyərçin yumurtası qədərdi.
Ətrafına çəkilmiş sanki xətlər,
Bir-birinə bitişik tüklər.
Anladanlar O Ali nəsəbi,
Dedi iri sümüklüydü Nəbi.
Hər sümük iri, mərdanə idi,
Surəti, sirəti şəhanəydi.
Mübarək əzasının hər biri,
Münasib yaradılmışdı həm qəvi.
Çox xoş idi hər üzvü anın
Ayələri kimi Qur'anın.
Əllərin içi O hökmdarın,
Ayaqları altı dahi anın,
Geniş və pak idi nazik mərğub,
Təzə gül kimi lətif və məhbub.
Çox mövzun idi der əhli nəzər,
O kəramətli, mübarək əllər.
Salam versəydi birinə əgər,
Təbəssüm edərdi həp Peyğəmbər.
Bir iki gün, keçsəydi aradan,
Hətta uzasaydı da, bir aydan.
Müəyyən olardı xoş iyindən,
O kəs adamlar arasından.
Billur kimiydi təni bimuyu,
Etmiş, ol bədən sarayın ustad,
Ədlü dad ilə, əsasın bünyad.
Mö'tədil idi pak təni,
Nura qərq olmuşdu bütün bədəni.
Orta boylu idi, o Sidrəməkan,
Ortalıq Onun ilə tapdı nizam.
Seyr edən mö'cüzəvi qamətini,
Dedi həp, mədh edib Həzrətini.
Görmədik belə, gül üzlü gözəl,
Boyu, həm əxlaqı, həm üzü gözəl.
Orta boylu ikən Nəbi,
Uzun biriylə yerisəydi.
Nə qədər uzun olsa idi o ər,
Yenə hündür görünərdi Peyğəmbər.
Uzun boylu olandan o cövhər,
Yüksək idi, əlin içi qədər.
Bir yola getsəydi izzətlə,
Gedərdi çox sür'ətlə.
Derik, vəsfi şərifində yenə,
Yeriyərkən, əyilərdi önünə.
Yəni, bir yoxuşdan inər kimi,
Daim önünə, azca əyilərdi.
Şanlı, şərəfli idi, O Cəlil,
İftixar eylərdi, ruhi Xəlil.
Bir zatı ki, murad edə Xuda,
Hər əzası, olar əlbət ə'la.
Yolda gedərkən, əgər bir kimsə,
Qəflətən Rəsulullahı görsə,
Qorxu düşərdi qəlbinə anın,
Yüksəkliyindən Rəsulullahın.
Həm də biri Nəbi ilə müdam,
Söhbət edərək söyləsə kəlam,

Necə  mədh edim ol pəhluyu.
Dostu seyr etmək üçün o şərif,
Göz olmuşdu, bütün cismi lətif.
Kəmal üzərəydi zərif təni,
Xaliq göstərmişdi hikmətini.
Yoxdu, sinəsində, qarnında əsla,
Heç bir qıl, sanki gümüş lövhə.
Sinəsi ortasından aşağı yalnız,
Sözlərindəki ləzzət ilə ol,
Qul olardı qəbul etsə Rəsul.
Etmişdi Onu, Xəllaqi əzəl,
Hüsni əxlaqla, bimisli bədəl.
Ya Rəsulallah! gücüm yox mədhinə,
Yaradıldıq həp sənin hörmətinə.
Nəhayət, ey Şahi iqlimi vəfa,
Sənə canım da fəda, hər şey fəda!

XRONOLOGİYA

571 Həzrəti Məhəmməd əleyhissalamın doğumu. (12 Rəbiuləvvəl-20 Aprel 571 ) Süd anası Həliməyə verilməsi.

**574 Süd anası tərəfindən Məkkəyə gətirilərək anası Həzrəti Aminəyə verilməsi.**

575 Anasının vəfatı.

Babası Əbdülmuttəlibə verilməsi.

**577 Babası Əbdülmuttəlibin vəfatı və əmisi Əbu Talıba tapşırılması.**

578 Əmisi Əbu Talıbla Suriyaya səyahət etməsi.

**583 Əmisi Əbu Talıbla Suriyaya səyahəti və Bəsrədə rahib Bəhiranın, onun axırıncı peyğəmbər olacağını başa düşməsi.**

588 Əmisi Zübeyirlə Yəmənə səyahət etməsi.

**595 Həzrəti Xədicənin ticarət karvanının başında Şama səyahəti.**

596 Həzrəti Xədicə ilə evlənməsi.

**606 Kə'bəyi Şərifənin tə'mir edilməsində Həcəri Əsvədi yerinə qoyması.**

610 Hira mağarasında ilk vəhyin gəlməsi.

**613 Üç il gizli də'vətdən sonra Səfa təpəsinə çıxıb açıq-aşkar İslama də'vətə başlaması.**

615 Müsəlmanların Həbəşistana hicrət etmələri.

**616 Həzrəti Həmzənin müsəlman olması.**

Həzrəti Ömərin müsəlman olması.

**619 Həzrəti Xədicə və Əbu Talıbın vəfatı.**

620 Me'raca çıxması.

Birinci Əqəbə bey'əti.

**621 İkinci Əqəbə bey'əti.**

622 Məkkədən Mədinəyə hicrət.

**623 Bədir doyüşü və qələbə qazanması.**

**Qiblənin Məscidi Əqsadan Kə'bəyi Muəzzəməyə döndərilməsi.**

**Məscidin qabağında, kasıbları daldalandırmaq üçün "Suffə" tikilməsi.**

**Həzrəti Aişə ilə evlənməsi.**

624 Qızı Həzrəti Ruqiyyənin vəfatı.

Həzrəti Fatimə ilə Həzrəti Əlinin evlənmələri.

**625 Ühüd döyüşü.**

**Həzrəti Həmzənin şəhadəti. Həzrəti Həsənin doğumu.**
**(Ramazan ayında) Həzrəti Hüseynin doğumu.**
**(Şaban ayında) Həzrəti Ömərin qızı Həzrəti Həfsə ilə evlənməsi.**

627 Xəndək döyüşü.

**628 Hüdeybiyyə müqaviləsi.**
**Hökmdarlara və idarəçilərə, İslama də'vət məktublarının göndərilməsi.**
**Xeybərin fəth edilməsi.**

629 Mu'tə döyüşü və qələbəsi.

**630 Məkkənin fəth edilməsi**.
**Qızı Həzrəti Zeynəbin vəfatı.**
**Oğulları Həzrəti İbrahimin doğumu.**
**Oğulları Həzrəti İbrahimin vəfatı.**
**Təbuk döyüşü.**

632 Vəda Xutbəsi ilə yüz mindən çox Əshabi Kirama xitab etməsi.
Cənnətul-Bəqi qəbristanlığını ziyarət etməsi.
Vəfatı (8 İyul, Çərşənbə axşamı)

# BİBLİYOQRAFİYA

**Qur'ani Kərim**

**Bezzar, *əl-Müsnəd***
BEZZAR, Əbu Bəkir Əhməd İbn Əmr İbn Əbdülhalik əl-Basri, (292/905), *əl-Bəhruz-Zəhhar-Müsnədul-Bezzar*, (Təhqiq; Adil İbn Sə'd), Mədinə, Məktəbətul-Ulum vəl-Hikəm, 2006/1427.

**Bəlazuri, *Ənsab***
BƏLAZURİ, Əbul-Abbas Əhməd İbn Yəhya İbn Cabir, (279/892), *Ənsabul-Əşraf*, (Təhqiq; Riyaz Zirikli, Süheyl Zəkkar), Beyrut, Darul-Fikr, 1996/1417.

**Bəğavi, *əl-Ənvar***
el-BƏĞAVİ, Muhyissunnə əl-Hüseyn ibn Məs'ud, *əl-Ənvar fi Iəmailil-Muxtar,* (Təhqiq: Şeyx İbrahim əl-Yaqubi), II cild, Beyrut, Daruz-Ziya,1989/1409.

**Beyhəqi, *əs-Sünən***
əl-BEYHƏQİ, Əhməd İbn əl-Hüseyn (384/994), *əs-Sünənul-kubra*, I-X, Heydərəbad, Dairətul-Məarifîl-Osmaniyyə, 1344-56.
***Şuabul-İman*.**
------------- *Şuabul-İman*, (Təhqiq, Əbu Həcər Məhəmməd Zağlul), Beyrut, Darul-Kutubil-İlmiyyə, 1990.
***Dəlailun-Nübüvvə*.**
------------- *Dəlailun-Nübüvvə və marifətu ahvali sahibiş-şəria*, Beyrut, Darul-Kutubil-İlmiyyə, 1985.

**Buxari**
əl-BUXARİ, Məhəmməd İbn İsmail (256/870), *əl-Camius-səhih,* (Nəşr: Muhibbuddin Həbib), I-XIII, Qahirə, Darur-Rəyyan lit-Turas,1986.
**Buxari, *əl-Ədəbul-Müfrəd***
--------- *əl-Ədəbul-Müfrəd*, (Təhqiq: Məhəmməd Fuad Əbdülbaqi), Beyrut, Darul-Bəşairil-İslamiyyə, 1409/1989.

**Cavad Əli, *əl-Mufəssəl***
CEVAD, Əli, *əl-Mufassal fi tarixil-Ərəb qabləl-İslam,* I-IX, Beyrut, Darul-İlim lil-Məlayin, 1968-1972.

**Darəqutni, *əs-Sünən***
əd-DARƏQUTNİ, Ömər İbn Əhməd (ö. 385/995), *əs-Sünənud-Darəqutni*, (Nəşr. Abdullah Haşim Yəmani Mədəni), I-IV, Mədinə, Darul-Məhasin lit-Tıbaa, 1966.

**Darimi**
əd-DARİMİ, Abdullah İbn Abdurrahman (255/869), *əs-Sünənud-Dârimi,* (Tərcümə: Abdullah Aydınlı), I-VI, İstanbul, Madvə Yayınları, 1994-96.

**Əbu Nuaym, *Hilyətul-Övliya***

ƏBU NUAYM, əl-İsfəhani (430/1039), *Hilyətul-övliya və təbəqatul-əsfiya,* I-X, Qahirə, Matbaatus-Səadə, 1394-99/1974-79.

**Əbu Davud**
ƏBU DAVUD, Süleyman İbn əl-Əş'as (275/888), *əs-Sünən,* (Nəşr: Məhəmməd Avvamə), I-V, Beyrut, Müəssəsətur-Rəyyan, 1419/1998.

**Əcluni, *Kəşfu'l-Xəfa***
ƏCLUNİ, Əbul-Fida İsmail İbn Məhəmməd, (1162/1749), *Kəşful-Xəfa və muzilul-ilbas amməştəhərə minəl-əhadis alə əlsinətin-nas*, (Təhqiq; Əhməd Kalaş), Hələb, Məktəbətut-Turasil-İslami, Tarixsiz.

**Əli əl-Qari, *Şərhu'ş-Şifa***
ƏLİ əl-QARİ, Əbul-Həsən Nurəddin Əli İbn Sultan Məhəmməd, (1014/1606), *Şərhu'ş-Şifa*, Beyrut, Darul-Kutubil-İlmiyyə, Tarixsiz.

**Əbdurrəzzaq, *əl-Musannəf***
ƏBDURRƏZZAQ, İbn Həmmam, əs-Sən'ani (211/827), *əl-Musannəf,* (Nəşr: Həbiburrəhman əl-A'zami), I-XI, Beyrut, əl-Məclisul-İlmi, 1983.

**Əhməd ibn Hənbəl, *əl-Müsnəd***
ƏHMƏD, İbn Hənbəl (241/855), *əl-Müsnəd,* (Nəşr: Həmzə Əhməd əz-Zeyn), I-XX, Qahirə, Darul-Hədis, 1416/1995.

**Əhməd Şami, *Sübülül-Huda***
ƏHMƏD, ŞAMİ, Əbu Abdullah Şəmsəddin Məhəmməd İbn Yusif İbn Əli, (942/1536), *Sübülül-Hüda vər-Rəşad fi Sirəti Xayril-İbad*, (Təhqiq; Mustafa Abdulvahid), Qahirə, Vizarətul-Əvqaf vəş-Şuunil-İslamiyyə, 1990.

**Əbu Ya'la, *əl-Müsnəd***
ƏBU YA'LA, Əhməd İbn Əli əl-Müsənna əl-Mosuli, *Müsnədu Əbi Ya'la əl-Mosuli*, (Təhqiq; Hüseyin Səlim Əsəd). Dəməşq, Darul-Mə'mun lit-Turas, 1984.

**Əzraqi, *Əxbaru Məkkə***
əl-ƏZRAQİ, Əbul-Vəlid Məhəmməd İbn Abdullah, (250/865), *Əxbaru Məkkə və ma caə fihə minəl-asar*, (Təhqiq: Rüşdi əs-Salih Məlhəsə), Beyrut, Darus-Səqafə, 1979.

**Fakihi, *Əxbaru Məkkə***
FAKİHİ, Əbu Abdullah Məhəmməd İbn İshaq İbn əl-Abbas, (272/885) *Əxbaru Məkkə fi Qadimid-Dəhr və Hadisih*, (Təhqiq; Əbdülməlik İbn Abdullah İbn Dehiş), Məkkə, Matbaatun-Nahdatil-Hadisə, Tarixsiz.

**Hakim, *əl-Müstədrə*k**
HAKİM, ən-Nisaburi (405/1014), *əl-Müstədrək ələs-səhihayn,* I-IV, Heydərəbad, Darul-Kutubil-İlmiyyə, 1915.

**Heysəmi, *Məcməuz-Zəvaid***

əl-HEYSƏMİ, Nurəddin Əli İbn Əbi Bəkir (807/1405), *Məcməuz-zəvaid və mənbəul-fəvaid*, I-X, Beyrut, Darul-Kitabil-Arabi, 1967.

**Xuzai, *ət-Təxric***
XUZAİ, Əbul-Həsən Əli İbn Məhəmməd İbn Əhməd əl-Əndəlusi, (789/1387), *Təxricud-Dəlalətis-Səm'iyyə*, (Təhqiq: Əhməd Məhəmməd Əbu Səlame), Qahirə, Vizarətul-Əvqaf, 1981.

**İbnul-Əsir, *Usdul-Ğabə***
İBNUl-ƏSİR, İzzəddin Əli İbn Məhəmməd (630/1233), *Usdul-ğabə fî marifətis-səhabə*, (Nəşr: Məhəmməd İbrahim Bənna), I-VII, Qahirə, Daruş-Şə'b, 1390-93/1970-73.

**İbn Macə,**
İBN MACƏ, Məhəmməd Yezid əl-Qəzvini (273/887), *Sünənu İbn Macə,* (Nəşr: Məhəmməd Fuad Əbdülbaqi), I-II, (Daru İhyai Turasil-Arabi).

**İbn Kəsir, *əl-Bidayə***
İBN KƏSİR, Əbul-Fida (774/1373), *əl-Bidayə vən-nihayə,* I-XIV, Beyrut, Məktəbətul-Məarif, 1981.
**İbn Kəsir, *əs-Sirə***
---------- *əs-Sirətun-nəbəviyyə*, (Nəşr. Mustafa Abdulvahid), I-IV, Beyrut, Darul-Marifə, 1396/1976.

**İbn İshaq, *əs-Sirə***
İBN İSHAQ, Məhəmməd İbn İshaq İbn Yəsar (150/768), əs-*Sirə*, Konya, əl-Vəqf lil-Xadəmətil-Xayriyyə, 1401/1981.

**İbn Hişam, *əs-Sirə***
İBN HİŞAM, Cəmaluddin Əbdülməlik (213/829), *əs-Sirətun-Nəbəviyyə,* (Nəşr, Süheyl Zəkkar), I-II, Beyrut, Darul-Fikr, 1412/1992.

**İbn Həcər, *əl-İsabə***
İBN HƏCƏR, əl-Əsqalani (852/1448), *əl-İsabə fî təmyizis-səhabə,* I-IV, Bağdad, Matbaatus-Səadə, 1328.

**İbn Həbib, *əl-Mühəbbər***
İBN HƏBİB, Əbu Cə'fər Məhəmməd (245/860), *Kitabul-muhabbər*, (Nəşr: Ilse Lichtenstadter), Beyrut, Mənşurat Daril-Afaqil-Cədidə.

**İbn Əbi Şeybə, *əl-Musannəf***
İBN ƏBİ ŞEYBƏ, Əbu Bəkir (235/850), *əl-Musannəf fil-əhadis vəl-asar*, (Nəşr: Kamal Yusuf Hut), I-VII, Beyrut, Darut-Tac, 1989.

**İbn Əbdülbər, *əl-İstiab***
İBN ƏBDÜLBƏR, ən-Nəməri (463/1071), *əl-İstiab fi marifeti'l-ashab*, (Nəşr: Əli Məhəmməd Bicavi), I-IV, Qahirə, Daru Nahdati Mısr, 1969.

**İbn Əsakir, *Tarixu Dəməşq***
İBN ƏSAKİR, Əbul-Qasım Əli İbn Həsən İbn Hibətullah (571/1175), *Tarixu mədinəti Dımaşq*, (Nəşr: Muhibbuddin Əbu Səid Amrəvi), I-LXXIV, Beyrut, Darul-Fikr, 1415-1421/1995-2001.

**İbn Sə'd, *ət-Təbəqat***
İBN SƏ'D, *ət-Təbəqatul-Kubra*, I-VIII, Beyrut, Daru Sadır, Tarixsiz.

**İbn Qəyyum əl-Cövziyyə, *Zadul-Məad***
İBN QƏYYUM, əl-Cövziyyə, *Zadul-Məad fi Hədyi Xayril-İbad*, Beyrut, Müəssəsətur-Risalə, 1408.

**İbnul-Cövzi, *əl-Vəfa bi-əhvalil-Mustafa***
İBNUL-CÖVZİ, Əbul-Fərəc Cəmaləddin Abdurrəhman İbn Əli, (597/1201), *əl-Vəfa bi ahvalil-Mustafa*, (Təhqiq: Mustafa Abdulvahid), Beyrut, Darul-Marifə, 1966.

**İbn Hibban, *əs-Səhih***
İBN HİBBAN, Əbu Hatim Məhəmməd İbn Hibban İbn Əhməd ət-Təmimi, (354/965), *Sahihu İbn Hibban*, (Təhqiq; Şueyb Arnaut), Beyrut, Müəssəsətur-Risalə, 1984.

**Kastalani, *əl-Məvahibu'l-Ləduniyyə***
KASTALANİ, Əbul-Abbas Şəhabəddin Əhməd İbn Məhəmməd, *əl-Məvahibul-Ləduniyyə bil-Minahil-Muhammədiyyə*, (Şərh: Mahmud Əbdülbaqi, Tərcümə; İhsan Uzungüngör), İstanbul, Hikmət Qazeteçilik, 1972.

**əl-Kilai, *əl-İktifa***
əl-KİLAİ, Əbur-Rəbi Süleyman İbn Musa, (634/1237), *əl-İktifa bi tazammənəhu min məğazi Rəsulillah və səlasətul-xuləfa*, (Təhqiq: Kamaləddin İzzəddin Əli), Beyrut, Aləmul-Kutub, 1997/1417.

**Kəttani, *ət-Təratibul-İdariyyə***
KƏTTANİ, Məhəmməd Əbdülhey İbn Əbdülkəbir İbn Məhəmməd. (1382/1962). *Həzrəti Peyğəmbərin Yönətimi*, (Tərcümə: Əhməd Özəl), I-II, İstanbul, İz Yayınçılıq, 2003.

**Qazı İyaz, *Şifayi Şərif***
QAZI, İyaz, *əş-Şifa bi Tariqil-Mustafa*, (Tərcümə: Naim Ərdoğan-Hüseyn S. Ərdoğan), İstanbul, Çilə Yayınevi, 1977.

**Qəzzali, *İhya***
QƏZZALİ, Hüccətul-İslam Zeynuddin, (505/1111), *İhyau Ulumid-Din*, (Tərcümə: Əhməd Sərdaroğlu), İstanbul, Bədir Yayınevi, 1975.

**Makrizi, *İmtaul-Əsma***
əl-MAKRİZİ, Təqiyyudin (845/1442), *İmtaul-əsma bima lin-nəbiyyi minəl-ahvali vəl-əmvali vəl-hafadati vəl-mutlai*, (Nəşr. Məhəmməd Əbdülhəmid ən-Nəmis), I-XV, Beyrut, Darul-Kutubil-İlmiyyə, 1999/1420.

**Safədi, *əl-Vafi***
SAFƏDİ, Əbus-Safa Səlahəddin Xəlil İbn Aybək İbn Abdullah, (764/1363), *əl-Vafi bil-Vefəyat*, Nəşriyyatul-İslamiyyə, 1988/1408.

**Məs'udi, *Murucuz-Zəhəb***
MƏS'UDİ, Əbul-Həsən Əli İbn Hüseyin İbn Əli, (345/956), *Murucuz-Zəhəb və Məadinul-Cövhər*, (Təhqiq: Məhəmməd Muhyiddin Əbdülhəmid), əl-Məktəbətut-Ticarətil-Kubra, 1964.

**Müslim**
MÜSLİM, Əbul-Hüseyn İbn əl-Həccac əl-Kuşeyri (261/875), *Səhihu Müslim*, I-V, Qahirə, Daru İhyai Kutubil-Arabi, 1955.

**Münavi *Feyzul-Kadir***
əl-MÜNAVİ, Abdurrauf (1031/1622), *Feyzul-kadir şərhul-Camiis-sağir*, I-VI, Beyrut, Darul-Marifə, Tarixsiz.

**Nəsai**
ən-NƏSAİ, Əbu Abdurrahman Əhməd İbn Əli İbn Şueyb (303/915), *əs-Sünənul-Kubra,* (Təhqiq: Abdulğaffar Süleyman əl-Bundari-Seyyid Kusrəvi Həsən), I-VI, Beyrut, Darul-Kutubil-İlmiyyə, 1411/1991.

**Suheyli, *ər-Rövzul-Unf***
əs-SUHEYLİ, Əbdurrahman (581/1185), *ər-Rövzul-unf fi şərhis-Sirətin-nəbəviyyəti li-ibni Hişam*, (Nəşr; Əbdurrahman əl-Vəkil), I-VII, Qahirə, Darun-Nasr lit-Tıbaa, 1967.

**Suyuti, *Əvsafun-Nəbi***
əs-SUYUTİ, Əbul-Fəzl Cəlaləddin Abdurrəhman İbn Əbu Bəkir, *Zəhrul-Xamair aləş-Şəmail (Əvsafun-Nəbi),* (Təhqiq: Mustafa Aşur), Qahirə, Məktəbətul-Qur'an, Tarixsiz.
**Suyuti, *Camiul-Əhadis***
-------- *Camiul-Əhadis,* (Təhqiq; Əbülhəlim Mahmud, Əhməd Abbas Saxr, Əhməd Əbdülməcid), Matbaatu Xattab, Tarixsiz.
**Suyuti, *əl-Ləalil-Masnua***
-------- *əl-Ləalil-Masnua fi əhadisil-Mövzua*, (Təxric; Əbu Abdurrəhman Salah İbn Məhəmməd İbn Uveyza), Beyrut, Darul-Kutubil-İlmiyyə, 1996/1417.

**Təbərani, *əl-Mu'cəmul-Kəbir***
ət-TƏBƏRANİ, Süleyman İbn Əhməd (320/971), *əl-Mu'cəmul-kəbir*, (Nəşr: Həmdi Əbdülməcid Sələfi), I-XXV, Beyrut, Daru İhyait-Turasil-Ərəbi, Tarixsiz.

**Təbəri, *Tarix***
ət-TƏBƏRİ, Əbu Cə'fər İbn Cərir (310/923), *Tarixul-ümən vəl-muluk*, (Nəşr: Məhəmməd Əbul-Fəzl İbrahim), I-XI, Beyrut, Daru Süveydan, 1967.

**Tirmizi**

ət-TİRMİZİ, Məhəmməd İbn İsa İbn Sevrə (279/892), *Sünenut-Tirmizi*, (Nəşr: Məhəmməd Fuad Əbdülbaqi), I-V, 1396/1976.
Tirmizi, ***Şəmaili Şərif***
--------- *Hadislerle Peygamberimizin Güzel Ahlakı (Şemail-i Şerif)*, (Tərcümə: Xoca Raif Əfəndi, Sadələşdirən: Mahmut Özakkaş), İstanbul, Hisar Yayınevi,1984.

**Vaqidi, *əl-Məğazi***
əl-VAQİDÎ, Məhəmməd İbn Ömər (207/823), *əl-Məğazi,* (Nəşr: Marsden Jones), I-III, Beyrut, Alemul-Kutub, 1404/1984.

**Yaqubi, *Tarix***
YAQUBİ, İbn Vazih Əhməd İbn İshaq İbn Cə'fər, (292/905), *Tarixi Yaqubi*, Beyrut, Daru Sadır, Tarixsiz.

**Zəhəbi, *Siyər***
əz-ZƏHƏBİ, Şəmsuddin Məhəmməd İbn Əhməd (748/1347), *Siyəru a'lamin-nubəla*, (Nəşr: Şueyb Arnaut), I-XXIII, Beyrut, Müəssəsətur-Risalə, 1401-1405/1981-85.

**Walter Hinz, *İslamda Ölçü Sistemləri***
WALTER, Hinz, İslamda Ölçü Sistemləri, (Tərcümə: Acar Sevim), İstanbul, Mərmərə Universiteti Yayınları, 1990.